**İLHAM RƏHİMLİ**

# AZƏRBAYCAN TEATR TARİXİ

D ə r s l i k

Dərslik Azərbaycan Respublikası
Təhsil Nazirliyinin 1 noyabr
2004-cü il tarixli 816 saylı
əmri ilə təsdiq olunub

**ÇAŞIOĞLU**
**2005**

Elmi redaktor: **Timuçin Əfəndiyev**
filologiya elmləri doktoru, professor

Rəyçilər: **Nizaməddin Şəmsizadə**
filologiya elmləri doktoru, professor

**Məryəm Əlizadə**
sənətşünaslıq doktoru, professor

**Rafiq Sadıqov**
sənətşünaslıq namizədi, professor

**R 55. İlham Rəhimli**. Azərbaycan teatr tarixi.
Bakı: Çaşıoğlu, 2005 - 864 s.

© "Çaşıoğlu nəşriyyatı", 2005

**Azərbaycan teatr tarixi milli teatrşünaslıq elmimizdə ilk dəfə belə monumental və fundamental şəkildə araşdırılıb. Müəllif kökü eramızdan əvvəllərə gedib çıxan xalq oyun-tamaşalarından tutmuş çağdaş teatr prosesinə qədər böyük bir dövrü əhatə edib.**

**Kitabda həmçinin Tiflis, İrəvan, Aşqabad və Təbriz şəhərlərində fəaliyyət göstərmiş Azərbaycan teatrlarının tarixi də bölmə-bölmə araşdırılıb. Onlarla dramaturqun və teatr xadiminin yaradıcılıq portret-oçerkləri zəngin faktlarla işlənilib.**

# MİLLİ "OYUN" MƏDƏNİYYƏTİ

Hələ insanlarda dil ünsiyyəti yaranmamışdan milyon-milyon illər əvvəl adamlar "danışan" hərəkət oyunları toplusuna malik olmuşlar. Dünyanın hər dörd cəhətindəki müxtəlif təbiətli məkanlarda yaşayan ilk ibtidai insanlar ən uzağı qonşu qəbiləni tanıyırdılar. Ancaq bu gün elm sübut edib ki, bir-birlərindən xəbərsiz olsalar da, onların hərəkət "oyunları" ilə "danışmalarında" bənzərlik, eynilik həddindən artıq çoxdur.

İnsanların ov ovlamaları, quş quşlamaları özü böyük bir oyun idi. Ova çıxanlar hərəsi bir səmtdə, gizləndikləri yerdə hərəkətlərlə "danışır", özləri də düşünmədən oyun anlamının ifadə vasitələrini zənginləşdirirdilər. Amerika qitəsində hindu tayfaları, Afrikada cəngəllik sakinləri, Asiyada çinlilər, Subyerdən (Sibirdən), Altaydan üzü Xəzərə (Xas ər, Xəzər dənizi) bütün ər türklər... bir-birindən xəbərsiz olublar və bu, şəksizdir. Amma onların hamısı ovu böyük oyun ritualında icra ediblər:

vəhşi heyvanın dərisinə bürünüb əllərindəki ibtidai silahlarla onu öldürmək üçün şlkara yaxınlaşıblar;

hərə öz yurdundakı quşun səsini çıxartmaqla tələ qurub, ov gözləyib;

ovlanan qida qənimətinin dövrəsmdə hərəkət oyunları göstərilib. Həmin oyunlar ritual səciyyəsi daşıyıb.

Sirri-xuda kimi qəbul etdiyimiz təbiətin özü oyundur: gecəsi var, gündüzü var, qarı var, yağışı var, zəlzələsi var, vulkanı var, ruzigarı var, dumanı var, çəni var... Deməli, təbiətin özü ən böyük, ən qüdrətli oyunbazdır. Dahi Vilyam Şekspir də deyib ki, bütün insanlar aktyordurlar. (Aktyor sözü fransızca "aqteuar", "aqtor" sözlərindəndir. Mənası ifaçı, oyunçu deməkdir).

Minilliklərdən üzü bəri gəldikcə insanlar dərk ediblər ki, od-ocaq, ocağa bağlılıq isə oturaq həyat deməkdir. Odu işıq kimi qəbul etmək Günəşə sitayişin rəmzidir və dünyanın, istisnasız olaraq, bütün xalqlarının onunla bağlı oyunları və mərasimləri mövcuddur.

Qədim türk inanclarına görə çirki üç şey təmizləyə bilər: Su, Od, Torpaq. Ayrılıqda bunların üçü ilə də bağlı müxtəlif türk xalqlarında oyunların olduğu bəllidir.

Dünyanın olum-ölüm gərdişində əbədiyyət, əbədiyyətdə və ruhların ölməzliyində tarixin dairəvi hərəkəti, hərəkət dairəsində Günəşin rəmzi var. Türklər öz miflərində, əsatirlərində, həyat tərzlərində bu təfəkkür dərkinin onlarca oyununu yaradıblar və yaşadıblar.

"Ölüm" anlayışında həyatın səngiməz inkişafı var və bu, nəsil əvəzetmələrində davamlılıq yaradır. Davamlılığın bir qolu da toydur ki, dünya xalqlarının bütün dinlərdən əvvəlki toy mərasimləri özü möhtəşəm oyun olub. Əvvəlcə yalnız söz və hərəkətlə qurulan oyunlar milyon-milyon illər keçdikcə musiqiylə, sözlə yeni formalarda düzənləniblər.

"Ölüm" torpaqdan doğulanın torpağa qayıtması, ruhların səmaya qovuşması kimi qəbul olunub. Şərqli, qərbli, cənublu, şimallı insanlar düşüncə, təfəkkür ilə deyil, yaslamaları təhtəlşüur oyunlama tərzində yaşadıblar. Bunlardan da biri qədim türklərdə "Yuğ" mərasimi adlanıb.

Şərqdə sehrbazlıq, hipnozçuluq, hoqqa göstərib "möcüzə" çıxarmaq Antik yunan teatrından min-min illər əvvəl də olub. Həmin oyunların oyunçuları, oyunçuların da tamaşaçıları, oyunbazlığın isə çıxarılma yerləri vardı.

Osmanlı alimi Türhanın fikrincə, Dionisin keçi mərasimi kiçik Asiyadan gəlir. Burada da onun anlayışı bağlanır torpağa, oda, suya və bir də oturaq həyata.

Dionis bayramları qədim Romada keçirilən Vakx mərasiminə çox bənzərdir. Dionis yunan mifologiyasında bitki Allahı, üzümçülük və şərabçılıq hamisidir. Əsatirə görə, Dionis baş Allah Zevsin və Fiya padşahı Kabının qızı Semelanın oğludur.

Eramızdan əvvəlki VI-IV əsrlərdə təşəkkül tapmış Dionis bayramları, əsasən, dörd tipdə olub.

**Böyük (yaxud şəhər) Dionis bayramı.** Mərasim mart ayının sonunda və aprel ayının əvvəlində keçirilib.

**Leneylərin Dionis bayramı**. Şənlik yanvarın sonunda və fevralın əvvəlində düzənlənib.

**Antesterilərin Dionis bayramı**. Bu bayram fevralın sonunda və martın əvvəlində qeyd edilib.

**Kiçk (yaxud kənd) Dionis bayramı**. Təntənə dekabrın sonunda və yanvarın əvvəlində göstərilib.

Elm onu da sübut edib ki, insanlar dörd milyon il bundan əvvəl heyvanlar içərisində ilk dəfə keçini əhliləşdiriblər. Elm dönə-dönə bunu da sübut edir ki, ana südünə ən yaxın olanı məhz keçi südüdür. Dünya xalqlarının oyunlarının əksəriyyəti keçi ilə bağlıdır. Azərbaycanın oyun qəhrəmanları arasında keçi obrazı ilə rəqabətə yalnız kosa personajı girə bilər.

Oyunun türkdilli xalqlarda etimologiyasma toxunmazdan əvvəl, dünyada bu anlama müxtəlif estetik və fəlsəfi münasibətlərinin bəzi məqamlarına nəzər yetirmək səmərəli olar.

İyirminci əsrin görkəmli tarixçisi və mədəniyyətşünası, Hollandiya alimi Yohan Heyzinqa dünya humanist düşüncəsinin nadir əsərlərindən sayılan "Homo Ludens" ("Oynayan insan") kitabında oyun fenomenini, onun anlayış və stixiyasını, funksiyasını, əhəmiyyətini ətraflı təhlilə çəkib. Mütəfəkkirin düşüncə zəncirbəndi "oyun mədəniyyətdən qədimdir" postulatından başlayır. Onun qənaətinə görə, oynamaq meyili yalnız insanlara deyil, heyvanat aləminə də xas olan tələbatdır. Əsatirlər, mərasimlər, ayinlər daha sonralar yaranıblar.

Bu fikri açıqlayan alim göstərir ki, əsatir və mərasimin bətnində mədəni həyatın böyük aparıcı qüvvələri mayalanır.

Ilk növbədə də hüquq və asayiş, ünsiyyət və işgüzarlıq, əsnafçılıq və incəsənət, şeiriyyət, savad, elm. Beləliklə, bütün bunlar öz kökləri ilə oyun tədbirlərindən şirələnirlər.

Oyun nıədəniyyətinin mühüm mərhələsindən olan bayram, şənlik, qutlama, şərəfləndirmə tədbirlərinə nəzər yetirən alim bu olaylarda da oyunun ilkinliyini xüsusi vurğulayır.

İlahi, sehrli mistik məzmunlu bayram şənliklərinin daxili quruluşlarında maraqlı oyun əlamətləri var. Mərasim keçirən insanlar sövq-təbii duyublar ki, onlar öz oyunları ilə müəyyən müqəddəs xeyri (qutu) həyata keçirirlər, ali dəyərlərlə özlərinin var olmalarını təsdiqləyirlər. Bütün oyunlar şən olur, sərbəst şəkildə, lakin bayram ovqatında baş verir. Ayrı-ayrı ayinlər bəzən qanlı olsa da, mənəvi sınaqlar sərt və qəddar görünsə də, oyunçuların istifadə etdikləri maskalar dəhşət doğursa da, bütün görüntülər bayram ovqatı ilə bağlanır. Həmin məqamda insanların adi həyatı bitir, ruhlarda, daxili ehtiraslarda dərkolunmaz səmaviliyə tapınmaq duyğusu güclənir.

Ciddilik oyunun antonimi deyil. Hələ Aristotel eramızdan əvvəl söyləmişdi ki, "ciddi olmaq istəyirsənsə, oyna". Oyunun tərsi, antonimləri mədəniyyətsizlik, barbarlıq, cəhalətdir. Çağdaş dünyanın bütün inkişaf etmiş, sivilizasiyanın yüksək pilləsində duran milli mədəniyyətlərin, istisnasız olaraq, hamısı ibtidai, əski oyunlardan faydalanmaq mərhələsini keçmişlər.

İnsanlar hələ dil ünsiyyətinə yiyələnməmişdən əvvəl təbiətlə "olum, ya qalım" cənginə giriblər. Girdikcə də mühitlə əlaqələri dərinləşib, müəyyən dərketməyə yiyələniblər. Bunlar da, əsasən, insan və təbiət, insan və ov (quş, heyvan, yırtıcı...) oyunları əsasında intişar tapıb. Nəticədə də teatr ünsürlü tamaşalar doğulublar. Həmin tamaşalar isə müxtəlif mənalar, müxtəlif estetik səciyyələr kəsb ediblər. Eyni zamanda insanlar dərkolunmaz təbiət hadisələrini fövqəlbəşərləşdirərək, ilahiləşdirərək ona tapınmğı ehtiva edən mərasim oyunları yaradıblar.

Dünya elmi dönə-dönə sübut edib ki, eramızdan əvvəl yaşamış Pifaqor, Demokrit, Aristotel, Platon kimi dühalar "Avesta" təlimini dərindən öyrənmişdilər və onun mahiyyətini idraki təfəkkürlə mənimsəmişdilər. Xalqımızın milli-dini mədəniyyət abidələrindən olan, Zərdüştiliyi təbliğ edən "Avesta"nın Yasna, Qat, Yast kimi bəhslərində oyun tamaşanın güclü estetik prinsipləri, əlvan

formaları mövcuddur. Burada xor, xoreoqrafiya, rəqs, danışıq məharəti, pantomima vərdişləri ahəngdar sintezdə birləşib.

Azərbaycanlıların məskunlaşdıqları ərazilərdə mədəniyyətin təşəkkül yollarını izləyən ingilis alimi Riçard Fray eramızdan əvvələ istinad edərək yazırdı ki, Persepolda və onun ətrafında yeni illə bağlı bayram şənlikləri və başqa təntənələ keçirilib. Tədqiqatçı onu da qeyd edir ki, müsəlman məscidinin əzəmətli ibadətgah yeri qədim Suzdakı möhtəşəm Appadan sarayının əzəmətli salonunun prototipidir.

Təxti-Cəmşidin Appadan salonundakı rəsmlərində musiqiçilərin, oyun-tamaşaların da təsvirləri vardır. Qeyd edim ki bu salonun, bütövlükdə Persopolun tikintisində həm Midiyanın, həm Lidiyanın, həm də Misirin, Hindistanın və başqa ölkələrin ustaları fəal iştirak etmişlər. Təbii ki, gəldikləri öikənin mədəniyyətinə bələd olmayan ustalar burada dünya şedevrlərini yarada bilməzdilər. Üstəlik də, həmin memar və ustalar görüb-götürdükləri oyunların elementlərini öz vətənlərinə aparınışlar. Filosof Hegel estetikaya aid mühazirələrində qəti hökm verirdi ki, Antik Yunanıstanda keçirilən Dioni şənliklərindəki şən xor, fallik mahnılar bu məmləkətə məhz Şərqdən keçib.

Dünyanın ən qədim elm qaynaqlarında türk dilində işlənən "oyun", "oyun babası" sözlərinə rast gəlinir. Görkəml alim Mirəli Seyidovun elmi qənaətlərinə görə, oyun sözü türk dilli xalqların mifoloji, qam-şaman görüşləri, mərasim meydan tamaşaları ilə bağlıdır. Bir çox xalqlar, o cümlədən altaylar, qırğızlar və başqırdlar qam-şamana və onun keçirdiyi ayinə oyun demişlər. Unutınayaq ki, xalq şam-qamanı ağıl və zəka sahibi kimi qəbul edirdi. Çalmağı, plastik, ecazkar hərəkətlərlə rəqs etməyi, sehrli oxumağı, loğınanlığı, cadukünlüyü məharətlə bacaran şam-qamanın (və ya qam-şamamın) hörməti el müdriki səviyyəsində möhtərəm tutulurdu.

Buna görə də, müxtəlif xarakterli mərasimlərdə, meydan oyun-tamaşalarında bütün göstərilənləri düzənləyənə oyunbabası (oyun babası) deyirmişlər. Çağdaş teatr deyimində rejissor (latınca mənası "leqo" sözündən götürülüb və fransız dilində formalaşıb. Mənası idarə etmək, müəyyən səmtə yönəltınəkdir), adlandırılan oyunbabası mərasimin ağsaqqalı, elin müdrik adamı sayılıb, ehtiramı uca tutulub.

Yuğ oyun-tamaşalarının formalaşmasında, kütləviliyində, özünün estetik prinsiplərini, poetika göstəricilərini cilalamasında oyun babalarının böyük xidməti olub. Türkdilli xalqlarda yuğ sözünün, onun fonetik variantlarının matəm, qəbir, ölü basdırmaq mərasimi və sairə bu kimi mənaları vardır. Bu sözə islamdan əvvəlki yüzilliklərin abidələrində, "Gültəkin"də, Mahmud Qaşqaridə rast gəlinir. Hazırda Çində yaşayan türkdilli solarlar ölü üstündə söylənən ağıya, çəkilən yanıqlı bayatılara "uyğu" deyirlər.

Bir daha o fikrə gəlirəm ki, Azərbaycan türkləri həm müxtəlif mərasimlərlə, həm təbiətlə, həm məişətlə, həm də ölümlə bağlı çoxlu oyun-tamaşalar yaratmış və onu mədəniyyətimizin ayrılmaz bir qolu kimi inkişaf etdirmişlər. Bu inkişaf özünün fərdiliyini saxlamaqla yanaşı, dünya oyun mədəniyyəti prosesinin üzvi qolu olmuşdur.

Son qənaətdə qətiyyətlə deyə bilərəm ki, milli sərvətimizin mədəni qollarından biri də geniş kütləvilik qazanmış etno-mədəni oyun-tamaşalardır.

## XALQ OYUN-TAMAŞALARI

Açıq havada oynanılan, el-oba məskunlaşan yurdun mərkəzində, şəhər meydançalarında, karvansaraylarda, bazar içində, küçələrdə, kənd əkənək yerlərinin yanında göstərilən kütləvi xalq tamaşalarına ümumiləşdirilmiş şəkildə, sənət növü kimi "meydan teatrı" deyilir. Meydan teatrı xalqın mənəvi varlığını, idrakının təkamül mərhələlərini, dünyanın dərkolunmaz hadisələrinə münasibətini, əsatir və folklor mədəniyyətinin estetik prinsiplərini müxtəlif məzmun və formalarla təcəssüm etdirən oyun vasitələrinin, üslub və janrlarının bədii toplumudur.

Meydan tamaşalarını şərti olaraq dörd bölümə ayırmaq olar:

**mərasim və əsatir şənlik oyun-tamaşaları;**

**kütləvi həyat və məişət etno-mədəni oyun-tamaşaları;**

**əyləncəli səhnə oyunları;**

**mistik xarakterli şəbih tamaşaları.**

Azərbaycanda mərasim tamaşalarını ümumiləşdirib iki qismə bölmək olar: mövsümi mərasimlər və məişət mərasimləri.

Mövsümi mərasimlər yazın gəlişi, əkinin başlanması, məhsulun yığılması, elin-elatın yaylağa çıxması, qoyun qırxını ilə əlaqəlidir.

Məişət mərasimlərinə aşıq toyları, dərviş düyünləri, ölən igidlərin şəninə ağılar deyib, bayatı çağırmaq, yuğlama (ağlama) məclisi qurmaq, vəsfi-hal oyunları aiddir.

**Dodu-qodu**. Kütləvi xalq mərasimi tamaşalarından olan Qodu-qodu (Dodu-dodu da deyilir) yurdumuzda aramsız yağan, əkinə və biçinə ziyan vuran leysanlara son qoymaq məqsədilə keçirilirdi. Tamaşada qadın obrazını xatırladan xırdaca Kuklalar düzəldilirdi və ona "qodu" deyilirdi.

Bu, Günəş tanrısını, sonraki illər Günəşin özünü təmsil edirdi. Oyun iştirakçıları yağışa məhəl qoymadan qapı-qapı gəzərək qodunun şəninə nəğmələr oxuyur, tərifli sözlər deyir, onu vəsf edirdilər. Onları musiqiçilər müşayiət edirdilər. Qodunu qırmızı parçalarla bürüyürdülər və bu da Günəşin rəmzi kimi səciyyələnirdi.

**Kəvsər.** Qışı qorxutmaq, onun tufan-boranına hazır olmaq məqsədilə keçirilən el mərasiminə kəvsəc deyilib. Kəvsəc oyununun təşkilatçıları qışın mənfur obrazını canlı vermək məqsədilə ən bacarıqlı, çevik, çalıb-oxuyan, məzəli danışan təlxəyə cırcındır paltar geyindirir, onun üz-gözünü kömürlə, unla eybəcər hala salır və sonra da qatıra mindirib kəndi, obanı gəzdirirdilər.

**Cütçü şımıı**. Adından göründüyü kimi, bu mərasim sırf - əkinçiliklə bağlıdır. Ulu zamanlarda insanların torpağa ilahi varlıq kimi tapındıqlarını təcəssüm etdirib. Novruz bayramının torpaq çərşənbəsində icra olunan Cütçü şumu oyun-tamaşası yalnız əkənək torpağı bol olan kəndlərdə göstərilirdi. Mərasim cüt və kotanın vəsfi-halı kimi dəyərləndirilirdi. Adətən, ən bərəkətli əkin sahəsinin yanındakı meydançada keçirilirdi.

**Yel baba.** Bu oyun zəmilərdən taxıl biçilib xırmanlara toplanandan sonra keçirilirdi. Məqsəd taxıl sovurmaq naminə meh əsdirmək üçün Yel tanrısını köməyə çağırmaq olub. Mərasimdə "A yel baba, yel baba" nəğmə-gözəlləməsi xorla oxunardı. Mahnının ifaçıları nəğmədə oxunan sözlərin məna və məzmununu hərəkətlərlə də göstərməyə çalışardılar.

**Güdül.** Qodu-qodudan fərqli olaraq, bu mərasim tamaşası yağışı çağırmaq məqsədilə keçirilərdi. Kökü su tanrısına pərəstişlə bağlıdır. Əkinin torpaqda boy verib su istədiyi, ancaq havaların quraq keçən vaxtlarında icra olunub. İştirakçılar suyu vəsf edən nəğmələr oxuyar, yağışı çağıran bayatılar söyləyərdilər.

Kütləvi etno-mədəni oyun-tamaşaları xalqın təbiət hadisələrinə (Günəş, yağış, ildırım çaxması, doğum-ölüm və sairə) itaətkar, şüurlu münasibətləri, həyatı dərk etmək cəhdləri ilə bağlıdır.

**Yuğ.** Islamdan çox-çox əvvəl Azərbaycan ərazisində məşhur, şöhrətli, mərd xalq qəhrəmanlarının, el igidlərinin ölümü ilə bağlı keçirilən anmaq, xatırlamaq, onu vəsf etmək və sonda

mütləq ağlamaq mərasiminə yuğ deyilir. Yuğ toplantısı üçün camaat bir yerə cəm olurdu. Xüsusi qonaqlıq mərasimi düzəldilirdi, məclisə məşhur yuğçular çağırılırdı. Adətə görə yuğ mərasimini təqdim edən oyunçular beş dəstədən ibarət olurdular: qılıncoynadanlar, çalğıçılar, müğənnilər, ağıçı qadınlar və kişilər.

**Sayaçı.** Azərbaycanda sayaçı oyunu çox məşhurdur. Köçəri türk tayfaları, qoyunçuluqla məşğul olan elat camaatı, heyvandar tərəkəmələr arasında geniş yayılıb. Qoyunun yun qırxımı, döl və quzulama dövrlərində qoyunçular tərəfindən keçirilən kənd mərasimidir. Oyunçular şən bayatılar çağıra-çağıra, holavarlar söyləyə-söyləyə, mərasimə uyğun nəğmələr zümzümə edə-edə çıxışa hazırlaşırdılar. Geyim mərasimindən sonra sayaçılar şadlıq edən izdihamın dövrəsmdə yurdları gəzər, bərəkət, firavanlıq, halal ruzi olan qoyuna aid sayalar oxuyardılar.

**Qaravəlli.** Mahiyyəti və estetik tipi baxımından komediya tamaşasıdır. Orta əsrlərdə toy-nişan mərasimlərində, dastan-nağıl məclislərində qaravəllilər söylənilib. Əvvəllər varsaqlar, sonralar aşıqlar söylədikləri nağıl-dastanın arasında bir növ nəfəs dərmək, gərginliyi, psixoloji dramatizmi aradan götürmək üçün yumorlu hadisələr nəql edirdilər. Məzhəkə, məsxərə tipli bu söyləmələr qaravəlli adlanırdı. Əsrlər, qərinələr keçdikcə qaravəlli oyunu nağıl məclislərindən ayrılıb və müəyyən estetik göstəricilərlə səciyyələnən məzhəkə-oyun meydan tamaşasma çevrilib.

**Məzhəkə.** Xalq oyunlarının ən qədimlərindən biri də məzhəkədir. Formaca xalq tamaşalarının daha çeviki, bitkini olan məzhəkə tamaşalarının oyun prinsipi bilavasitə improvizəyə əsaslanır. Qaravəlli oyunlarından fərqli olaraq, məzhəkə tamaşalarında kobud, əndazəni aşan zarafatlara, şit atmacalı lağaqoymaya, intim epizodları qabartmağa üstünlük verilib. Məzhəkələrdə mənfi xarakterli insanlar, əməli qüsurlu adamlar, cəhalət, kütlük, mənəviyyatsızlıq, əxlaqsızlıq, cəmiyyətin kiçik qüsurları, həyat davranışındakı zahiri çatışmazlıqlar ifşa hədəfi seçilib.

**Məsxərə.** Mənşəcə Qədim saray tamaşaları ilə bağlı olan məzhəkəli oyun-tamaşa növüdür. Sonralar saray "çərçivəsindən" çıxaraq meydan tamaşası kimi geniş intişar tapıb, yeni inkişaf səmtinə düşüb, təzə ifadə vasitələri ilə zənginləşib. Məsxərə oyunları camaatın gur yığnaq yeri olan meydanlarda göstərilib. Eyni zamanda karvansaraylarda, aşxanalarda, hətta ev mərasimlərində də ifa olunub. Məsxərələrdə müxtəlif peşə sahiblərinin tipikləşdirilmiş, qroteskli hərəkətlərlə, satirik, hətta şit, açıq-üryan təhqirlərlə məişət koloriti aşılanmış tipik obrazları lağa qoyulub. Kənd yerlərində göstərilən belə tamaşalara l a ğ o y u n u da deyilib.

**Dərvişlik.** Mənası qapı atzında yatan, yoxsul, dilənçi deməkdir. Dərvişlik təxminən XI əsrdən başlayaraq Hindistanda, Pakistanda, İndoneziyada, İranda və Azərbaycanda geniş yayılıb. Tədricən sufi təriqətinin bir qolu kimi formalaşıb. ilk əvvəllər dərvişlər müxtəlif dini təriqətlərin təmsilçiləri və təbliğçiləri zəminində intişar tapıb. Get-gedə ölkələri, şəhərləri, kəndləri didərgin həyat tərzində gəzərək el arasında nağıl məclisləri quran nağılbaz-oyunbazlar kimi tanınıblar. Eyni zamanda zəhərli ilanlar gəzdiriblər, əqrəblər oynadıblar, gözbağlayıcılıq ediblər, ritmik hərəkət oyunları çıxarıblar. Onların göstərdikləri tamaşalara d ə r v i ş  m ə r ə k ə s i  deyilib.

Dərvişlər dəridən tikilən və ya qalın toxunuşlu parçadan saya paltar geyiniblər. Çiyinlərindən kəşkül asıblar, sağ qulaqlarında həlqəvari sırğa olub.

**Hoqqa.** Sözun mənası "sehrli qutu", sandıqça deməkdir. Sonralar müəyyən mürəkkəb oyunlar hoqqa adlanıb. El arasında ona g ö z b a ğ l a y ı c ı oyunu da deyilir.

Əyləncəli səhnə oyun-tamaşalarına aid olan oyunlar meydan teatrının yığcam, iştirakçısı az olan formasıdır. Onlardan ən məşhurlarının qısa şərhini nəzərdən keçirək.

**Lağlağı oyunu**. Bir ifacının göstərməsi olan bu oyun bəzən l a ğ o y u n u da adlanır. Xarakterlərinin mahiyyətinə görə məsxərə oyununa bənzəyir. İfaçı kənd arasında müəyyən xarakterik xüsusiyyətləri, davranış tərzi, geyim-kecimi, danışığı, görkəmi ilə fərqlənən bir şəxsi özünə "obyekt" seçib. Sonra onun komik obrazını tamaşaçılara təqdim edib. Bu oyun əyləndirmə və güldürmə xarakteri daşıyıb.

**Şəbədə.** Geniş yayılıb və xaraktercə, üslubca lağ oyununa yaxındır. Şəbədə oyunlarının mövzusu bilavasitə məişət hadisələrindən götürülüb. Kiçik və sadə süjetli əhvalat qəsdən

eybəcərləşdirilir. Fərd bəzən şit, təhqiramiz, bəzən isə sataşmaq, cırnatmaq məqsədilə həcv obyektinə çevrilir. Şəbədə oyunu kütləvi yığnaqlarda, toy-düyün şənliklərində göstərilib. Şux zarafata üstünlük verən şəbədələrdə yamsılama (parodiya) əsas götürülürdü.

**Lal oyunu**. Him-cimlə, plastik, zərif hərəkətlərlə, söz, danışıq ışlənmədən gostərılıb. Oyunçulara psıxolojı yardım etmək, hərəkətləri mənalandırmaq məqsədilə qara zurnadan, aşıq musiqisindən, təbildən, cüngdən istifadə olunub.

**Tənbəki oyunu.** Lağlağı el oyununa bənzəyir və onun bir növü kimi xarakterizə oluna bilər. Əsasən, kənd yerlərində oynanılan tənbəki oyununda tamaşanın əsasını camaata tanış olan, nə vaxtsa baş vermiş konkret hadisə təşkil edir. Oyun meydançada çıxarılır. İdeyası tərbiyəvi əhəmiyyət daşıyır, süjeti sadə olub, məzmunca didaktik ruhludur. El arasında ona t ö v b ə l ə t m ə o y u n u da deyilib.

**Kəndirbaz oyunu.** Oyun keçirmək üçün çataqlanmış ıki ağacın üstünə kəndir və ya sim çəkilir. Kəndirbaz ora çıxıb mürəkkəb hərəkətlər göstərir, qorxulu tryuklar edir. Onun yardımçısı keçəpapaq isə yerdə kəndirbazın hərəkətlərini "təkrarlayır". Onun gülməli hərəkətləri pantomima teatrının elementlərinə əsaslanır. Keçəpapaq tamaşaçılardan pul və ya pay yığmaq üçün yeri gələndə gülməli lətifələr söyləyir, qısa qaravəllilər danışır.

Kəndirbaz oyunları şəhər və bazar meydanlarında, kənd yerlərində, düzəngah çəmənlikdə, karvansaraylarda göstərilirdi.

Oyun-tamaşaların pantomim əsaslar (lal oyunu) üzərində qurulmuş çoxlu növləri var. Teatrallıq baxımından onların daha xarakteriklərinin qısaca şərhini vermək məqsədəuyğundur. Onların arasında ən çox yayılanı "Bağbelləmə"dir.

Onun bir və bəzən bir neçə ifaçısı olur. Oyunçu və oyunçular ifadəli və yığcam, az, lakin plastik, mənalı hərəkətlərlə təbiətdə yaz fəslinin nəfəsi duyulanda bağın bellənməsi prosesini göstərirlər. Zəriflik, dəqiqlik, məntiqlə, aydın ideya ilə yanaşı, Bağbelləmə oyununda mənalı və şux gülüşün olması da vacib saydırdı.

"Kaftarkus" oyunu da pantomim jestlərlə göstərilirdi. Burada iki obraz və iki ifaçı olurdu. Oyunçular ölünün dirilməsini, goreşənin hoqqalarını gülməli lal hərəkətlərlə çatdırırdılar.

"Kar toyu" oyununda ifaçının pantomim hərəkətlərini mütləq musiqi müşayiət edir, himcimə üstünlük verilirdi. Oyunun adındakı məna tamaşa göstərmənin məzmun mahiyyətini təcəssüm etdirir.

Heykəl, abidə mənası daşıyan "Mücəssəmə" lal oyununda, pantomima tamaşasında ağa və nökərin, kəndli və mülkədarın münasibətləri üzərində qurulmuş mövzu əsasdır. Mücəssəmə sadə süjetli, tərbiyəvi əhəmiyyətli və ifşa xarakterlidir. "Kor döyüşü"nün iki ifaçısı olur. Tamaşada, guya görməyən iki adi adamın çox gülməli və şit hərəkətlərlə bir-birini döyməsi, onların əl, ayaq savaşı, yaxa dartışması oyunçuların məharəti ilə göstərilir.

Lal oyununun (pantomimanın) heyvanlarla bağıı "Lökləmə", "Maral oyunu" adlı qısa tamaşaları da var. "Maral oyunu"nda iki nəfər həmin heyvanın dərisinə və ya xüsusi tikilmiş maral müqəvvası paltarına girərək maralın çəmənlikdə otlamasını, ilanla savaşını, balasını hansısa vəhşinin caynağından xilas etməsini tamaşaçılara çatdırır.

"Lökləmə"də isə yük altında olan dəvənin (lök, nər, maya...) hərəkət tərzi oyunçunun pantomim jestlərində təcəssüm tapır. Həmin oyuna "D ə v ə d a b a n ı" da deyilib.

Pantomima, lal oyunu tamaşaları həmişə qısa və lakonik süjeti, ideya məzmunu, forma yığcamlığı ilə xarakterik olub.

Pantomima tamaşalarına ə l-q o l ö l ç m ə, işarət oyunları da deyilib. Daha çox sifət ifadələri ilə, yəni him-cimlə göstərilən tamaşalar qaş-gözatına da adlandırılıb. Burada işvəli sifət cizgiləri, qaş-gözü mənalı oynatına, dodaqbüzınə, üztur-şutma vərdişlərinə yiyələnmək oyunçu üçün vacib sayılıb.

## OYUN-TAMAŞALARDA OBRAZLAR VƏ MASKALAR

Azərbaycanda müxtəlif maskalar ilk əvvəl ovçuluq əsatiri ilə bağlı meydana gəlib. Xalqımız eneolit və mezolit dövrlərində məişətdə maskalardan və müqəvvalardan istifadə ediblər. İbtidai insanlar ovlayacaqları heyvanın maska və müqəvvas;na "girərək" ovçuluq etmişlər. Bu hərəkət ov heyvanını ürkütməmək məqsədi güdürdü.

Əsatir mərasimlərində maskalar tanrını, əfsanəvi məxluqların sifətlərini, müqəddəs quş başlarını, totem sayılan heyvanları təmsil etmək üçün oyunçular üzlüklər (maskalar) - taxıblar.

Əsrlər keçdikcə maskalar bədii ifadə vasitələrinə çevrilmişdir. Xalq meydan tamaşalarında yumora, satiraya, məsxərəyə, bütövlükdə gülüşə müxtəlif çalarlar vermək, tipləri xarakterləşdirmək, tipajları qabartmaq üçün maskalardan istifadə edilib.

El arasında üzlük də deyilən maskalar çoxnövlü olub. Hər biri ayrılıqda müxtəlif səciyyəli həyat, məişət məsələlərini, təbiət hadisələrini, eybəcərliyi və gözəlliyi, xeyir və şəri, gücü və zəifliyi, sevinci və kədəri təmsil edib. Maskalar, ilk növbədə, tamaşaçılarda hadisə, obraz, mövzu və ideya barədə ilkin və aydın anlayış oyatınaq, onlara məlumat aşılamaq xarakteri daşıyıb. Bütün söylənilənlərdən o qənaət hasil olur ki, meydan teatrının öz estetikası, öz poetika prinsipləri, öz oyun-üslub parametrləri, səhnə-tamaşaçı nəzəri əsasları var.

**Kosa.** Xalq meydan tamaşalarının ən fəal, ən sevilən və ən çox oyunlarda iştirak edən personajı kosadır. Kəvsəc, kosa-kosa, Novruz mərasim şənliklərində, digər müxtəlif meydan tamaşalarında kosa həm hadisələrin mərkəzində duran, həm də süjet xəttinin əsasını təşkil edən obrazdır.

Qədim qam-şaman sənəti və ulu çağların inancları ilə də kosanın bağlılığı var. Xalq oyun-tamaşalarının bu ən qədim personajı bir müddət qocalmış Günəş tanrısının yer üzündə təmsilçisi obrazı kimi də verilib.

Hələ bizim eradan əvvəl Kosa köhnə ilin, qış fəslinin, həmçinin şərin, bəd əməlin, pis xarakterin timsalı, insana aclıq, yoxsulluq, səfalət, fəlakət gətirən obraz kimi qəbul olunub. Ona görə də mərasim və əsatir oyunlarında Kosanı qara rəngdə göstərirdilər. Bunun üçün qrim vasitəsi kimi hisdən, kömürdən, yandırılmış fındıq qabığının tozundan istifadə edilərək Kosa eybəcər, vahiməli, bədheybət görkəmə salınırdı.

Şərin rəmzi Apuş divi obrazı da bu minvalla oyun meydanına (səhnəyə) çıxarılıb.

Müəyyən zaman kəsiyindən sonra "Kosa oyunu"nda məişət hadisələri əsatir oyunlarını üstələyib. Nəticədə Kosanın gülərüzlü, zarafatcıl, xeyirxah sifətli maskaları meydana çıxıb.

Meydan tamaşalarinda, həmçinin Buğa, Keçi, Qoyun, Qurd, Keçəl, Qış, Yaz.. Kimi əsatir mənşəli maskalardan istifadə edilib.

Maska taxmaqda məqsəd obrazı aydın göstərmək, xeyrin şər üzərində təntənəsini, zülmün süqutunu, zəhmətin qələbəsini, idrakın nurunu... qabarıq vermək məqsədi daşıyıb. Bu baxımdan qışı qorxutmaq üçün icra olunan "Kəvsəc" oyun-tamaşası xarakterikdir.

Kosanın geyimində şaman libasmm rəmzi əlamətləri çoxluq təşkil edib. Keçəlin maskaları Keçədən, ya boz parçadan düzəldilirdi və ona Keçi saqqalı taxılırdı. Tamaşa vaxtı Kosaya eybəcər və gülməli görkəm vermək üçün oyunçu maskanı taxır və çiyninə tüklü dəri atır, belinə taxta xəncər qurşayırdı. Onun bir yanından süpürgə, o biri böyründən çömçə asılırdı. Kosa şiş, şüllə papağına zmqrov keçirir və sonra başına qoyurdu. Kosanın maskası uzunburunlu, ordu ordundan keçən, arıq üzlü olurdu.

Tamaşadakı bütün obrazların ifaçısı Kosa özü olanda o, müxtəlif maskalardan (xarakterlərdən) istifadə edib. Müdhiş görkəmli Qış, bərələ gözlü, fırıldaqçı ara həkimi, qorxunc üzlü, riyakar Qazı, ayağı ruzili və bərəkətli, xoşsima yaz, müdrik çöhrəli Aqil adam və bu kimi maskalardan Kosa-aktyor bacarıqla barınıb. Bununla da tamaşaya coşğun ritm, dinamik sürət, hərəkət çevikliyi gətirib.

Kosa bu ən müxtəlif maskaları, əsasən, belinə sarıdığı qurşaqdan sıra ilə asırdı. Ya da istifadə etdikdən sonra onları gərdək-pərdə arxasmdaki qulbeçəsinə (yardımçısına) verirdi.

"Kosa oyunu" maska tamaşasını bilavasitə hazırlayan və onu idarə edən ifaçıya Kosabaşı deyilib.

Bir əsrdən çoxdur ki, Novruzun baş personajı kimi, Kosa oyun iştirakçıları ilə birgə çalıb-oynayan, rəqs edən, şən və zarafatcıl nəğmələr oxuya-oxuya ev-ev gəzən məzəli, gülməli, xoş məramlı Komediya, məsxərə, məzhəkə obrazına çevrilib.

**Keçəl.** Kosadan sonra oyun-tamaşalarda ən fəal obraz Keçəldir. Yaranma kökləri İslamdan əvvələ, muğ (çağdaş deyimdə maq, Kahin) sənəti ilə bağlılığa gedib çıxır. Əsrlər ötdükcə xalqm əksər qaravəllilərinin, məzhəkələrinin diribaş, hazırcavab, sadəlövh görünən, lakin hər cür mürəkkəb vəziyyətlərdən dəyanətlə çıxan, təmiz qəlbli, xalqın sadə təbəqəsinin təmsilçisi, haqqın qoruyucusu, sirlərdən agah obrazı kimi sevimli tamaşa personajına çevrilib.

Keçəl obrazının ifaçısının vaxtilə iki əsas maskası olub.

Birincisi. Xalqın ideal və arzularının ifadəçisi, gücsüzlərin intiqamını zalımlardan alan fərasətli, cəsur, fəndgir, diribaş, ağıllı Keçəlin maskası.

İkincisi. Lovğa, təkəbbürlü, naqqal, qorxaq, heyvərə, fərasətsiz, əfəl, mayınaq Keçəlin maskası.

Keçəlin hər iki maskasma uyğun ayrıca geyim-kecimi olub. Onlardan oyun-tamaşaların məzmun və qayəsinə uyğun olaraq istifadə edilib.

İllər keçdikcə Keçəl maskası da aradan çrxıb. Oyunçu-aktyorlar bu obrazı maskasız ifa ediblər. İfaçı cındır, nimdaş libas geyinib. Qrim əvəzinə üzünü unlayıb, yaxud buna bənzər vasitələrlə çöhrəsmi gülünc doğuran şəklə salıb. Sallaq və uzun bığ yapışdırıb. Boynundan balqabaq asıb. Təbil və yaxud qaval gəzdirib. Oxumağı, ən müxtəlif kişi və qadim rəqslərini məzəli tərzdə oynamağı, zərb, simli və nəfəsli musiqi alətlərində çalmağı bacarıb.

Tədricən "Keçəl" sözü meydan tamaşalarının mahir ifaçısı, mərasim oyunlanının əsas personajı, meydan aktyoru anlamlarında da işlənilib.

Keçəl obrazının ifaçısı keçəllik əlaməti kimi ya başına tərsinə çevrilmiş qoyun qarnı keçirir, ya da başına ağ bez sarıyır və papağı da tərsinə qoyurdu. İndinin özündə də bu ün-sür qalmaqdadır.

**Keci.** Qədim zamanlarda Günəş tanrısının yerdəki totemi sayılıb. Zaman keçdikcə real obraz kimi əsatir və mərasim oyunlarının aparıcı iştirakçılarından olub.

Keçi rolunun (obrazının) ifaçısı yaxşı aşılanmış keçi dərisinə bürünürdü. Üzünə uzun və təbii keçi saqqalı yapışdırılmış maska taxırdı. Maskanın aşağı hissəsindən, saqqalın altından bağlanan torba üzüaşağı sallanırdı. Oyunçu çevik, cəld hərəkətlərlə keçi kimi atılıb-düşür, keçi kimi mələyir və bu kimi oyunbazlıqla obrazını canlı, cazibəli, koloritli verməyə səy göstərirdi.

Keçi obrazı müəyyən tarixi mənbələrdə "təkə" adı ilə verilib. Xalq arasında təkə sözü erkək keçiyə, dağ-keçisinə, vəhşi keçiyə deyilib.

**Keçəpapaq.** Kəndirbaz oyunlarında aşağıda məzhəkəli keçəpapaq hoqqalar çıxaran, qaravəlli söyləyən, məzəli, yumorlu gülməcələr danışan meydan aktyoruna verilən adlardan biri keçəpapaqdır.

Bu komik personaj qədim vaxtlarda oyun vaxtı keçədən hazırlanan papaq qoyurdu. Keçəpapaq üz maskası ilə bitişlk olurdu. Maska dəridən biçilib-kəsilirdi və keçinin görkəminə bənzədilirdi.

Yerindən və məkanından asılı olaraq, bəzən həmin üz maskasının təpəsinə buynuz da tikilirdi. Bundan gülməli süjetli hadisələrdə obraz kimi istifadə edilirdi.

Hazırda kəndirbazın yardımçısı olan keçəpapaq keçi dərisindən və ya şit, əlvan parçalardan tikilmiş, məzəli görkəmli paltar geyinir. Arxadan özünə eşşək quyruğu bağlayır, üst-başından zınqırovlar asır. Yaxalığına müxtəlif dualar tikir. Ayağına qalın və bəzəkli yun corab geyinir. Bəzən corabın üstündən şatırı çarıq da geyinir.

**Üzlük-niqab.** Bilavasitə şəbih tamaşalarında istifadə edilib. Müqəddəs dini şəxslərin (imamların, qadınların) obrazlarına girən ifaçıların üzlərini gizlətınək üçün istifadə edilən niqab bir qədər şəffaf, ağ parçadan hazırlanırdı.

Şəbih oyunçusu üzlük-niqabın altından ətrafdakıları, xüsusən tamaşa iştirakçılarını görə bilirdi. Lakin tamaşaçılar və bir qədər aralıda dayanan oyunçu yöndaşları niqab altında onun sifət cizgilərini görə bilmirdilər.

Üzlük-niqablara xalq arasında tutuq da deyilib.

Meydan tamaşalarında həmçinin bir sıra rəmzi mənalar daşıyan müxtəlif maskalar işlədilib.

**Buğa** maskası gücü və qüdrəti təmsil edib.

**Qoyun** maskası bərəkət rəmzi sayılıb.

**Yaz** maskası səadətin, sevincin, təzələnmənin rəmzi kimi qəbul olunub.

**Qış** maskası qorxu, ölümə məhkum obrazı kimi qavranılıb.

Cənubi Azərbaycanda maskadan istifadə edən meydan tamaşaları oyunçularına el arasında rübəndbaz deyiblər. Rübənd sözü fars dilində üz örtüyü mənasında işlədilir.

Oyun-mərasim maskaları forma baxıımından iki cür olub:

papağa bitişlk düzəldilən, başdan keçirilən və sifəti boyaboy örtən maskalar;

yalnız üzü tutan və sifətə taxılan maskalar.

Maskaların hazırlanma texnologiyaları və materialları müxtəlif olurdu.

Bir qrup maskalar başqa-başqa meyvə və bəzək ağaclarının qurudulmuş zərif qabıqlarından düzəldilirdi. Onların ömürləri az olurdu. Bir neçə tamaşadan sonra sınır və yaxud zay görkəmə düşüb sıradan çıxırdılar.

Başqa qisim, yəni nisbətən yüngül, ömrü uzun maskalar yaxşıca aşılanmış heyvan (öküz, keçi, dəvə, maral, əlik və sairə) dərilərindən hazırlanırdı. Onları saxlamaq, səyyar tamaşalar göstərmək üçün günlərlə bir məkandan başqa məkana gedəndə xurcun və sandıqçalarda qablaşdırmaq həm əlverişli, həm də asan idi. Onlara isti havalarda güvə düşməsin deyə, barxanaya qablaşdıranda yanlarına yovşan qoyurdular.

Maskaların daha dözümlüləri isə elastikliyini uzun müddət qoruyub saxlaya bilən ağacların gövdələrindən yonulurdu. Yonulub müxtəlif şəkillərə salınan maskaların keyfiyyətini uzun müddət qorumaq üçün onları oyun-tamaşalardan sonra xüsusi kətan və yaxud mahud parçalara bükürdülər.

İllər keçdikcə maskaların materialları və hazırlanma texnologiyaları sadələşdirilib. Bununla yanaşı, get-gedə qiymətli materiallardan imtina olunub. Bunun əsas səbəbi əsatir oyunlarının tədricən sıradan çıxması ilə bağlı idi.

Əsatirlə bağlı oyunlar azaldıqca, məişətdən doğan həyat hadisələri meydan tamaşalarının aparıcı mövzularına çevrilib. Bununla bağlı olaraq maskaların hazırlanma materialları da sadələşdirilib. Beləliklə, maskaların (üzlüklərin) hazırlanma prinsipində yüngüllük, rahatlıq, görkəmcə obrazlılıq və emosional duyğular oyatmaq ruhu əsas götürülüb.

## MEYDAN OYUNÇULARI

Müxtəlif tipli meydan tamaşalarının oyunçularına ayrı-ayrı dövrlərdə başqa-başqa da adlar verilib. Deyimləri fərqli olsa da, həmin sözlər daşıdıqları məna yükünə və bədii-estetik səciyyələrinə görə aktyor peşəsinin ayrı-ayrı məziyyətlərinə uyğundur. Meydan aktyoru gözəl rəqs edir, mürəkkəb akrobatik hərəkətlər göstərir, gözbağlayıcılığı bacarır, aydın tələffüzlə danışır, him-cim ustası olur, az sözlə və mənalı "xəsis" hərəkətlə çox mətləbləri açıqlaya bilirdi.

Şamaxı, Təbriz, Qarabağ, Makul, Naxçıvan, Şəki bəyləri aktyor və rəqqas dəstələri saxlayıblar. Şahlıq dövründə saray aktyorlarına yaşlı sənətçilər rəhbərlik ediblər. XII əsrdə Azərbaycanda Şeyx Kərim adlı məşhur gülüş ustası olub.

Meydan oyunçularına (aktyorlarına) verilmiş adlardan bir neçəsini ayrıca qeyd etmək lazımdır.

* * *

**Mütrüb**. Bu söz məna və mahiyyətcə əyləndirən, könülaçan kimi yozulur. Ərəb dilində "çalğıçı, sazəndə, rəqs edə-edə mahnı oxuyan, qız paltarında toylarda oynayan oğlan" mənaları var. Xalq deyimlərində həmin sözün mütrib, mütrüf, mütrüp tələffüzləri də var.

Mütrüb sözü lap qədim dövrlərdə Azərbaycan ərazisindəki dini məbədlərdə lüt, əksər hallarda yarımçılpaq görkəmdə rəqs edənlərin adları ilə bağlıdır. Eyni zamanda lal oyunu (pantomima) ifaçısının adı ilə də əlaqəlidir. Eramızın XXI əsrlərindən başlayaraq, təxminən beş yüz il sözü rəqs edə-edə oxuyan şərqiçilərə, həmçinin çalğıçılara, aşıqlara, nəqqallara (nağıl danışan ifaçılara) da mütrüb deyilib.

XIX əsrdən etibarən toylarda, el şənliklərində, qapalı əyləncə mərasimlərində incə, zərif bədənlərinə qadın paltarı geyinib rəqqaslıq edən oğlanlar mütrüb adı ilə çağırılıblar.

Rəqqas mütrüb uzun saç buraxır, dırnaqlarına xına yaxır, gümüşdən belbağı, sinəbənd taxır, boynundan həmayil asır, dikdaban ayaqqabı geyinirdi. Barmaqlarına taxdığı mis halqalarla musiqinin ritmini tutan mütrüb tamaşaçılara işvə, naz atır, danışmadan erotik ruhlu qaş-göz oynadırdı.

Mütrüb oynatmaq daha çox Bakı-Şamaxı bölgəsi üçün xarakterikdir.

**Lotu.** Çox işlənən bu sozu lut, üryan, çılpaq mənasını daşıyır. Bəzi mülahizələrə görə Lüt peyğəmbərin adı ilə bağlıdır.

Üç əsr bundan əvvəldən başlayaraq, qədim məsxərə xalq tamaşalarını göstərən meydan oyunçularına lotu deyilib. Lotu toy məclislərində, el şənliklərində tək, çox vaxtlar isə mütrüblər dəstəsi ilə birgə çıxış edib. O, adəti üzrə un və yumurtanın qatışığından hazırlanmış qatı yaxına ilə qrimlənirdi. Əsasən, tamaşaçılar qarşısında qaravəlli, məsxərə, bədyə, meyxana söyləyir, hoqqa oyunu (gözbağlayıcı) çıxarır, parodiyalar edir, gülməcələr danışırdı.

Lotu özü ilə əhliləşmiş meymun, ayı, tutuquşu da gəzdirib. Bəzi hallarda özü danışdığı qaravəlliyə uyğun heyvanların cildinə girib. Him-cimlə gözəl rəqs etmək, oxumaq, komizm elementlərinə malik olmaq lotu üçün vacib yaradıcılıq vərdiş və xüsusiyyətləri sayılırdı.

Lotu adlanan komik ifaçıya el arasında t əl x ə k, l o t u-b a m b ı l ı da deyilib.

Hansısa məclisdə tək deyil, bir neçə lotu dəstə halında iştirak edirdisə, onların başçısı lotubaşı adlanırdı. L o t u b a ş ı Azərbaycanın bəzi bölgələrində x ə l f ə kimi də çağırılıb.

Məclisdə lotuya yardımçı olan, ona bir növ assistentlik edən və ustadının yanında şəyird duran yeniyetmə cavana l o t u b e ç ə deyilirdi.

Son üç yüz ildə Azərbaycanda Lotuoğlu, Lotu Məstalı, Lotu Kərim, Lotu İbrahim Təbrizi, Lotu Cabbar, Lotu Qulu, Abdal Qasım kimi şöhrətli oyunçular olmuşlar. XX əsrdə Lənkəranda Xudadad, Əjdər, Qarabağda Məmmədqulu, Kərim, Rizvan, İsmayıl adlı istedadlı və hörmətli lotular fəaliyyət gostərmişlər.

Bakıda yaşamış Lotu Məşədi Cabbar təkbaşına irihəcimli komediyaları, çox personajı olan məsxərələri məharətlə oynayıb. Tamaşa zamanı hadisələrə uyğun olaraq müxtəlif quş və heyvan səsləri çıxara bilib. O, dəfələrlə bütün Qafqazda, Orta Asiyanın Aşqabad, Mərv, Səmərqənd şəhərlərində, İran və Türkiyədə hörmət tapmış, dəfələrlə oralara qastrola, toylara getmiş Cabbar Qaryağdıoğlu (Qaryağdı) ilə tez-tez həmməclis olub. 1914-1915-ci illərdə Varşavanın "Ekstafon" firması Lotu Cabbarın ifasında "Mirzə oyunu", "Qaravəlli", "Hey-anacat danışığı", "Ceyranı", "Qatıq satmaq" oyunlarını vala yazıb. Həmin vallar kütləvi tirajla satılıb.

Lotular arasında ad-san qazanmış, səriştəli istedadı olan oyunçuya (aktyora) m e y d a n l o t u s u deyilib.

**Təlxək.** Neçə-neçə yüz illər boyu adamı, tamaşaçıları "acılayan" məna anlamında təlxək deyimi işlənib. Təlxək XXI əsrlərdə Soltan Mahmud Qəznəvinin sarayında özünün duzlu, koloritli, yumorlu, məzəli, əyləncəli və cazibəli oyunları ilə tanınmış, çoxlu gülməcələr, lətifələr yaratmış şəxsin adıdır. Sonraki dövrlərdə Azərbaycanın başqa-başqa xanlıqlarında hökmdarları, saray əyanlarını məzhəkəli sözlərlə, yumorlu hərəkətlərlə, kəskin deyimlərlə əyləndirən yumor, gülüş ustaları da t ə l x ə k adı ilə çağırılıblar.

Təlxək hazırcavab olur, ritmık, ancaq məzəli rəqs edir, bir neçə musiqi alətində məharətlə çalır, mürəkkəb him-cim (pantomima) ifadə vasitələrini sərbəstcə bacarır, çoxlu hərzə-hədyan ibarə, ifadə və sözlər bilir, yumorun, satiranın ən müxtəlif növlərindən, qroteskdən məharətlə bəhrələnir, hətta təmiz akrobatik hərəkətlərdə əsil ustalıq göstərirdi. Təlxəyin əsas funksiyası əyləndirmək olsa da, həmin peşə sahibləri özlərinin hazırcavablıqları, ötkəmlikləri, iti ağılları, işıqlı dərrakələri, düz sözü zarafat donuna büküb şax, üzə demələri ilə seçilmiş və hər yerdə sadə camaatın rəğbətini qazanmışlar.

El arasında şit, bayağı zarafat, dolamaq, sataşmaq tərzli oyunlar təlxək oyunu adlanıb. Həmin oyun-tamaşalarda ifaçılar təlxəkliyi peşə seçən bacarıq, səriştə və istedad sahibləri olmuşlar.

XIX əsrin sonlarında və XX əsrin əvvəlində Cənubi Azərbaycanda və Qarabağda Təlxək Qasım adlı məşhur komik oyunçu olub. O, son dərəcə yüksək aktyorluq məharəti ilə şöhrətlənib.

Müxtəlif vaxtlarda və Azərbaycanın müxtəlif bölgələrində təlxəklərə aşağıdakı adlar da verilib.

Orta əsrlərdə hökmdarların hüzurunda məsxərə oyunları çıxarmağa, qaravəlli söyləməyə icazəsi olan təlxək: köşk (hüzur) məsxərəbazı.

Müntəzəm oyun-tamaşalar göstərən təlxəklər: nay, dünbal, ağcadaban, axşumdal, güldürmən.

Liliput, bəstəboy saray təlxəkləri: cücə, altıqarış, qarış-saqqal, tösmərək.

Qadın paltarı geyinib oyun çıxaran təlxəklər: ayqax. Ayqax təlxəklər daha çox Naxçıvan üçün səciyyəvidir.

Toyxanalarda, müxtəlif mərasim şənliklərinin zarafat məclislərində çıxış edən lotusayağı oyunçu-təlxəklər: bambılı, həzal, dolabçı, yerbaz, dalqovuğ.

İnsanların fiziki eybəcərlikləri (qozbel, pəltək, taytaq və sairə) ilə oyun çıxaran təlxəklər: kəkə (kəkov), cürə, həqqə-dağ.

Lağlağı söyləyib məsxərə çıxaran təlxəklər: alayçı, şivədar, tənnaz, şəbədəbaz, dübbə.

Küçə və meydanlarda təkbaşına oyun çıxaran, əsasən, him-cim ifaçısı olan təlxək: dəbbaz.

Bayram şənliklərində tamaşaçıları əyləndirən təlxəklər: törənçi.

Muğ və sehrbaz sənəti ilə məşğul olanlar qadaqçı adlanıblar. Sonralar peşəkar komiklər və təlxəklər də həmin adla çağırılıblar.

**Lağbaz.** Ən qədim dövrlərdə yaranan, yazın gəlişi ilə bağlı olan mərasim oyunlarından biri "Kosa-kosa"dır. Ələ salmaq, lağa qoymaq, məsxərə hədəfinə çevirmək, təhqir etmək üçün icra olunan belə oyunların bəzisinə l a ğ o yu n u deyilib.

Orta əsrlərdə ölümə məhkum caninin, əsir alınmış düşmənin eybəcər müqəvvası düzəldilir, tərsinə ulağın belinə qoyulur, söyüş-təhqirlərlə şəhərin gur yerlərində oyun çıxarılırdı. Mərasim hay-

küylü olur və göstərildiyi şəhərin baş meydanında tamamlanırdı. Bəzi müqəvvaları özünü görkəmcə təhqir olunanlara bənzədən aktyor-oyunçu əvəzləyirdi. Onlara və lağ oyununun ifaçılarına da l a ğ b a zı deyilirdi.

Lağbazın gözəl səsi, aydın diksiyası, plastik hərəkətləri ustalıqla ifa etmək bacarığı, şirin-şəkər, duzlu, cazibəli yumor qabiliyyəti, improvizə istedadı, zəngin müşahidə duyumu olmalı idi. O, eyni məqamda həm hönkürtü ilə ağlamağı, həm də şaqqanaq çəkib gülməyi bacaran və bu qabiliyyətini ustalıqla tamaşaçılara çatdırmağa qabil sənətçiydi.

Hər bir oyunun mövzusuna, hadisələrin məzmununa və oyun-tamaşaların göstərildiyi ərazi-məkana, yerli əhalinin danışıq şivəsinə uyğun olaraq lağbazı bu kimi adlarla da çağırırdılar: ş i v ə d a r, ş i v ə b a z, a l a y ç ı, ş ə n g ü l, p a r ç a ç ı.

**Naqqal.** Məclislərdə, gəzərgi yox, birməkanlı yığnaqlarda meydangirik edib şövqlə nağıl danışana, lətifə söyləyənə, dastan düzənləyənə n a q q a 1 deyilib. O, bir aktyorun teatrı üçün vacib olan plastik hərəkətlərə, him-cim ünsürlərinə, rəqqaslığa, daxili ehtirasa, səslə dinamik əl-qol oyunlarını vəhdətdə uzlaşdırmağa malik, istədiyi vaxt gülüb-ağlamağı məharətlə bacaran istedad sahibi idi. Naqqalın audi-toriya dairəsi nisbətən darəhatəli olub.

Tarixin müəyyən dövrlərində hökmdar saraylarında əyanları əyləndirmək məqsədilə naqqallar cəmləşib. Onların öndərini naqqalbaşı deyə çağırıblar.

**Meyxanaçı.** Xüsusən Azərbaycanın Abşeron bölgəsində geniş yayılıb və bu gün də mövcuddur. Əsasən, kənd toylarında meyxana söyləmək üçün xüsusi vaxt ayrılır. Toya bir, əsasən, iki və ya daha çox meyxana deyən (meyxanaçı) çağırılır. Onlar xüsusi ritm-çırtıqla ortalığa bir qafiyə atır va bu qafiyə ətrafında söz-hərəkət yarışına çıxırlar. Əvvəl toybəyini vəsf edirlər. Sonra isə müxtəlif deyişmələr, həcv cəhli, sözlə hərbə-zorba yarışı başlayır.

Meyxanaçı bədahətən şer deməkdə səriştəli olmalı, seçilən bəhr-vəzndən qırağa çıxmamalıdır. Onun aktyorluq məharəti nəzmlə dediyi sözləri paralel olaraq hərəkətlə, xüsusən mənalı sifət ifadələri ilə tamaşaçdara çatdırmaqda özünü göstərir.

Meyxanaçılar toylardan əlavə də xüsusi deyişmə (yarışma) mərəkələri qururlar. Meyxanada xüsusi qələbə və şöhrət qazanana u s t a d deyirlər. Yaxud da ki, ustad meyxanaçının adından sonra ehtiram əlaməti olaraq "qədeş" sözü işlədilir.

Meyxanaların öz ritmləri olur və yardımçılar, yaxud tamaşaçılar çırtıqla ona dəstavüz verirlər. Bəzən nağara və dəf ritmlərindən də istifadə olunur, ahəng tutulur. Ritm meyxanaçını ehtizaza gətirir, onu daxilən coşdurur, ruhən söz və oyun hərəkətlərinə kökləyir.

**Dərbədəri.** Meydan oyunçularının adlarından biridir. İran Azərbaycanı üçün daha xarakterik olan xalq mərasimlərinin aparıcılarına deyilib. Dərbədər sözü farsca qapı-qapı gəzən mənasını verir və eyni zamanda avara, sərgərdan, sərsəri anlamları var.

Dərbədəri gəzəyən həyat keçirib, tək ifaçı kimi fəaliyyət göstərib. O, öz tamaşalarını küçə və meydanlarda, camaat yığnağının gur yerində göstərib. Repertuarı yığcam qaravəllilərdən, məzəli lətifələrdən, açıq-saçıq məişət məsxərələrindən, şəbədə və hədyanlardan ibarət olub.

**Əncümansaz.** Fars dilində "məclis düzəldən, mərəkə təşkil edən" mənaları var. Dərvişliyin geniş yayıldığı dövrlərdə onlar, sazəndələr və naqqallar bir toplumda həmoyunçu olub məclis keçirirdilər. Daha çox Novruz bayramının çərşənbə axşamlarında onların birgə keçirdikləri kütləvi oyunlar əncüman adlanırdı.

Əncümanın ifaçılarını bir-birindən ayırmadan əncümansaz deyə çağırardılar. Əncümansaz üçün rəqqaslıq, oyunbazlıq, şövqlə oxumaq, qaravəlli söyləmək, şəbədə çıxarınaq vacib yaradıcılıq qabiliyyəti sayılıb.

**Şaman (Şamançı)**. Azərbaycanda İslamın təşəkkülündən min-min il əvvəl mövcud olmuş şaman oyunçusuna verilən addır.

Aşıq və ozan sənətinin qədim sələfi sayılan əsatiri şaman oyunlarının ifaçıları həm cadugərlik edər, müxtəlif mistik dualar oxuyar, həm də şeir qoşar, nağıl söyləyərdilər. Şamanlar

musiqi alətində çala-çala ən müxtəlif rollara girə, tamaşaçını heyrətdə, maraqda, təəccübdə saxlaya bilirdilər.

Şaman bir əlində qaval, o biri əlində "qam" adlı əsa tuturdı. Onlar bəlağətlə danışmağı bacarır, oxumaq ilə oyunu (həmçinin ritmık rəqsləri, mürəkkəb plastik hərəkətləri) ahəngdar vəhdətdə məharətlə birləşdirirdilər.

**Qam.** Şamançıların əllərində tutduqları əsaya görə sonralar onlara qam deyilib. Yaradıcılıq estetikasının xarakteri baxımından şam və qaman eyni anlamdadır.

## MEYDAN TAMAŞALARININ HAZIRLANMASI VƏ GÖSTƏRİLMƏ MƏKANI

### Oyun-tamaşa rejissurası

Əksər xalq oyunlarını əvvəlcədən hazırlayan, yaxud oynanılan gün ona rəhbərlik edən, tamaşanın bütün prosesinə başbilənlik göstərən əsas oyunçu (canbaz) və başçı olub. Onların fəaliyyəti müəyyən mənada çağdaş teatr sənətinin rejissorluq peşəsinin funksiyasını xatırladır.

Ümumilikdə dəstəbaşı adlandırılan tamaşa təşkilatçısı rolların bölünMəsmə, hovuz üstündə, kənd içində, zəmi kənarında, xırmanda, bazar başında, karvansaray meydançasında... səhnələrin qurulub, xovsuz xalçalarla, qurama pərdələrlə tərtib edilMəsmə, çalğıçıların yerbəyer olmasma başçılıq və nəzarət edirdi.

Dəstəbaşı oyunçuların geyim işinə, kömürlə, unla, tabaşirlə qrimlənMəsmə də nəzarət edir, əksər hallarda icraçı olur və bütün bunlara cavabdehlik daşıyırdı. O, müəyyən mənada səhnə tərtibatı verən rəssamın, əsərə musiqi bəzəyi vuran musiqiçinin funksiyasını, bugünkü rejissura tələbləri baxımından primitiv səviyyədə olsa da, həyata keçirirdi.

Dəstəbaşı, həmçinin qaravəllilərdə, məzhəkələrdə, məsxərələrdə, bir sözlə, hər hansı oyun-tamaşada mətni əzbər bildiyi üçün dilmanc-suflyorluq edirdi. Səhnə ilə tamaşaçılar arasında canlı ünsiyyət yaradan **meydanbəyi** idi.

Yeri gələndə dəstəbaşı oyun başlanmazdan əvvəl tamaşadakı hadisə və obrazlar, münaqişə və mübarizələr, obrazlar və tiplər barədə seyrçilərə qısa, dəyərli məlumatlar verirdi. Tamaşadan sonra isə göstərilən oyunda qaranlıq qalan mətləbləri onlar üçün aydınlaşdırırdı.

Bəzi oyunlarda rejissorun (dəstəbaşının) köməkçiləri olurdu. Həmin köməkçilərin hərəsinin öz funksiyası vardı. Məsələn, **əlbəsədar** çağırılan oyunçu dəstə tutub, məkan-məkan tamaşa göstərənlərin geyimlərinə nəzarət edirdi. O, tamaşadan əvvəl hər oyunçunun libasını ayırıb özünə verir, oyun qurtarandan sonra onları ifcincə yığıb, yüngül həsir sandığa və ya xovsuz xalça üslubunda toxunmuş kisəyə qoyurdu.

Dəstəbaşıya bədii və texniki işlərdə yardımçı durana, çağdaş anlamda rejissor assistentinə **lotubeçə** deyilirdi.

Rejissor anlamının oynanılan tamaşaların xarakterinə və məkan-bölgənin ləhcə deyiminə uyğun adları da olub. Bunlardan daha geniş miqyasda işləndni, dilağızda daha çox dolaşanı, mahiyyətcə daha dərini, mənaca daha tutumlusu aşağıdakılardır.

**Aynaz.** Göstərmə xarakterinə görə ayna (güzgü) sözü ilə bağlıdır. Azərbaycanın şimal-qərb şəhər və kəndlərində tamaşalara rəhbərlik edənlər bu adla çağırılıblar. Onlar həm də əsas oyunçular sayılıblar.

**Qızılqaz.** Dilimizdə öndəri seçmək, onun böyüklüyünü mübaliğə ilə nəzərə çatdırmaq, deyimin təsir gücünü məcazi mənada artırmaq üçün işlənən ifadədir. Meydan teatrı estetikasında oyun-tamaşanı hasilə gətirib tamaşaçılara təqdim edən başçıdır. Qızılqaz söz-deyimi daha çox məmləkətimizin qərb bölgələri üçün xarakterikdir.

**Yarənbaz.** Fars mənşəli "yar" (dost, aşna, yardımçı...) və "ənbaz" (ortaq, şərik) sözlərinin birləşməsindən yaranıb. Cənubi Azərbaycanın Təbriz, Ərdəbil, Qəzvin, Makul, Xoy, Urmu mahallarında daha çox işlənib. "Həmsənət", "yöndaş" (tərəf-müqabil) mənalarını da ifadə edib. Lakin ilk növbədə müxtəlif xarakterli və müxtəlif məzmun-formalı oyunlara başçılıq edənlərin çağırıldıqları addır.

**Yürən.** Meydanlarda, karvansaraylarda, bazar içində məzhəkəli oyun çıxaranların öncüllərinə y ü r ə n deyilib. Mənşəcə kökü daha qədim zamanlara gedib çıxır.

**Kəhya.** Həm idarə edən, həm də saman (farsca kah sözündəndir) anlamlarını daşıyır. Bəzən yağışdan sonraki palçıqlı meydançalarda tamaşaların rahat oynanılması üçün yerə saman tökürdülər. İdarə edən ifadəsi isə funksiya baxımından həmin flkri ehtiva edir.

**Kosabaşı.** Bu deyim, əsasən, kosanın qəhrəman olduğu xalq tamaşalarına aiddir. Tamaşanı hazırlayan şəxs el ağzında və oyunçular arasında kosabaşı çağırılıblar.

**Lotubaşı.** Oyunçuları lotu adlandırılan məzhəkə, məsxərə, şəbədə və qaravəllilərin əsas ifaçısına və həmin oyunları hazırlayıb ərsəyə gətirənlərə deyilib. Lotubaşı tamaşa boyu hər şeyə, yəni bədii və texniki gedişata tam nəzarət edib.

**Xəlfə.** Ərəbcə bu sözün mənalarından biri məclisə başçılıq edəndir. Xalq içində həm lotubaşı anlamı var, həm də toy şənliklərində teatral çalarlı oyunların təşkilatçısına deyilib.

**Meydan qarababası**. Baba sözü başçı, ağsaqqal, qara kəlməsi isə böyük mənalarında işlədilib. Qara baba (qarababa kimi də işlədilib) küçə və meydanlarda və üstüörtülü böyük binalarda göstərilən tamaşaların təşkilatçısı və rəhbəri olub.

Zikr mərasimi icra edən dərviş dəstəsinin başçısı da meydan babası kimi tanınıb.

**Müqəllid.** Ərəb dilində bu sözün təqlid edən, təqlidçi, artist, yamsılayan kimi yozum-mənaları vardır. Əsasən, təlxəklərin və şəbədəçilərin göstərdikləri tamaşaları hazırlayanlara, çox vaxtlarda da baş "rolda" çıxış edən oyunçulara müqəllid deyilib.

**Cütçü baba**. əkinçiliklə bağlı mərasimlərdə əsas cütçünü mütləq el-obanın müdrik ağsaqqalı oynayırdı. Cütçü baba çağırılan həmin ağsaqqal həm də oyun-mərasimi göstərmək üçün hazırlayırdı.

**Macgal.** Cütçülük və əkinçiliklə bağlı mərasim tamaşalarının əsas ifaçısına və təşkilatçısına verilən adlardan biridir. Mac cüt və kotanın əsas dəstəyinə, macgal isə şum vaxtı macdan tutana deyilib. Macgal, həmçinin Cütçü babanın köməkçisi (assistenti) funksİyasını daşıyıb.

**Hodaq.** Kənd mərasimlərindən sayılan "Cütçü şumu"nun təşkilatçısı, həm də Cütçü babanın köməkçisi kimi fəaliyyət göstərib. Cüt və ya kotana qoşulan öküzü (öküzləri) sürən hodaq adlanıb.

* * *

## Tamaşaların göstərildiyi yerlər

Təbii ki, min illər boyu əsatir şənlikləri, el-oba oyunları, mərasim tamaşaları açıq havada, şəhər meydanında, kənd içində, bazarda, əkənək sahəsində, camaatın gur toplandıqları yerlərdə, hovuz üstündə, saray həyətində, xırman düzündə, ocaq başında, şenlik çalmalarında, gül-çiçəkli yaylağa və bu kimi yerlərdə göstərilib.

Məhz ilk növbədə buna görə həmin oyun-göstərmələr meydan teatrı kimi ümumiləşdirilib.

Kütləvi oyun yerləri xalq arasında müxtəlif deyimlərlə adlandırılıb. Onlardan dildə-ağızda daha çox işlədilənlərinin qısaca şərhini verməklə, oyun məkanlarının adları barədə müəyyən təsəvvürə gəlmək olar.

**Alan.** Bu, müəyyən xalq oyunu üçün düzəldilən məkandır. Formaca yarımdairə və qövsvarı olub. Ona görə də ətrafına çoxlu tamaşaçı toplanınasma imkan vardı.

**Balaxan.** Qədim elarası danışıq dilində "yuxarı otaq" mənasında işlənib. Açıq havada taxtadan və ya hamar yonulmuş ağac tirlərindən düzəldilirdi və səhnə funksiyasını daşıyırdı. Bəzən arakəsməli çadırabənzər görkəmdə olurdu.

**Qaldıran.** Süjetli qaravəlli tamaşalarının oynanılması üçün səkiyəbənzər, tamaşaçılar duran səviyyədən azacıq hündür yer. Bu, yamaclı çəmən də ola bilərdi, torpaq atılıb tez vaxtda hasilə gətirilən kövər də.

**Əndam.** Hərfi mənada görkəmli, iri mənasındadır. Ərəbcə isə bədən, qədd-qamət, boy-buxun, biçimli adam deməkdir. Qədim dövrlərdə gəzərgi yox, bir məkanda çıxarılan oyunlar, göstərilən tamaşalar üçün seçilmiş böyük həyətin hündür yeri. Yaxud, müvəqqəti qurulmuş, adamın dizi bərabəri qurulan meydança əndam kimi tanınıb.

**Gac.** Mənası görünən səhnə deməkdir. Məişətdə işlənən, ağacdan düzəldilmiş, qurşaqboyu taxt məzhəkə oyunlarında gətirilib meydançaya qoyulurdu. Aktyor-oyunçular bu gacın üstündə tamaşalar oynayırdılar.

Geniş səkiyə taxta düzülüb, kilim-palaz salınıb üstündə tamaşa oynanılan yerə də bu ad verilib.

**Mərəkə.** Ərəb sözüdür və çoxlu mənaları var. Dilimizdə izdiham, qələbəlik, qalmaqal, vurhavur, vurhəşir, cəncəl deyimləri mövcuddur. Meydan oyunçuları arasında çox geniş və qələbəlik yerdə çıxarılan oyun məkanlarının adlarından biridir.

Tək və cüt oyunçuların, həmçinin dərvişlərin, naqqalların, lotuların, məsxərəbazların, məzhəkəçilərin, hətta canbaz və kəndirbazların kütləvi tamaşalar göstərdikləri yerdir.

Mərəkə yeri seçiləndə, adətən, orada uzun illər tamaşalar oynanılırdı. Mərəkə yerlərində tamaşaçılara şirniyyat, sərinləşdirici içki satanlar da olurdu. Buraya daha çox tamaşaçı toplaşa bilirdi.

**Nümayişgah**. Nümayiş sözü göstərmək, baxılan, görünən, gah isə yer, ev mənasındadır. Həmin mənalardan götürülən bu deyim açıq havada teatr oynanılan məkan anlamında işlədilib.

**Nəzrgah.** Tamaşaxana, səhnə, oyun göstərilən meydan mənasını ifadə edən bu sözün işlənməsi İran Azərbaycanının yaşayış məkanları üçün daha xarakterikdir.

**Oynaqlıq.** Açıq oyun meydançalarına verilən ümumi adlardan biridir. Həmin sözün oynaq, o y n a q m ə k a n deyimləri də var.

**Səhnəcə.** Kiçik süjetli, daha çox tək ifaçının göstərəcəyi oyun üçün iri mülkün həyəti, bazarın bir küncü, iki küçənin kəsişdiyi tin, tamaşaçı az yığılan yer seçilirdi. Səhnəcə deyilən bu yer kiçik, yığcam, xudmani tamaşa yeri mənalarını verirdi.

**Hovuzüstü.** Saray həyətində, memarlıq qurumu dairəvi və ya dördkünc olan karvansarayın ortasında, şəhər bağında hündürlüyü yarım metr və ya bir metr olan hovuzun üstünə qalın taxtalar atılırdı. Sıx düzülən taxtaların üstü xovsuz xalçalarla döşənirdi. Onun üstündə qısa məzmunlu, ancaq əyləncə xarakterli, sadə süjetli və gülməli tamaşalar göstərilirdi. Yayın istisində hovuzun suyu oyunçu-aktyorlara sərinlik gətirirdi.

**Çavıstan.** Kənd oyun tamaşalarının göstəriləcəyi yer çox vaxt əvvəlcədən müəyyənləşdirilirdi. Oyunun təşkilatçıları dikdir yerlərdən torpaq qazıb ortaya tökürdülər. Sonra onu hamarlayırdılar. Səki və ya səhnə kimi görünən yer çavıstan adlanırdı.

**Həngə.** Ən müxtəlif kiçik oyunların və uzun çəkən tamaşaların göstərildiyi yerə verilən addır. Bəzi bölgələrdə həmin yerə h ə n g a m ə x a n a da deyilir. Söz həngamə, yəni məzəli oyun çıxarılan yer mənasını verir.

**Şelaxana.** Daha çox musiqili oyunlar göstərilən yerə deyilib. Müəyyən mənada tamaşaxananın və seyirxananın təhrif olunmuş şəklidir.

Adları göstərilən tamaşa yerlərinin bir qisınında, nisbətən iri sahəsində ifaçıların paltar dəyişmələri, "qrimlənib" oyuna hazırlaşmaları, səhnədə sözünü qurtarıb kənara çəkilən və növbəti çıxışmı gözləyən oyunçunun dayanması üçün camaatla səhnənin arxa hissəsinə pərdə çəkilirdi. Yaxud da araya vərni, zili, şəddə, sumax, bir sözlə, yüngül olan xovsuz xalça tutulurdu. "Kulis", "şırma" mənasını verən həmin örtüyə ç a t ı n a p ə r d ə adı verilmişdi.

## "KİLİMARASI":

## Bəbək, İpdəoyuq, Kosagəlin

Min illər boyu azərbaycanlıların yaşadıqları böyük və möhtəşəm ərazidə Kukla oyunları da geniş yayılıb. El arasında Kukla oyunlarına b ə b ə k, o y u q və i p d ə o y u q oyunları da deyilib. Bu oyunlar üçün Kukla düzəldənlər oyuqçular adlanıblır.

Kukla oyunlarını üç tipə bölmək olar:

**Kilimarası;**

**Kukla oyunu;**

**Kölgə oyunu.** Buna x ə y a l o y u n u da deyilir.

Kukla oyunlarına müxtəlif zaman və məkanlarda 1öbətbazlıq və ərüsəkbazlıqda deyilib.

Kilimarası tipli Kukla oyun-tamaşalarının eyni kökdən olan bir neçə forması var. Bunlardan ən geniş yayılanı B ə b ə k oyunudur. Bu oyun, əsasən, kilim arasında göstərilib. Onun tamaşasında ələ qolçaq kimi taxılan və barmaqlarla hərəkətə gətirilən "bəbək" adlı Kuklalardan istifadə olunub. Məşhur tamaşası "Keçəl pəhləvan"dır. El arasında "Keçəlpəlvan" deyimi də var.

Bəbək kuklalar forma biçimləri və zahiri görkəmləri ilə seçilirdilər. Bu Kuklalar qolçaq formasında olur, ələ və bəzən də dizlərə keçirilirdi. Oyunçu arxası üstə kilimin üstünə uzanırdı və dizlərini sinəsinə doğru qatlayırdı. Köməkçilər kilimin yanlarını qatlayıb səhnə-pərdə yaradırdılar.

Yaxud, oyunçu kilimin üstündə oturub dizlərini aralı qoyurdu. Oyunun məzmununa uyğun olaraq, əllərinə və ayaqlarına müxtəlif xarakterli bəbək-kuklalar keçirirdi. Həmin kuklalarda ağız, burun, göz, qaş olmurdu.

Dizə bərkidilən kuklalar, adətən, taxta çömçələri bəzəməklə hasilə gəlirdi. Onlar əldə oynadılan Kuklalarla müqayisədə hərəkətcə məhdud və passiv idilər. Ələ taxılan qolçaq kuklalar isə bəzən 15-20 santimetrlik nazlk çubuqlara bərkidilir və oyun-ifa zamanı oyunçunun barmaqlarına bərkidilirdi. Yaxud da Kuklalar birbaşa biləyə qədər ələ keçirilir və hər bir barmaq bəbəyin bir hərəkətini tənzimləyirdi. Ələ keçirilən bəbək-Kuklalar çevik, cəld hərəkətlərlə səciyyəvidir.

Bəzən kilimarısı oyun-tamaşalarında istifadə edilən Kuklalar uşaq boyda olur. Onda oyunçular həmin Kuklalara uşaq paltarları geyindirirdilər. Bununla da göstərilən oyunun təbiiliyi artır, cazibəsi təravətlənir, tamaşaçılara təsir gücü çoxalırdı.

Azərbaycanın müxtəlif ərazilərində bəbək oyunları Bazi-yebənd və Şəbşəbi kimi tanınıb. Onun müxtəlif süjetli "Keçəl pəhləvan" tamaşaları ilə yanaşı, mahiyyətcə həmin xarakterli "Qanqal pəhləvan", "Yalançı pəhləvan" oyun-tamaşaları da mövcud idi. Bəzi mahallarda eyni tamaşa üç-dörd müxtəlif adla göstərilib. Həmin oyunların hamısı bir yerdə Q o l ç a q – q o l ç a q kimi ümumiləşdirilib.

Kilimarası oyununun başqa bir forması. Yerə enli və uzun kilim salındı (kilimi xovsuz xalça texnikası ilə toxunmuş zili, sumax, vərni, şəddə ilə də əvəz etmək olardı). Oyunçu özü kilimin tən ortasında, əsasən, oturuqlu vəziyyətdə qərar tuturdu. Onun iki köməkçisi isə camaatın əyləşdiyi tərəfdən kilimin ətəyini bir metr (bəzən az və ya çox da ola bilərdi) hündürlükdə yuxarı qaldırırdılar. Ətəklər tarım çəkilirdi. Kilimin tarım ətəyi pərdə funksiyasını daşıyırdı və əsas oyunçu onun arxasında ya uzanıqlı, ya da oturuqlu halda olmaqla görünmürdü. O, Kuklaları görünən səviyyədə idarə edir, hadisə və obrazlara uyğun olaraq müxtəlif xoş, ağlamalı, əcaib-qəraib, gülməli səslər çıxarırdı.

Tamaşaçılar gur olan meydanlarda "Keçəl pəhləvan" tamaşası başlanmazdan əvvəl əsas oyunçunun baş köməkçisi qoyun dərisindən olan kürkü əyninə tərsinə geyinirdi. Kürkün astar üzünün hər yerindən ala-bəzək parçalar sallanırdı. Baş köməkçi üzünü kömürləyir, unlayır və özünü gülməli, məzəli görkəmə salırdı. Sonra da şit hərəkətlərlə camaatı güldürür, atmacalar atır və oyuna baxanlardan nəzir-niyaz yığırdı. Həmin tamaşalarda, əsasən, Keçəl, Div, Molla, Nökər və Sərvinaz (qız) personajları olurdu.

Kilimarasının başqa bir formasında yüngül, eni bir metr olan kilim şaquli vəziyyətdə dörd küncündən iki ağac-tirə bağlanırdı. Ağac-tirlər sicim və ya iplə ətraflarda yerə çalınınış mıxçalara bərkidilirdi. Oyunçular bu şərti pərdə arxasında iştirakçı obrazları çox olan tamaşalar göstərirdilər. Burada daha çox qolçaq Kuklalar (onlara kosagəlin də deyilirdi) oynadılırdı. Kilimarasının bu formasında göstərilən tamaşaların ən xarakteriki "Tapdıq çoban" idi. "Tapdıq çoban"da dörd iştirakçı var: Tapdıq, Ceyran xanım, onun əri Səfi və qızları Züleyxa. Mövzusu kənd həyatından götürülmüş tamaşada hadisələr məzəli süjet xəttində nümayiş olunurdu.

Tamaşa göstərən oyunçular bu üslub-formada məkan genişliyinə malik olurdular. Çünki kilim-pərdənin arxasında sərbəst hərəkətlər üçün genişlik vardı. Buna görə də Kuklalar həm öndə-kilimin üstündə, həm də dərinlikdə (çağdaş teatr dilində desək, ikinci və üçüncü planlarda) sərbəstcə hərəkətə gətirilirdi.

Kilimarasının "Maral oyunu" növü də məlumdur. Kilim tarıma çəkilir. İki oyunçu Maral və Ovçu qiyafələrinə "girir". Sonra kilim aşağı endirilir və oyun başlanır. Oyun plastik hərəkətləri, gərgin dramatik vəziyyətləri ilə səciyyəvidir. Maral oyunu Kəlbəcər rayonu ərazisində daha çox yayılıb və günümüzə qədər gəlib çatıb. Burada Maral oyunu tamaşası parçadan tikilmiş maral müqəvvasma iki nəfərin girməsi və tək ifaçının Çoban rolunda çıxış etməsi ilə də göstərilir.

Məşhur kilimarası oyunları "Maral oyunu", "Şölə", "Şah Səlim", "Qaragöz", "Hacı gəldi", "Keçəl pəhləvan" tamaşalarıdır.

Oyuq-Kukla tamaşaları kilimarasından sonraki dövrlərdə yaranıb. Onun özünün də bir neçə növü var. Ümumi kökdən rişələnsələr də, kilimarasının və Kukla oyunlarının özəllikləri, müxtəlif göstərmə prinsipləri, başqa-başqa məkan qurumları var.

Kukla (oyuq) tamaşalarında öndəki pərdəyə gərdək və atəşpərdə deyilib. Bu pərdə oyunçuları tamaşaçılardan "gizlədib". Həm gərdək, həm də atəşpərdə bəzəkli, əlvan rəngli, şux ovqat doğuran parçalardan hazırlanırdı. Kuklalar üç prinsipdə hərəkət etdirilirdi.

B i r i n c i  p r i n s i p. Oyunlar çubuqlu qolçaq və qolçaq-əlcək Kuklalarla göstərilirdi. Bu oyun-tamaşalarda personajlar çoxluq təşkil edirdilər və buna görə ifaçıların sayı da ona uyğun olaraq artırdı.

İ k i n c i  p r i n s i p . Burada güdu adlanan Kuklalardan istifadə edilirdi. Həmin Kukların boyu bəzən bir metrdən artıq olurdu. Kukla fiquru iki uzun və möhkəm ağacdan kəsilmiş çubuğa, ya çomağa keçirilirdi. Hərdən də çarmıxabənzər qurğuya bağlanırdı. Güdu Kuklalar böyük olduqlarına görə beldən (qurşaqdan) əyilmirdilər. Buna görə də onların hərəkətlərində ağırlıq və lənglik vardı. Dinamik süjetli, sürət-ritmi çevik və iti olan tamaşalarda güdudan istifadə edilmirdi.

Ü ç ü n c ü  p r i n s i p. Əsasən, "Şah Səlim" tipli tamaşalar göstərilirdi. Bu tamaşalarda istifadə olunan kuklalar kosagəlin adlanırdılar. Kosagəlin kuklalar geyimlərinə, sifət cizgilərinin tamlığına, aydınlığına və müxtəlif xarakter-tiplərə bölünmələrinə görə seçilirdilər. Kosagəlin kuklalara azı dörd sap (və ya bərk, ancaq nazlk ip, yaxud da kirişli qaytan) bağlanırdı. Əsas saplar ayaqlara və əllərə bağlanırdı və onların ucları xaçşəkilli taxçaya bəndlənirdi. Xaçvarı taxçada oyunçu üçün tutacaq qoyulurdu. Səriştəli oyunçu hər əlində bir kuklanı sərbəstcə oynadıb hərəkətə gətirə bilirdi.

Kosagəlin kuklalar hərəkətetmə prinsiplərinə görə və formaca dünya teatrlarındakı marionetlərə bənzəyirdilər. Belə tamaşaların qədim adlarından biri Qaraçöpdür. Qaraçöpün isə mənası qaratikan (böyük tikan) deməkdir.

Kukla tamaşasının Xeyməkəmər adlanan forması da olub. Gəzərgi, səyyar kukla tamaşalarına ümumilikdə verilən addır. Xeymə sözü çadır mənasını daşıyır. Xeyməkəmər oyunları qədim Şamaxıda daha geniş yayılıbmış. Meydanlarda, bazarlarda, karvansaraylarda, adamlar gur olan küçələrdə oyun-tamaşanın tək ifaçısı gəzib-dolaşırdı. O, avazlı səslə, şən zarafatlarla camaatı səsləyib oyuna dəvət edirdi. Kifayət qədər tamaşaçı toplanan kimi oyunçu çadırı (xeyməni) başı bərabəri yuxarı qaldıraraq "pərdə" (gərdək) yaradırdı. Həmin pərdənin arxasında qısa süjetli hadisəni

nəql edən Kukla oynadılırdı. Oyunçu sözləri istədiyi kimi dəyişir, improvizə edirdi. Əsas diqqətini yumorlu hərəkətlərə yönəldirdi ki, gülüş bol olsun.

Çadırxəyal da formaca Xeyməkəmərə bənzəyir. Bu forma üçün xarakterik olan "Şah Səlim" oyunları Novruz və Qurban bayramlarında, ailə şənliklərində, evin içində göstərilirdi.

Çadırdəsti də bu qəbil oyunlardan sayılırdı. Bu tamaşa hansısa ailədə uşaq doğulanda oynanılırdı. Kuklalar həm iplik, həm də əlcək-qolçaq olurdu.

Kukla tamaşalarının Xeymə forması da geniş yayılmışdı. Tamaşaları oynamaq üçün xüsusi xeymə (çadır) qurulurdu. Kətan parça dördbucaq şəklində, hündürlüyü adamboyu olan payalara bərkidilirdi. Üstü açıq qalırdı. Oyunçular fiqurları hərəkətə gətirməkdə sərbəstlik qazanırdılar. Təbriz, Xoy, Zəncan, Makul bölgələrində bu oyuna Xeyməşəbbazi deyilirdi.

Xümoyunu Kukla tamaşalarının bir növüdür. Oyunçu iri saxsı və ya gildən düzəldilmiş küpün içinə girir və görünmür. Əllərinə keçirdiyi qolçaq kuklaları başı üzərindən, küpün boğazından yuxarı qaldıraraq tamaşaya başlayırdı.

Qərbi Azərbaycanda kukla oyunları Çömçəgəlin kimi ümumiləşdirilib. "Şah Səlim" oyunları ifadə formalarına görə iki yerə bölünürdü. Dəzgah Şahsəlimi adlanan tamaşalar açıq pərdə önündə və saplardan asılmış kuklalarla (marionetlərlə) göstərilirdi. Oyunçulara dəzgahdar deyirdilər. Dəzgahdar bir əli ilə kukla oynadır, o biri əli ilə nəfəsli musiqi alətində çalırdı.

İkinci bölməyə aid ola Şahsəlimi oyunları, adətən, gecələr göstərilirdi. Ona görə də Gecə oyunu, Şəbbazi kimi adları da var.

İskəmə oyunu ailənin sevincli günlərində oynanılırdı. Tamaşa önünə pərdə-örtük tutulan masa arxasında göstərilirdi. Oyunçu tək olurdu. O, əlcək-qolçaqlı iki kuklanın duet-dialoqları əsasında hadisə-oyun quraşdırırdı.

Kukla tamaşalarının çox yayılmış formalarından biri Pişbənd adlanırdı. Bu növ tamaşada oyunçu və onun köməkçisi örtülü çadırın içərisində olurdular. Çadırda adamboyu hündürlükdə kvadrat şəkilli dəlik (dəlikcə) açılırdı. Həmin dəlikcədən sapla istifadə edilən kuklalar vasitəsilə tamaşalar göstərilirdi. Göstərilən oyun-tamaşanı, hadisələrin xarakterinə uyğun olaraq kamança, saz, tütək, qara zurna müşayiət edirdi.

Kölgə oyunları (Xəyal oyunu) kukla tamaşalarının orijinal bir formasıdır. Həmin tamaşalar üçün obraz-kukların silueti dana, dəvə dərilərindən və ya qalın kordondan kəsilirdi. Nağıl məclisində nazlk parçadan ekran-pərdə qurulurdu. Köməkçi ekran-pərdənin arxasında tamaşaya aid müxtəlif fiqur-kuklaları xüsusi ipə düzürdü. Digər hazırlıq işlərini də görüb qurtarandan sonra işıq yandırırdı. Bu işığa xəyalfanar və ya şəma deyilirdi. Şəma zeytun yağı və ya qara neft tökülən, çoxlu piltəsi olan nəlbəki idi. Çırağın əsas funksiyası oynadılan kukların hərəkətlərini pərdə-ekranlara salmaq idi. Əsas oyunçu xəyalbaz və ya ş ə b b a z adlanırdı. Fiqurları gəzdirib hərəkətə gətirən oyunçular k ö l g ə ç i, s a y ə d a r, s a y ç ı da çağırılırdılar. Kölgə və xəyal oyunlarında istifadə edilən pərdə-ekrana göstərməlik, görənək deyilirdi.

Kölgə tamaşa-oyunları üçün hazırlanmış yüzlərlə yastı kukla (xaməcik) fiqurları xüsusi sandıqçalara yığılırdı. Xəyalbazın sandıqçanı daşıyan yardımçısı həmal (hambal) deyə çağırılırdı.

Azərbaycanda az yayılmış Bacbacı (əzizləmə, bacı-bacı mənasında) oyunu da olub. Həmin oyun yalnız qız-gəlinin ifasında göstərilib. İfaçı qızlar dabanlarını rəngli əsgilərlə sarıyaraq, onu adama bənzədirdilər. Sonra qılçalarını topuqdan yuxarı örtüklə bürüyüb arxası üstə uzanır, ayaqlarını sağa-sola, aşağı-yuxarı tərpətınəklə "obrazları" hərəkətə gətirirdilər. Tamaşaların əsas süjeti Balbacı (Badambacı) ilə Cicibacı (və ya Canbacı) arasında gedən zarafat-yumor üzərində qurulurdu.

Kukla tamaşaları mərasim oyunlarında və Meydan göstərmələrində təşəkkül tapıb formalaşan xalq dramaturgiyamızda yeni janrlı səhnəciklər, məsxərələr, məzhəkələr, hoqqalar yaranması üçün zəmin olub.

Kukla oyunları xalq tamaşalarında əlvan bədii tərtibatlardan istifadənin yeni-yeni prinsiplərini, ölçülərini, forma xüsusiyyətlərini üzə çıxarıb və onları təkmilləşdirib.

Kukla oyunlarının çoxunda müxtəlif ritm-ahəng ölçülərində musiqidən istifadə edilib.

Kukla oyunlarında hadisələr həm keçmiş zamandan, həm də çağdaş dövrdən bəhs edirdi.

Kukla tamaşaları nağıl söyləmə estetikasma söykənsə də, tədricən onun özünün məkan-zaman anlayışı da formalaşıb.

Nəhayət, onu da qeyd etmək lazımdır ki, milli kukla (oyuq) oyun-tamaşalarında çağdaş dövrdə peşəkar Kukla teatrları üçün örnək ola bilən, zəngin poetika göstəriciləri, əlvan estetik prinsiplər vardır.

## ŞƏBİH TAMAŞALARININ ƏSAS SƏCİYYƏLƏRİ

Şəbih sözü ərəbcə bənzər, oxşar deməkdir. Şəbih dini-misteriya tamaşasıdır və meydan teatrının bir formasıdır. Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda geniş yayılıb. Şəbih tamaşalarının özünəməxsus dramaturgiya və teatr poetikası vardır. Şəbihlərin baş mövzusunu imam Hüseynin tərəfdarları ilə Yezid, onun qoşunları arasındakı mübarizələr təşkil edir.

Müsəlman dininin banisi Məhəmməd peyğəmbər 632-ci ildə Mədinədə vəfat etdi. Müsəlmanlığa (İslama) rəhbərliyi Məhəmmədin əmisi oğlu və qızı Fatimənin əri Həzrət Əli və ya peyğəmbərin qayınatası (Aişənin atası), qüdrətli sərkərdə, Məhəmmədin inanılmış silahdaşı Əbubəkr öz üzərlərinə götürməliydilər. Birinci xəlifə, yəni başçı, rəhbər Əbubəkr oldu və iki il hakimiyyətdə qaldı, İraq və Suriyanı istila etdi. Əli tərəfdarları şiələr (şieyi-Əli) bundan narazı qaldılar və öz başçılarını hakimiyyətə gətirmək üçün yollar axtarıb, məqam gözləyir, üsullar fikirləşirdilər.

Əbubəkrdən sonra xilafətə rəhbərliyi Ömər (10 il) və Osman (12 il) etdilər. Osmanın qətlindən sonra Əli hakimiyyətə gəlib dördüncü xəlifə və şiələrin birinci imamı oldu. Beş ildən sonra Əli də xəyanət nəticəsində dünyasını dəyişdi və onun böyük oğlu, peyğəmbərin nəvəsi Həsən xəlifə elan edildi. Müaviyyə külli miqdarda pul verib, fitnə ilə hakimiyyəti Həsəndən aldı, az sonra isə onu zəhərlətdirib öldürtdü. Müaviyyə xilafətin paytaxtını Mədinədən Suriyanın Dəməşq (Şam) şəhərinə köçürtdü. Bu qərarla o, şiələrə sarsıdıcı zərbə vurdu, çünki Əlinin tərəfdarları bilavasitə Mədinədə cəmləşmişdilər. On doqquz ilə yaxın xəlifəlik edən Müaviyyə ərəbləri mənən birləşdirdi və sağlığında oğlu Yezidi özünə varis elan etdi. Bu dövrdə Həsənin kiçik qardaşı Hüseyn Mədinədə bir növ surgündə yaşayırdı. Şiələr arasında böyük hörmət və izzət sahibi olan Hüseyni dəfələrlə Kufəyə dəvət etmişdilər ki, qüvvələri birləşdirib onu hakimiyyətə gətirsinlər. Hüseyn ailə üzvlərindən və yaxın qohumlarından ibarət 72 nəfərlə Kufəyə gedərkən Kərbəla yaxınlığında mühasirəyə alındılar. O, Yezidin hüzuruna gedib ona biyət (hakimiyyətini qəbul etmək) təklifini rədd etdi və onuncu gün böyük orduya qarşı döyüşə girdi. Hüseyn, onun ögey qardaşı Həzrət Abbas və digər tərəfdarları qılıncdan keçirildilər, arvad, uşaq isə əsir alınıb, Dəməşqə göndərildi.

Müəyyən siyasi və dini mahiyyət daşıyan bu hadisə Islam tarixinə Kərbəla müsibəti kimi daxil oldu. VIII əsrdən üzü bəri şiələr Hüseynə və başqa şəhidlərə ağılar deyir, qəsidələr söyləyir, təziyələr keçirirdilər. XV əsrdən başlayaraq şiələrin Kərbəla müsibətlərini hər il qeyd etmələri geniş vüsət aldı, şəbih tamaşaları daha böyük inkişaf yoluna çıxaraq geniş əraziyə yayıldı. O cümlədən Azərbaycanda, xüsusən öikənin cənub bölgələrində məhərrəmlik ayında şəbih tamaşaları göstərilməyə başlandı.

Şəbih mərasimi iki hissədən ibarət olur. Məhərrəmlik ayının ilk on günü əza (matəm) keçirilir. Onuncu günə aşura (onluq) deyilir və dini etiqada görə imamlar və övladları mühasirənin onuncu günü qətlə yetiriliblər. Həmin vədəyə qətl sınan gün də deyirlər.

Aşura günü və ondan sonraki günlərdə müxtəlif adlarda böyük və təntənəli şəbih tamaşaları oynanılır.

Ərəb sözü olan "əza" **matəm** deməkdir. Məhərrəmliyin ilk günündən matəm təntənəli və izdihamlı keçirilir. Bu izdiham səyyar tamaşa ünsürləri ilə zəngin olur. Ona əza qafiləsi də deyilir.

Əza qafiləsi izdihamının yürüşünə yas bayraqları gəzdirən ələmdar, tuğdar, xərəkdar, sənkzən, səlladar və digər əzadarlar daxildirlər. Onlar öndə gedirlər və hamısı bir yerdə əlviyyə adlanır.

Əza qafiləsində və həmçinin şəbih tamaşasında imam Hüseynin məslək tərəfdarları, onunla birgə qətlə yetirilənlər əsabə (əshabə) adlanırlar. Sayca 72 nəfər olan əsabə imam-həng dəstəsinin təmsilçiləridir.

Əza qafiləsində Əliəkbər otağı düzəldilir və xərəyin üstünə qoyularaq gəzdirilir. Əliəkbər imam Hüseynin böyük oğlu olub və o da 18 yaşında qətlə yetirilib. Əliəkbər otağında onun rəmzi

nəşi düzəldilir. Həmin müqəvvanın önündə qara paltar geyınıniş uşaq oturur. Xərəyin ardınca öndə şəhidin anası gedir. Ananın, Hüseynin və Həzrət Abbasın rollarını ifa edən şəbih aktyorlarının üzləri ağ niqabla örtülür. Bu, ilahiliyi qorumaq məqsədi daşıyır. Həm də qadın qiyafəsində kişinin olduğunu gizlədir.

"Qasım otağı" əza qafiləsinin ən mühüm oyun atributlarındandır. Toy çadırının modeli şəklində düzəldilib xərəyin üstündə qurulur. Onun içərisinə imam Həsənin şəhid oğlu Qasımın nəşini andıran müqəvva qoyulur.

Həmin müqəvvanın üstünə çoxlu qan çilənir. Xərəyin kənarlarına fanarlar düzülür, ya düzəltmə, ya da fəsilə uyğun çiçəklərlə bəzənir. Qafilə hərəkətə başlayanda bir nəfər "Qasım otağı"nın baş tərəfində ayaq üstə dayanaraq dualar oxuyur. Xərəyin ətrafında oturmuş, ərəb libasları geyinmiş qız uşaqları ağlaya-ağlaya başlarına saman tökürlər.

Əbülfəzlabbas (Həzrət Abbas) obrazının əza qafiləsində xüsusi yeri var. O, on gün mühasirədə qalan müddətdə imam Hüseynin ailəsinə və əshabələrinə su gətirib. Axırıncı döyüşdə qolları kəsilərək öldürülüb.

Şəbih tamaşalarında onun üçün xüsusi at seçilir. Həmin at gözəl çulla çullanır, qiymətli yəhərlə yəhərlənir. Yəhərdən (və ya çuldan) Əbülfəzlabbasın "Kəsilmiş əlləri" asılır. Yaxud, atın üstünə əyni qanlı, qolsuz köynək geyindirilmiş müqəvva bağlayırlar. Müqəvvanın ağzına xəncər verilir, gözlərinə oxlar sancılır, çiyninə isə boş su tuluğu aşırılır. Bir nəfər atın yüyənindən tutub asta-asta əza qafiləsinin önündə gedir.

"Qəbri-Hüseyn" də əza qafiləsində gəzdirilir. Bu, sərdabə şəklində qurulur və xüsusi xərək üzərində yerləşdirilir.

Imam Hüseynin qəbrinə işarə olub, onu təmsil edən sərdabə ipək-atlas, zərxara parçalarla bəzədilir, qiymətli daş-qaşla süslənir. Sərdabənin yuxarı hissəsinə zərli çalma qoyulur, yan-yörəsmə isə qılınc, qalxan, ox, kaman, uzunboğaz cəkmə və imam Hüseynə aid edilən digər əşyalar düzülür.

Sərdabə qurğusunun içərisinə ağzıbağlı tabut qoyulur və ona ağ göyərçinlər bağlanır. Həmin göyərçinlər imamın ruhunu qanadlarında gəzdirən mələklərin təmsilçiləridir.

"Qasım otağı", "Qəbri-Hüseyn", "Həzrət Abbasın kəsili qolları", "Əliəkbər otağı" on gün ərzində əza qafiləsinin səyyar tamaşası kimi gəzdirilib nümayiş etdirilir. Əza qafiləsi şəhərin və ya kəndin bütün küçələrini gəzir. Adları çəkilən göstərmə oyunları tək də, ikisi bir yerdə və ya hamılıqla da nümayiş olunurdu. Yaxud, mərasim daha güclü keçən şəhərlərdə hər əza qafiləsi ayrılıqda iki gün gəzib gərdiş edirlər.

Əza qafiləsini xüsusi mərsiyəxanlar müşayiət edirlər. Bu oxumaları şaxsey-vaxsey əvəzləyir. Baş mərsiyəxan ucadan bir misra deyir, kütlə isə xorla "şaxsey-vaxsey" söyləyib sinə vurur. Məsələn:

**Tək** - Necə qan ağlamasın daş bu gün...
**Xor** - Şaxsey, vaxsey, şaxsey, vaxsey...
**Tək -** Kəsilib yetmiş iki baş bu gün...
**Xor -** Şaxsey, vaxsey, şaxsey, vaxsey**...**
**Tək** - Qanlı qılınc Kərbəlada pas tutar...
**Xor** - Şaxsey, vaxsey, şaxsey, vaxsey... və sairə və ilaxır.

Aşuranın doqquzuncu günündən onuncu günə keçən gecə "Qətl" tamaşası oynanılır. Bu oyun "Eydiqətl", "İmam Hüseynin şəhadəti" də adlanır. Bununla da Şəbih mərasiminin ikinci hissəsinə keçid başlanır.

Əza qafiləsinin gəzdirdiyi bu cür sərdabə və otaqlar bir yerə cəm olur. Açıq havada, şəhərin baş meydanında, yaxud, şəhər kənarındakı düzəngahda şəbih tamaşaları göstərilir.

Burada sərdabədən, otaqdan istifadə edilməklə Kərbəla qırğınının müəyyən bir epizoduna həsr olunmuş, süjetli, kompozisiyalı, ideyalı, gərgin konfliktli şəbih tamaşaları oynanılır. İmam

Hüseynin, Zeynəbin, Fatimənin, Səkinənin obrazlarını ifa edən şəbihçi aktyorlar son dərəcə gözəl libaslar geyinirdilər. İmkanlı adamlar zinət əşyalarını, qiymətli xalçalarını, al-əlvan xeymələrini (çadırlarını), say-seçmə atlarını, dəvələrini şəbih tamaşalarının təmtəraqlı keçirilMəsmə peşkəş edirdilər.

İmam Hüseyn obrazının ifaçısı kimin yəhəri, üzəngisi, sağrısı, tapqırı, yüyəni al-əlvan qotazlarla bəzənən ağ atına minərdisə, bu, fəxr sayılırdı.

Xalq arasında "Əliəkbərin şəhid olması", "Həzrət Abbasın şəhid olması", "İmam Hüseynin şəhid olması", "Səkinənin vəfatı", "Qasımın nişanlısı Səkinənin ölümü", "Qasım Həsən oğlunun şəhadəti", "Əsirlərin qayıtması", "Tiflani-Müslüm", "Hürrün şəhadəti", "Fatimənin qətli", "Kərbəla davası", "Mədinə səfəri", "Əsirlərin Kərbəlaya daxil olmaları", "İmam Hüseynin 18 yaşlı oğlunun şəhadəti", "Müslümün kufədə qətli", "Kərbəla müsibəti", "Əlinin qətli" və bu kimi fаciə tamaşaları mövcuddur.

Müəyyən komediya janrlı şəbihlər də var. "Ömər cəhənnəmdə", "Tərs toy" və bu kimi satirik komediyalarda Kərbəla müsibətini törədənlər lağa qoyulub təhqir edilirlər. Həmin tamaşalarda Ömərin, Şümürün, ya da Yezidin geyimləri ayrılıqda ulağa qoyulur, şəbihçilər gülüş, söyüş və təhqirlərin müşayiəti ilə şəhəri dolanırdılar.

Azərbaycanda şəbihlər üçün qəmli, faciəvi qəsidələr, mərsiyələr, müxtəlif janrlı şeirlər yazan peşəkar şairlər olub. Onlardan Mollağa Bihudun (1832-1892), Baqir Ağamirzə Məhəmmədbağır Xalxalının (1830-1892), Valeh Gülablının (1776-1834), Novrəs Mirzənin (1846-1918), Məhəmməd Dilsuzun (XIX əsr) yaradıcılıqları xarakterikdir və əsərləri xalq arasında şöhrət tapıb.

Şuşada musiqiçi Xarrat Qulu, Bakıda peşəkar aktyor Rüstəm Kazımov şəbihgərdan kimi məşhur olublar və uzun illər bu sahədə fəaliyyət göstəriblər.

## ŞƏBİH TAMAŞALARININ HAZIRLANMASI

Şəbih tamaşalarının təşkilatçısına (rejissoruna) **şəbihgərdan** deyilir.

Şəbihgərdan özü əsas rolları ifa etməklə iştirakçılar arasında rol bölgüsü aparır. Şəbih oynanılan məkanın bütün tərtibatını, geyimlərin seçilməsini, qrim işlərini də baş şəbihgərdan görür. İmam övladlarına su verməyən Şümürün lal-dinməz obrazını, adətən, başqa millətdən olanlar oynayırlar.

Şəbih tamaşalarında şir, göyərçin kimi rəmzi obrazlardan istifadə edilir. Şir imam Hüseynin damarlarından axan qanın qoruyucusu, göyərçin isə mələklər rəmzidir.

Şəbihgərdan quruluş verdiyi tamaşalarda natural effektlərdən istifadə edir. Məsələn, mal bağırsaqlarına qan doldurulub əvvəlcədən hazırlanır.

Tamaşa vaxtı bu bağırsaqları şəhid olacaq yetmiş iki nəfərin boyunlarına, sinələrinə dolayırlar. Yezidin qoşunları onları qılıncdan keçirəndə dəhşətli mənzərə alınır, tamaşaçılar hönkür-hönkür ağlayırdılar.

Mücərrəd rəmz-effektlərdən də istifadə olunurdu. Belə ki, ortalığa bir ləyən su qoyulurdu. Şümürü oynayan şəbihçi də əli qılınclı onun yanında dayanırdı. Guya bu, Fərat çayıdır.

Yaxud, yerə sancılan bir neçə ağac budağı camaata xurma bağı kimi çatdırılırdı. Tamaşaçı bu rəmz effentləri təbii qəbul edir, onu da qanlı at cıdırının, döyüş səhnələrinin reallığı kimi qavrayırdı.

Şəbihçi aktyorlar susuzluq əzablarını, imam övladlarının keçirdəkləri psixoloji sarsıntıları həssaslıqla, bacarıq və məharətlə ifa edə bilirlər.

Uzun illər şəbih mərasimlərində, xüsusən əza qafiləsində dərvişlər də fəal iştirak ediblər. Onlar həm tək, həm də dəstə ilə şəhərləri, kəndləri dolanır, həyəcanlı səslə imamları vəsf edən qəsidələr oxuyur, Kərbəla müsibətləri barədə rəvayətlər söyləyirdilər.

Şəbihlər yay, yaz, payızın ilk aylarında açıq havada, məhərrəmlik ayı miladi təqvimlə qış günlərinə düşəndə qapalı yerlərdə göstərilib. Bu tamaşalarda çoxlu obrazlardan istifadə edilib və onların əksəriyyəti tarixi şəxsiyyətlər olublar. Onlardan daha çox işlənənlərini və müəyyən söz terminlərinin qısaca açıqlamasını vermək müəyyən aydınlıq yaradır.

**Əhlibeyt.** Şəbih tamaşalarında və əza qafiləsində imam Hüseynin arvad-uşağımı və ailə üzvlərini təmsil edən surətlər toplusuna deyilir.

**Əcsad.** Cəsəd, rəmzli müqəvvalar, kəsilmiş əl-qol, baş doldurulmuş xərəklər əza qafiləsində xüsusi yer tutur. Müqəvvalara qum doldurulur və ya saman təpılırdı. Onların hamısına bir yerdə əcsad deyilib və el arasında "əmvat" deyimi də var.

**Əşkal.** Təsvirlər toplusu və təsvirlərin təcəssümü anlamındadır. Şəbih açıq havada olanda dekor funksiyası daşıyan ağacları, əza xərəklərini, qapalı binada oynanılanda isə divarları Kərbəla, Məkkə, Mədinə təsvirləri çəkilmiş lövhələr bəzəyib. Əza qafiləsində belə lövhələr əllərdə bayraqlarla yanaşı gəzdirilib. Hamısı bir yerdə əşkal adlanıb.

**Təziyə.** Məhərrəmlik mərasiminə və onun ayrı-ayrı mərhələlərdə keçirilMəsmə verilən ümumi addır.

**Xeyməgah.** Məhərrəmlik mərasimlərində, xüsusən də şəbih tamaşalarında açıq havada imam Hüseynin və onun tərəfdarlarının yaşadıqları çadırlar (xeymələr) qurulurdu. Onların hamısına bir yerdə x e y m ə g a h deyilirdi.

**Sütun haşiyə.** Şəbih göstərilən yerlərdə ağaclardan və ya divarlardan üzərinə Quran ayələri yazılmış pərdələr asılırdı. Sütun haşiyə adlanan həmin pərdələrə ayələri xüsusi xəttatlar yazırdılar.

Sütun haşiyələri cazibəli, gözəgəlimli yerlərə bənd edirdilər. Həmin işin icraçılarına a s q ı ç ı deyilirdi.

**Təndirəcuzə.** Rəvayətlərdən birinə görə Şümür imam Hüseynin başını kəsib və təndirdə gizlədib. Təndirdən işıq saçıb və ətrafı nura qərq edib. Camaat bundan duyuq düşüb.

Məhərrəmlik mərasimində gəzdirilən əza qafiləsində təndirəcuzə modeli düzəldilir və xərəyin üstünə qoyularaq nümayiş etdirilirdi.

**Mərsiyəxan.** Məhərrəmlik təziyələrinin davam etdiyi otuz doqquz-qırx gündə müxtəlif mərasimlərdə mərsiyələr deyilirdi. Mərsiyəni gözəl səsli, şaqraq avazlı, əruzun mahir biliciləri söyləyirdilər. Onların ustadları mərsiyəxan çağırılırdılar.

**Zülfüqar.** Həzrət Əlinin ikiağızlı qılıncının adıdır. Zülfüqar şəbih tamaşalarının bəzəyi sayılır.

**Ziyarətnamə.** Şəbih tamaşalarının bəzən əvvəlində və əsasən, qurtarandan sonra xüsusi şəbihgərdanlar on iki imamın müqəddəs ruhları şərəfinə, onların xatirələrini ehtiramla yad etmək məqsədilə birgə dualar və ya mədhiyyələr oxuyurdular. Tamaşaçıların əksəriyyəti onlara vagirlik edirdilər. Bu, ziyarətnamə adlanırdı. Bununla şəbih tamaşalarının sona çatdığı bildirilirdi.

**Zinpuş.** Bu, imam Hüseynin Zilcənah adlı atının çulunun rəmzidir. Əza qafiləsində həm əllərdə gəzdirilir, həm də atın belinə atılıb tamaşaya toplaşanlara göstərilirdi.

Zilpuş al qana boyanır, üstünə qırmızı rəngli səksən səkkiz ox bənd edilirdi. Oxlar ona edilən amansız zülümlərin, verilən dəhşətli işgəncələrin rəmzi idi. Zilpuşun dövrəsmdə müəyyən tamaşalar oynanılır, qəmli şeirlər söylənilirdi.

Əli. Müəyyən şəbih tamaşalarında Əli ibn Əbutalıb (şiələrin birinci imamı və ilk müqəddəs dörd xəlifənin axırmcısı) teyf kimi iştirak edirdi. Onun üzündə mütləq ağ niqab olurdu.

Din xadimləri Əlini "Şahimərdan", "Əli Mürtəza", "Həzrət Əli" deyimləri ilə də ehtiramla şərəfləndirirdilər.

**Fatimə.** Məhəmməd peyğəmbərin sevimli qızı, Həzrəti Əlinin arvadı və imam Hüseynin anasıdır. Şəbih tamaşalarında o da üzü niqablı, teyf şəklində görünürdü. Tamaşaların çox müqəddəs obrazlarından sayılır.

**Zeynəbxatun**. Şəbih tamaşalarında böyük ehtiram və məhəbbətlə ifa olunan qadın obrazlarından biridir. İmam Hüseynin bacısının taleyini təcəssüm etdirən surətdir.

Əza qafiləsində Zeynəbxatunun iki oğlunun nəşi gəzdirilirdi. Onlar qara geyimdə olurdular. Zeynəbxatun obrazının ifaçısı da başdan-ayağa qara libas geyinirdi. Ya xərəyin gəzdirildiyi arabada otururdu, yaxud da arabanın ardınca gedə-gedə ucadan və təsirli avazla ağlayırdı.

**Yezid (Yəzid).** Xəlifə Müaviyyənin oğludur. Kərbəla müsibəti Yezidin xəlifəliyi dövründə törədilib.

Yezid şəbih tamaşalarında az iştirak edir. Lakin şəbihlər göstərilən zamanda, əza qafiləsinin gəzdirilmə mərasimində, qafilə iştirakçılarının oyun-tamaşalı yürüşlərində Yezidin adı tez-tez və lənətlə çəkilir. Ünvanına qəzəblə söyüşlər və lənət-lər yağdırılır.

Yezid rolunu ifa edən şəbihçi başına şəbkulah qoyur və yaşıl çalma vururdu. Əyninə sarı, üstündə qara ləkələr olan xalat geyinirdi. Ətrafdakılarla çığır-bağırla danışırdı.

**Şümür.** Xəlifə Yezidin qoşun başçısı olub. Şəbih tamaşalarının ən mənfi personajlarından sayılır. Tamaşalarda Şümürün mindiyi at mütləq qara olurdu. Onun ifaçısı başına dəmir dəbilqə qoyur, zirehli libas geyinirdi. Şümür tamaşa boyu imam əshabələrini qətlə yetirdikcə vəhşətlə qəlıqəhələr çəkirdi.

**Küffar qoşunu.** Dinsizlər, kafirlər qoşunu kimi səciyyələnir. Bu rollarda çıxış edən şəbihçilər qara atlara süvar olurdular. Bəzən onlara şümür qoşunu da deyilirdi.

Şəbih tamaşalarında yaraqlı olan küffar qoşununun döyüşçüləri başlarına əlvan yaylıqlar bağlayır, əllərindəki nizələrin ucuna insan "başları" keçirirdilər. Libasları qıpqırmızı, qan rəngində parçadan tikilirdi. Orılar əza qafiləsində bəzəkiİ dəvələrə minirdilər, hərəkətlərini musiqi müşayiət edirdi.

Küffar qoşunu iştirakçılarının rollarında çıxış edən şəbihçilər üçün dinamik, çılğın, əndazədən kənar hərəkətlər səciyyəvi idi.

**Cinnicəfər qoşunu.** Bəzi şəbih tamaşalarında imam Hüseynə öz köməklərini təklif edən silahlı, ərəb geyimli dəstə belə adlanırdı. Bir qayda olaraq, Cinnicəfər qoşunu dəstəsindəki

döyüşçülərin rollarında uşaqlar oynayırdılar. Şəbihgərdan onlara kömürdən bığ və saqqal çəkirdi. Tamaşa daxilindəki davranışlarında pərakəndəlik, nizamsızılıq gözə çarpırdı və bu, hadisələrə təbiilik gətirmək naminə edilirdi.

Şəbih tamaşaları və dərviş zikrləri üçün tikilən binaya təkyə deyilib. Təkyə sözü ərəbcə "söykənmə", "istinadetmə" mənalarını verir.

Şəbih tamaşalarının qış aylarında və əsasən, axşamlar göstərilməsi üçün müvəqqəti qurulan, səhnəyəbənzər meydançası olan yerlərə şuraxana, qəməriyyə, mahtab adları verilib.

Şəbih tamaşalarının keçirilməsini, onlara çəküəcək bütün xərcləri öz üzərinə götürən mömin adam tənyədar adla-nıb.

Şəbih tamaşaları üçün istifadə olunan bədii mətnlərin təziyənamə adı da var.

Səyyar əza qafiləsinin hər bir oyunçusu əzadar deyə çağırılıb.

Əza qafiləsi özünün mərasimini gecə də davam etdirəndə öndə məşəlçilər gedirdilər.

Üzərində "Qasım otağı" və bu tipli məkanlar quraşdırılan xərəklər çoxlu əzadarın çiyinlərində aparılırdı. Xərəyə el arasında təxtirəvan da deyilirdi.

Şəbihgərdanlar, şəbih tamaşalarında oynayanlar gərdun adı ilə də tanınırdılar.

Milli teatrın romantik faciə qolunun poetika göstəricilərini və estetik prinsiplərini daha dərindən öyrənmək üçün şəbih oyunlarının bədii, nəzəri əsaslarına da yiyələnmək lazımdır.

Şəbih tamaşalarında çağdaş teatr üçün səmərəli ola biləcək kifayət qədər ifadə vasitələri, forma elementləri vardır.

**MİRZƏ FƏTƏLİ AXUNDZADƏ**
**(1812-10.3.1878)**

Milli peşəkar Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadə sayılır. O, görkəmli ictimai xadim, filosof-estetik və yazıçı olub. Fəlsəfə elminə "Kəmalüddövlə məktubları" traktatını (1865), "Həkimi-ingilis Yuma cavab", "Yek kəlmə haqqında" kimi əsərlərini bəxş edib.

Yazıçılığının dörd şaxə-qolu var. "Səbuhi" təxəllüsü ilə şeirlər yazıb. Bu janrda məşhur əsəri "Puşkinin ölümünə Şərq poeması" (1837) sayılır. Klassik janrlarda lirik, ictimai-sosial və satirik şeirlər yazıb.

Nəsr janrında "Aldanınış kəvakib" (1857) kimi inci yaradıb. İkinci adı "Hekayəti-Yusif şah" olan bu əsər realist nəsrimizin ilk nümunəsi sayılır. Bu əsərində yazıçının arzuladığı cəmiyyət haqqında, dövlətçilik, elm və təhsil, mənəvi-əxlaqi problemlər barədə fikirləri öz təcəssümünü tapıb.

Müxtəlif mövzularda fəlsəfi-estetik məqalələr, dramaturgiyaya, poeziyaya aid nəzəri əsərlər yazıb. "Nəzm və nəsr haqqında", "Tənqid risaləsi" (1862), "Mirzə Ağanın pyesləri haqqında kritika" (1871) əsərləri fikir dərinliyinə, forma xüsusiyyətlərinə, məzmun səciyyələrinə görə dəyərlidirlər.

Bütün bunlarla yanaşı, Mirzə Fətəli Axundzadə həm milli, həm də dünya ədəbiyyati tarixində dramaturq kimi daha əzəmətli yer tutur. "Hekayəti-Molla İbrahimxəlil kimyagər", "Hekayəti-Müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah cadukünі-məşhur", "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (1850), "Hekayəti-xırs quldurbasan" (1851), "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qa-ra" 1852) və "Mürafiə vəkillərinin hekayəti" (1855) komediyalarını yazıb. Bu əsərlər ədəbiyyat tariximizdə asan və qısa şəkildə "Mola İbrahimxəlil kimyagər", "Dərviş Məstəli şah" (və yaxud "Müsyö Jordan"), "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", "Hacı Qara" və "Mürafiə vəkilləri" kimi yazılır. Dramaturq komediyaları hamısı bir yerdə "Təmsilat" adlanır.

* * *

Mirzə Fətəli Mirzə Məhəmmədtağı oğlu Axundzadə 1812-ci ildə Azərbaycanın Nuxa (indiki Şəki) şəhərində doğulub. Atası nəslən Təbriz şəhəri yaxınlığındakı Xəmnə kəndindəndir. Babası Xəmnənin kəndxudası olub. Mirzə Məhəmmədtağı, əsasən, ticarətlə məşğul olub və Şəkiyə də bu məqsədlə gəlib. Burada Fətəlinin iki yaşı olanda atası və anası Nanə xanım ticarət işləri ilə bağlı Şəkidən Xəmnə kəndinə köçüblər. İki yaşlı Fətəli də onlarla gedib və yeddi il Xəmnədə yaşayıb. Burada ilk dini təhsil alıb. Anası ərindən boşanandan sonra oğlunu da götürərək 1821-ci ildə Şəkiyə qayıdıb.

Şəkidə uşağın tərbiyəsi ilə anasının əmisi, dini savadına görə hörməti uca tutulan Axund Hacı Ələsgər məşğul olub. O, Fətəlini oğulluğa götürüb və ona dini təhsil verməyə başlayıb. Axund Məkkəyə Həcc ziyarətinə gedəndə Fətəlini dini təhsilini davam etdirmək üçün 1832-ci ildə Gəncə şəhərinə gətirib. Burada onu Molla Hüseyn Pişnamazzadəyə tapşırıb və xahiş edib ki, o, uşağa fiqlı (şəriət elmi) və məntiq dərsi versin. Fətəli Gəncədə, eyni zamanda şair Mirzə Şəfi Vazehlə tanış olub, onun klassik poeziyaya aid dəyərli söhbətləri sayəsində lirikaya maraq göstərib.

Həcc ziyarətindən qayıdandan sonra Axund Hacı Ələsgər onu yenidən Şəkiyə gətizdirib. Fətəli şəhərdə yenicə açılmış rus məktəbinə gedib və burada bir il oxuyub. 1834-cü ildə gələcəyin böyük dühası hamisi ilə birgə Qafqazın inzibati mərkəzi sayılan Tiflisə gəlib. Axundun hörmət və izzəti sayəsində Fətəli Axundzadə Qafqazın baş hakimi baron Rozenin dəftərxanasında işə girib. Onu mülki işlər üzrə Şərq dilləri mütərciminin şagirdi vəzifəsinə götürüblər. Tezliklə iş yerində və camaat arasında böyük hörmət qazanıb və ehtiram əlaməti olaraq onu "Mirzə" deyə çağırıblar.

Mirzə Fətəli Axundzadə 1836-cı ilin dekabr ayında şəhərin "qəza məktəbi" adlanan təhsil ocağına müəllim işləməyə dəvət alıb. Dörd ilə yaxın (1840-cı ilin sentyabrına kimi) burada azərbaycanlı balalarına fars və ana dillərini tədris edib.

Yenidən Qafqaz canişinliyinə böyük qulluğa çağırılan Mirzə Fətəli uzun illər burada çalışmış, Rusiya-İran və Rusiya-Türeiyə siyasi-diplomatik məsələlərində tərcüməçilik etmişdir. Tərcüməçilikdə polkovnik rütbəsi vəzifəsinə kimi yüksəlmişdir. Eyni zamanda rus dilinə mükəmməl yiyələnməklə dünya ədəbiyyatının klassik sənətkarlarının yaradıcılıqları ilə yaxından tanış olub. O cümlədən də fransız ədibi Jan Batist Molyerin dramaturji irsini öyrənib və qəlbində ədəbiyyatın dram janrına böyük maraq oyanıb. Elə bu maraqdan da ədəbiyyatımızda yeni janrın təməli qoyulmuş, mədəniyyat tariximiz "Təmsilat" kimi inci ilə zənginləşmişdir.

Mirzə Fətəli Axundzadə 10 mart 1878-ci ildə ağır ürək xəstəliyindən vəfat edib. Özünün vəsiyyətinə görə onu Tiflisdə, müəllimi Mirzə Şəfi Vazehin məzarı yanında dəfn ediblər.

* * *

"Molla İbrahimxəlil kimyagər" Mirzə Fətəlinin ilk komediyasıdır. Elə ilk komediya da onun müəllifinin feodal cəmiyyətinin çürümüş mənəvi-əxlaqi problemlərinə, fanatizinə, nadanlığa, miskin həyat tərzinə, kiflənmiş düşüncə tərzinə qarşı hansı işıqlı mübarizə mövqeyində durduğunu göstərib. Dramaturq sadə süjet əsasında qurulmuş həyati hadisələrin özünü və o hadisələr içərisində formalaşan bədii xarakterləri, koloritli personajları bütün tipik səciyyələri ilə təqdim edib.

Bir dramaturq kimi Mirzə Fətəli Axundzadəni həmişə hansısa fırıldaqçının əməllərinin nəticəsi deyil, onu doğuran səbəblərin, ictimai bəlaların ifşası maraqlandırıb. Məhz bu mövqedə o, həm görkəmli maarifpərvər, həm də sənətkar estetikasının fəlsəfi-psixoloji xassələrinə görə realist satirikdir.

Pyesdə fırıldaqçı Molla İbrahimxəlil misi gümüşə çevirə bilmək "məharəti" ilə varlanmağa həris, avam adamları aldadıb pullarını əllərindən alır. Misin gümüşə çevrilməməsinin səbəbini isə onların meymunu yadlarına salmaları bəhanəsində görür. Bu gülməli, bu məsxərəvari hadisə avantürist Molla İbrahimxəlilin və onun köməkçisi Molla Həmidin çirkin əməlləri kimi səciyyələnmir. Burada əsil mətləb daha dərin qatlardadır. Axundzadənin ifşa hədəfi ictimai mühit, pas atınış düşüncələr,
nadanlıq, xurafat, xudbin ehtiraslar, mənəvi rəzilliklər, əbləhlik, acgözlük ehtirasının doğurduğu vəhşətlərdir. Dramaturq bütün bunların meydana çıxmasını və fırıldaqçılığın tüğyan etməsini cəmiyyətin durğunluğu ilə bağlayıb.

"Molla Ibrahimxəlil kimyagər" komediyasında qoyulan kəskin ictimai-sosial, mənəvi-əxlaqi problemlər dramaturqun sonrakı dram əsərlərində daha mürəkkəb həyat hadisələri zəminində, daha kəskin Konfliktlər əsasında işlənib. "Dərviş Məstəli şah" dramının qəhrəmanı mənəvi baxımdan Molla İbrahimxəlillə qohumdur, doğmadır. Lakin dramaturq bu bənzərliyi mənəvi cəhətdən götürüb, obrazın bədii təsvirinə görə isə fal qurub cadu-piti ilə cibləri soyan Məstəli şah milli dramaturgiyamızda orijinal dramaurji obrazdır.

Dərviş Məstəli şah da sırf real cəmiyyətin real sosial-ictimai tipidir. Buna görə də Mirzə Fətəli Axundzadə bilərəkdən Məstəli şahın "Parisi dağıtmaq" hoqqasını Komediyanın sonuna keçirib. Belə bir bədii fəndlə və dramaturji üslubla ədib cəmiyyətin "Molla İbrahimxəlil KİmyagƏr" komediyasında görmədiyimiz tərəflərini daha satirik səpkidə təsvir edib. Avropa və Asiya həyat tərzlərinin mahiyyətini və bu mahiyyətin şüurlara təsirini açıqlayıb. Avropa tipinin xarakterik nümayəndəsi olan Müsyö Jordan obrazını yaradıb. Digər tərəfdən, artıq bu məsxərədə təkcə bir şəhərin ("yəni nuxuluların") tipik nümayəndəsinin deyil, böyükbir mahalın - Təklə Muğanlı obasının məşhur bəyinin (Hatəmxan ağa), Avropaya, mədəniyyət işığına meyl göstərən (Şahbaz bəy) gəncin bitkin obrazları yaradılıb. Ən əsası isə, Axundzadə bu komediyasında mövcud ictimai müsibətləri, şüurların kəsafətini, savadsızlığın törətdiyi miskinliyin sarsıdıcı daxili xüsusiyyətini qadın obrazları vasitəsilə verib. Dramaturqun qüdrəti bir də orasındadır ki, milli ədəbiyyatımızda ənənəsi olmayan bir janrda belə bitkin, belə canlı, belə real və belə dadlı-duzlu, şirəli xarakterlər, o cümlədən qadın surətləri yarada bilib.

Düzdür, bu qadınlar dar bir məkanm, yəni Hatəmxan ağanın həndəvərinin təmsilçiləridir. Lakin dramaturq məhz bu "dar" çərçivədə elə ustalıqla bədii personajlar verib ki, elə bunlar da o dövrün ictimai mənzərəsində qadın və cəmiyyət probleminin hərtərəfli üzə çıxması üçün kifayət edib. Şəhrəbanu xanım Hatəmxan ağanın arvadıdır, qırx beş yaşı var. On aitı yaşlı Şərəfnisə xanım və doqquz yaşlı Gülçöhrə onların qızlarıdır. Xanpəri isə Şərəfnisə xanımın dayəsidir və qırx yaşı var. Bu dayəlik Avropadaki kimi elm-savad öyrədən, əxlaqi keyfiyyətlər aşılayan dayələrdən deyil. Əsilində bu dayə kütlük və nadanlıqda, miskin zavallılıqda Şəhrəbanudan heç nə ilə fərqlənmir. Məhz belə bir ictimai panoramda Mirzə Fətəlinin cəmiyyət və qadın problemi daha əzəmətli görünür, satira sırf sosial məna daşıyır.

Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyası müəyyən mənada tarixi xarakter daşıyır. Lakin dramaturqun bu komediyası Azərbaycanın tipik surətlərini indi də siyasi-ictimai kontekstdə, kinayəli sarkazmla, kəskin satira ilə cilalanan və eyni zamanda vəziyyət komediyası janrının estetik prinsiplərinə əsaslanan forma-üslubda yazılıb. Dramaturq tarixi hadisələrin müasir dövrün insani psixologiyası, çağdaşlarının primitiv dünyagörüşləri, zamanm məişət abı-havası ilə həssaslıqla əlaqələndirə bilib. Eyni zamanda komik hadisələrə kəskin ictimai motivlər aşılaya bilib.

Ən əsası isə odur ki, Mirzə Fətəlinin bədii personajları bu komediyadaki xarakterlərlə daha da dolğunlaşdı. Oxucular dramaturqun obrazlar palitrasında yeni rənglər kimi görünən kütbaş Lənkəran xanı, riyakar vəzir Mirzə Həbib, cəngavər təsiri bağışlayan Teymur ağa, diribaş və gözüaçıq Şölə xanım, əbləh mehtər Kərim, tədbirli görünməyi ilə kürəkəninin başına oyun açan Pəri xanım, bəd əməllərinə görə səksəkədə olan tacir Hacı Salah, dinməz olduğu qədər də vahiməli təsir bağışlayan xacə Məsud surətləri ilə rastlaşdılar. Başlıcası isə odur ki, Axundzadə "LənKəran xanmm vəziri" komediyasıda da tənqid hədəfinə aldığı personajları əsil məsxərə estetikası, məzhəkə oyun-tamaşa poetika prinsipləri ilə canlandırıb.

İlk üç pyesindən bir il sonra yazdığı dördüncü dram əsərində Mirzə Fətəlinin zahirən əyləncəli görünən, lətifəvari təsir oyadan hadisələrin dərin qatlarında yenə də cəmiyyətin kəskin problemləri təsvir olunub. Əlbəttə ki, yeni mövzu-problematikada, yeni hadisələr burulğanında və əlbəttə ki, yeni bədii personajlar vasitəsilə. "Xırs quldurbasan" komediyası həyati olduğu qədər də canlı, gülməli, həyat nəfəslidir, cazibəli və əyləndiricidir. Həyatın real hadisələrini reallıqla təsvir etmək məharəti bu komediyada da Axundzadənin sənətkarlıq üslubunun estetik xüsusiyyəti kimi səciyyələnir.

Məişət komediyası janrı "Xırs quldurbasan" səhnə əsərində əvvəlki pyeslərdən tamam fərqli rakursdan və tamam fərqli bədii-estetik məziyyətlərlə təcəssüm tapıb. Cəmiyyətdəki ictimai bərabərsizlik, sosial bərabərsizliyin eybəcər fitnə-fəsadları həm satirik, həm də yumorlu ifadə vasitələri ilə qələmə alınıb. Bir zümrənin özbaşınalığı ilə itaətə məhkum olan başqa zümrənin mütiliyi qarşılaşdırılıb və bu toqquşmada, bu müstəvidə mövcud cəmiyyətin rəzillikləri gülüş hədəfinə çevrilib.

"Xırs quldurbasan" komediyasında təsvir olunan Pərzad dramaturqun əvvəlki qadın tiplərinin yeni və bir qədər təzə səciyyələr daşıyan personajıdır. Bu komediyada Zalxa və Sona yeni bədii tutumlu obrazlar olduğu kimi, Tarverdi və Divanbəyi, yasavul Kərim, dilmanc Kamalov, Vəli Xatunoğlu, Oruc Nəsiboğlu, Koxa, Matvey surətləri tamam təzə personajlardır.

Dramaturq bundan əvvəlki pyesində fransız Müsyö Jordanla iranlı Məstəli şahı üz-üzə gətirməsə də, bir müstəvidəki hadisələr zəminində bağlayıb. Bu bağlamaqla da çox gülməli vəziyyət komediyası yaradıb. "Xırs quldurbasan"da isə daha çevik formadan istifadə etməklə vəziyyət komediyasını daha sərt məişət olayları ilə daha canlı, daha gülməli və daha gözlənilməz finallı təqdimdə işləyib. Pərzadın sevgisini "qazanmaq" üçün karvan soymağa çıxan qorxaq Tarverdi təsadüfən yol keçən, milliyyətcə alman olan, hafizi-canəvarən Frans Foxtla rastlaşır. Elə əsil mərəkə də bundan sonra başlayır. Yenə də biz Avropa və Şərq şüur-əxlaq və məişət davranışı əksliklərinin gülüş doğuran, sarkazınla yoğrulmuş bədii təsviri ilə rastlaşırıq.

Öyüd-nəsihət verən, insanları pis və bəd, yaramaz və rəzil əməllərdən çəkinməyə çağıran Divanbəyi obrazı Mirzə Fətəlinin "Hacı Qara" komediyasında Naçalnik surəti kimi verilib. Lakin bu komediyasından əvvəl dramaturq bir qədər də siyasi-ictimai səciyyə daşıyan "Lənkəran xanının vəziri" əsərini tamamlayıb.

"Mürafiə vəkilləri" (bəzən "Təbriz vəkilləri" yazılıb) Mirzə Fətəlinin sonuncu dram əsəridir. Dramaturqun bu pyesi 1855-ci ildə yazılıb və komediyadan daha çox dram janrının estetik tələblərinə daha yaxındır. Mirzə Fətəli burada yaşı on səkkiz olsa da, dərrakəsİ, dünyaya açıq gözlə baxması, qətiyyəti, iradəsi ilə seçilən Səkinə obrazı yaradıb. Məhz bu insani keyfiyyətlərinə görə o, nadürüst, haramzada Təbriz vəkilləri ilə mübarizədə, insanlıq haqqı, varislik haqqı, sevib-sevilmək haqqı uğrundakı çətin mübarizədə qalib gəlir.

Mirzə Fətəli Axundzadə əvvəlki beş komediyasında rast gəlmədiyimiz, lakin cəmiyyət üçün xarakterik olan vəkillər Ağa Salman və Ağa Mərdan, bazar darğası Hacı Rəcəbəli, ləçər, bihəya və riyakar Zibeydə, pullu tacir olan, amma haqq mübarizəsində uduzan Ağa Həsən kimi bədii obrazlar yaradıb.

Mirzə Fətəli Axundzadənin komediyaları ("Təmsilat"ı) milli ədəbiyyatımızda yeni janrın bünövrəsmi qoyub.

Mirzə Fətəli Axundzadənin pyesləri Azərbaycanda qüdrətli dramaturqların yetişib-formalaşmaları üçün təməl olub.

Mirzə Fətəli Axundzadənin dram əsərləri dövrün ictimai-sosial mənzərəsini bədii reallıqla, xarakterik həyat hadisələri ilə təcəssüm etdirib.

Mirzə Fətəli Axundzadənin komediyaları öz dövrünün ən tipik insan xarakterlərini, cəmiyyətin təzadlı zümrələrinin koloritli təsvirini təbii boyalarla gələcək nəsillərə çatdırıb.

Nəhayət, Mirzə Fətəli Axundzadənin komediyaları milli peşəkar teatrımızın təşəkkülü və inkişafı, geniş yayılması və ayrı-ayrı sənət ocaqlarının formalaşması üçün münbit zəmin olub və ölməz ənənə kimi ləyaqətlə davam etməkdədir.

## PEŞƏKAR TEATRIN TƏŞƏKKLÜ

Milli xalq oyun-tamaşalarımızın tarixi neçə min illər əvvələ bağlı olsa da, peşəkar teatrımızın yaranması və təşəkkülü XIX əsrin ortalarından o yana gedib çıxmır. Bu tarixin özündə də hələ dürüstləşdirilməyən məqamlar qalmaqdadır.

1841-ci ildə Qarabağın incisi sayılan Şuşa şəhəri qəza mərkəzinə çevrilib. Bununla bağlı şəhərdə inzibati idarə binaları ilə yanaşı, mədəniyyət obyektləri də tikilməyə başlayıb. Şəhər teziiklə Qafqazın mədəniyyət mərkəzlərindən birinə çevrilib. On doqquzuncu əsrin qırxıncı illərində Şuşada Lamberkerin sirk binası fəaliyyət göstərib. Burada musiqi məclisləri də qurulub. "Kavkaz" qəzetinin 1848-ci ildə çıxan 43-cü sayında "A.S." imzalı şəxs yazır ki, şuşalılar estetik cəhətdən inkişaf ediblər, incəsənəti dəra edə bilən zövqə malikdirlər. Gözəl dekorasiyalarla göstərilən teatr tamaşalarına əhali həvəs və maraqla baxır. Teatr salonunda bəzəkii lojalar qurulub və şəhərin tamaşalar oynayan bacarıqlı teatr həvəskarları vardır. Təəssüflər olsun ki, məqalə müəllifi oynanılan tamaşanın bədii mətni və təşkilatçıları, ifaçıların kimliyi, oyunların nə vaxtlar və hansı prinsiplərlə göstərildiyi barədə məlumat verməyib. Arxivlərdə də bu barədə tutarlı tarixi sənəd əldə etmək, hələ ki, mümkün olmayıb.

Azərbaycanda ilk teatr binalarından birinin də qədim tarixə malik və XIX əsrdə quberniya mərkəzi olan Şamaxıda tikildiyi məlumdur. Teatr (bunu əyləncə evi kimi də qəbul etmək olar) binasının qurulduğu və orada tamaşa oynanıldığı barədə "Kavkaz" qəzetinin 6 iyul 1858-ci il tarixli sayında məlumat var. Orada yazılıb ki, Şamaxı ziyalıları 1857-ci il dekabrın 6-da xeyriyyə məqsədilə tamaşa veriblər. Tamaşadan əvvəl dekorasiyalar çəkiblər, tələm-tələslk afişalar yazıblar. Dalbadal beş tamaşa oynanılıb. Bina darısqal və tamaşa göstərilməsi üçün əlverişsiz olduğuna görə ziyalılar şəhərdə məxsusi teatr binası tikməyi qərarlaşdırıblar.

Teatr binasının inşası üçün şəhər knyazı vasitəsilə qubernatordan icazə alnıb. Şamaxının əsas küçələrindən birində bu məqsədlə mağazalar kompleksi yerləşən bina seçilib. Şəhərin mütərəqqi fikirli gənc ziyalısı Ata bəy Zeynal bəy oğlu mağazaların sahiblərinin pullarını ödəyib. Eyni zamanda teatr binasının inşası, daha doğrusu, qurulması üçün könüllü Şəküdə külli miqdarda ianə verib. Şəhərin baş memarının müavini Qasım bəy binanın yenidən qurulmasını öhdəsinə götürüb. Bir aya mağaza teatr tamaşası göstərmək üçün yararlı hala salınıb və hətta salonun sağ-solunda 14 loja qurulub.

"Kavkaz" qəzetinin yazdığına görə, 1858-ci il aprelin 17-də həmin binada ilk teatr tamaşası göstərilib. Qəzet onu da yazır ki, teatr binasını tikənlər və burada tamaşa göstərən səhnə həvəskarları (artistlər) tamaşaçılar tərəfindən alqışlarla qarşılanıblar.

Təəssüflər olsun ki, nə 1840-ci illərdə Şuşada, nə də 6 dekabr 1857-ci ildə və yaxud 17 aprel 1858-ci ildə Şamaxıda göstərilən tamaşaların hansı əsərlər əsasında oynanıldığı, kimlər tərəfindən hazırlandığı, ifaçıların kimliyi barədə əlimizdə heç bir sənəd (afişa, proqram, məlumat-resenziya və sairə) yoxdur. Ona görə də milli peşəkar teatrımızın təşəkkül tarixini nə 1857-ci ildən, nə də 1858-ci ildən götürmək elmi-tədqiqi cəhətdən, tarixi dürüstlük baxımından, hələ ki, əsassızdır. Bəlkə də, nə vaxtsa həmin tamaşaların göstərilmə tarixlərini təsdiqləyən sənədləri əldə etmək mümkün oldu. Onda milli peşəkar teatrımızın tarixini 15-20 il irəli çəkinəyə mənəvi və tarixi haqqımız olar.

XIX əsrin ikinci yarısından başlayaraq, neft sənayesinin inkişafı sayəsində Bakının mədəni həyatında dirçəliş başlayıb. Şəhərdə məktəblər açılıb, rus dilində tamaşa-konsert müəssisələri yaradılıb. Bu məktəblərdən biri də azərbaycanlı uşaqların təhsilləri üçün nəzərdə tutulmuş realnı məktəb (gimnaziya) idi. Məktəbin şagirdləri müntəzəm olmasa da, hərdən rus dilində oynanılan teatr tamaşalarına baxırdılar.

Növbəti dəfə 1873-cü ildə Bakı realnı məktəbin son şinif şagirdi, gələcəyin görkəmli dramaturqu Nəcəf bəy Vəzirov teatr tamaşasma baxıb. O, ana dilində tamaşa hazırlamaq qərarına gəlib və flkrini görkəmli maarifpərvər, iki il sonra Azərbaycan dilində ilk nəşr sayılan "Əkinçi" qəzetinin (1875) redaktoru və naşiri olan Həsən bəy Zərdabiyə bildirib. Zərdabi Mirzə Fətəli

Axundzadənin "Təmsilat"ını oxuyub tanış olmaq və oynamağa bir məsxərə seçmək üçün ona verib. Nəcəf bəy Vəzirov dramaturqun "Lənkəran xanının vəziri" komediyasını seçib. Tezliklə məhz onun rəhbərliyi və təşkilatçılığı (çağdaş dillə rejissorluğu) ilə şagirdlər əsəri tamaşaya hazırlamağa başlayıblar. Həsən bəy Zərdabi məşqlərdə pedaqoq kimi, nəzarətçi sifətilə iştirak edib və hazırlıq prosesinə məsuliyyəti öhdəsinə götürüb.

"Lənkəran xanının vəziri" tamaşası Novruz bayramı münasibətilə hazırlanıb. İlk tamaşa mart ayının 10-da "Nəciblər klubu" binasında ("Sobraniye" binası da adlanıb) göstərilib. Afişada əsərin adı "Sərgüzəşti-vəziri-xani Sərab" yazılıb.

Milli mədəniyyətimizdə yeni səhifə açan teatr tamaşasında əsas rolları məktəbin şagirdləri Əlyar (Lənkəran xanının vəziri), Səməd (vəzir Mirzə Həbib), Nəcəf (Ziba xanım), Əsgər (Nisə xanım) oynayıblar. İlk afişada göstərilən "Nəcəf" Nəcəf bəy Vəzirov, "Adıgözəl" isə gələcəyin ictimai xadimi və bir neçə pyes yazan Əsgər ağa Haqverdi oğlu Adıgözəlov Goranidir.

Tiflisdə çıxan "Kavkaz" qəzeti 25 mart 1873-cü ildə çıxan sayında ilk milli teatr tamaşası barədə ətraflı məlumat verib. Qəzet yazıb ki, teatr tamaşası hazırlamaqda məqsəd o olub ki, müsəlman əhlinə zövq verilsin. Həm də yığılan pul xeyriyyə məqsədinə sərf olunsun. Tamaşadan 150 manat pul yığılıb. Maraqlıdır ki, teatr tamaşalarından yığılan pulun xeyriyyəyə sərf olunması, kasıb şagirdlərə məsrəf edilməsi həmin vaxtdan ənənə şəklini alıb.

Beləliklə, **10 mart 1873-cü il Azərbaycan milli peşəkar teatrının doğum günü sayılır**. Bu tarix, həmçinin Akademik Milli Dram Teatrının təşəkkül tarixi kimi qəbul olunub. Çünki Bakıdakı bütün mövcud həvəskarlar truppaları uzun illər müstəqil fəaliyyətdən sonra məhz 1919-cu ildə birləşərək "Dövlət Teatrosu" ("Hökumət Teatrosuo da adlanıb) kimi institusional mədəniyyətin faktına çevrilib. Bu barədə aşağıdakı dərslərdə daha geniş məlumat veriləcək.

İlk işlərindən ruhlanan və müəllimlərinin təşəkkürlərini qazanan şagirdlər elə bu il aprel ayının 17-də daha bir tamaşa hazırlayaraq oynamışlar. Növbəti tamaşa üçün Mirzə Fətəli Axundzadənin "Hekayəti-sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara") komediyası seçilib. Bu tamaşanın da əsas təşkilatçısı Nəcəf bəy Vəzirov olub.

Həsən bəy Zərdabi tamaşaların hazırlanıb oynanılması barədə Tiflisdə yaşayan Mirzə Fətəli Axundzadəyə 1873-cü il iyunun 13-də məktub yazıb. Zərdabi öz məktubunda bildirib ki, bizim tamaşaçılar hissləri qıcıqlandıran hadisələrə daha çox meyillidir. Vəd edib ki, payızda tələbələr (şagirdlər) qayıdanda dramaturqun təzə əsərini tamaşaya hazırlayacaqdır.

Azərbaycan dilində teatr tamaşaları oynanılmasından müəyyən təşvişə düşən senzor Mirzə Fətəli Axundzadənin pyeslərini daha "diqqətlə" oxumağa başlayıb. Hətta bəzi komediyalarda, cüzi də olsa, bəzi ixtisarlar edəndən sonra onları oynamağı izinli sayıb.

"Lənkəran xanının vəziri" və "Hacı Qara" tamaşalarından sonra Bakıda bir müddət azərbaycanca əsərlər oynanılmadı. Bunun da əsas səbəbi o idi ki, Nəcəf bəy Vəzirov Peterburqa (sonra Moskvaya) ali təhsil almağa getmişdi. Həsən bəy Zərdabi isə əsas gücünü və səyini ana dilimizdə ilk qəzetin çap olunmasma icazə verilMəsmə sərf edirdi. Əsgər ağa Gorani də Moskvanın Razumovski adına kənd Təsərrüfatı Akademiyasma qəbul olunmuşdu.

Bakı şəhərindən bu fədakarlıq təşəbbüsünün sorağı həm Azərbaycanın, həm də Qafqazın soydaşlarımız sıx yaşayan şəhərlərinə də çatdı. Oralarda yaşayan ziyalılarımzda da tamaşalar oynamağa maraq və həvəs oyandı. Bir-birinin ardınca Tiflisdə (əvvəlcə 1873-cü ildə, sonralar 1877-ci ildən başlayaraq), Şuşada (1874), Qubada (1875), Şəkidə (1879), İrəvanda (1882), Naxçıvanda (1883) teatr həvəskarları olan ziyalılar və məktəb şagirdləri tamaşalar oynamağa başladılar.

Başqa millətdən olan və azərbaycanca sərbəst danışan Alma xanım və onun əri Stepan Safrazovlar 1882-ci ildən başlayaraq məmləkətimizin müxtəlif şəhərlərini gəzərək yerli həvəskarlarla tamaşalar verirdilər. Onların səyyar repertuarının əsasını Mirzə Fətəli Axundzadənin komediyaları və Vasaq Mədətovun azərbaycanca yazdığı "Qırt-qırt", "Fətəli şah" vodevilləri təşkil edirdi. Tədricən Nəcəf bəy Vəzirovun kiçik məsxərələri də teatr həvəskarlarının diqqət mərkəzində olub.

Hələlik yalnız həvəskarlıq səciyyəsi daşıyan teatr tamaşalarını hazırlayıb göstərən ziyalıların əsas məqsədləri xalqı maarifləndirmək və müəyyən mənada da camaatı əyləndirib onlara zövq vermək idi. Təbii ki, bu zövqvermədə sənətin başlıca estetik prinsipləri gözlənilə bilməzdi. Hələ peşəkar aktyorlar yox idi və nəinki peşəkar, heç həvəskar rejissuaradan da danışmağa dəyməzdi, çünki bu anlayış yox idi. Tamaşalar rol bölünüb bir-iki gün ötəri məşq edilməklə oynanılırdı. Sözləri səhnədə suflyor deyir və ifaçılar təkrarlayırdılar. Tamaşalar, əsasən, Novruz, Orucluq, Qurban bayramiarında, ayrı-ayrı məktəblərin müxtəlif mərasimlərində oynanılırdı. Amma bütün bunlara baxmayaraq, həvəskarlar özləri də hiss etmədən, peşəkar teatr sənətinin inkişaf yollarını sırf professionallığa doğru əzınlə, fədakarlıqla aparırdılar.

Yay aylarında əslən qarabağlı olan ziyalılar, Rusiyanın və Avropanın müxtəlif şəhərlərində ali təhsil alan tələbələr Şuşaya yığılırdılar. Onlar və maarifçiliyə meyilli yerli gənclər, şəhər məktəblərinin yuxarı sinif şagirdləri burada böyük konsertlər təşkil edir, müxtəlif mədəni tədbirlər keçirirdilər. Mədəniyyət hadisələri içərisində teatr tamaşaları göstərmək xüsusi yer tuturdu. Bu işdə müəllimlər Yusif bəy və Mirzə Muxtar Məmmədov xüsusi səy göstərirdilər. On dörd yaşlı Əbdürrəhim bəy Haqverdiyevdə teatr sənətinə marağı da məhz Yusif bəy oyadıb. Mirzə Muxtar Məmmədov Azərbaycanın ilk peşəkar aktyorlarından sayılır.

Tiflis şəhərində əhalinin böyük qismini təşkil edən azərbaycanlıların teatr tamaşaları oynamaları da tədricən müntəzəm hal alaraq hər aya təsadüf edirdi. Bakıda bu işi, əsasən, müəllimlər və şagirdlər görürdülər. Teatr tamaşalarını oynamaq üçün Bakıda məxsusi bina yox idi. Bu çətinliyi aradan qaldırmaq məqsədilə Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə özünün taxıl anbarının özülü üzərində teatr binası inşa etdirib.

Peşəkar teatr təşəkkül tapdığı ildən sonra təxminən on üç-on dörd il ərzində, əsasən, həvəskarlar tamaşa hazırlamaq cəhdində olublar. Onların bəziləri bir, bəziləri iki, bəziləri uzağı üç-dörd tamaşadan sonra bu işdən ayrılır, öz peşələrinin dalınca gedirdilər. Ona görə də mərasimdən mərasimə, bayramdan-bayrama yada düşən "teatr çıxarmaq" həvəsində olanlar tez-tez dəyişirdilər.

1873-1886-ci illər Bakıda peşəkar teatrın təşəkkülünün və tədricən inkişaf etməsinin ilk mərhələsi sayılır. Tiflis, İrəvan, Naxçıvan, Gəncə teatrları, müxtəlif əyalətlərdə səhnə sənətinin yaranına mərhələləri barədə ayrı-ayrı fəsillərdə bəhs olunacaq. Ona görə də məhz Akademik Milli Dram Teatrının həvəskarlıq mərhələləri kimi Bakının teatr prosesinin müxtəlif əsas dövrlərindən bəhs olunacaq.

## NƏCƏF BƏY VƏZİROV
**(aprel 1854 - 9 iyun 1926)**

Azərbaycanın görkəmli maarifpərvər yazıçılarından biri də Nəcəf bəy Vəzirovdur. O, milli peşəkar teatrımızın yaradıcılarından və ilk teatr tamaşasını həm hazırlayanlardan, həm də onun iştirakçılarından biridir. Mirzə Fətəli Axundzadədən sonra dramaturgiya ilə birinci məşğul olub və Azərbaycan ədəbiyyatında faciə janrının bünövrəsini qoyub.

Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov 1854-cü ilin aprelində Şuşa şəhərində doğulub. Babası Qarabağ mahalındakı Zümürxaç kəndinin kasıblamış bəylərindən olub. Atası Fətəli bəy cavan yaşlarından əmək qabiliyyətini xeyli itirib və kasıblayaraq ailəsini güc-bəlayla dolandırıb. Tədricən ailənin təsərrüfat işlərini və ruzi qazanmaq vəzifəsini Nəcəf bəyin anası, mahalda qeyrətli və qoçaq qadın kimi tanınan Mina xanım öz üzərinə götürüb. Yalnız bundan sonra, yəni on iki yaşında Nəcəf bəy Vəzirov mədrəsədə təhsil almağa başlayıb. İti zehni və çalışqanlığı ilə üç aya Quran oxumağı, sərbəst yazınağı öyrənib. Bir il sonra Şuşa şəhərinin mülkiyyə məktəbinə daxil olub. Lakin müəlliminin kobud rəftarına görə məktəbi ataraq təhsilini yarımçıq qoyub. Yaxın bir qohumu Nəcəf

bəyə rus dilini öyrədib və o, cüzi yazı-pozu ilə mirzəlik edərək ailəsinə maddi yardım göstərməyə başlayıb.

Oxumağa, elmə, maarifə böyük maraq göstərən Nəcəf bəy qohumlarının tənələrinə və anasının etirazına məhəl qoymadan 1868-ci ildə yarımçıq təhsilini davam etdirmək məqsədilə Bakıya gəlib. Burada realnı gimnaziyaya daxil olub. Altı il şəhərin ən mötəbər təhsil ocaqlarından sayılan gimnaziyada oxuyub. 1874-cü ilin iyun ayında gimnaziyanı gümüş medalla bitirib və ali təhsil almaq üçün Peterburqa gedib. Uğurla imtahan verib və məşhur Peterburq Universitetinə qəbul edilib.

Elə ilk günlərdən şəhərin rütubətli havası ona düşməyib və səhhəti ağırlaşan iyirmi yaşlı Nəcəf bəy batdaq qızdırmasma tutulub. Müalicə alandan sonra həkimlərin məsləhəti ilə Moskvaya gəlib. Burada da uğurla imtahan verərək Petrovski-Razumovski kənd Təsərrüfatı Akademiyasının tələbəsi olub. Kasıbçılıq ucbatından uzun illər palaza bürünüb yatdığına görə ona "dərviş" təxəllüsü veriblər. Hətta yazıçı özü də bəzi ədəbi nümunələrində, o cümlədən 1893-cü ildə Şuşada kitab şəklində çap olunmuş "Daldan atılan daş topuğa dəyər" pyesinin titul vərəqində imzasını belə verib: "İnşayi Dərviş Nəcəf bəy Vəzirzadə".

Akademiyanı 1878-ci ildə qurtardıqdan sonra Moskvadan Azərbaycana qayıdan Nəcəf bəy Vəzirov əvvəlcə Gəncə quberniyasının Tərtər nahiyəsində, Dilicanda, sonralar isə müxtəlif bölgələrdə meşəbəyi işləyib. 1895-ci ildə Bakıya köçüb və burada vəkilliklə məşğul olub. Eyni zamanda müxtəlif mətbuat səhifələrində publisistik yazılarla çıxış edib. Onun müxtəlif mövzulu məqalələri 1905-1918-ci illərdə "Həyat", "İrşad", "Tazə həyat", "Tərəqqi", "Yeni irşad", "Sədayi-həqq", "E1 həyatı", "Açıq söz", "Mirat" qəzetlərində çap olunub.

Bakının məşhur mədəni-maarif cəmiyyətlərindən olan "Səfa" 1913-cü il noyabr ayının 15-də Tağıyev teatrında (şəhər teatrında) Nəcəf bəy Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyinin yubiley təntənəsini keçirib. Yubiley mərasiminin bədii hissəsində Cahangir Zeynalovun rejissorluğu ilə ədibin "Hacı Qəmbər" komediyası oynanılıb.

Nəcəf bəy Vəzirov 1926-cı il iyun ayının 9-da Şamaxının Çuxuryurd kəndində ürək xəstəliyindən vəfat edib. Cənazəsi Bakıya gətirilərək burada, hazırda Fəxri xiyaban adlanan qəbiristanlıqda dəfn olunub.

* * *

Yaradıcılığında nəsr və publisistika ilə məşğul olsa da, ilk növbədə dramaturq kimi ədəbiyyatımızın klassikləri sırasma daxildir. Onun yaradıcılığını üç mərhələyə bölmək olar.

Birinci mərhələ: 1873-1900-cü illər;

İkinci mərhələ: 1902-1913-cü illər;

Üçüncü mərhələ: 1913-1921-ci illər.

Nəcəf bəy Vəzirov dramaturji yaradıcılığa Bakıda olarkən başlayıb. 1873-cü il mart ayının 10-da Bam realnı gimnaziyanın şagirdləri ilə birlikdə Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının tamaşasında oynayıb. Bundan təsirlənərək elə həmin il ilk birpərdəli "Əti sənin, sümüyü mənim" (1873) və "Qaragünlü" (1874) məzhəkələrini yazıb. Lakin həmin əsərlər itib. Dramaturq bu məzhəkələrdən birincisinin süjeti və mövzusu barədə vaxtilə "Əkinçi" qəzetində yazıb. Əldə olmayan ikinci məzhəkəsi barədə isə müfəssəl tərcümeyi-halında bəhs edib.

Moskvanın teatr mühiti, klassik rus və dünya dramaturqlarının yaradıcılıqları ilə yaxından tanış olan Vəzirov ədəbiyyata daha ciddi meyil göstərib. Tələbə vaxtı "Ev tərbiyəsinin bir şəkli" (1875), "Gəmi lövbərsiz olmaz" (1876) komediyalarını yazıb. Meşəbəyi işləyə-işləyə "Daldan atılan daş topuğa dəyər" (1890), "Sonraki peşmançılıq fayda verməz" (1890), "Adı var, özü yox" (1891), "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qəmbər" 1895) komediyalarını, "Müsibəti-Fəxrəddin" (1896) faciəsini və "Pəhlivanani-zəmanə" ("Zəmanə pəhlivanları". 1900) dramını tamamlayıb.

"Müsibəti-Fəxrəddin" ilk Azərbaycan faciəsidir. "Pəhlivanani-zəmanə" isə milli buruaziyanın həyatından, Bakı neftindən bəhs edən, tacir-burjua obrazı təsvir olunan birinci dram əsəridir.

Yaradıcılığının lknci dövrünə "Ağa Kərim xan Ərdəbili" məzhəkəsi ilə 1902-ci ildə başlayıb. Bu məzhəkə əslində fransız dramaturqu Jan Batist Molyerin məşhur "Xəsis" komediyasından iqtibas edilib. Lakin Nəcəf bəy əsərə güclü milli ruh verə, koloritli və tipik bədii obrazlar yarada bilib. Məhz buna görə də həmin komediya dramaturgiyamızda daha çox və əsasən, milli sənət nümunəsi kimi şöhrətlənib.

Dramaturqun yaradıcılığının ikinci dövrü kimi səciyyələnən mərhələdə Nəcəf bəy Vəzirov "Vay şələküm-məələküm" (1909), "Nə əkərsən, onu biçərsən" (1911), "Keçmişdə qaçaqlar" (1912) səhnə əsərlərini yazıb. Fransız ədəbiyyatından götürülmüş "Vəkil Patelen" vodevilini "Dələduz" adı ilə, məzhəkə janrında iqtibas və təbdil edib. Həmçinin müxtəlif teatr truppalarında coşğunluqla rejissorluq fəaliyyəti göstərib. Bəzən həvəskar aktyor kimi kiçik həcmli rollar da oynayıb.

Nəcəf bəy Vəzirovun ədəbi yaradıcılığının üçüncü dövrü də məhsuldar sayıla bilər. Dramaturq ömrünün ağsaqqal çağında və yaradıcılığının müdriklik mərhələsində "Pul düşkünü Hacı Fərəc" (1912), "Keçmişdə qaçaqlar" (1912), "Təzə əsrin ibtidası" (1920) pyeslərini işləyib.

Dramaturq Nəcəf bəy Vəzirovun "Mehdi xan Tabasarani" pyesi tamamlanmayıb, yarımçıq qalıb.

Dramaturqun məzhəkə və məsxərə janrında yazdığı dram əsərləri milli folklordan, xalq oyun-tamaşalarının kompozisiya qurumundan, forma elementlərindən, məzmun xüsusiyyətlərindən şirələnib. Süjet aydın və sadə, dramaturji dil şirəli və zəngindir. Yaradıcılığının sonrakı illərində də xalq dramlarına, meydan oyunları prinsiplorinə əsaslandığına görə Nəcəf bəy Vəzirovun komediyalarının əksəriyyətinin adı atalar sözü ilə verilib.

Onun məzhəkələrinin mövzu, ideya-bədii əsasını məişətdə mövcud olan evlənmək və digər ailə məsələləri, varlanmağa hərislik duyğuları, halal zəhmətə rəğbət hissi təşkil edir. Dramlarında isə dramaturq burjua mənəvi-əxlaqi dəyərlərinin iyrənc tərəflərini, feodal həyat tərzinin qüsurlu cəhətlərini, nadanlığın bəlalarını, təfəkkür ətalətinin faciələrini, cəmiyyətdəki mövcud əxlaq normalarının rəzilliyini həssaslıqla, inandırıcı vasitələrlə tənqid hədəfinə çevirib. Mülkədarlığın dağıdıcı, mənəviyyatları parçalayan xüsusiyyətlərini, nəsil ədavətinə təkan verməsini və bu zəmində faciələr törənMəsmə meydan açılmasını sərt dramaturji hadisələr burulğanında verib və bunları öz əsərlərinin baş mövzusu kimi səciyyələndirib.

İlk qələm təcrübəsindən başlayaraq, Nəcəf bəy Vəzirov get-gedə hər təzə əsərində ideyaları dolğunlaşdırmış, kompozisiyanı bütövləşdirmiş, bədii personajların xarakterik cizgilərini cilalamış, dramaturji kolliziyaların mahiyyətini dərinləşdirmiş, dramaturgiyaya yeni-yeni sosial tipləri gətirmişdir. Bu baxımdan onun pyeslərində iki yüzə yaxın maraqlı dram surəti vardır. Təbii ki, onların arasında bədii cəhətdən qüsurlusu, zəifi, hətta natamam görünəni də var. Ancaq məsələ ondadır ki, Nəcəf bəy Vəzirovun bədii personajları dövrünün canlı, real, həyati insan surətləridir.

Görkəmli dramaturq "Hacı Qəmbər"lə Azərbaycan komediya janrının yeni mərhələsinin bünövrəsini qoymuşdur. Eyni zamanda, "Hacı Qəmbər" pyesi dramaturgiyamızda traglkomediya janrının bədii sınaqdan çıxarılmasma ilk cəhddir.

XIX əsrin son on ilində Bakı çox sürətlə inkişaf edərək Qafqazın ən böyük sənaye və ticarət mərkəzinə çevrilirdi. Bu, bir tərəfdən şəhərdə neft istehsalının və ixracının artması ilə bağlı olsa da, digər tərəfdən şəhərin ticarət mərkəzinə çevrilməsi ilə əlaqəli idi. Azərbaycanda Bakı - Tiflis dəmir yolu işə düşmüşdü, Xəzər dənizində gəmiçilik inkişaf tapmışdı və bununla bağlı ticarətin yeni formaları meydana çıxmışdı. Bakıda milyonçu neftxudalar peyda olmuşdular. Güclü bank şəbəkəsi fəaliyyət göstərir, Nobel, Rotşild kimi əcnəbi milyonçular şəhərə ağlagəlməz yatırım və sərmayə qoyurdular.

Təbii ki, bütün bunlar həm cəmıyyətin inkişafına təsir göstərir, həm də yeni və mürəkkəb, yeni və təzadlı insani münasibətləri formalaşdırır, gözlənilməz sosial münasibətlər üzə çıxarırdı.

Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" komediyası bu dövrün xarakterik həyat hadisələrini tipik vəziyyətlərdə və tipik xarakterlərlə təcəssüm etdirib. Əsərin qəhrəmanı, tacir-sövdəgər Hacı Qəmbər mənəvi cəhətdən Hacı Qara ("Hacı Qara"), Ağa Həsən ("Mürafiə vəkilləri") obrazları ilə "qohum" olsa da, dramaturji personaj kimi yeni xarakterdir.

Dramaturq bir tərəfdən geniş ticarətlə məşğul olmaq cəhdində bulunmuş Hacı Qəmbərin sövdəgərliyini təqdir edibsə, digər tərəfdən onun savadsızlığını, ailəsi ola-ola qızı yerində qulluqçu Yetərlə evlənmək eşqinə düşmüş gülünc vəziyyətini tənqid hədəfinə çevirə bilib. Həmin gülünc, lakin dramaturji baxımdan maraqlı vəziyyətdə mayor Xudaverdi bəyin, tacir Hacı Salmanın riyakarlıqları, mənəvi eybəcərlikləri real, bir qədər satirik səhnə dili ilə nəzərə çatdırılıb. Yetər isə xalq dramlarının şən, hazırcavab və mürəkkəb vəziyyətlərdən baş çıxarmağa çalışan məzəli obrazlara bənzəyir, lakin onun bədii təsviri orijinaldır.

Özünün publisistik məqalələrində yazdığı maarifçilik ideyalarını, xalqını xoşbəxt görmək arzularını, cəmiyyət barədə yanğılı və həsrətli fikirlərini dramaturq "Hacı Qəmbər" komediyasında gənc ziyalı Əşrəf bəyin və müəyyən məqamlarda Aşıq Vəlinin dillərində səsləndirib. Əsər həm məişət komediyası, həm də sosial satira kimi dəyərli bədii keyfiyyətlərə malikdir.

Nəcəf bəy Vəzirov ənənə olmadan "Müsibəti-Fəxrəddin" kimi faciə əsəri yarada bilmişdir. "Müsibəti-Fəxrəddin" faciəsi ilə ədəbiyyatımızda, həmçinin romantik dramaturgiyanın təməli qoyulmuşdur. Sonralar bu əsər eyni zamanda romantik teatrın və romantik aktyor məktəbinin yaradıcısı olmuşdur.

"Müsibəti-Fəxrəddin" faciəsində feodalizm çamırlığında mövcud əxlaq normalarının törətdiyi mənəvi və fiziki faciələr qabarıq verilməklə, maarifçilik ruhunun əsarət zəncirlərini qırmaq əzinində olduğu da inandırıcı reallıqla təsvir edilmişdir. Rüstəm bəy obrazı milli mülkədarların tipik nümayəndəsi, Fəxrəddin və bir qədər də Fərhad surətləri isə ziyalı təbəqəsinin, işıqlı təfəkkürün "zülmət səltənətində nur" təmsilçiləri kimi verilmişlər. Bu iki əks qütbün real təsvirində ölkədə mövcud olan nəsil ədavətinin törətdiyi fitnə-fəsadlar, qanlı müsibətlər daha iyrənc, daha eybəcər şəkildə öz mahiyyətini üzə çıxardıb.

Dramaturq özünün cəmiyyət və insan, elm və şüurun azadlığı, təfəkkürün təkamülü və ideal həyat, maariflənmə və sosial tərəqqi ideyalarını Fəxrəddin obrazının timsalında, xarakterik dramaturji cizgilərlə verib. Qadın azadlığı duyğularını isə Səadət xanımın timsalında oxuculara çatdırıb. Faciədə eyni zamanda feodal-patriarxal cəmiyyətinin kübar təbəqəsinin Cahangir bəy, Şahmar bəy, Mələk xanım, Gülbahar xanım kimi nümayəndələrinin və rəiyyəti təmsil edənlərin (qulluqçu Hürü xala, nökərlər Əhməd və Vəli, Hacı Murad və Xəlil) bitkin xarakterləri işlənilib.

"Pəhlivanani-zəmanə" dramında isə eyni dövrün və eyni millətin burjua əxlaq düşüncələrinin rəzil xüsusiyyətləri, neft möhtəkirlərinin dələduzluqları, vəkil Aslan bəyin timsahnda qanunun pulla hərraca qoyulması, həddi-büluğa çatmış qızların nadanlıq pərdəsində yaşadıqları üçün ehtiras düşkünlərinin amansız cənginə düşmələri ürəkağrısı ilə qələmə alınıb. Əgər dramaturq "Müsibəti-Fəxrəddin" faciəsində kəndlilərin avamlıq qəflətindən ayılmamalarının müsibətini veribsə, "Pəhlivanani-zəmanə" dramında cəhalət yuxusunda mürgü vuran, torpağı əlindən alınmış Qurban kişinin nadanlığını qabarıq nəzərə çatdırıb.

Nəcəf bəy Vəzirov "Nə əkərsən, onu biçərsən", "Pul düşkünü Hacı Fərəc", "Vay şələküm, məəlləküm" pyeslərində də müxtəlif situasiyalarda və müxtəlif mövzu-problematikada, müxtəlif sosial tiplər vasitəsilə burjua əxlaqını, sərxoşluğu, əxlaqi naqislikləri ifşa hədəfində saxlayıb. "Keçmişdə qaçaqlar", "Adı var, özü yox", "Daldan atılan daş topuğa dəyər" məzhəkə-dramlarında isə mülkədar həyat tərzinin eybəcər tərəfləri, şüur kəmliyinin və savadsızlığın törətdiyi mənəvi-əxlaqi, ictimai-psixoloji fəsadlar, zülmə qarşı namuslu insanların, primitiv şəkildə olsa da, apardıqları mübarizələrin mahiyyəti yazıçı amalının, yazıçı qayəsinin əsas ruhunu təşkil edib.

Sovet dövrünün ilk ilində yazdığı "Təzə əsrin ibtidası" pyesində Nəcəf bəy Vəzirov mülkədar şüuru ilə zəhmətkeş dü-şüncə tərzini yeni estetik aspektdən qələmə alıb. Mürəkkəb dramaturji hadisələrin mərkəzində yeni şüur oyanışının ziyalarını qabarıq verməyə çalışıb.

Nəcəf bəy Vəzirovun dramaturgiyası tənqidi realizmın estetik prinsipləri ilə özəl səciyyə daşıyır.

Nəcəf bəy Vəzirov dram əsərlərində maarifçilik hərəkatının ictimai-sosial məzmununu, həmin dövrün insanlarının mürəkkəb, psixoloji həyat tərzlərini təsvir etməyin bariz nümunələrini yaradıb.

Nəcəf bəy Vəzirov milli dramaturgiyamıza fəlsəfi təməl, psixoloji dramatizm, fəci obrazlar silsiləsi gətirib.

## PEŞƏKARLIĞA KEÇİDİN YENİ MƏRHƏLƏSİ (1886-1896)

Teatr prosesi 1885-ci ildə digər şəhərlərə, yəni Tiflisə və Şuşaya nisbətən Bakıda bir qədər öləzidi. Onun əsas səbəbi teatr meyilli ziyalılıarın qısa müddətdə müxtəlif şəhərlərə getmələri ilə bağlı idi. Bununla belə, il ərzində müxtəlif həvəskarlar Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", "Müsyö Jordan və dərviş Məstəli şah" komediyalarını, Vasaq Mədətovun vodevillərini hazırlayıb tamaşaçılara göstərirdilər.

Bu səylər 1886-cı ildə davam etdirildi. Həmin dövrdə əslən şamaxılı olan Həbib bəy Hacı İbrahimxəlil oğlu Mahmudbəyov (1864- 1927) və Sultanməcid Hacı Murtuzəli oğlu Qənizadə (1866-1937) Tiflis şəhərində Aleksandrinsk Müəllimlər İnstitutunda oxuyurdular. Onlar qış və yay tətillərində Bakıda olmuş, burada tanış ziyalılarla birgə bir neçə teatr tamaşası hazırlamışdılar.

Tiflisdə həm gürcü, həm rus, həm də bu şəhərə gələn əcnəbi teatrlarının, ayrı-ayrı daimi truppaların tamaşalarına baxmış, səhnə sənətinin müəyyən vacib mətləblərinin əsas xüsusiyyətlərini mənimsəyə bilmişdilər. Həbib bəy və Sultanməcid bəy 1887-ci ildə ali təhsillərini başa vuraraq Bakıya pedaqoji fəaliyyətə göndərildilər. Burada müəllimliyə başladılar və tez bir zamanda şəhərdə həm maarif və həm də mədəniyyət xadimi kimi tanındılar. İkisi bir yerdə Bakıda yeni tipli rus-türk (rus-müsəlman və rus-tatar da deyilib) məktəbi açdılar. "Həbib bəyin məktəbi" kimi məşhur olan təhsil ocağı bu gün 132 saylı məktəbdir.

Həbib bəy Mahmudbəyov, Sultanməcid Qənizadə və onların məslək və əqidə dostu Nəcəfqulu Vəliyev Bakıda teatr həvəskarlarını öz ətraflarında toplayaraq teatr sənətinin dirçəlişinə yeni və səmərəli təkan verə bildilər. Onlar bu işə dərs dedikləri məktəblərin yuxarı sinif şagirdlərini də cəlb edirdilər. Hər il məktəbi bitirən şagirdləri yenilər əvəz edirdi. Məşhur teatr aktyoru və rejissoru Hüseyn Ərəblinski və aktyor-dramaturq Mirmahmud Kazımovski də ilk dəfə bu müəllimlərin həvəskarlar dəstəsində səhnəyə çıxıblar.

1923-cü ildə Bakıda nəşr olunmuş "Azərbaycan türk teatrının müxtəsər tarixçəsi" kitabında yazılıb ki, 1887-ci ildən sonra türk teatrı Bakıda gəldikcə tərəqqi etməyə başlayır. O vaxtın cavanlarından Sultanməcid Qənizadə, Həbibbəy Mahmudbəyov və Nəcəfqulu Vəliyev başlarına həvəskarları cəm edib teatrlar verməyə başlayırlar. Bu şəxslərin teatr yolunda çəkdikləri əzab, uğraşdıqları ənvai təhqirat, föhşlərin heç biri vəsfə gələsi deyildir". Onlar əsil maarifpərvərlik fədakarlığı göstərərək, həvəskarlardan ibarət teatr durumunun güclənləsinə və milli səhnə sənətimizin peşəkärlığın yeni səciyyələrini qazanınasma nail ola biliblər.

Üçlüyün hazırladığı ilk tamaşalar içərisində Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası daha böyük uğur qazanıb. Şəhər teatrında (Tağıyev teatrı) göstərilən tamaşada əsas rolları S.Seyidov (Dərviş Məstəli şah), M.Şəkibəyov (Qulaməli), S.Qayıbov (Müsyö Jordan), Ş.Mirzəyev (Hatəmxan ağa), Kostapova (Şərəfnisə), Rusiyeva (Gülçöhrə) Cahangir Zeynalov (Şahbaz bəy), Vəzirov (Şəhrəbanu) oynayıblar. Tamaşaya məsul S.Seyidov olub.

Xatırladım ki, 1920-ci illərə kimi müxtəlif truppalarda, ayrı-ayrı teatr dəstələrində hazırlanıb göstərilən tamaşalara məsul müdir olurdu. Bu şəxs bütün inzibati işlərə cavabdehilk daşıyırdı və onu fərasət və bacarığına görə seçirdilər.

Bu illərdən başlayaraq məşhur komik aktyor Cahangir Zeynalov və aktyor, rejissor və inzibati işçi Əbülfət Vəli (Vəliyev) teatr sənətində peşəkarlıq yolunu tutmağa başladılar. Onların ardınca digər sənətkarlar da teatrı özlərinə əsas peşə seçdilər. Həvəskar artistlər oynadıqları tamaşalardan gələn gəlirlərin daha çox hissəsini kasıb şagirdlərin geyim və dərs ləvazimatlarına xərcləyirdilər.

Teatr sənətinin tərəqqisi ilə bağlı ziyalılarımız dünya dramaturgiyası nümunələrini tərcümə etməyə meyil göstərirdilər. Məsələn, 1888-ci ildə Tiflisdə çıxan "Kəşkül" qəzeti alman ədibi Fridrix Şillerin "Məkr və məhəbbət" faciəsinin tərcüməsini "Xüdə və eşq" adı ilə çap etməyə başlayıb.

Azərbaycan və rus məktəblərinə yardım məqsədilə göstərilən səhnə əsərləri arasında 1889-cu ildə oynanılan "Lənkəran xanının vəziri" və "Qırt-qırt" (Vasaq Mədətov) tamaşaları daha maraqlı alınmışdı. Qənizadə və Mahmudbəyov get-gedə həvəskarlara rol üzərində işləməyin əlifbasını öyrədir, müəyyən mənada sabit dəstə yaratmağa səy göstərirdilər. Onlar müəllim yoldaşlarının köməkliyi ilə şəhərdə müxtəlif müsamirələr keçirir və sonda kiçik vodevillər, məzhəkələr oynanılmasını təşkil edirdilər.

1890-cı ilin ən böyük teatr hadisələrindən biri martın 10-da Tağıyev teatrında göstərilən komediya olub. Əvvəlcədən elan vurulmuşdu ki, tamaşadan gələn gəlir yoxsul şagirdlərə xərclənəcək.

Başqa bir tarixi hadisə o olub ki, milli səhnəmizin ilk peşəkar artistlərindən sayılan Məhəmməd bəy Məlikov (Əlvəndi) aktyorluğu özünə peşə seçərək səhnə fəaliyyətinə başlayıb.

Digər teatr hadisəsi bina ilə bağlıdır. Bakı neftxudası, xeyirxah milyonçu Ağa Musa Nağıyev şəhərdə "Obşestvennoye sobraniye" ("Cəmiyyət yığnağı", "Nəciblər evi") binası tikdirib. Həmçinin "Nağıyev teatrı" adlanan bu binada teatr tamaşaları oynanılıb, mədəni müsamirələr, yığılan vəsait mədəniyyətə sərf olunan ianə axşamları keçirilib.

Nəriman Nərimanovun 1891-ci ildə Bakıya gəlməsinin də teatr prosesinin təkamülünə müsbət təsiri olub. Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsinin tamaşaya hazırlanmasında iştirak edən Nərimanov həm də əsərdə Nəcəf bəyin rolunu oynayıb. Cəlal Ünsizadə Aleksandr Puşkinin məşhur "Boris Qodunov" faciəsini Azərbaycan dilinə tərcümə edib.

Teatr həyatında canlanına 1892-ci ildə bir qədər də artıb. İlin ilk aylarında teatr həvəskarları Tağıyev teatrında Vasaq Mədətovun "Bacı və qardaş" (4 fevral) vodevilini göstəriblər. İl ərzində oynanılan tamaşalardan daha çox diqqətçəkəni Sultanməcid Qənizadənin rus dramaturqu Dyaçenkodan tərcümə-təbdil etdiyi "Qurban üçün qurban", Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (hər ikisi 9 martda oynanılıb), Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qəmbər". 7 dekabr) əsərlərinin quruluşları olub.

Nəriman Nərimanov Bakıda bir dram dərnəyi yaradıb. Dərnəyin ətrafına xeyli teatr həvəskarı toplaşıb, onlar əvvəlcədən müəyyən repertuar müəyyənləşdiriblər. Həmin dərnəyin ömrü az olsa da, bu ilk səy sonraki teatr dəstlərinin yaranması üçün zəmin-təcrübəyə çevrilib.

Sultanməcid Qənizadə savadsız əhalinin kiçik həcmli məzhəkə və məsxərələrə daha maraqlı olduğunu nəzərə alaraq, təbdillər etməyə üstünlük verib. Onun təbdilində "Xor-xor" məzhəkəsi 1893-cü ildə dəfələrlə təzə quruluş və heyətdə oynanılıb. Qənizadə dahi rus ədibi Lev Tolstoyun "Əvvəlinci şərabçı" birpərdəli məzhəkəsini də tərcümə edib və may ayında özü tamaşaya hazırlayıb. O, bu barədə Yasnaya Polyanada yaşayan Lev Tolstoya məktub da yazıb. Mirzə Fətəlinin "Hacı Qara" komediyası il ərzində Tağıyev teatrında və "Dənizçilər klubunda" bir neçə dəfə tamaşaçıların ixtiyarına verilib.

1894-cü illərdə teatr həvəskarlarının bəsit repertuarının əsasını Mirzə Fətəli Axundzadənin komediyaları, Nəcəf bəy Vəzirovun məzhəkələri, Vasaq Mədətovun vodevilləri və Sultanməcid Qənizadənin təbdilləri, iqtibasları təşkil edib.

Tiflis şəhərində fəaliyyət göstərən Qafqaz senzurası 1895-ci ildə Nəriman Nərimanovun ilk səhnə əsəri olan "Nadanlıq" komediyasının oynanılmasma icazə verib. Komediya ilk dəfə Bakının teatr həvəskarları tərəfindən oynanılıb. Tağıyev teatrı binasında göstərilən tamaşada dramaturq özü İmran rolunda çıxış edib. Tamaşadan 800 manat hasil olub ki, bu da o dövr üçün hadisə idi. Yəni tamaşaya çoxlu tamaşaçı gəlib. Ümumiyyətlə isə, Əbdürrəhim bəy Haqverdiyev ilə Nəriman Nərimanovun əsərlərinin həvəskarların repertuarında yer tutması fədakarların mövzu-problematika axtarışlarına meydan açmışdı.

İl ərzində həvəskarlar "Lənkəran xanının vəziri", "Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah", "Daldan atılan daş topuğa dəyər", "Hacı Qəmbər", "Ev tərbiyəsinin bir şəkli" (Nəcəf bəy Vəzirov), "Xor-xor", "Qırt-qırt" komediya, təbdil və məsxərələrini dönə-dönə ifa etmişlər.

Ağa Musa Nağıyev bir qrupda birləşmiş ziyalı gəncləri hamiliyə götürmüşdü. O, gənclərə maddi yardım edir, onların maarifçilik fəaliyyətlərinə hərtərəfli şərait yaratmağa çalışırdı. Gənclər müxtəlif mədəni-maarif tədbirləri keçirir, musiqili-bədii müsamirələr hazırlayır və tamaşalar göstərirdilər. Toplanan pullar müxtəlif xeyriyyə işlərinə xərclənirdi.

Mədəniyyət fədailəri olan bu gənclər dramaturq Nəriman Nərimanovun "Şamdan bəy" ("Dilin bəlası") komediyasının ilk quruluşunu oynayıblar. Tamaşa 1896-cı il noyabrın 23-də Tağıyev teatrında göstərilib. Elə həmin gün bu tamaşadan sonra eyni truppanın ifasında "Qırt-qırt" vodevili də tamaşaçılara təqdim olunub. "Şamdan bəy" komediyasının rejissorları Nəriman Nərimanov və Cahangir Zeynalov idilər. Onlar digər təşkilati işləri də öz üzərlərinə götürmüşdülər. Tamaşada əsas rolları Cahangir Zeynalov (Hacı İbrahim), Əbülfət Vəli (Niyaz) və Məlikov (Şamdan bəy) ifa ediblər.

Cahangir Zeynalov Bakının tanınmış tacirlərindən idi. Ticarətdən əldə etdiyi qazancın böyük bir qisınıni həvəskar aktyorlara və tamaşaların hazırlanmasma (bina, paltar, dekorasiya kirayəsi və sairə) xərcləyirdi. Məşqlər çətin vaxtlarda onun evində aparılırdı. Bütün bunlara görə "Şamdan bəy"in premyerasından sonra tamaşaçıların iştiraki ilə Cahangir Zeynalova qızıl qol saatı bağışlandı. Teatr sənətinin inkişafındakı məqsədyönlü və səmərəli fəaliyyətinə görə Nəriman Nərimanova isə həmin axşam brilyant üzük verildi. Hədiyyələrin xərclərini Ağa Musa Nağıyev çəkmişdi.

1896-cı ildə Həsən bəy Zərdabi (Məlikov) teatr həvəskarlarından ibarət truppa yaratmağa icazə almaq üçün Bakıdakı yerli hökumətə məktubla müraciət etmişdi. Lakin bunun nəticəsi olmamışdı. Sonralar Nəriman Nərimanov bu işə girişdi. Nəhayət, peşəkar milli teatrın fəaliyyətinin iyirmi üçüncü ilində ilk dəfə birləşmiş teatr dəstəsi yaradıldı. Ona "Birinci müsəlman" truppası" adı verildi.

Truppadan daha çox yığcam dəstəni xatırladan kollektivə Cahangir Zeynalov, Nəriman Nərimanov, Həsən bəy Zərdabi, İsgəndər bəy Məlikov, Məhəmməd bəy Məlikov (Əlvəndi), Əbülfət Vəli (Vəliyev) və digər teatrsevər ziyalılar, səhnəyə həvəs göstərən gənclər daxil oldular.

Truppa ilin sonlarında yarandığına görə, onun əsas fəaliyyəti növbəti ildən başlandı. Bu isə peşəkar teatrımızın inkişaf mərhələlərində yeni dövr kimi səciyyəvidir.

Qeyd. Müxtəlif teatr truppaları, təhsil ocaqları ilə bağlı "müsəlman" sözünə tez-tez rast gələcəksiniz. Bu söz "Azərbaycan" mənasında işlədilib. Siz də onu elə oxuyun.

## CƏLİL MƏMMƏDQULUZADƏ
## (10.2.1866-4.1.1932)

Milli ədəbiyyatımızın ən görkəmli simalarından bıri Cəlil Məmmədquluzadə sayılır. Bütün Yaxın Şərqdə sevilə-sevilə oxunan "Molla Nəsrəddin" (7 aprel 1906) jurnalının banisidir. Bu jurnalın mühərriri olmaqla ətrafına görkəmli maarifpərvər qələm sahiblərini toplayıb və mollanəsrəddinçilər ədəbi cərəyanının yaradıcısına çevrilib. Buna görə ədəbi təxəllüsü "Molla Nəsrəddin" olub. İlk qüdrətli felyeton ustasıdır. Azərbaycan nəsrinin yeni mərhələsini yaradıb. Milli ictimai şüurun oyanmasında və inkişafında müstəsna xidmətləri var. Jurnalistika elmimizin qüdrətli dühalarındandır. Ən müxtəlif mövzulu povest və hekayələrində, felyeton və satirik məqalələrində Azərbaycan dilinin zəngin imkanlarını ölməzliklə təcəssüm etdirib. XIX və XX əsr Azərbaycan kəndinin sosial həyatını və tipik xarakterlərini ustalıqla yaradıb. Ötən əsrdə realist ədəbi cərəyanın öndəri olub.

Cəlil Məmmədqulu oğlu Məmmədquluzadə 10 fevral 1866-cı ildə Naxçıvanda anadan olub. İlk təhsilini səkkiz yaşında mollaxanada alıb. Bir il sonra isə Naxçıvandakı rus-türk (rus-tatar deyilib) məktəbində oxuyub. 1882-ci ildə Gürcüstanın Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının ehtiyat sinifinə daxil olub. Burada qabiliyyət və bacarığını göstərdiyinə görə əsas sinifə keçirilib. Seminariyanı 1887-ci ildə bitirib. Vəsiqəsində ibtidai məktəblərdə müəllimlik edə bilmək hüququ oldüğu göstərilən Cəlil Məmmədquluzadə işləmək üçün İrəvan quberniyasma göndərilib. Quberniyanın Uluxanlı, Baş Noraşen kəndlərində üç il, hazırki Babək rayonunun Nehrəm kəndində səkkiz il (1890-1897) müəllimlik edib. İlk qələm təcrübəsi olan "Çay dəstgahı" alleqorik pyesini 1889-cu ildə Baş Noraşendə yazıb. Sonra nəsr əsərlərini qələmə alıb.

Cəlil Məmmədquluzadə 1895-ci ildə Moskvaya və Peterburqa gedərək müəyyən müddət burada qalıb. O, rus imperiyasının həmin dövrdə mədəniyyət mərkəzləri sayılan bu şəhərlərində ədəbiyyatla, teatrla, mütərəqqi ziyalıların ictimai görüşləri ilə yaxından tanış olub.

1898-ci ildə İrəvan şəhərinə gedib. Orada müxtəlif idarələrdə mütərcimlik edib, məhkəmədə vəkil kimi çalışıb. Burada ona hörmət əlaməti olaraq "Mirzə" deyə müraciət ediblər. Buna görə də bəzi mənbələrdə ədibin imzası Mirzə Cəlil Məmmədquluzadə (qısa olaraq Mirzə Cəlil) kimi verilib.

Nə tərcüməçilik, nə də vəkillk onun ürəyincə olmayıb. Ona görə də işləməyi ataraq özünü sırf bədii yaradıcılığa həsr edib. Həyat yoldaşı ağır xəstələnən Cəlil Məmmədquluzadə onu müalicə etdirmək üçün 1903-cü ildə Tiflisə gəlib. Qafqaz azərbaycanlılarının mədəniyyət mərkəzlərindən sayılan bu şəhərdə o, görkəmli ziyalılarla, məşhur maarifpərvərlərlə tanış olub. Onlardan biri də "Şərqi-Rus" qəzetinin redaktoru Məhəmməd ağa Şahtaxtlı idi. O, Mirzə Cəlilin yeni yazdığı "Poçt qutusu" hekayəsini dinləyib və çox bəyənib. Buna görə də gələcəyin dahi ədibini "Şərqi-Rus"da işləməyə dəvət edib (1904). Hətta bu ilin noyabrında Mirzə Cəlil həmin qəzetin müvəqqəti redaktoru olub.

Bir il sonra "Şərqi-Rus" qəzeti bağlanıb, Cəlil Məmmədquluzadə jurnalist Ömər Faiq Nemanzadə, maarifpərvər tacir Məmmədəli Bağırzadə ilə birləşərək qəzetin mətbəəsini alıb. Mətbəəyə "Qeyrət" adı verərək burada müxtəlif kitablar, intibahnamələr nəşr etdirib.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalını çap etdirməyə başlayıb. Bu jurnal Tiflisdə (1906-1917), az vaxt Təbrizdə (1921, cəmi səkkiz nömrəsi buraxılıb ) və son illərdə Bakıda (1922-1931) bilavasitə Cəlil Məmmədquluzadənin redaktəsi ilə çap olunub. Jurnalın Təbrizdə çap olunmasının səbəbi o idi ki, Azərbaycana Sovet hakimiyyəti gələndə Cəlil Məmmədquluzadə İrana getmişdi (iyun, 1920). Lakin 1922-ci ildə hökumətin dəvəti ilə Bakıya qayıtmışdı. Ədib Bakıda "Yeni yol" qəzetinin redaktoru olub, "Mədəni maarif", "Şərq qadını" jurnallarında, "Yeni kənd" qəzetində əməkdaşlıq edib.

Məşhur Qarabağ bəyzadələrindən olan Həmidə xanımla evlənmiş Məmmədquluzadə 1918-ci ildə onun Ağdam yaxınlığındakı Kəhrizli kəndindəki (Ağcabədi rayonuna aiddir) malikanəsində yaşayıb. Burada özünün gələcək publisist əsərləri üçün kifayət qədər həyati material toplayıb.

Cəlil Məmmədquluzadə 1932-ci il yanvar ayının 4-də Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

* * *

Cəlil Məmmədquluzadə Azərbaycan nəslinə "Danabaş kəndinin əhvalatları" ("Eşşəyin itməkliyi"), "Qurbanəli bəy", "Usta Zeynal", "Poçt qutusu", "Bəlkə də qaytardılar", "İranda hürriyyət", "Zırrama", "Saqqallı uşaq", "Kişmiş oyunu", "Konsulun arvadı", "Yan tütəyi", "Pirverdinin xoruzu", "Xanın təsbehi", "Taxıl həkimi", "Quzu" kimi klassik nəsr nümunələri bəxş edib. Yazıçının onlarca felyetonu bədii-estetik məziyyətləri, dil-ifadə vasitələrinin zənginliyi, forma orijinallığı ilə bu gün jurnalistika yaradıcılığı üçün örnəkdir.

Bununla belə, dram əsərləri yazıçının yaradıcılığının mühüm bir hissəsini təşkil edir. Cəlil Məmmədquluzadə yalnız adi dram əsərləri yazınayıb. Onun müxtəlif mövzulu pyesləri forma və məzmun xüsusiyyətlərinə, estetik səciyyələrinə, xarakterlərinin əlvanlığına və bədii kamilliyinə görə milli dramaturgiya tariximizdə mühüm yer tutur.

Cəlil Məmmədquluzadə ədəbi yaradıcılığa pyeslə başlayıb. Bu yaradıcılıq şərti olaraq iki dövrə bölünür.

Birinci dövr: 1889-1906-cı illər;

İkinci dövr: 1909-1928-ci illər.

Onun ilk qələm məhsulu "Çay dəstgahı" (1889) alleqorik dramıdır. Əsər birpərdəlidir və nəzınlə yazılıb, süjeti sadədir, dramatik mübarizə bəsit şəkildədir. Bu pyes milli dramaturgiyamızda alleqorik janrda yazılmış ilk səhnə əsəridir. Bəlkə də bunun üçün müəllifin eyhamlardan, rəmzi işarələrdən istifadə etMəsmə baxmayaraq, dramın janr xüsusiyyətləri cəhətdən bədii zəiflikləri vardır. Əsərin qüsurlarını hiss edən dramaturq onu çapa verməyib.

Müəllif hadisələri Samovar, Padnos, Çaynik, İstəkan, Nəlbəki, Qaşıq, Maşa, Truba, Nökər obrazları əsasında qurub. "Çay dəstgahı" oxumaq üçün pyes qrupuna aiddir. Mükalimə şəklində qələmə alınmış təmsili də xatırladır.

Cəlil Məmmədquluzadə ruhən satirik zəmində köklənmiş yazıçı idi. Bu keyfiyyət onun ikinci dram əsəri olan "Kişmiş oyunu" məzhəkəsində özünü müəyyən mənada göstərib. Nəsrlə yazılan bu əsər mövzu, dramatik konflikt, üslub baxımından yenidir. Lakin pyes Cəlil Məmmədquluzadənin zəngin irsinin ümumi fonunda böyük sənət nailiyyəti kimi dəyərləndirilə bilməz. Yəqin buna görə də dramaturq "Kişmiş oyunu" məzhəkəsini 1892-ci ildə yazıb və onun səhnədə oynanılmasma cəhd göstərməyib. Mirzə Cəlil sonralar həmin əsəri hekayə janrında da işləyib.

Yaradıcılığının ikinci dövrü ədibin təkamül dövrüdür və bu mərhələ bilavasitə "Molla Nəsrəddin" jurnalının yaranması ilə bağlıdır. Həmin dövrdə yazılan pyeslər bədii dəyərinin hüsnü və dramaturji prinsiplərinin estetik yenilikləri ilə diqqətəlayiqdir.

Mərhələnin ilk nümunəsi "Ölülər" dram əsəridir. Pyes milli dramaturgiyamızda ilk traglkomediya janrlı əsərdir. Dörd pərdədən ibarət olan "Ölülər" dramı 1909-cu ildə yazılıb. Xurafata, nadanlığa, rəzilliyə, mənəvi naqisliyin zehniyyatda yaratdığı faciələrə, mövhumat dələduzlarının ifşasma həsr edilmiş dram əsərləri içərisində "Ölülər" traglkomediyasma (daha çox satirik komediyadır) tay ola biləcək pyes yoxdur. Camaatın nadanlığından istifadə edərək və dini əldə dəstavüz tutaraq məzlumların başına müsibətlər gətirən fırıldaqçı Şeyx Nəsrulla, onun köməkçisi Şeyx Əhməd cəmiyyətin bütün rəzilliklərini görən və onların səbəblərini anlayan kefli İsgəndər, "ölü dirilərmi?" xofunda çaş-baş qalmış Hacı Həsən ağa Azərbaycan dramaturgiyasında yeni tipli bədii personajlardır, ümumiləşdirilmiş tipik xarakterlərdir.

Qəbiristanlıq səhnəsi, yəni Şeyx Nəsrullanın "ölü diriltmə" epizodu dünya dramaturgiyasında analoqu olmayan bədii ifadə vasitəsidir. Mirzə Cəlil məhz həmin üslub-fəndlə cəmiyyətin rəzilliyini, cəhalətin faciələrini dramaturji ideyanın münaqişə cazibəsinə çəkib. Ölülər aləmi küll halında dramaturqun ən kamil rəmzi obrazıdır. Məhz həmin surətin bədii məziyyətləri, psixoloji tutumu,

tipik səciyyələri ilə "ölülər" və "diri ölülər" dünyasının mahiyyətləri qarşılaşdırılır. Qarşılaşıb toqquşmada Cəlil Məmmədquluzadənin kütləvi nadanlığa, qaragüruh cəhalətə, məfkurəvi rəzalətə qarşı mənəvi harayı qroteskii faciə notlarında oxuculara çatdırılır. İsgəndərin mənəvi harayı cahilliyin, qürurunu, ləyaqətini itirmişlərin ifşasma yönəlir.

İsgəndər ziyalıdır, cəsarətlidir, gözüaçıqdır, həqiqət carçısıdır, mühakimələrində kəskin olduğu qədər də mənən vüqarlıdır, kinayəli sözləri real ünvanlıdır. Şərəf və ləyaqət hissini itirmişlərə qarşı ürək göynərtisi ilə etiraz səsini ucaldır. Kütləvi surət olan "ölü canlarla" mübarizədə tək və yenilməzdir, qətiyyətlidir.

Şeyx Nəsrulla məhəlli yox, zaman üçün təhlükəli olan, beynəlxalq səciyyəli fırıldaqçı və avantüristdir, riyakardır, mənəvi pozğun və dini dəllaldır. Bəlkə də ağılagəlməz dərəcədə geniş imkanlara malik "Kəşfiyyatçıdır" və məhz bu səriştəsi sayəsində əvvəlcədən hadisənin baş verdiyi İrəvan kəndlərindən biri barədə müfəssəl məlumat toplayıb. Bir neçə il əvvəl rəhmətə getmiş Kərbəlayı Fətulla haqqında, onun qohumları, Hacı Həsən ağa, kənd sakinləri Mir Bağır ağa, Hacı Baxşəli, Kərbəlayı Vəli, onların ölmüş qohum-əqrəbaları barədə kifayət qədər bilgisi olduğuna görə də qəbiristanlıqda ölü "diriltınəyə" cəsarətlə girişir.

"Anamın kitabı" dramı 4 pərdəlidir. Dramaturq bu əsərini 1919-cu ildə yazıb. İdeya və qayə, məfkurəvi tutum, ictimai-sosial məna baxımından "Anamın kitabı" satirik komediyası "Ölülər"in davamıdır. Pyes ilk növbədə milli ruhun müqəddəsliyini uca tutması və doğma ana dilinin təravətinin, pakıiğının qorunmasını təbliğ etməsi, kökə bağlılıq probleminə fəlsəfi yanaşması ilə qiymətlidir. Bu mövzu da ümumilikdə Cəlil Məmmədquluzadə yaradıcılığının qeyrət damarını təşkil edir və yazıcının bütün janrlı əsərlərində özünü bədii məntiqlə büruzə verir.

Əsilini danmağın insanı haramzadəliyə aparması ideyasını dramaturq bir ailənin üç övladının timsalında verib. Böyük oğul Rüstəm bəy rus darülfünununda təhsil alıb və ona görə də özünü rus intelligenti kimi göstərir, bu mədəniyyətin təbliğçisidir. Ortancıl övlad Mirzə Məhəmmədəli İran ürəfası libasındadır və bilavasitə farsca danışır, bu mədəniyyətin carçısıdır. O, elmi-ilahi müəllimidir. İstanbulda ədəbiyyat dərsi almış Səməd Vahid türk dili müəllimidir, osmançılığın alovlu tərəfdarıdır. Qardaşların üçü də öz dillərində danışmağa sanki çirkinirlər. Hətta anaları Zəhra bəyimlə, iyirmi yaşına çatmış, Kamallı bacıları Gülbaharla davranışlarında da hərəsi özünün çürük həyat "fəlsəfəsini" diktə edir. Dramaturq çobanlıq edən Qənbər, Qurban və Zaman surətlərini səmimiyyətin təmsilçiləri, sadə xalqın nümayəndələri, kökə bağlılığın müqəddəsliyi kimi yaradıb.

"Anamın kitabı" pyesinin adı bir neçə rəmzi məna daşıyır. Dramaturqun məntiqinə görə, anaya məhəbbət ən müqəddəs kitabdır. Doğma dilə məhəbbət ana sevgisinin bir mərhələsidir. Nəhayət, "anamın kitabı" deyimi dünyasını dəyişmiş atanın öz övladları üçün yazıb qoyduğu vəsiyyətnamənin ruhu və canıdır. Məhz həmin vəsiyyətnaməni oxumaqla Gülbahar öz qardaşlarını ana məhəbbətinə sığınmağa, milli kökə bağlanmağa səsləyir.

"Kamança" faciəsi bir pərdədən ibarətdir. Cəlil Məmmədquluzadə bu əsəri 1920-ci ilin yanvar ayında Şuşa şəhərində qələmə alıb. Əsər milli zəmin əsasında yazılmış psixoloji faciədir. Müəyyən mənada da mükalimə səpkisində yazılmış qəmli, dramatik əhvalat-hekayətdir. Kiçikhəcmli olmasma və dialoqların azlığına baxmayaraq, pyesin konflikti kəskin ictimai-sosial məzmun daşıyır. Qəhrəman yüzbaşı, Qaraş, Zeynəb, kamançaçı Baxşı surətləri dolğun və bitkin, dramaturji cəhətdən əsaslı xarakter təsiri bağışlayırlar. "Kamança"da dramaturqun həyat müdrikiiyinin, insani bütövlüyünün yeni tərəflərini görmək olur.

Cəlil Məmmədquluzadə 1921-ci ildə pyes kimi qələmə verilən "Lal" əsərini və 4 pərdəli "Danabaş kəndinin məktəbi" komediyasını yazıb. "Lal" həm də ssenari adlandırılıb. Lakin dramaturq özü səhifə yarımlıq bu əsərini "teatr üçün bir pərdə" janrında təqdim edib. "Lal" dialoqsuzdur və bir məkanda beş fraqment-epizodun təsvirindən ibarətdir. Əsilində bu əsər pantomima janrı üçün işlənmiş fəlsəfi-psixoloji mətndir.

"Danabaş kəndinin məktəbi" fikir və ideya baxımından "Eşşəyin itməkliyi" povestinin dramaturji variatsiyasıdır. Cəlil Məmmədquluzadə əvvəlcə bu əsərin hekayə variantını yazıb və sonra onun əsasında məzhəkə işləyib.

Başqa bir məsələ. Müəllif pyesin remarkasında yazıb ki, "əhvalat vaqe olur İrəvan quberniyası, Danabaş kəndində, miladi tarixinin 1895-ci ilində". Bilirik ki, nəinki Azərbaycanın bir parçası olmuş İrəvan quberniyasında, hətta cəmi məmləkətimizdə Danabaş kəndi adlı məkan olmayıb. Mirzə Cəlilin qənaətində bu ad rəmzi məna daşıyır və nadanlığın, geriliyin, dar düşüncənin, kütbeyinliyin, əbləhliyin toplumu kimi verilib.

Cəlil Məmmədquluzadənin bu komediyasının kompozisiya qurumu məsxərə, qaravəlli, hoqqa, şəbədə, məzhəkə xalq oyun-tamaşalarının estetik prinsiplərinə uyğundur. Pyesdə həm ləzzətli, gülməli vəziyyət komediyasının ruhu, həm sarsıdıcı satirik komediya ahəngi, həm karnaval estetikasının məzəli personajları, həm də dövrün tipik vəziyyətlərini təcəssüm etdirən tip-obrazlar var. Xüsusən işinin mənasını padşaha dua oxumaqda görən Qazı, yaltaq və səriştəsiz İnspektor, əsilində millətin idrak işığına barınaq tıxayan Naçalnik, maarif və mədəniyyətin mənasını anlamayan Mirzə Məhəmmədqulu, xalqın psixologiyasından bixəbər Uçitel Həsənov, həqiqəti şallaq gücündə axtaran Pirverdi bəy, nadanlıq və avamlıq həyatının mənasına çevrilmiş Qasım kişi surətləri düşüncə tərzlərinə, primitivliklərinin görünüşünə və cəmiyyətin hansı təbəqəsinin təmsilçisi olmalarına görə fərqlənsələr də, ümumi gülüş estetikasının koloriti baxımından bir-birinə doğmadırlar. Dramaturq bu əsərində "camaat" məvhumunu vahid və ümumiləşdirilmiş obraz kimi götürüb.

Cəlil Məmmədquluzadənin janr təyininə görə "Dəli yığıncağı" komediyadır. Beş pərdədən ibarət olan əsər mahiyyətcə psixoloji satiradır, fəlsəfi kinayədir və müəyyən mənada da gülməli faciədir. Dramaturq bu komediyanı 1927-ci il-də (bəzi mənbələrdə 1926-cı il göstərilib) yazıb. Əsər ilk dəfə 1936-cı ildə çap edilib.

Dramaturqun pyesin remarkasında yazdığına görə, əsərdə təsvir olunan hadisələr Cənubi Azərbaycandan götürülüb. Lakin mənəvi dəyərlər, zehni şikəstlik, xurafatın vəhşətlə tüğyan etməsi baxımından "Dəli yığıncağı" pyesi Mirzə Cəlilin digər əsərlərinin mövzusu və ideyası ilə həmahəngdir. Dramaturq "dəli kimdir?" fəlsəfi sualı ilə cəmiyyətin ən müxtəlif zümrələrini bədii mühakiməyə çəkir. Abdal, məsləksiz, əqidəsiz, dini hərraca qoyan hacılarla, Kərbəlayılarla mühakimələrində arif, səlist və ağıllı "dəliləri" dramatik süjet axarında qarşılaşdırır. Bu qarşılaşdırmada kəskin ictimai-sosial konflikt və təzadlı əxlaqi görüşlər, mənəvi aləmlərin fərqli mürəkkəbliyi süjetin əsasında durub.

Pyesin qəhrəmanı Molla Abbas obrazı özünün fəlsəfi yükünə, millət kədəri çəkMəsmə, qaranlıq içində zəka işığı saçmasma görə kefli İsgəndərin yeni təqdimidir. Bu surətin də fəryadları dramaturqun daxili təlatümünün hayqırtıları kimi görünür. "Dəlixananın" sakinlərindən olan Pırpız Sona cəmiyyətin mənəvi dəyərlərinə və xurafatda siğənin sürüklədiyi əxlaqsızlığa qarşı qoyulub. O, özünün səmimi davranışı, əri Molla Abbasa sədaqəti ilə seçilir. Qaynı, onu zor gücünə özünə övrət etmək istəyən Fazil Məhəmmədə qarşı mətanətlə çıxır. Bu mənəvi üsyan da Cəlil Məmmədquluzadənin yazıçı fəryadıdır və ədibin hekayə, feylyeton və pyeslərinin ana xəttində dayanıb. Məhz Molla Abbasla Pırpız Sonanın "dəlilik" kimi görünən insani pakıiqlarının müqabilində Həzrət Əşrəfin, Hacı Nayibin, Hacı Xudaverdi Şürəkanın, Fərraş Şimrəlinin, Fazil Məhəmmədin çürük mənəviyyatları, din pərdəsi altında törətdikləri fitnəkarlıqlar daha qabarıq şəkildə ifşa hədəfində durub.

Cəlil Məmmədquluzadə bir dramaturq kimi sovet həyat tərzinin, kənddə riyakar inzibatçılığın, primitiv düşüncə tərzü idarəçiliyin, nadanlıqdan doğan rəzalətlərin tənqidinə də xususi diqqət yetirib. Bu baxımdan onun "Yığıncaq" məzhəkəsi maraq doğurur. Təəssüf ki, bu əsər yarımçıq qalıb, tamamlanınayıb. Onu qeyd etmək lazımdır ki, "Danabaş kəndinin məktəbi" komediyasındakı nadanlıq təmsilçilərini "Yığıncaq"da Həsənəli, Zeynal, Süleyman, Kəbla Salah, Cabbar obrazları başqa forma və məzmunda əvəz edirlər.

Dramaturq Cəlil Məmmədquluzadə 1928-ci ildə "Qəmərin toyu" adlı dram-məsxərə yazıb. Lakin əsər tamamlanandan sonra müəllifin özünün xoşuna gəlməyib və o, əl yazılarını cıraraq yandırıb.

Cəlil Məmmədquluzadə mükəmməl dramaturji üslubu, zəngin mövzu variatsiyaları olan, silsilə tipik və real həyati xarakterlər yaratmış, xalqın mənəvi faciələrini ürəyinin qanı ilə qələmə almış qüdrətli dramaturqdur.

## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV
## (17.5.1870-11.12.1933)

Realist Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri Əbdürrəhim bəy Haqverdiyevdir. Yaradıcılığa on doqquzuncu əsrin doxsanıncı illərində başlayıb. Ədəbiyyat tarixinə klassik hekayələri və faciə əsərləri ilə daxil olub. Görkəmli teatr təşkilatçısı idi və Azərbaycanın ilk peşəkar rejissoru sayılır. Dili son dərəcə zəngindir, xalq danışığına, folklor ədəbiyyatına yaxındır. Milli mədəniyyətimizə nasir, dramaturq, publisist, teatr xadimi, rejissor, tərcüməçi kimi dəyərli töhfələr verib. Lap gənc yaşlarından ömrünün sonuna qədər maarifçiliyin alovlu təbliğatçısı və təmsilçisi olmuş, səmərəli pedaqoji fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilib (1928).

Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev 1870-ci il may ayının 17-də Qarabağ mahalının Şuşa şəhəri yaxınlığındakı Ağbulaq kəndində doğulub. Əsəd bəy qəza dəftərxanasında katib işləyib. Əbdürrəhim bəy üç yaşında atadan yetim qalıb və əmisi Əbdülkərim bəy onu himayəyə götürüb. İki il sonra əmisi nəsil davasında yerli bəylər tərəfindən qətlə yetirilib. Əbdürrəhim bəy əmisi arvadının ona verdiyi işgəncə və sitəmlərdən qurtulmaq üçün təzə ər evində yaşayan anasının yanına gəlib. Atalığı H.Sadıqbəyov ona oğul məhəbbəti bəsləyib, uşağın təhsil almasının qeydinə qalıb, şirindilliyi və səmimiyyəti ilə ailədə hörməti uca tutulub.

On yaşı olanda atalığı Əbdürrəhim bəyi Şuşada Yusif bəy Məliknəzərovun müvəqqəti yay məktəbinə qoyub. O, burada qısa müddətdə rus dilini öyrənib, dünya ədəbiyyatını mütaliəyə başlayıb. On dörd yaşında Şuşa şəhərində yerli ziyalıların göstərdikləri "Xırs quldurbasan" (Mirzə Fətəli Axundzadə) komediyasma baxıb. Bu, onun gördüyü ilk səhnə əsəri idi və bundan təsirlənən gənc Əbdürrəhim bəy Axundzadənin komediyalarını mütaliə edərək "Hacı Daşdəmir" adlı məsxərə yazıb. İlk qələm təcrübəsini oxumaq üçün müəlliminə verib və sonra ondan müəyyən məsləhətlər alıb.

Şuşa şəhərindəki altıillik realnı məktəbi 1890-cı ildə başa vuran Əbdürrəhim bəy bir il də Tiflis realnı məktəbində oxuyub. 1891-ci ildə ali təhsil almaq məqsədilə Peterburqa gəlib və uğurla imtahan verərək Yol Mühəndisləri İnstitutuna daxil olub. Səkkiz il bu ali təhsil ocağında oxuyub və eyni zamanda universitetin şərq fakültəsində azad müdavim kimi mühazirələri dinləyib. Ədəbiyyata qızğın maraq göstərib və həmin dövrdə Rusiyanın ən qabaqcıl sənət ocaqlarından sayılan Aleksandrinsk teatrının tamaşalarını müntəzəm izləyib. Qəlbində dramaturgiyaya güclü maraq oyanıb. Dünya dramaturgiyasının klassik nümunələrini mütaliə edib.

Təhsilini yüksək qiymət göstəriciləri ilə başa vuraraq 1899-cu ildə Peterburqdan Şuşaya qayıdıb. İki il burada yaşayıb, şəhərdə teatr tamaşalarının hazırlanmasında iştirak edib, xalq yaradıcılığının nümunələrini toplayıb. İki il sonra isə Bakıya gəlib, burada "Müsəlman artistləri dəstəsi"nin baş rejissoru kimi çalışıb. 1904-cü ildə Şuşa şəhəri idarəsmə üzv seçilərək oraya gedib. Bir il sonra Gəncə quberniyasından Rusiya Dumasma deputat seçilib və Peterburqa yollanıb. Duma dağılandan sonra bir müddət orada yaşayıb və yazacağı "Ağa Məhəmməd şah Qacar" faciəsinə materiallar toplayıb. Bu işi İranın Mazandaran şəhərində də davam etdirib.

1908-ci ildən "Nicat" mədəni-maarif cəmiyyətində çalışıb, milyonçu Hacı Zeynalabdin Tağıyevin Kür-Xəzər gəmiçiliyi idarəsmdə işləyib. Xidməti vəzifəsi ilə bağlı Qafqazı, İranı, Volqaboyu diyarları, Orta Asiyanı dolanıb. 1911-ci ildə vəzifədən çıxan Əbdürrəhim bəy Ağdama gəlib və beş il burada yaşayıb. 1916-cı ildə Tiflisdə rus dilində nəşr olunan "Şəhərlər İttifaqının Qafqaz şöbəsi əxbarı" aylıq məcmuəsinə müdir təyin olunub. Bir il ötəndə Borçalı qəzasma müvəkkil təyin edilib. 1919-cu ildə Müsavat hökuməti onu Dağıstana Azərbaycan Demokratik Respublikasının nümayəndəsi göndərib.

Əbdürrəhim bəy Haqverdiyev 1920-ci ilin iyununda Bakıda yenicə yaranan şura teatrı komissarı seçilib. 1921-1931-ci illərdə Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxuyub. 1924-cü ildə Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosuna müxbir-üzv seçilib.

Əbdürrəhim bəy Haqverdiyev 1933-cü il dekabrın 11-də Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

* * *

"Molla Nəsrəddin" jurnalında "Lağlağı", "Ceyranəli", "Xortdan", "Həkiminun-səğir", "Mozalan", "Süpürgəsaqqal" imzaları ilə felyeton, hekayə və publisist yazılar dərc etdirib. Klassik irsimizə "Marallarım" silsilə hekayələrini, "Xortdanın cəhənnəm məktubları" povestini bəxş edib. "Şeyx Şəban", "Mirzə Səfər", "Bomba", "Pir", "Çeşmək", "Qiraət" əsərləri nəsrimizin incilərindən sayılır. Ədəbiyyat tariximizə, milli teatr ənənələrinə aid dəyərli elmi əsərlərin, nəzəri məqalələrin müəllifidir. Dünya klassiklərindən Vilyam Şekspirin "Hamlet", Fridrix Şillerin "Qaçaqlar", Emil Zolyanın "Qazmaçılar", Mari Fransua Volterin "Sultan Osman", Hans Xristian Andersenin "Bülbül", Maksim Qorkinin "İzergil qarı" hekayə, povest və pyeslərini azərbaycancaya tərcümə edib.

Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyası onun zəngin və əlvan yaradıcılığının mühüm qolunu təşkil edir. Şərti olaraq onun dramaturji fəaliyyətini üç mərhələyə bölmək olar.

Birinci mərhələ on doqquzuncu əsrin son on beş və iyirminci əsrin ilk ilini əhatələyir.

İkinci mərhələyə dramaturqun molla nəsrəddinçilər yaradıcılıq platformasının məşhur maarifpərvəri kimi yazdığı dram və komediyalar daxildir. Bu mərhələ 1905-1911-ci illəri əhatə edir.

Sovet dövrü yaradıcılığı (1920-1933) dramaturqun yaradıcılığının üçüncü mərhələsidir.

Qeyd edim ki, birinci dövr pyesləri sanbalma, ideya kəsərinə, ikinci dövr faciələri mövzu əlvanlığına, dram və komediyalarının bədii-estetik kamilliyinə görə daha bitkindir.

Dramaturqun ilk qələm təcrübəsi olan "Hacı Daşdəmir" məzhəkəsi əldə yoxdur. Müəllifin etiraf etdiyi kimi, bu pyes "Hacı Qara" komediyasının təsiri altında yazılsa da və zəif alınsa da, hər halda fakt kimi dəyərlidir. Peterburqda "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) məzhəkəsini, "Dağılan tifaq" (1896) faciəsini qələmə alıb. Şuşada "Bəxtsiz cavan" (1900) faciəsini və Bakıda "Pəri cadu" (1901) dramını tamamlayıb.

Həm nəsr, həm də dramaturji fəaliyyətinin ikinci dövrü kimi səciyyələnən illərdə Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığı bir sıra estetik-bədii məziyyətlərinə görə diqqətəlayiqdir. Teatrla get-gedə daha yaxından və daha səmərəli şəkildə məşğul olan, Azərbaycanda peşəkar rejissuranın tərəqqisində misilsiz və möhtəşəm işlər görmüş Əbdürrəhim bəy Haqverdiyev 1905-ci ildə "Millət dostları" satirik dramını yazıb. Üzərində bir neçə il işlədiyi, zəngin tarixi faktlar toplayaraq onların əsasında yazdığı "Ağa Məhəmməd şah Qacar" faciəsini 1907-ci ildə Bakıda bitirib. Bu faciədə dramaturq rejissor Hüseyn Ərəblinskinin xahişi ilə qadın personajları qələmə almayıb.

O, ikinci mərhələdə rus ədibi Sergey Yakovlevin eyniadlı vodevili əsasında "Kimdir müqəssir?" məzhəkəsini yazıb və əsər 1909-cu ildə "Kaspi" mətbəəsində çap olunub. Aktyor dostları Hüseyn Ərəblinskiyə və Əbülfət Vəliyə həsr etdiyi "Ac həriflər" məzhəkəsi 1911-ci ildə tamamlanıb. Həmin il Əbdürrəhim bəy "Xəyalət" dramını da yazıb. Əsər Mirzə Fətəli Axundzadənin

anadan olmasının yüz illiyinə həsr edilib. Buna görə pyesin adı bəzi mənbələrdə "Mirzə Fətəli Axundzadə" kimi də verilib. "Ac həriflər" və "Xəyalət" dramları ilk dəfə 1911-ci ildə "Orucovlar qardaşları nəşriyyatı"nda ayrı-ayrı kitabça kimi buraxılıb.

Ədibin dramaturji yaradıcılığının üçüncü mərhələsi on iki ili əhatə edir. Bu dövrdə yaranmış pyeslər, xüsusən kiçik həcmli dramlar daha çox sovet ideologiyası prinsiplərində yazıldıqları üçün, müəyyən sənətkarlıq səciyyələrinə görə zəif və ya natamam təsiri bağışlayır. Bununla belə, 1927-ci ildə yazılmış "Köhnə dudman" və "Baba yurdunda" dilogiyası dramaturqun yaradıcılığında yeni mövzu-problematika, yeni ideya, yeni konflikt-xarakterlər baxımından əhəmiyyətlidir.

Dramaturji fəaliyyətinin son dövründə Əbdürrəhim bəy Haqverdiyev müxtəlif həcmli "Qırmızı qarı" (1921), "Padşahın məhəbbəti" (1921), "Ağac kölgəsində" (1921), "Qoca tarzən" (1922), "Vaveyla" (1922), "Ədalət qapıları" (1923), Hüseyn Ərəblinskinin ölümünün yeddi illiyinə həsr etdiyi "Səhnə qurbanı" (1926), "Məşədi Qulam qiraət öyrənir" (1927), "Qadınlar bayramı" (1928), "Kamran" (1931), "Sağsağan" (1931), "Yoldaş koroğlu" (1932), "Çox gözəl" (1932), "Daşçı" (1933) pyeslərini yazıb.

Dövrlə, yaşadığı zamanla həmahəng olduğuna görə Əbdürrəhim bəyin də yaradıcılığının böyük bir dövrü mövzu baxımından mülkədar həyatı ilə bağlıdır. Mülkədarlıq həyat tərzinin nadanlıq üzərində qurulmuş məcrasının doğurduğu faciələr Haqverdiyevin pyeslərində yeni bədii səciyyələrlə təsvir olunub. Onun üslubu fərdi keyfiyyətlərlə zəngindir. Faciələri üçün təsirli həyat hadisələri seçə bilib. Təsvir etdiyi obrazların dil-ifadə xüsusiyyətləri ilk növbədə xarakterlərin tipik xüsusiyyətlərinin açılmasma yönəlib. O, faciə, komediya, məzhəkə, məsxərə, dram, rəmzi dram ("Pəri cadu") janrlarında əsərlər yazıb. Dram ("Ədalət qapıları"), rəmzi dram janrlarını və bioqrafik səciyyəli pyesləri ("Səhnə qurbanı" və "Xəyalət") milli dramaturgiyamıza ilk dəfə Əbdürrəhim bəy Haqverdiyev gətirib.

Zaman və məkan vəhdətini (xronotopunu) Əbdürrəhim bəy mövzunun tarixi xarakterini daha dərindən açmaq məqsədilə cəsarətlə, inamlı improvizələrlə sındırıb. Məsələn, "Ağa Məhəmməd şah Qacar" faciəsində tarixi hadisələr 1887-1897-ci illər arasındakı onillik zamanda baş verir. Bu hadisələr müxtəlif məkanlarda-Mazandaranda, Tehranda, Tiflisdə, Muğanda, Şuşada, Xorasanda təsvir edilib. Ancaq bu dağınıqlıqda tarixi-xronoloji faciə janrının (məsələn, Vilyam Şekspirin "Dördüncü Henri" dramatik xronikası) estetik prinsipləri dramaturq tərəfindən həssaslıqla gözlənilib, bədii dəqiqliklə təcəssüm tapıb.

Hadisə dağınıqlığı dramaturqun "Bəxtsiz cavan", "Köhnə dudman", "Dağılan tifaq" dramlarında başqa şəkildə nəzərə çarpır. Lakin dramaturq bunu da növbəti fərdi yaradıcılıq üslubu, bədii fənd (priyom) kimi realizə edə bilib.

Əbdürrəhim bəy Haqverdiyev dramaturgiyaya çoşğun daxili ehtiraslı, çılğın xarakterli dramatik obrazlar gətirib.

Dramaturqun Qacar ("Ağa Məhəmməd şah Qacar"), Pəri və Hafizə ("Pəri cadu"), Nəcəf bəy ("Dağılan tifaq") obrazları əsər boyu, dramaturji konfliktə uyğun şəkildə, gərgin psixloji dəyişmə prosesi keçirlər. Məhz Əbdürrəhim bəy dramaturgiyamızda belə psixoloji-dramatik dəyişmənin real təsvirini və parlaq bədii həllini ilk dəfə yaradıb.

Əbdürrəhim bəy Haqverdiyev "Müsibəti-Fəxrəddin"dən sonra milli dramaturgiyamızda ikinci faciə olan "Dağılan tifaq"ı yazıb. Burada bir ailənin müsibəti fonunda çürüməkdə olan mənəvi-əxlaqi dəyərlər, cəmiyyətin sarsılmış sosial sütunlarının psixoloji əsasları mürəkkəb dramaturji konfliktin əsasını təşkil edir. İflasa uğramış cəmiyyət davranışlarının tənqidi əsasında həyatları faciə axarına düşmüş insan xarakterləri dururlar. Bunların da bariz nümayəndələri Nəcəf bəy və Süleyman bəy obrazlarıdır.

Dövrün ictimai-sosial ədalətsizliyinin, nadanlığın törətdiyi faciələr "Bəxtsiz cavan"da dramaturgiyamızda əvvəllər işlənmiş süjet-konflikt əsasında, lakin yeni estetik prinsiplərlə və daha kamil bədii obrazlarla əks olunub. Əsərin qəhrəmanı, təhsil alb doğma yurda qayıtınış Fərhad həm ictimai quruluşun çürümüş qanunlarına, həm də uzun illər ənənəyə çevrilmiş ailə adətlərinə,

kasıbların mənəviyyatlarını alçaldan mülkədar-rəiyyət münasibətlərinə qarşı çıxır. İradə və qüvvəsi bu mübarizə yolunda tab gətirməyib sarsılan və faciəyə məruz qalan Fərhad maraqlı dramaturji obrazdır.

Mənəviyyatca, cəmiyyətin problemlərinə baxışlarına görə Fərhadla əks qütbdə dayanan əmisi Hacı Səməd ağa, anası Mehri xanım, xidmətçi Mirzə Qoşunəli, əmisi oğlu Çingiz milli dramaturgiyamızda təravətli bədii personajlar kimi yaşayırlar.

Dramaturq özü etiraf edib ki, "Pəri cadu" faciəsini alman dramaturqu Herhart Hauptınanın simvolizm ədəbi cərəyanının parlaq nümunəsi olan "Qərq olmuş can" dramının təsiri ilə yazıb. Yəni bu təsir süjet, mövzuya fəlsəfi münasibət eyniliyi kimi deyil, sırf janra yanaşma tərzi baxımından nəzərə çarpır. Əbdürrəhim bəy fəlsəfi mistikanı "Pəri cadu" faciəsində mücərrəd xəyalət aləmi ilə bağlasa da, dramaturq qayəsinin əsasında real dövrün müxtəlif sosial zümrələrə məxsus həyati obrazlarının təsviri durub. Bu baxımdan ailəsini atıb varlı qadın Hafizə ilə eyş-işrətə qurşanınış odunçu Qurbana qarşı Pərinin qısqanclığı, keçirdiyi daxili sarsıntılar və psixoloji iztirablar həyatidir, təsiredicidir və insani hisslərlə çuğlaşıb.

Əbdürrəhim bəy "Pəri cadu" faciəsində real həyat hadisələrilə mistik obrazları (Pəri, İblis, Əcinnə, Şamama cadu) dramaturji konfliktə çəkinəklə, maraqlı fəlsəfi qənaətə gəlib. Bu qənaət aydın, ifadəli və həyatidir. Əxz olunan ideya budur: nəfsi-əmmarənin qulu olmayan insanın xoşbəxtliyi onun halal zəhmətindədir.

Müliyyətcə azərbaycanlı olan, İranda şahlıqları yüz otuz il davam edən qacarilər sülaləsinin banisi Məhəmməd Qacar obrazını ədəbiyyatımıza ilk dəfə Əbdürrəhim bəy gətirib. O, "Ağa Məhəmməd şah Qacar" faciəsində təkcə əsərin qəhrəmanının deyil, eyni zamanda tarixi şəxsiyyətlər olmuş Cəfərqulu xanın, Əliqulu xanın, Mürtəzaqulu xanın, Mustafa xanın, Rzaqulu xanın, Əli xanın, vəzir Hacı İbrahim xanın, II İraklinin, Tavad keyxosrov Avelianinin zəngin bədii səciyyəli xarakterlərini təsvir etmişdir.

Faciənin ən dolğun obrazları Qacar və İraklidir. Dramaturq həmin surətlərin təsvirində faciə janrının psixoloji-fəlsəfi, psixoloji-dramatik xüsusiyyətlərindən yüksək sənətkarlıqla bəhrələnə bilmişdir. Belə bədii təsvirdə tirançılıq ideyaları, vətən və vətənpərvərlik anlayışları, zəka və güc, vicdan və əxlaq təsəvvürlərinin dramaturji təqdimi daha bədii möhtəşəmliklə təcəssüm tapıb.

Əbdürrəhim bəy Haqverdiyevin faciə qəhrəmanları zaman və cəmiyyət problemlərinin qlobal tərəflərinə baxış prizmasından işlənilib. Onun komediya və məzhəkələrində, məsxərələrində və bəzi məişət dramlarında boşboğaz "millət qəhrəmanları" ("Millət dostları"), simasız ziyalılar ("Ac həriflər"), eybəcərliyə aparan ailə qalmaqallarının sosial zəmini ("Yeyərsən qaz ətini, görərsən ləzzətini"), nağılvarı süjetdə kasıb və varlı münasibətində ailə namusu mövzusunun bədii təsviri ("Padşahın məhəbbəti") ön plandadır. Dramaturqun məişət komediya obrazları canlı, ifadəli, təbii yumorlu real insan surətləri təsiri bağışlayır.

Əbdürrəhim bəy Haqverdiyevin, hətta səhnəcik tipli birpərdəli məsxərələrində də (məsələn, "Ədalət qapıları") insan amili ilkindir.

Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", "Pəri cadu", "Köhnə dudman", "Baba yurdunda" dram əsərləri ictimai-sosial konfliktin kəsərinə, ehtiraslı xarakterlərinə, romantik-dramatik ruhuna görə monumental-romantik teatr məktəbinin tərəqqisində mühüm rol oynayıb.

Onun "Ac həriflər", "Millət dostları" səpkili komediyaları realist aktyor məktəbinin formalaşmasında teatrların repertuarlarında dəyərli yer tutub.

Milli səhnə estrada janrında yazan ilk dramaturqların sırasında Əbdürrəhim bəy Haqverdiyevin öz şərəfli mövqeyi var. Bakı Azad Tənqid və Təbliğ Teatrında onun məzhəkə-intermediyaları uğurla oynanılıb.

## NƏRİMAN NƏRİMANOV
## (14.4.1870-19.3.1925)

İik növbədə maarifpərvər ziyalı və yazıçı olan Nəriman Nərimanov, həmçinin görkəmli siyasi və ictimai xadim, dövlət rəhbəri, teatr fədakarı idi. Mütəfəkkir yazıçı kimi dövrün ictimai ədalətsizliklərini, nadanlığı, dini xurafatı, cəmiyyətin mənfur qanunlarını, mənəvi rəzilliyi, istibdadm faciələrini tənqid edib. Maarifçiliyin, vətənpərvərliyin, azadlıq ideyalarının təbliği uğrunda yorulmaz mübariz olub. Mirzə Fətəli Axundzadə realist ədəbi məktəbinin ləyaqətli davamçılarından idi. Milli ədəbi irsimizin möhtəşəm, bəşəri, mütərəqqi ideyaların təbliği ilə zənginləşməsində böyük işlər görüb. Alovlu publisist, qeyrətli tənqidçi, obyektiv teatrşünas və ədəbiyyatşünas fəaliyyəti var. Azərbaycan teatr mədəniyyətini Volqaboyu müsəlman ölkəİərində, xüsusən Hacıtərxan (Həştərxan) şəhərində geniş təbliğ edib.

Nəriman Nəcəf oğlu Nərimanov 1870-i il aprel ayının 14-də Tiflis şəhərində anadan olub. Atası Kərbəlayı Nəcəf maarifə və mədəniyyətə meyilli adam idi və həlim xasiyyətli anası Həlimə xanım oğluna xüsusi məhəbbət bəsləyirdi. Kiçik yaşlarında Nəriman yazıb-oxumağı əmisindən və qardaşından öyrənib. Elə uşaq yaşlarından da ədəbiyyata güclü maraq göstərib. Fərdi yolla müəyyən ibtidai təhsil alandan sonra 1882-ci ildə Gürcüstanın Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasma daxil olub. Burada klassik dünya ədəbiyyatı nümunələri ilə ilk tanışlığı başlayıb və yazıçı kimi özünün birinci bədii yaradıcılıq nümunələrini yazıb.

İyirmi yaşında seminariya təhsilini başa vuran Nəriman Nərimanov Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kəndinə müəllim göndərilib. Bir ildən sonra o, Bakıya gəlib. Burada bir ziyalı dövlətlinin şəxsi progimnaziyasında dərs deyib. Sonra şəhərin realnı məktəbində (gimnaziyasında) sinif mürəbbisi (tərbiyəçisi) işləyib. Burada geniş siyasi-ictimai və mədəni-maarif işlərinə başlayıb. 1894-cü ildə Bakıda ilk kütləvi qiraətxana-kitabxana açıb. Azərbaycan və rus dillərini öyrənənlərdən ötrü dərsliklər tərtib edib, müntəzəm ədəbi yaradıcılığa başlayıb, dilimizə əsərlər tərcümə edib (məsələn, Qoqolun "Müfəttiş" komediyasını).

O, 1902-ci ildə Bakıdakı mütərəqqi üsullu gimnaziyaya ekstern üsulla imtahanlar verib və buranı qurtarınaq barədə Kamal attestatı alıb. Həmin il Odessa şəhərinə gəlib və burada Novorossiya Universitetinin tibb fakültəsinə qəbul olunub. Oranı ali təhsilli mütəxəssis kimi 1908-ci ildə bitirib və Bakıya gələrək şəhər xəstəxanasında həkimlik edib. Xalq arasında "doktor Nəriman" kimi tanınıb. Bir ildən sonra siyasi hadisələrlə bağlı Tiflisə gəlib. Burada həkim işləyib, lakin inqilabi fəaliyyətinə görə həbs olunub. 1913-cü ildə yenidən Bakıya gəlib və Qara şəhərdəki xəstəxanaya həkim götürülüb.

Getdikcə "Hümmət" siyasi təşkilatında fəaliyyətini gücləndirən Nəriman Nərimanov 1919-cu ildə Hacıtərxanda Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar seçilib. Həmin il Moskvaya yüksək vəzifəyə dəvət alıb. 1920-ci ildə Azərbaycanda şura hökuməti yaradılması ilə əlaqədar əvvəlcə İnqilab komitəsinin Sədri, sonra isə Xalq komissarları Sovetinin Səd-ri seçilib. 1922-ci ilin dekabrında SSRİ Məraəzi İcraiyyə Komitəsinin Sədri seçilib (ZSFSR tərəfindən).

Tezliklə bütün ölkədə böyük nüfuz qazanan Nəriman Nərimanov 19 mart 1925-ci ildə qəflətən vəfat edib. Məzarı Moskvanın Qızıl meydanında, Kreml qalasının divarları yanındadır.

* * *

Nəsr, publisistika (xüsusən felyeton), ədəbi-bədii tənqid yaradıcılığı ilə yanaşı, Nəriman Nərmanov dramaturgiya və teatr ilə daha ciddi məşğul olub. Onun ilk dram əsəri "Nadanlıq" komediyasıdır. Müəllif bu əsərini 1894-cü ildə yazıb və elə həmin il də Bakı şəhərində Dəmirovun mətbəəsində çap etdirib.

Pyesin adı onun ictimai mahiyyətinə, sosial konfliktinə, xarakterlərinin dəyər və mənasına sanki bir kod-açardır. Dramaturqun nadanlığa qarşı mübarizəsi, milli şüuru xurafat buxovlarının zəncirlərindən xilas etmək ideyalarının təbliği onun maarifçilik arzularının parlaq nümunəsidir.

Nəriman Nərimanov komediyanın ilk çapının müqəddiməsində əsərin yazılmasının qayə və məqsədini sərrast açıqlayaraq göstərib: "Hər millətin qabağa getməyinə səbəb mədəniyyətdir. Və məlumdur ki, biz müsəlman millətinin arasında mədəniyyət və mərifət nəhayətdə az yayılıbdır... Əsəri yazınağıma səbəb Qafqaz müsəlmanlarının əksəriyyətinin bimərifət və nadanlığı oldu. Hənuz əsər çöl xalqının zindəganına dair olan əhvalatdır. Bu qissədən oxuyanlarım aşkar yəqin edirlər ki, nadanlıq həqiqətdə insanı heyvan edərmiş".

"Nadanlıq" pyesinin kompozisiya elementlərində və struktur qurumu ilə mövzunun estetik dramaturji təqdimində faciə elementləri də vardır. Dramaturq nadanlığın dramatik konfliktini Hacı Abdullanın iki oğlu, oxumuş Ömər ilə nadan Vəli arasındakı həyata təzadlı baxışlar əsasında işləyib. Ata da öz nadan oğlu Vəli ilə fəxr edir, onun nahaq yerə adam öldürüb qaçaq düşməsindən qürur duyur. Ömər isə millətin tərəqqisi yolunda özünü fəda edir, qonşu kənddə məktəb tikintisinə əl tutınağa çalışır, hənikəndhlərini qəflət yuxusundan ayıltmağa səy göstərir. Dramaturq nadanlığın faciələrini sadə kəndli, elmə tərəddüd göstərən Qurbanəlinin və mühafizəkar dindar Ağakişinin timsallarında problemə yeni baxım bucağından təqdim edib.

Nəriman Nərimanov ikinci dram əsəri "Şamdan bəy"i də komediya janrında yazıb. 1895-ci ildə tamamlanmış komediyanın adı ədəbiyyatşünaslıqda və teatr afişalarında "Dilin bəlası", "Şamdan bəy, yaxud dilin bəlası", "Dilin bəlası, yaxud Şamdan bəy" kimi də göstərilib. Müəllif bu komediyanı milyonçu Ağa Musa Nağıyevin maddi yardımı ilə Bakıda, Quberniya idarəsi mətbəəsində ayrıca kitab şəklində çap etdirib.

Dramaturq "Şamdan bəy"in ilk çapma da müqəddimə yazıb və orada özünün yazıçı amalmı belə göstərib: "Hənuz bu komediyanın əsil məqsədi budur ki, şəxs gərəkdir dilinin sahibi olub, onu pis-pis sözlərdən saxlasın. Zira necə ki, zindəganlığımızda, insan çox vaxt tövrbətövr bəlalara giriftar olur, ancaq dilinin səbəbinə... Və dəxi şəxs gərəkdir dilinin gücünə ümid bağlayıb bir işdə ki, ondan ona xeyir gələcəkdir, yoldaşa və ya qeyri adamlara xəyanət etməsin".

Bu sözlər komediyanın ideya kəsərini, tərbiyəvi əhəmiyyətini çox dürüst və aydın ifadə edir.

Nəriman Nərimanov "Şamdan bəy" komediyasında obrazların psixoloji təqdimini məmləkətdə kapitalizmın sürətlə inkişafının törətdiyi mürəkkəb insani münasibətlər əsasında verib. Var-dövlət hərisliyinin, haram pul qazanınaq ehtirasının həyat və məişətdə yaratdığı fitnəkarlıqlar satirik boyalarla təsvir olunub. Dramaturq pyesdə üç hadisə xəttini müxtəlif mövzu-ideyaya bağlılıqda işləyərək, onları bir kompozisiya daxilində qələmə alıb. Yusif - Xədicə saf məhəbbət xətti psixoloji dramatizmlə və bir qədər lirik səpkidə işlənib. Xəbis qəlbli, rəzil düşüncəli, gopçu Şamdan bəyin dostu, xeyirxah qəlbli, sadə duy-ğulu, maarifpərvər ruhlu, fədakar Yusifi aldatması, ona xəyanət etməsi tənqidi sarkazmla və dramatik gərginliklə qələmə alınıb. Hər iki xətt isə bir məcradan başlayır. Pul ehtirasının və ləyaqətsizliyin, nadanlığın təmsilçisi olan, mənəvaiyyatsızlıqda Şamdan bəylə eyni rəngdə görünən Hacı İbrahimlə (Xədicənin atası) bağlı hadisələr üçüncü xətt kimi səciyyələnib.

Dramatik xətlərin reallıqla sona çatması və həqiqətə söykənməklə obrazların xarakterlərini açması üçün dramaturq mənəviyyatlı, qürurlu və vicdanlı Niyaz bəy (o, Xədicənin dayısıdır) surətini yaradıb. Məhz Niyaz bəy Şamaxıdakı məsləkdaşları vasitəsilə başda dostu Yusif olmaqla, həmin fitnəkar yalanları ilə aldadan Şamdan bəyin kimliyini müəyyənləşdirir, onun əsil mənfur simasını açır.

Ilk komediyasından fərqli olaraq, "Şamdan bəy" əsərində dramaturq, zəif də görünsə, nadanlığa qarşı çıxan, mütərəqqi fikirlərlə yaşayan, dostluqda fədakarlığa hazır olan və səmimiyyətlə davranan, sağlam düşüncəli gənclər Sultan, Murad, Rəsul, Yusifin nökəri Qulu kimi real obrazlar yaradıb. Niyaz bəy də dramaturqun arzularının təmsilçisi mövqeyində canlı bədii personajdır. Bunların bədii təqdimində tüfeylikilə yaşamağa, haram pulla hansısa mənsəbə çatınaq

cəhdlərinə, qeyrətsiz ziyalıların ictimai passivliklərinə qarşı dramaturqun tutduğu vətəndaş və yazıçı mövqeyi sağlam, aydın və təsiredici görünür.

Tipik xarakterlərin tipik şəraitdə verilməsi və obraz əlvanlığı yaradılması baxımından Pərzad qarı, şəhər sakinləri Rza bəy, Nəcəf bəy, Heydər bəy, Hacı İbrahimin nökəri Cəfər, arvadı Nigar, onun qulluqçusu Nazlı surətləri maraq doğurur. Bədii təsvirlərində və dramatik inkişafla əlaqələndirilməsində müəyyən qüsurlarına baxmayaraq, həmin obrazlar komediyaya canlılıq və təbii reallıq ahəngi aşılayıb.

Azərbaycan dramaturgiyasında tarixi dram və tarixi faciə janrında ilk səhnə əsərini Nəriman Nərimanov yazıb. "Nadir şah" (bəzən "Nadir şah Əfşar" kimi verilib) faciəsi, eyni zamanda Nəriman Nərimanovun dramaturgiya yaradıcılığının zirvəsi sayılır. Bu ilk tarixi dramı ədib 1899-cu ildə yazıb. Həmin il də milyonçu Hacı Zeynalabdin Tağıyevin xərci ilə "Aror" nəşriyyatında kitab şəklində çap olunub. On dörd ildən sonra faciəni təzə çapa hazırlayan dramaturq onun üzərində yenidən işləyib, bəzi epizodları, ayrı-ayrı dialoqları ixtisar və əlavələrlə təzələyib, hətta remaraalarda dəyişikliklər edib. "Nadir şah"ın həmin variantı 1923-cü ildə Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində çap olunub.

Faciənin mövzusu İran hökmdarı, soy kökü Azərbaycan türklərinin qolundan olan, şöhrəti bütün Şərqə yayılmış Nadir şahın (1688-1747) həyatından götürülüb. Dramaturq öz əsərini yazınaq, Nadir şahı ictimai və siyasi xadim kimi vermək üçün müxtəlif müəlliflərin "Tarixi-Nadir" salnamələrindən istifadə edib, şahın müharibə tarixlərini dəqiq öyrənib. Buna görə də dramaturq tarixi şəxsiyyətlərin (Nadir şah, onun oğlu Rzaqulu, Şah Təhmas, Cəfər xan, Məhəmməd xan, Ədhəm) timsalında dövrün ictimai-siyasi panoramını, zamanın sosial xarakterini yarada bilib. Bədii təxəyyülün məhsulu olan, ümumiləşdirilmiş tip-obrazlar səpkisində verilən yaraqlı qaçaqlar, yolçular, müqərrəblər (şaha yaxın adamlar), kənd adamları personajları epizodik və yardımçı səciyyə daşısalar da, əsərin reallıq və həyatilik ruhunu artırmışlar.

Nəriman Nərimanov "Nadir şah" faciəsində əvvəlki iki komediyasından fərqli olaraq, hadisələri monumental həyat lövhələri ilə, obrazları coşğun ehtiraslarla, kənd mühitini dramatik psixologizmlə, müxtəlif cəmiyyət zümrələrinin həyat görüşlərini, hakim və hakimiyyət problemini realhğa əsaslanan romantik-dramatik vüsətlə təsvir edib. Təmkinli epik lövhələr psixoloji-dramatik epizodları, məişət səhnələri monumental problemlərdən şirələnən mərhəmət və itaət anlayışmı qabardan dialoqları əvəzləyir. Həmin dramaturji zəmində şah və rəiyyət münasibətləri, hökmdar və səltənətin idarə olunması problemi, qatil ata və gözü çıxarılan zavallı övlad faciəsi problemləri qabarıq və ifadəli, bədii və inandırıcı təsir bağışlayır.

Nəriman Nərimanov bu faciəsində Nadirin mürəkkəb xarakterli tarixi şəxsiyyət olduğunu hərtərəfli göstərmək məqsədilə onun şahlıq səltənətində atdığı mütərəqqi addımları da təsvir edib. Müsəlmançılığın şiə və sünnilik kimi iki təriqətə ayrılmasını Nadir şah pisləyib və bunu dövlətçilik sütunlarının laxlamasma gətirib çıxaracağını göstərib. Dramaturq Nadir şahın bu flkrinə və dinin dövlətdən ayrı olmasma çalışması səyinə pyesdə xüsusi bədii lövhə, xüsusi məntiqi inkişaf xətti ayırıb. Həmin xətdə Nadir şahın əqəliyyət (azlıq) təşkil edən xristianlara xüsusi fərmanla dini azadlıq verməsi, müqəddəs "İncil"i tərcümə etdirmək səyində olması da dramaturji hadisələrə və əsas ideyaya bağlanıb.

Dramaturq bütün bunları, yəni sərt və amansız, qanlar tökən və məmləkətin sərhədlərini genişləndirmək naminə müharibələr aparan Nadir şahın reformalarının mütərəqqi xüsusiyyətlərini da dramaturji konfliktin mərkəzinə çəkib. Bununla da Nadir şah həm xaraktercə ziddiyyətli, gözlənilməz addımlar atan tarixi şəxsiyyət, həm də möhtəşəm, mürəkkəb bədii-dramatik obraz kimi yadda qalır.

Nəriman Nərimanovun son dram əsəri 1915-ci ildə yazdığı "Bahadır və Sona" faciəsidir. Dramaturq bu əsərini özünün eyniadlı romanı əsasında yazıb, daha doğrusu, səhnələş-dirib. "Bahadır və Sona" romanının birinci hissəsi isə 1896-cı ildə Bakıda və ikinci bölümü 1900-cü ildə Yelendorf şəhərində (indiki Xanlar rayonu) çap edilib. İkinci hissə səkkiz səhifədən ibarətdir və bunu

dramaturq bəzi mətləblərə aydınlıq vermək məqsədilə yazıb. Burada hadisələr Bahadırın öz tələbə dostu Soltanla birlikdə, məşhur Qafqaz yolu ilə Tiflisdən Peterburqa getmələri ilə bitir.

"Bahadır və Sona" faciəsini dramaturq Şamaxıda səhnələşdirib və elə həmin il də Tiflisdə yerləşən senzura komitəsinə yollayaraq əsərin səhnədə oynanılmasma icazə alıb.

Bu əsər azərbaycanlılar yaşayan məkanlarda müxtəlif ictimai mübahisələrə səbəb olub. Dramaturq Şərq poeziyasında, xalq dastanlarında müxtəlif şəkillərdə toxunulan xristian qızına müsəlman gəncinin aşiq olması mövzusunu yeni sosial, fəlsəfi-psixoloji düşüncə kontekstində qələmə alıb. Rahatsızlıq doğuran məsələ, əsasən, o idi ki, müəllif iki gəncin faciəli eşq macərasından daha çox, feodal düşüncə tərzinin zülmətə sürükləyən məqamlarını dramatik sərtliklə verə bilmişdi. Bunun yüksək bədii həllinə nail olmaq məqsədilə Nəriman Nərimanov pyes variantında romanın süjetini xeyli yığcamlaşdırmış, bir sıra epik hadisələrdən və yardımçı mövzulardan imtina etmişdi. Bu imtina süjet xəttinə dinamizın, xarakterlərin hərəkətlərinə dramatik fəallıq, konfliktə sosial-ictimai kəsər gətirib. İdeya-bədii məzmun faciə janrının estetik prinsipləri baxımından xeyli zənginləşib. Millət anlayışı, vətənpərvərlik duyğusu, maarifçiliyə münasibət, psixoloji ailə münasibətləri kimi həyati məsələlər dramda yeni səciyyələrlə bədii materialın əsasında durub.

Dramaturq öz əsərində mürtəce qüvvələrin təmsilçilərinin bədii obrazlarını təsvir etməyib. Lakin onların düşüncə tərzləri, köhnəliklə yeniliyin ideya mübarizələri, bəşəri duyğuların təbliği dramatik hadisələrin psixoloji əsasını müəyyənləşdirib. Nəriman Nərimanov Bahadırı real həyati obraz kimi təsvir etməklə yanaşı, onun dünyagörüşlərinin ziddiyyətlərini, maarifpərvərlik yolundakı tərəddüdlərini də cəsarətlə verib.

Pyesdə qadın və şəxsiyyət azadlığı, məhəbbət və vicdan pakıığı problemləri Sona və Soltan, Yusif obrazlarının timsalında yeni dramatik vasitələrlə və orijinal ziyalı fikirlərilə təsvir olunub. Onların da dramatik xarakterləri birrəngli deyil, mürəkkəb və əlvandır, təzadlı və ziddiyyətlidir.

## İLK TEATR TRUPPALARI
## (1897-1905)

Teatr həvəskarları "Birinci müsəlman truppası"nda birləşəndən sonra müəyyən iş prinsipi qurmağa, tamaşaları, heç olmasa, ayda iki dəfə, lakin müntəzəm oynamağa çalışırdılar. Həmin illərdə və iyirmi il sonraki dövrlərdə yay və qış aylarının müəyyən dövrü mövsümün qapanması kimi qəbul olunmuşdu. Fəaliyyəti "qış mövsümü" və "yay mövsümü" bölgülərinə ayrıldığına görə truppa müstəqil şəkildə öz tamaşalarını 1897-ci ilin martından göstərməyə başladı. İl ərzində isə xeyli tamaşa oynanıldı.

Bunların arasında Nəcəf bəy Vəzirovun "Daldan atılan daş topuğa dəyər", Sultanməcid Qənizadənin "Dursunəli və ballıbadı" (hər ikisi 1 martda oynanılıb), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (9 mart. Rejissor Sultanməcid Qənizadə), Nəriman Nərimanovun tərcüməsində və rejissorluğunda Nikolay Qoqolun "Müfəttiş" (15 oktyabr və 28 noyabr), Nəriman Nərimanovun "Nadanlıq" (5 dekabr) komediyalarının tamaşaları xüsusi yer tutub.

Tamaşaların hamısı Tağıyev teatrının binasında göstərilib. Mühüm hadisə kimi "Müfəttiş" tamaşasının uğurunu xüsusi qeyd etmək lazımdır. Milli teatrımızın tərcümə əsərlərinə müraciətində bu tamaşanın premyerasının maraqla qarşılanması yüksəlişə doğru əsaslı dönüş yaratdı. Tamaşanın maraqlı aktyor ansamblı vardı. Əsas rolları Nəriman Nərimanov (Bələdiyyə rəisi), Həbib bəy Köçərlinski (Osip), Bədəl bəy Bədəlbəyov (Dobçinski), Əbülfət bəy Vəli (Bobçinski) ifa ediblər.

1897-ci ildə Bakıda birinci dəfə "Artistlər ittifaqı" yaradılıb. Üç yüz nəfər üzvü olan ittifaqa bir neçə nəfər azərbaycanlı səhnə həvəskarı da qəbul olunub. Hər fərd üçün üzvlük haqqı 6 manat təyin edilib.

Sultanməcid Qənizadənin şagirdləri Hüseyn Xələfov (Ərəblinski) və Mirmahmud Kazımovski bu il göstərilən "Lənkəran xanının vəziri" komediyasında mehtər Kərəm və Kəndli rollarında ilk dəfə səhnəyə çıxıblar. Gələcəyin tanınmış aktyoru, dramaturqu və tərcüməçisi olan Mehdi bəy Hacınski isə "Nadanlıq" tamaşasında səhnədə birinci addmını atıb.

Truppa 1898-ci ildən afişalarda, qəzet xəbərlərində "Müsəlman dram artistləri dəstəsi" (bəzən "Müsəlman dram artistləri") kimi təqdim edilib. Tamaşalara rejissorluğu Sultanməcid Qənizadə, Həbib bəy Mahmudbəyov və az da olsa, Nəriman Nərimanov ediblər. Müəyyən coşğunluqla çalışan dəstə üzvlərinin yaxşı işləri ötəniiki əsərlərin təkrar quruluşda oynamlması və Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (1 mart), İsgəndər bəy Məlikovun "Yaxşılığa yamanlıq" (15 və 20 aprel) və Mirzə Fətəlinin "Hacı Qara" (13 noyabr) faciə, dram və komediyalarının hazırlanıb göstərilməsi olub.

Dəstənin teatr tamaşalarının göstərilməsi 1899-cu ildə adda-budda xarakter almağa başlayıb. Ötənilki səhnə əsərlərinin sırasma Nəcəf bəy Vəzirovun "Qarınqulu" və Haşım bəy Vəzirovun "Evlənmək su içmək deyil" (ikisi də matın 9-da oynanılıb), Əbdürrəhim bəy Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" məzhəkələrinin tamaşaları daxil edilib. Cahangir Zeynalov dərviş Məstəli şah ("Müsyö Jordan və dərviş Məstəli şah". 3 mart) rolunda yüksək komediya aktyorluğu ilə tamaşaçıların daha dərin rəğbətini qazanıb.

Hüseynqulu Rzayev truppada çalışan Nəcəfqulu Vəliyevin təşəbbüsü və Nəriman Nərimanovun səyi ilə taleyini səhnə sənətinə bağlayıb. Sonralar "Sarabski" (bəzən "Sarablı" yazılıb) təxəllüsü ilə dram, faciə və opera aktyoru kimi böyük şöhrət qazanıb, rejissorluq edərək çoxlu tamaşalara quruluşlar verib.

Bu il Tağıyev teatrında müəyyən yenidənqurma işləri aparılıb, tamaşa salonu genişləndirilib, oturacaqların sayı bir xeyli artırılıb. Binanın kirayə götürülməsində çətinliklər yarandığına görə məşqlər Cahangir Zeynalovun, İsgəndər bəy Məlikovun evlərində, "Kaspi" qəzetinin redäksiyasında keçirilib. Dəstədə "rejissor" anlayışı hələ formalaşmamışdı. Həvəskarları bir yerə toplayıb rol bölgüsü aparana "rejissor" deyilirdi. Tamaşalar iki-üç günə, bəzən bir həftəyə hazırlanırdı.

1900-cü ildə teatr prosesindəki durğunluqdan çıxmağa cəhd göstərilsə də, nəzərə çarpacaq dəyişiklik və müəyyən sənət nailiyyəti olmayıb. Hətta truppa dağılmaq həddinə çatıb. Nəriman Nərimanovun truppanı bərpa etmək və rəhbərliyi öz üzərinə götürmək cəhdi baş tutınayıb. Mövcud çətinliyi ilin sonlarında Şuşadan Bakıya gələn və 1901-ci ildə "Bakı müsəlman truppası" yaradıb işgüzar fəaliyyətə başlayan Əbdürrəhim bəy Haqverdiyev aradan qaldırdı. O, cəsarətlə baş rejissor funksiyasını üzərinə götürdü və milli teatr tariximizdə bu vəzifəni ləyaqətlə icra edən ilk ziyalı oldu.

Əbdürrəhim bəy Haqverdiyev ötən illərdə oynanılan pyeslərə yeni quruluşlar verməklə yanaşı, Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsini, Jan Batist Molyerin "Xəsis" əsərindən iqtibas etdiyi "Ağa Kərim xan Ərdəbili" komediyasını, özünün "Pəri cadu", "Bəxtsiz cavan" dramlarını repertuara daxil etdi. O cümlədən Qoqolun "Müfəttiş"i (Nəriman Nərimanovun tərcüməsində) və tamaşaçıların xoşladıqları vodevilləri yenidən səhnəyə gətirdi. Cahangir Zeynalovun quruluşunda və baş rolun ifasında "Hacı Qara" tamaşası böyük maraqla qarşılanıb.

Truppa 1902-ci ildə Qoqolun "Evlənmə" komediyasını Mehdi Cuvarlinskinin, "Müfəttiş"i isə M.Rüstəmbəyovun tərcüməsində, "Ağa Kərim xan Ərdəbili", "Hacı Qəmbər", "Şamdan bəy" əsərlərini yeni quruluşlarda oynayıb. 1903-cü ildə isə truppa daha çox "Müsəlman dram artistləri dəstəsi" ilə təqdim edilib. Tağıyev teatrının icarədarları Palonski və kruçinin azərbaycanlı aktyorları əlbəsə və rekvizit ilə pis təmin edirdi. Bir neçə il azərbaycanlı aktyorlar bütün tamaşaları bir otaq-dekorasiyada oynayıb. Repertuarda köhnə əsərlərlə yanaşı, N.Loxmanovanın "Napoleonun vəfatı" ("Sant Helen cəzirəsində imperator Napoleonun vəfatı") dramının, Anton Çexovun "Ayı" vodevilinin tamaşaları da vardı.

Əbdürrəhim bəy Haqverdiyev dramaturqlarla teatr dəstəsi arasında anlı əlaqələr yaratmağa çalışırdı. Həvəskarların müəyyən bir qisınının aktyorluq sənətini peşə seçmələrinə səbəb olmuşdu. Bu cəhd 1904-cü ildə bir qədər də gücləndi. Dəstə tamaşalarını daha çox Artistlər klubunda göstərib. Bakıda bəzi həvəskar dəstələr də hərəsi il ərzində bir neçə tamaşa ilə çıxış ediblər. Repertuarda Nəcəf bəy Vəzirovun və Sultanməcid Qənizadənin məsxərələri üstünlük təşkil edib. Sanballı faciə və komediyalar təkrar-təkrar göstərilib.

Adı müxtəlif cür yazılan teatr dəstəsi 1905-ci ildə müəyyən çətinliklərlə qarşılaşıb. Rusiyadakı siyasi ixtişaşlar (9 yanvar güllləbaranı, tətillər və sairə) Bakının mədəni həyatına da təsir edib. Tamaşaya qoyulmaq üçün əsərlərin icazəsi həftələrlə yubadılıb, tamaşalara nəzarət güclənib. Hətta fevral ayında Bakıda komendant saatı elan edildiyi üçün axşam ta-maşalarının oynanılmasma qadağa qoyulub. Əbdürrəhim bəy Haqverdiyev işini dəyişməklə əlaqədar olaraq dəstəyə rəhbərlikdən uzaqlaşıb. İşin ağırlığını müxtəlif aktyorlar (əsasən, Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Əbülfət Vəli, Hüseynqulu Sarabski) öz üzərlərinə götürüblər. Repertuarda təbdil olunmuş vodevillər, kiçik məsxərələr çoxluq təşkil edirdi.

İl payıza dönəndə Rusiyadakı müəyyən reformaların sədası Bakıda da hiss olundu. Nəriman Nərimanov, Dadaş Bünyadzadə, Məmməd Məmmədyarov, Məşədi Əzizbəyov, Həmid Sultanov fəhlə rayonlarında dram dərnəkləri yaradıblar. "Təkamül" qəzeti nəzdində "Hümmət" təşkilatının eyniadlı truppası fəaliyyətə başlayıb. Onlar Qara şəhərdə, Sabunçuda, Balaxanıda, Murtuz Muxtarovun klubunda, Bayılda tamaşalar oynayıblar. Aleksandr Nevski adına Azərbaycan-rus qız məktəbində müəllim və şagirdlər, Mərdəkandakı Tağıyev Bağçılıq məktəbində könüllü gənclər, Ağa Musa Nağıyev klubunda ("Obşestvennoye sobraniye") ziyalı cavanlar, ikinci məktəbin şagirdləri müxtəlif vaxtlarda tamaşalar hazırlayıblar.

Bu il aktyorlar arasında "birincilik" iddiasında olmaq, yersiz təkəbbür göstərmək, repertuarı özünə "uyğun" qurmaq truppada müəyyən parçalanmaya gətirib çıxarıb. Əbdürrəhim bəy Haqverdiyevin Peterburqa gedişindən sonra sənət axtarışları zəifləyib.

Aktyor və rejissor Əbülfət Vəli dəstə toplayaraq kiçik əsərlərdən ibarət repertuarla Azərbaycanın rayonlarında fərdi qastrollarda olub. Dəstə öz tamaşalarına yerlərdəki həvəskar aktyorları da cəlb edirdi.

1897-1905-ci illər arasında müxtəlif teatr truppalarının fəaliyyətində aşağıdakı hallar qabarıq nəzərə çarpırdı.

Repertuarda təkrarçılıq və yeknəsəklik hökm sürürdü.

Eyni dram, faciə və ya vodevil il ərzində bir neçə quruluşda oynanılırdı.

əksər vaxtlarda hansısa tamaşada baş rolda çıxış edən aktyorun dəyişdirilməsi təzə quruluş kimi təqdim olunurdu.

İfaçılar öz sözlərini əzbərləmirdilər. Mətn, dialoq və monoloq suflyor vasitəsilə çatdırılırdı və aktyorlar da onu eşitdikləri kimi (yəni bəzən səhv mətnlə) təkrarlayırdılar. Ona görə də suflyor teatrda vacib peşə sahibi sayılırdı.

Tamaşada musiqidən və məxsusi tərtibatdan istifadə edilmirdi.

Artistlərin əksəriyyəti öz ailəsinin çörəkpulunu başqa peşələrdən çıxardırdılar.

Müxtəlif dəstələrdə fəaliyyət göstərən həvəskarlar tez-tez yerlərini dəyişirdilər. Bu hal 1906-1919-cu illərdə daha xoşagəlməz hal almışdı.

Kiçik məsxərələr və vodevil-məzhəkələr ikisi, bəzən üçü və dördü bir yerdə, eyni gündə göstərilirdi.

Bir ildə bir neçə dəfə oynanan tamaşaların əksəriyyət ifaçıları dəyişirdilər. Bəzən də ifaçılar qalırdılar, lakin onların rolları dəyişidirilirdi.

Bu illərdə teatr tamaşalarında yazıçılardan Nəriman Nərimanov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, müxtəlif sahələrdə işləyən ziyalılardan Bədəl bəy Bədəlbəyov, Hacı bəy Axundov (Şirvanski), Rəhim bəy Məlikov, Midhət bəy Məlikov, Əbdüləli bəy Vəlibəyov, Rəsul bəy Tahirbəyov, Məlik bəy Tahirbəyov, Səməd Mənsur Kazımzadə, Həbib bəy Köçərli, Mehdi bəy Cuvarlinski, Sadıq bəy Salaşbəyov, Hüseyn Minasazov və başqaları çıxış edirdilər.

Nisbətən təcrübəli Mirzə Muxtar Məmmədov, Cahangir Zeynalov, Məhəmməd Əlvəndi, Əbülfət Vəli, gənclərdən Hüseynbala Xələfov (Hüseyn Ərəblinski), Murad Muradov, Hüseynqulu Sarabski (Rzayev), Mirmahmud Kazımovski, Mirzağa Əliyev, Rüstəm Kazımov, Mehdi bəy Hacınski, Ağalar Gəraybəyov aktyorluqla müntəzəm məşğul olurdular.

Dövri mətbuat, siyasi mövqelərindən asılı olmayaraq, teatr prosesini nəzərdə saxlamağa, tamaşalar barədə məlumatlar verməyə, əsərlərin qısa şərhinə meyil göstərən yazılar çap etməyə çalışırdılar.

## DRAMATURGİYADA KÜTLƏVİLIK VƏ BƏDİİ AXTARIŞLAR (1890-1920)

Azərbaycanda XX əsrin sonlarında maarifçilik ideyalarının təbliği daha geniş miqyas aldı. Maarifpərvərlər, ilk növbədə müəllimlik peşəsi ilə məşğul olanlar xalqı nadanlığın, xurafatın cəngindən xilas etmək üçün ən çevik forma-vasitələrdən biri kimi teatra xüsusi diqqət yetirirdilər. Bu istiqamətdə Tiflis Aleksandrinsk Müəllimlər İnstitunu bitirib Bakıya gəlmiş Həbib bəy Mahmudbəyovla Sultanməcid Qənizadənin fəaliyyətləri daha qabarıq nəzərə çarpırdı.

Diqqətçəkən məsələlərdən biri bu idi ki, teatr tamaşaları hazırlayan müəllimlər və ya başqa peşə sahibləri eyni zamanda özləri müxtəlif əcnəbi yazıçıların əsərləri əsasında iqtibaslar və ya təbdillər işləyirdilər. Yaxud kiçik həcmli orijinal pyeslər yazırdılar. Yazılan dram əsərləri, əsasən, vodevil (kiçik məsxərə), məzhəkə, fars, qaravəlli janrında olurdu. Onların başlıca qayəsi xalqı maarifləndirmək, teatr tamaşalarına baxanları didaktik-tərbiyəvi əhəmiyyətli əsərlərlə təmin etmək idi. Həmin istiqamətdə fəaliyyət göstərən müəlliflərdən bir neçəsi barədə qısa məlumat verəndən sonra ümumi mənzərəni yığcam şəkildə təsvir etməyə çalışacam.

* * *

**Rəşid bəy Əfəndiyev (1863-31.8.1942)**

Şəkidə ruhani ailəsində anadan olub. Yeddi yaşından dini təhsil almağa başlayıb. 1876-cı ildə şəhərdə açılmış rus məktəbinə gedib. İki ildən sonra təhsilini daha geniş miqyasda davam etdirmək üçün Tiflis şəhərinə gəlib. Burada ömrünün son aylarını yaşayan, milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadə ilə görüşüb. Onun tövsiyəsi ilə 1879-cu ildə məşhur Qori Müəllimlər Seminariyasma daxil olub. Rəşid bəy oranı bitirdikdən sonra Qəbələdə müəllimlik edib, müxtəlif dərsliklər yazıb və çap etdirib. Daha sonralar İrəvanda, Qubada, Şəkidə, Naxçıvanda, Qoridə pedaqoji fəaliyyət göstərib.

Rəşid bəy İsmayıl oğlu Əfəndiyev "Qan ocağı", "Qonşu qonşu olsa, kor qız ərə gedər", "Saqqalın kəraməti", "Tiflis səfərləri", "Pul dəlisi", "Arvad məsələsi" məzhəkələrini, "Bir saç telinin qiyməti", "Qızıl gül" pyeslərini yazıb. Onun dram əsərləri Bakıda, Tiflisdə, İrəvanda, Şəkidə, Aşqabadda, Gəncədə, Naxçıvanda müxtəlif dram dərnəkləri, ayrı-ayrı teatr dəstələri həvəskarları, mədəni-maarif cəmiyyətlərinin teatr truppaları tərəfindən tamaşaya hazırlanıb.

**Sultanməcid Qənizadə (1866-1937)**

Görkəmli maarif xadimi və yazıçı, səhnə sənətinin fədaisi idi. Sultanməcid Hacı Murtuzəli oğlu Şamaxı şəhərində orta təbəqəni təmsil edən ailədə anadan olub. İlk təhsilinə əvvəlcə buradakı Seyid Əzim Şirvaninin "Məclis" məktəbində başlayıb və sonra yeni tipli şəhər məktəbində oxuyub. 1883-cü ildə Tiflis Aleksandrinsk Müəllimlər İnstitutuna qəbul olunub. Burada dörd il təhsil alıb və mövcud imperiya qanunlarına əsasən işləmək üçün Bakıya göndərilib. Bakıda həmtəhsil dostu Həbib bəy Mahmudbəyov ilə birlikdə məktəb açıblar. Sultanməcid Qənizadə tələbatı nəzərə alaraq, Şagirdlər üçün dərsliklər işləyib, müntəxəbat tərtib edib.

Bakıdakı teatr həvəskarlarını bir yerə cəm edərək onlarla müxtəlif bayramlarda tamaşalar hazırlayıb. Həvəskarların truppa halında fəaliyyəti üçün səmərəli işlər görüb, səhnə sənətinə çoxlu istedadlı gənclər cəlb edib. Pyes qıtlığını, xüsusən kiçik məsxərələrin azlığını nəzərə alaraq dramaturgiya ilə məşğul olmağa başlayıb. 1891-ci ildə ilk dram əsərini yazıb və "Qönçə xanım" adlanan həmin faciə əsərini oynamağa senzura icazə verməyib. Təəssüf ki, bu pyesin əlyazması itib.

Sultanməcid Qənizadə Lev Tolstoyun "Əvvəlinci şərabçı" və Vladimir Dyaçenkonun "Qurbana qurban" pyeslərini Azərbaycan dilinə tərcümə edib. Bu əsərləri həvəskarlar dönə-dönə tamaşaya hazırlayaraq oynayıblar. Pedaqoq-dramaturq "Xor-xor", "Axşam səbri xeyir olar", "Dursunəli və ballıbadı", "Yadımdadır" vodevillərini azərbaycancaya iqtibas və təbdil edib. Həmin vodevil-məsxərələr milli məişət və əxlaqımıza sənətkarlıqla uyğunlaşdırıldığına görə, orijinal dram əsərləri kimi dəyərli və əhəmiyyətli olub. Həmin əsərlər 1890-1920-ci illərdə müxtəlif şəhərlərdə mövcud olan Azərbaycan teatr dəstə və truppalarının repertuarlarında çox mühüm yer tutub. Milli səhnəmizin fədailəri sayılan Cahangir Zeynalov, Mirzağa Əliyev, Sidqi Ruhulla, Abbasmirzə Şərifzadə, Əbülfət Vəli, Mustafa Mərdanov, İbrahim İsfahanlı, Hüseynqulu Sarabski kimi şöhrətli sənətkarlar adıçəkilən məsxərələrdə dönə-dönə çıxış ediblər.

**Səkinə Axundzadə (1865-1927)**

Azərbaycanın ilk qadın müəllimələrindəndir. Yazıçılıqla, o cümlədən dramaturgiya ilə də məşğul olub. Səkinə xanım Qubada doğulub və ibtidai təhsilini də orada alıb. Sonra ailəsi ilə birgə Bakıya gəlib və buradakı mütərəqqi təhsil sistemi olan məktəblərdən birində oxumağa davam edib. Bakıda və Qubada xalqın maariflənməsi yolunda böyük işlər görüb. Qız məktəblərinin açılmasma, təhsil alan şagirdlərə müntəzəm olaraq maddi yardım göstərib.

Səkinə Mirzə Heybət qızı Axundzadə teatr həvəskarları ilə yaradıcılıq əlaqələri saxlayıb. "Elmin bəhrəsi" pyesini və "Gəlin və qaynana" komediyasını yazıb. Milli folklorumuzun hadisə-süjeti əsasında "Əbülfəz və Rəna" hekayəsini qələmə alıb. Onun əsasında isə eyniadlı opera librettosu işləyib.

Yazıçı-maarifpərvər Səkinə xanım görkəmli osmanlı ədibi Namiq Kamalın "Zavallı cocuq" pyesini "Bəxtsiz bala" adı ilə dilimizə təbdil edib. Süjeti Azərbaycanın həyat şəraitinə, mənəvi-psixoloji xüsusiyyətlərinə uyğunlaşdırılmış bu əsər teatr truppalarının tez-tez müraciət etdikləri pyeslərdən olub.

Səkinə xanım Axundzadə məşhur fransız bəstəkarı Leo Delibin "Lakme" operası əsasında dram əsəri yazıb. Bu əsər "Nicat" truppasında, 1920-ci illərin əvvəllərində Milli Dram Teatrında müxtəlif səhnə quruluşunda tamaşaya qoyulub.

* * *

İyirminci əsrin ilk iki on ilində Bakıda "Müsəlman artistləri şirkəti", "Nicat", "Həmiyyət", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr dəstələri, Tiflisdə "Müsəlman artistləri", "İttihad", "İbrət" cəmiyyətlərinin truppaları, Aşqabadda "5 nömrəli teatr dəstəsi", İrəvanda "Müsəlman dram cəmiyyəti", Təbrizdə "Azərbaycan artistləri dəstəsi", "Cəmiyyəti-islahi-tərəqqi-maarifi-Azərbaycan" adlanan səhnə həvəskarları truppaları fəaliyyət göstərmişlər. Onlar, əsasən, yerli müəlliflərin kiçik həcmli dram əsərlərini, həm də təbdil və iqtibas etdikləri pyesləri tamaşaya hazırlamışlar.

Teatr dəstələrinin repertuarlarında daha tez-tez yer tutan və tamaşaçıların maraq göstərdikləri pyeslər çox olub. Bunlardan Mirzə Məmməd Axundzadənin "Səfahətin sonu", "Analıq", "Ana kitabı", "Məhəbbətin nəticələri", Məmmədsadıq Axundovun "Ata-babanın günahı", İsa bəy Aşurbəylinin "Cəhənnəm", "Azərbay və Can", "Novruz bayramı", Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə", "Qadın məişəti", Ceyhun bəy Hacıbəylinin "Qış gecələri", Rza Zaki Lətifbəyovun "Nigar və Neman", "Köhnə Türkiyə", "Məhkəmeyi-kübra", "Bədbəxt gəlin", "Əbdülhəmidin xəli", Abbas Səhhətin "Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi", Həmid bəy Məlikovun "Bədbəxt milyonçu", Məmmədəli Nasirin "Rüşvətxor qazı", "Zorən izdivac", "Millətpərəstlik", "Şərabxorluq", İsmayıl Həqqinin "Damullalıq qolaymı?", Sabit Manafzadənin "Şərq", "Münafiqlər", "Talan-talan", "Divan", İsmayıl Rüstəmbəyovun "Dövləti-bisəmər", Rza Quluzadə Şərqinin "Quqquluqu", "Vəhşi", "Cinayət", "Mirzə Rza kirmani", "Pul, yoxsa Allah", "Dəlilər yurdu", Əli Razi Şəmçizadənin "Dirilər", "İslam qiraətxanası", İsgəndər bəy Məlikovun "Yaxşılığa yamanlıq", Mehdi bəy Hacınskinin "Ac bəy", "Yezid ibn Müaviyyə", Sultan Muradovun "Kəblə Qubad", Cəfər Bünyadzadənin "Ovçular məişəti", "Xan-xan", "Ürək tikmək, yaxud qurban bayramı", Yusif Talıbzadənin "Xalid ibn Valid", Kərim bəy Şərifovun "Məmmədəli şah, yaxud Səttarxan", "Kəbin", Cəmo bəy Cəbrayılbəylinin "Molla Cəbi", "Vəhşi", "Qramafon", "Şəriət qurbanları", "Kəl döyüşü", "Tiryakilər", Mustafa bəy Əlibəyovun "Məhkəmə qarşısında tökülən qanlı göz yaşları", Yaqub Nəsirlinin "Ravina altında müharibə", Eynəli bəy Sultanovun "Tatarka", Haşım bəy Vəzirovun "Uprava xanımın qızı və Tramvay xanım", "Döymə qapımı, döyərlər qapını", Rza Vaizzadənin "Səyavuş", "Bədbəxt gəlin", "Cəhalət qurbanı", "Toy" dram əsərləri daha diqqətçəkəndir.

Tiflisli aktyor Mirzəli Abbasovun "Fəxrəddin kişi", "Sultan Mahmud Qəznəvi", "Dövreyi-səltənəti-Ənuşirəvani-adil", Bakıda Sidqi Ruhullanın (Axundzadə) "Xosrov bəy", Mirmahmud Kazımovskinin "Vuphavur", "Həmşəri pasportu", "Daşım-daşım", "Yaftuməli", "Əvəz-əvəz", Əhməd Qəmərlinin "Tahir və Zöhrə", "Cavanlar məişəti", "Rüstəm və Söhrab", "Məkri-zənən", "İntiqam", "Vaxtın var?", Hüseynqulu Sarabskinin (Rzayev) "Cəhalət", "Nə doğrasan aşına, o da çıxar qaşığına", Qulamrza Şərifzadənin "Ənuşirəvani-adil" pyesləri də teatr truppalarının maraq dairələrində olub.

Başqa millətdən olan Vasaq Mədətov azərbaycanca da təhsil alıb. Müxtəlif teatr truppalarında təşkilatçı və aktyor kimi çalışan Mədətov, həmçinin azərbaycanca vodevil-məsxərələr yazıb. Onun səhnə əsərlərindən "Qırt-qırt", "Tamahkarlıq düşmən qazanır", "Gözəgörünməz şal" uzun illər teatr dəstələrinin repertuarlarında yer tutub.

## "NİCAT" TEATR TRUPPASI

Bakıda teatr prosesi 1906-cı ildə müəyyən yeniliklərlə nəzəri cəlb edib. İlin əvvəlində şəhərdəki "Müsəlman dram artistləri" truppası əsasında "İkinci teatr dəstəsi" yaranıb. Dəstə müxtəlif mətbuat səhifələrində "Tovarişestvo", "Müsəlman artistləri tovarişestvosu", "Yeni müsəlman teatr dəstəsi" adları ilə də təqdim olunub. Dəstənin əsas aktyorları Murad Muradov, İbrahim Rüstəmbəyov, Mirzə Muxtar Məmmədov, Hüseynqulu Sarabski, Mehdi bəy Cuvarlinski, Əbülfət Vəli, Hacı bəy Axundov (Şirvanski) olublar.

Tanınmış aktyorlar Cahangir Zeynalov, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Mirmahmud Kazımovski "Şirkətdə" (birinci dəstədə) qalmışdılar.

İlin ikinci yarısında Mirzağa Əliyev özü "Həmiyyət" (ərəbcə mənası "qeyrət", "şərəf hissi" deməkdir) adlı müstəqil teatr truppası yaradıb. Ziyalı Məmmədsadıq Axundov bu işdə ona yardımçı idi. Truppa bir ilə yaxın fəaliyyət göstərib.

Azərbaycanda maarifçiliyi genişləndirmək məqsədilə 1906-cı ildə Bakıda "Nicat" mədəni-maarif cəmiyyəti yaradılıb. Cəmiyyət kitabxanalar, məktəblər açıb, qiraətxanalar təşkiİ edib, gecə kursları yaradıb, müxtəlif mədəni-kütləvi müsamirələr keçirib və oradan toplanan vəsaiti, verilən ianələri, əsasən, yoxsul şagirdlərin tədrisinə xərcləyib.

Fəaliyyətə başlayanda cəmiyyətin atdığı uğurlu addımlardan biri də teatr truppası yaratmaq olub. "Nicat" teatr truppası 1906-cı ilin noyabrından (6 noyabr. Tağıyev teatrı, Nikolay Qoqolun "Müfəttiş" komediyasının tamaşası ilə) fəaliyyətə başlayaraq milli teatr sənətinin inkişafında və tərəqqisində, peşəkar aktyorluq sənətinin formalaşmasında böyük işlər görüb. "Nicat" 1917-ci ildə öz fəaliyyətinə son qoyub.

"Nəşri-maarif" xeyriyyə cəmiyyəti Bakıdakı müxtəlif teatr dəstələrinə yaxından köməklik göstərib, 1908-ci ildən ısə öz fəaliyyətini "Nicat"la birgə aparıb.

Qısa fasilələri nəzərə almasaq, "Nicat" truppasının əsas baş rejissoru Hüseyn Ərəblinski, daha səmərəli fəaliyyət göstərən sıravi rejissorları Əbülfət Vəli , Hüseynqulu Sarabski və son illərdə Abbasmirzə Şərifzadə olublar.

Truppa təzə fəaliyyətə başlayanda tamaşalara rejissorluğu aktyorlar və bir neçə dəfə rus teatrından dəvət olunmuş Saracan Valentinov edib. 1906-cı ildə "Nicat" "Döymə qapımı, döyərlər qapını" (Haşım bəy Vəzirov) və "Hacı Qəmbər" (Nəcəf bəy Vəzirov) komediyalarını da oynayıb.

**1907.** "Nicat"ın bu il ərzindəki uğurlu işləri Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (rejissor Əbülfət Vəli. Hacı Qara - Cahangir Zeynalov, Heydər bəy - Məhəmməd bəy Əlvəndi, Naçalnik - Hüseyn Ərəblinski), Henrix Heynenin "Əl Mənsur" (rejissor Hüseyn Ərəblinski. Əl Mənsur - Məmməsadıq Axundov, Don Qanzalo - Hüseyn Ərəblinski), Fridrix Şillerin "Qaçaqlar" ("Əşqiya". Rejissor Hüseyn Ərəblinski. Qoca Moor - Cahangir Zeynalov, Karl Moor - Mehdi bəy Hacınski, Frans Moor - Hüseyn Ərəblinski, Şveytser - Əbülfət Vəli və Hüseynqulu Sarabski), Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" (rejissor və Qacar rolunun ifaçısı Hüseyn Ərəblinski, Mürtəzaquulu xan - Əbülfət Vəli, Cəfərqulu xan - Hüseynqulu Sarabski və Qulamrza Şərifzadə), Namiq Kamalın "Vətən" ("Vətən, yaxud Silistirə"), Nəriman Nərimanovun "Nadir şah" (Nadir şah - Hüseyn Ərəblinski) əsərlərinin tamaşaları olub.

**1908.** Yanvar ayının 12-də ilk milli muğam operası olan Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun"unu "Nicat" truppası Hüseyn Ərəblinskinin rejissorluğunda Tağıyev teatrı binasında oynayıb (Məcnun - Hüseynqulu Sarabski, Leyli - Əbdürrəhman Fərəcov).

Bu il truppa əvvəllər dəfələrlə oynadığı əsərlərin təkrar quruluşlarından əlavə, repertuarına yeni pyeslərin tamaşalarını da daxil edib. Bunlardan "Əmir Əbül Üla" və "İbrahim bəy" (Hüseyn Bədrəddin və Məhəmməd Rüfət. Tərcümə edəni Qulamrza Şərifzadə), "Sultan Osman" (Fransua Volter. Çevirəni Əbdürrəhim bəy Haqverdiyev), "Dəmirçi Gavə" (Şəmsəddin Sami. Tərcüməçi Süleyman Sani Axundov), "Qəzavat" (S.Lanskoy. Tərcüməçi Əbdürrəhim bəy Haqverdiyev), "Bəxtsiz bala" (Namiq Kamal. Təbdil edəni Səkinə Axundzadə), "Zorən təbib" (Jan Batist Molyer. Tərcüməçi Əhməd Qəmərli) tamaşalarını göstərmək olar.

Hüseyn Ərəblinski bir qrup sənət dostu ilə bu ilin mart və aprel aylarında Tiflisə qastrola gedib. Sentyabr ayında "Nicat" qüvvələrini səfərbər edərək həftədə bir tamaşa oynamağa qərar verib.

Bu ildən başlayaraq, təxminən on il ərzində repertuarda Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri" və "Müsyö Jordan və dərviş Məstəli şah", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", "Ev tərbiyəsinin bir şəkli" və "Müsibəti-Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", "Pəri cadu" və "Ac həriflər", Nəriman Nərimanovun "Dilin bəlası" ("Şamdan bəy"), "Nadir şah" komediya və faciələri vaxtaşırı təzə quruluşlarda göstərilib.

Hüseyn Ərəblinski Xlestakov ("Müfəttiş") rolunda uğurla çıxış edib

**1909**. "Nicat"ın idarə heyətinin rəhbərlərindən İsa bəy Aşurbəyli ilə aktyorlar arasında ixtilaf yarandığına görə, başda Ərəblinski olmaqla, aparıcı sənətkarlar bir müddət truppadan uzaqlaşıblar. Onlar qayıtdıqdan sonra truppanın repertuarında yeni canlanma yaranıb.

Hüseyn Ərəblinskinin rəhbərliyi ilə truppanın bir qrup aktyoru Tiflisdə, İrəvanda, Batumda, Naxçıvanda qastrollarda olub.

Repertuarda son on ildə oynanılan əsərlərlə yanaşı, Çirikovun "Yəhudilər" (tərcüməçi Əbdürrəhim bəy Haqverdiyev), Mirzə Fətəli Axundzadənin "Mürafiə vəkilləri" ("Təbriz vəkilləri" adı ilə), Viktor Dükanjın Qumarbazın otuzillik həyatı" (tərcüməçi Vəli Qasımov), Məhəmməd Ehsanın "Cövdət bəy" (tərcüməçi Qulamrza Şərifzadə) dram və komediyaları da tamaşaçılara göstərilib. Sultanməcid Qənizadənin, Nəcəf bəy Vəzirovun təbdil və məzhəkələri, Myasnitskinin "Mən ölmüşəm", Lentovskinin "Aktyorun həyatı", Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" vodevilləri vaxtaşırı oynanılıb.

Sentyabr ayında "Nicat"ın artıq kiçik sayılan teatr bölməsi ləğv olunub və onun əsasında daha böyük dəstə yaranıb. Truppaya, bu aktyorlar daxil ediliblər: Hüseyn Ərəblinski, Məhəmməd bəy Əlvəndi, Əbülfət Vəli, Hüseyqulu Sarabski, Əliabbas Rzayev (Avarski), Rüstəm Kazımov, Məmmədhaşım Əliyev, Mirmahmud Kazımovski, Hüseyn Ağayev, Mirzağa Əliyev, İmran Qasımov, Mehdi bəy Hacınski, Süleyman Səlimbəyov, Qulamrza Şərifzadə, Murad Muradov, Hacı İbrahim Qasımov, Xəlil Hüseynov, Murad Muradov, Məmmədbağır Əlinski, Məhəmmədhəsən Həsənov, Abbasmirzə Şərifzadə. Truppaya, həmçinin azərbaycanca az-çox danışmağı bacaran Mislavskaya, Aleksandra (Şura) Olenskaya, Tamarina-Qruzinskaya, Doqmarova, Stepanova da aktrisa kimi qəbul olunublar.

**1910.** Azərbaycan operetta teatrının bünövrəsmin qoyulması da "Nicat" teatr truppası ilə bağlıdır. Bu il may ayının 24-də Üzeyir bəy Hacıbəyovun operetta janrında yazdığı ilk "Ər və arvad" musiqili komediyası oynanılıb. Nikitin qardaşlarının sirkində göstərilən tamaşaya quruluşu rejissor Hüseyn Ərəblinski verib və əsas rolları Mirzağa Əliyev (Kərbəlayı Qubad), Hüseynqulu Sarabski (Mərcan bəy) və Əhməd Ağdamski (Minnət xanım) ifa ediblər.

Repertuarda ilk dəfə göstərilən tamaşalardan İvan Turgenevin "Pulsuzluq" (tərcüməçi Ceyhun bəy Hacıbəyli), Nikolay Qoqolun "Evlənmə" (tərcüməçilər İsa bəy Aşurbəyli və Mehdi bəy Hacınski), Əbdürrəhim bəy Haqverdiyevin "Kimdir müqəssir?", Qulamrza Şərifzadənin "Molla Nəsrəddin", Ələsgər Kamalın "Bədbəxt oğul", Yusif Talıbzadənin "Xalid ibn Valid" ("Suriyanın fəthi"), Vilyam Şekspirin "Otello" (tərcüməçi Haşım bəy Vəzirov, rejissor Hüseyn Ərəblinski. Otello-Hüseyn Ərəblinski, Yaqo - Məhəmməd bəy Əlvəndi), Rudolf Batşalm "Qafqaz çiçəkləri"

(tərcüməçi Abdulla Şaiq Talıbzadə), Yusif Talıbzadənin "Ərmənusə" ("Fəthi-Misir"), Əhməd Qəmərlinin təbdilində "Cavanların məişəti", Hüseynqulu Sarabskinin "Cəhalət" pyeslərinin quruluşları da oynanılıb.

Qurban bayramı münasibətilə yanvarın 30-da Azərbaycan teatr həyatında ilk dəfə olaraq aktyor və rejissor Kərbəlayı Cahangir Zeynalova yaradıcılığının 25 illiyi münasibətilə yubiley təntənəsi keçirilib. Tağıyev teatrı binasında keçirilən bayram mərasiminin rəsmi hissəsindən sonra "Lənkəran xanının vəziri" komediyası göstərilib. Tamaşada əsas rolları Cahangir Zeynalov (vəzir Mirzə Həbib) və rejissor Hüseyn Ərəblinski (Teymur ağa) oynayıblar.

**1911.** Ötən illərdə teatr tamaşaları iri binalardan, əsasən, Tağıyev teatrında, Nikitin qardaşlarının sirkində, Ağa Musa Nağıyev teatrında, Dənizçilər klubunda, "Obşest-vennoye sobiraniye"də göstərilib. Bu il fevralın 28-də Modem Musorqskinin "Boris Qodunov" operası ilə Mayılov teatrının (hazırki Opera və Balet Teatrı) açılışı olub. "Nicat" kirayə ilə həmin binada da tamaşalar göstərməyə başlayıb.

Truppa bu ildən etibarən Əbdülhəq Hamidin "Tariq ibn Ziyad, yaxud Əndəlis" (tərcüməçilər Dadaş Bünyadzadə və Pirqulu Mürsəlzadə), Rza Zaki Lətifbəyovun "Köhnə Türkiyə", Vahid Lütfinin "Naci bəy" ("Naci bəy fədakari-hürriyyət". Tərcüməçi Dadaş Bünyadzadə) pyeslərini də oynamağa başlayıb.

Tədricən truppanın repertuarında musiqi janrlı tamaşaların göstərilməsi üstünlüyü ələ alıb. Mətbuatda buna narazılıq bildirilib və ayrı-ayrı qəzetlər müəyyən qərəzli mövqelərdən Üzeyir bəy və Zülfüqar bəy Hacıbəyov qardaşlarına qarşı qərəzli hücumlar ediblər.

Bakı şəhər polisi Azərbaycanda teatr sənətinin tərəqqisindən təşvişə düşüb. "Nicat"ın göstərdiyi tamaşaların hamısında polisin nümayəndəsi birinci sırada əyləşib və səhnədən deyilən senzuradankənar "siyasi" sözləri öz idarəsinə çatdırıb.

**1912-1917.** Bu illərdə "Nicat"dan əlavə, bu dəstənin yaradıcı heyəti əsasında "Səfa" teatr truppası da yaradılıb. Tamaşalar paralel verilib. Tədricən gündüz tamaşalarının sayı da artırılıb. Truppaların qastrolları geniş vüsət alıb və çox möhtəşəm coğrafi ərazini əhatə edib.

Azərbaycan teatr tarixində ilk dəfə olaraq 1912-ci ilin noyabrında "Nicat"ın aktyoru Mirzağa Əliyev tamaşa zamanı səhnədən dövlət əleyhinə söz işlətdiyinə görə Hacıtərxan şəhərinə sürgün edilib.

Fəaliyyət göstərdiyi illər ərzində "Nicat" teatr truppasında gələcəyin qüdrətli sənətkarları Hüseynqulu Sarabski (aktyor, rejissor və opera solisti), Sidqi Ruhulla, Abbasmirzə Şərifzadə, Panfiliya Tanailidi (müəyyən fasilələrlə), Yeva (Yevgeniya) Olenskaya, Əhməd Qəmərli (dramaturq və akt-yor), Hüseynağa Hacıbababəyov (opera solisti), Əbülhəsən Anaplı, Rza Darablı, Nataliya Lizma, Hacıağa Abbasov, Cəlil Bağdadbəyov, Hacıbaba Şərifov, Mir Paşa Sadıqov, Məmmədhənifə Tanrıqulov (Hənifə Terequlov. Aktyor və xorbaşı), Ələkbər Süheyli, Müslüm bəy Maqomayev (dirijor), Ələkbər Hüseynzadə, Xəlil Hüseynov, İbrahim Atakişiyev (Azəri), Məmmədtağı Bağırov, Məhəmmədhəsən Atamalıbəyov, Səməd Mənsur (Kazımzadə. Dramaturq, aktyor və rejissor), Şeyda Xəlilbəyov, Yunis Nərimanov və onlarca başqaları yetişib formalaşıblar.

Fəaliyyətinin son altı ilində "Nicat" truppası əlliyə yaxın tamaşa hazırlayıb. Bunların böyük bir qismini truppa hər il təzə quruluşlarda göstərib. Üzeyir bəy Hacıbəyovun "Şah Abbas və Xurşid banu", "Əsli və Kərəm" operalarını, "Arşın mal alan" operettasını, Mehdi bəy Hacınskinin "Zülm və istibdadın axırı" ("Sultan Əbdülhəmidin xəli"), "Yezid ibn Müaviyyə", Nəcəf bəy Vəzirovun "Keçmişdə qaçaqlar", Cəlil Məmmədquluzadənin "Ölülər" (rejissor Hüseynqulu Sarabski. İsgəndər - Mirzağa Əliyev, Şeyx Nəsrulla - Əliqulu Qəmküsar), Əbdürrəsul Şərifzadənin "Ənuşirəvani-adil", Vano Mçedaşvilinin "Qaçaq Kərəm", Mirzə Məmməd Axundzadənin "Səd ibn Vəqqas", Hacı İbrahim Qasımovun "Qatili-Kərimə" ("Qızının qatili"), Yusif Talıbzadənin "Əmir Xalid ibn Valid" ("Şamın fəthi və ərəblərin Roma ilə müharibəsi"), Baxmetovun "Napoleon müharibəsi və yaxud Moskva yanğını" (tərcüməçi Hacı İbrahim Qasımov), Səməd Mənsurun "Köhnə və təzə il", Abdulla Şaiq Talıbzadənin "Bir saatlıq xəlifə", Səkinə Axundzadənin təbdil etdiyi "Zülmün səmərəsi"

("Lakme". Rejissor Abbasmirzə Şərifzadə. Nilufər-Lakme - Gülsabah xanım, Said bəy - Hüseyn Ərəblinski, Səid bəy - Abbasmirzə Şərifzadə) əsərlərini ilk dəfə məhz "Nicat" teatr truppası tamaşaya hazırlayıb.

1916-cı ildə Tağıyev teatrında "Nicat" mədəni-maarif cəmiyyətinin, o cümlədən onun nəzdindəki teatr truppasının onilliyi yubiley kimi qeyd olunub.

"Nicat" teatr truppası ilk dəfə aktyorlara müxtəlif bölgülər üzrə maaş kəsib.

"Nicat" teatr truppası ilk dəfə özünün aksessuarım (rekvizit, butafor, dekorasiya, geyim və sairə) yaradıb.

"Nicat" teatr truppası sabit repertuar qurmaq istiqamətində ənənə yaradıb.

"Nicat" müqavilə ilə truppaya aktyorlar götürüb.

"Nicat" truppası dünya dramaturgiyasının incilərini tamaşaya hazırlamaq məqsədilə tərcümələr sifariş verib.

"Nicat" teatr truppası fəaliyyətinin sonuna qədər öz repertuarında məzhəkə, dram, komediya və faciələrlə yanaşı, operalara və operettalara da xüsusi yer ayırıb.

"Nicat" teatr truppası maarifpərvər Bakı milyonçularının, əsasən, Murtuz Muxtarovun, Ağa Musa Nağıyevin köməkiikləri ilə müxtəlif illərdə çoxlu müsamirələr keçirib. Yığılan vəsait "Nəşri-maarif"ə, ayrı-ayrı məktəblərə, şagirdlərin dərs vəsaitlərinə, bəzi aktyorların müalicə xərclərinə sərf olunub.

## "SƏFA" TEATR TRUPPASI

Maarifçilik ölkədə geniş intişar tapdıqca, ziyalılar xalqın mədəniyyətini inkişaf etdirməyə daha səylə Çalışdıqca və xüsusən "Nicat" mədəni-maarif cəmiyyətinin mutərəqqi fəaliyyətinin təsiri gücləndikcə iyirminci əsrin onuncu illərindən müxtəlif adda təşkilatlar yaranmağa başlayıb. Bunlardan ən səmərəli və məqsədyönlü çalışanı "Səfa" mədəni-maarif cəmiyyəti olub. Nizamnaməsi və yaradıcılıq məramnaməsi "Nicat"la üst-üstə düşən "Səfa" cəmiyyəti 1910-1917-ci illərdə fəaliyyət göstərib.

1912-ci ilin yazında "Səfa"nm nəzdində eyniadlı teatr truppası yaradılıb. Bu truppa "Nicat"ın aktyor kollektivinin teatr sənəti təcrübəsi və potensial yaradıcılıq qüvvəsi ilə təşkil edilib. Milli səhnə sənətimizin yeni tərəqqismə xidmət edən xeyirxah işin təşəbbüskarları və görülən əməllərin, atılan ilk addımların başında duranları, əsasən, Cahangir Zeynalov (aktyor və baş rejissor) və Səməd Mənsur olublar. İlk vaxtlar Hüseyn Ərəblinski, Abbasmirzə Şərifzadə, Rüstəm Kazımov, Mirmahmud Kazımovski, Hacıağa Abbasov, Cəlil Bağdadbəyov, Əliş Haqverdiyev, Məmmədbağır Əlinski, Əli İslam, Əhməd Qəmərli, Mehdi bəy Hacınski, Xəlil Hüseynov (aktyor və rejissor kimi), Məhəmmədhəsən Mərəndi və başqaları "Nicat"la bərabər "Səfa" truppasında da aktyor kimi çalışıblar. Bu ənənə sonralar da davam etdirilib. Yəni eyni aktyor müqavilə ilə hər iki truppada işləyib. Hətta bəzən eyni aktyor səhər "Nicat", axşam isə "Səfa" truppasının tamaşalarımda oynayıb.

Bununla belə, növbəti ildə "Səfa" truppasına Hilal Bağırov, Əliabbas Rzayev, Ağadadaş Həsənov, Dadaş Bünyadzadə, Cəfər Bünyadzadə, Əziz, Mirzə Muxtar Məmmədov, Əli Səbri Qasımov, Mircəlal Abdinov, Ələkbər Əliyev, Bağır Xəlilbəyov, Əhməd Səfərov (Anatollu), Şeyda Xəlilbəyov, Aslan Tahirov, Xasməhəmmədov, Musaxanov və bir neçə il işlədikdən sonra səhnə sənətindən uzaqlaşan gənclər qəbul olunublar.

"Səfa" truppasının ilk tamaşası Nəcəf bəy Vəzirovun fransız dramaturqu Jan Batist Molyerin "Xəsis" komediyasından iqtibas etdiyi "Ağa Kərim xan Ərdəbili" məzhəkəsi olub. Əsəri tamaşaya Cahangir Zeynalov hazırlayıb. Əsas rolları Cahangir Zeynalov (Ağa Kərim xan Ərdəbili) və Abbasmirzə Şərifzadə (Ağa Kərim xanın oğlu) oynayıblar. Bu tamaşa 1912-ci il avqustun 31-də Tağıyev teatrının binasında göstərilib.

Bundan sonra teatr truppası 1912 və 1913-cü illərdə Cahangir Zeynalovun quruluşlarında Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Qəmbər - Cahangir Zeynalov), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (tərcüməçi Səməd Mənsur. Fərhad - Cahangir Zeynalov, Gavə - Səməd Mənsur, Pərviz - Abbasmirzə Şərifzadə, Zöhhak - Məhəmmədhəsən Mərəndi), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri " (vəzir Mirzə Həbib - Cahangir Zeynalov, Şölə xanım - Şura Olenskaya), "Hacı Qara" (Hacı Qara - Cahangir Zeynalov, Sona - Şura Olenskaya, Əsgər bəy - Səməd Mənsur), Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" (operetta), Səməd Mənsurun və Abbasmirzə Şərifzadənin rejissorluqlarında Əbdülhəq Hamidin "Tariq ibn Ziyad və yaxud fəthi-İspaniya" (təbdil edəni Dadaş Bünyadzadə), İsmayıl bəy Rüstəmbəyovun "Dövləti-bisəmər", Jan Batist Molyerin "Zorən təbib" (tərcüməçi Əhməd Qəmərli) əsərlərini tamaşaya hazırlayıb.

"Nicat" və "Səfa" truppalarının aktyorları bir yerdə də tamaşalar oynayıblar. Bu baxımdan "Yezid ibn Müaviyyə" Mehdi bəy Hacınski), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Pəri cadu", İvan Turgenevin "Pulsuzluq" (təbdil edəni Ceyhun bəy Hacıbəyli) tamaşalarını göstərmək olar.

Hər iki truppanın qabaqcıl aktyorları "Səfa"nm fəaliyyətinin ilk iki il ərzində qüvvələrini vahid truppada birləşdirməyə bir neçə dəfə cəhd göstəriblər. Lakin cəmiyyətin rəhbərləri və bəzi iddialı aktyorlar buna mane olublar. Təəssüf ki, bu iki truppanın tam olmayan, yarımçıq görünən aktyor heyətinin fəaliyyəti sənəti yüksəlişə aparan, faydalı rəqabət doğurmayıb. əksinə, anlaşılmaz qarşıdurma və yaradıcılıq əlaqələrinin sistemsizliyi, repertuar tərtibindəki nizamsızlıq fədakar teatr xadimlərinin səhnə sənətini inkişaf etdirmək zəminindəki potensial güclərini parçalayıb.

"Səfa" mədəni-maarif cəmiyyəti ədəbiyyat bölməsinin əsas qüvvələri teatr truppası heyəti ilə birlikdə 1913-cü il noyabrın 13-də Nəcəf bəy Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyi münasibətilə yubiley keçiriblər. Rəsmi hissədə Bakıdakı ən müxtəlif mədəni-maarif təşkilatlarının təbrikləri olub, ədibə nədiyyələr verilib. Bədii hissədə isə dramaturqun "Hacı Qəmbər" ("Yağışdan çıxdıq, yağmura düşdük") komediyası Cahangir Zeynalovun rejissorluğunda göstərilib. Teatrsevərlərin maraqla qarşıladıqları tamaşada əsas rolları Cahangir Zeynalov (Hacı Qəmbər), Səməd Mənsur (Hacı Səməd), Məhəmmədhəsən Mərəndi (Cəbi), Abbasmirzə Şərifzadə (Əşrəf bəy) oynayıblar. "Səfa" truppasının bəzi aktyorları bu il yaranan və bu il də fəaliyyətinə xitam verən "Ziya" və "Hilal" adlı teatr dəstələrinin tamaşalarında da yaxından iştirak ediblər.

1914-cü il yanvarın 6-da "Səfa" teatr truppasının geniş iclası keçirilib və yığıncağın qərarı ilə aktyor heyəti buraxılıb. Elə həmin gün truppanın təzə nizamnaməsi qəbul edilib və bu sənəd əsasında dəstəyə aktyorlar götürülüblər. Teatr bölMəsmə Cahangir Zeynalov sədr, Mehdi bəy Hacınski isə sədr müavini, aktyorlardan Abbasmirzə Şərifzadə, Hacıağa Abbasov, Ələkbər Əliyev, Hilal Bağırov və Əli Səbri Qasımov isə heyətin üzvləri seçiliblər. Yeni nizamnaməyə əsasən "Səfa"nın aktyorlarına opera və operetta tamaşaları oynamağa da icazə verilib. Bu istiqamətdə truppanın ilk addımı yanvarın 17-də atılıb. Həmin gün Cəlal Yusifzadənin "Fərhad və Şirin" (tarzən Saşa Oqanezaşvilinin musiqi tərtibində) operasını tamaşaçılara təqdim edib. Operanın tamaşasında Xosrovun partiyasını Cəlil Bağdadbəyov oxuyub və Şirin rolunu İstanbuldan Bakıya qastrola gəlmiş Mərziyə xanım oynayıb. Operanın quruluşunu Cahangir Zeynalov verib və Abbasmirzə Şərifzadə ona yardımçı rejissor olub.

Həmin illərdə Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", "Rüstəm və Söhrab" operaları, "Ər və arvad", "Məşədi İbad" ("O olmasın, bu olsun"), "Arşın mal alan" (1913-cü ildən) operettaları çox dəbdə idi. Geniş tamaşaçı kütləsi faciələrdən daha çox musiqi əsərlərinə maraq göstərirdi. Bu əsərləri oynamaq səlahiyyəti isə, bəstəkarla bağlanan müqaviləyə əsasən, bilavasitə "Nicat" truppasında idi. Buna görə də "Səfa"nın repertuarına göstərilən tamaşaçı marağı günü-gündən zəifləyirdi.

Həm mətni, həm də musiqi tərtibatı çox məqamlarda uyuşmayan, janrın estetik prinsipləri baxımından zəif və sönük olan "Fərhad və Şirin" operasının ardınca "Səfa"nın aktyorları dram və komediyalar oynayıblar. Cahangir Zeynalov dramaturq Əbdürrəhim bəy Haqverdiyevin "Millət

dostları", Jan Batist Molyerin "Zorən təbib", Abbasmirzə Şərifzadə osmanlı ədibi Şəmsəddin Saminin "Əhdə vəfa və yaxud arnaudlar" (çevirəni Səməd Mənsur), dəvətlə rejissorluq edən Hüseyr Ərəblinski tamaşaçıların maraq göstərdikləri Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" əsərlərini tamaşaya hazırlayıblar.

"Səfa"nın bir qrup aktyoru ilin ikinci yarısında Hüseyn Ərəblinskinin təşkil etdiyi "Müsəlman dram artistləri şirkəti"nin hazırladığı "Otello", "Yezid ibn Müaviyyə", "Dəmirçi Gavə", "Qaçaq Kərəm" tamaşalarında oynayıblar.

"Otello" tamaşasından sonra, 1914-cü ilin lap son günlərində Ərəblinskinin truppası yenə dağüıb. Aktyorlar "Nicat" və "Səfa" teatr dəstələri arasında parçalanıblar. Aktyor ansamblı nisbətən güclənən "Səfa" 1915-ci il yanvarın 9-da tamaşaçıların qarşısına Şəmsəddin Saminin "Tariq ibn Ziyad" (çevirəni Səməd Mənsur və rejissoru Cahangir Zeynalov) əsəri ilə çıxıb. Tamaşada əsas rolları Cahangir Zeynalov (Zübeyr), Səməd Mənsur (Fəttah ağa), Sidqi Ruhulla (Rəcəb), Yeva Olenskaya (Validə), Rüstəm Kazımov (Dəmir bəy) oynayıblar.

Yanvarın 30-da truppa ötənilki repertuarından Əbdülhəq Hamidin "Tariq ibn Ziyad" ("Tariq ibn Ziyad və yaxud ərəblərin müharibəsi" adı ilə) dramını Abbasmirzə Şərifzadənin quruluşunda yenidən repertuara daxil edib. Baş rollar Abbasmirzə Şərifzadəyə (Tariq ibn Ziyad), Sidqi Ruhullaya (Musa ibn Nasir), Mehdi bəy Hacınskiyə (Don Simanos), Yeva Olenskayaya (Səhra), Şura Olenskayaya (Zəhra), Hacıbaba Şərifzadəyə (Əziz) tapşırılıb.

"Səfa" truppası "Nicat"ın yardımı ilə fevralın 20-də Mayılov teatrında Abbasmirzə Şərifzadəyə ("Ağa Məhəmməd şah Qacar" faciəsi ilə) və aprelin 17-də Şura Olenskayaya ("Müsəlman səhnəsinin qəhrəmanları" tamaşa-kompozisiyası ilə) benefis keçirib. Şərifzadə ilk dəfə Qacar rolunu oynayıb.

Truppa beş aya yaxın fasilədən sonra, sentyabr ayının 18-də Tağıyev teatrında mövsümü açıb. Gündüz Ağa Rəsul Şərifzadənin "Ənuşirəvani-adil", axşam isə Şəmsəddin Saminin "Dəmirçi Gavə" dramlarının tamaşaları göstərilib. Hər iki tamaşanın səhnə quruluşunu Hüseyn Ərəblinski vermişdi. "Dəmirçi Gavə"də əsas rolları Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski (Fərhad), Kuznetsova (Mehriban), Nataliya Lizina (Mehri), Abbasmirzə Şərifzadə (Pərviz), Mirzə Muxtar Məmmədov (Möbid), Rüstəm Kazımov (Zöhhak), Cəlil Bağdadbəyov (Qəhtan) oynayıblar.

Bir neçə kiçik vodevil və məzhəkələrin, təbdil və iqtibasların üçünü eyni gündə bir neçə dəfə oynayan truppa oktyabrın 23-də İsmayıl bəy Rüstəmbəyovun "Dövləti-bisəmər" pyesini yenidən və təzə səhnə təfsirində (rejissor Hüseyn Ərəblinski) repertuara daxil edib. Baş rollar Hüseyn Ərəblinskiyə (Ağabala), Cahangir Zeynalova (Hacı Sultan), Hacıağa Abbasova (Məşədi Cavad), Hüseynqulu Sarabskiyə (Vəli bəy), Məhəmmədhəsən Mərəndiyə (Hacı Fərəc) tapşırılıb.

Vano Mçedaşvilinin məşhur azərbaycanlı Qaçaq Kərəmin həyatından bəhs edən eyniadlı qəhrəmanlıq dramının tamaşası Hüseyn Mirzəcamalovun tərcüməsində dekabrın 11-də Tağıyev teatrında göstərilib. Qaçaq Kərəm, Çinovnik və Feyzulla rollarında səhnəyə Hüseyn Ərəblinski, Cahangir Zeynalov və Bağır Bağırzadə çıxıblar.

Gələcəyin tanınmış aktyoru və rejissoru Rza Darablı (Hüsenov) bu il səhnəyə qədəm qoyub və "Səfa" truppasının bir neçə tamaşasında iştirak edib.

"Səfa" truppasının yaradıcılıq ritmi 1916-cı ildə aşağı düşməyə başlayıb. Truppanın rejissoru Hüseyn Ərəblinski yenidən müstəqil teatr dəstəsi yaratmağa çalışırdı. Bakıda müvəqqəti truppaların sayı çoxalmışdı. Üzeyir bəy Hacıbəyov özü, əsasən, musiqi əsərləri, eyni zamanda faciə və komediyalar oynayacaq dəstə yaratmaq fikrinə düşmüşdü. Təbii ki, bütün bunlar "Səfa"nın yaradıcılığına mənfi təsir göstərirdi.

Bütün bu çətinliklərə baxmayaraq, truppa 1916-cı ildə Hüseyn Ərəblinskinin rejissorluğunda "Hacı Qara" komediyasını (Hacı Qara - Cahangir Zeynalov), "Dursunəli və ballıbadı" məzhəkəsini (Ağa Cəfər - Hüseyn Ərəblinski, Dursunəli - Cahangir Zeynalov), yeni quruluşda "Qaçaq Kərəm" dramını, Səkinə Axundzadənin osmanlı ədibi Namiq Kamaldan təbdil etdiyi "Zavallı cocuq"

("Bəxtsiz bala". Əta bəy - Hüseyn Ərəblinski, Tahirə - Gülbahar xanım) pyesini tamaşaya hazırlayıb.

İlin sonlarında "Səfa" mədəni-maarif cəmiyyətinin fəaliyyəti acınacaqlı vəziyyətə düşüb. Rəhbərlik üstündə daxili çəkişmələr, xəzinədar Kürsüsündə oturanların maliyyə pozuntularını nizamlaya bilməmələri və Bakıda daha güclü teatr dəstələrinin yaranması nəticəsində "Səfa" truppası 1917-ci ilin lap ilk günlərindən fəaliyyətini rəsmi şəkildə dayandırmaq məcburiyyətində qalıb. Əsilində isə truppa son tamaşasını 1916-cı ildə oynayıb.

"Səfa" teatr truppası milli teatrımızın inkişafında, aktyorların və rejissorların vacib peşəkarlıq səriştələrinə yiyələnmələrində müəyyən səmərəli rol oynayıb.

"Səfa" musiqi əsərlərinin vala yazılmasında xidmətlər və maddi yardım göstərib.

"Səfa" truppası teatr aksessuranın genişlənməsi, dramaturqlarla və aktyorlarla müqavilə bağlanınası istiqamətində müəyyən faydalı islahatlar aparıb.

"Səfa" truppası tabeliyində olduğu cəmiyyətin açdığı və yardım göstərdiyi məktəblərdə, qiraətxanalarda teatr sənətinin geniş təbliğini qura bilib.

## "MÜDİRİYYƏT"
## TEATR TRUPPASI

Əsilində bu truppanın tam adı rəsmi sənədlərdə belə yazılıb: "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti". Bəzən isə afişalarda və qəzetlərdə dəstənin adı "Hacıbəyov qardaşlarının müdiriyyəti" kimi verilib. Ən çox isə işlənən "Müdiriyyət" deyimi olub.

Bakının ən güclü aktyorlarının toplandıqları "Müdiriyyət" truppası 1916-cı ilin avqustunda, əsasən, bəstəkar Üzeyir bəy Hacıbəyovun rəhbərliyi, təşəbbüsü və səyi ilə yaradılıb. Truppaya ilk baş rejissor Abbasmirzə Şərifzadə dəvət edilib. Tezliklə dəstə öz nizamnaMəsmə əsasən, operalardan, operettalardan, faciələrdən və Komediyalardan ibarət sanballı repertuar yaratmağa başlayıb. Onlar kiçik vodevillər və məzhəkələr oynamaqdan bacardıqca imtina edirdilər. Üzeyir bəy ilk tamaşanı göstərməyə tələsmirdi və truppa son dərəcə ciddi teatral rejimi ilə çalışırdı.

"Müdiriyyət" ilk pərdələrini sentyabrın 9-da opera teatrında Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operasının tamaşası ilə açıb. Noyabr ayının 10-da isə Tağryev teatrında "Yezid ibn Müaviyyə" (Curci Zeydanın romanı üzrə işləyəni Mehdi bəy Hacınski) dramı ilə yaradıcılığının yeni janrda fəaliyyətinə başlayıb. "Müdiriyyət" ilin sonuna kimi dörd opera və üç operetta premyerası və altı yeni dram tamaşası göstərib. Bununla da qısa müddətdə mövcud truppalar arasında aparıcılığı ələ ala bilib. Müsəlman təqvimində səfər ayının başlanması ilə əlaqədar olaraq teatr bir müddət opera və operetta oynamayıb. Bütün tamaşaların rejissorluğunu Abbasmirzə Şərifzadə və dirijorluğunu isə Üzeyir bəy Hacıbəyov etmişdilər.

Musiqi əsərləri bu ardıcıllıqla oynanılıb və onların hamısı ilin sonunadək təkrar-təkrar göstərilib.

**18 sentyabr**. "Əsli və Kərəm", Üzeyir bəy Hacıbəyov.
**23 sentyabr**. "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov.
**26 sentyabr**. "Şah Abbas və Xurşid banu", Üzeyir bəy Hacıbəyov.
**30 sentyabr**. "Arşm mal alan", Üzeyir bəy Hacıbəyov.
**6 oktyabr**. "Evliykən subay", Zülfüqar bəy Hacıbəyov.
**7 oktyabr**. "Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov.
**20 dekabr**. "Leyli və Məcnun", Üzeyir bəy Hacıbəyov.

Üzeyir bəyin əsərlərinin tamaşalarında Kərəmin və Əslinin, Sərvərin və Gülnazın, Şah Abbasın və Xurşid banunun, Əsgərin və Gülçöhrənin, Məcnunun və Leylinin partiyalarını Hüseynqulu Sarabski ilə Əhməd Ağdamski oxuyublar. Onlar "Aşıq Qərib"də Qərib və Şahsənəm

rollarının da daha yaxşı ifaçıları sayılıblar. Mirzağa Əliyev Məşədi İbad, Kəblə Hacı, Ələkbər Hüseynzadə Soltan bəy rollarında şöhrət qazanıblar.

"Müdiriyyət"in dram tamaşaları aktyor ansamblının ciddi və peşəkar işi, yeni rejissor təfsiri ilə seçilirdilər. "Yezid ibn Müaviyyə"də əsas rolları Abbasmirzə Şərifzadə (Yezid), Şura Olenskaya (Səlma), Xəlil Hüseynov (Şümür) oynayıblar.

**11 noyabr.** "Ağa Məhəmməd şah Qacar", Əbdürrəhim bəy Haqverdiyev. Rollarda tanınmış aktyorlardan Abbasmirzə Şərifzadə (Qacar), Xəlil Hüseynov (Əliqulu xan), Bağır Cabbarzadə (İbrahim xan və İraklinin Katibi), Rza Darablı (Elçi) çıxış ediblər.

**18 noyabr**. "Tariq ibn Ziyad", Əbdülhəq Hamid. Osmanlıcadan çevirəni Dadaş Bünyadzadə. Tariq rolunda səhnəyə Abbasmirzə Şərifzadə çıxıb.

**25 noyabr**. "Dəmirçi Gavə", Şəmsəddin Sami. Osmanlıcadan çevirəni Səməd Mənsur. Gavə və Pərviz rollarında Abbasmirzə Şərifzadə və Rza Darablı.

**2 dekabr**. "Qara bəla" ("Əkbər şalı Hindu"), Namiq Kamal. Osmanlıcadan çevirəni Cəlil Bağdadbəyov. Əsas rolları Abbasmirzə Şərifzadə (Xosrov Mirzə), Mirzə Muxtar Məmmədov (Əkbər şah), Şura Olenskaya (Bəhrəvar banu), Yeva Olenskaya (Mehridil), Cəlil Bağdadbəyov (Əmir Axşild) oynayıblar.

**9 dekabr**. "Dağılan tifaq" ("Qumarbazın axır günü" adı ilə), Əbdürrəhim bəy Haqverdiyev. Əsas obrazları səhnədə Abbasmirzə Şərifzadə (Nəcəf bəy), Şura Olenskaya (Sona xanım), Xəlil Hüseynov (Cavad), Yeva Olenskaya (Nazlı xanım), Cəlil Bağdadbəyov (Səlim bəy), Rza Darablı (Həmzə bəy), Mehdi bəy Hacınski (Məşədi Cəfər), İbrahim Atakişiyev (Kərim) canlandırıblar.

**15 dekabr**. "Bahadır və Sona", Nəriman Nərimanov. Baş rollarda Hüseyn Ərəblinski (Bahadır), Gülsabah xanım (Sona) və Əbülfət Vəli (Dayı) çıxış ediblər. Tamaşa Ərəblinskinin benefisinə hazırlaıbb.

"Müdiriyyət" ötən ildə oynadığı əksər əsərləri 1917-ci üdə təzə quruluşlarda yenə öz repertuarına daxil edib. Bu ildə opera və operettalara üstünlük verilib. Təzə quruluşlar arasında Hüseyn Ərəblinskinin rejissorluq etdiyi "Məşədi İbad" (23 fevral. "İsmailiyyə" binasında), Abbasmirzə Şərifzadənin səhnə təfsiri verdiyi Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan" (9 mart. "Malı teatr"ın binasında. Orduxan bəy - Mirzağa Əliyev. Bu rolu sonra Rza Darablı da oynayıb), "Leyli və Məcnun" (8 dekabr. Tağıyev teatrında), Hüseynqulu Sarabskinin quruluşunda "Əsli və Kərəm" (11 may. Opera teatrında), "Arşın mal alan" (5 avqust. Opera teatrında) tamaşaçıların daha çox xoşlarına gəlib. Tamaşalara dirijorluğu Üzeyir bəy və Zülfüqar bəy Hacıbəyovlar və Müslüm bəy Maqomayev ediblər.

1917-ci ilin payızında Abbasmirzə Şərifzadə özü "Müsəlman dram artistləri ittifaqı" (qısa şəkildə "Artistlər ittifaqı" yazılıb) müstəqil truppasını yaratdığı üçün "Müdiriyyət"dən ayrılıb. Ona görə də truppaya baş rejissorluğu bir müddət Üzeyir bəy Hacıbəyov özü edib. Sonra, 1918-ci ilin ikinci yarısında bu vəzifəyə Hüseyn Ərəblinski dəvət olunub. Üzeyir bəy özünün bir neçə operasına və operettasma təzə quruluş verib. Hüseyn Ərəblinski baş rejissor təyin olunmamışdan əvvəl dəvətlə sıravi rejissor kimi "Arşın mal alan" (15 yanvar. Tağıyev teatrında), "Məşədi İbad" (29 yanvar. Tağıyev teatrında), "Aşıq Qərib" (28 fevral), "Şah Abbas və Xurşid banu" (11 mart), "Əsli və Kərəm" (15 mart) musiqi əsərlərinə quruluşlar verib.

Fevral ayında erməni daşnakları Tağıyev teatrını yandırdılar. Mart ayının 24-də isə Bakıda və Azərbaycanın digər bölgələrində iğtişaşlar törətməyə başladılar. Bu hadisələrlə bağlı teatr xadimləri şəhəri tərk etməli oldular. Üzeyir bəy Hacıbəyov İrana getdi. O, vətənə oktyabr ayında qayıtdı və qısa müddətdə, əsasən, Rusiyanın müxtəlif və İranın bəzi şəhərlərindən Bakıya gələn aktyorları bir yerə cəm edərək "Müdiriyyət"in bərpas;na və fəaliyyətinə nail oldu.

May ayının 28-də Zaqafqaziya seymi dağılmış və Azərbaycan Cümhuriyyəti yaranmışdı. Lakin Bakıdakı hadisələrlə bağlı milli hökumət müvəqqəti olaraq Gəncə şəhərində fəaliyyət göstərirdi. Hökumət payızda Bakıya köçürüldü. "Hökumət Teatrosu" ("Dövlət Teatrı") elan edilsə də, hələ onun rəsmi açılışı olmamışdı. Buna görə də "Müdiriyyət" müstəqil fəaliyyətini davam

etdirirdi. Afişaların və tamaşa proqramlarının yuxarı hissəsində lira və onun ətrafında müəyyən qraflk işləmələrdən ibarət olan emblem verilirdi. Onun yanında və mətnin ən yuxarı hissəsində isə yazılırdı: Hökumət Teatrosu. "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti". Aşağıda tamaşanın adı, rolların və iştirakçıların siyahısı verilirdi.

"Müdiriyyət"in ilk tamaşası opera teatrında oldu və uzun fasilədən sonra truppa Nəriman Nərimanovun "Nadir şah" faciəsini seçmişdi. Tamaşanı bir neçə günə Sidqi Ruhulla (Mollaoğlu) hazırlamışdı. Bayram təntənəsi ilə keçən tamaşada Sidqi Ruhulla (Nadir şah), Bağır Cabbarzadə (Hüseyn xan), İbrahim Atakişiyev (Gürcü bəy), Xəlil Hüseynov (Rzaqulu xan), Rza Darablı (Şah Təhmasib), Əbülhəsən Anaplı (Cavad və Heydər xan), Hacıağa Abbasov (Mirzə Mehdi xan) çıxış ediblər. Bundan sonra truppanın repertuarı müəyyən axara düşüb və 1918-ci ilin sonuna kimi Bakıda ən fəal teatr dəstəsi məhz "Müdiriyyət" olub. Dəstənin oynadığı tamaşaların premyera günlərinin mənzərəsi belədir.

**26 oktyabr.** Opera teatrı. "Dəmirçi Gavə", Şəmsəddin Sami. Rejissor Sidqi Ruhulla. Rolların ifaçıları: Abbasmirzə Şərifzadə (Gavə), Nataliya Lizma (Mehri), Xəlil Hüseynov (Pərviz), Panfiliya Tanailidi (Mehri), Hüseynqulu Sarabski (Fərhad), Mir Paşa Sadıqov (Baş möbid), Rza Darablı (Qəhtan).

**2 noyabr.** Opera teatrı. "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev və "Axşam səbri xeyir olar", Sultanməcid Qənizadə. Rejissor Abbasmirzə Şərifzadə. "Dağılan tifaq"da əsas rolları Sidqi Ruhulla (Nəcəf bəy), Yeva Olenskaya (Sona xanım), Məxfurə Yermakova (Pəri xanım), Mirzə Muxtar Məmmədov (Mirzə Qoşunəli), Mirmahmud Kazımovski (Həmzə), Abbasmirzə Şərifzadə (Süleyman bəy), Əbülhəsən Anaplı Umamverdi və Əbdül), Rza Darablı (Ovçu), Bağır Cabbarzadə (Məşədi Cəfər), vodevildə isə Yeva Olenskaya (Çimnaz xanım), Xəlil Hüseynov (Ağacavad), Hacıağa Abbasov (Məşədi Şaban) oynayıblar.

**6 dekabr.** Opera teatrı. "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov. Rejissor Hüseyn Ərəblinski, dirijor müəllif.

**10 dekabr.** Opera teatrı. "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov. Rejissor Hüseyn Ərəblinski. Hacıağa Abbasov bu tamaşada birinci dəfə Vəli rolunu oynayıb.

**13 dekabr.** Opera teatrı. "Əsli və Kərəm", Üzeyir bəy Hacıbəyov. Rejissor Hüseyn Ərəblinski.

**16 dekabr.** Opera teatrı. "Evliykən subay", Zülfüqar bəy Hacıbəyov. Rejissor Hüseyn Ərəblinski.

**20 dekabr.** "Əlli yaşında cavan", Zülfüqar Hacıbəyov. Rejissor Hüseyn Ərəblinski. Tamaşada dövrün ən məşhur komik aktyorları Mirzağa Əliyev, Hacıağa Abbasov, Rza Darablı və Əbülhəsən Anaplı iştirak ediblər.

**28 dekabr.** Opera teatrı. "Şah Abbas və Xurşid banu", Üzeyir bəy Hacıbəyov. Rejissor Hüseyn Ərəblinski. Əsas partiyaları Hüseynqulu Sarabski (Şah Abbas) və Məxfurə Yermakova (Xurşid banu) oxuyublar.

"Müdiriyyət" 1919-cu ilin birinci yarısında da fəallığı özündə saxlayıb. Tağıyev teatrı yandığına görə əksər tamaşalar opera teatrında, az qisini isə "Mikado" teatrının və "Malı teatr"ın binalarında göstərilib. Bakıdakı peşəkar teatr xadimləri, əsasən, Üzeyir bəy Hacıbəyovun ətrafında birləşmişdilər. Dövlət teatrının rəsmi açılışı isə yalnız bu ilin oktyabrında mümkün olmuşdu.

"Müdiriyyət"in 1919-cu ildə ən uğurlu və yeni işi Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (libretto müəllifi Mirzə Qədir İsmayılzadə) operasının tamaşası olub. Opera Hüseynqulu Sarabskinin (Şah İsmayıl) benefisinə həsr edilib və mart ayının 7-də göstərilib. Tamaşa martın 5-də oynanılmalıydı, lakin Hüseyn Ərəblinskinin qətlə yetirilməsi ilə əlaqədar iki gün sonra nümayiş etdirilib.

"Müdiriyyət" təzə quruluşlarda "Aşıq Qərib" (3 yanvar. Rejissor Hüseyn Ərəblinski. 23 may. Rejissor Abbasmirzə Şərifzadə), Mehdi bəy Hacınskinin "Sultan Əbdülhəmidin xəli və yaxud zülm və istibdadın axırı" (6 yanvar. Rejissor Rza Darablı), Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (10

yanvar), "Ər və arvad" (3 fevral), "Şah Abbas və Xurşid banu" (7 fevral), "Əsli və Kərəm" (21 fevral), "Məşədi İbad" (23 mart. Rejissor Abbasmirzə Şərifzadə), "Leyli və Məcnun" (25 mart. Rejissor Abbasmirzə Şərifzadə), S.Lanskoyun "Qəzavat" (12 yanvar. Rejissor Hüseyn Ərəblinski), Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" (14 fevral. Rejissor Abbasmirzə Şərifzadə), İsa bəy Aşurbəylinin "Cəhənnəm" (21 mart), "Azərbay və Can" (25 mart. Rejissor Abbasmirzə Şərifzadə), Cəfər Cabbarlının "Ənvər bəyin Ədirnə fəthi" ("Ədirnə fəthi". 25 aprel. Rejissor Abbasmirzə Şərifzadə) əsərlərinin tamaşalarını oynayıb.

1919-cu ilin payız mövsümü başlayanda artıq Bakının irili-xırdalı bütün truppaları Hökumət Teatrı kollektivində birləşdirildi. Düzdür, teatrın rəsmi açılışı oktyabrın 24-də olub, lakin sentyabrdan kollektiv öz tamaşalarını məhz həmin ad altında və yeni emblemlə göstərib.

Bununla da "Müdiriyyət" özünün fəaliyyətinə bir növ son qoyub. Onun tam və rəsmi bağlanması 1920-ci ilin aprelində olub. Bu kollektivin əksər opera və operetta tamaşalarına xorbaşılığı Hənifə Terequlov edib. Dirijorluğu isə Üzeyir bəylə yanaşı, Müslüm bəy Maqomayev və bəzən Zülfüqar bəy Hacıbəyov ediblər.

"Müdiriyyət" daha kamil və daha məzmunlu repertuar uğrunda müəyyən nailiyyətlər qazanıb.

"Müdiriyyət"in tamaşalarının rejissor işindəki peşəkarlıq səviyyəsi, aktyorların xarakter yaratmaq vərdişlərinə yiyələnmələri artıb.

"Müdiriyyət" peşəkar teatr üçün vacib olan estetik prinsiplərə cəsarətlə yiyələnməyə şərait yaradıb.

"Müdiriyyət" milli teatr sənətinin institusional (təsisatlı) mədəniyyətin faktına keçməsi mərhələsini peşəkarlıqla təminatlandırıb.

## TRUPPALARIN YARANMASININ ƏSAS AMİLLƏRİ (1916- 1919)

Bakının teatr prosesi canlandıqca bu sənət yeni mərhələlərə qədəm qoyurdu. Həmin prosesdə uğurlar çox olsa da, anlaşılmazlıqlar, zərərli meyillər də ortalığa çıxırdı.

1915-ci ildə musiqili janrlara tamaşaçı marağı güclənib, repertuarın əsasını operalar və operettalar təşkil edib. Bundan istifadə edən "Nicat" teatr truppası Üzeyir bəy Hacıbəyovla, həmçinin Zülfüqar bəy Hacıbəyovla onların əsərlərini oynamaq prinsiplərində və qonorarın ödənilməsində müqavilə şərtlərini kobud tərzdə pozub. Hətta məsələ dəfələrlə məhkəməyə düşüb. Keçən illərdə Hüseynqulu Sarabski özü müstəqil opera artistləri truppası yaratmağa nail olmuşdu, lakin sonralar həmin dəstə dağılmışdı.

"Tragik" kimi məşhur olan və daha səmərəli rejissorluq fəaliyyəti göstərən Hüseyn Ərəblinski müqavilə ilə müxtəlif truppalarda tamaşalar hazırlayırdı. Lakin müqavilə şərtləri çox vaxt onu razı salmırdı. Buna görə də özünün müstəqil teatr dəstəsini yaratmağa can atırdı.

Abbasmirzə Şərifzadə "Kiçik Ərəblinski" səddini cəsarətlə aşmışdı və o, bacarıqlı faciə aktyoru, səriştəli rejissor kimi şöhrətlənmişdi. Təbii ki, o da müstəqil truppa yaratmaq istəyirdi.

Sidqi Ruhulla, Əhməd Qəmərli, Cəlil Bağdadbəyov və başqaları fərdi fəaliyyət göstərməyə üstünlük verirdilər. Onlar vaxtaşırı kiçik qruplardan ibarət dəstələr düzəldir, Tiflisə, İrəvana, Batuma, Orta Asiyanın və İranın müxtəlif şəhərlərinə qastrollara gedirdilər. Daha çox Sidqi Ruhulla Bakıda və onun kəndlərində, müxtəlif rayonlarda (əsasən, Gəncədə, Naxçıvanda, Salyanda, Şuşada, Şəkidə) tamaşalar oynayırdı.

"Müsəlman dram 1915-ci ilin sonlarında Hüseyn artistləri cəmiyyəti" Ərəblinski sənət həmkarı Hüseynqulu Sarabski ilə birlikdə yeni teatr truppası yaratmaq barədə Bakı şəhər bələdiyyəsinə (Qalabəyinə) rəsmi məktubla müraciət etmişdilər. 1916-cı ilin fevralında Bakı vilayət

məclisi "Müsəlman dram artistləri cəmiyyəti"nin məramnaməsini təsdiqləyib. Bununla da onların truppa yaratmaq istəkləri gerçəkləşib.

Müəyyən hazırlıq işləri görüləndən sonra, 1916-cı il may ayının 22-də "İsmailiyyə" binasının tamaşa salonunda təsis yığıncağı keçirilib. Beləliklə, "Müsəlman dram artistləri cəmiyyəti" (bəzən "Müsəlman dram cəmiyyəti" və ya "Cəmiyyət" kimi də yazılıb) rəsmi fəaliyyətə başlayıb. Sadıq bəy Hacınski yeni qurumun idarə heyətinə sədr, Miryaqub Mehdiyev müavin, Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Bağır bəy Məlikov üzv seçiliblər. Ərəblinski baş rejissor, Sarabski isə rejissor ştatlarını tutublar.

Bu hadisə mövsümün bağlanması dövrünə düşdüyünə görə, "Cəmiyyət"in ilk tamaşası "Əmir Əbül Üla" (Hüseyn Bədrəddin və Məhəmməd Rüfət) noyabrın 4-də oynanılıb. Bundan əvvəl Ərəblinski və Sarabski yığma aktyorların iştirakı ilə sentyabrın 16-da Tağıyev teatrında Mirzə Abdulla Abdullazadənin "Xosrov Pərviz" pyesinin tamaşasını oynayıblar. "İttihad" məktəbinin nəfinə oynanılan tamaşaya quruluşu Hüseyn Ərəblinski verib və özü Xosrov Pərviz rolunu oynayıb. Digər obrazları Hüseynqulu Sarabski (Bəhram), Abbasmirzə Şərifzadə (Sərkərdə), Nataliya Lızma (Şirin), Bağır Cabbarzadə (Urmuz) ifa ediblər.

"Əmir Əbül Üla" pyesini Qulamrza Şərifzadə tərcümə etmişdi. Tamaşaya quruluşu Hüseyn Ərəblinski vermişdi və baş rolu Əbu Dəyyabı özü oynayırdı.

Cəmiyyət Abbasmirzə Şərifzadəni üçillik aktyorluq təhsili almaq üçün Xarkova (və ya Moskvaya) göndərmək barədə qərar çıxarmışdı. Lakin bu istək baş tutmadı. Yeni yaranmış truppa öz işini səmərəli qura bilmədi və bir neçə tamaşa oynayandan sonra bağlandı.

**"Tərəqqi"**

İran maarif cəmiyyətinin biri də "Tərəqqi" adlanıb. Əsasən fəhlə klublarında tamaşalar oynayan bu cəmiyyət 1919-cu ildə fəaliyyət göstərib.

**"Ittıhad"**

İran cəmiyyəti idi və əsasən, mədəni-maarif işləri ılə məşğul olurdu. Cəmıyyətın nızamnaMəsmə görə kollektiv xeyriyyə məqsədilə ayda bir dəfədən az olmayaraq teatr tamaşası oynamağı qərarlaşdırmışdı. Bu cəmiyyətin Bakıda və Tiflisdə məktəbləri və qiraətxanaları, hətta kiçik kitabxanaları da vardı.

Tiflisdə və Bakıda eyniadlı cəmiyyətin və məktəbin teatr truppası yaradılmışdı. Bakıdakı teatr bölməsi 1916-1919-cu illərdə mövcud olub.

Bakıda "İttihad"ın müstəqil truppası və daimi aktyorları yox idi. Cəmiyyət, əsasən, "Nicat" və "Səfa" ilə əməkdaşlıq edir, daha çox "Şərq müsamirəsi" keçirməyə üstünlük verirdi. Belə müsamirələrdə yığılan vəsaiti maarifçilik işlərinə xərcləyən cəmiyyət teatr tamaşaları hazırlamaq üçün şəhərin qabaqcıl sənət xadimlərini dəvət edirdi. Tamaşalar qısa müddətə hazırlanır və kirayə götürülmüş binalarda "İttihad"ın emblemi ilə tamaşaçılara göstərilirdi.

"İttihad" öz tədbirlərinin bədii hissəsində daha çox məzhəkə, vodevil və musiqili məsxərə tamaşalarının göstərilməsinə üstünlük verirdi. Burada həm vaxt faktoru rol oynayırdı, həm də cəmiyyət belə kiçik həcmli tamaşaların göstərilMəsmə az vəsait xərcləyirdi. Ayda bir dəfə oynanılan tamaşalar içərisində Mirmahmud Kazımovskinin "Vurhavur" (Vur-ha-vur"),

"Daşım-daşım", Əhməd Qəmərlinin iqtibas etdiyi "Tamahkarlıq və yaxud məkrizənən" musiqili komediyaları, M.Əlibəyovun "Məhkəmələr qarşısında tökülən göz yaşları", Səkinə Axundzadənin "Elmin mənfəəti", Sultan Muradovun "Kəblə Xudu", Mehdi bəy Hacınskinin "Ac bəy", Mirzağa Vəlizadənin

"Aclıq qurbanları", Sultanməcid Qənizadənn "Xor-xor", "Dursunəli və ballıbadı", təbdil olunmuş "Bizim kirayənişin özünü öldürdü", "Mən ölmüşəm" məzhəkələri üstünlük təşkil edirdi.

**"Müsəlman dram artistləri dərnəyi"**

Bu dərnək 1917-ci ilin son aylarında və əsasən 1918-ci ilin birinci yarısında Bakı şəhərində mövcud idi.

Dərnəyin üzvləri, əsasən, Rza Ərəbskidən, Həmid Məlikovdan, Əli Əzimzadədən, Mirabdulla Mirinskidən, Əsgər Hüseynzadədən, Abbas bəy Qubinskidən, Süleyman Hüseynovdan, Əbülfəz Məcidovdan, Heydər bəy Məlmovdan, Əyyub Bağırlıdan, Balabəy Qubalıdan ibarət olub. "Müsəlman dram artistləri dərnəyi" həm kiçik dramları, həm melodramları, həm yüngül süjetli məsxərələri, həm də zəif və primitiv musiqili komediyaları tamaşaya hazırlayıb. Onların tamaşaları, əsasən, şəhər ətrafında, fəhlə klublarında göstərilib. Dərnəyin tamaşalarının əsas rejissoru Mirabdulla Mirinski olub.

"Müsəlman dram artistləri dərnəyi"nin tamaşalarında məşhur pəhləvan Salı Süleyman özünün orijinal proqramları ilə çıxış edib. Dərnəyin üzvləri 1919-cu ildə İrana və Dərbəndə qastrola gedib.

**"Müsəlman artıstlərı ittifaqı"**

Bu dram dəstəsini Abbasmirzə Şərifzadə yaradıb. Truppanın adı "Artistlər ittifaqı", "Bakı musəlman aktyorları ittifaqı", "İttifaq" kimi də yazılıb.

1917-ci ilin oktyabrında Abbasmirzə Şərifzadənin başçılığı ilə tanınmış teatr fədailəri bir yerə yığılaraq cəmiyyətin nizamnaməsini və məramnaməsini müzakirə ediblər. Bu sənədlər mətbuatda çap olunub.

Qabaqcıl teatr sənətkarları Hüseyn Ərəblinski və Hüseynqulu Sarabski buna ciddi etirazlarını bildiriblər, hətta mətbuatda narazılıq məqaləsi ilə çıxış ediblər. Lakin Şərifzadə öz inadından dönməyib. O, tanınmış aktyorları, təcrübəli gəncləri və sənətə yenicə gələn bacarıqlı həvəskarları öz ətrafına toplayaraq məşqlərə başlayıb. Abbasmirzə Şərifzadə yeni dəstənin baş rejissor vəzifəsini tutub. Əsas məşqlər "İsmailiyyə" binasında keçirilib və "İttifaq"ın idarə heyəti də burada yerləşib. İlk vaxtlar onlar Bakı Gənclər Təşkilatında cəmləşmiş ziyalıların qüvvələrindən də istifadə ediblər.

Noyabrın 20-də bu teatr truppası özünün ilk tamaşası olan "Nadir şah" (Nəriman Nərmanov) faciəsini göstərib. Mətbuatın yazdığına görə, tamaşa uğurla keçib. Nadir şah rolunu Abbasmirzə Şərifzadə özü oynayıb. İlk dəfə məhz bu teatr dəstəsi Nargin adasındakı hərbi əsrlərə kömək məqsədilə Xeyriyyə cəmiyyəti zalında ("İsmailiyyə"də) "Əsirlər gecəsi" adlı bədii kompozisiya göstərib.

"Müsəlman artistləri ittifaqı" hazırladığı tamaşaları, əsasən, "İsmailiyyə", "Malı teatr", Tağıyev teatrı binalarında göstərib. Onun repertuarında Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", Hacıbaba Şərifzadənin "Mehr və Mah" operaları, Namiq Kamalın "Osmanlı müharibəsi" ("Vətən"), Nəriman Nərimanovun "Şamdan bəy" ("Dilin bəlası"), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" dramları daha tez-tez göstərilib.

Truppanın 1917-ci ildə ən maraqlı və bitkin işi dekabrın 15-də göstərilən "Ədirnə fəthi" (Cəfər Cabbarlı) tamaşası olub. Tamaşaya quruluşu rejissor Abbasmirzə Şərifzadə verib. Əsas rolları Abbasmirzə Şərifzadə (Ənvər paşa), Sidqi Ruhulla (Xalid), Xəlil Hüseynov (Rüfət), Mehdi bəy Hacınski (Kamal), Şura Olenskaya (Zöhrə), Rza Darablı (Mustafa paşa), Nataliya Lizma (İnci), Mirzə Muxtar Məmmədov (Molla Sübhan), Əbülhəsən Anaplı (Hacı İbrahim), Hüseynağa Hacıbababəyov (Nazir), Əhməd Qəmərli (Şükri paşa) oynayıblar.

"Müsəlman artistləri ittifaqı" 1918-ci ilin ilk üç ayında daha səmərəli çalışıb. Truppa qısa müddətdə Abbasmirzə Şərifzadənin rejissorluğu ilə aşağıdakı tamaşaları teatrsevərlərin müzakirəsinə verib.

**5 yanvar.** "Nadir şah", Nəriman Nərimanov. Əsas rolları Sidqi Ruhulla (Nadir şah), Əhməd Qəmərli (Şah Təhmas), Rza Darablı (Gürcü bəy), Mirzə Muxtar Məmmədov (Cəfər xan), Yunis Nərimanov (Rza xan), Xəlil Hüseynov (Rzaqulu xan), Hacıağa Abbasov (Ədhəm xan) ifa ediblər.

**12 yanvar.** Tağıyev teatrında. "Qəzavat", S.Lanskoy və "Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət.

**14 yanvar.** Müsəlman xeyriyyə cəmiyyəti zalında ("İsmailiyyə"). "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev. Baş rolları Sidqi Ruhulla və Abbasmirzə Şərifzadə (Qurban), Rza Darablı (İblis),

Yeva Olenskaya (Şamama), Əbülhəsən Anaplı (Niyaz), Nataliya Lizma (Hafizə), Mehdi bəy Hacınski (Rəhim), Hacıbaba Şərifzadə (Çoban) oynayıblar.

**22 yanvar.** Tağıyev teatrında. Müsəlman əsgərlərinin ("dikaya diviziya") nəfinə. "Sultan Əbdülhəmidin xəli", Rza Zaki Lətifbəyov. Rollarda: Əhməd Ağdamski (Təyyar bəy), Hacıağa Abbasov (Məhəmməd bəy), Hacıbaba Şərifzadə (Rza paşa və Qürdü bəy), Rza Darablı (Ənvər bəy), Mirzə Muxtar Məmmədov (Əhməd Rza bəy), Əbülhəsən Anaplı (Əbdül bəy), Əhməd Qəmərli (Sədrəzəm), Xəlil Hüseynov (Zabit).

**2 fevral.** "İsmailiyyə" binasında. "Solğun çiçəklər", Cəfər Cabbarlı. Rollarda: Abbasmirzə Şərifzadə (Bəhram), Şura Olenskaya (Sara), Rza Darablı (Əbdül), Nataliya Lizma (Nisə), Yeva Olenskaya (Pəri).

**10 mart.** "İsmailiyyə" zalında. "Trablis müharibəsi" ("Yulduz, yaxud Trablis müharibəsi"), Cəfər Cabbarlı. Rollarda: Abbasmirzə Şərifzadə (Ramiz), Şura Olenskaya (Yulduz), Xəlil Hüseynov (Əbdülrəhman), Rza Darablı (Ənvər bəy), Əhməd Qəmərli (İzzət paşa), Bağır Cabbarzadə (Şeyx Şənusi), Hüseynağa Hacıbababəyov (Ərəb), İbrahim Atakişiyev (Cinner).

Bakıdakı 1918-ci ilin mart hadisələri ilə əlaqədar olaraq truppa mart ayının sonlarında Azərbaycanı tərk etmək məcburiyyətində qalıb. Sidqi Ruhulla müstəqil və kiçik dəstə ilə Tiflisə, oradan da başqa şəhərlərə gedib.

Truppanın müəyyən aktyorları Abbasmirzə Şərifzadənin rəhbərliyi ilə Hacıtərxan şəhərinə uzunmüddətli qastrol səfərinə çıxıblar. Şəhərin "Qış teatrı", "Volkan teatrı" və əsasən, "Araadi bağı" binalarında Şərifzadənin rejissorluğu ilə Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (30 may, 8, 26 və 30 iyun. Soltan bəy - Abbasmirzə Şərifzadə. 20 iyunda azərbaycanlı aktyorlar tamaşanı rus dilində oynayıblar), "Əsli və Kərəm" (7 və 30 iyun), "Leyli və Məcnun" (9 iyun), "Məşədi İbad" (14 və 27 iyun), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (25 iyun), Abdulla Şaiqin tərcümə etdiyi "Şeyx Şamil" ("Qafqaz çiçəkləri") və təbdil olunmuş "Bizim kirayənişin" (29 iyun) əsərləri tamaşaçılara göstərilib.

Truppa Volqa çayı boyundakı türkdilli yaşayış məntəqələrində də bir neçə tamaşa oynayıb. 1918-ci ilin payızında kollektiv Bakıya qayıdıb. Onun əsas yaradıcı heyəti "Müdiriyyət" truppasında birləşib.

# İLK PEŞƏKAR AKTYORLAR

**Birinci dərs**

## MİRZƏ MUXTAR MƏMMƏDOV (1841-1930)

Milli səhnə sənətimizin ilk peşəkar aktyorlarından biri də Mirzə Muxtar Məmmədovdur. Realist aktyor məktəbinin inkişafında xüsusi xidmətləri var.

Mirzə Muxtar Ələsgər oğlu Məmmədov 1841-ci ildə Şuşa şəhərində təvəllüd edib. Əvvəlcə mədrəsədə, iki il sonra, on bir yaşında türk-rus (rus-tatar) məktəbində təhsil alıb. Fars və rus dillərini mükəmməl öyrənib. İyirmi yaşından Şuşada müəllimliklə məşğul olub. 1870-ci ildə Novruz bayramı münasibətilə "Qaravəlli" tamaşası hazırlayıb və oyun camaatın xoşuna gəlib. Bundan sonra o, bütün bayramlarda məsxərəli və məzhəkəli tamaşalar hazırlayıb. 1874-cü ildə Şuşada Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasını tamaşaya hazırlayıb. Tamaşa rus əsgərlərinin qışlamasında (kazarmasında) göstərilib.

Mirzə Muxtar Məmmədovun aktyorluğunun ilkin mərhələsi (1873- 1883) Şuşa dövrünə aiddir. Bir müddət Tiflisdə və Gəncədə işləyən Mirzə Muxtar 1899-cu ildə Bakıya köçüb. Şəhər məktəblərindən birinə müəllimliyə düzələndən sonra şəhərin teatr həvəskarları ilə tanış olub. Tezliklə teatr tamaşalarının hazırlanmasında fəallıq göstərən ziyalı kimi tanınıb. Müxtəlif illərdə birinci və ikinci "Müsəlman dram artistləri cəmiyyəti"nin, "Həmiyyət", "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr truppalarında, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti", Abbasmirzə Şərifzadənin rəhbərlik etdiyi "Müsəlman artistləri ittifaqı"nın dəstələrində aktyorluq edib.

Əbdürrəhim bəy Haqverdiyev və Üzeyir bəy Hacıbəyov onu aktyor və xanəndə kimi Şuşadan yaxşı tanıyırdılar. Buna görə də "Nicat" teatr dəstəsinin və Hüseynqulu Sarabskinin "Müsəlman opera truppası"nın hazırladıqları opera tamaşalarında şirin və məlahətli səsi olan Mirzə Muxtar yaxından iştirak edib. Üzeyir bəy Hacıbəyovun ilk milli operamız olan "Leyli və Məcnun" əsərinin hazırlamb hasilə gəlməsində yaxından iştirak edib. 1908-ci il yanvarın 12-də göstərilən ilk tamaşada Əbül Qeys (Qeysin atası) rolunu oynayıb. Üzeyir bəyin "Şah Abbas və Xurşid banu" operasının ilk tamaşasında (10 mart 1912) isə Vəzir rolunda çıxış edib.

Erməni daşnakiarı 1918-ci ilin martında Bakıda vəhşilklə kütləvi qırğınlar törədəndə, şəhəri oda qalayanda 77 yaşlı qocaman teatr xadiminin evi dağılıb, olan-qalan varidatı əlindən çıxıb. O, zəlil günə düşüb və "Bəsirət" qəzeti 17 noyabr 1918-ci il tarixli sayında bu barədə məqalə yazıb. Üzeyir bəyin təşəbbüsü ilə ziyalılar ona yardım göstəriblər.

Aktyorun yaradıcılığının Bakı dövründəki əsas qadın və kişi rolları bunlardır: Yetər, Hürü və Bədricahan ("Hacı Qəmbər", "Müsibəti-Fəxrəddin" və "Ağa Kərim xan Ərdəbili", Nəcəf bəy Vəzirov), Pərizad və Cəfər xan ("Dilin bəlası" və "Nadir şah", Nəriman Nərimanov), Səfər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Şeyx Əhməd ("Ölülər", Cəlil Məmmədquluzadə), Mirzə Bayram ("Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Molla Sübhan ("Ədirnə fəthi", Cəfər Cabbarlı), Əhməd Rza ("Sultan Əbdülhəmidin xəli", Mehdi bəy Hacınski), Şiruyə və Baş möbid ("Dəmirçi Gavə", Şəmsəddin Sami), İbrahim ("Qəzavat", S.Lanskoy).

Mirzə Muxtar Məmmədov təxminən 1930-cu ildə Bakıda vəfat edib. Bəzi mənbələr onun 1929-cu ildə, bir qisın isə 1931-ci ildə dünyasını dəyişdiyini göstərib.

## ƏBÜLFƏT VƏLI (1867 - NOYABR 1918)

Milli teatr sənətimizin səhnə fəaliyyətini özünə yaradıcılıq və həyat yolu seçən ilk peşəkar aktyor Əbülfət Vəlidir (Vəliyev). Həyatı haqqında məlumat çox az olan Əbülfət Vəlinin yaşını

Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" pyesinin yazılma tarixi əsasında müəyyənləşdirən teatrşünas İnqilab Kərimovun qənaətləri inandırıcı və hələlik əlimizdə yeganə istinad dəlilidir. Xatırladım ki, Əbdürrəhim bəy Haqverdiyev "Ac həriflər" məzhəkəsində Hüseyn Ərəblinski ilə Əbülfət Vəlinin obrazlarını yaradıb və əsərini də məhz onlara ithaf edib.

Əbülfət Vəli səhnəyə 1880-ci illərin ortalarında gəlib. Əsasən, müəllimlər Həbib bəy Mahmudbəyovun və Sultanməcid Qənizadənin hazırladıqları həvəskar tamaşalarında həm kiçik, həm epizod, həm də əsas rollarda çıxış edib. Sonralar özünün, eləcə də sənətkar dostu Cahangir Zeynalovun quruluş verdikləri tamaşalarda da oynayıb. İyirminci əsrdə "Müsəlman Artistləri Cəmiyyəti", "Nicat", "Həmiyyət", "Səfa" teatr truppalarında aktyorluq və rejissorluq edib. Hüseyn Ərəblinskinin quruluş verdiyi əksər tamaşalarda məsul müdir Əbülfət Vəli olub. Onun qastrol təşkil etməkdə, truppanı bir qayə ətrafında birləşdirməkdə xüsusi bacarıq və səriştəsi vardı.

Zəhmətkeş səhnə fədaisi Əbülfət Vəli Bakıda realni məktəbdə oxuyub. Bu təhsil ocağının altı sinifini bitirməsi səhnə yaradıcılığında ona kömək olub. 1918-ci il rusca "Azərbaycan" qəzetində Kərim bəy Məlmovun yazdığı vida məqaləsindən aydın olur ki, Əbülfət Vəli noyabr ayının axırlarında Göyçay rayonunda acınacaqlı vəziyyətdə dünyasını dəyişib. Səhərisi gün azərbaycanca çıxan eyniadlı qəzet "X" imzası ilə aktyor barədə səmimi vida yazısı dərc edib.

Azərbaycan aktyorlarının bir dəstəsi Əbülfət Vəlinin rəhbərliyi ilə İrəvan, Tiflis, Batum, Suxumi, İstanbul, Sevastopol, Yalta şəhərlərində qastrolda olub. O, bir neçə dəfə Üzeyir bəylə, Süleyman Sani Axundovla, Mehdi bəy Hacınski ilə birgə "Nicat" cəmiyyətində ədəbiyyat və teatr komissiyasının üzvü seçilib.

Əbülfət Vəli Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasında Murov, Xəlil yüzbaşı, "Müsyö Jordan və dərviş Məstəli şah" məsxərəsmdə Hatəmxan ağa, Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində Cahangir bəy, Rüstəm bəy və Fəxrəddin, "Daldan atılan daş topuğa dəyər" məzhəkəsində Dəli Şirin, "Ev tərbiyəsinin bir şəkli" vodevilində Şahmar bəy, Nəriman Nərimanovun "Nadir şah" tarixi faciəsində Sərbaz, Şah Təhmas, Saleh bəy, Cavad xan, Ədhəm xan, Cahangir bəy, Əbdürrəhim bəy, "Bahadır və Sona", "Dilin bəlası" dramlarında Dayı, Niyaz bəy, Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan"ında Həkim, Heydər bəy və Hacı Səməd ağa, "Ağa Məhəmməd şah Qacar"da Mürtəzaqulu xan, Mustafa xan və İkinci İrakli, "Ac həriflər"də Tağı, "Dağılan tifaq"da Əbdül, Rza Zaki Lətifbəyovun "Köhnə Türkiyə" pyesində Həsən bəy, İsgəndər bəy Məlikovun "Yaxşılığa yamanlıq" didakük əsərində Sultan, Yusif Talıbzadənin "Ərmənusə" və "Xalid ibn Valid" mistik dramında Ömər ibn As və Əbu Übeyd rollarında dəfələrlə səhnəyə çıxıb.

Aktyorun rollar silsiləsində tərcümə əsərlərində canlandırdığı obrazlar ayrıca yer tutur. Onlardan Osmanlı ədibləri Şəmsəddin Saminin "Dəmirçi Gavə", Namiq Kamalın "Vətən", "Bəxtsiz bala", Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" faciələrində Gavə, Sidqi bəy, Xəlil bəy və Həkim, Əbu Diyab (Əbu Dəyyab da yazılır), Şillerin "Qaçaqlar", Yevgeni Çirkovun "Yəhudilər", Henrix Heynenin "Əl Mənsur", Botşaldım "Qafqaz çiçəkləri", Matterinin "Yaddaş kitabçası", təbdil olunmuş "Qaranlıqda işıq" dramlarında Qoca Moor, Ata, Ömər ibn As və Həsən, Dağıstan qəhrəmanı, Potap rollarını göstərmək olar.

O dövrün mətbuatı Əbülfət Vəlinin tərcümə və təbdil komediyalarında məharətlə oynadığı Potap ("Əvvəlinci şərabçı", Lev Tolstoy), Cənnətəli ("Zorən təbib", Jan Batist Molyer), Dobçinski ("Müfəttiş", Nikolay Qoqol), Məşədi Kərim ("Pulsuzluq", İvan Turgenev), Tağı ("Aktyorların məişəti", Lentovski) rollarına yüksək qiymət verib. Həmin tamaşalarda, aktyorun təbii oyunu, səhnə ciddiliyi və sözləri aydın tələffüzlə çatdırmaq bacarığı qeyd olunub.

Rejissor kimi də ciddi fəaliyyət göstərən Əbülfət Vəli dramaturqlardan Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Nəriman Nərimanovun "Nadir şah", Nəcəf bəy Vəzirovun "Daldan atılan daş topuğa dəyər", "Müsibəti-Fəxrəddin", "Hacı Qəmbər", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Dağılan tifaq", Qulamrza Şərifzadənin "Molla Nəsrəddin", Rza Zaki Lətifbəyovun

"Köhnə Türkiyə", Sultanməcid Qənizadənin "Dursunəli və ballıbadı", Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" əsərlərinə səhnə quruluşu verib.

1911-ci ildə müvəqqəti olaraq "Nicat" cəmiyyətinin teatr truppasından ayrılmış Əbülfət Vəli "Mirat" (Güzgü) dram dərnəyi yaradıb. O, burada da müxtəlif əsərləri, əsasən kiçik həcmli pyesləri tamaşaya hazırlayıb. Həmin il Əbülfət Vəli güzəranının çətinliyindən səhnəni atıb Daşkəndə getmək istəyib, ancaq bu cəhdi alınmadığına görə dəstə bağlayıb və Qafqazın müsəlmanlar yaşayan bölgələrinə qastrola çıxıb.

Əbülfət Vəli, çağdaş dillə desək, ayrı-ayrı dəstələrdə truppa müdirliyi vəzifəsini bacarıqla icra edib. Bütün aktyorlar onun hörmət və ehtiramını uca tutublar.

Həm mətbuat, həm də təcrübəli sənətkarlar Əbülfət Vəlinin səhnə səmimiyyətini, cəfakeşliyini, istedadı üzərində yaradıcılıqla işləməsini başqalarına nümunə və örnək göstəriblər.

## MƏHƏMMƏD BƏY ƏLVƏNDİ (1872-1918)

Milli teatrımızın həvəskarlıqdan peşəkarlığa keçid mərhələlərində dəyərli xidmətləri olan səhnə xadimlərindən biri Məhəmməd bəy Əlvəndidir. "Əlvəndi" onun səhnə təxəllüsüdür, soyadı Məlikovdur. O, 1872-ci ildə Şamaxıda qulluqçu ailəsində doğulub. Ziyalılarla sıx ünsiyyətdə olan Məhəmməd bəy Azərbaycan və rus dillərində mükəmməl savad alıb. Mütaliəyə ciddi maraq göstərib.

Gənc yaşlarından Bakıya gələn Məhəmməd bəy Əlvəndi müxtəlif hüquq işləri idarəsmdə çalışıb. Eyni zamanda teatra ciddi rəğbət bəsləyib. Səhnə sənətinin Azərbaycanın rayonlarında geniş yayılması üçün Hüseyn Ərəblinski ilə çiyin-çiyinə və ciddi səylə fəaliyyət göstərib. Bakıda mövcud olan müxtəlif teatr truppalarının, əsasən "Nicat" mədəni-maarif cəmiyyəti nəzdindəki teatr dəstəsinin tamaşalarında yaddaqalan rollar ifa edib.

Səhnəyə ilk dəfə 1890-cı ildə çıxmış Məhəmməd bəy Əlvəndi Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasında Heydər bəy və Hacı Qara, Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" məzhəkəsində Əşrəf bəy və Rüstəm, Səkinə Axundzadənin "Bəxtsiz bala" təbdilində Xəlil bəy, Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsində Mürtəzaqulu xan və Sadıq xan, İsgəndər bəy Məlikovun "Yaxşılığa yamanlıq" vodevilində Hümbət bəy, Yusif Talıbzadənin "Ərmənusə" və "Xalid ibn Valid" pyeslərində Marks və Mixa, Nəriman Nərimanovun "Nadir şah" faciəsində Şah Təhmas rollarını oynayıb.

Aktyor eyni zamanda tərcümə əsərlərindən Jan Batist Molyerin "Zorən təbib" (Təbib İlyas), Lanskoyun "Qəzavat" (Qriqoryev), Şəmsəddin Saminin "Dəmirçi Gavə", (Qəhtan), Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (Ərəb), Nikolay Qoqolun "Evlənmə" (Podkolosin), Henrix Heynenin "Əl Mənsur" (Həsən), Fridrix Şillerin "Qaçaqlar" (Herman), Mirzə Məmməd Axundzadənin iqtibas etdiyi "Səd ibn Vəqqas" ("Səd Vəqqas", "Səd ibn Vəqqas, yaxud ərəblərin iranlılarla müharibəsi" kimi də yazılıb) əsərlərinin tamaşalarında müxtəlif səpkili rollarda səhnəyə çıxıb.

1918-ci ildə ermənilərin Bakıda törətdikləri qanlı vəhşiliklərdən möhkəm sarsılıb və səfalət içində dünyasını dəyişib.

Yaradıcılığının başlıca xüsusiyyətləri realist aktyor məktəbinə uyğundur. Səhnə sərbəstliyi, yöndaşlarına diqqətli olnıası ilə seçilib.

## RÜSTƏM KAZIMOV (1879-1943)

Azərbaycanın ilk peşəkar aktyorlarından sayılır. Faciə və komediyalarda, opera və operettalarda çıxış etsə də, yaradıcılığlnın əsasını dramatik obrazlar təşkil edir.

Rüstəm Kazımov 1879-cu ildə Bakıda kasıb ailədə doğulub. Mollaxanada cüzi təhsil alıb. Şirin səsi olduğuna görə məhərrəmlik təziyələrində göstərilən şəbih tamaşalarında iştirak edib.

1890-cı ilin əvvəllərində Bakıda Həbib bəy Mahmudbəyovun və Sultanməcid Qənizadənin təşkil etdikləri tamşalarda epizod rollar oynayıb. Sonralar "Müsəlman artistləri cəmiyyəti" truppasında, Cahangir Zeynalovun "Ev teatrı"nda aktyorluq edib. 1901-1919-cu illərdə Əbdürrəhim bəy Haqverdiyevin yaradıcığı truppada, "Həmiyyət" teatr qrupunda, "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr dəstələrində, "Türk aktyorları ittifaqı"nda, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə əsas aktyorlardan olub.

Bugünkü Akademik Milli Dram Teatrı dövlət təsisatına keçəndə onun truppasına daxil olan Rüstəm Kazımov 1925-ci ilə qədər bu kollektivdə çalışıb. 1921-ci ilin noyabr ayında Bakı Azad Tənqid və Təbliğ Teatrı (sonralar Türk İşçi Teatrı adlanıb) yaradılanda onun aktyor heyətinə götürülüb. Dörd il hər iki teatrda işləyən aktyor 1925-ci ildən İşçi Teatrında aktyorluq edib. 1931-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Bu teatr 1933-cü il yanvarın 4-də Gəncəyə köçəndə Rüstəm Kazımov da doğma kollektivdən ayrılmayıb. Aktyor 1943-cü ildə Gəncədə vəfat edib.

Rüstəm Kazımov müxtəlif truppalarda və MDT-da Hacı Salman ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Ərəb və Quldur ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Zabit və Zöhhak ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Döyüşçü ("Otello", Vilyam Şekspir), Roller ("Qaçaqlar", Fridrix Şiller), İrakli, Əbdül ("Ağa Məhəmməd şah Qacar" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Hacı Həsən ağa, Qurban ("Ölülər" və "Anamın kitabı", Cəlil Məmmədquluzadə), Osvald ("Kral Lir", Vilyam Şekspir), Cinner, Kamal paşa ("Yulduz, yaxud Trablis müharibəsi" və "Ədirnə fəthi", Cəfər Cabbarlı), Naçalnik, Xan ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Oğuz ("Şeyx Sənan", Hüseyn Cavid) rollarını oynayıb.

* * *

1900- 919-cu illərdə Bakıda milli səhnə sənətimizin inkişafında və aktyorluğun peşəkarlıq estetikası əsasında formalaşmasında çoxlu teatr fədailəri olub. Onların sırasında Mehdi bəy Hacınskinin, Ağadadaş Həsənovun, Səlim Səlimbəyovun, Əhməd Qəmərlinin (Məlikov), Qulamrza Şərifzadənin, Məmmədbağır Əlinskinin, Ağalar Gəraybəyovun, Ələkbər Hüseynzadənin, Əhməd Ağdamskinin (Bədəlbəyov), Hüseynqulu Sarabskinin (Rzayev), Əliş Haqverdiyevin, Şeyda Xəlilbəyovun, Bağır Xəlilbəyovun, Ağası bəy Şirvanskinin, Mir Paşanın (Sadıqov), Məhəmmədhəsən Mərəndinin, Nurməhəmməd Məhəmmədovun, Məcid Çaybasarskinin, Səməd Mənsurun, Şura (Aleksandra) Olenskayanın, Məxfurə Yermakovanın, Məmmədhənifə Terequlovun, İbrahim Atakişiyevin, Əli Nəbinin, Əliabbas Rzayevin, Hilal Bağırovun, Yunis Nərimanovun adlarını çəkmək lazımdır. Bu fədailərin bir qisni iyirminci və otuzuncu illərdə də Azərbaycanın müxtəlif şəhər və əyalət teatrlarında aktyor, rejissor, rejissor yardımçısı kimi və inzibatçılıq sahəsində çalışıblar.

# İLK PEŞƏKAR AKTYORLAR

## İkinci dərs

### ƏLƏKBƏR SÜHEYLİ(1879-26.2.1927)

Azərbaycan milli teatrının peşəkarlıq istiqamətində formalaşmağa doğru inkişafında xüsusi xidmətləri var. "Süheyli" onun səhnə təxəllüsüdür. Bu sözün ərəbcə mənası "cənubda görünən ulduz" deməkdir. Yaradıcılığı realist səpkili rolların ifası ilə səciyyəvi olan aktyor həmçinin rejissorluq sahəsində də çalışıb.

Ələkbər Fərəculla oğlu Əliyev (Süheyli) 1879-cu ildə Bakıda doğulub. Atası tacir olub və elmə, mədəniyyətə maraq göstərib. Buna görə də Ələkbərə 7 yaşından xüsusi müəllimlər tutaraq ona ana dilindən əlavə, fars, rus, ərəb dillərini tədris elətdirib. Atası və atasının yaxın dostları olan tacirlər Rusiya, Ərəb ölkələri və İranla ticari yazışma əlaqələrini məhz Ələkbər Süheylinin vasitəsilə həyata keçiriblər. O, xüsusi tapşırıqlarla, müqavilələr bağlamaq məqsədilə tez-tez xarici öikələrə səfər edib.

Bakıda olanda boş vaxtlarında "Müsəlman dram artistləri cəmiyyəti"nin tamaşalarında epizod rollarda səhnəyə çıxıb. 1906-cı ildə yaranan "Nicat" mədəni-maarif cəmiyyətinin teatr truppasına ilk üzv götürülənlərdən biri də Ələkbər Süheyli olub. Sonralar "Səfa", "Müdiriyyət", "Müsəlman artistləri ittifaqı"nın teatr truppalarında çalışıb. 1919-cu ildə bugünkü MDT-nm truppasına götürülüb və dörd il bu sənət ocağında işləyib. 1923-cü ildə Azad Tənqid və Təbliğ Teatrının truppasına dəvət alıb və vəfat etdiyi günə kimi burada aktyor və rejissor kimi çalışıb.

Müxtəlif truppalarda və MDT-da ifa etdiyi əsas rolların qısa siyahısı belədir: Adolf ("Qatili Kərimə", Hacı İbrahim Qasımov), Məhiz ("Tariq ibn Ziyad", Əbdülhəq Həmid), Səlim bəy, Vəli bəy, Çoban ("Dağılan tifaq", "Millət dostları" və "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Paşa ("Bakı müharibəsi", Cəfər Cabbarlı), Svistinov ("Müfəttiş", Nikolay Qoqol), Lodoviqo ("Otello", Vilyam Şekspir), Müəllim Mirzə Həsən ("Ölülər", Cəlil Məmmədquluzadə), Bəkir ("Keçmişdə qaçaqlar", Nəcəf bəy Vəzirov), Xacə Məsud, Ohan yüzbaşı ("Lənkəran xanının vəziri" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Şah Ömər ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Xaço ("Qaçaq Kərəm", Vano Mçedaşvili), Şeyx Mərvan ("Şeyx Sənan", Hüseyn Cavid), Veys ("Yezid ibn Müaviyyə", Mehdi bəy Hacınski), Qubad ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Məmmədbağır ("Axşam səbri xeyir olar", Sultanməcid Qənizadə), Süleyman paşa ("Akif bəy", Namiq Kamal), Allahqulu ("Molla Cəbi", Mirmahmud Kazımovski).

Milli aktrisalarımızın olmadığı dövrdə Ələkbər Süheyli xeyli qadın rolları ifa edib. Onların arasında Cahan xala ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Sona, Hafizə xanım ("Dağılan tifaq" və "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Hürzad ("Evliykən subay", Zülfüqar bəy Hacıbəyov), Çərkəz xanım ("Kəndxuda", Mirmahmud Kazımovski), Tuba ("Zorən təbib", Jan Batist Molyer) obrazlarının səhnə ifası aktyorun yaradıcılıq uğurları sayılır. Xüsusilə Hafizə rolunun uzun illər və ondan artıq quruluşda ən yaxşı ifaçısı Ələkbər Süheyli sayılıb.

Aktyor Tənqid və Təbliğ Teatrında Məşədi Ramazan ("Arşın malı", Əhməd Qəmərli), Tacir ("Tufan", Vladimir Bill-Beloserkovski), Komarov ("1881-ci ildə", Nikolay Şapovalenko), Hacı Həsən ağa ("Ölülər", Cəlil Məmmədquluzadə), Pastor ("Şöhrət silahları", Yurin) rollarını oynayıb. Burada Sidqi Ruhullanın, David Qutmanın, Yevgeni Muromskinin quruluşlarında hazırlanan tamaşalarda rejissorluq edib.

Ələkbər Süheyli yaradıcılığının kamilləşdiyi dövrdə, 26 fevral 1927-ci ildə Bakıda vəfat edib.

**MURAD MURADOV (1884- 2.11.1964)**

Milli səhnəmizin məşhur həvəskar aktyorlarından olub. Səhnəyə ilk addımını 1897-ci ildə Şuşa şəhərində atıb. Xüsusən yay ayları gur, qələbəli keçən Şuşa şəhərində ziyalı teatr həvəskarlarının hazırladıqları tamaşalarda epizod rollarda çıxış edib.

1900-cü ildə Bakıya gələn Murad Muradov canlı teatr prosesinə qoşulub və müxtəlif rollar oynayıb. Sürətlə səhnə uğurları qazanan aktyor artıq 1901-ci ildə onu Şuşadan tanıyan Əbdürrəhim bəy Haqverdiyevin quruluşunda Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində Fəxrəddin rolunu " edib. Tezliklə truppanın sayılan üzvü olub, Əbülfət Vəli, Məhərnməd bəy Əlvəndi, bir qədər sonra Mirmahmud Kazimovski, Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Hüseynqulu Sarabski kimi qüdrətli səhnə ustaları ilə çiyin-çiyinə işləyib.

Murad Məmmədrza oğlu Muradov 1884-cü ildə Ağdam rayonunun Muradbəyli kəndində doğulub. İlk təhsilini Ağdamda alıb və Bakıdakı realni məktəbdə davam etdirib. O, 1907-ci ildə Ümumrusiya Teatr Cəmiyyətinin üzvü olan ilk azərbaycanlı aktyorlardan biridir. 1901-ci ildən 1920-ci ilə qədər "Müsəlman dram artistləri cəmiyyəti"ndə, "Artistlər şirkəti"ndə, "Nicat" və "Səfa" cəmiyyətlərinin truppalarında, Hüseynqulu Sarabskinin "Müsəlman opera artistləri" dəstəsində, Hacıbəyov qardaşlarının "Müdiriyyət"ində aktyorluq edib. Dram, komediya, opera və operetta tamaşalarında oynayıb. 1919-cu ildən isə müəyyən fasilələrlə Akademik Milli Dram Teatrında işləyib.

Murad Muradov 1920-1930-cu illərdə az müddət Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında, müxtəlif təbliğat və təşviqat briqadalarında işləyib. Xarakterik və tipik səciyyələr kəsb edən obrazlarda özünün məharət və bacarığını göstərməyə çalışıb. Bu baxımdan müxtəlif teatr truppalarında və MDT-da oynadığı əsas rollar bunlardır: Aşıq və Pərviz ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Koçkaryov, Bobçinski ("Evlənmə" və "Müfəttiş", Nikolay Qoqol), Çingiz, Həmzə bəy ("Bəxtsiz cavan" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Hacı Məsud, Xəlil yüzbaşı ("Lənkəran xanının vəziri" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Fəxrəddin, Kərbəlayı Məhəmmədəli, Şahmar bəy, Cəbi ("Müsibəti-Fəxrəddin", "Adı var, özü yox", "Ev tərbiyəsinin bir şəkli" və "Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Rzaqulu xan ("Nadir şah", Nəriman Nərimanov), Şpigelberq ("Qaçaqlar", Fridrix Şiller), Kassio, Keşiş ("Otello" və "On ikinci gecə", Vilyam Şekspir), Mirzə Rzaqulu ("Vətən", Namiq Kamal), Ərəb zabiti, Şeyx Əbülyəhya ("İblis" və "Şeyx Sənan", Hüseyn Cavid), Həmzə bəy ("Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Xudayar, Qorodo-naçalnik, Birinci ziyarətçi, Medvedev ("Dönüş", "1905-ci ildə", "Od gəlini" və "Yaşar", Cəfər Cabbarlı), Heydər ağa ("Ölülər", Cəlil Məmmədquluzadə), Peterburq qaçqını ("İntervensiya", Lev Slavin), Keşiş Anton ("Dubrovski", Aleksandr Puşkin), Böyükağa ("Yanar dərə", Cabbar Məcnunbəyov), Əhməd kişi ("Vaqif", Səməd Vurğun), Tacir ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Don Qusman Briduazon ("Fiqaronun toyu", Pyer Bomarşe), Alman casusu ("Vəfa", Rəsul Rza), Şəhərli ("Tufan", Aleksandr Ostrovski), Andronio ("Rəqs müəllimi", Lope de Veqa), Həkim ("Türkiyədə", Nazim Hikmət).

Murad Muradov Azərbaycanın ilk mədəniyyət xadimlərindəndir ki, 1933-cü ildə o dövr üçün SSRİ-nin ən şərəfli mükafatlarından sayılan Əmək Qəhrəmanı adına layiq görülüb. Zəhmətkeş aktyor, fədakar teatr xadimi milli peşəkar teatrımızın 75 illik yubileyi münasibəti ilə 21 iyul 1949-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

Ömrünün sonuna kimi səhnədən ayrılmayan aktyor 2 noyabr 1964-cü ildə Bakıda vəfat edib.

## CƏLİL BAĞDADBƏYOV (1887-21.4.1951)

Qarabağ əsilzadələrindən olan Əmrah bəyin ailəsində dünyaya göz açan Cəlil Bağdadbəyov 1887-ci idə Şuşada doğulub. Atası Əmrah bəy oğluna Şuşadakı mütərəqqi məktəbdə təhsil verib. O, təhsilini Peterburq gimnaziyasında davam etdirib. 1904-cü ildə Bakıya qayıdan Cəlil Bağdadbəyov müxtəlif neft mədənlərində dəftərxana işlərində çalışıb. Peterburqdakı təhsil illərində şəhərin mədəniyyəti, xüsusən teatr sənəti ilə dərindən tanış olan gənc Cəlil 1907-ci ildə "Nicat" mədəni-maarif təşkilatının dram truppasına aktyor götürülüb. O, "Nicat", "Səfa" teatr truppalarında Hüseynqulu Sarabskinin təşkil və rəhbərlik etdiyi "Müsəlman opera artistləri" dəstəsində, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə aktyorluq edib. 1920-ci ildə Milli Dram Teatrının truppasına götürülüb. Arada Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında da işləyib (1922-1923).

Aktyorun müxtəlif teatr truppalarında və Akademik teatrda oynadığı əsas rollar: Təbib ("Zorən təbib", Jan Batist Molyer), Rza xan ("Nadir şah", Nəriman Nərimanov), Rotsman ("Qaçaqlar", Fridrix Şiller), Don Dieqo ("Əl Mənsur", Henrix Heyne), Hacı Qəmbər ("Yağışdan çıxdıq, yağmura düşdük", Nəcəf bəy Vəzirov), Rodriqo, Qraf kent ("Otello" və "Kral Lir", Vilyam

Şekspir), İbrahim xan, Nəcəf bəy ("Ağa Məhəmməd şah Qacar" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Camal bəy ("Keçmişdə qaçaqlar", Nəcəf bəy Vəzirov), Hersoq ("Şahın bərbəri", Aleksey Lunaçarski), Şeyx Kəbir ("Şeyx Sənan", Hüseyn Cavid), Rıtsar ("Dəhşətli röya", Herhart Hauptman), Kral Lüdovlk ("Nel qülləsinin sirri", Aleksandr Düma), Qraf ("İki yetimə", Adolf D'Enneri və Germon).

Aktyor opera və operetta tamaşalarında da bir sıra yaddaqalan rollar ifa edib. O, müxtəlif illərdə Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Leylinin anası), "Əsli və Kərəm" (Əsli və Şeyx Nuran), "Şah Abbas və Xurşid banu" (Xurşid banu) operalarının, "Məşədi İbad" (Sərvər), "Arşın mal alan" (Süleyman və Əsgər) operettalarının tamaşalarında oynayıb. Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib"ində isə Dərviş və Aşıq Saleh rollarını ifa edib.

Cəlil Bağdadbəyov Dərbənddə Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (1908 və 1911), Naxçıvanda Nəriman Nərimanovun "Nadir şah" (1911), Vladiqafqazda Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (1912), Mahaçqalada Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" (1912), Bakıda Mirzağa Əliyevin "Məhkəmələr qapısında tökülən göz yaşları" (1916), Hüseynqulu Sarabskinin "Cəhalət" (1917), Mirmahmud Kazımovskinin "Daşım-daşım", Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" məzhəkələrinə və digər müəlliflərin müxtəlif janrlı pyeslərinə səhnə quruluşu vermişdir. Osmanlı ədibi Namiq Kamalın "Qara bəla" ("Əkbər şah hindu") dramını azəri türkcənə çevirib. "Hürriyyət günü" adlı məişət-sosial mövzulu və ictimai xarakterli pyesi Azərbaycan həyat tərzinə uyğun təbdil edib. Aktyor və rejissor kimi çıxış edən Cəlil Bağdadbəyov dəfələrlə İrəvanda, Tiflisdə, Vladiqafqazda, Mahaçqalada, Hacıtərxanda, İdil (Volqa) çayının yaxasında yerləşən türkdilli yaşayış bölgələrində, Məkərədə (Nijni Novqorod), Orenburqda, İranın şəhərlərində uzunmüddətli qastrol səfərlərində olub. Şamaxı, Salyan, Ağdaş, Zaqatala, Qaryagin (indiki Füzuli), Şəmkir, Şuşa, Ağdam, Naxçıvan, Ordubad şəhərlərinin dram dərnəklərinə və dövlət teatrlarına müntəzəm yaradıcılıq yardımı göstərib. Orada həm aktyor, həm rejissor kimi çıxış edib, tamaşalar hazırlayıb, rollar oynayıb.

Fövqəladə təşkilatçılıq qabiliyyəti olan, rus, ərəb, fransız, fars, özbək, taclk dillərində sərbəst danışan Cəlil Bağdadbəyov 1920-ci illərin ikinci yarısında Azərbaycan Xalq komissarları Sovetinin qərarı ilə yerlərdə mədəniyyətin yüksəldilməsi üçün Orta Asiyaya göndərilib. 1941-ci ildə faşist Almaniyası SSRİ-yə hücum edəndən bir qədər sonra Cəlil Bağdadbəyov Azərbaycan mədəniyyət xadimlərinin tərkibində İrana gedib. O və rejissor Şəmsi Bədəlbəyli Təbrizdə yerli teatr həvəskarları ilə tamaşalar hazırlamışlar. İrandan qayıdandan sonra Hüseynqulu Sarabski adına Qaryagin Dövlət Dram Teatrında, Üzeyir bəy Hacıbəyov adına Şuşa Dövlət Musiqili Dram Teatrında, Seyid Əzim Şirvani adına Şamaxı Dövlət Dram Teatrında, Mirzağa Əliyev adına Şəmkir Dövlət Dram Teatrında və digər sənət ocaqlarında rejissorluq etmişdir.

Bütün ömrünü teatr sənətinin tərəqqismə, xalqın mənəvi-əxlaqi yüksəlişinə, mədəniyyətin inkişafına sərf edən, yorulmadan və coşğun fədakarlıqla çalışan Cəlil Bağdadbəyov 17 iyun 1943-cü ildə, Şuşa teatrında işləyərkən Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

Omrünün sonlarında mədəni-maarif səhnəsində işləyən Cəlil Bağdadbəyov 21 aprel 1951-ci ildə Bakıda vəfat edib.

## XƏLİL HÜSEYNOV (1890-?)

Azərbaycan peşəkar teatr tarixində ilk bacarıqlı truppa müdiri kimi tanınıb. Bu peşəni işlədiyi bütün teatr dəstələrində bacarıqla icra edib. Əbülfət Vəlidən sonra ən səriştəli qastrol təşkilatçısı kimi tanınıb, inzibatçı kimi milli səhnə sənətimizin ilkin təşkilatçısı və təbliğatçılarından sayılır. 1908-ci ildən 1920-ci ilə qədər "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətinin teatr truppalarında, Hüseynqulu Sarabskinin "Müsəlman opera artistləri" dəstəsində, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə, Hökumət Türk Teatrosunda fasiləsiz olaraq ikinci rejissorluq və müavinlik vəzifəsini bacarıqla icra edib.

Xəlil Hacı Mahmud oğlu Hüseynov (Hüseynzadə) 1890-cı ildə Bakıda doğulub. Məktəbə on yaşında gedib və əski üsulla fəaliyyət göstərən məktəbdə oxuyub. Bacarıqlı və qabiliyyətli olduğuna görə nəzərdə tutulan təhsili vaxtından əvvəl başa vurub. Qayğikeş müəllimlərinin səyi və şəhərin sayılan hacılarından olan atasının köməkiiyi ilə türk-rus məktəbinə daxil olan Xəlil burada da şagirdlərə nümunə göstərilib. 1917-ci ildə pedoqoji kursa daxil olub. Bir il təhsil alıb. Buranı əla qiymətlərlə bitirərək Bakıda fəaliyyət göstərən "Nəşri-maarif" cəmiyyətinin təsis etdiyi "Darülmüəllimi"ndə təhsil almışdır. Yaraşıqlı boy-buxuna, fiziki gücünə və əsil idmançı şücaətinə görə onu "Bəhriyyə məktəbi"nə (Dənizçilik məktəbi) götürmüşlər.

Daxilən enerjili olan, yorulmaq bilməyən Xəlil Hüseynov on yeddi yaşında "Nəşri maarif "in nəzdində Mirzağa Əliyevin yaratdığı "Həmiyyət" truppasına üzv olmuşdur. Tezliklə bacarıq və təşkilatçılıq məharəti ilə Hüseyn Ərəblinski və Əbülfət Vəli kimi səhnə xadimlərinin diqqətini cəlb etmişdir. Hüseyn Ərəblinskinin dəfələrlə Aşqabada, Krasnovodska, Hacıtərxana, Dərbəndə, Mahaçqalaya, Məkərəyə (Nijni Novqorod), Orenburqa səfərlərində Xəlil Hüseynov dəstənin qastrollarına məsul müdir, hazırlanan tamaşalarda isə ikinci rejissor və ya rejissor müavini olmuşdur. Hətta yeri gələndə özü də məsxərələri və hətta operettaları, operaları tamaşaya hazırlamışdır.

Bugünkü Akademik Milli Dram Teatrı 1919-cu ilin 24 oktyabrından İsa bəy Aşurbəylinin "Azərbay-Can" ("Azərbay və Can") dramının tamaşası ilə rəsmi dövlət mədəniyyət müəssisəsi kimi fəaliyyətə başladığı gündən Xəlil Hüseynov truppanın əsas heyətində olmuşdur. 1924-cü ilə qədər burada işləmişdir. Abbasmirzə Şərifzadənin, Aleksandr İvanovun quruluşlarında rejissorluq və yaxud assistentlik etmişdir.

Bütün bunlarla bərabər, Xəlil Hüseynov ilk növbədə aktyor idi. Bacarıq və istedadını daim özünün peşəkarlıq fəaliyyətinin təkmilləşməsinə yönəldib. Aktyor milli teatrımızın dəstələr şəklində fəaliyyət göstərdiyi və dövlət sənət ocağı kimi çalışdığı illərdə çoxlu səhnə obrazları yaratmışdır. Abbasəli ("Pulsuzluq", İvan Turgenev), Pərviz-Cavidan və Zabit ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Əliəşrəf bəy ("Vətən", Namiq Kamal), Teymur ağa, Əsgər bəy ("Lənkəran xanının vəziri" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Şleyme ("Yəhudilər", Yevgeni Çirikov), Yusif İzzəddin ("Sultan Əbdüləzizin xəli", Mehdi bəy Hacınski), Mürtəzaqulu xan, Qurban, Fərhad, Nəcəf bəy ("Ağa Məhəmməd şah Qacar", "Pəri cadu", "Bəxtsiz cavan" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Don Enrikos ("Əl Mənsur", Henrix Heyne), Cəbi ("Zorən təbib", Jan Batist Molyer), Məşədi Oruc ("Ölülər", Cəlil Məmmədquluzadə), Heydərqulu ağa, Rəsul bəy, Hacı Qəmbər, Fəxrəddin, Şahmar bəy ("Adı var, özü yox", "Ev tərbiyəsinin bir şəkİi", "Hacı Qəmbər", "Müsibəti-Fəxrəddin" və "Keçmişdə qaçaqlar", Nəcəf bəy Vəzirov), Rüfət, Cəmil bəy, Əbdülrəhman ("Ədirnə fəthi", "Bakı müharibəsi" və "Trablis müharibəsi", Cəfər Cabbarlı), Rzaqulu xan ("Nadir şah", Nəriman Nərimanov), Əbül Üla ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Edmund ("Kral Lir", Vilyam Şekspir), Arif ("İblis", Hüseyn Cavid), Qaçaq Kərəm ("Qaçaq Kərəm", Vano Mçedaşvili), Yavər ("Lakme", Səkinə Axundzadə).

Hüseynqulu Sarabskinin "Cəhalət", Nəcəf bəy Vəzirovun "Ev tərbiyəsinin bir şəkli", Sultanməcid Qənizadənin "Xor-xor", Mirmahmud Kazımovskinin "Daşım-daşım" məzhəkələrinə, "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" operalarına səhnə quruluşu verib.

Aktyor Xəlil Hüseynov Azərbaycanın ilk qiraət ustalarındandır. Nizami Gəncəvidən, Məhəmməd Füzulidən, Molla Pənah Vaqifdən, Nəbatidən çoxlu poetik nümunələri əzbər bilən Xəlil Hüseynov Bakıda vaxtaşırı keçirilən "Şərq müsamirəsi"ndə onlardan nümunələri bəlağətlə, şövqlə söyləyirdi.

"Divertisınent" adlanan yumorlu müzikl axşamlarında səhnəyə Mirzə Ələkbər Sabirin, Səməd Mənsurun satirik şeirlərilə çıxardı.

18 sentyabr 1941-ci ildən Gənc Tamaşaçılar Teatrında inzibatçı işləyib. Eyni zamanda Abdulla Şaiqin "Vətən" (Kəndli), "E1 oğlu" (Birinci bəy), Əliməmməd Atayevlə Əhməd

Əhmədovun "Seyran" (Şükür) pyeslərinin və həmçinin digər əsərlərin tamaşalarında epizod rollar oynayıb.

## CAHANGİR ZEYNALOV
## (1865-1918)

Milli teatrımızın ilk peşəkar aktyorlarından biri, Azərbaycan realist aktyor məktəbinin banisi Kərbəlayı Cahangir Zeynalovdur. 1865-ci ildə Bakıda doğulmuş Cahangir Zeynalovun atası Məşədi Rza da, özü də tacirlik etmişlər. Cahangir bəy ibtidai təhsil almışdı, rus və fars dillərini mükəmməl bilirdi, geniş mütaliəsi vardı. Səhnəyə ilk dəfə 1885-ci ildə qız rolunda çıxıb. Bakıda fəaliyyət göstərən Lanskoy, Şorşteyn, Aqriptseva kimi aktyorların truppaları ilə yaxından əlaqəsi vardı, şəhərə gələn qastrolçuların tamaşalarına müntəzəm baxardı. Hətta 1916-1918-ci illərdə baxdığı tamaşalar barədə rəylərini, sənət haqqında mühakimələrini təcəssüm etdirən "Teatro dəftərçəsi"ndə ("Əxz etdiyim hərəkətlər") nəzəri-təcrübi fikirlərini traktat səpkisində yazıb. Müəyyən vərəqləri itmiş həmin dəftərçə Azərbaycan Dövlət Teatr Muzeyində saxlanılır.

Maddi imkanı geniş olan Cahangir Zeynalov aktyorlara həmişə əl tutur, onlara pul yardımı edirdi. O, indiki Hüsü Hacıyev və Dilarə Əliyeva küçələrinin kəsişməsində yerləşən Şahmat klubunun yerindəki evinin böyük bir zalını məşq üçün ayırmışdı. Otağın baş hissəsində xərc çəkib səhnə də düzəltdirmişdi. Hacıağa Abbasov, Mirzağa Əliyev, Məhəmməd bəy Əlvəndi, Hüseyn Ərəblinski, Mirmahmud Kazımovski kimi aktyorlar, Sultanməcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Bədəl bəy Bədəlbəyli kimi müəllim və səhnə fədailəri dəfələrlə həmin zalda məşq etmiş, tamaşalar hazırlamışlar. Məşqdən sonra iştirakçıların hamısına süfrə açılardı və xərci Kərbəlayı özü ödəyərdi.

Cahangir Zeynalov səhnədə əvvəllər Həbib bəy Mahmudbəyovla Sultanməcid Qənizadənin hazırladıqları tamaşalarda oynayıb.

XIX əsrin sonlarında isə sənət dostu Nəcəfqulu Vəliyevlə birgə əsərlər tamaşaya qoyublar. 1900-cü illərdə Müsəlman dram artistləri şirkətinin ("Şirkət" də deyilib) təşkilində Zeynalovun müstəsna rolu olub. "Nicat" (1906) və "Səfa" (1912), "Nəşri-maarif" mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında Kərbəlayı Cahangir əsasən aktyorluq edər və həm də tamaşalara quruluşlar verərdi. "Səfa"nın teatr truppası 1912-ci ildən fəaliyyətdə idi, ancaq cəmiyyətin özü 1910-cu ildə yaranmışdı. "Səfa"nın kitabxanasının təşkilində böyük işlər görən Cahangir Zeynalov onun fonduna çoxlu nüsxədə kitab bağışlamışdı. Bakıda qabaqcıl elm ocaqlarından sayılan "Səfa" məktəbində Səməd Mənsur, Abbasmirzə Şərifzadə, Cəfər Bünyadzadə ilə yanaşı, Cahangir Zeynalov da dərs deyirdi. O, dəfələrlə, "Səfa" teatr bölməsi idarə heyətinin rəhbərləri sırasma seçilmişdi. Hətta 1914-cü ildə sədr vəzifəsini Cahangir Zeynalov, müavinliyi isə Mehdi bəy Hacınski tutmuşlar.

Cahangir Zeynalov ilk Azərbaycan aktyorudur ki, teatr ictimaiyyəti ona təntənəli yubiley ("Yomi ali") keçirib. Səhnə fəaliyyətinin 25 illiyi münasibətilə "Nicat" cəmiyyətinin Qurban bayramı günündə (30 noyabr 1910) Tağıyev teatrında keçirdiyi yubiley təntənəsində rəsmi hissə olmuş, fasilələrdə xanəndə və sazəndələr çalıb-çağırmış, Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyası oynanılmış, Mirzə Həbib rolunu Cahangir Zeynalov ifa etmişdi. Yubiley münasibətilə "Günəş", "Kaspi", "Nicat", "Səda", "Bakı", "Bürhani-Tərəqqi", "Qafqazskaya kopeyna" qəzetləri məqalələr və Nəriman Nərimanovun, Mehdi bəy Hacınskinin, Boyarski truppası aktyorlarının, redaksiya heyətlərinin təbriklərini çap etmişdi.

Yubiley gecəsi "Nicat" tərəfindən Səməd bəy Acalov, Gürcü nəşri-maarif cəmiyyətindən Nasidze, bütün müsəlman dram dəstəsi adından Qulamrza Şərifzadə, "Maloross", "Kulturnıy soyuz", "Prosvita", "Nəşri-maarif", "İttihad", "Yəhudilər" cəmiyyətləri, "Yeni Fyüzat", "Molla Nəsrəddin"

məcmuələri, "Səda", "Tərcüman" qəzetləri aktyoru təbrik etmiş, ona qiymətli hədiyyələr bağışlamışdılar.

Mirzağa Əliyev, Hacıağa Abbasov, Məmmədəli Vəlixanlı kimi möhtərəm aktyorların səhnəyə gəlişində Kərbəlayı Cahangirin böyük xidmətləri olub. O, "Nicat", "Səfa", "Müsəlman artistləri ittifaqı"nın, Hacıbəyov qardaşlarının "Opera və dram truppası"nın aralarındakı xoşagəlməz ləcliyi, çəkişmələri aradan qaldırmış, onları ümumi mədəniyyətin tərəqqisi naminə birləşməyə çağırmışdır.

Səhnəmizdə qadınların olmamasından həmişə rahatsızlıq keçirən aktyor qızını aktrisa görmək istəmiş, ancaq amansız ölüm bu arzuya kölgə salmışdı. Üç yaşında valideyni Cahangir Zeynalovu itirmiş Nəsibə Zeynalova sonralar atasının bünövrəsmi qoyduğu realist aktyor məktəbinin ən layiqli davamçısı kimi tarixiləşdi.

1918-ci ilin 17 martında erməni daşnakiarı Bakıda vəhşiliklə yanğınlar və qırğınlar törədəndə Cahangir Zeynalov həyat yoldaşı Hüsniyyə xanımla, körpə qızı Nəsibə ilə İranın Ənzəli şəhərinə, müvəqqəti orada yaşayan qayınatası Məşədi Əbdüldayan Hüseynovun yanına gediblər. Oktyabrın əvvəllərində ara sakitləşəndə o, ailəsi ilə birgə "Ardahan" gəmisinə minib Bakıya qayıdarkən dənizdə fırtına qopub. səkkiz gün dənizdə qalan gəmidə natəmizlikdən yatalaq (tif) xəstəliyi yaranıb və Kərbəlayı Cahangir də həmin azara tutulub. Bakıya çatandan sonra yaxın dostlarından, qohumlarından xəbərsiz dünyasını dəyişib.

Aktyor son dəfə səhnəyə "İsmailiyyə" zalında oynanan "Hacı Qara" tamaşasında baş rolda çıxıb.

Cahangir Zeynalovun milli dramaturgiyamızda oynadığı rolların tam olmayan siyahısı belədir: Mirzə Fətəli Axundzadənin "Hacı Qara"sında Hacı Qara, "Müsyö Jordan və dərviş Məstəli şah"da Şahbaz bəy və Məstəli şah, "Molla İbrahimxəlil kimyagər"də Molla İbrahimxəlil, "Xırs quldurbasan"da Tarverdi, "Lənkəran xanının vəziri"ndə Mirzə Həbib, Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər"ində Hacı Qəmbər, "Ağa Kərim xan Ərdəbili"də Ağa Kərim xan, "Müsibəti-Fəxrəddin"də Vəli, Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsində Tavad Maqobeli, Rzaqulu Mirzə, Mirzə Cəfər xan, "Bəxtsiz cavan" ("Tamah"), "Kimdir müqəssir?", "Millət dostları" dramlarında Kişi, Hacı Səməd ağa, Mahmud, "Xəyalət"də Dərviş. Nəriman Nərimanovun "Dilin bəlası"nda Şamdan bəy və Hacı İbrahim, "Nadir şah" faciəsində Ədhəm və Cavad, İsmayıl Rüs təmbəyovun "Dövləti-bisəmər", Mehdi bəy Hacınskinin "Sultar Əbdüləzizin xəli" pyeslərində Hacı Fərəc, Həsən Xeyrulla Əfəndi, Süleyman Sani Axundovun "Tamahkar"ında Hacı Murad rolları. O, Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar " (Məşədi Şaban), "Xor-xor" (Seyfulla), "Dursunəli və ballıbadı" (Dursunəli), Məhəmmədhəsən Həsənovun "Pinəçi Seyfulla" (Seyfulla), Vasaq Mədətovun "Qırt-qırt" (Ağa Murad), İsgəndər Məlikovun "Yaxşılığa yamanlıq", "Molla Nəsrəddin" (Molla Nəsrəddin) vodevillərində əsas obrazları oynayıb.

Tərcümə əsərlərindən Lev Tolstoyun "Əvvəlinci şərabçı" (Potap), Fridrix Şillerin "Qaçaqlar" (Qoca Moor), Jan Batis Molyerin "Zorən təbib" (Eyvaz), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Qubad və Fərhad), "Əhdə vəfa" (Zübeyr), Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (Rəbi), S.Lanskoyun "Qəzavat" (Qoca səraərdə), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (Çinovnik və Xanın katibi), Namiq Kamalın "Vətən" ("Vətən, yaxud Osmanlı müharibəsi". Şeyxülislam) tamaşalarında oynayıb.

Yuxarıda sadalanan rolların əksəriyyətini dəfələrlə müxtəlif quruluşlarda ifa etmiş Cahangir Zeynalov bəstəkar Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" operettasında Rza bəy və Rüstəm bəy obrazlarını yüksək məharətlə yaradıb.

Rejissor kimi də səmərəli fəaliyyət göstərən Cahangir Zeynalov 1913-cü ildə "Səfa"da dramaturqlardan Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Namiq Kamalın "Vətən", Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay", 1914-cü ildə Əbdürrəhim bəy Haqverdiyevin "Millət dostları", Molyerin "Zorən təbib", 1915-ci ildə Namiq Kamalın "Əhdə

vəfa", digər illərdə müxtəlif truppalarda Cəlal Yusifzadənin "Fərhad və Şirin" (opera), Şəmsəddin Saminin "Dəmirçi Gavə", Nəriman Nərimanovun "Nadir şah" əsərlərinə quruluşlar verib.

Cahangir Zeynalov xalq folklorunun mayasından şirələnən yumordan yaradıcılıqla bəhrələnirdi.

Cahangir Zeynalov o dövrdə dəbdə olan süni pafosla danışmaqdan, ritorikadan, boğazdan yuxarı dekiomasiyaçılıqdan, saxta hərəkətlərdən cəsarətlə imtina edib.

Cahangir Zeynalov teatrda estetik savadsızlığın əleyhinə çıxaraq real oyun ifa üslubunun sistemlər toplusunu yaradıb.

Cahangir Zeynalov oynadığı rolda doğruçuluğa, həyatiliyə, inandırıcılığa nail olmaq üçün obrazın daxili inkişaf məntiqinə əsaslanıb, müxtəlif üslubları sintez edə bilib.

Cahangir Zeynalovun aktyor məktəbi köklü və davamlı prinsiplər əsasında qurulmaqla öz poetikasının müəyyən vacib göstərici-prinsiplərini formalaşdırıb.

Cahangir Zeynalov rolunu nə qədər coşğun ehtirasla, çılğın temperamentlə oynasa da, heç vaxt personajın daxili sürət-ritminin inkişaf ahəngindən çıxmır, həmin rolla təqdim etmək istədiyi estetik flkrin mahiyyətindən uzaqlaşmır, həqiqət hissinə daim sadiq qalırdı.

Cahangir Zeynalov obrazın (məsələn Hacı Qara, Vəzir) ictimai-sosial mənşəyindən çıxış edərək onun cəmiyyətdə tutduğu mövqeyini özü üçün aydınlaşdırır və buna uyğun məntiqlə rolun davranışını, geyimini, danışığını müəyyənləşdirirdi.

Cahangir Zeynalov dramatik rollar (Hacı Səməd, Qoca Moor) oynasa da, təbiətən komik idi. Sənətdə hər cür zahiri əyləndiriciliyin, yüngül oyunbazlığın, şitliyin əleyhinə çıxır, teatrı yüksək hisslərə çıraq tutan məbəd kimi qiymətləndirirdi.

Cahangir Zeynalov el arasında həmişə özünü yüksək ləyaqətlə, ağır ağayanalıqla aparır, hər yerdə hörmət-izzəti uca tutulurdu, onu müdrik ağsaqqal, xeyirxah ziyalı kimi qəbul edərdilər.

Cahangir Zeynalov aktyorluq peşəsini müqəddəs tutar, sənətinə ciddi yanaşmayanları tənbeh edir, bütövlükdə teatra əvəzsiz tərbiyə ocağı kimi baxırdı.

## HÜSEYN ƏRƏBLİNSKİ
## (1881-4 mart 1919)

Azərbaycan romantik aktyor məktəbinin banisi Hüseyn Ərəblinski sayılır. "Ərəblinski" qüdrətli aktyor və rejissorun təxəllüsüdür. Afişalarda bəzən "Ərəbli" kimi də yazılıb. Əsil adı Hüseynbala, soyadı Xələfovdur. 1881-ci ildə Bakıda doğulub.

Atası Məmməd kişi yeikənli gəmidə işləyib və Hüseyn (Hüseynbala) bacısı Dürsədəflə kiçik ikən ailənin başçısı dəniz fırtınasında həlak olub. Anası Pərinin himayəsində qalan Hüseyn Ərəblinski bir müddət mollaxanada oxuyub, ancaq ailənin pis güzəranına görə ruhani təhsilindən uzaqlaşıb. 1893-cü ildə o, qeyrətli ziyalı, ehtiraslı teatr həvəskarı Həbib bəy Mahmudbəyovun kasıb uşaqlar üçün açdığı pulsuz təhsil sinifində oxuyub. Bu məşhur təhsil ocağı "Üçüncü rus-tatar məktəbi" adlanırdı və Həbib bəy oranın müdiri idi. Sultanməcid Qənizadə də orada dərs deyirdi və Hüseynin məktəbə qəbulunda onun ciddi səyi olub. Həbib bəyin məktəbindən sonra gələcəyin aktyoru "Mixaylovskaya Şkola"da oxuyub.

Rus dilini və ədəbiyyatını mükəmməl öyrənən Hüseyn 1900-cü ildə hərbi məktəbə (o vaxt "Kadetski korpus" adlanırdı) daxil olmaq üçün Tiflisə gedib. Ancaq nəslən hərbi qulluqçu olmadığına və ya özünün həmin sahədə müəyyən iş stajının yoxluğuna görə onu hərbi məktəbə qəbul etməyiblər. Yenidən Bakıya gəlib, müxtəlif işin qulpundan yapışaraq çörək-pulu qazanıb. Həm də hərdən ayrı-ayrı həvəskar dəstələrinin təşkil etdikləri tamaşalarda epizod rollar oynayıb. 1901-ci il-də Şuşadan Bakıya gələn Əbdürrəhim bəy Haqverdiyev burada dağılmaqda olan teatr dəstələrini bir araya gətirib, nisbətən sabit truppa düzəldib. Az sonra həmin truppa "Müsəlman artistləri cəmiyyəti" (Şirkət) adlanıb. Hüseyn Ərəblinski bu truppa ilə sıx əlaqə yaradıb.

Hüseyn Ərəblinski ilk dəfə səhnəyə 1897-ci ildə çıxıb. Müəllim işləyən və teatrın təşəkkülündə böyük xidmətləri olan Sultanməcid Qənizadə şagirdlərlə "Lənkəran xanının vəziri" komediyasını tamaşaya hazırlayıb. Əsər Novruz bayramı münasibətilə göstərilib və Ərəblinski (Xələfov) mehtər Kərəm rolunda səhnəyə çıxıb. Ağabəşiri isə onun məktəb dostu, sonralar aktyor, rejissor, dramaturq kimi fəaliyyət göstərən Mirmahmud Kazımovski oynayıb. 1900-1905-ci illər ərzində həvəskarların hazırladıqları tamaşalarda nəzərə çarpmayan rollarda çıxış edib. Onların arasında nisbətən yadda qalanı və əslində zəif olanı Nəcəf bəy Vəzirovun öz faciəsi əsasında hazırladığı "Müsibəti-Fəxrəddin"dəki nökər Hacı Murad rolu olub. Görkəmli teatr xadimi Əbülfət Vəlinin təşkil etdiyi teatr truppası 1905-ci ildə Lənkəranda qastrolda olub. Həmin tamaşada xəstələnmiş aktyorun yerinə Rüstəm bəyi Ərəblinski ifa edib. Aktyor bu rolda gözlənilməz uğur qazanıb. Qastrol nailiyyəti aktyorun yaradıcılığında ciddi dönüş yaradıb. Hüseyn Ərəblinski qısa bir müddətdə Bakı aktyorları arasında öncüllüyü ələ alıb. O, əsasən "tragik" (faciə rollarını oynayan (aktyor) kimi şöhrətlənmiş və tez bir zamanda, həm də rejissor kimi səmərəli fəaliyyət göstərməyə başlamışdı.

Hüseyn Ərəblinski 1906-1919-cu illər arasında "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr truppalarında, "Müsəlman artistləri cəmiyyəti"ndə, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə aktyorluq və rejissorluq etmişdir. Həmin truppaların bəzisində həmçinin baş rejissor kimi də səmərəli işlər görmüşdür.

Milli teatr sənətimizin peşəkar istiqamətdə inkişafında, başqa ölkə və şəhərlərdə tanınmasında, bir sıra bölgələrdə teatr sənətinin təşəkkülündə Hüseyn (Məkərə) Ərəblinskinin böyük xidmətləri olub. O, özünün təşkil etdiyi truppa-dəstələrlə 1906-cı ildə Dərbənddə, Tiflisdə, Gəncədə, Petrovskidə (indiki Mahaçqala), Temurxanşurada, Nijni Novqorodda, Həştərxanda (Hacıtərxan), 1909-cu ildə Tiflisdə, İrəvanda, Batumda, Vladiqafqazda, Moskvada, Şuşada, 1911-ci ildə Krasnavodskda, Aşqabadda, 1914-cü ildə Tiflisdə, 1917-ci ildə Hacıtərxanda və Tiflisdə qastrol səfərlərində olub. Qastrol repertüarının əsasını Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun, Şəmsəddin Saminin, Namiq Kamalın, Jan Batist Molyerin, Henrix Heynenin dram və faciələri, həm milli, həm də tərcümə vodevil və məsxərələr təşkil edib. Bir qayda olaraq bu tamaşaların rejissorluğunu Ərəblinski öz üzərinə götürüb.

1908-ci il yanvarın 12-də "Nicat" cəmiyyəti truppasının oynadığı ilk milli operamız olan Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun"unun quruluşçu rejissoru Hüseyn Ərəblinski idi. Müxtəlif vaxtlarda Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu" operalarına, "Arşın mal alan", "Ər və arvad", "Məşədi İbad" operettalarına, Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", "Evliykən subay", "Əlli yaşında cavan" əsərlərinə dəfələrlə quruluşlar verib.

Rejissor kimi Hüseyn Ərəblinskinin daha peşəkar sayılan quruluşları Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", "Ev tərbiyəsinin bir şəkli", "Adı var, özü yox", "Hacı Qəmbər", "Daldan atılan daş topuğa dəyər", Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri", "Müsyö Jordan və dərviş Məstəli şah", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar", Nəriman Nərimanovun "Nadir şah", Yusif Talıbzadənin "Xalid ibn Valid", Osmanlı ədiblərindən Namiq Kamalın "Vətən", "Akifbəy", "Naci bəy fədakari-hürriyyət", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla", rus müəllifi K.Baxmetovun "Napoleon" ("1812-ci il və ya Moskva yanğını"), alman Henrix Heynenin "Əl Mənsur", Jan Batist Molyerin "Zorən təbib", Vilyam Şekspirin "Otello", Nikolay Qoqolun "Müfəttiş", Fridrix Şillerin "Qaçaqlar" əsərlərinə verdiyi səhnə təfsirləridir. O, çoxlu xırda vodevillər, birpərdəli əsərlər də hazırlayıb. Yuxarıda adı çəkilən faciələrin əksəriyyətinə isə bir neçə dəfə quruluş verib.

Hüseyn Ərəblinskinin ifa etdiyi rolları şərti olaraq iki qismə bölmək olar: milli dramların və tərcümə əsərlərinin tamaşalarında oynadığı obrazlar.

Birinci bölümə Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (Hacı Murad, Rüstəm bəy və Fəxrəddin), "Hacı Qəmbər" (Xudaverdi bəy), "Daldan atılan daş topuğa dəyər" (Əbdürrəhman bəy), "Ev tərbiyəsinin bir şəkli" (Rəsul), Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar" (Ağa Cavad), "Dursunəli və ballıbadı" (Ağa Cəfər), Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (Süleyman bəy), "Bəxtsiz cavan" (Fərhad), "Ağa Məhəmməd şah Qacar" (Qacar), Nəriman Nərimanovun "Nadir şah" (Məhəmməd xan, Gürcü bəy və Nadir şah), "Bahadır və Sona" (Bahadır), "Şamdan bəy" (Yusif), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Teymur ağa), "Hacı Qara" (Naçalnik), Haşım bəy Vəzirovun "Döymə qapımı, döyərlər qapmı" (Ağa Məcid), Məmmədəmin Rəsulzadənin "Qaranlıqda işıqlar" (Qəhrəman), İsmayıl Rüstəmbəyovun "Dövləti-bisəmər" (Ağabala), Yusif Talıbzadənin "Xalid ibn Valid" (Xalid), Mirzə Məmməd Axundzadənin "Səd ibn Vəqqas" ("Səd Vəqqas". Səd Vəqqas), Səkinə Axundzadənin "Zülmün nəticəsi" (Səid bəy), Əhməd Qəmərlinin "Rüstəm və Söhrab" (Rüstəm), Abdulla Abdullazadənin "Xosrov-Pərviz" (Xosrov Pərviz) əsərlərinin tamaşalarındakı rollar daxildir.

Aktyor tərcümə əsərlərindən Nikolay Qoqolun "Müfəttiş" (Dobçinski və Xlestakov), Henrix Heynenin "Əl Mənsur" (Əli və Əl Mənsur), Fridrix Şillerin "Qaçaqlar" (Frans), Namiq Kamalın "Əta bəy" (Əta bəy), "Naci bəy" (Naci bəy), "Vətən" (İslam bəy), "Namus" ("Akif bəy". Anif bəy), Jan Batist Molyerin "Zorən təbib" (Eyvaz), Fransua Volterin "Sultan Osman" (Sultan Osman), Yevgeni Çirkovun "Yəhudilər" (Naxman), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Gavə və Pərviz), S.Lanskoyun "Qəzavat" (Əhməd bəy Şamxal), Məhəmməd Ehsanın "Cövdət bəy" (Cövdət bəy), Lentovskinin "Artistlərin məişəti" (Vəli), İvan Turgenevin "Pulsuzluq" (Cəmil bəy), Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (Əbu Dəyyab), Baxmetovun "1812-ci il" (Napoleon), Abdulla Şaiqin təbdilində "Qafqaz çiçəkləri" (Aslan), Vilyam Şekspirin "Otello" (Otello), Yusif Talıbzadənin təbdilində "Ərmənusə" (Arkadyos), Ehrabinin "Ləkkeyi taci Kəyan" (Səttarxan), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (Kərəm), Əbdülhəq Hamidin "Tariq ibn Ziyad" (Tariq), Ələsgər Kamalın "Bəxtsiz igid" (Zakir), özünün tərcümə-təbdilində "Bədəfkarın külfəti" (Ata) pyeslərinin tamaşalarında müxtəlif səpkili rollar oynayıb.

Hüseyn Ərəblinski 1916-cı ildə "Milyonlar və neft səltənəti" filmində Lütfəli bəy rolunda çəkilib.

Azərbaycan teatr tarixində böyük xidmətləri olan onlarca aktyor məhz Hüseyn Ərəblinskinin şöhrəti və yaxından qayğısı, yaxud ona bəslənən böyük rəğbət nəticəsində səhnə sənətinə gəlmişlər. Hətta Sidqi Ruhulla və Abbasmirzə Şərifzadə kimi qüdrətli aktyorlar vaxtilə onlara verilən "balaca Ərəblinski" qiyməti ilə fəxr etmişlər.

Rusiyada xüsusi teatr təhsili almaq arzusu ilə yaşayan və həmin istəyi maddi çətinlik ucbatından dəfələrlə puça çıxan Hüseyn Ərəblinski 1919-cu il martın 4-də dayısı oğlu Əbdülxalıq Əbdülkərim oğlunun tapançadan açdığı atəşlə qətlə yetirilib. O, son dəfə mart ayının 1-də səhnədə Nadir şah rolunda çıxış edib.

Qacar, Fərhad, Nadir şah, Otello, Fəxrəddin, Xlestakov, Frans, Gavə, Qaçaq Kərəm, İslam bəy rolları aktyorun teatr salnaməmizə əbədi həkk olan səhnə surətləridir.

Hüseyn Ərəblinski səhnəmizin ilk aktyorlarındandır ki, suflyordan imtina etməyə səylə can atmış, oynadığı əksər obrazların sözlərini əzbər bilmişdir.

Hüseyn Ərəblinski aktyor sənətini elmi əsaslarla mənimsəmək üçün çoxlu mütaliə etmiş və kitablardan mənimsədiklərini sənət yoldaşlarına da öyrətməklə, səhnədə əyaniləşdirməyə çalışmışdır.

Hüseyn Ərəblinski milli rejissuramızda Əbdürrəhim bəy Haqverdiyevin qoyduğu ənənəyə sadiq qalaraq tamaşaya hazırlanan əsəri təhlilə çalışmışdır. Pyesin ideya və müəllif qayəsi barədə aktyorlara məlumat verməyi vacib saymışdır.

Hüseyn Ərəblinski hər hansı əsəri ayrı-ayrı ifaçılarla işləyib, sonra "calaq" eləmək vərdişinin əleyhinə çıxmış, tamaşanı iştirakçı aktyorların ansambl bütövlüyü ilə işləməyə üstünlük vermişdir.

Sadəlik, canlılıq, eşq və ehtiraslar üzərində köklənən emosionallıq, coşğun temperament romantik aktyor Hüseyn Ərəblinskinin yaradıcılığı üçün səciyyəvi idi.

Hüseyn Ərəblinskinin məzarı Bakıda Fəxri xiyabandadır.

Sumqayıt Dövlət Musiqili Dram Teatrı görkəmli sənətkar Hüseyn Ərəblinskinin adını daşıyır.

## TEATR TAMAŞALARININ GÖSTƏRİLMƏ MƏKANI (1873-1919)

Peşəkar teatr deyəndə və onun fəaliyyəti barədə düşünəndə sözsüz ki, ilk növbədə sənət ocağının yerləşdiyi bina barədə də fikirlər oyanır. Elm sübut edib ki, teatr tamaşasının təlqin etdiyi bədii-estetik zövqün kökündə tamaşa oynanılan binanın texniki imkanları və texnologiyası da mühüm yer tutur. Teatr binasının arxitektura özəllikləri müxtəlif şəkillərdə səhnə sənətinin gözəllik estetikasını istiqamətləndirir, onun özünəməxsusluğunun bədii səciyyələrini müəyyənləşdirir.

Dünya teatrının müxtəlif inkişaf dövrlərində formalaşan bədii zövqlərə uyğun olaraq teatr tamaşalarının oynanılması üçün tikilən binaların memarlığında da böyük və əsaslı dəyişikliklər aparılmışdır. Antik teatrın açıq havadakı binalarını əsrlər keçdikcə müxtəlif sənət izmlərinə, məsələn kiassizm, barokko, qotika, modern... üslublarına məxsus memarlıq binaları əvəz etmişdir.

Azərbaycanda peşəkar teatr təşəkkül tapmamışdan əvvəl bəzi şəhərlərdə müxtəlif xarakterli kütləvi seyretmə sarayları olmuşdur. Şuşada 1848-ci ildə, Şamaxı şəhərində isə 1858-ci ildə oyunlar göstərmək, mərasim və müsamirələr keçirmək üçün memarlıq abidələri olan binalar tikilib. O dövrün mətbuatının yazdığına görə, həmin binaların yaraşıqlı lojaları, geniş salonları, əlvan tərtibatlı səhnələri olub.

Naxçıvan şəhərində ilk tamaşa Hacı Nəcəf Zeynalovun evinin böyük salonunda göstərilib. Azərbaycanca tamaşalar İrəvanda müxtəlif varlıların evlərində, Tiflisdə kazyonnı teatrda, Arsruni teatr binasında, Zubalov adına "Xalq evi"ndə, "Zadəganlar klubu"nda, Aşqabadda Dobrojenskinin sirkində, Təbrizdə adi binada oynanılıb. Azərbaycanın böyük şəhərlərində iyirminci əsrin əvvəllərində xüsusi "Cəmiyyət yığnağı" binaları tikilmişdi və el arasında, mətbuatda "Obşestvennoye sobraniye" adlanan həmin mədəniyyət mərkəzləri tamaşalar oynamaq üçün ən münasib yerlər idi. İrəvanda və Tiflisdə Dövlət Azərbaycan Dram Teatrı fəaliyyət göstərməyə başlayanda da həmin kollektivlərin texniki baxımdan səmərəli binaları olmamışdır. Dövlət teatrı hər iki şəhərdə yöndəmsiz, darısqal, səhnəsi kiçik klublarda yerləşmişdir.

Gəncə Dövlət Dram Teatrı üçün bina 1936-cı ildə tikilib. Əslində köhnə bina yenidən qurulub. Bir qədər sonra Naxçıvanda müasir memarlıq üslubunda səhnə ocağı hasilə gətirilib. Hər iki bina indiyə qədər fəaliyyətdədir və texniki imkanları o dövrün primitiv tələblərinə uyğun olaraq qalmaqdadır.

1938-1949-cu illər arasında Lənkəranda, Ağdamda, Ağdaşda, Göyçayda, Qubada, Şamaxıda, Qaryagində (indiki Füzuli rayonu), Şuşada, Şəmkirdə, Ordubadda, Bərdədə, Qazaxda, Zaqatalada, Salyanda, Sabirabadda Dövlət teatrları fəaliyyət göstərmişlər. Lakin onların heç biri üçün məxsusi teatr binası tikilməmişdir. Onlar kilsədə, məsciddə, klublarda yerləşdirilmişlər və təbiidir ki, bütün bunlar kollektivin səmərəli fəaliyyətinin estetik hüsnünə mənfi təsir bağışlamışdır. Dövlət statusu ilə hazırda Sumqayıtda, Şəkidə, Lənkəranda, Mingəçevirdə, Qazaxda, Füzulidə (müvəqqəti Horadizdə məskunlaşıb), Qusarda fəaliyyət göstərən dram, Salyandakı, Gəncədəki, Naxçıvandakı, Qaxdakı Kukla teatrı kollektivləri qeyri-teatral binalarda çalışırlar. Hazırda didərgin həyatı yaşayan Ağdam və Şuşa teatrlarının da müasir binaları yox idi.

Digər şəhərlərlə müqayisədə Bakının teatr arxitekturası daha rəngarəng və geniş şəbəkəli olub. Bakıda ilk teatr binasını milyonçu Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə özünün taxıl

anbarının özülü üzərində tikdirib. Bir neçə dəfə yanıb yenidən qurulan teatr indiki Musiqili Komediya Teatrının binasının yerində olub və 1990-cı illərin əvvəllərində sökülüb. Akademik Milli Dram Teatrı 1922-ci ildən 1960-cı ilin avqustuna qədər orada yerləşib. Sonra həmin bina muskomediya teatrına verilmişdi. 1920-ci ilə qədər bu bina "Tağıyev teatrı" və "Şəhər teatrı" adlanıb.

Bakıda azərbaycanca ilk peşəkar teatr tamaşası göstərilən bina "Nəciblər klubu" adlanıb. Həmin bina iyirminci əsrin əvvəllərinə qədər indiki Sabir bağının yanında, Gənclər meydanında yerləşən binalarla üzbəüz olub. İkinci mərtəbəyə qalxan pillələrin sol tərəfindəki dəhliz tamaşaçı salonuna aparırdı.

Qoşa qala qarşısındakı Gənclər meydanı 1920-ci ilə qədər Duma meydanı adlanıb. Meydandakı mülk, hazırda "Konstitusiya məhkəməsi" adlanan binaya "Haşımovun evi" deyilirdi. "Gürcü cəmiyyəti", "Artistlər cəmiyyəti", "Kommersiya klubu" da müxtəlif vaxtlarda bu binada yerləşib. Binanın adı teatr afişalarında müxtəlif cür yazılıb.

"Obşestvennoye sobraniye" Səməd Vurğun küçəsində, Üzeyir Hacıbəyov və Xaqani küçələrinin arasında yerləşən Zabitlər evinə deyilib. Bakı neftxudası Ağa Musa Nağıyev həmin əzəmətli binanı 1890-cı ildə xeyriyyə məqsədli tədbirlər keçirmək üçün tikdirib. Bəzi mətbuat səhifələrində, tamaşa elanlarında, afişalarda binanın adı "Musa Nağıyev teatrı" kimi də yazılıb.

Hazırda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının binası (1900-1904 və 1910-1912-ci illərdə tikilib) "Obşestvennoye sobraniye"nin yay salonu adlanıb.

"Kolizey teatrı" Gənc Tamaşaçılar Teatrının indiki binasının yerində olub. Bir müddət opera teatrı müqabilində həmin binada "Malı teatr" fəaliyyət göstərib.

"Nikitin qardaşlarının sirki" opera teatrının fasad qapısı ilə Bülbül prospektinin arasındakı binanın yerində olub. 1904-cü ildə istifadəyə verilib. Yanandan sonra indiki Respublika Mərkəzi Kitabxanasının həndəvərində taxtadan yenidən qurulub.

"Pelmel teatrı" həftəbecər kimi qəbul edilib. Milyonçu Hacıbaba Haşımovun oğlu Yaponiyada xoşuna gələn kazino evini Bakıda, indiki Rus Dram Teatrı binasının yerində inşa elətdirib. Bu bina bir müddət "**Mlkado teatrı**" da adlanıb.

**"İnsanpərvərlər klubu"** Səməd Vurğun küçəsi ilə üzüaşağı, Dənizkənarı bulvara tərəf düşəndə yolun solunda, Tolstoy küçəsinin tinində ucalıb. Binanın üzü Nəsiminin abidəsinə baxıb. Son illərə qədər mətbəə kimi fəaliyyətdəydi, sonra ticarət mərkəzinə çevrildi. 2004-cü ildə sökülüb və yerində yaşayış binası tikilib.

Bakılılar arasında köhnə univermaq kimi tanınan, hazırda böyük ticarət mərkəzi olan nəhəng binaya "Tağıyev pasajı" deyilib. Tağıyevin 1898-ci ildə tikdirdiyi, əsasən məktəblilər üçün dərs və geyim ləvazimatı satılan həmin binada kiçik tamaşa salonu olub.

**"Kələntərovun evi"** Gənclər meydanında yerləşib və "Haşımovun evi"nə bitişlkdir. Altımərtəbəli binanın ikinci qatında tamaşa salonu olub. Sonralar o salon "Muza" kinoteatrı adlanıb.

**"İsmailiyyə"** binası indiki İstiqlal küçəsindəki (keçmişdə Nikolayevsk və kommunist küçəsi adlanıb) Milli Akademiyanın prezidium binasıdır. Unikal memarlıq abidəsi olan bu binanı milyonçu Musa Nağıyev gənc yaşlarında vəfat etmiş oğlu İsmayılın şərəfinə tikdirib. Təməli 1908-ci ildə qoyulan bina 1913-cü ildə tamamlanıb. Tamaşalar oynanılmaqla yanaşı, "Artistlər ittifaqı", "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" 1916-1918-ci illərdə bu binada yerləşib. Bina 1918-ci ilin martında erməni daşnakiarı tərəfindən vəhşicəsinə yandırılıb.

**"Bekkendorfun ümumi teatrı"** Bakının Balaxanı qəsəbəsində yerləşib. Sonralar "Balaxanı klubu", "Balaxanı krujoku" da adlanıb.

**"Forrer sirki"** 1883-cü ildə Teatr meydanında tikilib. Çox hissəsi taxtadan quraşdırılan bina sonradan sökülüb və yerində dördmərtəbəli mülk tikilib.

**"Teatr meydanı"** keçmiş Tağıyev teatrının inzibati giriş qapısı ilə üzbəüz boş meydançaya deyilib.

**"Taurek truppası sirki"** indiki Nizami muzeyinin lojası ilə üzbəüz olub. XIX əsrdə taxtadan tikilib.

Bakıda "Odeon", "Rekord", "Ampir", "Ekspress" salonları da olub. Orada həm kino və həm də teatr tamaşaları göstərilib.

"Mayılov teatrı" Bakıda tikilən teatr binalarının ən əzəmətlisidir. Bu bina xaricdən gətirilmiş layihə əsasında çox qısa müddətdə (29 aprel 1910-27 fevral 1911) tikilib. Məhz opera teatrı üçün nəzərdə tutulub. Hazırda Azərbaycan Dövlət Opera və Balet Teatrı həmin binada yerləşir. Bina bir müddət "Rus operası" kimi tanınıb. Azərbaycan opera truppası bu binaya 1925-ci ilin avqust və sentyabrında köçüb. Uzun illər həmin kollektivə həftədə yalnız bircə tamaşa oynamağa icazə verilib.

"Lalayev pasajı" hazırda "Azərbaycan" kinoteatrının sağ tərəfindəki əzəmətli binanın boyaboy birinci qatına deyilib. Uzun müddət bu bina Bakının növbətçi baqqaliyyə mağazası kimi fəaliyyət göstərib. Həmin binanın daxilində "Qran vio" deyilən kiçik salonda Azərbaycanın müxtəlif teatr dəstələri də çıxış ediblər.

Bakıda ayrıca "Kommersiya klubu", "Dənizçilər klubu" ("Bəhriyyə klubu" və "Morskoy klub" kimi də yazılıb), "Zəhmət klubu" da olub və o binalarda da teatr tamaşaları oynanılıb.

Bu binalardan heç biri 1920-ci ilə qədər Azərbaycan teatr dəstəsinə mənsub olmayıb. Hətta Tağıyev teatrında da Polonskinin rəhbərlik etdiyi teatr truppası binanı yalnız cümə günləri azərbaycanlı teatr dəstələrinə baha qiymətə kirayə verirdi.

Adları çəkilən binaların hamısında müxtəlif teatr dəstələri çıxışlar etmişlər. Bu çıxışlar yalnız binanın kirayə haqqını ödəyəndən sonra mümkün olurdu.

Hazırda Bakıda Akademik Milli Dram Teatrının, Opera və Balet Teatrının, Musiqili Komediya Teatrının, Dövlət Kukla Teatrının, Gənc Tamaşaçılar Teatrının, Dövlət "Yuğ" Teatrının öz binaları var. Dövlət Gənclər Teatrı və Dövlət Pontomima Teatrı binasızdırlar.

1980-ci illərin sonunda istifadəyə verilən Gənc Tamaşaçılar Teatrının və 1998-ci ildə pərdələrini açan Musiqili Komediya Teatrının binaları bir növ çağdaş memarlıq üslubunun prinsiplərində tikilib. Ancaq buna baxmayaraq, səhnənin tərtibi, işıq sisteminin, səhnə texnologiyasının qurumundakı bəsitlik yüksək estetik səviyyəli tamaşalar hazırlamağa imkan vermir. Bu binaların akustika problemi bərbad haldadır, müxtəlif texniki təchizat sistemi zamanın yüksək tələblərinə cavab vermir.

## TEATRIN TƏSİSATLI MƏDƏNİYYƏTİN FAKTINA ÇEVRİLMƏSİ (1919-1920)

Insan cəmiyyətinin istehsalatda, ictimai və mənəvi sahələrdə əldə etdiyi nailiyyətlərin məcmusu olan mədənıyyət tarixi inkişaf prosesi nəticəsində institusional səviyyəyə gəlib çatıb. İnstitusional (latınca "təsisat" deməkdir) mədəniyyət hər hansı ictimai qurum formalarına, münasibətlərin hüquq normalarına malikdir. Teatr institusional mədəniyyətin təsisatı kimi dövlət sisteminə daxil olur. İnstitusional mədəniyyətin başlıca məqsədi ona qədərki dövrdə qazanılmış naliyyətləri hifz və inkişaf etdirməkdir.

Milli səhnə sənətimizdə institusional mədəniyyətin ilkin faktı olan, birinci dəfə dövlət təsisatına keçən teatr bugünkü Akademik Milli Dram Teatrıdır (AMDT). Peşəkar Azərbaycan teatrının tarixi həmçinin məhz AMDT-nin təşəkkül günü kimi hesablanır. Teatrın müxtəlif adları olub və onların hamısı müəyyən tarixi mərhələ ilə, ictimai-sosial proseslə bağlıdır. Növbəti mövzuda bilavasitə bu məsələdən bəhs ediləcək. Ona görə də teatrın adı kitab boyu çağdaş dövrdəki kimi verilib.

1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikası yaradılıb. Siyasi hadisələrlə bağlı olaraq Hökumət bir neçə ay Gəncə şəhərində fəaliyyət göstərib və Bakıya oktyabr

ayında köçürülüb. Elə bu ərəfədə "Müdiriyyət" teatr truppası və əksər yaradıcı şəxslərin bir qüvvədə birləşdikləri dəstə afişa və proqramlarda "Azərbaycan Hökumət Teatrı" sözlərini yazırdı. Lakin hələ dövlət teatrı rəsmi şəkildə öz təsisatına çevirə bilməmişdi. 1919-cu ildə Bakıda mövcud olan teatr truppalarının əksəriyyəti birləşdirilərək "Hökumət Türk Teatrosu" adlandırılıb. Teatr tam şəkildə dövlətin təsisatında olmasa da, bu adla yaradıcılıq fəaliyyəti göstərib, milli dəyərlərə geniş yer ayırmağa çalışıb. Tamaşalar opera teatrında və "Türk ocağı"nda oynanılıb, çünki Tağıyev teatrının yanmış binası hələ bərpa edilməmişdi. Opera teatrı əsasən "Rus operası" kollektivinin ixtiyarında idi. Bu binanın icarədarı Pavel Amiraqo sayılırdı. O, binanı Azərbaycan teatrına kirayə ilə və keyfi istədiyi vaxtda verirdi.

Türk Dövlət Teatrının dövlət təsisatı kimi rəsmi qeydiyyata düşməsi 1919-cu ilin avqustundan başlayıb. Onun rəsmi açılışı isə 1919-cu il oktyabrın 24-də olub.

Teatra direktor Qulamrza Şərifzadə (Abbasmirzə Şərifzadənin qardaşı), müavin isə Zülfüqar bəy Hacıbəyov təyin ediliblər. Məmmədəli Sidqi teatr heyətinin vəkili idi. Müsavat Hökumətinin rəsmi orqanı olan "Azərbaycan" qəzeti 1919-cu ilin sentyabr və oktyabr aylarında teatra işləməyə aktyorlar dəvət edib. Belə elan verilib ki, Dram, Opera və Operetta teatrları dövlətin olacaq. Oktyabr ayının 22-də qəzet aşağıdakı ardıcıllıqla truppaya daxil olmuş siyahısını dərc edib.

**Rejissorlar:** Aleksandr İvanov, Abbasmirzə Şərifzadə və Sidqi Ruhulla (növbəti rejissor).

**Rəssam:** Əzim Əzimzadə.

**Aktrisalar:** Qəmər Topuriya, Yeva Olenskaya, Aleksandra (Şura) Olenskaya, Nataliya Lizma, Məxfurə Yerimakova, Panfiliyia Tanailidi, Leyla xanım.

**Aktyorlar:** Həsən Səbri Abdullazadə, Məhəmmədtağı Bağırov, Ələkbər Hüseynzadə, Xəlil Hüseynov, Hüseynağa Hacıbababəyov, Ağasadıq Gəraybəyli, Rza Darablı, Bağır Cabbarzadə, Əli İslam Dadaşov, Möhsün Sənani (Cəfərov), Q.Mahmudov, Mirabdulla Miriyev (Mirinski), Yunis Nərimanov, Hüseynqulu Sarabski, Sidqi Ruhulia, Mir Paşa Sadıqov, Hacıbaba Şərifzadə, Abbasmirzə Şərifzadə.

Göründüyü kimi, Mirzağa Əliyevin, Hacıağa Abbasovun, Əbülhəsən Anaplının, Murad Muradovun və bir sıra digər tanınmış aktyorların adları siyahıda yoxdur. Onlar Dövlət teatrının tamaşalarında oynasalar da, hələ ki, müstəqil fəaliyyətindən qalmayan "Müdiriyyət"in dəstəsində çalışırdılar. Baş rejissor gah Şərifzadə, gah da Aleksandr İvanov olublar.

Rəsmi açılışına kimi kollektiv 1919-cu ildə S.Lanskoyun "Qəzavat" (4 yanvar. Rejissor Hüseyn Ərəblinski), Təhsin Nahidin "Hicranlar" (6 yanvar. Rejissor Abbasmirzə Şərifzadə), Mehdi bəy Hacınskinin "Sultan Əbdülhəmidin xəli" (6 yanvar. Rejissor Rza Darablı), İsa bəy Aşurbəylinin "Azərbay və Can" (16 yanvar. Rejissor Aleksandr İvanov), "Cəhənnəm" (23 sentyabr. Rejissor Hacıbaba Şərifzadə), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri Cadu" (17 yanvar. Rejissor Abbasmirzə Şərifzadə), "Ağa Məhəmməd şah Qacar" (14 fevral. Rejissor Abbasmirzə Şərifzadə), Mirzə Rza Vaizzadənin "Səyavuş" (4 mart. Rejissor İsmayıl Hidayətzadə), Cəfər Cabbarlının "Ədirnə fəthi" (25 aprel. Rejissor Abbasmirzə Şərifzadə), "Bakı müharibəsi" (17 sentyabr. Rejissor Abbasınirzə Şərifzadə), Nəriman Nərimanovun "Nadir şah" (16 may. Rejissor Abbasmirzə Şərifzadə), Cəfər Bünyadzadənin "Üç yoldaş" (6 iyun. Rejissor Rza Darablı), Namiq Kamalın "Vətən" (23 iyun), Cəlil Məmmədquluzadənin "Ölülər" (4 avqust. Rejissor Mirzağa Əliyev), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (20 avqust. Rejissor Hüseynqulu Sarabski), Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə" ("Bakı uğrunda müharibə və yaxud Nuru paşanın igidliyi" (16 sentyabr. Rejissor Abbasmirzə Şərifzadə) əsərlərinin tamaşalarını, eyni zamanda operalar və operettalar oynayıb.

Teatrın rəsmi açılışı oktyabrın 24-də olub və bu mədəniyyət hadisəsi dörd gün bayram edilib. Dalbadal "Azərbay və Can", Şəmsəddin Saminin "Dəmirçi Gavə" (rejissor Sidqi Ruhulla), "Bakı müharibəsi" və "Bakı uğrunda müharibə" tamaşaları göstərilib. Rəsmi açılışda başda dövlət başçısı Nəsib bəy Nəsibbəyov olmaqla, bütün hökumət üzvləri iştirak ediblər.

İlin sonuna kimi teatr Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (31 oktyabr. Rejissor Aleksandr İvanov), Mehdi bəy Hacınskinin "Yezid ibn Müaviyyə" (4 noyabr. Rejissor Aleksandr İvanov), Cəfər Cabbarlının "Yulduz, yaxud Trablis müharibəsi" (11 noyabr. Rejissor Aleksandr İvanov), Jan Batist Molyerin "Zorən təbib" (6 dekabr. Rejissor Aleksandr İvanov), Vilyam Şekspirin "Otello" (12 dekabr. Rejissor Aleksandr İvanov), İsmayıl Rüstəmbəyovun "Dövlə-tibisəmər" (19 dekabr. Rejissor Sidqi Ruhulla), gündüz və axşam Nəriman Nərimanovun "Şamdan bəy" və Cəlil Məmmədquluzadənin "Ölülər" (26 dekabr. Rejissor Abbasmirzə Şərifzadə) komediya və dramlarını, Üzeyir bəy və Zülfüqar bəy Hacıbəyovların musiqi əsərlərini oynayıb.

Teatr kiçik məzhəkələr və vodevillər də oynayır, repertuar tərtibində bəzən primitivliyə yol verirdi. Hələ tam və sabit repertuar qurulmamışdı. Təzə əsərləri tamaşaya hazırlamağa sanki risk göstərilmirdi. Əsasən əvvəllər dəfələrlə oynanılan pyeslər repertuarda üstünlük təşkil edirdi.

Kollektiv belə sürüşkən ovqatla da 1920-ci ildə fəaliyyətə başlayıb. Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər", "Kimdir müqəssir?", Nəcəf bəy Vəzirovun "Ev tərbiyəsinin bir şəkli" məzhəkələri, "Mən ölmüşəm", "Bizim kirayənişin özünü öldürdü", "Xor-xor" təbdilləri, Mirmahmud Kazımovskinin "Daşım-daşım", İvan Turgenevin "Pulsuzluq", Nadejda Loxmanovanın "Napoleonun ölümü" əsərləri tez-tez oynanılırdı. Bu tamaşalar teatrın yaradıcılıq iqlimində təkanverici rol oynaya bilmirdi.

Aleksandr İvanov romantik səciyyəli "Qaçaqlar" (Fridrix Şiller. 17 yanvar), "Kral Lir" (Vilyam Şekspir. 19 mart), Abbasmirzə Şərifzadə şən ovqatlı "Hacı Qara" (Mirzə Fətəli Axundzadə. 13 fevral), qəhrəmanlıq pafoslu "Dəmirçi Gavə" (Şəmsəddin Sami. 16 aprel), Sidqi Ruhulla əsil traglkomediya siqlətli "Ölülər" (Cəlil Məmmədquluzadə. 27 fevral), melodrama janrında işlənmiş "Bəxtsiz cavan" (Əbdürrəhim bəy Haqverdiyev. 29 fevral), psixoloji zəminli "İntiqam" (Namiq Kamal. 12 mart) tamaşaları ilə kollektivin yaradıcılıq iqlimini mövcud durğunluqdan xilas edə bilmişdilər.

Bu tamaşalarda Abbasmirzə Şərifzadənin Karl Moor və Gavə, Sidqi Ruhullanın Kral Lir və Fərhad, Mirzağa Əliyevin Hacı Qara və Kefli İsgəndər, Əbülhəsən Anaplının Kərəməli və Hacı Bəxşəli, Rza Darablının Şeyx Əhməd rolları yüksək peşəkarlıq səciyyələri və yeni görünən estetik məziyyətləri ilə seçilirdilər.

1920-ci ilin 28 aprelində Azərbaycana Sovet Hakimiyyəti gəlib. İyun ayının 1-də bütün teatrlar milliləşdirilib və Əbdürrəhim bəy Haqverdiyev teatr komissarı təyin olunub. Türk Dram Teatrı yenə Bakıda azərbaycanlıların ən güclü səhnə sənəti kollektivi olub. İl ərzində baş rejissor Kürsüsündə Aleksandr İvanov və Abbasmirzə Şərif zadə bir-birilərini əvəz ediblər. Bir-iki nəfər istisna olmaqla teatrın kollektivinin özəyini əvvəlki aktyorlar təşkil ediblər.

Tədricən ideoloji basqı yaradıcılıq iqliminə təsir göstərməyə başlayıb. İlk vaxtlar sırf dövlət təminatında olan teatr repertuarda ciddi büdrəmələrə yol verib.

1920-ci ilin ən böyük teatr hadisəsi Hüseyn Cavidin əsərlərinin repertuara ayaq açmasıdır. Abbasmirzə Şərifzadənin quruluş verdiyi "İblis" faciəsinin premyerası dekabrın 21-də olub. Əsas rolları Abbasmirzə Şərifzadə (İblis), Kazım Ziya (Vasif), Rza Təhmasib Mirseyfəddin Kirmanşahlı (Arif), Rza Darablı (İbn Yəmin), Şura Olenskaya (Xavər), Məhəmmədtağı Bağırzadə (İxtiyar), Rüstəm Kazımov (Elxan), Möhsün Sənani (Zabit) ifa ediblər.

"İblis" tamaşası ilə Milli Dram Teatrında poetik teatrın təməli qoyulub

## MİLLİ DRAM TEATRININ MÜXTƏLİF ADLARI

Bir daha xatırlatmağa ehtiyac var ki, bugünkü Milli Dram Teatrının tarixi milli peşəkar səhnə sənətimizin yaranması ilə bir gündən götürülüb. Onun fəaliyyəti iki dövrə ayrılır.

**Birinci dövr:** Teatr həvəskarlardan ibarət qüvvələrin, sonralar müxtəlif adlı, lakin peşəkar səciyyəli dəstələrin, mədəni-maarif cəmiyyətlərinin nəzdindəki bölmələrin və truppaların timsalında inkişaf yolu keçib (1873-1919).

**İkinci dövr:** Teatrın təsisatlı (institusional) mədəniyyətin faktı olandan sonraki yaradıcılıq yolu (24 oktyabr 1919-cu ildən bu günə qədər).

Eyni zamanda o da qeyd olunmalıdır ki, teatr yetmiş iki il ərzində (1919-1991) öz adını dəfələrlə dəyişdirmək məcburiyyətində qalıb. Burası da məlumdur ki, Azərbaycan əlifbası XX əsrdə üç dəfə dəyişilib. Ərəb hürufatından latın hərflərinə, ondan kiril hərfləri əsasında düzəldilmiş əlifbaya, ondan isə yenə latın qraflkasma keçilib. Həmin əlifbalarda çıxan Azərbaycan mətbuatı və rusdilli qəzetlər öz informasiyalarında, məqalələrində, resenziyalarında və elanlarında teatrın adını öz dövrünə uyğun şəkildə verib. Bu, gənc teatr tədqiqatçılarında, eləcə də həmin dövrün mətbuatı ilə maraqlanan tələbələrdə çaşqınlıq yarada bilər. Buna görə də Milli Dram Teatrının ad dəyişmələrini geniş açıqlamağa ehtiyac var.

Bakı şəhərində yaranıb fəaliyyət göstərən bu teatr dövlət təsisatına 1919-cu ildə keçib. Bununla da kollektiv **"Hökumət Teatrosu"** adlanıb. Eyni zamanda afişalarda, proqramlarda, qəzet məqalələrində sənət ocağının adı "Azərbaycan Dövlət Türk Teatrosu", "Dövlət Türk Teatrosu", "Dövlət Teatrosu" kimi də yazılıb.

Rəsmi olaraq 24 oktyabr 1919-cu ildən 27 aprel 1920-ci ilə kimi bu adla (adlarla) fəaliyyət göstərən teatrın öz binası olmayıb. Kollektiv hazırladığı tamaşalarını əsasən opera teatrının binasında oynayıb.

Rusiyadan gələn bolşeviklər 1920-ci ilin 28 aprelində Azərbaycanı, təbii ki, birinci növbədə Bakını ilhaq ediblər. Ölkəmiz Azərbaycan Sovet Sosialist Respublikası (ASSR) adlanıb. Bundan sonra Respublika Xalq Maarif komissarlığı nəzdində incəsənət bölməsi yaradılıb. Bölmənin rəhbərliyi dramaturq və səhnə xadimi Əbdürrəhim bəy Haqverdiyevə tapşırılıb. Hökumət Teatrosunun yaradıcı qüvvələrinin böyük əksəriyyəti bu truppada cəmləşiblər. Təzə ictimai-siyasi tələblərlə, həmçinin də təzə mənəvi-əxlaqi ölçülərlə fəaliyyətə başlayan kollektivə yeni ad verilib: "Birləşmiş Dövlət Teatrosu. Müstəqil Azərbaycan Hökumətinin Türk Teatr Truppası" Teatr 1920-ci il mayın 4-də Şəmsəddin Saminin "Dəmirçi Gavə" faciəsi ilə yeni yaradıcılıq mərhələsinə qədəm qoyub.

Tamaşalar Opera Teatrında və fəhlə klublarında (daha çox Mərkəzi Fəhlə klubunda. Hazırkı konstitusiya Məhkəməsinin yerləşdiyi bina) göstərilib. Birləşmiş Dövlət Teatrına opera teatrının kollektivi və müxtəlif millətlərin müvəqqəti teatrları da daxil idilər. Tağıyev teatrı binası 1920-ci ildə rəsmi sənədlə Türk Teatr Truppasına (Milli Dram Teatrına) verilib. Hökumət iki il əvvəl yanmış binanın əsaslı təmirinə və bərpasma başlayıb.

Azərbaycan SSR Xalq Maarif komissarlığının 1 mart 1922-ci il tarixli qərarı ilə Azərbaycan (türk) teatr truppası müstəqil elan edilib. Yəni rus, yəhudi, Ukrayna... truppalarından və rus operası dəstəsindən ayrılıb. Üç nəfərdən, Əbdürrəhim bəy Haqverdiyevdən, Ağa Kərim Şərifovdan və Əzimovdan ibarət repertuar şurası yaradılıb.

Mart ayındakı qərardan bir müddət sonra hökumət rəsmi sənədlə teatrın adını yenə dəyişib. Bu dəfə kollektiv **"Türk Dövlət Teatrosu"** adlanıb. Az müddət keçib və teatra inqilabçı Dadaş Bünyadzadənin adı verilib. Hazırlanan tamaşalar üçün dərc olunan proqramların və afişaların yuxarı hissəsində sənət ocağı belə təqdim edilib: Yoldaş Dadaş Bünyadzadə adına Türk Dövlət Teatrosu.

1922-ci ilin ilk günlərində Birləşmiş Dövlət Teatrı yenidən bərpa edilib. Lakin ciddi cəhdlərdən sonra Azərbaycan truppası öz müstəqilliyini saxlaya bilib və birləşmiş teatrın (rus operası və rus operettası kollektivlərinin) ümumi tabeliyindən çıxıb. Kollektiv özü rəmzi mənada birləşmiş teatr adlanıb, çünki opera və operetta truppaları da onun nəzdində idi. Bu il yanvar ayının 17-də Türk Dövlət Teatrosu öz binasında (Tağıyev teatrında) Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (rejissor Aleksandr İvanov) komediyası ilə pərdələrini açıb. Kollektiv bu binada 1960-cı ilin

avqust ayına kimi çalışıb. Avqustda çağdaş memarlıq üslubunda təzəcə tikilmiş və Füzuli meydanında yerləşən indiki binasma köçüb.

Opera truppası 1925-ci ilin ikinci yarısında Türk Dövlət Teatrosundan ayrılıb. Lakin yenə müstəqil olmayıb və Rus Operasının nəzdinə verilib. Sonralar həmin kollektiv Azərbaycan Dövlət opera teatrı (bir qədər sonra "Balet" sözü də bu ada əlavə olunub) adlanıb.

1938-ci ildə isə opera teatrı truppasının operetta janrına meyilli qüvvələrinin əsasında Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yaradılıb. Teatra Cəlil Məmmədquluzadənin adı verilib.

Göründüyü kimi, bir kollektivin yaradıcılıq zəmini əsasından üç müxtəlif teatr doğulub. Onlar müstəqil yaradıcılıq yolu keçərək formalaşmışlar və öz fəaliyyətlərini indi də davam etdirirlər.

Azərbaycan SSR Xalq Maarif komissarlığının kollegiyası 24 aprel 1923-cü ildə Bakıdakı mövcud teatrların adlarının dəyişdirilməsi barədə qərar verib. Həmin qərardan sonra Rus Operası Teatrı "Böyük Dövlət Teatrı" (BDT), **Dadaş Bünyadzadə adına Türk Dövlət Teatrosu "Dövlət Malı Teatrosu" (DMT),** Rus Dram Teatrı isə "Dövlət Teatrosu" adlandırılıb. Əsilində bu adlar kollektivlərin yaradıcılıq məzmununa deyil, daha çox binalara aid idi.

Növbəti ildə kollektiv bu adla fəaliyyətini davam etdirib: Dadaş Bünyadzadə adına Dövlət Türk Akademik Dram Teatrosu (DTAT). Teatr özünə yeni rəmz-emblem müəyyənləşdirib. Həmin dövrdə mətbuat "teatr" sözünü "teatro" və hətta "tiyatro" kimi yazıb.

Xalq Maarif komissarlığı kollegiyası 1929-cu il oktyabr ayının 21-də teatrın adının dəyişdirilməsi barədə daha bir təzə qərar verib. Dadaş Bünyadzadənin adı yenə saxlanılıb. Lakin DTAT sözlərini "Türk Bədaye Teatrosu" (TBT) deyimi əvəzləyib. "Bədaye" sözü "xudojestvennoye" kəlməsinin (Moskvanın MXAT kollektivi) analoqu kimi götürülüb.

Milli teatrımız 1933-cü ildə özünün yaranmasının 60 illiyini bayram edib. Bu münasibətlə martın 5-də teatrın adının dəyişdirilməsi barədə Azərbaycan Xalq komissarları Sovetinin xüsusi qərarı çıxıb. Həmin qərarda deyilir:

"... Türk Bədaye Teatrının hazınkı zamanda özünün repertuar fəaliyyətini, həmçinin kütləvi-ictimai istiqamətdə işini tamamilə yenidən qurduğunu nəzərə alanda "Bədaye" adı onun indiki haldakı yaradıcılıq mahiyyətini əhatə etmir. Bunları əsas tutaraq ona **"Azərbaycan Dövlət Dram Teatrı" (ADDT)** adı verilsin".

Hökumət həm də Dadaş Bünyadzadənin adının dəyişdirilməsi barədə qərar verib. Azərbaycan Dövlət Dram Teatrı inqilabçı Məşədi Əzizbəyovun adını daşımağa başlayıb. Teatr özünə yeni emblem çəkdirib. Bu, afişa və proqramlarda mütləq ən yuxarı başda çap olunub.

1959-cu ildə Dövlət Dram Teatrı Moskvada keçirilən Azərbaycan Ədəbiyyat və İncəsənəti Dekadasında (ongünlüyundə) böyük sənət nailiyyətləri nümayiş etdirib. Qastrol müddətində kollektivin repertuar siyasəti, romantik və realist aktyor məktəblərinin formalaşması, rejissor üslubunun ciddi təkamül prosesi keçirdiyi SSRİ-nin mərkəzi qəzetlərində çox yüksək qiymətləndirilib. Hətta teatrın baş rejissoru Ədil İsgəndərov SSRİ xalq artisti fəxri adı ilə təltif edilib.

Bunu nəzərə alan Azərbaycan Nazirlər Sovetinin qərarı ilə 16 dekabr 1959-cu ildə teatra "Akademik" adı verilib. Təxminən otuz iki il teatr yaradıcılıq yolunu bu adla inkişaf etdirib: "Məşədi Əzizbəyov adına **Azərbaycan Dövlət Akademik Dram Teatrı"**.

SSRİ Dövləti 1991-ci ildə dağıldı. Azərbaycan Respublikası müstəqilliyin yeni mərhələsinə qədəm qoydu. Bütün sahələrdə, əsasən təsisatlı mədəniyyət və incəsənət müəssisələrində adlar dəiyşdirilməyə başlandı. Bakı şəhər Sovetinin 27 dekabr 1991-ci il tarixli qərarı ilə, "Akademik" sözü saxlanılmaqla, teatrın adı dəyişidirildi. Həmin gündən kollektiv bu adla fəaliyyətdədir: **"Akademik Milli Dram Teatrı"**.

**HÜSEYN CAVİD**
**(25.10.1882-5.12.1941)**

Azərbaycan romantik dramaturgiyasının görkəmli nümayəndələrindən biri Hüseyn Caviddir. Mənzum dram janrının, mütərəqqi romantizının milli ədəbiyyatımızda banisi kimi tanınır. Hələ lap gənc yaşlarından poeziyamızın ən müxtəlif şeir formalarından istifadə edib. Yaradıcılığı forma əlvanlığına, janr zənginliyinə, estetik səciyyələrinə görə möhtəşəmdir. Böyük sənətkarlıqla yazılmış lirik, psixoloji, ictimai-sosial şeirləri, gərgin süjetli, mürəkkəb kompozisiyalı poemaları vardır. Dram janrı yazıçının ədəbi irsinin əsasını təşkiİ edir. Onun ictimai-sosial, fəlsəfi faciələri, lirik-romantik məhəbbət faciəsi, tarixi-siyasi dramları vardır.

Poeziya nümunələri yazınağa gənclik illərindən başlayıb, lakin yaradıcılığının kamillik dövrü 1910-1936-cı illər və 1937-ci ilin bir neçə ayı sayılır.

Hüseyn Abdulla oğlu Rasizadə 25 oktyabr 1882-ci ildə Naxçıvanda doğulub. "Cavid" onun təxəllüsüdür və fars dilində mənası "əbədi" deməkdir. Valideynləri həmin diyarın Şahtaxtlı kəndindəndir, Naxçıvana sonradan köçüblər və Cavid də burada anadan olub. Atası ruhani idi. Özündən başqa dörd qardaşı və üç bacısı olan Hüseyn əvvəlcə ruhani təhsili alıb. On dörd yaşında mollaxananı atıb və həmin dövrdə Naxçıvanda çox məşhur olan "Məktəbi-tərbiyə" təhsil ocağına gəlib. Bu məktəbin təşkilatçısı və əsas müəllimi maarifpərvər yazıçı, şair, teatr xadimi Məmmədtağı Sidqi idi.

Hüseynin icazəsiz və gizlin atdığı bu addım atası Abdulla kişinin xoşuna gəlməyib. O, Hüseyni məktəbə buraxmayıb. Yalnız Məmmədtağı Sidqinin böyük canfəşanlığından sonra Abdulla kişi oğlunun oxumasma razı olub. Hüseyn bu məktəbdə dörd il təhsil alıb və 1898-ci ildə oranı bitirib. Özünün klassik üslubda ilk şeirlərini məktəb illərində "Gülçin" (farsca gül dərən, seçmə, bağban mənaları var) və "Salik" (ərəbcə bir yolu gedən, bir təriqətə mənsub olmaq deməkdir) təxəllüs-imzaları ilə yazıb.

İti zehni, dərin mühakimə qabiliyyəti, incə zövqü olan Hüseyn təhsilini davam etdirmək istəyib. Amma qəfildən göz xəstəliyinə tutulub. Atası onu müalicə almaq üçün Təbriz şəhərinə göndərib. Gələcəyin mütəfəkkir şairi və dramaturqu 1899-1903-cü illərdə Təbrizdə yaşayıb. O dövr üçün mütərəqqi sayılan şəfaxanada müalicə alıb. Eyni zamanda, Talibiyyə mədrəsəsində təhsilini başqa istiqamətdə davam etdirib. Müəllimi Məmmədtağı Sidqidən və böyük qardaşı Şeyx Məhəmməddən öyrəndiyi ərəb və fars dillərinin sayəsində dünya ədəbiyyatı, əsasən klassik şərq poeziyası, fəlsəfə elmi ilə dərindən məşğul olub, yorulmadan sənət incilərini mütaliə edib. Elə burada da ali təhsil almaq qərarını bir daha qətiləşdirib.

İyirmi üç yaşında kifayət qədər ədəbiyyat və həyat təcrübəsi toplamış, dünyanın müxtəlif fəlsəfi cərəyanlarının əsaslarına yiyələnmiş Hüseyn 1905-ci ildə Türkiyənin İstanbul şəhərinə gəlib. Dörd il bu şəhərin məşhur universitetinin (darülfünunun) dil-ədəbiyyat şöbəsinin tələbəsi olub. Çətin şəraitdə mühazirələri böyük diqqət və həssaslıqla dinləyib. Fəlsəfə tarixi ilə daha ciddi məşğul olub. Cavid təxəllüsü ilə lirik, sentimental və fəlsəfi şeirlər yazıb.

Vətənə 1909-cu ildə, "Hüseyn Cavid" kimi qayıdan ədib əvvəlcə Naxçıvanda, sonra Tiflisdə, Gəncədə və Bakıda (1915-ci ildən) müxtəlif məktəblərdə müəllimliklə məşğul olub, şagirdlərə dil-ədəbiyyat fənnini tədris edib. Arada Bakını müvəqqəti tərk edən şair-dramaturq 1917-ci ildə yenə Bakıya qayıdıb və haqsız yerə "vətən xaini" damğası ilə həbs olunana qədər burada yaşayıb.

Yaradıcılıqla ciddi məşğul olan Hüseyn Cavid çoxlu pyeslər və şeirlər yazıb, kitablar nəşr etdirib. Lakin onun səhnə əsəri Bam şəhərində ilk dəfə 1920-ci ilin dekabrında oynanılıb. Bundan bir il əvvəl isə Aşqabad şəhərindəki azərbaycanlılardan ibarət teatr həvəskarlarının truppası Cavidin iki əsərini oynayıb.

1937-ci ildə şəxsiyyətə pərəstişin tüğyan etdiyi dövrdə şair-dramaturqu həbs ediblər. Ona iş kəsilib və "cəzasını" çəkmək üçün Sibirə sürgün edilib. Məşəqqətli şəraitə, dəhşətli şaxtalara,

dustaqlara göstərilən qeyri-insani münasibətlərə dözməyən Hüseyn Cavid 5 dekabr 1941-ci ildə Sibirin İrkutsk şəhəri yaxınlığındakı həbs düşərgəsində dünyasını dəyişib.

Uzun illər məzarının yeri də bilinməyən Hüseyn Cavidin qəbri 1982-ci ildə Bakıya gətirildi. Buradan isə Naxçıvana aparılaraq doğma vətənində torpağa tapşırıldı. Məzarının üzərində möhtəşəm sərdabə ucaldılıb.

* * *

Bəzi mənbələrə görə, Hüseyn Cavidin ilk dram əsəri "Balaxanı yollarında" pyesidir. Lakin həmin əsər əldə deyil və avtoqrafı olmadığına görə onun "Ana"dan əvvəl yazıldığını dəqiq söyləmək çətindir. Buna görə də "Ana" əsəri azərbaycanca yazılmış ilk mənzum dram sayılır. Şair-dramaturq həmin səhnə əsərini 1910-cu ildə tamamlayıb. Mövzusu Dağıstan həyatından alınıb. Dramın qəhrəmanı Səlma ana obrazının timsalında mərdlik, mənəvi nəciblik, insani sədaqət duyğuları tərənnüm olunub. "Ana" dramı ilk dəfə 1913-cü ildə Tiflisdə çap edilib.

"Maral" faciəsi nəsrlə yazılıb və 1912-ci ildə tamamlanıb. Mövzusu "Ana" kimi Dağıstan həyatından götürülmüş bu dram 1917-ci ildə Bakıda kitab şəklində çap edilib. Hüseyn Cavidin bu əsərində qadın azadlığı (Humay və Maralın mürəkkəb xarakterləri timsalında), feodal-burjua düşüncə tərzinin naqis tərəfləri, cəmiyyətdə yenilik duyğuları (Cəmil bəy) ilə mühafizəkar köhnəlik (Turxan bəy) arasındakı barışmaz mübarizənin reallıqları dramaturji konfliktin mərkəzində durur.

Növbəti pyesi "Şeyx Sənan"ı nəzmlə işləyən dramaturq onun üzərində 1912-1914-cü illərdə Naxçıvanda və Tiflisdə yaşayarkən iki il işləyib. Faciə 1914-cü ildə tamamlanıb. Əsər lirik-dramatik məhəbbət faciəsi janrında yazılıb. Əvvəlcə Bakıda çıxan müxtəlif qəzetlər faciədən parçalar veriblər. Ayrıca kitab şəklində "Açıq söz" qəzetinin mətbəəsində çap olunub (1917).

"Şeyx Sənan" faciəsində dramaturq dünyagörüşü, məhəbbətə münasibəti panteist fəlsəfi ideyaların zəminində formalaşmış Şeyx Sənanın lirik-romantik, faci və mürəkkəb psixoloji obrazını yaradıb. Dramaturq hadisələri bəşəri fəlsəfi dəyərlər axarına salmaq məqsədilə Şeyx Sənanın sevgilisini xristian, gürcü qızı Tamara (Xumar) ilə verib. Müsəlman övladının xristian qızına aşiq olması klassik Şərq poeziyasında çox və geniş işlənib. Cavid isə bu mövzunu öz qəhrəmanı Şeyx Sənanın faciəvi taleyi fonunda təsvir etməklə onu ideallaşdırmır. Əksinə, real həyat fəlsəfəsi, qəlbi humanist insani duyğularla çırpman canlı məhəbbət aşiqi obrazı yaradıb.

Hüseyn Cavid nəsrlə yazdığı "Şeyda" dramını 1911-1912-ci illərdə tamamlayıb. Hətta "Ana" dramı kitabının girişində dramaturqun "Rəmzi" pyesi də olduğu göstərilib. Xatırladım ki, "Şeyda" pyesinin "Rəmzi" və "Nakam" adları da var. Lakin dram son dəfə 1916-cı ildə redaktə edilib və elə həmin dövrdə də kitab şəklində buraxılıb. Buna görə də pyesin yazılma tarixi həmin il göstərilib və göründüyü kimi, bu, yanlışdır. "Şeyda" dramında həm cəmiyyətin sosial ziddiyyətləri, həm də ayrı-ayrı fərdlərin dünyagörüşlərindəki, mənəviyyatlarındakı təzadlar konfliktin özəyini təşkil edir. Fəhlə və sahibkar münasibətləri fonunda mürəkkəb ictimai-sosial mühitin canlı mənzərəsmi yaradan dramaturqun romantik azadlıq soraqlı Şeyda Rəmzi, anarxist mövqe tutan mürəttib Qara Musa, cəmiyyətin real tipi Məcid əfəndi obrazları milli dramaturgiyamızda yeni xarakterlərdir.

"Uçurum" faciəsi nəzmlə işlənib. Dramaturq əsəri 1917-ci ildə bitirib, lakin kitab şəklində 1926-cı ildə nəşr olunub. Hüseyn Cavidin bu əsəri romantik ruhlu ailə faciəsi janrında yazılsa da, mahiyyəti və fəlsəfi fikir dərinliyi ilə güclü ictimai-sosial xarakter daşıyır. Hadisələr İstanbulda baş verir. Dramaturq fransız məişətini, ailə-əxlaq münasibətlərini kor-koranə təqlid etmələrinin müqabilində türklərin üzləşdikləri mənəvi-psixoloji faciələri qələmə alıb. Bu əsərdə Cavid yaradıcılığı üçün yeni olan Göyərçin, Uluğ bəy, Anjel, Cəlal, Yıldırım kimi maraqlı dram obrazları vardır.

Hüseyn Cavid 1918-ci ildə yaradıcılığı üçün çox əhəmiyyətli olan, onun şah əsərlərindən sayılan "İblis" mənzum faciəsini tamamlayıb. Hərb və insanlığın fəlakəti, savaş və humanizının müsibəti problemlərinə Şərq fəlsəfi düşüncə tərzi əsasında yanaşan dramaturqun növbəti səhnə əsəri

ilk növbədə romantik faciədir. Cavid hərb aparan hansısa dövlətin siyasətini deyil, bütövlükdə müharibənin faciələrini, iblisliyin insanlığı məhvə sürükləməsini mürəkkəb dramatik kolliziyalarda, psixoloji və fəlsəfi təzadlarla oxuculara çatdırıb.

"İblis" faciəsi Hüseyn Cavidin mübahisəli və ədalətsiz tənqidlərə ən çox məruz qalan əsərlərindəndir. Dramaturq İblis obrazının müqabilində filosof ruhlu Arif, ağsaqqal İxtiyar şeyx, məsum şəfqət bacısı Rəna, türk zabiti Vasif, ərəb zabiti İbn Yəmin surətlərini yaradıb. Onların müxtəlif dünyagörüşlərinin toqquşmasında iblislik ideyası estetik kateqoriya kimi kəsərli görünür. Faciənin əsas ideya yükünü, dramaturq qayəsini əsərin sonunda İblisin dili ilə söylənilən bu misralar dərindən əks etdirir: "İblis nədir? - Cümlə xəyanətlərə bais... Ya hər kəsə xain olan insan nədir? - İblis!.."

"Afət" dramatik faciəsini Hüseyn Cavid İstanbulda oxuyarkən yazıb. Lakin üzə çıxarmayıb və 1917-1920-ci illərdə əsər üzərində yenidən işləyib. Bir il sonra isə "Afət"in son variantı Akademik Milli Dram Teatrına təqdim olunub. Bu pyes ruhən, mövzu və problematika baxımından ədibin "Uçurum" faciəsinə yaxın və doğmadır. Fransız aristokratiyasının kor-koranə təqlidi, fransız əxlaq normalarının türk gəncliyinin mənəviyyatına vurduğu zərbələr "Afət"də də ictimai-sosial konfliktin əsasında qoyulub. Lakin dramaturq füsunkar Afət, mühərrir (jurnalist) Özdəmir, məsum Alagöz, məğrur Altunsaç, qadınları riyakarlıq toruna salmaqda mahir olan Doktor Qaratay, sadə qəlbli, həyatda pərişan görünən Ərtoğrul surətlərini yeni ifadə vasitələri ilə zənginləşdirib.

Məhəmməd peyğəmbər obrazını milli dramaturgiyamızda ilk qələmə alan Hüseyn Cavid olub. O, "Peyğəmbər" mənzum dramını 1922-ci ildə yazıb. Əsər həmin il və 1923-cü il-də "Mədəni-maarif" jurnalının müxtəlif saylarında çap edilib. İştirakçılar (Əşxas) verilməyən pyes dörd pərdədən ibarətdir. Hər pərdədə Məhəmməd peyğəmbərin həyatının müxtəlif tarixi dövrü verilib. Buna görə də həmin pərdələr Bisət (göndərmə, peyğəmbərin xalqı islam dininə çağırmağa hazırlaması), Dəvət (islam dinini qəbula dəvət), Hicrət (köçmə, Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə getməsi) və Nüsrət (zəfər, Allahın köməyi ilə nail olmaq, peyğəmbərin islamı qəbul etdirməsinin sonuncu mərhələsi) adlanır. Cavid poeziyasının fəlsəfi qüdsiyyəti, Cavid dramaturji təfəkkürünün poetik hüsnü yeni bədii məziyyətlərlə "Peyğəmbər" dramında da təcəssüm tapıb. Məhəmməd peyğəmbər obrazı idealizədən uzaqdır. Dramaturq onu öz ideyası uğrunda mətin mübariz, qüdrətli idraka malik, möhtəşəm zəka sahibi olan real insan, dahi tarixi şəxsiyyət kimi təsvir edib.

Hüseyn Cavid tarixi dram janrında "Topal Teymur" adlı kamil səhnə əsəri yaradıb. Əsərin mövzusu XIV əsrin iki nəhəng hökmdarı - teymurilər imperiyasının banisi, Orta Asiya hökmdarı Əmir Teymurun və Türkiyə sultanı Yıldırım Bəyazidin apardıqları axırıncı qanlı müharibədən (1402) götürülüb. "Topal Teymur" dramındakı Şair Girmani müəyyən mənada Hüseyn Cavidin özüdür, onun ideyalarının, insanlıq, hökmdarlıq, məhəbbət, ülviyyət, mərdlik duyğularının tərənnümçüsüdür. Xalq oyun-tamaşalarındakı liliput oyunçularının estetikası əsasında işlənmiş Cücə personajı dramaturqun kəskin satirasının və kinayəli sarkazmının tərənnümçüsüdür.

"Knyaz" mənzum faciəsi Hüseyn Cavidin inqilabi mövzuda yazdığı dramlar cərgəsinə daxildir. Əsər ədəbiyyatda və Akademik Milli Dram Teatrının bəzi afişa və proqramlarında "Dəli knyaz" adı ilə də verilib. Pyesin mövzusu 1920-ci illərin əvvəllərində Gürcüstan həyatından götürülüb. Hələ Almaniyanın Berlin şəhərində gözlərindən müalicə alanda bu ideya dramaturqu düşündürüb. Bunun üçün şairin "Azər" poemasının "Mühacirlər yuvası" (1926-cı il) bölümünü xatırlamaq kifayətdir. Lakin Cavid növbəti faciəsini 1929-cu ildə bitirib. Milliyyətcə gürcü olan, inqilabi ideyalar uğrunda çarpışan Anton xarakteri psixoloji dramatizmi, Knyaz surəti ehtiraslı coşğunluğu, çılğın romantizmi, Jasmen obrazı ehtiraslarının əsirinə çevrilməsi və kinto personajı milli gürcü koloriti, şən və koloriti yumoru ilə faciəyə bədii təravət, dramaturji əlvanlıq veriblər.

Dramaturqun növbəti mənzum faciəsi beş pərdədən ibarət "Səyavuş"dur. Müəllifin 1932-ci ildə tamamladığı möhtəşəm dram əsərinin mövzusu şərqin mütəfəkkir şairi Əbülqasim Firdovsinin "Şahnamə" mənzum epopeyasındakı "Dastani-Səyavuş" poemasının məşhur süjetindən götürülüb. "Azər-nəşr" tərəfindən 1933-cü ildə çap edilmiş "Səyavuş" dramında görkəmli İran padşahı

Keykavusun, Suriya padşahının qızı, Keykavusun arvadı Südabənin, Turanın böyük hökmdarlarından Əfrasiyabın, əfsanəvi pəhləvan Rüstəm Zalın, Əfrasiyabın qardaşı, Turan pəhləvanı Gərşivəzin, Əfrasiyabın ağıllı sərkərdəsi, xeyirxah insan Piranın xarakterləri yüksək sənətkarlıqla qələmə alınıb. Elə məhz buna görə və bir də qədim süjetin çağdaş ictimai-siyasi motivlər, mənəvi-əxlaqi dəyərlər səviyyəsində işlənməsi baxımından "Səyavuş" faciəsi həm Cavidin, həmçinin milli dramaturgiyamızın incilərindən, orijinal bədii nümunələrindən sayılır.

Hüseyn Cavid 1935-ci ildə yenə Şərq klassik poeziyasının dahilərindən birinə müraciət edib. Bu dəfə o, mütəfəkkir fars şairi Ömər Xəyyamın həyatına müraciət edərək "Xəyyam" adlı dramını yazıb. Dram 1935-ci ildə keçirilən pyeslər müsabiqəsində üçüncü mükafata layiq görülüb. Filosof-mütəfəkkir Xəyyamın yaradıcılığı və keşməkeşli həyatı Hüseyn Cavidi gənc yaşlarından maraqlandırıb. Dramaturq rübai ustasının on altı müxtəlif poetik nümunəsini farscadan əruzun müxtəlif bəhrlərində dilimizə çevirərək öz əsərinə daxil edib. Əsərdə müəllif ideyanın mahiyyətinə uyğun olaraq, müxtəlif psixoloji hadisələrin təsvirində Xəyyamın poetik nümunələrindən iqti-baslar edib. Həmin iqtibaslar Xəyyamın həyat, insanlıq, məhəbbət, xeyirxahlıq fəlsəfi düşüncələri ilə səsləşir, dramatizjmi gücləndirir. İlk dəfə 1963-cü ildə çap edilmiş dramda Xəyyamla yanaşı, dövrünün böyük diplomatı Xacə Nizam (Nizamülmülk Əbu Əli Həsən ibn Əli), ismaililər hakimiyyətinin banisi Həsən Sabbah, İran Səlcuqlar sülaləsinin ikinci hökmdarı Alp Arslan, Alp Arslanın oğlu, səlcuqların üçüncü hakimi Məlikşah Cəlaləddin, Abbasiyə xilafətinin iyirmi yeddinci xəlifəsi Müqtədbillahın (Abdulla ibn Əhməd) maraqlı bədii surətlərini yaradıb. Eyni zamanda bədii təfəkKürün məhsulu olan Sevdanın (Xəyyamın sevgilisi) canlı xarakterini qələmə alıb.

"İblisin intiqamı" beşpərdəli dramını Hüseyn Cavid 1937-ci ilin martında bitirib. Bu əsər müəyyən mənada dramaturqun "İblis" faciəsinin davamıdır. "İblis" faciəsində olan Iblis, Arif, Rəna obrazları "İblisin intiqamı"nda da verilib. Dram əsəri Cavidin həyat yoldaşı Müşkünaz xanımın köçürdüyü əlyazması əsasında ilk dəfə Hüseyn Cavidin seçilmiş əsərlərinin dördüncü cildində (1985) çap olunub. Pyes mürəkkəb tarixi şəraitdə, yəni İtaliya və Yaponiyanın 1936-1937-ci illərdə faşist dövlətlərinin blokunu yaratmağa səy göstərdikləri bir zamanda yazılması və sülhü təbliğ etməsi ilə çox dəyərlidir. Cavidin bu əsərdəki dili əvvəlki dram əsərlərinin dilindən sadəliyi, şirəliliyi, çağdaş Azərbaycan ədəbi dilinə yaxınlığı ilə seçilir.

Dahi dramaturqun təxminən 1930-1932-ci illərdə yazdığı "Telli saz" dramı itib. Dramaturqun qızı Turan Cavidin köməkliyi ilə əsərin süjetini bərpa etmək mümkün olub. Onun "Xəyyam" faciəsi ilə bir dövrdə yazdığı "Şəhla" pyesi də hələlik tapılmayıb.

Hüseyn Cavid dram əsərləri teatrlarımızda ən çox tamaşaya qoyulmuş dramaturqlardandır. O, milli poetik teatrın banisi sayılır.

## CƏFƏR CABBARLI
## (22.3.1899-31.12.1934)

Azərbaycan Sovet dramaturgiyasında realizmın banisi Cəfər Cabbarlı sayılır. Fitri istedad sahibi olub və bədii yaradıcılığa çox erkən yaşlarından başlayıb. Əvvəlcə satirik və lirik şeirlər, kiçik hekayələr yazıb. Dramaturgiya ilə daha ciddi və müntəzəm məşğul olub. Milli dramaturgiyamıza təzə mövzular gətirib, yeni dövrün ən müxtəlif ictimai-sosial təbəqələrini təmsil edən zəngin xarakterlər silsiləsi yaradıb. Bu janra möhtəşəm peşəkarlıq səciyyələri aşılayıb. Cəfər Cabbarlı bədii tiplərin dramaturji təsvirində əvəzsiz olub. Qızğın dramaturji fəaliyyətlə yanaşı, kinossenarilər yazıb. Teatrda və kino sənətində rejissor kimi də çalışıb, Vilyam Şekspirin "Hamlet" və "Otello" faciələrini, Aleksandr Afinogenovun "Qorxu" dramını, Pyer Bomarşenin "Fiqaronun toyu" komediyasını dilimizə tərcümə edib. Bəzi pyes, şeir və məqalələrini "Cabbarzadə" soyadı ilə yazıb.

Cəfər Qafar oğlu Cabbarlı 1899-cu il mart ayının 22-də Bakı quberniyasının Xızı kəndində (hazırda rayon mərkəzidir) kasıb ailədə doğulub. Kömürçülüklə güzəran quran Qafar kişi gözlərinin nurunu itirəndən sonra acı yoxsulluğa düçar olan ailə məcburiyyət qarşısında Bakıya köçüb. Cəfərin üç yaşı olanda atası dünyasını dəyişib. Külfəti idarə etməyin ağırlığı anası Şalıbikənin üzərinə düşüb. O, imkanlı ailələrin paltarlarını yuyub, çörək bişirib və oğluna dini savad vermək istəyib.

Şahbikə arvad əvvəlcə Cəfəri kiçik yaşlarında molla məktəbinə verib, lakin sonra flkrini dəyişərək onu Bakıdakı 7 saylı türkrus (rus-tatar) məktəbinə qoyub. Cəfər 1914-cü il-də 3 saylı ali ibtidai məktəbə daxil olub və üç il orada təhsil keçib. Elə ilk pyesini də bu dövrdə qələmə alıb. Qısa vaxtda dramaturq kimi şöhrətlənib tanınan və əsərləri müxtəlif teatr truppalarında tamaşaya qoyulan Cəfər Cabbarlı təhsilini artırmaq məqsədilə 1917-1920-ci illərdə Bakı Politexnik Texnikumunda (Sənaye Məktəbində) təhsil alıb. Hətta iyirminci illərin əvvəllərində Milli Dram Teatrının repertuarında bir neçə əsərinin oynanılmasma baxmayaraq, Azərbaycan Dövlət Universitetinin Şərq və tibb fakültələrində mühazirələr dinləyib, Bakı Teatr Məktəbində sırf səhnə təhsilinə yiyələnib.

Cəfər Cabbarlı 1920-ci ilin ikinci yarısından "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində ədəbi işçi və tərcüməçi vəzifələrində çalışıb. 1929-cu ildən isə Milli Dram Teatrında ədəbi hissə müdiri işləyib. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilib.

Görkəmli dramaturq 31 dekabr 1934-cü ildə ürək çatışmazlığından qəfildən vəfat edib. Məzarı Fəxri xiyabandadır.

Bakıda və Xızıda ev muzeyləri, müxtəlif şəhərlərdə adına küçələr, kinoteatrlar var. Azərbaycan Dövlət Teatr Muzeyi, İrəvan Dövlət Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, "Azərbaycanfilm" kinostudiyası Cəfər Cabbarlının adını daşıyır.

Özünün sağlığında heç bir dramı kitab şəklində çap olunmayan Cəfər Cabbarlının ilk səhnə əsəri "Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş" pyesidir. Melodrama janrında işlənmiş bu əsər 1915-ci ildə tamamlanıb. Birinci qələm təcrübəsi olmasma baxmayaraq, pyes janrının estetik prinsipləri baxımından bitkin təsir bağışlayır. Qadın azadlığına çağırış, cəhalətin, nadanlığın tənqidi, primitiv feodal düşüncəsinin sərt ifşası milli dramaturgiyamızda yeni olmasa da, Cəfər Cabbarlı mövzuya müstəqil və aydın baxım bucağından yanaşması ilə seçilir. Dramaturgiyamızda ilk dəfə qələmə alınan qoçu surətləri Qurban və Camal, tələbələr Səriyyə və Hüsniyyə, Rüstəm, Səriyyənin anası Çimnaz, Çimnazın dayısı Həmzə kişi maraqlı bədii personajlardır.

Dramaturqun ikinci dram əsəri "Solğun çiçəklər" pyesidir. Cəfər Cabbarlının 1917-ci ildə tamamladığı dramı ailə-məişət mövzusuna həsr olunub. Konfliktin özəyində var-dövlət və məhəbbət məsələlərinin qarşılaşdırılması qoyulub. Cəmiyyətdə mövcud olan naqis əxlaq normaları, ictimai-siyasi bərabərsizlik, mənəvi paklığa çağırış, aldadılıb təhqir olunmuş məhəbbət duyğularının faciəvi lirizmi, Saranın daxili ülviyyəti və hüzünlü taleyi dramaturji hadisələrin mahiyyətini təşkil edir. Saf qəlbli, xeyirxah duyğulu Əbdül, rəhmdillikdən uzaq, xəbis, riyakar ana və bala Gülnisə ilə Pəri, cəmiyyətin burulğanlı hadisələrində mənəvi tarazlığını itirən, daxili qüruru sınan Bəhram gərgin və psixoloji əsaslı dramaturji kolliziyalarda təsvir ediliblər. Pyesdə iştirakçı az olsa da, dram əsəri kimi klassik prinsiplərlə yazılıb, beş pərdədən ibarətdir.

Əldə olan iki müxtəlif və bir qədər fərqli əlyazısı nüsxəsindəki qeydlərə əsasən demək olar ki, Cəfər Cabbarlı "Nəsrəddin şah" dramını 1916 və 1918-ci illərdə yazıb. Pyes tarixi janrdadır və beşpərdəli, yeddi şəkillidir. On doqquzuncu əsrin sonlarında İranda baş verən ictimai-siyasi hadisələrdən bəhs edir. Dramaturji konfliktin mərkəzində 1848-1896-cı illərdə İrana şahlıq etmiş, özü Qacarilər sülaləsindən olan Nəsrəddin şahın hakimiyyətindən və terrorçu təşkilatın üzvü Mirzə Rza Kirmani tərəfindən qətlə yetirilməsindən bəhs edilir. "Nəsrəddin şah" dramında adları çəkilən və Nadir, Sitarə, Rəhim xan, Cəmaləddin Əfqani, Mirzə Mülküm xan, Mirzə Təqi xan, Mirzə Sadıq xan kimi tarixi şəxsiyyətlərin bədii obrazları ilə bərabər, dramaturqun təxəyyülünün məhsulu olan koİoritli personajlar da var. Cəfər Cabbarlının bu pyesi tarixi dram janrının estetik prinsiplərinə uyğun gəlsə də, əsərin dərin qatlarında müəllifin romantizinə və monumentalizmə meyilini sezmək mümkündür.

Cəfər Cabbarlı "Nəsrəddin şah"ın birinci variantından sonra bir-birinin ardınca XX əsrin ikinci onilliyinin müxtəlif tarixi hadisələrindən bəhs edən "Trablis müharibəsi" ("Yulduz, yaxud Trablis müharibəsi". 1917), "Ədirnə fəthi" ("Ənvər bəyin Ədirnə fəthi". 1917), "Bakı müharibəsi" (1918-1919) dramlarını yazıb.

Trablis bir məkan kimi Liviyanın şimali-qərb hissəsindəki Tripolitaniyanın əvvəlki adıdır. Hadisələr burada və İstanbulda, onun ətrafındakı dağlarda baş verir. Cəfər Cabbarlı pyesin remarkasında yazıb: "Trablisdə türklərlə italyanlar arasında olan hərbi təsvir edir". Trablis şəhəri uğrunda gedən siyasi mübarizələr, siyasi münaqişələr və müharibə fonunda dramaturq vətənpərvər Ramizin və sədaqətli Yulduzun məhəbbət macəralarını, sevgi ülviyyətinin tükənməz qadirliyini təsvir edib. İki pak gəncin sevgisinə qarşı riyakar, rəzil və həqarətli duyğularla yaşayan Harisin fitnəkarlığı, rəzalətli əməlləri qoyulub. Haris, Yulduz, Ramiz ÜÇlük süjetində dramaturq mürəkkəb insani münasibətləri və ziddiyyətli mənəvi-əxlaqi problemləri dramaturji münaqişələrin mərkəzinə çəkib. Cəfər Cabbarlı öz pyesində Ramiz və Yulduz surətlərini lirik-dramatik planda işlədiyi halda, Haris obrazını psixoloji faciə janrının estetik tələbləri əsasında qələmə alıb. Pyesdə həmçi-nin müəyyən psixoloji yük daşıyan maraqlı dramatik personajlar (Xalid, Şəmsa, İzzət paşa, Cinner, Şüeyb, Sənusi) da vardır.

Fikir və ideyanın bədii təsvirinə, hərb və bəşər, sevgi və həyata inam, ləyaqət və vicdan problemlərinin dramaturji gərginliyi baxımından "Ədirnə fəthi" əsəri "Trablis müharibəsinin mənəvi davamı təsiri bağışlayır. Dramaturqun janr təyininə görə bu pyes "faciyeyi-inqilabi" əsərdir. Mövzu Birinci Dünya müharibəsindən götürülüb və əsas ideyanın mayasında, dramaturqun ali məqsədinin məğzində vətənpərvərlik duyğularının müqəddəsliyinin, xalqa, torpağa məhəbbətin tərənnümü, milli qürurun qüdsiyyəti durur. Dramaturq belə mürəkkəb dramaturji kompozisiyanı bilməyərəkdən doğma bacısı Zöhrəyə aşiq olan Xalidin müdhiş məhəbbətinin faciəli aqibətini göstərən hüzünlü süjet xətti ilə məharətlə əlaqələndirib. Bununla da janrın dramaturji gərginliyi artıb və İnci, Kamal, Şükri paşa, Nazim paşa, Molla Sübhan, Şeyxülislam obrazla-rının ictimai, sosial və psixoloji təsvirlərinin dramaturji mahiyyətləri daha da dərinləşib.

Erməni daşnakiarının 1918-ci ilin martında Bakıda, eləcə də Azərbaycanın müxtəlif bölgələrində törətdikləri qanlı faciələrdən bəhs edən çoxlu bədii əsər, o cümlədən bir neçə pyes yazılıb. Onların arasında Cəfər Cabbarlının "Bakı müharibəsi" dramı bədii cəhətdən daha sanballı təsir bağışlayır. Dramaturq bu pyesi yazmağa 1918-ci ilin sonlarında başlayıb və onu 1919-cu ilin birinci yarısında tamamlayıb. "Bakı müharibəsi"nin mətni əldə yoxdur. Lakin ilk dəfə 1919-cu ildə oynanılan tamaşanın proqramından və kiçik qəzet məqalələrindən bilinir ki, dram vətənpərvərlik ruhunda yazılıb. "Bakı müharibəsi" pyesi həm xalqımızın başına açılan faciəvi müsibətləri, həm də qəhrəmanlıq ideyalarını mürəkkəb vəziyyətlərdə bədii reallıqla təsvir edir.

Konfliktin kəskinləşməsində müstəsna rol oynayan tarixi hadisənin fonunda Cəfər Cabbarlı Səlim bəy, Səməd, Tamara, Styopa, Rəhim bəy, Ziya, Mosul paşa, Fəridə, Səfər, Atabekyan, Avanes, Əhməd, Nuru paşa, Tofiq bəy, Pyotr kimi müxtəlif ruhlu bədii tiplər yaradıb.

Cəfər Cabbarlı rolmantik ruhlu "Aydın" faciəsini 1919-cu ildə bitirsə də, onun bədii tutumuna sonralar da əl gəzdirib. Cəmiyyətin mövcud ictimai və əxlaqi qanunlarına qarşı üsyankar harayın faciəvi zəmində təsvirinə həsr olunan bu dram milli dramaturgiyamızda faciə janrının yeni mərhələsinin başlanğıcı kimi də xarakterikdir.

Məqsəd və məramı bir qədər reallıqla səsləşməyən, bəşəriyyətin nicatı barədə fikir dünyası bir qədər dumanlı görünən Aydın üsyankar xarakterinə görə yenidir, zaman baxımından tipik və orijinaldır. Mürəkkəb psixoloji situasiyalarda, gözlənilməz dramatik toqquşmalarda, müxtəlif sosial tiplər kimi qələmə alınmış Gültəkin, Dövlət bəy, Surxay, Böyükxanım, Balaxan, Mirzə Cavad, Novruz bəy, Susanna, Pirqulu, Səlim, Qulam milli dramaturgiyamızda təzə səhnə surətləri təsiri bağışlayırlar. Çünki Cəfər Cabbarlının xarakter yaratmaq, tip təsvir etmək bacarığı "Aydın" dramında yeni səpkidə özünü büruzə verib. Dramaturq bu faciəsində məhəbbət xəttini sırf siyasi-ictimai hadisələrlə psixoloji dürüstiüklə bağlaya bilib.

Getdikcə daha aydın hiss olunurdu ki, Cəfər Cabbarlı özünün düşüncə və fikirlərini, fəlsəfi və estetik həyat qənaətlərini ideal qəhrəman timsalında canlandırmaq üçün yeni-yeni dramaturji fəndlərə əl atır, təzə psixoloji münasibətləri mürəkkəb konfliktlərdə sınaqdan çıxartmağa çalışır. Bu baxımdan ədibin 1922-ci ildə tamamladığı, lakin bir il sonra tamaşaya qoyulan "Oqtay Eloğlu" dramı xarakterikdir. Cəfər Cabbarlı bu pyesində daha aydın sosial mövqeyi olan, milli səhnə sənətinin tərəqqisi yolunda apardığı dönməz mübarizəni həyat amalına çevirən, iradə və mətanətcə Aydına nisbətən daha dözümlü görünən Oqtay surəti yaradıb. Belə bədii təqdimatda dramaturqun maarifpərvərlik ideyaları daha məzmunlu və daha sanballı görünür. Digər tərəfdən, dramaturq "Oqtay Eloğlu" əsərində oxuculara və tamaşaçılara cəmiyyətin yeni tiplərini - zavallı, eşqi yolunda sarsıntılara və hətta xəyanətə məruz qalan Firəngiz, ictimai-əxlaqi rəzilliyin qurbanı olan Sevər, əqidəsizliyi həyat amalına çevirən miskin Mazandaranski, Şalıqulu, Şəkinski, səhnəmizdə milli aktrisa yoxluğunun yaratdığı acınacaqlı vəziyyətin real təmsilçisi Tamara kimi həyati, məzmunlu, dramatik tutumlu obraz-xarakterlər yaradıb.

Cəfər Cabbarlı "Od gəlini" dramının üzərində bir neçə il işləyib. Əsərin məşqlərinə 1927-ci ildə başlanıb, lakin tamaşa 1928-ci ildə hazır olub. Müəyyən mənada tarixi qəhrəmanlıq dramı janrında işlənən əsər mövzunun estetik həllinə görə tamamilə yenidir və pyes Cəfər Cabbarlımn yaradıcılığında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilib. Dramın qəhrəmanı Elxan müəyyən mənada tarixi şəxsiyyət olmuş, ərəb istilaçılarına qarşı rəşadətli mübarizə aparmış sərkərdə Babəkin (795-838) prototipidir. Amma dramaturq bundan bir bədii vasitə kimi istifadə edərək romantik-psixoloji, real-dramatik faciə qəhrəmanının xarakterini yaradıb. Elxanın cəsurluğu, igidliyi və rəşadəti islam ideyalarının təbliğatçısı Aqşinin mürəkkəb obrazı ilə üzləşmədə daha canlı görünür. Elxanın sevgilisi, məhəbbətində paklıq və qüdsiyyəti ləyaqətlə qoruyan Solmaz, istilaçılara qarşı döyüşlərdə məsləklərindən dönməyən Qorxmaz, Dönməz, Toğrul, Gülgün, Altay, İldırım, Sönməz, vətənin müdafiəsi uğrunda mübarizəyə qoşulmaqda psixoloji sarsıntılar keçirən Yanardağ, maraqlı təsir bağışlayan Oddamdı, qəddar, qaniçən Əbu Übeyd, puç mənəviyyatlı, miskin Altunbay, riyakar Rəbi obrazlarının bədii təsviri "Od gəlini" faciəsinə möhtəşəm monumentallıq gətirib. Pyesdə konfliktin mahiyyəti, dramaturji gərginliyi həm ictimai münasibətlərdə, həm də ayrı-ayrı obrazların (məsələn, Elxan və Aqşin, Solmaz və Altunbay, Elxan və Altunbay) psixoloji münasibətlərində bədii realizəsini tapıb.

"Od gəlini" faciəsi tamaşaya hazır olanda, 1928-ci ilin əvvəllərində Cəfər Cabbarlı mövzusu çağdaş həyatdan götürülmüş "Sevil" dramını tamamlayıb və teatra verib. Dramaturq bu pyesində sırf realist üslubu seçərək psixoloji-publisist dram janrında maraqlı və aktual, ictimai dəyərli və məişət xarakterli, sosial tutumlu və mənəvi-əxlaqi problemlərə söykənən əsər yazıb. Sadalanan bu məsələlər ilk növbədə yeni cəmiyyətdə qadın azadlığı probleminin necə qavranılması, cəmiyyətdə qadının mövqeyinə çürük fəlsəfi baxışların ifşası, bir qrup "ziyalı" zümrəsmin mənəvi puçluqları kontekstində oxuculara çatdırılıb. Meşşan əxlaq tərzinin, savadsızlığın, nadanlığın cəmiyyətdə yaratdığı ədalətsizlik və hüquqi bərabərsizlik real hadisələr əsasında ifşa olunub.

Bacarıqlı olduğu qədər də miskin görünən Balaş, riyakar və yaltaq Əbdüləli bəy və Məmmədəli bəy, əxlaqsız, fitnəkar və şərəfsiz Dilbər (Ediliya), zavallılıqdan mübariz mənəvi yüksəlişə qalxan Sevil, qətiyyətli və fərasətli, aydın təfəkKürlü Gülüş, qəlbləri saf, lakin zavallı, həyatın "dibində" yaşayan Atakişi və Babakişi obrazları özlərinin bədii dəyərləri ilə əsərdən alman estetik təəssüratı tamamlayıblar.

Mövzusu şəhər mühitindən götürülmüş "Sevil"dən sonra Cəfər Cabbarlı kənd həyatına müraciət edib. Xarakterlərin mübarizə toqquşmalarının əsasında yenicə başlanan kollektivləşmə siyasi-ictimai prosesinin estetik mahiyyəti duran "Aimaz" dramını 1930-cu ildə yazıb. Bu əsərdə Cəfər Cabbarlının yaradıcılığında böyük nailiyyət olan və ümumiyyətlə, dramaturgiyamızda ilk dəfə qələmə alınan Hacı Əhməd kimi mürəkkəb xarakter, Şərif, İbad, Baloğlan, Kərbəlayı Fatmanisə, Mirzə Səməndər, Balarza kimi tipik personajlar vardır. Müəyyən publisist quruluğu olsa da, kəndə dərs deməyə gəlmiş 18 yaşh müəllimə Almaz tipli obrazı da dramaturgiyamızda ilk dəfə Cəfər

Cabbarlı qələmə alıb. Azərbaycan dilinin şirəliliyinə bələdliyi, incə yumordan, satirik məsxərədən bacarıqla istifadə etməsi, adi həyati hadisələr əsasında monumental kompozisiya qura bilməsi, tipik şəraitdə tipik xarakter yaratmaq istedadı dramaturqun bu əsərində özünün yeni səciyyələrini göstərib.

Cəfər Cabbarlının xarakter yaratmaq və geniş dramaturji kompozisiya qurmaq səriştəsi onun "1905-ci ildə" dramında başqa istiqamətdə və yeni mövzu-problematika məhvərində özünü büruzə verib. 1931-ci ildə yazılmış dramda ədibin əvvəlki əsərlərində rastlaşmadığımız sadə təbiətli İmamverdi və Allahverdi, şərəfsiz və simasız, mənən murdar Ağamyan, fitnəkar siyasətçi, millətlər arasında təfriqə törədən General-qubernator, onun var-dövlət hərisli arvadı Mariya Timofeyevna, hlkkəli və coşğun, hər şeyə nail olmağı yalnız pulda görən, cırtqoz xarakterli Əmiraslan bəy Salamov, yaltaq və bir qədər də bic Bahadır bəy obrazları koloritli və realdır, duzlu və yumorludur, dramatik cəhətdən təbii və bitkin səhnə surətləridir.

Dramaturq növbəti pyesinin mövzusunu cəmiyyətin yeni Quruculuq yollarında üzləşdiyi çətinliklərə və ictimai-sosial Problemlərə həsr edib. "Yaşar" adlanan dramını 1932-ci ildə taınamlayıb. Dramda publisist dəyər üst qatda olsa da, konflikt real və məzmunludur. Bu əsərində də Cəfər Cabbarlının xarakter yaratmaq bacarığının dəyərli bədii məhsulları ilə rastlaşırıq. Şoran torpaqları coşğun ehtirasla məhsuladar əkənəklərə çevirmək istəyən mühəndis-laborantlar Yaşar, Toğrul və Tanya, koramal xislətli İmamyar, siyasi baxışlarına görə tərəddüdlər içində qıvrılan Niyaz, kənd camaatının şux və təravətli, səmimi və məzəli yumorunu təcəssüm etdirən Əmirqulu və Şərəbanı, dramatik səciyyəli Yaqut və Nigar obrazları məzmunlu dram personajlarıdır.

Komik-satirik çalarlı "Dönüş" dramını Cəfər Cabbarlı Milli Dram Teatrının 1920-ci ildə yenidən dövlət statusu almasının onilliyinə həsr edib. Pyesdə çağdaş milli teatrda gedən sənətkarlıq proseslərindən, forma və üslub axtarışlarında yeniliklə köhnəliyin mübarizəsindən, peşəkar ixtisas savadına yiyələnməyin vacibliyindən, repertuar siyasətinin bədii təsdiqindən, estetik əsaslarından söhbət açılır. Əsərdəki sənətdə yenilik təmsilçiləri Gülsabah, Bayram, Ötkün, Turac, təfəkKür və düşüncələrinə görə zamanla ayaqlaşmayan Zaman, Sapan, Xosməmməd, Əlimuxtar, Xurşid, Asiya, Əmrulla - hamısı teatrla bağlı adamlardır. Cəfər Cabbarlı "Dönüş" pyesində özünün teatr görüşlərini, müasir teatrın hansı estetik prinsiplərlə işləməsi ideyasını dialoqların canında əritmişdir.

Cəfər Cabbarlının "Əfqanıstan" və "İncə" adlı tamamlanmamış pyesləri vardır. Dramaturq kiçik həcmli, birpərdəli "Bozbaş qazanı" (1924), "Təzə peşə" (1925), "Yaylağa gedir" (1925), "Doktor gedə bilməz" (1925), "2000 pərdə" və "2000 gecə" (ikisi də 1927-ci ildə yazılıb) vodevil, məsxərə və pyeslərini də yazıb.

O, həmçinin, Peynqold Qliyerin "Şahsənəm", Anton Mailyanın "Səfa" operalarının librettolarını, "Hacı Qara", "Sevil", "1905-ci ildə", "Almaz", "Ölülər" kinossenarilərini yazıb. Özünün hekayəsi əsasında işlədiyi "Sitarə" opera librettosu yarımçıq qalıb.

## MİLLİ DRAM TEATRI
## (1921-1931)

Teatrın tamaşa hazırlamaqda, repertuar tərtibində, aktyor yaradıcılığının estetik göstəricilər əsasında inkişafında, rejissor sənətinin formalaşmasında müəyyən təcrübəsi vardı. Lakin teatrın dövlət təsisatında necə işləməsinin tam aydın olmaması, təzə ictimai formasiyanın siyasi və ideoloji tələblərinin qeyri-müəyyənliyi və hansı estetik prinsiplərlə səhnəyə gətirilməsinin dürüst modelinin hələ tapılmaması yaradıcılıq iqliminə süstlük verirdi.

Milli Dram Teatrının yaradıcılıq simasının aydınlaşmamasının əsas səbəblərindən biri kollektivin baş rejissor problemini həll edə bilməməsi idi. Qısa müddətdə Aleksandr İvanov və Abbasmirzə Şərifzadə bu Kürsüdə bir-birini tez-tez əvəz edirdilər. Teatrın konseptual estetik yaradıcılıq məramnaməsi müəyyənləşdirilməmişdi, repertuara əsər seçimi başıpozuq halda həyata

keçirilirdi, kollektivin oyun-ifa üslubunda qarmaqarışıqlıq vardı. Ümumi rejissor üslubu yox idi. Buna görə də ötən iki ildə oynanılmış "Əl Mənsur" (Henrix Heyne), "Olülər" (Cəlil Məmmədquluzadə), "Dağılan tifaq" (Əbdürrəhim bəy Haqverdiyev), "Hacı Qara" və "Lənkəran xanının vəziri" (Mirzə Fətəli Axundzadə), "Əmir Əbül Üla" (Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), "Otello" (Vilyam Şekspir), "İblis" (Hüseyn Cavid), "Nadir şah" (Nəriman Nərimanov), "Qaçaq Kərəm" (Vano Mçedaşvili), "Dəmirçi Gavə" (Şəmsəddin Sami) tamaşaları cüzi aktyor dəyişikliklərində, lakin demək olar təkrar rejissor təfsirində 1921-ci ildə repertuarda göründülər.

Teatr 1921-ci ildə Nəcəf bəy Vəzirovun "Pəhlivanani-zəmanə" (20 aprel. Rejissor Sidqi Ruhulla), Məmməd Səid Ordubadinin "Oktyabr inqilabı" (22 aprel. Rejissor Aleksandr İvanov), Süleyman Sani Axundovun "Laçın yuvası" (22 may. Rejissor Abbasmirzə Şərifzadə. Əmiraslan ağa - Abbasmirzə Sərifzadə, Ədil bəy - Rza Təhmasib, Cahangir - Mirseyfəddin Kirmanşahlı, Pərican - Şura Olenskaya), Əhməd Qəmərlinin təbdil etdiyi "Yusif və Züleyxa" (17 iyul. Rejissor Abbasmirzə Şərifzadə. Yusif - İsmayıl Hidayətzadə, Züleyxa - Mərziyə Davudova, Yaqub - Bağır Cabbarzadə, Binyamin - Aslan Tahirov, Yahuda - Möhsün Sənani), Qabriel Sundukyanın "Pepo" (26 noyabr. Tərcüməçi Əbdürrəhim bəy Haqverdiyev, Rejissorlar Sidqi Ruhulla və Ələkbər Süheyli. Pepo - Sidqi Ruhulla, Kiqo - Mirzağa Əliyev, Kekel - Məxfurə Yermakova) əsərlərini tamaşaya hazırlayıb.

Bu tamaşalarda müəyyən aktyor və rejissor nailiyyətləri olsa da, teatrın 1921-ci ildəki ən maraqlı və bitkin yaradıcılıq işi Hüseyn Cavidin "Şeyx Sənan" məhəbbət faciəsinin səhnə təfsiri idi. Cavidin Milli Dram Teatrında tamaşaya qoyulan ikinci səhnə əsərinin quruluşunu rejissor Abbasmirzə Şərifzadə vermişdi. Tamaşanın premyerası noyabr ayının 11-də göstərilib. Tamaşada əsas rolları Abbasmirzə Şərifzadə və Rza Darablı (Şeyx Sənan), Yeva Olenskaya (Xumar - Tamara), Nataliya Lizma (Nina), Məhəmmədhəsən Atamalıbəyov (Platon), Kazım Ziya (Divanə Dərviş), İsmayıl Hidayətzadə (Anton), Ələkbər Hüseynzadə (Serqo), Mərziyə Davudova (Əzra), Yunis Nərimanov (Özdəmir) oynayıblar.

Baş rejissor problemi 1922-ci və 1923-cü illərdə və 1924-cü ilin yayına qədər də davam edib. Bu yaradıcılıq postunu Abbasmirzə Şərifzadə, Aleksandr İvanov və Vladimir Uqryumi (Kasabov) tutublar. Tam peşəkarlıq səriştəsinə yiyələnə bilməmələri ucbatından onların heç biri teatrı müstəqil və müəyyən yaradıcılıq məramı uğrunda çalışan fəaliyyət yoluna çıxara bilməyib. Bununla belə, teatr müqayisədə fərqlənən tamaşaların oynanılmasma nail ola bilib. Bu baxımdan 1922-ci ildə göstərilən Jan Batist Molyerin "Zorən təbib" (5 mart. Rejissor Abbasmirzə Şərifzadə, təbdil edəni Əhməd Qəmərli. Təbib İlyas - Ələkbər Hüseynzadə), Nəcəf bəy Vəzirovun "Müsibəti - Fəxrəddin" (6 mart. Rejissor Abbasmirzə Şərifzadə. Fəxrəddin - Xəlil Hüseynov), Fridrix Şillerin "Məkr və məhəbbət" (25 mart. Rejissor Abbasmirzə Şərifzadə. Ferdinand - Abbasmirzə Şərifzadə, Luiza - Məxfurə Yermakova), Hüseyn Cavidin "Afət" (14 aprel. Rejissor Abbasmirzə Şərifzadə. Afət - Şura Olenskaya, Ərtoğrul - Abbasmirzə Şərifzadə), "Uçurum" (2 iyun. Rejissor Aleksandr İvanov. Gövərçin-Məxfurə Yermakova, Cəlal - Abbasmirzə Şərifzadə), "Şeyda" (15 dekabr. Rejissor Aleksandr İvanov. Məcid Əfəndi-İbrahim Azəri, Şeyda - Kazım Ziya və Abbasmirzə Şərif zadə), Cəlil Məmmədquluzadənin "Anamın kitabı" (11 may. Rejissor Abbasmirzə Şərifzadə. Səməd Vahid - Kazım Ziya, Mirzə Məhəmmədəli - İsmayıl Talıblı, Rüstəm bəy - Ağasadıq Gəraybəyli, Zəhra bəyim - Nataliya Lizma), Nikolay Qoqolun "Müfəttiş" (19 oktyabr. Tərcüməçi Süleyman Səlimbəyov. Rejissor Abbasmirzə Şərifzadə. Xlestakov - Abbasmirzə Şərifzadə, Qalabəyi - Ağasadıq Gəraybəyli, Anna Andreyevna - Mərziyə Davudova) pyeslərinin tamaşalarını misal çəkmək olar.

1923-cü ildə isə teatrın yeni işləri sırasında Cəfər Cabbarlının "Aydın" (12 yanvar. Rejissor Aleksandr İvanov. Aydın - Abbasmirzə Şərifzadə, Gültəkin - Mərziyə Davudova), "Oqtay Eloğlu" (16 fevral. Rejissor Abbasmirzə Şərifzadə. Oqtay - Abbasmirzə Şərifzadə, Firəngiz - Mərziyə Davudova, Xaspolad - Kazım Ziya), Hüseyn Cavidin "İblis" (19 yanvar. Rejissor Aleksandr İvanov. İblis - Abbasmirzə Şərifzadə), Anatoli Lunaçarskinin "Şahın bərbəri" (27 aprel. Tərcüməçi Hacı İbrahim Qasımov. Rejissor N.Tabatinski. Artistid - Rza Təhmasib, Şah - Abbasmirzə Şərifzadə),

Fridrix Şillerin "Qaçaqlar" (9 noyabr. Tərcüməçi Həsən Səbri Abdullazadə. Rejissor Aleksandr İvanov. Frans - Sidqi Ruhulla, Amaliya - Mərziyə Davudova, Karl - Abbasmirzə Şərifzadə), Herhart Hauptmanın "Elqa" ("Dəhşətli röya". 16 noyabr. Tərcümə edəni Kazım Ziya. Rejissor Aleksandr İvanov. Rıtsar - Cəlil Bağdadbəyov, Elqa - Mərziyə Davudova), Jan Batist Molyerin "Jorj Danden" (14 dekabr. Tərcüməçi Mustafa Mərdanov. Rejissor Aleksandr İvanov. Jorj Danden - İsmayıl Talıblı) dramlarının tamaşaları nisbətən uğurlu olub.

Teatr 1924-cü ilin birinci yarısında repertuarını ilk növbədə ötən mövsümlərdəki təkrar-təkrar quruluşlarda göstərən müxtəlif janrlı tamaşalar əsasında qurub. Bununla yanaşı, indiyədək oynamadığı əsərlərdən Karl Qutskovun "Uriel Akosta", Aleksandr Dümanın "Qanlı qala" ("Nel qülləsinin sirri"), Xalid Fəxrinin "Bayquş" dramlarını repertuarına daxil edib.

Aleksandr İvanov 1924-cü il fevral ayının 20-də baş rejissorluqdan çıxıb. Teatr dörd aya yaxın baş rejissorsuz işləyib. Afişa və proqramlarda "baş rejissor" yerinə "rejissor müavini İsmayıl Hidayətzadə" yazılıb. İyun ayının 19-da isə Aleksandr Tuqanov teatra baş rejissor təyin olunub. İlin sonuna kimi onun orijinal quruluşunda Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər", Fitrətin "Hind ixtilalçıları" pyesləri tamaşaya qoyulub. Eyni zamanda o, repertuarda olan "Jorj Danden", "Müfəttiş", "Şeyx Sənan", "Aydın", "Qaçaqlar", "Nel qülləsinin sirri", "Pəri cadu" tamaşalarını özünün yeni səhnə təfsirində tamaşaçılara təqdim edib. Aleksandr Tuqanovun teatra gəlişi onun yaradıcılıq iqlimində ciddi dönüşlər yaradıb. Teatrda üslub formalaşmağa, məzmun dərinləşməyə, romantik və realist aktyor məktəbləri müstəqil yönlərdə inkişaf etməyə başlayıb. 1931-ci il iyun ayının 1-də Aleksandr Tuqanov "Köhnəlik" damğası ilə baş rejissorluqdan uzaqlaşdırılıb və o, nəinki teatrı, hətta Azərbaycanı tərk edib.

1925-ci ilin yayında opera truppası Milli Dram Teatrından ayrılıb və bu, teatrın forma-üslub axtarışlarına təkan verib.

1921-1931-ci illər ərzində Milli Dram Teatrı aşağıda göstərilən yaradıcılıq vərdişlərinə yiyələnə bilib.

Teatr Hüseyn Cavidi və Cəfər Cabbarlını özünün ətrafında sıx birləşdirərək, onları sənət ocağının daimi dramaturqlarına çevirib. Bununla da yeni ənənənin bünövrəsmi qoyub.

Səhnəqrafiyanın müasir teatr prosesinin inkişafı üçün vacibliyi yaradıcılıq faktları ilə təsdiqlənib. Tamaşalar üçün məxsusi bədii tərtibatların hazırlanması vacib yaradıcılıq şərtinə çevrilib. Teatrın ştatında baş rəssam vəzifəsi açılıb.

Milli bəstəkarlar teatra cəlb olunublar və onlar ayrı-ayrı tamaşalara musiqilər bəstələyiblər. Bununla da Azərbaycan teatrında yeni sənətin bünövrəsi qoyulub və o, geniş inkişaf yolunda irəliləməyə başlayıb. Teatrda musiqi hissə müdiri vəzifəsi təsis edilib və tədricən kollektivin kiçik ansamblı orkestr kimi formalaşıb.

Səhnə danışıqları qüsurlu aktyorlar və xüsusən özgə millətlərdən olan aktrisalar üçün çatışmazlıqları islah məqsədilə sistemli məşğələlər keçirilib. Truppanın texniki vərdişlərini artırmaq, səhnə plastikasma nail olmaq üçün trinaj-məşğələlər aparılması sistemləşdirilib.

1926-cı ildən başlayaraq, Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbi hər il teatrı ixtisaslı aktyorlarla təmin edib. Tələbələr kütləvi səhnələrə çıxıblar. Bununla da aktyor sənətinin inkişafında peşəkarlığın yeni mərhələsi açılıb.

Teatr tam truppa şəklində ilk dəfə 1930-cu ildə SSRİ miqyasında teatr olimpiadası keçirilməsi münasibətilə Peterburq (10-20 may), Kazan (6-15 iyun) və Moskva (22-30 iyun) şəhərlərində qastrolda olub. Həmin səfərdə "Zaqmuq" (Anatoli Qlebov), "Namus" (Aleksandr Şirvanzadə), "Hacı Qara" (Mirzə Fətəli Axundzadə), "Od gəlini" və "Sevil" (Cəfər Cabbarlı), "Hamlet" (Vilyam Şekspir), "Gülən adam" (Viktor Hüqo) tamaşaları göstərilib.

Tamaşaların hazırlanmasında quruluşçu rejissordan əlavə rejissorlar, rejissor assistentləri və köməkçiləri də (Əlihüseyn Rzayev, Əliağa Əliyev, Cəfər Cabbarlı, Rza Darablı, İsmayıl Hidayətzadə) iştirak etməyə başlayıblar.

Teatr realist dramlara, məişət komediyalarına repertuarında xüsusi yer verib. Bununla bərabər, monumental romantik tamaşalar yaratmağa da cəsarətlə əl atıb, bu istiqamətdə ciddi cəhdlər göstərib.

Kompozisiyanın zahiri effektlərinə uymaq, monumental səciyyə tələb edən epizodlarda sözlə hərəkətin ayrılıqda həlli, yəni ahəngdar cazibədə uyuşmaması qüsur kimi mövcud idi.

Aktyorların romantik ruhlu tamaşalardakı çıxışlarında zahiri pafos, boş ritorika, yöndaşların ünsiyyətlərində peşəkarlıq vərdişlərinin formalaşmaması ciddi çatışmazlıq kimi görünürdü.

Cəfər Cabbarlının, Hüseyn Cavidin, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Fətəli Axundzadənin dram və komediyalarının tez-tez təzə quruluşlarda təqdimi əsilində daha çox təkrarçılıq xarakteri daşıyırdı. Bəzən bir və ya iki ifaçının dəyişdirilməsi nəticəsində köhnə tamaşa premyera kimi təqdim olunurdu.

Teatr benefis "xəstəliyindən" xilas uğrunda səylə çalışıb və istəyinə nail ola bilib.

Haqqında söhbət gedən dövrdə teatrda Aleksandr Tuqanovla yanaşı, digər istedadlı milli rejissorlar da tamaşalar hazırlayıblar. Bu baxımdan Mirseyfəddin Kirmanşahlının rejissorluğunda göstərilən Karlo Haldoninin "Köhnə fikirlər, yaxud savadsız müəllim" (9 noyabr 1925-ci il), Hüseyn Cavidin "Şeyx Sənan" (19 noyabr 1925-ci il), Yusif Yulduzun quruluşunda oynanılan Əbdürrəhim bəy Haqverdiyevin "Köhnə dudman" (20 oktyabr 1927-cı il) və "Baba yurdunda" (2 mart 1928-ci il), Maksim Qorkinin "Həyatın dibində" ("Yurdsuz insanlar". 21 noyabr 1927-ci il), Jan Batist Molyerin "Bağa qınını bəyənməz " ("Meşşan dvoryanlıqda". 9 aprel 1928-ci il), Viktor Lyubomirovun "Talış qızı" (15 aprel 1929-cu il), Hüseyn Cavidin "Knyaz" (18 may 1931-ci il), Əlihüseyn Rzayevin təfsirində tamaşaçılara göstərilən Hüseyn Cavidin "Şeyx Sənan" (14 yanvar 1929-cu il), Cəlil Məmmədquluzadənin "Ölülər" (5 mart 1929-cu il), Cəfər Cabbarlının "Aydın" (1 aprel 1929-cu il), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (28 noyabr 1929-cu il), Aleksandr Şirvanzadənin "Namus" (16 dekabr 1929-cu il), Nikolay Qoqolun "Müfəttiş" (3 mart 1930-cu il), Fridrix Şillerin "Qaçaqlar" (8 aprel 1930-cu il), Şəmsəddin Abbasovun "Qələbə" (12 mart 1931-ci il), Əliağa Əliyevin səhnə quruluşunda M.Danilovun "Qara su" (19 fevral 1931-ci il), Abbasmirzə Şərifzadə və Əsəd Tahirin "Axirəzzaman" (15 oktyabr 1931-ci il), Cəfər Cabbarlının işləməsində özünün "Sevil" (10 dekabr 1931-ci il) əsərlərinin tamaşaları müəyyən sənətkarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edib.

Təzə rejissor dəsti-xətti, müəyyən təcrübəsizliklərinə baxmayaraq, ümumilikdə janr və üslub axtarışlarına, aktyorların yaradıcılıq imkanlarının genişlənməsinə və mənalı ifadə vasitələrinin zənginləşməsinə təkan verib.

Teatrın aktyorlarından Abbasmirzə Şərifzadə, Sidqi Ruhulla, Mirzağa Əliyev, Mərziyə Davudova, Mustafa Mərdanov, Yeva Olenskaya, Möhsün Sənani, Rza Təhmasib, Mirseyfəddin Kirmanşahlı, Rza Darablı, İsmayıl Hidayətzadə, Hacıağa Abbasov daha yüksək sənətkarlıq nailiyyətləri qazana biliblər.

On ildə kollektivə xeyli azərbaycanlı aktrisa gəlib. Onların arasında sonralar şöhrət zirvələrinə qalxan ana-bala aktrisalar Əzizə Məmmədova və Sona Hacıyeva da olublar. Panfiliya Tanailidi və Şəms Qəmər Topuriya yenidən Tiflisdən Bakıya qayıdıblar. Truppaya gələcəyin görkəmli aktyorları olan Rza Əfqanlı, İsmayıl Dağıstanlı (Hacıyev), Ağahüseyn Cavadov, Əli Qurbanov, Məmmədəli Vəlixanlı, Ülvi Rəcəb kimi istedadlı gənclər götürülüblər.

Bəzən mətbuatda haqsız yerə, heç bir bədii məntiq olmadan başqa sənət ocaqları Milli Dram Teatrına qarşı qoyulurdu. Bununla belə, söhbət konseptual şəkildə fundamental yaradıcılıqdan gedəndə birincilik Milli Dram Teatrının payına düşürdü.

## MİLLİ DRAM TEATRINDA REJİSSOR SƏNƏTİNİN TƏKAMÜLÜ (1920-1939)

Milli peşəkar teatrın təşəkkül tapdığı gündən 1920-ci illərin əvvələrinədək Bakıda, eləcə də İrəvanda, Tıflisdə, Təbrizdə, Aşqabadda fəaliyyət göstərən Azərbaycan teatr truppalarında təhsil görmüş aktyor və rejissor olmayıb. Əvvəlki dərslərdə deyildiyi kimi, tamaşaları truppanın qabaqcıl aktyorları hazırlayıblar. Teatrın dövlət təsisatına keçdiyi ilk illərdə də rejissor kadrlarının yoxluğu repertuar qurumunda, pyes seçimində, sənət ocağının üslub xüsusiyyətlərinin və aktyor yaradıcılığının formalaşmasında əngəllər törədirdi.

Rus teatrından dəvət edilmiş Aleksandr İvanov, aktyorlar Abbasmirzə Şərifzadə və Sidqi Ruhulla ciddi səy göstərsələr də, bu boşluğu tam doldura bilmirdilər. Bununla belə, onların quruluş verdikləri tamaşaların bir qismi teatrın yaradıcılıq xüsusiyyətlərinə, romantik və realist aktyor məktəblərinin estetik prinsiplərinə və poetika göstəricilərinə uyğun gəlirdi.

Abbasmirzə Şərifzadənin Hüseyn Cavidin "İblis" (21 dekabr 1920), "Şeyx Sənan" (11 noyabr 1921), "Afət" (14 aprel 1922), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (13 aprel 1921), Cəfər Cabbarlının "Yulduz, yaxud Trablis müharibəsi" (10 aprel 1922), "Aydın" (9 may 1922), "Oqtay Eloğlu" (16 fevral 1923), Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" (8 mart 1922), "Dağılan tifaq" (26 oktyabr 1922), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (6 mart 1922), Cəlil Məmmədquluzadənin "Ölülər" (19 fevral 1922), "Anamın kitabı" (11 may 1922), Nəriman Nərimanovun "Nadir şah" (6 fevral 1923) əsərlərinə verdiyi quruluşlarda rejissura baxımından nailiyyətlər vardı.

Aleksandr Tuqanov MDT-ya baş rejissor təyin olunandan sonra əsas diqqətini və səyini aktyorluğa sərf edən Abbasmirzə Şərifzadə teatrda Jan Batist Molyerin "Don Juan" (18 yanvar 1926) komediyasma və Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (21 fevral 1935) faciəsinə quruluş verməklə kifayətlənib.

Aleksandr İvanovun rejissurası daha peşəkar görünürdü. Onda çatışmayan əsas cəhət Azərbaycan adət-ənənələrinə və psixologiyasma yaxından bələd olmaması idi. Bu qüsur milli dramaturgiyamızın nümunələrinin səhnə təcəssümündə qabarıq görünürdü. Rejissor quruluş verdiyi tamaşalarda kompozisiya bütövlüyünə, aktyorların ansamblının bitkinliyinə, dünya mədəniyyəti incilərinin mahiyyətini mənimsəmələrinə, ifaçıların səhnə ünsiyyətinə və ifadə vasitələri axtarışlarına nail olmağa çalışırdı. Bu baxımdan onun Vilyam Şekspirin "Otello" (12 noyabr 1920), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (9 mart 1922), Hüseyn Cavidin "Uçurum" (2 iyun 1922), "Şeyda" (15 dekabr 1922), "İblis" (19 yanvar 1923), "Şeyx Sənan" (5 Oktyabr 1923), Cəfər Cabbarlının "Aydın" (12 yanvar 1923), Fridrix Şillerin "Qaçaqlar" (9 noyabr 1923), Herhart Hauptmanın "Dəhşətli röya" ("Elqa". 16 noyabr 1923), Jan Batist Molyerin "Jorj Danden" (14 dekabr 1923), Karl Qutskovun "Uriel Akosta" (11 yanvar 1924) pyeslərinin tamaşalarına verdiyi quruluşlarda müəyyən yeniliklər nəzərə çarpırdı.

Teatrın aparıcı aktyorlarından olan Sidqi Ruhulla müəyyən tamaşalarda ikinci rejissor kimi çalışmaqla yanaşı, Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (17 yanvar 1921), Cəlil Məmmədquluzadənin "Ölülər" (1 fevral 1921), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (5 may 1921) əsərlərinin hazırlanmasında müstəqil rejissor kimi çalışıb.

Tiflisdə aktyorluq vərdişlərinə yiyələnmiş gürcü teatrı studiyasında təcrübə toplamış Mirseyfəddin Kirmanşahlı Moskvada iki illik aktyor təhsili alandan sonra 1924-cü ildə Bakıya gələrək Milli Dram Teatrının truppasına üzv oldu. Savadlı və təcrübəli aktyor rejissorluğa da meyl göstərirdi, bəzi tamaşalarda rejissor yardımçısı kimi çıxış edirdi. Truppaya qəbul olunandan bir neçə ay sonra ona müstəqil quruluşlar tapşırıldı. Kirmanşahlı Böyükağa Talıblının "Kef içində" (3 aprel 1925), Karlo Haldoninin "Köhnə fikirlər, yaxud savadsız müəllim" (9 noyabr 1925), Hüseyn

Cavidin "Şeyx Sənan" (19 noyabr 1925), Cəfər Cabbarlının "Oqtay Eloğlu" (22 dekabr 1925) dramlarına maraqlı quruluşlar verib.

Peterburq Səhnə Sənəti İnstitutunda rejissor təhsili almış Yusif Yulduz 1927-ci ildə Bakıya gələrək teatra qəbul olundu. O, Əbdürrəhim bəy Haqverdiyevin "Köhnə dudman" (20 oktyabr 1927) pyesinə verdiyi quruluşla teatra yeni nəfəs gətirdi və özünü istedadlı rejissor kimi tanıtdı. Bundan sonra Yusif Yulduza Maksim Qorkinin "Yurdsuz insanlar" ("Həyatın dibində". 21 noyabr 1927), Əbdürrəhim bəy Haqverdiyevin "Baba yurdunda" (2 mart 1928), Jan Batist Molyerin "Bağa qınını bəyənməz" ("Meşşan dvoryanlıqda". 9 aprel 1928), Valentin Katayevin "Dairənin mürəbbələşməsi" (12 noyabr 1928), Viktor Lyubomirovun "Talış qızı" (15 aprel 1929), Konstantin Trenyovun "Düşmənlər" ("Lyubov Yarovaya". 3 noyabr 1930), Hüseyn Cavidin "Knyaz" (18 may 1931), Aleksandr Korneyçukun "31 -43" ("Eskadranın məhvi". 5 noyabr 1934) quruluşları tapşırıldı.

1931-ci ildə Aleksandr Tuqanov baş rejissorluqdan gedəndə bir müddət tamaşaları kollektiv rejissorlar hazırlayırdılar. Məsələn, Hüseyn Cavidin "Şeyx Sənan" məhəbbət faciəsini 28 oktyabr 1932-ci ildə Rza Darablı, İsmayıl Hidayətzadə, Rza Təhmasib və Ələsgər Şərifov, Cəlil Məmmədquluzadənin "Ölülər" traglkomediyasını 1933-cü il fevralın 16-da Rza Darablı, İsmayıl Hidayətzadə və Cəfər Cabbarlı tamaşaya hazırlamışdılar. Hər pərdəni bir rejissor işlədiyinə görə tamaşalarda ciddi üslub qarışıqlığı vardı.

Bu dövrdə gənc rejissor Əlihüseyn Rzayev Hüseyn Cavidin "Şeyx Sənan" (14 yanvar 1929), Cəlil Məmmədquluzadənin "Ölülər" (1 mart 1929), Cəfər Cabbarlının "Aydın" (1 aprel 1929), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (28 noyabr 1929), Aleksandr Şirvanzadənin "Namus" (16 dekabr 1929), Nikolay Qoqolun "Müfəttiş" (3 mart 1930), Fridrix Şillerin "Qaçaqlar" (8 aprel. 1930), Şəmsəddin Abbasovun "Qələbə" (12 mart 1931), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (18 yanvar 1932), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (3 may 1932) pyeslərinə quruluşlar verib.

Digər istedadlı yeniyetmə rejissor Əliağa Ağayev Aleksandr Tuqanovla birgə Əs Həbib Vəfanın "Bombey" və Cəfər Cabbarlının "Od gəlini" dramlarını tamaşaya hazırlayandan sonra özü M.Danilovun "Qara su" (19 fevral 1931) və Əsəd Tahirlə Abbasmirzə Şərifzadənin "Axirəzzaman" (15 oktyabr 1931) əsərlərinin quruluşçu rejissoru olub.

Dramaturq Cəfər Cabbarlı əvvəllər ikinci rejissor və rejissor assistenti kimi fəaliyyət göstərdikdən sonra qüvvəsini müstəqil quruluşda da sınadı. O, Aleksandr Tuqanovla özünün "Almaz" (13 aprel 1931), Leninqraddan dəvət olunmuş Vladimir Lütse ilə birgə "1905-ci ildə" dramlarını tamaşaya hazırlayıb. Sonra isə "Sevil" (10 dekabr 1931), Aleksandr Afinogenovun "Qorxu" (18 fevral 1932), yenidən "1905-ci ildə" (20 oktyabr 1932) pyeslərinin quruluşçu rejissoru kimi çalışıb.

Lakin nədənsə bunların heç biri baş rejissor Kürsüsünə layiq bilınmədilər. Hətta bu ərəfədə Rus Dram Teatrının baş rejissoru Sergey Mayorov "Otello" (15 aprel 1932), "Hamlet" (17 aprel 1933), "Od gəlini" (2 dekabr 1933) faciələrini hazırlamaq üçün teatra dəvət edilib. Bundan sonra isə Yakov Varşavski (1933-cü ilin sonlarından 1934-cü ilin birinci yarısınadək) MDT-na baş rejissor təyin edilib. O, kollektivdə bir il əvvəl Cəfər Cabbarlının "Yaşar" (22 dekabr 1932) tamaşasma quruluş vermişdi. Baş reşissor kimi isə Lev Slavinin "İntervensiya" (27 sentyabr 1933) dramını tamaşaya hazırlayıb. Bundan az sonra isə vəzifəsindən istefa verib.

1934-1936-cı ildə rejissura sayəsində ciddi sənət nailiyyətləri qazanıldı. Bunun bir qolu İsmayıl Hidayətzadə ilə bağlı idi. Teatr onun monumental-romantik quruluşlarında Hüseyn Cavidin "Səyavuş" (1 mart 1934) və Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povesti əsasında Cananın işlədiyi "Şahnamə" (28 may 1936) pyeslərinin tamaşalarını öz repertuarına daxil etdi. Sonralar bu istedadlı rejissor Opera və Balet Teatrında işləyə-işləyə MDT-da "1905-ci ildə" (3 noyabr 1937), "Od gəlini" (29 sentyabr 1939) və Süleyman Rüstəmin "Qaçaq Nəbi" (26 sentyabr 1940) əsərlərini uğurla tamaşaya hazırlayıb.

Məşhur aktyor Rza Təhmasib istedadını müstəqil rejissurada sınaqdan çıxararaq Vasili Şkvarkinin "Özgə uşağı" (27 mart 1934) pyesinə səhnə təfsiri verib. İkinci dəfə isə 1939-cu il noyabrın 29-da Mirzə İbrahimovun "Madrid" dramını hazırlayıb və bundan sonra yaradıcılıq fəaliyyətini kino sənətində davam etdirib. İsmayıl Hüseynov Valentin Katayevin "Çiçəklər yolu" (20 oktyabr 1934) pyesini tamaşaya hazırladıqdan sonra Tiflis Dövlət Azərbaycan Teatrında işləməyə gedib. Dəvət edilmiş Daşkovski Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (28 yanvar 1935) dramını tamaşaya hazırlayandan sonra bir daha bu teatrda quruluş verməyib.

Həm faciə, həm də komediya aktyoru olan Rza Darablı Moskvada rejissorluq kursu keçəndən sonra MDT-da ona "1905-ci ildə" (23 aprel 1935), "Hacı Qara" (2 oktyabr 1935), Jan Batist Molyerin "Skapenin kələkləri " (5 dekabr 1936) əsərlərinin müstəqil quruluşları tapşırılıb.

Moskvada ali rejissor təhsili almış Ələsgər Şərifov və Ədil İsgəndərov 1935-ci ildən müstəqil quruluşlar verməyə başlayıblar.

Ağəli Dadaşov "Almaz" (5 oktyabr 1936) və Georgi Mdivaninin "Vətən namusu" ("Vətən oğlu". 28 aprel 1938) pyeslərini tamaşaya hazırlayandan sonra yaradıcılığını əsasən Gənc Tamaşaçılar Teatrı ilə bağlayıb.

Ali təhsilli rejissor Məcid Zeynalov Şəmsi Bədəlbəyli ilə Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (15 oktyabr 1938) komediyasını və tək quruluşda Pyer Bomarşenin "Fiqaronun toyu" məzhəkəsini hazırlayıb və Bakını tərk edərək Qazax kolxoz-sovxoz Teatrında işləməyə gedib.

Moskvada təhsil almış və GTT-də böyük sənət uğurları qazanan Məhərrəm Haşımov dramaturq Sabit Rəhmanın mövzusu o dövrün müasir kənd həyatından alınmış "Toy" (28 aprel 1939) komediyasma orijinal səhnə təfsiri verib. Bu tamaşa teatrın həyatında sənət hadisələrindən biri kimi tarixiləşib.

Ədil İsgəndərovun 1938-ci ildə Milli Dram Teatrına baş rejissor təyin olunması ilə sənət ocağının yaradıcılıq üslubunda, janr axtarışlarında və aktyorlarla iş prinsipində ciddi reformalar başlandı. Tədricən monumental-romantik üslublu tamaşalar hazırlamağa meyil göstərən rejissorlar üçün geniş yaradıcılıq imkanları açıldı.

**ALEKSANDR TUQANOV**
**(31.3.1871-6.3.1960)**

Azərbaycan milli teatrının inkişafında böyük işlər görmüş rejissor və pedaqoq Aleksandr Aleksandroviç Tuqanov 31 mart 1871-ci ildə Moskvada doğulub. Teatr fəaliyyətinə aktyor kimi Moskvada həvəskar dəstədə, sonra korşun teatrında başlayıb.

Ayrı-ayrı illərdə Tula, Hacıtərxan, Nijni Novqorod, Yaroslav, Bakı (1914), Riqa, Penza, Voronej və digər şəhərlərdə aktyorluq edib. 1915-ci ildə Tiflisə gəlib. K.Nikulinin truppasında çalışıb və həm də buradakı "Rusiya Teatr Cəmiyyəti Artistləri İttifaqı"na rəhbərlik edib.

Aktyorluqla məşğul olduğu teatrlarda Hamlet və Petruççio ("Hamlet" və "Şıltaq qızın yumşalması", Vilyam Şekspir), Çatski ("Ağıldan bəla", Aleksandr Qriboyedov) rollarının mahir ifaçılarından sayılıb.

Uzun illər müxtəlif truppalarda fəaliyyət göstərən Tiflisdəki azərbaycanlı səhnə fədailəri 1922-ci ildən Tiflis Dövlət Azərbaycan Dram Teatrı kimi yeni yaradıcılığa başlayıb. Kollektivin əsas aktyorları ilə əvvəldən müxtəlif truppalarda yaradıcılıq ünsiyyətində olmuş Aleksandr Tuqanov bir il sonra Tiflis teatrına baş rejissor təyin edilib. Burada onun rejissorluğu ilə Cəfər Cabbarlının "Aydın", "Oqtay Eloğlu", Hüseyn Cavidin "Şeyda", "İblis", "Uçurum", "Şeyx Sənan", Vilyam Şekspirin "Otello", Fridrix Şillerin "Qaçaqlar", Şəmsəddin Saminin "Dəmirçi Gavə" əsərləri tamaşaya hazırlanıb və repertuarın əsasını təşkil edib.

Aleksandr Tuqanov Tiflis Azərbaycan Teatrının repertuarının zənginləşməsində, aktyor yaradıcılığının formalaşmasında cəsarətli addımlar atıb. O, teatrın repertuarında azərbaycanlı dramaturqların əsərlərinin üstünlük təşkil etMəsmə xüsusi diqqət yetirib.

1924-cü ilin ikinci yarısında Aleksandr Tuqanov Azərbaycan hökumətinin qərarı ilə Bakıya dəvət olunub. İyun ayının 19-da o, Akademik Milli Dram Teatrına baş rejissor təyin edilib. Rejissor yeddi ildən çox bu kollektivə rəhbərlik edib, kollektivin mövzu və məzmun, üslub və forma istiqamətindəki müasirlik axtarışlarında səmərəli işlər görüb.

1931-ci ildə teatrdaxili çəkişmələr nəticəsində kollektivdən ayrılan Aleksandr Tuqanov Bakıdan uzaq Şərqə gedib. Bir müddət sonra oradan Qroznıya gələrək müxtəlif teatrlarda işləyib.

Milli Dram Teatrında yenə baş rejissor problemi yarananda Aleksandr Tuqanov 1935-ci ildə Bakıya çağırılıb. O, Akademik teatra baş rejissor göndərilib. İki il burada çalışan rejissor sonra Gənc Tamaşaçılar Teatrında işləməyə gedib. Bu kollektivin əsasən rus bölməsində tamaşalar hazırlayıb.

GTT-da işləyə-işləyə Opera və Balet Teatrında, Dövlət Rus Dram Teatrında, həm də Akademik sənət ocağında quruluşlar verib. Əvvəllər Bakı Teatr Məktəbində dərs deyən rejissor 1945-ci ildən teatr institutunda pedaqoji fəaliyyət göstərib. 1947-ci ildən professor idi.

Akedemik Milli Dram Teatrında Aleksandr Tuqanovun rejissorluğu ilə Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (1924), "Hacı Qara" (1925, 1928, 1930), Hüseyn Cavidin "Şeyx Sənan" (1924, 1926), "Uçurum" (1924), "İblis" (1925, 1926), "Topal Teymur" (1926), "Knyaz" (1930), Fitrətin "Hind ixtilaçıları" (1924), Nikolay Qoqolun "Müfəttiş" (1924, 1929), Jan Batist Molyerin "Jorj Danden" (1924), "Don Juan" (1926), Aleksandr Dümanın "Qanlı qala" ("Nel qülləsinin sirri". 1924), Cəfər Cabbarlının "Aydın" (1924, 1926), "Oqtay Eloğlu" (1926, 1927), "Sevil" (1928), "Od gəlini" (1928, 1930), "Almaz" (1931, 1935), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (1924, 1926), "Ağa Məhəmməd şah Qacar" (1927), Cəlil Məmmədquluzadənin "Ölülər" (1924, 1926, 1928), Fridrix Şillerin "Qaçaqlar" (1924, 1928), "Vilhelm Tel" (1925), "Məkr və məhəbbət (1925), Vilyam Şekspirin "Otello" (1925), "Hamlet" (1926), "Şıltaq qızın yumşalması" (1929), "Maqbet" (1936), "Romeo və Cülyetta" (1937), Maksim Qorkinin "Yurdsuz insanlar" ("Həyatın dibində". 1925), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (1925, 1927), Adolf D'Enneri və Germonun "İki yetimə" (1925), Qriqori Genin "Trilbi" (1925), Jül Vernin "Kapitan Qrantın çocuqları" (1926), "80 gün dünya səyahəti" (1927), Nəriman Nərimanovun "Nadir şah" (1926), Brandon Tomasın "Tələbələrin kələyi" (1926), Fuldun "Axmaq" (1927), Biçer

Stounun "Tom dayının koması" (1927), Rında Alekseyevanın "Dəmir divar" (1927), Aleksandr Suxovo-kobılinin "Kreçinskinin toyu" (1927), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (1928), Anatoli Qlebovun "Zaqmuq" ("Qullar bayramı". 1929), Konstantin Trenyovun "Düşmənlər" ("Lyubov Yarovaya". 1929), Viktor Hüqonun "Gülən adam" (1930), Əs Həbib Vəfanın "Bombey" (1930), Moris Meterlinkin "Göy quş" (1935), Aleksandr Puşkinin "Dubrovski" (1937), Onore de Balzakin "Ögey ana" (1939) pyeslərinin tamaşaları oynanılıb.

Aleksandr Tuqanov Azərbaycan Dövlət Opera və Balet Teatrında Müslüm bəy Maqomayevin "Nərgiz" operasına monumental quruluş verib. Romantik pafosu, kompozisiya möhtəşəmliyi ilə seçilən tamaşa 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında həm musiqismə, həm də rejissor işinə görə yüksək qiymətləndirilib.

Opera truppası Milli Dram Teatrının nəzdində olanda (1925-ci ilin yayına qədər) Aleksandr Tuqanov muğam operalarımızın inciləri sayılan Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" və "Əsli və Kərəm" əsərlərini, "Arşın mal alan" operettasını tamaşaya hazırlayıb.

Aleksandr Tuqanov Bakıdakı yəhudi teatrında Karl Qutskovun "Uriel Akosta", erməni teatrında Nıkolay Qoqolun "Müfəttiş" (1939), Rus Dram Teatrında Fridrix Şillerin "Qaçaqlar" (1937), "Məkr və məhəbbət" (1938), Jan Batist Molyerin "Tartüf", Vilyam Şekspirin "Romeo və Cülyetta"  əsərlərinə səhnə həyatı verib.

Monumentalizmə meyil göstərən rejissor Gənc Tamaşaçılar Teatrında Maksim Qorkinin "Meşşanlar", Nikolay Qoqolun "Müfəttiş", Denis Fonfizinin "Nadan övlad", Aleksandr Ostrovskinin "Öz adamlarımızdır, dil taparıq", Fridrix Şillerin "Məkr və məhəbbət", Valentina Lyubimovanın "Qızıl medal", "Onun dostları", Karlo Haldoninin "İki ağanın bir nökəri" əsərlərinə səhnə təfsiri verib.

Aleksandr Tuqanov Azərbaycan teatrında aktyor ansamblının formalaşmasma ciddi diqqət yetirib.

Plastik hərəkətlərin vərdişlərinə yiyələnmək üçün aktyorlara gündəlik trinaj-məşqlər təyin edib. Onlara qrimdən, parikdən və Avropa pyeslərində geyimlərdən istifadənin, kübar və zadəgan davranış qaydalarının, təzim və müraciət ədalarının prinsiplərini öyrətınəyə başlayıb.

Teatrda tamaşalar gec başlanır, bəzən gecə saat 2-də qurtarır, hətta yarımçıq saxlanılıb sabaha keçirilirdi. Aleksandr Tuqanov bu işdə ciddi intizam yaratmağa nail olub.

Şekspirin, Şillerin əsərlərinin monumental üslub-formada oynanılmasını, bu tamaşaların bəşəri problemlərlə uyarlı səslənməsini təmin edib.

Viktor Hüqo, Moris Meterlink, Onore de Balzak, Jül Vern, Biçer Stou kimi müəlliflərin adlarını Akademik teatrın repertuar siyahısına məhz Tuqanov daxil edib.

Rol üzərində iş, tərtibat və tamaşa, musiqi, teatr və bu səpkili nəzəri məsələlərin Azərbaycan səhnəsində əyaniləşdirilməsində sənədli islahatlar aparıb.

Sabit və məzmunlu, əlvan və mövzuca rəngarəng repertuar uğrunda Cəfər Cabbarlı ilə birgə yeni ənənələr yaradıb.

Aleksandr Tuqanov Bakı Teatr Məktəbində və sonralar Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs deyib. Təcrübəli pedaqoqun onlarca yetirməsi ölkəmizin müxtəlif teatrlarında səmərəli yaradıcılıq axtarışları aparıblar.

Azərbaycan milli teatrının inkişafında göstərdiyi xidmətlərinə, Milli Dram Teatrının yaradıcılıq üslubunun monumental səpkidə formalaşmasındakı səmərəli fəaliyyətinə görə Aleksandr Tuqanov 4 aprel 1936-cı ildə respublikanın xalq artisti fəxri adı ilə təltif olunub.

Rejissor 6 mart 1960-cı ildə Bakida vəfat edib.

**MİLLİ DRAM TEATRI**
**(1931-1937)**

Bu qısa müddət Milli Dram Teatrının tarixində rejissor yaradıcılığı, müəyyən üslub axtarışları, aktyor oyunlarının bədii-estetik səciyyələri, xüsusən müasir mövzu-problemə müraciət, siyasi qurumun mədəniyyəti "məngənəyə" salması baxımından ən ziddiyyətli dövrlərdəndir.

Digər tərəfdən Cəfər Cabbarlının öz dramlarında xüsusi istedadla yaratdığı qüvvətli, kamil tip-xarakter aktyorların yeni yaradıcılıq imkanlarına yiyələnmələrinə geniş meydan açıb.

Hüseyn Cavidin qüdrətli dramaturgiyası sayəsində milli poetik teatr əzəmətli inkişaf yolu keçib.

Müxtəlif aktyor məktəblərinə məxsus olan və bu kollektivdə möhtəşəm yaradıcılıq yolu keçən Barat Şəkinskaya, Atamoğlan Rzayev, İsmayıl Osmanlı, Fatma Qədri, Ələsgər Ələkbərov, İsmayıl Dağıstanlı (Hacıyev), Hökümə Qurbanova (Ələkbərova), Əli Zeynalov, Ağasadıq Gəraybəyli (Gəncədən qayıdıb), rejissorlardan Şəmsi Bədəlbəyli, Ağəli Dadaşov, Səftər Turabov teatra götürülüblər.

Bəstəkarlardan Əfrasiyab Bədəlbəyli teatrda fəaliyyətini genişləndirib. Kollektivə yeni cəlb olunan bəstkarlardan Asəf Zeynallı, Müslüm Maqomayev, Niyazi Hacıbəyov - Tağızadə, Asan Rufatov, Reynqold Qlier, Boris Asafyev, Saveli Ayzen, Səid Rüstəmov, tərtibatçı rəssamlardan Pavel Ryabçikov, Sergey Yefimenko, Rüstəm Mustafayev, Mixail Tixomirov, Nüsrət Fətullayev, İsmayıl Axundov, geyim eskizləri işləyən Əzim Əzimzadə, Susanna Samorodova müxtəlif tamaşaların hazırlanmasında səmərəli işlər görüblər.

**1931.** Haqsız tənqidlərə məruz qalan Aleksandr Tuqanov baş rejissorluqdan istefa verəndən sonra bu vəzifəyə 10 iyul 1931-ci ildə Leninqraddan (indiki Peterburqdan) Vladimir Lütse dəvət olunub. Lütse dramaturq Cəfər Cabbarlı ilə birlikdə onun "1905-ci ildə" dramına quruluş verəndən sonra (8 oktyabr) ərizə yazaraq teatrdan çıxıb. Premyera oktyabrın 1-də göstərilib.

"1905-ci ildə" tamaşası məhz Cəfər Cabbarlının gərgin əməyi, Vladimir Lütse ilə apardığı yaradıcılıq mübahisələri nəticəsində teatrın uğurlu işləri sırasma daxil oldu. Monumentalizmə meyilli əsər ilk növbədə aktyor tamaşası idi. Məhəmmədhəsən Atamalıbəyov (Qoca Baxşı), Süleyman Tağızadə (Baxşı), Mustafa Mərdanov (İmamverdi), Əli Qurbanov (Allahverdi), Rza Əfqanlı (General-qubernator), Qəmər Topuriya (Mariya Timofeyevna), Mirzağa Əliyev və İsmayıl Hidayətzadə (Əmiraslan bəy Salamov), İsmayıl Osmanlı (Bahadır bəy), Dadaş Şaraplı (Ağamyan) yüksək səhnə nailiyyətləri qazanıblar.

Teatr 1931-ci ilin payızında baş rejissorsuz qalanda gənc rejissor Əliağa Əliyev aktyor Abbasmirzə Şərifzadə ilə Əsəd Tahirin yazdıqları zəif, çılpaq ideyalı "Axirəzzaman" (15 oktyabr) və dramaturq Cəfər Cabbarlı özünün "Sevil" (10 dekabr) sosial dramına səhnə quruluşu veriblər. "Axirəzzaman"ın tamaşası da sönük alınıb. "Sevil" (rəssam Pavel Ryabçlkov, bəstəkar Əfrasiyab Bədəlbəyli) tamaşası isə mövsümün uğurlu işlərindən sayılıb. Tamaşada rolları Mərziyə Davudova (Sevil), Ülvi Rəcəb və Rza Təhmasib (Balaş), Yeva Olenskaya (Gülüş), Mirzağa Əliyev və Mustafa Mərdanov (Atakişi), Məhəmmədhəsən Atamalıbəyov və Abbas Rzayev (Babakişi), İsmayıl Hidayətzadə, Məmmədəli Vəlixanlı və Rza Əfqanlı (Əbdüləli bəy), Əli Qurbanov və İsmayıl Osmanlı (Mirzə Məhəmmədəli), Qəmər Topuriya (Dilbər -Ediliya), Panfiliya Tanailidi və Nataliya Lizma (Tafta) oynayıblar. Rza Təhmasibin, Mərziyə Davudovanın və İsmayıl Hidayətzadənin ifaları parlaq sənət qələbələri olub.

**1932.** Teatr 1932-ci ilin aprel ayına kimi baş rejissorsuz qalıb. Boşluğu doldurmaq üçün teatrın rəhbərliyi Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (18 yanvar. Hacı Qara - Mirzağa Əliyev, Kərəməli - Dadaş Şaraplı, Kərəməli - Möhsün Sənani, Tükəz - Panfiliya Tanailidi, Sona - Sona Hacıyeva) komediyasının quruluşunu rejissor Əliağa Əliyevə və Aleksandr Afinogenevin "Qorxu" (18 fevral. Tərcüməçi Cəfər Cabbarlı, rəssam Pavel Ryabçikov, rəssam Reynqold Qlier) pyesinin səhnə təfsirini Cəfər Cabbarlıya tapşırıb. Qorxu tamaşası daha uğurlu alınıb və Volodin rolunda Ülvi

Rəcəblə Rza Əfqanlının, Klara obrazında Mərziyə Davudovanın, Tsexavoy surətində Rza Təhmasibin oyunları yüksək qiymətləndirilib.

1932-ci il aprel ayının 22-də Yakov Varşavski teatra baş rejissor təyin olunub. Lakin bir neçə ay əvvəl Bakıdakı Rus Dram Teatrının rejissoru Sergey Mayorov ingilis dramaturqu Vilyam Şekspirin "Otello" faciəsini Cəfər Cabbarlının tərcüməsində hazırlamaq üçün kollektivə dəvət olunmuşdu. Premyerası aprelin 15-də göstərilən tamaşada Cəfər Cabbarlı və Əliağa Əliyev rejissor, Sergey Yefimenko rəssam idilər. Aleksandr İvanovun quruluşu ilə müqayisədə uğurlu alınan tamaşada əsas rollar Abbasmirzə Şərifzadə və Ülvi Rəcəbə (Otello), Mərziyə Davudovaya və Sona Hacıyevaya (Dezdemona), Rza Əfqanlı və İsmayıl Hidayətzadəyə (Yaqo), Mirzağa Əliyevə (Brabansio), Sona Hacıyevaya (Emiliya), Möhsün Sənaniyə (Kassio) tapşırılmışdı.

Yakov Varşavski sanki tamaşa hazırlamağa tələsinirdi. Kollektiv mayın 3-də Əlihüseyn Rzayevin quruluşunda "Pəri cadu" (Əbdürrəhim bəy Haqverdiyev) faciəsini təhvil verib. Payız mövsümü başlayanda isə oktyabrın 1-də Cəfər Cabbarlının "Dönüş" dramı dramaturqun özünün və İsmayıl Hidayətzadənin rejissorluğunda oynanılıb. Yakov Varşavski tamaşanın formal şəkildə bədii rəhbəri, Rüstəm Mustafayev rəssamı və Asəf Zeynallı bəstəkarı olublar. Baş rollar Gülsabah və Qüdrət Arslan surətlərində Sona Hacıyeva və Mərziyə Davudova, Ülvi Rəcəb və Rza Təhmasib çıxış ediblər.

Bundan sonra teatr Cəfər Cabbarlımn "1905-ci ildə" (20 oktyabr. Quruluşçu rejissor Cəfər Cabbarlı, rəssam Rüstəm Mustafayev və bəstəkar Əfrasiyab Bədəlbəyli) və Hüseyn Cavidin "Şeyx Sənan" (28 oktyabr. Quruluşçu rejissorlar Rza Darablı, İsmayıl Hidayətzadə, Rza Təhmasib və Ələsgər Şərifov, rəssamlar Rüstəm Mustafayev və Əzim Əzimzadə) tamaşalarını göstərib.

"Şeyx Sənan"da da bədii rəhbər olan Yakov Varşavski yalnız dekabrın 22-də Cəfər Cabbarlının "Yaşar" dramı ilə ilk quruluşunu təqdim edib. Cəfər Cabbarlı və Rza Darablı tamaşanın rejissorları, Sergey Yefimenko rəssam və Saveli Ayzen musiqi tərtibatçısı idilər. Tamaşa kompozisiya və aktyor ifası baxımından maraqlı alınmışdı. Xüsusilə Ülvi Rəcəbin (Yaşar), Rza Təhmasib və Kazım Ziyanın (İmamyar), oyunları bədii-realist təqdiminə, Əzizə Məmmədova və Panfiliya Tanailidinın (Şərəbanu), Mirzağa Əliyevin (Əmirqulu) ifaları yumorlu koloritinə görə cazibəli görünürdülər.

**1933.** Yakov Varşavski 1933-cü ilin ilk aylarında baş rejissorluqdan istefa verib, lakin bir müddət sonra qayıdaraq Lev Slavinin "İntervensiya" (27 sentyabr. Tərcüməçi Cəfər Cabbarlı, rəssam Y.Mandelberq, bəstəkar Boris Asafyev) əsərinə səhnə quruluşu verib.

Üslub pərakəndəliyinə yol verən teatr 1933-cü ildə Cəlil Məmmədquluzadənin "Ölülər" (16 fevral. Quruluşçu Əhməd Tiriniç, rejissorlar Cəfər Cabbarlı, İsmayıl Hidayətzadə və Rza Darablı, tərtibat rəssam Rüstəm Mustafayev, bəstəkar Müslüm Maqomayev, geyim rəssamı Əzim Əzimzadə), Vilyam Şekspirin "Hamlet" (17 aprel. Tərcüməçi Cəfər Cabbarlı. Quruluşçu rejissor Sergey Mayorov, rejissorlar Rza Darablı, Əlihüseyn Rzayev və Cəfər Cabbarlı, rəssam Sergey Yefimenko, musiqi tərtibçisi S.Paniyev, Hamlet - Ülvi Rəcəb, Poloni-Mirzağa Əliyev, Gertruda - Mərziyə Davudova, Klavdi - İsmayıl Hidayətzadə, Ofeliya - Sona Hacıyeva, Horatsio - Rza Əfqanlı), Cəfər Cabbarlının "Od gəlini" (2 dekabr. Quruluşçu rejissorlar Sergey Mayorov və Əhməd Tiriniç, rəssam Rüstəm Mustafayev, bəstəkar Əfrasiyab Bədəlbəyli. Elxan - Ülvi Rəcəb və Abbasmirzə Şərifzadə, Altunbay - Ağasadıq Gəraybəyli, Əbu Übeyd - Rza Təhmasib, Aqşin - Sidqi Ruhulla, Ələsgər Ələkbərov və İsmayıl Dağıstanlı, Solmaz - Mərziyə Davudova, Yeva Olenskaya və Sona Hacıyeva) əsərlərini repertuara daxil edib. Əhməd Tiriniç inzibatçı işçi idi və onun rejissorluğa müdaxiləsi yaradıcılıq işinə ciddi xələl yetirirdi. Bir neçə rejissorun eyni əsərdə hərəsinin bir pərdə hazırlaması "eksperimenti" nə bu il, nə də gələn il səmərə verməyib.

**1934.** Yusif Yulduz 1934-cü ilin yazında baş rejissorluğa dəvət alıb. Lakin bu son dərəcə istedadlı rejissor həmin il noyabrın 22-də Aşqabaddakı Dövlət Azərbaycan Dram Teatrına birillik ezamiyyətə göndərilib.

Teatr 1934-cü ildə monumental-romantik üslubda iki və psixoloji səpkidə bir böyük sənət nailiyyəti qazanıb. Hüseyn Cavidin "Səyavuş" faciəsinin (1 mart. Quruluşçu rejissor İsmayıl Hidayətzadə, tərtibat rəssamı Vyaçeslav İvanov, geyim rəssamı Susanna Samorodova, bəstəkar Əfrasiyab Bədəlbəyli) və Aleksandr Korneyçukun "Eskadramn məhvi" dramının ("31-43". 5 noyabr. Quruluşçu rejissor Yusif Yulduz, rəssam Nüsrət Fətullayev, musiqi tərtibçisi Saveli Ayzen, rejissor assistenti Şəmsi Bədəlbəyli) tamaşaları teatrın monumentalizm axtarışlarında hadisəyə çevrilən sənət nümunələri olub.

Psixoloji səpkidə isə Vasili Şkvarkinin "Özgə uşağı" (27 mart. Tərcüməçilər Rza Təhmasib və Mustafa Mərdanov. Quruluşçu rejissor Rza Təhmasib, rəssam Sergey Yefimenko, musiqi tərtibçisi Saveli Ayzen) pyesinin tamaşası uzun müddət repertuarda qalıb.

"Səyavuş"da Ülvi Rəcəb və Abbasmirzə Şərifzadə (Səyavuş), Rza Təhmasib və Rza Əfqanlı (Keykavus), Mərziyə Davudova (Südabə), Ağasadıq Gəraybəyli (Əfrasiyab), Sidqi Ruhulla (Rüstəm), Möhsün Sənani (Gərşivəz), "Eskadramn məhvi"ndə (bəzən "Donanınanın məhvi" yazılıb) Mərziyə Davudova və Yeva Olenskaya (Oksana), Sidqi Ruhulla və Ülvi Rəcəb (Bosman kobza), Rza Əfqanlı və Abbasmirzə Şərifzadə (Qayday), "Özgə uşağı"nda Mirzağa Əliyev və Məmmədəli Vəlixanlı (Qaraulov), Sona Hacıyeva və Yeva Olenskaya (Manya), Mustafa Mərdanov və Dadaş Şaraph (Seneqda) ilin ən uğurlu aktyor ifalarına nail ola biliblər.

**1935.** Görkəmli dramaturq, uzun illər teatrın ədəbi hissə müdiri işləyən Cəfər Cabbarlı 1934-cü il yanvarın 31-də qəflətən vəfat etdi. Üstəlik teatr 1935-ci ilə baş rejissorsuz qədəm qoydu. Halbuki bu dövrdə kollektivdə İsmayıl Hidayətzadə kimi istedad yetişmişdi, lakin nədənsə onun baş rejissor Kürsüsünu tutmasma mane olurdular. Belə bir şəraitdə kollektiv 1935-cı üdə Aleksandr Osirovskinin "Günahsız müqəssirlər" dramının maraqlı (28 yanvar. Tərcüməçi Rza Təhmasib, quruluşçu rejissor L.Daşkovski, rejissor assistentləri Fərəc Süheyli və Səftər Turabov. Neznamov - İsmayıl Dağıstanlı və Sadıq Saleh, Kruçinina - Mərziyə Davudova, Şmaqa - İsmayıl Hidayətzadə və Mustafa Mərdanov) və Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsinin zəif (21 fevral. Quruluşçu rejissor Abbasmirzə Şərifzadə, rəssamlar Rüstəm Mustafayev və Qolobenkov, bəstəkar Niyazi. Nəcəf bəy - Sidqi Ruhulla, Rza Darablı və Abbasmirzə Şərifzadə) tamaşalarını tamaşaçılara təqdim edib.

Milli kadrların arasında baş rejissor görmək istəməyən rəhbərlik həmin vəzifəyə 1935-ci il fevral ayının 10-da Qroznı şəhərindən Aleksandr Tuqanovu dəvət edib. Kollektivin truppasını yaxından tanıyan, onun yaradıcılıq prinsiplərinə, üslub xüsusiyyətlərinə müəyyən dərəcədə bələd olan Aleksandr Tuqanov təzə tamaşa hazırlamağa tələsmədi. O, Cəfər Cabbarlının "1905-ci ildə" dramına (23 aprel. Rəssam Rüstəm Mustafayev və bəstəkar Əfrasiyab Bədəlbəyli) və Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasma (2 oktyabr. Bəstəkar Əfrasiyab Bədəlbəyli, rejissor assistenti Şəmsi Bədəlbəyli) quruluş verən Rza Darabhnm işləMəsmə şərait yaratmışdı. Eyni zamanda əsasən ümumi yaradıcılıq problemlərini nizamlamağa çalışırdı.

Onun təşəbbüsü ilə gənc rejissor Ələsgər Şərifov gənc dramaturq Qurban Musayevin müasir mövzuda yazdığı, lakin zəif alınan "Qızıl çeşmə" pyesinə (26 noyabr. Rəssam Nüsrət Fətullayev, bəstəkar Niyazi) müstəqil quruluş verib.

Aleksandr Tuqanov özü isə payız mövsümündə də tamaşaçıların görüşünə yeni əsərlə gəlməyib. Vaxtilə hazırladığı "Sevil" dramının quruluşuna müəyyən əl gəzdirərək onu oktyabrın 27-də premyera kimi təqdim edib. Baş rolların ifaçıları dəyişməmişdi.

**1936.** Aleksandr Tuqanov Vilyam Şekspirin "Maqbet" (tərcüməçi Hacıbaba Nəzərli) faciəsi üzərində işləyirdi və bu yaradıcılıq prosesi uzun çəkib. Həmin tamaşa ilk dəfə 1936-cı il martın 15-də göstərilib. Rəssamın Mixail Tixomirov, rejissor assistentinin Şəmsi Bədəlbəyli olduqları "Maqbet" tamaşası teatrın Şekspir irsinə müraciətləri arasında layiqli yer tuta bilib. Tamaşanın əsas ağırlığı Abbasmirzə Şərifzadənin (Maqbet), Mərziyə Davudovanın (Ledi Maqbet), Sidqi Ruhullanın (Banko), Ələsgər Ələkbərovun (Maqduf) üzərlərinə düşürdü.

"Maqbet"dən sonra teatr daha bir monumental tamaşanı repertuarına daxil etdi. Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povestinin motivləri əsasında Cananın səhnələşdirdiyi "Şahnamə" dramına quruluşu İsmayıl Hidayətzadə, tərtibatı Rüstəm Mustafayev vermişdilər. May ayının 28-də ilk tamaşası oynanılan əsərdə baş rolları Ələsgər Ələkbərov (Şah Zeyr), Rza Əfqanlı (Şahrux xan), Sidqi Ruhulla (Xacə Mübarək), Abbasmirzə Şərifzadə və Möhsün Sənani (Gülab Şirzad), Ağasadıq Gəraybəyli (Mirzə Yusif), Mərziyə Davudova və Qəmər Topuriya (Səlimə xanım) ifa ediblər.

Bundan sonra Aleksandr Tuqanov Nobel mükafatı laureatı, Belçhca dramaturqu Moris Meterlinkin "Göy quş" (28 oktyabr) dramını hazırlayıb. Pyesi İsmayıl Hidayətzadə tərcümə edib və rəssamlığı Mixail Tixomirov, musiqi tərtibatçılığını İlya Sats ediblər. Milli səhnəmizin ilk travesti (oğlan rolu oynayan) aktrisası Barat Şəkinskayanın oynadığı Tiltil, Sidqi Ruhullanın Baba və Nataliya Lizinanın Nənə rolları maraqla baxılıb və rəğbətlə qarşılanıb.

Gələcəyin dahi rejissoru Ədil İsgəndərov bu il yanvarın 3-də Aleksandr Korneyçukun "Platon kreçet" dramını "Polad Qartal" adı ilə, Ülvi Rəcəblə Mustafa Mərdanovun tərcüməsində diplom tamaşası kimi hazırlayıb. Tamaşanın rəssamı Mixail Tixomirov, bəstəkarı Niyazi, rejissor assistenti Fərəc Süheyli idilər. Əsas rolları isə Ülvi Rəcəb (Polad Qartal), Barat Şəkinskaya (Şəfiqə), Mərziyə Davudova və Sona Hacıyeva (Nərgiz), Mirzağa Əliyev və Mustafa Mərdanov (Loğman) oynayıblar.

Aleksandr Tuqanovun təşəbbüsü ilə Cəfər Cabbarlının "Almaz" (5 oktyabr. Rəssam Nüsrət Fətullayev, bəstəkar Əfrasiyab Bədəlbəyli. Almaz - Sona Hacıyeva, Mirzə Səməndər -Mirzağa Əliyev və Abbasmirzə Şərifzadə, Şərif - Möhsün Sənani. Hacı Əhməd - Əli Qurbanov) dramının quruluşu gənc Ağəli Dadaşova və Jan Batist Molyerin "Kələkbaz Skapen" ("Skapenin kələkləri". 5 dekabr. Tərcüməçi İsmayıl Hidayətzadə, rəssam Nüsrət Fətullayev. Skapen - İsmayıl Hidayətzadə, Arqant - Məmmədəli Vəlixanlı, Jeront - Mirzağa Əliyev, Oktav - Dadaş Şaraplı və Yunis Nərimanov) komediyasının rejissorluğu Rza Darabhya tapşırılmışdı.

**1937.** Milli Dram Teatrının 1937-ci ildə ən böyük sənət qələbəsi Vilyam Şekspirin "Romeo və Cülyetta" məhəbbət dramının tamaşası olub. Pyesi Əhməd Cavad tərcümə etmiş, onu tamaşaya rejissor Aleksandr Tuqanov, rəssam Mixail Tixomirov, musiqi tərtibçisi Saveli Ayzen hazırlamışdılar. İlk tamaşa yanvarın 14-də göstərilib və əsas rolları Barat Şəkinskaya (Cülyetta) və Ülvi Rəcəb (Romeo) böyük şövqlə, lirik-poetik vüsətlə oynayıblar. Cülyetta rolunda Sona Hacıyeva və Fatma Qədri də çıxış ediblər. Aktyorlardan Sidqi Ruhullanın (Eskal), Mustafa Mərdanovun (Kapuletti), Qəmər Topuriyanın (Sinyora Kapuletti), Abbas Rzayevin (Montekki), Nataliya Lizinanın (Sinyora Montekki), Ağasadıq Gəraybəylinin (Lorenso), Musa Hacızadənin (Paris), Yeva Olenskayanın (Cülyettanın dayəsi), Rza Əfqanlının (Merkusio), Ələsgər Ələkbərovun (Tibalt) oyunları yüksək sənətkarlıq səciyyələri daşıyırdılar.

Aleksandr Tuqanovun quruluşunda Aleksandr Puşkinin "Dubrovski" (23 fevral. Tərcüməçilər Ülvi Rəcəb və Mustafa Mərdanov) pyesinin tamaşası güclü aktyorlar Abbasmirzə Şərifzadənin Dubrovski), Fatma Qədrinin və Nəzirə Əliyevanın (Maşa), Sidqi Ruhullanın (Troyekurov), Mustafa Mərdanovun (Anton Sitsin), Əli Qurbanovun (Arxip) iştirakiarına baxmayaraq, "Romeo və Cülyetta" qədər uğur qazana bilməyib. Bu baxımdan İsmayıl Hidayətzadənin "1905-ci il" (3 noyabr) dramına verdiyi quruluş da rejissorun əvvəlki son iki ildəki işləri ilə müqayisədə zəif görünürdü.

Sənət nailiyyətləri baxımından ilin ikinci hadisəsi Mirzə İbrahimovun eyniadlı pyesi əsasında Ədil İsgəndərovun hazırladığı "Həyat" tamaşası oldu. Premyerası aprelin 28-də oynanılan "Həyat" tamaşasının tərtibat rəssamı Nüsrət Fətullayev, geyim rəssamı İsmayıl Axundov, bəstəkarı Səid Rüstəmov idi. Əsas rolları isə Mərziyə Davudova (Həyat), Ələsgər Ələkbərov (Akif), Rza Əfqanlı (Abbas), Sona Hacıyeva, Barat Şəkinskaya və Fatma Qədri (Atlas), Mustafa Mərdanov (Həsənov), Ülvi Rəcəb (Süleyman), Dadaş Şaraph (Pardon Qurbanəli), Ağasadıq Gəraybəyli (Məşədi Hüseyn) oynayıblar.

SSRİ-də, o cümlədən də Azərbaycanda başlayan repressiya nəticəsində 1937-ci idə dramaturq Hüseyn Cavidin, tərcüməçi Əhməd Cavadın, aktyorlardan Abbasmirzə Şərifzadənin, Ülvi Rəcəbin, Panfiliya Tanailidinin tutulmaları, Mirzağa Əliyevin, Möhsün Sənaninin, Fatma Qədrinin bir müddət teatrdan uzaq düşmələri nəticəsində kollektivin yaradıcılıq iqlimində zəifləmə başlayıb. Bir sıra tamaşalar repertuardan çıxarılıb.

Aleksandr Tuqanov 1937-ci il mart ayının 4-də baş rejissorluqdan istefa verib. İncəsənət işləri idarəsmin əmri ilə teatrda baş rejissor vəzifəsi ləğv olunub və bədii rəhbər vəzifəsi ilə əvəzlənib. Həmin vəzifənin funksiyasının icrası müvəqqəti olaraq gənc rejissor, ötən il Moskvada ali təhsilini başa vurub təyinatla Bakıya göndərilən Ədil İsgəndərova tapşırılıb.

## MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1910-1940)

### Birinci dərs

Bakıda iyirminci əsrin əvvəllərində "Nicat", "Səfa" və bu kimi teatr truppaları yarandıqca səhnə sənətinin, o cümlədən aktyorluğun peşəkarlıq səciyyələri güclənib. Bir sıra həvəskarlar artıq aktyorluğu əsas peşə kimi qəbul ediblər və onu formalaşdırmağa nail ola bilblər. Həmin aktyorların içərisində eləələri var ki, onların yaradıcılıqlarına xüsusi diqqət yetirmək, oynadıqları rolların mahiyyət və xarakterlərini sistemləşdirmək lazımdır. Məhz həmin təhlil prinsipində həm ayrı-ayrı aktyorların yaradıcılıq xüsusiyyətləri üzə çıxır, həm də bütövlükdə milli səhnə sənətimizdə aktyorluq məktəblərinin estetik prinsipləri, poetika göstəriciləri öz təcəssümünü tapır.

### MİRMAHMUD KAZIMOVSKİ (1882-1.12.1940)

Azərbaycanın ilk peşəkar aktyorlarından olan Mirmahmud Mirələkbər oğlu Kazımovski 1882-ci ildə Bakıda doğulub və burada maarifpərvər, teatr xadimi Həbib bəy Mahmudbəyovun üçsiniflik türk-rus (rus-tatar) məktəbində oxuyub, gələcəyin böyük aktyoru Hüseyn Ərəblinski ilə dostlaşıblar. Bir yerdə səhnəyə ilk dəfə 9 mart 1897-ci ildə müəllimləri Sultanməcid Qənizadənin hazırladığı "Lənkəran xanının vəziri" (Mirzə Fətəli Axundzadə) tamaşasında çıxıblar. Həmin gündən başlayaraq Cahangir Zeynalovun ev tamaşalarında (öz mənzilində göstərilən əsərlərdə) oynamağa başlayıb. Sonralar "Müsəlman dram artistləri" dəstəsində, əsasən "Nicat"ın truppasında və az-az müddətlərdə müxtəlif teatr bölmələrində, həvəskarların dərnəklərində aktyorluq edib.

Yaradıcılığı bugünkü Akademik Milli Dram Teatrı ilə sıx bağlı olan Kazımovski iyirminci illərin əvvəllərində Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında işləyib. Ömrünün son illərində fəxri təqaüddə olsa da, Milli Dram Teatrının tamaşalarında oynayıb. 1935-ci ildə Dərbənddə teatr yaradılmasında iştirak edib.

O, "Nə qanır, nə qandırır", "Vurhavur", "Daşım-daşım", "Molla Cəbi" ("Molla Cəbi və yaxud kəndxuda"), "Cümcümü bəy" "Həmşəri mənzili", "Yaftuməli" kiçik həcmli dram və vodevillərin müəllifidir. "Bakılılar", "Kəndlilər", "Bismillah" filmlərində epizod rollara çəkilib.

1938-ci il dekabrın 4-də Mirmahmud Kazımovskiyə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı verilib. Aktyor 1 dekabr 1940-cı ildə Bakıda vəfat edib.

Mirmahmud Kazımovskinin oynadığı çoxsaylı səhnə obrazları arasında Ağa Bəşir ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), İvan bəy, Cahangir bəy və Əhməd ("Keçmişdə qaçaqlar", "Pəhlivanani-zəmanə" və "Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Mirzə Hüseyn və Azarlı ("Ölülər", Cəlil Məmmədquluzadə), Allahqulu ("Çəkinəçi Seyfulla" Məhəmmədhəsən Həsənov. Əsərin adı "Pinəçi Seyfulla" kimi də yazılıb), Nozər ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Rodriqo, Əczaçı ("Otello" və "Romeo və Cülyetta", Vilyam Şekspir), Podpolkovnik ("Vətən", Namiq Kamal), De Kastre ("1812-ci il", Baxmetov), Suxrani ("Ağa Məhəmməd şah Qacar", Əbdürrəhim bəy Haqverdiyev), Molla ("1905-ci ildə", Cəfər Cabbarlı), Piri baba ("Qızıl çeşmə", Qurban Musayev), Qurban kişi ("Vaqif", Səməd Vurğun), kolxozçu ("Toy", Sabit Rəhman) epizod rolları daha diqqətçəkəndir.

### HACIAĞA ABBASOV (16.6.1888-7.5.1975)

Komik aktyor, fərasətli teatr təşkilatçısı və rəhbəri, ictimai xadim, məlumatlı ziyalı kimi tanınıb sevilən Hacıağa Mütəllib oğlu Abbasov 16 iyun 1888-ci ildə Bakının Maştağa kəndində müəllim ailəsində doğulub. İbtidai təhsilini doğulduğu kəndindəki rus-tatar (rus-türk) məktəbində

alıb və sonra Bakıda oxuyub. 1906-1909-cu illərdə Petrovsk-Portda (indiki Mahaçqala) pedaqoji təhsilə yiyələnib. Burada oxuyarkən azərbaycanlılardan ibarət teatr dəstəsi yaradıb və həmin truppa ilə Teymurxanşurada (sonra Bunyaksk adlandırıldı) teatr açıb.

Təhsilini başa vurduqdan sonra müəllim diplomu ilə Bakıya qayıdıb. Balaxanı kəndində Mirzə Ələkbər Sabirlə birlikdə uşaqlara dərs deyib. Eyni zamanda "Müsəlman artistləri cəmiyyəti"nin, "Nicat", "Həmiyyət" teatr truppalarının fəal üzvü olub. Sonralar "Səfa" cəmiyyətinin teatr truppasında, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə aktyorluq edib.

1920-ci ildə bugünkü Akademik Milli Dram Teatrına üzv olan Hacıağa Abbasov bir müddət burada çalışıb. Həyat və sənət dostu Mirzağa Əliyevlə birgə 1921-ci il noyabrın 13-də Bakı Türk Azad Tənqid və Təbliğ Teatrını yaradıblar, özü direktor olub. Həmin sənət ocağı bu iki aktyorun adı ilə bağlı olduğuna görə tamaşaçılar arasında "Hacımirz" teatrı kimi tanınıb-sevilirdi. 1925-ci ildə Hacıağa Abbasov Akademik teatra direktor təyin olunub. Bakı Teatr Məktəbində direktor işləyib (1929-1937). Repressiya illərində təqib olunduğuna görə bir müddət Orta Asiya respublikalarında yaşayıb. Səksən yeddi yaşında Bakıda dünyasını dəyişib və doğma kəndində torpağa tapşırılıb.

Əsas rolları: Şeyx Nəsrulla ("Ölülər", Mirzə Cəlil Məmmədquluzadə), Mirzə Mehdi xan, Şamdan bəy ("Nadir şah" və "Şamdan bəy", Nəriman Nərimanov), Ağa Kərim xan, Hacı Qəmbər ("Ağa Kərim xan Ərdəbili" və "Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Molla İbrahimxəlil ("Molla İbrahimxəlil kimyagər", Mirzə Fətəli Axundzadə), Qubad ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Osip ("Müfəttiş", Qoqol), Moisey ("Yəhudilər", Yevgeni Çireov).

Aktyor Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad", "Arşın mal alan", "Ər və arvad" operettalarında Məşədi İbad, Soltan bəy, Kəblə Qubad rollarını müxtəlif quruluşlarda dəfələrlə və uğurla oynayıb.

Sənətdə qazandığı nailiyyətlərə və teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə görə Hacıağa Abbasova xalq artisti fəxri adı verilib (1932).

Hacıağa Abbasov 7 may 1975-ci ildə Bakıda vəfat edib.

## RZA DARABLI (1883 -23.3.1942)

"Darablı" onun səhnə təxəllüsüdür. Bir müddət tamaşalarda təxəllüsünü "Darablinski" yazdırıb. Əsasən aktyorluqla, müəyyən illərdə isə rejissorluqla da məşğul olub. 1933-cü ildə Azərbaycan Respublkasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

Rza Nəcəfəli oğlu Hüseynov (Darablı) 1883-cü ildə Bakıda doğulub. Əvvəlcə mədrəsədə, sonra türk-rus məktəbində təhsil alıb. Savadını ölkə xaricində ali məktəbdə davam etdirməyə çalışıb, lakin buna nail ola bilməyib. Mədəniyyətin müxtəlif sahələrinə maraq göstərib. 1911-ci ildən ara-sıra "Nicat" mədəni-maarif cəmiyyətinin truppasında epizodik, sözsüz surətlər oynayıb və üç il sonra isə müntəzəm şəkildə teatr tamaşalarında iştirak edib. Azərbaycanın ilk parodiyaçı aktyorlarından sayılır.

Rza Darablı "Nicat", "Səfa", "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" truppalarında dram, faciə, komediya, opera və operetta tamaşalarında maraqlı rollar oynayıb. Üzeyir bəy Hacıbəyovun "Şah Abbas və Xurşidbanu" operasındakı Məstavər obrazının yaxşı ifaçısı olub. 1919-cü ildən bugünkü Milli Dram Teatrının truppasında aparıcı aktyorlardan biri kimi çıxışlar edib. 1925-1928-ci illərdə Moskvada Mərkzi Teatr Sənəti Texnikumunda təhsil alıb və yenidən doğma kollektivə qayıdıb.

Komediya və dram aktyoru Rza Darablının yaradıcılığını iki dövrə ayırmaq olar: 1919-cu ilə qədərki dövr və ondan sonraki illərdəki fəaliyyəti.

Birinci dövrdəki əsas rolları: Vəli, Hambal ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Qacar, Həmzə bəy, İblis ("Ağa Məhəmməd şah Qacar", "Dağılan tifaq" və "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Məşədi Oruc və Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə),

Şamdan bəy, Şah Təhmasib ("Dilin bəlası" və "Nadir şah", Nəriman Nərimanov), Tofiq bəy, Mustafa paşa, Haris ("Bakı müharibəsi", "Ədirnə fəthi" və "Trablis müharibəsi", Cəfər Cabbarlı), Ismayıl bəy və İbrahim ("Keçmişdə qaçaqlar", Nəcəf bəy Vəzirov).

Teatr dövlət statusu alandan sonra Rza Darablı daha uğurla Ənvər bəy, Belokurov, Yanardağ, İbad ("Yulduz, yaxud Trablis müharibəsi", "Yaşar", "Od gəlini" və "Almaz", Cəfər Cabbarlı), İbn Yəmin və İblis, Şeyx Sənan, Knyaz ("İblis", "Şeyx Sənan" və "Knyaz", Hüseyn Cavid), Qəhtan ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Mixail Petroviç ("Qaçaq Kərəm", Vano Mçedaşvili), Əlimərdan ("Eşq və intiqam", Süleyman Sani Axundov), Arsini ("Nei qülləsinin sirri", Aleksandr Düma), Dərviş Abbas ("Molla İbrahimxəlil kimyagər", Mirzə Fətəli Axundzadə), Ursus ("Gülən adam", Viktor Hüqo), Şpigelberq ("Qaçaqlar", Fridrix Şiller), Qapral Barbaru ("İntervensiya", Lev Slavin), Mironov ("Özgə uşağı", Vasili Şkvarkin), Usta Bəhlul ("Şahnamə", Canan), Məhkəmə sədri ("Dubrovski", Aleksandr Puşkin), Molla Ağabala ("Toy", Sabit Rəhman) rollarını ifa edib.

1940-cı il oktyabrın 24-də Pyer Bomarşenin "Fiqaronun toyu" komediyasında oynadığı Antonio rolu Rza Darablının teatrda son səhnə obrazıdır.

Səhnə fəaliyyəti ilə yanaşı, Bakı Teatr Məktəbində dərs deyib, filmlərə çəkilib.

Rza Darablı 23 mart 1942-ci ildə Bakıda vəfat edib.

**PANFİLİYA TANAİLİDI (1891-15.10.1938)**

Milliyyətcə yunan olan Panfiliya Nikolayevna Tanailidi 1891-ci ildə İrəvan xanlığı Zəngəzur mahalının Basarkeçər kəndində doğulub. Ailəsi buraya Türkiyənin Qars şəhərindən gəlib və bir müddət yaşayandan sonra Tiflisə köçüblər. Türkcə təmiz danışan Panfiliya xanım Tiflisdə rus və gürcü dillərini də öyrənib.

Xüsuci təhsil görməyib. Zərif bədəni mütənasib biçimli idi və o, ən müxtəlif ritmli rəqsləri uşaq yaşlarından məharətlə oynayıb. Buna görə də on dürd-on beş yaşlarından Tiflisin Kazyonnı teatr, Zubalov adına "Xalq evi" kimi böyük salonlarında azərbaycanlıların keçirdikləri müsamirələrdə, müxtəlif həvəskar teatr truppaların hazırladıqları tamaşalarda "Zəngəzurskaya" və "Sürəyya" təxəllüsləri ilə çıxışlar edib.

Mustafa Mərdanov və Mirseyfəddin Kirmanşahlının təşkil etdikləri truppa-dəstələrlə İranda, Türkiyədə qastrollarda Tanailidi dram, opera və operetta tamaşalarında oynayıb. Bu dövrdə ayrı-ayrı illərdə Bakıya gələrək müxtəlif teatr dəstələrinin tərkibində tamaşalarda oynayıb. Tiflis Dövlət Azərbaycan Teatrının yaradıcılarından biri də Panfiliya Tanailidi idi. 1925-ci ildə Tiflisdən gəlmiş baş rejissor Aleksandr Tuqanovun dəvətilə Panfiliya Tanailidi yenidən Milli Dram Teatrının truppasına daxil olub.

Panfiliya Tanailidi 1919-cu ildə Mehriban ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Şəmsa ("Trablis müharibəsi", Cəfər Cabbarlı), Azərbay ("Azərbay və Can", İsa bəy Aşurbəyli), 1925-ci ildən sonra isə Kəblə Fatma ("Ölülər", Cəlil Məmmədquluzadə), Emiliya, Karvansaraçı, Cülyettanın dayəsi ("Otello", "Şıltaq qızın yumşalması" və "Romeo və Cülyetta", Vilyam Şekspir), Marqarita, Ledi Ariyella ("80 gün dünya səyahətində" və "Kapitan Qrantın uşaqları", Jül Vern), Şamama cadu ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Tükəz ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Köylü qadın, Rübabə, Marqo ("Topal Teymur", "Səyavuş" və "Knyaz", Hüseyn Cavid), Qəmər xanım ("Tələbələrin kələyi", Brandon Tomas), Tamara, Böyükxanım, Tafta ("Oqtay Eloğlu", "Aydın" və "Sevil", Cəfər Cabbarlı), Marri ("Tom dayının koması", Biçer Stou), Karoleva Anna ("Gülən adam", Viktor Hüqo), Amaliya ("Qorxu", Aleksandr Afinogenov), Qalçixa "Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Nisə xala ("Polad Qartal", Aleksandr Korneyçuk), Nənə ("Göy quş", Moris Meterlink) rollarını və digər səhnə surətlərini ifa edib.

1937-ci ildə tüğyan edən şəxsiyyətəpərəstiş dövrünün repressiyası Panfiliya Tanailididən də yan keçməyib. Dekabr ayının 15-dən 16-na keçən gecə həbs olunub. Dəhşətli və işgəncəli istintaq

uzun müddət davam edib və aktrisanın güllələnməsi barədə hökm çıxarılıb. Şən xasiyyətli, şux zarafatları uə kollektivin rəğbətini qazanmış Panfiliya Tanailidi 1938-ci il oktyabr ayının 15-də, axşam saat onun yarısında Bakıda gullələnib. Məzarı yoxdur.

## MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1910-1940)

### İkinci dərs

İyirminci əsrin əvvəllərində Bakıda milli antor sənəti iki qol əsasında inkişaf edib. Təbii ki, romantik və realist aktyor məktəblərini təmsil edənlərin əksər qismi mənsub olduqları üslubun estetik mahiyyətini, psixoloji-fəlsəfi əsaslarını dərindən, bütün incəlikləri ilə bilmirdilər. Bir qrup sənətkarlar isə ilk növbədə fitri istedadlarına arxalanıblar. Məhz həmin mənəvi dayaqla yanaşı, şüurlu surətdə yaradıcılıqlarının mahiyyətini təşkil edən, oyun estetikasının prinsiplərini cilalamağa və zənginləşdirməyə səy göstəriblər. Beləliklə, bu dərsdə yaradıcılıqları ilə tanış olacağınız səhnə fədailərinin sənətə şüurlu münasibətləri sayəsində romantik və realist aktyor məktəblərinin güclü ənənəsi yaranıb. Yaranıb, inkişaf edib, formalaşıb, özünün poetika səciyyələrini müəyyənləşdirib, estetik prinsiplərini təsdiqləyib və qüdrətli bir ənənə kimi bu gün də davam etməkdədir.

* * *

### ƏLƏKBƏR HÜSEYNZADƏ (3.10.1887 - 4.11.1967)

Azərbaycan Respublikasının əməkdar artisti (1957), Stalin mükafatı laureatı (1946) Ələkbər Hüseyn oğlu Hüseynzadə 3 oktyabr 1887-ci ildə Bakıda zərgər ailəsində doğulub. Beş il mollaxanada oxuyub və sonra rus-tatar məktəbində təhsilini davam etdirib.

İlk dəfə səhnə müəllimi Səməd bəy Hacıəliyevin təşəbbüsü ilə Nəcəf bəy Vəzirovun quruluşunda "Tamahkarlıq düşmən qazanır" (Vasaq Mədətov) tamaşasında Molla Cəbi rolunda çıxıb. Bu gündən sonra müxtəlif teatr truppalarında çıxış edən Ələkbər Hüseynzadə əsasən komediya aktyoru kimi tanınıb.

Ələkbər Hüseynzadə 1913-cü ildə tamaşaya qoyulan "Arşın mal alan"da Soltan bəyin ilk ifaçısı kimi böyük şöhrət qazanmış və uzun illər həmin rolun ən yaxşı yaradıcısı olmuşdur. "Arşın mal alan" filmində də Soltan bəy roluna məhz o çəkilib və bu rola görə Stalin mükafatına layiq görülüb. Aktyor "Nicat" və "Müdiriyyət" truppalarında dramatik rollarla yanaşı, musiqi əsərlərindən "Məşədi İbad"da Hambal və Məşədi İbad, Zülfüqar bəy Hacıbəyovun "Ər və arvad"ında Kəblə Qubad rollarını da oynayıb, müxtəlif operalarda da çıxış edib.

1920-ci ilin mayında bugünkü Milli Dram Teatrı yenidən formalaşanda onun truppasına Ələkbər Hüseynzadə də daxil olub. Yaradıcılığı əsasən realizmi, səmimiyyəti və həyatiliyi ilə səciyyəvi olan aktyorun çoxsaylı rollarından bunları xüsusi göstərmək olar: Hacı Qara və Kərəməli ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Şeyx Nəsrulla və Hacı Həsən ağa ("Ölülər", Mirzə Cəlil Məmmədquluzadə), Həsən ("Ac həriflər"), Hacı Fərzəli ("Dursunəli və ballıbadı", Sultanməcid Qənizadə), Molla Cəbi ("Molla Cəbi", Mirmahmud Kazımovski), Təlxək və Hacı Səməd ağa, Kərbəlayı Bəndəli və Mirzə Qoşunəli ("Pəri cadu" və "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Hüseynqulu, Hacı Salman, Hacı Məmmədhüseyn və Məşədi Cavad ("Dövləti-bisəmər", İsmayıl Rüstəmbəyov), Yolçu, Ədhəm xan və Şah Sultan Hüseyn xan ("Nadir şah", Nəriman Nərimanov), İsgəndər xan ("Ağa Kərim xan Ərdəbili", Nəcəf bəy Vəzirov), Serqo ("Şeyx Sənan", Hüseyn Cavid), Zabit və Abdulla çavuş ("Vətən", Namiq Kamal), Qraf İqnatov ("Sultan

Əbdüləzizin xəli", Mehdi bəy Hacınski), Yuhan, Saman ("Ərmənusə" və "Xalid ibn Valid", Yusif Talıbzadə), "Boqdan ("Tamahkarlıq", Əhməd Qəmərli), Lodoviqo ("Otello", Vüyam Şekspir), Molla Nəsrəddin ("Molla Nəsrəddin", Qulamrza Şərifzadə), Əmir ("Yezid ibn Müaviyyə", Mehdi Hacıbababəyov - Hacınski), Türen ("1812-ci il" və yaxud "Moskva yanğını", Baxmetov), Şeyxülislam, ("Köhnə Türkiyə", Rza Zaki Lətifbəyov), Kərbəlayı Vəli ("Pulsuzluq", İvan Turgenevdən təbdil edəni Ceyhun Hacıbəyli), Yuvil ("Uriel Akosta", Karl Qutskov), Babakişi, Hacı Əhməd, Allahverdi ("Sevil", "Almaz" və "1905-ci ildə", Cəfər Cabbarlı).

Aktyor "Arşın mal alan" operettasındakı Soltan bəy rolunu opera teatrının və Musiqili Komediya Teatrının quruluşlarında da oynayıb.

Ələkbər Hüseynzadə Bakıda Sultan Muradovun "Kəblə Xudu", Əliağa Vahidin "Milli meyxana", Baba Qubinskinin "Yeni kupletlər" oyun-məzhəkələrini tamaşaya hazırlayıb.

Sənətkar 4 noyabr 1967-ci ildə Bakıda vəfat edib.

## ƏZIZƏ MƏMMƏDOVA (1892-14.8.1961)

Azərbaycan teatrının ilk milli professional aktrisalarından olan Əzizə xanım 1892-ci ildə Tiflisdə doğulub. Atası Əbdübağı Zülalov dövrünün tanınmış xanəndəsi idi. Atasından ilk musiqi təhsili alan Əzizə uşaq yaşlarından yaxşı qarmon çalmağı öyrənib. Həddi-büluğa çatmamış, atası onu Şəkili Salmana ərə verib. 1908-ci ildə əri vəfat edən Əzizə Məmmədova körpə qızı, gələcəyin xalq aktrisası olan Sona Hacıyeva ilə Tiflisə, atası evinə qayıdıb. Ata, qızı və nəvəsi Tiflisdə, Aşqabadda yaşayıblar və 1919-cu ildə Bakıya köçüblər.

Musiqiyə, incəsənətə coşğun maraq göstərən Əzizə xanım tanışları vasitəsilə əvvəl Əbilov adına, qısa müddət sonra isə qadınlardan ibarət Əli Bayramov adına klublarda fəal üzvlərdən biri olub. 1921-ci ilin payızında Bakı Türk Azad Tənqid və Təbliğ Teatrı təşkil olunanda onun yaradıcılarından Mirzağa Əliyev və Hacıağa Abbasov müəyyən səhnə təcrübəsi toplayan Əzizə Məmmədovanın buraya aktrisa dəvət ediblər. 1923-cü ildə Akademik Milli Dram Teatrına dəvət alan sənətkar üç ilə qədər hər iki sənət ocağında işləyib. 1925-ci ilin axırlarında isə yalnız Akademik teatrda çalışıb və 1930-cu il-lərdə qısa müddət yenə Türk İşçi Teatrında (əvvəlki Tənqid və Təbliğ Teatrı) oynayıb.

Bakı Türk İşçi Teatrında Anatoli Qlebovun "İncə" (Zeynəb Əkrəmzadə), Hacıbaba Nəzərli və Süleyman Rüstəmin "Yanğın" (İncə qarı), Süleyman Rüstəmin "Qana qan" (Səkinə), Vladimir Kirşonun "Küləklər şəhəri" (Qadın) tamaşalarında oynayıb.

Akademik Milli Dram Teatrında oynadığı əsas rollar bunlardır: Tükəzban ("Vaqif", Səməd Vurğun), Sonanın anası, Pəri xanım ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Cəfər Cabbarlının dramlarında Gülsüm ("1905-ci ildə"), Fatmanisə və Xanımnaz ("Almaz"), Şərəbanı ("Yaşar"), Gülgəz ("Oqtay Eloğlu"), Güllü ("Qardaşlar", Rəsul Rza), Sədaqət xala ("Yadigar", İslam Səfərli), Lətifə ("İldırım", Cabbar Məcnunbəyov), Atlasın anası ("Həyat", Mirzə İbrahimov), Luka Lukiçin arvadı ("Müfəttiş", Nikolay Qoqol), Marfa ("Özgə uşağı", Vasili Şkvarkin), Anna İvanovna ("Prokurorun qızı", Yuri Yanovski), Terentyevna ("Dubrovski", Aleksandr Puşkin), Tokarçuk ("İntervensiya", Lev Slavin), Zalxa ("Toy", Sabit Rəhman).

Əzizə Məmmədova "Azərbaycanfilm"də istehsal olunan "Almaz", "İsmət", "Hacı Qara", "Görüş", "Yeni horizont", "Səhər" filmlərində müxtəlif epizod rollara çəkilib.

Tamaşaçıların sevimlisi olan aktrisa teatr sənətində göstərdiyi xidmətlərə görə 1 fevral 1936-cı ildə Azərbaycan respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub. Əzizə Məmmədova 14 avqust 1961-ci ildə Bakıda vəfat edib.

Kiçik, lakin məlahətli səsi olan Əzizə Məmmədova səhnə təbiiliyi, koloritli xalq yumoru, çevik improvizə bacarığı ilə realist aktyor məktəbinin səciyyəvi sənətkarlarından biri kimi tarixiləşib. O, öz məlahətli oxusu ilə opera və operettalarda ariozoları, kupletləri ürəyəyatımlı tərzdə oxuyub.

**ƏBÜLHƏSƏN ANAPLI (1894-12.2.1921)**

Azərbaycan teatrının ən görkəmli komiklərindən biri olan Əbülhəsən Anaplı (Məmmədov) 1894-cü ildə Qubada doğulub. Uşaqlığı Bakıda keçən Əbülhəsən səhnəyə ilk dəfə 1911-ci ildə çıxıb. "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr truppalarında, Hüseynqulu Sarabskinin "Müsəlman opera artistləri", "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" teatr dəstəsində faciə, dram, əsasən komediya tamaşalarında cazibəli səhnə surətləri yaradıb. Soyadı bəzi afişa və proqramlarda "Anaplinski" kimi də göstərilib.

Fitrətən güclü yumor keyfiyyətinə malik olan Əbülhəsən Anaplı dramaturq Nəcəf bəy Vəzirovun "Keçmişdə qaçaqlar" (Pirverdi), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Niyaz və Əmrah), "Dağılan tifaq" (Gənc, Əbdül və İmamverdi), "Ac həriflər" (Həsən), Nəriman Nərimanovun "Nadir şah" (Cavad), Cəfər Cabbarlının "Ədirnə fəthi" (Molla Hacı), Rza Zakinin "Sultan Əbdülhəmidin xəli" (Abdulla bəy), Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə və ya Nuru paşanın igidliyi" (Samson), İsa bəy Aşurbəylinin "Azərbay və Can" (İvan), Fridrix Şillerin "Qaçaqlar" (Papas), Vilyam Şekspirin "Kral Lir" (Təlxək), İvan Turgenevin "Pulsuzluq" (Kərbəlayı Vəli. Əsəri Ceyhun Hacıbəyli tərcümə-təbdil edib), İsmayıl Rüstəmbəyovun "Dövləti-bisəmər" (Abdulla) əsərlərinin tamaşalarında çıxış edib.

Üzeyir bəy Hacıbəyovun "Şah Abbas və Xurşid banu", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operalarında Divanə və Güloğlan rollarını oynamış Əbülhəsən Anaplı "Arşın mal alan" və "Məşədi İbad" operettalarında Vəli ilə Hambalın ən populyar ifaçılarından olub.

Əbülhəsən Anaplı Azərbaycanın ilk parodiya aktyorlarından biridir. O, sənət dostu Rza Darablı ilə birgə böyük maraqla qarşılanan konsertlər vermiş, burada faciə aktyorlarından Hüseyn Ərəblinskinin, Abbasmirzə Şərifzadənin, komiklərdən Mirzağa Əliyevin, Hacıağa Abbasovun, opera ustası Hüseynqulu Sarabskinin, qadın rollarının mahir ifaçısı Əhməd Ağdamskinin və başqalarının oyun tərzlərinə maraqlı parodiyalar etmişdir.

1921-ci ilin fevralında Əbülhəsən Anaplı sənət dostu Mir Paşa Sadıqovla kiçik təbliğat dəstəsi ilə Qarabağın Keşiş kəndində çıxış edəndən sonra gecə erməni daşnakiarı tərəfindən qətlə yetiriliblər.

Yaradıcılığı qaravəlli oyun prinsipləri, çevik improvizə bacarığı ilə seçilib. Gözəl və məlahətli səsi, zərif plastikası aktyorluq imkanlarına genişlik verib.

**RZA TƏHMASİB (20.4.1894-14.2.1980)**

Realist aktyor məktəbinin yetirmələrindən biri də xarakterlər ustası, mürəkkəb, psixoloji, ictimai-sosial zəmini "gizli" obrazları yüksək peşəkarlıqla ifa edən aktyor, teatr və kino rejissoru Rza Təhmasibdir.

Rza Abbasqulu oğlu 20 aprel 1894-cü ildə Naxçıvanda, mədəniyyəti və elmi yüksək qiymətləndirən bir ailədə doğulub. İlk təhsilini Naxçıvanda alıb və doğma dillə yanaşı, rus dilini mükəmməl öyrənib. Səhnəyə də ilk dəfə 1907-ci ildə məktəbdə hazırlanan Nikolay Qoqolun "Ölü canlar"ında Çiçikov rolunda çıxıb. Tamaşa rusca oynanılıb.

Tanınmış tacir olan, Türkiyə, İran, İrəvan, Tiflis... ilə alış-veriş əlaqələri qurmuş Abbasqulu bəy 1910-cu ildə oğlunu Tiflisə oxumağa yollayıb. Gənc Rza burada səkkizillik ticarət məktəbinin dördüncü sinifinə daxil olub. Az müddətdə Tiflisin ədəbi-mədəni həyatı ilə tanış olan Rza Təhmasib buradakı Azərbaycan teatr həvəskarları dərnəyinə üzv yazılıb. Təhsil ocağını 1915-ci ildə bitirib və işləmək üçün Bakıya göndərilib. O, müxtəlif idarə (kontor) işlərində çalışıb. 1920-ci ilin payızında Milli Dram Teatrına işə götürülüb.

Milli səhnəmizdə obrazın səhnə təfsirinə (traktovkasma) ciddi yanaşan, sifət ifadələrinin (mimikanın) xarakterin açılmasında mühüm amil olduğunu əyani göstərən aktyorlar arasında

ilkinlərdən biri də Rza Təhmasib idi. Cəfər Cabbarlının tiplər qalereyasında Aydın və Dövlət bəy ("Aydın"), Elxan və Əbu Übeyd ("Od gəlini"), Balaş ("Sevil"), Hacı Əhməd ("Almaz"), İmamyar ("Yaşar"), General-qubernator ("1905-ci ildə"), Mirzə Cəlil Məmmədquluzadənin ölməz İsgəndər və Hacı Həsən ağa ("Ölülər"), Hüseyn Cavidin İblis və Arif ("İblis"), Şeyx Sənan ("Şeyx Sənan"), Keykavus ("Səyavuş"), Dəli knyaz ("Knyaz"), Əbdürrəhim bəy Haqverdiyevin Fərhad və Hacı Səməd ağa ("Bəxtsiz cavan"), Pərviz xan ("Köhnə dudman"), Nəcəf bəy Vəzirovun Fəxrəddin və Rüstəm bəy ("Müsibəti-Fəxrəddin"), Mirzə İbrahimovun Süleyman ("Həyat") kimi səhnə personajlarının ifaçıları sırasında mahir xarakterlər aktyoru Rza Təhmasibin öz yaradıcılıq nailiyyətləri var.

Onun tərcümə əsərlərində oynadığı rollar silsiləsində bədii ləyaqəti, yumor təbiiliyi, koloritinin dadı-duzu ilə Aleksey Lunaçarskinin "Şahın bərbəri" (Aristid), Konstantin Trenyovun "Lyubov Yarovaya" (koşkin), Aleksandr Korneyçukun "31-43" ("Donanmanın məhvi". Strijen), Nikolay Qoqolun "Müfəttiş" (Bələdiyyə rəisi) və Maksim Qorkinin "Həyatın dibində" (Aktyor) pyeslərinin tamaşalarındakı obrazları teatr ifaçılıq sənətimizin parlaq səhifələrini təşkil edir.

Aktyor kimi teatrın aparıcı sənətkarlarından olan Rza Təhmasib Milli Dram Teatrında rejissorluq da edib. 1930-cu ilin axırlarından isə kino yaradıcılığına keçib. "Arşın mal alan" filmi onun ən uğurlu işidir. Bu filmə görə Stalin mükafatına layiq görülüb.

Rza Təhmasib altmışıncı illərin birinci yarısında Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri olub. Əvvəllər Bakı Teatr Məktəbində, 1946-cı ildən ömrünün sonunadək teatr institutunda aktyor və rejissor sənətindən dərs deyib. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (17 iyun 1943) və xalq artisti (29 iyun 1964) fəxri adları ilə təltiflənib.

Rza Təhmasib 14 fevral 1980-ci ildə Bakıda vəfat edib və ikinci Fəxri xiyabanda dəfn olunub.

## İSMAYIL HİDAYƏTZADƏ (19.8.1901-1.11.1951)

Aktyor və rejissor 19 avqust 1901-ci ildə Bakıda dənizçi ailəsində doğulub. İsmayıl Hidayətzadənin teatrla ilk tanışlığı meydan və küçə oyun tamaşalarından, dərviş nağıllarından, şəbih mərasimlərindən başlayıb. Atası Hüseyn kişi onu molla məktəbində təhsilə yollamışdı. Kasıb övladı sayıldığı üçün İsmayıla "İttihad"da güzəştlə oxumağa izn verilmişdi.

1917-ci ildə atası rəhmətə gedəndən sonra İsmayıl təhsildən uzaqlaşmaq məcburiyyətində qalıb və ticarət müəssisələrində pirkeşlik etməyə başlayıb. Elə həmin ildən də Bakıdakı müxtəlif dram həvəskarları dərnəklərində aktyorluq edib, hətta tamaşalar hazırlayıb. Müəllim Mirzə Rza Vaizzadənin "Səyavuş" dramını tamaşaya qoyub (1919). Bununla da peşəkar teatr dəstələri ilə təması yaranıb.

1919-cu ilin payızında müxtəlif teatr truppaları birləşib "Dövlət Teatrosu" kimi fəaliyyətə başlayanda kollektivin nəzdində İsmayıl Hidayətzadə də vardı. O, bugünkü Milli Dram Teatrında 1937-ci ilədək aktyor, son iki-üç ildə həm də rejissor işləyib. İsmayıl Hidayətzadə Üzeyir bəy Hacıbəyovun "Koroğlu" operasının məşqləri ilə bağlı Azərbaycan Dövlət Opera və Balet Teatrına rejissor ştatına keçib. Az sonra kollektivə baş rejissor təyin olunub və ömrünün sonunadək burada çalışıb.

İsmayıl Hidayətzadə sənətə gəldiyi illərdə aktyorların əksəriyyəti kimi özünü faciə aktyoru Hüseyn Ərəblinskiyə bənzədirdi. Cəfər Cabbarlının ciddi təhriki ilə İsmayıl Hidayətzadə xarakter rollar oynamağa keçmiş, "Sevil"dəki Əbdüləli bəyin ifasında qazandığı sənət nailiyyətindən sonra bu səpkili obrazların əvəzsiz yaradıcısı kimi şöhrətlənmişdi. Şərif, Mazandaranski, Əmiraslan bəy Salamov və Xosməmməd ("Almaz", "1905-ci ildə", "Oqtay Eloğlu" və "Dönüş", Cəfər Cabbarlı), Şvandiya ("Lyubov Yarovaya", Konstantin Trenyov), Şmaqa ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Hacı Qara ("Hacr Qara", Mirzə Fətəli Axundzadə), Cücə və Şakro ("Topal Teymur" və "Knyaz", Hüseyn Cavid), Pyer ("İki yetimə", Adolf D'Enneri və Germon), Rəmzi ("Tələbələrin

kələyi", Brandon Tomas), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə) Baron ("Yurdsuz insanlar", Maksim Qorki) rolları aktyorun parlaq sənət qələbələri kimi qiymətləndirilib.

"Almaz" filmində Şərif roluna çəkilib. Aktyor yaradıcılığına görə Azərbaycan Respublikasının əməkdar artisti (25 aprel 1933) və rejissor axtarışlarındakı nailiyyətlərinə görə xalq artisti (4 dekabr 1938) fəxri adları ilə təltif olunub. İsmayıl Hidayətzadə 1 noyabr 1951-ci ildə Bakıda vəfat edib.

Aktyor kimi coşğun ehtirasa, tükənməyən enerjiyə malik idi. Səhnədə civə kimi çevik və həssas görünürdü. Olduqca qızğın temperamentini obrazın ictimai-sosial xarakterinin, vəziyyətin, geniş mənada tamaşanın ali məqsədinin açılmasma istiqamətləndirməkdə ustaydı. Aydın, işıqlı və mənalı gözləri vardı. Pauzalarda gözlə məzmunlu, cazibəli və ən əsası, xarakterin təbiətinə uyğun estetik tərzdə oynayır, səhnənin ucqar nöqtəsində də (verilən mizandan asılı olaraq) tamaşaçını cəlb edə bilirdi. Oynadığı obrazların hamısına xarakterik sürət-ritm tapmağa çalışırdı.

Tərcümə əsərlərindəki xarakter rolları oynayanda ilk növbədə həmin obrazların danışığındakı şirəliliyin, koloritin, jarqon deyimlərinin azərbaycanca qarşılığını tapmağa ciddi səy göstərirdi.

* * *

Bu dövrün müxtəlif illərində Milli Dram Teatrında yaradıcılıqları müxtəlif üslublar əsasında intişar tapan Musa Hacızadə, Mollağa Bəbirli, Qəmər Topuriya, Tamara Paşazadə, Nəzirə Əliyeva, Ziba Şahtaxtinskaya, Bağır Cabbarzadə, Dadaş Şaraplı, Məhəmmədhəsən Atamalıbəyov, Əkbər Şəfi, Cəvahir Hüseynova, Fərəc Süheyli, Şərqiyyə Pepinova, Əlihüseyn Kərimov, Fəxrəndə Ağazadə, Hüseynbala Samizadə, Rzabala Rzayev, Əlikövsər Yusifov, Böyükxanım Axundova (Qubuşova), Əli Nəbi (Mustafa), 1960-1970-ci illərə qədər truppada çalışan Hökümə Qasımova, Nataliya Lizma, Hüseyn Rafi, sonralar əməkdar artist adı ilə təltif olunan Atamoğlan Rzayev, Qafar Həqqi, Haşım Kələntərli, Mirvari Novruzova, Məcid Şamxalov, Hacıməmməd Qafqazlı, Abbas Rzayev, Qəmər Topuriya, Sadıq Saleh (Bağırov), Süleyman Tağızadə, Məmməd Sadıqov, Fateh Fətullayev, Cabbar Əliyev, Ətayə Əliyeva kimi aktyorlar vardı.

## ABBASMİRZƏ ŞƏRİFZADƏ
## (9.3.1891-16.11.1938)

Romantik aktyor məktəbinin Hüseyn Ərəblinskidən sonraki ən ləyaqətli davamçısı görkəmli faciə aktyoru, böyük rejissor, cəfakeş teatr xadimi, kino sənətimizin tərəqqisində müstəsna rolu olan Abbasmirzə Şərifzadədir. O, 9 mart 1891-ci ildə Şamaxıda doğulub və iki yaşında ikən ailəsi Bakıya köçüb. Atası Mirzə Rəsul Şərifzadə müəllim işləyib, anası Fərruxbəyim isə evdar qadın olub.

İlk təhsili evdə atasından alan Abbasmirzə 1903-cü il sentyabr ayının 21-də ikinci rus-tatar (yəni rus-tünc) məktəbinə daxil olub. Üç il burada oxuyan Şərifzadə bir ildən sonra Üçüncü Aleksandr adına kişi gimnaziyasma qəbul edilib. Ancaq tutulduğu uşaq xəstəliyi ona təhsilini davam etdirməyə imkan verməyib. Böyük qardaşı Qulamrza Şərifzadənin yanında ticari işlərdə məşğulluğa başlayıb, həm də onunla teatr tamaşalarına gedib. Hüseyn Ərəblinskinin oyunu digər həmyaşıdları kimi, Abbasmirzəni də məftun edib. Get-gedə qəlbində aktyorluq sənətinə böyük maraq oyanan gənc 1908-ci ildə Müsəlman Dram Artistləri dəstəsinin hazırladığı Molyerin "Zorən təbib" komediyasında Lal qız rolunda ilk dəfə səhnəyə çıxıb. Bununla taleyini ömürlük səhnəyə bağlayan Şərifzadə "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr truppalarında aktyor və rejissor kimi fəaliyyət göstərib. Aktyorluğa başladığı ilk illərdə tamaşaların məramnamələrində qardaşı "Şərifzadə-1" (Şərifov), özü "Şərifzadə-2" yazılıb.

1917-ci il 18 oktyabrda kifayət qədər şöhrətlənmiş sənətkar Azərbaycan Artistlər İttifaqı yaradıb və özü də onun sədri olub. İttifaqda lkiilik aktyorluq kursu yaraddmışdı ki, bu da ilk milli səhnə təhsilimizin qaranquşu sayılır.

İttifaqın əsas idarə heyəti "İsmailiyyə" binasında yerləşirdi və onların hazırladıqları tamaşaların əksəriyyəti də məhz orada göstərilirdi. 1918-ci ilin mart hadisələrində erməni daşnakları Bakını tarmar edəndə "İsmailiyyə" binasını da yandırdılar və İttifaq dağıldı. Məcburiyyət qarşısında qalan Şərifzadə Bakını tərk edib Volqa çayı boyunca uzunmüddətli qastrola çıxdı. Həmin ilin payızında Baraya döndü. 1919-cu ildə "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" dram və opera truppasında baş rejissor işlədi. 1920-ci ilin iyununda Bakıdakı bütün teatr dəstələri bir truppada cəmləşərək Birləşmiş Dövlət Teatrosu yaradıldı. Buraya rus, gürcü və digər dillərdə fəaliyyət göstərən, o cümlədən bugünkü Akademik Milli Dram Teatrı daxil idi. Milli teatr 1922-ci ildə ayrılıb müstəqil oldu. 1924-cü ilədək Şərifzadə bir neçə dəfə Akademik teatra baş rejissor təyin edildi.

Abbasmirzə Şərifzadə iyirminci illərin sonunda qısa müddət Bakı Türk İşçi Teatrında (1932) və kino fabrikində işləsə də, 1928-ci ildə opera teatrına baş rejissor təyin olunsa da, onun rejissor, əsasən aktyor yaradıcılığı tiiavasitə Milli teatrla bağlıdır. O, Azərbaycan səhnə sənətini başqa məmləkətlərdə tanıtmaqda da böyük işlər görüb. Onun başçılığı ilə aktyorlarımız İranda (1914), Aşqabadda (1917), Hacıtərxanda (1918), dəfələrlə Tiflisdə, Batumda, İrəvanda... qastrollarda olublar.

Səssiz kino dövründə "Bayquş" filmində Xan roluna çəkilmiş Şərifzadə "Bismillah" (1925), "Hacı Qara" (1929), "Məhəbbət oyunu" (1934) bədii və "Azərbaycana səyahət" (1926) sənədli filmlərinə rejissorluq edib. Bakı Teatr Məktəbində aktyor sənətindən dərs deyib. Azərbaycan respublikasının əməkdar artisti (19 dekabr 1928) və xalq artisti (1 fevral 1936) fəxri adlarına layiq görülmüş Abbasmirzə Şərifzadə 1938-ci ilin martında "xalq düşməni" damğası ilə tutulub. Şəxsiyyətə pərəstiş dövrünün qurbanı olan sənətkarın güllələnmə ili və günü dəqiq bilinmədiyinə görə bir müddət onun ölümü martdan götürülüb. Bəzi mənbələrdə bu tarix 1943-cü ildir.

Əslində Abbasmirzə Şərifzadə 16 noyabr 1938-ci ildə güllələnib. Əllinci illərdə ölümündən sonra bəraət almış sənətkara 1963-cü ildə təntənəli şəkildə 70 illik yubiley keçirilib. Onun adına Bakıda küçə var. Vaxtilə özü sədr olduğu Cəmiyyətin yerləşdiyi Aktyor Evi Abbasmirzə Şərifzadənin adını daşıyır.

Aktyorun mənim verdiyim olum və ölüm tarixi tam dəqiqləşdirilib.

Aktyorun oynadığı rolları beş qismə bölmək olar: faciə rolları, romantik qəhrəmanlıq obrazları, dramatik psixoloji surətlər, komediya personajları, opera partiyaları.

Ən parlaq qələbələr qazandığı ifaları faciə rolları olub. Cəfər Cabbarlının əsərlərində Aydın ("Aydın"), Oqtay ("Oqtay Eloğlu"), Elxan ("Od gəlini"), Hüseyn Cavidin faciələrində İblis ("İblis"), Şeyda ("Şeyda"), Cəlal ("Uçurum"), Knyaz ("Knyaz"), Səyavuş ("Səyavuş"), Vilyam Şekspirin eyniadlı pyeslərində Hamlet, Otello, Maqbet, həmçinin Nadir şah, ("Nadir şah", Nəriman Nərimanov), Qurban, Nəcəf bəy, Qacar ("Pəri cadu", "Dağılan tifaq" və "Ağa Məhəmməd şah Qacar", Əbdürrəhim bəy Haqverdiyev), Fəxrəddin ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov). Ferdinand, Karl ("Məkr və məhəbbət" və "Qaçaqlar", Fridrix Şiller), Seyran ("Namus", Aleksandr Şirvanzadə), Buridan ("Qanlı qala", Aleksandr Düma), Ənvər bəy ("Sultan Əbdülhəmidin xəli", Rza Zaki Lətifbəyov), Səid bəy ("Zülmün səmərəsi", Səkinə Axundzadə), Xosrov ("Qara bəla", Namiq Kamal), Barxlay de Tolli ("1812-ci il və ya Moskva yanğını", Baxmetov), Uriel Akosta ("Uriel Akosta", Karl Qutskov) rolları faciə bölumünün ən parlaq nümünələridir.

**Romantik qəhrəmanlıq obrazları**: Rüstəm, Pərviz və Gavə ("Dəmirçi Gavə"), Rəcəb və Dəmir bəy ("Əhdə vəfa", Şəmsəddin Sami), Bestujev ("Qəzavat", S.Lanskoy), Mühənna ("Səd ibn Vəqqas", Mirzə Məmməd Axundzadə), Aslan ("Qafqaz çiçəkləri", təbdil edəni Abdulla Şaiq), İslam bəy ("Vətən", Namiq Kamal), Tariq ("Tariq ibn Ziyad", Əbdülhəq Hamid), Söhrab ("Söhrab və Rüstəm", Əhməd Qəmərli), Qaçaq Kərəm ("Qaçaq Kərəm", Vano Mçedaşvili), Nuşirəvan

("Ənuşirəvani-adil", Əbdülrəsul Şərifzadə), Ərtoğrul, Şeyx Sənan ("Şeyx Sənan", Hüseyn Cavid), Gülab ("Şahnamə", Canan), Rayçaran ("Hind qızı", Əbdülhəq Hamid. İşçi teatrında), Huinplen ("Gülən adam", Viktor Hüqo).

**Dramatik psixoloji surətlər:** İsgəndər və Hacı Həsən ağa ("Ölülər", Mirzə Cəlil Məmmədquluzadə), Dubrovski ("Dubrovski", Aleksandr Puşkin), Qaydar ("31-43" və ya "Eskadramn məhvi", Aleksandr Korneyçuk), Eyvaz, Balaş, Ənvər bəy, Ramiz, Bəhram ("1905-ci ildə", "Sevil", "Ədirnə fəthi", "Trablis müharibəsi" və "Solğun çiçəklər", Cəfər Cabbarlı), Osman bəy ("Azərbay-Can", İsa bəy Aşurbəyli), İnsan ("Həyati-bəşər", Leonid Andreyev), Əntərə ("Əntərə", Şükri Qazi), Əmir Əbül Üla ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Kral ("Şahın bərbəri", Anatoli Lunaçarski), Qoca kəndli ("Bayquş", Xalid Fəxri), Baron ("Yurdsuz insanlar", Maksim Qorki), Şair kirmani, İxtiyar ("Topal Teymur" və "İblis", Hüseyn Cavid), kreçinski ("Kreçinskinin toyu", Aleksandr Suxovokobılin), Zer Siban ("Zaqmuq", Anatoli Qlebov), Zeynal kişi ("Axirəzzaman", Abbasmirzə Şərifzadə və Əsəd Tahir), Maraaron ("İnqilabi izdivac", R.Lotor), Kassio ("Otello", Vilyam Şekspir), Şəkib ("Cövdət bəy", Məhəmməd Ehsan), Əbdürrəhman ("Yezid ibn Müaviyyə", Mehdi bəy Hacıbababəyov - Hacınski), Abasəli ("Pulsuzluq", İvan Turgenevdən təbdil edəni Ceyhun Hacıbəyli), Cahangir bəy ("Keçmişdə qaçaqlar", Nəcəf bəy Vəzrov), Qrabar ("Qara su", M.Danilov), Eyvaz ("Kölgə", Seyid Hüseyn. İşçi Teatrında).

**Komediya personajları:** Bədəl ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Müştəri ("Ac həriflər", Əbdürrəhim bəy Haqverdiyev), İsgəndər bəy, Əşrəf bəy ("Ağa Kərim xan Ərdəbili", "Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Soldat ("Qırt-qırt", Vasaq Mədətov), Niftəli ("Daşım-daşım", Mirmahmud Kazımovski), Dursunəli və Ağacavad ("Dursunəli və ballıbadı" "Axşam səbri xeyir olar", Sultanməcid Qənizadə), Əbülhəsən ("Bir saatlıq x-lifə", Abdulla Şaiq), Soltan bəy, Hambal ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Sevdiməli ("Bizim kirayənişin özünü öldürdü", təbdilçi Mirzə Məmməd Axundzadə), Xlestakov ("Müfəttiş", Nikoİay Qoqol), Don Juan ("Don Juan", Molyer), Mirzə Səməndər ("Almaz", Cəfər Cabbarlı).

**Opera partiyaları:** İbn Tahir ("Şah İsmayıl", Müslüm Maqomayev), Padşah ("Əsli və Kərəm", Üzeyir bəy Hacıbəyov).

Abbasmirzə Şərifzadə Osmanlı ədibi Şəmsəddin Saminin "Əhdə vəfa", "Dəmirçi Gavə", Mirzə Cəlil Məmmədquluzadənin "Anamın kitabı", "Ölülər", Təhsin Nahidin "Hicranlar" Nəriman Nərimanovun "Nadir şah", "Dilin bəlası", Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", "Dağılan tifaq", "Pəri cadu", Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Namiq Kamalın "Qaplan paşa", Fridrix Şillerin "Məkr və məhəbbət", "Qaçaqlar", Hüseyn Cavidin "İblis", "Şeyx Sənan", Cəfər Cabbarlının "Trablis müharibəsi", "Aydın", "Oqtay Eloğlu", Süleyman Sani Axundovun "Tamahkar", "Laçın yuvası", "Eşq və intiqam", Nəcəf bəy Vəzirovun "Pəhlivanani-zəmanə", "Müsibəti-Fəxrəddin", Məmməd Səid Ordubadinin "Dinçilər", Xalid Fəxrinin "Bayquş", Mirzə Əbdülrəsul Şərifzadənin "Ənuşirəvani-adil", Vano Mçedaşvilinin "Qaçaq Kərəm", Əhməd Qəmərlinin təbdilində "Yusif və Züleyxa", Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə", Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla", Səkinə Axundzadənin təbdilində "Lakme"... tamaşalarına, Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", Müslüm Maqomayevin "Şah İsmayıl", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operalarına səhnə quruluşları verib. Onun rejissorluq fəaliyyəti ansambl bütövlüyünə meyli, kompozisiya tamlığına cəhd, milli koloriti qabartmaq səyi ilə daha çox səciyyələnir.

Qüdrətli sənətkar 1919-cu ildə Bakıdakı Mərkəzi fəhlə klubunda, sonralar Fəhlə-kəndli Türk Dram Dərnəyində həvəskarlar dəstəsinə rəhbərlik etmiş, bir sıra tamaşaların quruluşçu rejissoru olmuşdur. Abbasmirzə Şərifzadənin təşəbbüsü ilə həmin dərnəklərdəki həvəskarların bir çoxu peşəkar aktyorluğa gəlmişlər.

SSRİ xalq artisti Mərziyə Davudova onun həyat yoldaşı oub. Bu ailədə doğulan Firəngiz Şərifova xalq artistidir və hazırda Gənc Tamaşaçılar Teatrında işləyir.

Abbasmirzənin gur, cingiltili və qəltanlı səsi olub. Səsini zil nöqtədə və pıçıltılı danışıqda da sərbəst işlədib, ifadə və ləfzi dəqiq, aydın, sərrast idi.

Kükrəyib daşan, bir qəlbə sığmayan qızğın ehtirası, bütün tamaşa boyu kökdən düşməyən coşğun temperamenti vardı.

Poetik teatrın estetik prinsiplərini, poetika xüsusiyyətlərini öz oyununda yüksək səviyyədə təcəssüm etdirdiyinə görə Şeyx Sənanın, İblisin, Səyavuşun, eləcə də Hüseyn Cavidin digər qəhrəmanlarının ən kamil ifaçılarından sayılır.

Yumordan "xəsisliklə" istifadə etsə də, komediya rollarında duzlu, məzəli, baxımlı idi. Xalq oyun-tamaşa, qaravəlli ifadə vasitələrinə üstünlük verməklə məzhəkə janrının estetik göstəricilərinə daha çox əsaslanırdı.

Son dərəcə aydın diksiyası, cingiltili səsinin çoxqatlı çalarları, qızğın daxili temperamenti dərin mənası, psixoloji tutumu ilə monumental ifadəlilik kəsb edirdi. Bu vəhdətin poetik hüsnü, ecazkar cazibəsi tamaşaçıları coşğun riqqətə gətirirdi.

Romantik aktyordan tələb olunan bütün yaradıcılıq keyfiyyətlərini yüksək peşəkarlıqla mənimsəmişdi və onları səhnədə yaradıcı sənətkar səxavətilə oyununa məsrəf edirdi.

Aktyorluq sənətinin elmi-nəzəri əsaslarını yorulmadan öyrənir və əxz etdiyi qənaətləri səhnədə cəsarətlə sınaqdan çıxarırdı.

Bəzi məqamlarda qrimdən ifrat dərəcədə istifadə etsə də, oyununda, obrazın xarakterini hərəkətlərdə verməkdə buna, yəni qabarıq qrim tipajlığına bəraət qazandırmağa çalışırdı.

"Hamlet", "Otello", "Aydın", "Şeyx Sənan", "İblis" kimi tamaşalarda oynadığı eyniadlı obrazlarla tamaşanın ümumi sürət-ritmi arasında harmonik vəhdət-körpü yaradırdı.

Abbasmirzə Şərifzadənin orta səviyyəli, hətta alınmayan zəif rolları da olub. Ancaq aktyor o personajların ifasında da canlı, həyati və səmimi görünüb.

Abbasmirzə Şərifzadə milli romantik aktyor məktəbinin ən parlaq simalarından olan sənət dühasıdır.

Teatrda milli rejissuranın bərqərar olması uğrunda cəsarətlə mübarizə aparıb.

**ÜLVİ RƏCƏB**
**(1903-1938)**

Milliyyətcə acar olan Ülvi Rəcəb romantik və realist aktyor məktəblərinin poetika səciyyələrini inamla zənginləşdirən sənətkarlardan biridir. Otuz beş illik ömründə və MDT-da on üç illik fəaliyyəti dövründə zəngin yaradıcılıq irsi qoyub getmişdir.

Ülvi Rəcəb 1903-cü ilin yanvarında Batum (Batumi) yaxınlığındakı Canivri kəndində doğulub. Atası Rəcəb bəy bütün Avropanı gəzmişdi və oğlunun dünyagörüşünün formalaşmasında onun söhbətləri mühüm rol oynayıb. On altı yaşında atasını itirmiş Ülvi təhsilə erkən yaşlarından başlayıb. Xalası ilə İstanbula gedərək orada təhsil alıb. Birinci Dünya müharibəsi başlananda Ülvi təhsilini ataraq çörəkpulu qazanmaq məcburiyyətində qalıb. 1918-ci ildə, müharibə qurtaranda Batuma qayıdıb.

Həmin il Hüseyn Ərəblinski geniş repertuarla Batumda qastrolda olub. Onlar tamaşaları əsasən "Artistlər cəmiyyəti"nin zalında oynayırdılar. Ülvi "Otello" tamaşasma baxıb və Ərəblinskinin Otellosu onu məftun edib. O, Azərbaycandan gəlmiş aktyorlarla yaxından tanış olub. Onların göstərdikləri bir heçə tamaşada epizod rolları oynayıb. Gənc teatr həvəskar hətta "Arşın mal alan" operettasında, xəstələnən aktyorun əvəzinə, Soltan bəy rolunda səhnəyə çıxıb.

O vaxtdan Ülvi Rəcəb Batumdakı teatrın kollektivinə daxil olub. 1922-ci ildə həmin teatr Tiflisə qastrola gəlib. Rustaveli teatrında iki tamaşa oynayan kollektiv qastrol pis təşkil olunduğuna görə səfərini yarımçıq saxlayıb. Ülvi burada Tiflis Azərbaycan Teatrının yaradıcılarından İbrahim İsfahanlı ilə tanış olub. Batuma qayıtmayan Ülvi Rəcəb Tiflisdə qalıb və "Zubalov evi"ndə fəaliyyət göstərən "Azərbaycan uram cəmiyyəti"nə daxil olub. "Ölülər" (Mirzə Cəlil Məmmədquluzadə), "Dağılan tifaq" (Əbdürrəhim bəy Haqverdiyev), "Aydın" (Cəfər Cabbarlı) tamaşalarında çıxış edib. Az sonra Tiflis Dövlət Azərbaycan Dram Teatrının kollektivində çalışıb. Uca boylu, aydın diksiyalı, emosional və coşğun, lirik və ehtiraslı gənc aktyor dramatik, faciə və operetta rollarında eyni uğur və bacarıqla çıxış edib.

1924-cü ilin yayında Tiflis Azərbaycan Teatrının baş rejissoru Aleksandr Tuqanov hökumətin dəvətilə Bakıya, Milli Dram Teatrına çağırılıb. Ülvi Rəcəbin istedad və yaradıcılıq imkanlarına böyük ümid bəsləyən Tuqanov onu da Bakıya dəvət edib. Ülvi 1925-ci ildən Milli Dram Teatrında işləməyə başlayıb.

Tezliklə Ülvi Rəcəb teatrın aparıcı aktyoru Abbasmirzə Şərifzadə ilə dublyor olub. Çoxşaxəli yaradıcılığa malik Ülvi Rəcəbin ifa etdiyi rolları şərti bölgüyə ayırsaq əsas beş qisının üstündə dayanınış olarıq.

**Qəhrəman obrazları:** Mixail Yarovay ("Düşmənlər", Konstantin Trenyov), Səyavuş ("Səyavuş", Hüseyn Cavid), Polad Qartal ("Polad Qartal", Aleksandr Korneyçuk), Qüdrət Arslan, Yaşar ("Dönüş" və "Yaşar", Cəfər Cabbarlı).

**Faciə qəhrəmanları:** Vilyam Şekspirin "Hamlet" və "Otello" əsərlərində Hamlet və Otello, Hüseyn Cavidin "Knyaz"mda Anton, Mirzə Cəlil Məmmədquluzadənin "Ölülər"ində İsgəndər, Cəfər Cabbarlının "Od gəlini"ndə Elxan.

Aktyor Hamlet rolunu həm Aleksandr Tuqanovun (1926-cı il), həm də Sergey Mayorovun (1933-cü il) quruluşlarında oynayıb. Həmin rolu Abbasmirzə Şərifzadə kimi təcrübəli aktyor da ifa edib. Onun ifası coşğun və çılğın ehtirası, Ülvi Rəcəbin oyunu isə psixoloji dərinliyi və emosional temperamenti ilə seçilib. Ülvinin şahzadəsində filosof düşüncəsinin sanbalı obrazın ifasına əzəməf və siqlət gətirib.

**Dramatik obrazlar:** Borodin ("Qorxu", Aleksandr Afinogenov), Huinplen ("Gülən adam", Viktor Hüqo), Jak ("İki yetimə", Adolf D'Enneri və Germon), Voronov ("İntervensiya", Lev Slavin), Mühəndis Eldəniz ("Yanar dərə", Cabbar Məcnunbəyov). Ülvi Rəcəbin dramatik ifadə vasitələrində güclü müasirlik ruhu və heyranedici reallıq, səmimi təbiilik vardı

**Mürəkkəb psixoloji personajlar:** Aqşin ("Od gəlini", Cəfər Cabbarlı), Süleyman ("Həyat", Mirzə İbrahimov), Balaş ("Sevil", Cəfər Cabbarlı. Aktyor bu rolu Türk İşçi Teatrında oynayıb), Satin ("Həyatın dibində", Maksim Qorki), Ninkir Sin ("Zaqmuq", Anatoli Qlebov). Ülvi Rəcəb milli səhnəmizin sırf psixologizm ünsürləri, lirik-emosional ifadə vasitələri ilə səhnədə sücaət göstərən ilk sənətkarlarından olub. Bu bacarıq və qabiliyyəti ilə o, romantik oyun üslubu ilə realist ifa tərzi arasında qırılmaz əlaqə bağları yarada bilib.

**Məhəbbət aşiqləri:** Vilyam Şekspirin "Romeo və Cülyetta", Hüseyn Cavidin "Şeyx Sənan" faciələrində Romeo və Şeyx Sənan. Belə rollarda Ülvi Rəcəb səhnəmiz üçün o dövrdə yeni olan poetika xüsusiyyətlərini, estetik ifadə vasitələrini cəsarətlə sınaqdan çıxarıb. O, özünün poetik oyununda lirizmlə psixologizini ahəngdar cazibədə birləşdirməsi ilə ənənə yaradıb.

Aktyor bir oyun-üslubdan digərinə çox sərbəstcə, yüksək professionallıqla, janrın poetika-estetika prinsip və ölçülərində keçirdi. Onun Romeosu təkcə Milli Dram Teatrının deyil, geniş mənada milli səhnə sənətimizin ən parlaq Romeosu kimi tarixiləşib.

Azərbaycan aktyorları arasında "psixoloji teatr" sənətinin bünövrəsmi qoyan ilkinlərdən biri və onun formalaşmasında misilsiz xidmətlər göstərən, yüksək nailiyyətlər qazanan Ülvi Rəcəbdir.

Ülvi Rəcəb MDT-da işləyə-işləyə dəvətlə Tiflisdə Şeyx Sənan, Yaşar, Yarovay rollarını oynayıb. 1931-ci ildə Bakı Türk İşçi Teatrının hazırladığı "Sevil" tamaşasında Ülvi Rəcəb Balaş rolunu yüksək sənətkarlıqla oynayıb. Sevil rolunda onun yöndaşı Akademik teatrın aktrisası Mərziyə xanım Davudova və Gülüş obrazında İşçi Teatrının gənc istedadlarından Farma Qədri olublar.

Ülvi Rəcəb Bakıdakı Rus Dram Teatrında həmin kollektivin hazırladığı "Otello" tamaşasında Otellonu oynayıb. Onun tərəf-müqabilləri B.İlin (Yaqo) və A.Suvorova (Dezdefliona) tanınmış və təcrübəli aktyorların olmasma baxmayaraq, Ülvinin oyunu parlaqlığı ilə seçilib.

"Həyat" (rejissor Ədil İsgəndərov) tamaşasında oynadığı Süleyman rolu Ülvi Rəcəbin Akademik teatrda son işi və son qələbəsi oldu. Aktyor ictimai-sosial tutumlu, mürəkkəb psixoloji əsaslı, ikili xarakterli obraz yaratdı. Süleyman rolunun uğuru bütövlükdə tamaşanın ideya-bədii tutumunu, fikir dərinliyini, quruluşçu rejissorun ali məqsədini müəyyənləşdirdi.

Bu tamaşanın premyerasından xeyli müddət sonra Ülvi Rəcəbi "Vətən xaini" damğası ilə tutdular. O, yüzlərlə günahsız qurbanlardan biri kimi faciəli şəkildə güllələndi.

Teatr sənətindəki xidmətlərinə görə 25 aprel 1933-cü ildə Ülvi Rəcəbə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı verilib.

Ülvi Rəcəb milli teatr tariximizdə ilk aktyordur ki, realist-romantik aktyor oyun üslubuna geniş və yaradıcı tərzdə psixoloji dərinlik, lirik ahəng gətirib.

Ülvi Rəcəb nəcib ləyaqətli, saf amallı, həyat eşqli, bütöv xarakterli obrazları xüsusi şövq və məharətlə ifa edib.

Ülvi Rəcəb monumental quruluşlu romantik faciə surətlərinin səhnə təfsirində də həyatdan şirə çəkən poetik realizmə üstünlük verib.

Ülvi Rəcəb cəmimiyyət və məlahət, ürəyəyatımlıq onun ifası üçün səciyyəvi cəhətlər idi.

Ülvi Rəcəb gur və yapışıqlı səsində ürəkoxşayan lirizmn vardı.

Ülvi Rəcəb sifət ifadə vasitələri zəngin, sirayətedici və xarakterik olurdu.

Ülvi Rəcəb öz dövründə psixoloji pauzalardan ustalıqla istifadə edən ən bacarıqlı sənətkar kimi tanınırdı.

Ülvi Rəcəb tərəf-müqabilləri (yöndaşları) ilə ünsiyyətdə, səhnədəki vəziyyətin psixoloji halına uyğun davranmaqda Ülvi həmişə nümunə göstərilirdi.

Ülvi Rəcəb ifa etdiyi hər bir personajı dərindən duyan, onun həm məfkurəvi, həm də psixoloji rəsmini dəqiqliklə ölçüb-biçən, ətə-qana gətirən aktyor kimi seçilirdi. O, obrazların daxili dolğunluğuna heyrətamiz coşğunluqla, sadə, ancaq çoxmənalı ştrixlərlə nail olurdu.

Romantik ruhlu ehtirasa, emosional həssaslığa, dinamik plastikaya malik olan Ülvi Rəcəb tanrının ona bəxş etdiyi istedadın cövhərli məziyyətləri ilə kifayətlənmirdi. Axtarışlar aparır, tapıb

cilaladığı və oynadığı obrazın mayasma hopdurduğu ifadə vasitələri ilə tamaşaçıları məftun edir, onlara bədii həzz verirdi.

Ülvi Rəcəb janr baxımından rəngarəngliyə, xüsusən mövzu-problem müxtəlifliyinə can atan aktyor idi.

Ülvü Rəcəb 1937-ci ildə "xalq düşməni" damğası ilə tutulub. 1938-ci ilin yanvarında Bakıda güllələnib.

**MİLLİ DRAM TEATRI**
**(1938-1960)**

Teatr 1938-ci ilə baş rejissorsuz qədəm qoyub. Yanvar ayının 17-də Rza Təhmasibin keçən ildən hazırladığı Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (rəssamlar Nüsrət Fətullayev və İsmayıl Axundov, bəstəkar Səid Rüstəmov. Hacı Qara - Sidqi Ruhulla, Heydər bəy - Ələsgər Ələkbərov) komediyasının ilk tamaşası olub. Fevralm 16-da Ələsgər Şərifov dramaturq Əbdürrəhimbəy Haqverdiyevin "Pəri cadu" (tərtibat rəssamı Nüsrət Fətullayev, geyim rəssamı İsmayıl Axundov, bəstəkar Niyazi. Pəri - Barat Şəkinskaya və Sona Hacıyeva, Qurban - Rza Əfqanlı və Möhsün Sənani, Hafizə - Qəmər Topuriya və Əzizə Məmmədova), martın 26-da Ədil İsgəndərov gənc Cabbar Məcnunbəyovun "Yanar dərə" (tərtibat rəssamı Sergey Yefimenko, geyim rəssamı İsmayıl Axundov, bəstəkar Səid Rüstəmov. Hicran - Mərziyə Davudova, Eldar - Sidqi Ruhulla), aprelin 28-də Ağəli Dada şov gürcü ədibi Georgi Mdivaninin "Vətən namusu" ("Vətən oğlu". Tərcüməçi Süleyman Rüstəm, rəssam Nüsrət Fətullayev. Yaqor - Ələsgər Ələkbərov və Sidqi Ruhulla, Natella - Mərziyə Davudova və Nəzirə Əliyeva) pyeslərini tamaşaya hazırlayıblar.

May ayının 15-də Ədil İsgəndərov teatra baş rejissor təyin olunub. Bu vəzifədə onun ilk işi Səməd Vurğunun "Vaqif" mənzum dramına verdiyi quruluşdur. İlk tamaşası oktyabrın 5-də göstərilən tamaşanın tərtibat rəssamı Nüsrət Fətullayev, geyim rəssamı İsmayıl Axundov, bəstəkarı Səid Rüstəmov olub. Əsas rolları Ələsgər Ələkbərov (Vaqif), Sidqi Ruhulla (Qacar), Əli Qurbanov (Vidadi), Mustafa Mərdanov (Vəzir), Fatma Qədri və Mərziyə Davudova (Xuraman), Ağasadıq Gəraybəyli (İbrahim xan), Möhsün Sənani və Rza Əfqanlı (Eldar), Abbas Rzayev (Şeyx Alı), Dadaş Şaraplı (Təlxək) oynayıblar. "Vaqif" tamaşası böyük uğur qazanıb və teatrın tarixində ən uzunömürlü əsərdir. 1980-ci illərin sonlarına qədər repertuarda qalan tamaşa min dəfədən çox oynanılıb.

Bu tamaşalardan əlavə, teatr 1938-ci ilin sonuna qədər Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (15 oktyabr. Quruluşçu rejissorlar Şəmsi Bədəlbəyli və Məcid Zeynalov, rəssam İsmayıl Axundov, bəstəkar Əfrasiyab Bədəlbəyli), Mirzə İbrahimovun "Madrid" (29 noyabr. Quruluşçu rejissor Rza Təhmasib), İmran Qasımovun "Arzu" (22 dekabr. Quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Nüsrət Fətullayev) komediya və dramlarını tamaşaya hazırlayıb.

Ədil İsgəndərovun teatra baş rejissor təyin olunması yaradıcılıq iqlimində ciddi dönüşlər yaradıb. Teatrın romantik monumental üslubu əsaslı şəkildə formalaşmağa başlayıb. Kollektiv 1939-cu ildə Aleksandr Ostrovskinin "Cehizsiz qız" (23 fevral. Tərcüməçi Ənvər Məmmədxanlı, quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Sergey Yefimenko. Larisa - Fatma Qədri, Krurov - Mirzağa Əliyev, Paratov - Rza Əfqanlı, Karandışev - İsmayıl Osmanlı), Onore de Balzakin "Ögey ana" (17 aprel. Tərcüməçi Mikayıl Rəfili, qurulşçu rejissor Aleksandr Tuqanov, rəssam İsmayıl Axundov. Qraf de Qranşan - Ağasadıq Gəraybəyli, Gertruda - Mərziyə Davudova, Polina - Fatma Qədri, kiçik Napoleon - Barat Şəkinskaya), Cəfər Cabbarlının "Od gəlini" (29 sentyabr. Quruluşçu rejissor İsmayıl Hidayətzadə, rəssam Fyodor Qusak, bəstəkar Səid Rüstəmov. Elxan - Ələsgər Ələkbərov, Aqşin - Rza Əfqanlı, Solmaz - Fatma Qədri və Hökümə Qurbanova, Əbu Übeyd - Sidqi Ruhulla), Mehdi Hüseynin "Şöhrət" (14 oktyabr. Quruluşçu rejissor Məcid Zeynalov, rəssam İsmayıl Axundov, bəstəkar Əfrasiyab Bədəlbəyli), Cəlil Məmmədquluzadənin "Ölülər" (23 oktyabr.

Quruluşçu rejissor Şəmsi Bədəlbəyli, rəssam İsmayıl Axundov. Şeyx Nəsrulla - Kazım Ziya, İsgəndər - Ağasadıq Gəraybəyli, Hacı Həsən ağa - Əli Qurbanov), Səməd Vurğunun "Xanlar" (30 dekabr. Quruluşçu rejissor Ədil İsgəndərov, rəssam Nüsrət Fətullayev, bəstəkar Əfrasiyab Bədəlbəyli. Xanlar - Ələsgər Ələkbərov, Doktor Söhbət - Kazım Ziya, Muxtar bəy - Sidqi Ruhulla) əsərlərini öz repertuarına daxil edib.

Bu ilin ən uğurlu tamaşası Sabit Rəhmanın "Toy" komediyası olub. Premyerası aprelin 28-də göstərilən tamaşanın quruluşunu rejissor Məhərrəm Haşımov, bədii tərtibatını Rüstəm Mustafayev və Əsgər Abbasov veriblər və musiqisini Səid Rüstəmov yazıb. Əsas rolları Mirzağa Əliyev (Kərəmov), Məmmədəli Vəlixanlı (Mirzə Hüseyn), Sidqi Ruhulla (Dəmirçi Musa), Əzizə Məmmədova (Zalxa), Sona Hacıyeva və Hökümə Qurbanova (Zinyət), Dadaş Şaraplı (Şeyda), Ətayə Əliyeva və Sofiya Bəsirzadə (Kamalə) oynayıblar.

Teatr 1940-cı ildə Ələsgər Şərifovun rejissorluğunda Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (18 mart. Rəssamlar Əsgər Abbasov və Bədurə Əfqanlı), Aleksey Kaplerin və Zlotoqorovanın "Lenin" (22 aprel. Tərcüməçi Mlkayıl Rəfili, rəssamlar Nüsrət FətuIIayev və İsmayıl Axundov), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (27 may. Rəssam Nüsrət Fətullayev, bəstəkar Niyazi), Məmmədhüseyn Təhmasibin "Bahar" (10 oktyabr. Rəssam Nüsrət Fətullayev, bəstəkar Səid Rüstəmov), Cəfər Cabbarlının "Oqtay Eloğlu" (31 dekabr. Rəssam Nüsrət Fətullayev. Oqtay - Rza Əfqanlı, Firəngiz Mərziyə Davudova), Məcid Zeynalovun quruluşunda Pyer Bomarşenin "Fiqaronun toyu" (24 oktyabr. Tərcüməçi Cəfər Cabbarlı. Qraf Almaviva - Mirzağa Əliyev, Fiqaro - Möhsün ənani və Mustafa Mərdanov, Suzanna - Fatma Qədri), İsmayıl Hidayətzadənin səhnə təfsirində Süleyman Rüstəmin "Qaçaq Nəbi" (26 sentyabr. Rəssam Fyodor Qusak. Nəbi -Ələsgər Ələkbərov və Rza Əfqanlı, Həcər - Mərziyə Davudova, Səlim bəy - Sidqi Ruhulla) pyeslərinin tamaşalarını göstərib. Ədil İsgəndərov isə Cəfər Cabbarlının "Aydın" faciəsinə (29 iyun) quruluş verib. Rəssamı Nüsrət Fətullayev, geyim eskizlərinin müəllifi Bədurə Əfqanlı olan tamaşada baş rolları Ələsgər Ələkbərov (Aydın), Əminə Sultanova (Böyükxanım), Əjdər Sultanov (Surxay), Mirzağa Əliyev (Balaxan), Qəmər Topuriya (Susanna), Rza Əfqanlı (Dövlət bəy) ifa ediblər.

Ədil İsgəndərovun baş rejissor olduğu illərdə teatr yüz iyirmidən çox tamaşa hazırlayıb. Bunların arasında aşağıdakı tamaşalar kollektivin yaradıcılıq həyatında sənət hadisələri kimi dəyərlidirlər.

**23 yanvar 1941.** "Xoşbəxtlər", Sabit Rəhman. Quruluşçu rejissor Ədil İsgəndərov və Şəmsi Bədəlbəyli, rəssam Nüsrət Fətullayev. Əsas rollarda Mirzağa Əliyev (Bərbərzadə), Əminə Nağıyeva - Sultanova (Maral), Məmmədəli Vəlixanlı (Mirzə Qərənfil), Kazım Ziya (Usta Segah) çıxış ediblər.

**24 aprel 1941.** "Kral Lir", Vilyam Şekspir. Tərcümə edəni Mirzə İbrahimov, quruluşçu rejissor Aleksey Qripiç, rejissor Şəmsi Bədəlbəyli, rəssam Sergey Yefimenko. Uğurlu ifalar Sidqi Ruhullaya və Ələsgər Ələkbərova (Kral Lir), Fatma Qədriyə (Reqana), Mərziyə Davudovaya (Qoneriya), Barat Şəkinskayaya (Kordeliya), Möhsün Sənaniyə (Edqar), Rza Əfqanlıya (Edmund) mənsub idi.

**6 noyabr 1941**. "Fərhad və Şirin", Səməd Vurğun. Quruluşçu rejissor Ədil İsgəndərov, rəssam Əsgər Abbasov, bəstəkar Əfrasiyab Bədəlbəyli. Əsas aktyor nailiyyətlərini Ələsgər Ələkbərov (Fərhad), Fatma Qədri və Mərziyə Davudova (Şirin), Ağasadıq Gəraybəyli (Xosrov), Sidqi Ruhulla (Şapur), Hökümə Qurbanova (Məryəm) qazanıblar.

**20 aprel 1946.** "On ikinci gecə", Vilyam Şekspir. Tərcümə edəni Mirzə İbrahimov, quruluşçu rejissor Mehdi Məmmədov, rəssam Sergey Yefimenko, bəstəkar Tofiq Quliyev. Baş rolları Barat Şəkinskaya (Viola və Sezario), Əjdər Sultanov (Orsino), Müxlis Cənizadə və İsmayıl Dağıstanlı (Sebastian), Hökümə Qurbanova (Oliviya), Atamoğlan Rzayev (Antonio) oynayıblar.

**19 iyul 1947.** "İşıqlı yollar", İlyas Əfəndiyev. Quruluşçu rejissor Ədil İsgəndərov, rəssam Nüsrət Fətullayev, bəstəkar Fikrət Əmirov. Əsas rolları Hökümə Qurbanova (Gülarə), Mizağa

Əliyev və Əli Qurbanov (Baba dayı), İsmayıl Dağıstanlı Yelmar), Əli Zeynalov (Səlim) və Leyla Bədirbəyli (Lalə) ifa ediblər.

**7 noyabr 1947**. "Şərqin səhəri", Ənvər Məmmədxanlı. Quruluşçu rejissor Ədil İsgəndərov, rəssamlar Nüsrət Fətullayev və Bədurə Əfqanlı, rəssam Səid Rüstəmov. Quruluşçu rejissor, Nüsrət Fətullayev. Aktyorlardan Mirzağa Əliyev (Nəcəf bəy), Kazım Ziya (General Tomson), Sidqi Ruhulla (Ağalarov), Rza Əfqanlı (Fərhad), Mərziyə Davudova (Gülzar), İsmayıl Dağıstanlı (Kirov) Stalin mükafatına layiq görülüblər.

**6 may 1949.** "Otello", Vilyam Şekspir. Tərcüməçi Cəfər Cabbarlı, quruluşçu rejissor Ədil İsgəndərov, rəssamlar Nüsrət Fətullayev və Bədurə Əfqanlı, bəstəkar Qara Qarayev. Tamaşada Ələsgər Ələkbərov (Otello), Barat Şəkinskaya (Dezdemona), Rza Əfqanlı (Yaqo), Fatma Qədri (Emiliya), Əjdər Sultanov (kassio) sənət qələbələri qazanıblar.

**4 iyun 1949.** "Solğun çiçəklər", Cəfər Cabbarlı. Quruluşçu rejissor Əliheydər Ələkbərov, rəssam İsmayıl Axundov. Əbdül - Mustafa Mərdanov, Sara - Leyla Bədirbəyli, Bəhram - Əli Zeynalov, Gülnisə - Mərziyə Davudova, Pəri - Məhluqə Sadıqova.

**31 iyul 1949.** "Rəqs müəllimi", Lope de Veqa. Tərcüməçi Rəsul Rza, quruluşçu rejissor Mehdi Məmmədov, rəssam Nüsrət Fətullayev, bəstəkar Qara Qarayev. Əsas rolları Barat Şəkinskaya (Florela), Əjdər Sultanov (Aldemaro), Fatma Qədri (Felisiana) və Məmmədəli Vəlixanlı (Belardo) oynayıblar.

**4 yanvar 1952.** "Məzəli hadisə", Karlo Haldoni. Tərcüməçi Sabit Rəhman, quruluşçu rejissor Tofiq Kazımov, rəssam Bədurə Əfqanlı. Əsas rolları Mustafa Mərdanov (Filibert), Hökümə Qurbanova (Janniana) və Sidqi Ruhulla (Rikard) ifa ediblər.

**20 mart 1953.** "Türkiyədə", Nazim Hikmət. Tərcüməçi Əkbər Babayev, quruluşçu rejissor Ədil İsgəndərov, rəssamlar Nüsrət Fətullayev və Bədurə Əfqanlı, bəstəkar Cahangir Cahangirov. Tamaşada teatrın bütün aktyorları iştiran ediblər.

**22 oktyabr 1955**. "Qış nağılı", Vilyam Şekspir. Tərcüməçi Tələt Əyyubov, quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Nüsrət Fətullayev, bəstəkar Qara Qarayev. Hermiona rolunda Hökümə Qurbanova və Avtolik obrazında Məmmədəli Vəlixanlı böyük qələbələr əldə ediblər.

Milli Dram Teatrı 1938-1960-cı illərdə öz fəaliyyətində gənc şair və nasirlərdən Səməd Vurğunu, İmran Qasımovu, Sabit Rəhmanı, Mehdi Hüseyni, Ənvər Məmmədxanlmı, Süleyman Rüstəmi, Məmmədhüseyn Təhmasibi, İlyas Əfəndiyevi dramaturgiyaya şövqləndirib, onların əsərlərini səhnəyə gətirib. Həmçinin Zeynal Xəlilin "İntiqam" (1942) və "Qatır Məmməd" (1945), Səttar Axundovun "Zərif tellər" (1951), Rəsul Rzanın "Vəfa" (1943) və "Qardaşlar" (1956), Mir Cəlalın "Mirzə Xəyal" (1943), İslam Səfərlinin "Göz həkimi" (1955), "Yadigar" (1956) və "Ana ürəyi" (1960), Adil Babayevin "Dağlar qızı" (1960) pyeslərinin tamaşalarını öz repertuarına dixil edib.

Klassiklərimizdən Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (1948 və 1953), "Hacı Qara" (1955), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (1940) və "Hacı Qəmbər" (1955), Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (1950) və "Köhnə dudman" (1950), Cəlil Məmmədquluzadənin "Ölülər" (1948), Hüseyn Cavidin "Şeyx Sənan" (1956), Cəfər Cabbarlının "Aydın" (1940), "1905-ci ildə" (1944 və 1955), "Sevil" (1944 və 1952), "Yaşar" (1947), "Od gəlini" (1950), "Almaz" (1957) əsərləri yeni quruluşlarda oynanılıb.

Bu dövrdə teatr tərcümə pyesləri əsasında da maraqlı tamaşalar hazırlayıb. Bunlardan Mixail Lermontovun "İki qardaş" (1941), Konstantin Simonovun "Vətən oğlu" ("Bizim şəhərli oğlan". 1941), Tur qardaşlarının "Gizli döyüş" ("Təkbətək döyüş". 1944) və "Bir evin sirri" (1949), Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər" (1948), Aleksandr Fadeyevin "Gənc qvardiya" (1948), Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (1948), Anatoli Boryanovun "O tayda" (1949), Boris Lavrenyovun "Amerikanın səsi" (1950), Hüseyn Muxtarovun "Ailə namusu" ("Allanın ailəsi". 1951), Nikolay Qoqolun "Müfəttiş" (1952), Vadim Sobkonun "İkinci cəbhə arxasında" (1952), Karlo Haldoninin "Mehmanxana sahibəsi" (1952), Lope de Veqanın "Seviliya ulduzu" (1953),

Maksim Qorkinin "Vassa Jeleznova" (1954), Yuri Yanovskinin "Prokurorun qızı" (1954), Aleksandr Şteynin "Şəxsi iş" (1956), Vasili Şkvarkinin "Özgə uşağı" (1956), Nazim Hikinətin "Qəribə adam" (1956), Tsao Yuyun "Tufan" ("Tayfun". 1959), Anton Çexovun "Vanya dayı" (1959), Pavel Malyarevskinin "Daş qartal" (1959), Yuri Osnos və Viktor Vinnikovun "Hind gözəli" (1959) əsərlərinin tamaşalarını gösfərmək olar.

Teatrda gənc rejissorlar Əliheydər Ələkbərov, Məcid Zeynalov, Şəmsi Bədəlbəyli, Səftər Turabov, Əşrəf Quliyev, Nəsir Sadıqzadə müstəqil quruluşlar verməyə başlayıblar. Gəncə teatrından gəlmiş Mehdi Məmmədov (1945) və Moskva da ali təhsil almış Tofiq Kazımov (1951) truppaya quruluşçu rejissor götürülüblər.

Milli Dram Teatrı 1948-ci ildə Moskvada qastrolda olub və 1959-cu ildə Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında iştirak edib.

1948-ci il avqustun 20-dən sentyabrın 5-dək davam edən qastrolda Səməd Vurğunun "Vaqif", Ənvər Məmmədxanlının "Şərqin səhəri", Cəfər Cabbarlının "1905-ci ildə", Vilyam Şekspirin "On ikinci gecə", Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" və "Tufan" əsərlərinin tamaşaları göstərilib.

Dekadanın (22-31 may) repertuarına isə "Otello", "Almaz", "Fərhad və Şirin", "İliç buxtası" (Cabbar Məcnunbəyov) tamaşaları daxil idi.

1948-ci ildə Mərziyə Davudova, Mirzağa Əliyev və Sidqi Ruhulla, 1959-cu ildə Ədil İsgəndərov SSRİ xalq artisti fəxri adları ilə təltif olunublar.

## ƏDİL İSGƏNDƏROV
## (5.5.1910-18.9.1978)

Azərbaycan monumental rejissurasının görkəmli siması, Akademik Milli Dram Teatrının aktyor ansamblının formalaşmasında böyük xidmətləri olan rejissor, xarakterik ekran rollarının yaradıcısı Ədil Rza oğlu İsgəndərov 5 may 1910-cu ildə Gəncədə doğulub. Əsil adı Ədil olan sənətkar əksər sənədlərdə rusca deyimə uyğun "Adil" kimi təqdim edilib.

Teatr sənətinə orta məktəbin son siniflərindən maraq göstərib. Gəncədəki İşçi klubunun dram dərnəyində iştirak edib. Bakıda və Moskvada tələbə olarkən tətilə gələndə Ədil İsgəndərov İşçi klubunda Cəfər Cabbarlının "Od gəlini", "Sevil", Aleksandr Şirvanzadənin "Namus", Vano Mçedaşvilinin "Qaçaq Kərəm" pyeslərini həvəskarlarla tamaşaya hazırlayıb. Özü həmin tamaşalarda Balaş ("Sevil"), Şəkinski ("Oqtay Eloğlu"), Qaçaq Kərəm rollarını oynayıb.

Ədil İsgəndərov 1928-1931-ci illərdə Bam Teatr Məktəbinin rejissor-aktyor şöbəsində təhsil alıb. Tələbə ikən Milli teatrın tamaşalarında kütləvi səhnələrə çıxıb, epizod rollar oynayıb. Bu baxımdan "Hacı Qara"dakı Yasovul obrazı daha maraqlı olub. Teatr məktəbini bitirərkən o, dostlaşdığı Cəfər Cabbarlının tövsiyəsi ilə Moskvaya ali təhsil almağa gedib. Dövlət Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsinə daxil olub. Tələbəlik illərində Moskva Bədaye Akademik Dram Teatrında, Vaxtanqov teatrında ciddi sənət təcrübələri keçib, zəngin təcrübə toplayıb.

Son kursda oxuyarkən İsgəndərov diplom tamaşası hazırlamaq üçün Bakıya göndərilib. Akademik teatrda 1935-ci ilin payızında Aleksandr Korneyçukun "Platon kreçet" əsərinin Mustafa Mərdanov və Ülvi Rəcəb tərəfindən "Polad Qartal" adı ilə təbdil edilmiş variantının məşqlərinə başlayıb. Tamaşanın premyerası 3 yanvar 1936-cı ildə oynanılıb. Rejissorun ilk müstəqil işi əla qiymətləndirilib. Yenidən Moskvaya qayıdan Ədil İsgəndərov iyun ayında təhsilini başa vuraraq Akademik Milli Dram Teatrına təyinat alıb.

Teatra sıravi rejissor götürülən Ədil İsgəndərov 1937-ci ildə xeyli müddət baş rejissor vəzifəsində əvəzedici-icraçı olub. 15 may 1938-ci ildə isə Akademik teatra baş rejissor təyin edilib. Bir müddət sonra baş rejissor vəzifəsi bədii rəhbər vəzifəsi ilə əvəzlənib və həmin kreslonu tutan Ədil İsgəndərov 1954-cü ildə həm də teatrın direktoru kimi fəaliyyətə başlayıb. Teatrda böyük

islahatlar aparan, güclü kollektiv formalaşdıran, zəngin və əlvan repertuar quran Ədil İsgəndərov gözlənilmədən 22 oktyabr 1960-cı ildə həm tutduğu vəzifələrdən, həm də ümumiyyətlə teatrdan uzaqlaşdırılıb. Riyakar intriqanın güdazına gedən Ədil İsgəndərovu müdrik çağında, yaradıcılıq üslubunun yüksək peşəkarlıq səviyyəsində formalaşdığı əlli yaşında teatrdan uzaqlaşdırmaq milli mədəniyyətimizə, təbii ki, ilk növbədə Akademik Milli Dram Teatrına ciddi zərbə vurdu.

Monumental romantik-realist teatr məktəbini formalaşdıran Ədil İsgəndərov Milli Dram Teatrının səhnəsində Mirzə İbrahimovun "Həyat" (1937 və 1954), "Məhəbbət" (1942), Cabbar Məcnunbəyovun "Yanar dərə" (1938), "İliç buxtası" (Ələsgər Şərifovla birgə. 1958), Səməd Vurğunun "Vaqif" (1938), "Xanlar" (1939), "Fərhad və Şirin" (1941), Cəfər Cabbarlının "Aydın" (1940), "1905-ci ildə" (1955), "Dönüş" (1960), Sabit Rəhmanın "Xoşbəxtlər" (Şəmsi Bədəlbəyli ilə birgə. 1941), "Nişanlı qız" (1953), Mehdi Hüseynin "Nizami" (1942), "Cavanşir" (1957), Rəsul Rzanın "Vəfa" (Ələsgər Şərifovla birgə. 1943), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Ələsgər Şərifovla birgə. 1945), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (1947), "Od içində" (1951), İlyas Əfəndiyevin "İşıqlı yollar" (1947), "Bahar suları" (1948), Vilyam Şekspirin "Otello" (1949), Aleksandr Şirvanzadənin "Namus" (1952), Nazim Hikmətin "Türkiyədə" (1953), Hüseyn Cavidin "Şeyx Sənan" (Ələsgər Şərifovla birgə. 1956), Adil Babayevin "Cəfər Cabbarlı qəhrəmanları arasında", (Ələsgər Şərifov və Əliheydər Ələkbərovla birgə. 1960), İslam Səfərlinin "Ana ürəyi" (1960) pyeslərinə quruluşlar verib.

1959-cu ildə Akademik teatr Moskvaya Azərbaycan incəsənəti dekadasma gedəndə Ədil İsgəndərov "Otello" və "Fərhad və Şirin" tamaşalarına ciddi şəkildə əl gəzdirib, əsas ifaçıları dəyişdirib. Müəyyən kompozisiya dəyişiklikləri aparıb. Aktyor ansamblına bəzi ifaçılar əlavə edilməklə hər iki tamaşa premyera kimi təqdim olunub.

Azərbaycan Dövlət Opera və Balet Teatrında Reynqold Qlierin "Şahsənəm" (1938), Azərbaycan Dövlət Rus Dram Teatrında Səməd Vurğunun "Vaqif", Bakı Erməni Dövlət Dram Teatrında Mirzə İbrahimovun "Həyat", Cəfər Cabbarlının "1905-ci ildə" əsərlərini tamaşaya hazırlayıb. Onun yazdığı "Partizan Məmməd" (Sabit Rəhmanla birgə) pyesi Gənc Tamaşaçılar Teatrında, "Dağlar qoynunda" komediyası (bəstəkar Əşrəf Abbasov) Musiqili Komediya Teatrında oynanılıb.

Ədil İsgəndərov 1937-ci ildən Bakı Teatr Məktəbində, sonralar isə Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs deyib, neçə-neçə kursa rəhbərlik edib. 1956-cı ildən professor idi. Azərbaycan SSR Ali Sovetinin dördüncü və beşinci çağırış deputatı olub. Teatrdan uzaqlaşdırılandan sonra "Azərbaycanfilm" kinostudiyasında sıravi rejissor işləmiş, 1966-1974-cü illərdə oranın direktoru olmuşdur. Özü "Əhməd haradadır?" kinokomediyasının ekran rejissorudur. Kino sənətimizin inciləri sayılan "Yeddi oğul istərəm", "Nəsimi" kimi filmlər məhz onun direktor olduğu dövrdə çəkilib.

Görkəmli rejissor çoxlu filmə çəkilib. Onların içərisində "Uzaq sahillərdə" (Rosselini), "Qara daşlar" (Xəlilov), "Qanun naminə" (Kamilov), "Dərviş Parisi dağıdır" (Hatəmxan ağa), "Məşədi İbad" (Qoçu), "Axırıncı aşırım" (Kərbəlayı), "Arxadan vurulan zərbə" (Prokuror), "26-lar" (Eser nümayəndəsi), "Romeo mənim qonşumdur" (Professor) filmlərindəki müxtəlif səpkili rolları bədii dəyəri, ifadə vasitələrinin orijinallığı, aktyor oyun üslubunun estetik gözəlliyi ilə daha uğurlu ekran nailiyyətləridir.

Ədil İsgəndərov "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasındakı rejissor işinə görə 1948-ci ildə Stalin mükafatı (sonralar "SSRİ Dövlət mükafatı" adlandırıldı) ilə təltif olunub. Görkəmli teatr xadimi böyük sənət nailiyyətlərinə görə Azərbaycan respublikasının əməkdar incəsənət xadimi (4 dekabr 1938), xalq artisti (17 iyun 1943) və SSRİ xalq artisti (9 iyun 1959) fəxri adlarına layiq görülüb.

Ədil Rza oğlu İsgəndərov 18 sentyabr 1978-ci ildə Bakıda vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır.

Ədil İsgəndərov Milli Dram Teatrında güclü kollektiv formalaşdırmaqla və aşağıdakı yenilikləri gətirməklə özünün rejissorluq məktəbini yaradıb.

Ədil İsgəndərov milli teatrda aktyorun səhnədə suflyora möhtac olmasma birdəfəlik son qoydu.

Ədil İsgəndərov ayrılıqda hər aktyorun, bütövlükdə ansamblın yaradıcılıq qüdrətini səhnədə özlərinə tanıtdı.

Ədil İsgəndərov rus, geniş şəkildə Qərbi Avropa teatrı köklərindən şirələnmiş sənət ocağına güclü milli ruh aşıladı. Alınma teatr estetikasının və xalq oyun-tamaşalarının üzvi vəhdətini yaratdı, onların qovuşuğundan yaranan poetikanın estetik göstəricilərinin əsasını qoydu.

Ədil İsgəndərov dünyada, əsasən Rusiyada mövcud olan mütərəqqi aktyor sənəti nəzəriyyələrinin toplusundan hasil olan sistem yaradaraq onu cəsarətlə Akademik teatrdakı səhnə ustalarımızın rol üzərində işlərinə şamil etdi.

Ədil İsgəndərov teatrın canlı fəaliyyət orqanizmində (məşqdə, tamaşanın gedişində, qastrol səfərlərində və sairə) ciddi nizam-intizam yaratdı.

Ədil İsgəndərov teatrın ətrafında Səməd Vurğun, Mehdi Hüseyn, Sabit Rəhman, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev kimi güclü müəlliflər "ordusu" topladı.

"Ədil İsgəndərov teatrı" ifadəsinin elmi-nəzəri əsasında duran canlı teatrın səmərəli fəaiiyyətinə nail oldu.

Ədil İsgəndərov həmin məktəbin güclü aktyor heyətini tərbiyə edib yetişdirdi. Məsələn, Ələsgər Ələkbərov, Hökümə Qurbanova, Rza Əfqanlı, Leyla Bədirbəyli, Məlik Dadaşov, Əjdər Sultanov, Həsənağa Salayev...

Bütövlükdə Azərbaycanın bütün səhnə sənətinə örnək olan Milli Dram Teatrını akademik səviyyəyə qaldırdı. "Akademik" adını həm mənəvi, həm də rəsmi (16 dekabr 1959) təsdiqləməklə kollektivin şöhrətini keçmiş SSRİ respublikaları arasında ən yüksək yerlərdən birinə ucaltdı.

Ədil İsgəndərovun baş rejissorluğu dövründə gənc milli rejissor kadrlarına ciddi quruluşlar etibar edildi, get-gedə güclü rejissor kollektivi formalaşdı. Şəmsi Bədəlbəyliyə, Məcid Zeynalova, Səftər Turabova, Əliheydər Ələkbərova, Ağəli Dadaşova, Əşrəf Quliyevə müstəqil quruluşlar həvalə olundu.

Özünün bədii rəhbərliyi dövründə rəssamlardan Nüsrət Fətullayevi, İsmayıl Axundovu, Əsgər Abbasovu, Kazım Kazımzadəni, Bədurə Əfqanlını, Sadıq Şərifzadəni, bəstəkarlardan Qara Qarayevi, Niyazini, Soltan Hacıbəyovu, Səid Rüstəmovu, Fikrət Əmirovu, Cahangir Cahangirovu, Zakir Bağırovu, Elmira Nəzirovanı teatr həyatı ilə sıx bağladı.

Ədil İsgəndərov milli teatr tariximizdə yeganə rejissordur ki, onun quruluş verdiyi "Vaqif" tamaşası min dəfədən (mininci tamaşa 31 may 1977-ci ildə oynanıb), "Fərhad və Şirin" 450 dəfədən, "Xoşbəxtlər" 350 dəfədən çox səhnədə göstərilib.

Azərbaycan kino sənətinin milli kadrlarla təminatında (rejissor, operator, ssenariçi) Ədil İsgəndərov böyük işlər gördü. Milli aktyorlarımızın filmlərə daha çox çəkilmələri üçün ciddi inzibati və yaradıcılıq işləri görməklə yanaşı, əsaslı reformalar apardı.

Dünya şöhrətli klassik sənətkarlarımızın, qəhrəmanlarımızın obrazlarının səhnədə və ekranda canlanmasında, klassik əsərlərimizin ekranlaşmasında da Ədil İsgəndərov səmərəli islahatlar aparıb.

Ədil İsgəndərovun rejissor poetikasının ən başlıca prinsiplərindən biri o idi ki, bu dühа götürdüyü pyesdəki mürəkkəb xarakterlərə aktyor axtarışı "ağrısını" çəkmirdi. O, həm yaradıcılıqlarına, həm də insani xüsusiyyətlərinə dərindən bələd olduğu aktyorlara, onların potensial güclərinə bab gələ bilən repertuar qururdu, truppanın gücünə uyğun pyesə müraciət edirdi.

Ədil İsgəndərova qədər heç bir rejissor truppadakı öncül aktyorlar üçün üç, beş, hətta yeddi illik yaradıcılıq plan-prospektinin işlək və estetik mexanizmini yaratmamışdı. İstər Ələsgər Ələkbərov, istər Rza Əfqanlı, istər Hökümə Qurbanova üçün zirvəyə aparan sənət qələbələri pilləsinin möhtəşəm, fundamental özülünü məhz Ədil İsgəndərov qoyub.

## MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1925-1965)

### Birinci dərs

Milli teatrımızın institusional mədəniyyətin faktına çevrilməsi bütövlükdə səhnə sənətinin yeni-yeni inkişaf mərhələlərinə zəmin yaradıb. Tamaşa üçün vacib olan komponentlər, teatr sənətinin əsas atributlarını təşkil edən peşələr (səhnəqrafiya, butaforiya, əlbəsə, rekvizit, işıq, müxtəlif texnika və texnologiyalar) inkişaf etməyə başlayıb. Eyni zamanda təsisatlı teatrın qüdrətli sənətkarları, ilk növbədə aktyorlar, rejissorlar, teatr rəssamları və teatr bəstəkarları yetişiblər. Bu sürətli yetişmə mərhələsində daha qabarıq nəzərə çarpan aktyor sənəti olub. Sənətə yeni gələn, ali ixtisas təhsil almış milli rejissor kadrlarımız Milli Dram Teatrının janr və üslub xüsusiyyətlərini müəyyənləşdirdikcə, yeni estetik oyun-üslublu aktyorlar da formalaşıblar. Formalaşdıqca da hərnin aktyorların yaradıcılıqları örnəyə çevrilib və bu gün fərdi sənət məktəbi kimi qəbul olunurlar.

1923-cü ildə Bakıda Azərbaycan Dövlət Teatr Məktəbi açılıb. Üç il sonra bu məktəbin ilk məzunları MDT-da və Türk İşçi və Kəndli Teatrında işləməyə göndəriliblər. Tələbələr təhsil ala-ala dövlət teatrlarının tamaşalarında iştirak ediblər. Buna görə də MDT-nın rəhbərliyi teatrın yaradıcılıq üslubuna yaxın olan bacarıqlı gəncləri əvvəlcə sınaq müddətinə truppaya qəbul edib. Sınaqdan uğurla çıxanlar isə teatrın aktyor ştatında yer tutublar.

* * *

### MUSTAFA MƏRDANOV (28.2.1894- 8.12.1968)

Milli komediya teatrımızın nadir istedad sahibi, görkəmli teatr xadimi, gözəl tərcüməçi, xeyirxah insan Mustafa Haşım oğlu Mərdanov 28 fevral 1894-cü ildə Gürcüstanın Tiflis şəhərində tanınmış ailədə doğulub. Atası Hacı Haşım şəhərdə və xüsusən azərbaycanlıların gur yaşadıqları "Şeytanbazar" məhəlləsində sayılıb-seçilən adam idi. Elmə böyük nıaraq göstərən Mustafa ilk təhsilini mollaxanada alıb. Sonra Tiflisdəki 3-cü gimnaziyanı bitirib (1905-1916).

O, dostları İbrahim İsfahanlı və Nadir İbrahimovla Sultanməcid Qənizadənin təbdilində "Xor-xor" vodevilini tamaşaya hazırlayıb. 28 fevral 1909-cu ildə qonşuları kaşiyevin zirzəmisində göstərilən tamaşada özü Seyfulla rolunu ifa edib. 1910-cu ildən isə gimnaziyada təhsil almaqla yanaşı, Tiflis "Müsəlman dram aktyorları" heyətinə daxil olub. Burada çoxlu rol oynayıb, İrana və Türkiyəyə qastrollara gedib. 1921-ci ildə o, Tiflis Dövlət Azərbaycan Dram Teatrında direktor və aktyor kimi çalışıb. 1922-1924-cü illərdə Moskvada Teatr Sənəti İnstitutunda aktyor təhsili alıb. 1924-cü ilin yayından ömrünün sonuna qədər Milli Dram Teatrında aktyorluq edib,

Realist aktyor məktəbinin parlaq simalarından olan Mustafa Mərdanovun zəngin yaradıcılığını dörd qismə ayırmaq olar: dramatik rollar, psixoloji-xarakterik obrazlar, əsasən komik personajlar və müxtəlif səpkili tərcümə surətləri. Aktyor romantik-monumental tamaşalarda oynadığı rolları da realist səpkidə ifa edib. Onun rollar qalereyası bədii təravəti, ifa bütövlüyü, aktyor səmimiyyəti ilə seçilib.

Parlaq yaradıcılıq nailiyyətlərinin az bir qismi bunlardır: Əbdül, İmamverdi ("Solğun çiçəklər" və "1905-ci ildə", Cəfər Cabbarlı), Hacı Qara, Xan ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Vəzir ("Vaqif", Səməd Vurğun), Mindilli ("Nişanlı qız", Sabit Rəhman), Həsənov, Alışov ("Həyat" və "Kəndçi qızı", Mirzə İbrahimov), Malvolio, Loğman-Poloni, Rodriqo, Kapuletti ("On ikinci gecə", "Hamlet", "Otello" və "Romeo və Cülyetta", Vilyam Şekspir), Hofmarşal ("Məkr və məhəbbət", Fridrix Şiller), Fiqaro ("Fiqaronun toyu", Pyer Bomarşe), Filibert,

Markiz Forlipopoli ("Məzəli hadisə" və "Mehmanxana sahibəsi", Karlo Haldoni), Robinzon, Şmaqa ("Cehizsiz qız" və "Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Luka ("Həyatın dibində", Maksim Qorki), Jorj Danden, Sqanarel, Jordan ("Jorj Danden", "Don Juan" və "Bağa qınını bəyənməz", Jan Batist Molyer), Dando, Bob ("80 gün dünya səyahəti" və "Kapitan Qrantın uşaqları", Jül Vern), Xlestakov ("Müfəttiş, Nikolay Qoqol). Mustafa Mərdanov teatr fəaliyyəti ilə yanaşı, çoxlu bədii filmə çəkilib.

Ümumilikdə üç yüzə yaxın səhnə obrazı ifa etmiş Mustafa Mərdanov 1935-ci ildə Azərbaycan respublikasının əməkdar artisti və 17 iyun 1943-cü ildə xalq artisti fəxri adları ilə təltif olunub. Mustafa Mərdanov 1962- 1968-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinin (bugünkü Teatr Xadimləri İttifaqı) sədri olub. İttifaqın və Aktyor evinin hazırda Xaqani küçəsi, 10-da yerləşən binası Mustafa Mərdanovla Zəfər Nemətovun zəhməti və səyləri hesabına hasilə gəlib.

8 dekabr 1868-ci ildə Bakıda vəfat edən Mustafa Mərdanov Fəxri xiyabanda dəfn olunub.

Mustafa Mərdanov tipik xarakterlər yaratmağın ustası idi. Rolları cazibədar, duzlu və ən əsası, yapışıqlı idi. Milli koloritə xüsusi fikir verirdi. Fransız, rus, italyan... xalqlarının folklorunu dərindən bildiyi üçün həmin əsərlərdə rol oynayanda o millətin meydan tamaşalarının yumor estetikasından bacarıqla barınırdı. Obrazın ictimai və sosial mənşəyini koloritli boyalarla rəsm edirdi.

## KAZIM ZİYA (213.1896-20.1956)

Səlist səhnə danışığı, aydın və məftunedici diksiyası, yüksək səhnə mədəniyyəti, dərin mütaliəsi, geniş dünyagörüşü, müəllimlik məharəti ilə işlədiyi bütün teatrlarda kollektivin böyük rəğbətini qazanmış Kazım Ziyanın zəngin yaradıcılığı öz dəyər və mənası ilə milli teatr sənətimizin parlaq səhifələrini təşkil edir. Kazım Ziya hələ gənc yaşlarından səhnədə Azərbaycan dilinin aydın və dəqiq tələffüzü uğrunda mübarizə aparmış, nöqsanlara qarşı barışmaz olmuşdur.

Kazım Cəfər oğlu Kazımzadə (Kazım Ziya) 21 mart 1896-cı ildə Azərbaycanın Ordubad rayonundakı Yuxarı Əylis kəndində doğulub. Yeniyetmə yaşlarından ərəb və fars dillərini mükəmməl öyrənib. Sonralar rus və fransız dillərini də mənimsəyib. Gələcəyin sənətkarı 1911-ci ildə əmisi Hüseynin ailəsi ilə Bakıya köçüb. O, 1912-ci ilin payızında burada "İttihad" İran gimnaziyasma daxil olub. Bir il sonra Kazım məktəbdə ədəbiyyat dərnəyi yaradıb.

1914-cü ildə Hüseyn Ərəblinski başda olmaqla teatr fədailəri "İttihad" məktəbində şagirdlərin nəfinə (xeyrinə) Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsinin tamaşasını göstəriblər. Bununla da Kazım Ziyanın taleyinin sənət seçimi qətiləşib. Həmin vaxtdan müxtəlif teatr dəstələrində çıxışlar edib.

Kazım Ziya Milli Dram Teatrının tamaşalarında fəal iştirak etsə də, truppanın ştatına 1922-ci ildə götürülüb. Arada bir il Naxçıvana gedib. Orada dövlət teatrının formalaşmasında ciddi çalışan Kazım Ziya 1925-ci ildə yenidən Bakıya qayıdaraq Bakı Türk İşçi və Kəndli Teatrının truppasına daxil olub. Bakı Türk İşçi Teatrı 1933-cü ildə Gəncəyə köçəndə Kazım Ziya da doğma kollektivdən ayrılmayıb. 1936-cı ildən 1938-ci ilədək Tiflisdə və İrəvandakı dövlət teatrlarında aktyorluq edib. 1938-ci ildə Bakıya gələrək Milli Dram Teatrının formalaşıb şöhrətlənmiş truppasına daxil olub.

Səhnə səmimiyyəti və yüksək intellektuallığı ilə seçilən Kazım Ziyanın Milli Dram Teatrında yaratdığı əsas rollar bunlardır: Arif, Dərviş ("İblis" və "Şeyx Sənan", Hüseyn Cavid), Vaqif Söhbət ("Vaqif" və "Xanlar", Səməd Vurğun), Surxay, Usta Segah ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Piri baba ("Eşq və intiqam", Süleyman Sani Axundov), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), İmamyar, Xaspolad ("Yaşar" və "Oqtay Eloğlu", Cəfər Cabbarlı), Mirzə Həbib, Xan ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Dmitri Petroviç ("İki qardaş", Mixail Lermontov), General Tomson ("Şərqin səhəri", Ənvər Məmmədxanlı), Sərdar Eldarov ("Son gülən", Kondrat Krapiva), Baturin ("O tayda", Anatoli Boryanov), Kastenov ("Bir evin sirri", Tur qardaşları).

"Bismillah", "Səbuhi" filmlərinə çəkilən Kazım Ziya Lev Tolstoyun "Canlı meyit", Henri İbsenin "Cəmiyyət sütunları", Vadim Sobkonun "İkinci cəbhə arxasında", Aleksandr Dümanın "Qanlı qala" ("Nel qülləsinin sirri") pyeslərini və digər dramları dilimizə tərcümə edib.

Kazım Ziya 17 iyun 1943-cü ildə əməkdar artist olmadan birbaşa Azərbaycan Respublikasının xalq artisti fəxri adına layiq görülüb. O, 1948-ci ildə "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasının bir qrup yaradıcı heyəti ilə birgə Tomson roluna görə Stalin mükafatı laureatı olub.

Faciə, məhəbbət qəhrəmanlarını, "partlayan" gülüşlü komediya obrazlarını, birrəngli rəsm edilmiş tipik xeyirxah insan obrazlarını oynamış Kazım Ziya mürəkkəb səciyyəli xarakterik rollarda əsil sənət qələbələri qazanıb. Səhnədə müəyyən mürəkkəb vəziyyətlərdə təqdim olunan obrazların pyesdə göstərilməyən "məişət tərzinin", keçdiyi həyat mərhələlərinin nəzəri-estetik, fəlsəfi-psixoloji fəaliyyət xəttini, dramatik ideya yükünü müəyyənləşdirməyə cəhd göstərən və surətin indisini həmin prizmadan işıqlandırmağa çalışan aktyor idi. İfa etdiyi transız, ingilis, türk, rus... obrazların ictimai-sosial mənşəyinə əsaslanaraq rolun bədii məntiqinə uyğun əda, davranış tərzi, geyim-qrim görkəmi, mimika ifadə vasitələri tapırdı.

Görkəmli sənətkar 20 noyabr 1956-cı ildə Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

## AĞASADIQ GƏRAYBƏYLI (15.3.1897-5.12.1988)

Xarakterlər aktyoru Ağasadıq Gəraybəylinin sənəti realizm prinsiplərindən şirələnmiş, onun tələbləri zəminində inkişaf etmiş, yetişib formalaşmışdır. Aktyor faciə, komediya, dram rollarını eyni məharətlə oynayıb. Romantik səpkili tamaşalarda böyük nailiyyətlər qazanıb. Gəraybəyli (Gəraybəyov) teatr tariximizdə 80 il səhnədə obraz yaradan yeganə sənətkardır.

Ağasadıq Ağəli oğlu 15 mart 1897-ci ildə Şamaxıda doğulub, ancaq körpə yaşlarından ailəsi Bakıya köçüb. O, burada Azərbaycan-rus məktəbində təhsil alıb. 1908-ci ildə Hüseyn Ərəblinskinin truppasında rejissor köməkçisi olan qardaşı Ağaların təşəbbüsü ilə ilk dəfə səhnəyə çıxıb. 1916-cı ildə Politexnik Məktəbinə daxil olub və tələbəlik illərində "Nicat", "Səfa" cəmiyyətlərinin teatr truppalarında epizod rollar oynayıb. 1920-ci ilin mayında Milli Dram Teatrının yeni təşkil olunan truppasına götürülüb. 1921-1932-ci illərdə müəyyən fasilələrlə Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında işləyib. Opera və operetta tamaşalarında da rollar oynayıb.

Yaradıcılığı geniş diapazonlu Ağasadıq Gəraybəyli respublikanın əməkdar artisti (1 fevral 1936) və xalq artisti (4 may 1940) fəxri adları ilə təltifləinib. Altıncı çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub.

Ağasadıq Gəraybəyli 5 dekabr 1988-ci ildə Bakıda vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır.

**Faciə rolları:** İbn Yəmin və İxtiyar, Əfrasiyab, Alp Arslan ("İblis", "Səyavuş" və "Xəyyam", Hüseyn Cavid), Şveytser, Prezident ("Qaçaqlar" və "Məkr və məhəbbət", Fridrix Şiller), Aginski ("Dəhşətli röya", Herhart Hauptman), Altunbay ("Od gəlini", Cəfər Cabbarlı), Lorenso ("Romeo və Cülyetta", Vilyam Şekspir), Simon Renar ("Mariya Tüdor", Viktor Hüqo), Niyaz ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Knyaz Abrezkov ("Canlı meyit", Lev Tolstoy), Hacı Mədinə ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Antoni Anderson ("Şeytanın şagirdi" Bernard Şou).

**Komik rolları:** Şəkinski ("Oqtay Eloğlu", Cəfər Cabbarlı), Əsgər bəy və Naçalnik, Xan ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Dəmirçi Musa, Nəsirov, Əliqulu, Mindilli ("Toy", "Xoşbəxtlər", "Əliqulu evlənir" və "Nişanlı qız", Sabit Rəhman), Ser Tobi ("On ikinci gecə", Vilyam Şekspir), Vasya dayı ("Nazirin xanımı", Branislav Nuşiç), Vano Pantiaşvili ("Xanuma", Avksenti Saqareli), Qraf Albofiorita ("Mehmanxana sahibəsi", Karlo Haldoni), Anton Antonoviç ("Müfəttiş", Nikolay Qoqol), Tebano ("Rəqs müəllimi", Lope de Veqa).

**Dramatik rolları:** Nazim paşa, Dövlət bəy, Salamov və General-qubernator ("Ədirnə fəthi", "Aydın" və "1905-ci il-də", Cəfər Cabbarlı), Satin ("Yurdsuz insanlar", Maksim Qorki), Jak ("İki yetimə", Adolf D'Enneri və Germon), Andreyev ("Özgə uşağı", Vasili Şkvarkin), Murov, Paratov ("Günahsız müqəssirlər" və "Cehizsiz qız", Aleksandr Ostrovski), Qraf de Qranşan ("Ögey ana", Onore de Balzak), Xosrov, İbrahim xan, Hans ("Fərhad və Şirin", "Vaqif" və "İnsan", Səməd Vurğun), Aleksandr ("İki qardaş", Mixail Lermontov), Vasilyev, Nəcəf, Qoca Knyaz ("İşıqlı yollar", "Bahar suları" və "Xurşidbanu Natəvan", İlyas Əfəndiyev).

Ağasadıq Gəraybəylinin kino yaradıcılığı 1920-ci ildən başlayıb. "O olmasın, bu olsun" və "Bəxtiyar" filmlərindəki Rüstəm bəy və Ağabala surətləri daha geniş tamaşaçı rəğbəti qazanmışdır.

Ağasadıq Gəraybəyli təbiətən ehtiraslı aktyor idi. İradəcə zəif, süst xarakterli obrazları ifa edəndə də sənətkarın tükənməz enerjisi, daxili ehtirası aktyor oyununda öz təcəssümünü tapırdı. Obrazın xarakterindən asılı olaraq, öz ifasında surətin tələb etdiyi xeyirxahlıq və mənsəbpərəstlik, sadəlik və xudbinlik, qəhrəmanlıq və qorxaqlıq, prinsipiallıq və bürokratlıq; vətənsevərlik və riyakarlıq kimi bir-birinə zidd, təzadlı cəhətləri emosional bədiiliklə yoğurub aydınlıqla tamaşaçılara çatdırırdı.

**ƏLİ QURBANOV (20.6.1898-4.10.1962)**

Yaradıcılığı Tiflis Dövlət Azərbaycan Dram Teatrı və Akademik Milli Dram Teatrı ilə sıx bağlı olan Əli Mirzəli oğlu Qurbanov 20 iyun 1898-ci ildə Tiflisdə dünyaya göz açıb. Atası dəmir yolunda fəhlə işləyib, anası Zinyət (aktyor Möhsün Sənaninin xalası) mollalıq edib. Əli bir neçə il məktəb təhsili almış, saz və tar çalmağı öyrənmişdi.

Əli Qurbanov 1915-ci ildə özündən iki yaş kiçik xalası oğlu Möhsün Sənaninin təşkil etdiyi Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" əsərinin tamaşasında Rüstəm bəy obrazını oynayıb. Bundan sonra "İbrət" və "İttihad" truppalarında, sonra dövlət teatrında fəaliyyət göstərib. 1925-ci ilin ikinci yarısında Milli Dram Teatrının kollektivinə çağırıb. Ömrünün sonunadək burada işləyib.

Aktyor AMDT-da milli dramaturqlarımızdan Səməd Vurğunun "Vaqif" (Vidadi), "Xanlar" (Əzizbəyov), Azər baba ("Fərhad və Şirin"), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Sərdar), Mirzə İbrahimovun "Məhəbbət" (Əhmədi-biqəm), "Həyat" (Qurban və Cəlal), İlyas Əfəndiyevin "Bahar suları" (Mədət), Süleyman Sani Axundovun "Eşq və intiqam" (Piri baba), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Alı kişi), Hüseyn Cavidin "Səyavuş", "Şeyx Sənan" (Piran və Keşiş), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Cavad ağa), Mehdi Hü-seynin "Nizami" (Qivami), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Əsgər bəy), dünya klassiklərindən Vilyam Şekspirin "Hamlet" (Klavdi), "Otello" (Brabansio), "Qış nağılı" (Qoca çoban), "Kral Lir" (Qloster), Aleksandr Puşkinin "Dubrov-Ski" (Arxip), Aleksandr Ostrovskinin "Tufan" (Kuliqin), Jül Vernin "Kapitan Qrantın uşaqları" (Ayriton), Viktor Hüqonun "Gülən adam" (Lord Mounten), Jan Batist Molyerin "Skapenin kələkləri" (Jeront), Nazim Hikmətin "Türkiyədə" (Aşıq Hicrani) əsərlərinin tamaşalarında müxtəlif xarakterli rollar oynayıb. Aktyor həm də "Azərbaycanfilm" kinostudiyasında müxtəlif filmlərə çəkilib.

Əli Qurbanov 4 dekabr 1938-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 4 may 1940-cı ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

Aktyor 4 oktyabr 1962-ci ildə Bakıda vəfat edib.

Əli Qurbanov ehtirası, daxili imkanları yumşaq ifadə vasitələri üzərində köklənmiş, xarakter etibarı ilə dramatik personajlara meyilli, obrazın zahiri rəsmindən daha çox insani mahiyyətinə diqqət yetirən aktyor idi.

**MİLLİ DRAM TEATRINDA**
**AKTYOR YARADICILIĞI**
**(1925-1965)**

## İkinci dərs

## MƏMMƏDƏLİ VƏLİXANLI (13.3.1899-12.4.1969)

Teatr sənətinə marağı uşaq vaxtlarında gördüyü dini şəbih tamaşalarından, "Qaravəlli", "Kosa-kosa" məzhəkəli xalq oyunlarından oyanan Məmmədəli Hacı Heydər oğlu Heydərzadə (Vəlixanlı) 13 mart 1899-cu ildə Bakının Fatmayı kəndində doğulub. Baqqallıqla məşğul olan atası onu "Səfa" mədəni-maarif cəmiyyəti nəzdindəki məktəbə qoyub. Həmin dövrdə Azərbaycan realist aktyor məktəbinin banisi Cahangir Zeynalov "Səfa"nın teatr truppasında əsas simalardan biri idi. O, 1912-ci ildə quruluş verdiyi Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasının tamaşasında Bədəl rolunu təbiətən çevik və hər şeyə maraq göstərən Məmmədəliyə tapşırıb. Bununla da gələcək aktyorun sənət yolunda ilk addımı atılıb.

1920-ci ildə Milli Dram Teatrının xor heyətinə işə qəbul olunub. Həmin dövrdə opera və operetta tamaşaları da burada oynanılırdı. İşə başladığı ilk illərdə "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah İsmayıl" operalarında xorda oxuyan Vəlixanlı tədricən dram tamaşalarında sözsüz rollarda səhnəyə çıxıb. Məmmədəli Vəlixanlı teatrda işləyə-işləyə Bakı Teatr Texnikumunda təhsilini davam etdirib (1927-1930).

Otuzuncu illərin sonlarında realist aktyor məktəbinin duzlu komik aktyoru kimi tanınan Məmmədəli Vəlixanlı Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Mirzə Həbib), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Hacı Qəmbər), Sabit Rəhmanın "Xoşbəxtlər", "Əliqulu evlənir" və "Nişanlı qız" (Mirzə Qərənfil, Mindilli, Xəlil), Mirzə İbrahimovun "Həyat" (Pardon Qurbanəli), Nikolay Qoqolun "Müfəttiş" (Osip) komediyalarında öz ifası ilə silinməz izlər qoyub. Faciə və dramatik janrda yazılmış Hüseyn Cavidin "Səyavuş" (Kosa), Vilyam Şekspirin "Qış nağılı" (Avtolik), "On ikinci gecə" (Ser Endri), "Maqbet" (Qapıçı), Mehdi Hüseynin "Cavanşir" (Saran), Konstantin Trenyovun bizdə "Düşmənlər" adıyla oynanmış "Lyubov Yarovaya" (Pikalov), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (Robinzon), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Əmrah), Fridrix Şillerin "Qaçaqlar" (Vurm), Səməd Vurğunun "Xanlar" (Araq Şəmistan), İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (Rosselini), Brandon Tomasın "Tələbələrin kələyi" (Əli), Boris Lavrenyovun "Amerikanın səsi" (Skundirell), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Mürsəl kişi), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Dərviş) pyeslərinin səhnə təfsirlərində son dərəcə şirin, duzlu və koloritli yumoristik və komik-dramatik rollara səhnə ömrü bəxş edib.

Teatr sənətimizin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının əməkdar artisti (4 dekabr 1938) və xalq artisti (21 iyul 1949) fəxri adlarına layiq görülüb.

Məmmədəli Vəlixanlı Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşasının premyerasından (9 mart 1961-ci il) az müddət sonra qəfildən iflic xəstəliyinə düçar olub. Altmış iki yaşlı sənətkar bir daha səhnəyə çıxmadan 12 aprel 1969-cu ildə dünyasını dəyişib. Məzarı Bakıda ikinci Fəxri xiyabandadır.

Məmmədəli Vəlixanlı milli xarakter yaratmaqda, xalq teatr tamaşaları estetikasını səhnədə yaradıcılıqla realizə etməkdə mahir ustad idi. Hərəkətlərindəki, jestlərindəki, sifət ifadələrindəki aktyorluq boyaları zəngin və əlvan idi. Məsələ təkcə bununla bitmirdi, çünki Vəlixanlı hər bir obrazı fərdi xarakter kimi götürür, onu konkret tarixin, mühitin, ictimai təbəqənin təmsilçisi prizmasından tamaşaçılara təqdim edirdi. Onun çox orijinal, yapışıqlı və mütləq təbəssüm doğuran səs tembri, koloritli yumoru, zəngin sifət cizgi-ifadə vasitələri vardı. Yumor və satiranın ölçü-əndazələrini səhnədə dəqiq həssaslıqla gözləyə bilirdi.

**RZA ƏFQANLI (15.5.1899- 9.11.1973)**

Romantik aktyor məktəbinin nümayəndəsi, ciddi və xeyirxah, saf qəlbli və sadə həyat tərzli obrazların ifasında ən uğurlu nailiyyətlər qazanan aktyorlardan öndə duranların biri də Azərbaycan Respublikasının xalq artisti Rza Əfqanlıdır. İfa etdiyi əsərin orijinal və ya tərcümə olmasından, xüsusən ona tapşırılmış rolun böyük, ya kiçikliyindən asılı olmayaraq, aktyor həmişə ilk növbədə bitkin və xarakterik səhnə obrazı yaratınağa çalışıb.

Rza Rüstəm oğlu Cəfərzadə (Rza Əfqanlı) 1899-cu il mayın 15-də İran Azərbaycanının Sərab şəhərində doğulub. İki yaşında olarkən atası Rüstəm kişi vəfat edib. Rza doqquz yaşından varlıların qapılarında nökərçilik etməyə, quzu otarmağa məcbur olub. Ailəsini dolandırmaq məqsədilə 1912-ci ilin yazında Bakıya gəlib. 1916-cı ildə Pyatiqorska gedib və orada Çəkməçi şagirdi işləyib, iki il sonra rus ordusunda könüllü xidmət edib.

1920-ci ildə Bakıya dönən Rza Əfqanlı əvvəl Sabunçu qəsəbəsindəki dram dərnəyində aktyorluq edib və tezliklə Akademik teatrın aktyoru Xəlil Hüseynovun təşəbbüsü ilə Mərkəzi Dövlət Səyyar Teatrında işləməyə başlayıb.1923-cü ildə Milli Dram Teatrının truppasına işə götürülüb və paralel olaraq 1926-cı ildə Bakı Teatr Məktəbini bitirib. 1929-cu ildə görkəmli rejissor və aktyor İbrahim İsfahanlının dəvəti ilə Tiflis Azərbaycan Dövlət Teatrında işləməyə gedib. 1933-1934-cü il teatr mövsümündə Türkmənistan respublikasının paytaxtı Aşqabaddakı "Az Millətlər Teatrı"nda ("Natsmen" Teatrı) baş rejissor olub. 1935-ci ilin əvvəllərində yenə Milli Dram Teatrının kollektivinə qayıdıb.

Rza Əfqanlı müxtəlif illərdə Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" (Tavad Orbeliani), "Köhnə dudman" (Bədəl), "Baba yurdunda" (İsgəndərzadə), "Pəri cadu" (Qurban), "Dağılan tifaq" (Nəcəf bəy), Cəfər Cabbarlının "Od gəlini" (Rəbi, Aqşin və Elxan), "Oqtay Eloğlu" (Oqtay), "Sevil" (Balaş və Əbdüləli bəy), "1905-ci ildə" (General-qubernator), "Aydın" (Dövlət bəy), Vilyam Şekspirin "Otello" (Yaqo), "Hamlet" (Horatsio), "Kral Lir" (Edmund), Hüseyn Cavidin "Knyaz" (Anton), "Şeyx Sənan" (Platon və Şeyx Sənan), Aleksandr Suxovo-Kobılinin "Kreçinskinin toyu" (Nelfin), Viktor Hüqonun "Gülən adam" (Lord Devid), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Gavə), Konstantin Trenyovun "Düşmənlər" (Vixor Yarovay), Aleksandr Şirvanzadənin "Namus" (Seyran), Səməd Vurğunun "Vaqif" (Eldar), "Fərhad və Şirin" (Fərhad və Xosrov), Nazim Hikmətin "Türkiyədə" (Hüseyn), Mehdi Hüseynin "Nizami" (Nizami), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (Paratov), Abdulla Şaiqin "Nüşabə" (İsgəndər), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (Rüstəm bəy) əsərlərinin tamaşalarında ifa etdiyi rollar janr əlvanlığı, estetik zənginliyi ilə xarakterikdir.

Eyni dövrdə yaşadığı sənətkarlar kimi, Rza Əfqanlının da yaradıcılığında kino rolları ayrıca mərhələdir. O, 1963-cü ildə teatrdan haqsız olaraq uzaqlaşdırılıb. Uzun illər işsiz qalan (arada ancaq bir neçə filmə çəkilib) Rza Əfqanlı bir müddət Sumqayıt Dövlət Dram Teatrında aktyorluq edib.

Rza Əfqanlının rollarında realizmdən şirələnən romantik vüsət, poetik cazibədarlıq vardı. Zəhmli baxışları, sərt və ifadəli sifət cizgiləri ürəyəyatımlı idi, aktyor onları obrazın bədii siqlətinə uyğun tərzdə istiqamətləndirirdi. Janrından asılı olmayaraq, bütün tamaşalarda obrazın fərdi xarakterini, konfliktdə daşıdığı yükü bütövlükdə tamaşanın ali məqsədinin məhvərində təcəssüm etdirirdi. Romantik zəmində formalaşan Rza Əfqanlı realist obrazları da şövqlə, əzmlə, yaradıcılıq ehtirası ilə oynayırdı və bununla da öz üslübuna yeni səpki təravəti verirdi.

Həyat yoldaşı tanınmış teatr rəssamı Bədurə xanım Əfqanlı idi. Aktyor 1938-ci il dekabrın 4-də Azərbaycan respublikasının əməkdar, 1943-cü il iyulun 17-də xalq artisti fəxri adları ilə təltif edilib. 1948-ci ildə "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasındakı Fərhad roluna görə Stalin mükafatına layiq görülüb.

Rza Əfqanlı 9 noyabr 1973-cü ildə Bakıda vəfat edib.

**YEVA OLENSKAYA (1900-19.5.1959)**

Azərbaycan səhnəsində çıxış edən milliyyətcə rus aktrisaları arasında dili çox yaxşı bilən, birbaşa respublikanın xalq artisti adına layiq görülən (21 iyul 1949), ömrünün sonunadək səhnədən ayrılmayan, uzun illər "Yeva xanım" imzası ilə çıxış edən Yeva (Yevgeniya) Nikitiçna Olenskayadır.

1900-cu ildə Qubada doğulmuş Yeva xanım Azərbaycan dilini uşaqlıqdan öyrənmişdi. İyirminci əsrin əvvəllərində (1907) ailəsi Bakıya köçən Yevanın böyük bacısı Aleksandra (Şura) Olenskaya müxtəlif Azərbaycan teatr truppalarında aktrisalıq edirdi. Onun səyi və təşəbbüsü ilə Yeva ilk dəfə 13 yaşında səhnəyə çıxıb və taleyini ömürlük teatr sənətiylə bağlayıb.

Yaradıcılığa başladığı ilk illərdən "Nicat", "Səfa" truppalarının, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" opera və dram dəstəsinin hazırladıqları tamaşalarda oynayıb. Yeva Olenskaya 1922-ci ilin axırlarından 1925-ci ilin əvvəllərinədək Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında işləyib və sonra yenə Milli Dram Teatrının kollektivinə qayıdaraq otuz dörd il sərasər bu səhnədə çıxış edib. Yeva xanım həm milli dramaturgiya nümunələrində, həm də tərcümə əsərlərinin tamaşalarında dramatik, faciə, komik və xarakterik rollar yaradıb.

Pyesləri tamaşaya qoyulan klassik və çağdaş Azərbaycan dramaturqlarından Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Sona və Teybə), "Lənkəran xanının vəziri" (Şölə xanım), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Şamama), "Köhnə dudman" (Pərviz xanın qızı), "Dağılan tifaq" (Nazlı), Cəfər Cabbarlının "Almaz" (Xanımnaz və Yaxşı), "Oqtay Eloğlu" (Gülgəz), "Sevil" (Tafta və Gülüş), "Od gəlini" (Solmaz), "Yaşar" (Tanya), Səməd Vurğunun "Vaqif" (Hərəmxana qarısı), "Fərhad və Şirin" (Məhmənə banu), Süleyman Sani Axundovun "Eşq və intiqam" (Yasəmən və Qəmər), Hüseyn Cavidin "Afət" (Altunsaç), "Şeyx Sənan" (Tamara-Xumar), "İblis" (Xavər), "Knyaz" (Lena), Cəlil Məmmədquluzadənin "Ölülər" (Zeynəb və Nazlı) əsərlərinin tamaşalarında uğurlar qazanıb. Dünya ədiblərindən Vilyam Şekspirin "Hamlet" (Ofeliya), "Romeo və Cülyetta" (Cülyettanın dayəsi), Fridrix Şillerin "Məkr və məhəbbət" (Millerin arvadı), "Qaçaqlar" (Amaliya), Onore de Balzakin "Ögey ana" (Marqarita), Biçer Stounun "Tom dayının koması" (Eliza), Jül Vernin "80 gün dünya səyahətində" (Aoda), "Kapitan Qrantın uşaqları" (Elmina), Viktor Hüqonun "Gülən adam" (Dea), Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (Arxipovna), Aleksandr Fadeyevin "Gənc qvardiya" (Vera nənə), Tur qardaşlarının "Bir evin sirri" (Erna Kurtsius), Karlo Haldoninin "Mehmanxana sahibəsi" (Ortenziya), Nazim Hikmətin "Türkiyədə" (Tərcüməçi), Yuri Yanovskinin "Prokurorun qızı" (Leokadiya Lvovna), Aleksandr Şteynin "Şəxsi iş" (Derqaçova) əsərlərinin tamaşalarındakı rolları maraqlıdır.

Yeva xanım dramatik obrazların ifasında sözləri xüsusi psixoloji intonasiyalarla söyləyirdi, tələffüzü aydın və qrammatik cəhətdən dəqiq səslənirdi. Xarakterik nənə, yaşlı qadın, ağbirçək kənd adamı obrazlarını xüsusi şövq və məlahətlə, zərif, yumşaq boyalarla oynayırdı.

Yeva Olenskaya 19 may 1959-cu ildə Bakıda vəfat edib.

**MÖHSÜN SƏNANİ (19.6.1900-11.2.1981)**

Yaradıcılıq palitrası rəngarəng, aktyor ampluası çoxşaxəli olan, əlvan xarakterlər toplusunun salnaməsini yaradan Möhsün Sadıq oğlu Cəfərov (Sənani) 19 iyun 1900-cu ildə Tiflis şəhərinin Şeytanbazar məhəlləsində doğulub. Bura o dövrdə azərbaycanlıların sıx yaşadıqları yer idi. Möhsün valideynlərini çox erkən itirib və nənəsinin himayəsinə keçib. 1906-cı ildən mədrəsədə təhsil almağa başlayıb. 1908-ci ildə nənəsi də dünyasını dəyişib və o, xalası Ziniyətin evinə gəlib. Xalq artisti Əli Qurbanovun anası olan Zinyət xanım da çox kasıb dolandığından Möhsün 1909-cu ildən Şeytanbazarda gündəlik çörəkpulu qazanınaq üçün müxtəlif buyruqlara gedir, hər cür ağır işin qulpundan yapışırdı.

Şirin və məlahətli səsi olan Möhsün Sənani 1911-ci ildə məhərrəmlik ayında göstərilən şəbih tamaşalarında "Qasım otağı" epizodunda çıxış edib. "Hicaz" muğamı üstündə oxuduğu mərsiyə-

qəsidənin xoş sədası məhəlləyə yayılıb. Tiflis şəhərində azərbaycanlıların həvəskar teatr truppasının məşhur aktyoru Mirzəxan Quliyev onu şagird və yeniyetmələrin dram dərnəyinə dəvət edib. 1914-cü ilin axırlarında aktyorluğa ciddi maraq göstərən, səylə çalışan Möhsün Sənani taleyini ömürlük səhnə sənətinə bağlayıb.

1915-1919-cu illər arasında Tiflisdə azərbaycanlı teatr həvəskarlarının oynadıqları tamaşalarda iştirak edən Möhsün Sənani 1919-cu ilin iyununda Bakıya gəlib. Bir qədər həvəskar aktyor kimi çıxış edib və sonra dövlət teatrının truppasına qəbul olunub. Möhsün Sənani Milli Dram Teatrında işləməklə yanaşı, 1927-1930-cu illərdə Bakı Türe İşçi Teatrında hazırlanan bir sıra tamaşalarda da oynayıb.

Möhsün Sənaninin yaradıcılığında iki üslub xüsusilə formalaşıb. İfadə vasitələri müxtəlif, janr-estetika prinsipləri fərqli olsa da, aktyor onları özünün fərdi üslubunun poetika bütövlüyündə ustalıqla birləşdirirdi. Sənani dramatik obrazları tamaşanın mövzu-problematikasından, janr təyinindən asılı olaraq taciə, psixoloji, bəzən lirik-psixoloji, publisist notlarda kökləyib oynayırdı. Buna aşağıdakı rolları misal göstərmək olar.

İsgəndər, Mirbağır ağa və Məşədi Oruc ("Ölülər", Cəlil Məmmədquluzadə), Yuri ("İki qardaş", Mixail Lermontov), Nəbi ("Qaçaq Nəbi"), Mehdi-Mixaylo ("Uzaq sahillərdə", İmran Qasımov və Həsən Seyidbəyli), Qatır Məmməd ("Qatır Məmməd", Zeynal Xəlil), Edqar, Molkolm ("Kral Lir" və "Maqbet", Vilyam Şekspir), Vano Quliaşvili ("Vətən oğlu", Konstantin Simonov), Eldar ("Vaqif", Səməd Vurğun), Gərşivəz ("Səyavuş", Hüseyn Cavid), Zavyalov ("Çiçəklər yolu", Valentin Katayev), Surxay ("Aydın", Cəfər Cabbarlı), Ferdinand ("Ögey ana", Onore de Balzak), Sergey Tulenin ("Gənc qvardiya", Aleksandr Fadeyev), Xanınurad ("Bahar suları", İlyas Əfəndiyev), Şərif, Dövlət bəy, Xosməmməd ("Almaz", "Aydın" və "Dönüş", Cəfər Cabbarlı), Vano dayı ("Darıxma, ana!", Nodar Dumbadze), Heydər bəy və Teymur ağa ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Skapen ("Skapenin kələkləri", Jan Batist Molyer), Fiqaro ("Fiqaronun toyu", Pyer Bomarşe), Kavaler Ripafratta ("Mehmanxana sahibəsi", Karlo Haldoni), Həsənağa ("Göz həkimi", İslam Səfərli).

Möhsün Sənaninin yaradıcılığında "Azərbaycanfilm"də istehsal olunmuş kinolarda oynadığı rollar xüsusi yer tutur. Aktyorun çəkildiyi səssiz və səsli, ağ-qara və rəngli filmlərdəki rollarının ən məşhuru Eldar ("Kəndlilər". 1939) və Qoçu Əsgər ("O olmasın, bu olsun". 1956) obrazlarıdır.

Möhsün Sənaninin geniş aktyor diapazonu olub. Bir sıra tamaşalarda mahnıları şövq və məlahətlə oxuyub. Təbii yumoru, güclü özgələşmə bacarığı, rəngarəng sifət ifadə vasitələri, koloritli danışıq tərzi olan Möhsün Sənani realist aktyor məktəbinin layiqli nümayəndələrindən biridir. Aktyorun yumor istedadının güclü cazibə qüvvəsi vardı və bu məhrəmlik onun öz tamaşaçı qüvvəsini yetişdirmiş, onları sənətkarın istedadına, səhnəyə hər çıxışma məhəbbət ruhunda kökləmişdi.

Möhsün Sənani Azərbaycan Respublikasının əməkdar artisti (17 iyun 1943) və xalq artisti (21 iyul 1949) fəxri adlarına layiq görülüb.

Möhsün Sənani 11 fevral 1981-ci ildə Bakıda vəfat edib və ikinci Fəxri xiyabanda dəfn olunub.

* * *

Bu dövrün 1940-1950-ci illərində teatrın truppasına sonralar xalq artisti və əməkdar artist fəxri adlarını alan Əminə Sultanova (Nağıyeva), İmamverdi Bağırov, Sadıq Hüseynov, Müxlis Cənizadə, Muxtar Maniyev, Bürcəli Əsgərov, aktyorlar Səadət Zülfüqarova, Seyfəli Mehrəlioğlu, Fatma Kərimova, Nadir Rzayev, Eldəniz Zeynalov, Şövkət Rzayeva, Mustafa Süleymanov, Əfrasiyab Məmmədov, Məmmədəli Əliyev, Osman Həqqi, Əmənulla Rəsulov, Leyla Rzayeva, Yusif İsgəndərov, Arif Namazəliyev, Afiqə Yolçuyeva (Kazımova), bir müddət işləyəndən sonra

rejissor sənətinə keçən Ağakişi Kazımov, Əşrəf Quliyev, Nəsir Sadıqzadə, Məmmədkamal Kazımov kimi bacarıqlı gənclər götürülüblər.

## MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1925-1965)

### Üçüncü dərs

### NATALİYA LİZİNA (1892-1957)

Əcnəbi millətdən olub Azərbaycan teatr sənətinə xidmət edən aktrisalardan biri də Nataliya Lizinadır. Səhnəyə qədəm basdığı ilk illərdə soyadı afişalarda "Lizinaya" klmi də yazılıb. 1940-cı illərin proqramlarında Nataliya Lizina (İsmayılova) kimi təqdim olunub. Cəfakeş aktrisa idi. Əsasən ikinci dərəcəli obrazlar və psixoloji, tipik personajları ifa edib. Azərbaycanca danışığı aydın, ifadəli və yumşaq idi. Romantik və pafoslu danışıq tərzindən qaçır, oynadığı səhnə surətlərinin realist təsvirinə çalışırdı.

Nataliya Davıdovna Lizina (İsmayılova) 1892-ci ildə Tiflisdə ziyalı rus ailəsində doğulub. Qadın gimnaziyasında təhsil alıb. Gimnaziyada gürcü dilini öyrənən Nataliya Lizina müxtəlif millətlərin yaşadıqları qaynar həyatlı məhəllələrində əsasən azərbaycanlı ailələri ilə ünsiyyət saxlayırdı. Buna görə azəri türkcəsində təmiz danışa bilirdi. Səhnəyə ilk dəfə 1908-ci ildə Tiflisdə çıxıb.

1914-cü ilin yazında ailələri Bakıya köçüb. Tiflisdə Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Əbülfət Vəli, Hüseynqulu Sarabski, Xəlil Hüseynov ilə tanış olan Nataliya xanım "Nicat" cəmiyyətinin teatr truppasına daxil olub. O, paralel olaraq "Səfa" dəstəsinin də hazırladığı tamaşalarda iştirak edib. 1917-1919-cu illərdə "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti", "Müsəlman artistləri ittifaqı" truppalarında da fəal iştirak edib. Hətta arada Tiflisə gedərək yerli dəstələrin tamaşalarında rollar oynayıb.

1920-ci il iyun ayının 1-də bugünkü Akademik Milli Dram Teatrı Dövlət kollektivi kimi yenidən təşkil olunanda Nataliya Lizina truppaya qəbul edilib. Arada Bakı Azad Tənqid və Təbliğ Teatrının tamaşalarına dəvət alan aktrisa 1927-1929-cu illərdə Türk İşçi Teatrının kollektivində çalışıb və bu sənət ocağının səhnəsində xeyli rol ifa edib. 1929-cu ildə aktrisa yenidən Akademik teatrın truppasına qəbul olunub. Nataliya Lizina 1914-cü ildən Milli Dram Teatrının əsasını təşkil edən truppalarda və 1920-ci ildən Dövlət statusu alan kollektivdə oynadığı əsas rollar bunlardır: Mələk xanım ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Hafizə, Sona xanım ("Pəri cadu" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), İnci ("Şamdan bəy", Nəriman Nərimanov), Emiliya, Sinyora Montekki ("Otello" və "Romeo və Cülyetta, Vilyam Şekspir), Mehri ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Olqa, Tamara, Gültəkin, Tafta, Xanımnaz, Tükəzban ("Bakı müharibəsi", "Oqtay Eloğlu", "Aydın" "Sevil", "Almaz", və "Yaşar", Cəfər Cabbarlı), Kərbəlayı Fatma, Zəhra bəyim ("Ölülər" və "Anamın kitabı", Cəlil Məmmədquluzadə), Rəbiyyə ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Ziba xanım, Tükəz ("Lənkəran xanının vəziri" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Nina, Alman qadını, İlçay ("Şeyx Sənan", "Knyaz" və "Afət", Hüseyn Cavid), Tuba ("Zorən təbib", Jan Batist Molyer), Marqo ("Şahın bərbəri", Anatoli Lunaçarski), Marino ("Dəhşətli röya", Herhart Hauptman), Maskalı qadın ("Nel qülləsinin sirri", Aleksandr Düma), Kvaşnya ("Yurdsuz insanlar", Maksim Qorki), Marianna ("İki yetimə", Adolf D'Enneri və Germon), Ledi Buqçen ("Gülən adam", Viktor Hüqo), Nənə ("Göy quş", Moris Meterlink), Odessalı qadın ("İntervensiya", Lev Slavin), Qarı ("Fərhad və Şirin", Səməd Vurğun).

Teatr sənətinin inkişafındakı xidmətlərinə və Milli Dram Teatrının 75 illik yubileyi münasibəti ilə Nataliya Lizina (İsmayılova) 21 iyul 1949-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub. O, 1957-ci il-də Bakıda vəfat edib.

**QƏMƏR TOPURİYA (15.8.1902-3.6.1947)**

Milliyyətcə gürcüdür. Bütöv adı və soyadı pasportda belə verilib: Tamara Vissarionovna Topuriya. "Qəmər" onun təxəllüsüdür və səhnəyə qədəm basdığının ikinci ilindən, yəni 15 yaşından tamaşaların proqramlarında adı (soyadsız) belə yazılıb. Aktyorluq fəaliyyətinin dördüncü ilindən həm "Qəmər xanım", həm də "Qəmər Topuriya" imzaları ilə çıxış edib. Bəzi proqramlarda "Şəms Qəmər" kimi təqdim olunub. Qəmər xanım Topuriya realist aktyor məktəbinin aktrisası kimi dramatik və xüsusən incə yumoru olan real obrazları xüsusi məharət və ilhamla oynayırdı.

Tiflisin Şeytanbazar məhəlləsində 15 avqust 1902-ci ildə doğulan Qəmər xanımın bütün qonşuları azərbaycanlı ailələri olduğuna görə azəri türkcəsində çox şirin və gözəl danışa bilirdi. Rus dilində beş sinif həcmində təhsil alıb. Qəmər
Topuriya ilk dəfə 1917-ci ildə Qulluqçu ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev) rolunda səhnəyə çıxıb. 1918-ci ildən isə aktyorluq sənətini özünə peşə seçib.

Qəmər xanım Topuriya 1918-1920-ci illərdə Tiflisdə və Bakıda müxtəlif truppaların hazırladıqları tamaşalarda oynayıb. 1922-1925-ci illərdə Tiflis Dövlət Azərbaycan Teatrında işləyib. 1925-ci ilin əvvəllərində Bakıya dəvət olunub. Ömrünün sonuna qədər Akademik Milli Dram Teatrında aktrisalıq edib. Aktrisa Bakıda müxtəlif truppalarda və Akademik teatrda Fəridə, Dilbər xanım, Susanna, Mariya Timofeyevna, Gülgün, Tanya, Xurşud ("Bakı müharibəsi" "Sevil", "Aydın", "1905-ci ildə", "Od gəlini", "Yaşar" və "Dönüş", Cəfər Cabbarlı), Nazlı və Zeynəb ("Ölülər", Cəlil Məmmədquluzadə), Reqana, Sinyora Kapuletti ("Kral Lir" və "Romeo və Cülyetta", Vilyam Şekspir), Xubçöhr ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Əsgər qız, Jasmen, Olqa, Firəngiz ("İblis", "Knyaz", "Topal Teymur" və "Səyavuş", Hüseyn Cavid), Şarlotta ("Don Juan", Jan Batist Molyer), Leyla ("Tələbələrin kələyi, yaxud Çarleyin xalası", Brandon Tomas), Məryəm ("Namus", Aleksandr Şirvanzadə), Hersoqinya Jozeanna ("Gülən adam", Viktor Hüqo), Anna Andreyevna ("Müfəttiş", Nikolay Qoqol), Raya ("Özgə uşağı", Vasili Şkvarkin), Korinkina ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Gecə məlalkəsi ("Göy quş", Moris Metterlink), Hafizə ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Ledi Milford ("Məkr və məhəbbət", Fridrix Şiller), Xarita və Oqudalova, Kabanixa ("Cehizsiz qız" və "Tufan", Aleksandr Ostrovski), Mələk xanım ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Qrafinya ("Fiqaronun toyu", Pyer Bomarşe), Amaliya ("İnsan", Səməd Vurğun) kimi mürəkkəb və xarakterik rollar oynayıb.

Qəmər xanım Topuriya teatr sənətinin inkişafındakı xidmətlərinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Aktrisa 1947-ci il iyun ayının 3-də uzun sürən xəstəlikdən Bakıda vəfat edib.

**SONA HACIYEVA (25.6.1907- 4.12.1979)**

Azərbaycan teatrının ilk milli aktrisalarından olan, opera və dram tamaşalarında əksər rolların əzəl qadın ifaçısı Sona Salman qızı Hacıyeva 25 iyun 1907-ci ildə Nuxada (indiki Şəki) doğulub. Anası Əzizə Məmmədova da səhnəmizin ilk peşəkar aktrisalarındandır. Babası Əbdübağının xanəndəlik sənəti, anasının gözəl qarmon çalması Sona xanımda uşaq yaşlarından musiqiyə ciddi maraq oyadıb. Onun özünün də məlahətli səsi olub.

Sona xanım bir yaşında olanda atası vəfat edib. Babası xanəndə Əbdübağı Zülalovun himayəsində yaşayan Əzizə xanım və qızı Sona 1916-cı ildə Tiflisə köçüblər. Az sonra Tiflisdən Türkmənistanın Aşqabad şəhərinə, 1919-cu ildə oradan Bakıya gəliblər. Əvvəl anası, sonra isə 13 yaşlı Sona Hacıyevanın özü Əli Bayramov klubunda dram dərnəyinə üzv olublar. 1921-ci ildə Bakı

Türk Azad Tənqid və Təbliğ Teatrı təşkil olunanda Sona Hacıyeva teatra aktrisa dəvət edilib. Aktrisa iki ilə yaxın bu teatrda işləyib. Sonralar arada yenə teatrın müxtəlif tamaşalarında oynayıb.

Sona Hacıyeva 1923-cü ildə Milli Dram Teatrının kollektivinə daxil olub. 1979-cu ilədək, yəni ömrünün sonuna qədər (arada qısa fasilələrlə) bu sənət ocağında işləyib. 1925-ci ilin payızına kimi opera tamaşaları Milli Dram Teatrının kollektivi tərəfindən hazırlanırdı. Milli teatrda ilk rolu Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" faciəsində Səlimə olan Sona Hacıyeva Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operalarında Leylinin, Əslinin, Şahsənəmin partiyalarını ifa edib, "Arşın mal alan" operettasında Asyanın rolunu oynayıb.

Yaradıcılığı dram tamaşalarında formalaşan aktrisa milli dramaturqlarımızın əsərlərinin tamaşalarında Solmaz, (Gülüş və Sevil, Yaqut, Sevər, Sona, Gülsabah ("Od gəlini" "Sevil","Yaşar", "Oqtay Eloğlu", "1905-ci ildə" və "Dönüş", Cəffər Cabbarlı), Zinyət, Sünbül ("Toy" və "Aydınlıq", Sabit Rəhman), Səadət ("Bahar suları", İlyas Əfəndiyev), Sona ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Xumar, Lena, Çin qızı ("Şeyx Sənan", "Knyaz" və "Səyavuş", Hüseyn Cavid), Nazh ("Ölülər", Cəlil Məmmədquluzadə), Sona, Sayad ("Dağılan tifaq" və "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Zöhrə ("Eşq və intiqam", Süleyman Sani Axundov), Gülnar, Mehriban ("Vaqif" və "Xanlar", Səməd Vurğun), Afaq ("Nizami", Mehdi Hüseyn), Gülcamal ("Qatır Məmməd", Zeynal Xəlil) rollarını ifa edib.

Tərcümə əsərlərinin tamaşalarındakı əsas rollarının yığcam siyahısını belə ümumiləşdirmək olar: Vilyam Şekspirin "Hamlet", "Otello" və "Romeo və Cülyetta" faciələrində Ofeliya, Dezdemona və Cülyetta, "On ikinci gecə" komediyasında Mariya, Aleksandr Ostrovskinin "Tufan" və "Cehizsiz qız" dramlarında Varvara və Qalçixa, Maksim Qorkinin "Həyatın dibində" və "Vassa Jeleznova" pyeslərinin tamaşalarında Anna, Nikolay Qoqolun "Müfəttiş"ində Mariya Antonovna, Pyer Bomarşenin "Fiqaronun toyu"nda Fanşetta, Jan Batist Molyerin "Skapenin mələkləri"ndə Zerbinetta, Fridrix Şillerin "Məkr və məhəbbət"ində Luiza, Jül Vernin "Kapitan Qrantın uşaqları"nda Meri, Vasili Şkvarkinin "Özgə uşağı"nda Manya, Aleksandr Korneyçukun "Polad Qartal"ında Nərgiz, Lev Şeynin və Tur qardaşlarının "Gizli döyüş"ündə Osenina, Aleksandr Şirvanzadənin "Namus"unda Süsən və sairə.

Sona Hacıyeva "Sevimli mahnı", "Qızmar günəş altında", "Səhər", "O olmasın, bu olsun", "Bəxtiyar" bədii filmlərində epizod rollara çəkilib. O, 24 aprel 1933-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 21 iyul 1949-cu ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Sona Hacıyeva 4 dekabr 1979-cu ildə Bakıda vəfat edib. Teatr tariximizə cığırdaşlar cərgəsində daxil olmuş Sona Hacıyeva neçə-neçə gəncin aktrisalıq sənətini seçMəsmə səbəb olub. Onun yaradıcılığı təbiiliyi, sadəliyi, enerji mütəhərrikliyi, ən əsası isə milli koloriti ilə səhnəmizə təzə ab-hava, tamaşaların ruhuna xoş iqlim və ovqat gətirib.

## ATAMOĞLAN RZAYEV (1912-2.12.1966)

Civə kimi qaynar təbiətli rolları daha şövqlə oynayıb. Aktyorluq qabiliyyətinin imkanları baxımından romantik teatr məktəbinin estetik poetika xüsusiyyətlərinə daha yaxın idi.

Atamoğlan Balababa oğlu Rzayev 1912-ci ildə Bakının Əmircan qəsəbəsində doğulub. Qəsəbədəki beş sinifli məktəbin birinci pilləsində oxuyub və sonra Fabrik və Zavod Məktəbində (FZU) təhsil alıb. Bakı Teatr Texnikumunu 1932-ci ildə bitirib. Əvvəlcə Bakı Türk İşçi Teatrında işləyib.

1935-ci ildə Milli Dram Teatrının aktyor truppasına üzv olub. Arada filarmoniyada, mədəniyyət nazirliyində işləyib və 1957-ci ildən yenə MDT-a qayıdıb.

21 iyul 1949-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltifl ənib.

Atamoğlan Rzayevin teatrdakı daha parlaq rolları Kürd Musa ("Vaqif", Səməd Vurğun), Qurd Kərim ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Rəbi, Daşdəmir, Şərif ("Od gəlini", "Dönüş" və

"Almaz", Cəfər Cabbarlı), Təlxək, Heydər, Kərim ("Pəri cadu", "Köhnə dudman" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Həsənov ("Kimdir müqəssir?", Hüseyn Muxtarov), Baner ("Arzu", İmran Qasımov), Ədhəm ("Bahar", Məmmədhüseyn Təhmasib), Sadıq ("Xoşbəxtlər", Sabit Rəhman), Rəis ("Şöhrət və ya unudulan adam", Nazim Hıkmət), Rikardo ("Rəqs müəllimi", Lope de Veqa), Xanmurad ("Bahar suları", İlyas Əfəndiyev), Montano, Kleomen ("Otello" və "Qış nağılı", Vilyam Şekspir), Fəxrəddin ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), İlya ("Cehizsiz qız", Aleksandr Ostrovski), İlqar ("Əcəb işə düşdük", Şıxəli Qurbanov), Çərkəz ("Dağlar qızı" Adil Babayev), Fyodorov ("Qaliblər", Boris Çirskov) obrazlarıdır.

Atamoğlan Rzayev 2 dekabr 1966-cı ildə Bakıda qəflətən vəfat edib.

**MİRZAĞA ƏLİYEV**
**(1883-25.10.1954)**

Görkəmli aktyor Mirzağa Əliyev 1883-cü ildə Bakının Hövsan kəndində kasıb ailədə doğulub. İlk təhsilini mollaxanada, sonra 2 saylı Bakı rus-tatar məktəbində alıb. Əmək fəaliyyətinə şəhər toxuculuq fabrikində başlayıb. Aktyor Murad Muradovla tanışlıqdan sonra onda teatra və xüsusən aktyor sənətinə böyük rəğbət oyanıb.

Mirzağa Əliyev səhnəyə ilk dəfə 1901-ci ilin iyununda Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" ("Çəkmə, Çəkə bilməzsən, bərkdir fələyin yayı") faciəsinin tamaşasında Şahmar rolunda qədəm basıb. Şahmar rolu ilə də dövrün teatr xadimlərinin diqqətini cəlb edib. Ona İsgəndər bəy Məlikovun "Yaxşılığa yamanlıq", Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar", "Xor-xor", "Dursunəli və ballıbadı", Rəşid bəy Əfəndiyevin "Qan ocağı", Vasaq Mədətovun "Qırt-qırt" kimi kiçik dramlarının və vodevillərinin tamaşalarında müxtəlif rollarla yanaşı, ciddi tamaşalarda da xarakterik obrazlar tapşırıblar. Qısa müddətdə o, nasir-dramaturq Əbdürrəhim bəy Haqverdiyevin baş rejissorluq etdiyi teatr truppasında Kərəməli ("Hacı Qara"), Hatəmxan ağa və Xudaverdi ("Müsyö Jordan və dərviş Məstəli şah"), Xacə Məsud ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Aşıq Vəli ("Yağışdan çıxdıq, yağmura düşdük" və ya "Hacı Qəmbər"), Əhməd ("Pəhlivanani-zəmanə", Nəcəf bəy Vəzirov), Hacı Murad ("Tamahkar", Süleyman Sani Axundov) rollarını oynayıb.

Paralel olaraq "Nicat", birinci və ikinci "Müsəlman teatr dəstəsi"ndə komik-dramatik rollar ifa edən Mirzağa Əliyev 1906-cı ilin payızında özü "Həmiyyət" truppası yaradıb. Bir ilə yaxın müddətdə "Həmiyyət" Mirzə Fətəli Axundzadənin "Mürafiə vəkilləri" ("Təbrizin məhkəmə vəkilləri" adı ilə), "Hacı Qara", Nəriman Nərimanovun "Nadanlıq", Sultanməcid Qənizadənin "Xor-xor", "Yadımdadır", "Axşam səbri xeyir olar", Nəcəf bəy Vəzirovun "Pəhlivanani-zəmanə", "Hacı Qənbər", Haşım bəy Vəzirovun "Evlənmək su içmək deyil", "Döymə qapımı, döyərlər qapını" pyeslərini və digər dramlarını tamaşaya hazırlayıb. Əsas rolları Mirzağa Əliyev özü ifa edib.

1907-ci ilin yazında "Həmiyyət" teatr truppası ikinci Müsəlman Teatr Dəstəsi ilə birləşdi. Mirzağa Əliyev müxtəlif illərdə həmin truppada, "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr kollektivlərində, Teatr şirkətində ("Müsəlman dram artistləri ittifaqı"), "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" teatr heyətində çalışıb. Hətta eyni zamanda bütün mövcud truppalarda xarakter rollarını oynayıb.

Mirzağa Əliyev 1912-ci ildə çar üsuli-idarəsinin əleyhinə səhnədən tamaşa zamanı tənqidi fikirlər söylədiyinə görə Hacıtərxana sürgün edilib. Bir il sonra Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar əfv edilib və yenidən Bakıya qayıdıb. Sürgün dövründə də teatr fəaliyyətində olub. Hacıtərxanda yaşayan azərbaycanlılarla və tatar səhnə həvəskarları ilə tamaşalar hazırlayıb, özü müxtəlif rollarda çıxış edib.

1913-1918-ci illər arasında Mirzağa Əliyev həm özünün təşkil etdiyi, həmçinin Hüseyn Ərəblinskinin, Mustafa Mərdanovun, Sidqi Ruhullanın və digər görkəmli səhnə ustalarının

topladıqları teatr dəstələri ilə Türkiyənin, İranın böyük şəhərlərində (məsələn, İstanbul, Tehran, Rəşt, Təbriz, Ənzəli), Volqaboyu şəhərlərdə, Tiflisdə, İrəvanda, Batumda, Dərbənddə, Petrovski Portda (indiki Mahaçqala), Orta Asiyada qastrol səfərlərində olub.

1918-ci il 28 mayda Azərbaycan Demokratik Cümhuriyyəti (Respublikası) quruldu və az sonra müxtəlif teatr truppaları birləşərək Türk Hökumət Teatrosu adlandırıldı. Hökumət teatrının açılışı 1919-cu il 24 oktyabrda "Azərbay və Can" (Isa bəy Aşurbəyli) pyesinin tamaşası ilə bayram edildi. Həmin teatrın aparıcı aktyorlarından biri də də Mirzağa Əliyev idi.

1920-ci ilin iyununda bu kollektiv əsasında Azərbaycan Şura hökumətinin Dövlət teatrı fəaliyyətə başladı. Yeni dövlət qurumunun ideoloji siyasət mövqeyini gücləndirmək məqsədilə 1921-ci il noyabrın 13-də Bakı Türk Azad Tənqid və Təbliğ Teatrı yaradıldı. Mirzağa Əliyevlə Hacıağa Abbasovun rəhbərlik etdikləri kollektivə həmçinin "Hacımirzə teatrı", "Hacımirz" (Hacıağa vo Mirzağa) deyilirdi. Repertuarı kiçik həcmli ideoloji-təbliği pyeslərdən, məzhəkələrdən, vodevillərdən ibarət olan teatrda Mirzağa Əliyev onlarla rol oynayıb.

1924-cü iidə yenidən doğma kollektivə, yəni bugünkü Akademik Milli Dram Teatrına qayıdan Mirzağa Əliyev ömrünün sonunadək bu sənət ocağının səhnəsində çalışıb.

Yüzdən çox səhnə obrazı yaratmış Mirzağa Əliyevin İsgəndər ("Ölülər", Mirzə Cəlil Məmmədquluzadə), Osip ("Müfəttiş", Nikolay Qoqol), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Atakişi, Mirzə Səməndər, Əmiraslan bəy Salamov, Əmirqulu, Oddamdı, Balaxan ("Sevil", "Almaz", "1905-ci ildə", "Yaşar", "Od gəlini" və "Aydın", Cəfər Cabbarlı), Skapen ("Sıcapenin kələkləri", Jan Batist Molyer), Kərəmov, Bərbərzadə ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Hacı Salman ("Dumanlı Təbriz", Məmməd Səid Ordubadi), Ser Tobi ("On ikinci gecə", Vilyam Şekspir), Qraf Almavno ("Fiqaronun toyu", Pyer Bomarşe), Poqanel ("Kapitan Qrantın çocuqları", Jül Vern), Həmzə bəy, Mirzə Qoşunəli ("Köhnə dudman", "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev) rolları milli səhnə sənətimizin ən parlaq səhifələrini təşkil edir.

Aktyorun Namiq Kamalın "Vətən" (Zabit), Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" (Tavat Muxrani), Molyerin "Zorən təbib" (Təbib), Hüseyn Cavidin "Şeyx Sənan" (Şeyx Kəbir), Vilyam Şekspirin "Hamlet" (Məzarçı), "Otello" (Brabansio), Aleksandr Suxovo-kobılinin "Kreçin-Skinin toyu" (Rasplyuyev), Vasili Şkvarkinin "Özgə uşağı" (Karaulov), Lev Slavinin "İntervensiya" (Aptekçi), Aleksandr Korneyçukun "Eskadramn məhvi" (Drezdin), Mirzə İbrahimovun "Həyat" (Qurban kişi), Fridrix Şillerin "Qaçaqlar" (Keşiş), "Məkr və məhəbbət" (Miller), Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (Hatəmxan ağa), "Lənkəran xanının vəziri" (Mirzə Həbib), Sabit Rəhmanın "Nişanlı qız" (Mirzə Salman), Nazim Hikmətin "Türkiyədə" (Tacir), İlyas Əfəndiyevin "İşıqlı yollar" (Baba dayı), Məmmədhüseyn Təhmasibin "Aslan yatağı" (Mehdi dayı), Cananın "Şahnamə" (Münəccim) pyeslərinin tamaşalarında oynadığı səhnə obrazları realist aktyor məktəbinin parlaq nümunələridir.

Mirzağa Əliyev Azərbaycanın yeganə aktyorudur ki, bir rola görə Stalin mükafatı ilə təltif edilib. Həmin rol 1942-ci il-də oynadığı, Mirzə İbrahimovun "Məhəbbət" dramındakı Məşədi Qulamhüseyn obrazıdır. Aktyor həmin mükafata ikinci dəfə 1948-ci ildə Nəcəf bəy ("Şərqin səhəri", Ənvər Məmmədxanlı) roluna görə layiq görülüb. Bu dəfə mükafatla tamaşanın yaradıcı heyətinin bir qrupu təltifləndirilmişdi: Quruluşçu rejissor Ədil İsgəndərov, aktyorlardan Kazım Ziya (General Tomson), Sidqi Ruhulla (Ağalarov), Mərziyə Davudova (Gülzar), İsmayıl Dağıstanlı (kirov), Rza Əfqanlı (Fərhad), rəssam Nüsrət Fətullayev.

Üzeyir bəy Hacıbəyovun "Ər və arvad" (Kəblə Qubad), "Arşın mal alan" (Soltan bəy), "Şah Abbas və Xurşid banu" (Vəzir), "O olmasın, bu olsun" (Məşədi İbad), Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan" (Orduxan bəy), "Aşıq Qərib" (Güloğlan) operetta və operalarındakı səhnə surətləri aktyorun yaradıcılığında ayrıca yer tutur. O, dəfələrlə müxtəlif quruluşlarda bu tamaşalarda iştirak edib.

Dramaturgiya janrında qələmini sınayan Mirzağa Əliyev "Vəzirin gözləri", "Məşədi evlənir", "Orada elə, burada belə", "Necə qan ağlamasın", "Ey dad şümür əlindən", "Telefon", "Qısqanclıq"

dramlarının və digər pyeslərin müəllifidir. "Bismillah" (1925), "Hacı Qara" (1929), "Məhəbbət oyunu" (1936), "Almaz" (1936), "Bakının işıqları" (1950) və başqa filmlərə çəkilib.

Mirzağa Əliyev rejissorlardan Cahangir Zeynalovun, Əbülfət Vəlinin, Əbdürrəhim bəy Haqverdiyevin, Hüseyn Ərəblinskinin, Hüseynqulu Sarabskinin, Abbasmirzə Şərifzadənin, İsmayıl Hidayətzadənin, Aleksandr Tuqanovun, Cəfər Cabbarlının, Yusif Yulduzun, Əlihüseyn Rzayevin, Ədil İsgəndərovun, Şəmsi Bədəlbəylinin, Səftər Turabovun, Ələsgər Şərifovun... quruluş verdiyi tamaşalarda çıxış edib.

Mirzağa Əliyev 1926-cı ildə Azərbaycan Respublikasının namdar (əməkdar), 1933-cü ildə xalq, 1949-cu ildə SSRİ xalq artisti fəxri adları ilə təltif olunub.

Görkəmli səhnə ustadı Mirzağa Əliyevin aktyorluq məktəbinin əsasını realizm, səmimiyyət, təbii kolorit, məhrəm sadəlik, emosional cazibədarlıq, xalq gülüşünün poetik təcəssümü... Kimi keyfiyyətlər təşkil edir.

Azərbaycanda realist aktyor məktəbinin banisi Cahangir Zeynalov sayılır. Bu günədək davam edib formalaşan həmin məktəbin ilkin və ən layiqli davamçılarından biri Mirzağa Əliyev olub.

Mirzağa Əliyev Azərbaycan aktyorluq məktəbində musiqili komediya janrının oyun, ifadə vasitələrinin formalaşmasında böyük işlər görüb.

Mirzağa Əliyev öz estetik prinsipləri, zəngin ifadə vasitələri, forma və üslüb prinsipləri olan məktəb yaradıb.

Xüsusi teatr təhsili görməmiş sənətkarlar arasında Mirzağa Əliyev qədər sevilən, çıxışları həmişə alqışlarla qarşılanan aktyor yoxdur.

Tipajlıqdan bacardıqca uzaq olmağa çahşan aktyor yumoru, satiranı, "öldürücü" gülüşü əsasən obrazın xarakterində cəmləşdirirdi.

Tarixin səhnə sənəti, küll halında teatr prosesi qarşısında sürdüyü ictimai və siyasi tələblər dəyişib, qabarıb, önə çıxıb, kölgədə olubsa da, Mirzağa Əliyev həmişə özünün aktyor üslübunda, aktyor səpkisində sabitqədəm, köklü və estetik cəhətdən təravətli qalıb. Onuncu illərdə məzəli məişətçilik, iyirminci illərdə ictimai-sosial romantizın, otuzuncu illərdə ideologiyanın diktəsi, qırxıncı illərdə pafoslu vətənpərvərlik ruhu güclü olsa da, Mirzağa Əliyev şirəsmdən mayalandığı realizmdən, bu üslubun sirayətedici səmimiyyətindən uzaq düşməyib.

Mirzağa Əliyevin qüdrətli, məktəb yaratmış aktyor kimi böyüklüyü bir də ondaydı ki, bu sənətkar müasirliyi klassik ənənələrdən uzaqlaşmaqda deyil, onu yeni-yeni ifadə keyfiyyətləri ilə zənginləşdirməkdə görürdü.

Görkəmli aktyor Mirzağa Əliyev 25 oktyabr 1954-cü ildə vəfat edib. Məzarı Bakıda Fəxri xiyabandadır.

## SİDQİ RUHULLA
## (28.3.1886-5.5.1959)

Romantik aktyor məktəbinin Azərbaycanda ən görkəmli simalarından, Türkiyədə, İranda, Orta Asiya respublikalarında, Volqa çayı boyu diyarlarda, İrəvanda, Tiflisdə, Petrovsk portda (indiki Mahaçqala) 1910-1920-ci illərdə ən çox tanınan, həmin yerlərin əksəriyyətində ilk teatr tamaşası göstərən, peşəkar teatrın bünövrəsmi qoyan Sidqi Ruhulla milli səhnə mədəniyyətimizin ən parlaq səhifələrini yaradıb.

Ruhulla Fətulla oğlu Axundov (Sidqi Ruhulla) Bakının Buzovna kəndində müəllim ailəsində dünyaya göz açıb. İlk təhsilini kənddə molla məktəbində alan Sidqi Ruhulla sonra Bakıda tacir şagirdi işləyib. On dörd-on beş yaşlarında "Kosa-kosa" xalq oyunlarında, şəbih tamaşalarında Arus Qasım və Əli Əkbər rollarında çıxış edib. Bakıda Ağa Kərbəlayı Məlikovun mağazasında işləyən Sidqi teatra maraq göstərib, imkan tapanda Tağıyev teatrında oynanılan tamaşalara baxıb. Hüseyn

Ərəblinski sənətinə məftunluq onda aktyor olmağa arzu və inam yaradıb. İlk dəfə səhnəyə çıxışı Ərəblinskinin quruluş verdiyi və Balaxanı dram dərnəyi klubunda (Balaxanı krujoku) göstərilən Nəcəf bəy Vəzirovun "Adı var, özü yox" məzhəkəsinin tamaşasında Telli rolu ilə olub. Bu hadisə 1908-ci il dekabrın 21-də baş verib. Üç ay yarım sonra Sidqi yenə Ərəblinskinin quruluşunda Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" tamaşasında Rüstəm bəy rolunu ifa edib.

Namiq Kamal;n "Vətən" dramında Sidqi rolunda böyük uğur qazandığına görə həmin adı özünə təxəllüs götürüb.

Sidqi Ruhulla "Nicat", "Səfa", az müddət "Həmiyyət" cəmiyyətlərinin teatr truppalarında, Abbasmirzə Şərifzadənin rəhbərlik etdiyi "Müsəlman artistləri ittifaqı"nda, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə, Ərəblinskinin müxtəlif teatr dəstələrində, özünün yaratdığı dəstə-truppalarda iştirak edib. 1918-ci ilin sonu, 1919-cu ildə Müsavat hökumətinin yaratdığı Dövlət (Hökumət) Teatrosunda, 1920-ci ildən isə arada qısa fasilə ilə Akademik Milli Dram Teatrında işləyib.

1913-cü ildə Moskva teatrlarında təcrübə keçən Sidqi Ruhulla İranda və Gəncədə "Ərəbli", "Ərəblinski" imzaları ilə tamaşalar hazırlayıb və özü də baş rollarda çıxış edib. Sidqi Ruhulla İranın Rəşt, Qəzvin, Xoy şəhərlərində ilk teatr təşkilatçısı olub, Təbrizdə səhnə sənətinin təbliği məqsədilə "Xeyriyyə" cəmiyyəti yaradıb. Azərbaycanın qədim paytaxtı olan Təbriz şəhərində peşəkar teatrın təşəkkülü və inkişaf yönü ilk növbədə Sidqi Ruhullanın adı ilə bağlıdır. O, Özbəkistan Respublikasının paytaxtı Daşkənddə Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (30 dekabr 1916) və "Əsli və Kərəm" (13 yanvar 1917) operalarını yerli özbək və tatar teatr həvəskarlarının iştiraki ilə tamaşaya hazırlayıb. Tiflisdə məşhur bəstəkar Fikrət Əmirovun atası Məşədi Cəmil Əmirovun "Seyfəl-mülk" operasını səhnəyə qoyub. Azərbaycanın rayonlarında, getdiyi xarici ölkələrdə yerli həvəskarlarla Nəriman Nərimanovun, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Fətəli Axundzadənin, Üzeyir bəy Hacıbəyovun, həmçinin Osmanlı ədibləri Namiq Kamalın, Şəmsəddin Saminin və başqalarının əsərlərinə səhnə təfsiri verib. Özü dramatik, faciə rolları ilə yanaşı, opera və operettalarda Məcnun, Kərəm, Sərvər, Rüstəm bəy, Soltan bəy... obrazlarında çıxış edib.

Üç yüzdən çox irili-xırdalı rol oynayan Sidqi Ruhulla həm ayrı-ayrı truppalarda, həm də dövlət teatrında rejissorluq etmişdir. İyirminci illərin əvvəllərində o, aktyorluqdan əlavə, teatrın rejissor ştatında işləyib. Rejissorlardan Hüseyn Ərəblinskinin, Aleksandr İvanovun, Saracan Valentinovun, Hüseynqulu Sarabskinin, Abbasmirzə Şərifzadənin, Aleksandr Tuqanovun, İsmayıl Hidayətzadənin, Yusif Yulduzun, Ədil İsgəndərovun, Rza Darablının, Əlihüseyn Rzayevin, Mirseyfəddin Kirmanşahlının, Səftər Turabovun, Əliheydər Ələkbərovun, Məhərrəm Haşımovun və başqalarının quruluşlarında milli, kiassik və çağdaş dünya dramaturgiyasının tamaşalarında silsilə rollar yaradıb. Azərbaycan klassiklərindən, demək olar, hamısının pyeslərində bir neçə quruluşda əsas rolları oynayıb.

Oynadığı rolların çox yığcam siyahısını belə ümumiləşdirmək olar. Milli dramaturgiyada: Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (Fəxrəddin), Nəriman Nərimanovun "Nadir şah" (Təhmas, Nadir şah, Ədhəm xan), "Şamdan bəy" ("Dilin bəlası". Şamdan bəy), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Səməd bəy), "Hacı Qara" (Əsgər bəy, Heydər bəy və Hacı Qara), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Musa və Fərhad), "Pəri cadu" (Qurban), "Kimdir müqəssir?" (Mahmud), "Dağılan tifaq" (Nəcəf bəy), "Ağa Məhəmməd şah Qacar" (Qacar), "Baba yurdunda" (Cahangir ağa), Hüseyn Cavidin "Şeyda" (Qara Musa), "Şeyx Sənan" (Dərviş və Platon), "Topal Teymur" (Əmir Teymur), "İblis" (İblis), "Səyavuş" (Rüstəm Zal), Cəfər Cabbarlının "Ədirnə fəthi" (Xalid), "Yulduz, yaxud Trablis müharibəsi" (Haris), "Od gəlini" (Altunbay, Əbu Übeyd və Aqşin), "Sevil" (Atakişi), "1905-ci ildə" (General-qubernator və Volodin), "Solğun çiçəklər" (Həmzə), Mirzə Cəlil Məmmədquluzadənin "Ölülər" (Naxoş və Dilmanc), Səməd Vurğunun "Vaqif" (Qacar), "Fərhad və Şirin" (Şapur), "Xanlar" (Muxtar bəy), "İnsan" (Fon Holts), Süleyman Sani Axundovun "Eşq və intiqam" (Şahbaz bəy), Abdulla Şaiqin "Nüşabə" (Uluca baba),

Qurban Musayevin "Qızıl çeşmə" (Kərim baba), İmran Qasımovun "Arzu" (Heydər), Mirzə İbrahimovun "Madrid" (Henrix), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Ağalarov), "Od içində" (Zeyni baba), Cabbar Məcnunbəyovun "Yanar dərə" (Eldar), "İldırım" (Usta Piri), Sabit Rəhmanın "Toy" (Dəmirçi Musa), "Ərəblinski" (Bığ Musa), Zeynal Xəlilin "İntiqam" (Taras), "Qatır Məmməd" (Göyüş dayı), Mehdi Hüseynin "Nizami" (Əbdək), "İntizar" (İlyas Əfəndiyevlə birgə. Alxas bəy), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Səlim bəy), Rza Zakinin "Köhnə Türkiyə" (Əbdül Həmid) əsərlərinin tamaşalarında, Sultanməcid Qənizadənin, Hüseynqulu Sarabskinin, Mirmahmud Kazımovskinin məzhəkə və vodevillərində iştirak edib.

Dünya klassiklərindən Vilyam Şekspirin "Otello" (Montano, Yaqo), "Kral Lir" (Kral Lir), "Maqbet" (Banko), "Roftieo və Cülyetta" (Eskal), Fridrix Şillerin "Qaçaqlar" (Frans Moor), "Vilhelm Tel" (Vilhelm Tel), "Məkr və məhəbbət" (Vurm), Viktor Hüqonun "Gülən adam" (Ursus), Moris Meterlinkin "Göy quş" (Baba), Jül Vernin "Kapitan Qrantın uşaqları" (kapitan Qrant), Aleksandr Dümanın "Qanlı qala" ("Nel qülləsinin sirri". Buridan), Karl QutskoVun "Uriel Akosta" (İbn Akiva); rus dramaturqlarından Aleksandr Ostrovskinin "Tufan" (Dlkoy), Aleksandr Puşkinin "Dubrovski" (Trojekurov), Lev Slavinin "İntervensiya" (Polkovnik), Aleksey Fadeyevin "Gənc qvardiya" (Valko), Yuri Yanovskinin "Prokurorun qızı" (Prokuror), Anatoli Boryanovun "O tayda" (Mudzimura), Anatoli Qlebovun "Zaqmuq" (Sarkal), Maksİm Qorkinin "Yurdsuz insanlar" (Aktyor), Konstantin Trenyovun "Düşmənlər" (Qornostayev), Qriqori Genin "Trilbi" (Svinqali); Osmanlı ədiblərindən Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Gavə), Namiq Kamalın "Vətən, yaxud Silistirə" (Sidqi), Əbdülhəq Hamidin "Tariq ibn Ziyad" (Xalid), Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (Əbu Diyab), Nazim Hikmətin "Türkiyədə" (Polis rəisi), Abdulla Talıbzadənin osmanlıcadan iqtibas etdiyi "Ərmənusiya" (Ziyad), "Xalid ibn Valid" (Maas); gürcü Georgi Mdivaninin "Vətən namusu" (Arçil) və digər tamaşalarda müxtəlif xarakterli, tarixi və çağdaş səhnə obrazlarını canlandırıb.

Sidqi Ruhulla milli teatrın inkişafında xidmətlərinə görə respublikanın əməkdar artisti (26 mart 1931), xalq artisti (4 dekabr 1938) və SSRİ xalq artisti (22 iyul 1949) fəxri adları ilə təltif olunub. Dahi sənətkarın əbədi uyuduğu məzarı Bakıda Fəxri xiyabandadır.

Sidqi Ruhulla Azərbaycan teatrının ən cəfakeş, fədakar, maarifpərvər, milli mədəniyyətin çiçəklənməsi yolunda yorulmaq bilmədən çalışmış aktyordur. Zəngin həyat təcrübəsi, usanınaq bilməyən işgüzarlığı, fitri istedadı ilə həmişə seçilib.

Komediyada, dram və faciə tamaşalarında, eləcə də digər janrlı (məsələn, vodevil) eyni ilham və yaradıcılıq ehtirası ilə rollar oynayıb.

Qəltanlı səs tembrini romantik faciələrə, qəhrəmanlıq ideyaları uğrunda çarpışan obrazın xarakterinə uyğunlaşdırdığı kimi, lirik opera qəhrəmanları Məcnunun, Kərəmin, yumorlu Soltan bəyin ariya və duetlərinə də məharətlə kökləyə bilib.

Sidqi Ruhulla güclü səhnə diqqəti, hadisələrin doğurduğu təzadlı vəziyyətləri, sərt dəyişmələri duyması ilə başqa aktyorlara həmişə örnək olub.

Silsilə faciə obrazları yaratmış Sidqi Ruhulla ən mürəkkəb romantik fəci rolların ifasında da güclü, geniş diapazonlu səsini məharətlə idarə edirdi.

Emosiya ilə dramatik gərginliyi sözdə (dialoq və monoloqlarda) ustalıqla vermək məharəti ilə yanaşı, həm də personajın bütün daxili təbəddülatlarını harmonik, mənalı hərəkətlər kompleksində göstərə bilirdi.

Gənc aktyorların yetişib formalaşmasında, sənətin özünəməxsus incəliklərini mənimsəmələrində, istisnasız olaraq, heç kəsdən təcrübə və bacarığını əsirgəməyib.

Romantik xarakterlərdə səhnəyə çıxan Sidqi Ruhullanın daxili ehtirası, səsinin qəltanı və zabitəli, hətta yeri gələndə vahiməli ahəngi elə ritmdə köklənirdi ki, ifaçmı aktyor kimi sevməmək, onun istedadına Şəkk gətirmək mümkün deyildi. Bu azmış kimi, Sidqinin mənfi xarakterli rollarında da tamaşaçı səhnəyə diqqət kəsilir, aktyorun yaradıcılıq ehtirasma məftun qalırdı, heyran olurdu.

Oynadığı yüzlərlə obrazın içərisində milli və dünya dramaturgiyasının gözəl inciləri də çoxdur. Sidqi Ruhulla məzmun, üslub, təsvir baxımından müxtəlif olan bu xarakterlərin ifasında öz istedadının çoxqatlı, çoxcəhətli, çoxrəngli müxtəliflikdə açılmasma nail olub.

Sidqi Ruhullanın silsilə və əlvan rolları özü bir reperuar idi və bu repertuarda aktyor nə qədər güclü görünürdüsə, teatr bir o qədər monumentallıq kəsb edirdi.

Akademik Milli Dram Teatrının 1948 və 1959-cu illərdə Moskva qastrolları zamanı Sidqi Ruhullanın oyunu dünya şöhrətli rus teatrşünasları tərəfindən çox yüksək qiymətləndirilib.

Aktyor "Şərqin səhəri" tamaşasındakı Ağalarov roluna görə 1948-ci ildə bir qrup yaradıcı heyətlə birgə Stalin mükalatına layiq görülüb.

**MƏRZİYƏ DAVUDOVA**
**(8.12.1901-5.1.1962)**

Azərbaycan teatrının ilk peşənar aktrisalarından olan, faciə, qəhrəman və dramatik səpkili rollarda böyük şöhrətə yiyələnmiş, yaradıcılığı bu gün məktəb kimi davam etdirilən sənətkar Mərziyə Yusif qızı Davudova (əslində Dautova) Hacıtərxanın Sarevo çayının yaxasında yerləşən eyniadlı kənddə doğulub. Milliyyətcə tatardır. Anası Qaşqa-Camal elmə, sənətə, ədəbiyyata meyilli idi. Kiçik Mərziyə 1908-ci ildə kəndlərindəki dördillik "Darültəhsil" tatar məktəbində oxuyub. Qızların oxuduğu məktəb dövlətlilərin ianəsi hesabına işləyirdi. Məktəbi bitirən Mərziyə Hacıtərxanda "Qaliyə" məktəbinə daxil olub.

İlk dəfə teatr tamaşasma on dörd yaşında, Aleksandr Dümanın "Kameliyalı qadın" əsərinə baxıb. İyirminci əsrin əvvəllərində Azərbaycan dramaturqları Nəcəf bəy Vəzirovun, Nəriman Nərimanovun əsərləri tatar dilinə tərcümə edilib, Hüseyn Ərəblinski, Mirzağa Əliyev kimi teatr xadimləri orada yerli həvəskarların iştiraki ilə qastrol tamaşaları göstəriblər. Tatar teatrının inkişafında Azərbaycan səhnə sənəti və sənətkarları mühüm rol oynayıblar.

Ərini erkən itirən Qaşqa-Camal xanım 1915-ci ildə təzə ailə qurub. Evdə tək qalan Mərziyə get-gedə teatra böyük maraq göstərib. "Qaliyə"ni qurtararaq "İqbal" rus-tatar məktəbinə daxil olub və burada həvəskarların hazırladıqları tamaşalarda oynayıb. "Birinci teatr" tamaşasındakı Əfifə rolu onu sənətsevərlərə tanıtdırıb.

1918-ci ildə Hüseyn Ərəblinski növbəti dəfə Hacıtərxana qastrola gəlib. Burada "Dəmirçi Gavə", "Qaçaqlar", "Qumarbazın həyatı" tamaşalarını göstərib. Özü baş rolda oynayan sənətkar vaxt tapıb dram həvəskarlarının tamaşalarına da baxıb. Mərziyə Davudovanın oyunu çox xoşuna gəlib və ona tövsiyə edib ki, gəlsin Bakıya. 1919-cu ildə anasını da itirən Mərziyə Davudova Bakıya gəlib. Həmin dövrdə artıq Hüseyn Ərəblinski həyatda yox idi. Mərziyə xanım Birləşmiş Dövlət Teatrosu nəzdində Türk Dram Teatrosu kollektivinə aktrisa qəbul edilib. Həmin kollektiv bugünkü Akademik Milli Dram Teatrıdır. Aktrisa arada çox qısa müddət Tiflis Azərbaycan Dram Teatrında və Bakı Türk İşçi Teatrında işləsə də, ömrünün sonunadək Milli teatrın aparıcı sənətçilərindən olub.

Cəfər Cabbarlının "Aydın" (Gültəkin), "Oqtay Eloğlu" (Firəngiz), "Od gəlini" (Solmaz), "Sevil" (Gülüş və Sevil), "Almaz" (Yaxşı və Almaz), "Solğun çiçəklər" (Gülnisə), "Dönüş" (Gülsabah və Turac), "1905-ci ildə" (Nabat və Sona), "Trablis müharibəsi" (Şəmsa) əsərlərinin tamaşalarında əsas rollarda uzun illər səhnəyə çıxmış aktrisanın çoxsaylı rollarını bir neçə bölgüdə təqdim etmək onun zəngin irsini daha bariz şəkildə göstərər.

Azərbaycan klassik dramaturqlarının pyeslərində oynadığı rollar: Hüseyn Cavidin yazdığı "Şeyx Sənan"da Əzra və Xumar (Tamara), "İblis"də Xavər, "Səyavuş"da Südabə, "Uçurum"da Anjela, "Topal Teymur"da Almaz, "Knyaz"da Jasmen, Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" faciəsində Səlimə və Hafizə, "Dağılan tifaq"da Sona, Nəriman Nərimanovun "Nadir şah"ında Gülcahan, Abdulla Şaiqin "Nüşabə"sində Nüşabə, Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", "Xanlar", "İnsan" dramlarında Xuraman, Şirin, Qızyetər və Səhər.

Çağdaş milli dramaturqlardan İsmayıl Rüstəmbəyovun "Dövləti-bisəmər" (Nisə), Mirzə İbrahimovun "Həyat" (Həyat), "Madrid" (Lina), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Həcər), Hüseyn Mehdinin "Nizami" (Məhsəti), Rəsul Rzanın "Vəfa" (Ülkər), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Gülzar), Cabbar Məcnunbəyovun "Yanar dərə" (Hicran) əsərlərində oynayıb.

Avropa və rus klassiklərindən Vilyam Şekspirin "Hamlet" (Gertruda-Göhərşad), "Otello" (Dezdemona), "Maqbet" (Ledi Maqbet), "Kral Lir" (Qonerilya), Fridrix Şillerin "Qaçaqlar" (Amaliya), "Məkr və məhəbbət" (Luiza), Herhart Hauptınanın "Dəhşətli röya" ("Dəhşətli yuxu", "Elqa". Elqa), Karl Qutskovun "Uriel Akosta" (Yudif), Aleksandr Dümanın "Nel qülləsinin sirri" ("Qanlı qala". Marqarita), Viktor Hüqonun "Gülən adam" (Joziana), Alensis Parnisin "Afrodita adası" ("Gözəllik və sevgi adası". Lambrini) faciələrinin, Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər" (Bella), Nazim Hikmətin "Türkiyədə" (Fatma Nurhan), Aleksandr Ostrovskinin "Günahsız

müqəssirlər" (kruçinina), "Tufan" (kabanixa), Maksim Qorkinin "Həyatın dibində" ("Yurdsuz insanlar". Nastya), "Vassa Jeleznova" (Vassa Jeleznova), Adolf D'Enneri və Germonun "İki yetimə" (Qrafinya de Liner), Onore de Balzakin "Ögey ana" (Gertruda), tərcümə əsərlərindən Tur qardaşları və Lev Şeyninin "Gizli döyüş" ("Təkbətək döyüş". Zubova-Amaliya Karlson), Aleksandr Şirvanzadənin "Namus" (Sənəm və Susanna), Hüseyn Muxtarovun "Ailə namusu" ("Allanın ailəsi". Bikə), Aleksandr Şteynin "Şəxsi iş" (Malyutina), Aleksey Kapler və Zlotoqorovanın "Lenin" (Kaplan), Georgi Mdivaninin "Vətən namusu" (Natella), Aleksandr Korneyçukun "Polad Qartal" ("Platon kreçet". Nərgiz və Lida), "31-43" ("Eskadramn məhvi". Oksana), Aleksandr Afinogenevin "Qorxu" (klara), Valentin Katayevin "Çiçəklər yolu" (Lautskaya), Lev Slavinin "İntervensiya" (Janna Barbye), Cananın "Şahnamə" (Səlimə xatun), Anatoli Qlebovun "Zaqmuq" (Ninqal Uının), Konstantin Trenyovun "Düşmənlər" ("Lyubov Yarovaya". Lyubov Yarovaya), Vladimir kirşonun "Küləklər şəhəri" (Maşa. İşçi Teatrında), Anatoli Lunaçarskinin "Şahın bərbəri" (Blanka), Veniçenkonun "Qadın günahı" (Lyaşkovskaya), R.Lotarın "İnqilabi izdivac" (Alen), Xalid Fəxrinin "Bayquş" (Qış pəriləri məlakəsi), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (Seyrab) dramlarının tamaşalarında əsas rollarda çıxış edib.

Komediya rollarına Mirzə Fətəli Axundzadənin "Hacı Qara"sında Teybə və Sona, Əzim Əzimzadənin "Mirzə Rza kirmani"sində Qadın, Müslüm Maqomayevin "Cır-bır"ında Cahan, Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri"ndə Ziba xanım, Vilyam Şekspirin "Şıltaq qızın yumşalması"nda Katarina, Molyerin "Don Juan"ında Elvira, Nikoİay Qoqolun "Müfəttiş"ində Anna Andreyevna, Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan"ında Cahan xala, Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" operettalarında, Pərizad və Hürüzad, Mirmahmud Kazımovskinin "Vurhavur" musiqili komediyasında Qız rollarını ifa edib.

Sevil (bu rolu həm də İşçi Teatrında oynayıb), Solmaz, Teybə, Gertruda, kruçinina, Firəngiz, Xumar... rollarını bir neçə quruluşda ifa edib. Eyni quruluşda həm Almazı, həm də Yaxşını ("Almaz") oynayıb.

Mərziyə xanım "Koroğlu", "Hacı Qara" "Bir məhəlləli ikioğlan", "Bəxtiyar" "Həqiqi dost", "Bakının işıqları" bədii filmlərində çəkilib. O, 1956-1962-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinin (bugünkü Azərbaycan Teatr Xadimləri İttifaqı) sədri işləyib. Bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub. Qızı Firəngiz Şərifova xalq artistidir, Gənc Tamaşaçılar Teatrında işləyir.

Qüdrətli sənətkar qırx iki il milli səhnəmizə ləyaqətlə xidmət göstərib, milli teatr tariximizə ölməz obrazlar silsiləsi bəxş edib. Onun yaradıcılıq nailiyyətləri yüksək qiymətləndirilərək Azərbaycan Respublikasının əməkdar artisti (25 aprel 1933), xalq artisti (4 aprel 1936) və SSRİ xalq artisti (22 iyul 1949) fəxri adları ilə təltif olunub. Orden və medallara layiq görülüb.

Ağır xəstəliyə tutulduğuna görə Mərziyə Davudovanın yubileyi yeddi ay tez, 20 may 1961-ci ildə keçirildi. Altmış yaşı tamam olandan iyirmi yeddi gün sonra aktrisa dünyasını dəyişdi. Bakıda Fəxri xiyabanda dəfn olunub. Mingəçevir Dövlət Dram Teatrı aktrisanın adını daşıyır.

Mərziyə Davudova daxili ehtirası, güclü səhnə temperamenti, monumental janrın tələblərinə cavab verən ifadə vasitələri, romantik təxəyyülü ilə faciə aktrisası idi.

Psixoloji dramatizminə, obrazın ikinci planını tamaşaçıya təqdim etmək hünərinə, dramatik personajların ifasında oyun-üslub keyfiyyətlərinə görə realist aktyor məktəbinə mənsub idi.

Romantik sevgi rollarında oyunu öz poetikilyi, həzin lirizmi, poetik təravəti, səhnə hərəkətləri zərifliyi, məlahəti və cazibəsi ilə könül oxşayırdı.

Təbiətcə xeyirxah olması səhnədə yöndaşlarına münasibətdə, xüsusən gənc aktyorlarla işində nəzərə çarpırdı.

Mərziyə xanım heç vaxt öndə "görünmək" xatirinə mizanı pozmaz, lazım gələndə səhnənin lap dərinliyində psixoloji realizmlə vəziyyəti oynayardı.

Ömrünün son illərində realist janrda hazırlanmış tamaşalarda, məsələn "Gözəllik və sevgi adası"nda ("Afrodita adası") Lambrini rolunda pauzalardan istifadədə yüksək səhnə texnikasının zəngin ifadə çalarlarını məharətlə göstərirdi.

Təzadlı janr əlvanlığını xoşlayırdı. Yaradıcılığı həm romantik aktyor məktəbinin, həm də realist aktyor məktəbinin estetik tələblərinə cavab verirdi. Hər iki məktəbə aid onlarca kamil rolu var.

Mərziyə xanım Azərbaycan aktrisaları içərisində yersiz pafosun, bağırtı ilə danışmağın, bir sözlə, kirəcləşmiş ifa stereotiplərinin əleyhinə cəsarətlə çıxırdı.

Mərziyə xanım ifa etdiyi rolun xarakterindən asılı olmayaraq, səhnə ilə tamaşaçı salonu arasında emosional ünsiyyət yaratmağı yüksək peşəkarlıqla bacarırdı.

Mərziyə Davudova ən müxtəlif üslublu, ən müxtəlif teatr poetikalarına əsaslanan rejissorların hamısının tamaşalarında sənət nailiyyətləri qazanıb.

## MİLLİ DRAM TEATRININ REJİSSOR SƏNƏTİNDƏ ÜSLUB AXTARIŞLARI (1938-1980)

Ədil İsgəndərov 1938-ci ildə Milli Dram Teatrına baş rejissor təyin olunandan sonra sənət ocağının yaradıcılığının bütün istiqamətlərində ciddi canlanma başlandı. Teatr yeni üslub və yeni poetika uğrunda cəsarətli addımlar atdı, estetik ifadə vasitələri axtarışlarına meydan genişləndi. Monumental romantik teatr məktəbinin prinsiplərini əsas götürən teatr monumental realizm janrında da sənət nailiyyətləri qazanmağa başladı.

Janr axtarışları kollektivi üslub axtarışlarına, üslub axtarışları isə yeni fərdi rejissor estetikalarının formalaşmasma sövq edir, milli rejissuranın təkamül prosesinə zəmin yaradırdı. MDT tədricən "Ədil İsgəndərov teatrı" kimi kamilləşdi. Teatrdakı digər rejissorlar da həmin poetika səciyyələrindən bəhrələnirdilər. Bununla belə, onların fərdi yaradıcılıq üslubları bütövlükdə teatrın ümumi yaradıcılıq estetikasını dərinləşdirir və əlvanlaşdırırdı. Haqqında söhbət gedən dövrün ilk iyirmi ilində MDT-də İsmayıl Hidayətzadənin, Ələsgər Şərifovun, Səftər Turabovun, Məcid Zeynalovun, Şəmsi Bədəlbəylinin, Əliheydər Ələkbərovun, Mehdi Məmmədovun, Əşrəf Quliyevin, Nəsir Sadıqzadənin maraqlı rejissor quruluşları olub.

Tofiq Kazımovun teatra baş rejissorluğu dövründə çağdaş dünya teatr prosesinin üslub axtarışlarından bəhrələnmə artıb. Üslub və janr eksperimentləri genişlənib və müəyyən səmərəli nailiyyətlər qazanılıb. 1960-cı illərin sonlarında və 1970-ci illərdə yeni teatr poetikalarına əsaslanan və təzə estetik səciyyələrlə işləyib üslub zənginliyinə çalışan Fikrət Sultanov, Fuad Hacıyev, Zəminə Hacıyeva, Tofiq Ağayev, Məmmədkamal Kazımov MDT-də müxtəlif janrlı tamaşalar hazırlayıblar.

* * *

### SƏFTƏR TURABOV (5.3.1910-26.11.1989)

Əsil adı Əlisəftərdir, lakin quruluş verdiyi bütün tamaşaların proqram və afişalarında "Səftər Turabov" kimi yazılıb. Yaradıcılıq üslubu romantik teatr məktəbinə uyğun idi. Eyni zamanda formaca monumentallığa meyil göstərib. Hazırladığı tamaşalarda müəyyən janr məhdudluğu olsa da, yaradıcılıq üslubu forma baxımından əlvan və rəngarəng idi. Mürəkkəb kompozisiya qurmağı və musiqidən yardımçı atribut kimi yox, bədii obraz tutumunda istifadə etməyi xoşlayıb.

Bir rejissor kimi hazırladığı tamaşalara, adətən, bitkin, dəqiq və yaradıcılıq fikirləri üst-üstə düşən aktyor ansamblı seçib. Nəzəri əsas kimi psixoloji yaşama məktəbinin (Stanislavski sistemi) estetik prinsiplərinə əsaslanıb.

Səftər (Əlisəftər) Həbib oğlu Turabov 1910-cu il may ayının 5-də Bakıda doğulub. Yeddiillik təhsil alıb. On altı yaşında Milli Dram Teatrında səhnə fəhləsi kimi əmək fəaliyyətinə başlayıb.

1930-cu ildən texniki rejissor, laborant-rejissor, rejissor assistenti kimi çalışıb. Teatrda işləyə-işləyə 1934-cü ildə Bakı Teatr Məktəbini bitirib. Diplom alandan sonra teatrın ştatına həm aktyor, həm də rejissor assistenti götürülüb. Bir neçə tamaşada rejissor assistenti kimi səylə çalışandan sonra ona müstəqil quruluşlar tapşırılıb. Səftər Turabov Milli Dram Teatrında Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (18 mart 1940), Konstantin Simonovun "Vətən oğlu" ("Bizim şəhərli oğlan". 27 sentyabr 1941), Zeynal Xəlilin "İntiqam" (16 may 1942), Vsevolod Rokkun "Mühəndis Sergeyev" (28 noyabr 1942), Cəfər Cabbarlının "Almaz" (10 yanvar 1943), "1905-ci ildə" (28 mart 1944), Mir Cəlalın "Mirzə Xəyal" (6 iyul 1943), Mehdi Hüseynlə İlyas Əfəndiyevin "İntizar" (26 dekabr 1944), Tur qardaşlarının "Bir evin sirri" (4 dekabr 1949), Əbdürrəhim bəy Haqverdiyevin "Köhnə dudman" (10 iyun 1950), Səttar Axundovun "Zərif tellər" (30 noyabr 1951) əsərlərinə quruluş verib.

O, rejissor həmkarları Əliheydər Ələkbərovla birlikdə Zeynal Xəlilin "Qatır Məmməd" (3 may 1945), Leonid Malyuginin "Köhnə dostlar" (21 yanvar 1947), Məhərrəm Haşımovla müştərək Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər" (6 mart 1948) pyeslərini tamaşaya hazırlayıb.

Səftər Turabov 1954-cü ildə hələ dövlət statusu olmayan Azərbaycan Musiqili Komediya Teatrında, 1956-cı ildən Dövlət Radiosunda rejissor işləyib. Teatr sənətində qazandığl naililiyyətlərə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub. 26 noyabr 1898-ci ildə Bakıda vəfat edib.

## ƏLİHEYDƏR ƏLƏKBƏROV (26.7.1915-14.3.1975)

26 iyul 1915-ci ildə Bakıda doğulub və yeddiillik məktəbi də burada bitirib. İlk sənət təhsilini Bakı Teatr Məktəbində 1931-1934-cü illərdə almış Əliheydər Əbdüləli oğlu Ələkbərov 1964-cü ildə Azərbaycan Dövlət Teatr İnstitutunu da bitirib. Texnikuma daxil olduğu ildən Akademik Milli Dram Teatrında kütləvi səhnələrə çıxıb və həmçinin rejissor köməkçisi, rejissor-laborant və rejissor assistenti kimi çalışıb. 1960-cı ildən 1967-ci ilə qədər Azərbaycan Dövlət Musiqili Komediya Teatrında baş rejissor olub. 1967-ci ildən ömrünün sonunadək Akademik Milli Dram Teatrında direktor işləyib.

Əliheydər Ələkbərovun MDT-də quruluşçu rejissor kimi ilk müstəqil işi Süleyman Sani Axundovun "Eşq və intiqam" (1 oktyabr 1943) faciəsinin tamaşası olub. Bundan sonra o, Cəfər Cabbarlının "Solğun çiçəklər" (4 iyun 1949), "Almaz" (11 may 1957 və 11 may 1969), Cabbar Məcnunbəyovun "Böyük məhəbbət" (12 may 1950), "İldırım" (24 dekabr 1955), Boris Lavrenyovun "Amerikanın səsi" (14 dekabr 1950), Vadim Sobkonun "İkinci cəbhə arxasında" (5 aprel 1952), İslam Səfərlinin "Göz həkimi" (26 fevral 1955), "Yadigar" (1 sentyabr 1956), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (8 mart 1958), Pavel Malyarevskinin "Daş qartal" (28 noyabr 1959), Adil Babayevin "Dağlar qızı" (18 iyun 1960), İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" (12 fevral 1971) əsərlərini tamaşaya hazırlayıb.

Rejissor Məhərrəm Haşımovla birlikdə 1945-ci il noyabr ayının 7-də Səməd Vurğunun "İnsan" mənzum dramına quruluş veriblər.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında reper-tuar qurumunun formalaşmasında, rejissor sənətinin yeni peşəkarlıq keyfiyyətləri əxz etməsində, aktyor truppasının kamıilləşməsində Əliheydər Ələkbərovun böyük xidmətləri var. O bu teatrda bir sıra uzunömürlü tamaşalara maraqlı quruluşlar verib.

Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" operettasını Bolqarıstanın Şumen şəhərindəki Türk teatrında (1966), Zeynal Xəlilin "Qatır Məmməd" dramını, Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsini Lənkəran Dövlət Dram Teatrında (1946 və 1947), Səid Rüstəmovun "Durna" (mətni Süleyman Rüstəmindir) musiqili komediyasını Şuşa Dövlət Musiqili Dram Teatrında (1947) səhnəyə qoyub.

Əliheydər Ələkbərov "Milyonçunun dilənçi oğlu" musiqili komediyasına görə 1967-ci ildə Üzeyir bəy Hacıbəyov adına Dövlət mükafatına, "Mahnı dağlarda qaldı" tamaşasına görə isə 1972-ci

ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. 1949-cu il iyulun 21-də ona Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı verilib. Rejissor 14 mart 1975-ci ildə Bakıda vəfat edib.

Əliheydər Ələkbərovun rejissurası romantik və realist teatr məktəblərinin estetik göstəricilərinin sintezi ilə səciyyəvidir.

**ƏSRƏF QULİYEV (25.4.1920 - 10.2.1994)**

Yaradıcılığa aktyorluqla başlayıb. Hazırladığı tamaşalara qaralama eskizləri özü çəkir və sonra rəssamla bu qaralamalar əsasında yaradıcılıq axtarışları aparırdı. Rejissor yaradıcılığının ilkin dövründə romantik monumental üsluba meyil göstərib. Tədricən istər klassik, istərsə də müasir əsərlərin tamaşalarında realist forma-üslubu üstün tutub. Lirik-psixoloji üslubda da tamaşalar hazırlayıb.

Əşrəf Hacı oğlu Quliyev 25 aprel 1924-cü ildə Bakıda doğulub. Yeddiillik təhsili bitirəndən sonra Azərbaycan Dövlət Teatr Məktəbində oxuyub. Teatr məktəbində oxuya-oxuya MDT-nin tamaşalarında kütləvi səhnələrə çıxıb. 1938-ci ildə təhsilini başa vurub və təyinatla İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyor işləməyə göndərilib. Böyük Vətən müharibəsində iştirak edib (1941-1945). Müharibədən qayıtdıqdan sonra az müddət İrəvan teatrında işləyib və sonra yenicə açılmış Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq fakültəsinə daxil olub. 1952-ci ildən Akademik Milli Dram Teatrında rejissor işləyib. Əvvəlcə assistent və ikinci rejissor kimi müxtəlif tamaşaların hazırlanmasında çalışan Əşrəf Quliyev 1956-cı ildən müstəqil quruluşlar verib.

MDT-də Əşrəf Quliyev dramaturqlardan Vasili Şkvarkinin "Özgə uşağı" (8 sentyabr 1956), Yuri Osnos və Viktor Vinnikovun "Hind gözəli" (2 oktyabr 1959), Həsən Seyidbəylinin "Bağlı qapılar" (3 iyun 1961), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (26 oktyabr 1962), Sabit Rəhmanın "Toy" (14 dekabr 1963), Cavad Fəhmi Başqutun "Köç" (19 sentyabr 1964), Mirzə İbrahimovun "Yaxşı adam" (24 aprel 1965), "Kəndçi qızı" (15 may 1976), Cəfər Cabbarlının "Oqtay Eloğlu" (29 iyun 1966), İlyas Əfəndiyevin "Mənim günahım" (5 may 1967), Bernard Şounun "Şeytanın şagirdi" (23 dekabr 1967), Bəxtiyar Vahabzadənin "İkinci səs" (19 aprel 1969), "Yollara iz düşür" (30 oktyabr 1977), Anatoli Safronovun "Kişilərə inanmayın" (13 iyun 1970), "Gecənin sirri" (2 sentyabr 1982), Nəbi Xəzrinin "Sən yanmasan..." (2 fevral 1972), "Əks-səda" (14 fevral 1975), Aleksandr Ostrovskinin "Müdriklər" (19 may 1973), Vilyam Şekspirin "Heç nədən hay-küy" (10 mart 1979), Sabit Rəhmanın "Əliqulu evlənir" (3 oktyabr 1980) dram, faciə və komediyalarını tamaşaya hazırlayıb.

Rejissor 1984-cü il yanvar ayının 2-dən yalnız Azərbaycan Dövlət İncəsənət İnstitutunda işləyib və burada aktyor və rejissor sənətindən dərs deyib. Müxtəlif illərdə Lənkəran və Gəncə teatrlarında tamaşalara quruluşlar verib. 1974-cü il iyun ayının 1-də Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.

Əşrəf Quliyev 10 fevral 1994-cü ildə Bakıda vəfat edib.

* * *

Psixoloji realizm üslubunun estetik səciyyələri əsasında Nəsir Sadıqzadə qəhrəmanlıq mövzusunda Süleyman Rüstəmin "Qaçaq Nəbi" (19 sentyabr 1962), Tofiq Ağayev Samuil Alyoşinin mənəvi-əxlaqi problemli "Palata" (28 aprel 1963), Məmmədkamal Kazımov rus dramaturqu Aleksey Arbuzovun lirik-dramatik üslubda yazılmış "Tanya" (27 may 1964), türkmən ədibi Hüseyn Muxtarovun "Kimdir müqəssir?" (11 dekabr 1964), Hüseyn Sultanov qırğız dramaturqu Çingiz Aytmatovun ailə-məişət münasibətlərini fəlsəfi dərinliklə təcəssüm etdirən "Ana torpağı" (28 dekabr 1966) əsərlərinə səhnə quruluşları veriblər.

Cəmiyyət və şəxsiyyət, borc və hiss kimi aktual, ictimai xarakterli mövzularda Ənvər Behbudovun hazırladığı Maksim Qorkinin "Zikovlar" (27 mart 1968), Fikrət Sultanovun səhnə təfsiri verdiyi Raço Stoyanovun "Qısqanc ürəklər" (26 dekabr 1970), Həsən Əblucun hazırladığı rumın yazıçısı Mixail Sebastianın "Adsız ulduz" (3 dekabr 1972), Ramiz Fətəliyevin "Vəkil neyləsin..." (26 dekabr 1976), kino rejissoru Rasim Ocaqovun quruluş verdiyi dramaturq Rüstəm İbrahimbəyovun "İstintaq" (18 mart 1978), Fuad və Zəminə Hacıyevlərin işlədikləri Cəfər Cabbarlının "Sevil" (18 noyabr 1978), diplomçu Oqtay Salamovun rejissoru olduğu Braziliya dramaturqu Raymondo Juniyorun "Bu qadın mənimdir" (30 dekabr 1979) əsərlərinin tamaşaları üslub axtarışlarında müəyyən əhəmiyyət kəsb ediblər.

Satirik komediya, ictimai-sosial məsxərə, məişət yumoru, lirik komediya janrlarında Məmmədkamal Kazımov dramaturqlar Qriqori Qorinin və Arkadi Arkanovun "Görünməmiş toy" (10 fevral 1967), Fikrət Sultanov yumor ustası Sabit Rəhmanın "Xoşbəxtlər" (8 may 1968), Lütfi Məmmədbəyov italyan yazıçısı Raffaele Vivianinin "Çarəsiz dələduz" (29 mart 1969), tatar ədibi Hay Vahidin "Bağ qonşuları" (12 sentyabr 1969), Fuad Hacıyev macar Mlkolaş Dyarfaşın "Füsunkar qız" (28 mart 1971), Məmmədkamal Kazımov Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan" (19 iyun 1972), Emil Braginski və Eldar Ryazanovun "Sevgi... sevgi..." (30 iyun 1973), Seyfəddin Dağlının "Kölgələr pıçıldaşır" (5 iyun 1976), Ağakişi Kazımov gürcü Nodar Dumbadzenin "Darıxma, ana!" (27 mart 1972), İlyas Əfəndiyevin "Qəribə oğlan" (8 aprel 1973) pyeslərinə, bəziləri mübahisəli görünsə də, maraqlı səhnə həlli tapıblar.

Bütövlükdə bu dövrdə teatrın əsas üslubunu ilk növbədə monumental romantizmdə Ədil İsgəndərovun, fəlsəfi məzmunlu monumentallıqda Mehdi Məmmədovun və lirik-psixoloji janrda Tofiq Kazımovun rejissurası müəyyənləşdirib.

## AKADEMİK MİLLİ DRAM TEATRI (1960-1985)

Bir neçə il idi ki, Füzuli meydanında Akademik Milli Dram Teatrı üçün təzə bina tikilirdi. 1960-cı ilin yayında teatr binası hazır oldu. Yay tətilindən qayıdan kollektiv avqust ayında bura köçdü. oktyabr ayının 15-də teatr yeni binada növbəti mövsümünü Cəfər Cabbarlının "Almaz" dramının tamaşası ilə açdı.

İlin birinci yarısında teatr öz repertuarına Ədil İsgəndərovun quruluşunda Cəfər Cabbarlının "Dönüş" (18 mart), İslam Səfərlinin "Ana ürəyi" (28 aprel), Əliheydər Ələkbərovun rejissorluğunda Adil Babayevin "Dağlar qızı" (18 iyun) pyeslərinin tamaşalarını daxil etdi. Bu dövrdə teatrda Ədil İsgəndərovdan başqa rejissorlardan Ələsgər Şərifov, Əliheydər Ələkbərov, Əşrəf Quliyev və Nəsir Sadıqzadə də çalışırdılar.

Oktyabr ayının 22-də heç bir səbəb olmadan Ədil İsgəndərov baş rejissor vəzifəsindən çıxarıldı və üstəlik də teatrdan tamamilə uzaqlaşdırıldı. Bu addım milli teatrımıza çox dəhşətli zərbə vurdu. Tədricən teatrın otuzillik romantik-monumental teatr estetikası dağılmağa başladı. Məsələ burasında idi ki, Mehdi Məmmədov və Tofiq Kazımov qüdrətli rejissor kimi tanınırdılar, lakin onlar tamamilə başqa və yeni raəktəbin nümayəndələri kimi formalaşırdılar.

Baş rejissor vəzifəsinə əvvəlcə burada quruluşçu rejissor işləmiş, 1956-cı ildən Opera və Balet Teatrında baş rejissorluq edən Mehdi Məmmədov təyin olundu. Üslub və poetika baxımından Ədil İsgəndərovdan fərqlənən Mehdi Məmmədov teatra gələndə Nəsir Sadıqzadə Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (tərcüməçi İslam İbrahimov) əsərinin məşqlərini aparırdı. İlk tamaşa dekabr ayının 28-də göstərildi.

Mehdi Məmmədovun baş rejissor kimi ilk quruluşu Sabit Rəhmanın "Əliqulu evlənir" (9 mart 1961) komediyası oldu. O, Viktor Rozovun "Şadlıq sorağında" (25 may 1961), Mehdi Hüseynin "Alov" (28 oktyabr 1961), Mirzə İbrahimovun "Kəndçi qızı" (21 dekabr 1962) əsərlərini

tamaşaya hazırlayaraq gözlənilmədən 1963-cü il aprel ayının 8-də istefa ərizəsi yazdı. Teatr bir müddət baş rejissorsuz qaldı. 1964-cü il fevralın 10-da teatrda baş rejissor Kürsüsünü Tofiq Kazımov tutdu.

Tofiq Kazımov baş rejissor kimi özünün yaradıcılıq məramnaməsini (proqramını), sənətdəki estetik prinsiplərini Vilyam Şekspirin "Antoni və Kleopatra" (tərcüməçi Tələt Əyyubov) tamaşası ilə bəyan etdi. Bundan sonra teatr yeni estetika zəminində işləməyə başladı. Premyerası 1964-cü il aprelin 23-də oynanılan tamaşada Hökümə Qurbanova Kleopatra, Əli Zeynalov Antoni rolları ilə milli teatrımızın Şekspir rolları salnaMəsmə yeni sənət səhifələri yazdılar.

Bu il oktyabrın 14-də Tofiq Kazımov İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" dramını tamaşaya hazırladı. Özünün yaradıcılıq üslubunda dönüş kimi qiymətləndirilən bu tamaşa ilə MDT-də lirik-psixoloji janrın bünövrəsi qoyuldu. Rejissorun on doqquz yaşlı Nargilə roluna teatr institutunun eyniyaşlı tələbəsi Amaliya Pənahovanı dəvət etməsi də cəsarətli addım idi. Aktrisanın debütü çox uğurlu oldu və o, bir müddət sonra truppaya qəbul edildi.

Tamaşada həmçinin təcrübəli sənətkarlar Əli Zeynalov (Həsənzadə), Ətayə Əliyeva (Nəzakət) yeni oyun estetikası göstərdilər.

Tofiq Kazımov on altı il Milli Dram Teatrına rəhbərlik etdi və 1980-ci il avqustun 2-də avtomobil qəzasında həlak oldu. Teatr bir neçə il baş rejissorsuz işlədi. 1960-1985-ci illərdə teatr, əsasən, lirik-psixoloji üslubda, eyni zamanda fəlsəfi-monumental teatr poetikasında, realist-dramatik səpkidə, psixoloji məişət janrında dəyərli tamaşalar hazırlaya bildi. Bununla belə, dramaturji cəhətdən zəif, orijinal və mövzu-problematikası azərbaycanlı tamaşaçıların mənəvi-əxlaqi psixologiyasma uyğun olmayan tərcümə pyeslər də repertuara yol tapdı. Lakin bütövlükdə haqqında söhbət gedən dövrdə AMDT-nin tarixinə müxtəlif janrlı sanballı tamaşalar daxil oldu.

**1961, 28 oktyabr.** "Alov", Mehdi Hüseyn. Quruluşçu rejissor Mehdi Məmmədov, rəssam İsmayıl Axundov, bəstəkar Soltan Hacıbəyov. Müxtəlif yaş nəslinə və müxtəlif aktyor məktəbələrinə mənsub olan Ələsgər Ələkbərov (Fərhad Kamalov), İsmayıl Osmanlı (Kərim Rəhimli), Firəngiz Şərifova (Rəfiqə Rəhimli), Əli Zeynalov (Cəlal Qaşqay), Həsənağa Salayev (Əmin Bəxtiyarov) məlahətli oyunları ilə ahəngdar ritmli ansambl yaratmışdılar.

**1962, 21 denabr.** "Kəndçi qızı", Mirzə İbrahimov. Quruluşçu rejissor Mehdi Məmmədov, rəssam Sadıq Şərifzadə, bəstəkar Soltan Hacıbəyov. Hökümə Qurbanovanın Bənövşə və Həsən Turabovun Vahid obrazları əsil lirik komediya personajları təsiri bağışlayırdılar.

**1963, 14 iyun.** "Dəlilər" ("Valensiya dəliləri"), Lope de Veqa. Tərcüməçi Tələt Əyyubov. Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Sergey Yefimenko, rəqslərin quruluşçusu Xumar Zülfüqarova. Həsən Turabovun (Floriano), Firəngiz Şərifovanın (Erfila), Sofiya Bəsirzadənin (Fedra), Əliağa Ağayevin (Martin) və Safurə İbrahimovanın (Fernando) oyunları daha şux və məzəli, daha koloritli və səmimi baxılırdı.

**1963, 14 oktyabr.** "Toy", Sabit Rəhman. Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Nurəddin Fətullayev. Əliağa Ağayev (Kərəmov), Ağadadaş Qurbanov (Dəmirçi Musa), Mirvari Novruzova (Zalxa) öz oyunlarında Sabit Rəhmanın incə və satirik çalarlı yumoruna daha həssaslıqla yanaşmışdılar.

**1965, 18 dekabr.** "Yalan", Sabit Rəhman. Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Əşrəf Məmmədov, bəstəkar Emin Sabitoğlu (Mahmudov). Əsas rolları Leyla Bədirbəyli (Şəlalə), Sofiya Bəsirzadə (Tərlan xanım) və Əliağa Ağayev (Aslan) ifa ediblər.

**1966, 29 iyun.** "Oqtay Eloğlu", Cəfər Cabbarlı. Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam İsmayıl Axundov, bəstəkar Sevda İbrahimova. Tamaşanın əsas ağırlığını Həsənağa Salayev (Oqtay) çəkirdi. Epizod rollarda Əminə Yusifqızı (Sevər) və Mirvari Novruzova (Tamara) cazibəli görünürdülər.

**1966, 12 noyabr.** "Ölülər", Cəlil Məmmədquluzadə, Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Elçin Aslanov, bəstəkar Qara Qarayev. Maraqlı aktyor ansamblı olan tamaşada Həsən

Turabov (İsgəndər), Məlik Dadaşov (Şeyx Nəsrulla), Məmmədrza Şeyxzamanov (Hacı Həsən ağa) klassik səhnə surətləri yaratmışdılar.

**1967, 2 iyun.** "Sənsiz", Şıxəli Qurbanov. Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Elçin Aslanov, bəstəkar Rauf Hacıyev. Dörd iştirakçısı olan tamaşada Hökümə Qurbanova (Sevinc), Məlik Dadaşov (Tərlan), Həsənağa Salayev (Fərhad) və Safurə İbrahimova (Maral) məhəbbət haqqında həzin və poetik, bir qədər qəmli məhəbbət dastanının təmsilçiləri ovqatını oyadırdılar.

**1968, 15 mart.** "Hamlet", Vilyam Şekspir. Tərcüməçi Cəfər Cabbarlı. Quruluşçu rejissor Tofiq Kazımov. Həsən Turabov (Hamlet), Əli Zeynalov (Klavdi), Şəfiqə Məmmədova (Gertruda), Məmmədrza Şeyxzamanov (Poloni) və Əliağa Ağayev (Məzarçı) psixoloji faciə obrazlarımn parlaq nümunələrini təqdim edirdilər.

**1968, 1 noyabr.** "Unuda bilmirəm", İlyas Əfəndiyev. Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Sənan Qurbanov, bəstəkar Emin Sabitoğlu. Həsən Turabovun Kamran, Amaliya Pənahovanın Nərmin və Məmmədrza Şeyxzamanovun Möhsünzadə rolları lirik-psixoloji üslubun parlaq yaradıcüıq nailiyyətləri kimi səciyyələndilər.

**1968, 28 dekabr**. "Canlı meyit", Lev Tolstoy. Tərcüməçi Ənvər Məmmədxanlı. Quruluşçu rejissor Mehdi Məmmədov. Klassik rus xarakterləri olan Protasov obrazını Mehdi Məmmədov və Əli Zeynalov, Karenin surətini Məlik Dadaşov, Yelizaveta (Liza) personajını Leyla Bədirbəyli, qaraçı qızı Maşanı Şəfiqə Məmmədova oynayırdılar.

**1969, 30 iyun.** "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev. Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Sənan Qurbanov, bəstəkar Qara Qarayev. Mistik-psixoloji faciə janrında hazırlanmış tamaşanın əsas obrazlarını səhnədə Həsən Turabov (Qurban), Amaliya Pənahova (Pəri), Safurə İbrahimova (Hafizə) və Nəcibə Məlikova (Şamama cadu) canlandırırdılar.

**1969, 29 noyabr.** "Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev. Quruluşçu rejissor Tofiq Kazımov. Rəssam Sənan Qurbanov, bəstəkar Emin Sabitoğlu. Əsas rolları Vəfa Fətullayeva (Fəridə), Kamal Xudaverdiyev (Ədalət), Şəfiqə Məmmədova (Anjel), Səməndər Rzayev (Qənimət), Fuad Poladov (Savalan) şövqlə oynayırdılar.

**1970, 12 mart.** "Xəyyam", Hüseyn Cavid. Quruluşçu rejissor Mehdi Məmmədov, rəssam Elçin Aslanov, bəstəkar Cahangir Cahangirov. İlk dəfə tamaşaya qoyulan mənzum faciənin lirik-romantik vüsəti Həsən Turabovla Mehdi Məmmədovun (Xəyyam), Şəfiqə Məmmədovanın (Sevda), fəlsəfi-psixoloji dramatizmi Səməndər Rzayevin (Xacə Nizam) və Hamlet Xanızadənin (Rəmzi) oyunlarında təcəssüm tapmışdı.

**1970, 19 sentyabr.** "Nazirin xanımı", Branislav Nuşiç. Tərcüməçi və quruluşçu rejissor Tofiq Kazımov (Ələsgər Şərifovla birlikdə), rəssam Kamal Şıxəliyev. Tamaşadakı satirik gülüşün nüvəsi Ağahüseyn Cavadovun (Sima Popoviç), Barat Şəkinskayanın (Jivka), Əliağa Ağayevin (Rista Podoroviç), Möhsün Sənaninin (Çeda) və Amaliya Pənahovanın (Anka) duzlu oyunlarının mayasında cəmləşmişdi.

**1971, 12 fevral.** "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev. Quruluşçu rejissor Əliheydər Ələkbərov, rəssam Nüsrət Fətullayev, bəstəkar Süleyman Ələsgərov. Baş rollarda Həsən Turabov (Nicat) və Amaliya Pənahova (Şahnaz) öz oyunlarında kövrək psixoloji lirizmə, epizod surətlərin ifasında Vəfa Fətullayeva (Gülgəz) və Fuad Poladov (Rəhman) incə yumora əsaslanırdılar.

**1971, 8 may.** "Yağışdan sonra", Bəxtiyar Vahabzadə. Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Emin Sabitoğlu. Aparıcı rollar Məlik Dadaşov (Aslan), Əli Zeynalova (Qədimbəy), Amaliya Pənahovaya (Reyhan), Şəfiqə Məmmədovaya (Nihal) və Fuad Poladova (Cığatay) tapşırılmışdı.

**1972, 27 mart**. "Darıxma, ana!", Nodar Dumbadze. Tərcüməçi Adil Babayev. Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Dmitri Tavadze. Əsas rolu Fuad Poladov (Avtandil), koloritli epizod surətləri İsmayıl Osmanlı (İsidor Cakeli) və Möhsün Sənani (Vano dayı) oynayırdılar.

**1974, 3 may.** "Fırtına", Vilyam Şekspir. Tərcüməçi Anar. Quruluşçu rejissor Tofiq Kazımov, rəssamlar İ.Lemeşev və Oleq İbrahimov, bəstəkar Fərəc Qarayev. Məmmədrza Şeyxzamanov (Kral

Alonso), Məlik Dadaşov (Prospero), Səməndər Rzayev (kaliban) və Şəfiqə Məmmədova (Ariel) özlərinin yaradıcılıqlarında yeni xarakterlər yaratmışdılar.

**1977, 16 dekabr**. "Şəhərin yay günləri", Anar. Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Emin Sabitoğlu. Teatrın repertuarında uzun illər yaşayan tamaşada Həsən Turabov (Qiyas), Şəfiqə Məmmədova (Dilarə), Səməndər Rzayev (Bəhram Zeynallı) və Fuad Poladov (Ağarəfi) daha canlı təsir bağışlayırdılar.

**1978, 29 aprel.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə. Quruluşçu rejissor Mehdi Məmmədov, rəssam Elçin Məmmədov, bəstəkar Cahangir Cahangirov. Ciddi psixoloji-sosial faciə janrında hazırlanmış tamaşada ən yaxşı ifalar Hamlet Xanızadəyə (Molla Abbas), Şəfiqə Məmmədovaya (Pırpız Sona), Mikayıl Mirzəyə (Cinni Mustafa), Hamlet Qurbanova (Doktor Lalbyuz), Ramiz Məlikə (Formasyon Rüstəm), Yaşar Nuriyevə (Sərəsəm Salman) məxsus idi.

**1981, 2 sentyabr.** "Xurşidbanu Natəvan", İlyas Əfəndiyev. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Elçin Aslanov, bəstəkar Arif Məlikov. Natəvan surətini Amaliya Pənahova həzin, bir qədər qüssəli və bir qədər də fəlsəfi-psixoloji çalarların sintezində ifa edirdi. Səksən dörd yaşlı Ağasadıq Gəraybəli Qoca knyaz rolunda coşğun və dinamik obraz kimi təravətli görünürdü.

* * *

Yaradıcılıq eksperimentləri, üslub və janr axtarışları aparmaq üçün ADT-də 1982-ci ildə kiçik səhnə adlı studiya-emalatxana yaradıldı. Fəaliyyət göstərdiyi altı ildə burada Jan Anuyun "Medeya" (31 may 1982. Rejissor Mərahim Fərzəlibəyov), Nahid Hacızadənin "Məhəbbət yaşadır" (21 dekabr 1982. Rejissor Lütfi Məmmədbəyov), Tennessi Uilyamsın "Şüşə heyvanxana" (2 iyun 1985. Rejissor Bəhram Osmanov), Yuli Edlisin "Kölgələrin oyunu" (29 oktyabr 1986. Rejissor Həsən Əbluc), Rafiq Səməndərin "Günəbaxanlar" (5 fevral 1988. Rejissor Həsən Əbluc), Jan Pol Sartrın "Dəfn edilməmiş ölülər" (2 iyun 1988. Rejissor Mehriban Ələkbərzadə) əsərlərinin maraqlı tamaşaları hazırlanıb.

Teatr iyirmi beş ildə özünün yaradıcılıq məktəbinə yeni-yeni dramaturqlar cəlb edib. Şıxəli Qurbanov "Əcəb işə düşdük" (2 dekabr 1961), Bəxtiyar Vahabzadə "İkinci səs" (19 aprel 1969), Seyfəddin Dağlı "Mənziliniz mübarək!" (20 noyabr 1971), Nəbi Xəzri "Sən yanmasan..." (2 fevral 1972), Maqsud İbrahimbəyov "Ümid" (27 noyabr 1976), Rüstəm İbrahimbəyov "İstintaq" (18 mart 1978), Əkrəm Əylisli "Quşu uçan budaqlar" (29 dekabr 1978), Nəriman Həsənzadə "Atabəylər" (24 dekabr 1983) pyeslərinin tamaşalarından başlayaraq bu teatrla uzunmüddətli əlaqə yaradıblar.

Azərbaycanın klassik dramaturqlarından Cəfər Cabbarlının "Od gəlini" (23 sentyabr 1961), "Aydın" (26 may 1972), "Sevil" (18 noyabr 1978), Hüseyn Cavidin "Səyavuş" (14 mart 1963), "Knyaz" (6 dekabr 1974), "İblis" (19 mart 1983), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (26 oktyabr 1962), "Xırs quldurbasan" (19 iyun 1971) əsərləri yeni quruluşlarda tamaşaya qoyulub.

Klassik və çağdaş dünya ədiblərindən Aleksİs Parnisin "Gözəllik və sevgi adası" (26 aprel 1961), Viktor Rozovun "Şadlıq sorağında" (25 may 1961), Viktor Hüqonun "Mariya Tüdor" (17 mart 1962), Aleksey Arbuzovun "Tanya" (27 may 1964), Cavad Fəhmi Başqutun "Köç" (19 sentyabr 1964), Fridrix Şillerin "Orlean qızı" (14 oktyabr 1965), Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (12 fevral 1966), "Müdriklər" (19 may 1973), "Cehizsiz qız" (27 oktyabr 1979), Çingiz Aytmatovun "Ana torpağı" (28 dekabr 1966), Bernard Şounun "Şeytanın şagirdi" (23 dekabr 1967), Maksim Qorkinin "Zikovlar" (27 mart 1968), "Meşşanlar" (22 mart 1975), "Həyatın dibində" (16 noyabr 1985), Raffaele Vivianinin "Çarəsiz dələduz" (29 mart 1969), Yucin O'Nilin "Qızıl" (9 oktyabr 1971), Fridrix Şillerin "Məkr və məhəbbət" (17 noyabr 1973), Vilyam Şekpirin "Heç nədən hay-küy" (10 mart 1979), "Maqbet" (19 noyabr 1981), Leonqard Frankin "Yad adam" (26 dekabr 1980) pyeslərinin tamaşaları repertuarda yer tutublar.

Bir sıra gənc rejissorlar AMDT-də sərbəst quruluşlar veriblər. Tofiq Ağayev rus Samuil Alyoşinin "Palata" (28 aprel 1963), Fikrət Sultanov bolqar Stefan Kostovun "Falçı" (24 sentyabr

1966), Fuad Hacıyev macar Mlkolaş Dyarfaşın "Füsunkar qız" (28 mar4 2971), Həsən Əbluc rumın Mixail Sebastianın "Adsız ulduz" (3 dekabr 1972), Rövşən Qocayev Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (kiçik səhnədə. 7 iyun 1983), Məhərrəm Bədirzadə Cahan Əfruzun "İlham pərisi" (kiçik səhnədə. 30 dekabr 1983), Namiq Ağayev nasir-dramaturq Firudin Ağayevin "Səməndər quşu" (kiçik səhnədə. 28 aprel 1984) əsərləri ilə AMDT-də rejissor debütü ediblər.

**ƏLƏSGƏR ŞƏRİFOV**
**(25.12.1909-8.9.1982)**

Azərbaycan teatrının tanınmış rejissorlarından olan Ələsgər Məmmədtağı oğlu Şərifov 25 dekabr 1909-cu ildə Şamaxıda imkanlı ailədə doğulub. Onun altı yaşı olanda ailəsi Bakıya köçüb və Ələsgər burada təhsil məktəbinə gedib. Həmin illərdə Bakı teatrının ən görkəmli simalarından biri, aktyor və rejissor, təşkilatçı Abbasmirzə Şərifzadə Ələsgərin əmisi oğlu idi. Təbii ki, bu, onun qəlbində səhnə sənətinə maraq oyanmasında mühüm rol oynayıb.

Ələsgər Şərifov Bakıda Nəriman Nərimanov adına texnikumun elektromexanika fakültəsinin axşam şöbəsinə daxil olub. Eyni zamanda 1923-cü ildə açılan teatr texnikumunun ilk tələbələri sırasında təhsil alıb. Tələbəlik illərində Mustafa Mərdanovun, Mirseyfəddin Kirmanşahlının, Süleyman Səlimbəyovun ayrı-ayrı vaxtlarda rəhbərlik etdikləri Şvarts adına klubun dram dərnəyində "İblis" (Hüseyn Cavid), "Aydın", "Sevil", "Oqtay Eloğlu" (Cəfər Cabbarlı), "Qaçaqlar" (Şiller), "Qaçaq Kərəm" (Vano Mçedaşvili) tamaşalarında baş rolları oynayıb. Həmçinin Akademik teatrın tamaşalarında epizod rollarda səhnəyə çıxıb.

1926-cı ildə texnikumun buraxılış kursunda oxuyan Ələsgər Şərifov imtahanları vaxtından əvvəl verərək Moskvaya ali təhsil almağa gedib. Ancaq orada oxumaq ona iki il sonra nəsib olub. Buna görə Bakıya qayıdaraq aktyor işləyib.

Moskvada Teatr Sənəti İnstitutunun eksperimental teatr emalatxanasında islahatçı rejissor Vsevolod Meyerxoldun kursunda iki il təhsil alıb. Ali rejissor diplomu ilə Bakıya gələndə Akademik Milli Dram Teatrının yaradıcı heyətinə qəbul olunub. Az sonra Azərbaycanın kənd rayonlarında əhalinin mədəni səviyyəsini yüksəltınək məqsədilə Bakıda kolxoz-sovxoz Teatrı yaranıb və oranın bədii rəhbərliyi Ələsgər Şərifova tapşırılıb.

Səyyar fəaliyyət göstərən kollektiv ilin üç-dörd ayını Bakıda olub tamaşalar hazırlayır, sonra həmin repertuarla rayonlara gedib tamaşalar göstərirdi. Gənc rejissor həmin teatrda Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "O olmasın, bu olsun", Sabit Rəhmanın təbdil etdiyi "Varlı gəlin", Cəfər Cabbarlının "Almaz", "Sevil", "Yaşar" pyeslərinə quruluşlar verib.

İlin müxtəlif aylarında boş qalan Ələsgər Şərifov 1932-ci ildə Akademik teatrda Rza Darablı, Rza Təhmasib, İsmayıl Hidayətzadə ilə birgə Hüseyn Cavidin "Şeyx Sənan" faciəsinə rejissorluq edib.

Müəyyən təcrübə toplayan Ələsgər Şərifov 1934-cü il iyun ayının 11-də Milli Dram Teatrına rejissor götürülüb. 1935-ci il-də bu teatrda ilk müstəqil işi kimi Qurban Musayevin "Qızıl çeşmə" dramına quruluş verib. Teatrda Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (1938, 1940, 1948, 1957), İmran Qasımovun "Arzu" (1938), Məmmədhüseyn Təhmasibin "Bahar" (1940), "Aslan yatağı" (1942), Cəfər Cabbarlının "Oqtay Eloğlu" (1940), "Sevil" (1944), "Od gəlini" (1951 və 1961), Abdulla Şaiqin "Nüşabə" (1946), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (1948), Cabbar Məcnunbəyovun "Məhəbbətin hökmü" (1962), Hüseyn Cavidin "Səyavuş" (1963), Qeybulla Rəsulovun "Söz yarası" (1966), Mirzə İbrahimovun "Közərən ocaqlar" (1967), Seyfəddin Dağlının "Mənziliniz mübarək!" (1971) pyeslərinin quruluşçu rejissoru olub.

Ələsgər Şərifovun tamaşaya hazırladığı pyeslər içərisində tərcümə əsərləri ayrıca yer tutur. Onun Aleksandr Ostrovskinin "Cehizsiz qız" (1939, 1945 və 1979. Tərcüməçi Ənvər Məmmədxanlı), "Tufan" (1943. Tərcüməçi Ənvər Məmmədxanlı), "Günahsız müqəssirlər" (1948. Tərcüməçi Rza Təhmasib), Aleksey Kapler və Zlotoqorovanın "Lenin" (1940. Tərcüməçi Nigar Rəfibəyli), Tur qardaşları və Lev Şeyninin "Gizli döyüş" (1944. Tərcüməçi Mikayıl Rəfili), Boris ÇirsikoVun "Qaliblər" (1947. Tərcüməçi Rza Təhmasib), Anatoli Boryanovun "O tayda" (1949. Tərcüməçi Ənvər Məmmədxanlı), Georgi Mdivaninin "Kimdir müqəssir?" (1949. Tərcüməçi Sabit Rəhman), Abdulla Qəhharın "İpək naxışlar" (1952. Tərcüməçi Cabbar Məcnunbəyov), Vilyam Şekspirin "Qış nağılı" (1955. Tərcüməçi Tələt Əyyubov), Aleksandr Şteynin "Şəxsi iş" (1956. Tərcüməçi Ənvər Məmmədxanlı), Aleksey Kaplerin "Tufanlı il" (1959 və 1967. Tərcüməçi Tələt

Əyyubov), Anton Çexovun "Vanya dayı" (1959. Tərcüməçi Nigar Rəfibəyli), Fridrix Şillerin "Orlean qızı" (1965. Tərcüməçi Tələt Əyyubov), "Məkr və məhəbbət" (1973. Tərcüməçi Nigar Rəfibəyli), öz tərcüməsində Nikolay Poqodinin "Zamanın hökmü" (1970), "Kreml saatı" (1975), Avksenti Saqarelinin "Xanuma" (1975. Tərcüməçi Tələt Əyyubov), Nazim Hikmətin "Məhəbbət əfsanəsi" (1977. Tərcüməçi İslam İbrahimov) tamaşalarına verdiyi quruluşlar böyük bir aktyor nəslinin yaradıcılığında mühüm əhəmiyyət daşıyıb.

Ələsgər Şərifov uzun illər Milli Dram Teatrının baş rejissoru olmuş Ədil İsgəndərovla birgə Rəsul Rzanın "Vəfa" (1943), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (1945), Hüseyn Cavidin "Şeyx Sənan" (1956), Cabbar Məcnunbəyovun "İliç buxtası" (1958), Tofiq Kazımovla isə yuqoslav dramaturqu Branislav Nuşiçin "Nazirin xanımı" (1970. Tərcüməçi Tofiq Kazımov) tamaşalarını hazırlayıb.

Arkadi Arkanov və Qriqori Qorinin "Görünməmiş toy" ("Bütün Avropanı gəzən toy"), Taufiq əl Hakiminin "Karıxmış Sultan" dramları Ələsgər Şərifovun tərcüməsində, Məmmədkamal Kazımovun və Tofiq Kazımovun quruluşlarında Milli Dram Teatrında oynanılıb.

1960-cı ildə böyük dramaturqun xatirə gününə hazırlanmış Adil Babayevin "Cəfər Cabbarlı qəhrəmanları arasında" kompozisiyasının rejissorları Ədil İsgəndərov, Əliheydər Ələkbərov və Ələsgər Şərifov olublar.

O, 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 may 1960-cı ildə isə xalq artisti fəxri adları ilə təltif olunub.

1982-ci il sentyabrın 9-da Bakıda vəfat edib.

Ələsgər Şərifov klassik üslub-formada tamaşalar hazırlamağa üstünlük verən rejissor idi.

Ələsgər Şərifov formalaşmış milli klassik ənənələrdən kənara çıxmağa çalışırdı.

Ələsgər Şərifov istər monumental-romantik, istərsə də realist formalı quruluşlarında, əsasən, aktyor tamaşası yaratmağa səy göstərirdi. Onun quruluşlarında rejissor işi (fantaziya, yeniliklər, poetika prinsipləri, estetik çalar və sairə) ikinci planda qalır, öndə bilavasitə baş rolların ifaçıları görünürdülər.

Ələsgər Şərifov Azərbaycan teatr səhnəsinə Lenin mövzusu gətirən ilk və bu istiqamətdə daha çox tamaşa hazırlamış rejissordur.

Ələsgər Şərifov klassik və müasir rus dramaturqlarının şöhrətli əsərlərinə daha çox müraciət edən, bu sahədə müəyyən səmərəli işlər görən rejissor idi.

Ələsgər Şərifov janr axtarışları baxımından teatrın ənənələrindən kənara çıxmağa səy göstərməyib, ancaq mövzu, problem, xarakterlər müxtəlifliklərinə cəsarətlə girişib. Onun "Pəri cadu" faciəsinə dörd, "Cehizsiz qız" dramına üç dəfə müraciət etməsinin kökündə janr axtarışlarına cəhd deyil, məhz eyni mövzunu başqa-başqa ictimai, sosial mühitdə müxtəlif istiqamətlərdə qabartmaq niyyəti durub.

Bir rejissor kimi Ələsgər Şərifov daha çox istedadlarını sübut etmiş, təcrübəli aktyorlarla işləməyə üstünlük verirdi. Gənc aktyoru sınaqdan çıxarmağa risk göstərməsə də, müəyyən məqamlarda onlara mürəkkəb rol tapşırırdı.

Ələsgər Şərifov "Səbuhi" filmində görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazehin roluna çəkilib.

Gənc Tamaşaçılar Teatrında Mirmehdi Seyidzadənin "Qızıl quş" pyesini tamaşaya hazırlayıb.

Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında Səməd Vurğunun "Xanlar" (1940) və Nikolay Poqodinin "Kreml saatı" (1941) əsərlərinə, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında şair-dramaturq Hüseyn Cavidin "Şeyx Sənan" (1958) faciəsinə əlvan və parlaq quruluşlar verib.

**MEHDİ MƏMMƏDOV**
**(28.5.19182- 8.1.1985)**

Milli rejissuramızda xüsusi yeri olan Mehdi Məmmədovun quruluş verdiyi tamaşalarda idrakin gücü zərifliyə və emosiyaya, psixoloji çalarlardan zəmin tapan lirizmə qovuşaraq tamaşaçını düşüncələr aləminə aparırdı. Onun quruluşlarının ritmindəki karvan ləngəri, ahəngin ağırlığı sənətkar təfsirinin fəlsəfi dərinliyindən, rejissor yozumundakı qanadlı fikirlərdən, epizodlardakı mizan düzümündən, obrazların xarakterini açan ifadə vasitələrindəki rəngarənglikdən irəli gəlirdi.

Mehdi Məmmədov 1918-ci il may ayının 22-də Şuşada doğulsa da, məktəb təhsilini Bakıda alıb. Yeddinci sinifdən Bakı Türk Işçi Teatrının tamaşalarında kütləvi səhnələrə çıxan Mehdi Məmmədov Bakı Teatr Məktəbini bitirib (1935). Həmin il Moskvada ali rejissor təhsili almağa gedib.

1940-ci ildə Gəncə Dövlət Dram Teatrında Məmmədhüseyn Təhmasibin "Bahar" dramını diplom işi kimi tamaşaya hazırlayıb. Təyinatla Gəncəyə göndərilən gənc rejissor 1945-ci ilin yay mövsümünün sonunadək burada işləyərək sentyabrda Bakıya gəlib. Burada müxtəlif sənət ocaqlarında, əsasən, monumental səpkili tamaşalar hazırlayıb.

Ayrı-ayrı illərdə Gəncə Dövlət Dram Teatrında (1942-1945), Milli Dram Teatrında (1960-1963), Opera və Balet Teatrında (1956-1960), Azərbaycan Dövlət Rus Dram Teatrında (1978-1982) baş rejissor Kürsüsünü tutub. Sıravi quruluşçu rejissor kimi ən çox Milli Dram Teatrında quruluşlar verib.

1945-cı ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs deyib, kafedra müdiri olub. 1968-ci ildə "Azəri dramaturgiyasının estetik problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1960-cı ildən professor vəzifəsini tutan, sənətşünaslıq doktoru Mehdi Məmmədov "Azəri dramaturgiyasının estetik problemləri", "Teatr düşüncələri", "Teatrlar. Aktyorlar. Tamaşalar", "Hüseyn Ərəblinski". "Onun sənət ulduzu", "Moskva Akademik Bədaye Teatrı", "Aleksandr Tuqanov" (rus dilində), "Rejissor sənəti", "Sabit Rəhman" və digər kitabların müəllifidir.

Sənətdə qazandığı uğurlara görə Mehdi Məmmədov respublikanın əməkdar incəsənət xadimi (21 iyul 1949), xalq artisti (26 aprel 1958) və SSRİ xalq artisti (7 avqust 1974) fəxri adlarına layiq görülüb.

Akademik teatrda hazırladığı Hüseyn Cavidin "İblis" faciəsinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı ilə təltif olunub.

Mehdi Əsədulla oğlu Məmmədov 1985-ci il yanvar ayının 28-də qəflətən vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub.

Mehdi Məmmədovun böyük oğlu Elçin Məmmədov (anası Barat xanım Şəkinskayadır) məşhur teatr rəssamı idi.

Görkəmli rejissorun Gəncə teatrında hazırladığı tamaşalar: "Bahar" (Məmmədhüseyn Təhmasib), "Madrid" (Mirzə İbrahimov), "İntiqam" və "Qatır Məmməd" (Zeynal Xəlil), "Məşədi İbad" (Üzeyir bəy Hacıbəyov), "Od gəlini" və "Oqtay Eloğlu" (Cəfər Cabbarlı), "Toy" (Sabit Rəhman), "Vaqif" (Sə-məd Vurğun), "Nə yardan doyur, nə əldən qoyur" (Lope de Veqa), "İntizar" (İlyas Əfəndiyev və Mehdi Hüseyn), "Nizami" (Mehdi Hüseyn), "Partizan kostya" (Nadejda Filippova), "Vasvası xəstə" (Jan Batist Molyer).

Milli Dram Teatrında ilk işi 1946-cı ildə Şekspirin "On ikinci gecə" komediyasının tamaşası olub. Müəyyən fasilələrlə bu sənət ocağında Cəfər Cabbarlının "Yaşar" (1947), Aleksandr Fadeyevin "Gənc qvardiya" (1948), Sabit Rəhmanın "Aydınlıq" (1949), "Əliqulu evlənir" (1961), Lope de Veqanın "Rəqs müəllimi" (1949), Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (1950), Məmmədhüseyn Təhmasibin "Çiçəklənən arzular" (1951), Nikolay Qoqolun "Müfəttiş", Karlo Haldoninin "Mehmanxana sahibəsi" (1952), Yuri Yanovskinin "Prokurorun qızı" (1954), Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" (1955), İmran Qasımovla Həsən Seyidbəylinin

"Uzaq sahillərdə" (1956), Viktor Rozovun "Şadlıq sorağında" (1961), Mehdi Hüseynin "Alov" (1961) Mirzə İbrahimovun "Kəndçi qızı" (1962), Lev Tolstoyun "Canlı meyit" (1968), Hüseyn Cavidin "Xəyyam" (1970) və "İblis" (1983), Səməd Vurğunun "İnsan" (1974), Maksim Qorkinin "Meşşanlar" (1975), Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" (1978) əsərlərinə müxtəlif janrlarda səhnə həyatı verib.

Opera və Balet Teatrında Fikrət Əmirovun "Sevil" (1953 və 1959), Leo Delibin "Lakme" (1957), Cahangir Cahangirovun "Azad" (1957), Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (1958 və 1978), "Koroğlu" (1959), Cakomo Puççininin "Toska" (1960) operalarına quruluş verməklə, bu teatrda fəlsəfi-monumental teatrın imkanlarına genişlik açıb. Rus Dram Teatrında Maksİm Qorkinin "Həyatın dibində" və Mixail Şatrovun "Mənim Nadejdalarım" dramlarının quruluşçu rejissoru olub.

Mehdi Məmmədov səhnə sənətinə aktyorluqla başlayıb. Teatr məktəbində Karl Moor ("Qaçaqlar", Şiller), Hacı Əhməd ("Almaz", Cəfər Cabbarlı), Moskvada Lunaçarski adına Ali Teatr Sənəti İnstitutunda Evstiqneyko ("Günəş övladları", Maksim Qorki), Neznamov ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski) rollarını oynayıb. İşçi teatrında Süleyman Rüstəm və Hacıbaba Nəzərlinin "Yanğın", Seyid Hüseynin "Kölgə" dramlarındakı Gənc aqronom və Bəxtiyar, Gəncə teatrında Səməd Vurğunun "Vaqif", "Xanlar", Mirzə İbrahimovun "Madrid", Məmmədhüseyn Təhmasibin, "Bahar", Mehdi Hüseynin "Nizami" pyeslərinin tamaşalarında Eldar, Söhbət, Karton, Qaya və Əbdək rollarında səhnəyə çıxıb. Akademik teatrda isə "Alov"da Kamalov, "Canlı meyit"də Protasov, "Xəyyam"da Xəyyam, "Meşşanlar"da Terenti Teterov rollarında çıxış edib.

"Azərbaycanfilm"in 1959-cu ildə istehsal etdiyi "Onu bağışlamaq olarmı?" filmində Qaya roluna çəkilib. Radio teatrında Şekspirin "Hamlet" faciəsində baş rolu səsləndirib.

Zəngin elmi təfəkKürə malik olan Mehdi Məmmədov milli teatrşünaslıq elmimizin inkişafında, resenziya janrının formalaşmasında səmərəli fəaliyyət göstərib. 1971-1976-cı il-lərdə Azərbaycan Teatr Cəmiyyətinin (hazırki Teatr Xadimləri Ittifaqı) sədri seçilib.

Görkəmli alimin yazdığı və dərslik kimi keçilən "Rejissor sənəti", "Həyat və sənət yollarında", "Mah teatr" kitabları elmi dəyərlərini bu gün də saxlamaqdadır.

Mehdi Məmmədovun rejissor üslubunun fərdi keyfiyyətlərini qısaca belə ifadə edib, aşağıdakı şəkildə ümumiləşdirmək olar.

Mehdi Məmmədov aktyorun rol-obraz üzərində analitik təhlilini əsas, mühüm prinsip kimi götürürdü.

Mehdi Məmmədov pauzaların psixoloji nöqtəsini tamaşanın əsas akkordu ilə ustalıqla birləşdirirdi.

Mehdi Məmmədov tamaşalarında (hətta ailə-məişət mövzulu əsərlərin səhnə həllində də) ictimai motivləri fəlsəfi dərinliyin gur işığı ilə ziyalandırırdı.

Mehdi Məmmədov məzmun və forma vəhdətini möhtəşəm monumentallıqda təcəssüm etdirirdi. Bu məqsədlə tərtibatçı rəssamlarla yaradıcı tələbkarlıqla işləyirdi.

Mehdi Məmmədovun janrından asılı olmayaraq, hazırladığı səhnə əsərlərinin sürət-ritmində fəlsəfi daxili ləngər vardı.

Mehdi Məmmədovun tamaşalarında idrakın gücü zəriflik və emosiya ilə, psixoloji çalarlardan şirələnən lirizmlə ahəngdar cazibə yaradırdı.

Mehdi Məmmədov tamaşanın ali məqsədini psixoloji münasibətlərin, əqidə mübarizələrinin mahiyyətində, fərdin dünyanı dərkində axtarırdı.

Mehdi Məmmədov kəskin epizodlarda verdiyi ən mürəkkəb mizanlarda da müəyyən dinamik, musiqili, poetik və ifadəli ritmə əsaslanırdı.

Mehdi Məmmədov janr əlvanlığına az, ancaq cəsarətlə meyil edirdi. Mövzunu janrın qanunları çərçivəsində, cəmiyyətin ictimai-sosial, çağdaş mənəvi-əxlaqi problemləri ilə əlaqələndirirdi.

Mehdi Məmmədov cəmiyyətdə (həyatda) olduğu kimi, sənətdə də özünütəsdiq mövqeyində dayanırdı.

Mehdi Məmmədovun rejissurası bütövlükdə realist monumentallığı və fəlsəfi dərinliyə geniş meydan açması ilə səciyyəvidir.

**TOFİQ KAZIMOV**
**(14.1.1923-2.8.1980)**

Azərbaycanda lirik-psixoloji teatr məktəbinin yaranması, inkişafı və formalaşması Tofiq Kazımovun adı ilə bağlıdır. O, görkəmli teatr xadimi, şair Səməd Mənsurun oğludur. Səməd Mənsur Bakıda mövcud olan bir sıra mədəni-maarif cəmiyyətləri (məsələn, "Nicat", "Səfa") teatr truppalarının rəhbərlərindən idi.

Tofiq Kazımov 14 yanvar 1923-cü il Bakıda doğulub və yeddiillik təhsilini burada alaraq teatr məktəbini bitirib (1939-1942). Böyük Vətən müharibəsində iştirak edib. Döyüşlərdə yaralanaraq 1943-cü ildə qayıdıb və Gənc Tamaşaçılar Teatrında aktyor işləyib. Əyyub Abbasovun "Məlik Məmməd", Abdulla Şaiqin "Ana" dramlarının tamaşalarında Bulud və Əmrah rollarını oynayıb.

1945-1951-ci illərdə Moskvada Ümumittifaq Teatr Sənəti İnstitutunda rejissor təhsili alıb. Tələbə ikən Ağdam Dövlət Dram Teatrında Həsən Qasımovun "Kür sahilində" pyesini tamaşaya hazırlayıb.

1951-ci ildə Akademik Milli Dram Teatrında diplom tamaşası kimi Hüseyn Muxtarovun "Ailə namusu" ("Allanın ailəsi") pyesinə səhnə quruluşu verib. 1952-ci il aprelin 25-də Gənc Tamaşaçılar Teatrına baş rejissor göndərilib, ancaq burada tamaşa hazırlamayıb. Elə həmin il oktyabrın 1-də Akademik teatra rejissor götürülüb. 1964-cü il martın 16-da bu teatra baş rejissor təyin olunub.

Tofiq Kazımov 1980-ci il avqust ayının 2-də avtomobil qəzasında həlak olana qədər baş rejissor işləyib.

1958-ci ildə kinostudiyaya işə qəbul olunaraq "Azərbaycanfilm"də çəkilən "Səhər" kinolentində rejissor kimi çalışıb. Elə həmin il rus dram teatrında Ənvər Məmmədxanlının "Şərqin səhəri" pyesini tamaşaya hazırlayıb. 1960-cı ildə kinostudiyadan çıxaraq yenidən Akademik teatra quruluşçu rejissor götürülüb.

Tofiq Kazımov 1960-cı ildə Musiqili Komediya Teatrında Tofiq Quliyevin "Qızıl axtaranlar" (dramaturq Həsən Seyidbəyli) operettasma quruluş verib. Naxçıvan teatrında Məmmədəli Tarverdiyevin "Kölgəli dağ" (1964), Quba teatrında Rza Şahvələdin "Qız qalası" (1961), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (1963), Gəncə teatrında Altay Məmmədovun "Yadındamı" (1969) dramlarına quruluş verib.

Tofiq Kazımov uzun illər teatr institutunda aktyor və rejissor sənətindən dərs deyib. Xalq artistləri Ağasadıq Gəraybəyli, Məmmədəli Vəlixanlı, Kazım Ziya, Əliağa Ağayev (Zəfər Nemətovla birgə), İsmayıl Osmanlı barədə monoqrafiyalar yazıb. "Çağırış", "İşıqlı yollarda", "Şəfəq", "Qoçaq Polad" və digər pyeslərin müəllifidir. Mətbuatda teatr sənətinə, müxtəlif tamaşalara aid resenziya və məqalələrlə çıxış edib.

Tofiq Kazımov 1965-ci ildə "Antoni və Kleopatra" (Vilyam Şekspir) və 1979-cu ildə "Şəhərin yay günləri" (Anar) tamaşalarına görə Dövlət mükafatları ilə təltiflənib. Respublikanın əməkdar incəsənət xadimi (1961) və xalq artisti (1 iyun 1974) fəxri adlarına layiq görülüb.

Akademik teatrda sıravi rejissor kimi Karlo Haldoninin "Məzəli hadisə" (1952), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", Lope de Veqanın "Sevilya ulduzu" (1953), "Dəlilər" (1963), Maksim Qorkinin "Vassa Jeleznova" (1954), Rəsul Rzanın "Qardaşlar", Nazim Hikmətin "Qəribə adam" (1956), Ənvər Məmmədxanlının "Şirvan gözəli" (1957), Şıxəli Qurbanovun "Əcəb işə düşdük", Aleksis Parnisin "Gözllik və sevgi adası" ("Afrodita adası". 1961), Viktor Hüqonun "Mariya Tüdor" (1962), Sabit Rəhmanın "Sevimli rollar" (1963) pyeslərinə səhnə təfsiri verib.

Baş rejissor kimi Akademik teatrda Vilyam Şekspirin "Antoni və Kleopatra" (1964), "Hamlet" (1968), "Fırtına" (1974), İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" (1964), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Bağlardan gələn səs" (1975), Cəlil Məmmədquluzadənin "Ölülər" (1966), Şıxəli Qurbanovun "Sənsiz" (1967), Əbdürrəhim bəy

Haqverdiyevin "Pəri cadu" (1969), Branislav Nuşiçin "Nazirin xanımı" (1970), Sabit Rəhmanın "Yalan" (1965), "Küləklər" (1970), Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (1971), Yucin O'Nilin "Qızıl" (1971), Cəfər Cabbarlının "Aydın" (1972), İmran Qasımovun "Nağıl başlananda" (1973), Aleksandr Vampilovun "Övlad" (1974), Məmməd Səid Ordubadinin "Qılınc və qələm" (1976. Səhnələşdirəni özüdür), Maqsud İbrahimbəyovun "Ümid" (1976), Mirzə İbrahimovun "Bəşərin komediyası və yaxud Don Juan" (1977), Anatoli Safronovun "Daşqın", Dmitri Asenovun "Qızıldan qiymətli" (1977), Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (1978), Əkrəm Əylislinin "Quşu uçan budaqlar" (1978), "Yastı təpə", Taufiq əl Hakiminin "Karıxmış sultan" (1980) pyeslərini tamaşaya hazırlayıb.

Tofiq Kazımov baş rejissorluğu dövründə teatra çoxlu istedadlı gənc cəlb etdi.

Tofiq Kazımov yeni teatr poetikası yaratmaqla, onun estetik səciyyələrini müəyyənləşdirdi.

Tofiq Kazımov, sözün əsil mənasında, hazırladığı səhnə əsərlərində "tamaşanın müəllifi" səviyyəsinə yüksəlirdi.

Tofiq Kazımov səhnəni maksimum dərəcədə boşaltmağa çalışır və bununla fəza (məkan) genişliyinə nail olurdu. Səhnə tərtibatındakı "xəsislik" əsas diqqəti aktyora yönəldirdi.

Tofiq Kazımov qaysaqlanıb köhnəlmiş səhnə şərtiliklərini cəsarətlə sındırırdı. Onun quruluş verdiyi tamaşalarda pərdə obraz-rəmzə çevrilirdi.

Tofiq Kazımov klassik dramlara "doqma", "toxunulmaz" kimi baxmaq flkrinin əleyhinə çıxır, həmin əsərlərin tamaşalarında cəsarətli eksperimentləri, inamlı axtarışları, dəyərli nəticələri ilə diqqəti cəlb edirdi.

Tofiq Kazımov səhnədə məşq prosesində tamaşanın kompozisiyasını qurandan sonra ecazkar improvizələr edir, gözlənilməz fəlsəfi-estetik qənaətlərə gəlirdi.

Bədii materialın səhnə təfsirində Tofiq Kazımovun əsas "silahı" poetik, psixoloji, dramatik flkir yükü daşıyan mizanlar idi.

Tofiq Kazımovun tamaşalarında obraz üçün məxsusi yazılmış mahnıları aktyorlar özləri oxuyurdular. Buna görə də ifaçı səhnədə həmişə obrazda olur və bununla da vəziyyəti bilavasitə yaşayırdı.

Tofiq Kazımov "özgələşmə effekti"nin milli formasını yaratmaq üçün epik teatrın ünsürlərindən cəsarətlə və novatorcasma bəhrələnirdi.

Tofiq Kazımovun hazırladığı tamaşalarda divar, qapı, pəncərə və sairə əşyalar (obyektlər) həm özünün konkret məişət mahiyyətini yerinə yetirir, həm də atribut-obraza çevrilirdi.

Akademik teatrda həmişə gənc qəhrəman rolları tanınmış, müəyyən fəxri adlarla təltiflənmiş 50-60 yaşlı aktyorlara verilirdi. Bu səmərəsiz ənənəni məhz Tofiq Kazımov cəsarətlə sındırdı. O, "Sən həmişə mənimləsən" tamaşasında 18 yaşlı Nargiləni tələbə Amaliya Pənahovaya, "Ölülər"dəki gənc İsgəndəri 28 yaşlı Həsən Turabova... tapşırdı.

Tofiq Kazımovun tamaşalarında həm fikir, həm də estetik forma baxımından həmişə təzə-tərlik, təravət vardı.

Tofiq Kazımovun quruluş verdiyi tamaşalarda iyirminci əsrin hərəkət və təfəkKür sürəti, qlobal ictimai və siyasi proseslərin ritmi, insanların həyat tərzinin dinamikası, düşüncə tərzinin itiliyi müxtəlif bədii, estetik, fəlsəfi, psixoloji formalarda parlaq təcəssümünü tapırdı.

Tofiq Kazımovun tamaşalarının finalı özü bir tamaşa idi. Rejissorun əsər üçün seçib qurduğu bədii, estetik, fəlsəfi konsepsiya finalda zahirən həlim, lirik, sakit, yumşaq, ancaq enerji nüvəsində coşğunluq, əzəmət, hayqırtı olan tərzdə tamaşaçılara çatdırılırdı.

Milli rejissuramızın korifeylərindən sayılan Tofiq Kazımovun məzarı Bakıda ikinci Fəxri xiyabandadır.

**MİLLİ DRAM TEATRINDA**
**AKTYOR YARADICILIĞI**
**(1930- 1970)**

**Birinci dərs**

Ötən əsrin otuzuncu illərində MDT aktyor truppasını gücləndirmək, müxtəlif fərdi üslublu sənətkarların çoxluğuna nail olmaq üçün axtarışlar aparıb, hər il təzə mövsümdə kollektivdə yeniləşmə edib. Üslub zənginliyinə üstünlük verən kollektivin truppaya qəbul etdiyi aktyorların əksəriyyəti hansısa dram kollektivində, yaxud Tiflis, İrəvan, bir qədər sonra Gəncə teatrlarında işləmiş, müəyyən təcrübə toplamış səhnə vurğunları olub. Aktyor seçiminə belə tələbkarlıq teatrın peşəkarlıq axtarışlarının güclənMəsmə dəlalət edirdi. Əvvəlcə Aleksandr Tuqanov (1935-1937), sonra isə Ədil İsgəndərov (1938-ci ildən) truppaya aktyor qəbulunda özlərinin fərdi rejissor konsepsiyalarına, yaratmaq istədikləri teatr estetikasının prinsiplərinə əsaslanıblar.

* * *

**İSMAYIL OSMANLI (24.4.1902-22.6.1978)**

Realist aktyor məktəbinin görkəmli nümayəndələrindən biri, xarakterik epizod rolların məşhur ifaçısı, şirəli və duzlu komediya ustası İsmayıl Osman oğlu Osmanlı 24 aprel 1902-ci ildə Nuxada (Şəki) kasıb ailədə doğulub. Mükəmməl təhsil görməyib. On bir yaşından yetimliyin acısını dadan gənc İsmayıl Şəki ipək fabrikində, dabbaqxanada... bir qarın çörək üçün olmazın əziyyətlərə qatlaşıb. Təbiətən şux olan, məzhəkələr, duzlu Şəki lətifələri söyləməyi xoşlayan İsmayıl Osmanlı 1920-ci ildə rayondakı Fəhlə-kəndli klubunun dram dərnəyinə üzv yazılıb.

1922-ci ildə Gəncəyə köçən Osmanlı altı il buradakı həvəskarlar teatrında çalışıb. Müəyyən aktyorluq təcrübəsi toplayan aktyor 1928-ci ildə Tiflis Dövlət Azərbaycan Dram Teatrına dəvət alıb. 1929-cu ildə isə Bakıya gələrək Milli Dram Teatrının truppasına qəbul olunub və həyatının sonuna qədər burada işləyib.

İsmayıl Osmanlı dram və faciə janrında xarakterik obrazların, dramatik pyeslərdə yumorlu surətlərin, həm də komediyalarda məsxərəli və satirik rolların ifaçısı olub. Əsas rolları bunlardır: Keçəl Aslan, Fon Hols, Şaliko ("Xanlar", "İnsan" və "Vaqif", Səməd Vurğun), Əmrah ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Şeyx Hadi, Vali, Şakro ("Şeyx Sənan", "Səyavuş" və "Knyaz", Hüseyn Cavid), Munis, Kərim Rəhimli ("Nizami" və "Alov", Mehdi Hüseyn), Əliş ("Qatır Məmməd", Zeynal Xəlil), Nikita Pavloviç ("Qızıl çeşmə", Qurban Musayev), Məşədi Cəfər ("Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Mirzə Qərənfil, Zakir, Əhməd bəy, Xəlil, Qasım ("Xoşbəxtlər", "Aydınlıq", "Küləklər", "Əliqulu evlənir" və "Nişanlı qız", Sabit Rəhman), Mirzə Heydərqulu, Şəkinski, ("Həyat" və "Kəndçi qızı", Mirzə İbrahimov), Koxa Məmməd ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Məşədi Oruc, Hacı Naib ("Ölülər" və "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Xaspolad, Mirzə Cavad ("Oqtay Eloğlu" və "Aydın", Cəfər Cabbarlı), Kefli Bəşir ("Bahar suları", İlyas Əfəndiyev), Cəbi ("Hacı Qəmbər, Nəcəf bəy Vəzirov), Səfər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Əşrəf ("Türkiyədə", Nazim Hikmət), İsidor Cakeli ("Darıxma, ana!", Nodar Dumbadze), Aleksandrov ("Canlı meyit", Lev Tolstoy), General Berqoyn ("Şəxsi iş", Aleksandr Şteyn), Baş senator, Feste, Gilderstern ("Otello", "On ikinci gecə" və "Hamlet", Vilyam Şekspir), Krutitski, Tixon və karandışev ("Müdriklər", "Tufan" və "Cehizsiz qız", Aleksandr Ostrovski).

İsmayıl Osmanlı "Azərbaycanfilm"in istehsal etdiyi "Kəndlilər" (Daxili işlər naziri), "Bir məhəlləli iki oğlan" (Mahmud), "O olmasın, bu olsun" (Rza bəy), "Həqiqi dost" (Usta Şirəli), "Yenilməz batalyon" (Yusif), "Mən ki gözəl deyildim" (Poçt müdiri), "26-lar" (Şahbazov),

"Ulduzlar sonnıür" (Hacı Zeynalabdin Tağıyev), "Nəsimi" (Nəimi), "Tütək səsi" (Poçtalyon), "Yeddi oğul istərəm" (Kələntər) və sair filmlərdə çəkilib.

İsmayıl Osmanlı 4 may 1940-cı iidə Azərbaycan Respublikasının əməkdar artisti, 21 iyul 1949-cu ildə xalq artisti, 1 avqust 1974-cü ildə SSRt xalq artisti fəxri adları ilə təltif olunub.

22 iyun 1978-ci ildə vəfat edib. Məzarı Fəxri xiyabandadır.

İsmayıl Osmanlı ilk növbədə epizod xarakterlər ustasıydı. Ən kiçik epizodda da səhnəyə çıxanda salona canlılıq, xoş ovqat və çox cazibəli, könül oxşayan səmimiyyət bəxş edirdi. Xalq gülüşünün bütün vasitələrindən səmərəli yaradıcılıqla barınırdı. Obrazın danışığındakı sözlərin yumor, satira və məsxərə şirəsmi hərəkətlərlə paralel verməklə rola psixoloji təsir, həyatilik və təbiilik gətirirdi. Çeşidli ifadə vasitələrini obrazın dramatizmınə sərf edir, yaradıcılığının mayasında olan təbii yumoru inandırıcı səmimiyyətlə tamaşaçıya çatdırmağı ustalıqla bacarırdı.

**İSMAYIL DAGISTANLI (6.1.1907-1.4.1980)**

Böyük səhnəyə həvəskarlıqdan, dram dərnəklərindən gələn sənətkarlardan biri də İsmayıl Yusif oğlu Dağıstanlı (Hacıyev) idi. O, 6 yanvar 1907-ci ildə Qax rayonunun Zərnə kəndində doğulub. Nuxa (indiki Şəki) rayonuna peşə təhsili arxasınca gələn İsmayıl Hacıyev 1925-ci ildə buradakı Mərkəzi fəhlə klubunda dram dərnəyinə üzv olub. 1927-1930-cu illərdə Bakı Teatr Məktəbində təhsil alıb. Səhnə haqqında müəyyən təcrübəsi olduğuna görə elə birinci kursdan Milli Dram Teatrının tamaşalarında kütləvi səhnələrdə, sözsüz epizod rollarda çıxış edib. Müəllimi, böyük ədib və teatr xadimi Əbdürrəhim bəy Haqverdiyevin təklifi ilə "Dağıstanlı" ləqəbini götürüb.

Teatr Məktəbində təhsilini başa vurduqdan sonra Akademik teatrda aktyor ştatına götürülüb. Müxtəlif vaxtlarda İrəvan Dövlət Azərbaycan Dram Teatrında (1936-1937), Dərbənd Dövlət Azərbaycan Dram Teatrında işləyib. 1938-ci ildən dünyasını dəyişdiyi günə kimi Akademik Milli Dram Teatrının əsas aktyorlarından olub.

Sənətdə qazandığı uğurlara görə respublikanın əməkdar artisti (4 may 1940), xalq artisti (21 iyul 1949) və SSRİ xalq artisti (11 iyul 1974) fəxri adlarına layiq görülüb. Ənvər Məmmədxanlının "Şərqin səhəri" pyesinin tamaşasındakı Kirov roluna görə 1948-ci ildə Stalin mükafatı, İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" dramındakı Böyük bəy rolu üçün 1972-ci ildə respublika Dövlət mükafatı ilə təltif olunub.

Aktyor "Azərbaycanfilm"in istehsal etdiyi "Səbuhi", "T-9 nömrəli sualtı qayıq", "Qara daşlar", "Kölgələr sürünür", "Qatır Məmməd" filmlərində Səbuhi (Mirzə Fətəli Axundzadə), Komissar, Aslan Aslanov, Zahidov, General rollarına çəkilib. "Möhsün Sənani", Abbasmirzə Şərifzadə barədə "Böyük sənət ustası", "SSRİ xalq artisti Akaki Xorava", "Cəfər Cabbarlı və teatr" kitablarının müəllifidir.

Milli Dram Teatrının səhnəsində Lenin rolunu ilk dəfə İsmayıl Dağıstanlı ifa edib. Aktyor dramaturqlarımızdan Cəfər Cabbarlının "Od gəlini" (Qorxmaz və Aqşin), "1905-ci il-də" (Baxşı və Eyvaz), "Yaşar" (Yaşar), "Oqtay Eloğlu" (Oqtay), "Solğun çiçəklər" (Bəhram), "Almaz" (Barat), Zeynal Xəlilin "Qatır Məmməd" (Qatır Məmməd), Səməd Vurğunun "Vaqif" (Əli bəy, Qacar və Vaqif), Mehdi Hüseynin "Cavanşir" (Bəhram şah), "Nizami" (Şirvan şahı), Mirzə İbrahimovun "Madrid" (Karlos), İlyas Əfəndiyevin "İşıqlı yollar" (Yelmar), "Bahar suları" (Uğur), "Mənim günahım" (Tahir), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Qüdrət), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Səlim bəy), Hüseyn Cavidin "Səyavuş" (Altay), "Knyaz" (Anton) rollarında çıxış edib.

Tərcümə əsərlərindən Vilyam Şekspirin "Otello" (Otello), "Maqbet" (Yaralı əsgər), "Hamlet" (Horatsio) və "On ikinci gecə" (Sebastian), Fridrix Şillerin "Məkr və məhəbbət" (Prezident), Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (Neznamov) və "Tufan" (Boris), Anton Çexovun "Vanya dayı" (Astrov), Maksim Qorkinin "Zikovlar" (Antipa Zikov), Lope de Veqanın "Sevilya

ulduzu (Kral), Arno D'Nyusso və Ceyms Qounun "Dərin köklər" (Çarlz Brett), Vadim Sobkonun "İkinci cəbhə arxasında" (Gibson), Anatoli Qlebovun "Zaqmuq" (Ninkir Sin), Nazim Hikmətin "Türkiyədə" (Kamil bəy), Aleksey Arbuzovun "Tanya" (İqnatyev), Lev Slavinin "İntervensiya" (Leytenant Benua), Konstantin Trenyovun "Lyubov Yarovaya" (koşkin) əsərlərindəki rolları daha diqqətçəkəndir.

İsmayıl Dağıstanlı mürəkkəb xarakterli rollardan daha çox dramatik və sadə təsvirli obrazların ifasına meyil göstərirdi. Ruh etibarilə romantik aktyor məktəbinin oyun estetikasma yaxın idi və buna görə də pafosla, gurultulu bəlağətlə danışan personajları məharətlə oynayırdı.

İsmayıl Dağıstanlı 1 aprel 1980-ci ildə Bakıda vəfat edib və məzarı ikinci Fəxri xiyabandadır.

## FATMA QƏDRİ (14.4.1907-29.2.1968)

Milli səhnəmizin ilk peşəkar aktrisalarından olan, yüksək səhnə mədəniyyəti örnək sayılan, zəngin dünyagörüşlü, geniş mütaliəli ziyalı, ciddi xarakterlərin misilsiz ifaçısı Fatma xanım Qədir qızı 14 aprel 1907-ci ildə Qədri Rusiyanın Odessa şəhərində doğulub. Rusca təhsil alıb və yeniyetmə yaşlarında ailəsi Bakıya köçən Fatma xanım Azərbaycan Pedaqoji İnstitutunu bitirib. Həmçinin Azərbaycan Teatr Texnikumunun ilk buraxılışında aktyor diplomu alıb (1923-1926). Bakı Türk İşçi Teatrının məktub-tələbnaməsinə əsasən həmin kollektivə təyinat alıb.

1933-ci ilin yanvarında Türk İşçi Teatrı ədalətsiz qərarla Gəncə şəhərinə köçürülüb. Fatma Qədri bir müddət burada ışləyib və 1935-ci ilin yayında onu Milli Dram Teatrına dəvət ediblər. Həmin ilin payızından Fatma Qədri ömrünün sonunadək bu kollektivdə işləyib. Klassik və çağdaş milli dramaturgiya nümunələrində yaratdığı obrazlar onun yaradıcılığında necə layiqli yer tutursa, tərcümə əsərlərində ifa etdiyi səhnə surətləri bir o qədər dəyərlidir.

Aktrisa Səməd Vurğunun "Vaqif" (Xuraman), "Fərhad və Şirin" (Şirin və Məryəm), "İnsan" (Amaliya), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Hafizə), "Köhnə dudman" (Baş hərəm), Cəfər Cabbarlının "Od gəlini" (Solmaz), "Aydın" (Gültəkin), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Şölə xanım), Sabit Rəhmanın "Xoşbəxtlər" (Reyhan), Mirzə İbrahimovun "Kəndçi qızı" (Reyhan xanım), "Məhəbbət" (Məhəbbət), Mehdi Hüseynin "Cavanşir" (Zübeydə xatun), Abdulla Şaiqin "Nüşabə" (Nüşabə), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Həcər), Vilyam Şekspirin "Otello" (Emiliya), "Romeo və Cülyetta" (Cülyetta), "Kral Lir" (Reqana), Fridrix Şillerin "Orlean qızı" (İzabella), "Məkr və məhəbbət" (Luiza), Aleksandr Ostrovskinin "Tufan" (Katerina), "Cehizsiz qız" (Larisa), Aleksandr Puşkinin "Dubrovski" (Maşa), Mixail Lermontovun "İki qardaş" (Vera Liqovskaya), Tsao Yuyun "Tayfun" ("Tufan". Lu Şi Pin), Lev Şeyninin "Gizli döyüş" ("Təkbətək döyüş". Osenina), Onore de Balzakin "Ögey ana" (Polina), Aleksandr Şteynin "Şəxsi iş" (Aleksandra Xlebnikova), Anatoli Boryanovun "O tayda" (Valya), Viktor Rozovun "Şadlıq sorağında" (Ana), Lev Slavinin "İntervensiya" (Janna Berbye), Pyer Bomarşenin "Fiqaronun toyu" (Suzanna), Arno D'Nyusso və Ceyms Qounun "Dərin köklər" (Alisa Lenqdon), Maksim Qorkinin "Vassa Jeleznova" (Raşel), Yuri Yanovskinin "Prokurorun qızı" (kira Karlovna), Boris Çirskovun "Qaliblər" (Liza), Lope de Veqanın "Rəqs müəllimi" (Felisiana) dramlarının quruluşlarında iştirak edib.

Fatma xanım 1933-cü ildə Gəncədən Bakıya qayıtdıqdan sonra teatr texnikumunda, 1946-cı ildən isə teatr institutunda aktyor sənətindən dərs deyib. Pedaqoji fəaliyyəti dövründə onun rəhbərlik etdiyi sinifləri onlarca istedadlı gənc bitirib.

Fatma Qədri öz oyununda emosionallığı, ləyaqətli səhnə ədəb-ərkanı, xanımyana davranışı, kübar görkəmi, ifadə vasitələrinin "xəsisliyindəki" dəqiqliyi, fikir dərinliyi, xarakter tapıntılarının təravəti və gözəlliyi ilə seçilirdi. Rus və Avropa xalqlarının mədəniyyətini dərindən bildiyinə görə müxtəlif əsrlərdə baş vermiş hadisələri tərənnüm edən tamaşalarda dövrün həm kübar, həm aşağı

təbəqə davranış qaydalarına böyük məharətlə, yüksək estetik gözəlliklə nail ola bilirdi. Obrazların ifasında psixoloji rəngarəngliyə, emosional cazibədarlığa can atır, pauzaları məharətlə oynayır, səsinin dramatik ölçülərini həssaslıqla tənzimləyirdi. Daxili enerjisini və aktyor ehtirasını obrazın dramatik daxili inkişaf xəttinin xarakterinə əsasən qururdu. Bununla da onun ifasında ən romantik obraz da real, təbii, çağdaş qəhrəman təsiri bağışlayırdı.

Fatma Qədri aktyorluq nailiyyətlərinə görə 1 fevral 1936-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti, 17 iyun 1943-cü ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

Ömrünün sonuna qədər səhnədən ayrılmayan aktrisa 29 fevral 1968-ci ildə Bakıda vəfat edib. Fəxri xiyabanda dəfn olunub.

## BARAT ŞƏKINSKAYA (28.6.1914-13.1.1999)

Ecazkar səsi, son dərəcə məlahətli səhnə görkəmi ilə uzun illər ürəkləri fəth etmiş, "Azərbaycan səhnəsinin Cülyettası" çağırılan Barat xanım Həbib bəy qızı Şəkinskaya 28 iyun 1914-cü ildə Şuşada bəyzadə ailəsində doğulub. Nəsillərinin bir qolu Şəki xanları ilə bağlı olduğuna görə "Şəkinskaya" soyadını götürüblər.

Ata nənəsi Şuşada məscid tikdirmiş Göhər ağadır. Göhər xanım Əbdürrəhim bəy Haqverdiyevlə əmiqızıdır və kişi qeyrətli olduğu üçün ona "ağa" deyirmişlər.

Barat xanım ilkin təhsilini Şuşada alıb. Gəncəyə köçəndə, 1923-cü ildə oradakı 2 saylı qız məktəbində oxuyub. Şuşada Sultan xanımdan, Gəncədə Sayalı xanım Dilbazidən və Həmid Araslıdan dərs alıb. On üç yaşından Gəncə Qadınlar klubunun dram dərnəyində iştirak edib. 1933-cü ilin yanvarında Bakı Türk İşçi Teatrı Gəncəyə köçürülüb. Barat xanım da kollektivə qəbul olunub. İki il sonra Bakıya gəlib və Milli Dram Teatrı kollektivinə daxil olub. 1943-1945-ci illərdə yenə Gəncədə aktyorluq edərək Bakıya qayıdıb.

Barat xanım Şəkinskayanın zəngin yaradıcılığının əsas dövrü Akademik Milli Dram Teatrı ilə bağlıdır. Bu teatra ilk gəlişində Nobel mükafatı laureatı Moris Meterlinkin "Göy quş" psixoloji dramında Tiltil və "Romeo və Cülyetta" lirik məhəbbət faciəsində Cülyetta kimi möhtəşəm rollar oynayan aktrisa bir-birinin ardınca Vilyam Şekspirin "Kral Lir" (Kardeliya), "Otello" (Dezdemona), "On ikinci gecə" (Viola), Fridrix Şillerin "Məkr və məhəbbət" (Luiza), Karlo Haldoninin "Mehmanxana sahibəsi" (Mirandolina), Lope de Veqanın "Rəqs müəllimi" (Florela), Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (Kruçinina), Maksim Qorkinin "Zikovlar" (Anna Markovna), Raffaele Vivianinin "Çarəsiz dələduz" (Donna Rozina), Cavad Fəhmi Başqutun "Köç" (Səbahət), Konstantin Simonovun "Bizim şəhərli oğlan" ("Vətən oğlu" adıyla. Valya), Aleksandr Fadeyevin "Gənc qvardiya" (Lyuba Şevtsova), Boris Lavrenyovun "Amerikanın səsi" (Meriner), Branislav Nuşiçin "Nazirin xanımı" (Jivka) pyeslərinin tamaşalarında əsas rolların ifaçısı olub.

klassik və çağdaş dramaturqlarımızdan Səməd Vurğunun "Vaqif" (Xuraman), "Fərhad və Şirin" (Şirin), Mirzə İbrahimovun "Madrid" (Aida), Cabbar Məcnunbəyovun "Məhəbbətin hökmü" (Zeynəb), "İldırım" (Yeganə), İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (Dilşad), Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" (Yetər), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Ziba xanım), Sabit Rəhmanın "Əliqulu evlənir", "Xoşbəxtlər" və "Nişanlı qız" (Səadət, Gülər və Maral, Zərifə), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (Əntiqə) dram və komediyalarında koloritli rollar yaradıb.

Barat Şəkinskaya Azərbaycanın ilk travesti (oğlan rolları oynayan) aktrisasıdır. Gəncə teatrında Kostya ("Partizan Kostya", Nadejda Filippova) və Bakıda 1939-cu ildə oynadığı Napoleon ("Ögey ana", Onore de Balzak) yüksək bədii-estetik nıəziyyətləri ilə teatr tariximizə yazılıb.

Aktrisa çoxlu uşaq rolları da oynayıb.

Barat Şəkinskaya yaradıcılığının ilk illərində səhnədə kəpənək kimi zərif, emosional, ovsunlu, nurlu, məftunedici olduğu kimi, son illərdə xanım-xatın, koloritli, incə yumorlu idi.

Səs tembrinin titrək lirizmi, səmimi romantikası, real çalarları heç vaxt dəyişməyib. Cülyetta rolu yaradıcılığının tacı sayılan Barat Şəkinskaya məhəbbət rollarını həmişə şövq və ilhamla, valehedici məsumluqla oynayıb. Barat xanım teatra yenicə gələn aktyor və aktrisalara istisnasız olaraq həmişə qayğı ilə yanaşmış, hətta ən mürəkkəb vəziyyətlərdə onları cəsarətlə müdafiə etmişdir.

Onun ifadə cəbbəxanasındakı romantizm coşğunluğu, lirizm dərin psixologizmi, yumor milli koloriti, dramatizm realizm dərinliyi ilə seçilib.

Barat Şəkinskaya 1970-1971-ci illərdə Sumqayıt Dövlət Dram Teatrının dəvətilə gənc kollektivdə işləyib. 1978-ci ildə öz ərizəsi ilə Akademik Milli Dram Teatrından fəxri təqaüdə çıxıb.

"O olmasın, bu olsun" filmində Sənəm, "Görüş"də Şövkət rolları uzun illərdən bəri maraqla baxılan Barat Şəkinskaya, həmçinin "Telefonçu qız", "Qızmar günəş altında", "Fövqəladə hadisə", "Onun bəlalı sevgisi" və digər kinolentlərinə də çəkilib.

Barat xanım Şəkinskaya 4 may 1940-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti, 21 iyul 1949-cu ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Ömrünün 85-ci ilində, 13 yanvar 1999-cu ildə dünyasını dəyişmiş aktrisa Bakıda ikinci Fəxri xiyabanda dəfn olunub.

**MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1930-1970)**

**İkinci dərs**

**HƏSƏNAĞA SALAYEV (5.12.1921-2.10.1981)**

Romantik və realist aktyor məktəblərinin estetik prinsiplərini öz yaradıcılığında cazibəli ahəngdarlıqla ehtiva edən Həsənağa Salayev 5 dekabr 1921-ci ildə Bakıda qulluqçu ailəsində doğulub. Atası Dərya kişi oğlu yeddi yaşına çatanda onu Bakıdakı 6-cı Şura məktəbinə qoyub. Həsənağa 1937-ci ildə oranın doqquzuncu sinifini yüksək qiymətlərlə bitirib. Elə həmin il Bakı Teatr Texnikumuna daxil olub. Tələbə ikən 1938-ci ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul edilib. 1941-ci ildə təhsilini başa vurduğu günlərdə müharibəyə gedib və doğma teatra 1946-cı ildə
qayıdıb.

Qısa müddətdə Həsənağa Salayev teatrın repertuarında yer tutan və təzə hazırlanan tamaşalarında maraqlı rollar oynayıb. Müxtəlif illərdə Səməd Vurğunun "Xanlar" (Mamulya), "Fərhad və Şirin" (Fərhad), "Vaqif" (Eldar, Qacar və Vaqif), Zeynal Xəlilin "Qatır Məmməd" (Əziz), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Mustafa), Vilyam Şekspirin "Otello" (Montano), "Antoni və Kleopatra" (Sezar), "Qış nağılı" (Florizel və Leont), Nazim Hikmətin "Türkiyədə" (Hüseyn Həlim), Mirzə İbrahimovun "Həyat" (Abbas), Mehdi Hüseynin "Cavanşir" (Qartal və Söhrab), "Alov" (Əmin Bəxtiyarov), Lope de Veqanın "Sevilya ulduzu" (Tavera), Şıxəli Qurbanovun "Sənsiz" (Fərhad), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Vəli), Cəfər Cabbarlının "Solğun çiçəklər" (Bəhram), "Od gəlini" (Qorxmaz), "Almaz" (İbad), "Oqtay Eloğlu" (Oqtay), Pavel Malyarevskinin "Daş qartal" (Maksİm), Yuri Osnos və Vladimir Vinnikovun "Hind gözəli" (Çarudatta), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Heydər bəy), Bernard Şounun "Şeytanın şagirdi" (Riçard Daycen), Bəxtiyar Vahabzadənin "İkinci səs" (Rəşad), Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (Doktor), Fridrix Şillerin "Orlean qızı" (Dünua), Hüseyn Cavidin "Səyavuş" (Keykavus) əsərlərinin tamaşalarında xarakterik səhnə surətləri yaradıb.

Aktyor eyni zamanda "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Fətəli xan", "Görüş", "O olmasın, bu olsun", "Onu bağışlamaq olarını?", "Koroğlu", "İstintaq davam edir" bədii və "Aygün" televiziya filmlərində Süleyman, Musa, Əzim Əzimzadə, Qüdrət, Eyvaz, Mayor Rüstəmov, Əmirxan rollarına çəkilib.

Həsənağa Salayev aktyorluq sənətində qazandığı qələbələrə görə 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1974-cü ildə isə xalq artisti fəxri adları ilə təltif edilib.

Yaradıcılığının ən müdrik çağında, 54 yaşında Həsənağa Salayev qəfildən iflic xəstəliyinə düçar olub. Bir daha səhnəyə çıxmayan aktyor 2 oktyabr 1981-ci ildə dünyasını dəyişib.

Həsənağa Salayev çılğın ehtirası, vüqarlı görünüşü, sərbəst səhnə davranışı, əzəmətli boy-buxunu, tamaşada yöndaşlarına diqqəti ilə seçilirdi. Gurultulu və cingiltili səsini məharətlə tənzimləyən aktyor romantik rollarla realist personajları, mürəkkəb psixoloji dönüşlü dramatik obrazları eyni məharətlə oynaya bilirdi.

O, klassik və tərcümə əsərlərində ifa etdiyi obrazları çağdaş dövrün ictimai-sosial, mənəvi-əxlaqi problemləri ilə ustalıqla əlaqələndirirdi.

Həsənağa Salayev ruhən, emosiya coşğunluğu, səs diapazonu, ehtiraslarının çılğınlığı ilə romantik aktyor idi, ancaq lirik, dramatik və psixoloji rolları da məharətlə oynayıb.

**AGAHÜSEYN CAVADOV (22.4.1894-20.7.1981)**

Mahir komediya ustası, xarakter maskalarından məharətlə istifadə edən, tipaj yaratmaqda səriştəli aktyor, satirik obrazların ifasında qroteskdon həssaslıqla bəhrələnən Ağahüseyn Xəlil oğlu Cavadov 22 aprel 1894-cü ildə Bakının yaxınlığındakı Xırdalan qəsəbəsində doğulub. Əvvəl mollaxanada təhsil alan Ağahüseyn 1919-cu ildə "Səadət" məktəbini bitirib.

Teatr sənətinə tələbəlik illərindən maraq göstərən, bəzi tamaşalarda sözsüz və epizod rollara çıxmış (müxtəlif truppalarda) Ağahüseyn Cavadov 1920-ci ilin iyunundan müəyyən fasilələrlə (arada 1942-ci ilə qədər Bakı Türk İşçi Teatrında və Musiqili Komediya Teatrında aktyorluq edib) Milli Dram Teatrında işləyib.

Ağahüseyn Cavadov Milli Dram Teatrının səhnəsində Məmişov ("Məhəbbət", Mirzə İbrahimov), Dəmirçi Musa, Bərbərzadə, Mirzə Salman ("Toy", "Xoşbəxtlər" və "Nişanlı qız", Sabit Rəhman), Ocaqqulu, Xosməmməd, Həmzə, İmamverdi, Oddamdı ("Almaz", "Dönüş", "Solğun çiçəklər", "1905-ci ildə" və "Od gəlini", Cəfər Cabbarlı), Cəlal, Soraq kişi ("Həyat" və "Yaxşı adam", Mirzə İbrahimov), Qənimət ("Cavanşir", Mehdi Hüseyn), Mürsəl ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Usta Murad ("İldırım", Cabbar Məcnunbəyov), Bəbir Bəbiroviç, Qoşqar baba ("Yadigar" və "Yol ayrıcmda", İslam Səfərli), İmran ("Əcəb işə düşdük", Şıxəli Qurbanov), Savalan ("Dağlar qızı", Adil Babayev), Vasin ("Tanya", Aleksey Arbuzov), Kapitan ("Köç", Cavad Fəhmi Başqut), Luka LUkiÇ ("Müfəttiş", Nikolay Qoqol), Brabansio, Qoca çoban ("Otello" və "Qış nağılı", Vilyam Şekspir), Petruşin ("Canlı meyit", Lev Tolstoy), Sima Popoviç ("Nazirin xanımı", Bratislav Nuşiç), Houkinis ("Şeytanın şagirdi", Bernard Şou), Platon, Məzarçı ("Şeyx Sənan" və "Xəyyam", Hüseyn Cavid), Qoca ("Şöhrət və ya unudulan adam", Nazim Hikmət), Maytreya ("Hind gözəli", Yuri Osnos və Vladimir Vinnikov), Almurad ("Mənim günahım", İlyas Əfəndiyev) rollarında çıxış edib.

Ağahüseyn Cavadov "Bəxtiyar" (Rza), "Qızmar günəş altında" (Pirioğlu), "Əhməd haradadır?" (Əhməd), "O olmasın, bu olsun" (Bəy), "Bir qalanın sirri" (Rəmmal), "Sehrli xalat" (Vəzir), "Görüş" (Əbülfəz), "Şərikli çörək" (Xırdavatçı) və digər filmlərə çəkilib.

Aktyor 1931-ci ildə respublikanın əməkdar artisti, 4 dekabr 1938-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

Ağahüseyn Cavadov 20 iyul 1981-ci ildə Bakıda vəfat edib.

## ƏJDƏR (SULTANOV (DEKABR 1909-10.1.1962)

Qəhrəman sevgili rollarının mahir ifaçısı, güclü səhnə texnikası, yumşaq plastikası, şirin səsi, gözəl rəqqaslıq məharəti olan Əjdər Əliabbas oğlu Sultanov 1909-cu ilin dekabrında Bakıda doğulub. Bakı Teatr Texnikumunu bitirərək (1925- 1928) 1926-cı ildən aktyoru olduğu Bam Türk İşçi Teatrında işləməyə davam edib. O, İşçi və Gəncə teatrlarında "Əjdər", "Əjdər Sultan" imzaları ilə də çıxışlar edib.

Bakı Türk İşçi Teatrı 1932-ci il yanvar ayının 4-də və 5-də Gəncə şəhərinə köçürüləndə Əjdər Sultanov da kollektivlə gedib. Teatrın hazır repertuarındakı və təzə hazırlanan tamaşalarda çıxış edib. Kollektivin nəzdində "Uşaq və Gənclər Teatrı" bölməsi yaradılıb və Əjdər Sultanov burada rejissorluqla məşğul olmağa başlayıb.

1937-ci ilin sonlarında Gəncədən Bakıya qayıdan Əjdər Sultanov az müddət Opera və Balet Teatrında işləyib. 1939-cu ildə isə Milli Dram Teatrının aktyor truppasına qəbul olunub. Bu səhnədə Cəfər Cabbarlının "Od gəlini" (Qorxmaz), "Aydın" (Surxay), "Almaz" (Balarza və Hacı Əhməd), "Dönüş" (Qüdrət Arslan), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Vəli, Təhmas bəy və Mehdi), Səməd Vurğunun "Xanlar" (Mamuliya), "İnsan" (Şahbaz), "Xosrov və Şirin" (Şapur və Xosrov), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Bəhruz), Süleyman Sani Axundovun "Eşq və intiqam" (Çingiz), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Bağır xan), Hüseyn Cavidin "Şeyx Sənan" (Dərviş), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Qurban), İlyas Əfəndiyevin "Bahar suları" (Zəfər),

"Atayevlər ailəsi" (Xosrov Atayev), Mehdi Hüseynin "Nizami" (Munis), Mirzə İbrahimovun "Məhəbbət" (Kərim) pyeslərinin tamaşalarında uğurlu rollar oynayıb.

Tərcümələrdən Vilyam Şekspirin "Otello" (Yaqo və Kassio), "Qış nağılı" (Leont), Konstantin Simonovun "Vətən oğlu" (Lukonin), Vsevolod Rokkun "Mühəndis Sergeyev" (Boris), Leonid Malyuginin "Köhnə dostlar" (Volodya Daroxin), Tsao Yuyun "Tayfun" ("Tufan". Çjo Pu Yua), Mixail Lermontovun "İki qardaş" (Yuri), Anton Çexovun "Vanya dayı" (İvan Petroviç), Boris Çirskovun "Qaliblər" (krivenka), Nazim Hikmətin "Türkiyədə" (Xosrov Murad), Vilyam Şekspirin "On ikinci gecə" (Orsino), Lope de Veqanın "Rəqs müəllimi" (Aldemaro), Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər" (Merrik) əsərlərinin tamaşalarında iştirak edib.

Əjdər Sultanov 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 21 iyul 1949-cu ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

Aktyor 53 yaşına təzəcə qədəm basanda, 10 yanvar 1962-ci ildə qəfildən, ürək xəstəliyindən vəfat edib.

Əjdər Sultanov səhnə plastikası, texniki hərəkətləri obrazın psixoloji göstəriciləri ilə ahəngdar cazibədarlıqla birləşdirməsi, rəqslə sözün (geniş mənada hərəkətlə sözün, məsələn, "Rəqs müəllimində" Aldemaro rolu) vəhdəti baxımından örnək olub. Yaradıcılıq imkanlarının estetik xüsusiyyətləri baxımından realist aktyor məktəbi ənənələrinə daha uyğun idi.

## ƏLİ ZEYNALOV (4.4.1913-4.1.1988)

Romantik aktyor məktəbinin nümayəndəsi, pafoslu danışığı, zərif qiraətçilik qabiliyyəti, coşğun daxili ehtirası, qəhrəman sevgi rollarında cazibəli səhnə məlahəti Əli Zeynalovun çoxşaxəli yaradıcılığında həmişə seçilmişdir.

Əli Yusif oğlu Zeynalov 4 aprel 1913-cü ildə Salyanda müəllim ailəsində doğulub. Pedaqoji texnikumu qurtarıb. Ədəbiyyata və teatr sənətinə 1928-ci ildən maraq göstərib. Səhnəyə ilk dəfə Biləsuvar dram dərnəyində çıxıb. Təyinatını Bərdə rayonuna veriblər. Ancaq o, Bakıya qayıdıb və 1933-cü ildə Bakı Teatr Texnikumunu bitirib. Tələbəlik illərində Akademik Milli Dram Teatrının tamaşalarında kütləvi epizodlarda, sözsüz rollarda səhnəyə çıxıb. Az müddət Nuxa (hazırki Şəki) Dövlət Dram Teatrında, on bir il isə İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyorluq edib (1934-1945). 1945-ci ilin dekabrında Əli Zeynalov Bakıya gəlib və Milli Dram Teatrının qüvvətli aktyor truppasına işə götürülüb. 1975-ci ilə qədər bu sənət ocağında çalışmış, bəhrəli sənət yolu keçmiş aktyor fəxri təqaüdə çıxandan sonra televiziyanın bədii proqramlarında çıxışlar etmiş, klassik və çağdaş Azərbaycan şairlərinin şeirləri əsasında silsilə qiraət verilişləri hazırlamışdır.

Əli Yusif oğlu Zeynalov 30 aprel 1955-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 27 fevral 1964-cü ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

Vilyam Şekspirin "Antoni və Kleopatra" faciəsinə rejissor Tofiq Kazımovun verdiyi quruluşda Antonio rolunu yüksək ustalıqla ifa etdiyinə görə Əli Zeynalov 1964-cü ildə respublika Dövlət mükafatı laureatı adını alıb.

Uzun illər romantik səpkili rollarda çıxış edən aktyor, həmçinin xarakterik, lirik-psixoloji və hətta komik obrazlar da oynayıb. Bunlardan Florizel, Klavdi ("Qış nağılı" və "Hamlet", Vilyam Şekspir), Hilbert ("Mariya Tüdor", Viktor Hüqo), Protasov ("Canlı meyit", Lev Tolstoy), Əhməd Rza ("Qəribə adam", Nazim Hikmət), Əbu Übeyd və Elxan ("Od gəlini", Cəfər Cabbarlı), Keykavus, Şeyx Sənan ("Səyavuş" və "Şeyx Sənan", Hüseyn Cavid), Dövlət bəy, Bəhram ("Aydın" və "Solğun çiçəklər", Cəfər Cabbarlı), Seyran ("Namus", Aleksandr Şirvanzadə), Sanço ("Sevilya ulduzu", Lope de Vela), Yanar ("Sən yanmasan...", Nəbi Xəzri), Cəlal Qaşqay ("Alov", Mehdi Hüseyn), Rəşid ("Kəndçi qızı", Mirzə İbrahimov), Novikov ("Palata", Samuil Alyoşin), Süleyman bəy ("Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Nuri Gənc ("Türkiyədə", Nazim Hikmət), Uluq bəy ("Nüşabə", Abdulla Şaiq), Çingiz ("Eşq və intiqam", Süleyman Sani Axundov), Qacar, Doktor

Söhbət, Fərhad ("Vaqif", "Xanlar" və "Fərhad və Şirin", Səməd Vurğun), Süleyman ("Həyat", Mirzə İbrahimov), Soltanov ("Kimdir müqəssir?", Georgi Mdivani), Krivenko ("Qaliblər", Boris Çirskov), Oleq Koşevoy ("Gənc qvardiya", Aleksandr Fadeyev), Səlim, Həsənzadə ("İşıqlı yollar" və "Sən həmişə mənimləsən", İlyas Əfəndiyev), Yusif ("Nişanlı qız", Sabit Rəhman), Qədim bəy ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Raffale konti ("Çarəsiz dələduz", Raffaele Viviani), Rəşid Məğrur ("Küləklər", Sabit Rəhman) rolları daha bitkin və cazibəli olub.

Yaradıcılığı bilavasitə teatrla bağlı olan sənətkar Əli Zeynalov "Kölgələr sürünür" (İmamzadə), "Bir qalanın sirri" (Simnar xan), "Məhəbbət dastanı" ("Leyli və Məcnun". Şeyx Həşim), "Birisi gün gecə yarısı" (Şah), "Ömrün akkordları" (Həsən bəy Zərdabi) və sair bədii filmlərə çəkilib, bir sıra televiziya tamaşalarında oynayıb.

1974-cü il 6 dekabrda Əli Zeynalov Milli Dram Teatrında Hüseyn Cavidin "Knyaz" faciəsini tamaşaya hazırlayıb. Bu, onun ilk və son rejissor işi olub.

Əli Zeynalov 4 yanvar 1988-ci ildə Bakıda vəfat edib.

## ƏLƏSGƏR ƏLƏKBƏROV
## (26.3.1910-31.1.1963)

İyirminci əsr milli teatrımızın ən görkəmli simalarından, yaradıcılığının bədii-estetik keyfiyyətləri dünya səhnə sənətinin bəşəri meyarları ilə ölçülən dühalardan biri də Ələsgər Ələkbərovdur. Ələsgər Hacıağa oğlu 26 mart 1910-cu ildə Bakıda yoxsul tacir ailəsində doğulub. 1918-ci ildə Bakı realni məktəbində təhsilə başlayıb.

1920-ci ildə atası rəhmətə gedib və ailənin ağırlığı anası Zübeydə xanımın üzərinə düşüb. Elə həmin il Ələsgər təhsilini 9 saylı, üç il sonra isə işlədiyinə görə 23 saylı məktəblərdə davam etdirib.

Uşaqlıqdan şeirə, sənətə, xalq oyun-tamaşalarına maraq göstərən Ələsgər Ələkbərov 1924-cü ildə Əbilov adına klubun qüvvətli dram dərnəyinə üzv yazılıb. Dram həvəskarlarının yazdıqları və dərnəyin rəhbəri Mirabdulla Mirinskinin hazırladığı "Azad qadın", "Zavodda və evdə" səhnəciklərində komsomolçu və Məmiş rollarını oynayıb.

1926-cı ildə isə Rza Təhmasibin və İbrahim Azərinin rəhbərlik etdikləri kommunal klubunda Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" operettasında Məşədi İbad, Mirzə Cəlil Məmmədquluzadənin "Ölülər" tragkomediyasında Mirbağır ağa rollarında çıxış edib. Sabirdən şeirlər söyləyib. Həmin dərnəkdə İsmayıl Hidayətzadənin quruluşunda Hüseyn Cavidin "Şeyda" dramında Musa rolunda müəyyən uğur qazanıb. Elə buna görə İsmayıl Hidayətzadənin tövsiyəsi ilə Bakı Teatr Texnikumuna daxil olub.

Texnikumda təhsil aldığı illərdə (1927-1930) Ələsgərin əsas sənət müəllimi aktyor və rejissor, pedaqoq Mirseyfəddin Kirmanşahlı olub. Səhnə təhsili alan aktyor texnikuma daxil olandan az sonra Bakı Türk İşçi Teatrının yardım heyətinə götürülüb. Tələbə vaxtlarında bu teatrda xeyli rolda səhnəyə çıxıb. Kollektivdə istedadlı gənc kimi sevilən aktyor BTİT-də Hacı Baxşəli və Mirzə Həsən ("Ölülər", Cəlil Məmmədquluzadə), Birinci polismen ("Fahişə", Viktor Marqaretin romanı üzrə), İkinci bəhriyyə (Motros. "Hücum", Boris Lavrenyov), Andryan Andryanıç, Petrosyan ("Qızıl trenlər" və "Konstantin Teryoxin", Vladimir kirşon), Cancur Səməd ("Cancur Səməd", Jan Batist Molyer), Yaraşıq ("Zəlzələ", P.Romanovdan təbdil), Bedjerton ("Çin tanrısı", Fyodor Pavlov. "Tunc büt" də yazılıb), İkinci carçı ("Paris Notrdam kilsəsi" və ya "Müqəddəs Məryəm ana məbədi", Viktor Hüqo), Bortel ("Hind qızı", Əbdülhəq Hamid), Səlim ("İncə", Aleksandr Qlebovdan təbdil), Baba ("Qanlı səhra", tərcümə-təbdil) rollarını oynayıb.

İşgüzarlığı ilə seçilən Ələsgər Ələkbərov təhsilini tamamlayandan sonra kollektivin aktyor truppasına qəbul olunub. Rejissorlar ona həvəslə rol tapşırıblar. İki il ərzində Əhmədəli ("Yanğın", Süleyman Rüstəm və Hacıbaba Nəzərli), Müsavat əsgəri ("Yollar", Hacıbaba Nəzərli), Rəcəbov

("Gizli əl", Həbib İsmayılov və Əbdübağı Fövzi), Hacı Zəki ("Kölgə", Seyid Hüseyn) kimi xarakterik rollarda səhnəyə çıxıb.

Ələsgər Ələkbərov 1930-1931-ci illərdə İşçi Teatrında işləməklə yanaşı, Tiflis Dövlət Azərbaycan Dram Teatrına dəvət olunub. O, bu teatrda tamaşaya hazırlanmış Cəfər Cabbarlının "Od gəlini" (Aqşin), Hüseyn Cavidin "Knyaz" (Knyaz) faciələrinin, Aleksandr Şirvanzadənin "Namus" (Rüstəm) dramının tamaşalarında əsas rolları ifa edib.

1933-cü il yanvar ayının 4-də və 5-də Bakı Türk İşçi Teatrı dövlətin qərarı ilə Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncəyə köçürülüb. Orada yerli dram həvəskarlarının əsas qüvvələri ilə birləşərək Gəncə Dövlət Dram Teatrı kimi 1933-cü ilin martında ilk tamaşasını göstərib.

Ələsgər Ələkbərov qısa müddətdə Gəncə teatrında Rüstəm ("Namus"), Hüseyn Cavidin "Şeyx Sənan" faciəsinin tamaşasında Şeyx Hadi və Şeyx Mərvan rollarını oynayıb. Həmin il üzü payıza dönəndə aktyor Bakıya qayıdıb və Akademik Milli Dram Teatrının kollektivinə daxil olub.

Cəfər Cabbarlımn "Od gəlini" (Aqşin), "1905-ci ildə" (General-qubernator), Vilyam Şekspirin "Otello" (Rodriqo), Hüseyn Cavidin "Səyavuş" (Gərşivəz), Aleksandr Korneyçukun "Donanmanın məhvi" (Leytenant korn) tamaşalarındakı rolları ilə qısa müddətdə təcrübəli kollektivin ansamblına uyuşub.

Ələsgər Ələkbərovun yaradıcılığının geniş diapazonda , pardaxlanması, tezliklə teatrın aparıci aktyorlarının cərgəsinə çıxması rejissor-pedaqoq Ədil İsgəndərovun yaradıcılığı ilə sıx bağlıdır.

Moskvada dünya şöhrətli sənətkarlardan ali rejissor təhsili alan Ədil İsgəndərov 1935-ci ildə Akademik teatrda Aleksandr Korneyçukun "Platon Kreçet" əsərini "Polad qartal" adı ilə diplom işi kimi tamaşaya hazırlayıb. Premyerası 3 yanvar 1936-cı ildə göstərilən səhnə əsərində Ələsgər Ələkbərov əvvəl Nəsirov, sonra Polad rollarını oynayıb. Bununla da iki sənətkarın qüdrətli, çoxlu bəhrələr verən yaradıcılıq ittifaqlarının təməli qoyulub və bu sənət dostluğu 24 il davam edib.

Ədil İsgəndərovun quruluşunda Ələsgər Ələkbərov geniş diapazonlu rollar qalereyası yaradıb. Bu baxımdan aktyorun Nəsirov və Polad Qartal ("Polad Qartal", Aleksandr Korneyçuk), Akif və Süleyman ("Həyat", Mirzə İbrahimov), Vaqif, Xanlar və Fərhad ("Vaqif", "Xanlar", və "Fərhad və Şirin", Səməd Vurğun), Əbdək, Cavanşir ("Nizami" və "Cavanşir" Mehdi Hüseyn), Aydın, Salamov ("Aydın" və "1905-ci ildə", Cəfər Cabbarlı), Alxan ("Bahar suları", İlyas Əfəndiyev), Minnətov ("Vəfa", Rəsul Rza), Sultanov ("Yanar dərə", Cabbar Məcnunbəyov), Barxudar ("Namus", Aleksandr Şirvanzadə), Aparıcı-Müəllif ("Türkiyədə", Nazim Hikmət), Orconikidze ("Şərqin səhəri", Ənvər Məmmədxanlı), Otello ("Otello", Vilyam Şekspir) obrazları bədii-estetik cəhətdən daha məzmunludur.

Aktyorun Milli Dram Teatrında ən böyük sənət qələbələri Otello və Vaqif obrazlarıdır. O, Vaqif rolunda 500 dəfədən çox səhnəyə çıxıb. Vaqif surətində Akademik teatrda ayrı-ayrı illərdə Kazım Ziya, Rza Əfqanlı, Ağadadaş Qurbanov, İsmayıl Dağıstanlı, Həsənağa Salayev, Həsən Turabov, Səməndər Rzayev, Əliabbas Qədirov, Nurəddin Mehdixanlı (Quliyev) kimi aktyorlar uğurla çıxış etsələr də, birincilik və əvəzolunmazlıq sözsüz ki, Ələsgər Ələkbərovun adı ilə bağlıdır.

Ələsgər Ələkbərovun yaratdığı zəngin rollar qalereyasının formalaşmasında rejissorlardan İsmayıl Hidäyətzadənin, Aleksandr Tuqanovun, Rza Təhmasibin, Aleksey Qripiçin, Səftər Turabovun, Mehdi Məmmədovun, Ələsgər Şərifovun, Əliheydər Ələkbərovun, Tofiq Kazımovun quruluş verdikləri tamaşaların da böyük əhəmiyyəti olub. Aktyor onların hazırladıqları tamaşalarda faciə və dram rollarını ustalıqla ifa edib.

Aktyorun yüksək sənətkarlıqla oynadığı Elxan ("Od gəlini", Cəfər Cabbarlı), Əmiraslan bəy Salamov ("1905-ci ildə", Cəfər Cabbarlı), Murov ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Şah Zeyr ("Şahnamə", Mirzə Fətəli Axundzadənin "Aldanınış kəvakib" povestinin motivləri əsasında Cananın işləməsi), Qaçaq Nəbi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Kərəməli və Heydər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Vasili ("Lenin", Aleksey Kapler və Zlotoqorova),

Maqduf, Tibalt, Kral Lir ("Maqbet", "Romeo və Cülyetta" və "Kral Lir", Vilyam Şekspir), Yaqor ("Vətən namusu", Georgi Mdivani), Polkovnik Zorin ("Gizli döyüş", Tur qardaşları), İsgəndər ("Nüşabə", Abdulla Şaiq), Xlebnikov ("Şəxsi iş", Aleksandr Şteyn), Pərviz xan ("Köhnə dudman", Əbdürrəhim bəy Haqverdiyev), Qatır Məmməd ("Qatır Məmməd", Zeynal Xəlil), Şahbaz (ata) ("İnsan", Səməd Vurğun), Matvey Şulqa ("Gənc qvardiya", Aleksandr Fadeyev), Henrix ("Madrid", Mirzə İbrahimov), Əlimərdan ("Eşq və intiqam", Süleyman Sani Axundov), Proxor ("Vassa Jeleznova", Maksim Qorki), Fərhad Kamalov ("Alov", Mehdi Hüseyn) ayrı-ayrılıqda orijinal və məzmunlu yaradıcılıq nailiyyətləri kimi dəyərləndirilib. Fərhad Kamalov aktyorun səhnədə son roludur. Ələsgər Ələkbərovun çoxşaxəli yaradıcılığında ekran rolları xüsusi yer tutur. Kinoya çəkilməyə on yeddi yaşından başlayan aktyor ekranda Əhməd ("Vulkan üzərində ev"), Qurban ("Lətif"), Fuad ("Almaz"), Göydəmir ("Kəndlilər"), Aslanov ("Yeni horizont"), Fətəli xan ("Fətəli xan"), İsmayılzadə ("Qara daşlar"), Kazım dayı ("Ögey ana"), Ferrero ("Uzaq sahillərdə"), Sərdarlı ("Kölgələr sürünür"), Rəhim bəy ("Səhər"), Don Aqilla ("Varislər". "Leninfilm"), Şeyx Əmir ("Leyli və Məcnun"), Rüstəm kişi ("Böyük dayaq") rollarını yaradıb.

Tamaşaçıların aktyor kimi böyük ehtiram və sevgi bəslədikləri Ələsgər Ələkbərov həm də gözəl qiraət ustası idi.

O, altıncı çağırış SSRİ Ali Sovetinin deputatı olub.

Taleyini səhnəyə, aktyorluq sənətinə bağlamış Ələsgər Ələkbərov Azərbaycan Respublikasının əməkdar artisti (4 dekabr 1938), xalq artisti (4 may 1940) və SSRİ xalq artisti (2 fevral 1961) fəxri adlarına layiq görülüb.

Uşaqlıqda rəsm çəkməyə ciddi maraq göstərən Ələsgər Ələkbərov zövqlü rəssam idi. Onun sənət dostlarına çəkdiyi şarjlar səmimiyyəti və xarakterik cizgiləri ilə səciyyəvidir.

Bununla belə görkəmli sənət ustası Ələsgər Ələkbərov monumental səpkili tamaşalarda romantik vüsətli rolları böyük ustalıqla ifa etdiyi kimi, realist yönümlü səhnə əsərlərində həyati obrazları coşğun məharətlə oynayırdı. "Hacı Qara"dakı Kərəməli kimi xarakterik rollarda isə yapışıqlı, duzlu və ürəkoxşayan idi.

Ələsgər Ələkbərov gur, aydın diksiyalı səsindən tamaşalarda obrazın düşdüyü vəziyyətlərin xarakterik mahiyyətinə uyğun tərzdə, məharətlə istifadə edə bilirdi.

Ələsgər Ələkbərov səhnə hərəkətlərinin plastikasındakı yumşaqlıq, zəriflik aktyor ifasına bütövlük gətirir, oyun tərzinə monumentallıq verirdi.

Ələsgər Ələkbərov sifət ifadələri, mimika cizgiləri əlvan olduğu qədər də mənalı, dəqiq, sərrast ünvanlı idi.

Ələsgər Ələkbərovun qəhrəman rollarında məhrəmlik, ağayanalıq və dolğun məzmunlu vüqar vardı. Aktyorun əlvan və çoxçalarlı romantik boyaları həyat nəfəsli idi.

Ələsgər Ələkbərov 1963-cü il yanvar ayının 31-də teatrda "Səyavuş" tamaşasının məşqində olub. Axşam isə qəfildən ürəyi dayanıb.

Qüdrətli aktyor Bakıda Fəxri xiyabanda torpağa tapşırılıb.

## MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1935-1985)

### Birinci dərs

Milli Dram Teatrının monumental üslubu Ədil İsgəndərovun baş rejissorluğu dövründə romantik və realist teatr məktəbləri zəminində sürətlə formalaşmağa başlayıb. Özünün fundamental forma-məzmun konsepsiyasını və rejissor estetikasını hazırladığı tamaşalar vasitəsilə bəyan etmiş Ədil İsgəndərovun teatr poetikasına uyğun aktyorlar da yetişiblər. Hətta fərdi üslublarında qeyri-müəyyənlik olan istedadlı gənclər tədricən teatrın ümumi yaradıcılıq prinsiplərinə uyğunlaşıblar. Truppanı zənginləşdirmək üçün yeni aktyor qəbulu məhz "Ədil İsgəndərov teatrı"nın prinsiplərinə uyğun şəkildə aparılıb.

* * *

### MƏMMƏDRZA ŞEYXZAMANOV (4.8.1915-21.1.1984)

Dramatik psixoloji, qəhrəman və güclü komizmi olan obrazları oynamağı daha çox xoşlayan Məmmədrza İsa oğlu Şeyxzamanov 4 avqust 1915-ci ildə Gəncədə doğulub. Gəncə Dövlət Dram Teatrının nəzdindəki aktyor studiyasında oxuyub (1934 - 1936). Oxuya-oxuya yardımçı heyətin tərkibində teatrın tamaşalarında iştirak edib.

1954-cü ilədək Gəncə teatrında aktyorluq etmiş Məmmədrza Şeyxzamanovun burada ən yaxşı rolları Səməd Vurğunun "Vaqif"ində Eldar, Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Vilyam Şekspirin "Otello", Mixail Lermontovun "İki qardaş" faciələrində Nəcəf bəy, Otello, Yuri, Sabit Rəhmanın "Nişanlı qız" və "Xoşbəxtlər" komediyalarında Mindilli və Bərbərzadə, Cəfər Cabbarlının "Aydın" və "Yaşar" əsərlərinin tamaşasında Aydın və İmamyar obrazları sayılır.

Məmmədrza Şeyxzamanov 1954-cü ilin ortalarında Gəncədən Bakıya gəlib və Akademik Milli Dram Teatrının aktyor truppasına daxil olub. Aktyorun yaradıcılığını yığcam şəkildə faciə obrazları, dramatik personajlar və komediya surətləri bölümü ilə üç qismə ayırmaq olar.

**Faciə rolları**: Poliksen, Enobarb, Poloni, Kral Alonso ("Qış nağılı", "Antoni və Kleopatra", "Hamlet" və "Fırtına", Vilyam Şekspir), Talbot ("Orlean qızı", Fridrix Şiller), Rüstəm, Müfti, Şeyx Mərvan ("Səyavuş", "Xəyyam" və "Şeyx Sənan", Hüseyn Cavid), Altunbay ("Od gəlini", Cəfər Cabbarlı), Qılınc ("Cavanşir", Mehdi Hüseyn) , Xosrov, Qacar ("Xosrov və Şirin" və "Vaqif", Səməd Vurğun), Coşua ("Mariya Tüdor", Viktor Hüqo).

Dramatik rollara Cəfər Cabbarlının "Almaz" (Hacı Əhməd), Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Nəbi), Cəlil Məmmədquluzadənin "Ölülər" (Hacı Həsən ağa), Mehdi Hüseynin "Alov" (Kərim Rəhimli), Çingiz Aytmatovun "Ana torpağı" (Suvangil), İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" (Həsənalı), Pavel Malyarevskinin "Daş qartal" (Nikita), Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər" (Maksuel), Əkrəm Əylislinin "Quşu uçan budaqlar" (Səltənətin atası), Taufiq əl Hakiminin "Karıxmış sultan" (Vəzir), Yucin O'Nilin "Qızıl" (İsay Bartlet), Nodar Dumbadzenin "Darıxma, ana!" (Çxartaşvili) pyeslərinin tamaşalarında ifa etdiyi personajlar daxildir.

İslam Səfərlinin "Göz həkimi" (Şahbazov), Sabit Rəhmanın "Küləklər" (İmanqulu), "Xoşbəxtlər" (Bərbərzadə) və "Yalan" (Saleh), Raffaele Vivianinin "Çarəsiz dələduz" (Don Qateno), Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" (Nəcəfül Əşrəf), Aleksandr Vampilovun "Övlad" (Sarafanov), İlyas Əfəndiyevin "Qəribə oğlan" (Barsuq), Akop Paronyanın "Badasar dayı" (Bağdasar) komediyalarında maraqlı səhnə surətləri yaradıb.

Məmmədrza Şeyxzamanov "Qızmar günəş altında" (Əmir dayı), "Bir qalanın sirri" (Həkimbaşı), "Bəxtiyar" (Professor), "Əhməd haradadır?" (Şirin), "Tütək səsi" (İsfəndiyar kişi) kinolentlərinə və digər filmlərə çəkilib.

Aktyorluq sənətindəki nailiyyətlərinə görə Məmmədrza Şeyxzamanov 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 iyun 1974-cü ildə isə xalq artisti fəxri adları ilə təltif olunub. Hüseyn Cavidin "İblis" faciəsindəki İxtiyar roluna görə 1984-cü ildə (ölümündən sonra) Dövlət mükafatı ilə təltif edilib.

Aktyor 21 yanvar 1984-cü ildə Bakıda vəfat edib.

Məmmədrza Şeyxzamanov yeri gələndə realist səhnə obrazlarını romantik vüsətlə oynayırdı. Aktyorun çox xarakterik "məxməri" səsi vardı. O, bu səsin ən incə çalarlarından həssaslıqla istifadə edərək oynadığı obrazlara xarakter cizgiləri verirdi.

Aktyorluq qabiliyyətinin öz təravəti, oyun üslubunun öz hüsnü, istedadının öz təsir dairəsi vardı.

## MƏHLUQƏ SADIQOVA (28.4.1917-15.8.2003)

Üslub və forma, məzmun və mahiyyət, estetik dəyər və psixoloji tutum baxımından bütün janrlarda hazırlanmış tamaşalarda iştirak edib. Lakin əsas uğurlarını daha çox xarakterik səhnə surətlərinin ifasında qazanıb. Aydın və səlist diksiyası, ifadəli səhnə danışığı aktrisanın oynadığı rollara dolğunluq və bütövlük gətirib.

Məhluqə Ələsgər qızı Sadıqova 28 aprel 1917-ci ildə Şuşa şəhərində doğulub. Beş il buradakı 1 saylı qız məktəbində oxuyub. 1930-cu ildə ailəsi Bakıya köçüb və Məhluqə xanım 6 saylı Sovet məktəbində yeddinci sinifi bitirib. O, 1936-cı ildə Bakı Tibb Texnikumunun diş texniki fakültəsini qurtarıb. Tibb təhsili alanda rəqs və dram dərnəklərində məşğul olub. Məhluqə Sadıqova 1936-cı il sentyabr ayının 27-də Akademik Milli Dram Teatrının truppasına götürülüb. Aktrisa 54 il bu teatrda çalışıb. 1992-ci ildə yenicə yaradılan Bakı Bələdiyyə Teatrında aktrisalıq edib. Qırx ildən çox radionun "Bulaq" folklor-etnoqrafik verilişinin əvəzsiz ifaçılarından biri olub.

Öz oyununda xarakterik ifadə vasitələrinə üstünlük verən Məhluqə Sadıqova AMDT-də Nadya, Pəri, Yaxşı, Gülüş, Turac, Sona ("Oqtay Eloğlu", "Solğun çiçəklər", "Almaz", "Sevil", "Dönüş" və "1905-ci ildə", Cəfər Cabbarlı), Süd ("Göy quş", Moris Meterlink), Qiasinta ("Skapenin kəİəkləri", Jan Batist Molyer), Sayad, Səlimə, Şamama cadu və Zərnigar ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Hərəmxana qarısı, Fitnə, Mehriban ("Vaqif", "Fərhad və Şirin" və "Xanlar", Səməd Vurğun), Qalçixa və Anuşka ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Zəhra ("Şeyx Sənan", Hüseyn Cavid), Paulina ("Qış nağılı", Vilyam Şekspir), Sofiya ("Vanya dayı", Anton Çexov), Missis Daycen ("Şeytanın şagirdi", Bernard Şou), Nata xanım ("Nazirin xanımı", Branislav Nuşiç), Pəri xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Dolores ("Qadın faciəsi", Federiko Qarsiya Lorka), Güllü xala ("Yalan", Sabit Rəhman), Zabitə ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), Ana ("Şöhrət və ya unudulan adam", Nazim Hikmət), Sofiya ("Daş qartal", Pavel Malyarevski), Klavdiya Vasilyevna ("Şadlıq sorağında", Viktor Rozov) rollarını ifa edib.

Məhluqə Sadıqova 21 iyul 1949-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti və 10 yanvar 1980-ci ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Aktrisa 2000-ci il avqust ayının 15-də Bakıda vəfat edib.

## SOFİYA BƏSİRZADƏ (28.2.1918 - 4.1.2000)

Əsil soyadı Vəzirovadır. Atasının nəsil şəcərəsinə görə səhnəyə ilk addımlarından tamaşaçılar arasında "Bəsirzadə" kimi tanınıb. Bəzi proqram və afişalarda adı "Sofa" kimi də yazılıb. Teatr kollektivində də ona "Sofa xanım" deyə müraciət ediblər.

Səhnədə bir-iki cümləsi olan personajlar da ifa edib, xarakterik dramatik obrazlar da oynayıb, sevgili qəhrəmanlar obrazlarında da bacarığını sınayıb. Bu surətlərin dramatiki də olub, faciəvi ruhlusu da. Qroteskli satiriki də olub, məsxərəvari yumorlusu da. Əsas cəhət odur ki, aktrisanın daxili imkanlarının zənginliyi müxtəlif səpkili rolların ifası üçün yararlı idi. Teatr səhnəsində 62 ildən çox çalışıb. Səhnə görkəminin təravəti həmişə göz oxşayıb, çevik plastikası heyranlıq doğurub.

Sofiya Bəsir qızı Bəsirzadə (Vəzirova) 28 fevral 1918-ci ildə Kazan quberniyasının köhnə Çukan kəndində doğulub. İki yaşında olanda ailəsi Bakıya köçüb və Sofiya xanım azəri türkcəsini mükəmməl öyrənib. Bakıdakı 3 saylı beynəlmiləl məktəbdə ibtidai təhsil alıb. Sonra 134 saylı məktəbdə orta təhsilə yiyələnib. Yuxarı siniflərdə oxuyanda dram dərnəyinə üzv olub. 1936-cı ildə Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbinə daxil olub. Həmin ilin noyabrından başlayaraq AMDT-nin tamaşalarında kütləvi səhnələrdə, epizod rollarda səhnəyə çıxıb. Üçüncü kursda, 1 sentyabr 1938-ci ildə tələbə-aktrisa AMDT-nin aktyor truppasına qəbul edilib.

Yüzdən çox obrazın ifasında səhnəyə çıxan Sofiya Bəsirzadənin Nisə xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Sevər, Gülgün, Tanya, Gülsabah, Gülnisə ("Oqtay Eloğlu", "Od gəlini", "Yaşar", "Dönüş" və "Solğuri çiçəklər", Cəfər Cabbarlı), Nina, Rübabə ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Məryəm, Tamara, Tatyana ("Fərhad və Şirin", "Vaqif" və "İnsan", Səməd Vurğun), Səadət ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Xanın qızı, Pəri cadu ("Köhnə dudman" və "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Tərlan xanım ("Yalan", Sabit Rəhman), Qlumova ("Müdriklər", Aleksandr Ostrovski), Toni xala ("Füsunkar qız", Mikolaş Dyarfaş), Anna Dmitriyevna ("Canlı meyit", Lev Tolstoy), Fedra ("Dəlilər", Lope de Veqa), Səadət xanım ("Unuda bilmirəm", İlyas Əfəndiyev), Nihal ("Qəribə adam", Nazim Hikmət), Aliyə ("Təhminə və Zaur", Anar), Mariya Xosefa ("Dişi canavar", Federiko Qarsiya Lorka), Dayə ("Medeya", Jan Anuy), Aybəniz ("Cavanşir", Mehdi Hüseyn), Peyanira ("Mehmanxana sahibəsi", Karlo Haldoni), Esrelya ("Sevilya ulduzu", Lope de Veqa), Nataliya ("Vassa Jeleznova", Maksim Qorki), Mariya Antonovna ("Müfəttiş", Nikolay Qoqol) rolları ifadə vasitələrinin zənginliyi baxımından seçilirlər.

Sofiya Bəsirzadə ondan artıq bədii filmə çəkilib. 30 aprel 1955-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti və 1 iyun 1974-cü ildə xalq artisti fəxri adı ilə təltiflənib.

Aktrisa 4 yanvar 2000-ci ildə Bakıda vəfat edib.

## LEYLA BƏDİRBƏYLİ (8.1.1920-23.11.1999)

Teatr tariximizdə gözəlliyi, səhnə məlahəti həmişə yüksək qiymətləndirilən Leyla Ağalar qızı Bədirbəyli (Cavanşirova) əslən Şəmkirli olsa da, 8 yanvar 1920-ci ildə Bakıda doğulub. Bəzi mənbələrdə doğum tarixi 1923-cü il göstərib. Leyla xanım Bakıda 3 saylı Beynəlmiləl məktəbdə oxuyandan dram dərnəyinin iştirakçısı olub. On dörd yaşından Azərbaycan Dövlət Filarmoniyasının rəqs ansamblına üzv olub. Orta məktəbdə oxuya-oxuya rəqqasəlik edib, daha sonra Mahnı və Rəqs Ansamblında solist işləyib. 1942-ci ildə "Səbuhi" filmində Tubu xanım roluna çəkilib.

16 oktyabr 1942-ci ildən teatrın baş rejissoru Ədil İsgəndərovun çağırışı ilə Milli Dram Teatrına aktrisa götürülüb. 1975-ci ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm"in nəzdində yaradılan kino Aktyorları Teatrının bədii rəhbəri və aktrisası işləyib. Burada Qarsiya Lorkanın "Qanlı toy", Məmməd Muradın "Təkan" dramları və sair pyeslər tamaşaya hazırlanıb.

Leyla Bədirbəyli 1994-cü il mart ayının 3-də yenidən Milli Dram Teatrına gəlib və 1998-ci ildə öz ərizəsi ilə təqaüdə çrxıb.

Leyla xanım Milli Dram Teatrında yaradıcılığa Mirzə İbrahimovun "Həyat" dramının tamaşasında Zəhra rolu ilə başlayıb. Tezliklə əsas rolların ifaçısına çevrilən aktrisa Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Dilrüba), Əbdürrəhin bəy Haqverdiyevin "Pəri cadu" (Pəri), "Köhnə dudman" (Gül sənəm), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Dilarə), İlyas Əfəndiyevin "İşıqlı yollar" (Lalə), "Atayevlər ailəsi" (Mehrican), "Mənim günahım" (Nurcahan), "Mahnı dağlarda qaldı" (Fəxrəndə), Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq yağmura düşdük" ("Hacı Qəmbər". Cəvahir), Süleyman Sani Axundovun "Eşq və intiqam" (Qəmər), Sabit Rəhmanın "Toy" (Zinyət), "Xoşbəxtlər" (İnci), "Əliqulu evlənir" (Qumral) "Yalan" (Şəlalə), Mirzə İbrahimovun "Yaxşı adam" (Zəhra) "Kəndçi qızı" (Göyərçin), Hüseyn Cavidin "Şeyx Sənan" (Zəhra), İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (Anjelika), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (Əntiqə), Mehdi Hüseynin "Alov" (Rəfiqə), Bəxtiyar Vahabzadənin "İkinci səs" (Həyat), Cəfər Cabbarlının "Almaz" (Almaz), "Solğun çiçəklər" (Sara), "Oqtay Eloğlu" (Firəngiz), "Od gəlini" (Solmaz), "Dönüş" (Gülsabah), Səməd Vurğunun "Vaqif" (Gülnar və Xuraman), "Xanlar" (Mehriban), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Nisə xanım), Vilyam Şekspirin "On ikinci gecə" (Oliviya), "Otello" (Dezdemona), "Qış nağılı" (Perdita), Bernard Şounun "Şeytanın şagirdi" (Cudit), Lev Tolstoyun "Canlı meyit" (Luiza) pyeslərinin tamaşalarında iştirak edib.

Leyla Bədirbəyli bədii filmlərdən "Arşın mal alan"da Gülçöhrə, "Fətəli xan"da Tuti Bikə, "Koroğlu"da Nigar, "Onun böyük ürəyi"ndə Xalidə, "Görüş"də Bilqeyis, "Kölgələr sürünür"də Leyla, "Dəli Kür"də Zərnigar, "Dərviş Parisi dağıdır"da Şəhrəbanu xanım rollarına və sairə ekran obrazlarına çəkilib.

Leyla xanım 1946-cı ildə "Arşın mal alan" filmindəki Gülçöhrə roluna görə Stalin mükafatı, 1972-ci ildə isə "Mahnı dağlarda qaldı" tamaşasında oynadığı Fəxrəndə xanım obrazına görə Azərbaycan Respublikasının Dövlət mükafatı ilə təltif olunub. 21 iyul 1949-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 10 iyun 1959-cu ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

Leyla Bədirbəyli dramatik aktrisadır. Müxtəlif janrlı tamaşalarda çıxış etsə də, oynadığı obrazın bədii tutumunu dramatik zəmində kökləyib. İfasında sadə və əsasən, realist boyalara üstünlük verib. Səhnədə ciddi, bir qədər romantik, bəzən melodramatik obrazları oynamaqda daha səriştəli idi.

Leyla Bədirbəyli 1999-cu il noyabrın 23-də vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub.

## MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1935-1985)

### İkinci dərs

### AGADADAŞ QURBANOV (8.3.1911- 25.6.1965)

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının banilərindən biri, həm faciə, həm dram, həm də komediya janrlı tamaşaların ifaçısı Ağadadaş Gülməmməd oğlu Qurbanov 8 mart 1911-ci ildə Bakıda doğulub. 1927-ci il martın 15-də "Dənizçilər klubu"nda Lətif Kərimlinin "Fırtına" pyesinin tamaşası oynanılıb. Bu tamaşanı, başda Ağadadaş Qurbanov olmaqla, talelərini teatra bağlayan məktəblilər hazırlamışdılar. Bununla da Bakıda Fəhlə Uşaqlar Teatrının (sonralar Gənc Tamaşaçılar Teatrı adlandırıldı) bünövrəsi qoyulub.

Ağadadaş Qurbanov həmin vaxtdan 1952-ciilədək bu teatrda işləyib və qısa müddətdə kollektivin əsas qüvvələrindən Diri olub. Aktyor Gənc Tamaşaçılar Teatrında böyüklər üçün nəzərdə tutulan Cəfər Cabbarlının "Aydın" (Aydın), Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (Molla İbrahimxəlil), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Hacı Qəmbər), Fridrix

Şillerin "Qaçaqlar" (Karl Moor), Nikolay Qoqolun "Müfəttiş" (Xlestakov), Rabindranat Taqorun "Qaneşin yolu" hekayəsi əsasında "Əfilər" (Qaneş) pyeslərinin tamaşalarında iştirak edib.

Ağadadaş Qurbanov 1952-ci ildən ömrünün sonunadək Milli Dram Teatrında işləyib. O, bu teatrda Mirzə Səməndər, Əbu Übeyd, Ötgün ("Almaz", "Od gəlini" və "Dönüş", Cəfər Cabbarlı), Şeyx Mərvan və Şeyx Sənan, Səyavuş ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Kamillo ("Qış nağılı", Vilyam Şekspir), İbrahim xan və Vaqif ("Vaqif", Səməd Vurğun), Şults ("Uzaq sahillərdə", İmran Qasımov və Həsən Seyidbəyli), İvanov ("Göz həkimi", İslam Səfərli), Dəmirçi Musa ("Toy", Sabit Rəhman), Yəhudi ("Mariya Tüdor", Viktor Hüqo), Kamal ("Məhəbbətin hökmü", Cabbar Məcnunbəyov), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Tağı Hüseyn ("Köç", Cavad Fəhmi Başqut), Allan ("Ailə namusu", Hüseyn Muxtarov), Gülcamal ("Yaxşı adam", Mirzə İbrahimov), Professor Mudrov ("Şirvan gözəli", Ənvər Məmmədxanlı), Akif ("Həyat", Mirzə İbrahimov), Əşrəf bəy ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov) kimi parlaq və yaddaqalan rollarda çıxış edib.

"Səbuhi", "Koroğlu", "Bir qalanın sirri", "Kölgələr sürünür" filmlərinə çəkilib. "Arşın mal alan" filmində Soltan bəy roluna çəkilən aktyor kinolentinin tamamlandığı ərəfədə Salyanda qastrolda idi. Mehmanxananın eyvanına çıxanda qəfildən eyvan uçub və sənətkar 25 iyun 1965-ci ildə faciəli şəkildə həlak olub. Bakıda Fəxri xiyabanda dəfn olunub.

17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar, 27 fevral 1954-cü ildə xalq artisti fəxri adlarına layiq görülüb.

## ƏLIAGA AĞAYEV (22.3.1913-3.11.1983)

Azərbaycan komediya aktyorluğunun parlaq simalarından olan, səhnəyə hər tamaşada ilk gəlişindən milli teatr tariximizdə bir kimsədə görünməmiş duzlu, cəlbedici və qeyri-adi səsi ilə tamaşaçıları ovsunlayan Əliağa İsmayıl oğlu Ağayev 22 mart 1913-cü ildə Bakıda doğulub. Erkən yaşlarından atasını itirib. 1930-cu ildə yeddinci sinifi bitirərək Paris kommunası adına gəmi təmiri zavodu nəzdindəki sənət məktəbində oxuyub. İki il sonra oranı bitirərək zavodun özündə gəmi çilingəri işləyib.

Bəm və şirin zümzüməli səslə işdə də dodaqaltı oxuyan Əliağa zavodun dram dərnəyinə yazılıb. İlk rolu Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasında Hacı Qaradır. Əliağa Ağayev 1936-cı ildə Gənc Tamaşaçılar Teatrının (əvvəlki adı Fəhlə Uşaqlar Teatrı idi) kollektivinə daxil olub. Peşəkar teatrda səhnəyə ilk dəfə Jül Vernin "Kapitan Qrantın uşaqları" dramının tamaşasında Dlk rolunda çıxıb.

Qısa müddətdə fitri istedadı ilə teatrın yaradıcılıq iqlimini mənimsəyən Əliağa Ağayevə tədricən repertuarın əksər tamaşalarında rollar tapşırılıb. Aktyor GTT-də müasir dramaturqların əsərlərində, klassik milli və tərcümə əsərlərində koloritli silsilə rollar yaradıb.

Müxtəlif çeşidli rolları, xüsusən "O olmasın, bu olsun" bədii filmindəki Məşədi İbad obrazı ilə respublikadan kənarda da şöhrətlənən Əliağa Ağayev 1961-ci ilin payızında Akademik Milli Dram Teatrının kollektivinə qəbul olunub. Bu teatrda ilk orijinal rolu Şıxəli Qurbanovun "Əcəb işə düşdük" komediyasında (2 dekabr 1961) Abış Surxayeviç obrazıdır.

İyirmi iki il Akademik teatrda işləyən sənətkar bu səhnədə Vasin ("Tanya", Aleksey Arbuzov), Allanəzər ("Kimdir müqəssir?", Hüseyn Muxtarov), Qulaməli, Alışov, Nağı ("Közərən ocaqlar", "Kəndçi qızı" və "Yaxşı adam", Mirzə İbrahimov), Birinci məzarçı, Stefano ("Hamlet" və "Fırtına", Vilyam Şekspir), Rista Podoroviç ("Nazirin xanımı", Branislav Nuşiç), Pişta Orbek ("Füsunkar qız", Mikolaş Dyarfaş), Keşiş Bazilo ("Bu qadın mənimdir", Raymonda Juniyor), Çakan Yemelyan ("Daşqın", Anatoli Safronov), Anatoli Novoseltsov ("Sevgi... sevgi...", Emil Braginski və Eldar Ryazanov), Miçiç Kotryans ("Xanuma", Avksenti Saqareli), Rüstəm Zaloviç, Ağadayı ("Kölgələr pıçıldaşır" və "Mənziliniz mübarək!", Seyfəddin Dağlı), Səfər ("Söz yarası", Qeybulla

Rəsulov), Sərxan ("Görünməmiş toy", Arkadi Arkanov və Qriqori Qorin), Divanbəyi, Kərəməli ("Xırs quldurbasan" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Tosun ("Səyavuş", Hüseyn Cavid), Nəsir bəy, Aslan, Bərbərzadə, Kərəmov, ("Küləklər", "Yalan", "Xoşbəxtlər" və "Toy", Sabit Rəhman), Vəzir ("Karıxmış Sultan", Taufiq əl Hakimi), Hacı Əbdüləzim ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Mirzə Səməndər, Babakişi ("Almaz" və "Sevil", Cəfər Cabbarlı), Osman ("Bağ qonşuları", Hay Vahid), İbiş İbişli ("Adamın adamı", Anar) ... rollarında çıxış edib.

Əliağa Ağayev kinoda Məşədi İbaddan əlavə Xan ("Sehrli xalat"), Şıxəli ("Görüş") kimi irihəcmli rollarla yanaşı, "Əhməd haradadır?" (Kassir), "Qanun naminə" ("Mehman". Anbardar), "Bir məhəlləli iki oğlan" (Feyzi), "İstintaq davam edir" (Kişi) və digər filmlərdə yaddaqalan epizod surətlərə də çəkilib.

Televiziyanın fondunda aktyorun iştirak etdiyi tamaşaların və satirik səhnəciklərin lentləri saxlanır.

Həmişə populyar və sevilən aktyor olmuş Əliağa Ağayev 17 iyun 1943-cü ildə respublikanın əməkdar artisti, 27 fevral 1954-cü ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Səhnə görkəmicə ağır olan Əliağa Ağayev obrazın ifasında çox sərbəst, hərəkətlərində çevik, danışığında duzlu və məzəli idi. Yaradıcı aktyor obrazın xarakterini ilk əvvəl danışıqda tapır, sonra onun bədii məzmununa uyğun formanı dəqiqləşdirirdi.

Əliağa Ağayev ilk növbədə komik xarakter aktyoru idi və buna görə də komizmi zahiri əlamətlərdə deyil, surətin təbiətində, daxili varlığında, düşüncə tərzində canlandırmağa üstünlük verirdi. Həm zahiri əlamətlər cəhətdən, həm də daxilən rolun ifasında istifadə etdiyi vasitələrin məntiqi ahəngdarlığına çalışırdı.

Həyatda da şuxluğu xoşlayan Əliağa Ağayev 3 noyabr 1983-cü ildə pərəstişkarları və dostları ilə süfrə arxasında lətifə söyləyib güldüyü yerdəcə gözlərini əbədi qapayıb.

## NƏCİBƏ MƏLİKOVA (25.10.1921-6.7.1992)

İlk əvvəl kino aktrisası kimi şöhrətlənmiş, yaradıcılığının əsas qolu teatr sənəti ilə bağlı olan Nəcibə Haşım qızı Məlikova 25 oktyabr 1921-ci ildə Bakının Buzovna kəndində doğulub. İlk təhsilini kənddə və Bakıda alıb. Bakı Teatr Məktəbində xalq artisti Fatma Qədrinin sinifini bitirib (1940-1943). Öz istəyi ilə Gəncə Dövlət Dram Teatrında işləməyə gedib. Burada bir neçə tamaşada çıxış edərək Bakıya gəlib və təzəcə təşkil olunmuş Azərbaycan Dövlət Teatr İnstitutuna daxil olub. 1951-ci ildə ali məktəbi bitirib. Texnikumda təhsil aldığı illərdə Milli Dram Teatrının tamaşalarında epizodlar oynayan aktrisa 1952-ci ildən (kinolara çəkilişlə bağlı kiçik fasilələrlə) yenə bu teatrda işləyib.

Nəcibə Məlikova klassik və çağdaş Azərbaycan dramaturqlarının, dünya ədiblərinin, əsasən, dram əsərlərində və bir qədər də komediyalarında rollar oynayıb. Hüseyn Cavidin "Şeyx Sənan" (Xumar), "Səyavuş" (Firəngiz), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Şamama cadu), Cəfər Cabbarlının" "Aydın" (Böyükxanım), "1905-ci ildə" (Sona), "Sevil" (Edilya), Mirzə İbrahimovun "Həyat" (Atlas), İlyas Əfəndiyevin "Büllur sarayda" (Qönçə), "Qəribə oğlan" (Məlahət), Nəbi Xəzrinin "Əks-səda" (Zərifə), "Mirzə Şəfi Vazeh" (Zübeydə), Səməd Vurğunun "Vaqif" (Xuraman), Maqsud İbrahimbəyovun "Kərgədan buynuzu" (Diləfruz), Sabit Rəhmanın "Əliqulu evlənir" (Yasəmən), "Küləklər" (Firuzə), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (Məlahət), Mirzə İbrahimovun "Kəndçi qızı" (Ayxanım), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (Şölə xanım və Ziba xanım), "Müsyö Jordan və dərviş Məstəli şah" (Şəhrəbanı), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (Oqudalova), Hüseyn Muxtarovun "Kimdir müqəssir?" (Korinkina), Maksim Qorkinin "Zikovlar" (Sofiya İvanovna), Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (Həklrnin arvadı), "Türkiyədə" (Nazir qızı), Karlo Haldoninin "Məzəli hadisə" (Marianna), Aleksandr

Şirvanzadənin "Namus" (Süsənbər), Fridrix Şillerin "Orlean qızı" (Aqnessa), Lope de Veqanın "Sevilya ulduzu" (Estrelya) pyeslərinin tamaşalarında çıxış edib.

Nəcibə xanım kinoda uğurlu rollar yaradıb. Onların arasında "Ögey ana"da Dilarə, "Aygün"də Aygün, "Arşın mal alan"da Cahan xala, "Əhməd haradadır?"da Nərgiz xala rollarının ifası aktrisanın yaradıcılıq nailiyyətləri kimi dəyərlidir.

Nəcibə Məlikova məlahətli, emosional, lirik-dramatik aktrisa idi. Mənən saf qəlbli qəhrəmanları, məhəbbət yolunda mürəkkəb vəziyyətlərdə gücsüz görünüb kövrələn, ancaq xeyirxah insanların köməyi ilə mətanətini qoruyub saxlayan personajları uğurla oynayırdı. Aktrisanın yumorunda da həzin və kövrək lirizm üstünlük təşkil edirdi.

Nəcibə Məlikova 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 iyun 1974-cü ildə xalq artisti fəxri adlarını alıb.

Bakıda 6 iyul 1992-ci ildə vəfat edən Nəcibə Məlikova ikinci Fəxri xiyabanda dəfn olunub.

## MƏLİK DADAŞOV (7.6.1924 - 3.12.1996)

Yaradıcılıq yönümü xarakter rollarında formalaşan, dramatik və satirik obrazları da oynamaqda böyük səriştəsi olan Məlik Yusif oğlu Dadaşov 7 iyun 1924-cü ildə Bakıda doğulub. Asəf Zeynalh adına musiqi məktəbində təhsil alıb. 1941- 1945-ci illərdə Böyük Vətən müharibəsində vuruşub.

Ordudan qayıtdıqdan sonra rejissor Məhərrəm Haşımovun çağırışı ilə Gənc Tamaşaçılar Teatrına aktyor götürülüb. Az sonra Zaqatala Dövlət Dram Teatrında, 1946-cı ilin mayında Şəmkir Dövlət Dram Teatrında işləyib və bir il sonra Bakıya qayıdaraq Azərbaycan Dövlət Teatr İnstitutuna, Ədil Isgəndərovun rəhbərlik etdiyi aktyorluq kursuna qəbul olunub.

Məlik Dadaşov 1950-ci il oktyabrın 30-dan Milli Dram Teatrında işləyib. Arada teatrdan çıxaraq institutda müəllim və Rus Dram Teatrında direktor və bədii rəhbər (1989-1991) işləyib və sonra yenə Akademik teatra qayıdıb. Həmçinin İnstitutda aktyor sənətindən dərs deyirdi. Tədris Teatrında tələbələrlə məşq zamanı səhnədə yıxılıb başından ağır yara alan Məlik Dadaşov üç gün sonra, 3 dekabr 1996-cı ildə dünyasını dəyişdi. Məzarı Bakıda ikinci Fəxri xiyabandadır.

Milli Dram Teatrının səhnəsində Səməd Vurğunun "Fərhad və Şirin" (Bizans sərkərdəsi, Şiruyə və Şapur), "Vaqif" (Kürd Musa və Qacar), Cəfər Cabbarlının "Od gəlini" (Aqşin və Elxan), Mirzə İbrahimovun "Közərən ocaqlar" (Mazar bəy və Nəriman Nərimanov), Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (Aslan), Şıxəli Qurbanovun "Sənsiz" (Tərlan), Hüseyn Muxtarovun "Ailə namusu" ("Allanın ailəsi". Arif), İmran Qasımovun "Nağıl başlananda" (Qurban), Əkrəm Əylislinin "Yastı təpə" (Manafov), İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (Ziyad Şahsuvarov), Rüstəm İbrahimbəyovun "İstintaq" (Kamera qonşusu), Nəbi Xəzrinin "Mənsiz dünya" (Bodenştedt), Raço Stoyanovun "Qısqanc ürəklər" (Şiveko), Nazim Hikmətin "Türkiyədə" (Bəkir), Aleksey Ostrovskinin "Cehizsiz qız" (Paratov), Aleksİs Parnisin "Gözıllik və sevgi adası" ("Afrodita adası". Ralf Ounes), Leonqard Frankin "Yad adam" (Ruprext) pyeslərinin tamaşalarında oynayıb.

Aktyorun faciə rolları içərisində Yaqo, Praspero ("Otello" və "Fırtına", Vilyam Şekspir), Viktor Karenin ("Canlı meyit", Lev Tolstoy), Serqo ("Şeyx Sənan", Hüseyn Cavid), tragikomik obrazı Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), komediya personajlarından Sebastian ("On ikinci gecə", Vilyam Şekspir), Camal, Kəblə Muxtar ("Nişanlı qız" və "Küləklər", Sabit Rəhman), Don Aryas ("Sevilya ulduzu", Lope de Veqa), kovoler delya kotri ("Məzəli hadisə", Karlo Haldoni), Dərviş Məstəli şah ("Müsyö Jordan və dərviş Məstəli Şah", Mirzə Fətəli Axundzadə) obrazları bədii cəhətdən daha cazibəli olub.

Çəkildiyi çoxlu bədii filmlər arasında "Dəli Kür" (Molla Sadıq), "Axırıncı aşırım" (Qəmlo), "Fəryad" (Aram Xaçaturyan) kinolentlərindəki rolları yaddaqalandır.

"Birisi gün gecə yarısı"  filminə görə Dövlət mükafatı laureatıdır (26 may 1986). 24 may 1960-cı ildə Azərbaycan Respublikasının əməndar artisti, 1 iyun 1974-cü ildə xalq artisti fəxri adları ilə təltif edilib.

Məlik Dadaşov daxilən rahatsız aktyor idi. Çılğın ehtiraslı xarakteri "ölçüyə sığmayan" obrazlara ciddi maraq göstərirdi. Obrazın ritmini, səhnə hərəkət və davranışını uzun müddət axtarır, dəfələrlə sınaqdan çıxarır və sonra tamaşada "özününküləşdirirdi". Əməl-fəaliyyət xəttinin sürət-ritmi iti olan (məsələn, Şeyx Nəsrulla, Məstəli şah) rollara məxsusi danışıq tərzi tapırdı. Cingiltili səsini istədiyi ritmdə və istədiyi ton yüksəkliyində asanca və aydın işlədirdi.

**HÖKÜMƏ QURBANOVA**
**(11.6.1913-2.11.1988)**

Milli səhnəmizin misilsiz faciə aktrisası olub. Tükənməz ehtiraslı, səngiməz temperamentli, coşğun emosiyalı, musiqili lirik-dramatik səsli sənətkar idi. Romantik aktyor məktəbinin görkəmli nümayəndəsi olmaqla bərabər, realist üslubda da möhtəşəm sənət nailiyyətləri qazanıb.

Hökümə Abbasəli qızı Qurbanova 1913-cü il iyun ayının 11-də Bakıda ziyalı ailəsində doğulub. Teatrda ilk illər aktyor Ələsgər Ələkbərovda ərdə olduğu üçün "Ələkbərova" soyadıyla çıxış edib.

Hökümə xanım Bakı Pedaqoji Texnikumunu bitirib (1931). Elə həmin il Azərbaycan Dövlət konservatoriyasma daxil olaraq iki il fortepiano sinifində təhsil alıb. Güclü musiqi yaddaşı vardı.

Konservatoriyada təhsil alarkən dramaturq və teatr xadimi Cəfər Cabbarlının ciddi təşəbbüsü ilə "Almaz" filmində Yaxşı roluna çəkilib. Ancaq film ekranlara ədibin ölümündən sonra, 1936-cı ildə buraxılıb.

Milli Dram Teatrının tamaşalarında əvvəllər ara-sıra çıxış edən Hökümə Qurbanova 1938-ci ildən ömrünün sonunadək bu kollektivin əvəzolunmaz aktrisası kimi şöhrətlənib. Hökümə xanımın xırda-para epizod rollarını nəzərə almasaq, o, 1940-cı illərdən əsas rolların ifaçısına çevrilib.

Teatr tariximizdə Hökümə Qurbanova kimi gözəl və məlahətli səs variasiyaları ilə oynaya bilən ikinci qadın sənətkar olmayıb. Tamaşaçı salonunun arxa sıralarında əyləşən sənətsevərlər də onun məşəl kimi yanan, alovlu və ağıllı gözlərindəki mənaları aydınca görür, duyur və dərk edirdilər. Aktrisa lazım gələndə səhnədə dəqiqələrlə mərmər abidə kimi "donub" qala bilirdi (məsələn, Şekspirin "Qış nağılı"nda Hermiona rolunda). Pauzaları baxış və hərəkətləri ilə ustalıqla "doldururdu".

Hökümə Qurbanova romantik aktyor məktəbinin poetika göstəricilərini lirik-psixoloji aktyor məktəbinin ifadə vasitələri ilə qovuşduran, onları harmonik ayrılmazlıqda, bir estetik prinsiplərdə təqdim edən ilk aktrisadır.

Ehtirası, fikirləri, məhəbbəti, həyat kredosu müxtəlif müstəvi kəsiklərində çarpazlaşan Kleopatra səpkili mürəkkəb faciə obrazlarının ən dramatik səhnələrində də aktrisa səslə daxili ehtirasını paralel işlətməkdə, onları obrazın mürəkkəb, psixoloji, ziddiyyətli mənəvi aləminin açılmasma istiqamətləndirməkdə mahir ustad idi.

Psixoloji rollarda obrazın ovqatını tamamlamaq üçün səsləndirilən musiqinin ritm və ahəngini, tərənə düzümünü Hökümə xanım səsinin cingiltili, titrəyişli musiqisi ilə eyni kökdə, not dəqiqliyi ilə qururdu."

Komediya rollarında (Bənovşə, Xanuma...) səhnəyə çıxan Hökümə Qurbanovanın məlahətli yumoru, sərrast və dürüst istiqamətli satirası sanki səhnəyə sığmırdı, vəziyyətin ovqatı bütün salona sirayət edirdi. Onun yumorlu ifası əsərin məhvərinə çevrilir, tamaşadakı bütün personajları öz gülüşünün oxu ətrafında fırlanmaq cazibəsinə salırdı.

Mənalı, zərif və cazibəli plastikası vardı. Hərəkətlərini Personajın ictimai-sosial mənsubiyyətinə, mənəvi-əxlaqi xüsusiyyətlərinə, hadisələrin psixoloji dramatizmınə ahəngdar həssaslıqla bağlayıb əlaqələndirirdi.

Hökümə Qurbanovanın çöhrəsində Cakondanın sirli təbəssümü vardı. Aktrisa o təbəssümün sehrindən və hüsnündən dramatik rollarda məharətlə istifadə edirdi. O dramatik rollarda ki, onların həyat amalları insanpərvərliklə, xeyirxah əməllərlə yoğrulub.

Janr-üslub və oyun-forma baxımından Hökümə Qurbanovanın yaradıcılığını aşağıdakı bölgülərə ayırmaq olar.

**Romantik faciə rolları.** Hökumə xanımın Hüseyn Cavidin "Şeyx Sənan" (Xumar), "Səyavuş" (Südabə), Vilyam Şekspirin "Antoni və Kleopatra" (Kleopatra), "Qış nağılı" (Hermiona), Fridrix Şillerin "Orlean qızı" (Janna d'Are), Səməd Vurğunun "Fərhad və Şirin" (Şirin və Məryəm), Cəfər Cabbarlının "Od gəlini" (Solmaz) faciələrində oynadığı mürəkkəb obrazların səhnə təfsiri bu bölümə aiddir.

**Realist faciə rolları.** Süleyman Sani Axundovun "Eşq və intiqam"ında Zöhrə, Səməd Vurğunun "İnsan"ında Səhər, Qeybulla Rəsulovun "Qarabağ əfsanəsi"ndə Günəş, Anatoli Boryanovun "O tayda"sında Valentina Nikolayevna rollarının ifası realist faciə janrında köklənib.

**Romantik-dramatik rollar** bölümünə Gülbahar ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Xuraman ("Vaqif", Səməd Vurğun), Afaq ("Nizami", Mehdi Hüseyn), Oliviya ("On ikinci gecə", Vilyam Şekspir), Cenevrə ("Dərin köklər", Ceyms Qou və Arno D'Nyusso), Nataşa ("Şərqin səhəri", Ənvər Məmmədxanlı), Reyhan ("Cavanşir", Mehdi Hüseyn) və müəyyən mənada Hermiona ("Qış nağılı", Vilyam Şekspir) obrazlarının ifası daxildir.

**Realist-dramatik rollar** bölümünün estetik prinsiplərini təhlil süzgəcindən keçirəndə nəzərlərimiz önünə ilkin Sona, Yaxşı ("1905-ci ildə" və "Almaz", Cəfər Cabbarlı), Həyat, Maral ("Həyat" və "Közərən ocaqlar", Mirzə İbrahimov), Məhmənə banu ("Məhəbbət əfsanəsi", Nazim Hikmət), Nataşa ("Mühəndis Sergeyev", Vsevolod Rokk), Sevgili ("Ana ürəyi", İslam Səfərli), Gülara, Sürəyya ("İşıqlı yollar" və "İntizar", İlyas Əfəndiyev. Qeyd: Əfəndiyev ikinci əsəri Mehdi Hüseynlə birgə yazıb), Yeva Qrant ("Bir evin sirri", Tur qardaşları), jsfərgiz ("Aslan yatağı", Məmmədhüseyn Təhmasib), Zöhrəxan ("İpək naxışlar", Abdulla Qəhhar), Reyhan ("Qardaşlar", Rəsul Rza) obrazları canlanır.

**Psixoloji-dramatik rollar**. Bu obrazların səhnə təcəssümü prinsiplərini aktrisa Tamara ("Vaqif", Səməd Vurğun), Vəfa ("Vəfa", Rəsul Rza), Vasantasena ("Hind gözəli", Yuri Osnos və Viktor Vinnikov), Serebryakova ("Vanya dayı", Anton Çexov), Amanda ("Şüşəli heyvanxana", Tennessi Uilyams), Xədicə ("Türkiyədə", Nazim Hikmət), Gülşən ("Son gülən", Kondrat Krapiva), Sevda ("Böyük məhəbbət", Cabbar Məcnunbəyov) rollarında daha parlaq ifadə vasitələri və daha dəqiq janr ölçüləri ilə təcəssüm etdirib.

Tarixi-dramatik səpkili rollar sırasına Süleyman Rüstəmin "Qaçaq Nəbi" (Həcər), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Zeynəb), Ənvər Məmmədxanlının "Od içində" (Reyhan), Cabbar Məcnunbəyovun "İliç buxtası" (Könül), Aleksandr Fadeyevin "Gənc qvardiya" (Valya) pyeslərinin tamaşalarındakı rollarını daxil etmək olar.

Lirik təmayüllü psixoloji rolların ən parlaqları Sevinc ("Sənsiz", Şıxəli Qurbanov), Arzu ("İkinci səs", Bəxtiyar Vahabzadə), Tolqanay ("Ana torpağı", Çingiz Aytmatov), Şəfəq, Gülara, Lalə ("Bahar suları", "İşıqlı yollar" və "Atayevlər ailəsi", İlyas Əfəndiyev), Yelena Andreyevna ("Vanya dayı", Anton Çexov), Zina ("Ailə namusu", Hüseyn Muxtarov), Qız ("Şöhrət və ya unudulan adam", Nazim Hikmət) obrazlarının səhnə ifasıdır.

**Yumorlu dramatik rollar** bölümü də zəngindir. Aktrisa Sabit Rəhmanın "Xoşbəxtlər", "Aydınlıq", "Nişanlı qız", "Əliqulu evlənir" komediyalarında İnci, Fəridə, Bənövşə, Nazlı, Karlo Haldoninin "Məzəli hadisə"sində Janina, Mirzə İbrahimovun "Kəndçi qızı"nda Bənövşə, Anatoli Safronovun "Kişilərə inanmayın" məzhəkəsində Naydyonova, Avksenti Saqarelinin "Xanuma" satirasında Xanuma, "Şərqli diş həkimi"ndə Marta rollarını oynayıb.

Aktrisa "Azərbaycanfilm"in istehsal etdiyi "Bir ailə" filmində Leyla, "Onu bağışlamaq olarını?", "Mən rəqs edəcəyəm" kinolentlərində Laçın, Mahmudun anası, "İnsan məskən salır"da Ana rollarına çəkilib.

Rəssam Nüsrət Fətullayevdən doğulmuş qızı Vəfa Fətullayeva Akademik Teatrın tanınmış aktrisalarından olub və 42 yaşında dünyasını dəyişib.

Hökümə Qurbanova iki çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub. 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 may 1960-cı ildə xalq, 2 mart 1965-ci ildə SSRİ xalq artisti fəxri adlarına layiq görülüb.

1988-ci il noyabr ayının 2-də Bakıda vəfat edib. Fəxri xiyabanda dəfn olunub.

## İLYAS ƏFƏNDİYEV
## (14.11.1914-3.10.1996)

Azərbaycan dramaturgiyasında lirik-psixoloji üslubun təşəkkülü, inkişafı və formalaşması İlyas Əfəndiyevin yaradıcılığında xüsusi yer tutur. Bu üslubdan ilkin, fəal, səmərəli istifadə edən dramaturq milli dramaturgiyamızda dərin iz qoyub. İlyas Əfəndiyev özünün yazıçı təxəyyülünü, estetik həyat konsepsiyasını orijinal mövzularla, bitkin xarakterlərlə, ictimai-sosial, mənəvi-əxlaqi konfliktlər zəminində, ifadəli, dolğun, tutumlu bədii vasitələrlə realizə edib. Onun pyeslər üçün qurduğu əlvan və aydın, dəqiq və mənalı kompozisiyalar, pyeslərinin zəngin dil-ifadə vasitələri, mövzu dairəsi, əsas qəhrəman anlayışı müəllifin uzun illər səmərəli dramaturji axtarışları əsasında formalaşıb.

İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il noyabr ayının 14-də Qaryagin (indiki Füzuli) şəhərində məşhur bəy nəslində anadan olub. Şəhərdəki ikinci dərəcəli məktəbi bitirib.

1930-1933-cü illərdə Qaryagindəki orta məktəbdə dil-ədəbiyyatdan dərs deyib. Təhsilini davam etdirmək üçün Bakıya gəlib və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olub. Bir il sonra təhsilini qiyabiyə çevirib və doğma rayona qayıdaraq yenidən məktəbdə dərs deməyə başlayıb. 1938-ci ildə ali təhsilini başa vurub. Müəllim işləyə-işləyə bədii yaradıcılıqla məşğul olub və yazdığı hekayələri "Kənddən məktublar" adı altında toplayaraq çapa hazırlayıb. 1938-ci ilin payızında Bakıya köçüb.

Dövrünün əsərləri teatrda ən çox oynanılan müəllif olan İlyas Əfəndiyevin yaradıcılığının əsas qolunu dramaturgiya fəaliyyəti təşkil edir. O, ilk pyesi "İntizar"ı özünün iki hekayəsi əsasında Mehdi Hüseynlə birlikdə 1943-cü ildə yazıb. "İntizar" dramı 1944-cü il dekabr ayının 26-da ADDT-də tamaşaya qoyulub. Tamaşanın quruluşçu rejissoru Səftər Turabov, rəssamı Bədurə Əfqanlı, bəstəkarı Səid Rüstəmov olublar. Elə buradaca qeyd edim ki, dramaturqun bütün pyeslərinin ("Üç manatlıq lüstr" radio dramı istisna olmaqla) ilk tamaşası ADDT-də oynanılıb.

İlyas Əfəndiyevin ikinci dramı "İşıqlı yollar" adlanır və əsər müharibədən sonra ölkədə xalq təsərrüfatının bərpası, mənəviyyatların, dünyagörüşlərinin təzələnməsi problemlərinə həsr edilmiş ən kamil səhnə əsəridir. Pyesi tamaşaya ADDT-nin baş rejissoru Ədil İsgəndərov, rəssam Bədurə Əfqanlı və bəstəkar Fikrət Əmirov hazırlayıblar. Tamaşanın premyerası 1947-ci il iyulun 19-da göstərilib. Əsas rolları Hökümə Qurbanova (Gülarə), Mirzağa Əliyev (Baba dayı), İsmayıl Dağıstanlı (Yelmar) ifa ediblər.

Ədibin "Bahar suları" dramı mənəvi zərifliyi və insani psixoloji duyğuları ilə ruhən "İşıqlı yollar"ın davamıdır. Lakin mürəkkəb və yeni insani münasibətlər bu əsərdə kənd mövzusu, torpaq və ona təzə münasibət problemləri əsasında işlənib.İlk tamaşası 1948-ci il dekabr ayının 11-də göstərilən tamaşanın səhnə quruluşunu Ədil İsgəndərov, bədii tərtibatını rəssam Nüsrət Fətullayev, geyim eskizlərini Bədurə Əfqanlı vermişdilər və musiqisini Fikrət Əmirov bəstələmişdi. Əsas rolları

Ələsgər Ələkbərov (Alxan), Sona Hacıyeva (Sədəf), İsmayıl Dağıstanlı (Uğur), Hökümə Qurbanova (Şəfəq) oynayıblar.

Dramaturgiyamızda realist lirik-psixoloji üslubda yazılmış ilk sanballı, ideya-bədii cəhətdən bitkin, mürəkkəb daxili quruluşa malik pyes "Sən həmişə mənimləsən" ("Boy çiçəyi") dramıdır. Əsərin fabulası təbii və sadədir. Gənc, təcrübəsiz, çılğın qız özündən qat-qat yaşlı, zəngin həyat təcrübəsinə malik, xeyirxah və sadə qəlbli kişini sevir. Belə fabula müxtəlif üslub, süjet, kompozisiya vasitəsilə bir neçə ideyanı ali məqsədlə əyaniləşdirir. Diapazon genişdir: melodrama, ibrətamiz, didaktik dram, faciə, satira. Janr və üslubda öz varlığını üzə çıxaran İlyas Əfəndiyev "Sən həmişə mənimləsən" pyesində məişət və lirik-poetik kontekstləri toqquşduraraq konflikt vəziyyətinə salıb. Həmin toqquşma nöqtəsində lirik-psixoloji kontekst yaranıb.

"Sən həmişə mənimləsən" pyesinin 1964-cü il oktyabr ayının 14-də ADDT-də oynanılan ilk tamaşası ilə milli teatrımızda lirik-psixoloji üslubun əsası qoyulub. Tamaşanın quruluşçu rejissoru Tofiq Kazımov, rəssamı Elçin Aslanov, bəstəkarı Fikrət Əmirov idilər. Baş rolları Əli Zeynalov (Həsənzadə) və Azərbaycan Dövlət Teatr İnstitutunun üçüncü kurs tələbəsi Amaliya Pənahova (Nargilə) ifa ediblər. "Sən həmişə mənimləsən" tamaşası teatrın yaradıcılıq həyatında hadisəyə çevrilib və bundan sonra həmin estetik zəmində yeni üslublu aktyor yaradıcılığının inkişaf yolu başlayıb.

Şəxsiyyət və cəmiyyət problemi kontekstində insanların mənəvi-əxlaqi düşüncələrini, psixoloji münasibətlərini göstərmək baxımından, fikir dərinliyi etibarilə "Mənim günahım" dramı ADDT üçün yeni idi. Personajların qarşılıqlı münasibətləri maraq doğuran əsəri tamaşaya quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Böyükağa Mirzəzadə, bəstəkar Soltan Hacıbəyov hazırladılar. Əsas surətlər isə Leyla Bədirbəyliyə (Nurcahan), İsmayıl Dağıstanlıya (Tahir), Amaliya Pənahovaya (Ayqız), Əli Zeynalova (Sahib) tapşırılmışdı. İlk tamaşa 1967-ci il may ayımn 5-də göstərilib.

"Unuda bilmirəm" dramında dramaturq bir növ "Sən həmişə mənimləsən" pyesində qazandığı nailiyyətləri, bədii təsvir vasitələrini, konfliktin dinamikliyini və həyatiliyini daha vuxarı pillədə inkişaf etdirmiş, yeni imkanlarla, yeni vasitələrlə zənginləşdirmişdir. Personajlar "Əfəndiyevin obrazları" olaraq qahr, yeni şəraitdə təzə nailiyyətlərini nümayiş etdirirlər. "Unuda bilmirəm" pyesində İlyas Əfəndiyev ictimai-psixoloji və poetik-publisist kontekstləri toqquşduraraq onların kəsişmə nöqtəsində publisist təmayüllü lirik-psixoloji konteksti əldə edib.

Ruhən, düşüncə tərzinə və estetik həyat konsepsiyasma görə dramaturqun ideallarına doğma olan Tofiq Kazımov əsərə poetik monumentallıqla səhnə təfsiri vermişdi. 1968-ci il noyabrın 1-də ilk tamaşası göstərilən səhnə əsərində Həsən Turabov (Kamran), Amaliya Pənahova (Nərmin), Məmmədrza Şeyxzamanov (Möhsünzadə), Sofiya Bəsirzadə (Səadət xanım), Hamlet Qurbanov (Cəmil) möhtəşəm sənət uğurları qazandılar. Rəssam Sənan Qurbanovun tərtibatı milli səhnəqrafiyamızda yeni addım kimi dəyərləndirildi. Bəstəkar Emin Sabitoğlu tamaşaya bəstələdiyi lirik və həzin, kövrək və həsrət ovqatlı musiqi ilə lirik-psixoloji üslubun tələblərinə parlaq estetik təcəssüm gətirdi.

İlyas Əfəndiyev respublikamızın mənəvi, ictimai, iqtisadi və sairə daxili qatlarında gedən prosesləri, onların əhəmiyyətini və istiqamətini görüb-duyaraq özünün "Məhv olmuş gündəliklər" pyesində orijinal bədii formada təcəssüm etdirib. "Məhv olmuş gündəliklər" pyesinin daxili struktur prinsipi yeni və maraqlıdır. Dramaturq ictimai-sosial və publisist-rəmzi kontekstləri qarşılaşdıraraq onların kəsişmə nöqtəsində sosial təmayüllü lirik-psixoloji kontekst yaradıb. Bu daxili struktur qurumu realist lirik-psixoloji üslubun gizli imkanlarını üzə çıxarmağa səbəb olub. Müəllifin bu əsərində daha sərt, kəskin ovqat, konfliktdə iştirak edən, ayrı-ayrı cəbhələrdə dayanan antoqonist ziddiyyətli, mürəkkəb personajlar görürük.

"Məhv olmuş gündəliklər" dramına səhnə quruluşunu rejissor Tofiq Kazımov, bədii tərtibatı rəssam Sənan Qurbanov veriblər. Bəstəkar Emin Sabitoğlu idi. Rejissor mürəkkəb psixoloji taleyin lirik və həzin hekayəti janrında həll etdiyi tamaşada rolları Dövlət İncəsənət İnstitutunun tələbələri Vəfa Fətullayevaya (Fəridə), Fuad Poladova (Savalan), gənc aktyorlar Səməndər Rzayevə

(Qənimət) və Kamal Xudaverdiyevə tapşırmışdı. İlk tamaşa 1969-cu il noyabr ayının 29-da teatrsevərlərə təqdim olunub.

İlyas Əfəndiyev 1920-ci ilin ictimai-siyasi hadisələrinə həsr etdiyi "Mahnı dağlarda qaldı" dramında bəy, mülkədar, mənəvi zadəganlıq məsələlərini tamamilə yeni fəlsəfi-estetik yazıçı mövqeyindən işıqlandırıb. Həmin zəmində həm hadisələrin əsil dəyəri, həm də insan münasibətlərinin mürəkkəb və ziddiyyətli tərəfləri daha real, daha canlı, dramaturji baxımdan daha əsaslı alınıb. Böyük bəy, Şahnaz, Fəxrəndə xanım dramaturgiyamızda təzə obrazlar kimi səciyyələnirlər.

"Mahnı dağlarda qaldı" tarixi mövzulu lirik-psixoloji dramına səhnə quruluşunu rejissor Əliheydər Ələkbərov verib. Premyerası 1971-ci il fevral ayının 12-də olan tamaşada rəssam Nüsrət Fətullayev, bəstəkar Süleyman Ələsgərov idilər. Həsən Turabov (Nicat), Amaliya Pənahova (Şahnaz), İsmayıl Dağıstanlı (Böyük bəy), Leyla Bədirbəyli (Fəxrəndə xanım) maraqlı və cazibəli səhnə surətləri yaradıblar.

Azərbaycan dramaturgiyasında ilk lirik-psixoloji janrlı komediya "Qəribə oğlan"dır. İlyas Əfəndiyev həmin əsərdə yaradıcılığının zərif yumorunu, incə məzhəkə duyumunu və həssas satira bacarığını xoş ovqatla qurtaran məzəli hadisələr əsasında canlandırıb.

ADDT-də "Qəribə oğlan" komediyasma səhnə təfsiri vermək üçün Peterburqda ali təhsil alıb Sumqayıt teatrında baş rejissor işləyən Ağakişi Kazımov dəvət edilmişdi. O, dramaturqun üslub-ifadə vasitələrini, poetika xüsusiyyətlərini duyaraq komediyanı yazıldığı janr-üslubda hazırladı (rəssam Nüsrət Fətullayev, bəstəkar Emin Sabitoğlu). 1973-cü il aprel ayının 8-də "Qəribə oğlan" tamaşası teatrın repertuarına daxil edildi. Teatrın uzunömürlü əsərlərindən olan tamaşada əsas rolları Fuad Poladov (Valeh), Amaliya Pənahova (Kəmalə), Məmmədrza Şeyxzamanov (Barsuq), Əliağa Ağayev (Dadaş), Nəcibə Məlikova (Məlahət) oynayırdılar.

İlyas Əfəndiyevin dramaturgiyası 1975-1995-ci illərdə də teatrın diqqət mərkəzində idi. Bu illərdə teatrda dram əsərləri ən çox tamaşaya qoyulan dramaturq da İlyas Əfəndiyev olub. Qarabağın XVIII əsrin sonu və XIX əsr ictimai-siyasi, tarixi hadisələrini və tarixi şəxsiyyətlərini əsil reallıqla "Xurşidbanu Natəvan", "Hökmdar və qızı" dramlarında məhz İlyas Əfəndiyev canlandırıb.

1937-ci il repressiyasının dəhşətli faktlarını yüksək bədii təsvirlə canlandıran səhnə əsərlərindən biri də dramaturqun "Sevgililərin cəhənnəmdə vüsalı" psixoloji faciəsidir. Mövzu dairəsi geniş olan dramaturq Cənubi Azərbaycanın azadlıq mübarizəsinə həsr olunmuş "Şeyx Xiyabani", Qırmızı ordunun 1920-ci ildə Vətənimizə gəlməsi ilə bağlı mühacir ömrü sürməyə məcbur olan həmvətənlərimizin taleyindən bəhs edən "Tənha iydə ağacı" dramlarını yazıb. Çağdaşlarının mənəvi-əxlaqi problemlərini həmişə diqqət mərkəzində saxlayan müəllifin "Bizim qəribə taleyimiz" ("Unuda bilmirəm" pyesindəki hadisələrin 20 ildən sonraki təsviri), "Bağlardan gələn səs", "Büllur sarayda", "Dəlilər və ağıllılar" (satirik çalarlı psixoloji dram) əsərləri AMDT-nin repertuarına mövzu əlvanlığı, janr müxtəlifliyi, yeni-yeni insan xarakterləri gətirib. Bunu həmin tamaşaların oynanılmasının tarixi-xronoloji ardıcıllıqla təqdimi də açıq-aydın göstərir.

**1975, 1 oktyabr.** "Bağlardan gələn səs". Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Emin Sabitoğlu. Əsas rolları Səməndər Rzayev (Vahid), Şəfiqə Məmmədova (Gülcan), Kamal Xudaverdiyev (Kamandar), Lütfi Məmmədbəyov (Hətəm) oynayıblar.

**1981, 2 sentyabr**. "Xurşidbanu Natəvan". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Elçin Aslanov, bəstəkar Arif Məlikov. Baş rollarda: Amaliya Pənahova (Natəvan), Əliabbas Qədirov (Seyid Hüseyn), Rafael Dadaşov (Knyaz Xasay), Firəngiz Mütəllimova (Bəyim), Telman Adıgözəlov (Daşdəmir), Nurəddin Mehdixanlı (Hidayət xan).

**1983, 17 sentyabr.** "Büllur sarayda". Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Tahir Tahirov, bəstəkar Oqtay Kazımov. Əsas obrazları Hamlet Qurbanov (Ağahüseyn), Sofiya Bəsirzadə (Cəvahir xanım), Bəsti Cəfərova (Lalə), Amaliya Pənahova (Aynur), Əliabbas Qədirov (Həbib), Fuad Poladov (Qədim), Nəcibə Məlikova (Qönçə), Yaşar Nuriyev (Bayandur) ifa ediblər.

**1986, 20 dekabr**. "Şeyx Xiyabani". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Solmaz Haqverdiyeva. Baş rollarda: Həsən Turabov (Şeyx Xiyabani), İlham Əsgərov (Sarı Mərdan), Nurəddin Mehdixanlı (Məşədi Təhməz), Fuad Poladov (Mübarək Səltənə), Amaliya Pənahova (Xanım Mahnur), Bürcəli Əsgərov (Hacı Fərhad), Rafael Dadaşov (Həsən Soltanov), Firəngiz Mütəllimova (Gülrux).

**1988, 9 aprel.** "Bizim qəribə taleyimiz". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Elçin Aslanov, bəstəkar Emin Sabitoğlu. Əsas obrazları səhnədə Həsən Turabov (Kamran), Amaliya Pənahova (Nərmin), Füzuli Hüseynov (Samir), Məlahət Abbasova (Nərgiz), Safurə İbrahimova (Zərxanım), Bürcəli Əsgərov (Ataxan) canlandırıblar.

**1989, 21 aprel.** "Sevgililərin cəhənnəmdə vüsalı". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rasim Nəzirov, bəstəkar Cavanşir Quliyev. Tamaşada aparıcı rollarda aktyorlardan Nurəddin Mehdixanlı (Ayaz Turan), Kamal Xudaverdiyev (Səlim Babayev), Səyavuş Aslan (Cabbar), Safurə İbrahimova (Mədinə), Ramiz Məlik (Mayis), Əliabbas Qədirov (Mircəfər Bağırov), Bürcəli Əsgərov (Afşar Hüseyn) çıxış ediblər.

**1991, 6 mart.** "Tənha iydə ağacı". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafis İsmayılov, bəstəkar Cavanşir Quliyev. Aktyorlardan Əliabbas Qədirov (Kərim bəy), Nəcibə Məlmova (Xanbikə), Mikayıl Mirzə (Eyvaz), Səyavuş Aslan (Ağayi Əşrəfi), Rafiq Əzimov (Behbud bəy) tamaşada əsas obrazlara səhnə həyatı veriblər.

**1992, 9 noyabr.** "Dəlilər və ağıllılar". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafiq Abdullayev, bəstəkar Vasif Adıgözəlov. Əsas rollarda: Rafael Dadaşov (Ədhəm Tağıyev), Bəsti Cəfərova və Firəngiz Mütəllimova (Azadə xanım), Səyavuş Aslan və Hamlet Qurbanov (Ağamusa Fərəcov), Kübrabəyim Əliyeva (Nazilə), Sabir Məmmədov (Şahmar), Zemfira Nərimanova (Südabə).

**1996, 15 dekabr.** "Hökmdar və qızı". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam İsmayıl Məmmədov, bəstəkar Adil Bəbirov. Əsas rolları Əliabbas Qədirov (İbrahim xan), Bəsti Cəfərova (Ağabəyim ağa), Sabir Məmmədov (Saday bəy), Bürcəli Əsgərov (Cavad xan), Səyavuş Aslan (Vanya koxa), Safurə İbrahimova (Tubu xanım), Elxan Ağahüseynoğlu (Lisanoviç) ifa ediblər.

İlyas Əfəndiyevin ayrı-ayrı dram əsərləri müxtəlif illərdə AMDT-dən əlavə Gəncə, Naxçıvan, Şəki, Şuşa, Ağdam, Füzuli, Sumqayıt, Mingəçevir, Lənkəran dövlət teatrlarında, Azərbaycan Dövlət Rus Dram Teatrında da tamaşaya qoyulub.

İlyas Əfəndiyevin əsərləri şirin və şirəli dili, zəngin psixoloji ifadə vasitələri, güclü, təzadlı və mürəkkəb xarakterləri, kəskin və sərt konfliktləri, maraqlı süjet xətti, personajların real insani münasibətləri və janr cazibədarlığı ilə teatrların diqqətini cəlb edir.

Bütün deyilənlər elmi-nəzəri tezislər kimi dramaturqların yaradıcılıqlarının ölçü meyarına çevriləndə görünür ki, İlyas Əfəndiyevin lirik-psixoloji üslubu digər müəlliflərin üslubundan daha kamildir.

İlk baxışda qəribə səslənsə də, İlyas Əfəndiyevin müsbət qəhrəmanı inkişaf etmir. Bu qəhrəmanın xasiyyəti, dünyagörüşü, amalları, insanlara münasibəti vahid və parçalanmazdır, müsbət qəhrəman müəllifin "öz varlığını" tərənnüm edir. Bəs, onda nəyə görə bu qəhrəmanın informativ dəyəri, maraq dərəcəsi hər dəfə yüksək səviyyədə qalır və tamaşaçı-oxucunu, tənqidi, teatr işçilərini (rejissoru, aktyoru, rəssamı, bəstəkarı) qane edir?

İlk növbədə ona görə ki, qəhrəman hər dəfə keyfiyyətcə yeni kontekstdə davranır.

Xalq yazıçısı (1979), əməkdar incəsənət xadimi (1969) İlyas Əfəndiyev 3 oktyabr 1996-cı ildə Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

## AKADEMİK MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1960-2004)

### Birinci dərs

Ötən əsrin altmışıncı illərinin əvvəllərində teatrda yeni bir üslub özünün estetik prinsiplərini və yaradıcılıq özəlliklərini təqdim etməyə başlayıb. Tofiq Kazımovun quruluş verdiyi "Sən həmişə mənimləsən" (İlyas Əfəndiyev) tamaşası ilə isə lirik-psixoloji üslubun əsas nəzəri-fəlsəfi əsasları teatr ictimaiyyətinə təqdim olunub. Tədricən lirik-psixoloji üslub teatrın aparıcı üslubları sırasında möhkəmləndikcə, hətta müəyyən müddət öncüllüyü ələ aldıqca, truppanın gənc aktyorlarının yaradıcılıqları da məhz həmin istiqamətdə formalaşıb. Azərbaycan Dövlət Teatr İnstitutunun məzunları AMDT-nin truppasına qəbul olunanda lirik-psixoloji üslubun prinsipləri əsas meyar kimi götürülüb. İllər keçdikcə haqqında söhbət gedən üslubu ləyaqətlə təmsil edən, onun ifadə vasitələrini tamaşadan tamaşaya zənginləşdirən sənətkarlar yetişiblər.

* * *

### SAFURƏ İBRAHIMOVA (27 DEKABR 1938)

Səhnə məlahəti ilə həmişə tamaşaçıları heyran qoyan Safurə Ağabala qızı İbrahimova 1938-ci il dekabr ayının 27-də Bakıda doğulub. Orta məktəbi bitirdikdən sonra dram dərnəyində çalışıb. 1960-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Birinci kursda onu Akademik Milli Dram Teatrının repertuarında olan İslam Səfərlinin "Ana ürəyi" dramının tamaşasında Xatirə roluna dəvət ediblər. Bundan sonra daha bir neçə rol oynayan tələbə-aktrisa 1961-ci il noyabr ayının 1-də Akademik teatrın truppasına daxil olub. Həmin vaxtdan indiyə qədər bu kollektivdə çalışır.

Xaraktercə lirik-dramatik aktrisadır. Komik personajlarda da məharətlə oynaya bilir. Səhnədə səmimiyyəti, obrazın psixoloji xarakterini həssaslıqla duyması ilə seçilir. Mənalı sifət ifadələrindən və plastik emosional hərəkətlərdən istifadə etməkdə səriştəlidir.

Safurə İbrahimova səhnədə Kamalə, İnci ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Əsmər ("Alov", Mehdi Hüseyn), Fernando ("Dəlilər", Lope de Veqa), Gülnar və Tamara ("Vaqif", Səməd Vurğun), Nazlı ("Ölülər", Cəlil Məmmədquluzadə), Ofeliya ("Hamlet", Vilyam Şekspir), Hafizə ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Karola ("Füsunkar qız", Mlkolaş Dyarfaş), Jasmen, Vəfa ("Knyaz" və "Xəyyam", Hüseyn Cavid), Daduno ("Darıxma, ana!", Nodar Dumbadze), Sona ("Xanuma", Avksenti Saqareli), Cen ("Mariya Tüdor", Viktor Hüqo), Maral ("Sənsiz", Şıxəli Qurbanov), Saşa ("Canlı meyit", Lev Tolstoy), Sevil ("Sevil", Cəfər Cabbarlı), Balaxanım ("Adamın adamı", Anar), Mədinə, Tubu xanım ("Sevgililərin cəhənnəmdə vüsalı" və "Hökmdar və qızı", İlyas Əfəndiyev), Durdensiya ("Dişi canavar", Federiko Qarsia Lorka), Zəhra bəyim ("Anamın kitabı", Cəlil Məmmədquluzadə), Mələk ("Köhnə ev", Əli Əmirli) rollarında daha çox sənət uğurları qazanıb.

Aktrisanın kino rolları arasında Telli ("Arşın mal alan"), Həbibə ("Qatır Məmməd"), Dilbər ("Sevil"), Gülpəri ("Dərviş Parisi dağıdır"), Mədinə ("Alma almaya bənzər") obrazları daha məşhurdur.

Safurə İbrahimova teatr sənətindəki xidmətlərinə görə Azərbaycan Respublikasının əməkdar artisti (1 iyun 1974) və xalq artisti (24 dekabr 2002) fəxri adları ilə təltif edilib. Mehdi Məmmədovun quruluşunda Hüseyn Cavidin "İblis" faciəsindəki Rəna roluna görə Dövlət mükafatı laureatıdır.

## ELDƏNİZ ZEYNALOV (1.1. 1937-5.11.2001)

Komediya aktyoru 1 yanvar 1937-ci ildə Bakıda doğulub. Aktyor Həsənağa Salayevin bacısı oğludur və bu qohumluğa görə Akademik Milli Dram Teatrının tamaşalarında on üç yaşından çıxış edib. O, teatrda işləyə-işləyə Azərbaycan Dövlət Teatr İnstitutunda təhsil alıb (1956-1962).

Yeniyetmə yaşlarından teatrın aktyor ştatına götürülmüş Eldəniz Məmməd oğlu Zeynalov müxtəlif fasilələrlə bu kollektivdə çalışıb. Ən uzun fasilə 1975-1992-ci illərdə olub və həmin dövrdə aktyor bir müddət kinostudiyada və əsasən, özünün yaratdığı miniatür estrada ansamblında fəaliyyət göstərib.

Yaradıcılığı əsasən komediya aktyoru kimi formalaşmışdı. Xalq artisti (1991) idi. Oynadığı çoxsaylı rollardan Mirzə Səməndər, Mazandaranski, Səlim ("Almaz", "Oqtay Eloğlu" və "Aydın", Cəfər Cabbarlı), Yalçın, Anton, Məlik şah ("Səyavuş", "Şeyx Sənan" və "Xəyyam", Hüseyn Cavid), Ümid, Fərəcov, Ağadadaş Nəcəfoviç ("Qəribə oğlan", "Sən həmişə mənimləsən" və "Dəlilər və ağıllılar", İlyas Əfəndiyev), Ohan yüzbaşı, Tarverdi ("Hacı Qara" və "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə), Kərəmov, Mirzə Qərənfil ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Melnikov ("Canlı meyit", Lev Tolstoy), Liberdo ("Dəlilər", Lope de Veqa), İbrahim xan ("Vaqif", Səməd Vurğun), Hofmarşal ("Məkr və Məhəbbət", Fridrix Şiller), son rolu Qüdrət ("Köhnə ev", Əli Əmirli) səhnə obrazları daha yaddaqalandır.

"Azərbaycanfilm"də iyirmidən çox bədii kino lentinə çəkilib. Eldəniz Zeynalov 2001-ci ildə Bakıda vəfat edib.

## KAMAL XUDAVERDİYEV (3 MAY 1938)

Akademik Milli Dram Teatrının aparıcı aktyorlarındandır. Geniş mənada lirik-psixoloji üslublu aktyor məktəbinə məxsusdur. Daha parlaq rollarını bu üslubda hazırlanmış tamaşalarda yaradıb. Romantik ruhlu tamaşalarda, məişət komediyalarında da müxtəlif surətlər ifa edib. Hətta yaşının ahıl vaxtında bütün tamaşa boyu səhnədə olan, lakin bircə cümlə deyən Süpürgəçi ("Ah! Paris... Paris!..", Elçin) rolunda da səhnəyə çıxaraq uğur qazanıb. Aktyor xeyli filmə çəkilib.

Kamal Ağahüseyn oğlu Xudaverdiyev 1938-ci il mayın 3-də Bakıda doğulub. Gecə məktəbində oxuya-oxuya müxtəlif işlərdə çalışıb. Mirzağa Əliyev adına ADTİ-də professorlar Mehdi Məmmədovla Rza Təhmasibin rəhbərlik etdiyi kursda aktyor ixtisasma yiyələnib (1961-1965). İnstitutu bitirən il oktyabr ayının 1-də baş rejissor Tofiq Kazımovun dəvəti ilə AMDT-yə aktyor götürülüb.

İndiyədək kollektivdə çalışan bu aktyor Azərbaycan Respublikasının əməkdar artisti (1 dekabr 1982) və xalq artisti (22 may 1991) fəxri adları ilə təltif olunub.

Kamal Xudaverdiyevin bədii yaradıcılıq məziyyətlərinə, estetik tamlığına görə daha dəyərli rollarını aşağıdakı kimi ümumiləşdirmək olar. Klassik dünya dramaturgiyası nümunələrində ifa etdiyi rollar: Raul ("Orlean qızı", Fridrix Şiller), Murov ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Riçard Dacen ("Şeytanın şagirdi", Bernard Şou), Demetr, Makduf, Layert, Kral Lir ("Antoni və Kleopatra", "Maqbet", "Hamlet" və "Kral Lir", Vilyam Şekspir), Afremov ("Canlı meyit", Lev Tolstoy), Kral ("Yatınış gözəl və yeddi qardaş", Aleksandr Puşkin), Vaska Pepel ("Həyatın dibində", Maksim Qorki), Braun ("Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl), Şah Edip ("Şah Edip", Sofoki), Dolbanezo ("Kəllə", Nazim Hikmət).

Aktyorun milli klassiklərin və çağdaş dramaturqların pyeslərinin tamaşalarında oynadığı səhnə surətləri: Sadıq ("Xoşbəxtlər", Sabit Rəhman), İbad, Surxay, İzzət Paşa ("Almaz", "Aydın" və "Ədirnə fəthi", Cəfər Cabbarlı), İbn Yəmin ("İblis", Hüseyn Cavid), Ədalət, Otar, Bahadır, Səlim Babayev, Kərəm bəy ("Məhv olmuş gündəliklər", "Qəribə oğlan", "Mahnı dağlarda qaldı", "Sevgililərin cəhənnəmdə vüsah" və "Tənha iydə ağacı", İlyas Əfəndiyev), Fəxrəddin ("Qılınc və

qələm", Məmməd Səid Ordubadinin eyniadlı romanı üzrə işləyəni Tofiq Kazımov), Aqşin ("Dar ağacı", Bəxtiyar Vahabzadə).

## AMALİYA PƏNAHOVA (15 İYUN 1945)

Lirik-psixoloji aktyor məktəbinin ilkin səhnə xadimlərindəndir. İfa etdiyi rollar zərif lirizmi, psixoloji dürüstlüyü, emosionallığı və məlahətli cazibədarlığı ilə seçilir. Lirik məhəbbət qəhrəmanları ilə yanaşı, dramatik və komik rollarda da oynayıb. Kəskin çalarlı, lakin xarakterik mahiyyətli yumorlu obrazı psixoloji tutumuna uyğun tərzdə canlandırır.

Amaliya Əliş qızı Pənahova 1945-ci il iyun ayının 15-də Gəncədə doğulub. ADTİ-nin dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1962-1966). Üçüncü kursda oxuyanda, 1964-cü ildə AMDT-nin baş rejissoru Tofiq Kazımov onu İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" lirik-psixoloji pyesinin tamaşasında Nargilə obrazına dəvət edib. Baş rolu böyük uğurla ifa edən, təcrübəli aktyor Əli Zeynalovla (Həsənzadə) məharətlə yöndaşlıq edən aktrisa ilk çıxışından tamaşaçıların rəğbətini qazanıb. Elə həmin il teatrın truppasına aktrisa qəbul olunub. Qısa fasilələrlə 1992-ci ilə qədər bu teatrın aparıcı sənətkarlarından olub. Hazırda Bakı Bələdiyyə Teatrının bədii rəhbəridir.

Azərbaycan Respublikasının əməkdar artisti (1 iyun 1982) və xalq artisti (30 dekabr 1988) fəxri adları ilə təltif olunub. "Mahnı dağlarda qaldı" (İlyas Əfəndiyev) tamaşasındakı Şahnaz roluna görə Dövlət mükafatı laureatıdır. Sənətşünaslıq namizədidir (2003). "Azərbaycanfilm" studiyasında ondan çox kinolentinə çəkilib.

Amaliya Pənahova sənətdə ən parlaq qələbələri AMDT-də qazanıb. Onun ifa etdiyi Nərmin, Xanım Mahnur, Xurşidbanu Natəvan, Aynur ("Unuda bilmirəm", "Şeyx Xiyabani", "Xurşidbanu Natəvan" və "Büllur sarayda", İlyas Əfəndiyev), Ofeliya ("Hamlet", Vilyam Şekspir), Luiza ("Məkr və məhəbbət", Fridrix Şiller), Medeya ("Medeya", Jan Anuy), Anka ("Nazirin xanımı", Branislav Nuşiç), Firəngiz ("Oqtay Eloğlu", Cəfər Cabbarlı), Larisa ("Cehizsiz qız", Aleksandr Ostrovski), Pəri ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Reyhan ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Nigar "Qanlı Nigar", Sadıq Şendil), Təhminə ("Təhminə və Zaur", Anar), Zərifə ("Nişanlı qız", Sabit Rəhman), Mehri ana ("Gecə döyülən qapılar", Nəbi Xəzri), Şəlalə ("Yalan", Sabit Rəhman) rolları həm aktrisanın, həm də teatrın tarixində mühüm yer tuturlar.

Milli teatrımızda lirik-psixoloji aktyor məktəbinin poetika göstəricilərini formalaşdıran, onun estetik səciyyələrinə zənginlik gətirən aktrisalardan biri də Amaliya Pənahovadır. Aktrisanın ifadə vasitələri əlvan və poetikdir.

* * *

## Rafiq Əzimov

İlk novbədə epizod rolların, kiçik xarakterlərin və satirik personajların if açısı kimi tanınır. Realist aktyor məktəbinin nümayəndəsidir və psixoloji ifadə vasitələrilə, fikir yükü daşıyan pauzalarla, dramatik gərginliklə oynamağa üstünlük verir.

Rafiq Əşrəf oğlu Əzimov 1938-ci il fevral ayının 6-da Bakıda doğulub. ADTİ-də ali aktyorluq təhsili alıb (1958-1962). İnstitutu bitirən ildən AMDT-də aktyor işləyir. Xalq artistidir (28 oktyabr 2000). Kinoda məşhur işi "Yeddi oğul istərəm" filmində Şahsuvar roludur.

Milli Dram Teatrının səhnəsində oynadığı əsas rollar: Kəblə Fətulla ("Ölülər", Cəlil Məmmədquluzadə), Vidadi ("Vaqif", Səməd Vurğun), Kristi Dacen ("Şeytanın şagirdi", Bernard Şou), Frans Fok, Müsyö Jordan ("Xırs quldurbasan" və "Müsyö Jordan" və dərviş Məstəli şah, Mirzə Fətəli Axundzadə), Karandışev ("Cehizsiz qız", Aleksandr Ostrovski), Doktor Mahmud

("Səhra yuxuları", Anar), Mirzə Cavad ("Aydın", Cəfər Cabbarlı), Rəhmanzadə ("Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev), İbn Tahir ("Dar ağacı", Bəxtiyar Vahabzadə), Naşir ("Kəllə", Nazim Hikmət), Kişi ("Hərdən mənə mələk də deyirlər...", Kamal Abdulla), Boraçio ("Heç nədən hay-küy", Vilyam Şekspir), Həmzad Qurban ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə).

**Elxan Ağahüseynoğlu**

Daha çox tipik xarakterli ikinci dərəcəli rollar oynayıb. Yaradıcılığının potensial inikanları, əsasən, realist aktyor məktəbinin estetik göstəricilərinə uyğundur.

Elxan Ağahüseyn oğlu Hüseynov 1942-ci il dekabrın 8-də Bakıda doğulub. Bakı Mədəni Maarif Texnikumunu və ADİİ-nin dram və kino aktyorluğu fakültəsini (1967-1971) bitirib. AMDT-də 1960-cı ildən işləyir. Xalq artistidir (24 dekabr 2002).

Aktyorun yüzə yaxın rolu arasında Naib ("Xəyyam", Hüseyn Cavid), Həmzə bəy ("Solğun çiçəklər", Cəfər Cabbarlı), İbn Süheyl ("Dar ağacı", Bəxtiyar Vahabzadə), Robinzon ("Cehizsiz qız", Aleksandr Ostrovski), Mirzə Cəfər ("Anamın kitabı", Cəlil Məmmədquluzadə), Pantaleymon Polikarpoviç ("Mənim sevimli dəlim", Elçin), Şimrəli ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Lisanoviç ("Hökmdar və qızı", İlyas Əfəndiyev), Təlxək ("Heç nədən hay-küy", Vilyam Şekspir), Mirzə Qoşunəli ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev) səhnə surətləri seçilirlər.

## AKADEMİK MİLLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI (1960-2004)

### İkinci dərs

### HAMLET XANIZADƏ (5.6.1941-23.2.1990)

Yaradıcılığı, əsasən, lirik-psixoloji üslublu aktyor məktəbinin estetikası əsasında formalaşıb. Mürəkkəb faciə rollarını, ziddiyyətli xarakterə malik romantik-dramatik obrazları da ustalıqla yaradıb. Tipik epizod rollarda satiranın və tragikomediyanın ifadə vasitələrindən bacarıqla bəhrələnə bilirdi.

Hamlet Bəbir oğlu Xanızadə 1941-ci il iyunun 5-də Bakıda doğulub. ADTİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1965). Son kursda oxuyanda institutda oynadığı maraqlı rollara görə onu AMDT-nin aktyor heyətinə qəbul ediblər. Respublikanın əməkdar artisti idi (1982). Hüseyn Cavidin "İblis" faciəsindəki İblis roluna görə 1984-cü ildə Dövlət mükafatı ilə təltif edilib. İyirmiyə yaxın bədii filmə çəkilib. "Yeddi oğul istərəm", "Babək" və "Arxadan vurulan zərbə" kinolentlərindəki Gizir, Xəlifə Mötəsim və İmaş onun ən maraqlı ekran obrazlarıdır.

Hamlet Xanızadə 1986-cı il may ayının 5-də teatrdan çıxaraq Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasma gedib. Aktyorun ifa etdiyi səhnə obrazları içərisində yaradıcılıq baxımından daha xarekterikləri və daha məzmunluları bunlardır: Həsən Sabbah ("Xəyyam", Hüseyn Cavid), Nizami ("Atabəylər", Nəriman Həsənzadə), Antonio ("Fırtına", Vilyam Şekspir), ikinci azarlı, Molla Abbas ("Ölülər" və "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Doktor ("Şöhrət və ya unudulan adam", Nazim Hikmət), Akop ("Xanuma", Avksenti Saqareli), Vurm ("Məkr və məhəbbət", Fridrix Şiller), kleş ("Həyatın dibində", Maksim Qorki), Tom ("Şüşə heyvanxana", Tennessi Uilyams), Doktor Kərim, Fənd Fərəc ("Səhra yuxuları" və "Adamın adamı", Anar), Müttəhim ("İstintaq", Rüstəm İbrahimbəyov), Don Martin ("Bəşərin komediyası, yaxud Don Juan",

Mirzə İbrahimov), Hüsaməddin ("Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında işləyəni Tofiq Kazımov), Qacar ("Vaqif", Səməd Vurğun), Kurçayev ("Müdriklər", Aleksandr Ostrovski), Keyts ("Qızıl", Yucin O'Nil), Qaraçı oğlan ("Canlı meyit", Lev Tolstoy).

Hamlet Xanızadə 23 fevral 1990-cı ildə Bakıda vəfat edib və doğma kəndi Şağanda dəfn olunub.

## SƏMƏNDƏR RZAYEV (2.1.1945-27.3.1986)

Amansız ölümün səhnədən çox erkən ayırdığı, istedad təşnəsi geniş diapazonlu, qəltanlı və gur, cingiltili səsli, həm facia, həm dram, həm də komediya aktyoru Səməndər Mənsim oğlu Rzayev 27 mart 1945-ci ildə Ağsuda doğulub. Aktyorluqla rayondakı dram dərnəyində məşğul olmağa başlayıb.

Azərbaycan Dövlət Teatr tnstitutunun aktyorluq fakültəsində təhsil alıb (1964- 1968). Sənət müəllimləri Rza Təhmasib, Mehdi Məmmədov, Ədil İsgəndərov və başqaları olub. Hələ tələbəliyin ilk kurslarından televiziyadakı çıxışları ilə qiraət ustası kimi sevilib. Klassik Azərbaycan şairlərinin, demək olar, hamısından nümunələr söyləyib. Ömrünün sonunadək radionun "Bulaq" folklor toplusunun Bulaq Dədəsi olub. Son kursda oxuyanda Milli Dram Teatrında oynanılan Vilyam Şekspirin "Hamlet" faciəsində Horatsio rolunu ifa edib və aktyor truppasına götürülüb. Tez bir zamanda repertuardakı ən mürəkkəb janrlı tamaşalarda əsas ifaçıya çevrilən Səməndər Rzayevin istedadında "ölçü", "hədd" yox idi. O, hər tipli personajı asanlıqla özünün yaradıcılıq üslubuna uyğunlaşdırırdı.

Milli və dünya klassiklərindən Hüseyn Cavidin "Xəyyam" (Xacə Nizam), "Knyaz" (Knyaz), "İblis" (İbn Yəmin), Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (Hatəmxan ağa), Səməd Vurğunun "Vaqif" (Vaqif), "İnsan" (Valentin), Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" (Fazil Küleyni), Cəfər Cabbarlının "Aydın" (Balaxan), Məmməd Səid Ordubadinin "Qılınc və qələm" (Əmir İnanc), Fridrix Dürrenmattın "Böyük Romul" (Sezar Rupf), Maksim Qorkinin "Meşşanlar" (Bessemenov), Aleksandr Ostrovskinin "Müdriklər" (Qlumov), Sabit Rəhmanın "Küləklər" (Kapitan), Raço Stoyanovun "Qısqanc ürəklər" (Usta Dobri), Vilyam Şekspirin "Heç nədən hay-küy" (Doqberi), "Fırtına" (Kaliban) pyeslərinin tamaşalarında müxtəlif xarakterli rollarda çıxış edib.

Səməndər Rzayevin yaradıcılığının ikinci əsas qanadını cağdaşımız olan insanların xarakterinin ifası təşkil edir. Bu baxımdan onun Qənimət, Muratov, Vahid ("Məhv olmuş gündəliklər", "Qəribə oğlan", "Bağlardan gələn səs", İlyas Əfəndiyev), İkinci Rəşad, Əmir ("İkinci səs" və "Fəryad", Bəxtiyar Vahabzadə), Mazar bəy ("Közərən ocaqlar", Mirzə İbrahimov), Tərlan ("Sənsiz", Şıxəli Qurbanov), Bəhram, Xudayar bəy ("Şəhərin yay günləri" və "Sizi deyib gəlmişəm", Anar), Eldar ("Sən yanmasan...", Nəbi Xəzri) səhnə obrazları daha nəzərəçarpandır.

Aktyor "Uşaqlığın son gecəsi", "Babamın babasının babası", "Od içində", "Babək", "Bəyin oğurlanınası" və digər bədii filmlərdə epizod və aparıcı obrazlara çəkilib.

Səməndər Rzayev özgələşmə prinsipini səhnədə böyük məharətlə həyata keçirən aktyor idi. Səhnədə baş verə biləcək hər hansı gözlənilməz hadisə anında yüksək peşəkarlıqla improvizə edirdi. Xırda bir detaldan, adi bir deyim tərzindən yüksək, koloritli xarakter yaratmaq səviyyəsində bəhrələnirdi. Son dərəcə yüksək və əlvan çeşidli səhnə texnikası vardı. Cingiltili, gurultulu və ləngərli səsini obrazların xarakterlərinə uyğun tərzdə, möhtəşəm sənətkarlıqla idarə edirdi. Aktyorluq texnikasının hüdudları nəhayətsiz idi.

Səməndər Rzayev Azərbaycan Respublikasının əməkdar artisti (1 iyun 1974) və "Şəhərin yay günləri" dramındakı Bəhram Zeynallı roluna görə Dövlət mükafatı laureatı idi (1978). Ağır xəstəlikdən 27 mart 1986-cı ildə Bakıda vəfat edib.

**ŞƏFİQƏ MƏMMƏDOVA (30 MART 1945)**

Milli teatr sənətimizdə nadir aktrisa olub ki, səhnəyə ilk addımından ulduz kimi işıq saçsın, dünya dramaturgiyasının tacı sayılan əsərlərdə baş rolları oynayıb misilsiz qələbələr qazansın. Həmin nadir sənətçilərdən biri də Şəfiqə Məmmədovadır. O, yaradıcılığı daxili ehtirası, çılğın romantik pafosu, həssas lirizmi, çoxsaylı psixoloji dərinliyi, səhnə hərarəti, faciə temperamenti, yumor cazibədarlığı, satirik məna yükü ilə seçilən sənətkardır. Eyni gündə gündüz Vilyam Şekspirir "Fırtına" faciəsinin tamaşasında Ariel oynayıb salonu titrədən aktrisa, axşam Anarın "Adamın adamı" satirik komediyasında Nazlı Qəmzəli kimi tipik məişət personajını qrotesn boyalarla rəsm edib.

Şəfiqə Haşım qızı Məmmədova 30 mart 1945-ci ildə qədim Azərbaycan şəhəri, hazırda Dağıstan Muxtar Respublikasının nəzdindəki Dərbənd şəhərində doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunun Musiqili Komediya aktyorluğu fakültəsini bitirib (1968). Anarın "Şəhərin yay günləri" pyesinin tamaşasındakı Dilarə roluna görə respublika Dövlət mükafatına (1980) və Rasim Ocaqovun çəkdiyi "İstintaq" filmindəki Müstəntiqin arvadı obrazı üçün SSRİ Dövlət mükafatına (1981) layiq görülüb. 1 iyun 1974-cü ildə respublikanın əməkdar artisti, 1 dekabr 1982-ci ildə xalq artisti fəxri adları ilə təltiflənib.

Milli Dram Teatrının truppasına 1968-ci ildə qəbul olunub. Aktrisa Vilyam Şekspirin "Hamlet" (Gertruda), Aleksandr Şirvanzadənin "Nakam qız" (Sona), Lev Tolstoyun "Canlı meyit" (Maşa), Çingiz Aytınatovun "Ana torpağı" (Cenşengülün arvadı), Hüseyn Cavidin "Xəyyam" (Sevda), Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" (Pırpız Sona), Fridrix Şillerin "Məkr və məhəbbət" (Ledi Milford), Yucin O'Nilin "Qızıl" (Süzen) faciələrində, İlyas Əfəndiyevin "Bağlardan gələn səs" (Gülcan), "Mənim günahım" (Nurcahan), "Məhv olmuş gündəliklər" (Anjel), Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (Nihal), İmran Qasımovun "Nağıl başlananda" (Tahirə) lirik-psixoloji dramlarında, Mirzə İbrahimovun "Bəşərin komediyası və ya Don Juan" (Teadora), Maksİm Qoreinin "Meşşanlar" (Yelena Nikolayevna), Səməd Vurğunun "İnsan" (Nataşa), Raço Stoyanovun "Qısqanc ürəklər" (Miakina), Cəfər Cabbarlının "Aydın" (Gültəkin), Nikolay Poqodinin "Zamanın hökmü" (İrina), Əkrəm Əylislinin "Yastı təpə" (Bəyaz) pyeslərində cazibədar səhnə obrazları yaradıb.

Şəfiqə Məmmədova "Qaraca Qız" (Qız), "Dədə Qorqud" (Burla xatun), "İstintaq" (Gülya), "Bizim Cəbiş müəllim" (Cəbişin arvadı), "Ad günü" (Fəridə), "Çarvadarların izi ilə" (Səriyyə) bədii filmlərinə çəkilib.

Yaradıcılığının parlaq dövründə, 1980-ci ildə aktrisa ailə qayğıları ilə bağlı teatrdan uzaqlaşaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (keçmiş Teatr İnstitutu) pedaqoji fəaliyyətə başlayıb. Milli Məclisin deputatı olub (1995-2000).

Şəfiqə Məmmədovanın coşğun səhnə ehtirası və mürəkkəb, ancaq zərif hərəkət, davranış plastikası var. İstisnasız olaraq bütün rollarında improvizə etməyi xoşlayır. Standart, kirəclənmiş ifadə oyun vərdişlərindən cəsarətlə imtina etməklə, səhnəyə dəyərli, incə və emosional ifadə vasitələri gətirib. Mehdi Məmmədov, Tofiq Kazımov kimi qüdrətli rejissorların verdikləri mizanların estetik məna tutumuna xələl gətirmədən səhnədə sərbəst və ifadəli davranışlarla gözlənilməz sınaqlar keçirməkdən çəkinməyib. Obrazın sözlərini əzbərləməmişdən əvvəl mütləq onun səhnə görümünü müəyyənləşdirir. Xarakterini tapa bilmədiyi surəti ifa etməyə razılıq vermir. Səhnə xarakterini tapmağa isə bəzən çox az, hərdən isə çox vaxt sərf edir. Səhnədə əl-qol hərəkətlərini xoşlayır və işlətdiyi jestlərin estetik gözəlliyinə və məna tutumuna xüsusi diqqət yetirir.

Şəfiqə Məmmədovanın daxili ehtirası, potensial aktyorluq gücü nə ölçüyə gəlirdi, nə çərçivəyə sığırdı, nə də yüyənə, cilova yatırdı. Buna görə Tofiq Kazımov da, Mehdi Məmmədov da onunla işləyəndə aktrisaya qəlibə salınmış mizanlar vermirdilər. Şəfiqə Məmədova istisnasız olaraq bütün tamaşalarda əsərin ümumi fikir poetikası daxilində sərbəst mizan improvizələri edirdi.

## ƏLİABBAS QƏDİROV (13 FEVRAL 1946)

Yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinliyinə uyğundur. Daxilən ehtiraslı və hərarətli temperamentə, dinamik plastikaya malik aktyordur.

Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakıda doğulub. ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1969). Bir il institutun Tədris teatrında işləyib. 1970-ci il aprel ayının 6-dan AMDT-nin aktyorudur. 26 dekabr 2001-ci ildə teatra bədii rəhbər və direktor təyin olunub. Respublikanın xalq artistidir (17 may 1989). "Sevinc buxtası" filmindəki Nazim roluna görə Dövlət mükafatı laureatıdır. Ondan çox bədii filmə çəkilib.

Aktyorun sənət nailiyyətləri baxımından Kürd Musa ("Vaqif", Səməd Vurğun), Vasif ("İblis", Hüseyn Cavid), Qlumov ("Müdriklər", Aleksandr Ostrovski), Mirzə Şəfi ("Mənsiz dünya", Nəbi Xəzri), Kamran, Həbib, Seyid Hüseyn, Kərim bəy, Mircəfər Bağırov, İbrahim xan ("Bizim qəribə taleyimiz", "Büllur sarayda", "Xurşidbanu Natəvan", "Tənha iydə ağacı", "Sevgililərin cəhənnəmdə vüsalı" və "Hökmdar və qızı", İlyas Əfəndiyev), Qraf Qloster ("Kral Lir", Vilyam Şekspir), Tərlan ("Sənsiz", Şıxəli Qurbanov), Qara xaqan ("Özümüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə), Ənvər, Balaş ("Ədirnə fəthi" və "Sevil", Cəfər Cabbarlı), Diş həkimi ("Biganələr oteli", Rüstəm İbrahimbəyov), Bəhram ("Fitnə", Abdulla Şaiq), Nostradamus ("Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz) rolları daha uğurlu olub.

## FUAD POLADOV (24 MAY 1948)

Lirik-psixoloji üslublu aktyorluq məktəbinin qabaqcıl sənətkarlarından biridir. İstedadının formalaşdığı bu üslubun çoxqatlı çalarlarına istinad edən aktyor fəlsəfi-dramatik və faciə rollarını məharətlə oynayır.

Fuad Ağarəhim oğlu Poladov 1948-ci il may ayının 24-də Bakıda doğulub. Sənətə 1966-cı ildə "İstintaq davam edir" filmində çəkildiyi Səlim rolu ilə gəlib. ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1967-1972). Sənət müəllimi Tofiq Kazımovun dəvəti ilə tələbə ikən Akademik Milli Dram Teatrında hazırlanan İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" pyesinin tamaşasında Savalan rolunu oynayıb. Premyerası 1969-cu il noyabrın 29-da göstərilən tamaşadan sonra Fuad Poladov teatrın aktyor truppasına daxil olub. İyirmi il bu kollektivdə işləyən sənətkar 1989-cu ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının aktyorudur. Xalq artistidir (20 mart 1987).

Fuad Poladovun səhnədə yaratdığı bütün obrazların taleyi ifa baxımından uğurlu olub. Aktyorun yüksək sənətkarlıqla oynadığı Rəhman, Valeh, Qədim, Mübarək Səltənə ("Mahnı dağlarda qaldı", "Qəribə oğlan", "Büllur sarayda" və "Şeyx Xiyabani", İlyas Əfəndiyev), Cığatay ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Fərhad ("Məhəbbət əfsanəsi", Nazim Hikmət), Şahbaz bəy ("Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Şöklü Məlik ("Torpağa sancılan qılınc", Nəbi Xəzri), Zaur ("Təhminə və Zaur", Anar), Baron ("Həyatın dibində", Maksim Qorki) rolları yüksək bədii dəyərli səhnə surətləridir.

Teatrın dəvəti ilə Fuad Poladov 29 mart 2002-ci ildə Akademik teatrda Vilyam Şekspirin eyniadlı faciəsində Hamlet rolunu uğurla oynayıb.

Fuad Poladov səhnədə düşünməyi, düşüncələrini fəlsəfi dəyərlərlə çatdırmağı, ən adi obraza da psixoloji ahəng verməyi bacarır.

Fuad Poladovun səhnə plastikası ifa etdiyi obrazın psixoloji və emosional duyğularına uyğun şəkildə dəyişir. Bu yaradıcılıq xüsusiyyətləri hər dəfə yeni ölçü-biçidə və orijinal təqdimdə tamaşaçılara çatdırılır.

Fuad Poladov obraza ictimai dəyər gətirməyi, ona psixoloji-sosial mahiyyət aşılamağı sevən və bunu yüksək peşəkarlıqla öz oyununda realizə edən aktyordur.

**AKADEMİK MİLLİ DRAM**
**TEATRINDA AKTYOR YARADICILIĞI**
**(1960-2004)**

**Üçüncü dərs**

## SƏYAVUŞ ASLAN (5 SENTYABR 1935)

Azərbaycan realist aktyor məktəbinin görkəmli nümayəndələrindən biri olan Səyavuş Məmmədağa oğlu Aslanov (Aslan) 1935-ci il sentyabr ayının 5-də Bakıda doğulub. Aktyorluğa həvəskar kimi dram dərnəyindən başlayıb. 1954-cü ildə az müddət musiqili komediya estrada truppasında, 1958-ci ildə Quba Dövlət Dram Teatrında işləyib. 1954-1957-ci illərdə hərbi xidmətdə olub. Uzun illər Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aparıcı aktyorlarından idi. Bir müddət həmin teatrın bədii rəhbəri işləyib (1994-1996).

O, 1984-cü ilin oktyabrından Akademik Milli Dram Teatrının aktyorudur (qısa fasilə ilə).

Səyavuş Aslan AMDT-də Mindilli ("Nişanlı qız", Sabit Rəhman), Luka ("Həyatın dibində", Maksim Qorki), Arif ("Kərgədan buynuzu", Maqsud İbrahimbəyov), Ağəli ("Günah", Rəhman Əlizadə), Romul Avqustul ("Böyük Romul", Fridrix Dürrenmatt), Oddamdı ("Od gəlini", Cəfər Cabbarlı), Vəzir Mirzə Həbib ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Fəriş, Vano Koxa, Cabbar, Ağamusa Fərəcov, Ağayi Əşrəfi ("Bizim qəribə taleyimiz", "Hökmdar və qızı", "Sevgililərin cəhənnəmdə vüsalı", "Dəlilər və ağıllılar" və "Tənha iydə ağacı", İlyas Əfəndiyev), Qərib Qulam ("Mənsiz dünya", Nəbi Xəzri), Abış Surxayeviç ("Əcəb işə düşdük", Şıxəli Qurbanov), Əsədulla, Baş redaktor, Kişi, Yoldaş tək ("Ah, Paris... Paris!..", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir" və "Poçt şöbəsində xəyal", Elçin), Poloni ("Hamlet", Vilyam Şekspir), Jeront ("Skapenin kələkləri", Jan Batist Molyer), Sarı ("Varlı qadın", Əli Əmirli) rollarını oynayıb.

Azərbaycan Respublikasının əməkdar artisti (1 iyun 1974) və xalq artisti (1 dekabr 1982) fəxri adları var.

"Romeo mənim qonşumdur" (Səməd), "Əhməd haradadır?" (Saqqal Ramiz), "Bəyin oğurlanınası" (Filmin direktoru), "Ulduz" (Şubay), "Evlənmək istəyirəm" (Hacı Kamyab), "Yol hadisəsi" (MİS rəisi) filmlərinə çəkilib. Televiziya tamaşalarında, irili-xırdalı, yüzdən çox obraz ifa edib.

Aktyor xalq oyun-tamaşa estetikasının prinsiplərindən həssaslıqla istifadə edir. Səhnədə çevikliyi, hazırcavablığı, gözlənilməz qrotesk dönüşləri, şux gülüşü və bol yumoru ilə çox canlı, məlahətli və cazibəli görünür. Zəngin ifadə vasitələri, mənalı hərəkətlər kompleksi, məzmunlu sifət ifadə cizgiləri oynadığı obrazlara təravət və canlılıq verir.

Dramatik və hətta faciə xarakterli obrazları oynamağa da meyillidir. Sənətinin lətafəti həmin rollarda yeni prizmadan, təzə psixoloji rakursdan təcəssüm tapır.

## YAŞAR NURİYEV (3 SENTYABR 1951)

Görkəmli komediya aktyorudur, lakin psixoloji və dramatik rolları da məharətlə oynayır. "Nuri" təxəllüsü ilə də çıxış edir.

Yaşar Məmmədsadıq oğlu Nuriyev 1951-ci il sentyabr ayının 3-də Bakıda aktyor ailəsində doğulub. Səhnəyə ilk dəfə on bir yaşında ADMKT-də "Toy kimindir?" (dramaturq Məhərrəm Əlizadə, bəstəkar Ağası Məşədibəyov) tamaşasında Tapdıq rolunda çıxıb. Məktəbli vaxtlarında dövlət televiziyasının "Yeikən" verilişinin aparıcılarından olub. Müxtəlif dram dərnəklərinə gedib. Yaşar Nuriyev ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1972). Bir il orduda xidmət edib və institutun tədris teatrında aktyor işləyib. Aktyor 1974-cü il dekabr ayının 1-dən AMDT-nin truppasında çalışır. Səhnədə ilk rolu Aleksandr Vampilovun "Övlad" ("Böyük oğul") Komediyasının

tamaşasında Silva rolu olub. Tez bir zamanda truppanın aparıcı aktyorları sırasma daxil olan Yaşar Nuriyevin aşağıdakı rolları aktyorun zəngin yaradıcılığının əsas səhifələrini təşkil edir.
Aktyor müxtəlif illərdə və müxtəlif rejissorların quruluşlarında Alışov ("Kəndçi qızı", Mirzə İbrahimov), Kürd Musa ("Vaqif", Səməd Vurğun), Məşədi Oruc, Sərsəm Salman ("Ölülər" və "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Bayandur, Davud ("Büllur sarayda" və "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev), Əbdüləli bəy, Altunbay ("Sevil" və "Od gəlini", Cəfər Cabbarlı), Vəzir Mirzə Həbib ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Odakar ("Böyük Romul", Fridrix Dürrenmatt), Xanəhməd ("Qızıl teşt", Seyran Səxavət), Molla Nəsrəddin, Polkovnik Əmir, Namiq ("Sizi deyib gəlmişəm... ", "Səhra yuxuları" və "Şəhərin yay günləri", Anar), İsgəndərzadə, Şöbə müdiri ("Ah, Paris... Paris!.. " və "Mənim sevimli dəlim", Elçin), Xandəmir ("Afət", Hüseyn Cavid), Milan ("Biganələr otelində", Rüstəm İbrahimbəyov), Cığatay ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Aktyor ("Həyatm dibində", Maksim Qorki), Conatan Piçem ("Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl), Qurbanqulu ("Mirzə Şəfi Vazeh", Nəbi Xəzri), Məzarçı ("Hamlet", Vilyam Şekspir) rollarını oynayıb.

Yaşar Nuriyev səhnədə yöndaşları ilə çox səmimidir, səsi, görünüşü ürəyəyatımlıdır. Onun səmimiyyəti ifa etdiyi səhnə surətlərinin qavranılmasma təkan verir. Əzəmətli aktyordur və bu əzəmətin mayasında yaradıcı istedad, axtarışlarının təkamülü durduğuna görə o, səhnə boşluqlarmı təkbaşına məharətlə doldura bilir.
Yaşar Nuriyev cəsarətli aktyordur. Qəliz rəqs nömrələrini, muğam və ya estrada, yaxud aşıq musiqisi üzərində qurulan satirik, dramatik, psixoloji, Komik, qroteskli, Karnaval estetikasma uyğun obrazların ifasmda qətiyyətlə uğur qazana bilir.

Səhnədə həmişə canlıdır, təravətlidir, dadlı-tamlıdır, ürəklərə yol tapandır.

Respublikanın xalq artistidir (1 mart 1989), Dövlət mükafatı laureatıdır (1984). Aktyor əlliyə yaxın bədii filmə çəkilib, yüzdən çox televiziya tamaşasında iştirak
edib. İsrafil ("Bəyin oğurlanması"), Mərahim ("Fransız"), Maşallah ("Yaramaz"), Əbdülqəni ("Hər şey yaxşılığa doğru") filmləri ona başqa ölkələrdə də şöhrət qazandırıb.

* * *

**Ramiz Məlik**

"Məliik" səhnə təxəllüsüdür. Aktyor 1990-cı ildən sonra həmin təxəllüslə çıxış edir. Ramiz Ağarza oğlu Məlikov 4 avqust 1943-cü ildə Bakida doğulub. ADTİ-nin dram və Kino aktyorluğu fakultəsini bitirib (1967). Həmin il sentyabr ayının 16-dan AMDT-nin aktyor ştatındadır. Xalq artistidir (24 may 1998). "İblis" tamaşasındakı Arif roluna görə Dövlət mükafatı laureatıdır (1985). Dyula ("Füsunkar qız", Mikolaş Dyarfaş), Barat ("Qəribə oğlan", İlyas Əfəndiyev), Sebastian, Don Juan ("Fırtına" və "Heç nədən hayküy", Vilyam Şekspir), Valter ("Yad adam", Leonqard Frank), Aqşin, Haris ("Od gəlini" və "Ədirnə fəthi", Cəfər Cabbarlı), Qızıl Arslan ("Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofiq Kazımovun işləməsi), Formasyon Rüstəm ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Dulu xaqan ("Özümüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə) aktyorun əsas rorllarıdır.

**Mikayıl Mirzə**

Romantik aktyor məktəbinin istedadlı nümayəndəsidir. Gur səsi, coşğun səhnə temperamenti var. Mikayıl Şahvələd oğlu Mirzəyev 1947-ci il yanvarın 1-də Şamaxı rayonunun Talış Kəndində doğulub. ADİİ-nin dram və Kino aktyorluğu fakultəsini bitirib (1969). Institutun Tədris Teatrında işləyib. 1976-cı ildən 2000-ci ilə qədər (müxtəlif fasilələrlə) AMDT-də aktyor işləyib. İki dəfə Milli Məclisə deputat seçilib. Azərbaycan Respublikasının xalq artistidir (22 may 1991).

Mikayıl Mirzə teatrda Kürd Musa, Fərhad ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), Muratov, Eyvaz ("Qəribə oğlan" və "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev), Aslan ("Kəndçi qız", Mirzə İbrahimov), Zahid ("Fəryad", Bəxtiyar Vahabzadə), Elxan ("Od gəlini" Cəfər Cabbarlı), Cinli Mustafa ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), İxtiyar ("İblis", Hüseyn Cavid) rollarını oynayıb.

**Zərnigar Agakişıyeva**

Karnaval estetikalı şən komediya rollarında və tipik cəhətləri ilə diqqəti cəlb edən obrazların ifasında şövqlə oynayır. Zərnigar Fəti qızı Ağakişiyeva 1945-ci il noyabr ayının 7-də Quba rayonunun Rustov kəndində doğulub. ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1972). Dəvətlə AMDT-də bir neçə rol oynayan aktrisa 1974-cü il sentyabrın 2-dən teatrın aktrisasıdır (müəyyən fasilələrlə). Respublikanın xalq artistidir (28 oktyabr 2000).

Aktrisanın Xuraman ("Vaqif", Səməd Vurğun), Dilbər ("Sevil", Cəfər Cabbarlı), Fəxrəndə xanım ("Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev), Pəri xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Xəbərçi Xədicə ("Adamın adamı", Anar), Tatyana ("Meşşanlar", Maksim Qorki), Maral ("Közərən ocaqlar", Mirzə İbrahimov), Mamayeva ("Müdriklər", Aleksandr Ostrovski), Qadın ("Kəllə", Nazim Hikmət) rolları daha maraqlı alınıb.

**İlham Namiq Kamal**

Yüksək səhnə mədəniyyətinə malik komedıya aktyorudur, lakin dramatik rollar da oynayıb. İlham Namiq Kamal oğlu Əhmədov 1949-cu il yanvar ayının 9-da Bakıda anadan olub. ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1970). 1972-ci il fevral ayının 3-də Akademik teatrın aktyor ştatına götürülüb. Özünün "İlham" miniatür teatrı var və bununla əlaqədar olaraq bir müddət (1993-1998) kollektivdən ayrılıb. Respublikanın xalq artistidir (24 dekabr 2002).

Aktyorun çoxsaylı rollarının sırasında Təlxək ("Vaqif", Səməd Vurğun), Firuz, Lağlağı ("Şəhərin yay günləri" və "Sizi deyib gəlmişəm", Anar), Müsyö Jordan ("Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Hacı Mədinə "Dəli yığıncağı" ), Adrian ("Fırtına", Vilyam Şekspir), Mattias ("Üç quruşluq opera", Bertolt Brext və kurt Vayl), Bubnov ("Həyatın dibində", Maksim Qorki), Feyzulla ("Quşu uçan budaqlar", Əkrəm Əylisli), Doktor Qaratay ("Afət", Hüseyn Cavid) səhnə obrazları xüsusi yer tuturlar.

**Ramız Novruz**

Zahiri pafosdan və ritorikadan uzaq olmaga çalışır və lirik təmayüllü psıxoloji rollarda daha çox uğur qazanır. Ramiz Qəvvam oğlu Novruzov 1955-ci il may ayının 25-də Biləsuvar rayonunun Səmədabad kəndində doğulub. ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib. Əvvəl Sumqayıt teatrında işləyib və 16 may 1981-ci ildən AMDT-nin truppasındadır. Respublikanın xalq artistidir (24 may 1998).

Əsas rolları: Qacar ("Vaqif", Səməd Vurğun), İbn Yəmin ("İblis", Hüseyn Cavid), Yaralı zabit ("Biganələr oteli", Rüstəm İbrahimbəyov), Rəbi, Surxay ("Od gəlini" və "Aydın", Cəfər Cabbarlı), Cəmil, Məhəmməd Cuvarlı ("Bizim qəribə taleyimiz" və "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev), Pompey ("Pompeyin Qafqaza yürüşü", Nəriman Həsənzadə), Edmund ("Kral Lir", Vilyam Şekspir), Nostradamus ("Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz).

**Nurəddin Mehdixanlı**

Romantik pafosa, gur səsə, coşğun daxılı temperamentə malik aktyordur. Nurəddin Əzulla oğlu Quliyev (Mehdixanlı) 1956-cı il oktyabr ayının 6-da Cəlilabad rayonunun Tahirli kəndində doğulub. ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1978) və Akademik teatrın truppasına daxil olub. 1989-cu ildə teatrdan çıxıb və beş il sonra yenə kollektivə qayıdıb. Xalq artistidir (24 dekabr 2002).

Yazon ("Medeya", Jan Anuy), İppolit ("Fedra", Jan Rasin), Əbu Übeyd, Aydın, Orxan ("Od gəlini", "Aydın" və "Ədirnə fəthi", Cəfər Cabbarlı), Təbriz, Məşədi Təhməz ("Büllur sarayda" və "Şeyx Xiyabani", İlyas Əfəndiyev), Gur Şad "Özumüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə), Yaralı əsgər ("Hələ" "sevirəm" "deməmişdilər...", Ramiz Novruz), Ərtoğrul ("Afət", Hüseyn Cavid) rollarında uğurlar qazanıb.

**Bəsti Cəfərova**

Yaradıcılığı romantik və realist aktyor məktəblərinin poetika göstəriciləri əsasında formalaşıb. Bəsti Əli qızı Cəfərova 1959-cu il iyun ayının 13-də Bakıda doğulub. ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib (1980). Son kursda Akademik teatrda Səltənət ("Quşu uçan budaqlar", Əkrəm Əylisli) rolunu oynayıb və 1980-ci il avqust ayının 26-dan truppanın aktrisasıdır. Azərbaycanın xalq artistidir (24 may 1998).

Aktrisa teatrda oynadığı Luiza Bruk ("Səhra yuxuları", Anar), Pakizə ("Mirzə Şəfi Vazeh", Nəbi Xəzri), Lalə, Ağabəyim ağa ("Büllur sarayda" və "Hökmdar və qızı", İlyas Əfəndiyev), Gülbahar ("Anamın kitabı", Cəlil Məmmədquluzadə), Afət ("Afət", Hüseyn Cavid), Ədilə ("Poçt şöbəsində xəyal", Elçin), Fedra ("Fedra", Jan Rasin), Qonorilya ("Kral Lir", Vilyam Şekspir) rollarında öz istedadının səviyyəsini göstərə bilib.

**Zemfira Nərimanova**

Müxtəlif səpkili rollarda oynasada, lirik və dramatik-psixoloji obrazlarda daha səriştəli görünür. Zemfira Əli qızı Nərimanova 1959-cu il aprel ayının 20-də Bakıda doğulub. 1980-ci ildə ADİİ-nin dram və kino aktyorluğu fakültəsini bitirib və avqust ayının 26-da Akademik teatrın ştatına götürülüb. Azərbaycanın xalq artistdir (28 oktyabr 2000).

Sofi ("Yad adam", Leonqard Frank), Kleopatra ("Kölgələrin oyunu", Yuri Edlis), Paolina ("Kəllə", Nazim Hikmət), Mariya ("Biganələr oteli", Rüstəm İbrahimbəyov), Arzu ("Kimdir haqlı?", Bəxtiyar Vahabzadə), Nübar ("Məhəbbət yaşadır", Nahid Hacızadə), Çıçək ("Torpağa sancılan qılınc", Nəbi Xəzri), Şölə xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Züleyxa ("Ah, Paris... Paris!..", Elçin), Kama ("Kərgədan buynuzu", Maqsud İbrahimbəyov) aktrisanın daha canlı və təravətli rollarıdır.

**Fırəngız Mutəllimova**

Səhnə məlahəti, cazibəli şirinliyi, istedadının lirizmi, həssas zərifliyi, dramatik coşğunluğu, emosional və təbii yumoru oyadığı rollara təravət verir. Firəngiz Bəhər qızı Mütəllimova 1959-cu il mayın 1-də Ağcabədidə doğuulub. Əslən Şuşalıdır.ADİİ-nin dram və kino aktyorluğu fakültəsini 1980-ci ildə bitirib, həmin il avqust ayının 26-da AMDT-nin truppasında işləyir (arada müəyyən fasilə ilə). Azərbaycanın xalq artisdidir (28 oktyabr 2000).

Aktrisa teatrda oynadığı Bəyim, Gülrux, Mələk ("Xursidbanu Natəvan", "Şeyx Xiyabani" və "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev), Nisə xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Arvad ("Mənim ərim dəlidir", Elçin), Həvva ("Varlı qadın", Əli Əmirli), Salehə ("Gülüstanda qətl", Cəmil Əlibəyov), Adela ("Dişi canavar", Federiko Qarsia Lorka), Reya ("Böyük

Romul", Fridrix Dürrenmatt), Nədidə ("Qanlı Nigar", Sadıq Şendil) rolları ilə tamaşaçıların rəğbətini qazanıb.

* * *

Haqqında söhbət gedən dövrdə teatrda əməkdar artistlər Məcnun Hacıbəyov (1935), Aqşin Vəlixanov (1936-1998) ki-mi koloritli aktyorlar işləyiblər. Hazırda truppada xalq artistləri Laləzar Mustafayeva, Məleykə Əsədova, əməkdar artistlər Bürcəli Əsgərov, Rafael Dadaşov, Sadıq İbrahimov, Telman Əliyev, Firuz Xudaverdiyev, Kübrabəyim Əliyeva, Əli Nur, Pərviz Bağırov, Cəfər Namiq Kamal, Telman Adıgözəlov, Şükufə Yusupova, Elxan Quliyev, Sabir Məmmədov, Sənubər İsgəndərova, Səidə Quliyeva, Hicran Nəsirova, Sevinc Əliyeva, İlham Əsgərov, Mətanət Atakişiyeva, Mehriban Xanlarova, bacarıqlı aktyorlardan Tofiq Hüseynov, Əlvida Cəfərov, Məzahir Cəlilov, İradə Ağasıbəyli (Həsənova), Abbas Qəhrəmanov, Münəvvər Əliyeva işləyirlər.

**HƏSƏN TURABOV**
**(24.3.1938-23.2.2003)**

Azərbaycanda lirik-psixoloji aktyor məktəbinin banisi Həsən Turabov sayılır. Lap gənc yaşlarından ona hörmət əlaməti olaraq afişa və proqramlarda adından sonra "ağa" sözü də yazılır. Onun yaradıcılığı təkcə möhtəşəm rolların siyahısı ilə deyil, həm də yaratdığı xarakterlərin mənəvi-əxlaqi, fəlsəfi, estetik səciyyələrinin mürəkkəb, çoxşaxəli olması ilə zəngindir.

Həsən Səttar oğlu Turabov 1938-ci il martın 24-də Bakıda doğulub. Yeddinci sinfə qədər Bakıdakı 31 saylı məktəbdə oxuyub və orta təhsilini 14 saylı məktəbdə başa vurub. Azərbaycan Dövlət Teatr İnstitutunda təhsil ala-ala (1956-1960) həm radioda, həm də yenicə açılan televiziyada diktor işləyib. İnstitutu komik aktyor kimi qurtarıb və diplom tamaşasında Nəcəf bəy Vəzirovun eyniadlı komediyasında Hacı Qəmbəri oynayıb. 1960-cı ildən müəyyən qısa fasilələrlə Akademik Milli Dram Teatrında aktyor işləyib. 1962-ci ildə teatrdan uzaqlaşaraq Bakıdakı Odessa Dənizçilik İnstitutuna daxil olub və az sonra yenə səhnəyə qayıdaraq təhsilini yarımçıq saxlayıb.

Görkəmli aktyor 1987-ci il fevralın 18-də kollektivin səsverməsi ilə Akademik teatra direktor seçilib. 1989-cu il yanvarın 15-dən həm də sənət ocağının bədii rəhbəri idi. 2001-ci il dekabrın 13-dən öz ərizəsi ilə hər iki vəzifədən istefa verib.

SSRİ Ali Sovetinin deputatı seçilib (1989).

İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" (1972) tamaşasındakı Nicat və "Atları yəhərləyin" ("Qaçaq Nəbi". 1986) filmindəki Qaçaq Nəbi rollarına görə respublika Dövlət mükafatı laureatıdır. Respublikanın əməkdar artisti (29 aprel 1971) və xalq artisti (1 dekabr 1982) fəxri adlarına layiq görülüb. 1991 və 1996-cı illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti seçilib. Avropa Türkləri İslam Birliyinin Qızıl medalı ilə təltif olunub (1994).

Qüdrətli aktyor 23 fevral 2003-cü ildə ürək xəstəliyindən Bakıda vəfat edib.

Həsən Turabov ən gözəl səhnə və ekran rollarını otuz beş vaşına qədər oynayıb. Səhnədə son dərəcə səmimi və cazibəli, ifadə vasitələri sadə və eyni zamanda fəlsəfi-psixoloji cəhətdən dəyərli təsir bağışlayan aktyorun aşağıdakı rolları milli teatrımızın klassik obrazları siyahısına parlaq səhifələr yazıb. Bədii hüsnü və estetik təravəti ilə sənət tarixinə daxil olub.

**1962-ci il.** Vahid. "Kəndçi qızı", Mirzə İbrahimov.

**1963-cü il.** Floriano. "Dəlilər" ("Valensiya dəliləri"), Lope de Veqa. Tərcüməçi Tələt Əyyubov.

**1966-cı il.** İsgəndər. "Ölülər", Cəlil Məmmədquluzadə.

**1968-ci il.** Hamlet. "Hamlet", Vilyam Şekspir. Tərcüməçi Cəfər Cabbarlı.

**1968-ci il.** Kamran. "Unuda bilmirəm", İlyas Əfəndiyev.

**1969-cu il.** Qurban. "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev.
**1970-ci il.** Xəyyam. "Xəyyam", Hüseyn Cavid.
**1971-ci il.** Nicat. "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.
**1972-ci il**. Aydın. "Aydın", Cəfər Cabbarlı.
**1973-cü il.** Valid. "Nağıl başlananda", İmran Qasımov.
**1977-ci il**. Qiyas. "Şəhərin yay günləri", Anar.
**1978-ci il**. Qədir. "Quşu uçan budaqlar", Əkrəm Əylisli.
**1981-ci il**. Polkovnik Əmir. "Səhra yuxuları", Anar.
**1986-cı il.** Şeyx Xiyabani. "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**1987-ci il**. Hacı Əsədulla. "Mənsiz dünya", Nəbi Xəzri.
**1988-ci il.** Kamran. "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev.

Qırx il ərzində aktyor teatrın səhnəsində Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (Qatil), Yuri Osnos və Viktor Vinnikovun "Hind gözəli" (Aryaka), Səməd Vurğunun "Vaqif" (Əli bəy, İlyas və Vaqif), "İnsan" (Şahbaz), Sabit Rəhmanın "Əliqulu evlənir" (Kamal), Həsən Seyidbəylinin "Bağlı qapılar" (Qürbət), Şekspirin "Otello" (Birinci qasid), "Antoni və Kleopatra" (Eros), Hüseyn Cavidin "Şeyx Sənan" (Özdəmir), "Səyavuş" (Birinci dəliqanlı), "İblis" (İblis), Aleksis Parnisin "Gözıllik və sevgi adası" ("Afrodita adası". Anastasis), Mehdi Hüseynin "Alov" (katib), İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (Erix), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (Misirxanov), "Sənsiz" (Tərlan), Viktor Hüqonun "Mariya Tüdor" (Cəllad), Mirzə İbrahimovun "Yaxşı adam" (Azər), "Közərən ocaqlar" (Lenin), Fridrix Şillerin "Orlean qızı" (Lionel), İlyas Əfəndiyevin "Mənim günahım" (Xansu), Aleksey Kaplerin "Tufanlı il" (Vasili), Seyfəddin Dağlırun "Mənziliniz mübarək!" (Elgün), Maksim Qorkinin "Meşşanlar" (Nil), Rüstəm İbrahimbəyovun "İstintaq" (Müstəntiq), Nikolay Poqodinin "Kreml saatı" (Lenin), Arif Süleymanovun "Tufandan əvvəl" (Lenin), Anarın "Sizi deyib gəlmişəm" (Mirzə Cəlil Məmmədquluzadə), Nahid Hacızadənin "Qisas qiyamətə qalmaz" (Umud) əsərlərinin tamaşalarında oynayıb.

"Azərbaycanfilm"in istehsal etdiyi kinolentlərindən "Qara daşlar"da Radist Hüseyn, "Telefonçu qız"da Hüseyn, "Yun şal"da Cəlal, "Sən niyə susursan?"da Milis mayoru, "Sevil"də Rüstəmov, "Axırıncı aşırım"da Xəlil, "Var olun, qızlar"da Şəmsi, "Xatirələr sahili"ndə Kamran, "Qızıl qaz"da Fazilov, "Səmt küləyi"ndə Biçeraxov, "Ömrün ilk günü"ndə Mehdi, "Çarvadarların izi ilə"də Aqil, "Qatır Məmməd"də Səlimov, "Çətirimiz buludlardı" filmində Qədirov, "Dörd bazar günü"ndə Nicat, "Ürək... ürək..."də Murad, "Dərviş Parisi dağıdır"da Rəşid bəy, "Sevinc buxtası"nda Əlizadə, "Bayquş gələndə"də Rəşid, "Mən mahnı bəstələyirəm"də Ata, "Qəribə adam"da ("Mosfilm") Arif, "İstintaq"da General, "Anlamaq istəyirəm"də Neftçi Həsən, "Qızıl uçurum"da Usta Bağır, "Əlavə iz"də Əli, "Qaladan tapılan mücrü"də Qəyyum, "İlıq dənizdə buz parçası"nda Sərt kişi, "Park"da Mədən müdiri, "Nizami"də Müzəffərəddin, "Gümüşgöl əfsanəsi"ndə Ağazəki, "Qoca padşahın nağılı"nda Qoca, "Tənha narın nağılı"nda Əli, "İşarəni dənizdən gözləyin"də Baş nazir, "Şəhərli biçinçilər"də Səlim, "Qəm pəncərəsi"ndə Mirzə Cəlil Məmmədquluzadə, "Gənc qadının kişisi"ndə Rauf, "Gecə qatarında qətl"də Nağıyev, "Şahid qız"da Polkovnik, "Təhminə"də Dadaş, "Nakəs"də həbsxana rəisi, "Ailə"də Qoca, "Bu gözəl, gözəl, gözəl dünya"da Müstəntiq, "Gözlə məni"də Böyük bəy rollarına çəkilib.

Həsən Turabovun kinoda ən parlaq rolları Gəray bəy ("Yeddi oğul istərəm"), Kəbirlinski ("Dantenin yubileyi"), Afşin ("Babək"), Üçgöz Cəfər ("Qorxma, mən səninləyəm"), eyniadlı filmdə Qaçaq Nəbi, Əsəd ("Bəyin oğurlanması"), Qəzənfər Mamedoviç ("Yaramaz") obrazlarıdır.

Rejissor kimi "Tənha narın nağılı" (Şamil Mahmudbəyovla birgə) və "Atları yəhərləyin" ("Qaçaq Nəbi". Əbdül Mahmudovla birgə) filmlərini çəkib.

Həsən Turabov həssas duyumu, keçmişlə çağdaşlığı, baxanla (tamaşaçı) baxılanı (obraz) doğmalaşdırmaq məharəti, səmimiyyət yaratmaq istedadı ilə qəhrəman-xarakterin yaşadığı dövrlə salon arasındakı zaman-məsafə ayırmasını məharətlə dəf edirdi.

Həsən Turabov kiassik faciə rollarında xarakterin psixoloji dərinliyini həm emosional ifadə vasitələrinin heyrətamiz rəngarəngliyi, həm də sanki tükənməyən texniki vərdiş-fəndləri ilə tamaşaçılara təqdim edirdi. Belə vəhdətdə obrazın faciəvilik əzəməti daha canlı, daha təsiredici, düşündürücü, həyəcanlandırıcı ovqat bağışlayırdı.

Həsən Turabov böyük ehtiraslar aktyoru idi, güclü faciə xarakterli sənətkar idi. O, səhnədə özünün emosional enerjisini qurulmuş yay kimi həmişə tarıma çəkilmiş gərginlikdə saxlamağı qətiyyətlə bacarırdı.

Həsən Turabov bədii təsvircə mürəkkəb, xaraktercə təzadlı, xasiyyətcə sabit davranış ölçülərini pozan, bəzən hərzə-hədyan danışmaqdan çəkinməyən, hərdən xudbin, ədalı görünən... səhnə və ekran rollarında da cəsarətlə insanlıq və həyatsevərlik axtarmağın riskinə gedirdi.

Həsən Turabovun oynadığı rollarda, ictimai mənsubiyyətindən asılı olmayaraq, intim qılıqlıq, doğma məhrəmlik vardı.

Həsən Turabov böyük bir monoloqun görə bilmədiyi "işi" baxış və hərəkətlə nəzərə çatdırır, vəziyyətin psixoloji ovqatını iki, üç... planda tamaşaçıya göstərirdi.

Həsən Turabov obrazın psixologiyasındakı ovqat dəyişikiiyini öz oyununda böyük ustalıqla, heyrətamiz yüngüllüklə, psixoloji dəqiqliklə verə bilirdi. Aktyor bunu "özgələşmə" vərdişlərinin ən incə vasitələri ilə və heç vəchlə ölçü hissini itirmədən məharətlə icra edirdi.

Həsən Turabov janrından, mövzusundan, dövründən asılı olmayaraq, bəyəndiyi ssenaridə oynayacağı rolun məqsəd və qayəsinin əsas leytmotivini dəqiq və aydın müəyyənləşdirməyi fəhmlə duyurdu.

Həsən Turabov o nadir aktyorlardan idi ki, səhnədə öz istedadının arxasında gizlənmək üçün çoxsaylı zahiri ifadə vasitələrinə güvənmirdi. Onun ali məqsədi həyat hadisələrinin doğurduğu suallara teatr və ekran dili ilə cavab tapmaqla səciyyələnirdi.

Obrazın psixologiyasındakı ovqat dəyişikiiyini öz oyununda böyük ustalıqla, heyrətamiz yüngüliüklə, psixoloji dəqiqliklə verə bilirdi. Aktyor bunu "özgələşmə" vərdişlərinin ən incə vasitələri ilə və heç vaxt ölçü hissini itirmədən məharətlə icra edirdi.

## AKADEMİK MİLLİ DRAM TEATRI (1985-2004)

Teatrın 1985-1986-cı il mövsümdə ilk yeni tamaşası oktyabr ayının 12-də olub. Mərahim Fərzəlibəyovun quruluşunda Anarın "Təhminə və Zaur" dramının tamaşası göstərilib. Tamaşada oxunan mahnıların şeirləri Nigar Rəfibəylinin idi və musiqisini Emin Sabitoğlu bəstələmişdi. Rəssamı Nüsrət Fətullayev olan tamaşada əsas rolları Amaliya Pənahova (Təhminə) və Fuad Poladov (Zaur) oynayırdılar.

İlin əvvəlində teatra baş rejissor təyin olunmuş Hüseynağa Atakişiyevin bu mövsümdə təzə işi Maksim Qorkinin "Həyatın dibində" (16 noyabr) dramının tamaşası oldu (tərcüməçi Ənvər Ülvi, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Aydın Əzimov). Aktyor ifaçıl;ğı baxımından müəyyən yeniliyi ilə seçilən səhnə əsərində nəzəri cəlb edən əsas oyunlar Səyavuş Aslana (Luka), Hamlet Xanızadəyə (Kleş), Fuad Poladova (Baron), Səməndər Rzayevə (Satin), Yaşar Nuriyevə (Aktyor), Safurə İbrahimovaya (Vasilisa Karpovna) məxsus idi.

Baş rejissor növbəti tamaşasını da tərcümə pyesi əsasında hazırladı. Akademik teatrın tarixində ilk dəfə Fridrix Dürrenmattın yaradıcılığına müraciət olundu və dramaturqun "Böyük Romul" pyesi Tofiq Rüstəmovun tərcüməsində tamaşaya qoyuldu. Bu əsəri də "Həyatın dibində" tamaşasının yaradıcı heyəti hazırlamışdı. Romul Avqustul rolu Səyavuş Aslana tapşırılmışdı.

1985-2004-cü illər ərzində teatrın yaradıcı rəhbərliyində dəyişikliklər olub. Baş rejissor Hüseynağa Atakişiyev 1988-ci ilin axırlarında vəzifəsindən istefa verdi və 1989-cu ilin martında teatrdan çıxaraq müstəqil kollektiv yaratdı. Keçən ildən teatra direktorluq edən Həsən Turabov

1989-cu il yanvarın 15-də kollektivə həm də bədii rəhbər təyin olundu. O, 13 dekabr 2001-ci ildə yuxarıların təkidi ilə istefa verdi və dekabrın 26-da bu Kürsü teatrın aktyoru Əliabbas Qədirova tapşırıldı.

İyirmi ildə teatrın əsas repertuar ağırlığı, əsasən, çağdaş dramaturqlardan İlyas Əfəndiyevin yaradıcılığının üzərinə düşüb. Kollektivin bir sıra uğurlu yaradıcılıq nailiyyətləri olub.

**1986, 20 dekabr.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Solmaz Haqverdiyeva. Bu tamaşadakı rolları Həsən Turabovun (Şeyx Xiyabani), Bürcəli Əsgərovun (Hacı Fərhad), Amaliya Pənahovanın (Xanım Mahnur), Fuad Poladovun (Mübarək Səltənə), Nurəddin Mehdixanlının (Məşədi Təhməz), İlham Əsgərovun (Sarı Mərdan) yaradıcılıqlarında yeni aktyorluq keyfiyyətləri kəsb etmələri ilə səciyyəvidirlər.

**1987, 10 sentyabr.** "Mənsiz dünya", Nəbi Xəzri. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rasim Babayev, bəstəkar Arif Məlikov. Baş rolları Əliabbas Qədirov (Mirzə Şəfi), Amaliya Pənahova (Zübeydə xanım), Həsən Turabov (Hacı Əsədulla), Məlik Dadaşov (Bodenştedt), Səyavuş Aslan (Qərib Qulam) ifa ediblər.

**1988, 9 aprel.** "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Elçin Aslanov, bəstəkar Emin Sabitoğlu. Mövzu və süjet baxımından 1968-ci ildə oynanılmış "Unuda bilmirəm" tamaşasındakı hadisələrin iyirmi ildən sonraki davamı olan əsərdə əsas rollar yenə də Həsən Turabova (Kamran), Amaliya Pənahovaya (Nərmin) və Muxtar Avşarova (Kərəm dayı) tapşırılmışdı.

Mərahim Fərzəlibəyovun quruluşunda İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" (21 aprel 1989), "Tənha iydə ağacı" (6 mart 1991), "Dəlilər və ağıllılar" (9 noyabr 1992), "Hökmdar və qızı" (15 dekabr 1996) pyesləri də maraqlı səhnə təcəssümü tapıb.

**1988, 24 sentyabr.** "Qanlı Nigar", Sadıq Şendil. Tərcümə edəni və quruluşçu rejissoru Vaqif İbrahimoğlu, rəssam Tərlan Qorçu. Məsxərəli sosial satira janrında hazırlanmış şən və oynaq tamaşada daha şux ifalar Yaşar Nuriyevə (Abdi), Amaliya Pənahovaya (Nigar), Firəngiz Mütəllimovaya (Nədidə), Telman Adıgözəlova (Laz), Bəsti Cəfərovaya (Bədidə), Mahir Mirzəliyevə (İstinyeli) məxsus idi.

**1989, 30 sentyabr.** "Gecə döyülən qapılar", Nəbi Xəzri. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafis İsmayılov, bəstəkar Eldar Mansurov. Amaliya Pənahova (Mehri ana), Füzuli Hüseynov (Səfər), İftixar Piriyev (Xəzər), Sevil Abbasova (Əsınər), Əminə Babayeva (Nisə arvad) tamaşada maraqlı oyun nümayiş etdirirdilər.

**1994, 28 aprel.** "Anamın kitabı", Cəlil Məmmədquluzadə. Tamaşaya quruluşu Həsən Əbluc verib. Premyera ərəfəsində Həsən qəfildən dünyasını dəyişdi və tamaşa üzərində son işləri onun qardaşı, kino rejissoru Ənvər Əbluc tamamladı. Safurə İbrahimovanın (Zəhra bəyim), Rafiq Əzimovun (Rüstəm bəy), İradə Həsənovanın (Zivər xanım), Laləzar Mustafavevanın (Gülbahar), Aqşin Vəlixanovun (Senzor Mirzə Cəfər), Sadıq İbrahimovun (Aslan bəy) ifaları psixoloji dərinlik baxımından dramaturqun qayəsinə və ruhuna daha yaxın idilər.

**1995, 12 dekabr.** "Ağqoyunlular və Qaraqoyunlular", Əli Əmirli. Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Lətifə Quluzadə, bəstəkar İsmayıl Dadaşov. Kamal Xudaverdiyev (Ağqoyunlu ata), Yaşar Nuriyev (Qaraqoyunlu ata), Səidə Quliyeva (Qaraqoyunlu ana), Hicran Nəsirova (Ağqoyunlu ana), Ramiz Novruzov (Ağqolyunlu əmi), Elxan Ağahüseynoğlu (Qaraqoyunlu əmi) tamaşada lirik-dramatik və psixoloji rollar yaradırdılar.

**1996, 7 may.** "Kral Lir", Vilyam Şekspir. Tərcümə edəni Sabir Mustafa. Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Elçin Məmmədov, bəstəkar Adil Bəbirov. Rejissorun tamaşa üçün müəyyənləşdirdiyi ideya və fəlsəfi flkir yükünə Kamal Xudaverdiyev (Kral Lir), Ramiz Novruzov (Edmund), Hacı İsmayılov (Qraf Kent), İftixar Piriyev (Edqar), Bəsti Cəfərova (Qonerilya) həssaslıqla əməl etməyə çalışırdılar.

**1997, 1 fevral**. "Ah, Paris... Paris!..", Elçin. Quruluşçu rejissor Azər Paşa Nemət, rəssam Elçin Məmmədov. Rollarda: Əhməd - Telman Adıgözəlov, Əsədulla - Səyavuş Aslan, Firəngiz -

Kübrabəyim Əliyeva, İsgəndərzadə - Yaşar Nuriyev, Vera - Lüdmila Duxovnaya. Dyuxovnaya rus dramının aktrisasıdır və tamaşada dəvətlə oynayıb.

**1997, 7 iyun.** "Fərhad və Şirin", Səməd Vurğun. Quruluşçu rejissor Cənnət Səlimova, rəssam Tahir Tahirov, bəstəkar Emin Sabitoğlu. Baş rolları Mlkayıl Mirzə (Fərhad), Məleykə Əsədova (Şirin), Hicran Nəsirova (Məryəm), Həsən Məmmədov (Xosrov), Ramiz Novruzov (Şapur) oynayıblar.

**1998, 10 aprel.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə. Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev. Əliabbas Qədirov (Qara xaqan), Nurəddin Mehdixanlı (Gur Şad), Laləzar Mustafayeva (İçgen xatun), Rəşid Səməndər (Yan Çunq), Sənubər İsgəndərova (Siyan Şi), Ramiz Məlik (Dulu xaqan) əsas rolları oynayıblar.

**1998, 23 may.** "Mənim sevimli dəlim", Elçin. Quruluşçu rejissor Azər Paşa Nemət, rəssam Elçin Məmmədov. Əsas rollarda: Professor - Telman Adıgözəlov, Redaktor - Səyavuş Aslan, Şöbə müdiri - Yaşar Nuriyev, Məsul katib - Hacı İsmayılov, katibə - Məsmə Aslanqızı, Ədəbi işçi - Cəfər Namiq Kamal.

**1999, 16 oktyabr.** "Diaqnoz "D" ("Mənim ərim dəlidir"), Elçin. Quruluşçu rejissor Azər Paşa Nemət, rəssam Elçin Məmmədov. Səyavuş Aslan (kişi), Firəngiz Mütəllimova (Arvad), Telman Adıgözəlov (Professor), Məsmə Aslanqızı (Falçı Ağabacı), Cəfər Namiq Kamal (Dost), Zemfira Nərimanova (Xanım) tamaşanın janr və üslubunun tələb etdiyi oyun prinsiplərini məharətlə duyub canlandırırdılar.

**1999, 13 noyabr.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə. Quruluşçu rejissor Vaqif İbrahimoğlu, rəssam Rəşid Şerif, bəstəkar Səyavuş Kərimi. Rejissor tamaşanın əsas obrazlarını Cəfər Namiq Kamala (Mirzə Həbib), İlham Namiq Kamala (Xan), Sənubər İsgəndərovaya (Nisə xanım), Zemfira Nərimanovaya (Şölə xanım), Laləzar Mustafayevaya (Ziba xanım), Zərnigar Ağakişiyevaya (Pəri xanım), Sabir Məmmədova (Teymur ağa), Aslan Şirinova (Fərraş Heydər), Sevil Xəlilovaya (Xacə Məsud Qara), Məzahir Cəlilova (Hacı Salah) tapşırmışdı.

**2000, 29 yanvar.** "Ulduz, yaxud Ədirnə fəthi" ("Ədirnə fəthi" və "Trablis müharibəsi" pyesləri əsasında), Cəfər Cabbarlı. Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, bəstəkar Oqtay Kazımov. Baş rollarda Nurəddin Mehdixanlı (Orxan), Əliabbas Qədirov (Ənvər), Sənubər İsgəndərova (Ulduz), Kamal Xudaverdiyev (İzzət paşa), Ramiz Məlik (Haris), Sadıq İbrahimov (Kamal paşa) oynayıblar.

**2000, 9 dekabr.** "Dar ağacı", Bəxtiyar Vahabzadə. Rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev. Monumental-dramatik faciə janrının prinsiplərində hazırlanmış tamaşada Kamal Xudaverdiyev (Aqşin), İlham Əsgərov (Sabutay), Hacı İsmayılov (İbn Zeyd), Rafiq Əzimov (İbn Tahir). Kazım Həsənquliyev (Altay), Məcnun Hacıbəyov (Ağsaqqal) maraqlı ifa nümayiş etdiriblər.

**2001, 23 fevral.** "Poçt şöbəsində xəyal", Elçin. Quruluşçu rejissor Mehriban Ələkbərova, rəssamlar Tahir Tahirov və Ağarəhim Əliyev, bəstəkar Səyavuş Kərimi. Bəsti Cəfərova (Ədilə), Ramiz Məlik (Kişi) və Səyavuş Aslan (Yoldaş tək) oynadıqları obrazlarla səhnədəki hadisələrin mərkəzində dururdular.

**2001, 1 noyabr.** "Hələ" sevirəm "deməmişdilər...", Pamiz Novruz. Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov. Əsas rollarda Nurəddin Mehdixanlı (Yaralı əsgər), Münəvvər Əliyeva (Sona), Telman Adıgözəlov ("Qumarbaz"), Mətləb Abdullayev ("Halaypozan"), Telman Əliyev ("Sintezator"), Rəşid Səməndər (Andranik), Pərviz Bağırov (Minas) çıxış ediblər.

**2002, 29 mart.** "Hamlet", Vilyam Şekspir. Səhnə variantını Cəfər Cabbarlının, Tələt Əyyubovun və Sabir Mustafanın tərcümələri əsasında İlham Rəhimli işləyib. Quruluşçu rejissor Azər Paşa Nemət, rəssamlar Elçin Məmmədov və Nazim Bəykişiyev, bəstəkar Səyavuş Kərimi. Əsas rolları Fuad Poladov (Hamlet), Sənubər İsgəndərova (Gertruda), Səyavuş Aslan (Poloni), Rafael Dadaşov (Klavdi), Məsmə Aslanqızı (Ofeliya), Sabir Məmmədov (Horatsio), Yaşar Nuriyev (Məzarçı), Anar Heybətov (Layert) ifa ediblər.

Teatr bu müddətdə öz səhnəsində ilk dəfə dünya ədiblərindən Yuli Edlisin ("Kölgələrin oyunu". Kiçik səhnədə. Quruluşçu rejissor Həsən Əbluc. 29 oktyabr 1986), Bertolt Brextlə Kurt Vaylın ("Üç quruşluq opera. Quruluşçu rejissor Karl Georq kayzer. 18 aprel 1987), Jan Pol Sartrın ("Dəfn edilməmiş ölülər". Kiçik səhnədə. Quruluşçu rejissor Mehriban Ələkbərova. 2 iyun 1988), Federiko Qarsiya Lorkanın ("Qadın faciəsi". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov. 6 noyabr 1988), Gilerma Fiqeyredunun ("Məhəbbət və azadlıq". Quruluşçu rejissor Həsən Əbluc. 12 noyabr 1991), Runesko Akutaqavanın ("Müəmmalı bir qətlin üç versiyası". Kiçik səhnədə. Qurulu şçu rejissor Mehriban Ələkbərova. 4 iyun 1995), Sofoklun ("Şah Edip, yaxud alın yazısı". Quruluşçu rejissor Bəhram Osmanov. 3 aprel 1999), Jan Rasinin ("Fedra". Quruluşçu rejissor Mərahim Fərzəlibəyov. 7 iyul 2002) yaradıcılıqlarına müraciət edib.

Haqqında bəhs olunan dövrdə Akademik teatrın repertuarında yeni müəlliflərdən Rəhman Əlizadənin "Günah", Arif Sülemanovun "Tufandan əvvəl", Rafiq Səməndərin "Günəbaxanlar" (Kiçik səhnədə), Seyran Səxavətin "Qızıl teşt", Vaqif Səmədoğlunun "Yayda qartopu oyunu", Cəmil Əlibəyovun "Gülüstanda qətl", Kamal Abdullanın "Hərdən mənə mələk də deyirlər...", Kamil Abdullayevin "Min illərin işığı", Cahan Əfruzun "Qanqın böyük dalğası", Eldar Baxışın "Qədr gecəsi" (nağıl-tamaşa), Marat Haqverdiyevin "Ox, qadınlar, qadınlar", Vidadi Babanlının "Ana intiqamı", Xeyrəddin Qocanın "Hərənin öz payı", Həsən Həsənovun (Əzizoğlu) "Brüsseldən məktublar" pyesləri tamaşaya qoyulub. Bu tamaşaların bir qisıni bədii cəhətdən maraq doğursa da, əksəriyyətinin səhnə taleyi uğursuz olub.

## AMDT-nin REJİSSOR YARADICILIĞINDA FORMA AXTARIŞLARI (1980-2004)

Konkret sənətkarın yaradıcılıq təzahürünün əsas amili üslub və forma vəhdətidir. Bu üslub və forma vəhdəti eyni zamanda teatr prosesinin obyektiv və subyektiv tələblərinə cavab verir.

XX əsrin sonunu və XXI əsin əvvəllərini əhatə edən Azərbaycan teatr prosesinin başlıca səciyyəsi bilavasitə keçid dövrünün tələbləri ilə müəyyənləşdirilir. Ona görə də konkret sənətkarların yaradıcılıqları, həmçinin rejissorların fəaliyyətlərinin mahiyyəti məhz bu hadisə ilə təmin və təyin olunur. Bu obyektiv göstərici hər konkret sənətçinin subyektiv yaradıcı düşüncələri və onun bədii yaradıcılıqda estetik təzahürləri ilə çuğlaşaraq çağdaş Azərbaycan rejissurasının mənzərəsinin geniş panoramını yaratmaqdadır.

Akademik Milli Dram Teatrı səhnə sənətimizin flaqmanı kimi Azərbaycanda aparıcı rejissor üslub və formalarının parlaq sınaq meydanı olub. Hazırda bu teatrda quruluşçu rejissor ştatlarında qocaman nəslin nümayəndəsi Ağakişi Kazımov, orta nəslin görkəmli sənətkarı Azər Paşa Nemət, gənclik dövrlərini təzəcə adlayan Bəhram Osmanov, Əsgər Əsgərov, Mehriban Ələkbərzadə işləyirlər.

Ağakişi Kazımovun (28 iyun 1935) rejissura sənətində çox zəngin təcrübəsi, dəyərli nailiyyətləri var. Rejissor Ağakişi Kazımovun quruluşları monumental səhnə həlli, çılğın temperamenti, ənənəyə sadiqliyi ilə səciyyəvidir. Rejissor daha çox romantik teatr estetikasından istifadə edir. Ənənəvi formalara sadiq qalan rejissor çağdaş sənət estetikasının müxtəlif forma prinsiplərindən istifadə etməsə də, fikir, düşüncə baxımından çağdaş duyğulara can atandır.

Rejissor Ağakişi Kazımovun yaradıcılığının başlıca estetik mahiyyətini təcəssüm etdirən əsas quruluşları bunlardır.

Sumqayıt Dövlət Dram Teatrında. "Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov. "Toy", Sabit Rəhman.

Gənc Tamaşaçılar Teatrında. "Rüstəm və Söhrab", İsgəndər Coşqun (Firdovsinin "Şahnamə" əsəri əsasında), "Komsomol poeması", İsgəndər Coşqun.

Akademik Milli Dram Teatrında. "Darıxma, ana!", Nodar Dumbadze. "Qəribə oğlan", İlyas Əfəndiyev. "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.

Azər Paşa Nemət (13 avqust 1947) öz quruluşlarında Çagdaş dünya modern teatr estetikasının milli teatr düşüncəsi ilə sintezinə möhtəşəmliklə nail olur. Paradoksal psixoloji sıtuasiyanı qabarıq verməklə özünün rejissor ideyalarını aktyorların ifadəli oyunlarında həll edir. Funksional səhnəqrafiyanın imkanlarından cəsarətlə istifadə etməklə onu mürəkkəb, dolğun, estetik obraz kimi tamaşanın əsasma çevirir.

Azər Paşa Nemətin rejissor üslubunun genetik kökləri neokonservatizın (yeni konservatizın) fəlsəfi-estetik düşüncəsindən qaynaqlanır. Həmin düşüncənin teatr təzahürü hər hansı tamaşanın estetikasını önə çəkir, məzmun qatını ədəbi və əbədi kontekstdə təqdim edir. Müəyyən mənada modern teatr sənəti düşüncəsinə opponent olan bu düşüncə formanın estetik bitkinliyini həlledici sayır. O, estetik qavrayışı publisistik münasibətlərdən üstün tutur.

Onun rejissurasının üslub və forma səciyyələri, janr axtarışlarının estetik prinsipləri daha qabarıq və daha fəlsəfi bitkinliklə aşağıdakı tamaşalara verdiyi quruluşlarda özünü göstərir.

Gənc Tamaşaçılar Teatrında. "Danabaş kəndinin məktəbi", Cəlil Məmmədquluzadə. "Fudzi dağında qonaqlıq", Çingiz Aytınatov. "Təmas", Rüstəm İbrahimbəyov. "Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə. "Yelkənlər üzərində nəğməli külək", Karlo Haldoni.

Akademik Milli Dram Teatrında. "Ah, Paris... Paris!..", "Mənim ərim dəlidir", "Mənim sevimli dəlim", Elçin. "Biganələr oteli", Rüstəm İbrahimbəyov. "Hamlet", Vilyam Şekspir.

Azər Paşa Nemət həmçinin Tiflis, Peterburq, İrəvan, Tallin, Moskva şəhərlərində də maraqlı quruluşlar verib.

Fərdi üslubunu illərlə Qroznı, Sumqayıt və Akademik Milli Dram Teatrında təsdiqləyən, onu formalaşdıran Mərahim Fərzəlibəyov özünün zəngin yaradıcılıq bioqrafiyasını yaradıb. Tamaşalarını, əsasən, açıq sistemdə, yəni publisist-estetika dəqiqliyi ilə qurur. Buna görə də çalışır ki, səhnədə istifadə etdiyi bütün detallar tamaşa salonundan oxunsun. Əlvan və parlaq kompozisiya qurmaqda səriştəlidir.

Mərahim Fərzəlibəyov (26 iyun 1949) Azərbaycan romantik-publisistik teatr düşüncəsinin yeni tarixi dövrdə (1977-ci ildən üzü bəri) parlaq nümayəndələrindən biridir. O, forma və məzmun vəhdətini ənənəvi olaraq başhca prinsip kimi qəbul edir. Qəbul edir və bunu tamaşanın bədii-estetik mahiyyətində həssaslıqla əridə bilir. Tamaşanın ideyasını publisist teatr ənənəsinin əsaslarında, romantik üslubun prinsipləri zəminində (qeyri-adi insan qeyri-adi şəraitdə) həll edir. Bu baxımdan rejissorun bir neçə tamaşasını göstərmək olar.

Sumqayıt Dövlət Dram Teatrında. "Poladəridənlər", Qennadi Bokarev. "Bütün Şərq bilsin", Nəriman Həsənzadə. "Sərbəst mövzu", Aleksandr Çxaidze.

Akademik Milli Dram Teatrında. İlyas Əfəndiyevin "Şeyx Xiyabani", "Xurşidbanu Natəvan", "Bizim qəribə taleyimiz", "Sevgililərin cəhənnəmdə vüsalı", "Tənha iydə ağacı", "Hökmdar və qızı" pyeslərinə verdiyi quruluşlar. "Sokratı anma gecəsi", Çingiz Aytmatov və Muxtar Şahanov. "Fedra", Jan Rasin. "Qadın faciəsi", Federiko Qarsia Lorea. "Mənsiz dünya", Nəbi Xəzri. "Təhminə və Zaur", Anar.

Çox gənc yaşlarından populyarlıq qazanmış Bəhram Osmanov (1 oktyabr 1962) səhnə düşüncə tərzinin çoxqatlılığı, fəlsəfi dərinliyi ilə seçilir. O, intim-psixoloji və lirik-psixoloji üslubun estetik prinsipləri əsasında parlaq tamaşalar yaradıb. Tamaşalarda aktyor oyununu önə çəkir. Rejissor kimi yaradıcılığının əsas estetik səciyyəsini orijinal və təkrarsız, yeni və çağdaş ruhlu janr axtarışları təşkil edir. Obrazh ifadə vasitələrinə üstünlük verir və bunu paralel, kəsişən, genişmiqyaslı, sərt çarpazlaşan səhnə mizanlarında xüsusi məharətlə təcəssüm etdirir.

Söylədiyim nəzəri fikirlər özünün estetik həllini onun Akademik Milli Dram Teatrında hazırladığı "Qızıl teşt" (Seyran Səxavət), "Şah Edip" (Sofoki), "Kral Lir" (Vilyam Şekspir), "Şüşə

heyvanxana" (Tennessi Uilyams), "Qarağaclar altında məhəbbət" (Yucin O'Nil), "Ağqoyunlular və Qaraqoyunlular" (Əli Əmirli), "Ulduz, yaxud Ədirnə fəthi" (Cəfər Cabbarlı) tamaşalarının üslub və forma xüsusiyyətlərində daha parlaq şəkildə təcəssüm etdirir.

Rejissor yaradıcılığına 1970-ci illərin ikinci yarısından başlamış Vaqif İbrahimoğlu (18 oktyabr 1949) bu gün fərdi üslubu ilə seçilən ən məşhur rejissordur. Özünün yaratdığı "Yuğ" Dövlət Teatrının bədii rəhbəridir. Onun yaradıcılıq metodu başlıca olaraq forma və məzmun üzərində eksperimentlər aparmaqla səciyyəvidir. Marksist-leninçi estetikanın başlıca prinsipinə, "məzmun formanı təmin edir" qənaətinə tam zidd olaraq Vaqif İbrahimoğlu Şərq sənət düşüncəsinin kanoniklik kimi forma və məzmun yaradan amilini qəbul edib. Bəlli olduğu kimi, klassik Şərq sənət düşüncəsində məzmun qatı qeyri-informatik, yəni öncədən bəlli və hər hansı bədii-estetik forması aydın olan məzmunu (informasiyanı) yaddaşdan "üzə" çıxarır. Çıxarıb onu emosional halda yenidən yaşatmağa, duydurmağa, hiss etdirməyə yönəldir. Bu hal bütövlükdə İslam mədəniyyətinin və incəsənətinin bədii yaradıcılığının təməlidir. İslam mədəniyyətinin və incəsənətinin təməl dili isə "Qurani-Kərim" deməkdir.

Vaqif İbrahimoğlunun söykəndiyi üslub özəllikləri eyni zamanda ümumtürk və konkret olaraq özəlliklə oğuz türklərinin bədii-yaradıcı düşüncəsinin prinsipləridir. Burada etnik məzmun qatı etnik yaddaşda mövcuddur.

Dədə Qorqud öz dinləyicilərinə yeni bilgi vermirdi, olmuş və hamıya bəlli hadisələri danışırdı. "Dirsə xan oğlu Buğac boyu", "Salur Qazanın evinin yağmalandığı boy", "Duxa qoca oğlu Dəli Domrul boyu" və digər boyların məzmununu Oğuz elində hamı bilirdi. Ancaq dinləyicilər bu boyları Qorqud Dədənin necə danışacağına maraq göstərirdilər. Deməli, söhbət təzə formanın intizarından gedir. Vaqif İbrahimoğlu forma təqdimatında "Dədəm Qorqudun kitabı"nın poetika göstəricilərinin oyun-tamaşa prinsiplərindən də bəhrələnir.

Vaqif İbrahimoğlu yuxarıda göstərdiyim bazisli prinsipləri çağdaş modern teatr çərçivəsində və institusional teatr sənətinin sistemliyində realizə edir. Həmin realizədə o, psixosof (psixaruh, sofiya hikmət deməkdir. Ruhun hikmətləri) poetikasının forma və üslubunu təcrübi tərzdə öz tamaşalarında böyük cəsarət və uğurla sınayaraq təsdiqləyir. Bu baxımdan onun hazırladığı "Oğul" və "Xatun" ("Dədəm Qorqudun kitabı" dastanlarının boyları əsasında), "Leyli demə..." və "Dad" (Füzulinin "Leyli və Məcnun" poemasma istinadən), "Yol" (Məhəmməd Füzulinin "Həqiqətüs-süəda" əsərinin ruhunda), "Açar" (Nizami Gəncəvinin "Sirlər xəzinəsi" məsnəvisi zəminində), "Sentimental vals" (Anton Çexovun hekayələri üzərində qurama), "Səma" (Şah İsmayıl Xətainin "Dəhnamə" məsnəvisi əsasında), "Cənab O" (Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasının motivləri üzərində işləmə), "Salam" (Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" noemasının səhnə həlli), "Bir-iki, bizimki" (Kamal Abdulla), "Müqəvva" (Firuz Mustafayev), "Canımda can" (İbrahim İbrahimli) tamaşaları daha xarakterikdir.

Rejissuraya ötən əsrin yetmişinci illərinin sonlarında Şəki teatrından gəlmiş Hüseynağa Atakişiyev (8 sentyabr 1949) hazırda özünün yaratdığı Dövlət Gənclər Teatrında baş rejissor işləyir. XX əsrin teatr düşüncəsinə, xüsusən forma və məzmun vəhdətinin inkişafına güclü təkan verən Yevgeni Vaxtanqov və Bertolt Brext ənənəsini milli teatr prosesi çərçivəsində inkişaf etdirir. O, kəskin və aktual məzmunu parlaq teatrallıq formasında həll etməyə bacarıqla nail ola bilir.

Hüseynağa Atakişiyevin üslub və forma axtarışları, janr yenilikləri Şəki Dövlət Dram Teatrında quruluş verdiyi "Artur Uinin karyerası" (Bertolt Brext), "Lənkəran xanının vəziri" (Mirzə Fətəli Axundzadə), Akademik Milli Dram Teatrında hazırladığı "Yayda qartopu oyunu" (Vaqif Səmədoğlu), "Böyük Romul" (Fridrix Dürrenmatt), "Həyatın dibində" (Maksim Qorki), Dövlət Gənclər Teatrında quruluş verdiyi "Karmen" (Prosper Merime), "Maqbet" və "Hamlet" (Vilyam Şekspir), "Ölülər" (Cəlil Məmmədquluzadə), "Yeddi məhbusə" (Əli Əmirli), "Şah İsmayıl, yaxud hamı səni sevənlər burdadır" (Kamal Abdulla) tamaşalarında özünün parlaq təcəssümünü tapıb.

Bakı Kamera Teatrının baş rejissoru Cənnət Səlimova, Pantomima Dövlət Teatrının bədii rəhbəri Bəxtiyar Xanızadə işlədikləri kollektivlərin estetik prinsiplərinə uyğun üslub və forrna

tələbləri dairəsmdə axtarışlar aparırlar. Onların hazırladıqları tamaşaların janr təyinini ən öncə elə teatrların özlərinin estetik qurumu müəyyənləşdirir.

Dramaturq Rəhman Əlizadə (13 dekabr 1947) həm də rejissorluqla məşğul olur. Azərbaycan Dövlət Kukla Teatrının baş rejissorudur. Müəlliflik rejissoru (öz pyeslərini özü hazırlayan rejissor) kimi Rəhman Əlizadə Azərbaycan teatrının yeganə nümayəndəsidir. Onun rejissor üslubu bilavasitə özünün dramaturji fəaliyyəti ilə müəyyənləşdirilir. Rəhman Əlizadə əslində müəllifi olduğu dram əsərlərini səhnədə realizə edir. Dramaturgiyamızda Mirzə Cəlil poetikasının davamçısı olan Rəhman Əlizadə öz əsərlərində, bir qayda olaraq, "fantastik-realizm" fəlsəfi, bədii-estetik düşüncəsinə əsaslanaraq realizm (adi insan adi situasiyada) göstəricilərini qeyri-adi situasiyalarda sınaqdan keçirir.

Azərbaycan Dövlət Opera və Balet Teatrında, Gənc Tamaşaçılar Teatrında, Musiqili Komediya Teatrında çağdaş dövrdə quruluş verən rejissorlar sənət ocaqlarının mövcud normativ şərtlərindən kənara çıxa bilmirlər.

Azərbaycanda əyalət teatr anlayışı var. Bu, məhəlli, regional anlayış deyil. Həmin teatrlarda fəaliyyət şərtləri (texnika, avadanlıq və sairə) rejissura sənətini müəyyənləşdirir. Rejissorlar bir növ vəziyyətin sərt reallıqları ilə "barışaraq" prosesin içində fəaliyyət göstərirlər. Rejissorlar və bütövlükdə əyalət teatrları sadəcə olaraq Azərbaycana teatr prosesinin tərkib hissəsi kimi onu yerlərdə yaşadırlar.

Bu dediklərim isə həmin teatrları Azərbaycan teatr prosesi anlamına şamil etməyə əsas verir. Bununla belə, əyalət teatrlarının yaradıcılıq qurumunun müxtəlif estetik mahiyyətləri fundamental teatrşünaslıqda hələ də lazımınca öyrənilməyib.

## TİFLİS AZƏRBAYCAN TEATRI

Qafqazın böyük şəhərlərindən olan, vaxtilə azəri türklərinin sıx yaşadıqları Tiflis şəhərində Azərbaycan teatrının fəaliyyətini iki qola ayırmaq olar:

a) Tiflisdə peşəkar Azərbaycan teatrının təşəkkülü və müxtəlif teatr dəstələrində, truppalarda onun inkişaf mərhələləri (1873-1922-ci illər);

b) Teatrın institusional mədəniyyətin faktı olduğu və Tiflis Dövlət Azərbaycan Teatrı adı altında fəaliyyət göstərdiyi dövr (1922-1947-ci illər).

"Kafkaz" qəzetinin 1873-cü il 25 mart tarixli sayında yazıldığına görə, Novruz bayramı münasibətilə Tiflisin "Cəmiyyət yığıncağı" zalında şəhərin azərbaycanlı ziyalıları teatr tamaşası oynamışlar. Oynanılan tamaşa Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının bir neçə şəkli olub.

Tiflis şəhəri XIX əsrdə Qafqazın mərkəzi sayılırdı. Canişinliyin burada yerləşməsi Tiflisi həm siyasi, həm iqtisadi, həm də maarif və mədəniyyət baxımından müəyyən inkişaf yoluna çıxarınışdı. Milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadə burada yaşayırdı və onun komediyaları rus, fars, gürcü dillərinə, osmanlı türkcəsinə məhz Tiflisdə tərcümə edilmişdi. Hətta zadəgan evlərində dramaturqun əsərləri 1850-ci illərin sonlarında rus və gürcü dillərində tamaşaya qoyulub.

Azərbaycanın teatr həvəskarları 1880-1900-cü illərdə, əsasən, Novruz, Orucluq, Qurban bayramlarında, ayrı-ayrı məktəblərin müxtəlif müsamirələrinə həsr olunmuş tədbirlərdə teatr tamaşaları göstəriblər. Tamaşalar Tiflisin müxtəlif klublarında, daha çox Zadəgan banki binasının salonunda və Artsruni teatrında göstərilib. Teatr tamaşalarını ziyalılar və tələbələr hazırlayırdılar. Səhnə əsərlərinin fasilələrində klassik Şərq üçlüyünün konsertləri də olurdu. Əlbəttə ki, bu tamaşalar ilk növbədə əyləncə məqsədi ilə göstərilirdi. Lakin onun kökündə açıq və ya dolayı şəkildə maarifləndirmə ideyası, maarifləndirmə ruhu əsas idi.

1900-1920-ci illərdə Azərbaycan teatr həvəskarlarının hazırladıqları tamaşalar aşağıdakı binalarda oynanılıb:

"Gürcü zadəgan teatrı" (bir adı da "Artsruni teatrı "dır). Bu bina 1914-cü ildə yaranıb. Onun yerində təzə bina tikilib və hazırda Gürcüstan Dövlət Rus Dram Teatrının binasıdır.

"Artistlər cəmiyyəti". Hazırda Şota Rustaveli adına Gürcüstan Dövlət Akademik Dram Teatrı həmin binada fəaliyyət göstərir.

"Kazyonnı teatr". İndiki Zaxari Paliaşvili adına Gürcüstan Dövlət Akademik Opera və Balet Teatrının binası.

"Zubalov adına Xalq evi" ("Xalq evi"). Konstantin Marcanaşvili adına Gürcüstan Dövlət Dram Teatrı indi həmin binada yerləşir.

"Mir", "Araks", "Avlabar-Palas", "Auditoriya" adlanan mədəniyyət ocaqlarında, azəri türklərinin sıx yaşadıqlan Ortaçala, Şeytanbazar, Havlabar məhəllələrindəki münasib binalarda da tamaşalar oynanılıb.

1875-ci ildə "əkinçi", bir qədər sonra "Ziya" qəzetlərinin nəşri, Tiflis mədəni mühitinin tərəqqisi, əcnəbi teatr truppalarının buraya müntəzəm qastrolları XIX əsrin sonlarında və XX əsrin ilk onilliyində Azərbaycan səhnə sənətinin inkişafına güclü təkan verib. Tiflisdə daimi olmasa da, vaxtaşırı birləşib tamaşalar hazırlayan fədakar teatr həvəskarlarının yığcam dəstəsi yaranmışdı. Həmin dəstəyə Mirzəli Abbasov, Mirzəxan Quliyev, Paşa bəy Hüseynov, Osmanağa Qabulov, Mirzə Abdulla Abdullazadə, Müslüm İbrahimov, Hüseyn Minasazov, Qulam Vahabov, Məşədi Yusif, Hüseyn Çıldırov, Məmmədtağı Ələsgərov, Ağasəf Axundzadə daxil idilər. Müxtəlif sahələrdə çalışan ziyalılardan Mirzə Seyfəddin, Eynalı bəy Sultanov, Məhəmməd ağa Şahtaxtlı, Behbud Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Firudin bəy Köçərli teatr tamaşalarının hazırlanmasma yaxından köməklik və diqqət göstərirdilər.

1908-1920-ci illər arasında Bakının Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Əhməd Ağdamski, Əbülfət Vəli kimi şöhrətli aktyorlarının Tiflisə vaxtaşırı qastrolları şəhərdə milli teatr sənətimizin tərəqqismə təkan verib. Bu dövrdə Tiflisdə əvvəlcə "Müsəlman teatr artistləri cəmiyyəti", az sonra "Səadət", "İttihad" və "İbrət" teatr dəstələri fəaliyyət göstəriblər. Truppalara Həbib bəy Köçərlinski, Əşrəf Yüzbaşov, Mirseyfəddin Kirmanşahlı Panfiliya Tanailidi, Rza Təhmasib, Mustafa Mərdanov, Möhsün Cəfərov (Sənani), İbrahim İsfahanlı, Əli Qurbanov, Ələkbər Seyfi kimi istedadlı gənclər üzv olublar.

1900-1920-ci illərdə göstərilən tamaşalara rejissorlugu, əsasən, Mirzəli Abbasov, Mirzəxan Quliyev, Məmmədtağı Ələsgərov, Mirseyfəddin Kirmanşahlı, Mustafa Mərdanov ediblər. Daha tez-tez Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", "Müsibəti-Fəxrəddin", "Daldan atılan daş topuğa dəyər", Səkinə Axundzadənin "Zülmün səmərəsi", Nəriman Nərimanovun "Dilin bəlası" ("Şamdan bəy"), "Nadir şah", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar", "Millət dostları", Rəşid bəy Əfəndiyevin "Qan ocağı", "Qonşu qonşu olsa, kor qız ərə gedər", Sultannıəcid Qənizadənin "Xor-xor", "Dursunəli və ballıbadı" komediyaları, faciələri və məsxərələri tamaşaya qoyulub.

Tərcümə əsərlərindən tamaşaçılar Vilyam Şekspirin "Otello" (Otello - Mirzəli Abbasov), Namiq Kamalın "Akif bəy", "Vətən", "Bəxtsiz bala", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Jan Batist Molyerin "Jorj Danden", "Zorən təbib", Henrix Heynenin "Əl Mənsur", Nadejda Loxmanovanın "Napoleon Bonapartın ölümü", İvan Turgenevin "Pulsuzluq", Vano Mçedaşvilinin "Qaçaq Kərəm", Fransua Volterin "Sultan Osman, Beytülmüqəddəs hökmdarı", S.Lanskoyun "Qəzavat", Fridrix Şillerin "Qaçaqlar", "Məkr və məhəbbət", Niko-lay Qoqolun "Müfəttiş" pyeslərinin səhnə həllinə daha çox maraq göstərirdilər.

1909-cu ildən başlayaraq müxtəlif teatr dəstələri Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Şeyx Sənan", "Şah Abbas və Xurşid banu", "Əsli və Kərəm", "Ər və arvad", "Məşədi İbad", "Arşın mal alan", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", "Evliykən subay", "Əlli yaşında cavan" opera yə operettalarını öz repertuarına daxil edib.

1918-1921-ci illərdə Tiflisdə yerli teatr həvəskarları "Ittihad" və "İbrət" dəstələrinin ətrafında cəmləşiblər. Onların müxtəlif səhnə fədailəri İrana və Türkiyəyə qastrollara gediblər. Tamaşalar daha tez-tez göstərilib. Repertuara Cəfər Cabbarlının "Ədirnə fəthi", "Trablis müharibəsi", "Bakı müharibəsi", Cəlil Məmmədquluzadənin "Ölülər", Rza Zaki Lətifbəyovun "Köhnə Türkiyə", İsa bəy Aşurbəylinin "Azərbay və Can" əsərlərinin tamaşaları daxil edilib.

"İttihad" və "İbrət" o vaxt Gürcüstanda işləyən Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə birləşəndən sonra azərbaycanlı teatr həvəskarlarının tamaşa afişalarına bu adlar yazılıb: "Tiflis türk dram cəmiyyəti aktyorları", "Tiflis tünc aktyorları".

1921-ci ilin axırlarında get-gedə güclənən Tiflis Azərbaycan teatrı özünə dövlət statusu almaq üçün səylə çahşıb. Kollektiv hökumət komissiyasma göstərmək üçün türk ədibləri Hüseyn Bədrəddinlə Məhəmməd Rüfətin "Əmir Əbül Üla" dramını seçmişdi. Tamaşanın quruluşçu rejissoru Mirseyfəddin Kirmanşahlı idi və Əbül Ülanı da özü oynayıb. Sınaq tamaşasında digər əsas rolları İbrahim İsfahanlı (Əbu Dəyyab), Tərlan xanım (Zübeydə), Mirzəli Abbasov (Səyyah), İsmət xanım Əliyeva (Rəbiyyə), Əhməd Salahlı (Məsud), Əsgər Naxçıvanlı (Sərkərdə) ifa ediblər.

Zövq və peşəkarlıqla hazırlanmış "Əmir Əbül Üla" tamaşası Rustaveli teatrının binasında göstərilib. Tamaşaya hökumət nümayəndələri, həmçinin gürcü, rus, abxaz, acar ziyalıları baxıblar. 1922-ci ilin əvvəllərində kollektivə Mirzə Fətəli Axundzadə adına Tiflis Dövlət Türk Dram Teatrı (TDTDT) adı verilib. Teatr uzun illər öz tamaşalarını cümə günləri Rustaveli teatrında, sonralar Nəriman Nərimanov klubunda göstərib.

Tiflis Dövlət Türk (Azərbaycan) Teatrı özünün 25 illik fəaliyyətində ziddiyyətli, tərəddüdlü və əsasən, uğurlu, səmərəli yaradıcılıq yolu keçib. Teatr daim əlvan və zəngin repertuar uğrunda axtarışlar aparıb, dram, komediya və faciə janrlarında dəyərli tamaşalar hazırlaya bilib. Müxtəlif illərdə bu sənət ocağında İbrahim İsfahanlı, Aleksandr Tuqanov, Yusif Yulduz, Əli Şahsabahlı, İsfəndiyar Hüseynov, Mirseyfəddin Kirmanşahlı, Aşır Bilalov, Əlihüseyn Rzayev baş rejissor və quruluşçu rejissor kimi çalışmışlar.

Tiflis Dövlət Azərbaycan Dram Teatrının yaradıcılığını iki dövrə bölmək olar.

Birinci dövrdə (1922-1930) teatr, əsasən, romantik üslubda inkişaf edib və bu sənət estetikasının prinsiplərini poetika göstəriciləri kimi formalaşdırmağa çalışıb.

İkinci dövrdə (1931-1947) isə sənət ocağı romantik üslubunu realizmə qovuşdurmağa çalışıb və yeni teatr poetikasını yaratmaq yolunda səy və cəsarətlə addımlayıb.

Birinci dövrdə TDAT öz repertuarının aparıcı mövzu və üslub xəttini Hüseyn Cavidin "İblis", "Şeyx Sənan", "Knyaz", "Afət", "Uçurum", "Topal Teymur", Cəfər Cabbarlının "Od gəlini", "Aydın", "Oqtay Eloğlu", "Sevil", Cəlil Məmmədquluzadənin "Ölülər", Süleyman Sani Axundovun "Eşq və intiqam", Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", Vilyam Şekspirin "Hamlet", "Otello", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", Leonid Andreyevin "Həyati-bəşər", Adolf D'Enneri və Germonun "İki yetimə", Fridrix Şillerin "Məkr və məhəbbət", Aleksandr Ostrovskinin "Gəlir mənbəyi", Boris Lavrenyovun "Hücum", Vasili Şkvarkinin "Casus", Konstantin Trenyovun "Düşmənlər" ("Lyubov Yarovaya"), Karl Qutskovun "Uriel Akosta", Anatoli Lunaçarskinin "Şahın bərbəri", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Biçer Stounun "Tom dayının koması", Nəriman Nərimanovun "Nadir şah" əsərlərinin tamaşaları əsasında qurub. Eyni zamanda Mirzə Fətəli Axundzadənin komediyaları, Üzeyir bəy Hacıbəyovun operaları və operettaları oynanılıb.

İkinci dövrdə teatr birinci mərhələdə hazırladığı tamaşaların əsaslarını yeni quruluşda hazırlayıb. Mirzə Fətəli Axundzadənin, Jan Batist Molyerin, Nəcəf bəy Vəzirovun komediyalarına üstünlük verilib. Müasir mövzulu pyeslərin tamaşası teatrın diqqət mərkəzində durub. Üslub və forma axtarışlarında reJissura konsepsiyası ilk növbədə Cəfər Cabbarlının "Sevil", "Almaz", "Yaşar", Mirzə İbrahimovun "Məhəbbət", "Həyat", kabit Rəhmanın "Toy", "Xoşbəxtlər", "Aşnalar", yerli dramaturq Rza Şahvələdin "Dağlılar", "Kamal", "Gülşən ana", Rəsul Rzanın "Vəfa" kimi müasir həyatdan, dövrün müxtəlif ictimai-sosial, mənəvi-əxlaqi problemlərindən bəhs edən pyeslərin səhnə təcəssümündə bədii həllini tapıb.

Tərcümə əsərlərindən Lope de Veqanın "Qoyun bulağı", Tur qardaşlarının "Üzləşdirmə", Georgi Mdivaninin "Vətən namusu", Şalva Dadianinin "Qığılcım", Aleksandr Korneyçukun "Platon kreçet", Avksenti Saqarelinin "Kinto", Konstantin Simonovun "Bizim şəhərli oğlan", Sandro Şanşiaşvilinin "Anzor", tarixi mövzuda yazılmış Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Heydər İsmayılovun "Koroğlu", Əli Şahsabahlının "Rüstəm və Söhrab", Zeynal Xəlilin "Qatır Məmməd", Mehdi Hüseynin "Nizami" əsərlərinin tamaşaları da repertuara mövzu əlvanlığı gətirib. Teatr bu illərdə Üzeyir bəy Hacıbəyovun muğam operalarından əlavə, bəstəkarın "Koroğlu" əsərini də oynayıb.

Rejissor Yusif Yulduzun quruluş verdiyi Hüseyn Cavidin "Səyavuş" (1936, 11 oktyabr) və Vilyam Şekspirin "Otello" (1936, 16 oktyabr) faciələrinin tamaşaları monumental romantizın üslubunda hazırlanmış parlaq sənət nümunələri olub. "Səyavuş "da əsas obrazları Bakıdan dəvət olunmuş Ülvi Rəcəb (Səyavuş), Mərziyə Davudova (Südabə), "Otello"da baş rolları Ülvi Rəcəb (Otello), Əsgər Babayev (Yaqo), Reyhan Tağıyeva (Emiliya), Nübar (Nvard) Əlixanova (Dezdemona), Ağa Məmmədov (Montano) ifa ediblər.

Tiflis teatrının səhnəsində göstərilən ayrı-ayrı tamaşalarda əsas rolları oynamaq üçün Bakıdakı AMDT-dən Abbasmirzə Şərifzadə, Mirzağa Əliyev, Mərziyə Davudova, Möhsün Sənani, Rza Əfqanlı kimi şöhrətli aktyorlar dəvət olunublar. Teatrın truppasında müxtəlif illərdə tanınmış aktyorlardan Ülvi Rəcəb, Panfiliya Tanailidi, Əli Qurbanov, Əli Şahsabahlı, Reyhan Tağıyeva, İbrahim İsfahanlı (Gürcüstanın xalq artisti), Ağa Məmmədov, Nəcibə Məlikova, Əhməd Salahlı, həmçinin sona qədər Tiflisdə işləyən Abbas Qurbanov, Əli Bayramov, Muqu Zamanov, Sara Zeynalova, Qara Nəzərli, Srubi Qaraqaş, Baba Zeynallı, İbrahim Azəri, Kazım Zeynallı, Osman Həqqi, Məmmədağa Rzayev, Nəso Məmmədov, Nurəddin Rzayev, İsrafil Qarayev, Fərrux Qurbanov, Fatma Gəncinskaya, Əbiş Qasımov və başqaları işləyiblər.

1934-cü ildə Tiflis teatrının böyük bir qrupu Gürcüstanın türklər yaşayan Adıgün şəhərində səyyar Kolxoz və Sovxoz Teatrı yaratmağa ezam olunublar. Səyyar truppaya İbrahim İsfahanlı rəhbərlik edib. Adıgün Səyyar Kolxoz və Sovxoz Teatrı 1936-1937-ci il teatr mövsümündə Tiflisə köcürülüb və bir müddət sonra bağlanıb. Onun aktyorları yenidən Tiflis Dövlət Azərbaycan Teatrının truppasına qəbul olunublar.

1945-ci ildən sonra bir növ yarı səyyar fəaliyyət göstərən Tiflis teatrı "Jantaberinin qızı", "Ünzülə", "Dağlılar", "Evlənmə", "Fövqəladə qanun", "Arşın mal alan", "Məşədi İbad", "Əsli və Kərəm", "Aşıq Qərib"... tamaşalarının bəzilərini təzə, bir qisınini təkrar quruluşda hazırlasa da, ciddi sənət nailiyyətləri qazana bilmirdi. Kollektivin yaradıcı heyəti dövlət himayəsindən məhrum olduğuna görə dağılmışdı. 1946-cı ilin 25 aprelində sənət ocağının cəmi 25 ştatı vardı. Teatrın əksər aktyorları Azərbaycanın əyalət teatrlarına səpələnmişdilər. Gürcüstan Respublikasının kollektivə göstərdiyi laqeyd münasibət gündən-günə daha da artırdı. Buna görə teatr, demək olar, Tiflisin özündə nadir hallarda tamaşa oynaya bilirdi. Neçə illərdən bəri dövlət teatrının klub səviyyəsində olan binası yarıtmaz hala düşmüşdü və truppanı oradan əlverişli binaya köçürmək şəhər məmurlarından kimsəni maraqlandırmırdı. Ciddi müqavimətlərə rast gələn, inzibati çətinliklərə düçar olan Tiflis Azərbaycan Dövlət Dram Teatrı 2 yanvar 1947-ci ildə öz fəaliyyətini dayandırmaq məcburiyyətində aldı.

Uzun fasilədən sonra 1998-ci il mayın 17-də Gürcüstan Respublikasının prezidenti Eduard Şevardnadze Tiflisdə Azərbaycan Dövlət Dram Teatrının bərpası üçün fərman imzaladı. Ancaq Gürcüstan Respublikasının əlaqədar nazirliklərdə çalışan məmurlarının laqeydliyi ucbatından bu teatr indiyədək bərpa olunmayıb.

## TİFLİS AZƏRBAYCAN TEATRINDA AKTYOR VƏ REJİSSOR YARADICILIĞI

### Birinci dərs

### Mirzəli Abbasov (1874-3.11.1943)

Tiflis Azərbaycan Teatrının ilk peşəkar aktyorlarından biri olan Mirzəli (Əlibala) Hacı Abbas oğlu Abbasov 1874-cü ildə Tiflis şəhərində doğulub. Aktyor həmçinin böyük istedada malik təşkilatçı, bacarıqlı kollektiv rəhbəri, istedadlı rejissor və səriştəli dramaturq idi. Gündüzlər ev-ev gəzib köhnə xalçaların üzülmüş ilmələrini təmir və bərpa edən səhnə həvəskarı axşamlar bütün vaxtını və gücünü teatr sənətinin inkişafına yönəldirdi. Qazandığı pulları səhnəmizin tərəqqismə xərcləyir, yeni-yeni gəncləri teatr sənətinə bağlayırdı. 1905-ci ildən Tiflis "Müsəlman dram heyəti "nin təşkilat-çılarından və fəal üzvlərindən olub. 1920-ci ilə qədər müxtəlif truppaların tamaşalar oynaması üçün binaları əsasən Mirzəli Abbasov kirayə götürürdü. Hər dəfə də özünün qızıl saatını girov qoyurdu".

Səhnəyə ilk dəfə 1898-ci ildə Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyasında Fərman rolu ilə çıxıb. Ömrünün sonuna qədər doğma səhnədən ayrılmayıb. Gürcüstanın əməkdar artisti fəxri adı ilə təltiflənib (1928). 1924-cü ildə Tiflis teatr içtimaiyyəti onun səhnə fəaliyyətinin 25 illiyinin yubileyini keçirib.

Mirzəli Abbasovun ifa etdiyi əsas rollar bunlardır: Barxudar ("Namus", Aleksandr Şirvanzadə), Otello ("Otello", Vilyam Şekspir), Əl Mənsur ("Əl Mənsur", Henrix Heyne), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), İxtiyar, Salomon, Şeyx Sənan ("İblis", "Knyaz" və "Şeyx Sənan", Hüseyn Cavid), Heydər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Ağa Məhəmməd şah Qacar, Hacı Səməd ağa, Nəcəf bəy ("Ağa Məhəmməd şah Qacar", "Bəxtsiz cavan" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Səyyah ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Fərhad və Gavə ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Əbu Übeyd və Altunbay ("Od gəlini", Cəfər Cabbarlı) Baba ("Qanlı səhra", Ələkbər Seyfinin təbdil-tərcüməsi), Qaraulov ("Özgə uşağı", Vasili Şnvarkin), Ocaqqulu ("Almaz", Cəfər Cabbarlı), Qraf ("İki yetimə", Adolf D'Enneri və Germon),

Müxtəlif illərdə Mirzə Cəlilin "Ölülər", Nəriman Nərimanovun "Nadir şah", Vano Mçedaşvilinin "Qaçaq Kərəm", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılmış tifaq", "Bəxtsiz cavan", Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", "Ağa Kərim xan Ərdəbili", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Vilyam Şekspirin "Hamlet", "Otello", Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad", "Leyli və Məcnun", "Arşın mal alan", Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan" əsərlərini quruluşçu rejissor kimi tamaşaya hazırlayıb.

Mirzəli Abbasov istedadını dram janrında da sınaqdan çıxarıb. O, "Sultan Mahmud Qəznəvi və Firdovsi", "Dövreyi-səltənəti-Ənuşirəvani-adil, yaxud taci Kəsra", "Fəxrəddin kişi", "Məhəmmədəli şah", "Yusif və Züleyxa" pyeslərini qələmə alıb. Bu dram əsərləri həm Tiflisin, həm də Bakının müxtəlif teatr truppalarında tamaşaya qoyulub.

Mirzəli Abbasov 1910-cu ildən başlayaraq Tiflisdəki teatr dəstəsini yığcam repertuarla qastrollara aparmışdır. Bu baxımdan dəstənin Batum, İrəvan, İran (əsasən, Təbriz şəhəri) səfərləri uğurlu olub. Onlar Təbriz şəhərində bir neçə dəfə olublar.

Xüsusi teatr təhsili olmasa da, Mirzəli Abbasov səhnə sənətinin sirlərini dərindən bilirdi. Tiflis Dövlət Azərbaycan Dram Teatrının neçə-neçə qabiliyyətli aktyorunu teatr sənətinə Mirzəli Abbasov bağlamışdır.

## MİRZƏXAN QULİYEV

Aktyor və rejissor olub. Tanınmış teatr xadimlərindən Mustafa Mərdanov, Möhsün Sənani, Reyhan Tağıyeva kimi tanınmış aktyorlarda səhnə sənətinə ilk məhəbbəti Mirzəxan Quliyev oyadıb. O, həvəskar aktyorluğa XIX əsrin sonlarından başlayıb.

Aktyor təbiəti etibarilə yumora meyilli olub. Yaradıcılığı komediya janr-üslubunda daha parlaq şəkildə təcəssüm tapıb.

Gəncliyində şəbihgərdan kimi də tanınıb. Özü həm şəbih tamaşalarının və əza qafiləsinin rejissoru olub, həm də bu mərasimlərdə aktyor kimi çıxış edib.

Mirzəxan Quliyev səhnədə Seyfulla ("Xor-xor"), Dursunəli ("Dursunəli və ballıbadı"), Təbib ("Zorən təbib"), Jorj Danden ("Jorj Danden"), Cəbi və Hacı Qəmbər ("Yağışdan çıxdıq, yağmura düşdük"), Muradxan və Orduxan ("Əlli yaşında cavan"), Qubad ("Dəmirçi Gavə"), Mirzə Mehdi ("Nadir şah"), Vəli ("Arşın mal alan"), Hambal ("Məşədi İbad"), Kərəməli və Xəlil yüzbaşı ("Hacı Qara"), Dərviş Məstəli şah ("Müsyö Jordan və dərviş Məstəli şah") rollarında daha böyük uğurlar qazanıb.

Onun aktyorluq ifadə vasitələri səmimiyyəti, xalq meydan tamaşalarına bağlılığı, hərəkətlərinin plastik zərifliyi ilə seçilib.

Mirzəxan Quliyev rejissor kimi də səmərəli işlər görüb. Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri", "Müsyö Jordan və dərviş Məstəli şah", Sultanməcid Qənizadənin "Xor-xor", Rəşid bəy Əfəndiyevnin "Qonşu qonşu olsa, kor qız ərə gedər", "Qan ocağı", Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", "Hacı Qəmbər", Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad", "Arşın mal alan" əsərləri onun quruluşunda Tiflis teatrında uğurla oynanıb.

## ƏŞRƏF YÜZBAŞOV (1880-1938)

Şamaxıda doğulub və Tiflisə on iki yaşında gəlib. İctimai-siyasi fəallıqla bərabər, ilk növbədə aktyorluq sənətinə bağlanıb.

Əşrəf Yüzbaşovun Şeytanbazardakı dərzi dükanı teatrsevərlərin gur yığnaq yerlərindən biri idi. Səhnəyə iyirminci əsrin əvvəllərində çıxıb və müəyyən fasilələrlə Tiflis teatrının həvəskarlar dəstəsində və dövlət səhnə ocağında çalışıb. Truppanın formalaşmasında səmərəli işlər görüb. Aktyorların İran və Türkiyə ölkələrinə qastrol səfərlərində yaxından iştirak edib. Müəyyən dövrlərdə quruluşçu rejissor kimi də fəaliyyət göstərib.

Milli teatr sənətimizin Tiflisdəki tərəqqisində, xüsusən 1910-1920-ci illərdəki inkişafında müstəsna xidmətləri var.

Gürcüstan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

Həvəskar və peşəkar aktyor kimi Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (Hacı Səməd ağa, Hacı Mehdi), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Qubad və Zöhhak), Vilyam Şekspirin "Otello" (Brabansio), Fridrix Şillerin "Qaçaqlar" (Qoca Moor), Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (Səyyah), "O olmasın, bu olsun" (Məşədi İbad), Ehrabinin "Məmmədəli şah Qacar, yaxud ləkkeyi təxti Kəyan" (Siqqətülislam), Mehdi bəy Hacınskinin "Sultan Əbdüləziz, yaxud Osmanlı inqilabı" (Qraf İqnatyev), Cəlil Məmmədquluzadənin "Ölülər" (Şeyx Əhməd) əsərlərinin tamaşalarında çıxış edib.

## MƏMMƏDTAĞI ƏLƏSGƏROV (1890-1918)

Məmmədtağı Məşədi Həsən oğlu Ələsgərov Tiflisdə doğulub. Səhnəyə həvəskar aktyor kimi ilk dəfə 1905-ci ildə çıxıb. Azərbaycan teatr həvəskarlarının cəm olduqları "İttifaq" ("Müsəlman

dram cəmiyyəti"), "İbrət" və "İttihad" dəstələrində həm aktyorluq edib, həm də rejissor kimi fəaliyyət göstərib, tamaşalar hazırlayıb. Özünün təşkilatçılıq bacarığı, işləmək ehtirası ilə seçilib.

Məmmədtağı Ələsgərov Tiflis Azərbaycan Teatrında dramatik, komik səciyyəli, faciə xarakterli rollar oynayıb. Əsas rolları: Heydər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Kərəm ("Qaçaq Kərəm", Vano Mçedaşvili), Zöhhak və Birinci zabit ("Dəmirçi Gavə", Şəmsəddin Sani), Musa, Tavad Sereteli, Ələsgər ("Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar" və "Yeyərsən qaz ətini, görərsən ləzzətini", Əbdürrəhim bəy Haqverdiyev), Rodriqo ("Otello", Vilyam Şekspir), Kərim ("Qan ocağı", Rəşid bəy Əfəndiyev), Süleyman və Əsgər, Rüstəm bəy ("Arşın mal alan", "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Hüseyn Ovni Paşa ("Sultan Əbdüləziz, yaxud Osmanlı inqilabı", Mehdi bəy Hacınski), Rüstəm ("Səd ibn Vəqqas", Mirzə Məmməd Axundzadə), Şatilyon ("Sultan Osman", Mari Fransua Volter), Gürcü bəy, Bayraməli bəy və Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), Əbu Dəyyab və Birinci ərəb ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Bayraməli, Əşrəf bəy ("Hacı Qəmbər" və "Ev tərbiyəsinin bir Şəkiİ", Nəcəf bəy Vəzirov).

Tiflis teatrında Nəriman Nərimanovun "Nadir şah", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Vano Mçedaşvilinin "Qaçaq Kərəm", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Hacı Murad" ("Yeyərsən qaz ətini, görərsən ləzzətini"), Sultanməcid Qənizadənin "Xor-xor", "Dursunəli və ballıbadı", Rəşid bəy Əfəndiyevnin "Qan ocağı", Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan", Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" əsərlərinin quruluşçu rejissoru olub.

Məmmədtağı Ələsgərov 1917-ci ildə aktyor dostları ilə Təbriz şəhərində qastrolda olarkən xəstələnib. Teatr vurğunu həmin xəstəlikdən də dünyasını dəyişib.

## TİFLİS AZƏRBAYCAN TEATRINDA AKTYOR VƏ REJİSSOR YARADICILIĞI

### İkinci dərs

### MİRSEYFƏDDİN KİRMANŞAHLI (1892-1933)

Milli səhnə sənətimizin xüsusi aktyorluq təhsili almış qüdrətli aktyorlarından biri də Mirseyfəddin Kirmanşahlıdır. Aktyorluq yaradıcılığında romantik aktyor məktəbinin poetika prinsiplərinə üstünlük verib. Rejissor yaradıcılığında isə monumental romantik və möhtəşəm realist forma-üslub vasitələrinin ikisindən də istifadə edib. Ruhən, düşüncə tərzinin fəlsəfi dərinliyinə görə düşündürücü romantikaya və insanı mənəvi təkamülə səsləyən faciələrin həyati realizmınə təfəkKür genişliyi, idrakin həyati realizmi ilə yanaşıb.

İranın Kirmanşah şəhərində xırda tacir ailəsində anadan olub. 1908-ci ildə Tiflisə gəlib və şəhərə gəlişindən az sonra teatra ciddi maraq və sönməz həvəs göstərib. Burada "Müsəlman dram truppası"nda, sonralar "İbrət" və "İttifaq" truppalarında fəaliyyət göstərib. İlk aktyorluq təhsilini Tiflisdə rus teatrə nəzdindəki studiyada alıb. Fars və ərəb dillərində sərbəst danışan Mirseyfəddin Kirmanşahlı tezliklə Tiflisdə rus dilini də oyrənib. Aktyorun digər səhnə həmkarlarından fərqli cəhətlərindən biri və bəlkə də birincisi o idi ki, Kirmanşahlı milli teatrımızı canlı proses kimi dünya teatr sənətinin kontekstində gorür, onun uğur və uğursuzluqlarını məhz həmin prizınadan təhlil edir, dəyərləndirməyə çalışırdı. Mirseyfəddin Kirmanşahlı aktyor və rejissor yaradıcılığına elmi prinsiplər əsasında qiymət verməyə səy göstərən ilk sənətkarlarımızdandır.

Onun Tiflis şəhərindəki yaradıcılığını iki mərhələyə ayırmaq olar. Müxtəlif truppalardakı və teatr dəstələrindəki yaradıcılığı; ikincisi, dövlət teatrlarındakı fəaliyyəti. Hər iki dövrdə o, həm aktyor, həm də rejissor kimi çalışmışdır. Həvəskarlıq dövründə Əbül Üla ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət ), Fərhad və Pərviz ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Akif bəy ("Akif bəy", Namiq Kamal), Əl Mənsur ("Əl Mənsur", Henrix Heyne), Qaçaq Kərəm ("Qaçaq Kərəm", Vano Mçedaşvili), Qurban, Ağa Məhəmməd xan ("Pəri cadu" və "Ağa Məhəmməd şah Qacar", Əbdürrəhim bəy Haqverdiyev), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Əsgər, Həsən bəy ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Heydər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Ömər ("Nadanlıq", Nəriman Nərimanov) rollarını oynayıb.

Bu illərdə o, truppanın İstanbul qastrolunun rəhbərlərindən biri olub (1918- 1919). Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm", "Arşın mal alan", "Məşədi İbad", Henrix Heynenin "Əl Mənsur", Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", "Pəri cadu", "Bəxtsiz cavan", Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay", "Əlli yaşında cavan", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Sultanməcid Qənizadənin "Xor-xor" əsərlərinə quruluşlar verib.

1922-ci ildə kollektiv Tiflis Dövlət Türk Dram Teatrı adlanıb. Kirmanşahlı dramaturqlardan Hüseyn Cavidin "İblis" faciəsinə, Jan Batist Molyerin "Cancur Səməd" və "Jorj Danden" komediyalarına, Böyükağa Talıblının "Kef içində" dramına quruluşlar verib. Truppada Arif, Cəlal ("İblis" və "Uçurum", Hüseyn Cavid), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Bələdiyyə rəisi ("Müfəttiş", Nikolay Qoqol) kimi mürəkkəb dramatik rollar ifa edib.

1924-cü ildə Moskvada ikiillik təhsilini başa vuran Mirseyfəddin Kirmanşahlı Bakıya, Milli Dram Teatrının sərəncamına göndərilib. O, altı il bu teatrda rejissor və aktyor kimi çalışıb. Mirseyfəddin Kirmanşahlı 1928-1929-cu illərdə Tiflis ADDT-də baş rejissor işləyib və Cəfər Cabbarlının "Od gəlini", "Aydın", Vladimir Kirşonun "Küləklər şəhəri", Hüseyn Cavidin "Uçurum", "Şeyx Sənan", "İblis",Vilyam Şekspirin "Hamlet" pyeslərini fərqli janr-üslub prinsiplərində tamaşaya hazırlayıb. Bu teatrda Elxan ("Od gəlini"), İsgəndər ("Ölülər"), Rodriqo ("Otello"), eyniadlı faciələrdə Aydın və Nadir sah rollarını oynayan aktyor 1930-cu ilin əvvəlində Bakıya, AMDT-yə qayıdıb. Az sonra isə Akademik teatrdan incik düsərək İranın Tehran şəhərinə gəlib və

burada teatr dəstəsinə rejissor qəbul olunub. Bir müddət Təbriz şəhərində fəaliyyət göstərən "Ariyan" teatr truppasına da inamla və qətiyyətlə rəhbərlik edib. Yenidən Tehrana qayıdıb və burada "Cameyi Bərbət", "Nəkisa" teatrlarında yorulub usanınadan coşğun fəaliyyət göstərib. Tək yaşayan Mirseyfəddin Kirmanşahlı 1933-cü ildə öz mənzilində müəmmalı şəkildə vəfat edib.

Mirseyfəddin Kirmanşahlı hələ Bakıda olarkən "Bismillah", "Gilan qızı" filmlərinə çəkilmişdir. Müxtəlif fasilələrlə Bakı Teatr Məktəbində aktyor sənətindən, səhnə danışığından dərs demişdir.

* * *

**Ələkbər Seyfı**

Tiflis şəhərində doğulub. "İttifaq" məktəbində təhsil alıb. Səhnəyə ilk dəfə şagird vaxtı, 1914-cü ilin əvvəllərində "Dəmirçi Gavə" (Şəmsəddin Sami) tamaşasında Bəhram rolunda çıxıb. Bundan sonra məktəb tamaşalarında kiçik rollar oynayıb. 1917-ci ildə "İbrət" dram dərnəyinə üzv olub. Truppanın yaradıcı heyətinə çox tez isinişib. Tezliklə o, Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Hafizə xanım), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (Feyzulla), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Pərviz), Nəriman Nərimanovun "Nadir şah" (Rzaqulu xan), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (Mahmud bəy), Hüseyn Cavidin "Maral (Cəmil bəy), Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Vəli və Telli), İsa bəy Aşurbəylinin "Azərbay və Can" (Can), Cəlil Məmmədquluzadənin "Ölülər" (Müəllim), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Yetər) pyeslərinin tamaşalarında çıxış edib.

Ələkbər Seyfi 1922-ci ildən başlayaraq Tiflis Dövlət Azərbaycan Dram Teatrında yeddi il işləyib. Bu dövrdə İkinci zabıt ("İblis", Hüseyn Cavid), Şeyx Abuzər və Serqo ("Şeyx Sənan", Hüseyn Cavid), Pyotr İvanoviç ("Müfəttiş", Nikolay Qoqol), Vəli ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Cücə ("Topal Teymur", Hüseyn Cavid), Kərəməli ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Hambal ("Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Əşrəf ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Əbdüləli bəy ("Sevil", Cəfər Cabbarlı) rollarını oynayıb.

Ələkbər Seyfi 1929-cu ildə Bakı Türk İşçi Teatrına dəvət alıb.

**Əhməd Salahlı**

Yaradıcılığı Gəncə, AMDT və TİT ilə bağlıdır. Səhnəyə ilk dəfə 1911-cı ildə Tiflis şəhərində çıxıb. O vaxtdan 1921-ci ilə kimi "İttihad" və "İbrət" truppalarında, birləşmiş teatr dəstəsində aktyorluq edib. Tiflis Azərbaycan teatrı dövlət statusu alandan sonra müəyyən dövrlərdə (1922-1930 və 1941-1947) bu kollektivdə aktyorluq edib. Azərbaycan Respublikasının əməkdar artisti (1940) olub.

Əhməd Salahlı Tiflis teatrında dram tamaşalarında Arif və İblis, Topal Teymur, Knyaz, Platon, Əkrəm ("İblis", "Topal Teymur", "Knyaz", "Şeyx Sənan" və "Uçurum", Hüseyn Cavid), Məsud ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Osip ("Müfəttiş", Nikolay Qoqol), Vaqif ("Vaqif", Səməd Vurğun), Gündüz ("Qız qalası", Rza Şahvələd), De Ponti ("İki yetimə", Adolf D'Enneri və Germon), Molla Abuş ("Kef içində", Böyükağa Talıblı), Şeyx Əhməd və İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Balaş ("Sevil", Cəfər Cabbarlı), opera və operetta əsərlərində Nofəl, Süleyman ("Leyli və Məcnun" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov) rollarını oynayıb. O, Tiflis teatrında rejissorluqla da məşğul olub və "Arşın mal alan", Etil Voyniçin "Ovod" ("Qan bayramı") əsərlərini, bir sıra digər pyesləri tamaşaya hazırlayıb.

* * *

Milli teatr tariximizin müstəvisində öz yeri olan Tiflis Azərbaycan Dövlət Dram Teatrının həm həvəskar truppalardan ibarət olduğu dövrlərdə, həm də sonraki fəaliyyət illərində onun inkişaf tarixinə görkəmli fədailərin adları yazılıb. Bunların arasında məşhur pedaqoq, müxtəlif teatr dəstələrində aktyorluq və rejissorluq edən Eynalı bəy Sultanovun, təşkiİatçı və rejissor Əbdürrəhim bəy Haqverdiyevin, teatrın tərəqqisinə əvəzsiz yardımlar göstərmiş Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, jurnalistlər Məmmədağa Şahtaxtlının (Şahtaxtinski), Əliqulu Qəmküsarın, pedaqoq və dramaturq Rəşid bəy Əfəndiyevin, maarifpərvər ziyalılar Məmmədəli Sidqinin, Abdulla Xəlilovun, Məmmədcəfər Cəfərovun, İbrahim bəy Zeynalovun, Şahhüseyn (Hüseyn) Minasazovun, aktyorluğu peşə seçmiş, İsmayıl Əliyevin, Məmmədhüseyn Əliyevin, Əsgər İsmayılovun, Yunis Nərimanovun, Əziz Bədəlovun, Hüseyn Çıldırovun, Cəlil Cəmilovun, Qasım Bayramovun, Cahangir Həsənovun, Yəhya Məmmədovun, Həbib Köçərlinskinin, İsmayıl Həqqinin, Abbasəli Kazımovun, Həsən Əhmədovun, Nadir İbrahimovun, Əlimirzə Nərimanovun, Əsgər Naxçıvanlının, Haşım Haşımovun, Məmməd Ağalarovun, Kərim Kərimovun... səhnə fəaliyyətləri daha yaradıcı olub.

Sonralar Bakıda aktyorluq və rejissorluq etmiş xalq artistləri Mustafa Mərdanovun, Rza Təhmasibin, Möhsün Sənaninin, Əli Qurbanovun həvəskar truppanın peşəkarlığa doğru addımlamasında səmərəli əməkləri olub.

## TİFLİS AZƏRBAYCAN TEATRINDA AKTYOR VƏ REJİSSOR YARADICILIĞI

### Üçüncü dərs

Tiflis teatrı dövlət statusu alandan sonraki dövrdə yeni və daha peşəkar yaradıcılıq yolu keçib. Həvəskar aktyorların əksəriyyəti truppada yaradıcılıqlarını davam etdiriblər. Eyni zamanda vaxtaşırı kollektivə yeni-yeni istedadlı gənclər qəbul olunublar. İyirmi beş il ərzində Tiflis DADT aktyor və rejissor yaradıcılığında müəyyən yaradıcılıq nailiyyətləri qazana bilib.

* * *

### ƏLI ŞAHSABAHLI (28.3.1896-13.1.1973)

Əli Fətulla oğlu 28 mart 1896-cı ildə doğulub. Tiflis teatrının aparıcı aktyorlarından olub. Ermənistanın əməkdar artisti fəxri adını alıb (1945). Səhnəyə ilk dəfə 1911-ci ildə həvəskar teatr dəstəsində çıxıb. Vaxtaşırı müxtəlif truppaların hazırladıqları tamaşalarda kiçik rollar oynayıb. Tiflis Azərbaycan Dövlət Dram Teatrının təşəkkülündə və formalaşmasında aktyor və rejissor kimi səmərəli işlər görüb, əhəmiyyətli təşkilatçılıq işi aparıb.

Əli Şahsabahlı Tiflis teatrındakı faciə, dram və komediya tamaşalarında Əbu Übeyd və Aqşin, İbad ("Od gəlini" və "Almaz", Cəfər Cabbarlı), İblis, Keykavus, Dərviş, Anton ("İblis", "Səyavuş", "Şeyx Sənan" və "Knyaz", Hüseyn Cavid), Klavdi ("Hamlet", Vilyam Şekspir), Şamil ("Şamil", Vangelli), Lartsev ("Üzləşdirmə", Lev Şeynin), Süleyman, Kərəm və Keşiş ("Arşın mal alan" və "Əsli və Kərəm", Üzeyir bəy Hacıbəyov), Əşrəf bəy ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), Seyran ("Namus", Aleksandr Şirvanzadə), Baxmetov ("Küləklər şəhəri", Vladimir kirşon) kimi yaddaqalan rollar oynayıb.

Tiflis teatrının Dövlət statusu aldığı ilk günlərdən həm də truppanın aparıcı rejissorlarından olub. Ayrı-ayrı teatr mövsümlərində Cəfər Cabbarlının "Aydın", "Od gəlini", "1905-ci ildə", Vilyam Şekspirin "Otello", Hüseyn Cavidin "Şeyx Sənan", Üzeyir bəy Hacıbəyovun "Şah Abbas və Xurşid

banu", Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", Sandro Şanşiaşvilinin "Anzor" pyeslərinə səhnə təfsiri verib.

Əli Şahsabahlı 1937-ci ilin sonlarından 1949-cu ilədək İrəvandakı Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Dram Teatrında işləyib. Bir sıra məşhur pyesləri Azərbaycan dilinə tarcümə edib.

Aktyor və rejissor 13 yanvar 1973-cü ildə İrəvanda vəfat edib.

* * *

**Əsəd Xəlilov**

Tiflis teatrı Dövlət sənət ocağı səlahiyyəti almamışdan əvvəl müxtəlif həvəskar teatr dəstələrində çalışıb. Teatrın sayılıb-seçilən aktyorlarından idi. Kollektivin hazırladığı Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (Məşədi İbad), "Arşın mal alan" (Soltan bəy), Cəfər Cabbarlının "Aydın" (Dövlət bəy), "Oqtay Eloğlu" (Xaspolad),
"Od gəlini" (Altunbay), "Sevil" (Atakişi və Məmmədəli), "Almaz" (Hacı Əhməd), tərcümə əsəri "Qanlı səhra" (Baba), Hüseyn Cavidin "Şeyx Sənan" (Keşiş), "Topal Teymur" (İldırım Bəyazid), "Knyaz" (Knyaz), Sandro Şanşiaşvilinin "Anzor"
(Anzor), Viktor Lyubomirovun "Talış qızı" (Xanlar xan), Vladimir Kirşonun "Küləklər şəhəri" (Karoyon), Mirzə İbrahimovun "Həyat" (Süleyman), Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" (Aşpaz Həsən) tamaşalarında xarakterik dramatik
və komik rollar oynayıb. Yaradıcılıq yönü realist aktyor məktəbinin poetika xüsusiyyətlərinə daha uyğun gəlirdi.

**Abbas Qurbanov**

Tiflis Azərbaycan Dövlət Dram Teatrının peşəkar aktyorlarındandır. Teatr baglanana qədər onun səhnəsində çalışıb. Əməkdar artist idi. Sənət ocağının repertuarındakı əksər tamaşalarda iştirak edib. Məhərrəm Əlizadə və Ağası Məşədibəyovun "Toy kimindir?" (Qoşun), Məmməd Səid Ordubadi və Fikrət Əmirovun "Ürəkçalanlar" (Quluş bəy), Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" (Kərbəlayı Hüseynqulu), Üzeyir Bəy Hacıbəyovun "Arşın mal alan" (Vəli), Sabit Rəhmanın "Toy" (Kərəmov), "Xoşbəxtlər" (Bərbərzadə) komediyalarında, Mehdi Hüseynin "Nizami" (Qivami), Səməd Vurğunun "Vaqif" (İbranım xan), Heydər İsmayılovun "Koroğlu" (Vəzir), Rza Şahvələdin "Qız qalası" (Toybəyi), Süleyman Rüstəmin "Qaçaq Nəbi", (Koxa), Mirzə İbrahimovun "Həyat" (Pardon Qurbanəli) "Sevil" (Atakişi və Babakişi), "Almaz" (Şərif) dramlarında "Knyaz" (Şakro), "Od gəlini" (Oddamdı), "Şeyx Sənan" (Serqo) faciələrində, tərcümə pyeslərindən Georgi Mdivaninin "Vətən namusu" (Dato), Vangellinin "Şamil" (Musa), Vasili Şkvarkinin "Özgə uşağı" (Sençin), Əbdülhəq Hamidin "Hind qızı" (Cəlaləddin), Viktor Lyubomirovun "Talış qızı" (Əbil xan), Jan Batist Molyerin "Jorj Danden" (Jorj Danden), Nikolay Qoqolun "Evlənmə" (Patqolosin), Lev Şeynin və Tur qardaşlarının "Üzləşdirmə" (Quryeviç) əsərlərinin tamaşalarında maraqlı rollar oynayıb. Təbii və şirəli yumor, psixoloji dramatizm Abbas Qurbanovun yaradıcılığı üçün xarakterik idi.

**Tərlan xanım**

Milliyyətcə rus olub və bütün afişa və proqramlarda soyadsız, sadəcə "Tərlan xanım" yazılıb. Azərbaycanca aydın, sərbəst və ifadəli danışan aktrisa əməkdar artist fəxri adına layiq görülüb (4 mart 1932). Səhnəyə XX əsrin əvvəllərində gəlib və Tiflisdəki Zubalov adına "Xalq evi"ndə oynanan tamaşalarda çıxış edib. Müxtəlif Azərbaycan truppalarında fəal çalışıb və 1910-cu ildən

"Auditoriya"da toplaşan səhnə həvəskarlarının hazırladıqları əksər tamaşalarda qadın rollarını oynayıb. Tiflis Azərbaycan Teatrı dövlət statusu alanda truppanın aparıcı aktrisalarından biri də Tərlan xanım idi. Aktrisanın doğma teatrın səhnəsində oynadığı onlarca səhnə surəti arasında Emiliya və Dezdemona ("Otello", Vilyam Şekspir), Xubçöhr ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Kərbəlayı Fatma ("Ölülər", Cəlil Məmmədquluzadə), Cahan xala ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Zibeydə ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Marqo, Əzra ("Knyaz" və "Şeyx Sənan" Hüseyn Cavid), Froşer ("İki yetimə", Adolf D'Enneri və Germon), Gülüş ("Sevil", Cəfər Cabbarlı), Xupeyçə ("Qanlı səhra", təbdil), Baxa ("Şamil", tərcümə), Şpanik ("Namus", Aleksandr Şirvanzadə) obrazları xüsusi yaradıcılıq keyfiyyətləri ilə seçilib.

* * *

Tiflis teatrı Dövlət dram kollektivi kimi fəaliyyət göstərən dövrlərdə müəyyən fasilələrlə burada çalışan, sonralar nıüxtəlif fəxri adlara layiq görülən Əhməd Salahlı Bakıda və Gəncədə, Ağa Məmmədov, Reyhan Tağıyeva Gəncədə, Nəcibə Behbudova Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, Səməd Mövləvi Naxçıvanda, Yunis Nərimanov Bakı Opera və Balet Teatrında, Panfiliya Tanailidi AMDT-də çalışıblar.

Tiflis Azərbaycan Dövlət Dram Teatrında Sara Zeynalova, Bikə Quliyeva, Fatma Gəncinskaya, Diləfruz Abbasova, Qaraqaş Srubi, Şura Xeyranova, Şura Zeynallı, aktyorlardan Cümcüm, İsfəndiyar Hüseynov, Sadıq Məmmədov, Heydər İsmayılov, Qara Nəzərli, Məmmədağa Rzayev, Nəso Məmmədov, Nadir İbrahimov, Muğu Zamanov, Əbiş Qasımov, Hüseyn Çıldırov, Mirələkbər Seyidov (Əpiş), Əsəd Xəlilov, Fərrux Qurbanov, Əli Rzayev, Osman Həqqi, Firudin Məmmədov, Əbil Sənani, Kazım Zeynallı, İsrafil Qarayev, Bağır Sürhabi, rejissorlardan Aşır Bilalov, İsfəndiyar Hüseynov, Yusif Yulduz, İvarı Yevdakımov müxtəlif sənət uğurları qazanıblar. Aktyorlardan Mirzəli Abbasov, İbrahim İsfahanlı və Əhməd Salahlı da tamaşalar hazırlamışlar. Yusif Yulduzun "Od gəlini" və "Sevil" əsərlərinə verdiyi quruluşlar teatrın yaradıcılığında mərhələ tamaşaları kimi dəyərləndirilib. O, teatrda monumentalizmın parlaq təcəssümü üçün müəyyən cəsarətli addımlar atıb.

Tiflis teatrı bağlanandan sonra da bu sənətkarların əksəriyyəti ya müxtəlif teatrlarda işləmiş, ya da mədəniyyətin başqa-başqa sahələrində çalışaraq incəsənətdən ayrılmamışlar. Tiflisdə yaşamış və aktyorluq da etmiş Rza Şahvələd teatrın repertuarının çağdaş əsərlərlə zənginləşməsində səylə çalışıb, kollektivin tamaşalarına çoxlu resenziyalar yazıb.

Milli səhnəmizin qüdrətli aktyorları, xalq artistləri, Akademik Milli Dram Teatrında çalışan Əli Qurbanov, İsmayıl Osmanlı, Rza Əfqanlı, Kazım Ziya, ömürlərini Gəncədə başa vuran Ələkbər Seyfi, Solmaz Orlinskaya, müxtəlif illərdə Tiflis ADDT-də işləyiblər. Abbasmirzə Şərifzadə və Mərziyə Davudova, Ələsgər Ələkbərov dəvətlə kollektivin tamaşalarında baş rolları oynayıblar. Möhsün Sənani 1915-1919-cu illərdə Tiflisdəki Azərbaycan truppasında çalışıb və məhz burada teatr sənətinə əbədi bağlanıb. Bakıdakı Akademik teatrda əməkdar artist fəxri adına layiq görülmüş Ülvi Rəcəb kimi lirik-dramatik, romantik faciə aktyoru 1925-ci elədək Tiflisdə işləyib.

Tiflis səhnəsində **Abbasmirzə Şərifzadə və Mərziyə Davudova** "Otello", "Şeyx Sənan", "Məkr və məhəbbət", "Od gəlini" faciələrində Otello və Dezdemona, Şeyx Sənan və Xumar, Ferdinand və Luiza, Elxan və Solmaz rollarını ifa ediblər. **Əli Qurbanovun** Şveytser ("Qaçaqlar"), Qalabəyi ("Müfəttiş"), Niyaz ("Pəri cadu"), Montano ("Otello"), Balaxan ("Aydın"), Şeyx Nəsrulla ("Ölülər"), Rüstəm bəy ("Məşədi İbad"), Həsən kişi ("Baba yurdunda"), Dönməz ("Od gəlini"), Serqo ("Şeyx Sənan"), Rza Əfqanlının Dövlət bəy ("Aydın"), Jak ("İki yetimə"), Rəbi ("Od gəlini"), Firqə katibi ("Tufan"), **İsmayıl Osmanlının** Hacı Qara ("Hacı Qara"), Pyer ("İki yetimə"), Əbu Übeyd ("Od gəlini"), Sadıq ("Axmaq"), Gildenstern ("Hamlet") rolları həm teatrın, həm də aktyorların yaradıcılığında mühüm yer tutur.

**Solmaz Orlinskaya** 1924-1933-cü illərdə burada Sevil ("Sevil"), Ledi Milford ("Məkr və məhəbbət"), Xavər ("İblis"), Sona ("Hacı Qara"), Sevər ("Oqtay Eloğlu"), Gültəkin ("Aydın"), Solmaz ("Od gəlini"), Süsən ("Namus"), Xuraman ("Vaqif"), Jasmen ("Knyaz"), Ofeliya ("Hamlet") rolları ilə teatrın ifaçılıq salnaməsini zənginləşdirmişlər.

İyirmi bir yaşında Tiflis DADT-nin aparıcı aktyorlarından olan **Ülvi Rəcəb** lirik-romantik aktyorluq üslubu ilə tamaşaçıların rəğbətini qazanıb. Bu səhnəyə Otello ("Otello"), Frans ("Qaçaqlar"), Kral ("Şahın bərbəri"), Dərviş ("Şeyx Sənan"), İxtiyar ("İblis"), Soltan bəy ("Arşın mal alan"), Məhkəmə sədri Lyapkin Tyapkin ("Müfəttiş") rollarında çıxıb.

Tiflis teatrının dövlət statusu almaq üçün keçdiyi inkişaf yolunda Möhsün Sənani, xüsusən Mustafa Mərdanov və Əşrəf Yüzbaşov səmərəli işlər görmüşlər.

Azərbaycanın xalq artisti Aleksandr Tuqanov (13.3.1871-6.3.1960) Tiflis Azərbaycan Dövlət Dram Teatrında baş rejissor işləyəndə (avqust 1923-iyul 1924) bu kollektivdə Vilyam Şekspirin "Otello", "Hamlet", Jan Batist Molyerin "Jorj Danden", Hüseyn Cavidin "İblis", "Şeyx Sənan", "Uçurum", Cəfər Cabbarlının "Oqtay Eloğlu", Fridrix Sillerin "Qaçaqlar", Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "Leyli və Məcnun", "Əsli və Kərəm", Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla", Böyükağa Talıblının "Kef içində", Mirseyfəddin Kirmanşahlının "Üç cərəyan", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", Mirzə Cəlilin "Ölülər", Nikolay Qoqolun "Müfəttiş", Namiq Kamalın "Akif bəy" dram, faciə, opera, operetta və komediyalarına əlvan quruluşlar verib.

## İBRAHİM İSFAHANLI
## (1897-13.10.1967)

Tiflis Azərbaycan peşəkar teatrının formalaşmasında, truppanın dövlət statusu almasında, kollektivin aktyor ansamblının sənətkarlıq səciyyələrinin təkamülündə, romantik aktyor məktəbinin Gürcüstanda geniş intişar tapmasında müstəsna xidmətləri olan səhnə fədakarlarından biri də İbrahim İsfahanlı olub. Aktyor, rejissor və teatr təşkilatçısı idi. Xüsusi teatr təhsili görməmişdi, ancaq fitrətən aktyor doğulub, güclü fəhmlə səhnənin hər incəliklərini duyurdu, çağlayan qüdrətli daxili ehtirasdan bacarıqla istifadə edirdi. Təxəyyülü qanadlı və ifadəli, emosional-psixoloji daxili aləmi çoxqatlı idi. Həyatın ən sərt sınaqları ilə üzləşib, lakin səhnəni heç vaxt tərk etməyib, mətanəti, iradəsi və ən əsası alovlu sənət məhəbbəti ilə bütün çətinliklərin fövqündə durub. İbtidai məktəb təhsili də görməyib. Amma əslən Başkeçidin Lök Candar kəndindən olan anası Molla Məsmədən yazı-pozunu öyrənərək zəngin mütaliəyə sahib olub.

"İsfahanlı" onun səhnə təxəllüsüdür. İbrahim Hüseyn oğlu Hüseynzadə (İsfahanlı) 1897-ci ildə Tiflisdə doğulub. Səkkiz yaşına çatanda atası Həsən kişi Allah rəhmətinə gedib və anası İbrahimi çəkməçi yanına şəyird verib. O, əlinə pul düşən kimi məhəllə uşaqları ilə Zubalov adına Xalq evində, Artistlər klubunda, Gürcü Zadəgan (Əyanlar) evində azərbaycanlı teatr həvəskarlarının oynadıqları tamaşalara baxıb. Özünün yazdığına görə, səhnəyə ilk dəfə 1909-cu ildə sonralar xalq artisti olmuş Mustafa Mərdanovun və nasir, dramaturq, ilk azərbaycanlı baş rejissor Əbdürrəhim bəy Haqverdiyevin qayğıları sayəsində çıxıb. Elə həmin gündən də səhnəyə, aktyorluq sənətinə möhkəm tellərlə bağlanıb.

Tiflis Azərbaycan teatr dəstəsinin güclü aktyor truppası vardı. 1911-ci ildə həmin dəstə (başqa sözlə, cəmiyyət) iki yerə bölünüb. Gürcü Əyanlar teatrında yerləşən dəstəyə Mirseyfəddin Kirmanşahlı rəhbərlik edirdi və bu, ikinci dəstə adlanıb.

Birinci dəstə Zubalov adına Xalq evində fəaliyyət göstərirdi və rəhbəri qocaman səhnə fədaisi Mirzəli Abbasov olub. İkinci dəstənin tamaşaları bədii səviyyələrinə görə daha yüksək idi və burada Panfiliya Tanailidi, Yəhya Məmmədov, Mustafa Mərdanov, Nadir İbrahimov, Həsən Səbri

Abdullazadə kimi səhnə həvəskarları çalışıblar. İbrahim İsfahanlı hər iki dəstədə aktyorluq edib, bununla belə əsas rollarını ikinci dəstədə oynayıb.

1917-ci ildə Tiflisdə "İttihad" və "İbrət" dram dəstələri vardı və onlar sonradan həmin dövrdə Gürcüstanda işləyən Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə birləşib daha kamil truppaya çevrildilər. İbrahim İsfahanlı "İttihad"da həm aktyorluq edib, həm də bir rejissor kimi tamaşalar da hazırlayıb. "İttihad" və "İbrət" birləşərək "Müsəlman dram artistləri cəmiyyəti" olandan sonra teatr dəstəsinin fəaliyyət dairəsi genişlənib. Rəhbərləri Mirseyfəddin Kirmanşahlı, Mirzəli Abbasov və Mustafa Mərdanov, əsas təşkilatçılardan biri İbrahim İsfahanlı olmaqla bu dəstə Gürcüstanın müxtəlif iri şəhərlərinə Acarıstanın Batum, Azərbaycanın Zaqatala, Şəki, Ağdam, (Göyçay, Gəncə, Türkiyənin İstanbul, İranın Tehran, Rəşt, Təbriz, Xoy, Ənzəli... şəhərlərinə qastrollara çıxıb. Xüsusən altı aydan çox çəkən İstanbul qastrolu çox uğurlu keçib.

1920-1922-ci illərdə Tiflisdə Azərbaycan teatrı kollektivinin işində güclü təkamül başlayıb və təbii ki, yeni mərhələyə keçidin önündə gedənlərdən biri də İbrahim İsfahanlı olub. Ələkbər Seyfinin rəhbərliyi və onun rejissorluğu ilə truppanın yığcam bir dəstəsi (Əhməd Salahlı, Əli Qurbanov, Əsəd Xəlilov, İsmət xanım, Srubi Qaraqaş) Türkiyənin Qars, Sarıqamış, Ərzurum şəhərlərində uğurlu qastrol tamaşaları göstəriblər.

Xüsusən 1921-ci il Tiflis Azərbaycan Teatrı üçün yeni mərhələyə keçidin astanası oldu. Kollektivin Tiflis Dövlət Azərbaycan Dram Teatrına çevrilməsi üçün Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mustafa Mərdanov, Mirseyfəddin Kirmanşahlı ilə bərabər İbrahim İsfahanlı da böyük xidmətlər göstərib, coşğun səylə çalışıb.

İbrahim İsfahanlı teatrın müxtəlif truppalar halında fəaliyyət göstərdiyi illərdə də həvəskar aktyor kimi çoxlu rol oynayıb. Hətta həmin rolların əksəriyyətini bir neçə quruluşda ifa edib. Aktyorun 1909-1922-ci illərdə səhnəyə çıxdığı obrazların əsas qismi Rüstəm, Xubçöhr və Pərviz ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Fərhad, Tavad Sereteli ("Bəxtsiz cavan" və "Ağa Məhəmməd şah Qacar", Əbdürrəhim bəy Haqverdiyev), Gürcü bəy, Rza bəy ("Nadir şah" və "Şamdan bəy", Nəriman Nərimanov), Gülçöhrə və Əsgər, İbn Salam, Gülnaz ("Arşın mal alan", "Leyli və Məcnun" və "Məşədi İbad", Üzeyırbəy Hacıbəyov), Vəzir Mirzə Həbib ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Mayor Xudaverdi bəy ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov) rollarından ibarətdir.

Tiflis Azərbaycan teatr truppası 1922-ci ildən Dövlət Türk (Azərbaycan - **İ.R.**) Dram Teatrı kimi yaradıcılığının yeni mərhələsinə qədəm qoydu. Teatr səmərəli yaradıcılıq yolu keçərək 1947-ci il yanvar ayının 2-də bağlandı. Arada iki il Bakıda akyorluq etdiyini çıxmaqla İbrahim İsfahanlı əsil peşəkar səhnə ustası kimi zəngin yaradıcılıq irsi formalaşdırıb. Həmin illər ərzində ifa etdiyi rollar bədii-estetik səciyyələrinə, oyun peşəkarlığına, ifadə vasitələrinin rəngarəngliyinə görə parlaq sənətkarlıq xüsusiyyətlərini özlərində cəmləşdiriblər.

Aktyorun ən yaddaqalan səhnə surətləri Xlestakov ("Müfəttiş", Nikolay Qoqol), Klimantura ("Jorj Danden", Jan Batist Molyer), Dəmirqaya, Şeyx Sənan, İblis, Keykavus ("Topal Teymur", "Şeyx Sənan", "İblis" və "Səyavuş", Hüseyn Cavid), Yaqo, Hamlet ("Otello" və "Hamlet", Vilyam Şekspir), Elxan, İbad, Oqtay, Balaş ("Od gəlini", "Almaz", "Oqtay Eloğlu" və "Sevil", Cəfər Cabbarlı), Vurm və Hofmarşal ("Məkr və məhəbbət", Fridrix Şiller), Süleyman ("Həyat", Mirzə İbrahimov), koroğlu ("Koroğlu", Heydər İsmayılov), Pyer ("İki yetimə", Adolf D'Enneri və Germon), Zöhrak və Gavə ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), Şahmar bəy, İblis, Nəcəf bəy ("Baba yurdunda", "Pəri cadu" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), General Tomson ("Hind qızı", Əbdülhəq Hamid), Yaqor, ("Vətən namusu", Georgi Mdivani), Nəbi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Şapur, Vaqif və Qacar ("Fərhad və Şirin" və "Vaqif", Səməd Vurğun), Nizami ("Nizami", Mehdi Hüseyn), Heybət ("Ürəkçalanlar", dramaturq Məmməd Səid Ordubadi və bəstəkar Fikrət Əmirov) rollarıdır.

İbrahim İsfahanlı Mirzə Fətəli Axundzadə adına Tiflis Dövlət Azərbaycan Dram Teatrında qırxdan çox əsəri tamaşaya hazırayıb. Bunların arasında Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm",

"Leyli və Məcnun", "Şah Abbas və Xurşid banu" operalarına, "Arşın mal alan", "Məşədi İbad" operettalarına, Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", "Əlli yaşında cavan", "Evliykən subay", Vilyam Şekspirin "Otello", "Hamlet", Fridrix Şillerin "Qaçaqlar", Cəlil Məmmədquluzadənin "Ölülər", Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", Hüseyn Cavidin "İblis", "Uçurum", "Knyaz", "Şeyx Sənan", "Topal Teymur", Cəfər Cabbarlının "Od gəlini", "Aydın", "Almaz", "Sevil", Səməd Vurğunun "Vaqif", "Xanlar", "Fərhad və Şirin", Sabit Rəhmanın "Toy", "Xoşbəxtlər", Aleksandr Tolstoy və Pavel Şeqolvevin "Romanovlar xanədanının son günləri", Vladimir Kirsonun "Küləkli şəhər", Rza Şahvələdin "Qız qalası", "Dağlılar", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Əbdülhəq Hamidin "Hind qızı", Sandro Şanşiaşvilinin "Anzor", Akaki Seretelinin "Kinto", Aleksandr Dümanın "Qanlı qala", Nikolay Qoqolun "Müfəttiş", Henrix Heynenin "Əl Mənsur", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Nəriman Nərimanovun "Nadir şah", "Şamdan bəy" ("Dilin bəlası"), Əbdürrəhim bəy Haqverdiyevin "Millət dostları", "Köhnə dudman", "Ac həriflər", "Pəri cadu", "Bəxtsiz cavan" əsərlərinə verdiyi müxtəlif quruluşlar teatrın yaradıcılıq həyatında əhəmiyyətli rol oynayıb.

Romantik ruhlu aktyor İbrahim İsfahanlı 1926-1928-ci illərdə Tiflis Dövlət Azərbaycan Dram Teatrının baş rejissoru işləyib. 1 oktyabr 1928-ci ildə Bakıya, Akademik Milli Dram teatrına gəlib. Tiflis teatrı kollektivinin ciddi çağırışı ilə 15 yanvar 1930-cu ildə yenidən doğma kollektivə qayıdıb.

1934-cü ildə azəri və osmanlı türklərinin yaşadıqları Gürcüstanın ərazisində yerləşən Adıgün rayonunda səyyar Kolxoz və Sovxoz Teatrı yaradıldı. Tiflis teatrının kollektivinin yarısı, başda İbrahim İsfahanlı olmaqla, Adıgünə gəlib teatrın bünövrəsini qoyublar. Adıgün Dövlət Kolxoz və Sovxoz Teatrı 1936-cı ildə bağlanıb və bütün kollektiv Tiflisə qayıdıb.

Həmin illər Tiflis Teatrının baş rejissoru Yusif Yulduz idi. İbrahim İsfahanlı 1936-cı ildən teatr bağlanana qədər (2 yanvar 1947) bu kollektivdə aktyor, müəyyən mərhələlərlə rejissor, baş rejissor, bədii rəhbər kimi fədakarlıqla çalışıb.

Türk səhnəsinin 60 və Mirzə Fətəli Axundzadə adına Tiflis Dövlət Azərbaycan Dram Teatrının 10 illik yubileyi və böyük sənət uğurları münasibətilə 4 mart 1932-ci ildə İbrahim İsfahanlıya Gürcüstan Respublikasının xalq artisti fəxri adı verilib.

Dövlət teatrı bağlanandan sonra o, Azərbaycana gələrək Zaqatala (iyul 1947-may 1948) və Qazax (may 1948-may) Dövlət teatrında baş rejissorluq edib. 1949-cu ildə bu teatrlar da bağlanandan sonra Tiflisə qayıdıb. Tiflisdə, Başneçiddə dram dərnəklərinə rəhbərlik edib. Gürcüstan Dövlət Filarmoniyasının Azərbaycan estrada ansamblında çalışıb. Aktyor "Azərbaycanfilm" də istehsal olunmuş "Böyük dayaq" filmində Yarməmməd roluna çəkilib.

İbrahim Hüseyn oğlu İsfahanlı 13 oktyabr 1967-ci ildə Tiflisdə vəfat edib.

## NAXÇIVAN DÖVLƏT
## MUSİQİLİ DRAM TEATRI

Naxçıvanda teatr prosesini iki mərhələyə bölmək olar.

Birincisi: teatrın həvəskarlıq dövrü.

İkincisi: teatrın dövlət müəssisəsi kimi fəaliyyətə başladığı gündən indiyədək keçdiyi yaradıcılıq yolu.

Xalqın həyatına şaxəli müdaxilə edən və mədəniyyətin, xüsusən teatr sənətinin təşəkkülünə və tərəqqisinə səbəb olan maarifçiliyin inkişaf dalğası on doqquzuncu əsrin ikinci yarısında Naxçıvanda da yeni pilləyə qədəm basıb. 1882-ci ildə Eynalı bəy Sultanovun rəhbərliyi ilə "Ziyalılar cəmiyyəti" təşkil olunub. Cəmiyyətin üzvləri Eynalı bəyin rəhbərliyi ilə 1883-cü ildə Mirzə Fətəli

Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaçılara göstəriblər. Həmin tarix bugünkü Naxçıvan Dövlət Musiqili Dram Teatrının doğuluş günü kimi götürülür.

1887-ci il sentyabrın 2-də müəllim Mirzə Sadıq Qulubəyovun rəhbərliyi ilə Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" məsxərəsi oynanılıb. Hacı Nəcəf Zeynalovun evində göstərilən tamaşanı Cəlil Məmmədquluzadə və Əliməmməd Xəlilov hazırlayıblar. Əsas rolları Cəlil Məmmədquluzadə (Molla İbrahimxəlil), Ələkbər Süleymanov (Şeyx Salah), Məmmədtağı Səfərəlibəyov (Molla Həmid) ifa ediblər.

Bu tamaşadan sonra şəhərdə teatr həvəskarları nisbətən fəallaşıblar. İl ərzində bir neçə tamaşa oynanılıb. Novruz və Orucluq bayramlarında göstərilən tamaşalar daha təmtəraqlı keçib. Yay tətillərində başqa şəhərlərdə oxuyan tələbələr tətilə gələndə tamaşa və konsertlərin göstərilməsi prosesi daha da canlanıb.

Tədricən tamaşaların göstərilmə məkanları genişlənib. Nəcəf bəydən başqa, Əliməmməd Xəlilovun, Əli bəy Zeynalovun, Mehdi Ağanın, Rəhim xan Naxçıvanskinin (Naxçıvanlı) evlərində, Hacı Vəlinin karvansarasında da tamaşalar göstərilib.

Teatr həvəskarlarının arasında dövrünün tanınmış müəllimləri, jurnalistləri, hüquqşünasları, dəftərxana işçiləri Cəlil Məmmədquluzadə, Ələkbər Məmmədquluzadə, Eynalı bəy Sultanov, Əbülqasım Sultanov, Fərəculla Şeyxov, Nəsrulla Şeyxov, Məmmədtağı Sidqi Səfərov, Sadıq Xəlilov, Sadıq Qulubəyov, Qurbanəli Şərifov, Cəlil Mirzəyev, Əliqulu Novruzov, Məmmədqulu Novruzov, Məhəmmədtağı Səfərəlibəyov, Əhməd Hüseynov, Paşa Sultanov, Böyük xan Naxçıvanlı, Yaqub kəngərli və başqaları olublar.

İyirminci əsrin əvvəllərinə kimi həvəskarlar, əsasən, Mirzə Fətəli Axundzadənin komediyalarını, Eynalı bəy Sultanovun "Tatar qızı", Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", "Ev tərbiyəsinin bir şəkli", "Pəhlivanani-zəmanə" pyeslərini tamaşaya hazırlayıblar. 1900-1920-ci illərdə Naxçıvanda Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəricadu", "Millət dostları", "Ac həriflər", Nəriman Nərimanovun "Nadir şah", Cəlil Məmmədquluzadənin "Ölülər" dramları, Sultanməcid Qənizadənin, Mirmahmud Kazımovskinin, Rəşid bəy Əfəndiyevin vodevilləri, Nikolay Qoqolun "Müfəttiş", İvan Turgenevin "Pulsuzluq" tərcümələri, Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu" operaları, "Məşədi İbad", "Ər və arvad", "Arşın mal alan", Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan", " Evliykən subay" operettaları dəfələrlə tamaşaya hazırlanıb.

Tamaşalara rejissorluğu, əsasən, Rza Təhmasib, Böyük xan Naxçıvanlı, Fərəculla və Nəsrulla Şeyxovlar ediblər. Səhnə əsərləri müntəzəm şəkildə oynanılmayıb, ilk növbədə bayramlarda, müxtəlif müsamirələrdə göstərilib.

Naxçıvanda 1917-ci ildə "El güzgüsü" (rəhbəri Rza Təhmasib) və "İmdad" dram dəstələri yaradılıb. Bakıdan qastrola gələn Hüseyn Ərəblinski, Cəlil Bağdadbəyov, Sidqi Ruhulla, Mirzağa Əliyev, Tiflisdən dəfələrlə bu bölgəyə səfər edən Zülfüqar bəy Hacıbəyov teatr dəstəsinin, onun musiqi heyətinin formalaşmasında səmərəli işlər görüblər.

1915-ci ildə Tiflis Rəssamlıq Məktəbini bitirmiş Bəhruz kəngərli müəyyən teatr dekorları hazırlayıb, asma pərdələrə müxtəlif mənzərələr çəkib. Truppaya Rza İsfəndiyarlı, Heydər Muradov, Muxtar Nəsirov, Hacı Nəsirov, Məşədi Bağırov, Teymur Qasımov kimi bacarıqlı gənclər cəlb olunublar.

* * *

Teatr truppası 1920-ci il avqustun 24-də yeni və daha güclü heyətlə fəaliyyətə başlayıb. Səməd Mövləvinin Naxçıvana gəlişi teatr prosesində canlanmanı artırıb. 1923-cü ildə Naxçıvan Mərkəzi İcraiyyə komitəsinin qərarı ilə şəhərdəki teatr həvəskarlarının qüvvəsilə Naxçıvan Dövlət Dram Teatrı yaradılıb. Kollektiv ilk addımını Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyası ilə atıb. Əsas rolları truppanın özəyini təşkil edən yaradıcı qüvvələrdən Əli Xəlilov (Hacı Qara),

Həsən Səfərli (Heydər bəy), T.Səfərli (Sona), Mirhəsən Mirişli (Ohan yüzbaşı), A.Qasımov (Naçalnik), Heydər Muradov (Səfər bəy), H.Məmmədov (Kərəməli) oynayıblar. Tamaşaya rejissorluğu Həsən Səfərli edib və səhnə tərtibatını Adil Qazıyev verib.

Dövlət teatrı kimi fəaliyyətə başlayandan sonra kollektivin qarderobu zənginləşdirilib, əlbəsə və rekvizit sexləri yaradılıb. Tamaşalar əvvəlcə həftədə iki-üç dəfə göstərilirdi. 1930-cu illərin əvvəllərindən isə həftədə beş və bəzən altı əsər oynanılmağa başlandı. 1924-1950-ci illərdə dram əsərlərindən Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan", "Lənkəran xanının vəziri", Nəriman Nərimanovu "Nadir şah", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", "Bəxtsiz cavan", Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "Aydın", "Oqtay Eloğlu", "Solğun çiçəklər", "Od gəlini", "Sevil", "Almaz", "Yaşar", "1905-ci ildə", Hüseyn Cavidin "Şeyx Sənan", "Knyaz", "Səyavuş", Mirzə İbrahimovun "Həyat", Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Sabit Rəhmanın "Toy", Məmmədhüseyn Təhmasibin "Bahar", məktəblilər üçün Əyyub Abbasovun "Məlik Məmməd", "Aqil və Sərvinaz", operettalardan Üzeyir bəy Hacıbəyovun "Ər və arvad", "Arşın mal alan", "Məşədi İbad", Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan", "Evliykən subay", Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" teatrın repertuarında əsas yer tutub. Teatr "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" muğam operalarını da müxtəlif quruluşlarda repertuarda saxlayıb.

Tərcümə əsərlərindən Vano Mçedaşvilinin "Qaçaq Kərəm", Vilyam Şekspirin "Otello", "Hamlet", Lev Şeynin və Tur qardaşlarının "Üzləşdirmə", Boris Lavrenyovun "Hücum", Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Konstantin Trenyovun "Lyubov Yarovaya", Georgi Mdivaninin "Vətən namusu", Konstantin Simonovun "Praqanın şabalıd ağacları altında", Pavel Malyarevskinin uşaqlar üçün yazdığı "Sehrli küpə" əsərlərinin tamaşaları daha uğurlu olub.

Teatrda bu dövrdə Səməd Mövləvi (1926-1931), Sidqi Ruhulla (1931-1932), Yusif Yulduz (1936-1937), İbrahim Həmzəyev baş rejissor işləyiblər. Kazım Ziya, İsmayıl Hüseynov, Həsən Ağayev müxtəlif janr və üslublarda tamaşalar hazırlayıblar.

* * *

Naxçıvan teatrının 1950-2005-ci illəri əhatə edən yaradıcılıq dövrü daha çox müasirlik axtarışları ilə səciyyəvidir. Bu illərdə teatr forma və üslub yeniliklərinə xüsusi diqqət yetirib. Rejissorlar monumental romantik tamaşalardan daha çox psixoloji, realist dramatik və lirik-psixoloji üslublu səhnə əsərləri hazırlamağa səy göstəriblər. Yaradıcılığının formalaşdığı 1930-cu illərdə ehtiraslı xarakterlər toqquşmalarına üstünlük verən Naxçıvan teatrının inkişafının yüksəlişi illərində insani münasibətlərin fəlsəfi-psixoloji mahiyyətinə dərindən müdaxilə etmək daha çox maraqlandırıb. Truppa operetta janrında sanballı tamaşalar oynamaqda formalaşıb.

Bu dövrdə teatrın məzmun mahiyyətinə, estetik prinsiplərinin psixoloji əsaslarına, poetika xüsusiyyətlərinə, aktyor ifalarının zənginliyinə görə "Səyavuş" (Hüseyn Cavid"), "Dəli yığıncağı" (Cəlil Məmmədquluzadə), "Aydın" (Cəfər Cabbarlı), "Toy" (Sabit Rəhman), "Sən həmişə mənimləsən", "Məhv olmuş gündəliklər" (İlyas Əfəndiyev), "Yağışdan sonra" (Bəxtiyar Vahabzadə), "Mənim nəğməkar bibim", "Quşu uçan budaqlar" (Əkrəm Əylisli), "Adamın adamı" (Anar), "Ultimatum" (Rüstəm İbrahimbəyov), "Nə yardan doyur, nə əldən qoyur" (Lope de Veqa), "Kor padşah" (Nazim Hikmət və Vera Tulyakova), "Hücum" (Boris Lavrenyov), "Konsulu oğurladılar" (Georgi Mdivani), "Dördüncülər" (Konstantin Simonov), "Ordan, burdan", "Məşədi İbad", "Arşın mal alan" (Üzeyir bəy Hacıbəyov) kimi dəyərli tamaşaları olub.

Teatr dünya şöhrətli dramaturqlardan Əziz Nesinin ("Toros canavarı"), Paolo Messininin ("Sükut divarı"), Karlo Haldoninin ("Mehmanxana sahibəsi"), Sofokiun ("Elektra"), Çingiz Aytmatovla Kaltay Məhəmmədcanovun ("Fudzi dağında qonaqlıq"), Avksenti Saqarelinin ("Xanuma"), Edvard O1binin ("Zoopark əhvalatı"), Georgi Xuqayevin ("Arvadımın əri") yaradıcılıqlarına ilk dəfə müraciət edib.

Bəhruz Kəngərlinin vaxtsız ölümündən sonra (1922) dram dəstəsində və sonra dövlət teatrında Adil Qazıyev səhnə tərtibatına rəhbərlik edib. Onun teatrın nəzdində yaratdığı studiyada Hüseyn Əliyev, İdris Səlimov, Nağı Nağıyev, Mirzə Əkbərov, Şamil Qazıyev fırça sənətinin əlifbasına yiyələniblər. Şamil Qazıyev Bakıda rəssamlıq təhsili alandan sonra Naxçıvan teatrına qayıdıb və 1948ci ilə kimi burada işləyib. Səhnə tərtibatı sahəsində onu 1949-cu ildən istedadlı rəssam Məmməd Qasımov əvəz edib.

Yerli bəstəkarlar Rəşid Məmmədov, Məmməd Ələkbərov, Məmməd Məmmədov teatrın müxtəlif janrlı tamaşalarına məzmunlu və ifadəli musiqi bəstələmişlər.

Son altmış ildə teatr öz repertuarını mövzu, janr və xarakterlər baxımından zənginləşdirmək üçün Naxçıvanda yaşayıb-yazan nasir və şairləri də qələmlərini dramaturgiya janrında sınaqdan çıxarmağa sövq edib. Ayrı-ayrı illərdə müxtəlif rejissorlar Hüseyn Razinin "Odlu diyar", "Günəş", "Haray səsi", Əlyar Yusiflinin "Gözüm yollarda qaldı", "Vicdan əzabı", "Siz xoşbəxt yaşayın", Əbil Yusiflinin "Vicdan əzabı", Əbülfəz Abbasquliyevin "Günəşə doğru" Qurban Qurbanovun "Ayrım", Əbülfəz Abbasquliyevin "Günəş doğur", Nağı Nağıyevin "Polad", Hüseyn İbrahimovun "İtirilən sağlıq", "Torpaq təslim olur", Cəmşid Əmirovun "Sahil əməliyyatı", Kəmalə Ağayevanın "Məhsəti", "İsmət", Ramiq Muxtarın "Əgər sevirsənsə...", "Üfüqlər qızaranda", "Şəhərli Kürəkən", Turan Oflazoğlunun "Dəli İbrahim", Həsən Elsevərin "Alınmaz qala", Məmmədəli Tarverdiyevin "Kölgəli dağ", "Xosrov və Şirin", Əliheydər Qənbərin "İlan yuvasında fırtına", Həsən Fətullayevin "Əlincədən uçan qartal" pyeslərini tamaşaya hazırlayıblar.

Naxçıvan teatrı 28 dekabr 1938-ci ildən Mirzə Fətəli Axundzadənin adını daşıyıb.

1965-ci ildə isə sənət ocağına Cəlil Məmmədquluzadənin adı verilib.

1923-cü ildə Naxçıvan Dövlət Dram Teatrı kimi fəaliyyətə başlayan kollektiv uzun müddət bu adla çalışıb. Sənət ocağı 1964-cü ilin sentyabrından Naxçıvan Dövlət Musiqili Dram Teatrı adlanır.

Naxçıvan DMDT-nin nəzdində 1982-ci ildə Cavid Poeziya Teatrı yaradılıb. Truppa aktyorlarının ifasında bu teatrda Huseyn Cavidin "Mənim tanrım gözəllikdir, sevgidir", "Ana", "Azər", "Uçurum", Aleksandr Puşkinin "Qaraçılar", Rəsul Rzanın "Bir gun də insan ömrüdür", Məhəmməd Füzulinin "Pəmbeyi-daği-cünun..." pyesləri, poemaları və bədii kompozisiyaları tamaşaya qoyulub.

## NAXÇIVAN DÖVLƏT MUSİQİLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI

### Birinci dərs

Azərbaycanın digər bölgələrində, yəni Bakıda, həmçinin Tiflisdə, İrəvanda olduğu kimi, Naxçıvanda da ilk teatr həvəskarları maarifpərvər ziyalılar olublar. 1910-cu illərin sonlarından başlayaraq peşəkar aktyorluq inkişaf etməyə başlayıb. Səhnəyə daha böyük inamla bağlanan həvəskarlar aktyorluğu peşə seçiblər. Teatr dövlət statusu alandan sonra kollektivə yeni-yeni istedadlar gəliblər. Başqa sənət ocaqlarından da buraya istedadlı teatr fədailəri dəvət olunublar. Naxçıvanda Dövlət Dram Teatrı fəaliyyətə başlayanda onun truppasında Əli Xəlilov, Rza İsfəndiyarlı, Səməd Mövləvi, Mirhəsən Mirişli kimi təcrübə qazanmış aktyorlar vardı. İlbəil truppası yenilәşən kollektiv 1940-cı ilə qədər heyətini Mahmud Qazıyevin, Həsən Səfərlinin, Kazım Hüseynovun, İsa Musayevin, Əyyub Məmmədovun, Zina Budaqovanın, Xədicə Qazıyevanın, Firuzə Əlixanovanın, Əyyub Haqverdiyevin, Tamara Məmmədovanın, Pakizə Məmmədovanın, Sürəyya Qurbanovanın, Rüxsarə Ağayevanın, Yusif Haqverdiyevin hesabına qüvvətləndirib, formalaşdırıb və geniş inkişaf yoluna çıxıb.

* * *

### SƏMƏD MÖVLƏVİ(20.2.1900-6.2.1962)

Səhnə təxəllüsü "Mövləvi" olan Səməd (Əbdülsəməd) Məmməd oğlu Rzayev 20 fevral 1900-cu ildə Cənubi Azərbaycanın Təbriz şəhərində doğulub. Buradakı Rüşdiyyə məktəbində oxuyub. Səhnəyə ilk dəfə 1917-ci ildə Təbrizdə qastrolda olan Sidqi Ruhullanın hazırladığı "Nadir şah" (Nəriman Nərimanov) tamaşasında Gülcahan rolunda çıxıb. Beləliklə, səhnə sənətinə bağlanıb və özü tamaşalar hazırlayıb. 1920-ci ildə Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinə təbrizli həvəskarlarla quruluş verib və özü Hacı Baxşəli rolunu oynayıb. Tamaşa ciddi qalmaqala səbəb olub və bu hadisə Səməd Mövləvinin Naxçıvana köçməsini tezləşdirib. Onun gəlişi ilə şəhərdəki dram dəstəsinin yaradıcılığında canlanma baş verib. Şirin və zəngulәli səsi olan Mövləvi opera və operetta tamaşaları hazırlamağa üstünlük verib.

Naxçıvan teatr həvəskarlarının yaratdıqları kollektivin dövlət statusu almasında Səməd Mövləvinin böyük xidmətləri var. O, 1930-cu illərin ortalarına qədər Naxçıvan DDT-də işləyib və sonra Tiflisə gedib. Buradakı Dövlət Azərbaycan Teatrında səmərəli fəaliyyət göstərdikdən sonra 1939-cu ildə yenidən Naxçıvana qayıdıb.

Səməd Mövləvi Naxçıvan DMDT-də opera, operetta və dram tamaşalarında silsilə rollar yaradıb. Əsas yaradıcılıq nailiyyətləri musiqi əsərlərində Məcnun, Kərəm, Mərcan bəy, Əsgər ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Ər və arvad" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Gülümsərov ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), faciə, dram və komediya tamaşalarında Balaş, Əbu Übeyd, Pirqulu, Əbdül, Cəmaləddin, Hacı Əhməd ("Sevil", "Od gəlini", "Aydın", "Solğun çiçəklər", "Nəsrəddin şah" və "Almaz", Cəfər Cabbarlı), Şeyx Nəsrulla ("Ölülər"), Şeyx Kəbir ("Şeyx Sənan", Hüseyn Cavid), Mirzə Mehdi xan ("Nadir şah"), Teymur ağa, Hacı Qara ("Lənkəran xanının vəziri" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Xlestakov ("Müfəttiş", Nikolay Qoqol), Qoca Moor ("Qaçaqlar", Fridrix Şiller), Vidadi, Şapur ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), Piri baba ("Eşq və intiqam", Süleyman Sani Axundov), Həsənov ("Həyat", Mirzə İbrahimov), Bilici baba ("Vətən", Abdulla Şaiq) rolları sayılır.

Səməd Mövləvi aktyorluqla yanaşı, rejissor sənəti ilə də səmərəli məşğul olub. Sənətdə qazandığı nailiyyətlərə görə ona 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 may 1960-cı ildə xalq artisti fəxri adları verilib.

Sənətkar 6 iyul 1962-ci ildə Naxçıvanda vəfat edib.

**ƏYYUB HAQVERDİYEV (15.3.1911 - 7.7.1996)**

Ömrünün altmış ilə yaxınını Naxçıvan teatrında keçirib. Əyyub Məmməd oğlu Haqverdiyev 15 mart 1911-ci ildə Naxçıvanda doğulub. 1930-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib. Lakin tələbə vaxtlarından, yəni 1929-cu ildən Naxçıvan teatrında aktyor işləyib və heç vaxt səhnədən ayrılmayıb.

Sənətdə göstərdiyi xidmətlərinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 14 oktyabr 1964-cü ildə xalq artisti fəxri adlarına layiq görülüb. Qocaman yaşında da səhnədən uzaq düşməyən aktyor Naxçıvanda vəfat edib.

Dramatik və faciə rollarında uğurlar qazanmış aktyorun yaradıcılıq imkanları komik personajların ifasında daha ifadəli şəkildə təcəssüm tapıb. Yaradıcılığı xarakter əlvanlığı və janr müxtəlifliyi ilə seçilən Əyyub Haqverdiyevin əsas rollarını belə təqdim etmək olar: Dövlət bəy, İmamverdi, Əmirqulu, Aqşin, Mazandaranski, Şərif, Məmmədəli bəy ("Aydın", "1905-ci ildə", "Yaşar", "Od gəlini", "Oqtay Eloğlu", "Almaz" və "Sevil", Cəfər Cabbarlı), Serqo ("Şeyx Sənan", Hüseyn Cavid), Kürd Musa, Xosrov ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), Mehdi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Pardon Qurbanəli ("Həyat", Mirzə İbrahimov), Qoca Moor ("Qaçaqlar", Fridrix Şiller), Əhmədi Biqəm ("Adamın adamı", Anar), Taveriya ("Sevilya ulduzu", Lope de Veqa), Məşədi Oruc ("Ölülər", Cəlil Məmmədquluzadə), Məmiş ("İtirilmiş sağlıq", Hüseyn İbrahimov).

Aktyor teatrın yaradıcılıq xarakterinə uyğun olaraq opera və operetta tamaşalarında da səhnə obrazları ifa edib. Bunların arasında Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Məcnunun atası), "Əsli və Kərəm" (Keşiş) operalarında, "Məşədi İbad" (Məşədi İbad), "Arşın mal alan" (Vəli) operettalarında, Şıxəli Qurbanov və Süleyman Ələsgərovun "Olmadı elə, oldu belə" (Alanzadə), "Özümüz bilərik" (Bəbirli), Məhərrəm Əlizadə və Fikrət Əmirovun "Gözün aydın" (Qəhrəman), Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Dursun) musiqili komediyalarında yaratdığı rollar tamaşaçılar tərəfindən daha maraqla qarşılanıb.

Əyyub Haqverdiyev 7 iyul 1996-cı ildə Naxçıvanda vəfat edib.

**İSA MUSAYEV (27.11.1912 - 4.2.1976)**

Teatrda zəngin yaradıcılıq yolu keçib. Uzun illər, əsasən, dram əsərlərində qəhrəman və baş rolların əsas ifaçılarından biri olub. Komediyalarda az, lakin çox koloritli obrazlar da oynayıb. İsa Həsən oğlu Musayev 27 noyabr 1912-ci ildə Naxçıvanda doğulb. Yeddinci sinifi bitirdikdən sonra əvvəlcə Naxçıvan Pedaqoji Texnikumuna daxil olub. Lakin 1927-ci ildə təhsilini yarımçıq qoyaraq Bakıya gəlib və burada Azərbaycan Dövlət Teatr Məktəbinə daxil olub. İxtisas təhsilini alaraq Naxçıvana qayıdıb və teatrda aktyorluq fəaliyyətinə başlayıb.

İsa Musayev 1942-1944-cü illərdə Quba DDT-də direktor və bədii rəhbər işləyib. Eyni zamanda Səməd Vurğunun "Vaqif" (Vaqif), "Fərhad və Şirin" (Fərhad), Cəfər Cabbarlının "Od gəlini" (Elxan), "Aydın" (Aydın), Süleyman Rüstənıin "Qaçaq Nəbi" (Qaçaq Nəbi) əsərlərinin tamaşalarında baş rolları ifa edib. Yenidən Naxçıvana qayıdan aktyor bütün qüvvəsini doğma teatrın yaradıcılıq tərəqqismə həsr edib. Bunun üçün də 17 iyun 1943cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 24 may 1960-cı ildə xalq artisti fəxri adlarına layiq görülüb. Sənətkar Naxçıvanda vəfat edib.

Aktyorun əsas rollarından təqdim olunan müəyyən nümunələr onun yaradıcılığının diapazon genişliyini, vüsət və möhtəşəmliyini görmək üçün kifayətdir. Otello, Hamlet ("Otello" və "Hamlet", Vilyam Şekspir), Karl Moor ("Qaçaqlar", Fridrix Şiller), Qurban, Nəcəf bəy ("Pəri cadu" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Mirzə Rza, Balaş, Elxan, Oqtay, Aydın,Yaşar

("Nəsrəddin şah", "Sevil", "Od Səlini", "Oqtay Eloğlu", "Aydın" və "Yaşar", Cəfər Cabbarl), Fəxrəddin ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Səyavuş, Şeyx Sənan ("Səyavuş" və "Şeyx Sənan", Hüseyn Cavid), Qatır Məmməd ("Qatır Məmməd", Zeynal Xəlil), Qaçan Nəbi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Dərviş Məstəli şah Teymur ağa, Heydər bəy ("Müsyö Jordan və dərviş Məstəli şah", "Lənkəran xanının vəziri" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Süleyman ("Həyat", Mirzə İbrahimov), Piri baba ("Vətən", Abdulla Şaiq), Çingiz ("Eşq və intiqam", Süleyman Sani Axundov).

İsa Musayev aktyorluqla yanaşı, yaradıcılığının formalaşmağa başladığı ilkin dövrlərində rejissorluqla da məşğul olub. Yaradıcılıq uğurlarına görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 24 may 1960-cı ildə xalq artisti fəxri adları ilə təltif olunub. 4 fevral 1976-cı ildə Naxçıvanda vəfat edib.

## MƏMMƏD QULİYEV (8.12.1914-11.9.2001)

8 dekabr 1914-cü ildə Naxçıvanda doğulub. Gözəl və ürəyəyatımlı səsi olub. Səməd Mövləvi Məmməd Allahverdi oğlu Quliyevi yuxarı siniflərdə oxuyanda teatra dəvət edib. O, əsasən, opera və operetta tamaşalarında xorda oxuyub, epizod rollarda səhnəyə çıxıb. Opera artisti olmaq arzusu ilə orta məktəbi bitirdikdən sonra Bakıya gələrək Asəf Zeynallı adına Musiqi Məktəbinə daxil olub. Diplom alandan sonra bir müddət Opera və Balet Teatrında işləyib. Burada ikinci dərəcəli partiyalar oxuyub.

Məmməd Quliyev 1943-cü ildə Naxçıvana gəlib və DMDT-nin truppasına aktyor götürülüb. Aktyor yaradıcılığındakı uğurlarına görə 17 oktyabr 1964-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 iyun 1974-cü ildə xalq artisti fəxri adları ilə təltif olunub. 11 sentyabr 2001-ci ildə Naxçıvanda vəfat edib.

Aktyor istedadı xarakterik rollarda daha əlvan formada təcəssüm tapıb. Tipik məişət rollarını da bacarıqla oynayıb. Dərviş, Müller, Rüstəm Zal ("Şeyx Sənan", "Şeyda" və "Səyavuş", Hüseyn Cavid), Pirqulu, Həmzə, Belakurov ("Aydın", "Vəfalı Səriyyə" və "Yaşar", Cəfər Cabbarlı), İbrahim xan ("Vaqif", Səməd Vurğun), Qurban ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Naib ağa ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Əlimərdan ("Eşq və intiqam", Süleyman Sani Axundov), Mirzə Cəlil ("Sizi deyib gəlmişəm", Anar), Kral ("Sevilya ulduzu", Lope de Veqa), Naçalnik ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Gəray bəy ("Komsomol poeması", İsgəndər Coşqun), Şahbazov ("Göz həkimi", İslam Səfərli), Pristav ("Qatır Məmməd", Zeynal Xəlil), Qodun ("Hücum", Boris Lavrenyov), Balvazov ("Həmyerlilər", Altay Məmmədov), Gəncə hökmdarı ("Məhsəti", Kəmalə Ağayeva), Salmanov ("Toy", Sabit Rəhman), Şahmar ("Vətən", Abdulla Şaiq) rolları Məmməd Quliyevin yaradıcılığının başlıca mahiyyətini xarakterizə edən rollardır. Səsinin təravəti uzun illər itməyən aktyor müxtəlif quruluşlarda Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Nofəl və Məcnunun atası), "Əsli və Kərəm" (Keşiş) operalarında, "Məşədi İbad" (Sərvər), "Arşın mal alan" (Əsgər) operettalarında, Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Murad), Məmməd Səid Ordubadi və Səid Rüstəmovun ("Beş manatlıq gəlin" (Qiyas) musiqili komediyalarında solist-aktyor kimi çıxış edib.

## FİRUZƏ ƏLİXANOVA (9.9.1917 -23.11.1994)

Teatrın ilkin aktrisalarındandır. Onun səhnəyə gəlişi hadisəyə çevrilib və bundan sonra daha bir neçə gənc qız həyatını teatrla bağlayıb. Realist teatr məktəbinin görkəmli nümayəndələrindən sayılır. Oyunu təbii və şirin yumoru, xoşagəlimli səmimiyyəti, gülüşün məna tutumu ilə səciyyəvi olub.

Cazibəli səhnə görkəmi və şirin səsi olan Firuzə Məmmədqulu qızı Əlixanova 9 sentyabr 1917-ci ildə Ordubadda dogulub. Buradakı şəhər səkkizillik məktəbində təhsil alıb və Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna daxil olub. Şəhərin bayram tədbirlərində şən mahnılar oxuyan Firuzənin ifaçılıq istedadı Səməd Mövləvinin diqqətini cəlb edib. Onun səyi ilə tələbə qız 1932-ci ildə Naxçıvan teatrına aktrisa dəvət olunub. Bu kollektivdə şərəfli və şöhrətli yaradıcılıq yolu keçib.

Səhnə xidmətlərinə görə 17 oktyabr 1964-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 15 noyabr 1974-cü ildə xalq artisti fəxri adları ilə təltiflənib. Qırx beş il səhnədə fədakarlıqla çalışan aktrisa 1977-ci ildə ərizə yazaraq səhnədən uzaqlaşıb. 23 noyabr 1994-cü ildə Naxçıvanda vəfat edib.

Firuzə Əlixanovanın ifa etdiyi rollar xarakter əlvanlığı ilə də seçiliblər. Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Leyli), "Əsli və Kərəm" (Əsli), "Ər və arvad" (Minnət xanım), "Məşədi İbad" (Gülnaz), "Arşın mal alan" (Gülçöhrə), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Şahsənəm), Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Lalə), Şıxəli Qurbanov və Süleyman Ələsgərovun "Özümüz bilərik" (Şölə xanım) opera və operettalarında əsas partiyaların mahir ifaçısı olan aktrisa həmçinin qəhrəman və əsasən, xarakterik tiplərə səhnə həyatı verib. O, hərəkət, sifət və danışıq ifadə vasitələrindən həm ayrılıqda, həm də sintez şəklində məharətlə istifadə edərək yaradıcılıq salnaMəsmə çeşidli obrazlar daxil edib.

Firuzə Əlixanovanın rollar cəbbəxanasında Böyükxanım, Şərəbanı, Mariya Timofeyevna, Kərbəlayı Fatmanisə ("Aydın", "Yaşar", "1905ci ildə" və "Almaz", Cəfər Cabbarlı), Hafizə ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev),, Zalxa ("Toy", Sabit Rəhman), Şölə xanım, Tükəz ("Lənkəran xanının vəziri" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Ana ("Odlu diyar", Hüseyn Razi), Cənnət xala ("Qaynana", Məcid Şamxalov), Nina ("Şeyx Sənan", Hüseyn Cavid), Gülnar, Məhmənə banu ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), Həcər xanım ("Eşq və intiqam", Süleyman Sani Axundov), Şirin xanım ("Yarımçıq şəkil", Adil Babayev), Mənsurə ("Əgər sevirsənsə...", Ramiq Muxtar), kruçinina ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Gertruda, Emiliya ("Hamlet" və "Otello", Vilyam Şekspir), Maşa ("Tribunal", Aleksey Makayenok) kimi yaradıcılıq nümunələri var.

**ƏKBƏR QARDAŞBƏYOV (15.3.1923-26.3.2001)**

Aktyor Əkbər Qardaşbəyov 15 mart 1923-cü ildə Naxçıvanda doğulub. Orta məktəbdən aktyorluqla maraqlanıb, dram dərnəklərində çıxış edib. Naxçıvan DMDT-nin truppasına 1943-cü ildə daxil olub.

Əsasən, xarakterik və kiçikhəcmli psixoloji rollar oynayıb.

Realist aktyor məktəbinə mənsubdur. Tipaj yaratmaq, Tiraj oyun üslubuna üstünlük verib, qaravəlli ifaçılıq prinsiplərindən, məsxərə və məzhəkə lementlərindən ustalıqla istifadə edib.

Əkbər Hacı oğlu Qardaşbəyov 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 12 iyun 1987-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Əlli ilə yaxın səhnə fəaliyyəti göstərmiş aktyorun əsas rolları: Baqqal Xəlil ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Azər baba ("Fərhad və Şirin", Səməd Vurğun), Mirzə Hüseyn ("Toy", Sabit Rəhman), Bəhruz ("Yarımçıq şəkiİ", Adil Babayev), Elman ("Vətən", Abdulla Şaiq), Şeyx Hadi, Gərşivəz ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Çingiz ("Eşq və intiqam", Süleyman Sani Axundov), Molla Abbas, Həkim, Şeyx Nəsrulla ("Dəli yığıncağı", "Anamın kitabı" və "Ölülər", Cəlil Məmmədquluzadə), İnfil ("Azərbaycan, dünyam mənim", Məmməd Araz. Poetik-dramatik kompozisiya), Sərvər, Soltan bəy ("Məşədi İbad" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Toğrul, Fərhad, Fuad, Səməd bəy, Məmmədəli bəy, Molla Möhsün, Novruz bəy ("Yaşar", "Nəsrəddin şah", "Almaz", "Oqtay Eloğlu", "Sevil", "Solğun çiçəklər" və "Aydın", Cəfər Cabbarlı), Ata ("Astana", Aleksandr Dudarev), Paratov ("Cehizsiz qız", Aleksandr Ostrovski), Nuru Sayaner

("Toros canavarı", Əziz Nesin), Knyaz ("Xanuma", Avksenti Saqareli), Verşinin ("Zirehli qatar 14-69", Vyaçeslav İvanov).

Əkbər Qardaşbəyov 26 mart 2001-ci ildə Naxçıvanda vəfat edib.

## NAXÇIVAN DÖVLƏT MUSİQİLİ DRAM TEATRINDA AKTYOR YARADICILIĞI

### İkinci dərs

Naxçıvan teatrının aktyor sənəti 1940-cı illərdən yeni yaradıcılıq mərhələsinə qədəm basıb. Kollektiv gənc aktyorların hesabına qüvvətlənib. Gənc istedadlar Sofya Hüseynova, Zəroş Həmzəyeva, Roza Cəfərxanova, Əşrəf Rüstəmov, Rza Məmmədov (Bacıoğlu), Abbas Quliyev, Ələsgər Seyidov, Ağabala Məmmədov 1940-cı, Aydın Şahsuvarov, Tofiq Mövləvi, Müzəffər Səfərov, İbrahim Bənənyarlı 1950-ci, Nizami Cəfərov, Vaqif Əsədov, Tarıyel Qasımov, Elxan Qasımov 1960-cı illərdən, Zemfira Əliyeva, Sona Mirzəyeva, Qurban Ələkbərov, Həsən Ağayev, Yasəmən Ramazanova, Kamran Quliyev, Yusif Allahverdiyev, Rövşən Hüseynov, Rza Xudiyev 1970-ci, 1980-ci və 1990-cı illərdən müəyyən müddətlərdə teatrda işləyiblər. Adları çəkilənlərin bir qismi indi də truppanın üzvləridir.

### SOFYA HÜSEYNOVA (26 FEVRAL 1926)

Bakıda doğulub. Qızlıq soyadı İsmayılovadır. Atası Həsən hərbçi idi və göndərişlə Naxçıvana işləməyə gəlib. Anası Xədicə Qazıyeva Naxçıvanın ilk aktrisası olub. Sofya Hüseynova orta məktəbi Naxçıvanda bitirib. Şagird vaxtlarında uşaq rollarında səhnəyə çıxıb. Anasının tövsiyəsi ilə 1944-cü ildən teatrın truppasına daxil olub. 1945-ci ildə qısa müddət Zaqatala DDT-də işlədikdən sonra yenə Naxçıvana qayıdıb. Bu günə qədər səhnədən ayrılmayan aktrisa 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 dekabr 1982-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Ğülnar və Xuraman, Fitnə ("Vaqif" və "Fərhad və Şirin" Səməd Vurğun), Sara və Gülnisə, Susanna, Nadya ("Solğun çiçəklər", "Aydın" və "Oqtay Eloğlu", Cəfər Cabbarlı), Tərgül ("Məhsəti", Kəmalə Ağayeva), Humay ("Komsomol poeması", İsgəndər Coşqun), Zöhrə ("Eşq və intiqam", Süleyman Sani Axundov), Nərminə ("Göz həkimi", İslam Səfərli), Zalxa ("Toy", Sabit Rəhman), Günəş ("Günəş", Hüseyn Razi), Tanya ("Alınmaz qala", Həsən Elsevər), Tovuz xanım ("Bir cüt bədmüşk ağacı", Əkrəm Əylisli), Gülnaz və Sənəm, Gülçöhrə, Minnət xanım ("Məşədi İbad", "Arşın mal alan" və "Ər və arvad", Üzeyir bəy Hacıbəyov), Gülcamal ("Qatır Məmməd", Zeynal Xəlil), Qızbacı ("Hicran", Sabit Rəhman və Emin Sabitoğlu), Şölə xanım ("Özümüz bilərik", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Güllücə ("Dan ulduzu", Cahangir Məmmədov) rolları aktrisanın yaradıcılıq nailiyyətləri sayılır.

Milli koloriti həmişə əsas götürən aktrisa, eyni zamanda əcnəbi dramaturqların pyeslərinin tamaşalarında oynadığı obrazların yaşadığı dövrün etiket qaydalarını, sosial mənşəyini, kübar davranış tərzini dərindən mənimsəyib. Mənimsədiklərini isə ifa etdiyi rollarda yaradıcılıqla reallaşdırıb. Bu baxımdan kruçinina, Larisa ("Günahsız müqəssirlər" və "Cehizsiz qız", Aleksandr Ostrovski), Liana ("Bostan iti", Lope de Veqa), Xanuma ("Xanuma", Avksenti Saqareli) rolları aktrisanın ifasında canlı, təravətli, ecazkar rus və ispan qızları, şən və kələkbaz, məzəli və hoqqabaz gürcü yengəsidir. Mütənasib uca boyu, zərif bədən quruluşu aktrisaya müxtəlif rollar oynamağa geniş imkan yaradır.

### ROZA CƏFƏRXANOVA (23 FEVRAL 1927)

Ordubad rayonunda anadan olub. On dörd yaşından dram dərnəyində çıxış edib. Orta məktəbi bitirdikdən sonra o vaxt Ordubadda yenicə açılmış Dövlət Dram Teatrına (1949-cu ilin əvvəllərində bağlanıb) aktrisa götürülüb. Bu teatrda Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Asya), "O olmasın bu olsun" (Gülnaz), "Ər və arvad" (Minnət xanım) operettalarında, Səməd

Vurğunun "Vaqif" (Gülnar), Abdulla Şaiqin "Vətən" (Gözəl), Səməd Vurğunun "Fərhad və Şirin" (Şirin) Süleyman Sani Axundovun "Eşq və intiqam" (Qəmər) dramlarının tamaşalarında oynayıb.

Roza Heydər qızı Cəfərxanova 1948-ci ilin oktyabrından Naxçıvan teatrında işləyir. 15 noyabr 1984-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 28 oktyabr 2000-ci il-də xalq artisti fəxri adları ilə təltif olunub.

Aktrisa iki yüzdən artıq lirik, dramatik və komik rolda səhnəyə çıxıb. Dram əsərlərinin tamaşalarında Pəri ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Yetər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Cəvahir ("Nakam qız", Aleksandr Şirvanzadə), Ana ("Astana", Aleksandr Dudarev), Həyat ("Həyat", Mirzə İbrahimov), Pəri, Susanna, Dilbər, Sitarə, Sona, Solmaz, Yaxşı ("Solğun çiçəklər", "Aydın", "Sevil", "Nəsrəddin şah", "1905-ci ildə", "Od gəlini" və "Almaz", Cəfər Cabbarlı), kabato ("Xanuma", Aksenti Saqareli), Zəhra, Çin qızı ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Pəri ("Qız atası", Əfqan Əsgərov), İradə ("Göz həkimi", İslam Səfərli), Hökmdar ("Pompeyin Qafqaza yürüşü", Nəriman Həsənzadə), operettalarda Sənəm, Xala ("Məşədi İbad" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Züleyxa ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Səlbi ("Beş manatlıq gəlin", Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Şölə xanım ("Özümüz bilərik", Şıxəli Qurbanov və Süleyman Ələsgərov) səhnə obrazları aktrisanın daha uğurlu yaradıcılıq işləri sayılır.

**AYDIN ŞAHSUVAROV (31.1.1931 - 2.6.1986)**

Naxçıvan şəhərində 31 yanvar 1931-ci ildə anadan olub. Orta məktəbi burada bitirərək Bakı Dəmiryol Texnikumuna daxil olub. Texnikumun dram dərnəyində hazırlanan tamaşalarda epizod rollar oynayıb. 1953-1955-ci illərdə hərbi xidmətə gedib və qayıtdıqdan sonra Zəngilan rayonunun Mincivan dəmir yolu stansiyasında maşinist köməkçisi işləyib. O, 1957-ci ildə Naxçıvan teatrının yardım heyətinə aktyor götürülüb, əvvəlcə kütləvi səhnələrə çıxıb, sözsüz rollar oynayıb. Baş rejissor İbrahim Həmzəyevin qayğikeşliyi və onunla fərdi məşğul olması sayəsində Aydın Ağa oğlu Şahsuvarov aktyor ştatına götürülüb və tezliklə bir-birinin ardınca koloritli xarakterik rollarda uğur qazanıb. Tədricən yaradıcılığı realist aktyor məktəbinin estetik prinsipləri əsasında formalaşıb. Xüsusən satirik və məzhəkəli, qaravəlli mənşəli yumorlu rolları bacarıqla oynayıb. Qısa müddətdə teatrın aparıcı aktyorları səviyyəsinə yüksələn aktyor 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 15 noyabr 1984-cü ildə xalq artisti fəxri adlarına layiq görülüb. 2 iyun 1986-cı ildə Naxçıvanda vəfat edib.

Aydın Şahsuvarovun oynadığı rollar ifadə vasitələrinin əlvanlığına, məzəli forma xüsusiyyətlərinə, tipik danışıq tərzinə görə fərqləniblər. Yaradıcılığının böyük bir qisınini xarakterik rollar təşkil edən Aydın Şahsuvarovun zəngin tiplər qalereyasında dram tamaşalarında yaratdığı Vidadi ("Vaqif", Səməd Vurğun), Rəhim xan, Altunbay, İbad, Mazandaranski ("Nəsrəddin şah", "Od gəlini", "Almaz" və "Oqtay Eloğlu", Cəfər Cabbarlı), Mirpaşa ("Komsomol poeması", İsgəndər Coşqun), Fərəc bəy ("Üfüqlər qızaranda", Ramiq Muxtar), Qədir ("Quşu uçan budaqlar", Əkrəm Əylisli), Fənd Fərəc ("Adamın adamı", Anar), Şeyx Əhməd, Hacı ("Ölülər" və "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Səməndər ("Haray səsi", Hüseyn Razi), Qıdı kirvə ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Qurban ("Nağıl başlananda", İmran Qasımov), Obab ("Zirehli qatar 14-69", Vyaçeslav İvanov), Naməlum adam ("Onlar dörd nəfər idilər", Konstantin Simonov), Fabdo ("Bostan iti", Lope de Veqa), Albadam ("Mənim qayınanam", Georgi Xuqayev), Markiz ("Mehmanxana sahibəsi", Karlo Haldoni), Kor padşah ("Kor padşah", Nazim Hikmət və Vera Tulyakova), operettalarda oynadığı Soltan bəy, Hambal ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov) rollarının adını xüsusi çəkmək olar.

**ZEMFİRA ƏLİYEVA (25.12.1941-16.11.1995)**

Zemfira xanım 25 dekabr 1941-ci ildə Gəncə şəhərində doğulub. Anası Firuzə Bədirbəyli Gəncə DDT-nin aktrisası olub. Kiçik yaşlarından teatrın tamaşalarında uşaq rollarını oynayıb. İstedadı, ehtiraslı və emosional ifadə vasitələri erkən formalaşdığı üçün 17 yaşında ona Cəfər Cabbarlının "Solğun çiçəklər" melodramasında Sara rolu tapşırılıb. Gənc aktrisa gözlənildiyindən çox uğur qazınıb. Bundan sonra aktrisa teatra götürülüb və qısa müddətdə Səməd Vurğunun "Vaqif" (Gülnar), Viktor Rozovun "Sabahın xeyir" (Liza), Evripidin "Medeya" (Medeya), Əfqan Əsgərovun "Qız atası" (Məryəm) əsərlərinin tamaşalarında mürəkkəb rollar oynayıb, "Böyük dayaq" filmində Pərişan obrazına çəkilib.

Zemfira Məmmədəli qızı Əliyeva 1972-ci ildə Naxçıvan DMDT-nin truppasına daxil olub. Bu teatrda qazandığı sənətkarlıq nailiyyətlərinə görə 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 1 dekabr 1982-ci ildə xalq artisti fəxri adları ilə təltif edilib. Aktrisa 1988-1995-ci illərdə Akademik Milli Dram Teatrında işləyib. 16 noyabr 1995-ci ildə Bakıda vəfat edib.

Füsunkar səhnə görkəmi, məlahətli danışığı, zəngin və əlvan ifadə vasitələri, coşqun daxili ehtirası vardı. Bu yaradıcılıq keyfiyyətləri aktrisanın yaratdığı səhnə surətlərinə xüsusi emosional təravət, psixoloji dərinlik və fəlsəfi bütövlük verirdi. Zemfira Əliyevanın Naxçıvan teatrında ifa etdiyi baş rolların yığcam siyahısını belə ümumiləşdirmək mümkündür: Almaz, Sara, Firəngiz, Yaqut ("Almaz", "Solğun çiçəklər", "Oqtay Eloğlu" və "Yaşar", Cəfər Cabbarlı), Səlma, Roza, Xumar, Anjel ("Ana", "Şeyda", "Şeyx Sənan" və "Uçurum", Hüseyn Cavid), Sona ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Reyhan ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Maral ("Sənsiz", Şıxəli Qurbanov), Mədinə, Azadə ("Mənim nəğməkar bibim" və "Bir cüt bədmüşk ağacı", Əkrəm Əylisli), Pırpız Sona ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Zinyət ("Toy", Sabit Rəhman), Söylü ("Bəxt üzüyü", Vaqif Səmədoğlu ,) Nərmin, Anjel ("Unuda bilmirəm" və "Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev), Kleya ("Tülkü və üzüm", Gilerma Piqeyredu), Pəricahan və Zöhrə ("Laçın yuvası" və "Eşq və intiqam", Süleyman Sani Axundov), Zəhra ("Bayramın birinci günü", Nazim Hikmət), Elektra ("Elektra", Sofoki), Dilbər ("Yenə o bağ olaydı...", Mlkayıl Müşfiqin şeirləri əsasında bədii kompozisiya), Vəfa ("Siz xoşbəxt yaşayın", Əlyar Yusifli).

## NAXÇIVAN DÖVLƏT MUSİQİLİ DRAM TEATRINDA REJİSSOR SƏNƏTİ

Naxçıvanda teatr yeni-yeni təşəkkül tapanda tamaşaları ziyalılar, xüsusən müəllimlər hazırlayıblar. İyirminci əsrin ilk iyirmi ilində şəhərdəki dram dəstəsində oynanılan tamaşalara quruluşları aparıcı aktyorlar veriblər. Teatr həvəskarlarının gücü ilə Naxçıvan Dövlət Dram Teatrı yaradılanda və bu kollektiv rəsmi fəaliyyətə başlayanda da onun peşəkar rejissorları olmayıb. Bu ağırlığı ilk illərdə Səməd Mövləvi, İsa Musayev, Bakıdan dəvət olunmuş aktyorlar Kazım Ziya, Sidqi Ruhulla çəkiblər. Tədricən teatra təhsil almış rejissorlardan Yusif Yulduz, Baxşı Qələndərli, Həsən Ağayev, Ağəli Dadaşov və başqaları dəvət olunublar.

Teatr 1960-cı illərin əvvəllərindən forma-üslub, janr axtarışları məqsədilə təcrübəli rejissorları vaxtaşırı kollektivə dəvət edib. Müxtəlif vaxtlarda teatra dəvət olunmuş rejissorlar Tofiq Kazımov, Nəsir Sadıqzadə, Ağakişi Kazımov, Mərahim Fərzəlibəyov müxtəlif janrlarda, əsasən, lirik-psixoloji üslubda tamaşalar hazırlayıblar. Həmin ənənə bu gün də davam edir.

Son otuz ildə Naxçıvan DMDT-də Vəli Babayev, Vaqif Əsədov, Əsgər Əsgərov baş rejissor işləyiblər. Hazırda bu Kürsünü aktyor və rejissor Kamran Quliyev tutur.

* * *

**Səməd Mövləvi**

Naxçıvan teatrının aparıcı aktyorlarından olub, xalq artıstı ıdı. Doviət teatrının ilk iki onilliyində rejissorluqla da məşğul olub. 1926-1931-ci illərdə teatrda baş rejissor işləyib. Realist və romantik üslublarda, həm monumental, həm də çağdaş səpkili formalarda tamaşalar hazırlayıb.

Səməd Mövləvi musiqi əsərlərindən Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarını, "Arşın mal alan", "Məşədi İbad" operettalarını, lirik məhəbbət faciələrindən Hüseyn Cavidin "Şeyx Sənan", qəhrəmanlıq faciələrindən Cəfər Cabbarlının "Od gəlini", Vilyam Şekspirin "Otello", "Hamlet", Fridrix Şillerin "Qaçaqlar", Şəmsəddin Saminin "Dəmirçi Gavə", tarixi faciələrdən Nəriman Nərimanovun "Nadir şah", psixoloji dramlardan Hüseyn Cavidin "Şeyda", "Knyaz", "İblis", Cəfər Cabbarlının "Sevil", "Yaşar", Vasili Şkvarkinin "Özgə uşağı", Aleksandr Şirvanzadənin "Namus", Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Sandro Şanşiaşvilinin "Anzor", komediyalardan Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri", Jan Batist Molyerin "Jorj Danden", tragikomediyalardan Cəlil Məmmədquluzadənin "Ölülər" əsərlərinin quruluşçu rejissoru olub.

**Isa Musayev**

Xalq artisti olub və teatrın aparıcı aktyorlardan biri kimi şöhrət qazanıb. Eyni zamanda istedadını quruluşçu rejissor kimi də sınaqdan çıxarıb. 1930-1940-cı illərdə, teatrda peşəkar rejissorların çatışmadığı dövrdə Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Abdulla Şaiqin "Vətən", Süleyman Sani Axundovun "Eşq və intiqam", Osman Sarıvəllinin "Babək", Səməd Vurğunun "Vaqif" və "Fərhad və Şirin", Zeynal Xəlilin "İntiqam", Məmmədhüseyn Təhmasibin "Aslan yatağı", Mirzə İbrahimovun "Həyat" və "Məhəbbət", Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" əsərlərini tamaşaya hazırlayıb.

**Sidqi Ruhulla**

1910-1914-cü illərdə dəfələrlə Naxçıvana uzunmüddətli qastrollara gəlib və yerli həvəskarlarla Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", "Dağılan tifaq", Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan" pyeslərini tamaşaya qoyub. O, 1931-1932-ci il teatr mövsümündə qısa müddət Naxçıvan teatrında direktor və bədii rəhbər işləyib. Teatrda Nəriman Nərimanovun "Nadir şah", Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "Od gəlini", "1905-ci ildə", "Sevil", Fridrix Şillerin "Qaçaqlar", Nikolay Qoqolun "Müfəttiş", Vilyam Şekspirin "Otello" əsərlərini tamaşaya hazırlayıb. Bu tamaşalar teatrın peşəkarlığının formalaşmasında səmərəli rol oynayıb.

**Həsən Ağayev**

Yaradıcılığının əsas dövrü Gəncə DDT ilə bağlıdır. Həsən Ağayev səhnə sənətinə aktyor kimi gəlib və Moskvada rejissor təhsili aldıqdan sonra 1936-1939-cu illərdə Naxçıvan teatrında çalışıb. 1938-ci ildə baş rejissor olub. Rejissor burada Üzeyir bəy Hacıbəyovun "Ər və arvad"operettasına, tərcümə əsərlərindən Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Konstantin Trenyovun "Lyubov Yarovaya", Georgi Mdivaninin "Vətən namusu", Vilyam Şekspirin "Otello" və "Hamlet" dramlarına quruluş verib.

**Yusif Yulduz**

Bakı, Tiflis və İrəvan teatrlarında rejissor kimi şöhrət qazanandan sonra 1936-1937-ci il teatr mövsümündə Naxçıvana dəvət alıb. Teatrda Mirzə İbrahimovun "Həyat", Cəfər Cabbarlının "Od gəlini", Vilyam Şekspirin "Otello" pyeslərinə monumental üslubda səhnə quruluşları verib. Jan Batist Molyerin "Cancur Səməd" komediyasını, Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" operettasını tamaşaya hazırlayıb.

**Baxsi Qələndərli**

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimidir. Xankəndində doğulub (1903-1982). Bakı Teatr Məktəbini bitirib. Leninqrad Səhnə Sənəti İnstitutunda (1930-1934) təhsil alıb. Uzun illər Irəvan DADT-də rejissor və baş rejissor işləyib. 1964-1982-ci illərdə müəyyən fasilələrlə Naxçıvan DMDT-də quruluşçu rejissor və baş rejissor işləyib. Baxşı Qələndərli Naxçıvan səhnəsində Səməd Vurğunun "Vaqif", Cəlil Mənmmədquluzadənin "Anamın kitabı", Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Süleyman Sani Axundovun "Eşq və intiqam", Əlyar Yusiflinin "Səadət naminə", Sabit Rəhmanın "Toy", İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən", Kəmalə Ağayevanın "Məhsəti", Alensandr Şirvanzadənin "Nakam qız", Boris Lavrenyovun "Hücum", Vsevolod İvanovun "Zirehli qatar 14-69", Karlo Haldoninin "Mehmanxana sahibəsi", Konstantin Simonovun "Dördüncülər", Aleksandr Ostrovskinin "Cehizsiz qız" pyeslərini, Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad", "Ər və arvad", Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" operettalarını tamaşaya hazırlayıb.

**Nəsir Sadıqzadə**

Füzuli, Gəncə, İrəvan, Sumqayıt teatrlarında quruluşçu rejissor və baş rejissor işləyib. Ömrünün son iyirmi ilində, əsasən, pedaqoji fəaliyyətlə məşğul olub. İstedadlı rejissor 1970-1973-cü illərdə Naxçıvan DMDT-də baş rejissor işləyib. Burada Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (27 dekabr 1972), İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" (29 aprel 1973), Sergey Mixalkovun "Xərçənglər" (29 may 1982) pyeslərinə quruluş verib.

**Vəli Babayev**

Rejissor Naxçıvanda doğulub (17.2.1945-22.1.1989). Orta məktəbi bitirəndən sonra bir il Naxçıvan DMDT-nin yardım heyətində çalışıb. Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq fakültəsini bitirib (1962-1966). Təyinatla Naxçıvan teatrına quruluşçu rejissor göndərilib. İlk quruluşu olan Georgi Mdivaninin "Konsulu oğurladılar" (5 noyabr 1966) tamaşası teatr ictimaiyyətində böyük maraq doğurub. 1972-1974-cü illərdə Moskvada Anademik Bədaye Teatrında yaradıcılıq təcrübəsi keçib və qayıdaraq Naxçıvan teatrına baş rejissor təyin olunub. Vəli Allahverdi oğlu Babayev 1974-cü il iyun ayının 1-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Vəli Babayevin rejissurası müasir dünya teatr prosesinin estik prinsipləri ilə səsləşirdi. O, avanqard teatr janrlarının əsas ifadə vasitələrini lirik-psixoloji üslubun poetika xüsusiyyətlərilə cəsarət və məharətlə birləşdirə bilirdi. Həmin cəsarətli sənət axtarışları baxımından onun daha maraqlı yaradıcılıq nailiyyətləri Cəfər Cabbarlının "Yaşar" (10 fevral 1967) və "Od gəlini" (22 mart 1970), Nazim Hikmət və Vera Tulyakovanın "Kor padşah" (29 dekabr 1968), Lope de Veqanın "Nə yardan doyur, nə əldən qoyur" (28 oktyabr 1974), Cəlil Məmrnədquluzadənin "Dəli yığıncağı" (23 may 1975), Avksenti Saqarelinin "Tiflis yengələri" ("Xanuma". 30 oktyabr 1976), Anarın "Adamın adamı" (12 fevral 1977), Rüstəm İbrahimbəyovun "Yaşıl qapı arxasında qadın" (21 may 1978), Karlo Haldoninin "Məzəli hadisə" (7 may 1979), Əkrəm Əylislinin "Quşu uçan budaqlar" (23 sentyabr 1980), Çingiz Aytınatov və Koltay Məhəmmədcanovun "Fudzi dağında qonaqlıq" (8 oktyabr 1981), Hüseyn Cavidin "Şeyx Sənan" (24 aprel 1982), Orxan Kamalın "Yad

qızı" (7 yanvar 1983), Aleksandr Puşkinin "Qaraçılar" (30 dekabr 1984), Rəsul Rzanın "Bir gün də insan ömrüdür" (26 noyabr 1987) əsərlərinə verdiyi səhnə quruluşlarıdır.

**Vaqif Əsədov**

5 aprel 1947-ci ildə Naxçıvanda doğulub. 1969-cu ıldə ADİİ-nın dram və kino aktyorluğu fakültəsini bitirərək təyinatla Naxçıvan teatrına gəlib. Aktyor işləyə-işləyə bir neçə dram əsərini tamaşaya hazırlayıb.

1982-1989-cu illərdə kollektivin baş rejissoru işləyib.

Teatrın səhnəsində Əkrəm Əylislinin "Mənim nəğməkar bibim", "Bir cüt bədmüşk ağacı", "Qiymətli qafiyələr", Həmid Arzulunun "Əlincə qalası", Paolo Messinanın "Sükut divarı", Sofokiun "Elektra", Ramiq Muxtarın "Şəhərli kürəkən", Mirzağa Atəşin "Cırtdan" dramlarına, Cavid Poeziya Teatrında Hüseyn Cavidin "Azər" poemasına, "Mənim tanrım gözəllikdir, sevgidir", Məmməd Arazın "Azərbaycan, dünyam mənim" bədii-dramatik kompozisiyalarına quruluş verib.

Vaqif Əsədov 9 yanvar 1978-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

1989-cu ildə köçürmə yolu ilə Gənc Tamaşaçılar Teatrına quruluşçu rejissor göndərilib.

**Əliqismət Lalayev**

Azərbaycan Dövlət İncəsənət İnstitutunun rejissorluq fakültəsini bitirib.

4 iyul 1956-cı ildə Salyanda doğulub. 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimidir. 1980 -1989-cu illərdə Naxçıvan teatrında quruluşçu rejissor işləyib.

Naxçıvan teatrında Hüseyn Cavidin "Ana", "Uçurum", Aleksandr Dudarevin "Astana", Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Rüstəm İbrahimbəyovun "Ultimatum", Hidayət Orucovun "Məni qınamayın", Loğman Rəşidzadənin "Toya bir gün, bir günorta qalmış" dramlarının, Sabit Rəhman və Emin Sabitoğlunun "Hicran" musiqili komediyasının quruluşçu rejissoru olub.

**Əsgər Əsgərov**

19 iyun 1961-ci ildə Naxçıvanda doğulub. Azərbaycan Dövlət İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsini bitirib. 1983-cü ildə teatrın aktyor truppasına qəbul olunub.

Bir il sonra hərbi xidmətə gedib və qayıdandan sonra Naxçıvan televiziyasında rejissor işləyib. Moskvada Mayakovski adına Akademik Dram Teatrında təcrübə keçib (1988-1989).

Əsgər Əsgərov 1989-1995-ci illərdə Naxçıvan DMDT-də baş rejissor işləyib. Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "Məşədi İbad", "Ordan, burdan", Edvard Olbinin "Zoopark əhvalatı", Nazim Hikmətin "Qəribə adam", Cəfər Cabbarlının "Aydın", Həsən Fətullayevin "Əlincədən uçan qartal", İslam Səfərlinin "Xeyir və şər", Rafiq Səməndərin "Şəhidlər", Georgi Xuqayevin "Arvadının əri" əsərlərini tamaşaya hazırlayıb.

1995-ci ildən Akademik Milli Dram Teatrında rejissor işləyir.

**İBRAHİM HƏMZƏYEV**
**(25.12.1908-4.2.1982)**

Aktyor və rejissor olub. Naxçıvan teatrının formalaşmasında, aktyor və rejissor yaradıcılığının inkişafında, kollektivin truppasının müntəzəm olaraq yeniləşməsində, sənət ocağının özəl üslubunun təsdiqində İbrahim Həmzəyevin böyük xidmətləri var. Teatrın bir sıra qabaqcıl sənətkarlarını səhnəyə o gətirib. Naxçıvan teatrının həm dram, həm də musiqili dram kollektivləri kimi yetkinləşməsi ilk növbədə onun adıyla bağlıdır.

İbrahim (Mir İbrahim) Tağı oğlu Həmzəyev Gəncə şəhərində doğulub. Səhnə sənətinə məhəbbəti yeniyetmə yaşlarından başlayıb. Əvvəlcə Gəncə İşçi klubunda, sonralar Qadınlar klubunda, bir müddət paralel olaraq Dəmiryolçular klubunda dram dərnəklərinin rəhbəri olub. Əksəriyyətini özü və həmçinin Ədil İsgəndərovun hazırladıqları tamaşalarda baş rolları ifa edib.

Dram dərnəyinin repertuarının əsasını İbrahim Həmzəyevin səhnə təfsiri verdiyi "Aydın", "Solğun çiçəklər" (Cəfər Cabbarlı), Bəxtsiz cavan" (Əbdürrəhim bəy Haqverdiyev), "Hacı Qara" (Mirzə Fətəli Axundzadə) tamaşaları təşkil edib.

İbrahim Həmzəyev 1930-cu illərin əvvəllərində Bakı Teatr Məktəbində təhsil alıb. Tələbəlik illərində Türk İşçi Teatrında yardım heyətinin üzvü olub. Teatr təhsilini başa vurandan sonra Gəncəyə qayıdıb. TİT Gəncəyə köçəndə kollektivə üzv olub.

Son dərəcə yaraşıqlı səhnə görkəmi, ifa məlahəti, ehtiraslı və emosional daxili aləmi, səhnədəki yöndaşları ilə münasibətlərində psixoloji dürüstlüyü olan İbrahim Həmzəyev bu kollektivdə Qacar ("Ağa Məhəmməd şah Qacar", Əbdürrəhim bəy Haqverdiyev), Pərviz və Gavə ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Arif ("İblis", Hüseyn Cavid), Həsən bəy ("Məşədi Ibad", Üzeyir bəy Hacıbəyov), Rodriqo ("Otello", Vilyam Şekspir), Yaşar, Elxan, Balaş ("Yaşar", "Od gəlini" və "Sevil", Cəfər Cabbarlı), Seyran ("Namus", Alensandr Şirvanzadə) rollarını oynayıb.

İbrahinı Həmzəyev 1937-ci ildə Xalq Maarif komissarlığı İncəsənət İşləri İdarəsinin sərəncamı ilə sənət yardımı üçün Naxçıvan teatrına göndərilib. Əvvəlcə bu teatrda quruluşçu rejissor və aktyor işləyib. Yüksək təşkilatçılıq bacarığına və kollektivlə işləmək səriştəsinə görə bu teatrda direktor və aktyor (1941-1945), direktor və baş rejissor (1943-1961. Qısa fasilələrlə), direktor (1964) işləyib. Arada yardım üçün Qaryagin (indiki Füzuli) Dövlət Dram Teatrına göndərilib (1947-1948-ci il teatr mövsümündə). Burada həyat yoldaşı Zəroş Həmzəyeva ilə birlikdə aktyor və rejissor kimi çahşıb. Qısa müddətdə teatrın yaradıcılığındakı durğunluğu aradan qaldırmağa nail olub.

Bütün bu illərdə aktyorluq fəaliyyətindən ayrılmayıb. Onun aktyorluq yaradıcılığının zəngin rollar qalereyasında 150-dən artıq səhnə obrazı var. Bu rolları şərti olaraq iki qismə bölmək olar. Birincisi, romantik faciə, faciəvi-psixoloji sevgili və dramatik qəhrəman rolları. ikincisi, müxtəlif ictimai-sosial mənşəli tipik və xarakterik səhnə obrazları.

Birinci bölümə yığcam şəkildə bu obrazları daxil etmək olar: Arif, Şeyx Sənan ("İblis" və "Şeyx Sənan", Hüseyn Cavid), Qaçaq Nəbi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Babək ("Babək", Osman Sarıvəlli), Çingiz ("Eşq və intiqam", Süleyman Sani Axundov), Yaşar, Elxan, Oqtay, Balaş, Aydın, Bəhram ("Yaşar", "Od gəlini", "Oqtay Eloğlu", "Sevil", "Aydın" və "Solğun çiçəklər", Cəfər Cabbarlı), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), Məlik Məmməd ("Məlik Məmməd", Əyyub Abbasov), Heydər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Qatır Məmməd ("Qatır Məmməd", Zeynal Xəlil), Fərhad, Vaqif ("Fərhad və Şirin" və "Vaqif", Səməd Vurğun), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Fərhad ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Fəxrəddin ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Tərlan ("Sənsiz" Şıxəli Qurbanov), Nizami ("Nizami", Mehdi Hüseyn), Otello ("Otello", Vilyam Şekspir), Karl Moor ("Qaçaqlar", Fridrix Şiller), Bersenyev ("Hücum", Boris Lavrenyov), Pekievanov ("Zirehli qatar 14-69", Vyaçeslav İvanov), Neznamov ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Sanço ("Sevilya ulduzu", Lope de Veqa), Gavə ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Seyran ("Namus", Aleksandr Şirvanzadə"), Aleksandr ("İki qardaş", Mixail Lermontov).

Aktyorun ikinci bölümə aid daha bitkin xarakterik rollarının yığcam siyahısını belə tərtib etmək olar. Camal ("Nişanlı qız", Sabit Rəhman), İbad ("Almaz", Cəfər Cabbarlı), Şahmar ("Aslan yatağı", Məmmədhüseyn Təhmasib), Adil bəy ("Laçın yuvası", Süleyman Sani Axundov), Cavad kişi ("Qız atası", Əfqan Əsgərov), Polis ("Toros canavarı", Əziz Nesin), Hacı Həsən ağa, Fazil ("Ölülər" və "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), İbişli ("Adamın adamı", Anar), Abbas ("Həyat", Mirzə İbrahimov), Oqtay Çingizov ("Sahil əməliyyatı", Cəmşid Əmirov), Nadir ("Vətən namusu", Georgi Mdivani), Surxay ("Toy", Sabit Rəhman).

Naxçıvan teatrının aparıcı aktyorları 1940-1980-ci illərdə özlərinin möhtəşəm rollarının, teatrın tarixində hadisəyə çevrilən səhnə obrazlarının əksəriyyətini İbrahim Həmzəyevin quruluş verdiyi tamaşalarda ifa ediblər. Rejissor teatrın səhnəsində həm milli, həm də dünya dramaturqlarının klassik və çağdaş mövzulu əsərlərini tamaşaya hazırlayıb. Azərbaycanm klassik ədiblərindən Cəfər Cabbarlının "Od gəlini", "Oqtay Eloğlu", "Nəsrəddin şah", "Solğun çiçəklər", "Yaşar", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Cəlil Məmmədquluzadənin "Ölülər", Hüseyn Cavidin "Səyavuş", Nəriman Nərimanovun "Nadir şah", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", Səməd Vurğunun "Fərhad və Şirin", "Vaqif", Sabit Rəhnıanın "Toy", "Xoşbəxtlər", "Əliqulu evlənir", "Nişanlı qız", hyas Əfəndiyevin "Bahar suları", "Atayevlər ailəsi", Əlyar Yusiflinin "Vicdan əzabı", İsgəndər Coşqunun "Komsomol poernası", Abdulla Şaiqin "Vətən", Əyyub Abbasovun "Aqil və Sərvinaz", Cabbar Məcnunbəyovun "İldırım", Zeynal Xəlilin "Qatır Məmməd", Ənvər Məmmədxanlının "Od içində", İslam Səfərlinin "Ana ürəyi", Hüseyn Razinin "Odlu diyar", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Vilyam Şekspirin "Otello", Lope de Veqanın "Sevilya ulduzu" faciə, dram və komediyalarını Naxçıvan teatrı rejissor İbrahim Həmzəyevin quruluşlarında oynayıb.

Rejissor musiqili komediya janrında Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "Ər və arvad", "Məşədi İbad", Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay", "Əlli yaşında cavan", Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna", Sabit Rəhman və Süleyman Ələsgərovun "Ulduz" əsərlərinə quruluş verib.

İbrahim Həmzəyev tərcümə əsərlərinin teatrın repertuarında müəyyən yer tutınasma xüsusi diqqət yetirib. O, tərcümə pyeslərinin seçilməsində teatrın fundamental yaradıcılıq konsepsiyasını əsas götürüb, janr əlvanlığına, mövzu müxtəlifliyinə çalışıb. Bu baxımdan onun quruluşunda oynanılan "Otello" (Vilyam Şekspir), "Sevilya ulduzu" (Lope de Veqa), "İki ağanın bir nökəri" (Karlo Haldoni) tamaşaları teatrın repertuarında möhkəm yer tutan, forma və məzmun cazibədarlığı ilə seçilən, parlaq aktyor ifalarına görə əlvan olan səhnə əsərlərindəndir.

İbrahim Həmzəyevin yaradıcılığının aktyorluq qolu əlvan idi və çoxçalarlı mahiyyət daşıyırdı. İfa etdiyi rollarda romantik və realist aktyor məktəblərinin estetik prinsiplərini ayrılıqda və vəhdət halında təcəssüm etdirə bilirdi.

Məlahətli və dramatik xarakterli səsi, coşğun daxili temperamenti ilə mürəkkəb və psixoloji rollara əzəmətli monumentalizm verə bilirdi.

Məhəbbət qəhrəmanlarının rollarında aktyor emosional və lirik-psixoloji ifadə vasitələrinə üstünlük verir və bununla da obraza ülviyyət aşılamağı bacarırdı. Bu dəyişmə prosesində səsinin çalarlarından dəqiqliklə və ifadəli tərzdə istifadə edirdi.

Yaradıcılığının özünəməxsus cəhətlərindən biri də o idi ki, hadisələrin yüksək psixoloji-dramatik məqamlarında daxili ehtirasını səfərbər edir, obrazın mənəvi gərginliyini sifət cizgilərində qabarıq canlandırır, mürəkkəb vəziyyətləri mənalı pauzalarla oynamağa üstünlük verirdi.

İbrahim Həmzəyevin rejissurası daha çox monumentalğı ilə xarakterik idi. Məzmunun fəlsəfi-psixoloji mahiyyətinə uyğun, tamaşanın janrı ilə həmahəng səsləşən forma qurmağı ustalıqla bacarırdı. Naxçıvan teatrında bədii və musiqi tərtibatlarının romantik xarakterdə səhnə təcəssümü tapmasını ilk dəfə özünün quruluş verdiyi tamaşalarda reallaşdıran rejissor jbrahim Həmzəyevdir.

Naxçıvan teatrında mövcud olan romantik və realist aktyor məktəblərini nəzəri prinsiplər üzərində estetik ölçülərə salıb. Bu kollektivdə lirik-psixoloji üslubun yaradıcısı olub və həmin janrda maraqlı tamaşalar hazırlamaqla yeni məktəbin ənənələrini yaradıb.

İbrahim Həmzəyevin yüksək bədii zövqü vardı və buna görə də onun rejissurası sənətkar təxəyyülünün genişliyi, ifadə vasitələrinin zərifliyi, qurduğu şaxəli mizanlar estetik çalarlarının əlvanlığı, tamaşaya verdiyi forma poetik hüsnü ilə seçilirdi.

Aktyorluq və rejissorluq fəaliyyətinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 15 oktyabr 1965-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

İbrahim Həmzəyev Naxçıvanda vəfat edib.

**ZƏROŞ HƏMZƏYEVA**
**(22.3.1925- 5.6.2004)**

Geniş mənada milli teatr sənətimizin inkişafında xüsusi yeri olan, zəngin yaradıcılıq irsinə malik aktrisalardandır.

Zəroş Həmzəyeva oynadığı müxtəlif xarakterli rolların psixoloji-estetik mahiyyətinə görə romantik, realist və lirik-psixoloji aktyor məktəblərinin poetika xüsusiyyətlərini dərindən bilib.

Bildiklərini səhnədə məharətlə, ifadəli və məzmunlu çalarlarla öz oyununda ustalıqla canlandıra bilib.

Şirin və yapışıqlı səsi ilə opera aktrisası kimi də bir sıra yaddaqalan partiyalar oxuyub.

Uzun illər teatrın aparıcı aktrisası kimi əksər tamaşalarda dramatik, fəci, lirik qəhrəmanların əvəzsiz ifaçısı kimi tanınıb.

Zəroş Mirzəbağır qızı Həmzəyeva 22 mart 1925-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndində doğulub. Qızlıq soyadı Əliyevadır. Məşhur aktyor və rejissor İbrahim Həmzəyevlə ailə həyatı qurandan sonra "Həmzəyeva" soyadını daşıyıb. Aktrisa kimi də məhz "Zəroş Həmzəyeva" kimi məşhurlaşıb.

Atası dövrünün tanınmış ziyalılarından olub. O, qızının təhsil almasına xüsusi səy göstərib. Anası Əfşan xanım Makulu İrəvanın tanınmış kübarlarından olan İbrahim xanın qızıdır. İbrahim xan poeziyaya və musiqiyə rəğbət bəsləyib.

Zəroş xanım orta təhsili Nehrəm kəndində alıb. Doqquz-on yaşlarından şeir söyləməyə, deklamasiyaya meyil göstərib. Məktəbin dram dərnəyində çıxış edib.

Səhnəyə ilk dəfə 1941-ci ildə, on altı yaşında çıxıb. Onu peşəkar səhnəyə İbrahim Həmzəyev cəlb edib. İlk səhnə obrazı kimi Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" ("Yağışdan çıxdıq, yağmura düşdük") komediyasında Yetər rolunu oynayıb.

Yeniyetmə qız səhnəyə ilk çıxışından maraqlı oyun nümayiş etdirib. Sərbəstliyi və emosional dəyişmə bacarığı ilə teatrın kollektivini heyran qoyub. Ona görə də elə həmin vaxtdan teatrın truppasına aktrisa götürülüb. Qısa müddətdə teatrın aktyor ansamblına uyuşub və bir neçə ildə kollektivin qabaqcıl sənətkarı kimi şöhrət və rəğbət qazanıb.

Zəroş Həmzəyeva 1948-ci ildə həyat yoldaşı İbrahim Həmzəyevlə birlikdə Qaryagin (indiki Füzuli) Dövlət Dram Teatrında aktrisa işləyib. Bir il ərzində burada ondan çox səhnə obrazında çıxış edib.

Aktrisa bir sıra tamaşalarda, xüsusən "Vaqif" tamaşasında Xuraman rolunda Akademik teatrın görkəmli sənətkarları ilə tərəfmüqabil olub. Teatr ictimaiyyəti hər dəfə onun ifasını yüksək qiymətləndirib.

Azərbaycan Respublikasının əməkdar artisti (1956) və xalq artisti fəxri adlarına layiq görülüb (7 oktyabr 1967). 1995-ci ildə fəxri təqaüdə çıxıb. Bakıda vəfat edib və ikinci Fəxri xiyabanda dəfn olunub.

Zəroş Həmzəyeva dramaturq Cəfər Cabbarlının qadın qəhrərnanlarının ən yaxşı ifaçılarından sayılır. O, müxtəlif illərdə və müxtəlif rejissorların quruluşlarında ədibin "Solğun çiçəklər" (Sara), "Nəsrəddin şah" (Sitarə), "Aydın" (Gültəkin), "Sevil" (Sevil), "Almaz" (Almaz və Yaxşı), "1905-ci

ildə" (Sona), "Od gəlini" (Solmaz), "Oqtay Eloğlu" (Firəngiz), "Yaşar" (Yaqut) dramlarının tamaşalarında baş rolları ifa edib. Bu rolların bir qisınini ayrıayrı quruluşlarda təkrarən oynayıb.

Aktrisanın baş rollar siyahısında Xumar, Südabə ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Estrelya ("Sevilya ulduzu", Lope de Veqa), Şirin və Məryəm ("Fərhad və Şirin", Səməd Vurğun), Gülcahan ("Nadir şah", Nəriman Nərimanov), Süsən ("Namus", Aleksandr Şirvanzadə), Gülcamal ("Qatır Məmməd", Zeynal Xəlil), Dezdemona ("Otello", Vilyam Şekspir), Zinyət və Zalxa ("Toy", Sabit Rəhman), Məhsəti, İsmət ("Məhsəti" və "İsmət", Kəmalə Ağayeva), Mətanət ("Çicəkli dağ", Məmmədhüseyn Təhmasib), Luiza ("Sahil əməliyyatı", Cəmşid Əmirov), kruçinina ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski) kimi sanballı xarakterlər var.

Xarakterik rollar oynamaqda Zəroş Həmzəyeva geniş yaradıcılıq imkanlarına malik idi. Aktrisa əlvan ifadə vasitələri ilə Aqafiya ("Evlənmə", Nikolay Qoqol), Göyərçin ("Ədalət", Bəxtiyar Vahabzadə), Fəxrəndə ("Bayramın birinci günü", Nazim Hikmət), Xuraman ("Vaqif", Səməd Vurğun), Südabə ("Günəş doğur", Əbülfəz Abbasquliyev), Ana ("Ana ürəyi", Islam Səfərli), Həyat ("Həyat", Mirzə İbrahimov), Nazlı ("Nişanlı qız", Sabit Rəhman), Diləfruz ("Odlu diyar", Hüseyn Razi), Reyhan ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), Yeganə ("Ibrahim", Cabbar Məcnunbəyov), Pəri ("Pəri cadu", Əbdurrəhim bəy Haqverdiyev), Mehriban ("Vicdan əzabı" Əlyar Yusifli), Şölə xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Fəxrəndə ("Bayramın birinci günü", Nazim Hikmət), Münəvvər ("Toros canavari", Əziz Nesin), Mirondalina ("Mehmanxana sahibəsi", Karlo Haldoni), At Balaxanım ("Adamın adamı", Anar), Mələk xanım ("İtirilmiş sağlıq", Hüseyn İbrahimov), Zöhrə ("Eşq və intiqam", Süleyman Sani Axundov) rollarını oynayıb.

Zəroş xanımın kiçik, lakin ürəyəyatımlı və şirin səsi olub. Buna görə də Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Leyli və Leylinin anası), "Əsli və Kərəm" (Əsli) operalarında, "Arşın mal alan" (Gülçöhrə, Telli və Asya), "Məşədi İbad" (Gülnaz), Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" (Pərizad), Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Durna və Lalə), Məcid Şamxalovla Zakir Bağırovun "Qaynana" (Afət) operettalarında əsas partiyaları ifa edib. Onun yüksək səhnə mədəniyyəti və ifadə zənginliyi oynadığı musiqili tamaşa obrazlarına dinamik ritm və emosional təravət verib.

Zəroş Həmzəyeva daxilən ehtiraslı və çılğın aktrisa idi. Bu keyfiyyətləri son dərəcə həssas meyarlarla oynadığı obrazların xarakterlərinə uyğun şəkildə, fərqli ştrixlərlə canlandırırdı. Ona görə də bu ehtiras və bu çılğınlıq bir-birindən fərqlənirdi.

Aktrisa faciə obrazlarında qatı boyalarla, dramatik personajların ifasında tipik ştrixlərlə, lirik rollarda zərif psixologizmlə təcəssüm tapırdı.

Aktrisanın musiqili səsi vardı, səhnə danışığı aydın, səlist, ifadəli və cazibəli idi. Zəroş xanım hər rolun məzmun tutumuna, ictimai-psixoloji ruhuna, daxili dramatizmının gərginliyinə uyğun olaraq səsinin variasiyalarından məharətlə istifadə edirdi.

Səhnədə həssas və diqqətcil yöndaş olması ilə seçilib. Mürəkkəb kompozisiyalı, kəskin dramatizmli tamaşaların çətin psixoloji məqamlarda da səhnə diqqətini saxlaya bilirdi.

Zəroş Həmzəyeva vəziyyətin mahiyyətini dəqiq qiymətləndirirdi. Bununla da epizodda iştirak edən aktyor və ya aktrisanın psixoloji hadisəni sərbəst oynamalarına, onun fəlsəfi mahiyyətini tamaşaçılara dürüst çatdırmalarına, əsas vurğunu rejissorun ali məqsədinə yönəltmələrinə zəmin yaradırdı.

## İRƏVAN DÖVLƏT AZƏRBAYCAN DRAM TEATRI (1880-1949)

İrəvan Azərbaycan teatrı milli səhnə sənətimizin tarixi salnaməsində xüsusi yer tutur. Özünün yaradıcılıq və üslub forması olan, mürəkkəb, ziddiyyətli proses keçən İrəvan teatrını iki

mərhələdə təqdim edib öyrənmək lazımdır. Teatrın yaradıcılığının birinci mərhələsi həvəskarlıq fəaliyyəti ilə bağlıdır. İkinci mərhələni isə kollektivin Dövlət Azərbaycan Dram Teatrı kimi yaradıcılıq prosesi müəyyənləşdirib.

Vaxtilə eyniadlı Azərbaycan xanlığının mərkəzi olmuş İrəvan şəhəri XIX əsrdə azərbaycanlıların iri mədəniyyət mərkəzlərindən biri idi. 1870-ci illərdə şəhərdə türkrus dillərində məktəblər açılmışdı, vaxtaşırı şeir-sənət məclisləri, musiqi axşamları keçirilirdi. Novruz, Qurban və Orucluq bayramlannda meydan tamaşaları, "Kosa-kosa", "Qaravəlli" və müxtəlif mərasim oyunları göstərilirdi.

1882-ci ilin əvvəllərində İrəvan şəhər gimnaziyasının müəllimi, tanınmış maarifpərvər Məşədi İsmayıl özünün şagirdləri ilə Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" Pyesini tamaşaya hazırlayıb. Bununla da İrəvanda peşəkar Azərbaycan teatrının təməli qoyulub. Həmin əsər ikinci dəfə 1882-ci il aprel ayının 2-də təzə ifaçılarla oynanılıb. Əsas rolları müəllim və şagirdlərdən Mizrə Xəlil Hacıyev (Məmmədqulu), Rüstəmxan Abbasquluxanov (Fətəli Mirzə), Məşədi İsmayıl" (Hacı Fərəc) oynayıblar. Hər iki hadisə İrəvanın mədəni həyatında mühüm hadisə kimi qəbul olunub və xeyli ziyalı bu maarifçilik prosesinə qoşulub.

Teatr prosesini unudulmağa qoymayan ilk növbədə Məşədi İsmayıl olub və o, 1883-cü il mart ayının 10-da İrəvan sakini Rzayevin "Könülsüz nigah" birpərdəli didaktik pyesini tamaşaya qoyub. İki il sonra görkəmli maarifpərvər, pedaqoq İrəvan şəhər seminariyasının müəllimi Firudin bəy Köçərli teatr prosesini daha da canlandırmaq üçün səylə çalışmağa başlayıb. Onun fədakarlığı sayəsində teatr həvəskarları bir yerə cəmləşiblər. Onlar Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının tamaşaçılara göstərilməsinə nail olublar. İrəvan teatr həvəskarları tərəfindən Firudin bəy Köçərlinin rəhbərliyi və rejissorluğu ilə Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (21 mart 1888), təkrar quruluşda "Müsyö Jordan və dərviş Məstəli şah" (4 aprel 1890), "Hacı Qara" (20 oktyabr 1894), Rzayevin "Könülsüz nikah" (17 fevral 1890), Vasaq Mədətovun "Tamahkarlıq düşmən qazanır" (10 may 1892), "Qırt-qırt" (30 noyabr 1893), Sultanməcid Qənizadənin "Dursunəli və ballıbadı" (7mart 1895) pyesləri tamaşaya hazırlanıb.

Tədricən güclənən teatr prosesinə şəhərin zadəgan ziyalıları Təkinskilər, Qazıyevlər, İrəvanskilər, Pənah xan Makinski yaxından mənəvi və maddi köməklik göstəriblər. Səhnəyə ilk dəfə 1897-ci ildə çıxan, istedadını tezliklə göstərə bilən Yunis Nuri 1890-cı ildən rejissor və aktyor kimi aparıcılığı ələ alaraq peşəkar teatrın daha da canlanmasına, tamaşaların il ərzində əvvəlkilərlə müqayisədə daha çox göstərilMəsmə nail olub. Pənah xan Makinski isə səhnə həvəskarlarını xurafatın, nadanlığın fitnəkarlığından qorumaq üçün tamaşaların oynanılmasını öz sarayında təşkil edib. İyirminci əsrin əvvəllərində isə teatr tamaşaları "İctimai yığnaq" ("Ziyalılar klubu" da deyilib), Canpoladov qardaşlarının teatr binalarında da oynanılıb. Artıq müəyyən birlik yaranmış truppada Hüseyn Salmanov, Məmmədağa Şahtaxtlı (Şahtaxtinski), Rza Şeyxzadə, Mirzə Mustafa Rəcəbov, Asəf bəy Şəfibəyov, Kərim Əhmədov, Əli Məhzun Əkbərov, Mir Abbas kimi həvəskar aktyorlar vardı.

1900-1917-ci illərdə İrəvanda Azərbaycan teatrı aktyor ifaları, rejissor işləri və repertuar tərtibi baxımından ciddi nailiyyətlər qazanıb.

Bu illərdə Bakının müxtəlif teatr truppalarının üzvləri dəstə bağlayıb Qafqazın ayrı-ayrı şəhərlərinə, o cümlədən İrəvana qastrol səfərlərinə çıxıblar. Hüseyn Ərəblinskinin, Əbülfət Vəlinin, Sidqi Ruhullanın, Mirzağa Əliyevin, Cəlil Bağdadbəyovun, bəstəkar Zülfüqar bəy Hacıbəyovun İrəvandakı qastrolları yerli həvəskarların daha şövqlə çalışmalarına, yeni-yeni peşəkarlıq səciyyələrinə yiyələnmələrinə təkan verib.

Məhz həmin dövrdə İrəvanın teatr həvəskarlarının repertuarında əlvanlıq, zənginlik və janr müxtəlifliyi genişlənib. Repertuarda Nəriman Nərimanovun "Nadir şah", Yevgeni Çirkovun "Yəhudilər", Jan Batist Molyerin "Zorən təbib", Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (1910 Rejissor Yunis Nuri), Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (25 iyul

1910. Rejissor Hüseyn Ərəblinski), "Bəxtsiz cavan" (4 fevral 1911. Rejissor Yunis Nuri), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (10 may 1911. Rejissor Sidqi Ruhulla), Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan" (22 noyabr 1912. Rejissor müəllif özüdür), Aleksandr Ostrovskinin "Kimdir müqəssir?" (25 iyul 1913. Rejissor Yunis Nuri), Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (19 avqust 1916. Rejissor Rza Şeyxzadə) əsərlərinin maraqlı, teatrsevərlər tərəfindən rəğbətlə qarşılanan tamaşaları əsas yer tutub.

Bakıdan və Tiflisdən fərqli olaraq, səhnəyə azərbaycanlı qızı İrəvanda daha erkən çıxıb. Qəssab Əsədin qızı Tamara 1916-cı ildə göstərilən Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" operettasında Gülçöhrə rolunu oynayıb. Bu, o dövr üçün böyük cəsarət və misilsiz fədakarlıq idi.

1918-1927-ci illər İrəvan teatrının fəaliyyətində ayrıca dövr kimi maraqlı, dəyərli və peşəkarlıq xüsusiyyətlərinin estetik reallıqlarla formalaşması baxımından mühüm mərhələdir.

İyirminci əsrin əvvəllərində tamaşaya qoyulmuş məşhur əsərlər təkrar və daha kamil quruluşlarda tamaşaya hazırlanıb. Eyni zamanda repertuarda Yunis Nurinin quruluşunda Hüseyn Cavidin "Şeyda" (18 mart 1926), Bağır Cabbarzadənin quruluşunda Şəmsəddin Saminin "Dəmirçi Gavə" (7 iyun 1924), Cəlil Məmmədquluzadənin "Ölülər" (20 iyul 1924), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (30 avqust 1924), Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm" (10 may 1927) tamaşaları mühüm yer tutub. Teatr dəstəsi öz tamaşalarını İrəvan şəhərindən başqa, azərbaycanlıların qədim atababa torpaqları olan Zəngəzur, Göyçə, Vedibasar, Uluxanlı mahallarında da göstərib.

1928-ci il mart ayının 15-də "İrəvanda Dövlət Türk Teatrosu yaratmaq barədə" dövlətin qərarı olub. Təşkilat işi təcrübəli sənətkar, milli səhnə sənətimizin fədakar cəfakeşi Yunis Nuriyə tapşırılıb. Truppanın əsasını yerli həvəskarlar təşkil edib və kollektivə Bakının müxtəlif teatrlarından, Bakıdakı Azərbaycan Dövlət Teatr Məktəbinin məzunlarından bacarıqlı gənclər cəlb olunublar.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının təsisatlı sənət ocağı kimi fəaliyyətə başlaması üçün fransız dramaturqu Jan Batist Molyerin "Zorən təbib" komediyası seçilib. Yunis Nurinin quruluş verdiyi komediyanın ilk tamaşası 14 aprel 1928-ci ildə göstərilib. Bununla da İrəvan Azərbaycan Teatrının yaradıcılığının ikinci və bədiiestetik cəhətdən daha sanballı mərhələsi başlanıb. On il ərzində teatr Cəfər Cabbarlının "Aydın" (14 avqust 1928), "Sevil" (16 dekabr 1929), "Almaz" (14 noyabr 1934), "Yaşar" (1934), "1905-ci ildə" (13 may 1935), "Od gəlini" (1936), tərcümə edilmiş "Pepo" (31 yanvar 1930), Anatoli Qlebovun "İnqa" ("İncə" adı ilə. 7 noyabr 1930), Aleksandr Şirvanzadənin "Namus" (25 dekabr 1934), sovet ideologiyasından bəhs edən Aleksandr Korneyçukun "Platon Kreçet" , Boris Lavrenyovun "Hücum" əsərlərini maraqlı quruluşlarda oynayıb.

"Aydın" da Əşrəf Yusifzadənin (Dövlət bəy), Həmid lbrahimovun (Aydın), "Od gəlini" ndə Əli Zeynalovun (Elxan), "1905-ci ildə" də Yunis Nurinin (Allahverdi), "Yaşar" da Cəmil Əliyevin (Niyaz), "Sevil" də Qafar Həqqinin (Babakişi), "İncə" də Xədicə İsmayılovanın (İncə), "Namus" da İsmayıl Dağıstanlının (Rüstəm) və Əli Zeynalovun (Seyran) oyunları yüksək sənətkarlıq xüsusiyyətləri ilə yadda qalıb. Bakıdan dəvət olunmuş rejissor Yusif Yulduzun bir neçə quruluşu teatrın monumentalizmə meyilini gücləndirib.

İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1938-1947-ci illərdə peşəkarlıq vərdişlərini daha da gücləndirib, milli rejissuranın üslub və forma axtarışlarını genişləndirib. Teatrda Tiflisdən gəlmiş Əli Şahsabahlı, Peterburqda peşə təhsili almış Baxşı Qələndərli maraqlı quruluşlar verməklə sənət ocağının romantik və realist üslub xətlərini gücləndirmiş, aktyorların ifa zənginliyinə nail ola bilmişlər. Baxşı Qələndərlinin rejissorluğu ilə oynanılan "1905-ci ildə" (14 fevral 1935) dramı teatrın sənət qələbəsinə çevrilib. Bundan sonra elə həmin il teatra Cəfər Cabbarlının adı verilib.

Əli Şahsabahlının rejissorluğunda Vilyam Şekspirin "Otello" (1944) faciəsinin tamaşası teatrın yaradıcılığında uğurlu mərhələ rolunu oynayıb. Tamaşada əsas obrazları Əli Zeynalov (Otello) və Abbasqulu Tağıyev (Yaqo) ifa ediblər.

Bu dövrdə teatr əvvəllər oynadığı bir sıra əsərləri təkrar quruluşlarda tamaşaçılara göstərib. Eyni zamanda repertuarda yeni pyeslər də mühüm yer tutub. Kollektiv Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Hacı Qara - Əhməd Səfayi və Yunis Nuri), Sabit Rəhmanın "Toy" komediyalarını, Səməd Vurğunun "Vaqif" (Vaqif Əli - Zeynalov, Qacar - Əli Şahsabahlı, İbrahim xan - Məmmədbağır Qaraxanov), Süleyman Rüstəmin "Qaçaq Nəbi" qəhrəmanlıq dramlarını, Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", Cəlil Məmmədquluzadənin "Ölülər" (yeni və bədii cəhətdən daha kamil quruluşda) faciələrini, çağdaş mövzuda Mirzə İbrahimovun "Həyat" dramını oynamaqla ciddi sənət uğurları qazana bilib. Tərcümə əsərlərindən Sandro Şanşiaşvilinin "Anzor", Aleksandr Puşkinin "Xəsis cəngavər", Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Jan Batist Molyerin "Jorj Danden" pyeslərinin tamaşaları teatrın janr və üslub əlvanlığını zənginləşdirib.

Teatr dramatik xarakterli sənət ocağı olmasma baxmayaraq, Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "Məşədi İbad" operettalarını, "Leyli və Məcnun", "Əsli və Kərəm", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", Müslüm bəy Maqomayevin "Şah İsmayıl" operalarını müxtəlif quruluşlarda tamaşaçılara göstərib.

İrəvan Dövlət Azərbaycan Teatrı Ermənistanda azərbaycanlılara qarşı başlanan kütləvi təzyiqlər nəticəsində 1948-ci ildə Basarkeçər rayonuna köçürülüb. Özünümaliyyələşdirmə iş prinsipinə keçən teatr 1949-cu ilin əvvəllərində maliyyə çətinlikləri ilə əlaqədar olaraq bağlanıb. Həmin vaxtda sənət ocağında Yunis Nuri, Məmmədbağır Qaraxanov, Əli Şahsabahlı, Cəmil Əliyev, Abbasqulu Tağıyev, Şövkət Əliyeva, Əziz Süleymanov, Qəzənfər Məlikov, Naibə Əliyeva, Roza Hüseynova, Züleyxa Babayeva, Məmmədrza Qənizadə, Xədicə İsmayılova, Hüseyn Ərəboğlu, Asəf Əlixanov, Əsgər Rəhimov, Gülzar Rəhimova, Midhəd Rəsulzadə, İsfəndiyar Hüseynov, Nübar Əlixanova kimi səriştəli, peşəkar, müəyyən sənət uğurları qazanmış aktyorlar və aktrisalar çalışıblar.

Bakı, Gəncə, Naxçıvan teatrlarında yaradıcılıqlarını davam etdirərək SSRİ xalq artisti, Azərbaycan Respublikasının xalq artisti, əməkdar incəsənət xadimi, əməkdar artisti fəxri adlarına layiq görülmüş İsmayıl Dağıstanlı, Kazım Ziya, Əli Zeynalov, Əşrəf Yusifzadə, Əyyub Haqverdiyev, Əşrəf Quliyev, Ətayə Əliyeva, Qafar Həqqi, İbrahim Hüseynov (Şünasi), Həsən Ağayev, İmamverdi Bağırov, həmçinin tanınmış aktyorlar Məmmədsadıq Nuriyev, Kamal Qubuşov, Zakir Şalıbazov müxtəlif illərdə İrəvan teatrında aktyor işləyiblər.

Teatrda tamaşaların bədii tərtibatını rəssam Rəhim Məmmədov, musiqi tərtibatını isə, əsasən, orkestrin rəhbəri Eyvaz Eyvazov veriblər.

İrəvan Dövlət Azərbaycan Teatrı 1928-1934-cü illərdə şəhərin baş meydanı yaxınlığındakı yarızirzəmidə fəaliyyət göstərib. 1935-ci ildən isə öz tamaşalarını həftədə bir dəfə İrəvan Dövlət Musiqili Komediya Teatrının binasında oynayıb.

Teatrın qabaqcıl sənətkarlarından Baxşı Qələndərlı əməkdar incəsənət xadimi, Yunis Nuri, Əli Zeynalov, Məmmədbağır Qaraxanov, Əli Şahsabahlı, Cəmil Əliyev əməkdar artist fəxri adları ilə təltif olunublar.

**İRƏVAN DÖVLƏT**
**AZƏRBAYCAN DRAM TEATRI**
**(1967-2004)**

İrəvanda yaşayan ziyalılardan Yunis Rzayevin, Qəşəm Aslanovun, İsrafil Məmmədovun, Əkbər Yerevanlının, Sabir Rzayevin təşəbbüsü ilə 1966-cı ildə İrəvan Dövlət Teatrının bərpası üçün Ermənistan hökuməti qarşısında məsələ qaldırıldı. Azərbaycan Respublikası həmin qeyrətli vətənpərvərlik çağırışına həyan durdu. Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinin tələbələri 1967-ci ilin fevral ayında sənət müəllimləri Nəsir Sadıqzadə ilə birlikdə teatrın bərpası üçün İrəvana göndərildilər.

Fədakar gənclər Cəfər Cabbarlının "Sevil" dramının qızğın məşqlərinə başladılar. Yerli teatr həvəskarlarının təcrübəli sənətkarları Cəmil Əliyev, Abbasqulu Tağıyev, istedadlı gənclərdən Elmira İsmayılova, Raya Qafarova, Səməd Abbasov truppaya qəbul edildilər. Naxçıvan teatrından Tariyel Qasımov, Aydın Şahsuvarov, Gəncə teatrından Zemfira Əliyeva, Nisə Əliyeva, Bakıdan Zərnişan Fətəliyeva, Tamilla Abdullayeva, Zemfira Sadıqova İrəvan teatrına çağırıldılar.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrı 1967-ci il aprel ayının 28-də "Sevil" tamaşası ilə öz pərdələrini açdı. Bərpa olunan sənət ocağının ikinci həyatı başlandı. "Sevil" tamaşasının quruluşunu Nəsir Sadıqzadə vermişdi. Əsas rolları Zərnişan Fətəliyeva (Sevil), Tariyel Qasımov (Balaş), Zemfira Əliyeva (Gülüş) oynadılar.

Teatrın açılışından bir qədər sonra Nəsir Sadıqzadə Bakıya qayıtdı. Teatrın baş rejissor Kürsüsünü Azərbaycan Dövlət Teatr İnstitutunu yenicə bitirmiş Tofiq Ağayev tutdu. Onun kollektivdə ilk işi Sabit Rəhmanın "Əliqulu evlənir" komediyasına verdiyi quruluş olub. Tamaşada əsas rolları Aydın Şahsuvarov (Əliqulu), Nisə Rzayeva (Gövhər), Raya Qafarova Qumral), Şamil Dəmirçiyev (Xəlil), Tariyel Qasımov (Rövşən), Zərnişan Fətəliyeva (Yasəmən), Sara Əliyeva (Humay), Vidadi Əliyev (Kamal), Zemfira Sadıqzadə (Səadət) ifa ediblər.

Teatr Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" (quruluşçu rejissor Tariyel Qasımov, rəssam Cabbar Quliyev) komediyasını da maraqlı quruluşda oynayıb. Tamaşada baş rolları Rəhim Rəcəbov (Hacı Qəmbər), Raya Qafarova (Yetər), Tariyel Qasımov (Cəbi), Zülfüqar Abbasov (Əşrəf bəy), Hüseyn İsmayılov (Qıdı kirvə), Cahid Hilaloğlu (Mayor Xudaverdi) ifa ediblər.

"Sevil", "Yağışdan çıxdıq, yağmura düşdük" və "Əliqulu evlənir" tamaşaları ilə özünün realist dramatik yaradıcılıq platformasını bəyan edən İrəvan Dövlət Dram teatrı Şıxəli Qurbanovun "Sənsiz" (25 dekabr 1968. Quruluşçu rejissor Tofiq Ağayev) dramı ilə milli səhnə sənətimizdə yenicə uğurlu addımlarını atan lirik-psixoloji üsluba qadir olduğunu da göstərdi. Tədricən lirik-psixoloji üslub formalaşaraq teatrın yaradıcılıq simasının əsas estetik prinsiplərini müəyyənləşdirdi. Bu iki üslubun qovuşuğunda özünün poetika səciyyələrini müəyyənləşdirən İrəvan teatrı Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (2 mart 1970. Quruluşçu rejissor Tofiq Ağayev), "Arşın mal alan" (20 may 1981), dramaturq Sabit Rəhmanla bəstəkar Emin Sabitoğlunun "Hicran" (9 dekabr 1985), dramaturq Məhərrəm Əlizadə ilə bəstəkar Ağası Məşədibəyovun "Toy kimindir?" (24 fevral 1972), dramaturq Məcid Şamxalovla bəstəkar Zakir Bağırovun "Qaynana" (10 fevral 1975) operettalarını oynamaqda da müəyyən səriştə qazana bilib.

İrəvan Dövlət Azərbaycan Dram Teatrı bərpa olunandan sonra onun yaradıcılığı iki mərhələyə bölünüb:

adını daşıdığı şəhərdəki fəaliyyəti (1967-1988);

ermənilərin azəri türklərinə qarşı törətdikləri vəhşi soyqırınından sonra teatrın İrəvanı tərk edərək Bakı şəhərindəki yeni yaradıcılıq dövrü (1989-cu ildən bu günə qədər).

İrəvan teatrının yeni üslub istiqamətində formalaşmasında, truppanın estetik ifadə vasitələrinin zənginləşməsində Tofiq Ağayev uğurlu işlər görüb, səmərəli axtarışlar aparıb. O, teatrdaxili çəkişmələr nəticəsində 1970-ci ildə baş rejissorluqdan çıxıb. Teatr 1977-ci ilə qədər baş

rejissorsuz işləyib. püzdür, 1973-1974-cü ildə qocaman səhnə xadimi Baxşı Qələndərli teatra yaradıcılıq rəhbərliyini öz üzərinə götürüb, Lakin o, kollektivdəki durğunluğu aradan qaldıra bilməyib. Teatrın sağlam qüvvələrinin təkidi ilə Tofiq Ağayev yeddiillik fasilədən sonra doğma teatra qayıdıb.

Forma əlvanlığına, janr müxtəlifliyinə, repertuar zənginliyinə xüsusi diqqət yetirən rejissor İrəvan teatrının yaradıcılığında özünün sanbalh quruluşları ilə qüvvətli aktyor oyunlarına imkan yarada bilib. Onun rejissorluğunda oynanılan Yusif Əzimzadənin "Nəsrəddin" (25 dekabr 1968), tərcümə olunmuş "Bağdasar dayı" (9 rnart 1969), İmran Qasımov və Həsən Seyidbəylinin "Sən nə üçün yaşayırsan?" (6 dekabr 1970), Hüseyn Muxtarovun "Nənəm ərə gedir" (10 may 1978), Anarın "Şəhərin yay günləri" (20 may 1979), Anatoli Safronovun "Kişilərə inanınaym" (30 dekabr 1980), Azad Abdulinin "On üçüncü sədr" (26 dekabr 1982), Karlo Haldoninin "İki ağanın bir nökəri" (30 dekabr 1983), Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" (15 mart 1984), "Müsyö Jordan və dərviş Məstəli şah", Karl Vitlinkerin "Ulduzdan düşmüş adam" (11 may 1984), Aleksandr Makayonokun "Tribunal" (20 fevral 1986), İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (5 may 1987), Mar Bayciyevin "Ər və arvad" (15 fevral 1988) pyeslərinin tamaşaları müəyyən çatışmazlıqlarına baxmayaraq, kollektivin başlıca yaradıcılıq uğurlarını təminatlandırıb.

İrəvan teatrı 1967-1988-ci illərdəki fəaliyyət dövründə yaradıcılıq axtarışlarına meyilli olub. Bu məqsədlə teatr vaxtaşırı Azərbaycanın müxtəlif sənət ocaqlarından yaradıcılıqlanna inandığı həm təcrübəli, həm də gənc rejissorları tamaşa hazırlamağa dəvət edib. Bu teatrda Nəsir Sadıqzadə Georgi Xuqayevin "Elbrus evlənir" (4 may 1972), Hidayətin "Məhəbbət yaşadır" (fevral 1976), Zülfüqar Abbasov yerli müəllif Əziz Süleymanovun "Alovlar" (10 noyabr 1967), Cəfər Cabbarlının "Solğun çiçəklər" (10 noyabr 1968), Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər (10 dekabr 1972), Hilal Həsənov Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (15 noyabr 1971), Sabit Rəhmanın "Toy" (24 dekabr 1974), Vəli Babayev şair-dramaturq Bəxtiyar Vahabzadənin "İkinci səs" (25 fevral 1971), Ağakişi Kazımov Şamil Xurşud və Əşrəf Hacıyevin "Qızıl zəncir" (10 iyul 1978), Hidayətin "Məni qınamayın" (14 may 1981), Nahid Hacızadənin "Ömür gözləmir bizi" (31 may 1982), Niyaz Şərifov Əkrəm Əylislinin "Bağdada putyovka var" (19 mart 1979), Vaqif Şərifov Rövşən Ağayevin" Yeddi oğlan, bir qız" (7 mart 1983), Hüseynağa Atakişiyev Nəriman Həsənzadənin "İmzalar içində" (28 aprel 1980) əsərlərinə ayrı-ayrı janrlarda quruluşlar veriblər.

İrəvan teatrının dövlət statusu ilə fəaliyyət göstərməsinin 50 illiyi münasibətilə 1978-ci ildə Abbasqulu Tağıyev və Şamil Dəmirçiyev Ermənistan Respublikasının əməkdar artisti, teatrın direktoru Hidayət Orucov əməkdar mədəniyyət işçisi fəxri adlarına layiq görülüblər. İrəvan DADT 1978-ci ildə Bakıda qastrolda olub. Teatrın burada qazandığı sənət nailiyyətlərinə görə aktyorlar Vidadi Əliyev, Tamilla Abdullayeva və Marietta Kərimova Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif ediliblər.

İrəvan teatrı 1967-1986-cı illərdə Mirzə Fətəli Axundzadə adına şəhər orta məktəbinin üçüncü mərtəbəsində yerləşib. Lakin burada tamaşa oynamağa imkan olmadığına görə teatr tamaşalarını kirayə ilə Stanislavski adına Rus Dövlət Dram Teatrının binasında nümayiş etdirib. Azərbaycanlılar yaşayan bölgələrdə müntəzəm olaraq səyyar tamaşalar göstərilib.

İrəvan şəhərindəki yaradıcılıq dövründə teatrın tamaşalarına yerli rəssam Cabbar Quliyev, dəvət olunmuş fırça ustalarından Məmməd Qasımov, Fuad Qafarov, Mübariz Əliyev bədii tərtibatlar vermişlər. Tamaşaların musiqi tərtibatı ilə Kamal Misgərov, Sabir Əliyev və Bağır Cəfərov məşğul olmuşlar.

Bakı dövründə ilk illər ciddi maddi və yaradıcılıq çətinlikləri ilə yaşayan İrəvan DADT-nin rəhbərlik ağırlığını istedadlı aktyor Vidadi Əliyev öz üzərinə götürüb. O, direktor və bədii rəhbər kimi kollektivi mənəvi böhrandan çıxara bilib. Teatr 1989-1994-cü illərdə Xırdalan qəsəbəsindəki mədəniyyət sarayında yerləşib. 1994-cü ildə hazırki binasına, yəni Hüseynqulu Sarabski adına mədəniyyət evinə köçüb.

Aktyor ştatında cəmi 14 nəfər olan kollektiv Bakıda Vidadi Əliyevin rəhbərliyi ilə əvvəlcə "Ər və arvad" (Mar Bayciyev), "Mənim qaynanam" (Georgi Xuqayev), "Əkizlərin nağılı" (Panço Pançev), "Nəsrəddin" (Yusif Əzimzadə) tamaşalarını bərpa edərək oynamağa başladı. Tədricən yaradıcılıq ritmini nizama salan teatr müxtəlif sarsıntı və sıxıntılara, dekorasiya, əlbəsə, butafor, rekvizit çətinliklərinə baxmayaraq, sabit repertuar qurmağa çalışdı.

Teatrda Süleyman Rəşidinin "Allah onlara rəhmət eləsin" (10 iyun 1993), İnqilab Vəlizadənin "Abbasqulu bəy Şadlinski" (15 dekabr 1995), Aydın Haqqararın "Dəli Domrul" (15 aprel 1994), Vidadi Əliyevin "Madam Badam" (20 aprel 1994), Şərəf Başbəyovun "Dəmir qadın" (20 aprel 1997), Marsel Birkye Marinyenin "Oğru" (9 iyun 1999), Sabit Rəhmanın "Yalan" (15 dekabr 2000), Kamal Abdullanın "Elə bil qorxa-qorxa", Hüseyn Cavidin "Maral" (15 iyul 1999) pyesləri oynanılıb. Dəvətlə çağırılmış rejissorlar Bəhram Osmanov, Vaqif Əsədov, Yusif Əkbərov, Oqtay Salamov teatrda müxtəlif quruluşlar veriblər.

Teatrın qabaqcıl aktyorları Elmira İsmayılova və Süleyman Nəcəfov 2000-ci il iyun ayının 15-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltifləniblər.

## İRƏVAN DÖVLƏT
## AZƏRBAYCAN DRAM
## TEATRINDA AKTYOR YARADIGLIĞI

Yaradılan gündən realist aktyor məktəbinə üstünlük verən İrəvan teatrında bu üslubda sənət nailiyyətləri qazanan və müəyyən mərhələlərdə romantik monumentalizmə üstünlük verən aktyorlar olublar. Ayrı-ayrı illərdə teatrda qısa və ya uzun müddətdə işləyən aktyorların əksəriyyəti kollektivin yaradıcılıq salnaMəsmə dəyərli töhvələr veriblər.

Tiflis teatrından gəlmiş Əli Şahsabahlı İrəvan teatrında rejissorluq etməklə yanaşı, Qacar ("Vaqif", Səməd Vurğun), Əsgər, Kərəm ("Arşın mal alan" və "Əsli və Kərəm", Üzeyir bəy Hacıbəyov), Zöhhak ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Abbas ("Həyat", Mirzə İbrahimov) kimi mürəkkəb opera, operetta və dram rolları oynayıb.

Əli Zeynalov İrəvan teatrına 1934-cü ildə gəlib və burada on il işləyib. Teatrın səhnəsində Baxşı, Elxan ("1905-ci ildə" və "Od gəlini", Cəfər Cabbarlı), Seyran ("Namus", Aleksandr Şirvanzadə), Araadi ("Platon kreçet", Aleksandr korneyçuk), Tomson ("Hind qızı", Əbdülhəq Hamid), Otello və Yaqo ("Otello", Vilyam Şekspir), Süleyman ("Həyat", Mirzə İbrahimov) kimi mürəkkəb xarakterli rollarda çıxış edib.

Əşrəf Yusifzadənin Hacı Əhməd, Dövlət bəy ("Almaz" və "Aydın", Cəfər Cabbarlı), Rüstəm ("Namus", Aleksandr Şirvanzadə), İmamverdi Bağırovun Tomson ("Hind qızı", Əbdülhəq Hamid), Sərvər ("Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), İsmayıl Dağıstanlının İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Otello ("Otello", Vilyanı Şekspir), Şeyx Sənan ("Şeyx Sənan", Hüseyn Cavid), Məmmədbağır Qaraxanovun Nökər ("Zorən təbib", Jan Batist Molyer), Babakişi ("Sevil", Cəfər Cabbarlı), Zimzimov ("Pepo", tərcümə əsəri), Ser Bortel ("Hind qızı"), İbrahim xan ("Vaqif"), Əhməd Səfayinin Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Brabansio ("Otello"), Ətayə Əliyevanın Gülnar ("Vaqif") və Həcər ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Əyyub Haqverdiyevin Allahverdi ("1905-ci ildə"), Məmmədsadıq Nuriyevin Vəli ("Arşın mal alan") rolları İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyor ifaçılığı məktəbini zənginləşdirmiş səhnə surətləridir.

* * *

**Cəmil Əliyev**
**(1909 - 2.11 1977)**

Qədim İrəvan xanlığının Vedibasar mahalında anadan olub. 1926-cı ildə İrəvan Pedaqoji Texnikumunu bitirərək teatrda çalışmağa gəlib. Teatrın səhnəsində dramaturq Cəfər Cabbarlının pyeslərinin tamaşalarında Niyaz ("Yaşar"), Məmmədəli və Babakişi ("Sevil"), İmamverdi ("1905-ci ildə"), Hacı Həsən ağa ("Ölülər", Cəlil Məmmədquluzadə), Şamama qarı ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Cəlal ("Həyat", Mirzə İbrahimov) kimi yaddaqalan rollar ifa edib.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının bərpadan sonraki illərində aktyor Vəli ("Arşın mal alan"), Məşədi İbad ("O olmasın, bu olsun", Üzeyir bəy Hacıbəyov), Mirzə Cavad ("Aydın", Cəfər Cabbarlı), Yereat ("Baqdasar dayı", tərcümə əsəri), Hacı Salman ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Parnak ("Bir damın altında", tərcümə pyesi), Darğa ("Nəsrəddin", Yusif Əzimzadə) rollarını məharətlə oynayıb. Aktyorun ifasında obrazlar real cizgilərlə, psixoloji dəqiqliklə verilirdi. O, obrazın psixoloji çalarlarını, yaşantılarını ustalıqla çatdırırdı. Realist ifadə vasitələrinə üstünlük verirdi.

1968-ci ilin yanvarında Ermənistan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Cəmil İbrahim oğlu Əliyev ömrünün sonuna qədər səhnədən ayrılmayıb və İrəvanda vəfat edib.

**Abbasqulu Tağıyev**
**(1919-1981)**

İrəvan şəhərində doğulub. Teatrın səhnəsinə ilk dəfə 1931-ci ildə çıxıb. Aktyorun birinci rolu Cəfər Cabbarlının "Sevil" dramında Gündüz obrazı olub.

İstedadlı və işgüzar aktyor doğma səhnədə müxtəlif illərdə Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", "Xanlar" dramlarında Eldar, Xosrov, Xanlar, Aleksandr Şirvanzadənin "Namus", "Cinli" əsərlərində Rüstəm və Daniel, Cəfər Cabbarlının pyeslərinin tamaşalarında İbad ("Yaşar"), Əbdüləli bəy ("Sevil"), İmamverdi ("1905-ci ildə"), Qorxmaz ("Od gəlini") rollarını oynayıb. Müxtəlif tamaşalarda Rüstəm və Əbdək ("Nizami", Mehdi Hüseyn), Teymur ağa ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Yaqo ("Otello", Vilyam Şekspir), Dudikin ("Günahsız müqəssirlər", Aleksandr OsrovSki, Nəbi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Amiran ("Vətən namusu", Georgi Mdivani) kimi yaddaqalan səhnə obrazları yaradıb.

1949-cu ildə İrəvan teatrı bağlandıqdan sonra Abbasqulu Tağıyev xalq teatrında çalışıb. 1967-ci ildə İrəvan DADT bərpa edildikdən bir il sonra aktyor doğma kollektivə qayıdıb və yaradıcılığını yeni şövqlə davam etdirib. Aktyor bu illərdə Cəfər Cabbarlının "Aydın" (Dövlət bəy), "Yaşar" (Əmirqulu), "Solğun çiçəklər" (Əbdül), Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (Molla İbrahimxəlil), Bəxtiyar Vahabzadənin "İkinci səs" (ŞüKür bəy), Georgi Xuqayevin "Mənim qaynanam" (Gena), "Arvadımın əri" (Kazbek), Panço Pençevin "Əkizlərin nağılı" (Peter ağa), Yeqor Bayqayevin "Səni kim unudar..." (Tahir Musayeviç), Həsən Seyidbəyli və İmran Qasımovun "Sən nə üçün yaşayırsan?" (Los), Hidayətin "Məni qınamayın" (Qulamov), Anarın "Şəhərin yay günləri" (Bəhram Zeynallı), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (Krurov), Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Soltan bəy), "Məşədi İbad" (Hambal) əsərlərinin tamaşalarında oynayıb.

Abbasqulu Bağır oğlu Tağıyev 1978-ci ildə Ermənistan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

1981-ci ildə İrəvan şəhərində vəfat edib.

**Şamil Dəmirçiyev**
**(9.5. 1940-11.6. 2002)**

Borçalı mahalın Aşağı Qoşakilsə kəndində anadan olub. 1962-cı ildə Bakı kıtabxanaçılıq Texnikumunu bitirib və Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb.

İrəvan Dövlət Azərbaycan Dram Teatrında teatrda işlədiyi 1967-1988-ci illər ərzində Şamil Mahmud oğlu Dəmirçiyev onun səhnəsində Əbdüləli bəy, İmamyar, Aydın ("Aydın", "Sevil" və "Yaşar", Cəfər Cabbarlı), Paratov ("Cehizsiz qız", Aleksandr Ostrovski), Kebot ("Qarağaclar altında məhəbbət", Yucin O'Nil), Fransız Kralı ("Axırı xeyir olsun", Vilyam Şekspir), Cığatay ("Ömür gözləyir bizi", Nahid Hacızadə), Nəriman Nərimanov ("İmzalar içində", Nəriman Həsənzadə), Məşədi İbad ("O olmasın, bu olsun", Üzeyir bəy Hacıbəyov), Kərəmov ("Toy", Sabit Rəhman), Hans Kifer ("Ulduzdan düşmüş adam", Karl Vitlinger), Qoşun ("Toy kimindir?, dramaturq Məhərrəm Əlizadə, bəstəkar Ağası Məşədibəyov), Rəşad ("İkinci səs", Bəxtiyar Vahabzadə), Pantalone ("İki ağanın bir nökəri", Karlo Haldoni), Bəhram Zeynallı ("Şəhərin yay günləri", Anar) obrazlarını ifa edib.

1988-ci ildə İrəvan teatrı köçkün həyatına başladığı üçün Şamil Dəmirçiyev Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyor truppasına daxil olub. Arada "Bəşir" miniatür teatrında işləyib.

1978-ci ildə Ermənistan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Bakıda 2002-ci ildə vəfat edib.

**Tamilla Abdullayeva**
**(10 dekabr 1943)**

Tovuz rayonunda doğulub. 1965-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirib. Elə həmin il Gənc Tamaşaçılar Teatrında aktrisa işləməyə başlayıb. 1967-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrında işləməyə gedib.

Zəhmətkeş aktrisa teatrın səhnəsində Gültəkin, Sara, Yaqut ("Aydın", "Solğun çiçəklər" və "Yaşar", Cəfər Cabbarlı), Beatriçe ("İki ağanın bir nökəri", Karlo Haldoni), Qumru ("Şəhərin yay günləri, Anar), Katxen ("Ulduzdan düşmüş adam", Karl Vitlinger), Abbi ("Qarağaclar altında məhəbbət", Yucin O'Nil), Gülçöhrə ("O olmasın, bu olsun", Üzeyir bəy Hacıbəyov), Larisa ("Cehizsiz qız", Aleksandr Ostrovski), Tərlan xanım ("Yalan", Sabit Rəhman) kimi yaddaqalan obrazlar yaradıb.

Tamilla İslam qızı Abdullayeva 1978-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

1988-1995-ci illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, 1995-1999-cu illərdə "Bəşir" miniatür teatrında işləyib. 1999-cu ildən yenə də Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında çalışır.

**Vidadi Əliyev**
**(1 sentyabr 1945)**

Ağstafa rayonunun Yuxarı Göycəli kəndində ziyalı ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra tikintidə bənna kimi əmək fəaliyyətinə başlayıb. Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirib (1963-1967).

Gənc aktyor təhsilini başa vuran kimi tələbə dostları ilə İrəvan teatrına gedib və orada Cəfər Cabbarlının "Sevil", "Yaşar", "Solğun çiçəklər" dramlarında Balaş, Yaşar, Bəhram, Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah", "Lənkəran xanının vəziri" komediyalarında Müsyö Jordan və Xan rollarını oynayıb. Bu teatrda illər boyu Areluizi ("İki ağanın bir nökəri", Karlo Haldoni), Əsgər ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Bertram ("Axırı xeyir olsun", Vilyam Şekspir), Karandışev ("Cehizsiz qız", Aleksandr Ostrovski), Rüstəm ("Sən nə üçün

yaşayırsan?", Həsən Seyidbəyli və İmran Qasımov), Qiyas ("Şəhərin yay günləri", Anar), Müşfiq ("Səni kim unudar?..", Mustafa İsgəndərzadə), Şıxlinski ("İmzalar içində" , Nəriman Həsənzadə), Mitoş ("Hicran", dramatruq Sabit Rəhman və bəstəkar Emin Sabitoğlu), Elcan ("Ömür gözləyir bizi", Nahid Hacızadə), Şahmar ("Əks-səda", Nəbi Xəzri), Bəxtiyar ("Ulduz", dramaturq Sabit Rəhman və bəstəkar Süleyman Ələsgərov) və digər maraqlı, yaddaqalan obrazlar yaradıb.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında bir müddət ikinci rejissor, sonra isə quruluşçu rejissor kimi fəaliyyət göstərib. Teatrın Bakı fəaliyyəti dövründə Vidadi Hüseyn oğlu Əliyev kollektivin direktoru və bədii rəhbəri kimi çalışıb. 1988-2000-ci illər ərzində teatrın dağılmaması üçün böyük işlər görüb. "Ər və arvad" (Mar Bayciyev. 1989), "Mənim qaynanam" (Georgi Xuqayev. 1989), "Əkizlərin nağılı" (Panço Pançev. 1989) tamaşalarına quruluşlar verib.

1978-ci ildə Azərbaycan Respublikasının əməkdar artist ifəxri adına layiq görülüb.

**Elmira Ismayılova**
**(13 noyabr 1945)**

İrəvan şəhərində ziyalı ailəsində dogulub. Irəvan Dovlət Pedaqojı Institutunda Təhsilini başa vuran kimi yenicə açılmış İrəvan Dövlət Azərbaycan Dram Teatrına işləməyə gəlib.

Teatrın İrəvandakı fəaliyyəti dövründə Oqudalova ("Cehizsiz qız", Aleksandr Ostrovski), Smeraldina ("İki ağanın bir nökəri", Karlo Haldoni), Qrafinya ("Axırı xeyir olsun", Vilyam Şekspir), Dilşad ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), Dilarə ("Şəhərin yay günləri", Anar), Gülnisə, Böyükxanım, Şərəbanı ("Solğun çiçəklər", "Aydın" və "Yaşar", Cəfər Cabbarlı), Dilbər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Sənəm, Cahan ("O olmasın, bu olsun" və "Arşın mal alan" Üzeyir bəy Hacıbəyov), Şəhrəbanu, Ziba xanım ("Müsyö Jordan və dərviş Məstəli şah" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), kövhər xanım ("Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev), Çarliston ("Hicran", dramaturq Sabit Rəhman və bəstəkar Emin Sabitoğlu) kimi rəngarəng obrazlar oynayıb. Elmira Məhərrəm qızı İsmayılova 25 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltiflənib.

**YUNİS NURİ**
**(23.1.1878-5.1.1950)**

Qədim Azərbaycan ərazisində eyniadlı xanlığın mərkəzi olan İrəvan şəhərində peşəkar teatrın inkişafını təminatlandıranlardan biri Yunis Nuridir. O, İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaradıcısıdır. Görkəmli aktyor, bacarıqlı rejissor və yorulmaz təşkilatçı, müdrik teatr xadimi olan Yunis Nurinin milli səhnə sənətimizin inkişafında xidmətləri misilsizdir. Yunis Nuri onlarca gənci teatra cəlb edib və milli səhnəmizin pakiığını qorumaq yolunda böyük fədakarlıqlar göstərib. Teatrın inkişafında tükənməz enerji ilə, coşğun ehtirasla və alovlu məhəbbətlə çarpışıb. Həvəskar teatr truppasının Dövlət təsisatında, instutusional mədəniyyətin faktı kimi fəaliyyət göstərməsi üçün uzun illər əzmkarlıqla, təkidli israrla mübarizə aparıb və yüksək amalına nail olub.

"Nuri" səhnə təxəllüsü olan Yunis Hacı Süleyman oğlu Süleymanov 1878-ci il yanvar ayının 23-də İrəvanda doğulub. Dindar atasının tövsiyəsi ilə altı il mollaxanada oxuyub, özü də həvəs və maraqla. Ancaq bir il gimnaziyada oxumaqla və şagirdlərlə müəllimlərin birgə hazırladıqları tamaşada oynamaqla həyat yolunu dəyişib. Hətta sonralar özü truppa yığıb, teatr tamaşaları hazırlayanda əsas həvəskar qüvvələr onun gimnaziya dostları olub. O, gimnaziyada tam təhsil almayıb, ancaq müəllimlərindən ona milli və dünya ədəbiyyatına, elmə, mədəniyyətə məhəbbət bəsləmək duyğuları yadigar qalıb.

Qori Müəllimlər Seminariyasını bitirib İrəvan şəhərindəki gimnaziyaya müəllim göndərilən mütəfəkkir maarifçi Firudin bəy Köçərli on il (1886-1896) bu şəhərdə teatr sənətinin tərəqqisində möhtəşəm işlər görmüşdür. Maarifçi Eynalı bəy Sultanov rəmzi mənada estafeti ondan alaraq ömür yolunun müəyyən hissəsini İrəvanda teatr sənətinin çiçəklənMəsmə sərf etmişdir. Onlardan sonra bu müqəddəs yolu davam etdirənlərdən, varlığını teatr sənətinə bağlayanların ən öncülü məhz Yunis Nuri olmuşdur.

Yunis Nuri səhnəyə ilk dəfə 8 dekabr 1890-cı ildə Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında Şərəbanu xanım rolu ilə çıxmışdır. Bununla da səhnə sənətinin sehrinə düşüb bütün taleyini onun çiçəklənməsinə yönəldən Yunis Nuri aktyor və rejissor kimi fəaliyyət göstərmişdir.

İrəvan teatrının formalaşmasında bir müddət bu şəhərdə işləmiş nasir-dramaturq Cəlil Məmmədquluzadə, naşir Məmmədağa Şahtaxtlı (Şahtaxtinski), buraya qastrol səfərlərinə gələn Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Sidqi Ruhulla ilə çiyin-çiyinə çalışmışdır.

Yunis Nuri özünün müstəqil tamaşalarından olan Vasaq Mədətovun "Qırt-qırt" vodevilini 1903-cü ildə hazırlamışdır. Tamaşa Pənah xan Makinskinin evində ailə və ailənin simsarları üçün göstərilmişdir. Tamaşanın xoş səsi-sorağı bütün İrəvana yayılmışdır və ona görə şəhərin sözükeçən, sayılan adamları Pənah xandan xahiş etmişdilər ki, tamaşanı sarayın böyük otaqlarından birində və ya həyətdə təkrar oynanılmasma icazə versin. İncəsənətə rəğbətli olan Makinski razılıq verib və tamaşa daha böyük məhəbbətlə qarşılandığı üçün Yunis Nurinin inamı tam qətiyyətlənib. Bundan sonra o, Nikolay Qoqolun "Müfəttiş" komediyasını hazırlayıb.

1905-1907-ci illərdə "şeytan" əməli ilə məşğul olub, "kafirlik", "mütrüblük" etdiyinə görə iki dəfə ciddi bədən xəsarəti alması da Yunis Nurini amalından döndərə bilməyib. Elə bu arada Hüseyn Ərəblinskinin İrəvana gəlməsi və qastrol tamaşalarının uğurlu nümayişi, həmin əsərlərdə yerli həvəskarların çıxışı şəhərdəki azərbaycanlı artistlərə daxili mətinilk gətirib, mənəvi ruh verib.

Yunis Nuri gündüzlər qara fəhləlik edir, qəzet satır, axşamlar isə həvəskarları başına toplayıb tamaşalar göstərirdı. O, dram kollektivi ilə Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri", "Molla İbrahimxəlil kimyagər", Nəriman Nərimanovun "Nadanlıq", "Nadir şah", "Dilin bəlası" ("Şamdan bəy"), Nikolay Qoqolun "Müfəttiş", Sultanməcid Qənizadənin "Xor-xor", "Dursunəli və ballıbadı", "Axşam səbri xeyir olar", Rəşid bəy Əfəndiyevin "Qan ocağı", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "Məşədi İbad", Zülfuqar bəy Hacıbəyovun "Əlli yaşında cavan", Namiq Kamalın "Vətən", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", "Ev tərbiyəsinin bir şəkli", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Ac həriflər", Aleksandr Ostrovskinin "Kimdir müqəssir?" əsərlərini tamaşaya hazırlayıb.

1918-ci ildə erməni daşnakiarının Bakıda, Şamaxıda, Qarabağda, eləcə də İrəvanda törətdikləri vəhşi qırğınlar zamanı Yunis Nuri İranın Xoy şəhərinə mühacirət edib. Xoşbəxtlikdən İrəvandakı dram truppasının əksər üzvləri də ervvəni vəhşiliklərindən başlarını götürüb bura qaçmışdılar. Yunis Nuri dəstəni burda da bir yerə toplaya bilib və repertuarlarındakı kiçik həcmli məsxərələri, tədbil olunmuş vodevilləri yerli camaata göstəriblər. Hətta Xoy gənclərindən müəyyən teatr həvəskarlarını da truppaya cəlb ediblər.

Siyasi hadisələr səngiyəndən, Ermənistanda Sovet hakimiyyəti qurulandan sonra Yunis Nuri 1922-ci ildə doğma Vətənə qayıdıb. Bala Əfəndiyevlə birlikdə İrəvanda dram dərnəyi yaradıb. Bir il sonra gündəngünə genişlənən dram dərnəyinin yaradıcılıq nizamnaməsi rəsmi dairələrdə təsdiqlənib. Dərnəyə rəhbərliyi Yunis Nuri edirdi. Kollektivin dövlət teatrına çevrildiyi günədək o, əvvəllər hazırladığı əsərlərin əksəriyyətinə və həmçinin Mirmahmud Kazımovskinin "Nə qanır, nə qandırır", Süleyman Sani Axundovun "Laçın yuvası", "İki yol", Mirzağa Əliyevin "Orada elə, burada belə", Süleyman Rüstəmin "Çimnaz xanım yuxudadır", Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qəmbər"), Jan Batist Molyerin "Zorən təbib", Hüseyn Cavidin "Şeyda" və "İblis" pyeslərini hazırlayaraq tamaşaçılara göstərib.

1928-ci il martın 15-də Ermənistan hökumətinin əmri ilə İrəvan Dövlət Azərbaycan Səyyar Teatrı yaradılıb. Bütün təşkilati işlər, truppanın toplanması, repertuarın müəyyənləşdirilməsi, texniki təchizat və sairə məsələlərin həlli Yunis Nuriyə tapşırılıb. O, bu işi ləyaqət və vicdanla, sənətə ehtiram və məhəbbətlə hasilə gətirib. Həmin ilin 14 aprelində teatr Jan Batist Molyerin "Zorən təbib" komediyası ilə pərdələrini açıb. Yunis Nuri yenə də Təbib İlyas rolunda səhnəyə çıxaraq alqışlara layiq uğur qazanıb.

Yunis Nuri xüsusi teatr təhsili görməmişdi. Səhnəyə məhəbbət, eşq, alov, ehtiras onun yaradıcılıqla yoğrulmuş varlığındaydı. Bu eşq, bu ehtiras isə ona tanrı fitrətindən sanki pay verilmişdi və o, fəhmlə sənətdə parlaq qələbələr qazana bilirdi. Xaraktercə qətiyyətli, məqsədi uğrunda inadcıl, səmimi, mehriban, yumşaq təbiətli insan idi. Teatrın bütün kollektivi ona "Yunis əmi" deyə müraciət edirdi.

Dram dəstəsinin həvəskarlıq fəaliyyəti dövründə, xüsusən İrəvan DADT-də Yunis Nuri bir sıra rollar oynayıb. Ozünün daha çox dəyərləndirdiyi və şövqlə ifa etdiyi rollar bunlardır: Xlestakov ("Müfəttiş", Nikolay Qoqol), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), Fərhad, Həsən kişi ("Bəxtsiz cavan" və "Ac həriflər", Əbdürrəhim bəy Haqverdıyev), Hacı Qəmbər ("Yağışdan çıxdıq, yağmura düşdük", Nəcəf bəy Vəzirov), Təbib, Qazı ("Zorən təbib" və "Cancur Səməd", Jan Batist Molyer), Atakişi, İmamverdi, Həsən, Aftil, Yanardağ ("Sevil", "1905-ci ildə", "Yaşar", "Almaz" və "Od gəlini", Cəfər Cabbarlı), Rayçaran ("Hind qızı", Əbdülhəq Hamid), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Hacı Salah ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), Qratsiano ("Otello", Vilyam Şekspir), Soltan bəy ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov).

Qədim İrəvan şəhərinin özündə, Göyçə, Basarkeçər, Qarakilsə, Qaranamaz, Dilican, Vedibasar, Uluxanlı... və bu kimi Azərbaycan mahallarında teatr sənətinin geniş miqyaslı fəaliyyəti sənət fədaisi Yunis Nurinin adı ilə sıx bağlıdır. Səhnəni həyat amalına çevirmiş Yunis Nuri İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1949-cu ildə müvəqqəti bağlanana qədər səhnədən ayrılmayıb.

Aktyor İrəvanda istehsal olunmuş "Zəngəzur" (Əhməd), "Anahid" (Kişi), "Göyçə gölü balıqçıları" (Kəndli), "Dağ marşı" (Həsən), "Xaspuş" (Ata) və sair filmlərə çəkilib.

Azərbaycan teatr sənətinin İrəvan şəhərində inkişafındakı xidmətlərinə görə Yunis Nuri 1936-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

Yunis Nuri 5 yanvar 1950-ci ildə İrəvanda dünyasını dəyişib.

## AŞQABAD DÖVLƏT AZƏRBAYCAN TEATRI

Türkmənistan Respublikasının paytaxtı Aşqabad şəhərində Azərbaycan teatrının fəaliyyətini iki mərhələyə bölmək olar. Birinci mərhələ ayrı-ayrı teatr dəstələrinin yaradıcılıqlarında təcəssüm tapıb (1904-1931).

Keçən əsrin birinci qərinəsinin sonlarında müxtəlif həvəskar teatr dəstələri bir truppada birləşərək dövlət statusu almaq uğrunda yorulmadan, məqsədyönlü səy və ehtirasla mübarizə aparıblar. 1932-ci ildə teatr xadimlərinin arzuları həyata keçib. Kollektivin dövlət təsisath sənət ocağı kimi fəaliyyət göstərdiyi dövr (1932-1940) ikinci mərhələdir.

Aşqabad şəhərinin bünövrəsi 1889-cu ildə əsasən azərbaycanlılar tərəfindən qoyulub və "Eşqabad" adlanıb. Bu şəhər Kaspi-Daşkənd dəmir yolunun çəkilməsi ilə əlaqədar olaraq, magistiral xəttin üstündə, kiçik bir aulun yerində salınıb. Tezliklə buraya İrandan, Qarabağdan, Şirvandan, Gəncədən soydaşlarımız köçüblər. Əsasən ticarətlə və sənətkarlıqla məşğul olan azərbaycanlılar ana dilində və türk-rus adında məktəblər açıblar. Belə bir münbit zəmində Azərbaycan milli mədəniyyətinin müxtəlif sahələrinin inkişafına da şərait yaranıb. Daha çox isə musiqi və teatr sənətləri inkişaf tapıb.

Aşqabad şəhərində Azərbaycan dilində ilk teatr tamaşası hazırda oranın əsas sakinləri olan türkmənlərin teatrının təşəkkülündən iyirmi üç il əvvəl göstərilib. Bu tarixi mədəniyyət hadisəsi 1904-cü il Novruz bayramı ərəfəsində, su çərşənbəsi günündə baş verib. Şəhər ziyalısı Əsgər bəy və qocaman müəllim Əkbər bəy Tahirov qardaşlarının təşəbbüsləri, təşkilatçılıqları və rəhbərlikləri, Aşqabad məktəbi şagirdlərinin yaxından iştiraki ilə tamaşa göstərilib. Əkbər bəyin təklifi ilə tamaşa üçün dramaturq Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qəmbər") komediyası seçilib. Tamaşa Aşqabadda kütləvi tədbirlər keçirmək üçün ən əlverişli yer sayılan Dobrojanski sirkinin binasında göstərilib. Bu binaya xalq arasında "Padşahlıq sirki" də deyilirdi.

Tamaşaya azərbaycanlılarla yanaşı, digər millətlərin ziyalıları da gəlmişdilər. İlk teatr tamaşası gözlənildiyindən də çox uğur qazandı və bundan ruhlanan həvəskarlar bir müddət sonra Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" məsxərəsmi hazırladılar. Az sonra Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi oynanıldı.

Qısa müddətdə Tahirov qardaşlarının ətrafına çoxlu teatr həvəskarı cəmləşdi və onlar, əsasən, Novruz, Qurban, Orucluq... bayramlarında tamaşalar göstərməyi ənənəyə çevirdilər. Bu işdə müəllimlər və şagirdlər daha fəal çalışırdılar. Mümtaz Əsgərov (məşhur ədəbiyyatşünas Salman Mümtaz), Məcid Əfəndiyev, Cəfər bəy Tahirov, Əli Məmmədov kimi ziyalılar səhnə həvəskarlarına yaxından qayğı göstərir və özləri də hazırlanan tamaşalarda aktyorluq edirdilər. Onların təşəbbüsü ilə osmanlı ədibi Namiq Kamalın "Vətən" ("Vətən, yaxud Silistirə") dramı yerli teatrsevərlərə göstərilib.

1908-ci ildən başlayaraq Aşqabadda teatr həvəskarları "Firudini" məktəbi yanında truppa kimi formalaşaraq, daha səmərəli fəaliyyətə başlayıblar. Tədricən truppada peşəkar aktyorluğa meyil göstərən bacarıqlı və istedadlı gənclər toplaşıblar. Hazırlanan tamaşaların əsasını Mirzə Fətəli Axundzadənin komediyaları, Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", "Hacı Qəmbər", "Ev tərbiyəsinin bir şəkli", "Daldan atılan daş topuğa dəyər", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar", "Ac həriflər", "Pəri cadu", Rəşid bəy Əfəndiyevin "Saqqalın kəraməti", "Qonşu qonşu olsa, kor qız ərə gedər", Sultanməcid Qənizadənin "Xor-xor", "Dursunəli və ballıbadı", Nəriman Nərimanovun "Nadir şah", "Şamdan bəy", Ceyhun Hacıbəylinin təbdilində İvan Turgenevin "Pulsuzluq", yerli, müəllim Yusif Heydərzadənin "Vəfalı Şərəf", "Kəbinim halal, canım azad", Rza Zaki Lətifbəyovun "Köhnə Türkiyə" əsərləri təşkil edirdi. Həvəskarlar Üzeyir bəy və Zülfüqar bəy Hacıbəyov qardaşlarının opera və operettalarını da səylə oynayırdılar.

Bakıda məşhur olan Hüseyn Ərəblinski, Ələkbər Hüseynzadə, Sidqi Ruhulla, Abbasmirzə Şərifzadə, Şura Olenskaya, Cəlil Bağdadbəyov, Əhməd Qəmərli, Əhməd Anatollu kimi aktyorların Aşqabada müxtəlif illərdəki qastrol səfərləri burada teatrın daha geniş miqyasda fəaliyyətinə təkan verib. Aşqabadın teatr fədailəri Orta Asiyanın Mərv, Taxtabazar, Firuzə, Bayraməli, Qızılarvad, krasnavodsk, Buxara, Cərco şəhərlərində də teatr tamaşaları göstərir və bu yerlərdə azərbaycanca teatr dərnəkləri yaradırdılar.

1916-1920-ci illərdə Aşqabadda "Firudini" truppası ilə yanaşı, "Müzəffəri" məktəbi ətrafında birləşmiş teatr dəstəsi də səmərəli çalışıb. 1919-cu ildə şəhərin əsas teatr qüvvələri birləşərək "Hüseyn Ərəblinski adına Azərbaycan musiqi-dram dərnəyi" (qısaca "Ərəblinski truppası" adlanıb) yaradıblar. Eyni zamanda "5 nömrəli Azərbaycan dram dəstəsi", "Mərifət" truppası ətrafında qabiliyyətli teatr həvəskarları cəmləşiblər və onlar teatrın fəaliyyət coğrafiyasını qat-qat genişləndiriblər.

Bu teatr dəstələrində Əziz Cavadov, Sultan Muradov, Həbib Məlikov, Qulam Məmmədli (Makedonski), Rzaqulu Abdullazadə, Mirzə Səmədov, Yədulla Rzayev, Ağabala Həbibov, Mehdi Mehdiyev, Əta (Ətəulla) Kazımovski, Aslan Hacıyev kimi kifayət qədər səhnə təcrübəsi toplamış teatr həvəskarları toplaşmışdılar.

Onlar teatr dəstələrinin sabit repertuarı uğrunda səylə çalışır, milli dramları, faciələri, komediyaları, opera və operettaları oynamaqla bərabər, tərcümə əsərlərini, təbdil və iqtibasları da

tamaşaya hazırlayırdılar. Maraqlı hadisədir ki, Hüseyn Cavidin "İblis" və "Şeyda" faciələri, Cəfər Cabbarlınm "Nəsrəddin şah" dramı İlk dəfə 1919-cu ildə məhz Aşqabadda tamaşaya qoyulub. "İblis" faciəsi, ümumiyyətlə, Cavidin ilk dram əsəri Bakıda birinci dəfə 1920-ci ilin dekabrında səhnə həyatı qazanıb.

Aşqabad Azərbaycan Teatrı 1920-1931-ci illərdə özünün daha əzəmətli yaradıcılıq mərhələsini yaşayıb. Tamaşalar Dobrojenski sirkində, "Sport" klubunda (sonralar "Şura teatrı" adlanıb) göstərilirdi. Repertuarın əsasını Mirzə Fətəli Axundzadənin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin pyesləri, Üzeyir bəy Hacıbəyovun operaları və operettaları ilə yanaşı, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Süleyman Sani Axundovun müxtəlif janrlı əsərləri təşkil edirdi. Dünya ədəbiyyatından Jan Batist Molyerin, Nikolay Qoqolun, Vilyam Şekspirin, Fridrix Şillerin yaradıcılığı da repertuar tərtibində diqqət mərkəzində idi.

Aktyorların sırasına Əbdüləli Ələkbərov (Bosforski), Fəridə Mustafina, Klavdiya Həbibova, Əsgər Babayev, Hüseyn Həsənov, Yaqub Nasirli (o, pyeslər də yazıb), Xavər Nasirli, Həyat Musayeva, Hilal Qəmbərov, Əkbər Əliyev, Bəhram Kərimov da daxil olmuşdular. Yerli ziyalı Sabit Manafzadə teatr dəstələri üçün "Şərq", "Talan-talan", "Münafiqlər", "Divan" pyeslərini yazmışdı və özü həm rejissorluq, həm də aktyorluq etmişdir.

1931-ci ildən azərbaycanlı teatr həvəskarları, əsasən, bir truppada cəm olaraq kollektivə dövlət statusu almaq üçün ciddi repertuar qurmağa başladılar. Dəstənin adı afişa və tamaşa proqramlarında Aşqabad Türk (Azərbaycan - **İ.R.**) Dramı (ATD) adı ilə təqdim olunurdu. Kollektiv il ərzində beşdən çox premyera oynamışdı. Bir il sonra isə Türkmənistan Maarif Komissarlığı nəzdində Aşqabad Dövlət Azərbaycan Teatrı açmaq qərara alındı. Bakıdan Milli Dram Teatrının məşhur aktyoru Rza Əfqanlı kollektivə baş rejissor dəvət olunmuşdu. O, Aşqabada gəlincə quruluşçu rejissorluğu Rzaqulu Abdullazadə, Əsgər Babayev və Əziz Cavadov ediblər.

Truppa yerli həvəskarlardan təşkil edildi və Bakı Teatr Məktəbinin bir neçə məzunu da buraya göndərildi. Kollektivin repertuarında Cəfər Cabbarlının "Almaz", "Sevil", "1905-ci ildə", "Yaşar", Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad", "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", konstantin Trenyovun "Düşmənlər" ("Lyubov Yarovaya"), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", Vano Mçedaşvilinin "Qaçaq Kərəm" əsərlərinin tamaşaları vardı. Buna baxmayaraq, kollektiv dövlət statusu almaq cəhdində teatrın ilk tamaşası üçün Cəfər Cabbarlının "Almaz" (quruluşçu rejissor Rzaqulu Abdullazadə) və Şamaxı sakini Aleksandr Şirvanzadənin "Namus" dramlarını hazırladı (quruluşçu rejissor Əziz Cavadov).

Teatr öz pərdələrini 1932-ci il noyabrın 27-də "Namus" tamaşası ilə açıb. Tamaşada əsas qadın rollarını teatra təzəcə qəbul olunmuş aktrisalardan Nərgiz Yusifova, Tənzilə Dadaşova və Nazənin Rzayeva oynayıblar.

Sənət ocağının adı afişalarda belə verilirdi: **Az Millətlər Dövlət Teatrosu** ("Natsmen" teatrı). Kollektiv bu adla bir neçə il işlədi. "Az millətlər evi" ("Natsmen evi") binası teatnn sərəncamına verildi. Bu binanın həm "qış salonu", həm də "yay salonu" vardı. Yay aylarında tamaşalar yay salonunda və şəhər bağında oynanılırdı.

Rza Əfqanlı Aşqabadda bir il baş rejissor kimi çalışıb və bu müddət ərzində Cəfər Cabbarlının "Almaz", "Yaşar", "1905-ci ildə", "Sevil", Hüseyn Cavidin "Şeyx Sənan", Vilyam Şekspirin "Otello", Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm", "Leyli və Məcnun", "Arşın mal alan", "Məşədi İbad", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" pyeslərinə, operalarına və operettalarına maraqlı quruluşlar verib.

1934-cü ilin noyabrında isə baş rejissorluq vəzifəsinə birilliyə yenə Bakıdan Yusif Yulduz dəvət edilib. Bakıda, Naxçıvanda, İrəvanda, Tiflisdə maraqlı tamaşalar hazırlamış rejissor Aşqabadda Cəfər Cabbarlının "Od gəlini", fransız dramaturqu Jan Batist Molyerin "Cancur Səməd", Osmanlı ədibləri Əbdülhəq Hamidin "Hind qızı", Şəmsəddin Saminin "Dəmirçi Gavə", türkmən Ata Niyazovun "Qızıl orden" əsərlərini tamaşaya hazırlayıb.

Bir ildən sonra Yusif Yulduzun ezamiyyət müddəti sona çatıb və o, Bakıya qayıdıb. Teatra baş rejissor Aşqabad Dövlət Rus Dram Teatrında işləyən Yakov Feldman təyin olunub. Onun ən maraqlı quruluşları Fridrix Şillerin "Qaçaqlar", Valentin katayevin "Çiçəklər yolu", Boris Lavrenyovun "Hücum" dramlarına verdiyi səhnə təfsirləri sayılır.

1935-1936-cı illərdə teatrın repertuarında mühüm yer tutan əsərlər arasında aktyor və rejissor İbrahim Helminin quruluş verdiyi "Arşın mal alan", "Leyli və Məcnun", Həsən Qafarovun hazırladığı "Arşın mal alan", "Evliykən subay" (Zülfüqar bəy Hacıbəyov) tamaşaları da olub.

1935-ci ildən kollektivin adı rəsmi olaraq belə yazılıb: **Aşqabad Dövlət Türk Teatrı.** 1937-ci ildə teatr Yakov Feldmanın quruluşunda Mirzə İbrahimovun "Həyat" dramının tamaşasını repertuara daxil edib. Tamaşanın premyerası noyabrın 5-də oynanılıb. Həmin gündən isə sənət ocağı **Aşqabad Dövlət Azərbaycan Opera və Dram Teatrı** adını daşımağa başlayıb.

Aşqabad teatrı 1938-ci ildə Müslüm Maqomayevin "Şah İsmayıl" (quruluşçu rejissor Bakıdan dəvət edilmiş Soltan Dadaşov idi), Jan Batist Molyerin "Meşşan dvoryanlıqda" (quruluşçu rejissor Yakov Feldman), Sandro Şanşiaşvilinin "Anzor" (quruluşçu rejissor Əsgər Babayev), Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (quruluşçu rejissor Ağdam teatrından dəvət edilmiş Heydər Şəmsizadə olub), 1939-cu ildə Üzeyir bəyin "Koroğlu" (rejissor Yakov Feldman) əsərlərinin tamaşaları ilə yeni-yeni sənət nailiyyətləri qazanıb.

Repertuarında opera və operettalar əsas yer tutan sənət ocağının adı 1939-cu ildə yenə dəyişdirilib. Bu dəfə afişa və proqramlarda kollektiv **Aşqabad Dövlət Musiqi Teatrı** adı ilə təbliğ olunub. 1940-cı il mart ayının 31-də teatr "Arşın mal alan" operettasını oynayıb və bununla da özünün dövlət təsisatlı fəaliyyətinə son qoyub. Bu kollektivin güclü aktyor və vokalçı sənətkarlardan ibarət güclü truppası əsasında Türkmənistan Dövlət Opera Teatrı yaradılıb.

Bundan sonra azərbaycanlı teatr sənətkarlarının bir qismi Türkmənistanın müxtəlif teatrlarında işləyiblər. Bir qrup isə Aşqabadda "Xalq teatrı" yaradaraq, uzun illər orada Azərbaycan dilində tamaşalar oynayıblar. Bu işdə onlara milliyyətcə azərbaycanlı olan, Türkmənistanın xalq yazıçısı, dramaturq Hüseyn Muxtarov da yaxından köməklik göstərib.

Aşqabad teatrının rəsmi dövlət statusunda fəaliyyət göstərdiyi müddətdə yuxarıda adları çəkilən sənətkarlardan əlavə xeyli aktyor və aktrisa da truppanın üzvü olublar. Onlardan Rəmziyyə Veysəlovanın (sonralar Gəncədə xalq artisti olub), onun əri Bəhram Əfəndiyevin (xeyli tamaşaya bədii tərtibat da verib), Qulam Ağayevin, Məmmədsadıq Ələkbərovun, Abdulla Məhərrəmovun, Hüseynağa Həsənovun, İsmayıl Səlimovun, İsmayıl Rəhimovun, Rəhim Rəhimovun, Miri Miribəybnin, Yəhya İsmayılovun, Firuzə Nəcəfovanın, Həsən Şirinovun, Münəvvər Cahanbaxışovanın, Blkə Ağayevanın, Sona Kərimovanın, Məhbubə Həsənovanın, İsgəndər Səmədovun, milyonçu Musa Nağıyevin oğulluğu Fərəc Nağıyevin adlarını çəkmək olar. İstedadlı gənclərin teatra cəlb olunmasında Türkmənistanın əməkdar artisti fəxri adı ilə təltif olunmuş Əsgər Babayev böyük cəfakeşlik edib, səmərəli xidmətlər göstərib.

Aşqabadda müxtəlif vaxtlarda Azərbaycan dilində nəşr olunmuş "Zəhmət", "Sədayi-füqəra", "Qızıl yıldız", rus dilində çıxan "Türkmenskaya iskra", "Aşxabad", "Zakaspiyskoye", türkməncə "Türkmənistan", özbəkcə "Türküstan" qəzetləri, eləcə də Bakı, Moskva, Daşkənd, Tehran ("Sədayi-İran") şəhərlərinin müxtəlif dövri mətbuat orqanları teatr barədə dəyərli resenziyalar, elmi-nəzəri məqalələr, geniş informatik məlumatlar dərc etmişlər.

## AŞQABAD TEATRINDA AKTYOR VƏ REJİSSOR YARADICILIĞI

Truppanın fəaliyyəti 1910-cu ildən güclənməyə və əhatə dairəsi genişlənməyə başlayıb. Bununla bağlı olaraq dəstəyə təzə-təzə həvəskarlar daxil olublar, tamaşaların göstərilməsində fasilələr qısaldılıb. Sonralar ədəbiyyatşünas kimi şöhrətlənmiş Salman Mümtaz (Əsgərov),

müəllimlər Yusif Heydərzadə, Məcid bəy Əfəndiyev aktyor və rejissorluğa başlayıblar. 1913-1915-ci illərdə oynanılan tamaşaların əksəriyyətini Muxtar Vəliyev hazırlayıb. O, Haşım bəy Vəzirovun "Adı var, özü yox", Rəşid bəy Əfəndiyevin "Qonşu qonşu olsa kor qız ərə gedər", Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər", "Bəxtsiz cavan", "Yeyərsən qaz ətini, görərsən ləzzətini", Rza Zaki Lətifbəyovu "Köhnə Türkiyə", Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay", Sultanməcid Qənizadənin "Xor-xor", "Dursunəli və ballıbadı" dram, komediya və məsxərələrini tamaşaya hazırlayıb.

On ilə yaxın dövrdə (1925-ci ilə qədər) Qulam Məmmədli (Makedonski), dramaturq-aktyor Yaqub Nasirli, Əziz Cavadov və əsasən Rzaqulu Abdullazadə aktyorluqla yanaşı, rejissorluğa da xüsusi diqqət veriblər. Həmin dövrdə Bakıdan gəlmiş aktyor Ələkbər Hüseynzadə kollektivdə Hüseynqulu Sarabskinin "Cəhalət", Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan", Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" pyeslərinə səhnə quruluşları verib.

Rzaqulu Abdullazadənin səhnə təfsirində göstərilən "Bəhlul Danəndə" (Əhməd Qəmərli), "Əsli və Kərəm" (Üzeyir bəy Hacıbəyov), "Müsyö Jordan və dərviş Məstəli şah" (Mirzə Fətəli Axundzadə), "Aydın" və "Nəsrəddin şah" (Cəfər Cabbarlı), "Cənab de Parsonyak" (Jan Batist Molyer), "Pəri cadu" (Əbdürrəhim bəy Haqverdiyev), "Ölülər" (Cəlil Məmmədquluzadə), "Şeyda", "Maral", "Şeyx Sənan", "İblis" (Hüseyn Cavid), "Hacı Qəmbər" ("Nəcəf bəy Vəzirov"), "Leyli və Məcnun", "Əsli və Kərəm", "Məşədi İbad" (Üzeyir bəy Hacıbəyov) tamaşaları teatr dəstəsinin formalaşmasında, peşəkarlıq yönündə inkişafında muühüm rol oynayıb. Onun Şeyda ("Şeyda"), İsgəndər ("Ölülər"), Süleyman ("Arşın mal alan"), Fərhad ("Nəsrəddin şah") rolları yaradıcılıq nailiyyətləri sayılıb.

Teatrın dövlət təsisatına keçməsi ərəfəsindəki beş ildə Əsgər Babayev, Əsgər Əsgərov, Əziz Cavadov, Bakıdan gələrək bir müddət Aşqabadda çalışan Əhməd Səfayi müəyyən rejissorluq fəaliyyəti göstərmişlər.

Teatr həvəskarlarının 1904-1931-ci illərdəki fəaliyyətləri dövründə Rzaqulu Abdullazadə ilə yanaşı, Əziz Cavadov, Cəfər Tahirov, Qulam Məmmədli, Klavdiya Həbibova, Ağabala Həbibov, Yədulla Rzayev, Yəhya İsmayılov, Mirzə Səmədov, Yaqub Nasirli, Əta Kazımov səmərəli yaradıcılıq yolu keçiblər.

Əziz Cavadov eyniadlı əsərlərdə İblis, Aydın, Nəsrəddin Şah, Hacı Həsən ağa ("Ölülər"), Soltan bəy ("Arşın mal alan"), Turxan ("Maral"), Klavdiya Həbibova Nerina ("Cənab de Parsonyak"), Humay ("Maral"), Jakalina ("Zorən təbib", Jan Batist Molyer), Ağabala Həbibov Məsud ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Valer ("Zorən təbib"), Mirzə Mülküm xan ("Nəsrəddin şah"), Cəfər Tahirov Mirzə Sadıq ("Nəsrəddin şah"), Şeyx Nəsrulla ("Ölülər"), Orot ("Cənab de Parsonyak"), Səyyah ("Əmir Əbül Üla"), Tibo ("Zorən təbib"), Qulam Məmmədli Rauf ("Şeyda"), Bəypolad ("Maral"), Mirzə Rza ("Nəsrəddin şah"), Müəllim ("Ölülər"), Əbu Dəyyab ("Əmir Əbül Üla", Yədulla Rzayev Məsud ("Şeyda"), Çingiz bəy ("Maral"), Luka ("Zorən təbib"), Əbül Üla ("Əmir Əbül Üla"), daha çox qadın rollarında səhnəyə çıxan Yəhya İsmayılov Kərbəlayı Fatma ("Ölülər"), Telli ("Arşın mal alan"), Səltənət ("Maral"), Martina ("Zorən təbib"), Mirzə Səmədov Cənab de Parsonyak ("Cənab de Personyak") Sqanarel ("Zorən təbib"), Səlim və Aydın ("Aydın"), Yaqub Nasirli İblis ("İblis"), Fərhad ("Nəsrəddin şah"), Əta Kazımov Rəhim xan ("Nəsrəddin şah"), İbn Yəmin ("İblis") rollarını oynayıblar.

Aşqabad Dövlət Azərbaycan Teatrı kimi fəaliyyəti dövründə teatrda Əziz Cavadov, Əsgər Babayev, Rzaqulu Abdullazadə, Rza Əfqanlı, Yusif Yulduz, Əsgər Babayev, Yakov Feldman xeyli tamaşaya rejissorluq ediblər. Bakıdan dəvət olunmuş Rza Əfqanlı (1933-1934), Yusif Yulduz (1934-1935) teatrda baş rejissor kimi çahşıblar. Baş rejissor Kürsüsünü daha çox Yakov Feldman (müəyyən fasilələrlə) tutub.

Əziz Cavadovun əsas quruluşları (1932-1934): "Namus" (Aleksandr Şirvanzadə), "Qaçaq Kərəm" (Vano Mçedaşvili), "Arşın mal alan" (Üzeyir Hacıbəyov), "Hacı Qara" (Mirzə Fətəli Axundzadə), "Sevil" (Cəfər Cabbarlı).

Əsgər Babayevin əsas quruluşları: "Ölülər" (1933), "Qaçaqlar" (Fridrix Şiller. 1933), "Əsli və Kərəm" (Cəlil Məmmədquluzadə) (1935), "Anzor" (Sandro Şanşiaşvili. 1938).

Rza Əfqanlının quruluş verdiyi tamaşalar: "Sevil", "Almaz", "Yaşar", "Şeyx Sənan", "1905-ci ildə", (Cəfər Cabbarlı) "Otello" (Vilyam Şekspir), "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", "Məşədi İbad", (Üzeyir bəy Hacıbəyov) "Aşıq Qərib" (Zülfüqar bəy Hacıbəyov).

Yusif Yulduzun hazırladığı səhnə əsərləri: "Cancur Səməd" ("Vasvası xəstə". Jan Batist Molyer), "Od gəlini", "Hind qızı" (Əbdülhəq Hamid), "Dəmirçi Gavə" (Şəmsəddin Sami), "Leyli və Məcnun" (Üzeyir bəy Hacıbəyov).

Yakov Feldmanın rejissoru olduğu tamaşalar: "Məkr və məhəbbət" (Fridrix Şiller. 1935), "Çiçəklər yolu" (Valentin katayev), "Hücum" (Boris Lavrenyov. 1936), "Həyat" (Mirzə İbrahimov), "Meşşan dvoryanlıqda" (Jan Batist Molyer. 1937), "Koroğlu" (Üzeyir bəy Hacıbəyov. 1939).

ADAT-in fəaliyyəti dövründə kollektivin aktyorları N.Həsənov, Fərəc (Ələsgər) Nağıyev, Həsən Qafarov müxtəlif janrlı əsərlərə səhnə quruluşları vermişlər. Bakıdan çağırılmış Soltan Dadaşov Müslüm Maqomayevin "Şah İsmayıl" operasını (1938), Ağdam teatrından dəvət edilən Heydər Şəmsizadə "Arşın mal alan" operettasını və "Leyli və Məcnun", "Aşıq Qərib" operalarını (1939) hazırlayıblar.

Türkmənistan Respublikasının əməkdar artisti Əsgər Babayevin əsas rolları: eyniadlı əsərlərdə Qaçaq Kərəm, Şeyx Sənan, Aydın, Otello və Yaqo, Yaşar, Gavə, Anzor, Mirzə Rza ("Nəsrəddin şah"), Seyran ("Namus"), Ferdinand ("Məkr və məhəbbət"), Nofəl ("Leyli və Məcnun"), Keşiş ("Əsli və Kərəm"), Süleyman ("Arşın mal alan"), Elxan ("Od gəlini"), Balaş ("Sevil"), General Tomson ("Hind qızı"), Şahvələd ("Aşıq Qərib"), Abbas ("Həyat"), Kleont ("Meşşan dvoryanlıqda").

Həsən Həsənovun oynadığı rollar: Rüstəm ("Namus"), Əbdüləli bəy ("Sevil"), Şərif ("Almaz"), Simon ("Şeyx Sənan"), Yaqo ("Otello"), Qəhtan ("Dəmirçi Gavə"), Rəbi ("Od gəlini"), Qazqolder ("Çiçəklər yolu").

Nazənin Rzayevanın (Minayeva) səhnəyə çıxdığı surətlər: Susanna ("Namus"), Sevil ("Sevil"), Yaxşı (1905-ci ildə), Elampa ("Hind qızı"), Lautskaya ("Çiçəklər yolu"), Dorimena ("Meşşan dvoryanlıqda").

Əziz Cavadovun ifa etdiyi rollar: Barxudar ("Namus"), Rəhim xan ("Qaçaq Kərəm"), Hacı Həsən ağa ("Ölülər").

Həsən Şirinovun uğurlu rolları: Süleyman ("Arşın mal alan"), Baloğlan ("Almaz"), Şeyx Hadi ("Şeyx Sənan"), Rodriqo ("Otello"), Tom ("Cancur Səməd"), Altunbay ("Od gəlini"), Marşal Fonqalbi ("Məkr və məhəbbət"), Doktor ("Çiçəklər yolu"), Bersenev ("Hücum"), Qurban kişi ("Həyat"), Kovmi ("Meşşan dvoryanlıqda").

Firuzə Nəcəfovanın məşhur ifaları: Gülçöhrə ("Arşın mal alan"), Xanımnaz ("Almaz"), Mariya Timofeyevna ("1905-ci ildə"), Emiliya ("Otello"), Əsli ("Əsli və Kərəm"), Şahsənəm ("Aşıq Qərib"), Belina ("Cancur Səməd"), Mehri ("Dəmirçi Gavə"), Elizabet ("Hind qızı"), Xanəndə qız ("Koroğlu").

Məhbubə Həsənovanın səhnədə uğur qazandığı personajlar: Qəribin bacısı ("Aşıq Qərib"), Tilitra ("Hind qızı"), Luiza ("Məkr və məhəbbət").

Qulam Məmişovun əsas partiyaları: Əsgər ("Arşın mal alan"), Qərib ("Aşıq Qərib"), Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Fətulla xan ("Koroğlu").

İbrahim Helminin uğurlu rolları: Vəli ("Arşın mal alan"), Məcnun ("Leyli və Məcnun"), Aşıq Vəli ("Aşıq Qərib"), Hambal ("Məşədi İbad").

Nazənin Rzayevanın məlahətli səhnə surətləri: Sona ("Hacı Qara"), Sitarə ("Nəsrəddin şah"), Dezdemona ("Otello"), Sürici ("Hind qızı"), Luiza ("Məkr və məhəbbət"), Bersenevlərin qulluqçusu ("Hücum"), Atlas ("Həyat"), Leyli ("Leyli və Məcnun").

Hüseyn Həsənovun mühüm rolları: Keşiş ("Əsli və Kərəm"), Şahvələd ("Aşıq Qərib"), Zöhhak ("Dəmirçi Gavə"), Ser Borter ("Hind qızı").

Münəvvər Cahanbaxşovanın oynadığı başlıca rollar: Edilya ("Sevil"), Emiliya ("Otello"), Çoban qızı ("Əsli və Kərəm"), Qəribin anası ("Aşıq Qərib"), Anjelika ("Cancur Səməd"), Cahan xala ("Arşın mal alan"), Xubçöhr ("Dəmirçi Gavə"), Atlas ("Həyat").

Sona Kərimovanın uğurlu səhnə xarakterləri: Gülüş ("Sevil"), Sona ("1905-ci ildə"), Dezdemona ("Otello"), Qaraca qız ("Aşıq Qərib"), Telli ("Arşın mal alan" ), Gülgün ("Od gəlini"), Elampa və Sürici ("Hind qızı"), Ledi Milford ("Məkr və məhəbbət"), Sofya Petrovna ("Hücum").

Yəhya İsmayılovun peşəkar aktyor kimi rolları: Ocaqqulu ("Almaz"), Babakişi ("Sevil"), Aşıq Vəli ("Aşıq Qərib"), Sofi ("Əsli və Kərəm"), Arqon ("Cancur Səməd"), Vəli ("Arşın mal alan"), Baş möbid ("Dəmirçi Gavə"), Oddamdı ("Od gəlini"), Marşal Fonqalbi ("Məkr və məhəbbət"), Poruçik Polevoy ("Çiçəklər yolu"), Pardon Qurbanəli ("Həyat").

Rəhim Rəhimovun əsas rolları: Montano ("Otello"), Əbdüləli bəy ("Sevil"), Əbu Übeyd ("Od gəlini"), Baş vəkil ("Məkr və məhəbbət"), Qusev ("Çiçəklər yolu").

Miri Miribəylinin oynadığı rollar: Lodoviqo və Brabansio ("Otello"), Şah ("Aşıq Qərib"), Yanardağ ("Od gəlini"), Uspenski ("Hücum").

Rəmziyyə Veysəlova (Əfəndiyeva) az müddətdə maraqlı obrazlar ifa edib: Mehriban ("Dəmirçi Gavə"), Solmaz ("Od gəlini"), Sürici ("Hind qızı").

Aşqabad DAT-nin əksər aktyorları teatr bağlanandan sonra xalq teatrında və müxtəlif dram dərnəklərində çalışmaqla səhnəyə məhəbbətlərini davam etdiriblər. Əsgər Babayev xalq teatrının əsas rejissorlarından olub.

## TƏBRİZ TEATRI

İyirminci əsrin ilk illərindən başlayaraq əsasən Bakıdan və az da olsa Tiflisdən İranın müxtəlif şəhərlərinə teatr dəstələri qastrola gəliblər. Bakıdan Sidqi Ruhulla, Mirzağa Əliyev, Cəlil Bağdadbəyov, Abbasmirzə Şərifzadə, Tiflisdən Mirzəli Abbasov, Məmmədtağı Əsgərov, İbrahim İsfahanlı, Mirzəxan Quliyev, Mustafa Mərdanov, Əşrəf Yüzbaşov müəyyən dəstələrlə, ayrı-ayrı illərdə dəfələrlə Tehranda (əsasən Həsənabad məhəlləsində, şah sarayında), Təbrizdə (Rus klubunda, Cəmiyyətixeyriyyə zalında, Cədidül-ehdas xeyriyyə binasında, vəlihəd sarayında), Rəştdə (Xacə Avadis teatrında, Füqarə ocağında, Sinemayi Xurşid binasında), Ənzəlidə (Əmdiyə teatrında), Qəzvində, Xoyda, Makulda, Urmuda (Urmiyada), Culfada, Ərdəbildə, Salmasda, Ənzəlidə yerli həvəskarları da cəlb etməklə Azərbaycan dilində tamaşalar oynayıblar.

Bu binaların içərisində 1927-ci ildə tikilmiş və 700 nəfər tamaşaçı tutan "Şiri Xurşid" ("Şire Xorşid") ən böyüyü idi. Binanın parteri, iki yarusu, amfiteatrı, iyirmi lojası vardı, səhnənin dərinliyi on üç metr, eni on metr idi.

Təbriz şəhərində teatr həvəskarlarının oynadıqları ilk tamaşa 1908-ci ildə göstərilib. Mehdi xan Şəfizadə və Həsən Çörəkçi, doktor Rəhim xan, Ələkbər Bəradərən, Ələsgər xan və Ələkbər xan başda olmaqla on iki nəfər "Xəyanət" adlı tamaşa hazırlayıblar. Bu, Təbriz teatrının təşəkkül tarixi sayılır.

1909-cu ildə Sidqi Ruhulla Təbrizə qastrola gəlib. Onun yerli ziyalılarla birlikdə hazırlayıb tamaşaçılara təqdim etdiyi ilk tamaşa Hüseynqulu Sarabskinin "Cəhalət" əsəri olub. Tamaşa fransız katoliklərinin klubunda göstərilib. İkinci tamaşa Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsi olub və "Bağ-meşə qapısı" adlanan məhəllədə yan-yana sıralanmış dükanların üstündəki böyük otaqda oynanılıb. Həmin səfərdə Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", Jan Batist

Molyerin "Zorən təbib" əsərləri də göstərilib. Bundan sonra Təbrizdə yerli ziyalılar teatr sənətinə daha böyük maraq göstəriblər.

1910-1919-cu illər arasında ayrı-ayrı sənətkarlar tərəfindən İrana təşkil olunan qastrollar zamanı daha çox Mirzə Fətəli Axundzadənin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun faciə və komediyaları, Sultanməcid Qənizadənin, Mirmahmud Kazımovskinin, Hüseynqulu Sarabskinin kiçikhəcmli ibrətamiz məzhəkələri, Üzeyir bəy Hacıbəyovun, Zülfüqar bəy Hacıbəyovun opera və operettaları, osmanlı yazıçıları Şəmsəddin Saminin, Əbdülhəq Hamidin qəhrəmanlıq mövzusundakı pyesləri, təbdil edilmiş vodevillər oynanılıb.

İrana tez-tez qastrola gələn Sidqi Ruhulla 1916-cı ildə Təbrizə səfəri zamanı aktyorluqla qazandığı pula şəhərdə teatr tamaşaları göstərilməsi üçün "Xeyriyyə" binası tikdirib.

Belə qastrolların sayəsində İranda azərbaycanlılar arasında teatr sənətinə maraq get-gedə artıb. Tədricən azərbaycanlıların yaşadıqları böyük şəhərlərdə teatr dəstələri yaranıb. Həvəskar aktyorlardan Mehdixan Şərifzadə, Şeyx Həsən Çörəkci, doktor Rəhimxan, Ələsgər xan, Ələkbər Bəradərən, Məhəmməd Vahabzadə, İftixar, İsmayıl Vahabzadə, Səid Müvəyyidzadə, Xəlil Bəradəri, Hacı xan Çələbi, Hilal Nasiri, İsmayıl Piran, Cabbar Bağçaban, Cəfər Ədib, İsmayıl Muzduri, Hüseyn Ərəboğlu, Abbasəli Əsədi, Əhməd Vəkili göstərilən tamaşalarda daha uğurla çıxışlar ediblər. Teatr tamaşalarının göstərilməsində Mehdixan Şərifzadə aktyor və rejissor kimi böyük fədakarlıq göstərib, öz evində məşqlər aparıb.

Təbrizdə daha səmərəli fəaliyyət göstərmiş əsas teatr truppaları aşağıdakılardır.

**"Azərbaycan artistləri dəstəsi" (1909-1921).** Yaradıcısı və rəhbəri Mehdixan Şərifzadə olub. Onun yaratdığı ən məşhur səhnə obrazları Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar" və "Pəri cadu" faciələrində Nəcəf bəy, Qacar və Qurban rolları sayılır.

**"Cəmiyyəti-islahi-tərəqqiyi-maarifi-Azərbaycan" (1921-1925).** Təşkilatçısı və rəhbəri Müciriddövlə idi.

**"Ariyen" ("Ariya Nijad". 1922-1941)**. Rəhbəri Əbülqasım Lahuti olub. O, rejissor kimi başqa teatr dəstələrində də çahşıb, səhnəyə xeyli həvəskar cəlb edib.

**"Ayineyi ibrət" (1924-1930).** Rəhbəri və rejissoru Mehdi Zahiri olub.

**"Dram Təbriz" (1929-1935).** İlk rəhbəri Rza (Rza xan) Quluzadə Şərqlidir. Rza Quluzadə kiçik pyeslər yazıb və özü tamaşaya hazırlayıb. Sonralar o, Bakıda və Aşqabadda yaşayıb, orada da teatr sənəti ilə ciddi məşğul olub.

Təbrizin "Ariyen" truppası öz fəallığı və repertuarının əlvanlığı ilə seçilib. Truppa Üzeyir bəy Hacıbəyovun "Ər və arvad" ("Kəblə Qubad" adı ilə), "Arşın mal alan", "Məşədi İbad" operettaları, "Leyli və Məcnun", "Əsli və Kərəm", Şah Abbas və Xurşid banu" operaları ilə Təbrizdən əlavə, Tehran, Xoy, Məşhəd, Rəşt, Urmu (Urmiya) şəhərlərində də tamaşalar verib.

1921-ci ildə Cəlil Məmmədquluzadə müvəqqəti Təbrizdə yaşayanda yerli teatr truppasına köməklik göstərib. O, həvəskar aktyorlarla özünün "Ölülər" pyesini tamaşaya hazırlayıb. Baş rolları Böyük xan Naxçıvanlı (İsgəndər) və Əli Azəri (Şeyx Nəsrulla) oynayıblar. Bundan sonra Təbriz truppasının fəaliyyətində bir qədər də canlanma başlayıb.

Təbriz səhnəsində 1928-cı ildə Mirzə Bağır Hacızadənin rejissorluğu ilə göstərilən "Şeyx Sənan" (Hüseyn Cavid) məhəbbət faciəsinin tamaşası truppaya yeni nailiyyət qazandırıb. Şeyx Sənanı rejissor özü ifa edib. Bir il sonra "Ayineyi ibrət" truppası ədibin "İblis" faciəsini Rza Quluzadə Şərqlinin rejissorluğu ilə tamaşaçılara göstərib. 1936-cı ildə "İblis" Böyükxan Naxçıvaninin (Naxçıvanski və Naxçıvanlı kimi də yazılıb) rejissorluğu ilə yeni quruluşda oynanılıb. 1945-ci ildə "İblis" faciəsi Əli kənaninin rejissorluğunda, rəssam Vəli Xakdanın bədii tərtibatında tamaşaçılara təqdim olunub. Əsas rolları Ərəboğlu və Nəriman İbrahimzadə (İblis), Leyla Möhsünpur (Xavər), Salman Salmanpur (İbn Yəmin), Həbib Quluzadə (İxtiyar) ifa ediblər.

Bu teatr dəstələrində səmərəli çalışanlar arasında Abdulla Fərivərin (Abdullazadə) xidmətləri diqqətəlayiqdir. O, əvvəllər Bakıdakı İran mədrəsəsində dərs verib. 1918-ci ildə Təbrizə qayıdaraq

müəllimlik etdiyi məktəblərdə teatr dərnəkləri yaradıb, həmçinin ayrı-ayrı truppalarda aktyor və rejissor kimi çalışıb.

Bakı və Tiflis teatr dəstələrində, dövlət teatrlarında rejissorluq və aktyorluq etmiş Mirseyfəddin Kirmanşahlı 1930-cu ildə İrana gəlib. Üç il ərzində Tehranda və Təbrizdə müxtəlif dəstələrdə rejissorluq edib. Təbriz teatrında peşəkarlıq prinsiplərinin formalaşmasında onun xüsusi əməyi var.

Təbriz teatrının formalaşmasında aktyor və rejissor kimi fəaliyyət göstərən Rza Quluzadə Şərqli, Rza Vaizzadə dramaturgiya ilə də ciddi məşğul olublar. Teatr dəstələrində Şərqlinin "Mirzə Rza kirmani", "Cinayət", "Börkün bəlası", "Quqquluqu", "Dəlilər yurdu", "Pul, yoxsa xəyanət" ("Xəyanət və vəfa"), Rza Vaizzadənin "Cəhalət qurbanı", "Tükənməz xəzinə", Mirzə Cabbar Əsgərzadənin "Noi bəşər", "Çadramn mühəssənatı" (mühəssənat farsca gözəl işlər deməkdir), "Müəllimlər həyatı", Abdulla Fərivərin "Bəhram Çubinə", Hilal Nasirinin "Mirzə Tağıxan Əmir Kəbir" pyesləri tamaşaya hazırlanıb.

Təbrizin teatr həvəskarları Bakıdakı bugünkü Akademik Milli Dram Teatrının repertuarındakı milli klassiklərin əsərlərini tamaşaya hazırlamağa daha çox çalışıblar. Həmçinin dünya ədəbiyyatı dühalarından Vilyam Şekspirin "Otello", Fridrix Şillerin "Qaçaqlar", Jan Batist Molyerin "Zorən təbib", "Cancur Səməd" faciə və komediyaları müxtəlif quruluşlarda Təbrizdə oynanılıb. Vano Mçedaşvilinin qəhrəmanlıq mövzulu "Qaçaq Kərəm" dramı tez-tez oynanılan əsərlərdən olub.

1941-ci ildə Təbrizdə "Azərbaycan" cəmiyyəti yaranıb. Onun altı aylıq fəaliyyəti dövründə teatr truppası da təsis edilib. Truppanın tamaşaçılara təqdim etdiyi ilk tamaşa Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsi olub. İranda ezamiyyətdə olan rejissor Şəmsi Bədəlbəyli truppa ilə sıx yaradıcılıq əlaqəsi saxlayıb, burada bir neçə əsərə səhnə quruluşu verib.

Azərbaycan Dövlət Opera və Balet Teatrı 1941-ci il oktyabr ayının əvvəllərindən dekabra qədər Təbrizdə qastrol səfərində olub. Teatrın maraqlı repertuarla çıxışı şəhərin teatr həyatında möhtəşəm canlanma yaradıb. Az sonra ziyalıların cəm olduqları "Azərbaycan cəmiyyəti"nin təşəbbüsü ilə Təbrizdə "Azərbayan aktyorları heyəti" yaradılıb. Təbrizdə çıxan "Azərbaycan" qəzeti teatr prosesini canlandırmaq və pərakəndə qüvvələri cəmləşdirmək məqsədilə 11 nəfərdən ibarət müdiriyyət heyəti təyin edib. Teatr sənətinə təzə gələn həvəskar aktyorları seçmək üçün içə 9 nəfərdən ibarət komissiya fəaliyyətə başlayıb.

1940-1946-cı illərdə Tehran şəhərində azərbaycanlı teatr fədailəri "Fərhəng-e sinema", "Honər", "Şiri Xurşid" teatr binalarında tamaşalar oynayıblar. Repertuarda Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", Üzeyir bəy Hacıbəyovun bütün operettaları və əksər operaları, Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun kiçik həcmli məzhəkələri əsas yer tutub.

1944-cü il avqust ayının 12-də Təbrizin bələdiyyə idarəsinin salonunda İranda Sovet dövləti ilə mədəni əlaqələr cəmiyyətinin Təbriz şöbəsi yaradılıb. Bununla bağlı Təbrizdə Mədəniyyət evi açılıb. Bu ilin dekabr ayında Təbrizdəni "Azərbaycan", "Firdovsi", "Hünər", "İran", "Təbriz", "Həqiqət" teatr dəstələri vahid truppada birləşiblər. Mədəni rabitə cəmiyyətinin təşəbbüsü ilə 1945-ci ilin fevralında Təbriz şəhərində birləşmiş aktoral (aktyor) birliyinin (cəmiyyətinin) iclası keçirilb. Birləşmiş aktyor heyətinə 40 aktyor daxil olub. Az sonra truppada aktyorların sayı 60-a çatıb. Onlardan 12-i qız idi. Bu aktrisalar arasında sonralar məşhur şairə kimi tanınan Mədinə Gülgün (Ələkbərzadə) də vardı. Teatrın bədii rəhbəri Abdulla Fərivər (Abdullazadə), rejissoru əslən Şimali Azərbaycanın Şəmkir şəhərindən olan Səməd Səbahi idi. İlk tamaşa Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyası olub və 1 mart 1945-ci ildə göstərilib.

Sovet Azərbaycanından gəlmiş yazıçı-jurnalist Əvəz Sadıq, aktyor və rejissor İsmayıl Əfəndiyev teatr kollektivinin yaradıcılıq axtarışlarına köməklik göstəriblər. Teatr altı ay müddətində Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasını, Süleyman Sani Axundovun "Eşq və intiqam" faciəsini, Əbdürrəhim bəy Haqverdiyevin "Ağac kölgəsində" dramını, Üzeyir bəy Hacıbəyovun

"Əsli və Kərəm", "Leyli və Məcnun", "Məşədi İbad", "Arşın mal alan" musiqi əsərlərini, Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operasını, Cəfər Cabbarlının "Aydın", "Sevil", "Oqtay Eloğlu", "1905-ci ildə" dramlarını, Cəlil Məmmədquluzadənin hekayəsi əsasında səhnələşdirilmiş "Usta Zeynal" əsərini, Sabit Rəhmanın "Hücum davam edir" komediyasını tamaşaya hazırlayıb. "Sevil" tamaşası daha böyük uğur qazanıb. Baş rollarda Leyla Möhsünpur (Sevil), Mədinə Ələkbərzadə (Gülüş), Sara Heydərzadə (Dilbər) çıxış ediblər.

Repertuarda "Həkime xakəndaz", "Güldanəli-dər Paris", "Başmaq tayı", "Həlləm-qəlləm" adlı primitiv, bədii cəhətdən sönük, dramaturji baxımdan zəif pyeslər də oynanılıb. Fars müəllifləri Cəfər Cabbarlının "Od gəlini" və "Aydın" dramlarını təhrif edilmiş süjetdə, "Siyəhpuş", "İntiqame Leyla" adları ilə səhnədə göstərilMəsmə nail ola biliblər.

Bir il müddətində teatr 55 tamaşa göstərib. Kollektiv Cənubi Azərbaycanın Mərənd, Maku, Səlmas, Miyandab, Miyan, Zəncan, Soyuqbulaq, Nüqədeh, İşno, Urmu (Urmiya) şəhər və qəsəbələrində, böyük kəndlərində də səhnə əsərləri oynayıb.

Bu dövrdə Cənubi Azərbaycanın Marağa, Ərdəbil (rejissor Feyzi Çubəkzən), Xoy, Zəncan, Miyandab, Urmu şəhərlərində də teatr tamaşaları oynanılıb. Təbriz teatrı İranın Azərbaycanlılar yaşayan bölgələrinə müntəzəm səfərlər edib.

1945-ci ilin sentyabrında Cənubi Azərbaycanda (İran Azərbaycanında) Seyid Cəfər Pişəvəri başda olmaqla Azərbaycan Demokrat Partiyası yaradılıb. Bunun əsasında 12 dekabr 1945-ci ildə Azərbaycan Milli Hökuməti yaradılıb. İlk və Xüsusi diqqət milli dildə maarif və mədəniyyətin tərəqqisinə yetirilib. Hökumətin 6 yanvar tarixli qərarına əsasən Azərbaycan kəndlərində 2000-dən yuxarı, şəhərlərdə isə 500-ə yaxın müxtəlif təhsil ocaqları açılıb. Mövcud teatr kollektivinin bazası əsasında Təbriz Azərbaycan Dövlət Dram Teatrı yaradılıb. Onun truppasının əsasını müxtəlif truppaların həvəskar aktyorları təşkil ediblər.

Kollektiv qısa müddətdə müəyyən repertuar qura bilib. 8 mart 1946-cı ildə teatrın təntənəli açılışı olub və Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramının tamaşası göstərilib. Quruluşçu rejissorlar Səməd Səbahi və İsmayıl Əfəndiyev idi. Tamaşaya musiqini Bakılı bəstəkar Cahangir Cahangirov bəstələyib və tamaşada xalq çalğı alətlərinə dirijorluğu da özü edib. Tama şanın bədii tərtibatını Bakılı rəssam Kazım Kazımzadənin eskizləri əsasında Bakıda təhsil almış Vəli Xakdan işləmişdi. Tamaşada əsas rolları Məhəmmədəli Vəlizadə (Rüstəm bəy), İsmayıl Muzduri (Məmmədəli), Səməd Səbahi (Səməd Vahid), İrəc Əhmədzadə (Hacı Baxşəli), Qəmər Nikpur (Ana), Leyla Möhsünpur (Gülbahar), Ələsgər Rizvan (Çoban), Mehdizadə (Senzor), Pərviz Pərvizi (Tələbə) ifa ediblər.

Təbriz ADDT-nin repertuarında Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah", Nəcəf bəy Vəzirovun "Ev tərbiyəsinin bir Şəkiİ", Süleyman Sani Axundovun "Eşq və intiqam", Cəfər Cabbarlının "Sevil", "Od gəlini", "1905-ci ildə", yerli dramaturqların "Ərbab və əkinçi", "Azərbaycan anası", "Çətirbazlar", "Azərbaycan nümayişi" əsərləri, "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" operaları, "Arşın mal alan", "Məşədi İbad" operettaları, Mixail Lermontovun "İki qardaş", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Aleksandr Şirvanzadənin "Namus" dramları, Brandon Tomasın "Tələbələrin kələyi" məsxərəsi, Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" musiqili komediyası vardı.

Dövlət teatrının truppasında aktyorlar Məhəmmədəli Vəlizadə, Həbib Quluzadə, Həzi Əşari, Yadulla Nəbati, Salman Süleymanpur, Qasım Şərbaf, Məhəmməd Məhəmmədi, Cavad Şərifzadə, Məhəmmədəli Rüşdi, Böyük Məhəmmədi, Ələsgər Rizvan, İsmayıl Muzduri, aktrisalar Leyla Möhsünpur, Pərvinə Cüvədpur, Məhbubə Cəmşidi, Sara Heydərzadə, Aliyə Cəfərdai, Nəcibə Cəfəri, Fatma Zərgəri, Sara Miyanpur, Səfurə Səmburani, Anaxanım Seyfullahi, Qəmər Hüseynzadə (Nikpur), Sara Bəfğəmi, Validə köhnəşəhri daha səmərəli çalışmışlar.

Təbriz şəhərində dövlət teatrı ilə yanaşı, gənclərin dram dərnəyi, sovet məktəbinin şagirdləri də tamaşalar hazırlayıblar. 1946-cı ildə Makuda "Hacı Qara", Mərənddə "Arşın mal alan" tamaşaları

ilə yeni teatr kollektivləri fəaliyyətə başlayıb. Makuda Nəsimə Novruzi adlı qızın səhnəyə çıxması hadisəyə çevriilb və tezliklə onun burada və digər şəhərlərdə ardıcılları olub.

Təbrizdən sonra 1946-cı ildə Urmiyada da Dövlət Teatrı açılıb. Sərabda, Əhərdə, Astarada, Qara Ziaəddində, Ələmdarda, Miyanada, Herisdə, Binabda, Şəbüstarda, Zəncanda, Marağada, Xoyda dram dərnəkləri fəaliyyətə başlayıb. Həmin kollektivlərdə təbdil edilmiş "Xor-xor", "Söydüməli ağa" vodevüləri, yerli müəlliflərin kiçikhəcmli "Cürbəcür elçilər", "Üç arvadlı kişi", "İntiqam", "Zülmün intəhası", "Həqiqət aşkar oldu", "Kəndçi", "Azərbaycan", "Azərbaycan anası", "Kədu taciri" pyesləri tamaşaya hazırlanıb.

Zəncan, Marağa və Ərdəbil şəhərlərində dövlət teatrları açılması nəzərdə tutulmuşdu.

Ələmdar qəsəbəsində Şeyx Məhəmməd Xiyabani adına, Culfada Səttarxan adına (250 yerlik) teatr binaları tikilib. Marağa, Astara, Zəncan və Miyana şəhərlərində 800 nəfər tamaşaçı tutan teatr binalarının inşası başa çatıb. Azərbaycan hökuməti Ərdəbil və Urmu şəhərlərində dövlət teatr binaları tikilməsini qərarlaşdırmışdı.

1946-cı ilin dekabrında İran irtica rejiminin güclənməsi ilə əlaqədar mərkəzi Təbriz olan Azərbaycan Milli Hökuməti süqut edib. Bundan sonra Təbriz Azərbaycan Dövlət Dram Teatrı bağlanıb. Marağa teatrı 1948-ci ilə qədər müəyyən bayramlarda tamaşalar oynayıb. 19481949-cu illərdə Tehranın "Ziba" teatrında Azərbaycan dilində də tamaşalar göstərilib. Bu səhnə əsərlərinin hazırlanmasında Səməd Səbahi, Məhəmməd Vəlizadə, Bəhmən, Sara xanım, Həzi Əşari, Qəmər Nikpur kimi səhnə fədakarları çalışıblar. Urmuda 1970-ci ildə "Arya" teatrı yaradılıb və qısa müddətdən sonra bağlanıb. 1950-ci illərin sonlarında və 1960-cı illərin birinci yarısında Tehranda azərbaycanlıların "Mad film", "Azər film" kinostudiyaları fəaliyyət göstərib. Orada çalışan azərbaycanlılar müəyyən bayramlarda teatr tamaşaları da göstəriblər.

Keçən əsrin səksəninci illərindən İranın Tehran və Təbriz şəhərlərində Azərbaycan dilində teatr tamaşaları göstərilməsində müəyyən cəhdlər uğurlu alınıb. Lakin indiyədək İranda otuz milyondan çox azərbaycanlının doğma dildə bir dövlət teatrı da yoxdur. Mövcud teatr dəstələri həvəskar dram dərnəyi səviyyəsindədir.

## MİLLİ OPERANIN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF MƏRHƏLƏSİ (1908-1925)

Azərbaycanın müxtəlif xalq oyun-tamaşalarında musiqidən geniş istifadə edilib. Bu musiqilər öz xarakterlərinə görə bugünkü opera və musiqili komediya tamaşalarının müəyyən səciyyələrini daşıyıb. Məişət tamaşalarında, ya mərasim oyunlarında, məhəbbət dastanlarının söylənilməsində tək ifalar (ariyalar), deyişmələr (duetlər), söyləmə-oxumalar (ariozalar), məzhəkəli mahnılar (kupletlər), məsxərəli höcətləşmələr olub. Estetik tutum baxımından həmin vasitələr əsilində Azərbaycan, geniş mənada isə Şərq opera və operetta janrının genetik köklərini təşkil edir. Lakin təəssüflər olsun ki, musiqişünaslıq və teatrşünaslıq elmimiz milli oyun mədəniyyətimizi haqqında söhbət gedən prizınadan araşdırmayıb.

Bununla belə, milli mədəniyyətimizdə ilk professional opera Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" əsəri sayılır. Bəstəkar bu operanı 1907-ci ildə tamamlayıb.

Əlbəttə ki, ənənə olmadan belə bir möhtəşəm iş görmək dahiliyə dəlalət edir. Üzeyir bəy Hacıbəyovun qəlbində musiqili əsər yaratmaq ideyası 1897-ci ildə baş qaldırıb. Əslən Şuşalı olan, Peterburqda təhsil alıb vətənə qayıdan Əbdürrəhim bəy Haqverdiyev yerli həvəskarlarla "Məcnun Leylinin qəbri başında" adlı səhnə hazırlayıb. Həmin musiqili oyun-tamaşa Şuşada göstərilib. Tamaşada Məcnun rolunu Qarabağ mahalının məşhur xanəndəsi Cabbar Qaryağdı oğlu oxuyub-oynayıb. Gələcəyin böyük dühası Üzeyir bəy Hacıbəyov həmin tamaşada xorda iştirak edib. Bəstəkar öz xatirələrində göstərir ki, bu tamaşa onun qəlbini riqqətə gətirib və yaddaşında dərin iz buraxıb.

Qori Müəllimlər Seminariyasını bitirəndən sonra bir il Qarabağda müəllimlik edən Üzeyir bəy 1905-ci ildə Bakıya gəlib və az sonra "Leyli və Məcnun" operası üzərində işləməyə başlayıb. Librettonu dahi Məhəmməd Füzulinin eyniadlı məhəbbət poemasının motivləri əsasında Üzeyir bəy özü və qardaşı Ceyhun bəy Hacıbəyli yazıblar. Operada "Mahur Hindi", "Çahargah", "Şur", "Kürd-Şahnaz", "Rast", "Segah", "Bayatı Kürd" muğamlarından istifadə edilib. Həmin dövrdə Üzeyir bəy Avropa not sistemini bilmirdi və buna görə də opera direksion üslubda yazılıb.

"Leyli və Məcnun" operasının ilk tamaşası 1908-ci il yanvar ayının 12-də Tağıyev teatrı binasında göstərilib. Operanın tamaşasına quruluşu rejissor Hüseyn Ərəblinski verib. ilk tamaşanın dirijoru Əbdürrəhim bəy Haqverdiyev olub. Üzeyir bəy özü orkestrdə skripka çalıb. Orkestrdə həmçinin müəllimlərdən Əli Terequlov, Ağəli Qasımov, Şirin Axundov, Fərhad Ağazadə Şərqli, Qayıbov, İsmayılov və başqaları çalıblar. Suflyorluğu Əliabbas Rzayev edib. Tarda soloları tarzən Qurban Pirimov ifa edib. Bu tarzən əlli ildən çox milli muğam operalarımızın əsas tarzəni olub.

Operanı tamaşaya "Nicat" cəmiyyətinin teatr truppasının aktyorları hazırlayıblar. Məcnun rolunu dramatik aktyor kimi tanınan Hüseynqulu Sarabski ifa edib. O, otuz beş ildən çox bu rolun misilsiz ifaçısı sayılıb. Leylinin partiyasını çayçı şagirdi Əbdülrəhim Fərəcov oxuyub. İlk tamaşada digər əsas rolları Mirzə Muxtar Məmmədov (Qeysin atası), Hənifə (Məhəmmədhənifə də yazılıb) Terequlov (Nofəl), İmran Qasımov kəngərli (Zeyd və Fəttah), C.Vəzirov (Leylinin anası), Rüstəm Kazımov (Qeysin anası), B.Vəzirov (Ərəb), Yusif Məmmədov (Ərəb), Səfərov (Ərəb) ifa ediblər. Ceyhun Hacıbəyli "C.Dağıstanlı" imzası ilə İbn Səlam və "N.N." imzası ilə Nofəl rollarını oynayıb.

Üzeyir bəy Hacıbəyov 1909-cu ildə özünün librettosu əsasında "Şeyx Sənan" operasını tamamlayıb. Yeri gəlmişkən qeyd edim ki, bundan sonra "Koroğlu" operasından başqa bütün opera və operetta əsərlərinin librettosunu Üzeyir bəy özü yazıb.

"Şeyx Sənan"ın ilk tamaşası 1909-cu il noyabrın 30-da oynanılıb. "Nicat" cəmiyyəti teatr truppasının hazırladığı tamaşa Nikitin qardaşları sirkində göstərilib. Tamaşanın quruluşçu rejissoru Hüseyn Ərəblinski olub. İlk tamaşaya dirijorluğu Üzeyir bəy Hacıbəyov özü edib. Əsas rolları Hüseynqulu Sarabski (Şeyx Sənan) və Leyla təxəllüsü ilə Tamara Boqatko (Xumar), Mirzağa Əliyev (Giqo), Hənifə Terequlov (Xumarın atası) ifa ediblər. Az sonra Əhməd Bədəlbəyov

"Ağdamski" təxəllüsü ilə opera, növbəti ildən operetta tamaşalarında qadın rollarının əsas ifaçısı olub.

Bakıda məxsusi opera truppası yox idi və tamaşaları "Nicat"ın dram aktyorları oynayırdılar. Uzun illər bu truppa Üzeyir bəylə onun musiqi əsərlərini ifa etmək hüququnu özündə saxlamaq barədə müqavilə bağlayıb. 1912-1917-ci illər arasında müəyyən vaxtlar, az da olsa, "Səfa" mədəni-maarif cəmiyyətinin teatr truppası da operalar oynayıb. 1916-cı ildən isə Bakıda opera və operettaları, əsasən, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" (qısa şəkildə "Müdiriyyət" kimi də yazılıb) adlanan truppa ifa edib.

Üzeyir bəy Hacıbəyov növbəti muğam operasını Əbdülqasim Firdovsinin məşhur "Şahnamə" poemasından götürülmüş süjet əsasında yazıb. "Rüstəm və Söhrab" adlanan operanın ilk tamaşası 12 noyabr 1910-cu ildə Tağıyev teatrında göstərilib. Tamaşanı "Nicat" truppası hazırlayıb və bəstəkar özü tamaşaya dirijorluq edib.

"Rüstəm və Söhrab" operasında əsas rolları Hüseynqulu Sarabski (Söhrab), Əhməd Ağdamski (Təhminə), Hənifə Terequlov (İran şahı Keykavus), Mirzə Muxtar Məmmədov (Səmənqən şahı), Rafiq (Vəzir) oynayıblar. Müxtəlif əyanların rollarında səhnəyə Əliş Haqverdiyev, Bağır Cabbarzadə, Əbülfət Vəli, Hacı İmran Qasımov, Rüstəm Kazımov çıxıblar. Tamaşada Xəlil Hüseynov rejissor müavini, Əbülfət Vəli məsul müdir və Əliabbas Rzayev suflyor olublar.

Üzeyir bəy Hacıbəyov "Rüstəm və Söhrab" operasını yeni variantda işləyib və əsər 1925-ci il martın 6-da göstərilib. "Rüstəm və Söhrab" operasında "Rast", "Şur", "Çahargah", "Səmayi şəms", "Rahab", "Bayatı Kürd", "Qacar", "Şüştər", "Şikəsteyi-fars" muğamlarından istifadə olunub. Bəstəkar müəyyən gərgin psixoloji məqamlarda həmçinin "Mənsuriyyə", "Əraq", "Müxalif" kimi şöbələrdən istifadə edib.

"Leyli və Məcnun" operasının uğuru çox adamları bu janrda əsər yazmağa təhrik edib. 1911-ci il martın 6-da Mirzə Cəlal Yusifzadənin "Fərhad və Şirin" operası tamaşaçılara göstərilib. Libretto Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması əsasında yazılıb. Tarzən Aleksandr Oqenezaşvili operanm musiqi partiturasının direksion üsulda hazırlanmasında müəyyən işlər görüb. Operada əsas partiyaları Cabbar Qaryağdı (Fərhad), Məcid Behbudov (Xosrov), Mirzə Muxtar Məmmədov (Şapur), "Xumar" təxəllüsü ilə Tamara Boqatko (Yasəmən), Cəmil Nəcəfov (Şirin) oxuyublar.

Tamaşanın librettosunda və musiqi tərtibatında ciddi qüsurlar vardı. Buna görə də opera repertuarda az yaşayıb. Beş il ərzində "Xosrov və Şirin" operasının yeni musiqi redaksiyasında və təzə quruluşlarda oynanılması da uğur qazanmayıb.

1912-ci il martın 10-da Üzeyir bəy Hacıbəyovun növbəti muğam operası "Şah Abbas və Xurşid banu" Tağıyev teatrında oynanılıb. Tamaşanın quruluşçu rejissoru Hüseyn Ərəblinski, rejissor müavini Xəlil Hüseynov, dirijoru Müslüm bəy Maqomayev, xorbaşı (xormeyster) Hənifə Terequlov olublar.

"Şeyx Sənan" operası ilə müqayisədə maraqla qarşılanan "Şah Abbas və Xurşid banu" operasında əsas rollarda Hüseynqulu Sarabski (Şah Abbas), Mirzə Muxtar Məmmədov (Vəzir), Əhməd Ağdamski və Cəlil Bağdadbəyov (Xurşid banu), Hənifə Terequlov (Məstavər), Mirmahmud Kazımovski (Divanə) çıxış ediblər. Opera həmin il oktyabrın 26-da və noyabrın 16-da da təkrar oynanılıb.

Üzeyir bəy Hacıbəyovun 1912-ci ildə daha bir operası səhnədə göstərilib. İlk tamaşası mayın 18-də oynanılan "Əsli və Kərəm" operasının mövzusu xalq dastanından götürülüb. Tamaşanın quruluşçu rejissoru Hüseyn Ərəblinski, dirijoru Müslüm bəy Maqomayev, xorbaşısı Hənifə Terequlov olublar. Qısa müddətdə böyük şöhrət qazanan operada aparıcı rolları Hüseynqulu Sarabski və Hüseynağa Hacıbababəyov (Kərəm), Cəlil Bağdadbəyov və Əhməd Ağdamski (Əsli), Mirzə Muxtar Məmmədov (İsfahan şahı), Hənifə Terequlov və Məmmədtağı Bağırov (Keşiş Arsen) ifa ediblər.

"Əsli və Kərəm" operasının ən mürəkkəb partiyaları "Şahnaz", "Segah", "Bayatı Şiraz", "Rast", "Şur" muğamları üzərində işlənilib. Bu opera uzun müddət hər il təzə quruluşlarda göstərilib.

1915-ci ildə Üzeyir bəy Hacıbəyovun "Harun və Leyla", Rza Zaki Lətifbəyovun "Nigar və Neman" operaları yazılsa da, bu əsərlər tamaşaya qoyulmayıb. Əbdülqədir İsmayılzadə Vüsaqinin librettosu əsasında Hüseynqulu Sarabskinin musiqi tərtibatı verdiyi "Seyfəlmülk" operası da tamaşaçılara göstərilməyib. O dövrdə Gəncədə yaşayan Məşədi Cəmil Əmirovun da bu adda bir operası var.

Aktyorluq edən və bəzən rejissor yardımçısı kimi çalışan Hacıbaba Şərifovun "Mehr və Mah" operası 1916-cı ildə oynanılıb. Bu illərdə bir neçə müəllifin "Əsli və Kərəm", "Leyli və Məcnun" operaları səhnə üzü görsə də, heç biri sənət nailiyyətinə çevrilə və əsaslı uğur qazana bilməyib.

Zülfüqar bəy Hacıbəyov xalq dastanı əsasında bəstələdiyi "Aşıq Qərib" operasını 1915-ci ilin sonlarında bitirib. Lakin opera 1916-cı il mayın 13-də Xəlil Hüseynovun quruluşunda oynanılıb. Dirijorluğu bəstəkar özü edib və xorbaşı Hənifə Terequlov olub. Üzeyir bəy Hacıbəyov tamaşaya məsul müdir idi.

"Aşıq Qərib" tamaşasında rolları Hüseynqulu Sarabski (Rəsul-Aşıq Qərib), Hüseynağa Hacıbababəyov (Qəribin anası), Yeva Olenskaya (Qəribin bacısı Qəni), Mirzə Muxtar Məmmədov (Hacı), Sidqi Ruhulla (Mahmud), Əhməd Ağdamski (Şahsənəm), Mirzağa Əliyev (Aşıq Vəli), Xəlil Hüseynov (Türk paşası), Cəlil Bağdadbəyov (Aşıq Səlim və Dərviş), Yunis Nərimanov (Qara qız) oynayıblar. Operadakı ərəb rəqslərini Rza Darablı və Əbülhəsən Anaplı ifa ediblər.

Müstəqil teatr truppalarının fəaliyyət göstərdikləri dövrdə sonuncu muğam operası Müslüm bəy Maqomayevin "Şah İsmayıl" əsəri olub. Librettonu Mirzə Əbdülqədir İsmayılzadə yazıb. Operanın rejissorluğunu əvvəlcə Hüseyn Ərəblinski edib və sonra əsər üzərindəki işi premyeraya qədər Abbasmirzə Şərifzadə tamamlayıb. Opera 7 mart 1919-cu ildə göstərilib.

"Şah İsmayıl" operasında baş rolları Hüseynqulu Sarabski (Şah İsmayıl), Hənifə Terequlov (Aslan şah), Aleksandra Olenskaya (Gülzar) oynayıblar.

Orta Asiyanın Daşkənd, Səmərqənd, Aşqabad, Buxara, Mərv, Volqaboyunun Hacıtərxan, Orenburq, Türkiyənin İstanbul, Trabzon, Sarıqamış, İranın Tehran, Ənzəli, Təbriz, Qafqazın Tiflis, İrəvan, Batum, Ağınəscid (indiki Simferopol) kinıi şəhərlərində ilk opera tamaşalarını Azərbaycandan gəlmiş müxtəlif teatr truppaları və dəstələri göstəriblər.

1919-cu ilin payızından 1925-ci ilin avqust ayınadək opera tamaşaları bugünkü Akademik Milli Dram Teatrında oynanılıb. 1925-ci ilin payızından, yəni növbəti teatr mövsümündən opera truppası AMDT-dan ayrılaraq "Rus Operası" adlanan teatra birləşib. Kollektivin adı afişalarda "Türk Operası" kimi göstərilib. Sonralar Azərbaycan Dövlət Opera və Balet Teatrı adlanan bu kollektiv 1925-1935-ci illərdə ayda üç-dörd dəfə muğam operası oynayıb.

## ÜZEYİR BƏY HACIBƏYOV
## (18.9.1885-23.11.1948)

Azərbaycan milli operasının və operettasının banisidir. İlk peşəkar musiqimizin yaradıcısıdır. Görkəmli teatr fədaisi, ictimai xadimdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndəsidir. Jurnalistika sahəsində böyük işlər görüb, publisistika elmini yeniliklərlə zənginləşdirib. Milli dramaturgiyamıza yeni janr və mövzu əlvanlığı gətirib. Öz komediyalarında silsilə xarakterlər, komik personajlar yaradıb. Azərbaycan konservatoriyasının yaradıcısıdır.

Musiqişünaslıq elmimizin bünövrəsmi qoyub. Qüdrətli pedaqoq olub və Azərbaycan bəstəkarlıq məktəbinin neçə-neçə korifeyini yetişdirib.

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov Qarabağın bəy nəslindəndir. 1885-ci il sentyabr ayının 18-də Şuşa qəzasının Ağcabədi kəndində doğulub. Şuşada yaşayan və əsasən mirzəlik edən atasının hazırda rayon mərkəzi olan Ağcabədi torpaqlarında böyük əkənək yerləri vardı. Ailə təsərrüfat işləri

ilə bağlı Ağcabədiyə gələndə Üzeyir bəy orada doğulub. Bir sıra sənədlərdə soyadı "Hacıbəyli" kimi göstərilib.

Üzeyir bəy ilk təhsilini Şuşa şəhərindəki ikisinifli türk-rus məktəbində alıb. Uşaqlıqdan ecazkar musiqi yaddaşı, iti zehni və çalışqanlığı, mütaliəyə meyili ilə tay-tuşlarından seçilib. Onda musiqi sənətinə məhəbbət və rəğbəti, coşğun həvəsi dayısı, milli xalq sənətinin səriştəli bilicisi Ağalar Əliverdibəyov oyadıb. Şuşa şəhərinin özü həmin illərdə bütün Qafqazın musiqi akademiyası sayılıb. Şübhəsiz ki, belə musiqi mühiti Üzeyir bəyin qan və uşaqlıq yaddaşında dərin izlər buraxıb.

Görkəmli dramaturq və teatr xadimi, milli rejissorluq sənətinin yaradıcılarından olan Əbdürrəhim bəy Haqverdiyev 1897-ci ildə Şuşada Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında "Məcnun Leylinin qəbri başında" ("Məcnun Leylinin məzarı üstündə") səhnəciyini hazırlayıb. Məcnunun muğam üstündəki oxularını Cabbar Qaryağdı ifa edib. Üzeyir bəy həmin səhnəcikdə xorda oxuyub. Dahi sənətkarın özünün yazdığına görə, bu musiqili səhnə-tamaşa ona böyük təsir bağışlayıb. Üzeyir bəyin qəlbində opera yaratmağın ilk qığılcımları məhz həmin ildən işıq saçıb.

Şuşada rus dilini öyrənib ilkin təhsil şərtlərini mənimsəyən Üzeyir bəy 1899-cu ildə Qori Müəllimlər Seminariyasına qəbul olunub. Burada Skripka və bariton çalmağı öyrənib. Dünya musiqi klassiklərinin yaradıcılıqları ilə yaxından tanış ola bilib. Azərbaycan xalq mahnılarının nəzəri əsaslarını elmi sistemə salmağa cəhd göstərib.

Üzeyir bəy Hacıbəyov 1904-cü ildə seminariyanı bitirib və Cəbrayıl qəzasına müəllimliyə göndərilib. Bir il burada kənd məktəbində müəllim işləyəndən sonra Bakıya gəlib. Əv-Vəl fəhlə qəsəbəsi olan Bibiheybətdə, sonra isə "Səadət" məktəbində pedaqoji fəaliyyət göstərib. Azərbaycan dilində dərs vəsaitlərinin son dərəcə azlığını nəzərə alan Üzeyir bəy məktəblilər üçün "Hesab məsələləri" dərsliyini yazıb və onu 1907-ci ildə çap etdirib. Həmçinin özünün "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi, rusi-türki lüğəti"ni nəşrə hazırlayıb. Bu kitabça dilçilik elminin ilk müjdələrindən sayılır.

Gələcəyin dahi bəstəkarı bədii yaradıcılığa publisistika ilə başlayıb. Cəmiyyətin sosial ədalətsizliyinə, dövrün ictimai-siyasi bəlalarına, savadsızlığa, mənəvi-əxlaqi rəzalətlərə qarşı, maarifçiliyə çağıran tənqidi və nəzəri məqalələr, kəskin felyetonlar yazıb. O, öz yazılarını "Ordan-burdan", "O yan-bu yan", "Filankəs", "Behmənkəs", "Ü" imzaları ilə çapa verib. Ədibin çoxsaylı və müxtəlif janrlı yazıları Bakıda çıxan "Tərəqqi", "Həqiqət", "Kaspi" (rus dilində), "İqbal" "Yeni iqbal", "İrşad" qəzetlərində, Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalında oxuculara çatdırılıb. Onun felyetonları və satirik miniatürləri, kiçik hekayələri kəskinliyi, aktuallığı və dilinin ifadəliliyi, rəvanlığı ilə dəyərlidir. Bu illərdə Üzeyir bəy rus yazıçısı Nikolay Qoqolun məşhur "Şinel" nəsr əsərini azərbaycancaya tərcümə edib.

Belə gərgin şəkildə yaradıcılıqla məşğul olan Üzeyir bəy Hacıbəyov 1907-ci ilin sonlarında ilk milli operamız olan "Leyli və Məcnun" əsərini tamamlayıb. Operanın librettosunu bəstəkar özü qardaşı Ceyhun Hacıbəyli ilə birlikdə yazıb. Mətn üçün Məhəmməd Füzulinin "Leyli və Məcnun" məhəbbət poeması götürülüb. "Leyli və Məcnun" operası direksion üslubda yazılıb. Onun tamaşaya hazırlanmasını 1906-cı ildən fəaliyyətə başlayan "Nicat" mədəni-maarif cəmiyyətinin teatr truppası öz üzərinə götürüb. Tamaşanın quruluşunu dövrünün məşhur tragik aktyoru və rejissoru Hüseyn Ərəblinski verib.

"Leyli və Məcnun" operasının ilk tamaşası 1908-ci il yanvar ayının 12-də Tağıyev teatrında (Şəhər teatrı da deyilib) göstərilib. Tamaşaya dirijorluğu Əbdürrəhim bəy Haqverdiyev edib. Üzeyir bəy özü Skripıkada çalıb. Məcnun rolunu dram aktyoru kimi tanınan Hüseynqulu Sarabski ifa edib.

Üzeyir bəy Hacıbəyov "Leyli və Məcnun" operasını milli muğamlar əsasında işləyib. Operada hadisələrin psixoloji xarakterinə, konfliktin mahiyyətinə və süjet xəttinin kəskin dönüşlərinə, lirik-dramatik ricətlərin səciyyəsinə uyğun ola-raq "Mahur Hindi", "Çahargah", "Segah", "Fars şlkəstəsi" ("Şlkəsteyi-fars"), "Şur", "Şiraz bayatısı" ("Bayatı Şiraz"), "Rast", "Kürd

bayatısı" ("Bayatı Kürd"), "Qacar bayatısı" ("Bayatı Qacar") muğamlarından, "Kabili", "Müxalif" muğam şöbələrindən, təsniflərdən istifadə edib.

"Leyli və Məcnun" operası böyük sənət hadisəsinə çevrilib. Milli mədəniyyətimizdə yeni sənətin və yeni səhnə janrınınbünövrəsi qoyulub. Bundan sonra Üzeyir bəy Hacıbəyov xalq rəvayəti əsasında 1909-cu ildə "Şeyx Sənan" (ük tamaşası 1909-cu il noyabrın 30-da olub), Əbdülqasim Firdovsinin "Şahnamə" poemasının motivləri üzrə 1910-cu ildə "Rüstəm və Söhrab" (operanın premyerası 1910-cu il noyabrın 12-də göstərilib) operalarını yazıb.

Üzeyir bəy Hacıbəyov eyni zamanda milli operettamızın banisi sayılır. Bəstəkar özünün librettosu əsasında "Ər və arvad" operettasını işləyib və bu əsəri 1909-cu ildə tamamlayıb. Operettanı tamaşaya "Nicat" truppasının aktyorları ilə rejissor Hüseyn Ərəblinski hazırlayıb. "Ər və arvad"ın ilk tamaşası 1910-cu il may ayının 24-də Nikitin qardaşlarının sirein-də göstərilib. Bugünkü Azərbaycan Dövlət Musiqili Komediya Teatrının tarixi məhz həmin gündən hesablanır. Tamaşada baş rolları truppanın qabaqcıl opera aktyolrları Hüseynqulu Sarabski (Mərcan bəy) və Əhməd Ağdamski (Minnət xanım) oynayıblar.

"Ər və arvad" operettasının ardınca Üzeyir bəy "O olmasın, bu olsun" ("Məşədi İbad") musiqili komediyasını yazıb. Əsər üç pərdədən ibarət olub və ilk tamaşası 1911-ci il sentyabrın 12-də Nikitin qardaşları sirkində tamaşaçılara göstərilib. Baş rolları Mirzağa Əliyev (Məşədi İbad) və Hüseynqulu Sarabski (Sərvər), Əhməd Ağdamski (Gülnaz), Əhməd Anatollu (Hambal) ifa ediblər. Beş ildən sonra bəstəkar operettaya daha bir pərdə əlavə edib. Bu, hamam səhnəsidir. 1918-ci ildə əsər məhz dörd pərdədə çapdan çıxıb.

Üzeyir bəy Hacıbəyov ali musiqi təhsili almaq üçün 1911-ci ildə Moskvaya gedib. 1913-cu ildən isə Peterburq konservatoriyasında sənətin incəliklərinə yiyələnib. Musiqinin peşəkarlıq incəliklərinə dərindən yiyələnməklə yanaşı, yaradıcılıqla da ciddi məşğul olub. Təhsil illərində Üzeyir bəy Hacıbəyov el rəvayəti əsasında "Şah Abbas və Xurşid banu" (1911), xalq dastanının motivlərindən istifadə etməklə "Əsli və Kərəm" (1912) operalarını və dünya şöhrətli "Arşın mal alan" (1913) operettasını bəstələyib.

"Şah Abbas və Xurşid banu" operası ilk dəfə 1912-ci il martın 10-da oynanılıb. Əsas rolları Hüseynqulu Sarabski (Şah Abbas) və Əhməd Ağdamski ilə Cəlil Bağdadbəyov (Xurşid banu) ifa ediblər. "Əsli və Kərəm" operasının premyerası isə 1912-ci il mayın 18-də Mayılov teatrında göstərilib. Müslüm Maqomayev tamaşaya dirijorluq edib.

İlk tamaşası 1913-cü il oktyabr ayının 25-də Hüseynqulu Sarabskinin rejissorluğu ilə Tağıyev teatrında göstərilən "Arşın mal alan" operettası böyük şöhrət qazanıb. Avropa operetta janrının prinsiplərində yazılmış əsər tez bir zamanda rus, gürcü, fransız, alman, ingilis, türk, özbək, ərəb, çin, polyak, Ukrayna, fars dillərinə tərcümə edilib. Operetta dəfələrlə ekranlaşdırılıb. Ən Kamal ekran quruluşları 1945-ci ildə Rza Təhmasibin və 1965-ci ildə Tofiq Tağızadənin "Azərbaycanfilm"də çəkdikləri ekran əsərləri sayılır. Rejissor Hüseyn Seyidzadə 1956-cı ildə bəstəkarın "Məşədi İbad" operettasını ekranlaşdırıb.

Üzeyir bəy Hacıbəyovun şah əsəri "Koroğlu" operası sayılır. Operanın librettosunu Heydər İsmayılov, şeir mətnlərini Məmməd Səid Ordubadi yazıblar. Bu operanı hasilə gətirməmişdən əvvəl bəstəkar qəhrəmanlıq mövzusunda "Dəmirçi Gavə" (osmanlı ədibi Şəmsəddin Saminin eyniadlı pyesi əsasında), "İsgəndərnamə" və "Babək" operaları üzərində işləyib. Lakin həmin əsərlərin heç biri tamamlanmayıb və bəstəkar yalnız bir neçə musiqi nömrəsi işləyə bilib.

1937-ci il aprel ayının 30-da oynanılan "Koroğlu" (quruluşçu rejissor İsmayıl Hidayətzadə, tərtibatçı rəssam Rüstəm Mustafayev) operası milli musiqi mədəniyyətimizin və opera teatrının tarixində parlaq nailiyyətə çevrilib. Bülbül baş qəhrəman koroğlunun (əvvəl Rövşən) əvəzsiz ifaçısı sayılıb. Klassik opera üslubunda bəstələnmiş "Koroğlu" əsərində möhtəşəm musiqi xarakterli ariyalar, coşğun kütləvi xor səhnələri, bitkin reçitativlər, dinamik balet səhnələri var. Operanın əsas musiqi xarakteri monumental kütləviliyə əsaslanıb. Onun partiturasının aparıcı motivi aşıq

musiqisinə əsaslanıb. Üzeyir bəy Hacıbəyov simfonik orkestrin heyətinə milli çalğı alətləri əlavə etməklə ifa rəngarəngliyinə, mürəkkəb və ürəyəyatımlı səs harmoniyasına nail olub.

Üzeyir bəy Hacıbəyov Azərbaycanda musiqi təhsilinin banilərindən biridir. 1921-ci ildə Azərbaycan Dövlət Türk Musiqi Məktəbini yaradıb. Dünya şöhrətli "Cəngi" pyesinin (1941), Mirzə Fətəli Axundzadəyə həsr edilmiş "Ölməz sənətkar" (1938), "Vətən və cəbhə" (1942) kantatalarının, Nizami Gəncəvinin sözlərinə bəstələnmiş "Sənsiz" (1941), "Sevgili canan" (1942) romanslarının, Azərbaycan himnlərinin (1918 və 1945) müəllifidir. "Azərbaycan xalq musiqisinin əsasları" (1945) fundamental tədqiqat əsərini yazıb. Bu əsərdə qədim milli musiqimizin lad və səs qanunauyğunluqları, onun fəlsəfi dəyərləri araşdırılıb. "Firuzə" operası tamamlanmayıb.

Opera və operetta tamaşalarını müntəzəm oynamaq üçün Üzeyir bəy bəstəkar qardaşı Zülfüqar bəy Hacıbəyovla birlik-də teatr truppası yaradıb. 1916-cı ildə fəaliyyətə başlayan truppa "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti " adlanıb. Üzeyir bəy Hacıbəyov özü bir müddət truppanın baş rejissoru işləyib. əksər tamaşalara dirijorluq edib. Dəstə dram və komediya tamaşaları da hazırlayıb.

Dahi bəstəkar Azərbaycan Dövlət konservatoriyasının (1928-1929 və 1939-1948) rektoru, Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938-1948), respublika Elmlər Akademiyası İncəsənət İnstitutunun direktoru (1945-1948) olub. 1941-ci ("Koroğlu" operasına görə) və 1946-cı illərdə ("Arşın mal alan" filmi üçün) Stalin mükafatı ilə təltiflənib. Professor (1940) və akademik (1945) idi. O, 1938-ci ildə SSRİ xalq artisti fəxri adına layiq görülüb. Birinci və ikinci çağırış SSRİ Ali Sovetinin deputatı seçilib.

Üzeyir bəy Hacıbəyov 23 noyabr 1948-ci ildə vəfat edib. Məzarı Fəxri xiyabandadır.

Azərbaycan Dövlət Musiqi Akademiyası (əvvəlki konservatoriya) onun adını daşıyır. Bakıda adına küçə var.

## AZƏRBAYCAN DÖVLƏT OPERA VƏ BALET TEATRI (1925-1937)

Baki şəhərində XIX əsrin axırlarında və XX əsrin ilk on illiyində müxtəlif səyyar truppalar opera tamaşaları oynayıblar. Lakin bu tamaşaların göstərilməsi müntəzəm xarakter daşımayıb. 1910-cu ildə Bakıda məxsusi opera teatrı binası tikilib. Bu binaya "Mayılov qvrdaşlarının teatrı", "Mayılov teatrı" da deyilib. 1911-ci il fevral ayının 28-də opera teatrının açılışı olub. İlk dəfə burada yığma truppanın aktyorları Modest Musorqskinin "Boris Qodunov" operasını oynayıblar.

Uzun illər bu teatrda kiçik heyətdə truppa olub və əsas partiyaların ifasına Rusiyanın məşhur opera solistləri dəvət ediliblər. Operalar yalnız rus dilində oynanılıb. Azərbaycan operaları bu binada öz tamaşalarını kirayənişin kimi göstərib. Ən yaxşı hallarda bina yalnız həftədə bir dəfə Azərbaycan truppalarına icarəyə verilib.

1920-ci ilin iyununda sovet hakimiyyətinin gəlməsi ilə əlaqədar olaraq Bakıda bütün teatrlar milliləşdirilib. Opera teatrının kollektivi truppanın heyətini bir qədər artıraraq "Rus Operası" adlanıb. Bir müddət kollektiv "Böyük Opera Teatrosu" adı ilə çalışıb. Bəzən afişalarda Dövlət Opera və Musiqili Komediya Teatrı (rəhbəri Pavel Amiraqo) yazılıb.

Teatr dövlət statusu alandan sonraki ilk ildə Pyotr Çaykovskinin "Yevgeni Onegin", "Qaratoxmaq qadın" və "Mazepa", Cakomo Puççininin "Bohema", Cüzeppe Verdinin "Karmen" və "Aida", Şarl Qunonun "Faust", Şarl Kamal Sen-Sansın "Samson və Dalila", Nikolay Rimski-Korsakovun "Qar qız", Andrey Paşşenkonun "Qartal qiyamı", Lev Kniperin "Şimal küləyi", Anton Rubinşteynin "Demon", Coakkino Rossininin "Toska", "Sevilya bərbəri" operalarını oynayıb. Bu

operaların tamaşalarında əsas partiyaları SSRİ-nin müxtəlif şəhərlərindən dəvət olunmuş solistlər oxuyurdular. Teatrın özünün də kiçik truppası vardı. Lakin bu truppada xüsusən messo soprpano, bariton və lirik tenor səslərə malik təcrübəli solistlər çox az idi.

Milli Dram Teatrının truppası isə muğam operalarından Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm", "Leyli və Məcnun", "Şah Abbas və Xurşid banu", "Rüstəm və Söhrab", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", Müslüm bəy Maqomayevin "Şah İsmayıl" əsərlərini öz repertuarında saxlayırdı. Truppa həmçinin "O olmasın, bu olsun " ("Məşədi İbad") və "Arşın mal alan" operettalarını oynayırdı.

Opera teatrı isə hələ Azərbaycan operalarını oynamırdı. 1921-1925-ci illərdə teatr dünya klassiklərindən və çağdaş bəstəkarların əsərlərindən Şarl Qunonun "Romeo və Cülyetta", Mixail Qlinkanın "İvan Susanin", "Polşabal rəqsi", Rudcero Leonkovallonun "Məzhəkəçilər", Cak Offenbaxın "Hofmanın nağılları", Aleksandr Borodinin "Knyaz İqor", Pyotr Çaykovskinin "İolanta", Formental Cak Qolevinin "Kardinalın qızı" ("Jidovka"), Cüzeppe Verdinin "Trubadur", Qessin "Komorra", Vilhelm Vaqnerin "Leonqrin" və "Tanqeyzer", Yakov Meyerberin "Quqenotlar ", Cakomo Puççininin "Toska", Leo Delibin "Lakme" operalarını oynayıb.

Azərbaycanlı  müğənnilər Fatma Muxtarova və Şövkət Məmmədova bu operalardan bir neçəsində əsas partiyaları rus dilində oxuyublar. Onlar Azərbaycan operalarında da oynayıblar. Qadın rollarından Leyli, Əsli, Xurşid banu rolları Sona Hacıyevaya və Xurşid Qacara tapşırılıb.

1921-ci ildə teatr ilk dəfə balet əsərini tamaşaçılara göstərib. Bu, Leo Delibin "Koppeliya" ("Mavi gözlü qız") baleti idi. 1923-cü ildə teatr əvvəlcə Nikolay Rimski-Korsakovun "Şəhrizad" və "İspan kapriççosu" xoreoqrafik miniatürlərini tamaşaya hazırlayıb. Sonra isə Pyotr Çaykovskinin "Sonalar gölü" ("Qu gölü") kimi mürəkkəb musiqi əsəri repertuarda özünə yer tutub.

Azərbaycan opera truppası 1925-ci ilin avqustunda AMDT-dən ayrılıb və Rus Operasının nəzdinə keçib. Bu vaxtı truppada Hüseynqulu Sarabski, Bülbül, Məmmədtağı Bağırov, Hüseynağa Hacıbababəyov, Sona Hacıyeva, Xurşid Qacar, Əzizə Məmmədova, Əbdübağı və Qəmbər Zülalovlar, Məhbubə Paşayeva, Dadaş Şaraplı, Hənifə Terequlov kimi təcrübəli sənət-Karlar və müəyyən sənət səriştəsi toplamış gənclər vardı. Onlar da kollektivlə yeni teatra keçdilər.

Truppa ayda bir neçə dəfə də olsa opera və həmçinin operetta tamaşaları göstərib. Üzeyir bəy Hacıbəyovun, Zülfüqar bəy Hacıbəyovun və Müslüm bəy Maqomayevin musiqi əsərləri Rus Operasında yeni-yeni quruluşlarda hazırlanıb. Azərbaycan truppasında baş rejissorluq vəzifəsini bir müddət Abbasmirzə Şərifzadə və Yusif Yulduz daşıyıblar.

Rus opera truppası 1925-ci ildən başlayaraq on iki il ərzində həm əvvəllər oynadığı operaları yeni quruluşlarda tamaşaçılara göstərib, həm də repertuara təzə əsərlər daxil edib. Onların arasında Cakomo Puççininin "Madam Batterflyay" və "Qərbli qız", Cüzeppe Verdinin "Riqoletto", Şarl Lui Ambruaz Tomanın "Hamlet", Eduard Napravnikin "Dubrovski", Jorj Bizenin "İnci axtaranlar", Arriqo Boytonun "Mefistofel", Oberin (Daniel Fransua Espri) "Fra Dyavolo", Volfqanq Araadey Motsartın "Fiqaronun toyu", Aleksandr Darqomıjs-kinin "Su pərisi", Nmolay Rimski-Korsakovun "Qızıl xoruz", "Çar gəlini", Aleksandr Yurasovskinin "Trilbi" operalarının tamaşaları daha diqqətçəkən olub.

Bu illər ərzində balet truppası Reynqold Qlierin "Qırmızı lalə", Sezar (Çezare) Puninin "Qozbel at", Adolf Adanın "Korsar", Boris Yanovskinin "Ferenci", Boris Asafyevin "Bağçasaray fəvvarəsi" ("Bağçasaray fontanı" kimi də yazılıb), Rikardo Driqonun "Arlekinada" əsərlərini uzun müddət repertuarda saxlaya bilib.

Opera teatrının nəzdində yaradılmış xoreoqrafiya studiyasını 1929-cu ildə Qəmər Almaszadə bitirib. Son dərəcə istedadlı rəqqasə elə həmin il teatra solist götürülüb. Növbəti ildə Sara Mirəliyeva, Ədilə Almaszadə, Leyla Cəfərova, Tamara Əliyeva, Ələsgər Hənəfizadə bu studiyada təhsillərini başa vuraraq balet truppasına üzv olublar.

1928-ci ildə sənət ocağı Dövlət Böyük Opera Teatrosu adlanıb. Bəzən "böyük" sözündən sonra "Akademik" titulu da yazılıb. Teatra Mirzə Fətəli Axundzadənin adı verilib. 1932-ci ildə

afişalarda və proqramlarda sənət ocağının adı rəsmi olaraq Böyük Dövlət opera teatrı kimi verilib. Tamaşa adlarının yuxarı hissəsində "türk sektoru" və ya "rus sektoru" sözləri yazılıb. 1934-cü ildə teatr Mirzə Fətəli Axundzadə adına Böyük Opera və Balet Teatrı adlanıb. Bir neçə il sonra isə "böyük" sözü teatrın adından götürülüb.

Teatr 1934-cü ildə Reynqold Qlierin əsasən Bakıda işlədiyi "Şahsənəm" operasını tam variantda, mükəmməl redaksiyada tamaşaya hazırlayıb. İki il əvvəl kollektiv həmin operadan bir pərdəni tamaşaçılara göstərmişdi. Operanın librettosunu Azərbaycan xalq dastanı əsasında dramaturq Cəfər Cabbarlı yazıb. İlk tamaşasından uğur qazanan "Şahsənəm" operasında əsas partiyaları teatrın solistlərindən Şövkət Məmmədova (Şahsənəm), Məmmədtağı Bağırov (Şahvələd), Bülbül, Hüseynağa Hacıbababəyov və Yaqub Rzayev (Qərib), Leyla Təhmasib (Ağca qız), Böyükağa Mustafayev (Bəhram bəy) oxuyublar.

Teatrın Azərbaycan opera truppası 1935-ci ildə daha bir sənət nailiyyəti qazanıb. İlin sonunda Müslüm bəy Maqomayevin Avropa operası üslubunda yazdığı, mövzusu müasir kənd həyatından götürülmüş "Nərgiz" operası tamaşaya qoyulub.

Tamaşaya quruluşu Milli Dram Teatrının baş rejissoru Aleksandr Tuqanov verib. Monumental-romantik məhəbbət operası janrında hazırlanan əsərdə əsas rollarda Leyla Təhmasib və Aliyə Terequlova (Nərgiz), Bülbül və Hüseynağa Hacıbababəyov (Əlyar), Məmmədtağı Bağırov (Həsən kişi və Ağalar bəy), Xanlar Haqverdiyev (Cəfər və Bədəl), Hacıbala Hüseynov və İsmayıl Eloğlu (Bədəl), Məhbubə Paşayeva (Ənbər xanım), R.Çobanzadə (Naznaz xanım və Cahan xanım), Qəmbər Zülalov (Molla Mütəllim) çıxış ediblər.

1920-ci ildən sonraki on yeddi il ərzində Azərbaycan operasının ən parlaq sənət qələbəsi Üzeyir bəy Hacıbəyovun "Koroğlu" əsəri olub. Milli mədəniyyətimizin klassik nümunələrindən sayılan operanın librettosunu xalq dastanı əsasında Heydər İsmayılov və Məmməd Səid Ordubadi yazıblar. Qəhrəmanlıq dastanını tamaşaya rejissor İsmayıl Hidayətzadə hazırlayıb. Tamaşanın bədii tərtibatını gənc rəssam Rüstəm Mustafayev verib. Operanın ilk tamaşası 1937-ci il avprel ayının 30-da olub.

"Koroğlu" operasında mürəkkəb partiyaları Bülbül (Rövşən-Koroğlu), Gülnarə İsgəndərova (Nigar), Hacıbala Hüseynov (Həmzə), Böyükağa Mustafayev (İbrahim xan), Qulam İsgəndərov (Təlxək), Məmmədtağı Bağırov (Həsən xan), Məhbubə Paşayeva (Xanəndə qız), Əli Zülalov (Ehsan paşa), Xanlar Haqverdiyev (Alı kişi), Əlövsət Sadıqov (Eyvaz) ifa ediblər.

Azərbaycan Dövlət Opera və Balet Teatrının truppasında 1937-ci ildə Bülbül, Hüseynqulu Sarabski, Şövkət Məmmədova, Fatma Muxtarova, Həqiqət Rzayeva, Əlövsət Sadıqov, Münəvvər Kələntərli, Şirzad Hüseynov, Aliyə Terequlova, Leyla Təhmasib, Xanlar Haqverdiyev, Məmmədtağı Bağırov, Hüseynağa Hacıbababəyov, Zülfüqar Sarıyev, Məhbubə Paşayeva, Gülnarə İsgəndərova, Qulam İsgəndərov, Rəşid Tahirov, Hüseyn Rzayev, Əli Zülalov, Qəmbər Zülalov, Böyükağa Mustafayev, Məryəm Babayeva, Sona Bağırova Mənzər Məmmədova, İsmayıl Eloğlu kimi vokalçılar vardı. Matvey Levin, Vasil Nikolski və bu kimi solist-müğənnilər azərbaycanca oynanılan tamaşalarda da mürəkkəb vokal xüsusiyyətləri olan obrazların partiyalarını ifa ediblər.

Teatrın balet truppasında Qəmər Almaszadə kimi çox istedadlı balet ustası çalışırdı. Kollektivdə rejissor İsmayıl Hidayətzadə ilə yanaşı, ali təhsil almış Soltan Dadaşov, ixtisas təhsili görmüş gənc rəssam Rüstəm Mustafayev, dirijorlar Müslüm Maqomayev, Əşrəf Həsənov, Niyazi, Əfrasiyab Bədəlbəyli səmərəli yaradıcılıq fəaliyyəti göstəriblər. Milli Dram Teatrının gənc rejissoru Əlihüseyn Rzayev truppada "Şah İsmayıl" və "Leyli və Məcnun" operalarına maraqlı quruluşlar verib.

Həqiqət Rzayeva (Leyli, Əsli, Şahsənəm və Ərəb Zəngi), Xurşid Qacar (Gülzar, Leyli və Əsli), Əlövsət Sadıqov (İbn Səlam, Sofi və sonralar Məcnun, Kərəm), Hüseynağa Hacıbababəyov (Məcnun, Kərəm, Şah İsmayıl və Aşıq Qərib), Məmmədtağı Bağırov (Nofəl, Keşiş, Şahvələd və Aslan şah), Xanlar Haqverdiyev (Məcnunun atası, Aslan şah, Aşıq Həsən) tamaşaçılar tərəfindən rəğbətlə qarşılanırdılar.

Azərbaycan truppası opera teatrının nəzdinə keçəndən sonra yaradıcılıq üçün geniş imkanlar qazanmışdı. Aşağıda göstərilən həmin imkanlar hazırlanan operaların və həmçinin operettaların bədii cəhətdən dəyərini artırır, estetik ifadə vasitələrini gücləndirir, tamaşalara bütövlük və cazibədarlıq gətirirdi. Daha çox nəzəri cəlb edən peşəkarlıq səciyyələri bunlar idi:

tamaşalarda professional xordan istifadə edilirdi;

rəqs nömrələrini teatrın peşəkar balet truppası oynayırdı;

səhnə tərtibatı opera teatrının prinsipləri əsasında işlənilirdi;

truppaya soprano, messo-soprano, bariton, tenor və bas səsli solistlər cəlb olunmuşdular. Bu, "Koroğlu" və "Nərgiz" kimi operaların partituraya uyğun şəkildə oynanılmasma təminat verirdi. Eyni zamanda, muğam operalarındakı Məcnunun atası, Nofəl, Keşiş, Aslan şah, Gülzar və bu kimi dramatik obrazların sənətkarlıqla ifasına zəmin yaradırdı;

truppada üç komik aktyor ştatı vardı;

oynanılan bütün operaları teatrın müxtəlif çalğı alətlərindən ibarət güclü orkestri müşayiət edirdi.

**HÜSEYNQULU SARABSKİ**
**(20.3.1879 - 16.2.1945)**

Görkəmli teatr xadimi, aktyor, rejissor və pedaqoq olub. Milli operamızın, aktyorluq sənətinin yaradıcılarından biridir. Lirik tenor səsi olub və milli muğamlarımızın hamısını məharətlə ifa edib. Tarın ən zil pərdələrində də mürəkkəb muğam guşələrini sərbəst, xoş avazla, məftunedici nıəlahətlə oxuya bilib.

Əsil soyadı Rzayev olan Hüseynqulu Məlik oğlu Bakıdakı İçərişəhərin Yeddilər məhəlləsində doğulub. Babası Hacı Rza və atası Məlik gəmi kapitanı olublar. El arasında kapitana pişkah deyirdilər. Hüseynqulunun atası İrana, Hacıtərxana, Xəzər sahilindəki müxtəlif şəhərlərə səfərlərə çıxırdı. Onun gətirdiyi qazanc ailənin gündəlik güzəranına güclə çatırdı. 1881-ci ildə atası Türküstanda dəmir yol çəkilişinə inşaat materialı apararkən gəmi bütün heyəti və yükü ilə sulara qərq olub. Anası ikinci ərə gedəndən sonra Hüseynqulunun qara günləri başlayıb.

Hüseynqulu Sarabskinin tərbiyəsi ilə əsasən anası Cəvahir xanım məşğul olub və oğluna ilk təhsili də verməyə səy göstərib. Əvvəlcə İçərişəhərdəki Şah məscidinin yanında, 9 saylı evdə yaşayan Anaqızdan ibtidai dini təhsil alıb, sonra bu işi Məsməxanımın yanında davam etdirib. Ancaq mollalığa meyili olmayan Hüseynqulu çərəkəni başa vura bilməyib. Atalığı onu üstüörtülü bazarda papaqçı Babanın yanına şəyirdliyə verib. Sonra o, bənna yanında şəyird durub, ona palçıqdaşıyan olub. Bir müddət isə ağ daş yonana şəyirdlik edib.

Yaxşı səsi, məlahətli avazı olduğuna görə məhərrəmlik təziyələrində mərsiyələr deyir, şəbih tamaşalarında iştirak edirdi.

1897-ci ildə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin açdırdığı kursda rus dilində oxuyub və gələn il Həbib bəy Mahmudbəyovun məktəbinin ikinci sinifinə qəbul olunub. Məktəbdə oxuya-oxuya daş anbarlarına marka vuran işləyib və ayda 15 manat zəhmətHaqqı alıb. Müəyyən müddət "Paşa Dadaşov" gəmisində bəhriyyə (matros) işləyib, Ağ şəhərdə elektrik stansiyasında mühəndis köməkçisi kimi çalışıb. Onu teatra həvəskar aktyorlar Murad Muradov və Mehdi bəy Cabbarlinski cəlb ediblər.

Hüseynqulu Sarabski (Rzayev) səhnəyə ilk dəfə 1902-ci ildə, iyul ayının 1-də çrxıb. Nəriman Nərimanovun "Nadanlıq" dramının tamaşasında Rəsul rolu gələcəyin qüdrətli sənətkarının ilk səhnə obrazı olub. "Müsəlman dram cəmiyyət"ində aktyorluq edib. "Şirkət" adlanan və türk sözü qadağan olunduğuna görə müsəlman sözü ilə əvəz olunmuş dram dəstəsi iki-üç ayda bir yerə cəm olub tamaşalar oynayardı. Hüseynqulu Sarabski 1906-cı ildən 1919-cu ilin payızına qədər "Müsəlman dram cəmiyyəti"ndə, "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin dram dəstələrində, özüünün təşkil etdiyi "Müsəlman opera truppası"nda, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə, Abbasmirzə Şərifzadənin rəhbərliyində "Müsəlman artistləri ittifaqı"nda aktyorluq və rejissorluq edib. 1919-cu ilin 24 oktyabrında bugünkü Akademik Milli Dram Teatrı "Hökumət Türk Teatrosu" adı ilə fəaliyyətə başlayanda Hüseynqulu Sarabski onun truppasının aparıcı aktyorlarından olub. 1925-ci ilin avqustunda opera truppası Akademik teatrın nəzdindən ayrılaraq "Rus operası" adlanan kollektivin nəzdinə keçib və həmin dəstənin öncüllərindən biri Hüseynqulu Sarabski olub. Sonralar "Rus operası" Azərbaycan Dövlət Opera və Balet Teatrı adlandı və Sarabski ömrünün sonuna qədər həmin sənət məbədinin ən qabaqcıl aktyorlarından oldu.

Üzeyir bəy Hacıbəyovun milli operamızın təməl daşı olan "Leyli və Məcnun" əsərində Məcnunun ilk və ən görkəmli ifaçısıdır. O, bu rolda 400 dəfədən artıq çıxış edib. Özü həm dram əsərlərinə, həm də opera və operettalara dəfələrlə quruluşlar verib. Məcnun roluna Üzeyir bəyin tövsiyəsi ilə çağırılıb. Dahi bəstəkar onu Henrix Heynenin "Əl Mənsur" dramının tamaşasında Ərəb rolunda "Hicaz" muğamı üstündə oxuyanda görüb bəyənmişdi.

Milli opera sənətimizin, xüsusən onun ifaçılıq məktəbinin formalaşmasında Hüseynqulu Sarabskinin xidmətləri misilsizdir. O, həmçinin dramaturgiya ilə də məşğul olmuşdur. 1906-cı ildən

başlayaraq yazdığı "Cəhalət", "Axtaran tapar", "Nə tökərsən aşına, o da çıxar qaşığına" pyesləri müxtəlif teatr dəstələrində tamaşaya qoyulub.

Hüseynqulu Sarabskinin hazırladığı tamaşalar, oynadığı opera və dramatik rollar bütün Qafqazda, İranda, Orta Asiyada, Volqa çayı boyundakı türkdilli şəhərlərdə böyük şöhrət qazanmışdı.

Bu dahi sənətkarın yaradıcılığının əsasən dörd qolunu nəzərə çatdırmaq istəyirəm. O, Üzeyir bəy Hacıbəyovun və Zülfüqar bəy Hacıbəyovun bütün operalarına və operettalarına müxtəlif illərdə quruluşlar verib.

Oynadığı əsas dramatik rollar: Dursunəli ("Dursunəli və Ballıbadı", Sultanməcid Qənizadə), Məstəli şah, Əsgər bəy ("Müsyö Cordan və dərviş Məstəli şah" və "Hacı Qara", Mirzə Fətəli Axundzadə), Əl Mənsur ("Əl Mənsur", Henrix Heyne), Fərhad və Zöhhak ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Hacı Qəmbər və Əşrəf bəy, Fəxrəddin ("Hacı Qəmbər" və "Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov), Qurban, Nəcəf bəy, Cəfərqulu xan, Fərhad ("Pəri cadu", "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar" və "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Lyapkin-Tyapkin və Şpekin ("Müfəttiş", Nikolay Qoqol), Montano və Yaqo ("Otello", Vilyam Şekspir), Ağacavad və Qulu, Nadir şah və Şah Təhmas ("Şamdan bəy" və "Nadir şah", Nəriman Nərimanov), Şveytser ("Qaçaqlar", Fridrix Şiller), Dərviş ("Əmir Əbül Üla", Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), Zəvvar ("Səid ibn Bəqqas", Mirzə Məmməd Axundzadə).

Hüseynqulu Sarabski dahi Üzeyir bəy Hacıbəyovun "Rüstəm və Söhrab" (12 noyabr 1909) operasının "Arşın mal alan" operettasının (25 oktyabr 1913) ilk quruluşçu rejissoru olub. Həmçinin Üzeyir bəy və Zülfüqar bəy Hacıbəyovların bütün müsiqi əsərlərinə Bakıda, Tiflisdə, İrəvanda dəfələrlə quruluşlar verib. "Hacıbəyov qardaşlarının müdriyyəti" truppasında tamaşaya hazırlanmış və Mayılov Teatrında göstərilən Müslüm Maqomayevin "Şah İsmayıl" operasının birinci tamaşası 7 mart 1919-cu ildə bəstəkarın və Hüseynqulu Sarabskinin benefisinə oynanılıb.

Hüseynqulu Sarabski əsasən Bakıda, həmçinin Tiflis, İrəvan, Dərbənd, Batum qastrollarında "Ölülər" (Cəlil Məmmədquluzadə), "Əl Mənsur" (Henrix Heyne), "Napoleon muharibəsi və yaxud Moskva yanğını" (Baxmetov), "Yezid ibn Müaviyyə" (Mehdi bəy Hacınski), "Əmir Əbül Üla" (Hüseyn Bədrəddin və Məhəmməd Rüfət), "Cəhalət" (Hüseynqulu Sarabski), "Pəri cadu" (Əbdurrəhimbəy Haqverdiyev), "Xan-xan" (Haşım bəy Vəzirov), "Dilin bəlası" ("Şamdan bəy", Nəriman Nərimanov), "Molla Nəsrəddin" (Qulamrza Şərifzadə), "Xor-xor", "Axşam səbri xeyir olar" (Soltanməcid Qənizadə) tamaşalarına quruluşlar verib. "Ölülər", "Napoleon müharibəsi" və "Pəri cadu" onun ən bitkin quruluşları saylır.

Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Məcnun. Bu rolu ilk dəfə 12 yanvar 1908-ci ildə, Tağıyev teatrının binasında, Hüseyn Ərəblinskinin quruluşunda oynayıb), "Rüstəm və Söhrab" (Rüstəm), "Şah Abbas və Xurşid banu" (Şah Abbas), "Əsli və Kərəm" (Kərəm), "Şeyx Sənan" (Şeyx Sənan), "Ər və arvad" (Mərcan bəy), "Məşədi İbad" (Sərvər), "Arşın mal alan" (Əsgər), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Aşıq Qəpib), "Evliykən subay" (Orduxan bəy), "Əlli yaşında cavan" (Xosrov və Muxtar bəy), Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (Şah İsmayıl), mətni Hacıbaba Şərifovun və musiqi tərtibatı David Slavinskinin "Mehr və Mah" (Mehr) opera və operettalarının ən müxtəlif quruluşlarında əsas partiyaları ifa edib.

1932-ci ildən 1945-ci ilədək Azərbaycan Dövlət konservatoriyasında, Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində muğam sənətindən dərs deyib, Hüseynağa Hacıbababəyov, Məmmədtağı Bağırov, Əlövsət Sadıqov kimi müğənni aktyorları Məcnun və Kərəm rollarına hazırlayıb. 1917-ci ildə Bakıda "Film" aksioner cəmiyyətinin çəkdiyi "Arşın mal alan" filmində Əsgər rolunu oynayıb, "Səbuhi" filmində Aşıq roluna çəkilib.

Hüseynqulu Sarabski Azərbaycan Respublikasının əməkdar artisti (1926) və xalq artisti (1932) fəxri adları ilə təltif olunub.

Məzarı Bakıdakı Fəxri xiyabandadır.

**FATMA MUXTAROVA**
**(26.3.1993- 19.10.1972)**

Milli səhnəmizdə vokal ifaçılığının, klassik dünya operalarında lirik-qəhrəman partiyalarını oxuyan ilk səhnə qaranquşlarından biri də Fatma xanımdır. Messo-soprano səsi olub və bu səs sinədən gəlib, bulaq kimi qaynayıb və bütün not düzümündə sərbəst gəzişə bilib. Qızğın aktyorluq temperamentinə, coşğun daxili ehtirasa, məlahətli, hüsnü-təravətli səhnə görkəminə malik idi. Ecazkar zərif plastikası vardı və hər obrazın xarakterinin estetik səviyyəsinə uyğun olaraq təbiətin bu bəxşişində həssas sənətkar qüdsiyyəti ilə istifadə etməkdə çox bacarıqlıydı.

Onun qəhrəmanları səs genişliyində nə qədər sərbəst davrana bilirdilərsə, aktyorluq ifası, dramatizmın bədii təcəssümü baxımından bir o qədər möhtəşəm görünürdülər. Lirik və fəci, dramatik və emosional duyğuların ən müxtəlif çalarlarını bir obrazın səhnə təsvirində heyrətamiz şəkildə cəmləşdirirdi.

Fatma Səttar qızı Muxtarova 26 mart 1893-cü ildə Cənubi (İran) Azərbaycanın Urmi (Urmiya) şəhərində doğulub. Uşaq yaşlarında ailəsi Rusiyaya köçüb. Əvvəlcə Rostovda yaşayıblar və bir neçə ildən sonra Peterburqda məskunlaşıblar. Taleyin gərdişi bu ailəyə dəhşətli zərbə vurmuşdur, Səttar kişi gözlənilmədən vəfat etmişdir. Peterburqda heç bir yaxın qohumu, simsarları olmayan ailə az keçməmiş bir qarın çörəyə möhtac qalıb. Gözəl və şirin səsi olan, rus dilində sərbəst danışmağı öyrənmiş balaca Fatma evə ruzi gətirmək üçün küçə müğənniliyinə başlayıb.

Məsum qızcığaz əvvəlcə özü şarmanka çalıb oxuyub. Sonralar ifaçılığını qarmonun müşayiəti ilə davam etdirib. Yeni-yeni sirenadalar, nəğmələr, hətta qədim rus romanlarını özünün "Küçə" repertuarına daxil edib. "Katya" təxəllüsü ilə məşhurlaşan Fatma rus meydan teatrının təmsilçiləri skamo-roklara qoşulub, bir müddət küçə oyunbazları ilə şəhərləri gəzib, "təlxəklər" qrupunda solist olub.

Günlərin bir günündə yeniyetmə yaşına qədəm basan Fatma və xalq teatrı truppası Saratova gəliblər. İstedadlı müğənnini təsadüfən dinləyən "Saratovskaya vedomosti" qəzetinin redaktoru A.Arxangelski bu qarabəniz, gözləri nur saçan qızın məlahətli, ecazkar ifasına heyran kəsilib. O, elə həmin gün bu barədə Saratov konservatoriyasının professoru M.Medvedyevə danışıb. Bu iki ziyalının xeyirxahlığı ilə Fatma Muxtarova 1914-cü il-də Saratov Konservatoriyasının vokal şöbəsinə daxil olub.

İki il bu təhsil ocağında vokal ifaçılığının incəliklərinə yiyələnən Fatma xanım 1917-ci ildə Moskvaya köçüb. Dünya şöhrətli Fyodor Şalyapinin köməkiiyi ilə o, Sergey Ziminin şəxsi teatrında ("Ziminin opera teatrı") oxumağa başlayıb. Bu teatrda debütü Aleksandr Serovun "Yusif" operasında Odaliskanın partiyası olub.

Vətəndaş müharibəsi illərində Fatma Muxtarova təbliğat-konsert briqadalarına qoşulub. Onlarla birgə Qırmızı ordunun döyüş bölgələrində konsertlər verib. İstənilən dinləyici auditoriyası üçün çevik və dəyişkən repertuarla çıxış etməyi böyük məharətlə bacaran gənc müğənni 1920-ci ildən başlayaraq Kazanın, Leninqradın (Peterburqun), Kiyevin, Xarkovun, Odessanın, Tiflisin opera teatrlarında oxuyub. Həmin teatrlarda əsasən Qərbi Avropa və rus klassik sənətkarlarının əsas sevgili partiyalarının füsünkar ifaçısı kimi şöhrətlənib. Buna görə də onu vaxtaşırı bir teatrdan digərinə dəvət ediblər.

Sənətin kamillik zirvəsinə çatan, vokal ifaçılığının ən zərif və emosional incəliklərini mənimsəyən Fatma xanım həm yaşının, həm də sənətkarlığının müdrik çağında, 1938-ci ildə Bakıya dəvət alıb. Həmin ildən 1953-cü ilə qədər Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrında solist işləyib.

Fatma Muxtarovanın yaradıcılığını zinətləndirən, səs diapazonunun genişliyinə vüsət açan, yaradıcılıq əlvanlığına təravət gətirən əsas partiyaları belə düzümdə sıralamaq olar: Marfa və Marina, ("Xovanşina", Modest Musorqski), Lyubaşa, Bahar ("Çar gəlini" və "Qar qız", Nikolay Rimski-Korsakov), Amneris, Auzçena, Madalena ("Aida", "Trubadur" və "Riqoletto", Cüzeppe

Verdi), Dalila ("Samson və Dalila", Kamal Sen Sans), Aksİnya ("Sakit Don", İvan Dzerjinski), karmen ("Karmen", Jorj Bize. Tərcümə edəni Nigar Rəfibəyli), Qrunya ("Potyomkin zirehli gəmisi", Oles (Aleksandro) Çişko), Zibel ("Faust", Şarl Quno), Lyubov ("Mazepa", Pyotr Çaykovski), Qrafinya Polina "Qaratoxmaq qadın", Pyotr Çaykovski), Vanya ("İvan Susanin", Mixail Qlinka), Ortruda ("Loenqrin", Rixard Vaqner), Puqaçovun arvadı ("Qartal qiyamı" və ya "Puqaçovçular", Andrey Paşşenko), konçakovna ("Knyaz İqor", Aleksandr Borodin), Əzra ("Nizami", Əfrasiyab Bədəlbəyli).

Görkəmli opera solistinin yaradıcılığının zirvəsi Karmen partiyası sayılır. Müğənni bu partiyanı müxtəlif teatrlarda zəfərlə ifa etmişdir. Fatma Muxtarovanın karmenin ifasında əldə etdiyi nailiyyət dünyanın ən qüdrətli ifaçılarının həmin partiyada qazandıqları qələbələrlə bir cərgədə dəyərləndirilir. O, bu partiyanı həm Azərbaycan, həm də rus dillərində oxumuşdur.

Fatma Muxtarova müxtəlif opera teatrlarının səhnəsində klassik ifaçılardan Fyodor Şalyapin, Bülbül, Sergey Lemeşev ilə birgə çıxış etmişdir.

Onun son dərəcə zəngin fəlsəfi, estetik, psixoloji cəhətdən dərin, ifa baxımından səs əlvanlığı və genişliyini özündə təcəssüm etdirən konsert proqramı var idi. Solist-vokalçı kimi bir sıra dünya şöhrətli konsert salonlarında möhtəşəm çıxışları olub.

Tiflis opera teatrının səhnəsində qazandığı nailiyyətlərə, milli opera sənətimizin tərəqqisindəki böyük xidmətlərinə görə vokal ustası, opera solisti 1936-cı ildə Gürcüstan Respublikasının əməkdar artisti və 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının xalq artisti fəxri adları ilə təltif olunub.

Fatma xanım Səttar qızı Muxtarova 19 oktyabr 1972-ci ildə Bakıda vəfat edib və ikinci Fəxri xiyabanda dəfn olunub.

## ŞÖVKƏT MƏMMƏDOVA
## (18.4.1897- 8.6.1981)

Dahi Azərbaycan opera müğənnisidir. Klassik Avropa üslubunda oxuyan və opera partiyaları ifa edən ilk peşəkar milli sənətkarımızdır. Görkəmli musiqi xadimi, pedaqoq və təşkilatçı idi. Yüksək səhnə mədəniyyəti vardı. Həssas və zərif musiqi duyumu, səsinin lirik axıcılığı ilə seçilirdi.

Şövkət xanım Məmmədova 18 aprel 1987-ci ildə Tiflis şəhərində doğulub. Atası Həsən Məmməd oğlu nəslən Borçalı qəzasının Qoşa kilsə kəndindən idi. Tiflis şəhərinə 1889-cu il-də köçmüşdü və burada kiçik çəkməçi dükanı açıb kustar istehsalla məşğul olurdu. Ailəsinə sadiq olduğu general Yadigarovgildə həmyerlisi, imkanlı ailədən olan Xurşud xanım Sultanova ilə tanış olmuş və onunla evlənmişdir. Bu izdivacdan Şövkət və Muqbil dünyaya gəlmişlər.

Musiqi istedadı ona ana südüylə keçmişdir. Dayısı və xalası qarmon və dəf çalır, çoxlu Azərbacan xalq mahnıları bilirdilər. Anası Xurşud xanım və qardaşı Muqbil də qarmonda çalırdılar. Balaca Şövkət, necə deyərlər, gözünü nəğməylə açıb mahnı ilə yuxuya gedirdi və buna görə də 6 yaşından peşəkar musiqi ilə məşğul olmağa başlayıb.

Əvvəlcə onu A.Kitesin Ev məktəbinə veriblər. Bir il sonra Müqəddəs Nina məktəbində oxuyub. Həmin məktəbin rəhbəri Peterburqda musiqi təhsili almış Yelena Kandelaki idi və bu xanım Şövkətin istedadına, mehribanlığına, diribaşlığına heyranlıqla vurulmuşdu. O, pianoçu Levinanın müşayiəti ilə Şövkətlə özü məşğul olurdu. Qızın bütün tapşırıqları məharətlə yerinə yetirməsi müəllimlərini heyrətə gətirmişdi. Buna görə də onu 1859-cu ildə təşkil edilən Romanovlar (İmperiya) Musiqi Cəmiyyətinin nəzdindəki musiqi məktəbinin fortepiano sinifinə veriblər. Müəlliməsi Tamara İosifona Stepanovna idi. Dayısı Əmir onun üçün fortepiano almışdı ki, evdə də müstəqil məşğul ola bilsin. Qısa müddətdə o, İohan Sebastian Baxın fuqa və prelyüdlərini, Volfqanq Amadey Motsartın və Frans Yozev Haydnın sonatalarını sərbəst çalırdı.

On yaşında olanda Şövkət xanım ilk dəfə opera teatrına gedib və burada italyan müğənnisi Aida Qonzalın (Cilda) ifasında Cüzeppe Verdinin "Riqoletta" operasına baxıb. Sonra o, müğəninin ifasında Leo Delibin eyniadlı operasında Lakmenin partiyasını dinləyib. Bundan sonra evdə "Küçələrə su səpmişəm", "Qalanın dibində", "Ay bəri bax" Azərbaycan və Suliko gürcü xalq mahnılarını, Aleksandr Rubinişteynin "Əzra" romansını tez-tez oxuyub. Hətta fortepianoda özü öz ifasını müşayiət edib.

Atası Həsən kişi 1910-cu ildə qəfildən vəfat edib. Sarsılmış qızcığaz anasının və müəlliməsinin nəvazişli qayğıları ilə musiqi təhsilindən ayrılmayıb. Həmin ili Novruz bayramında Tiflisin Artistlər cəmiyyətində (bugünkü Şota Rustaveli adına Gürcüstan Dövlət Akademik Dram Teatrının binası) qrafinya Vorontsova-Dalikovanın təşkil etdiyi bayram konsert-mərasimində italyan və rus romansları, Azərbaycan xalq mahnısı oxuyub və böyük uğur qazanıb. Elə bu il də musiqi məktəbini bitirib. Nənəsi ilə Bakıya gələn Şövkət xanım yerli maarifçi ziyalıların, ilk növbədə Üzeyir bəy Hacıbəyovun, Məmmədhənifə Terequlovun, Hüseynqulu Sarabskinin, Müslüm bəy Maqomayevin köməkliyi ilə müəyyən vəsait toplaya bilib və ali vokal təhsili almaq üçün İtaliyanın Milan şəhərinə yola düşüb. Messenat, Bakı milyonçusu Zeynalabdin Tağıyev hər ay ona xüsusi təqaüd göndərirdi. Arada bu təqaüd gəlmədiyinə görə tələbə qız maddi çətinliklərlə üzləşib və təhsilini yarımçıq qoymalı olub.

Şövkət Məmmədovanın ilk sənət müəllimәsi məşhur opera müğənnisi, uzun illər Milanın "La Skala" teatrında işləmiş, əlli yaşına çatmasına baxmayaraq ifa və səhnə təravətini itirməyən Dotti Ambrozio olub. O, gənc müğənni ilə səkkiz ay məşğul olub və həmin vaxtın tamamında Şövkət xanım XVII və XVIII əsr İtaliya bəstəkarları Montverdinin, kovallenin, krassiminin, Perqolezinin mürəkkəb əsərlərini məharətlə ifa edə bilirdi.

Belə bir vaxtda Şövkət Məmmədovanın maddi vəsaiti tam tükənib və o, nicat üçün, yenidən təhsilini davam etdirmək naminə Bakıya gəlib. 1912-ci ilin 13 aprelində Üzeyir bəyin rəhbərliyi, həkim A.Axundovun qayğısı ilə Tağıyev teatrı binasında "Ər və arvad" operettası oynanılıb və yığılan vəsait bütünlüklə Şövkət xanıma verilib. Hətta tamaşadan sonra verilən konsertdə Şövkət xanım ilk azərbaycanlı qadın müğənni kimi səhnəyə çıxıb (Yakov Lyubarskinin akkomonentliyi ilə). Konsert Bakı qoçularını bərk qəzəbləndirib və mənzilində yaşadığı həkim Axundovun riski ilə müğənni gizlin yolla teatrdan çıxarılıb və Biləcəri stansiyasından Tiflisə yola salınıb.

Tiflisdə Şövkət Məmmədova musiqi təhsilini davam etdirib. 1915-ci ildə müğənninin əri Yakov İsayeviç Lyubarski Tiflisə gəlib. O, Kiyevdə Politexnik institutunda təhsil almaq üçün yola düşəndə gələcəyin qüdrətli opera solisti də onunla gedib. Orada Şövkət xanım böyük musiqi xadimləri ilə, o cümlədən Reynqold Qlierlə, opera solistləri Flora Paşkseniya Dzejinskaya, Vorents Motvid, gələcəyin yazıçısı, tələbə Yusif Vəzir Çəmənzəminli ilə tanış olub. Kiyev konservatoriyasında A.Şperlinqin vokal sinifində oxuyub. Qlierlə birlikdə verdiyi konsertlərdə həm kiassik Avropa operalarından ariyalar, həm də Azərbaycan xalq mahnıları ifa edib. 1920-ci ildə Kiyevdə tələbələrin təşkil etdikləri Gürcü dərnəyində hazırlanan Valerian Qunianın "Qardaş və bacı" (Marina), David Eristavinin "Vətən" operalarında, Şalva Dadianinin "Şeni çiri me" ("Qadan alım") komediyasında, Valerian Qunianın "Vəkilin yanında" (Naznani), "Vəba vaxtı" (Eteri) məzhəkəİərində çıxış edib.

1921-ci ildə Şövkət Məmmədova Bakıya gəlib. Uzeyir bəy Hacıbəyov, Müslüm bəy Maqomayev, Zülfüqar bəy Hacıbəyov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid və Cəfər Cabbarlı ilə yaradıcılıq ünsiyyəti onun geniş sənət yoluna çıxmasına zəmin yaratmışdır. Həmin illərdə Azərbaycan opera truppası Milli Dram Teatrı nəzdində fəaliyyət göstərirdi (1925-ci ilin avqustuna qədər). Əvvəlcə Rus Operası, sonra Böyük Dövlət Opera Teatrosu adlanan kollektiv indiki Opera və Balet Teatrının binasında fəaliyyət göstərir, yalnız Avropa və rus operalarını tamaşaya hazırlayırdı. 1925-ci ildə Azərbaycan truppası da bu kollektivə daxil edildi, daha neçə il keçəndən sonra balet truppası təşkil olundu və sənət ocağı Azərbaycan Dövlət Opera və Balet Teatrı adlandı.

Şövkət Məmmədova bu teatrın səhnəsində ilk dəfə Cüzeppe Verdinin "Traviata" operasında Violeninanın partiyasını oxuyub. 1948-ci ilə qədər müxtəlif fasilələrlə teatrın solisti olub. 1927-1929-cu illərdə ikinci dəfə İtaliyaya gedib. Burada həm peşəkarlıq ustalığını təkmilləşdirib, həm də Roma, Venetsiya, Neapol, Florensiya, Piza şəhərlərinin musiqi və memarlıq incəsənətini görüb, sevib, öyrənib. Dünyanın ən məşhur kiassik və müasir bəstəkarlarının əsərlərindən, milli xalq mahnılarından ibarət zəngin konsert repertuarı yaradıb. Azərbaycan qadın peşəkar vokal məktəbinin bünövrəsmi qoyub, onu inkişaf etdirib, formalaşdırıb.

Bununla belə, opera teatrının solisti kimi keçdiyi yaradıcılıq yolu öz əzəməti və vüsəti, monumental sənət nailiyyətləri ilə dünya səviyyəsində tanınıb, sevilib və şöhrətlənib. Zəmanəsinin canlı klassiklərinin incilərindən oxuduğu əsas partiyalardakı ifa mədəniyyəti günü bu gün də çağdaşlıq təravətini, sənət hüsnünü qoruyub saxlayır. Gənclər ondan bir məktəb, bir xəzinə kimi bəhrələnirlər.

Təkcə bu rolların siyahısı bir sənətkar ömrünün cahan-şümul təntənəsi üçün yetərincə görünür: Violetta, Cilda ("Traviata" və "Riqoletto", Cüzeppe Verdi), Rozina ("Sevilya bərbəri", Coakkino Rossini), Lakme ("Lakme", Leo Delib), Olimpiya ("Hofmanm nağılları", Jak Offenbax), Qar qız ("Qar qız", Nikolay Rimski-Korsakov), Marqarito ("Qugenotlar" Coakomo Meyerber), Antonida ("İvan Susanin", Mixail Qlinka), Nərgiz ("Nərgiz", Müslüm bəy Maqomayev), Gülzar ("Şahsənəm", Reynqold Qlier), Gülçöhrə ("Arşm mal alan" Üzeyir bəy Hacıbəyov).

Şövkət xanım Məmmədova dahi opera solistliyindən görkəmli vokal ustalığından əlavə, həm də məşhur teatr xadimi idi. Onun təşəbbüsü ilə 1923-cü ildə Bakıda Mirzə Fətəli Axundzadə adına Türk Dövlət Teatr Məktəbi açılıb. Özü 1923 - 1925-ci illərdə məktəbin direktoru işləyib. Azərbaycanın, həmçinin Özbəkistanın, Türkmənistanın və Dağıstanın ən məşhur səhnə ustaları məhz bu məktəbin yetirmələri olublar. İyirminci illərin əvvəllərində Şövkət xanım Bakıda iik not nəşriyyatını təsis etmişdir. 1939 - 1945-ci illərdə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrında direktor işləyib. Məhz onun təşəbbüsü ilə Əfrasiyab Bədəlbəylinin ilk Azərbaycan baleti "Qız qalası"nın ilk tamaşası 18 aprel 1940-cı ildə bayram təntənəsi ilə keçmişdir.

Vaxtilə Azərbaycanda müxtəlif teatr cəmiyyəti və ittifaqı fəaliyyət göstərmişdir. 1945-ci ildə bu qurumlar Azərbaycan Teatr Cəmiyyəti adı ilə yenidən təsis edilmiş və onun ilk sədri Şövkət xanım olmuşdur. O, bu vəzifədə 1952-ci ilə qədər ehtiraslı enerji ilə çalışmışdır. Hazırda həmin cəmiyyət Azərbaycan Teatr Xadimləri İttifaqı adlanır. 1945-ci ildə Teatr Cəmiyyətinə sədr seçilən Şövkət Məmmədova Üzeyir bəy Hacıbəyovun rektor olduğu Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətə başlayıb. Vokal Kafedrasının müdiri (1946 - 1947) və dekanı (1946 - 1950) olub.

Vokal təhsil sisteminin dünya sənət ölçüləri səviyyəsində qurulmasında böyük işlər görüb və 2 iyul 1949-cu ildə professor elmi rütbəsinə yiyələnib. SSRİ xalq artistləri Firəngiz Əhmədovanın və Müslüm Maqomayevin yetişib formalaşmasında Şövkət xanımın müstəsna rolu var.

Birincidən başlayaraq dörd çağırış Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin deputatı seçilib. Ən müxtəlif Beynəlxalq festivallarda və müsabiqələrdə münsiflər heyətinin üzvü seçilib.

Konservatoriyada işinin çoxluğu və vaxtının azlığı ilə bağlı Şövkət xanım 1948-ci ildə opera teatrının solistliyindən çıxıb. O, özünün qu nəğməsi üçün Cüzeppe Verdinin "Traviata" operasını seçmişdi. Teatra gəlişi və vidası Violettanın partiyası olan sənətkar böyük Konsetrlərdə müğənni kimi nümunəvi çıxışlar etmişdi.

1938-ci ilin aprelində Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadası keçirilib. Orada Üzeyir bəy Hacıbəyovun "Koroğlu", Müslüm bəy Maqomayevin "Nərgiz" və Reynqold Qlierin "Şahsənəm" operaları və Üzeyir bəyin "Arşın mal alan" operettası göstərilib. Şövkət xanım Şahsənəmin və Nərgizin partiyalarını misilsiz füsunkarlıqla ifa edib.

Dekadanın böyük nailiyyətlərinə və musiqi yaradıcılığı fəaliyyətlərinə görə 17 aprel 1938-ci ildə Şövkət xanım Məmmədova SSRİ xalq artisti fəxri adı ilə təltif olunub.

Şövkət Məmmədova Tiflisin, Odessanın, Moskvanın, Kiyevin, Peterburqun, Daşkəndin, Parisin, Təbrizin ən böyük opera teatrlarında və nəhəng Konsert salonlarında Kamera-vokal nümunələri ifa etmiş, opera qəhrəmanlarının partiyalarını oxumuşdur.

Azərbaycan və Dünya klassik bəstəkarlarının müxtəlif janrlı vokal əsərləri Şövkət xanımın ifasında lentə alınmış və vala yazılmışdır.

Milli səhnə sənətimizin fəxri, həmişə parlaq ulduzu Şövkət xanım Həsən qızı Məmmədova 8 iyun 1981-ci ildə Bakida vəfat edib və Fəxri xiyabanda dəfn olunub. Adına Bakida Opera studiyası və küçə var.

## AZƏRBAYCAN DÖVLƏT OPERA VƏ BALET TEATRI (1938 - 1970)

Teatrın 1938-ci ildə ən böyük uğuru Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti dekadasında olub. Kollektiv Böyük Teatrda Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (9 və 15 aprel) operettasını, "Koroğlu" (5 və 6 aprel), Müslüm Maqomayevin "Nərgiz" (11 aprel), Reynqold Qlierin "Şahsənəm" (7, 8 və 13 aprel) operalarını nümayiş etdirib. Bülbül dekada tamaşalrında koroğlu, Qərib, Əlyar və Əsgərin, Şövkət Məmmədova Nərgiz və Şahsənəmin, Gülarə fsgəndərova Nigarın, Səltənət Quliyeva Gülçöhrənin, Məmmədtağı Bağırov Həsən xanın partiyalarını uğurla ifa ediblər. Dekadada milli incəsənətimizin qazandığı nailiyyətlərə görə Üzeyir bəy Hacıbəyov, Şövkət Məmmədova, Bülbül, Reynqold Qlier SSRİ xalq artisti fəxri adları ilə təltif olunublar (17 aprel 1938). Kollektiv Bakıya qayıtdıqdan sonra musiqili komediya truppası teatrdan ayrılıb və may ayının 30 -da müstəqil sənət ocağı kimi fəaliyyət göstərib.

Azərbaycan opera teatrının 30 illk yubileyi dekada ilə əlaqədar bir il sonraya keçirilib. Teatr 1939-cu ilin fevral və mart aylarında özünün yeni quruluşda və üzərində əsaslı işlənilmiş yubiley tamaşalarını teatrsevərlərə təqdim edib. Mərasimin proqramına "Leyli və Məcnun" (rejissor Soltan Dadaşov, rəssam N.Naydışev, dirijor Əhəd İsrafilzadə), "Arşın mal alan" (rejissor İsmayıl Hidayətzadə, rəssam Ədhəm Sultanov, dirijor Əhəd İsrafilzadə), "Şah İsçmayıl" (rejissor Soltan Dadaşov, rəssam Həsən Mustafayev, dirijor Əhəd İsrafilzadə), "Şahsənəm" (rejissor Ədil İsgəndərov, dirijor Əfrasiyab Bədəlbəyli), "Nərgiz" (rejissor Soltan Dadaşov, rəssam Həsən Mustafayev, dirijor Vladimir Traximoviç) və "Koroğlu" (rəssam Həsən Mustafayevin yeni tərtibat işləməsində) tamaşaları daxil idi.

Bu il teatr Şarl Qunonun "Faust" (5 iyun. Mefistofel-Vasili Nikolski) operasını, Sezar Puninin "Esıneralda" (30 may. Esmeralda-Qəmər Almaszadə, Qvazimoda-Konstantin Bataşov) baletini repertuarına daxil edib.

1940-cı ildə teatrın tarixində sənət hadisəsi olub, səhnədə ilk Azərbaycan baleti göstərilib. Bu, Əfrasiyab Bədəlbəylinin "Qız qalası" əsəri idi və onun quruluşunu baletmeysterlər Sergey Kevorkov və Vaxtanq Voronski, rejissor İsmayıl Hidayətzadə veriblər. Əsas partiyaları Qəmər Almaszadə (Gülyanaq), Konstantin Bataşov (Polad) və Anatoli Urvantsev (Cahangir xan) ifa ediblər.

Bu il opera truppasının daha uğurlu işi Mixail Qlinkanın "İvan Susanin" (24 fevral. Dirijor Əşrəf Həsənov, rəssam Mirra Panadiadi) və Cüzeppe Verdinin "Otello" (2 oktyabr. Dirijor Vladimir Traximoviç, rəssam Mirra Panadiadi) operalarının tamaşaları olub. Hər iki əsər teatrın repertuarında çoxdan vardı, lakin baş rejissor Viktor Rappoportun əsaslı bərpa-işləməsində premyera kimi göstərilib.

1941-1945-ci il Böyük Vətən müharibəsində teatr yaradıcılığını səfərbər edərək vətənpərvərlik mövzularına üstünlük verməyə çalışıb. Kollektiv müəyyən briqadalara bölünüb

əsgərlər qarşısında çıxışlar ediblər. Müharibə yeni başlayanda teatr İranda qastrolda olub. Dörd il ərzində teatrın repertuarı müəyyən təzə quruluşlarla və orijinal operalarla əlvanlaşıb. Opera truppası Vladimir Kryukovun "Stansiya nəzarətçisi" (29 yanvar 1941. Rejissor Viktor Rappoport. Rəssam Həsən Mustafayev, dirijor Əfrasiyab Bədəlbəyli), Niyazinin "Xosrov və Şirin" (7 may 1942. Rejissor İsmayıl Hidayətzadə, rəssam Aleksandr Filippov, dirijor Niyazi), Qara Qarayevlə Cövdət Hacıyevin "Vətən" (4 may 1945. Rejissor İsmayıl Hidyətzadə, rəssam İzzət Seyidova, dirijor Niyazi) əsərlərini tamaşaya hazırlayıb. Uşaqlar üçün Marian Kovalın "Canavar və yeddi çəpiş" (1941. Rejissor Viktor Roppoport, rəssam Mirra Panadiadi, dirijor Vladimir Traximoviç) operası oynanılıb.

Bu müddətdə balet truppasının da müəyyən uğurlu işləri olub. Rikardo Driqonun "Arlekinada" (baletmeyster İqor Arbatov, rəssam Ənvər Almaszadə, dirijor Əfrasiyab Bədəlbəyli və Vladimir Traximoviç), Boris Zeydmanın "Maskarad" (rejissor Pyotr Tveretski, rəssam İzzət Seyidova, dirijor Əfrasiyab Bədəlbəyli), Pyotr Çaykovskinin "Sonalar gölü" (balet-meyster Georgi Kevorkov, rəssam Mirra Panadiadi, dirijor Əfrasiyab Bədəlbəyli) baletləri tamaşaya hazırlanıb.

Beş il ərzində teatrın premyeraları içərisində əvvəllər başqa quruluşlarda göstərilmiş Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" (6 mart 1941. Rejissor Pyotr Tveretski, rəssam İzzət Seyidova, dirijor Niyazi), Aleksandr Borodinin "Knyaz İqor" (21 sentyabr 1941. Rejissor Viktor Ropoport, rəssam Aleksandr Filippov, dirijor Əşrəf Həsənov), Eduard Napravnikin "Dubrovski" (12 fevral 1942. Rejissor Pyotr Tveretski, rəssam Aleksandr Filippov, dirijor Vladimir Traximoviç) operalarının səhnə təfsirləri maraq doğurub. Coakkino Rossininin "Sevilya bərbəri" (7 noyabr 1943. Rejissor Viktor Rpoport. Tərcüməçilər Məmməd Səid Ordubadi və Əfrasiyab Bədəlbəyli) Azərbaycan dilində oynanılıb. Əsas partiyaları Ağababa Bünyadzadə və İdris Ağalarov (Fiqaro), Hüseynağa Hacıbababəyov (Qraf Almaviva), Böyükağa Mustafayev (Don Bazilio), Şövkət Məmmədova, Gülarə İsgəndərova və Elmira Axundova (Rozina), Məmmədtağı Bağırov (Don Bartolo) ifa ediblər.

Rejissor İsmayıl Hidayətzadə "Koroğlu" operasını 1943-cü ildə rus truppası ilə tamaşaya hazırlayıb. Əsas partiyaları Aleksandr Drozdov (Koroğlu), Konstantin Knijnikov (Həsən xan), Mariya Titarenko (Nigar), Vasili Nikolski (İbrahim xan) oxuyublar.

1948-1970-ci illər ərzində ADOBT-də "Leyli və Məcnun", "Əsli və Kərəm" "Şah İsmayıl" operaları yeni quruluşlarda və müəyyən əsaslı bərpalarda daim repertuarda qalıb. Lakin əsas rolların ifaçılar sırası həmişə yeni-yeni istedadların hesabına zənginləşib. Məcnunun və Kərəmin Əlövsət Sadıqov, Şirzad Hüseynov, Xanlar Haqverdiyev, Əbülfət Əliyev, Qulu Əsgərov, Bakır Haşımov, Arif Babayev, Mais Salmanov, Əli Mehdiyev, Hüsnü Qubadov, Leylinin və Əslininin Yavər Kələntərli, Məhbubə Paşayeva, Gülxar Həsənova, Sima Haşımlı, Sara Qədimova, Rübabə Muradova, Zeynəb Xanlarova, Rəsmiyyə Sadıqova kimi maraqlı ifaçıları yetişib. Teatrda azərbaycanlı bəstəkarların yeni opera və balet əsərləri tamaşaya hazırlanıb. Bu tamaşaların bəziləri müəyyən musiqi zəifliklərinə, rejissor qüsurlarına və ifa nöqsanlarına baxmayaraq, milli mədəniyyətimizin təkamülü istiqamətində dəyərli addımlar kimi yadda qalıb.

## OPERALAR

**1948, 12 dekabr**. "Nizami", Əfrasiyab Bədəlbəyli. Rejissor İsmayıl Hidayətzadə, rəssam Fyodor Qusak, dirijor müəllif. Əsas partiyaları oxuyublar: Bülbül (Nizami), Fatma Muxtarova (Əzra), Ağababa Bünyadzadə (Şapur), Sona Mustafayeva (Rəna), Hüseynağa Hacıbababəyov (Xosrov), Böyükağa Mustafayev (Əmir Haris).

**1955, 8 may**. "Sevil", Fikrət Əmirov. Rejissor Mehdi Məmmədov, rəssam İzzət Seyidova və Ənvər Almaszadə. Əsas partiyaları oxuyublar: Firəngiz Əhmədova və Firuzə Məmmədova (Sevil), Rəşid Behbudov, Yaqub Rzayev və Rauf Atakişiyev (Balaş), Rəhilə Cabbarov və İvetta Krasyova

(Gülüş), Ağababa Bünyadzadə və Cavanşir Qafarov (Atakişi), Xanlar Haqverdiyev və Qulam İsgəndərov (Babakişi), Mariya Titarenko (Dilbər), Məmmədtağı Bağırov və Faiq Mustafayev (Əbdüləli bəy).

**1957, 29 noyabr**. "Azad", Cahangir Cahangirov. Rejissor Mehdi Məmmədov, tərtibatçı rəssam Əyyub Fətəliyev, geyim rəssamı Kazım Kazımzadə, dirijor Kamal Abdullayev. Baş rollarda: Firəngiz Əhmədova, Firuzə Muradova və Mariya Titarenko (Səriyyə Azad), Kazım Məmmədov (Ayaz), Cavanşir Qafarov və Mürsəl Bədirov (Həjər), Qafar Əliyev (Xəlil Azadlı), Roman Trifonov (Xan), Ağababa Bünyadzadə, İdris Ağalarov və Cavanşir Qafarov (Yavər).

**1960, 8 iyun**. "Vaqif", Ramiz Mustafayev. Rejissor Soltan Dadaşov, tərtibatçı rəssam Əyyub Fətəliyev, geyim rəssam Izzət Seyidova, dirijor Kamal Abdullayev, rəqslərin quruluşçusu Leyla Vəkilova. Əsas rollarda çıxış edirdilər: Lütfiyar İmanov (Vaqif), Firəngiz Əhmədova, Firuzə Muradova və Tatyana Bədirova (Xuraman), Kazım Məmmədov (Əli bəy), Xurşid Qurbanova (Gülnar), Mustafa Topçiyev və Cavanşir Qafarov (Vidadi), Ağababa Bünyadzadə (İbrahim xan), İdris Ağalarov və Mürsəl Bədirov (Eldar), Gülxar Həsənova və Simuzər Hətəmova (Qarı), Qəmbər Zülalov və Ağarəhim Hüseynov (Şeyx Alı), Qulu Əsgərov (Xanəndə), Qafar Əliyev (Vəzir).

**1961, 20 noyabr**. "Bahadır və Sona", Süleyman Ələsgərov. Rejissor Şəmsi Bədəlbəyli, rəssam Əyyub Fətəliyev, dirijor Əfrasiyab Bədəlbəyli. Əsas partiyaları oxuyublar: Rauf Atakişiyev və Lütfiyar İmanov (Bahadır), Firəngiz Əhmədova və Firuzə Muradova (Sona), Ağababa Bünyadzadə və Mustafa Topçiyev (Aşot), Rəhilə Cabbarova və İvetta Krasyova (Maşo), Mürsəl Bədirov və Cavanşir Qafarov (Soltan), Xurşid Qurbanova və Gülxar Həsənova (Təravət xanım), Firudin Mehdiyev və Kazım Məmmədov (Haqverdi bəy).

**1963, 1 mart**. "Tülkü və alabaş", İbrahim Məmmədov. Uşaq operası. Rejissor Soltan Dadaşov, rəssam Ənvər Almaszadə, dirijor Kazım Əliverdibəyov, rəqslərin quruluşçusu Konstantin Bataşov. Əsas rollarda: Cavanşir Qafarov (Alabaş), Firudin Mehdiyev (Xoruz), Rəhilə Cabbarova (Ana toyuq), Qafar Əliyev (Canavar), Alla Rəhimova (Çəyirtkə).

**1963, 11 noyabr**. "Ölülər", Vasif Adıgözəlov, Rejissor Şəmsi Bədəlbəyli, rəssam Əyyub Fətəliyev, dirijor Niyazi. Əsas partiyanın ifaçıları: Lütfiyar İmanov və Kazım Məmmədov (İsgəndər), Cavanşir Qafarov və Qafar Əliyev (Hacı Həsən ağa), Ağababa Bünyadzadə və Mustafa Topçiyev (Şeyx Əhməd), Xurşid Qurbanova və Rəhilə Cabbarova (Fatmanisə), Ağarəhim Hüseynov (Mirbağır ağa).

## B A L E T L Ə R

**1950, 30 dekabr**. "Gülşən", Soltan Hacıbəyov. Rejissor Soltan Dadaşov, baletmeyster Qəmər Almaszadə, rəssam Ənvər Almaszadə. Əsas rollarda: Qəmər Almaszadə (Gülşən), Konstantin Bataşov (Azad), Yuri Kuznetsova (Əhməd). Bəstəkar, dirijor və baş partiyaların ifaçıları Stalin mukafatına layiq görülüblər (1952).

**1952, 7 noyabr**. "Yeddi gözəl", Qara Qarayev. Rejissor İsmayıl Hidayətzadə, baletmeyster Pyotr Qusev, rəssamlar Ənvər Almaszadə və Fyodor Qusak, dirijor Kamal Abdullayev. Əsas partiyaların ifaçıları: Qəmər Almaszadə və Leyla Vəkilova (Aişə), Yuri Kuznetsov və Konstantin Bataşov (Bəhram şah), Maqsud Məmmədov və Konstantin Bataşov (Mənzər), Anatoli Urvantsev və Kamal Həsənov (Vəzir).

**1962, 12 noyabr.** "Məhəbbət əfsanəsi", Arif Məlikov. Baletmeyster Yuri Qriqoreviç, rəssam Simon Virsaladze, dirijor Niyazi. Əsas partiyaları ifa ediblər: Leyla Vəkilova və Rəfiqə Axundova (Şirin), Maqsud Məmmədov və Dönməz Hacıyev (Fərhad), Raisa İzınayılova və Viktoriya Dankeviç (Məhkmənə banu), Konstantin Bataşov və Mixail Qavrikov (Vəzir).

**1965, 15 sentyabr**. 15 sentyabr. "Qaraca qız", Əşrəf Abbasov. Baletmeyster Qəmər Almaszadə, rəssam Ənvər Almaszadə, dirijor Əfrasiyab Bədəlbəyli. Əsas partiyaların ifaçıları: Leyla Vəkilova və Tamella Şirəliyeva (Qaraca qız), Konstantin Bataşov (Piri baba), Xumar

Zülfüqarova və Maya Bədirova (Gülcahan), Çimnaz Babayeva və Svetlana Burlakova (Ağca qız), Raisa İzmayılova və Lüdmila Pavliy (Yasəmən).

**1967, 29 dekabr**. "Xəzər balladası" (xoreoqrafik süita), Tofiq Bakıxanov. Baletmeyster Maqsud Məmmədov, rəssam İzzət Seyidova, dirijor Kazım Əliverdibəyov. Neft, Dəniz, Alov... rəmzi obrazlarında Tamilla Şirəliyeva, Tofiq Məmmədov, Ramazan Arifulin, Rüfət Zeynalov, Sima Feyzullayeva, Pyotr Yusupov çıxış edirdilər.

**1968, 27 dekabr**. "Şur" (xoreoqrafik novella), Fikrət Əmirov. Baletmeyster Qəmər Almaszadə, rəssam Simon Virsaladze, dirijor Kazım Əliverdibəyov. Əsas rollarda: Leyla Vəkilova, Çimnaz Babayeva və Tamella Şirəliyeva (Qız), Zaur Zeynalov və Vladimir Pletnyov (Gənc oğlan), Konstantin Bataşov və Volodya Stryukov (Əhriman).

**1969, 6 fevral**. "Yallı" və "Azərbaycan süitası" (xoreoqrafik miniatürlər), Rauf Hacıyev. Baletmeyster Rəfiqə Axundova və Maqsud Məmmədov, geyim rəssamı Tahir Tahirov. Soloları Rüfət Zeynalov və Tamella Məmmədova, Çimnaz Babayeva və Vladimir Pletnyov oynayırdılar.

**1969, 15 may**. "Leyli və Məcnun" (Qara Qarayev) və "Qobustan kölgələri" (Fərəc Qarayev). Birpərdəli xoreoqrafik poemalar. Baletmeyster Nailə Nəzirova, rəssamlar Ənvər Almaszadə və Toğrul Nərimanbəyov, dirijor Rauf Abdullayev.

**1970.** "Kaleydoskop", Fərəc Qarayev. Premyera Paris şəhərində oynanılıb. Bakıda ilk tamaşa 1971-ci ildə göstərilib.

Teatr 1959-cu ildə may ayının 22-dən 31-ə qədər Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti dekadasında olub. Kollektiv burada "Sevil", "Koroğlu" operalarını və "Gülşən", "Qız qalası", "Yeddi gözəl" baletlərini göstərib. Qazanılan uğurlara görə Qəmər Almaszadə, Rəşid Behbudov, Qara Qarayev, Niyazi və rejissor Ədil İsgəndərov SSRİ xalq artisti fəxri adları ilə təltif olunublar.

ADOBT haqqında söhbət gedən dövrün son 25 ilində dünya klassiklərindən və müasir bəstəkarlardan Boris Zeydmanın "Ağıldan bəla", Jorj Bizenin "Karmen" (1949), Pyotr Çaykovskinin "Mazepa", Cak Offenbaxın "Perikola" (1950), Pyotr Çaykovskinin "İolanta" (1955), Zaxari Paliaşvilinin "Daisi", Cakomo Puççininin "Manon Lesko", Rixard Vaqnerin "Leonqrin" (1956), Sergey Raxmaninovun "Aleko", Cüzeppe Verdinin "Traviata" (1957), Rucero Leonkovallonun "Məzhəkəçilər" (1959), Cakomo Puççininin "Toska" (1960), Cüzeppe Verdinin "Aida", Şarl Qunonun "Faust" (1961), Cüzeppe Verdinin "Trubadur" (1962), Aleksandr Borodinin "Knyaz İqor", Coakkino Rossininin "Sevilya bərbəri" (1964. Fiqaro-Müslüm Maqomayev), Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" (1968), Sergey Prokofyevin "Monastrda nikah" (1969) operalarını, Reynqold Qlierin "Qırmızı lalə" (1954), "Şopeniana" (Frederik Şopenin musiqisi əsasında. 1955), Aleksandr Kreynin "Laurensiya" (1956), Boris Zeydmanın "Qızıl açar" (1957), Şarl Adolf Adanın "Jizel" (1961), Dmitri Şostakoviçin "Xanım və xuliqan" (1965) baletlərini tamaşaçılara göstərib.

## MUĞAM VƏ VOKAL OPERA İFAÇILARI (1908- 1975)

### Birinci dərs

Milli operamız və operettamız yaranandan sonra tədricən həmin janrlarda ifaçılar da yetişib formalaşmışlar. Xeyli müddət qadın rollarını aktylorlar oynamışlar. Əvvəllər musiqili tamaşalarda daha çox dramatik aktyorlar çıxış ediblər. Bakıda Mirzağa Əliyev, Ələk urə Yermakova, Yeva Olenskaya, Xəlil Hüseynov, Mirzə Muxtar Məmmədov, Sidqi Ruhulla, Abbasmirzə Şərifzadə, Əbülhəsən Anaplı, Rza Darablı, Tiflisdə Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mustafa Mərdanov, İbrahim İsfahanlı, Yunis Nərimanov, Aşqabadda Rzaqulu Abdullazadə, Yəhya İsmayılov, Mirzə Səmədov, Əziz Cavadov, İrəvanda Yunis Nuri, Əşrəf Yusifzadə xeyli opera və operetta partiyaları oxuyublar.

Bununla belə, tədricən sırf musiqi teatrının ifaçıları yetişmişlər. Hətta dramatik rollar oynayan bəzi aktyorlar da illər keçdikcə opera və operetta ifaçı sənətkarları kimi yaradıcılıq yolu keçmiş, formalaşıb kamilləşmişlər.

* * *

### ƏHMƏD AGDAMSKİ(5.1.1884-1.4.1954)

Ağdamda ziyalı və musiqi səriştəli ailədə doğulub. Soyadı Bədəlbəylidir və "Ağdamski" ləqəbini səhnəyə çıxandan sonra götürüb. Atası Bəşir kişi Qarabağın sayılıb seçilən kişilərindən olub. Nəsilləri Qacarlar sülaləsinin bir qoludur. Lirik tenor səsi olub və öz məlahəti, xoş avazı ilə seçilib. İlk təhsilini Ağdamda alan və yeniyetmə yaşlarından Bakıya gələn Əhməd Ağdamski burada realni məktəbi bitirib. İlk milli operamız "Leyli və Məcnun" 12 yanvar 1908-ci ildə "Nicat" cəmiyyətinin teatr truppası tərəfindən tamaşaya qoyulanda Əhməd Ağdamski qardaşı Bədəl bəyin və qohumları Üzeyir bəyin təklifi ilə xorda oxuuyub. İkinci tamaşada isə Leylinin partiyasını oxuyub və böyuk uğur qazanıb. Onun həm gözəl səsi, həm də zərif səhnə plastikası Leylinin, eləcə də digər qadın obrazlarının cazibədar, baxımlı və təravətli çıxmasına möhkəm təməl yaradırdı. Səhnəmizdə aktrisalar olmayanda Əhməd Ağdamskinin yaradıcılığı mövcud boşluğu xeyli aradan qaldırıb. Əhməd Ağdamskinin səhnədə ən gözəl yöndaşı məşhur opera aktyoru Hüseynqulu Sarabski olub. Onların Leyli və Məcnun, Əsli və Kərəm, Sərvər və Gülnaz, Minnət xanım və Mərcan bəy duetləri milli müsiqili teatr sənətimizin parlaq səhifələrini təşkil edir.

Qafqazda, Orta Asiyada qastrol tamaşaları ilə böyük rəğbət qazanan Əhməd Ağdamski Bakıda, "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr truppalarında, Hüseynqulu Sarabskinin "Müsəlman opera dəstəsi"ndə və "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə aktyorluq edib. Az müddət Milli Dram Teatrının opera truppasında işləyib. Xeyli dramatik rollar da oynayıb.

Əhməd Ağdamskinin yaradıcılığında Leyli, Əsli, Təhminə, Xurşid banu, Gülnaz, Minnət xanım ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşid banu", "O olmasın, bu olsun" və "Ər və arvad", Üzeyir bəy Hacıbəyov), "Şahsənəm" ("Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov), Mah ("Mehr və Mah", librettosu Hacıbaba Şərifovun və musiqi tərtibatı David Slavinskinindir) opera və operetta rolları xüsusi yer tutur.

1916-cı ildə "Arşın mal alan"operettasının ilk ekran həyatlarından birində Əhməd Ağdamski Gülçöhrə roluna çəkilib. 1923-cü ildə Ağdama gələrək burada dram truppasının fəallaşmasında yorulmadan çalışıb. İstedadlı tarzən və musiqi müəllimi kimi Ağdam və Ağdaş rayonlarında işləyib.

Əhməd Ağdamski 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub.

## MƏMMƏDTAĞI BAĞIROV (5.8.1890-16.4.1961)

Şaqraq və cingiltili, axıcı və məftunedici güclü bariton səsi olub. Fitrətən dramatik aktyor keyfiyyətlərinə qadir idi. İfa etdiyi partiyalarda obrazın səs təcəssümünü yaratmaqla bərabər, onun psixoloji bədii xarakterini canlandırmağı, keçirdiyi sarsıntıları, sevincləri, iztirabları, kədərləri, üzləşdiyi çətinlikləri və tərəddüdləri sifət ifadələrində, plastik hərəkətlərində təcəssüm etdirməyi bacarırdı. Səhnədə cəld, canlı, dinamik və emosional idi. Milli opera qəhrəmanlarımızın ifasında lirizmə, kövrək zərifliyə üstünlük verirdi.

Məmmədtağı Abbas oğlu Bağırov 5 avqust 1890-cı ildə Bakıda doğulub. İki il mollaxana təhsili alıb. Sonra mütərəqqi üsulla dərs keçirilən türk-rus (rus-tatar) məktəbində beş il oxuyub. Səhnəyə ilk dəfə 1909-cu ildə, "Nicat" teatr truppasında göstərilən Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" operasında xorun tərkibində çıxıb. Burada həmçinin dram və komediya tamaşalarında epizod rollar oynayıb. 1913-cü ildən başlayaraq Məmmədtağı Bağırov opera və operetta tamaşalarında solist kimi çıxış edib. "Səfa", Hüseynqulu Sarabskinin "Müsəlman opera artistləri", "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" teatr truppalarında fəaliyyət göstərib. Yeniyetmə yaşlarından tamaşaçı rəğbəti qazanan aktyor özünə "Əraqi"ləqəbini götürüb. Bəzi proqram afişalarda aktyorun təxəllüsü "İraqi" kimi də verilib.

1920-1925-ci illərdə Azərbaycan Dövlət Dram Teatrının (bugünkü Akademik Milli Dram Teatrı) opera truppasında işləyib. 1925-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının kollektivində çalışıb. Həm milli operalarımızda, həm tərcümə edilmiş əsərlərdə, həm də rus truppasında oynanılan Dünya klassiklərinin məşhur sənət nümunələrində mürəkkəb və müxtəlif obrazların partiyalarını oxuyub.

Məmmədtağı Bağırovun Azərbaycan Dövlət Opera və Balet Teatrında yaratdığı əsas opera partiyaları və bir neçə operetta surəti bunlardır: Şahvələd, Aşıq Səlim və Bəhram bəy ("Şahsənəm", Reynqold Qlier), Mərdan ("Vətən", Qara Qarayev və Cövdət Hacıyev), Onegin ("Yevgeni Onegin", Pyotr Çaykovski. Librettonu tərcümə edən Əsəd Tahirov), Aslan şah, Ağalar bəy ("Şah İsmayıl" və "Nərgiz", Müslüm Maqomayev), Doktor Bartolo ("Sevilya bərbəri", Coakkino Rossini. Librettonun tərcüməçiləri Məmməd Səid Ordubadi və Əfrasiyab Bədəlbəyli), Süleyman, Əsgər və Soltan bəy, Rüstəm bəy ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Kərəm kişi ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov).

Aktyor-müğənni səhnəmizdə milli aktrisaların olmadığı 1915-1919-cu illərdə "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah İsmayıl" operalarında Leylinin, Əslinin və Ərəb Zənginin partiyalarını oxuyub.

Məmmədtağı Abbas oğlu Bağırov milli opera müğənniliyi sənətinin formalaşmasında göstərdiyi müstəsna xidmətlərə görə 25 aprel 1933-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 4 dekabr 1938-ci ildə xalq artisti fəxri adları ilə təltiflənib.

## BÜLBÜL (22.6.1897 - 26.9.1961)

Murtuza Məşədi Rza oğlu Məmmədov (Bülbül) Şuşada doğulub. 1909-cu ilədək Şuşada, 1920-ci ilin payızınadək Gəncədə, arada isə az vaxtda Tiflis və İrəvanda yaşayıb. Yeniyetmə çağlarında cəhcəhəli oxumasma görə onu "Bülbül" deyə çağırıblar və bunu özünə səhnə təxəllüsü götürüb. Səhnəyə ilk dəfə Gəncədə tarzən Məşədi Cəmil Əmirovun "Seyfəlmülk" operasında çıxıb

(1914). Tamaşanın rejissoru və Bülbülə bu rolu təklif edən aktyor Sidqi Ruhulla olub. İrəvanda "Arşın mal alan"da Telli rolunu da oynayıb. Səs tembri lirik-dramatik tenor olub.

1920-ci ilin sonlarında Bakıda Birləşmiş Dövlət Teatrının Türk truppasına (bugünkü Akademik Milli Dram Teatrı) qəbul olunub. Bülbül həm Hüseyn Cavidin "Şeyx Sənan" (Kor ərəb), "Şeyda" (Xanəndə), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (Niyaz və Dərviş), Namiq Kamalın "Qaplan paşa" (Yavər), Karl Qutskovun "Uriel Akosta" (Xidmətçi) dramlarının tamaşalarında oynayıb, həm də Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (İbn Səlam), "Əsli və Kərəm" (Kərəm), Zülfuqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operalarında əsas partiyaları ifa edib.

1925-ci ildə opera truppası AMDT-dən ayrılıb və Bülbül (jə həmin kollektivə daxil olub. İşləyə-işləyə konservatoriyanı bitirən (1927) Bülbül dövlətin göndərişi ilə İtaliyanın Milan şəhərindəki "La Skala" teatrına təhsil-təcrübəyə gedib. Oradan qayıdaraq ADOBT-yə solist götürülüb. Teatrda Üzeyir bəy Hacıbəyovun "Koroğlu" operasındakı misilsiz ifasından sonra "səhnəmizin koroğlusu" ləqəbini alıb. Opera teatrında Üzeyir bəyin "Arşın mal alan" operettasında Əsgər rolunda da çıxış edib. Müslüm bəy Maqomayevin "Nərgiz" (Əlyar), Əfrasiyab Bədəlbəylinin "Nizami" (Nizami), Niyazinin "Xosrov və Şirin" (Fərhad), Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" (Aslan), Reynqold Qlierin "Şahsənəm" (Aşıq Qərib), tərcümə olunmuş "Anuş" (Saro) və "Səfa" (Seyran), Jorj Bizenin "Karmen" (Xoze), Cüzeppe Verdinin "Riqoletto" (Hersoq), Cül Massnenin "Verter" (Verter), Cakomo Puççininin "Toska" (Kavaradossi), Sergey Raxmaninovun "Aleko" (Aleko) operalarında əsas partiyaları oxuyub.

Misilsiz xidmətlərinə görə SSRİ xalq artisti (17 aprel 1938), Stalin mükafatı laureatı (1950) olub. Adina məktəb və küçə var. Məzarı Fəxri xiyabandadır.

## HÜSEYNAĞA HACIBABABƏYOV
## (195.1898-10.11.1972)

Milli opera sənətimizin yapışıqlı və gözəl aktyorluq qabiliyyəti olan müğənni solistlərindən biri idi. Ürəklərə sirayət edən, füsunkar məlahəti və ecazkar cazibəsi olan lirik tenor səsi vardı. Yaradıcılığında xanəndəlik, müğənnilik, aşıq musiqismə xas ifaçılıq elementləri birləşmişdi. Mürəkkəb rollarında da cəsarətli improvizələr edirdi. Nadir səs tembri ilə yanaşı gözəl vokal texnikasına, yüksək aktyorluq məharətinə, lətafətli səhnə cazibəsinə qabil idi.

Hüseynağa Soltan oğlu Hacıbababəyov 19 may 1898-ci ildə Şamaxıda toxucu ailəsində doğulub. Ailəsi 1902-ci ildə Bakıya köçüb. Hüseynağa burada əvvəlcə "Alekseyski" məktəbində, sonra görkəmli ziyalı, məşhur teatr xadimi Həbib bəy Mahmudbəyovun təşkil etdiyi təhsil ocağında oxumağa başlayıb. 1910-cu ildə "Nicat" mədəni-maarif cəmiyyəti teatr truppasının xoruna qəbul olunub. 1913-cü ildən başlayaraq "Səfa" mədəni-maarif cəmiyyətinin teatr truppasında, Hüseynqulu Sarabskinin rəhbərlik etdiyi "Müsəlman opera artistləri" dəstəsində, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə dramatik və musiqili teatr aktyoru kimi çalışıb. 1919-cu ildən 1925-ci ilin avqustuna qədər Milli Dram Teatrının truppasında olub. 1925-ci ilin payız mövsümündən Azərbaycan Dövlət Opera və Balet Teatrında solist işləyib.

Müxtəlif truppalarda çoxlu dramatik obrazlarla yanaşı, opera və operettalarda qadın obrazlarından Leylinin, Əslinin, Xurşid banunun, Gülçöhrə və Cahan xalanın, Gülnazın ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", "Arşın mal alan" və "O olmasın, bu olsun", Üzeyir bəy Hacıbəyov), Qəribin anasının ("Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov), Gülzarın ("Şah İsmayıl", Müslüm Maqomayev) partiya-larını oxuyub.

Hüseynağa Hacıbababəyov dövlət teatrında zəngin yaradıcılıq yolu keçib. Müğənni-aktyor milli və dünya klassik bəstəkarlarının ölməz operalarında eyni məharətlə çıxış edib. 1925-ci ildən 1972-ci ilə qədər çıxış etdiyi əsas tamaşalar onun sənətkar böyükiüyünü açıqca göstərir: Çar Brendey, Hindli qonaq ("Qar qız" və "Sadko", Nikolay Rimski-Korsakov), Qərib ("Aşıq Qərib",

Zülfüqar bəy Hacıbəyov), Sərvər, Əsgər, Məcnun, Kərəm ("Məşədi İbad", "Arşın mal alan", "Leyli və Məcnun" və "Əsli və Kərəm", Üzeyir bəy Hacıbəyov), Lenski ("Yevgeni Onegin", Pyotr Çaykovski), Əlyar, Şah İsmayıl ("Nərgiz" və "Şah İsmayıl", Müslüm Maqomayev), Xosrov ("Xosrov və Şirin", Niyazi), Qraf Almavivo ("Sevilya bərbəri", Coakkino Rossini).

Opera aktyoru 1934-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 4 dekabr 1938-ci ildə xalq artisti fəxri adlarl ilə təltif olunub. Ömrünün sonlarında teatrda gənclərin sənət vərdişlərinə yiyələnmələri üçün böyük əmək sərf edib. 10 noyabr 1972-ci ildə Bakıda vəfat edib və ikinci Fəxri xiyabanda dəfn olunub.

## MUĞAM VƏ VOKAL OPERA İFAÇILARI (1908- 1975)

### İkinci dərs

### VASİLİ NİKOLSKİ (16.3.1882-3.4.1967)

Aydın və ifadəli bas səsi olan müğənni Vasili Alekseyeviç Nikolski Rusiyanın İvanovo vilayətinin Şuya şəhərində doğulub. Moskva konservatoriyasını 1907-ci ildə bitirib. Ali təhsil alandan sonra Moskvanın, Kiyevin, Odessanın, Tiflisin opera teatrlarında işləyib. 1919-cu ildə Bakıya gəlib və 1952-ci illə qədər ADOBT-nın solisti olub. Azərbaycan Respublikasının xalq artisti (1934) fəxri adı ilə təltif olunub.

Vasili Nikolski Bakı teatrında Həsən kişi, Aslan şah ("Nərgiz" və "Şah İsmayıl", Müslüm Maqomayev), İbrahim xan ("Koroğlu", Üzeyir bəy Hacıbəyov), Bəhram ("Şahsənəm", Reynqold Qlier), Pimen və Boris Qodunov ("Boris Qodunov", Modest Musorqski), Susanin, Ruslan ("İvan Susanin" və "Ruslan və Lüdmila", Mixail Qlinka), Don Bazilio ("Sevilya bərbəri", Coakkino Rossini), Koçubəy ("Mazepa", Pyotr Çaykovski), Nilakanta ("Lakme", Leo Delib), Dəyirmançı ("Su pərisi", Aleksandr Darqamıjski), Qalitski ("Knyaz İqor" Aleksandr Borodin), Mefistofel ("Faust", Şarl Quno), Lindor ("Hofmanın nağılları", Jak Offenbax), German, Henri: ("Tanqayzer" və "Leonqrin", Rixard Vaqner), Sen Bari ("Qu qenotlar", Cakomo Meyerber), Çub ("Traviata", Cüzeppe Verdi), Famusov və Skalozub ("Ağıldan bəla", Boris Zeydman) Qaspar ("Kornevil zəngləri", Rober Plaket), Knyaz Quda ("Demon", Anton Rubişteyn), Stansiya nəzarətçisi ("Stansiya nəzarətçisi", Vladimir Kryukov) partiyalarını ifa edib.

1941-ci ildən 1962-ci ilə qədər müəyyən fasilələrlə konservatoriyada pedaqoji fəaliyyət göstərib.

### KONSTANTİN KNİJNİKOV (20.5.1883-1.11.1952)

Dramatik bariton səsli Konstantin Lvoviç Knijnikov Azərbaycan Dövlət Opera və Balet Teatrının məşhur solistlərindəndir. O, Voronej quberniyasının Boquçar qəzasında doğulub. Səhnə fəaliyyətinə 1912-ci ildə Peterburqda başlayıb və 1922-ci ilin sonlarına kimi Rusiyanın bir sıra opera teatrlarında çalışıb.

1922-ci ildə Bakıya gəlmiş Konstantin Knijnikov ADOBT-yə solist götürülüb. Səhnədə 1946-cı ilə kimi çıxış edib və ömrünün sonuna qədər pedaqoji fəaliyyət göstərib, elmi əsərlər yazıb, Azərbaycan Dövlət konservatoriyasının professoru (1948) olub. Opera müğənnisi 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının xalq artisti fəxri adına layiq görülüb.

Şaqraq və cingiltili səsindən məharətlə istifadə edən və xarakter yaratmağı ustalıqla bacaran Konstantin Knijnikovun əsas uğurlarını Nikolay Rimski-Korsakovun "Çar gəlini" (Qryaznoy),

Modest Musorqskinin "Boris Qodunov" (Boris Qodunov), Cüzeppe Verdinin "Aida" (Amonsaro), "Otello" (Yaqo), "Riqoletto" (Riqoletto), Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (Həsən xan), Rixard Vaqnerin "Leonqrin" (Telramun), Jorj Bizenin "Karmen" (Eskamilyo), Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" (Tomski və Yeletski), Eduard Napravnikin "Dubrovski" (Trojekurov) operalarındakı qəhrəmanların partiyalarının ifasında uğurlar qazanıb.

## ALEKSANDR DROZDOV (11.6.1892-15.8.1968)

Məşhur opera artisti Aleksandr Aleksandroviç Drozdov Omsk şəhərində doğulub. Lirik-dramatik tenor idi. 1918-ci il-də Saratov opera studiyasını bitirib və həmin ildən Tiflis, Sankt-Peterburq, Odessa opera teatrlarında işləyib. Azərbaycan Dövlət Opera və Balet Teatrına 1935-ci ildə solist götürülüb və iyirmi il səhnə yaradıcılığı ilə məşğul olub. 1947-ci il-dən teatrda işləməklə yanaşı, Azərbaycan Dövlət konservatoriyasının vokal sinifində pedaqoci fəaliyyət göstərib.

RSFSR-in (Rusiya Sovet Federativ Sosialist Respublikası) əməkdar artisti Aleksandr Drozdov 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının xalq artisti fəxri adına layiq görülüb. 1943-cü ildə rus dilində tamaşaya qoyulmuş Üzeyir bəy Hacıbəyovun "Koroğlu" operasında Koroğlunun partiyasını oxuyub.

Onun yaradıcılığında Cüzeppe Verdinin "Otello" (Otello), "Aida" (Radames), "Balmaskarad" (Riçard), "Trubadur" (Manriko), Şarl Kamal Sen-Sansın "Samson və Dalila" (Samson), Cakomo Meyerberin "Quqenotlar" (Raul), Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" (German), Cakomo Puççininin "Toska" (Kavaradossi), "Çio Çio San" (Pinkerton), Boris Zeydmanın "Ağıldan bəla" (Çatski), "Maskarad" (Arbenin), Eduard Napravnikin "Dubrovski" (Vladimir), Mixail Qlinkanın "Ivan Susanin" (Sobinin), İvan Dzerjinskinin "Sakit Don" (Qriqori Melexov) operalarında oxuduğu partiyalar daha parlaq sənət nailiyyətləri sayılır.

## ROMAN TRİFONOV (5.8.1896-5.4.1966)

Opera müğənnisi, pedaqoq, məxməri səsi olan Roman Maksimoviç Trifonov Saratovda doğulub. Oranın konservatoriyasında ali vokal təhsili alan (1927) Roman Trifonov Moskva Teatr Sənəti İnstitutunda və ikinci MBAT-da (Mockva Bədaye Akademik Teatrı) da səhnə sənətinin incəliklərini mənimsəyib. Kiyev (1928 - 1931), Saratov, Odessa, Sverdlovsk (1931-1936), Peterburq (1936-1940) şəhərlərinin opera teatrlarında solist olub. Peterburq teatrında Mixail Qlinkanın eyniadlı operasında İvan Susaninin partiyasının əvəzsiz ifaçısı sayılıb. 1940-1947-ci illərdə Daşkənd Opera və Balet Teatrında çalışan müğənni Özbəkistanın xalq artisti (1945) fəxri adına layiq görülüb.

Roman Trifonov 1948-ci ildə Bakıya gəlib və Azərbaycan Dövlət Opera və Balet teatrına solist qəbul olunmaqla yanaşı, bir il sonra konservatoriyanın kafedra müdiri təyin edilib. Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (İbrahim xan), Cüzeppe Verdinin "Siciliya gecələri" (Proçda), "Trubadur" (Fernando), Leo Delibin "Lakme" (Nilakant), Pyotr Çaykovskinin "İolanta" (Kral Rene), "Mazepa" (Koçubəy), Jorj Bizenin "Karmen" (Tsuniqa), Aleksandr Darqomıjskinin "Su pərisi" (Dəyirmançı), Şarl Fransua Qunonun "Faust" (Mefistofel), Coakkino Rossininin "Sevilya bərbəri" (Don Bazilio), Mixail Qlinkamn "İvan Susanin" (İvan Susanin), Sergey Vasilenkonun "Suvorov" (Suvorov), Cahangir Cahangirovun "Azad" (Xan), Modest Musorqskinin "Boris Qodunov" (Boris Qodunov və Varlaam), "Xovanşina" (Dosifey), Boris Zeydmanın "Ağıldan bəla" (Famusov) operalarında əsas partiyaları məharətlə ifa edib.

Azərbaycan Milli operasının əlli illiyi münasibətilə 26 aprel 1958-ci ildə Roman Trifonova Azərbaycan Respublikasının xalq artisti fəxri adı verilib. 5 aprel 1966-cı ildə Bakıda vəfat edib.

## AĞABABA BÜNYADZADƏ (19.7.1915 - 17.12.1974)

Cingiltili və ürəyəyatımlı bariton səsə malik idi. Yenıyetmə yaşlarından bədii özfəaliyyətdə müğənni kimi çıxış etməklə yanaşı, dram dərnəyində aktyor olub. Üzeyir bəy Hacıbəyovun qəhrəmanları Əsgərin ("Arşın mal alan") və Sərvərin ("O olmasın, bu olsun") ariyalarını oxuyub, klassik dünya operalarına maraq göstərib.

Ağababa Balağa oğlu Bünyadzadə Bakıda doğulub.

İyirmi üç yaşında Azərbaycan Dövlət Opera və Balet Teatrının xor heyətinə işə götürülüb. 1938 - 1939-cu illərdə Moskvadakı Qnesinlər adına Musiqi Məktəbinin vokal şöbəsində təhsil alıb. Oradan qayıdaraq opera teatrının truppasına qəbul olunub. Eyni zamanda sənət ocağının nəzdindəki studiyada həm oxu tərzini təkmilləşdirib, həm də aktyorluq sənətinin xüsusiyyətlərini mənimsəyib.

Ağababa Bünyadzadənin bəstəkarlardan Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Nofəl), "Koroğlu" (Həsənxan və Alı), Reynqold Qlierin "Şahsənəm" (Xan), Fromonotal Jak Qalevinin "Kardinal qızı" (Rudjiero), Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (Aslan şah), Niyazinin "Xosrov və Şirin" (Şapur), Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" (Mərdan), Zaxari Paliaşvilinin "Daisi" (kiazo), Coakkino Rossininin "Sevilya bərbəri" (Fiqaro. Librettonun tərcüməçiləri Məmməd Səid Ordubadi və Əfrasiyab Bədəlbəylidir), Jorj Bizenin "Karmen" (Eskamilyo. Librettonun tərcüməçisi Nigar Rəfibəylidir), Pyotr Çaykovskinin "Mazepa" (koçubəy), Əfrasiyab Bədəlbəylinin "Nizami" (Hökmdar), Cahangir Cahangirovun "Azad" (Yavər), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Şahvələd), Cüzeppe Verdinin "Aida" (Amonasro), "Otello" (Yaqo), "Traviata" (Jorj Jermon), "Riqoletto" (Marullo), Vasif Adıgözəlovun "Ölülər" (Şeyx Nəsrulla) operalarında ifa etdiyi partiyalar öz dramatik vüsəti, psixoloji tamlığı, səslə hərəkətin üzvi vəhdəti ilə seçilib.

Ağababa Bünyadzadə Opera və Balet Teatrında 1967-ci ildə Müslüm bəy Maqomayevin "Şah İsmayıl"operasını tamaşaya hazırlayıb.

Milli opera sənətimizin inkişafındakı səmərəli xidmətlərinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 30 aprel 1955-ci ildə xalq artisti fəxri adlarına layiq görülüb.

## İDRIS AGALAROV (20.10.1917 - 4.5.1975)

Lirik bariton səsi olan İdris Ağalarovun yaradıcılığı milli opera sənətimizin inkişaf tarixinin ikinci dövrünə aiddir. Həm dramatik, həm də zərif yumorlu klassik obrazların partiyalarını oxuyub. Səhnədə cəld, psixoloji vəziyyətlərdə dramatizmə üstünlük verən, şən komik epizodlarda duzlu ifadə vasitələri və səmimi yumoru, qəltanlı səsinin lirizmi ilə yadda qalıb. İfasında vokal və aktyorluq sənətlərinin incəliklərindən obrazın xarakterinin canlı, baxımlı, sirayətedici alınması üçün bacarıqla istifadə edib.

Yüksək səhnə zövqü, obrazın psixoloji dramatizmini canlandırmaqda mənalı aktyorluq ifadə vasitələri vardı. Oynadığı obrazın təqdimini məqsədyönlü inkişaf xətti əsasında, ali ideyaya bağlılıqda təcəssüm etdirirdi. Səhnədə yöndaşları ilə ünsiyyətdə, canlı, diqqətcil, səmimi idi. Mürəkkəb mizanlarda psixoloji hərəkətləri icra edə-edə də çətin partiyaları ustalıqla oxuyur, musiqinin məzmun və mahiyyətini tamaşaçıya çatdırırdı. Yüksək səhnə mədəniyyəti və ifaçılıq zövqü ilə seçilirdi.

İdris Fərhad oğlu Ağalarov 20 oktyabr 1917-ci ildə Tiflisdə doğulub. İbtidai təhsilini orada alandan sonra Bakıya gəlib. Azərbaycan Dövlət konservatoriyasının vokal sinifində oxuyub. Tələbəlik vaxtlarından, yəni 1937-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub.

Otuz səkkiz il bu sənət ocağının səhnəsində çıxış edən müğənni-aktyorun səsinin təravəti, cazibəsi və qəltanlı gücü həmişə öz hüsnündə, gözəlliyində qalıb.

Əsas partiyaları olan Yevgeni Onegin, Burqund hersoqu Rabert, Mazepa, Yeletski ("Yevgeni Onegin", "İolanta", "Mazepa" və "Qaratoxmaq qadın", Pyotr Çaykovski), Valentin, ("Faust", Şarl Fransua Quno), Jorj Jerion ("Traviata", Cüzeppe Verdi), Yavər ("Azad", Cahangir Cahangirov), Şahvələd ("Şahsənəm", Reynqold Qlier), Eldar ("Vaqif", Ramiz Mustafayev), Fiqaro ("Sevilya bərbəri", Coakkino Rossini), Eskamilyo və Morales ("Karmen", Jorj Bize), Demon ("Demon", Anton Rubinşteyn), Sultan ("Dunaym o sahilindən olan Zaporojyeli", Qulaq-Artamevski), Mizqir ("Qar qız", Nikolay Rimski-korsakov), Silvio ("Məzhəkəçilər", Ruçero Leonkovallo), Kiazo ("Daisi", Zaxari Paliaşivli), Sezar Anjelotti ("Toska", Cakomo Puççini), Qraf de Luna ("Trubadur", Cü-zeppe Verdi), Qazar ("Nərgiz", Müslüm Maqomayev) Azərbaycan opera sənəti ifaçılığının parlaq inciləridir.

Opera səhnəsində və vokal yaradıcılığında qazandığı nailiyyətlərə görə İdris Ağalarov 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 26 aprel 1958-ci ildə isə xalq artisti fəxri adları ilə təltif edilib.

4 may 1975-ci ildə Bakıda vəfat edib və məzarı ikinci Fəxri xiyabandadır.

* * *

1925 - 1950-ci illərdə teatrın truppasında həm muğam, həm də klassik dünya və milli operalarda uğurla çıxış edən solistlər və ifaçılar, xarakterik rollar oynayan müğənni-aktyorlar, xor artistləri olublar. Onların yaradıcılıqları müxtəlif səviyyələrdə teatrın ifaçılıq mədəniyyətini inkişaf etdirib, sənət ocağının poetika özəlliklərinin cilalan asında müəyyən əhəmiyyət daşıyıb.

Qulam İsgəndərov, Əhməd Anatollu, Zülfüqar Sarıyev, İsmayıl Eloğlu, Əli və Qəmbər Zülalovlar, Xanlar Haqverdiyev, Böyükağa Mustafayev, Haşım Kələntərli, Nurməhəmməd Məhəmmədov, Hacıbaba Hüseynov, Şirzad Hüseynov, Yaqub Rzayev, Hüseyn Rzayev, Rəşid Tahirov, Arif Bakıxanov, Abuzər Quluzadə, Sergey Nevedov, Matvey Levin, Pyotr Qoroxov, Vladimir Krivoşeyov, Rostislav Lopatkin, Vasili Zvyaqin, Sona Hacıyeva, Elmira Axundova, Sona Bağırova, Sona Mustafayeva, Sürəyya Qacar, Münəvvər Kələntərli, Yavər Kələntərli, Məhbubə Paşayeva, Səltənət Quliyeva, Fatma Gəncinskaya, Məryəm Babayeva, Valentina Rojnova, Tamara Dorfman, Lüsya Laskova, Nina Viatsi repertuarın əksər tamaşalarında iştirak ediblər.

## HƏQİQƏT RZAYEVA (20.5.1907- 2.8.1969)

Milli operalarımızda çıxış edən ilk azərbaycanlı müğənnilərdəndir. Zil və ürəyəyatımlı, lirik və saf messo-soprano səsi vardı. Bir insan kimi şahanə qadın idi. Oxuduğu partiyaları şövqlə, qəlblərə yol tapan səmimiyyətlə ifa edirdi.

Yüksək dərəcədə dramatik aktyorluq istedadı vardı və bu yaradıcılıq keyfiyyəti onun obrazlarının psixoloji dərinliyi-ni, estetik hüsnünü daha sanballı, daha təravətli göstərirdi. Mürəkkəb partiyaları da hərəkətli oyun-üslubda oxuya bilirdi. Yaraşıqlı və cəlbedici, cazibədar və füsunkar, məlahətli və lətafətli səhnə görkəminin olması onun ifasına emosional təravət verirdi.

Qızlıq soyadı "Əliyeva" olan Həqiqət Əli qızı Rzayeva 20 may 1907-ci ildə Lənkəran şəhərində doğulub. Beş aylıq körpə olanda, Lənkəranda həvəskar xanəndə kimi tanınan Əli kişi rəhmətə gedib və ailənin yükünü anası Zinyət xanım çəkməli olub. O, imkanlı ailələrə əl işləri görməklə çörək pulu qazanırdı. Həqiqət 11 yaşına çatsa da, kasıblığın ucbatından məktəbə gedə bilməmişdi. 1918-ci ildə Lənkəranda müəllimliyə yenicə başlamış ağıllı və müdrik qadın, vətənsevər maarifçi Məryəm xanım Bayraməlibəyovanın fədakarlığı ilə şəhərdə birinci qız məktəbi açılıb. Bina olmadığına görə məktəb Məryəm xanımın öz evində fəaliyyət göstərirdi. O, ev-ev gəzib oxumaq üçün on nəfərə yaxın qız seçib valideynlərindən onları məktəbə vermələrinə güclə razılıq almışdı. Həmin balalardan biri də gələcəyin opera müğənnisi Həqiqət idi. Şəhərin imkanlı maarifçiləri şagird qızların geyim və məktəb ləvazimatı üçün yardım komitəsi təşkil etmişdilər.

1920-ci ilin sonlarında məktəbə bina verildi. Məryəm xanımın və gənc müəllimə Tehran xanımın təşəbbüsü ilə məktəbdə dram dərnəyi yaradıldı. "Dursunəli və ballıbadı", "Vətən" tamaşalarında şagird Həqiqət də oynayırdı. Ancaq o, ilk növbədə məktəbin müəllim və şagird kollektivinin sevimli müğənnisi idi. Get-gedə onun güclü səsinin sorağı bütün Lənkərana yayıldı. O, şəhərin bayram tədbirlərində öz məharətini nümayiş etdirə bilirdi.

Beşillik təhsil verən məktəbin son sinifində Həqiqət xanım dərsdən sonra onun üçün ayrılmış evlərə gedir və qadınlara savad öyrədirdi. 1923-cü ildə məktəbi bitirib və maarif şöbəsinin göndərişi ilə Bakı Darülmüəllimatda (Pedaqoji Texnikum) təhsil almağa gəlib. Burada səsinin məlahəti ilə heyranlıq doğuran Həqiqət xanım tez-tez Qadınlar klubunda çıxışlara dəvət alıb. 1926-cı ildə Mədən İşçiləri Həmkarlar İttifaqı nəzdindəki "Damğa" adlı "canlı qəzetin" (dram-dərnəyinin) bədii rəhbəri Yunis Nərimanov onu səhnədə görüb və çox bəyənib. Növbəti həftədən Həqiqət Rzayeva "Damğa"nın məşqlərinə gəlib. Prinsip etibarilə Tənqid və Təbliğ Teatrının ilkin dövrünü xatırladan bu gənc kollektivin hazırladığı tamaşalarda qəzetçilik publisistikasının ünsürlərindən, xordan, nəğmələrdən və musiqi ifaçılığından istifadə olunurdu. Ona görə də "Damğa"ya qəbul olunan gənclər oxumağı, çalmağı, rəqsi, xoreoqrafik hərəkətləri bacarınalı idilər. Bu istedad keyfiyyətlərinin hamısı on doqquz yaşlı Həqiqətdə vardı.

Həqiqət Rzayevanın "Dalğa"dakı musiqili-dramatik obrazlarda çıxışı opera teatrı rəhbərlərinin diqqətini cəlb edib. O, Dövlət komissiyasının sınağından çıxaraq bəstəkar Müslüm Maqomayevin tövsiyəsi ilə 1927-ci ildə teatra solist götürülüb. Güclü və coşğun səsini peşəkar müğənni, ustad xanəndə kimi formalaşdırmaq üçün Azərbaycan Dövlət konservatoriyasının muğam şöbəsində oxuyub (1928 - 1932). Teatrda işləyən və təhsil alan Həqiqət Rzayeva sənət dərslərini Üzeyir bəy Hacıbəyovun rəhbərliyi ilə xanəndələr Cabbar Qaryağdıdan, Seyid Şuşinskidən və tarzən Qurban Pirimovdan alıb. Teatra təzə qəbul olunanda, 1927-ci ildə Həqiqət Rzayeva əvvəlcə Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" operasında Leylinin anası, Məcnunun anası rollarını oynayıb. Elə həmin il Peterburqda ali təhsil alıb yenicə Bakıya qayıtmış quruluşçu rejissor Yusif Yulduzun təklifi ilə gənc xanəndəyə Müslüm Maqomayevin "Şah İsmayıl" operasında Ərəb Zəngi rolu tapşırılıb. Aktrisa gözlənildiyindən də artıq uğur qazanıb və bütün ümidləri doğruldub. Bununla da taleyini ömürlük opera müğənniliyinə bağlayıb.

Aktrisa-müğənni Azərbaycan Dövlət Opera və Balet Teatrında hazırlanan muğam operalarında romantik və lirik sevgi qəhrəmanlarının partiyalarını ifa edib. Eyni zamanda teatrın

quruluş verdiyi milli operettalarımızda məzəli obrazların ifasında böyük məharət göstərib. Hətta 1938-ci ildə Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüyündə göstərilən "Arşın mal alan" operettasında Həqiqət Rzayevanın ifa etdiyi qulluqçu Telli rolu tamaşaçılarda böyük maraq doğurub. Telli-Vəli (Əhməd Anatollu və Lütfəli Abdullayev ) dueti tamaşaçıların istəyi ilə görüşlərdə və konsert proqramlarında da göstərilib.

Həqiqət Rzayevanın şərəfli yaradıcılıq yolunu zinətləndirən, həzin lirizmlə, romantik vüsətlə cilalanan səhnə obrazları eyni zamanda milli operalarımızın şərəfli səhifələrini təşkil edir. Onun zəngin ifaçılıq irsi həmçinin səhnəmizdə qırx ildən çox milli aktrisa yoxluğundan zillətlər çəkən teatrımızdakı boşluğu cəsarətli hünərvərliklə doldurub. Əlbəttə, bu cəsarət, bu hünərvərlik nə qədər tərifəlayiq olsa da, Həqiqət Rzayeva sənətinin estetik hüsnünü, fədakarlığının dəyərini Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm" (Əsli), "Leyli və Məcnun" (Leyli), "Koroğlu" (Xanəndə qız), Müslüm Maqomayevin "Şah İsmayıl", "Nərgiz" (Ərəb Zəngi və Yengə), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Şahsənəm və Qaraca qız) operalarında və Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Telli), "Məşədi İbad" (Sənəm) operettalarında oynadığı rolların adları da aydınca təcəssüm etdirir.

Məsələnin bu tərəfi də maraqlıdır ki, Həqiqət Rzayeva yuxarıda adları çəkilən opera və operettaların 1927 - 1960-cı illərdəki ən müxtəlif quruluşlarında oynayıb. Fərdi rejissor üslubları, teatr poetikalarının estetik göstəriciləri bir-birindən fərqlənən Abbasmirzə Şərifzadə, Yusif Yulduz, İsmayıl Hidayətzadə, Soltan Dadaşov kimi qüdrətli sənətkarların mıüxtəlif səhnə təfsirlərində səhnəyə baş rollarda çıxıb. İstər ənənəvi etnoqrafik, istər konstruktivizın, istərsə də raonu-mental forma-məzmunda hazırlanan tamaşalarda aktrisanın dramatik oyunu və "Əraq", "Pəncgah" kimi muğam şöbələri-nin ifasında səsinin məlahəti və aydınlığı həmişə yüksək pe-şəkarlıq nümunəsi olub. Bütövlükdə isə Həqiqət xanım oynadığı obrazların hamısını donuq, şablon "ənənəvilikdən" uzaq ifa etməyə səylə çalışmışdır.

Aktrisanın sənət eşqi, səhnə ehtirası, yaratmaq coşğunluğu o qədər güclü, daxili enerjisi o dərəcədə tükənməz idi ki, operada partiyalar oxuyan, konservatoriyada tələbə olan Hə-qiqət xanım həmçinin Bakı Türk İşçi Teatrında da aktrisalıq edib (1928-1930). Bu teatrın səhnəsində o, Əsəd Tahirov və ƏbdülKərim İmamzadə tərəfindən təbdil olunmuş "İncə" (Usta Paşanın arvadı), Əbdülhəq Hamidin "Hind qızı" (Telitra), Vladimir kirşonun "Kü1əkiİ şəhər" (Qadın) əsərlərinin tamaşalarında da dramatik rollar oynayıb. Həqiqət xanım məhz dramatik aktrisa kimi "Azərbaycanfilm"də istehsal olunmuş səssiz və səsli "İsmət", "Şərqə yol", "Lətif", "Muxtar" ("Dostlar"), "Ögey ana" (Qəmər xala) filmlərinə də çəkilib.

Pedaqoji fəaliyyəti Həqiqət Rzayevanın şərəfli ömür tarixçəsində xüsusi yer tutur. O, uzun illər Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində muğamın incəliklərindən, ifa mədəniyyətindən dərs deyib. Azərbaycan xalq artistləri Rübabə xanım Muradova, İslam Rzayev və neçə-neçə opera solisti məhz onun yetirmələridir. Ömrünün son illərində Azərbaycan Dövlət Opera və Balet Teatrının muğam şöbəsində məşqçi-pedaqoq işləmiş, gəncləri hazırlayıb səhnəyə Leyli və Əsli, Məcnun və Kərəm, Ərəb Zəngi kimi çıxarınışdır.

Onun ifasında müxtəlif klassik muğamlarımız, xalq mahnıları, bəstəkar nəğmələri lentə alınınışdır. Xüsusən radionun Qızıl fondunda "Rast" və "Çahargah" muğamları çox Qəyərlidir. Aktrisanın ifasında Ərəb Zəngi - Şah İsmayıl (Əlövsət Sadıqov) və Leyli - Məcnun (Əbülfət Əliyev) duetləri lentə alınıb.

Opera səhnə ifaçılığının inkişafında göstərdiyi səmrəli yaradıcılıq fəaliyyətinə, qazandığı sənət nailiyyətlərinə görə Həqiqət Rzayeva 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti və 17 iyun 1943-cü ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Həqiqət Əli qızı Rzayeva 2 avqust 1969-cu ildə Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

## MİLLİ BALET SƏNƏTİNİN TƏŞƏKKÜLÜ VƏ ƏSAS YARADICILIQ MƏRHƏLƏLƏRİ

Bakida opera tamaşaları göstərmək üçün Mayılov qardaşları tərəfindən 1911-ci ildə əzəmətli teatr binası tikildi. Bir il sonra Modest Musorqskinin "Boris Qodunov" operası ilə ilk pərdələrini açan teatr binasında əsasən rus truppasının hazırladığı tamaşalar oynanılırdı. Hərdən müəyyən müsamirələrdə, azərbaycanlı milyonçuların ianə məqsədilə keçirdikləri "Şərq gecələri"ndə bəzi balet nömrələri də göstərilirdi. Hətta "1001 gecə" nağılları, müxtəlif xalq əfsanələri əsasında da kütləvi rəqslər təşkil olunurdu və proqramlarda onlar balet epizodları kimi təqdim edilirdi.

1920-ci ilin iyununda bugünkü Opera və Balet Teatrı "Rus Operası", arada "Böyük Rus Operası" kimi fəaliyyət göstərdiyi dövrdə kollektivdə, zəif də olsa, əcnəbi millətlərdən ibarət balet truppası vardı. Onlar klassik dünya operaları kimi müntəzəm olmasa da, müəyyən vaxtlarda şöhrətli Qərb bəstəkarlarının və rus sənətkarlarının balet əsərlərini tamaşaya qoyurdular. 1933-cü ildə milli kadrların yetişdirilməsi ilə bağlı opera teatrının nəzdində xoreoqrafiya studiyası yaradıldı. Sonralar müstəqil təhsil ocağına çevrilən bu məktəbin ilk şagirdlərindən biri də Qəmər Almaszadə olub və o, təhsilini Sankt Peterburq xoreoqrafiya məktəbində davam etdirib. Operanın nəzdindəki xoreoqrafiya məktəbində Pyotr Çaykovskinin "Sonalar gölü", "Şelkunçik", Lüdviq Minkusun "Don kixot", Adolf Adanın "Jizel", "Korsar", Boris Asafyevin "Baxçasaray fəvvarəsi" ("Baxçasaray fontanı", "Bağçasaray çeşməsi" kimi də yazılıb), Sezar (Çezare) Puninin "Esıneralda" baletləri və digər əsərlər kurs və diplom işləri kimi tamaşaya qoyulurdu.

Xoreoqraf iya məktəbinin növbəti kursunun buraxılış imtahanı üçün Əfrasiyab Bədəlbəyli birpərdəli "Tərlan" baletini yazdı. 1939-cu ildə məktəbin buraxılış şagirdlərinin iştiraki ilə tamaşaya qoyulmuş baletin libretto müəllifi bəstəkarın qardaşı Turqut Bədəlbəyli idi. O, bu librettonu Azərbaycan xalq nağılının motivləri əsasında qələmə almışdı. "Tərlan"ı tamaşaya Bədəlbəylilərin digər qardaşları, rejissor Şəmsi Bə-dəlbəyli hazırlamışdı və baletmeyster Qəmər xanım Almaszadə idi. Baletin dirijorluğunu müəllif özü edirdi.

Həmin ərəfədə Əfrasiyab Bədəlbəyli Cəfər Cabbarlının "Qız qalası" əfsanəvi mövzulu poemasının süjeti əsasında özünün yazdığı eyniadlı balet üzərində işləyirdi. opera teatrına təqdim olunan "Qız qalası" baletinin premyerası 1940-cı ilin 18 aprelində göstərildi. Quruluşçu baletmeysterlər Sergey kevorkov və Vaxtanq Voronski (Nadiradze), müəyyən rəqslərin quruluşçusu Qəmər Almaszadə, rəssam Ənvər Almaszadə, rejissor İsmayıl Hidayətzadə idi. İlk tamaşanın dirijoru Əfra-siyab Bədəlbəyli idi və əsas rollardan Gülyanağın, Poladm və Cahangir xanın partiyalarını Qəmər Almaszadə, Konstantin Bataşov və Anatoli Urvantsev ifa edirdilər.

"Qız qalası" baletinin İlk tamaşası böyük təntənə ilə keçdi. Beləliklə də 18 aprel 1940-cı il tarixi milli baletimizin təşəkkül tarixi kimi əbədiləşdi.

Növbəti milli baletimiz 30 dekabr 1950-ci ildə tamaşaçılara göstərildi. Bu, Soltan Hacıbəyovun bəstələdiyi 3 pərdəli və 6 Şəkilli "Gülşən" baleti idi. Müasir həyatdan götürülən baletin librettosunu işləyən Qəmər Almaszadə həm də tamaşa-nm quruluşçu baletmeysteri, rejissoru Soltan Dadaşov, dirijoru isə Niyazi idi. Tamaşaya bədii tərtibatı Ənvər Almaszadə vermişdi. Qəmər Almaszadə Gülşən, Konstantin Bataşov Azad və Yuri kuznetsov Əhməd rollarını ifa edirdilər.

Aradakı on il ərzində balet truppası 1941-ci ildə Rikkardo Driqonun "Arlekinada" (quruluşçu baletmeyster İqor Arbatov, rəssam Ənvər Almaszadə, dirijor Əfrasiyab Bədəlbəyli), 1945-ci ildə Lüdviq Minkusun "Don kixot" (xoreoqraf Aleksandr Qorski, rəssam Ənvər Almaszadə, dirijor Əfrasiyab Bədəlbəyli), Pyotr Çaykovskinin "Sonalar gölü" (baletmeyster Sergey Kevorkov, rəssam Mirra Panadiadi, dirijor Əfrasiyab Bədəlbəyli), 1949-cu ildə Pyotr Çaykovskinin "Şelkunçlk" (baletmeyster Sergey Kevorkov, rəssam Fyodor Qusak, dirijor Əfrasiyab Bədəlbəyli), İqor Morozovun "Doktor Aybolit" (baletıneyster Qəmər Almaszadə, rəssam Ənvər Almaszadə, dirijor

Əfrasiyab Bədəlbəyli) baletlərini hazırlayaraq öz repertuarına daxil edib. Əvvəlki dörd tamaşada Qəmər Almaszadə Paulina, Kitri, Odetta - Odiliya və Maşa obrazlarının partiyalarında məharətlə çıxış edib. Onun plastik hərəkətlərinin mayasında milli rəqslərimizin zərif, cazibədar elementləri təcəssüm tapırdı və bu da xoreoqrafik hərəkətlərin zənginləşməsinə səbəb olurdu.

Məşhur bəstəkar Qara Qarayev xeyli vaxt idi ki, dahi Nizaminin eyniadlı poeması əsasında İsmayıl Hidayətzadənin, Yuri Slonimskinin və Sabit Rəhmanın müştərək yazdıqları "Yeddi gözəl" librettosuna musiqi bəstələyirdi. Teatr ictimaiyyətinin intizarla gözlədiyi gün gəlib çatdı və 7 noyabr 1952-ci ildə OBT "Yeddi gözəl"in ilk tamaşasını baletmeyster Pyotr Qusevin quruluşunda, Ənvər Almaszadə ilə Fyodor Qusakin səhnə tərtibatında, Kamal Abdullayevin dirijorluğunda və İs-mayıl Hidayətzadənin rejissorluğunda tamaşaçılara təqdim etdi. Leyla Vəkilova Aişə, Yuri Kuznetsov Bəhram şah, konstantin Bataşov Mənzər, Anatoli Urvantsov Vəzir xarakterlərinin partiyalarını ifa edirdilər. "Yeddi gözəl" baleti bütün məziyyətlərinə və bu janrdakı yeni estetik səciyyələrinə görə milli səhnə sənəti tariximizdə hadisəyə çevrildi. Balet bu quruluşda uzun müddət teatrın repertuarında aparıcı tamaşalardan biri kimi yaşadı.

1950-ci illərdə balet sənətinə qüdrətli səhnə ustaları Qəmər Almaszadə və Leyla Vəkilovadan sonra Rəfiqə Axundova, M[aqsud Məmmədov kimi parlaq istedad sahibləri gəldilər. 1954-cü ildə Qəmər xanımın quruluşunda göstərilən Reynqold Qlierin "Qırmızı lalə" (rəssam Fyodor Qusak, dirijor Vladimir Traxmoviç) baletində Maqsud Məmmədov Li Şan Fu, Sergey Keverkovun səhnə təfsirində oynanılan Boris Asafyevin "Baxçasaray fəvvarəsi"ndə Leyla Vəkilova Zarema, 1955-ci ildə Qəmər Almaszadənin quruluşunda oynanılan Pyotr Çaykovskinin "Yatınış gözəl" baletində Rəfiqə Axundova Feya Siren, Leyla Vəkilova Avrora, 1956-cı ildə repertuara daxil edilən Aleksandr kreynin "Laurensiya" (quruluşçu Qəmər Almaszadə) baletində Leyla Vəkilova Laurensiya, Maqsud Məmmədov Frondoso, Rəfiqə Axundova Xosinta, 20 yanvar 1957-ci ildə Boris Zeydmanın "Qızıl açar" əsərində (baletmeyster Qəmər Almaszadə) Leyla Vəkilova Malvina, Maqsud Məmmədov Pyero, xoreoqrafiya məktəbinin tələbəsi Çimnaz Babayeva Buratino, 1 noyabr 1958-ci ildə "Qız qalası"nın üçüncü redaksiyasında (quruluşçu baletmeyster Qəmər Almaszadə) Leyla Vəkilova Gülyanaq, Maqsud Məmmədov Polad, Xumar Zülfüqarova Yengə, 1959-cu ildə Rikkardo Driqonun "Arlekinada"sının ikinci redaksiyasında Leyla Vəkilova Paulina, Maqsud Məmmədov Kolen, Rəfiqə Axundova Luiza, "Yeddi gözəl"in ikinci işləməsində Leyla Vəkilova Aişə, Maqsud Məmmədov Mənzər partiyalarını ifa etdilər.

Teatrı ilk növbədə milli balet əsərləri və milli baletmeysterlərin yetişdirilməsi, balet aktyorlarının formalaşması maraqlandırırdı. Buna görə də teatr yazıçı Piter Abrahamsın romanının motivləri əsasında Yuri Slonimskinin "İldırımlı yollarla" librettosuna Qara Qarayevin bəstələdiyi baletin təqdimini intizarla gözləyirdi. Əsər ifa olunub bəyənildikdən sonra baletmeyster Konstantin Sergeyevdən, Rəssam Valeri Dorrerdən, dirijor Niyazidən ibarət yaradıcı heyət əsər üzərində uzun müddət işlədi. İlk tamaşası 25 dekabr 1960-cı ildə göstərilən baletdə əsas ifaçılar Leyla Vəkilova (Sari), Maqsud Məmmədov (Lenni), Rəfiqə Axundova (Fanni), Anatoli Urvantsov (Qert) və Konstantin Bataşov (Mako) idi.

Opera və Balet Teatrı 27 aprel 1961-ci ildə Adolf Şarl Adanın "Jizel" baletini Qəmər Almaszadənin və Nadejda Fyodorovanın quruluşunda göstərəndən sonra (Jizel - Leyla Vəkilova, Albert - Maqsud Məmmədov) yenidən milli bəstəkarın əsərinə müraciət etdi. Gənc bəstəkar Arif Məlikov türe ədibi Nazim Hikmətin "Məhəbbət əfsanəsi" pyesinin librettosu əsasında eyniadlı balet bəstələmişdi. Onu tamaşaya baletmeyster Yuri Qriqoroviç, rəssam Simon Virsaladze və dirijor Niyazi hazırlamışdılar. Böyük uğur qazanan baletdə əsas partiyalar Leyla Vəkilovaya (Şirin), Dönməz Hacıyevə (Fərhad), Raisa İzmayılovaya (Məhmənə banu) və Konstantin Bataşova (Vəzir) tapşırılmışdı. Tamaşa repertuarda möhkəmləndikcə aparıcı rolların ifaçıları da dəyişirdilər.

1960-cı illərin ikinci yarısından sonra, Qara Qarayevlə Arif Məlikovun əsərlərinin Dünya miqyasında şöhrətlənməsi ilə bağlı bəstəkarlarımız balet janrına xüsusi maraq göstərdilər. Teatr Süleyman Sani Axundovun hekayəsi əsasında Əfrasiyab Bədəlbəylinin yazdığı librettoya Əşrəf

Abbasovun bəstələdiyi "Qaraca qız" (15 sentyabr 1965), Tofiq Bakıxanovun birpərdəli "Xəzər balladası" (librettosu Səyavuş Məmmədzadənindir. 12 yanvar 1968), Fikrət Əmirovun "Şur" xoreoqrafik novellasına (librettosu Qəmər Almaszadənindir. 27 dekabr 1968), Rauf Hacıyevin "Yallı" xoreoqrafik miniatürünə və "Azərbaycan süitası"na (1969), Qara Qarayevin "Leyli və Məcnun" xoreoqrafik poemasma və Fərəc Qarayevin "Qobustan kölgələri" baletinə (15 may 1969), Fərəc Qarayevin "Kaleydoskop" xoreoqrafik miniatürünə (1971), Niyazinin "Çitra" baletinə (9 aprel 1972), Nazim Əliverdibəyovun "Muğam" xoreoqrafik miniatürünə (22 yanvar 1972), Fikrət Əmirovun "Nəsimi dastanı" (13 sentyabr 1973) və "1001 gecə" (15 iyul 1979) baletlərinə, "Xəzəri fəth edənlər" xoreoqrafik miniatürünə (1975), Nəriman Məmmədovun "Humay" balet poemasına (6 dekabr 1981), Aqşin Əlizadənin "Babək" (29 may 1986), Musa Mirzəyevin "Nizami" (1991), Xəyyam Mirzəzadənin "Ağ və Qara" (7 iyun 2000) baletlərinə quruluşlar verib. Bəzi baletlər bir neçə redaksiyada tamaşaya hazırlanıb.

Son otuz ildə teatr Dünya klassiklərindən Pyotr Çaykovskinin "Sonalar gölü", "Romeo və Cülyetta", "Şelkunçin", Dmitri Şostokoviçin "Xanım və xuliqan", Friderik Şopenin "Şopeniana", Sergey Prokofyevin "Zoluşka", Lüdviq Minkusun "Don Kixot" və "Paxita", Qaetano Donisettinin "Arlekinada", Jorj Bizenin eyniadlı opera musiqisi əsasında Rodion Şedrinin "Karmen", Moris Ravelin "Bolero" baletlərini repertuarına daxil edib. Teatrda Çimnaz Babayeva, Tamilla Şirəliyeva, Vladimir Pletnyov, Mədinə Əliyeva kimi balet ustaları yetişiblər.

Göründüyü kimi, azərbaycanlı bəstəkarlar həm 1 pərdəli, həm 2 hissəli, həm də klassik üslubda baletlər bəstələməklə yanaşı, xoreoqrafik lövhələr, miniatürlər sahəsində də sənət nailiyyətləri qazana bilmişlər.

Qəmər xanım Almaszadə coşğun temperamenti, emosional cazibədarlığı, Leyla Vəkilova poetik lirizmi, hərəkət plastikasının zərifliyi, Maqsud Məmmədov Şərq ehtirası ilə Avropa rəqs dinamizmini birləşdirməsi, havadakı ecazkar uçuşları, Rəfiqə xanım ritm ahəngdarlığını hərəkətlərdə məharətlə musiqi dilinə çevirməsi, Tamilla Şirəliyeva milli rəqs elementlərindən ustalıqla barına bilməsi, Çimnaz Babayeva kövrək hərəkətlərlə psixoloji mətləblərə lirizm çalarları aşılaması, Mədinə Əliyeva ənənəyə sədaqəti və işgüzarlığı ilə milli balet sənəti ifaçılığımızın estetik çalarlarını zənginləşdirmişlər.

Maqsud Məmmədov, Rəfiqə Axundova, Tamilla Şirəliyeva bu gün quruluşçu baletmeyster kimi Qəmər Almaszadənin və Leyla Vəkilovanın yaratdıqları milli məktəb ənənələrini ləyaqətlə davam etdirirlər.

* * *

**Konstantin Bataşov**

Balet ustası Konstantin Nikolayeviç (31.1.1918 - 9.12.991) Tiflis şəhərində doğulub. İbtidai siniflərdə oxuduğu vaxtlarda aiəsi Bakıya köçüb. O, Xoreoqrafiya məktəbini bitirmişdir (1939). Ancaq 1935-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrında işləyib.

Azərbaycanın ilk peşəkar balet artistlərindən sayılır. Konstantin Bataşov bir balet ustası kimi Əfrasiyab Bədəlbəylinin "Qız qalası" (Polad və Cahangir xan), Qara Qarayevin "Yeddi gözəl" (Mənzər və Bəhram), "İldırımlı yollarla" (Mako), Soltan Hacıbəyovun "Gülşən" (Azad), Əşrəf Abbasovun "Qaraca qız" (Piri baba), Arif Məlikovun "Məhəbbət əfsanəsi" (Vəzir), Boris Asafyevin "Bağçasaray fəvvarəsi" (Vatslav və Girey), Lüdviq MinkUsun "Don kixot" (Bazil), Reynqold Qlierin "Qırmızı lalə" (Ma Mi Çen), Pyotr Çaykovskinin "Sonalar gölü" (Ziqfrid), "Yatmış gözəl" (Dezire), Aleksandr Qlazunovun "Raymonda" (Can de Brien), Aleksandr Kreynin "Laurensiya" (Frondoso), Rikkardo Driqonun "Arlekinada" (Pyer) baletlərində əsas və mürəkkəb partiyaların mahir ifaçısı kimi tanınıb.

Konstantin Bataşov Leo Delibin "Lakme", Cahangir Cahangirovun "Azad", Müslüm bəy Maqomayevin "Şah İsmayıl" operalarında rəqslərin quruluşçusu olub. Nikolay Rimski-Korsakovun "İspan kapriççiosu" xoreoqrafik süitasının, "Şəhrizad" simfonik poemasının, Həsən Rzayevin "Elementlər" əsərinin əsasında birpərdəli balet tamaşalarını hazırlayıb. O, "Odissey" (Qolubov), "Şəhrizad" və "Humay" (Nəriman Məmmədov) baletlərinin libretto müəllifidir.

1940-cı ildən Bakı Xoreoqrafiya Məktəbində dərs deyən Bataşov xalq artistləri Çimnaz Babayevanın, Vladimir Pletnovun, Tamilla Şirəliyevanın müəllimi olub.

Məşhur baletmeyster 30 aprel 1955-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 26 aprel 1958-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

1952-ci ildə Stalin mükafatı laureatı olub.

Konstantin Bataşov 1990-cı ildə Moskvaya köçüb və orada vəfat edib.

**QƏMƏR ALMASZADƏ (10 Mart 1915)**

İlk Azərbaycan balerinası, milli balet sənətimizin ulduzu, böyük yaradıcılıq irsinə malik, onlarla istedadlı gəncin formalaşmasında pedaqoq kimi çalışan Qəmər Hacıağa qızı Almaszadə 10 mart 1915-ci ildə Bakıda incəsənətə rəğbəti olan ailədə doğulub. 7 illik təhsilini burada alıb. Uşaqlıqda Şəkil çəkməyi xoşlayıb.

1925-ci ildə Opera və Balet Teatrı nəzdində baletmeyster Sergey Kevorkov balet studiyası açıb. Ora daxil olanlar arasında on yaşlı Qəmər də vardı. Həmin studiya 1929-cu ildə Azərbaycan Xalq Maarif komissarlığının sərəncamına keçib və bugünədək Bakı Xoreoqrafiya Məktəbi kimi fəaliyyət göstərir. 1929-cu ildə studiyanı qurtaran səkkiz nəfərdən biri olan Qəmər xanım Opera və Balet Teatrında işləyib. Teatrda bir neçə kiçik rol oynayıb. Müəyyən sənət təcrübəsi toplamağa çalışıb.

Sonra Peterburqa gedərək oranın xoreoqrafiya məktəbində şöhrətli sənətkar M. Romanova - Ulyanovanın sinifində təhsil alıb, peşəsinin klassik incəliklərinə yiyələnib.

1936-cı ildə Bakıya qayıdan Qəmər Almaszadə bir-birinin ardınca yaradıcılıq nailiyyətləri qazanmağa başlayıb.

Səhnə debütü 1931-ci ildə "Qırmızı lalə"də Tao Xoa obrazı olan Qəmər xanım teatrın balet truppasının oynadığı tamaşaların əsas partiyalarını ifa edib. Həmin tamaşaların əksəriyyətində bir neçə quruluşda oynayıb.

Ustad sənətkarın Tao Xoa ("Qırmızı lalə", Boris Zeydman), Medora ("Korsar", Adolf Adan), Mariya və Zarema ("Bağçasaray fəvvarəsi", Boris Asafyev), Raymonda ("Raymonda", Aleksandr Qlazunov), Esıneralda ("Esıneralda", (Sezar Puni), Malia, Odetta-Odilliya ("Şelkunçik" və "Sonalar gölü", Pyotr Çaykovski), kitri ("Don kixot", Lüdviq Minkus), Rəqqasə ("Koroğlu", Üzeyir Bəy Hacıbəyov), Gülyanaq ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Aişə ("Yeddi gözəl", Qara Qarayev), Rəqqasə ("Xosrov və Şirin", Niyazi), Laurensiya ("Laurensiya", Aleksandr Kreyn), Rəqqasə qız ("Nərgiz", Müslüm Maqomayev) rolları milli balet sənətimizin inciləri sayılır.

1952-ci ildə Soltan Hacıbəyovun "Gülşən" baletinin yaradıcı qrupu, o cümlədən baş partiyanın ifaçısı Qəmər xanım Almaszadə Stalin mükafatına layiq görülüb.

Qəmər Almaszadə 1953-cü ildən Azərbaycan Dövlət Opera və Balet Teatrında baş baletmeyster işləyir. 1972-1988-ci illərdə teatrın balet truppasının bədii rəhbəri işləyib.

Opera və Balet Teatrında Qəmər Almaszadə 1949-cu ildən başlayaraq İqor Morozovun "Doktor Aybolit", Soltan Hacıbəyovun "Gülşən", Boris Zeydmanın "Qırmızı lalə", "Qızıl açar", Pyotr Çaykovskinin "Yatınış gözəl", Aleksandr Kreynin "Laurensiya", Əfrasiyab Bədəlbəylinin "Qız qalası", Rikardo Driqonun "Arlekinada", Əşrəf Abbasovun "Qaraca qız", Fikrət Əmirovun "Şur", Frederik Şopenin "Şopeniana", Lüdviq Minkusun "Don kixot" baletlərinə orijinal və monumental kompozisiyalı quruluşlar verib.

O, bəzi başqa balet əsərlərini də tamaşaya hazhırlayıb. Onun hazırladığı tamaşalar kompozisiya bütövlüyü, mövzunun musiqi dili ilə kiassik həlli, psixoloji lirizmi, rəqslərinin cazibədar quruluşu ilə dəqqətəlayiqdir.

Balet aktrisası Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", Müslüm Maqomayevin "Şah İsmayıl" operalarında rəqs səhnələrini qurub.

"Qırmızı lalə", "Yatmış gözəl", "Laurensiya", "Arlekinada", "Sonalar gölü", "Şopeniana", "Don Kixot" baletləri məhz Qəmər xanımın özünün səhnə redaksiyasında oynanılıb.

Balet sənətimizin qadın qaranquşu Qəmər xanım 1936-cı ildən Bakı Xoreoqrafiya məktəbində pedaqoji fəaliyyət göstərir. SSRİ xalq artisti Leyla Vəkilova, Azərbaycan Respublikasının xalq artistləri Rəfiqə Axundova, Tamilla Şirəliyeva, Çimnaz Babayeva, Gürcüstan Respublikasının xalq artisti V.Siqnadze və neçə-neçə bu kimi balet ustaları Qəmər xanımın yetirmələridir.

Qəmər Almaszadə 1970-1972-ci illərdə İraq Respublikasının paytaxtı Bağdadda işləyib. O, böyük zəhmət bahasına burada ilk İraq professional xalq rəqs ansamblını yaradıb, onu zəngin repertuarla şöhrətləndirib.

Balet sənətində qazandığı nailiyyətlərə və milli mədəniyyətimizdəki xidmətlərinə görə Qəmər Almaszadə 4 may 1940-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti, 17 iyun 1943-cü ildə xalq artisti, 9 iyun 1959-cu ildə SSRİ xalq artisti fəxri adları ilə təltif olunub.

Qəmər Almaszadə Azərbaycan balet sənətində məktəb yaradıb. Həmin məktəbin özünəməxsus estetik və bədii səciyyələri var.

Qəmər xanım balet jestinin və rəqs hərəkətlərinin emosioal politrasının ifadəliliyinə təsir gücünə nail olub.

Ən dramatik məqamlarda texniki mürəkkəbliyə cəsarətli meyil göstərib.

İfa etdiyi partiyalarda xarakterin hiss və həyəcanlarını rəqsin mürəkkəb və çoxmənalı dili ilə təcəssüm etdirib. Onun balet xoreoqrafiyası daha çox milli xalq rəqslərinin arxitektonikasına, onun çoxçalarlı semantikasına əsaslanır. Koloriti və cazibədarlığı ilə seçilir.

Klassik baletin estetikləşmiş formalarından çıxış etməklə süjetli rəqslərə üstünlük verib. Bu isə yeni balet estetikasını formalaşdırıb. Belə təfsirdə Aişənin, Gülyanağın, Gülşənin emosional dramatizmi, rəqs dilinin psixoloji ifadəliliyi daha çevik qavranılır.

Daxili enerjini və coşğun ehtirasını axıradək obrazın psixoloji musiqi ritminə uyğun ahəngdarlıqla realizə edib.

Pedaqoji fəaliyyətində klassik balet kanonları ilə milli rəqslərin mürəkkəb formalarının poetik harmoniyasına müvəffəq olub. Bu isə ilk növbədə Azərbaycan baletinin özünəməxsusluğunu formalaşdırıb.

Qəmər Almaszadə emosional lirizmdən psixoloji lirizmə, Psixoloji lirizmdən dramatik və fəci lirizmə keçməkdə rəqs hərəkətlər kompleksinə yeni-yeni ifadə çalarları gətirib.

**LEYLA VƏKİLOVA (29.1.1927- 20.2.1999)**

Milli balet sənətimizin əfsanəvi və klassik dühalarındandır. Klassik dünyəvi balet elementləri ilə milli rəqslərimizin hərəkət zəifliyini hünərvər ustalıqla birləşdirə və onu öz ifasının estetik hüsnünə çevirə bilməkdə əvəzolunmaz idi.

Yüksək səhnə mədəniyyətinə və ifa texnikasma malik sənətkar olub.

İfası həmişə özünün emosional lətafəti, ülviyyəti, zərifliyi, cazibəli coşğunluğu, hərarətli qaynarlığı, fəza boşluğunda yaratdığı nağılvarı görünüşü ilə seçilib.

Səhnədə son dərəcə çevik, hərəkətlərinin plastikası ifadəli və dərin məzmunlu idi, sanki dil açıb danışırdı.

Sənətkar yöndaşları diqqət və səmimiyyətinə, hərəkətlərinin psixoloji dərinliyinə, ünsiyyətinin təbiiliyinə və təbii canlanmağına görə Leyla xanımla bir tamaşada oynamağa xüsusi cəhd göstəriblər.

Səhnə boyu uzanan, geniş miqyaslı lirik, dramatik və ehtiraslı hərəkətlər toplusundan ibarət mizanları icra etməkdə böyük peşəkar səriştəsi vardı.

Leyla Məhəd qızı Vəkilova 1927-ci il yanvar ayının 29-da Bakıda doğulub. səkkiz yaşında Bakı Xoreoqrafiya Məktəbinə daxil olub. Əvvəlcə Ədilə Almaszadənin, son siniflərdə isə görkəmli balet ustası və pedaqoq Qəmər xanım Almaszadənin rəhbərliyi ilə sənətin incəliklərinə yiyələnib.

1943-cü ildə məktəbi uğurla bitirən aktrisa Azərbaycan Dövlət Opera və Balet Teatrının balet truppasına solist götürülüb. 1945-1946-cı illərdə ixtisas səriştəsini təkmilləşdirmək, sənətkarlıq qabiliyyətini formalaşdırmaq məqsədi ilə iki il dünya şöhrətli Moskva Xoreoqrafiya Məktəbində xüsusi kurs keçib. Bakıya qayıdaraq Opera və Balet Teatrının aparıcı balet aktrisası olub.

Tezliklə o, repertuarın ən sanballı balet tamaşalarında qadın qəhrəmanların partiyalarını ifa etməyə başlayıb. Onun zəngin yaradıcılığının ən parlaq yaradıcılıq qələbələrini təmin edən obrazlar dünya balet ulduzlarının da əsas repertuarlarını təşkil edir.

Leyla xanım müxtəlif illərdə teatrın səhnəsində Gülyanaq ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Odetta-Odilliya, Avrora, Mulla ("Sonalar gölü", "Yatmış gözəl" və "Şelkunçik", Pyotr Çaykovski), Pao Xoa ("Qırmızı lalə", Reynqard Qlier), Kitri ("Don Kixot" Lüdviq Minkus), Laurensiya ("Laurensiya", Aleksandr Kreyn), Zarema ("Bağçasaray fəvvarəsi", Boris Asafyev), Gülşən ("Gülşən", Soltan Hacıbəyov), Aişə, Sari ("Yeddi gözəl" və "İldırımlı yollarla", Qara Qarayev), Şirin ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Jizel ("Jizel", Adolf Adan), Malvina ("Qızıl açar", Boris Zeydman), Qaraca qız ("Qaraca qız", Əşrəf Abbasov) partiyalarını ifa edib.

Azərbaycan milli balet sənətinin tərəqqisində və təkamülündə, beynəlxalq aləmdə tanınmasında göstərdiyi böyük xidmətlərə görə Leyla xanım Vəkilova 30 aprel 1955-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 26 aprel 1958-ci ildə xalq artisti, 31 dekabr 1967-ci ildə SSRİ xalq artisti fəxri adları ilə təltif olunub.

Leyla xanım Vəkilova Polşada (1956, 1962, 1968), Suriyada (1960), Çexoslavakiyada (1964), Hindistanda (1965), Bolqarıstanda (1966), Fransada (1969, 1974), Macarıstanda (1973), İtaliyada (1976), Türkiyədə (1977, 1982), Tiflisdə və Almaniyada (1979), Nepalda (1981) ifaçı və baletmeyster kimi uzunmüddətli qastrol səfərlərində olub. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında iştirak edib.

Balet ustası 1953-cü ildən ömrünün sonuna kimi Bakı Xoreoqrafiya Məktəbində kiassik rəqslər fənnindən dərs deyib və 1992-ci ildən həm də bu təhsil ocağına bədii rəhbərlik edib. Leyla Vəkilovanın yetirmələri nəinki Azərbaycanda, hətta Moskvanın Böyük Teatrında, Almaniyada milli balet sənətinin çiçəklənməsində səmərəli xidmətlər göstəriblər.

O, 1996-cı il sentyabr ayının 6-dan Bakı Xoreoqrafiya Məktəbinin professoru idi. Onun layiqli yetirmələri bu gün də sənət fəaliyyətlərini davam etdirirlər.

Görkəmli balet ustası, milli səhnə mədəniyyətimizin nadir incilərindən olan Leyla Məhəd qızı Vəkilova 20 fevral 1999-cu ildə Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

## MAQSUD MƏMMƏDOV
## VƏ RƏFİQƏ AXUNDOVA

İlk Azərbaycanlı Balet artistidir. Ecazkar və cazibədar səhnə "uçuşları", coşğun ehtirası, hərəkətlərinin dramatizmi və zərifliyi ilə seçilən Maqsud Davud oğlu Məmmədov 30 may 1929-cu ildə Gəncədə doğulub. Rəqslə erkən yaşlarından məşğul olub. Moskva Xoreoqrafiya Məktəbini bitirdikdən sonra 1951-1961-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti işləyib.

O, 30 aprel 1955-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1970-ci il mayın 21-də xalq artisti fəxri adlarına layiq görülüb.

Maqsud Məmmədov həm milli baletlərimizdə, həm də dünya klassiklərinin əsərlərində mürəkkəb partiyaları böyük uğur və şərəflə ifa edib. Onun ən məşhur partiyaları bu gün də gənclərə örnəkdir.

Sənətkarın ifa yaradıcılığının əsasını Polad ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Mənzər, Lenni ("Yeddi gözəl" və "İldırımlı yollarla", Qara Qarayev), Fərhad ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Azad ("Gülşən", Soltan Hacıbəyov), Pərviz ("Qaraca qız", Əşrəf Abbasov), Albert ("Jizel", Adolf Adan), Dezire, Ziqfrid, Şahzadə ("Yatmış gözəl", "Sonalar gölü" və "Şelkunçik" Pyotr Çaykovski), Xli Şan Fu və Ma Li Çen ("Qırmızı lalə", Reynqold Qlier), Pyero ("Qızıl açar", Boris Zeydman), kolen ("Arlekinada", Rikardo Driqo), Vatslav ("Bağçasaray fəvvarəsi", Boris Asafyev), Frondoso ("Laurensisa", Aleksandr Kreyn), Qəhrəman ("Şopeniana", Frederik Şopen), Bazil ("Don Kixot", Lüdviq Minkus) obrazlarının ifası təşkil edir.

Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletindəki Fərhad rolu Maqsud Məmmədovun ən uğurlu işlərindəndir. O, Azərbaycan Opera və Balet Teatrının Monte-Karlo, Fransa, Lüksemburq qastrollarında qalib olub.

Maqsud Məmmədov xalq artisti Rəfiqə Axundovanın əridir.

* * *

Rəqslərinin lirizmi zərif plastikası, həssas musiqi duyumu ilə seçilən balerina Rəfiqə Hacı qızı Axundova 7 avqust 1931-ci ildə Bakıda doğulub. Dörd yaşından rəqslə məşğul olan Rəfiqə xanım Bakı Xoreoqrafiya Məktəbini yüksək qiymətlərlə bitirib (1950). O, 1951-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti işləyib.

Rəfiqə Axundova Azərbaycan və klassik dünya bəstəkarlarının əsərlərində coşğun ehtirasla, lətafətli lirizmlə, emosional təravətlə əsas və mürəkkəb partiyalar ifa edib.

Zəngin yaradıcılığında xüsusi yer tutan Aişə və Gözəllər gözəli, Fanni ("Yeddi gözəl" və "İldırımlı yollarla", Qara Qarayev), Gülyanaq ("Qız Qalası", Əfrasiyab Bədəlbəyli), Gülşən ("Gülşən", Soltan Hacıbəyov), Şirin ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Saray rəqqasəsi ("Koroğlu", Üzeyir bəy Hacıbəyov), Zarema ("Bağçasaray fəvvarəsi" Boris Asafyev), Jizel ("Jizel", Adolf Adan), Noktyürn ("Şopeniana", Frederik Şopen), Xasinta ("Laurensiya", Aleksandr Kreyn), Şahzadə Florina, Rade Trua ("Yatınış gözəl" və "Sonalar gölü", Pyotr Çaykovski), Malvina ("Qızıl açar", Boris Zeydman), Vakxanka ("Valpurqiyeva gecəsi", Şarl Fransua Qunonun "Faust" operasında balet lövhəsi) partiyaları balet aktrisasının böyük sənət uğurlarıdır.

Bakı Xoreoqrafiya Məktəbini bitirəndən sonra bir il Moskvada təcrübə keçmiş (1951) Rəfiqə Axundova 26 aprel 1958-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 21 may 1970-ci ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Rəfiqə xanım Azərbaycan Dövlət Opera və Balet Teatrının bir sıra xarici Öikə səfərlərində milli balet sənətimizin yüksək texniki və bədii səviyyəsini ləyaqətlə nümayiş etdirib.

Rəfiqə xanım l998-2000-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində plastika və baletmeyster sənəti fənlərindən dərs deyib. Bu ali məktəbdə onun təşəbbüsü və rəhbərliyi ilə "rəqs laboratoriyası" yaradılıb. Görkəmli balet ustası 2000-ci ildən Bakı Xoreoqrafiya Məktəbinin bədii rəhbəridir.

* * *

Ər-arvad olan Maqsud Məmmədov və Rəfiqə Axundova baletmeyster kimi birgə müəyyən əsərlərə möhtəşəm və ecazkar səhnə quruluşları veriblər. Azərbaycan Dövlət Opera və Balet Teatrında Tofiq Bakıxanovun "Xəzər balladası" (1968), Fərəc Qarayevin "Qobustan kölgələri" (1969), "Kaleydoskop" (1972), Qara Qarayevin "İldırımlı yollarla" (1974), "Yeddi gözəl" (1978), Aqşin Əlizadənin "Babək" (1986), Pyotr Çaykovskinin "Şelkunçik" (1987) baletlərini tamaşaya hazırlayıblar. "Yallı" və Rauf Hacıyevin "Azərbaycan süitası" (1969), Nazim Əliverdibəyovun "Muğam" (1972) xoreoqrafik miniatürlərinə quruluşlar veriblər.

"Azərbaycanfilm"in istehsal etdiyi "Qaynana", "Bəyin oğurlanması", "Qərib cinlər diyarında" bədii ekran əsərlərinin rəqs quruluşları Maqsud bəylə Rəfiqə xanıma məxsusdur.

1973-cü ildə Rauf Hacıyevin "Üç inqilab" baletini hazırlamaqla Əlcəzair milli balet sənətinin bünövrəsini qoyublar.

Hər iki sənətkar Parisdə və bir sıra xarici ölkələrdə milli balet sənətimizi ləyaqətlə təmsil ediblər.

İsveçin Malla şəhərində Nazim Əliverdibəyovun "Mugam" musiqili xoreoqrafiya əsərini tamaşaya hazırlayıblar. Eyni zamanda bu əsəri onların quruluşunda Moskvadakı Böyük Teatrın balet ustaları Vladimir Vasilyev və Yekaterina Maksimova 1974-cü ildə Fransanın Ovinyon şəhərində keçirilən festivalda ifa ediblər.

Müqavilə ilə Misirdə, Əlcəzairdə, Belçikada, Türkiyədə işləyiblər. 1969-cu ildə Fransa qastrolu zamanı Paris Rəqs Akademiyasının diplomu ilə təltif olunublar.

Fərəc Qarayevin "Kaleydoskop" əsərini Böyük Teatrda (1973), Belçikanın Antverten şəhərindəki Opera və Balet Teatrında (1982), Qara Qarayevin "İldırımlı yollarla" baletini Novosibirskidə (1976), "Yeddi gözəl"i Misirin paytaxtı Qahirə şəhərində (1979) yeni və orijnal təfsirlərdə səhnədə canlandırıblar. Onlar həmçinin Qahirədə məşqçi-pedaqoq işləyiblər.

Pedaqoq-məşqçi kimi 1991-ci ildən Türkiyənin İzmir şəhərindəki sənət ocağında coşğun işgüzarlıqla çalışıblar. 1994-cü ildən Ankara Dövlət Opera və Balet Teatrında böyük uğurla nümayiş etdirilən Qara Qarayevin "Yeddi gözəl" baletinin səhnə quruluşunun baletmeysteri olublar.

Azərbaycan Dövlət Televiziyası 2001-ci ildə qüdrətli balet ustaları Rəfiqə Axundovanın və Maqsud Məmmədovun yaradıcılığına həsr olunmuş "iki qəlbin bir dastanı" sənədli filmini çəkib.

## MUĞAM OPERA İFAÇILARI (1930- 1980)

Teatrda elə solistlər olublar ki, onlar sırf vokal operalarında çıxış ediblər. Digər bir qrup yalnız muğam Operalarında səhnəyə çıxıblar. Başqa bir qisim sənətkarlar isə klassik milli musiqimizin ənənələrini davam etdirməklə, təsniflər, xalq nəğmələri, bəstəkar mahnıları oxumaqla yanaşı, ADOBT-də də işləmişlər.

Onların arasında elə ifaçılar olublar ki, yaradıcılıqlan teatrın inkişaf mərhələlərində mühüm yer tutub. Bu baxımdan Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Qacar Xurşidin (lirik soprano. 1894-1963), əməkdar artistlər Süreyya Qacarın (messo-soprano. 1910-1992), Yavər Kələntərlinin (1902-1979, Nəzakət Məmmədovanın (1944-1982), müğənni solistlər Məhbubə Paşayevanın (1905-1970), Bakir Haşımovun (1926-1989), Qulu Əsgərovun (1928-1989), Simuzər

Hətəmovanın (1921), Sima Haşımlının, Mais Salmanovun, Əli Mehdiyevin, Sahibə Əhmədovanın, Rafiq Əliyevin də müəyyən xidmətləri olub

## ƏLÖVSƏT SADIQOV (22.12.1906-17.10.1970)

Nuxa (indiki Şəki) şəhərində doğulub. Səs tembri lirik tenor idi. 1928-1930-cu illərdə konservatoriya təhsili alıb. Təhsilini bitirən ili Azərbaycan Dövlət Opera və Balet Teatrına solist götürülüb. Üzeyir bəy Hacıbəyovun klassik operalarının lirik məhəbbət qəhrəmanlarının partiyaları Əlövsət Sadıqovun yaradıcılığında daha mühüm yer tutur.

Əlövsət Sadıqovun ADOBT-də Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Məcnun, İbn Səlam və Zeyd), "Əsli və Kərəm" (Kərəm), "Koroğlu" (Eyvaz), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Qərib), Reynqold Qlierin "Şahsənəm" (Aşıq Qərib və Aşıq Səməd), Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (Şah İsmayıl), "Nərgiz" (Molla Mütəllim), tərcümə olunmuş "Səfa" (Aşıq Musa) operalarında və Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Süleyman), "Məşədi İbad" (Hambal və Sərvər) operettalarında yaratdığı obrazlar daha diqqətçəkəndir.

Yaradıcılıq nailiyyətlərinə görə Əlövsət Sadıqov 17 iyul 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 20 dekabr 1956-cı ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Sənətkar ömrünün son illərində opera teatrında məsləhətçi pedaqoq kimi çalışıb.

Bakıda vəfat edən (17. oktyabr 1970) Əlövsət Sadıqov ikinci Fəxri xiyabanda dəfn olunub.

## GÜLXAR HƏSƏNOVA (10 DEKABR 1918)

Uca boyu, səhnədən yaraşıqlı görünən qədd-qaməti, soprano səsinin sanki nəhayətsiz zəngulələri ilə opera solistləri arasında layiqli yer tutub.

Gülxar İbrahim qızı Həsənova (Sultanova) Şəmkir rayonunun Bayramlı kəndində doğulub. Oxumağa məktəb yaşlarından başlayıb. Bakı Tibb Məktəbində (1934) təhsil alıb və oranın dram dərnəyində çalışıb. Bakı Teatr Məktəbində aktyorluq ixtisasma yiyələnib (1936-1939). Bir müddət GTT-də aktrisalıq edib. Tamaşalarda müğənnilik məharətini nümayiş etdirən aktrisa 1942-ci ildə ADOBT-ə dəvət alıb. Uzun illər teatrın solisti olan sənətkar 1980-ci ildən kollektivin opera truppasında məşqçi-pedaqoqdur.

Gülxar Həsənova müxtəlif rejissorların üslub baxımından ayrı-ayrı quruluşlarında "Leyli və Məcnun" (Leyli və Leylinin anası), "Əsli və Kərəm" (Əsli), "Koroğlu" (Xanəndə qız), "Aşıq Qərib" (Şahsənəm), "Şah İsmayıl" (Ərəb Zəngi), "Bahadır və Sona" (Təravət xanım), "Azad" (İranlı qız), "Gəlin qayası" (Camalın anası) operalarında, "Arşın mal alan" (Gülçöhrə, Telli və Cahan xala), "Durna" (Lalə) operettalarında çıxış edib.

Azərbaycan Respublikasının əməkdar artisti (30 aprel 1955) və xalq artisti (1 dekabr 1982) fəxri adları ilə təltif olunub.

* * *

**Əbülfət Əsəd oğlu Əliyev (30.12.1926-27.12.1990).**

Şuşada doğulub. Azərbaycan Respublikasının xalq artisti (29 iyun 1964) fəxri adını alıb. Azərbaycan Dövlət Filarmoniyasının (1945-ci ildən) və ADOBT-nin (1956-1962) solisti olub. Əsas rolları: Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Qərib ("Aşıq Qərib"), Şah İsmayıl ("Şah İsmayıl"). Sara Bəbiş qızı Qədimova (3 may 1922). Bakıda doğulub. Əslən Ağdamın Abdal-Gülablı kəndindəndir. Səsi lirik-koloratur sopranodur. Azərbaycan Respublikasının xalq artistidir (1963). ADF-nin solisti (1941-ci ildən) olmaqla yanaşı, 1957-1962-ci illərdə ADOBT-nin da aparıcı

səhnə ustası olub. Əsas rolları: Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Şahsənəm ("Aşıq Qərib").

**Rübabə Xəlil qızı Muradova (22.3.1933-28.8.1983).** Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. Messo-soprano səsi vardı. Azərbaycan Respublikasının xalq artisti (29 aprel 1971) fəxri adını alıb. 1954-cü ildən ADOBT-nin solisti olub. Əsas rolları Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Xanəndə qız ("Koroğlu"), Ərəb Zəngi ("Şah İsmayıl"), Şahsənəm ("Aşıq Qərib"), Sənəm ("Gəlin qayası").

**Zeynəb Yəhya qızı Xanlarova (28 dekabr 1936).** Bakıda doğulub. BININ-ni bitirib. Azərbaycan Respublikasının əməkdar artisti (1967), xalq artisti (1975), SSRİ xalq artisti (1980) fəxri adlarını alıb. Respublika Dövlət mükafatı laureatıdır (1988). 1961-ci ildən teatrın solistidir. Əsas rolları: Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Şahsənəm ("Aşıq Qərib").

**Arif İmran oğlu Babayev (20 fevral 1938).** Ağdam rayonunun Sarıhacılı kəndində doğulub. BİNİN-ni və ADİİ-nu bitirib. Azərbaycan Respublikasının əməkdar artisti (1978) və xalq artisti (1989) adları ilə təltif olunub.

1966-cı ildən teatrın solistidir. Əsas rolları: Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Qərib ("Aşıq Qərib"), Camal ("Gəlin qayası"), Şah İsmayıl ("Şah İsmayıl)

**Canəli Xanəli oğlu Ələkbərov (10 mart 1940).** Lənkəran rayonunun Tükəvilə kəndində doğulub. BMM-ni və ADÜ-ni bitirib. Azərbaycan Respublikasının əməkdar artisti (1989) və xalq artisti (1992) fəxri adları var. 1976-cı ildən teatrın solistidir. Əsas rolları: Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Qərib ("Aşıq Qərib"), Camal ("Gəlin qayasi"), Şah İsmayıl ("Şah İsmayıl), Azançı ("Sevil"), Axund ("Aldanmış ulduzlar", Məmməd Quliyev).

**Baba Mahmud oğlu Mirzəyev (7 noyabr 1940).** Təxəllüsü "Mahmudoğlu"dur. Ağstafa rayonunun Muğanlı kəndində doğulub. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu və ADÜ-ni bitirib. Azərbaycan Respublikasının əməkdar artisti (1982) və xalq artisti (1992) fəxri adlarına layiq görülüb. 1970-ci ildən teatrın solistidir. Əsas rolları: Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Qərib ("Aşıq Qərib"), Camal ("Gəlin qayası"), Mir Səyid ("Xanəndənin taleyi"), Axund ("Aldanmış ulduzlar").

**Qəndab Həbi qızı Quliyeva (10 avqust 1947**). Füzuli rayonunun Dilağarda kəndində doğulub. BMM-ni bitirib. Azərbaycan Respublikasının əməkdar artisti (1989) və xalq artisti (1992) fəxri adları var. 1982-ci ildən teatrın solistidir. Əsas rolları: Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Ərəb Zəngi ("Şah İsmayıl"), Şahsənəm ("Aşıq Qərib"), Gülbahar ("Gəlin qayası"), Xanəndə qız ("Vaqif").

**Səkinə Qulu qızı İsmayılova (24 fevral 1956).** Bakıda doğulub. BMM-ni və ADİİ-ni bitirib. Azərbaycan Respublikasının əməkdar artisti (1989) və xalq artisti (1992) fəxri adları var. 1980-ci ildən teatrın solistidir. Əsas rolları: Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Ərəb Zəngi ("Şah İsmayıl"), Şahsənəm ("Aşıq Qərib"), Gülbahar ("Gəlin qayası"), Xanəndə qız ("Vaqif").

**Alim Həmzə oğlu Qasımov (14 avqust 1957).** Abşeron rayonunda doğulub. BMM-ni və ADİİ-nu bitirib. Azərbaycan Respublikasının əməkdar artisti (1988) və xalq artisti (1993) fəxri adları var. 1990-cı ildən teatrın solistidir. Əsas rolları: Məcnun ("Leyli və Məcnun"), Qərib ("Aşıq Qərib").

**Mənsum İsrafil oğlu İbrahimov (1 oktyabr 1960).** Ağdam rayonunun İmamqulubəyli kəndində doğulub. BININ-ni və ADİİ-ni bitirib. Azərbaycan Respublikasının əməkdar artistidir (1998). Əsas rolları: Məcnun, İbn Səlam və Zeyd ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Qərib və Aşıq Səlim ("Aşıq Qərib"), Camal ("Gəlin qayası"), Azançı ("Sevil"), Xanəndə ("Vaqif").

* * *

Teatrın opera truppasında gənc muğam ifaçıları Nəzanət Teymurova, Aygün Bayramova, Gülyaz Məmmədova, Gülüstan Əliyeva uğurlu addımlar ata biliblər.

## AZƏRBAYCAN DÖVLƏT
## OPERA VƏ BALET TEATRI (1971-2004)

Haqqında söhbət gedən dövrdə Azərbaycan bəstəkarları bir neçə opera və balet əsərləri yazıblar. Teatr, demək olar, bu musiqi əsərlərinin hamısını tamaşaya hazırlayıb. Repertuarda yer tutan əsərlərin uğurlusu da olub, nailiyyət qazanmayanı da. Məsələ ondadır ki, bəstəkarlarımız və teatr mövzu axtarışlarını həmişə genişləndirməyə, rejissorlarımız üslub və forma əlvanlığını artırmağa cəhd göstəriblər.

Şəfiqə Axundova "Gəlin qayası" əsəri ilə opera bəstələyən ilk qadın bəstəkarı kimi tarixə düşüb. Fikrət Əmirovun "Min bir gecə" baleti qısa bir zamanda dünya şöhrəti qazanıb.

* * *

### Tamaşaya qoyulmuş milli operalar

1971, 14 mart. "Söyüdlər ağlamaz", Əfrasiyab Bədəlbəyli. Libretto müəllifi Rəfiq Zəka Xəndan. Quruluşçu rejissor Şəmsi Bədəlbəyli, rəssam Ənvər Almaszadə, dirijor Rauf Abdullayev. Əsas ifaçılar: Lütfiyar İmanov (Vüqar) və Dilarə Babayeva (Lalə).

**1973, 28 yanvar**. "Aygün", Zakir Bağırov (Səməd Vurgunun eyniadlı poeması əsasında). Rejissorlar Əli Usubov və Fikrət Sultanov, rəssam Əyyub Fətəliyev. Dirijor Rauf Abdullayev. Əsas rollarda: Dilarə Babayeva, Gülnarə Əhmədova və Xədicə Babayeva (Aygün), Faiq Mustafayev və Əli Haqverdiyev (Əmirxan), Valeri Kərimov və Adil Məlikov (Elyar), İbrahim Məmmədov və Kazım Məmmədov (Məti).

**1974, 27 aprel.** "Gəlin qayası", Şəfiqə Axundova. Libretto müəllifləri Süleyman Rəhimov və İsgəndər Coşqun. Rejissor Ağakişi Kazımov, rəssam Ənvər Almaszadə, dirijor Rauf Abdullayev. Əsas rollarda: Nəzakət Məmmədova (Gülbahar), Arif Babayev və Baba Mirzəyev (Camal), Firudin Mehdiyev və Adil Məlikov (Xan), Rübabə Muradova və Safurə Əzimi (Sənəm), Gülxar Həsənova və Simuzər Hətəmova (Ana).

**1977, 19 noyabr.** "Aldanmış ulduzlar", Məmməd Quliyev. Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" povesti əsasında libretto müəllifi Vidadi Paşayev. Rejissor Əflatun Nemətzadə, dirijor Rauf Abdullayev. Əsas rollarda: Adil Məlikov (Yusif Sərrac), Şahlar Quliyev (Sərkərdə Yumruqoğlu), Baba Mirzəyev, Bakır Haşımov və Canəli Ələkbərov (Axund), Afəridə Əlixanova (Səlma), Əli Haqverdiyev (Kosa), Ağakərim Kərimov (Münəccim Cəmaləddin), Hüsnü Qubadov (Saray şairi).

**1978, 25 iyun.** "Cırtdan", Nazim Əliverdibəyov. Xalq nağılı əsasında libretto müəllifi R.Bağırov. Uşaq operası. Rejissor Əflatun Nemətzadə, rəssam Ənvər Almaszadə, dirijor Kazım Əliverdibəyov. Əsas rollarda: Xuraman Qasımova (Cırtdan), Xurşid Qurbanova və Safurə Əzimi (Nənə), Nikolay Kuznetsov (Div).

**1979, 3 mart**. "Xanəndənin taleyi", Cahangir Cahangirov. Libretto müəllifi və rejissor Kərim Kərimov, rəssamlar Əyyub Fətəliyev və Fərhad Xəlilov, dirijor Rauf Abdullayev. Baş rollarda: Baba Mahmudoğlu (Mir Səid) və Xuraman Qasımova və Afəridə Əlixanova (Xanım).

**1979, 13 noyabr.** "Qoca Xottabıç", Zakir Bağırov. Libretto müəllifi S.Yevedova. Uşaq operası. Rejissor Vasili Popov, baletmeyster Konstantin Bataşov, rəssam Ənvər Almaszadə. Baş rolda Əli Haqverdiyev və Ağakərim Kərimov (Qoca Xottabıç) çıxış ediblər.

**2003, 7 dekabr**. "Natəvan", Vasif Adıgözəlov. Libretto müəllifi Nazim İbrahimov. Rejissor Firudin Səfərov, rəssartı Rafis İsmayılov, baletmeyster Tamilla Şirəliyeva, dirijor Yalçın Adıgözəlov. Əsas partiyaları oxuyublar: Natəvan İsmayılova (Natəvan), Həsən Enami (Xasay bəy

Usmiyev), Şahlar Quliyev (Qasım bəy Zakir), Elxan Əhədzadə (Aleksandr Düma), Nəzakət Teymurova və Aygün Bayramova (Xanəndə qız).

* * *

## Tamaşaya qoyulmuş milli baletlər

**1972, 22 yanvar**. "Muğam", Nazim Əliverdibəyov (Mirzə Şəfi Vazehin şeir və qəzəlləri əsasında). Baletmeysterlər Maqsud Məmmədov və Rəfiqə Axundova, rəssam Tahir Tahirov, dirijor müəllif. Şeirləri RDT-nin aktrisası Vera Şirye oxuyub. Əsas partiyaları Vladimir Pletnyov və Tamilla Şirəliyeva ifa ediblər.

**1972, 9 aprel**. "Çitra", Niyazi. Baletmeyster Nataliya Danilova, rəssam Mikayıl Abdullayev və dirijor Niyazi. Yaradıcı heyət 1974-cü ildə Beynəlxalq Nehru mükafatına layiq görülüb. Əsas partiyaların ifaçıları: Tamilla Şirəliyeva (Çitra), Vladimir Pletnyov (Arçun), Rafael Qriqorov (Madana).

**1977**. "İlham", Leonid Vaynşteyn (libretto müəllifləri Nailə Nəzirova və Ramiz Fətəliyev). Baletmeyster Nailə Nəzirova, rəssam Aleksandr Belov, dirijor Kazım Əliverdibəyov. Əsas rollarda: Vladimir Pletnyov (Oğlan), Çimnaz Babayeva (Qız) və Ramazan Arifulin (Rəqib).

**1979, 15 iyun**. "Min bir gecə", Fikrət Əmirov. Balet-meyster Nailə Nəzirova, tərtibat rəssamı Toğrul Nərimanbəyov, geyim rəssamı Tahir Tahirov, dirijorlar Nazim Rzayev və Kazım Əliverdibəyov. Əsas partiyaların ifaçıları: Tamilla Şirəliyeva, Olqa Arifulina və Lüdmila Petyaqina (Şəhrizad), Ramazan Arifulin və Aleksandr Kurkov (Şəhriyar), Valentina Zeynalova, Tamara Məmmədova və İrina Nizaməddinova (Nuridə).

**1981, 6 denabr**. "Humay", Nəriman Məmmədov. Səməd Vurğunun "Komsomol poeması" əsasında. Baletmeyster A. Asaturov, rəssam Ənvər Almaszadə, dirijor Rauf Abdullayev. Əsas partiyaların ifaçıları: Ramazan Arifulin (Gəray bəy), Va-lentina Zeynalova və Lüdmila Petyaqina (Humay), Rüfət Zeynalov (Cəlal), Vitali Axundov (Bəxtiyar).

**1986, 20 may**. "Babək", Aqşin Əlizadə. Libretto müəllifləri və baletmeysterlər Rəfiqə Axundova və Maqsud Məmmədov, rəssam Tahir Salahov, dirijor Rauf Abdullayev. Babəkin partiyasını Ramazan Arifulin və Valeri Axundov ifa ediblər.

**2000, 7 iyun**. "Ağ və qara", Xəyyam Mirzəzadə. Balet-meyster Pulumb Aqaliu, rəssam Tahir Tahirov, dirijor Cavanşir Cəfərov.

* * *

Uşaqlar üçün "Zoluşka" (Leonid Vaynşteyn) operası yazılıb və tamaşaya qoyulub. Teatr Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (1974. Rejissor Firudin Səfərov, rəssam Tahir Salahov; 2004. Rejissor Hafiz Quliyev), "Leyli və Məcnun" (1976. Quruluşçu rejissor Mehdi Məmmədov, rejissor Əflatun Nemətzadə, rəssam Elçin Aslanov), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (1995. Rejissor Hafiz Quliyev), Fikrət Əmirovun "Sevil" (1998. Rejissor Hafiz Quliyev) operalarını, Əfrasiyab Bədəlbəylinin "Qız qalası" (1977. Baletmeyster Qəmər Almaszadə), Qara Qarayevin "Yeddi gözəl" (1978. Baletmeysterlər Rəfiqə Axundova və Maqsud Məmmədov), Pyotr Çaykovskinin "Sonalar gölü" (1980. Baletmeyster Qəmər Almaszadə), Fikrət Əmirovun "Nizami" (1990. Baletmeyster Vadim Budirin) baletlərini təkrar, lakin maraqlı quruluşlarda öz repertuarına daxil edib. Əvvəllər oynanılmış "Karmen", "Traviata", "Toska", "Trubadur", "Riqoletto", "Monastırda nigah", "Knyaz İqor", "Çio Çio San", "Qaratoxmaq qadın", "Şelkunçik" operaları, "Motsart və Salyeri", "Xanım və xuliqan" "Jizel", "Məhəbbət əfsanəsi" baletləri yeni işləmələrdə və bərpa-əlavələrdə, təzə-təzə ifaçılar daxil edilməklə göstərilib.

Teatr Aleksandr Xolminovun "Nikbin faciə" (1977. Rejissor Firudin Səfərov) operasını və Nevit kodallının "Van Qoq" baletini (1992. Rejissor Firudin Səfərov, rəssam Vladimir Voiski, baletmeyster Tamilla Şirəliyeva) ilk dəfə oynayıb.

1985-ci il aprel ayının 17-də teatrın binası yanıb. Kollektiv üç il öz tamaşalarını Şövkət Məmmədova adına Opera Studiyasında göstərib. Binanın təmir-bərpası 1988-ci ildə başa çatıb.

## VOKAL OPERA İFAÇILARI
## (1950- 2004)

### Birinci dərs

Konservatoriya təhsili görmüş azərbaycanlı vokal artistləri bu illərdə teatra daha çox gəliblər. Hər il ADK-nın buraxılış imtahanlarında teatrın bədii rəhbəri, baş rejissoru və baş dirijoru iştirak ediblər. İstedadlar seçiblər. Teatrın rəhbərliyi truppaya yeni gələn yaradıcı gənclərə repertuarda olan tamaşalarda müxtəlif səpkili rollar tapşırır, təzə hazırlanan səhnə əsərlərində onları təcrübəli sənətkarlara dublyor verirdi. Buna görə də bəzən bir rolun üç-dörd ifaçısı olurdu. Səhnə peşəkarlığı artır, səslə yanaşı, aktyorluq sənətinin xüsusiyyətləri də mənimsənilirdi. Buna görə də səsinə və səhnə istedadına ciddi yanaşan gənclər tezliklə truppada özlərinin sənət yollarını müəyyənləşdirə, fərdi üslublarını formalaşdıra biliblər.

* * *

### MÜRSƏL BƏDİROV (27.10.1931-26.2.2003)

Gözəl, gur və məlahətli bariton səsi, yaraşıqlı səhnə görkəmli olub. Mürsəl Tağı oğlu Bədirov Dağıstanda doğulub. 1951-ci ildə Azərbaycan Dövlət konservatoriyasının vokal şöbəsinə daxil olub. Tələbə vaxtı opera tamaşalarında epizod rollar oynayıb. 1956-cı ildə təhsilini başa vurub və Opera və Balet Teatrına solist götürülüb.

Mürsəl Bədirov teatrda işlədiyi illərdə xeyli tamaşada oynayıb. Onun Jorj Bizenin "Karmen" (Eskamilo və Morales), Pyotr Çaykovskinin "Yevgeni Onegin" (Onegin), Cakomo Puç-çininin "Toska" (Sezar Anjelotti), Şarl Qunonun "Faust" (Valentin), Sergey Raxmaninovun "Aleko" (Aleko), Leo Delibin "Lakme" (Frederika), İvan Dzerjinskinin "İnsamn taleyi" (Andrey SOkoIOV), Rucero Leonkovallonun "Məzhəkəçilər" (Silvio), Boris Zeydmanın "Alay oğlu" (Əsgər), milli bəstəkarlarımızdan Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (Alı), "Leyli və Məcnun" (Nofəl), Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (Qoca ərəb), Cahangir Cahangirovun "Azad" (Xan və Həcir), Fikrət Əmirovun "Sevil" (Atakişi), Ramiz Mustafayevin "Vaqif" (Eldar), Süleyman Ələsgərovun "Bahadır və Sona" (Soltan) operalarında ifa etdiyi partiyalar uğurlu sənət nailiyyətləridir.

Səhnə sənətində və vokalçı kimi qazandığı uğurlara görə Mürsəl Bədirov 29 iyun 1964-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 29 fevral 1979-cu ildə xalq artisti fəxri adları ilə təltif olunub. 26 fevral 2003-cü ildə Bakıda vəfat edib.

* * *

**Rəhilə Cabbarova (24.11.1922 - 2.12.2002).** Messosoprano səsli müğənni əməkdar artist olub (1958). Səhnə məlahəti, təravətli səsi və psixoloji ifası ilə seçilib. Teatrda Xanəndə qız ("Koroğlu"), Gülüş ("Sevil"), Maşo ("Bahadır və Sona"), Malika ("Lakme", Leo Delib), Konçarovna ("Knyaz Iqor"), Maddalena, Flora Bervua, Azuçena ("Riqoletto", "Traviata" və "Trubadur"), İrina ("İnsanın taleyi"), Suziki ("Çio Çio San", Cakomo Puççini), Amneris ("Aida", Jorj Bize), Polina və

Mlovzora ("Qaratoxmaq qadın", Pyotr Çaykovski), Lyubaşa ("Çar gəlini", Nikolay Rimski-Korsakov), Nano ("Daisi", Zaxari Paliaşvili) partiyalarını oxuyub.

**Faiq Mustafayev (1923 - 1977).** Bariton səsli müğənni 1952-ci ildən ADOBT-nin solisti olub (müəyyən fasilələrlə). Respublikanın əməkdar artisti idi, səhnədə canlı və təbii görünürdü. Səsini obrazın xarakterinə uyğun olaraq məharətlə idarə edə bilirdi. Əsas partiyaları: Həsən xan ("Koroğlu"), Nofəl ("Leyli və Məcnun"), Süleyman ("Arşın mal alan"), Şahvələd ("Aşıq Qərib"), Əbdüləli bəy ("Sevil"), Tonio ("Məz-həkəçilər"), Qraf Tomson ("Qaratoxmaq qadın"), komendant ("Kornevil zəngləri"), Aleko ("Aleko").

**Rauf (Rafiq) Atakişiyev (1925 - 1994)**. Lirik-dramatik tenor səsi olub və həm də pianoçudur. Respublikanın xalq artisti (1967) fəxri adı ilə təltif olunub. Teatrda Əsgər ("Arşın mal alan"), Faust ("Faust"), Qraf Almavivo ("Sevilya bərbəri", Coakkino Rossini), Knyaz Sinoda ("Demon", Anton Rubinşteyn), Hofman ("Hofmanın nağılları", Jak Offenbax), Malxaz ("Daisi", Zaxari Paliaşvili), Alfred ("Traviata", Cüzeppe Verdi), Edmond ("Kornevil zəngləri", Rober Plaket), Anatoli ("İnsanın taleyi") partiyalarını oxuyub.

**Kazım Məmmədov (1926 - 1988).** Lirik-dramatik tenor səsi olub. Azərbaycan Respublikasının əməkdar artisti (1958) fəxri adına layiq görülüb. Müharibədə yaralanıb və səsini itirib. 1945-ci ildə səsi açılıb və iki il musiqi təhsili aldıqdan sonra ADOBT-yə solist götürülüb. Teatrda oxuduğu əsas partiyalar: Həmzə bəy ("Koroğlu"), Leylinin atası ("Leyli və Məcnun"), Şah ("Əsli və Kərəm"), Əbu Həmzə ("Şah İsmayıl"), Əlyar ("Nərgiz"), Ayaz ("Azad"), Balaş ("Sevil"), Vəli ("Arşın mal alan"), LikoV ("Çar gəlini"), Arriqo ("Siciliya axşamları"), Vodemon ("İolanta"), Knyaz ("Su pərisi"), kassio ("Otello").

**Firuzə Muradova (1927-1987).** Məlahətli və gur dramatik soprano səsi olub. Teatrın əlliillik yubileyində əməkdar artist fəxri adına layiq görülüb. Məşhur partiyaları: Nigar, Gülçöhrə ("Koroğlu" və "Arşın mal alan"), Gülzar ("Şah İsmayıl"), Xuraman ("Vaqif"), Xəyal ("Söyüdlər ağlamaz", Əfrasiyab Bədəlbəyli), Sara və Hürü xala ("Azad"), Sona ("Bahadır və Sona", Süleyman Ələsgərov), Nedda ("Məzhəkəçilər", Rucero Leonkovallo), Antonia ("Hofmanın nağılları"), Liza ("Qaratoxmaq qadın", Pyotr Çaykovski), Leanora ("Trubadur", Cüzeppe Verdi), Zemfira ("Aleko"), Marqarita ("Faust"), Luiza ("Lakme").

**Firudin Mehdiyev (1927).** Dramatik tenordur. ADOBT-də 1957-ci ildən işləyib. Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Əsas rolları: Leylinin atası ("Leyli və Məcnun"), Həmzə bəy ("Koroğlu"), Babakişi ("Sevil"), Xan ("Gəlin qayası", Şəfiqə Axundova), Əziz ("Söyüdlər ağlamaz"), Rəşid bəy ("Xanəndənin taleyi", Cahangir Cahangirov), Van Qoqun qardaşı ("Van Qoq", Nevit kodallı), Spalanitsani ("Hofmanın nağılları", Jak Offenbax), Radames ("Aida"), kanio ("Məzhəkəçilər"), Birinci əsir ("İnsanın taleyi").

**Cavanşir Qafarov (1928 - 1994).** 1953-cü ildə Bakıda konservatoriyanı bitirib və ADOBT-yə solist götürülüb. Əməkdar artist fəxri adına layiq görülüb. Cingiltili bariton səsi olan opera solistinin teatrda oxuduğu əsas partiyalar bunlardır: Nofəl, Leylinin atası ("Leyli və Məcnun"), Süleyman ("Arşın mal alan"), Carçı, Alı, İbrahim xan və Həsən xan ("Koroğlu"), Şahvələd ("Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov), Aslan şah ("Şah İsmayıl"), Soltan ("Bahadır və Sona"), Hacı Həsən ağa ("Ölülər", Vasif Adıgözəlov), Vidadi ("Vaqif"), Həcir ("Azad"), Frederik ("Lakme"), Aleko ("Aleko"), Baron Dyufol ("Traviata"), Almonasro ("Aida"), Qraf Tomski ("Qaratoxmaq qadın").

**Adil Məlikov (1933).** Lirik-dramatik tenordur. Azərbaycan Respublikasının əməkdar artistidir (1977). 1965-ci ildən ADOBT-nin solistidir. Öz ifalarında ürəyəyatımlı və aydın ifadəli səslə oxuyan solistin əsas rolları: koroğlu ("Koroğlu"), Vəzir ("Şah İsmayıl"), Elyar ("Söyüdlər ağlamaz"), Yusif Sərrac ("Aldanmış ulduzlar", Mərnməd Quliyev), Xan ("Gəlin qayası"), Rəşid bəy ("Xanəndənin taleyi").

## VOKAL OPERA İFAÇILARI (1950- 2004)

### İkinci dərs

Teatr öz ənənəsini bu dövrdə də davam etdirib. Estrada və vokal janrında böyük uğurlar qazanan solistlər teatrın truppasına qəbul olunublar. Əsas məsələ ondadır ki, bu proses əsasən yaradıcı əsaslar üzərində aparılıb. Buna görə də fərdi ifaçılıqda özlərini sübut etmiş vokal ustaları tezilklə OBT-nin aparıcı ifaçılarına çevriliblər. Beləliklə də həm teatrın ifaçılıq üslubunda əlvanlıq yaranıb, həm də ayrı-ayrı solistlər sənətə yeni-yeni estetik səciyyələr gətirməyə nail olublar. Teatrın solist-ifaçı ənənəsinin yeni estetik prinsiplər əsasında inkişafının yeni mərhələsi yaranıb.

* * *

### Müslüm Maqomayev (7 avqust 1942)

Bariton səsli Müslüm Maqomayev özünün parlaq istedad sahibi olduğunu çox erkən yaşlarından nümayiş etdirib. Opera teatrına solist götürülməmişdən əvvəl, iyirmi bir yaşında vokal ifaçılığında Azərbaycandan kənarda da çox populyarlıq qazanmışdır.

Müslüm Məhəmməd oğlu Maqomayev Bakıda doğulub. Gözəl, yumşaq tembrli gur səsi olan Müslüm Azərbaycanın məşhur bəstəkarı, "Şah İsmayıl" və "Nərgiz" operalarının müəllifi Müslüm Maqomayevin nəvəsidir. 1968-ci ildə Üzeyir bəy Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında Şövkət Məmmədovanın sinifini bitirib.

Müslüm Maqomayev 1963-cü ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Müğənni-aktyor 1964-1965-ci illərdə İtaliyanın Milan şəhərindəki La-Skala teatrında vokal-opera təcrübəsi keçib. Son dərəcə ifadəli, coşqun, ruh yüksəkliyi oyadan ifadəli səs sahibi Müslüm Maqomayev ADOBT-də Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (Həsən xan), Müslüm Maqomayevin "Şah İsmayıl" (Şah İsmayıl), Coakkino Rossininin "Sevilya bərbəri" (Fiqaro), Cakomo Puççininin "Toska" Sezar Anjelotti və Baron Skarpio) və Sergey Raxmaninovun "Aleko" (Aleko) operalarında əsas partiyaları məharətlə ifa edib.

1969-cu ildə keçirilən Kann və Sopot Beynəlxalq ifaçılıq festivallarının qalibidir. Böyük sənət uğurlarına görə 29 aprel 1971-ci ildə Azərbaycan Respublikasının xalq artisti, 1973-cü ildə SSRİ xalq artisti fəxri adlarına layiq görülüb. 1975-ci ildə Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrini yaradaraq, demək olar, bütün Yer Kürəsini gəzib.

Rejissor Eldar Quliyevin çəkdiyi iki hissəli "Nizami" bədii filmində Nizami Gəncəvi rolunu oynayıb. Müğəninin zəngin yaradıcılığından bəhs edən "Oxuyur Müslüm Maqomayev" ekran əsəri çəkilib.

### ŞAHLAR QULİYEV (25 SENTYABR 1946)

Gur, qəltanlı və mis cingiltili bariton səsi olan Şahlar Həsənağa oğlu Quliyev Cəlilabad rayonunda doğulub. Məktəbi bitirən ili Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Musiqili Komediya aktyorluğu fakültəsinə daxil olub. 1969-cu ildə oranı bitirərək Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsinə qəbul edilib. Professor Elmira Quliyevanın sinifində vokal təhsil alan Şahlar Quliyev 1973-cü ildə təhsilini başa vuraraq, Konservatoriyanın Şövkət Məmmədova adına Opera Studiyasına solist götürülüb. İki ildən sonra isə o, Azərbaycan Dövlət Opera və Balet Teatrına dəvət alıb.

Yaradıcılıq dövründə Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (Həsən xan), "Əsli və Kərəm" (Keşiş), "Leyli və Məcnun" (Nofəl), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Şahvələd), Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (Aslan şah), Ramiz Mustafayevin "Vaqif" (Eldar), Fikrət Əmirovun "Sevil" (Atakişi və Əbdüləli bəy), Şəfiqə Axundovanın "Gəlin qayası" (Xan), Əfrasiyab Bədəlbəylinin "Söyüdlər ağlamaz" (Murad), Cahangir Cahangirovun "Xanəndənin taleyi" (Aşur bəy), Süleyman Ələsgərovun "Bahadır və Sona", Məmməd Quliyevin "Aldanmış ulduzlar" (Yumruqoğlu), Cüzeppe Verdinin "Aida" (Amanasro), "Riqoletto" (Monteron), Jorj Bizenin "Karmen" (Eskamilio), Cakomo Puççininin "Toska" (Baron Snarpio), "Bohema" (Şonar), Pietro Maskaninin "Kənd namusu" (Alfio), Aleksandr Borodinin "Knyaz İqor" (Knyaz İqor), Sergey Raxmaninovun "Aleko" (Aleko), Nikolay Rimski-Korsakovun "Çar gəlini" (Qryaznoy) operalarında daha yaddaqalan partiyaları ifa edib.

Milli opera sənətinin inkişafında göstərdiyi xidmətlərə və sənətdə qazandığı nailiyyətlərə görə 19 sentyabr 1991-ci il-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

**FİDAN QASIMOVA (17 İYUN 1947)**

Gözəl, ürəyəyatımlı lirik soprano səsi ilə tamaşaçıların rəğbətini qazanmış Fidan Əkrəm qızı Qasımova Bakıda doğulub. ADK-nın skripka (1971) və vokal şöbələrini 1972-ci ildə bitirib və həmin vaxtdan Moskva konservatoriyasında iki il aspirant-təcrübəçi olub. Oradan qayıdandan sonra, 1974-cü il-dən ADOBT-nin solistidir. Azərbaycan Respublikasının əməkdar artisti (9 yanvar 1978), xalq artisti (1 dekabr 1982), SSRİ-nin xalq artisti (1988) fəxri adları ilə təltiflənib. Respublika Dövlət mükafatı laureatıdır (1984). Dünya şöhrətli müğənni kimi İtaliyada, Niderlandda, İsveçrədə keçirilən müxtəlif beynəlxalq müsabiqələrin laureatıdır. Solist-ifaçı kimi repertuarına Azərbaycan və dünya bəstəkarlarının kamera-vokal əsərləri daxildir. 1974-cü ildən ADK-da dərs deyir, 1990-cı ildən oranın professorudur.

Fidan Qasımova opera teatrında Nigarın ("Koroğlu"), Mikaellanın ("Karmen", Jorj Bize), Marqaritanın ("Faust", Şarl Quno), Sevilin və Gülüşün ("Sevil", Fikrət Əmirov), Çio Çio Sanın ("Çio Çio San", Cakomo Puççini), Tatyananın ("Yevgeni Onegin", Pyotor Çaykovski), Miminin ("Bohema", Cakomo Puççini), Dezdemonanın ("Otello", Cüzeppe Verdi) mürəkkəb partiyalarını yüksək sənətkarlıqla ifa edib. Yüksək səhnə mədəniyyəti, zərif nıusiqi duyumu, incə zövqü var.

**XURAMAN QASIMOVA (6 İYUN 1951)**

Opera və Balet Teatrına solist götürülməmişdən əvvəl, məktəbli vaxtlarından bir neçə bədii filındə baş rollara çəkilib. Buna görə də hələ vokal sənətində tanımnamışdan əvvəl kino aktrisası kimi populyar olub. "Liftçi qız" filmində baş rolu ifa edib. Sonralar "Mən ki gözəl deyildim", "Həyat bizi sınayır" filmlərində də maraqlı rollar oynayıb. Vokal ifaçılığında bir qədər sonralar uğur qazanıb.

Xuraman Əkrəm qızı Qasımova Bakıda doğulub. Səsinin tembri sopranodur. 1975-ci ildə Üzeyir bəy Hacıbəyov adına Azərbaycan Dövlət konservatoriyasında vokal sinifini bitirib. Çox az müddət Musiqili Komediya Teatrında işləyib. 1976-cı ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir.

Opera teatrında Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (Nigar), Nazim Əliverdibəyovun "Cırtdan" (Cırtdan), Cahangir Cahangirovun "Xanəndənin taleyi" (Xanım), Cakomo Puççininin "Bohema" (Müzetta və Mımıni), Cüzeppe Verdinin "Aida" (Aida), "Otello" (Dezdemona), Pyotr Çaykovskinin "Yevgeni Onegin" (Tatyana), Covanni Perqomzininin "Xanınım qulluq-çusu"

(Serpina), Şarl Qunonun "Faust" (Marqarita), Zakir Bağırovun "Qoca Xottabıç" (Leyla) operalarında yaratdığı obrazlar Xuraman Qasımovanın hərarətli sənət axtarışlarının parlaq nailiyyətləridir.

Müğənni 1981-ci ildə Afinada keçirilən Mariya kallos adına Beynəlxalq müsabiqədə birinci mükafat alıb və "Qran Pri" mükafatının qızıl medalına layiq görülüb. 1988-ci ildə 8-ci Beynəlxalq Çaykovski müsabiqəsinin gümüş medalmı alıb. Xuraman Qasımova sənət nailiyyətlərinə görə Azərbaycan Respublikasının xalq artisti (1986) fəxri adına layiq görülüb. Azərbaycan Respublikasının Dövlət (1984) və Lenin komsomolu mükafatları laureatıdır.

**QƏRINƏ KƏRİMOVA (16 İYUN 1964)**

Teatrın şöhrətli aktrisalarındandır. Səs tembri sopranodur. Nəfəsi güclü, ifası ifadəli, diapazonu genişdir. Qənirə Rəhim qızı Kərimova Bakıda doğulub. 1986-cı ildə ADK-nı bitirib və həmin ildən ADOBT-nin solistidir.

Sənətdə qazandığı nailiyyətlərə görə Azərbaycan Respublikasının əməkdar artisti (17 may 1991) və xalq artisti (24 may 1998) fəxri adları ilə təltif olunub. Vokal ustasının repertuarında milli bəstəkarlarımızın və dünya klassiklərinin müxtəlif janrlı musiqi əsərləri var.

Qənirə Kərimovanın "Aida" (Aida), "Toska" (Toska), "Karmen" (Mikaella), "Çio Çio San" (Çio Çio San), "Sevil" (Sevil), "Koroğlu" (Nigar) operalarında oxuduğu partiyalar teatrın ifaçılıq ənənəsinin formalaşmasında dəyərli yer tutur, fərdi estetik çalarlarına görə seçilirlər.

Aktrisa Toskanın partiyasını Moskvanın Böyük Teatrının aktyorları ilə də ustalıqla ifa edib.

* * *

Bu dövrdə teatrın truppasında 1930-1940-cı illərdə təcrübə toplamış və kollektivdən ayrılmayan ifaçılar da vardı. Eyni zamanda vaxtaşırı truppanın yaradıcı heyəti yeniləşib. Qadın sənətkarlardan Rumiyyə Kərimova, Leyla Təhmasib, Aliyə Terequlova, Gülzar İsgəndərova, Məleykə Şahmərdanova, Şəfiqə Qasımova, Zeynəb Əliyeva, Sima Haşımlı, Olqa Olimpiyeva, Safurə Əzimi, Gülnarə Əhmədova, Afəridə Əlixanova, Inarə Babayeva, Tatyana Bədirova, İya Aksanova, Vera Abişeva, Mariya Titarenko, İvetta Karasyova, Piama Vasilevskaya kimi müxtəlif səs tembrlərinə malik solistlər, ifaçılar, xor artistləri müəyyən müddətlərdə teatrda fəaliyyət göstəriblər.

Truppada kişi solistlər Kamal Kərimov, Kazım Məmmədov, Süleyman Məmmədov, Kamal Hüseynov, İbrahim Cəfərov, Kamal Yaqubov, Mustafa Topçiyev, İbrahim Cəfərov, Hüseyn Əliyev, Ağarəhim Hüseynov, Qafar Əliyev, Əli Haqverdiyev, Vaqif (Valeri) Qurbanov, Urşan Rufullayev, Bəhram Əliyev, İsmayıl Ələkbərov, Adil Axundov, Azər Zeynallı, Həsən Enami, Əli Əsgərov, Vitali Popçenko opera ifaçılığının formalaşmasında müəyyən səmərəli işlər görüblər. Bunların bəziləri ində də teatrda işləyirlər.

Hazırda teatrda gənclik dövrünü yenicə keçmiş və orta yaş həddini ötmüş istedadlı solistlər var. Xalq artisti Azər Zeynallının (13 dekabr 1964) Balaş ("Sevil"), Əsgər ("Arşın mal alan"), Alfred ("Traviata"), əməkdar artistlər Valentina Paşayevanın (19 dekabr 1947) Aida ("Aida"), Nigar ("Koroğlu"), Sevil ("Sevil"), Toska ("Toska"), Mlkaella ("Karmen"), Elxan Əhədzadənin (30 yanvar 1948) Qacar ("Vaqif"), Bəhram ("Solğun çiçəklər"), Süleyman ("Arşın mal alan"), Aslan şah ("Şah İsmayıl"), Nofəl ("Leyli və Məcnun"), Silvio ("Məzhəkəçilər"), Əli Əsgərovun (25 noyabr 1961) Don Bazilio ("Sevilya bərbəri"), Markiz ("Traviata"), Misir şahı ("Aida"), Sparafuçille ("Riqoletto") partiyaları fərdi sənətkarlıq xüsu-siyyətlərilə seçilirlər.

**LÜTFİYAR İMANOV (17APREL 1928)**

Lirik-dramatik tenor, xalq mahnılarının, milli və dünya bəstəkarlarının müxtəlif janrlı musiqi əsərlərinin ifaçısı və opera solistidir.

Lütfiyar Müslüm oğlu İmanov Sabirabad rayonunda doğulub. Yeniyetmə vaxtlarında rayondaıu Dövlət Dram Teatrında aktyorluq edib. 1956-cı ildə Asəf Zeynallı adına Musiqi Məktəbini bitirib. Musiqi məntəbində təhsil almaqla yanaşı, Azərbaycan televiziyasının xorunda oxuyub (1954 - 1956).

Təhsilini başa vuran ili onu Azərbaycan Dövlət Orkestrinə solist götürüblər. Bir il burada işləyən Lütfiyar İmanov 1957-1959-cu illərdə Musiqili Komediya Teatrında aktyorluq edib.

Aktyor-müğənni bu teatrda Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (Vəli və Əsgər ) və "O olmasın, bu olsun" (Sərvər və kəblə Nəsir) operettalarında, dramaturq Sabit Rəhmanın və bəstəkar Süleyman Ələsgərovun "Ulduz" (Şubay), dramaturq Süleyman Rüstəmin və bəstəkar Səid Rüstəmovun "Durna" (Murad), dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Fikrət Əmirovun "Gözün aydın" (Alay), dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Ağası Məşədibəyovun "Toy kimindir?" (Mehman və Aşıq İbiş) musiqili komediyalarında müxtəlif rollar oynayıb.

Səsinin tembri, səhnə görkəmi maestro Niyazinin diqqətini cəlb edib və o, müğənnini direktoru olduğu Opera və Balet Teatrına solist dəvət edib. 1959-cu ildə Lütfiyar İmanov Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında (ongünlüyündə) Üzeyir bəyin eyniadlı operasında Koroğlunun partiyasını ifa edib. Elə o vaxtdan opera teatrının solisti olan sənətkar milli bəstəkarlarımızın operalarında əsas partiyaları oxuyub.

Lütfiyar İmanov bir sıra dünya klassiklərinin bəstələdikləri opera incilərinin tamaşalarında da rus və Azərbaycan dillərində çıxış edib. Həmin əsərlərdəki obrazlar opera müğənnisinin və istedadlı aktyorun yaradıcılığında xüsusi yer tutur.

Təqdim olunan obrazların siyahısı Lütfiyar İmanovun yaradıcılıq diapazonunun genişliyini, səs və ifa imkanlarının möhtəşəmliyini təcəssüm etdirir. Müğənni-aktyor Koroğlu ("Koroğlu", Üzeyir bəy Hacıbəyov), Əlyar ("Nərgiz", Müslüm Maqomayev), Balaş ("Sevil", Fikrət Əmirov), Ayaz ("Azad", Cahangir Cahangirov), Bahadır ("Bahadır və Sona", Süleymaı Ələsgərov), Vaqif ("Vaqif", Ramiz Mustafayev), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Vüqar ("Söyüdlər ağlamaz", Əfrasiyab Bədəlbəyli), Əsgər ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Radames ("Aida", Cüzeppe Verdi), Hersoq Mantuanski, Manriko, Ottello ("Riqoletto", "Trubadur" v "Otello", Cüzeppe Verdi), Xoze ("Karmen", Jorj Bize), Hof man ("Hofmanın nağılları", Jak Offenbax), Faust ("Faust" Şarl Quno), Mario Kavaradossi ("Toska", Cakoma Puççini) German ("Qaratoxmaq qadın", Pyotr Çaykovski), Sayat Nova ("Sayat Nova", tərcümə operası), Gənc qaraçı ("Aleko", Sergey Raxmaninov) obrazlarının bacarıqlı ifaçılarından sayılır. Yaradıcılığının əsas istiqaməti opera solistliyi ilə bağlı olan Lütfiyar İmanov Moskvadakı Böyük Teatrda (1965) və İtaliyanın La Skala sənət ocağında vokal ifaçılığı təcrübəsi keçib.

Aktyor-müğənni Radamesin ("Aida") və Germanın ("Qaratoxmaq qadın") partiyalarını Ankara Dövlət Opera və Balet Teatrında uğurla ifa edib.

Keçmiş SSRİ-nin qabaqcıl teatrlarında da müxtəlif operalarda əsas partiyaları oxuyub.

Hindistanda, Norveçdə, Kubada, Almaniyada, Yaponiyada, Fransada, İtaliyada, Yunanıstanda, İspaniyada, Hollandiyada, Belçikada, Küveytdə, Suriyada, Macarıstanda, Malta da... müğənni və opera solisti kimi qastrollar verib.

Silsilə kamera əsərləri onun repertuarında ayrıca bölmə təşkil edir.

Lütfiyar İmanovun parlaq dramatik temperamenti, məlahəti, səhnə görkəmi, yüksək aktyorluq məharəti var.

Lütfiyar İmanov səhnədə müxtəlif ifa məktəblərinə mənsub partiyaları zərif musiqi duyumu ilə tamaşaçılara çatdırır.

Lütfiyar İmanovun səsi qüvvətlidir, nadir tembrin bütün çalarlarından yaradıcılıqla istifadə edir.

Lütfiyar İmanov tamaşanın ən dramatik vəziyyətlərində oxuya-oxuya çətin səhnə hərəkətlərini ustalıqla icra edə bilir

İfaçılıq sənətində qazandığı nailiyyətlərə görə Lütfiyar İmanov 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 7 iyul 1967-ci ildə xalq artisti və 20 yanvar 1977-ci ildə SSRİ xalq artisti fəxri adlarına layiq görülüb.

Azərbaycan Ali Sovetinin deputatı olub. Azərbaycan Teatr Cəmiyyətinə rəhbərlik edib (1986 - 1991).

Azərbaycan Dövlət Teatr İnstitutunda musiqili komediya fakültəsində vokal sənətindən dərs deyib.

Lütfiyar İmanov 1990-cı illərin əvvəllərində Türkiyədə işləyib. Hazırda Azərbaycan Dövlət Opera və Balet Teatrında məşqçi-pedaqoqdur.

## FİRƏNGİZ ƏHMƏDOVA
**(29 sentyabr 1928)**

Səs tembri lirik-dramatik sopranodur. Zil, cingiltili, çoxçalarlı və lətafətlidir. Məşhur opera müğənnisidir və kamera-vokal əsərlərinin ifaçısı kimi də böyük şöhrət qazanıb.

Üzeyir bəy Hacıbəyovun "Sənsiz", Asəf Zeynallının "Ö1kəm" romansları, Niyazinin "Arzu", Əşrəf Abbasovun "Heyran olmuşam", Ağabacı Rzayevanın "Oxuma, gözəl" mahnıları, Pyotr Çaykovskinin, Sergey Raxmaninovun mürəkkəb sənət nümunələri müğənninin məharətli ifasında radionun qızıl fondunda saxlanılır.

Firəngiz Yusif qızı Əhmədova 23 sentyabr 1928-ci ildə Bakıda doğulub. Əvvəl Asəf Zeynallı adına Musiqi Məktəbində təhsil alıb və vokal sənətinin ilkin xüsusiyyətlərinə yiyələnib. Eyni zamanda Azərbaycan Dövlət Radiosunun xorunda solist işləyib. Burada klassik dünya bəstəkarlarının xor əsərlərində əsas solo partiyaları oxuyub. Müğənni əlvan repertuarla Moskvada, Kiyevdə, Tiflisdə, Orta Asiya respublikalarında qastrol səfərlərində olub.

BMM-də birinci kursda oxuyanda kurs imtahanları zamanı Üzeyir bəy Hacıbəyov onu dinləyib. Bəstəkarın tövsiyəsi ilə ifası heyranlıq doğuran gənc müğənni Azərbaycan Dövlət konservatoriyasının hazırlıq şöbəsinə götürülüb. Qısa müddətdə dərs proqramını sürətlə mənimsəyib və səriştəli mütəxəssislərin tövsiyəsi ilə konservatoriyanın vokal ifaçılığı üzrə tələbəsi olub. Marqarita Kolotovanın sinifində təhsil alıb.

Səsinin məlahət və cazibəsinə, sözləri aydın və ifadəli, səlist ifa etMəsmə, mahnıların psixoloji ruhunu həssaslıqla duymasma, daxili dramatizmınə və emosional oxu tərzinə görə 1951-ci ildə ikinci kurs tələbəsi Firəngiz Əhmədova Opera və Balet Teatrına solist dəvət edilib. Teatr səhnəsinə ilk qədəmini baş rolla atıb. Müslüm Maqomayevin "Nərgiz" operasında Nərgizin partiyasında elə ilk tamaşadan uğur qazanıb. Uzun illər bu partiyanın ən mahir ifaçısı sayılıb.

Teatrda təcrübə toplayan, fərdi ifaçılıq xüsusiyyətlərini radio çıxışlarında, möhtəşəm konsert salonlarında əlvan repertuarla cilalayan Firəngiz Əhmədova 1955-ci ildə konservatoriyanı bitirib. Güclü və ecazkar səsi, yüksək səhnə mədəniyyəti onu tezliklə Azərbaycanın, müasir və klassik dünya bəstəkarlarının operalarının tamaşalarında əsas partiyaların ifaçısına çevirib. Opera solisti kimi teatrın səhnəsində özünün klassik ifası ilə zəngin bədii tutumlu obrazlar silsiləsi yaradıb.

Firəngiz Əhmədova teatrda milli bəstəkarlarımızdan Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (Nigar), Müslüm Maqomayevin "Şah İsmayıl" (Gülzar), Fikrət Əmirovun "Sevil" (Sevil), Cahangir Cahangirovun "Azad" (Səriyyə), Ramiz Mustafayevin "Vaqif" (Xuraman), Vasif Adıgözəlovun "Ölülər" (Nazlı), Süleyman Ələsgərovun "Bahadır və Sona" (Sona) operalarının müxtəlif quruluşlarında baş partiyaları ifa edib. "Arşın mal alan" operettasının tamaşasında uzun illər Gülçöhrənin ifaçısı kimi şöhrət qazanıb.

Onun hər bir səhnə obrazı səmimiyyəti, lirik emosionallığı, cazibədar ecazkarlığı ilə fərqlənib, sənətkarın şöhrətini dünyaya yayıb.

Dünya klassiklərinin şah operalarında da Firəngiz Şərifova sanballı sənət nailiyyətləri qazana bilib. Bu baxımdan Maro ("Daisi", Zaxari Paliaşvili), Floriya Toska ("Toska", Cakomo Puççini), Leanora, Aida, Dezdemona ("Trubadur", "Aida" və "Otello", Cüzeppe Verdi), Şahsənəm ("Şahsənəm", Reynqold Qlier), Zemfira ("Aleko", Sergey Raxmaninov), Tamara ("Demon", Anton Rubinşteyn), Mlkaela ("Karmen", Jorj Bize), Yaroslavna ("Knyaz İqor", Aleksandr Borodin) obrazlarının partiyaları aktrisanın yaradıcılığında xüsusi yer tutur.

Azərbaycan dilinə tərcümə olunmuş "Sayat Nova" (Anna) və "Anuş" (Anuş) operalarında baş partiyaların ifası ilə də yüksək sənətkarlıq nümayiş etdirib. Bir sıra partiyaları həm rus, həm də Azərbaycan dillərində oxuyub.

Firəngiz Əhmədova opera səhnəsində və solist-ifaçı kimi qazandığı sənət uğurlarına görə Azərbaycan Respublikasının əməkdar artisti, xalq artisti və SSRİ xalq artisti (1967) fəxri adları ilə təltif olunub. Dünyanın bir sıra şöhrətli sənət ocaqlarında çıxışlar edib.

Onun zəngin yaradıcılığının müxtəlif özəl səciyyələri, fərqlənən estetik mahiyyəti vardır.

Firəngiz Əhmədova ifa etdiyi partiyaları həm vokal xüsusiyyətlərinin, həm də dramatik aktyorluq tələblərinin ahəngdar sintezində yaradıb.

Sözün dramatizmini musiqinin fəlsəfi dərinliyi, hadisələrin psixoloji ovqatı ilə məharətlə əlaqələndirə bilib.

Müxtəlif tarixi dövrləri və müxtəlif xalqların həyat tərzini təcəssüm etdirən obrazların milli koloritlərini, xarakterik davranış tərzlərini öz oyununda heyranlıqla canlandırıb.

Səhnədə çox diqqətli olub. Buna görə eyni operada ayrı-ayrı yaradıcılıq üslublarına malik solistlərlə bacarıqla yöndaşlıq edib.

Səsinin cazibəsini və məlahətini ifa etdiyi obrazın xarakterinə uyğun tərzdə, ifadəli emosionallıqla dəyişməkdə böyük təcrübəsi var.

Son illər teatrda məşqçi-pedaqoq kimi çalışır. Bir sıra istedadların uğurlar qazanmalarında xüsusi xidmətlər göstərib.

## BALET İFAÇILIĞI
## (1965-2004)

Bu dövrdə teatrın balet truppasına istedadlı gənclər qəbul olunub. İfaçılığın estetik səciyyələri güclənib, təcrübəli sənətkarların qazandıqları ənənənin uğurlu davamı üçün geniş meydan açılıb. Balet artistləri Azərbaycan milli baletinin poetika göstəricilərini zənginləşdirməyə çahşıblar. Repertuarın daim təzələnməsi və maraqlı quruluşların bərpası ayrı-ayrı istedadlı aktyorların yaradıcılıqlarına əlvanlıq gətirib və son nəticədə teatrın üslub axtarışlarını təkmilləşdirərək formalaşdırıb.

* * *

### TAMİLLA ŞİRƏLİYEVA (8 DEKABR 1946)

Coşğun ehtiraslı, çılğın xarakterli rəqslərin gözəl ifaçısıdır. Mürəkkəb balet-hərəkət elementlərində eksperiment etməyi xoşlayan sənətkardır.

Tamilla Xudadat qızı Şirəliyeva 8 dekabr 1946-cı ildə Bakıda doğulub. Bakı Xoreoqrafiya Məktəbində görkəmli balet ustası Qəmər Almaszadənin sinifini bitirib (1964). Həmin ildən Azərbaycan Dövlət Opera və Balet Teatrına solist götürülüb.

1968-ci ildə Moskva Xoreoqrafiya Məktəbində professor S.Qolovkinanın sinifində bir il təkmilləşmə kursu keçib. Yenidən Bakıya qayıdaraq OBT-də aparıcı solist kimi 1989-cu ilə qədər yüksək sənətkarlıqla çahşıb.

Balerina həm milli, həm də klassik dünya bəstəkarlarının məşhur balet əsərlərinin tamaşalarında əsas partiyaları ifa edib. Onun zəngin obrazlar qalereyası var. Qaraca qız ("Qaraca qız", Əşrəf Abbasov), Gülyanaq ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Məhmənə banu ("Məhəbbət əfsanəsi", Arif Məlikov), işə və Fiyetta ("Yeddi gözəl" və "İldırımlı yollarla", Qara Qarayev), Şəhrizad ("1001 gecə", Fikrət Əmirov), Qız ("Muğam", Nazim Əliverdibəyov), Çitra ("Çitra", Niyazi), kitra və Paxita ("Don kixot" və "Paxita", Lüdviq Minkus), Şahzadə Florina, Maşa, Odetta-Odilliya ("Yatmiş gözəl", "Şelkunçi" və "Sonalar gölü", Pyotr Çaykovski), Birinci solist ("Klassik simfoniya", Sergey Prokofyev) onun əsas partiyalarıdır.

"1001 gecə" baletinin böyük uğurlarına görə tamaşanın bir qrup yaradıcı heyəti və o cümlədən Şəhrizad partiyasının ifaçısı Tamilla Şirəliyeva 1981-ci ildə SSRİ Dövlət mükafatı ilə təltif olunub. Yaradıcılıq nailiyyətlərinə görə 21 may 1970-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 10 yanvar 1978-ci ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Tamilla Şirəliyeva 1978-ci ildən Bakı Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərir. 1990-1991-ci illərdə məktəbin bədii rəhbəri olub. Onun yetirmələri Bakının, həmçinin Moskvanın, Pekinin teatrlarında işləyərək sənətdə böyük uğurlar qazanıblar.

Tamilla Şirəliyevanın müstəqil quruluşunda Tofiq Bakıxanovun "Xəzər balladası" (4 noyabr 2001) və Aqşin Əlizadənin "Qafqaza səyahət" (30 noyabr 2002) baletləri Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində göstərilib.

### VLADİMİR PLETNYOV (8.12.1946-21.2.1988)

Mənalı dramatizmi, əzələlərinin zərifliyi, cazibəli səhnə görkəmi, şairanə ifaları ilə seçilən Vladimir (Volodya) Nikolayeviç Pletnyov 8 dekabr 1946-cı ildə Azərbaycanın Göyçay rayonunda qulluqçu ailəsində doğulub. Ailəsini erkən itirən Pletnyov Bakıya gələrək baba və nənəsinin himayəsində yaşayıb. 1953-cü ildən 1961-ci ilədək o, Həzi Aslanov adına Zabitlər evində rəqs

dərnəyinə gedib. Burada bir sıra kiçik balet partiyalarını ifa edən Vladimir Pletnyov müəllimlərinin tövsiyəsi ilə 1957-ci ildə Bakı Xoreoqrafiya Məktəbinə daxil olub və oranı 1966-cı ildə bitirib.

Xoreoqrafiya məktəbinin üçüncü sinifində oxuyarkən Pyotr Çaykovskinin "Yatmış gözəl" baletindəki karabos onun Azərbaycan Dövlət Opera və Balet Teatrında debütü olub. Qazandığı uğura və istedadının parlaqlığına görə son kursdan onu balet truppasına solist qəbul ediblər.

Onun solist işlədiyi on üç il ərzində ifa etdiyi əsas partiyalar bunlardır: Xuliqan ("Xanım və xuliqan", Dmitri Şostakoviç), Dezire, Şahzadə Ziqfrid ("Yatmış gözəl" və "Sonalar gölü", Pyotr Çaykovski), Şahzadə ("Zoluşka", Sergey Prokofyev), Gənc ("İlham", Leonid Vaynşteyn), Albert ("Jizel", Adolf Adan), Bazil, Kavaler Brand ("Don kixot" və "Paxita", Lüdviq Minkus), Bəhram, Kerd, Məcnun ("Yeddi gözəl", "İ1dırımlı yollarla" və "Leyli və Məcnun", Qara Qarayev), Gənc, Nəsimi ("Şur" və "Nəsimi dastanı", Fikrət Əmirov), Oğlan ("Muğam", Nazim Əliverdibəyov), Polad və Cahangir xan ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Fərhad və Vəzir ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Rəssam ("Qobustan kölgələri", Fərəc Qarayev).

Vladimir Pletnyov 1973-cü ildən Bakı Xoreoqrafiya məktəbində dərs deyib. Fikrət Əmirovun "Nəsimi dastanı" baletinin tamaşasındakı Nəsiminin partiyasına görə 1974-cü ildə Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı olub. 1975-ci ildə isə "Əfsanələr aləmində" film-baletinə çəkilib.

Azərbaycan balet sənətinin inkişafındakı xidmətlərinə görə Vladimir Pletnyov 21 may 1970-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 9 yanvar 1978-ci ildə xalq artis-ti adlarına layiq görülüb.

1978-ci ildə ağır ayaq xəstəliyi ilə bağlı Opera və Balet Teatrına məşqçi-pedaqoq təyin olunan Vladimir Pletnyov bir sıra gəncləri hazırlayaraq repertuardakı tamaşalara daxil etmişdir.

Vladimir Pletnyov 21 fevral 1988-ci ildə dünyasını dəyişib.

**ÇİMNAZ BABAYEVA (23 DEKABR 1946)**

Coşğun, ancaq "yüyənli" temperamenti, həssas musiqi duyumu var. Akademik rəqs ifadə vasitələrinə emosionallıq gətirməkdə səriştəlidir.

Çimnaz Məmməd qızı Babayeva 23 dekabr 1946-cı ildə Bakıda doğulub. Bakı Xoreoqrafiya Məktəbində təhsil alıb. Təhsilini bitirən ildən (1964) Azərbaycan Dövlət Opera və Balet Teatrında solist işləyib. 1977-ci ildə teatrda məşqçi-pedaqoq ştatına keçib. Əri xalq artisti, balet ustası Vladimir Pletnyov olub.

Çimnaz Babayeva böyük səhnəyə doqquz yaşında, Boris Zeydmanın "Qızıl açar" baletində Buratino rolu ilə qədəm basıb. ADOBT-nin səhnəsində Şirin ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Aişə, Sari ("Yeddi gözəl" və "İldırımlı yollarla", Qara Qarayev), Qız, Nəsiminin sevgilisi ("Şur" və "Nəsimi dastanı", Fikrət Əmirov), Gülyanaq ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Jizel ("Jizel", Adolf Adan), Xanım ("Xanım və xuliqan", Dmitri Şostakoviç), Kitri ("Don kixot", Lüdviq Minkus) partiyalarını məharətlə ifa edib.

Balet artisti 1970-ci il mayın 21-də Azərbaycan Respublikasının əməkdar artisti, 10 yanvar 1978-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb. 1974-cü ildə Nəsiminin sevgilisi ("Nəsimi dastanı", Fikrət Əmirov) partiyasma görə Azərbaycan Respublikasının Dövlət mükafatı ilə təltiflənib.

Zərif plastikası səhnə cazibəsi ilə seçilən Çimnaz Babayeva 1981-2000-ci illərdə teatrda məşqçi-pedaqoq işləyib. Əri Vladimir Pletnyovla birgə "Xanəndənin taleyi" (Cahangir Cahangirov) operasının rəqs nömrələrini qurublar.

## MƏDİNƏ ƏLİYEVA (4 MAY 1965)

Balet truppasınınaparıcı sıhnə ustasıdır Zərif plastikası ifadəli səhnə temperamenti, mürəkkəb hərəkətlərinin ürəyəyatımlı lirizmi var. İstifadə etdiyi balet elementlərində milli koloritə xüsusi fikir verir.

Mədinə Vaqif qızı Əliyeva Bakıda doğulub. Uşaq yaşlarından musiqi ilə məşğul olub. Bakı xoreoqrafiya məktəbini bitirib. Həmçinin Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. ADOBT-də 1983-cü ildən solistdir.

İfaçılıqda qazandığı uğurlara görə Azərbaycan Respublikasının əməkdar artisti (26 fevral 1993) və xalq artisti (24 dekabr 2002) fəxri adları ilə təltif edilib.

Mədinə Əliyeva son iyirmi ildə teatrın repertuarındakı əsas tamaşalarda baş rollarda səhnəyə çıxıb. Onun əsas partiyaları: Gülyanaq ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Şəhrizad ("1001 gecə", Fikrət Əmirov), Kitri ("Don Kixot", Lüdviq Minkus), Dulsineya və "Don Kixot", Qara Qarayev), Leyli, Aişə və Gözəllər gözəli ("Yeddi gözəl" və ("Leyli və Məcnun", Qara Qarayev), Jizel ("Jizel", Jorj Bize ), Paxita ("Paxita", Lüdviq Minkus), Kolombina ("Arlekinada", Qaetano Donisetti), Odetta-Odilliya, Maşa, Şelkunçik ("Sonalar gölü" və "Şelkunçik", Pyotr Çaykovski ), Cülyetta ("Romeo və Cülyetta", Şarl Quno).

Teatrda işləməklə yanaşı, ADMİU-nun xoreoqrafiya şöbəsində dərs deyir.

## OPERA VƏ BALET TEATRINDA REJİSSOR SƏNƏTİ (1925-2004)

**O**pera truppası 1925-ci ildə Akademik teatrdan ayrılıb bugünkü Opera və Balet Teatrının (o vaxtı Rus Operası adlanırdı) kollektivinə birləşib. İlk on ildə Azərbaycan truppası ayrı olub və onun baş rejissoru da müstəqil işləyib. Sonralar baş rejissor teatrın bütün heyətlərinə (opera, balet, xor, orkestr) rəhbərlik edib.

Azərbaycan truppasına 1925-1927-ci və 1929-1930-cu illərdə müəyyən fasilələrlə Akademik teatrın aktyoru Ab-basmirzə Şərifzadə, 1928-ci ildə Yusif Yulduz rəhbərlik ediblər. Onlar təkrar-təkrar Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", Müslüm Maqomayevin "Şah İsmayıl", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operalarına, Üzeyir bəyin "Məşədi İbad", "Arşın mal alan" operettalarına quruluşlar veriblər. Hər iki rejissor ilk növbədə truppanın formalaşmasma və yeni forma axtarışlarına can atıblar, müəyyən yaradıcılıq üslubunu formalaşdırmağa çalışıblar.

1931-ci ildə Soltan Dadaşovun Rusiyada ali musiqi rejissoru təhsili alıb opera teatrına gəlməsi kollektivin yaradıcılıq səylərini gücləndirib. Dünyanın məşhur bəstəkarlarının opera əsərlərini tərcümə edib oynamaq istiqamətində müəyyən nailiyyətlər qazanılıb. Teatr klassik Avropa və rus operalarını həm Azərbaycan, həm də rus truppalarında tamaşaya hazırlamaq üçün cəsarətli addımlar atıb.

AMDT-nin rejissorları Aleksandr Tuqanov, İsmayıl Hidayətzadə və Ədil İsgəndərov tamaşa hazırlamaq üçün Opera və Balet Teatrına dəvət alıblar. Tuqanovun quruluşunda Müslüm Maqomayevin "Şah İsmayıl" (1924), "Nərgiz" (1945), Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm" (1925), Ədil İsgəndərovun səhnə təfsirində "Şahsənəm" (1938) operaları göstərilib. İsmayıl Hidayətzadənin 1937-ci ildə hazırladığı Üzeyir bəy Hacıbəyovun "Koroğlu" operası kollektivin monumental-romantik qəhrəmanlıq üslubunda əzəmətli sənət nailiyyəti olub.

* * *

**İsmayıl Hidayətzadə**

Aktyorluğa təzəcə başlayandan az sonra əsasən həvəskarların truppa üzvləri ilə Mirzə Rza Vaizzadənin "Səyavuş" (1919) faciəsini tamaşaya hazırlayıb. Milli Dram Teatrı 1920-ci ildə təkrar dövlət statusu alanda onun truppasına aktyor götürülüb. On yeddi il həmin teatrda aktyor işləyib və xarakterik rollarda böyük uğurlar qazanıb. Həmçinin rejissor assistenti, ikinci rejissor və quruluşçu rejissor kimi fəaliyyət göstərib.

Uğurlu quruluşu Hüseyn Cavidin "Səyavuş" faciəsi sayılır (1936). "Koroğlu"nun monumental quruluşundan sonra Opera və Balet Teatrına baş rejissor təyin olunub. Həmin tamaşa bir il sonra Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti dekadasında da göstərilib. "Koroğlu"nun quruluşu opera teatrının yaradıcılıq iqlimində milliliyə doğru ciddi dönüş yaradıb və opera rejissurasında yeni məktəbin özülünü qoyub.

Bundan sonra İsmayıl Hidayətzadə OBT-də Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" operettasma, "Vətən və cəbhə" (1941) birpərdəli vətənpərvərlik operasına, "Koroğlu" (rus di-lində. 1943), Müslüm Maqomayevin "Şah İsmayıl", Qara Qarayevlə Cövdət Hacıyevin "Vətən" (1945), Jorj Bizenin "Karmen" (1945 və 1949), Əfrasiyab Bədəlbəylinin "Nizami" (1948), librettosu tərcümə edilmiş "Anuş" (1941), Niyazinin "Xosrov və Şirin" (1942) operalarına, Əfrasiyab Bədəlbəylinin "Qız qalası" (1940) baletmə quruluşlar verib. ADOBT-nin Azərbaycan heyətinin formalaşmasında İsmayıl Hidayətzadənin xidmətləri çoxdur.

Aktyor yaradıcılığına görə Azərbaycan Respublikasının əməkdar artisti (25 aprel 1933) və rejissor axtarışlarındakı nailiyyətləri üçün xalq artisti (4 dekabr 1938) fəxri adları ilə təltif olunub. 1938-1946-cı illər arası Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.

İsmayıl Hidayətzadə milli rejissuramızda monumental teatr məktəbi yaradıcılarındandır. O, rejissor təhsili görməmişdi, ancaq bu sənətə zəngin təcrübə, güclü həyat müşahidəsi, dərin biliyi ilə yeniliklər gətirə bilib.

Tamaşanın kompozisiya bütövlüyünə, aktyor ansamblının vahidliyinə, rejissor fikrinin bədii tərtibatda və musiqidə psixoloji təcəssümünə, orkestrin partituranı dəqiqliklə ifa etməsinə ustalıqla nail olub.

Mətnin və musiqinin səhnə əsərinə, yəni tamaşaya çevrilmə prosesinin bədii estetik tələblərini, meyar və prinsiplərini həssaslıqla gözləyib.

**Mehdi Məmmədov**

Rejissor fəaliyyyətinə Gəncə DDT-də başlayıb. 1946-cı ıldən AMDT-də müxtəlif quruluşlar verib. Görkəmli sənətkar Opera və Balet Teatrında baş rejissor işləyib (1956-1960). Həm baş rejissor kimi, həm də dəvətlə Fikrət Əmirovun "Sevil" (1953 və 1959), Leo Delibin "Lakme" (1957), Cahangir Cahangirovun "Azad" (1957), Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (1958 və 1976), "Koroğlu" (1959), Cakomo Puççininin "Toska" (1960) operalarına monumental quruluşlar verib.

Mehdi Məmmədov özünün opera quruluşlarında monumental romantizmə fəlsəfi dərinlik qatıb, formanın psixoloji əsaslarını musiqinin xarakteri zəminində qurmağa çalışıb. İfaçılara yüksək vokal sənətkarlığı ilə yanaşı, aktyorluğun vacib estetik şərtlərinə dəqiqliklə əməl etmək vərdişləri aşılayıb. Azərbaycan Respublikasının xalq artisti fəxri adına opera teatrında baş rejissor işlədiyi dövrdə layiq görülüb.

**Şəmsi Bədəlbəyli**

Rejissorluq sənəti ilə məşğul olmağa 1930-cu illərdə AMDT-də başlayıb.

Bir sənətkar kimi yaradıcılığının ən qaynar dövrü Musiqili Komediya Teatrı ilə bağlıdır. 1942-1949, 1956-1961 və 1963-1974-cü illərdə bu teatrda müəyyən fasilələrlə baş rejissor, bədii rəhbər və direktor işləyib.

Opera və Balet Teatrında baş rejissor və quruluşçu rejissor kimi Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (1952), "Əsli və Kərəm" (1957), Zaxari Paliaşvilinin "Daisi" (1956), Süleyman Ələsgərovun "Bahadır və Sona" (1961), İvan Dzerjinskinin "İnsanın taleyi" (1962), Vasif Adıgözəlovun "Ölülər" (1963), Aleksandr Borodinin "Knyaz İqor" (1964), Coakkino Rossininin "Sevilya bərbəri" (1964), Əfrasiyab Bədəlbəylinin "Söyüdlər ağlamaz" (1971) operalarını tamaşaya hazırlayıb.

Şəmsi Bədəlbəylinin quruluşları forma və məzmun vəhdəti, kompozisiyanın sadəliyi, partituranın dəqiq ifası, xor və rəqs nömrələrinin ifadəli bədii həlli ilə seçilib. Rejissorun həssas musiqi duyumu və peşəkar tarzənliyi onun musiqi janrlı əsərlərin tamaşaya hazırlanmasında mühüm rol oynayıb.

* * *

Teatrın 1925-1950-ci illər arasındakı fəaliyyəti dövründə əcnəbi rejissorlardan M.Moyiseyev, A.Borisenko, A.Varlamaov, Arseni Ridal, Pyotr Tveretski, İ.Prostorov, İ.Varfolomeyev, Nikolay Boqolyubov, M.Valentinov, Sergey Mayorov və başqaları bu kollektivdə opera tamaşaları hazırlayıblar. Onlar əsasən dünya klassiklərinin operalarına quruluşlar veriblər. Bunların içərisində A.Varlamovun "Mirvari axtaranlar" (Jorj Bize. 1925), "Madam Batterflyay" (Cakomo Puççini. 1925), "Şahsənəm" (Reynqold Qlier. 1926), "Qartal qiyamı" (Andrey Paşşemco. 1929), İ.Varfolomeyevin "Qızıl xoruz" (Nikolay Rimski-Korsokov. 1932), İ.Prostorvun "Şahsənəm" (1934), "Sakit Don" (İvan Dzerjinski. 1934), Nikolay Boqolyubovun "Leonqrin" (Rixard Vilhelm Vaqner. 1936), "Kornevil zəngləri" (Rober Plaket. 1948), Viktor Rappoportun "İvan Susanin" (Mixail Qlinka. 1940), Pyotr Tveretskinin "Qaratoxmaq qadın" (Pyotr Çaykovski. 1941), "Yeddi çəpiş" (Marian Koval. 1941), "Ağıldan bəla" (Boris Zeydman. 1949), "Mazepa" (Pyotr Çaykovski. 1950), Naum Fridin "Siciliya gecələri" (1954) və "Traviata" (Cüzeppe Verdi. 1958), Arnold Azrikanın "İolanta" (Pyotr Çaykovski. 1955) və "Manon Lesko" (Cakomo Puççini. 1956) operalarına verdikləri səhnə təfsirləri teatrın yaradıcılıq tarixində nəzəri cəlb edən rejissor axtarışları ilə səciyyəvidir.

Dəvətlə gəlmiş rejissorlardan moskvalı Pavel Zlotoqorovun "Monastırda nikah" (Sergey Raxmaninov. 1960), gürcü Mixail Kvaliaşvilinin "Aida" (Cüzeppe Verdi. 1961), macar Bob Massininin "Trubadur" (Cüzeppe Verdi. 1962) operalarına verdikləri quruluşlarda müəyyən rejissor yenilikləri duyulurdu.

Ötən əsrin altmışıncı illərindən bugünədək teatrın aktyoru Ağababa Bünyadzadə "Şah İsmayıl" (1967), rejissorlardan Firudin Səfərov "Qaratoxmaq qadın" (Pyotr Çaykovski. 1968), "Van Qoq" (Nevit kodallı. 1992), Əli Yusubov "Aygün" (Zakir Bağırov. 1973), Ağakişi Kazımov "Gəlin qayası" (Şəfiqə Axundova. 1974), Əflatun Nemətzadə "Knyaz İqor" (1975), "Cırtdan" (Nazim Əliverdibəyov. 1978) operalarına məzmunlu quruluşlar veriblər.

Teatrın son illərdəki baş rejissoru Hafiz Quliyev bəstəkarlardan Süleyman Ələsgərovun "Solğun çiçəklər" (1994), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (1995), Fikrət Əmirovun "Sevil" (1998), Vasif Adıgözəlovun "Natəvan" (2004) operalarını, "Arşın mal alan" (1997) operettasını tamaşaya hazırlayıb.

**SOLTAN DADAŞOV**
**(27.5.1906 - 7.9.1968)**

Ali təhsil görmüş ilk milli musiqili teatr rejissorumuzdur. Xalq oyun tamaşalarının poetika göstəricilərini dərindən bilir və onun estetik prinsiplərindən məharətlə istifadə edirdi. Klassik muğam operalarımıza, operettalarımıza verdiyi quruluşlar zəngin milli koloriti ilə seçilirdi. "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarına monumental səpkili, lirik-romantik ruhda quruluşları birinci dəfə Soltan Dadaşov verib.

Rejissor kimi quruluş verdiyi operaların partiturasını əzbər bildiyi üçün qurduğu kompozisiya, verdiyi mürəkkəb mizanlar musiqi ilə sözün harınonik, üzvi qovuşuğunun poetik təcəssümünə xidmət edib. Həssas musiqi duyumu və fenomenal musiqi yaddaşı onun səhnə təfsirlərinə möhtəşəmlik hüsnü verirdi.

Təxəllüsü "Zaki" olan Soltan Baba oğlu Dadaşov 1906-cı il mayın 27-də Bakıda doğulub. Kiçik yaşlarında ruhani təhsili alıb. Fərasət və diribaşlığına, oxumağa həvəsli olmasına görə atası onu türk-rus məktəbinə verib. Qabaqcıl şagird kimi müəllimlərin sevimlisi olan yeniyetmə Soltan buradan da realni məktəbə keçib. Oxuduğu məktəblərdə keçirilən müsamirələrdə, bayram şənliklərində təsnif və el nəğmələri oxuyurdu. Erkən gənclik illərindən klassik şairlərdən Məhəmməd Füzulinin, Molla Pənah Vaqifin, Seyid Əzim Şirvaninin, Qasım bəy Zakirin ədəbi irsini dərindən mənimsəmişdi. Bəlağətli əruzun əlvan və mürəkkəb vəznlərini dərindən bilən qiraət xiridarı kimi tamaşaçı-dinləyicilərin rəğbətini qazanmışdı.

Düşüncə tərzinə, idrak və təfəkKürünə görə həmyaşıdlarından irəli gedən Soltan Dadaşov məktəbdə dram dərnəyi yaratmışdı. O, şagird dostları ilə Mirzə Fətəli Axundzadənin komediyalarından, Nəcəf bəy Vəzirovun məsxərələrindən, Ha-şım bəy Vəzirovun məzhəkə və vodevillərindən parçalar seçib tamaşalar hazırlayırdı. Özü bu səhnələrdə həvəskar aktyor-ifaçı kimi də çıxış edirdi.

1920-1921-ci illərədə Soltan Dadaşov Bakıdakı Mərkəzi fəhlə klubunun dram dərnəyinin fəallarından olub. Sovet hökumətinin təşkil etdiyi təbliğat və təşviqat briqadalarının fəal üzvü kimi Azərbaycanın rayonlarında aktyor, müğənni, dekiomasiyaçı kimi çıxışlar edib.

1923-cü ildə milli səhnə mədəniyyətimizi peşəkar ixtisaslı kadrlarla təmin etmək məqsədilə Bakı Teatr Məktəbi (Texnikumu) açılıb. Soltan Dadaşov həmin məktəbin ilk məzunlarından olub və 1924-cü ildə həmçinin Milli Dram Teatrının yardım heyətində aktyorluq edib. Texnikumda oxuduğu illərdə teatrın səhnəsində tamaşaya qoyulmuş bir sıra əsərlərdə epizod rollar oynayıb.

Fərasətli tələbə olduğuna, Bakı Teatr Məktəbini əla qiymətlərlə bitirdiyinə, rus dilində sərbəst danışdığına, həssas musiqi duyumuna və Milli Dram Teatrının səhnəsindəki sərbəst yaradıcılıq cəhdlərinə görə və ən əsası, sənət müəllimi Aleksandr Tuqanovun zəmanəti ilə Azərbaycan Respublikasının Xalq Maarif komissarlığı (XMK) 1927-ci ildə Soltan Dadaşovu Moskvada təhsilini davam etdirməyə göndərib. Mərkəzi Teatr Texnikumunda dörd il təhsil alan Soltan Dadaşov 1931-ci ildə Bakıya musiqili teatr rejissoru ixtisası ilə qayıdıb. O, Moskvada Aleksey Popov, Boris Zaxava, Andrey Petrovski, Boris Suşkeviç kimi məşhur pedaqoqlardan sənət ixtisası dərsi almış, rejissuranın estetik və fəlsəfi əsaslarına bacarıqla yiyələnmişdi.

Təhsilini bitirib təyinatla Azərbaycan Xalq Maarif komissarlığının sərəncamına göndərilən Soltan Dadaşov opera teatrına quruluşçu rejissor təyin olunub. O, opera teatrında çalışan ilk peşənar təhsil almış rejissor idi və buna görə də elə ilk işindən onun quruluşları əzəmətli vüsətinə, zəngin koloritinə və tamaşaların səhnə həllinin bəstəkarların partiturası ilə uyğun gəlMəsmə görə seçilirdi.

Soltan Dadaşov lirik məhəbbət mövzularını formaca emosional monumentallıqla həll edir, klassik dünya opera incilərini azərbaycanlı tamaşaçılar üçün anlaşıqlı bədii-estetik formalarda hazırlamağa üstünlük verir, vokal qabiliyyəti yüksək olan sənətçilərin aktyorluq ifalarına, obraz, xarakter yaratmaq məqsədlərinə geniş imkanlar açırdı.

O, milli muğam operalarımızı monumental səpkidə hazırlamağa cəhd göstərən və bu sahədə dəyərli nailiyyətlər qazanan, bugünədək davam edən ənənənin təməlini qoyan cəsarətli, yaradıcı və novator rejissor idi.

Hansısa klassik operanın əsas partiyalarını azərbaycanca oxuyan vokal ustalarını təkidlə aktyorluq sənətinin incəliklərinə yiyələnməyə, obrazın psixoloji-estetik, sosial-fəlsəfi mahiyyətini ifadəli cizgilərlə tamaşaçılara çatdırmağa təhrik edən ilk milli opera rejissoru da məhz Soltan Dadaşov olub.

Soltan Dadaşov Opera və Balet Teatrında otuz səkkiz illik rejissorluğu dövründə Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" ("Məşədi İbad"), "Arşın mal alan", "Leyli və Məcnun" (bir neçə quruluşda), "Cəbhə və vətən", "Əsli və Kərəm", Müslüm Maqomayevin "Nərgiz", "Şah İsmayıl" (bir neçə quruluşda), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (iki quruluşda), Cüzeppe Verdinin "Riqoletto", "Traviata", Soltan Hacıbəyovun "Gülşən" (balet), İbrahimov Məmmədovun "Tülkü və Alabaş", Rucero Leonkovallonun "Məzhəkəçilər" əsərlərinin quruluşçu rejissoru olmuşdur.

Aşqabad Dövlət Azərbaycan Teatrı "dram və opera teatrı" adı ilə fəaliyyət göstərdiyi vaxtlarda Soltan Dadaşov həmin kollektivdə tamaşa hazırlamağa dəvət edilib. Rejissor 1937-ci ilin dekabrında Aşqabad teatrında Müslüm Maqomayevin "Şah İsmayıl" operasının məşqlərinə başlamışdır. Operanın premyerası 1938-ci il yanvar ayının 16-da göstərilmiş və təntənəli keçən tamaşa sənət ocağının yaradıcılığında hadisə kimi qiymətləndirilmişdir.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında (ongünlüyündə) "Arşın mal alan" operettasının böyük uğurundan sonra Bakıda müstəqil Musiqili komediya Teatrı yaratmaq barədə Dövlətin qərarı oldu. Teatrın ilk işi kimi Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" operettası seçildi. Operettanın rejissorluğu Soltan Dada-şova tapşırıldı və əsərin ilk tamaşası 30 may 1938-ci ildə "Rote Fane" parkının (İndiki "Nizami" parki) möhtəşəm yay salonunda göstərildi. Quruluşçu rejissor tamaşada əsas rolları Məmmədli Vəlixanlıya (Kərbəlayı Hacı), Münəvvər Kələntərliyə (Pərzad), Əhməd Qəmərliyə (Xosrov bəy), İbrahim Şünasiyə (Məşədi Səfi), Heydər Məlikova (Muxtar bəy) tapşırmışdı.

Soltan Dadaşov 1941-ci il may ayının 21-də Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında monumental, etno-mədəni xalq mərasim oyun-tamaşasını tamaşaçılara təqdim etdi. Filarmoniyada göstərilən bu tamaşa milli musiqi folkloru xəzinəmizin poetik vüsətini, etnogenezislə bağlı estetik-psixoloji məziyyətlərini böyük ustalıqla səhnədə təcəssüm etdirə bilmişdi.

1945-ci ildə Bakıda ilk dəfə Dövlət səviyyəsində Azər-baycan sirki təşkil olunanda rejissorluq işi Soltan Dadaşova tapşırıldı. Onun rejissorluğu, proqramlara milli "zorxana", "qaravəlli", "hoqqa" oyun estetikalarının prinsip və formalarını cəsarətlə gətirməsi ilə sirk kollektivi Moskvada, Peterburqda, Minskdə, Riqada, Vilnüsdə, Tallində çıxışlar edib.

1967-ci ildə Soltan Dadaşov sirk proqramında milli folklorumuzun bütün estetik gözəlliklərini, etno-mədəni tariximizin oyun-tamaşa səciyyələrini təcəssüm etdirən xüsusi "Novruz" proqramı hazırlayıb.

Opera və Balet Teatrında işləyən Soltan Dadaşov 1949-cu ildə bağlanmış Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyorlarını, əsasən Filarmoniyanın estradasında çalışan sənətçilərini bir yerə cəm edib. 1954-cü ildə dövlət sözü yazılmadan Azərbaycan Musiqili Komediya Teatrı kimi truppanın fəaliyyətinə nail olub. "Arşın mal alan", "Məşədi İbad", dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Ağası Məşədibəyovun "Toy kimindir?", dramaturq Süleyman Rüstəmin və bəstəkar Səid Rüstəmovun "Durna" operettalarını burada tanıa-şaya hazırlayıb. Məhz bu kollektivin güclü bazasında truppa 1956-cı ildə yenidən Azərbaycan Dövlət Musiqili Komediya Teatrı kimi fəaliyyətə başlayıb və bugünədək yaradıcılığını davam etdirməkdədir.

Soltan Dadaşovun rejissor üslubunun novatorluq xüsusiyyətləri, məzmun və forma həllində milli xalq oyunlarından bəhrələnmə cəhdləri Gənc Tamaşaçılar Teatrının yaradıcı heyətinin də diqqətini cəlb etmişdi. İyirmi yaşına çatanda Kamal sənətkar kimi qəbul olunan Soltan Dadaşovun rejissorluğu ilə 1933-1936-cı illər ərzində GTT-də Qriqori kornellinin "Qaçaq Səməd", Zəfər Nemətovla Əli Həsənovun "Qaralar Ölkəsində", Əli Həsənovla Əliməmməd Atayevin "Sürət", "Çelyuskinçilər", Mirmehdi Seyidzadənin "Nərgiz" əsərləri tamaşaya qoyulmuşdur. Onun

rejissorluğu ilə Dağıstan Muxtar Respublikasındakı Süleyman Stalski adına Ləzgi Dövlət Dram Teatrında M.Xurişlova ilə M.Çistyakovanın "Şahid Sulak" (1960) pyesi tamaşaya hazırlanıb.

Soltan Dadaşovun yazdığı, Mirzə Ələkbər Sabirin yaradıcılığının bədii məziyyətlərini, kəskin satirasının ictimai ma-hiyyətini təcəssüm etdirən "Keçmişin məişət səhnələri" librettosuna Vasif Adıgözəlov musiqili komediya bəstələyib. Həmin əsər 27 may 1962-ci ildə rejissor Əliheydər Ələkbərovun quruluşunda Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulub.

1934-cü ildən pedaqoji fəaliyyətlə də məşğul olan Soltan Dadaşov uzun illər Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs deyib. Milli opera teatrı tarixini, onun görkəmli sənətkarlarının yaradıcılıq yolunu dərindən bilən Soltan Dadaşov "Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrı" kitabının (Bakı, Azərnəşr, 1958), xalq artisti Hüseynağa Hacıbababəyov barədə monoqrafiyanın (Bakı, ATC, 1958) müəllifidir. Azərbacan estradasında rejissorluq etmiş, Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı üçün rəngarəng proqram kompozisiyaları hazırlamışdır.

Azərbaycan musiqili teatrının inkişafında xidmətlərinə və rejissorluq sənətində qazandığı ciddi nailiyyətlərə görə Soltan Dadaşov 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi və 26 aprel 1958-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Sənətkar 7 sentyabr 1969-cu ildə Bakıda vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır.

## OPERA VƏ BALET TEATRINDA DİRİJORLUQ SƏNƏTİ

İlk milli operamız "Leyli və Məcnun" (Üzeyir bəy Hacıbəyov) 12 yanvar 1908-ci ildə tamaşaya qoyulanda əsəri müşayiət edən yığcam heyətli orkestrə dirijorluğu nasir-dramaturq, teatr xadimi Əbdürrəhim bəy Haqverdiyev edib. Sonraki illərdə rejissor pultunda Üzeyir bəy Hacıbəyov, Müslüm bəy Maqomayev, David Slavinski durublar. Ayrı-ayrı truppaların qastrol səfərlərində opera və operettalara dirijorluğu truppanın musiqi sənətində səriştəli aktyorları öz üzərlərinə götürüblər.

Opera və Balet Teatrı dövlət təsisatında olandan sonra milli dirijorlarımızın yetişməsi sahəsində səmərəli işlər aparılıb. Beləliklə də, adları teatr tariximizə yazılmış sənətkarlar şöhrətli yaradıcılıq yolu keçiblər.

* * *

### ƏFRASİYAB BƏDƏLBƏYLİ (19.4.1907-6.1.1976)

Tanınmış maarifpərvər Bədəl bəyin ailəsində 19 aprel 1907-ci ildə Bakıda doğulub. Əslən Şuşalı olan, Üzeyir bəyin qohumu Bədəl bəy Bakıda milli məktəb açan ilk müəllimlərdəndir və həm də dram və opera tamaşalarında iştirak edib. Məcnunun ("Leyli və Məcnun", Üzeyir bəy Hacıbəyov) partiyasını ifa edib. Əmisi aktyor və pedaqoq, milli operamızda qadın rollarının məşhur ifaçısı Əhməd Ağdamski idi. Kiçik qardaşı Şəmsi Bədəlbəyli rejissor olub.

Azərbaycanın ilk milli baletinin müəllifi, şöhrətli dirijor, musiqişünas, pedaqoq, tədqiqatçı və librettolar müəllifi Əfrasiyab Bədəlbəyli uşaqlıqda gözəl tar çalıb. Azərbaycan Dövlət Universitetində təhsil ala-ala Dövlət Dram Teatrında işləyib. Burada dramaturq Cəfər Cabbarlı ilə dostlaşıb və onun premyerası 16 fevral 1928-ci ildə göstərilən "Od gəlini" faciəsinin tamaşasına ilk dəfə musiqi bəstələyib. Üzeyir bəyin təşəbbüsü ilə 1929-cu ildə Opera və Balet Teatrında ilk dəfə pult arxasma qalxaraq "Əsli və Kərəm" operasına dirijorluq edib. 1930-cu ildə universiteti bitirən Bədəlbəyli 1938-ci ildə Peterburq konservatoriyasının nəzdində musiqi məktəbini də qur-tarıb. Azərbaycan Respublikasının xalq artisti fəxri adı ilə təltif olunub (23 fevral 1940).

1930-cu ildən ömrünün sonunadək müəyyən fasilələrlə Opera və Balet Teatrında dirijor və baş dirijor işləyib. Teatrda Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" operettasma, "Leyli və Məcnun", "Əsli və Kərəm", Müslüm bəy Maqomayevin "Şah İsmayıl", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", Fikrət Əmirovun "Sevil", Cüzeppe Verdinin "Aida", "Riqoletto", Cakomo Puççininin "Toska" operalarına, özünün "Qız qalası", Boris Zeydmanın "Qızıl açar", "Maskarad", Reynqold Qlierin "Qırmızı lalə", Pyotr Çaykovskinin "Sonalar gölü", "Şelkunçik", Rikardo Driqonun "Arlekinado", İqor Morozovun "Doktor Aybolit" baletlərinə, Boris Asafyevin "Bağçasaray fəvvarəsi" xoreoqrafik poemasına dirijorluq edib.

Bədəlbəyli 6 yanvar 1976-cı ildə Bakıda vəfat edib.

## ƏŞRƏF HƏSƏNOV (24.1.1909-9.8.1983)

24 yanvar 1909-cu ildə Şəkidə doğulub. ADK-nın orkestr (1932) və Moskva Dövlət Konservatoriyasının dirijorluq (1938) siniflərini bitirib. İlk ali təhsilli peşəkar dirijorlardan olan Əşrəf Həsən oğlu Abbasov 1932-1979-cu illərdə ADOBT-də dirijor işləyib.

1949-1962-ci illərdə ADK-nın opera hazırlığı sinifinə rəhbərlik edib.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (23 fevral 1940) və xalq artisti (10 iyun 1959) fəxri adları ilə təltif olunub.

ADOBT-də Üzeyir bəy Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", Müslüm Maqomayevin "Şah İsmayıl", Reynqold Qilierin "Şahsənəm", Mixail Qlinkanın "İvan Susanin", Cüzeppe Verdinin "Traviata", "Aida", "Riqoletto", Nikolay Rimski-Korsakovun, "Çar gəlini" və "Qar qız", Jorj Bizenin "Karmen", Rucero Leonkovallonun "Məzhəkəçilər", Sergey Raxmaninovun "Aleko", Aleksandr Darqomıjskinin "Su pərisi", Pyotr Çaykovskinin "Yevgeni Onegin", "İolanta" operalarına, "Motsart və Salyeri", "Şəhrizad", İqor Marozovun "Doktor Aybolit" baletlərinə dirijorluq edib.

Əşrəf  Həsənov 9 avqust 1983-cü ildə Bakida vəfat edib.

## NİYAZİ (20.8.1912 -2.8.1984)

Görkəmli bəstəkar Zülfüqar bəy Hacıbəyovun oğludur. Soyadı Hacıbəyov-Tağızadədir. 20 avqust 1912-ci ildə Tiflisdə anadan olub. 1926-1931-ci illərdə Qinsinlər adına Moskva Musiqi Məktəbində və Leninqrad Mərkəzi Musiqi Məktəbində oxuyub. 1933-1934-cü illərdə ADK-nın aspiranturasında təhsilini davam etdirib. Azərbaycan Dövlət Simfonik Orkestrinin yaradıcılarından biridir və 1938-ci ildən bu kollektivin bədii rəhbəri və baş dirijoru olub.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (23 fevral 1940), xalq artisti (30 aprel 1955) və SSRİ xalq artisti (9 iyun 1959) fəxri adları ilə təltif olunub.

Stalin mükafatı (1951 və 1952), Üzeyir bəy Hacıbəyov adına Respublika Dövlət (1972), Beynəlxalq Cəvahirləl Nehru (1975) mükafatları laureatıdır. Sosialist Əməyi Qəhrəmanıdır (1982).

1961-ci ildə Leninqrad Böyük Opera və Balet Teatrında baş rejissor olub. Burada Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin tamaşaya hazırlanmasında iştirak edib. Pyotr Çaykovskinin "Yatmış gözəl", Sergey Prokofyevin "Daş çiçək" baletlərinə dirijorluq edib. Həmin əsərləri "Qrand-Opera" (Paris) və "Kovent-Qarden" (London) teatrlarında səsləndirib. Ankara Dövlət Opera və Balet Teatrında oynanılan Pyotr Çaykovskinin "Qaratoxmaq qadın", "Yevgeni Onegin", Cüzeppe Verdinin "Aida", İstanbul opera teatrında göstərilən Adnan Sayqunun "Koroğlu" operalarının dirijor pultunu Niyazi tutub.

Niyazinin yaradıcılığının böyük bir dövrü ADOBT ilə bağlıdır. O, bu kollektivdə dirjior (1934-1948 və 1951 -1952-ci illərdə), direktor, bədii rəhbər və baş dirijor (1958 -1959 və 1961-1965-ci illər) işləyib. Dahi sənətkarın dirijorluğunda Üzeyir bəy Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", Fikrət Əmirovun "Sevil", Qara Qarayev və Cövdət Hacıyevin "Vətən", Müslüm Maqomayevin "Nərgiz", Vasif Adıgözəlovun "Ölülər", Cakomo Puççininin "Bohema", Jorj Bizenin "Karmen", Bedrjix Sınetananın "Satılmış gəlin", Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" operaları, Qara Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla", Soltan Hacıbəyovun "Gülşən", Arif Məlikovun "Məhəbbət əfsanəsi", Nikolay Rimski-Korsakovun "Şəhrizad" baletləri oynanılıb.

Həm də bəstəkarlıqla məşğul olan Niyazinin "Xosrov və Şirin" (1942) operası və "Çitra" (1974) baleti ADOBT-də tamaşaya hazırlanıb.

Niyazi 2 avqust 1984-cü ildə Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

* * *

**Kamal Abdullayev (18.1.1927-5.12.1997). Bakıda doğulub** ADK-nı (1948) və Moskva Dövlət konservatoriyasını (1952) bitirib. ADOBT-də dirijor (1952) və baş dirijor (1953 -1959) işləyib. Sonralar Donetsk OBT-da, Moskva Musiqili Teatrında baş dirijor Kürsüsünü tutub. Azərbaycanın xalq artis-ti fəxri adına layiq görülüb (1967). Kamal Cahanbəxş oğlu Abdullayev ADOBT-də "Yevgeni Onegin", "Əsli və Kərəm", "Leyli və Məcnun" operalarına, "Yeddi gözəl", "Gülşən" baletlərinə dirijorluq edib.

**Kazım Əliverdibəyov (27 noyabr 1934). Bakıda doğulub.** ADK-da xor dirijorluğu ixtisasma yiyələnib (1959). ADOBT-də 1961-ci ildən dirijor işləyib. Azərbaycanın əməkdar incəsənət xadimi (1978) fəxri adına layiq görülüb. Konservatoriyada pedaqoji fəaliyyət göstərib və oranın professoru (1991) olub.

Kazım Ağalar oğlu Əliverdibəyov "Arşın mal alan", "Məşədi İbad" operettalarına, "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm" (Üzeyir bəy Hacıbəyov), "Solğun çiçəklər" (Süleyman Ələsgərov), "Cırtdan" (Nazim Əliverdibəyov), "Monastırda nikah" (Sergey Raxmaninov), "Çio Çio San" (Cakomo Puççini), "Sevgi şərbəti" (Qaetano Donisetti) operalarına, "Don kixot" (Lüdviq Minkus), "Zoluşka" (Sergey Prokofyev), "Xanım və xuliqan" (Dmitri Şostakoviç), "Jizel" (Adolf Adan), "Doktor Aybolit" (İqor Morozov), "Xəzər fatehləri" (Fikrət Əmirov), "Xəzər balladası" (Tofiq Bakıxanov) baletlərinə dirijorluq edib.

**Rauf Abdullayev (29 ontyabr 1937).** ADK-nı (1959) və Moskva Dövlət konservatoriyasını (1965) bitirib. ADOBT-də dirijor (1965-1968) və baş dirijor (1968-1988) kimi fəaliyyət göstərib. Azərbaycan Dövlət Simfonik Omestrinin bədii rəhbəri və baş dirijoru olub. Ankara Dövlət Opera və Balet Teatrında baş rejissor vəzifəsində çalışıb (1990-1995). Azərbaycan dövlət mükafatı laureatıdır (1988), respublikanın xalq artistidir (1992) və ADK-nın professorudur (1982).

Rauf Cahanbəxş oğlu Abdullayev ADOBT-də "Koroğlu" (Uzeyir bəy Hacıbəyov), "Şah İsmayıl" (Müslüm Maqomayev), Aldanmış ulduzlar" (Məmməd Quliyev), "Söyüdlər ağlamaz" (Əfrasiyab Bədəlbəyli), "Aygün" (Zakir Bağırov), "Nikbin faciə" (Aleksandr Xolminov) operalarının, "Gülşən" (Soltan Hacıbəyov), "Leyli və Məcnun" (Qara Qarayev), "Kaleydoskop" (Fərəc Qarayev), "Babək" (Aqşin Əlizadə), "Humay" (Nəriman Məmmədov) baletlərinin tamaşalarına dirijorluq edib.

* * *

Opera və Balet Teatrında 1925-1950-ci illər arasında dirijorlardan Müslüm Maqomayev, Vladimir Traximoviç, Aleksandr Alevladov, A.Korzovski, V.Piradov, A.Lyudmilin, K.Braueç, A.Klibson, İ.Ratner, 1950-2005-ci illər arasında Əhəd İsrafilzadə, Henri Risman, Ramiz Məlikaslanov, Soltan Hacıbəyov, Nazim Rzayev, Tale Qəniyev çalışıblar. Onlar opera və balet

tamaşalarına dirijorluq etməklə bu sənətin inkişafında öz əməklərini sərf etmişlər. Adları çəkilən sənətkarların bəziləri teatrda uzun illər və bir qismi qısa müddətlərdə işləyiblər.

Hazırda teatrın baş dirijoru əməkdar artist (2000) Cavanşir Cəfərovdur.

## MİLLİ OPERETTA JANRININ TƏŞƏKKÜLÜ

Uzeyir Hacıbəyov ilk milli Azərbaycan operası "Leyli və Məcnun"u bəstələyəndən sonra (ilk tamaşa 12 yanvar 1908-ci ildə göstərilib) "Şeyx Sənan" operasını hasilə gətirib. Dahi bəstəkar iki operanın ardınca 1909-cu ildə "Ər və arvad" operettasını tamamlayıb. Martın axırlarında təzə janrlı əsərini "Nicat" mədəni-maarif cəmiyyətinin teatr və ədəbiyyat komissiyasına verib. "Ər və arvad" bəyənilib götürülsə də, onun tamaşaya hazırlanması bir ildən çox çəkib.

"Ər və arvad" operettasını tamaşaya Hüseyn Ərəblinski hazırlayıb. Üzeyir bəyin benefisinə tamaşaya qoyulan "Ər və arvad" ilk dəfə 1910-cu il mayın 24-də Bakıda Nikitin qardaşlarının sirk binasının ("Nikitin teatrı"da deyilir) səhnəsində göstərilib. Tamaşanın dirijoru Üzeyir bəy özü idi. Rolları Hüseynqulu Sarabski (Mərcan bəy), Əhməd Ağdamski (Minnət xanım), Məmmədhənifə Terequlov (Səfi), Kərimov (Gülpəri), Mirzağa Əliyev (Kərbəlayı Qubad), kələntərov (Yetər), Rüstəm Kazımov (Rüstəm), Cəlal Paşayev (Heydər), Nəzərov (Nəcəf), Quliyev (Hüseyn) ifa ediblər. Tamaşanın bədii rəhbəri Əbülfət Vəli (Vəliyev) idi.

Üzeyir bəyin "Ər və arvad" tamaşası ilə Azərbaycanda yeni janrın-operetta janrının və yeni bir teatrın - Musiqili komediya Teatrının bünövrəsi qoyulub. Beləliklə, Azərbaycan Dövlət Musiqili Komediya Teatrının tarixi 24 may 1910-cu ildən başlayır.

Üzeyir bəy Hacıbəyov ikinci operettası "O olmasın, bu olsun"u 1910-cu ildə yazıb. Əsər daha çox "Məşədi İbad" adı ilə tanınır. "Məşədi İbad"ın premyerası 25 aprel 1911-ci ildə Mayılov teatrının (indiki opera teatrı) binasında oynanılıb. Tamaşanın quruluşçu rejissoru Hüseynqulu Sarabski həmçinin Sərvərin partiyasını oxuyub. O, uzun illər bu rolun ən gözəl ifaçısı olmuşdur. Digər rolları "Nicat"ın aktyorları Mirzağa Əliyev (Məşədi İbad), Əhməd Ağdamski (Gülnaz), Məmmədhənifə Terequlov (Həsən bəy), Ələkbər Hüseynzadə (Hambal. Sonralar bu rolu Əhməd Anatollu oynayıb) ifa ediblər. "Məşədi İbad" əvvəlcə üç pərdədən ibarət olub. Bəstəkar hamam səhnəsini əsərə 1915-ci ildə əlavə edib. Üzeyir bəy Hacıbəyov bəstələdiyi operettaların üçünün də librettosunu özü yazıb.

Dahi Üzeyir bəyin böyük qardaşı Zülfüqar Hacıbəyov üç operetta yazıb və musiqisini də özü bəstələyib. O, "Əlli yaşında cavan"ı 1909-cu ildə, "Varlı"nı və "Evliykən subay"ı 1911-ci ildə tamamlayıb. "Varlı" operettası əsasən "On bir yaşlı arvad", bəzən də "On bir yaşlı gəlin" adları ilə oynanıb. Bəstəkar "Evliykən subay"ı Naxçıvanda yazıb və 1912-ci ildə oynanılmasına icazə verilməsi üçün operettanın əl yazısını Tiflisə göndərib. Təxminən bir il sonra əsərin Qafqazda səhnəyə qoyulmasma icazə verilib. "On bir yaşlı arvad" operettasının ilk tamaşası 26 may 1911-ci ildə Tiflis Zadəgan (Dvoryan) teatrının binasında Azərbaycanlı səhnə həvəskarları tərəfindən hazırlanıb. Bakıda isə həmin əsər birinci dəfə 2 may 1914-cü ildə Tağıyev teatrının binasında "Səfa" mədəni-maarif cəmiyyətinin teatr truppası tərəfindən göstərilib.

Zülfüqar bəyin "Əlli yaşında cavan" operettası ilk dəfə Tiflisdə Zadəgan teatrında, 1911-ci il avqustun 10-da göstəri-lib. Bu tamaşa da uğurla keçib. Zülfüqar bəy elə Tiflisdəcə bir truppa yaradıb və onlar İrəvana, Naxçıvana, Culfaya, oradan isə İrana qastrol səfərinə çıxıblar. Repertuarda "Məşədi İbad", "Əlli yaşında cavan", "On bir yaşlı arvad" operettaları olub. Qastrol üçün Bakıdan aktyor Mirzağa Əliyev dəvət edilib. Tamaşalarda onun əsas yöndaşı Göyərçin xanım idi.

"Əlli yaşında cavan" operettası 1912-ci il aprelin 27-də Bakıda, Nikitin qardaşlarının teatr-sirkində tamaşaya qoyulub. Əsərin musiqisini nota Üzeyir bəy Hacıbəyov salmışdı və bu tamaşanın dirijorluğunu da o etmişdi. Zülfüqar Hacıbəyovun "Evliykən subay" (11 fevral 1913) və "Əlli

yaşında cavan" (3 mart 1914) operettaları Hacıağa Abbasovun və bəstəkarın özünün rejissorluğu ilə Bakıda "Səfa" truppası tərəfindən də oynanılıb. Kəblə Hacı rolu ("Evliykən subay") Hacıağa Abbasovun ən yaxşı rollarındandır. Bu aktyor həmin dövrdə tənqid və tamaşaçılardan "Komikbuf" qiymətini alıb.

"Nicat" cəmiyyəti 1912-ci il sentyabrın 15-də özünün teatr truppasının siyahısını və repertuar planını təsdiqləyib. İmran Qasımovun sədrliyi ilə keçən iclasın qərarına əsasən sentyabrın 31-də aktyorlarla 1 oktyabr 1912-ci ildən, 1 iyun 1913-cü ilə qədər müqavilə bağlanıb. Truppaya Hüseynbala (Hüseyn) Ərəblinski, Hüseynqulu Sarabski, Mirmahmud Kazımovski, Hacıağa Abbasov, Rüstəm Kazımov, Əhməd Məlikov (Qəmərli), Əliş Haqverdiyev, Nurməhəmməd Məhəmmədov, Məmmədrəhim Abbasov, Ağadadaş Həsənov, Cəlil bəy Bağdadbəyov, Xəlil Hüseynov, Əbülhəsən Anaplı, Məmmədbağır Əlinski, Əliislam Dadaşov (Əli İslam) Ələkbər Hüseynzadə, Məmmədhənifə Terequlov və Mirzə Muxtar Məmmədov və sairə aktyorlar daxil olublar. Təsdiqlənmiş repertuar planında çoxlu dram və opera əsərləri ilə bərabər, "Məşədi İbad", "Ər və arvad", "Evliykən subay", "Əlli yaşında cavan", Mirmahmud Kazımovskinin "Vurhavur" operettaları da vardı. Ancaq "Nicat"ın rəhbərliyi Moskvada təhsildə olan Üzeyir bəylə bağlanmış müqavilənin hüquqi tərəflərini pozmuşdu.

Müslüm bəy Maqomayev 1912-ci ildən opera və operetta tamaşalarında fəal şəkildə dirijorluq etməyə başlayıb. O, Üzeyir bəylə bacanaq və dost idi. Məmmədhənifə Terequlov isə onların qaynı idi. Müslüm bəyin bacarıq və qabiliyyəti tezliklə səhnə fədailəri arasında ona xüsusi rəğbət qazandırıb.

Üzeyir bəy Hacıbəyov 1911-ci ildə əvvəl Moskvaya və sonra Peterburq şəhərinə ali musiqi təhsili almağa gedib. Orada "Arşın mal alan" operettasını tamamlayıb və əsəri Bakıya, Hüseynqulu Sarabskiyə göndərib. Tezliklə dünya şöhrəti qazanan bu əsər Bakıda ilk dəfə 25 oktyabr 1913-cü ildə Tağıyev teatrının binasında oynanılıb. Tamaşaya dirijorluğu Müslüm Maqomayev edib. Premyera tamaşasında rollar belə bölünmüşdü: Əsgər - Hüseynqulu Sarabski, Gülçöhrə - Əhməd Ağdamski, Soltan bəy - Ələkbər Hüseynzadə, Vəli - Xəlil Hüseynov, Telli - Şura Olenskaya, Asya - Yeva Olenskaya, Süleyman-Məmmədhənifə Terequlov, Cahan xala -Gülsabah...

Tamaşanı "Nicat" cəmiyyətinin teatr truppası ilə rejissor-aktyor Hüseynqulu Sarabski hazırlamışdı. "Arşın mal alan" tamaşası o dövr üçün görünməmiş uğur qazanıb. Üzeyir bəy Hacıbəyov özü Peterburqda olduğu üçün bunları görməyib.

"Arşın mal alan", həm də "Məşədi İbad" operettaları 1913 - 1920-ci illərdə Tiflisdəki, İrəvandakı, Təbrizdəki Aşqabaddakı Azərbaycan teatr həvəskarları tərəfindən dəfələrlə tamaşaya qoyulub. Üzeyir bəy Hacıbəyovun operettaları bu illərdə İranda, Türkiyədə, Volqaboyu şəhərlərdə, Orta Asiyada geniş şöhrət qazanıb.

Bakıda 1914-cü ildən başlayaraq iki musiqili teatr truppası fəaliyyət göstərib. Biri "Operetta truppası" adlanıb və rəhbəri də Zülfüqar bəy Hacıbəyov olub. Onlar əsasən Zülfüqar bəyin "Evliykən subay", "Əlli yaşında cavan", hərdən "On iki yaşında gəlin" operettalarını, aktyor və rejissor Mirmahmud Kazımovskinin "Vurhavur" musiqili komediyasını göstərirdilər. "Vurhavur"un musiqisini işləyən və tamaşanın dirijoru David Slavinski olub. Vodevil xarakterli əsərin ilk tamaşası Kazımovskinin öz rejissorluğu ilə Tağıyev teatrında 1915-ci il oktyabrın 15-də oynanılıb.

Paytaxtda mövcud olan digər musiqili teatr truppası "Müsəlman opera truppası" adlanıb. Bu truppa Üzeyir bəyin nəzarətində olsa da, ona rəhbərliyi və baş rejissorluğu Hüseynqulu Sarabski, dirijorluğu Müslüm Maqomayev ediblər. "Nicat" cəmiyyəti teatr truppasının opera-operetta bölməsi də vardı. 1914-cü ilin yanvar günlərində "Nicat" cəmiyyətinin teatr bölməsində musiqili teatr şöbəsi də yaradılıb. Bu addım opera və operetta janrlarının populyarlığından, tamaşaçıların maraq dairəsinin genişliyindən irəli gəlmişdi.

1916-cı ilin yanvarında yığma teatr dəstəsi Mirmahmud Kazımovskinin rejissorluğunda Sultan Muradovun "Kəblə Xudu" və Süleyman Səfərovla İsgəndər bəy Məlikovun "Xırdavat alan" musiqili komediyalarını oynayıblar. Sözsüz ki, hər iki əsər həm mətncə, həm də musiqi tərtibincə

Üzeyir bəyin operettalarından qat-qat zəif idi. Ancaq bu tamaşalar operetta janrında milli teatrın inkişafı, ona maraq dairəsmin genişlənməsi baxımından müəyyən əhəmiyyət daşıyır.

1916-cı ilin avqustunda "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" truppası yaradılıb. Əvvəl müdiriyyətin (truppanın) adı belə idi: "Hacıbəyov qardaşlarının opera və operet dəstəsi". "Dəstə" sözü rus dilli qəzetlərdə "dərnək" ("Krujok") kimi verilmişdi. Az sonra dram əsərlərini də oynamağı qərarlaşdıran dəstə özünün afişa və proqramlarında, rəsmi sənədlərində "Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının müdiriyyəti" yazmağı üstün tutdu. Qısa şəkildə isə "Müdiriyyət" kimi yazılıb.

Truppanın ilk operetta tamaşası 1916-cı il sentyabrın 30-da Tağıyev teatrında göstərilən "Arşın mal alan" əsəri olub. Tamaşaya rejissorluğu Abbasmirzə Şərifzadə edib və əsas rolları Hüseynqulu Sarabski (Əsgər), Şura (Aleksandra) Olenskaya (Asya), Əhməd Ağdamski (Gülçöhrə), Rza Darablı və Əbülhəsən Anaplı (Vəli), Ələkbər Hüseynzadə (Soltan bəy) oynayıblar.

Opera-operetta truppası 1920 - 1925-ci illərdə (avqust ayına kimi) bugünkü Akademik Milli Dram Teatrının nəzdində olub. Kollektivin repertuarında "Arşın mal alan", "Məşədi İbad", "Evliykən subay", "Əlli yaşında cavan" operettaları da xüsusi yer tutub. Truppa 12 dekabr 1921-ci ildə Müslüm Maqomayevin "Molla Nəsrəddinin qazanı" musiqili vodevilini ilk dəfə oynayıb. 1925-ci ilin avqustunda truppa bugünkü Opera və Balet Teatrının nəzdinə keçib. Opera teatrı 1929 -1930-cu illərin teatr repertuarı planına Müslüm Maqomayevin "Xoruz bəy" operettasını daxil etmişdi. Ancaq mətni və partiturası bəstəkarın arxivində saxlanan əsər tamaşaya qoyulmayıb. Həmçinin Məşədi Cəmil Əmirovun "Namuslu qız" operettası plana salmsa da, oynanılmayıb.

İldən-ilə Azərbaycan milli əsərlərinə geniş yer verməyə çalışan Opera və Balet Teatrı 1931-ci ilin iyununda Özbəkistanın paytaxtı Daşkəndə qastrola gedəndə "Arşın mal alan" və "Məşədi İbad" operettalarını öz repertuarına əlavə etmişdi. Bir neçə il əvvəl isə teatr "Məşədi İbad" operettasını AMDT-nin rejissoru Əlihüseyn Rzayevin quruluşunda və Əfrasiyab Bədəlbəylinin dirijorluğunda oynamışdı. İlk tamaşalarda rolları Mirzağa Əliyev (Məşədi İbad), Məhəmməd Nuri və Məmmədtağı Bağırov (Rüstəm bəy), Qacar Xurşid, Məhbubə Zeynallı, Qəmər Ağazadə və Həqiqət Rzayeva (Gülnaz), Hüseynağa Hacıbababəyov və Xanlar Haqverdiyev (Sərvər), Hə-qiqət Rzayeva və Məryəm Babayeva (Sənəm), Aslan Tahirov və Əli Zeynalov (Həsən bəy), Əhməd Anatollu və Əlövsət Sadıqov (Hambal), Əli Qurbanov, Bağır Cabbarzadə və Zülfüqar Sarıyev (Hamamçı), Əli Zeynalov və Məhəmməd Nuri (Qoçu Əsgər), Xanlar Haqverdiyev və Zülfüqar Sarryev (Usta Məhərrəm) ifa ediblər.

Opera teatrının Daşkənddən qastroldan qayıtdıqdan sonra oynadığı "Məşədi İbad" tamaşasının quruluşunu isə Soltan Dadaşov vermişdi. Premyerası 1931-ci ilin noyabrında göstərilən tamaşanın rəssamı Kovalenko, ikinci rejissoru Hüseynqulu Sarabski idi. Şirvani operettaya lüzumsuz yerə və heç bir estetik təsir gücü olmayan proloq yazmışdı. Məşədi İbadın müamiləçisi Tula Rəcəb (Lütfəli Abdullayev və Zülfüqar Sarıyev) və Dilmanc (İsmayıl Eloğlu) kimi tiplərin və proloq operettaya əlavə edilməsi tamaşaya ciddi ağırlıq gətirmişdi. Rejissor təzə quruluşda Əhməd Anatollunu, Nurməhəmməd Məhəmmədovu (Məhəmməd Nuri) və Qəzənfər Məlikov Məşədi İbad rolunda Mirzağa Əliyevə dublyor vermişdi. Sərvərin ariyasını Sarabskidən əlavə Bülbül, Əlövsət Sadıqov və Haşım Kələntərli də oxuyurdular.

1935 - 1936-cı illərin teatr mövsümündə Hüseynqulu Sarabskinin quruluşunda "Arşın mal alan" tamaşası təzələnib. Rejissor tamaşada müəyyən mizan dəyişikiikləri etmiş, bəzi səhnələri təzədən işləmişdi. Rolları Hüseynqulu Sarabski (Əsgər), Sona Mustafayeva və Səkinə Quliyeva (Gülçöhrə), Həqiqət Rzayeva (Telli), Sona Mustafayeva, Məhbubə Paşayeva və Səkinə Quliyeva (Asya), Qulam İsgəndərov (Vəli), Məmmədtağı Bağırov (Süleyman), Münəvvər Kələntərli (Cahan xala),
Z.Hüseyn (Soltan bəy) oynayıblar.

Opera teatrının baş rejissoru İsmayıl Hidayətzadənin quruluş verdiyi tamaşanın dirijoru Səid Rüstəmov və Əhəd İsrafilzadə idi və səhnə əsərinə bədii tərtibatı rəssam Ədhəm Sultanov vermişdi.

Tamaşa ilk dəfə opera teatrının 30 illik yubileyində, 1938-ci il fevral ayının 27-də göstərilmişdi. Üzeyir bəy Hacıbəyovun mətninin və musiqisinin ruhuna uyğun olan "Arşın mal alan" tamaşasında Bülbül (Əsgər), Əhməd Anatollu və Lütfəli Abdullayev (Vəli), Həqiqət Rzayeva (Telli), Əzizə Məmmədova (Cahan xala), Ələkbər Hüseynzadə (Soltan bəy), Hüseynağa Hacıbababəyov (Süleyman), Sona Mustafayeva (Gülçöhrə), Elmira Axundova (Asya) iştirak edirdilər.

Musiqili komediya janrı təşəkkül tapandan 1926-cı ilə qədər dramatik aktyorlardan Mirzağa Əliyevin Məşədi İbad, Soltan bəy, Kəblə Qubad ("Ər və arvad"), Cahangir Zeynalovun Rüstəm bəy, Rza bəy, Hacı Soltan ("Evliykən subay"), Sidqi Ruhullanın Soltan bəy, Möhsün Sənaninin Süleyman, Soltan bəy, Əsgər, Rza bəy, Qəmər Topuriyanın Gülçöhrə, Mərziyə Davudovanın Cahan xala ("Arşın mal alan"), Pərzad ("Evliykən subay"), Panfiliya Tanailidinin Telli, Əzizə Məmmədovanın Cahan xala və Sənəm, Sona Hacıyevanın Gülçöhrə və Gülnaz, Rza Darablının Soltan bəy, Vəli, Hambal rolları teatrın tarixində müəyyən yer tutur.

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRI (1938 - 1949)

Operetta trupppası OBT-nin nəzdində olanda, 1938-ci il aprelin 5-dən 15-dək SSRİ-nin paytaxtı Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadası keçirilib. Ongünlükdə Üzeyir bəy Hacıbəyovun "Koroğlu", Müslüm Maqomayevin "Nərgiz", Reynqold Qlierin "Şahsənəm" operaları ilə bərabər, Üzeyir bəyin "Arşın mal alan" operettası da göstərilib. Tamaşa Moskvada böyük uğur qazanıb. Bu elə vaxt idi ki, teatrın operettaya meyilli aktyorları tədricən musiqili komediya truppası kimi fəallaşmışdılar. Rus bölməsi isə Rus Musiqili komediya Teatrı kimi daha müstəqil yaradıcılıq yolu tutmuşdu.

Moskvada musiqili teatr rejissoru ixtisasına yiyələnmiş Soltan Dadaşov bəstəkar Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" operettasını yeni redaksiyada işlədi və onu tamaşaya qoydu. İlk tamaşa 1938-ci il 30 mayda "Rote Fane" (indiki Nizami adına park) mədəniyyət və istirahət parkinda göstərildi. Afişalarda və proqramın yuxarı hissəsində "Azərbaycan Dövlət Musiqili Komediya Teatrı" sözləri yazılmışdı. Əslində Azərbaycan hökumətinin 14 may 1941-ci il tarixli, 1937 saylı qərarı ilə Stalin prospektində yerləşən (indiki Neftçilər prospekti) "Oborona" kinoteatrının (keçmiş "Fenomen") binası MKT-yə verilib. Bu teatrın az müddət məskunlaşdığı Yəhudi Dövlət Teatrının binasına Azərbaycan Dövlət Kukla Teatrı köçüb.

1941-ci il iyun ayının 22-də Faşist Almaniyası SSRİ-yə hücum etdi. Hökumətin qərarı ilə teatrın fəaliyyət - iş prinsipi yenidən quruldu. Kollektivə "Aqitteatr" (Azərbaycan Dövlət Agitasiya Teatrı) funksiyası verildi. Teatr cari repertuarını saxlamaqla, bədii kompozisiyalar üzərində işləməyə başladı. 1942-ci ilin aprelində isə "Aqitteatrın" nəzdində kiçik səyyar truppa ("Səyyar teatr" da adlanırdı) yaradıldı. Həmin truppanın başlıca funksiyaları rayonlara getmək, hərbi qospitallarda döyüş üçün hazırlıq keçən əsgərlər arasında təbliğati tamaşa oynamaq idi. Azərbaycan Dövlət Aqitasiya Teatrı (afişalarda bu sözlərdən yuxarıda Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yazılırdı) əksər vaxtlarda hərbi qospitallarda, əsgərliyə çağırış məntəqələrində çıxışlar edirdi.

Kollektiv bir il səyyar təbliğat teatr truppası kimi fəaliyyət göstərib. Dəstə yığcam alındığına görə bəzi aktyorlar başqa teatrlara getməli olublar. Nəhayət, hökumət 29 avqust 1942-ci ildə təbliğat teatrının yenidən Azərbaycan Dövlət Musiqili komediya Teatrı adlandırılması barədə əmr verdi. Şəmsi Bədəlbəyli aprel ayının 27-də teatra direktor və bədii rəhbər təyin edildi. Fevral ayının 19-da Üzeyir bəyin "Arşın mal alan" operettası yeni quruluşda repertuara daxil edildi. Avqustun 28-də Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay", sentyabrın 15-də isə Üzeyir bəyin "Məşədi İbad" operettaları Şəmsi Bədəlbəylinin əsaslı bərpasından sonra tamaşaçılara göstərildi. İl ərzində Üzeyir bəyin "Ər və arvad" operettası təzə quruluşda oynanılıb. Səttar Axundovun "Çətin dərə" (12 may), Karlo Haldoninin "İki ağanın bir nökəri" (12 dekabr) komediyaları musiqili komediya janrında

işlənib tamaşaya hazırlandı. Əsilində hər iki tamaşa musiqisi çox olan komediya idi və operetta janrının estetik prinsiplərinə cavab vermirdi.

ADMkT-yə 1943-cü ilin avqust ayında nasir-dramaturq, publisist, "Molla Nəsrəddin" jurnalının banisi Cəlil Məmmədquluzadənin adı verildi. Teatrın afişa və proqramlarında, qəzet elanlarında Mirzə Cəlilin adından sonra mötərizədə "Molla Nəsrəddin" sözləri də yazılırdı.

1943 - 1945-ci illərdə teatrda Mirzə Fətəli Axundzadənin eyniadlı məsxərəsi əsasında "Dərviş Məstəli şah" (musiqi tərtibçisi Şəmsəddin Fətullayev. Quruluşçu rejissor Şəmsi Bədəlbəyli), Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan" (quruluşçu rejissor Şəmsi Bədəlbəyli), Fikrət Əmirovun "Ürəkçalanlar" (libretto müəllifi Məmməd Səid Ordubadi, rejissor Şəmsi Bədəlbəyli, rəssam Nüsrət Fətullayev, dirijor Şəmsəddin Fətullayev, rəqslərin quruluşçusu Qəmər Almaszadə), "Toy kimindir?" (rejissor Həsən Əliyev, rəssam Gülməmməd Əliyev, dirijor Hacı Xanməmmədov), "Beş manatlıq gəlin" (rejissor Niyaz Şərifov, rəssam Əsgər Abbasov, dirijor Hacı Xanməmmədov), "Qızılgül" (rejissor Niyaz Şərifov, rəssam Əsgər Abbasov, rəqslərin quruluşçusu Əlibaba Abdullayev, dirijor Süleyman Ələsgərov), Vladimir Dolidzenin "Keto və kote" (tərcüməçi Tələt Əyyubov, rejissor N.Yediqarov, rəssam Nüsrət Fətullayev, rəqslərin quruluşçusu Əlibaba Abdullayev, dirijorlar Aleksandr Lixovitski və Süleyman Ələsgərov), "Məşədi İbad" (rejissor Şəmsi Bədəlbəyli, rəssam İsmayıl Axundov, rəqslərin quruluşçusu Əlibaba Abdullayev, dirijor Süleyman Ələsgərov), Süleyman Ələsgərovun "Məhəbbət gülü" (libretto müəllifi Hüseyn Muxtarov, rejissorlar Şəmsi Bədəlbəyli və Niyaz Şərifov, rəssam Nüsrət Fətullayev, dirijor Süleyman Ələsgərov) musiqili komediyaları tamaşaya hazırlanıb.

"Məşədi İbad" tamaşası daha uğurlu olub. Rejissor və dirijor Üzeyir bəyin partiturasından heç bir parçanı ixtisara salmamışdılar. Orkestrin heyəti də təkmilləşmişdi, əlavə musiqiçilər qəbul olunmuşdu. "Məşədi İbad" operettasının yeni quruluşunda əsas partiyaları Aliyə Terequlova və Azər Talıbova (Gülnaz), Kamal Kərimov (Sərvər) oxuyurdular. Xarakterik rollarda Əlihüseyn Qafarlı (Məşədi İbad), Nəsibə Zeynalova (Sənəm), Əhməd Anatollu (Həsən bəy), Yusif Yusifzadə (Həsənqulu bəy), Fateh Fətullayev (Rza bəy), Ağəli Məstanov və Əliimran Şirvanski (Rüstəm bəy), Lütfəli Abdullayev (Hambal), Abbasağa Hüseynov (Qoçu Əsgər) iştirak edirdilər. Tamaşanın ən canlı, şirəli və dinamik aktyor oyunu Əlihüseyn Qafarlıya, Nəsibə Zeynalovaya və Lütfəli Abdullayevə məxsus idi.

1946-1949-cu illərdə müasir mövzular istiqamətində axtarışlar aparan teatr müəyyən nailiyyətlər qazana bilib. Teatrın repertuarına 1946-cı ildə dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Fikrət Əmirovun "Gözün aydın" (17 iyul. Rejissor Niyaz Şərifov, rəssam Əsgər Abbasov, rəqslərin quruluşçusu Ələsgər Hənifəzadə, dirijor Süleyman Ələsgərov), 1947-ci ildə dramaturq Süleyman Rüstəmlə bəstəkar Səid Rüstəmovun "Durna" (28 aprel. Rejissor Şəmsi Bədəlbəyli, rəssam Əsgər Abbasov, dirijor Süleyman Ələsgərov, baletmeyster Ələsgər Hənifəzadə), 1948-ci ildə Sabit Rəhman və Süleyman Ələsgərovun "Ulduz" (30 dekabr. Rejissor Şəmsi Bədəlbəyli, rəssam Əsgər Abbasov, dirijor Xəlil Cəfərov) musiqili komediyaları daxil edilib.

"Gözün aydın" tamaşasında maraqlı aktyor ansamblı seçməyə müvəffəq olmuş Niyaz Şərifov əsas rolları Kamal Kərimova (Alay), Aliyə Terequlovaya və Nəcibə Behbudovaya (Sevgili), Əhməd Səfayiyə (Əlimərdan), Nuriyyə Rəcəbovaya (Leyla), İbrahim Hüseynova (Fantanov), Abbasağa Hüseynova (Səlyanski), Nəsibə Zeynalovaya və Cahan Talışinskayaya Nargilə), Lütfəli Abdullayevə (Qəhrəman) tapşırmışdı. "Gözün aydın"ın 1957-ci il quruluşunda Mama obrazı Gövhər, Fantanov surəti Tellon, Sevgili isə Gülər adlandırıldı.

Aliyə Terequlovanın ilhamla oynadığı açıqürəkii, şən və mehriban Durna obrazı aktrisanın yaradıcılığına yeni əlvanlıq gətirdi. Vokalçı-aktyor Kamal Kərimovun partiyalarını şövq və aydın səslə oxuduğu Aşıq Murad, Ağəli Məstanovun təbii cizgilərlə rəsm etdiyi Kərim kişi, Cahan Talışinskayanın avazla oxuması ilə yumorlu oyunun ahəngdar vəhdətində yaratdığı Lalə "Durna" tamaşasının dinamik, canlı və rəğbətlə qarşılanan obrazları idi. Əlihüseyn Qafarlı və Lütfəli

Abdullayev Dursun rollarında rejissorun səhnə təfsirinin üslub xüsusiyyətlərinə uyğun gələn ifa tərzini tamaşa boyu qorumağa çalışırdılar.

"Ulduz" tamaşasında Bəxtiyar və Ulduz partiyalarını Kamal Kərimov (Bəxtiyar), Firəngiz Şərifova və Aliyə Terequlova (Ulduz) musiqi və mətnin poetik vəhdətində ifa edirdilər. Tamaşanın bütün komizmının şəhdi-şirəsi, təravəti və canı isə Züleyxa və Məhəmməd duetində cəmləşmişdi. Nəsibə Zeynalova ilə Lütfəli Abdullayevin ifasında bu duet tamaşanın ən həyati, koloritli obrazlarını tamaşaçılara sevdirirdi.

1948-ci il sentyabrın 25-də teatrın Azərbaycan bölməsi İmre Kalmanın dünya şöhrətli "Bayadera" operettasına öz repertuarında yer verdi. Operettanın mətnini dramaturq Sabit Rəhman orijinala uyğun tərzdə tərcümə etmişdi. Tamaşanın quruluşunu Şəmsi Bədəlbəyli, bədii tərtibatını rəssamlar Əsgər Abbasov və Mirra Panaliadi vermişdilər. Dirijor Süleyman Ələsgərov idi. "Bayadera" tamaşası görkəmli səhnə ustaları, xalq artisti Abbasmirzə Şərifzadənin və SSRİ xalq artisti Mərziyə xanım Davudovanın övladları, konservatoriyanın vokal sinifini yenicə bitirmiş gənc aktrisa Firəngiz Şərifovanın parlaq istedadının yeni tərəfini üzə çıxartdı. O, baş rol olan Odettanın partiyasını ifa edirdi. Tamaşada Nəcibə Behbudova (Marietta) və Əlihüseyn Qafarlı (Filipo) da maraqlı obrazlar təqdim edirdilər.

Teatrın truppasının yaradıcı heyəti 1948-ci ildə aşağıdakı sənətkarlardan ibarət idi: direktor və bədii rəhbər Şəmsi Bədəlbəyli, musiqi hissə müdiri Süleyman Ələsgərov, dirijorlar Süleyman Ələsgərov və Hacı Xanməmmədov, baletmeyster Əlibaba Abdullayev (o, müqavilə ilə çox az işlədi), rəssam Əsgər Abbasov, quruluşçu rejissor Niyaz Şərifov, rejissor Əsəd Cəfərov, balet quruluşçusu Ələsgər Hənifəzadə.

A k t y o r l a r: Əlihüseyn Qafarlı, İbrahim Hüseynov (Şünasi), Ələkbər Hüseynzadə, Lütfəli Abdullayev, Kamal Kərimov, Əhməd Anatollu (Səfərov), Ağəli Məstanov, Abbasağa (Abbas) Hüseynov, Əliimran (Əli) Şirvanski (Dəmirov), Əliklənsur Quliyev, Semyon (Simon) Aqaronov, Əhməd Səfayi (Əhmədov), Sənan Ağabəyov, Əlihüseyn Hüseynov, Əli Quliyev, İslam Şərifov, Əlibala Şərifov, Kərim Kərimov, Ənvər Mahmudov, Kazım Zeynalov, Tofiq Qasımov, Yusif Quliyev Gülağa Məmmədov.

A k t r i s a l a r: Aliyə (Alya da yazılıb) Terequlova Xalidə Hüseynova, Fəxrəndə Ağayeva (Ağazadə), Nəsibə Zeynalova, Firəngiz Şərifova, Nuriyyə Rəcəbova, Azər (Azəri) Talıbova, Cahan Talışinskaya, Elmira Axundova, Nina Mironova, Fizzə Seyidbəyova, Nəcibə Məlikova.

Teatrın rus bölməsi kollektivin fəaliyyət göstərdiyi on bir il ərzində müxtəlif tamaşalarla öz repertuarını zənginləşdirib. Kollektiv 1939-cu ildə Boris Aleksandrovun "Malinovkada toy", Üzeyir bəyin "Arşın mal alan", Ferents Leqarın "Şən dul qadın", 1940-cı ildə İmre Kalmanın "Monmartr bənövşəsi", "Bayadera", "Silva", "Holland qız", "Sirk Kraliçası" ("Sirk şahzadəsi" adı ilə), Matvey Blanterin "Amur sahilində", Aleksey Ryabovun "Kolombina" və "Soroçin yarmarkası", Anton Rubinşteynin "Qarşılıqlı məhəbbət", 1941-ci il-də Valentin Valentinovun "Od möbidəsi", İmre Kalmanın "Vətənə məhəbbət" (23 oktyabr), 1945-ci ildə "Borcianın bazubəndi", 1946-cı ildə "Əngin dəniz", "Bir saatlıq sehrbaz", 1947-ci ildə Ferents Leqarın "Qraf Lüksemburq" və avqustda Oskar Feltsmanın "Özgə qızı", 1948-ci ildə İsaak Dunayevskinin "Azad ruzigar", "Dənizdəkilərin eşqinə", "Əyalət valisi", "Günəşli çiçək", Karl Tsellerin "Quşsatan", Ferents Leqarın "Qaraçı məhəbbəti" ("Qaraçının eşqi" kimi də yazılıb), 1949-cu ildə Sidni Consun "Keyşa" operettalarına quruluşlar verib. Teatr 1949-cu və 1956-1960-cı illərə qədər yay aylarından öz tamaşalarını Ordubadi adına, Cabbarlı adına Yay teatrlarında və Yay bağında oynayıb. Bununla bərabər, Muskomediya yay mövsümlərində Dağüstü, Nizami, Dzerjinski (İndiki Şuşa) parklarında da tamaşalar göstərirdi.

1946-1948-ci illərdə teatrın rus bölməsi müstəqil Azərbaycan Dövlət Rus Operetta Teatrı kimi qış aylarında Azadlıq (indiki Səməd Vurğun) küçəsində yerləşən Zabitlər evində, yay mövsümündə isə müxtəlif yay teatrlarında tamaşalar oynayıb.

* * *

SSRİ hökumətinin qərarı ilə 1948-ci ilin sonlarından bütün dövlət teatrları özünü maliyyələşdirmə (təsərrüfat hesabı) iş üsuluna keçdi. Azərbaycanda bir-birinin ardınca Şəmkir, Şamaxı, Şəki, Qazax, Ağdam, Qapyagin (Füzuli), Ağdaş, Salyan, Sabirabad, Lənkəran, Qazax, Zaqatala, Ordubad, Göyçay, Şuşa dövlət teatrları fəaliyyətlərini dayandırmağa məcbur oldular. Azərbaycan SSR Nazirlər Sovetinin 25 may 1949-cu il tarixli, 613 saylı qərarı ilə Cəlil Məmmədquluzadə adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı da bağlandı. Rus Operetta Teatrı isə Ordubadi adına Yay teatrı ilə birləşdi.

Aktyorlardan Lütfəli Abdullayev, Azər Talıbova, İbrahim Hüseynov, rəssam Əsgər (Ələsgər) Abbasov AMDT-yə, Firəngiz Şərifova, Nəcibə Behbudova GTT-yə, Məmmədsadıq Nuriyev Gəncə Dövlət Dram Teatrına, Əhməd Səfayi Göyçay teatrına (az sonra o teatr da bağlandı), Abbasağa Hüseynov, Kamal Kərimov, Əlihüseyn Qafarlı Opera və Balet Teatrına keçdilər. Əhməd Anatollu və Nina Mironova təqaüdə çıxdılar. Şəmsəddin Fətullayev konservatoriyaya təhsilini davam etdirməyə göndərildi. Baletmeyster Ələsgər Hənifəzadə, Ağəli Məstanov və Əliimran Şirvanski (Dəmirov) Xalq Yaradıcılığı Evinin, Azərbaycan Dövlət Filarmoniyasının, Aliyə Terequlova, Nuriyyə Rəcəbova, Nəsibə Zeynalova, İslam Şərifov və başqaları İncəsənət İşləri İdarəsinin sərəncamında qaldılar.

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRI (1956- 2004)

1954-cü ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrını yaratmağa hazırlıq prosesi və təşəbbüs kimi Dənizkənarı bulvarın nəzdində "Musiqili komediya teatrı ansambl Mahmudov, Kazım Zeynalov, Tofiq Qasımov, Yusif Quliyev, Gülağa Məmmədov.

Aktrisalar: Aliyə (Alya da yazılıb) Terequlova, Xalidə Hüseynova, Fəxrəndə Ağayeva (Ağazadə), Nəsibə Zeynalova, Firəngiz Şərifova, Nuriyyə Rəcəbova, Azər (Azəri) Talıbova, Cahan Talışinsnaya, Elmira Axundova, Nina Mironova, Fizzə Seyidbəyova, Nəcibə Məlikova.

Teatrın rus bölməsi kollektivin fəaliyyət göstərdiyi on bir il ərzində müxtəlif tamaşalarla öz repertuarını zənginləşdirib. Kollektiv 1939-cu ildə Boris Aleksandrovun "Malinovkada toy", Üzeyir bəyin "Arşın mal alan", Ferents Leqarın "Şən dul qadın", 1940-cı ildə İmre Kalmanın "Monmartr bənövşəsi", "Bayadera", "Silva", "Holland qız", "Sirk Kraliçası" ("Sirk şahzadəsi" adı ilə), Matvey Blanterin "Amur sahilində", Aleksey Ryabovun "Kolombina" və "Soroçin yarmarkası", Anton Rubinşteynin "Qarşılıqlı məhəbbət", 1941-ci il-də Valentin Valentinovun "Od möbidəsi", İmre Kalmanın "Vətənə məhəbbət" (23 oktyabr), 1945-ci ildə "Borcianın bazu-bəndi", 1946-cı ildə "Əngin dəniz", "Bir saatlıq sehrbaz", 1947-ci ildə Ferents Leqarın "Qraf Lüksemburq" və avqustda Oskar Feltsmanın "Özgə qızı", 1948-ci ildə İsaak Dunayevskinin "Azad ruzigar", "Dənizdəkilərin eşqinə", "Əyalət valisi", "Günəşli çiçək", Karl Tsellerin "Quşsatan", Ferents Leqarın "Qaraçı məhəbbəti" ("Qaraçının eşqi" kimi də yazılıb), 1949-cu ildə Sidni Consun "Keyşa" operettalarına quruluşlar verib. Teatr 1949-cu və 1956 - 1960-cı illərə qədər yay aylarından öz tamaşalarını Ordubadi adına, Cabbarlı adına Yay teatrlarında və Yay bağında oynayıb. Bununla bərabər, Muskomediya yay mövsümlərində Dağüstü, Nizami, Dzerjinski (İndiki Şuşa) parkiarında da tamaşalar göstərirdi.

1946 - 1948-ci illərdə teatrın rus bölməsi müstəqil Azərbaycan Dövlət Rus Operetta Teatrı kimi qış aylarında Azadlıq (indiki Səməd Vurğun) küçəsində yerləşən Zabitlər evində, yay mövsümündə isə müxtəlif yay teatrlarında tamaşalar oynayıb.

* * *

SSRİ hökumətinin qərarı ilə 1948-ci ilin sonlarından bütün dövlət teatrları özünü maliyyələşdirmə (təsərrüfat hesablı) iş üsuluna keçdi. Azərbaycanda bir-birinin ardınca Şəmkir, Şamaxı, Şəki, Qazax, Ağdam, Qapyagin (Füzuli), Ağdaş, Salyan, Sabirabad, Lənkəran, Qazax, Zaqatala, Ordubad, Göyçay, Şuşa dövlət teatrları fəaliyyətlərini dayandırmağa məcbur oldular. Azərbaycan SSR Nazirlər Sovetinin 25 may 1949-cu il tarixli, 613 saylı qərarı ilə Cəlil Məmmədquluzadə adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı da bağlandı. Rus Operetta Teatrı isə Ordubadi adına Yay teatrı ilə birləşdi.

Aktyorlardan Lütfəli Abdullayev, Azər Talıbova, İbrahim Hüseynov, rəssam Əsgər (Ələsgər) Abbasov AMDT-yə, Firəngiz Şərifova, Nəcibə Behbudova GTT-yə, Məmmədsadıq Nuriyev Gəncə Dövlət Dram Teatrına, Əhməd Səfayi Göyçay teatrına (az sonra o teatr da bağlandı), Abbasağa Hüseynov, Kamal Kərimov, Əlihüseyn Qafarlı Opera və Balet Teatrına keçdilər. Əhməd Anatollu və Nina Mironova təqaüdə çıxdılar. Şəmsəddin Fətullayev konservatoriyaya təhsilini davam etdirməyə göndərildi. Baletmeyster Ələsgər Hənifəzadə, Ağəli Məstanov və Əliimran Şirvanski (Dəmirov) Xalq Yaradıcılığı Evinin, Azərbaycan Dövlət Filarmoniyasının, Aliyə Terequlova, Nuriyyə Rəcəbova, Nəsibə Zeynalova, İslam Şərifov və başqaları İncəsənət İşləri İdarəsinin sərəncamında qaldılar.

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRI (1956 - 2004)

1954-cü ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrını yaratmağa hazırlıq prosesi və təşəbbüs kimi Dənizkənarı bulvarın nəzdində "Musiqili komediya teatrı ansambl truppası" yaradıldı. Opera teatrında işləyən Soltan Dadaşov ansambla baş rejissor, AMDT-nin rejissoru Ələsgər Şərifov isə bir müddət kollektivə bədii rəhbər təyin edildilər. Soltan Dadaşovun təklifi və təşəbbüsü ilə truppa Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (8 fevral. Rəssam Əsgər Abbasov, dirijorlar Xəlil Cəfərov və Çingiz Hacıbəyov, baletmeyster Əminə Dilbazi), iyun ayında "Arşın mal alan" (rəssam Ənvər Almaszadə, dirijor Əfrasiyab Bədəlbəyli) və Ağası Məşədibəyovun "Toy kimindir?" (mətn Məhərrəm Əlizadənindir. Rəssam Əsgər Abbasov) operettalarını tamaşaya hazırladı. "Məşədi İbad"la "Arşın mal alan"ın quruluşunu Soltan Dadaşov, "Toy kimindir?"in səhnə təfsirini isə Səfər Turabov vermişdilər. Tamaşaların afişa və proqramlarında yuxarıdan "Musiqili komediya Teatrı" ("Dövlət" kəlməsi yox idi) və "Baş rejissor Soltan Dadaşov" sözləri yazılırdı. Bu, Musiqili Komediya Teatrının bərpası və dövlət statusu alması üçün həqiqətən də məqsədyönlü addım-təşəbbüs oldu.

Tamaşaların üçündə də iştirak edən aktyorların bir qismi Opera və Balet Teatrının işçiləri idilər. Bəşir Səfəroğlu, Məmmədsadıq Nuriyev, İmamverdi Bağırov, bir sözlə, əvvəllər ADMkT-də işləmiş səhnə ustaları Filarmoniyanın muskomediya ansamblından tamaşada oynamağa dəvət almışdılar.

Musiqili komediya ansamblı əsasında MKT-nin Azərbaycan və rus bölmələrini bərpa etmək üçün Mədəniyyət Nazirliyi 1956-cı ilin əvvəlində səmərəli işlər apardı. Aprel ayının 21-də Şəmsi Bədəlbəyli yeni yaranan kollektivə direktor və bədii rəhbər təyin olundu. Çingiz Hacıbəyov teatra dirijor, Əsgər Abbasov rəssam, Kamal Abbasov isə xormeyster götürüldülər. Rus bölMəsmə rejissor M. Markben, baletmeyster Leonid Leonidov təyin edildilər. Teatrın iki bölməsinin truppasına, balet və orkestr heyətinə yüzdən çox işçi götürülmüşdü.

Azərbaycan truppasında Əlihüseyn Qafarlı, Münəvvər kələntərli, Nəsibə Zeynalova, Lütfəli Abdullayev, İbrahim Hüseynov (Şünasi), Bəşir Səfəroğlu, Nəcibə Behbudova, İmamverdi Bağırov,

Ədilə Nəsirova, Əliimran Şirvanski, Kamal Kərimov, Kübra Babayeva, Nina Mironova, Məmmədsadıq Nuriyev kimi təcrübəli aktyorlar vardı. Həmin sənətkarlarla yanaşı, Azərbaycan Dövlət konservatoriyasını, xoreoqrafiya və Asəf Zeynallı adına musiqi məktəblərini yenicə bitirmiş Əzizağa (Ağababa) Qasımov, Məleykə Şahmərdanova, Şəfiqə Qasımova, rus bölməsində Tatyana Sazikina, Yelena Marinina kimi gənc teatra dəvət almışdılar. Hətta Roza Əliyeva hələ tələbə idi, ancaq ona Gülçöhrə kimi baş rol tapşırılmışdı.

Truppa müəyyən səviyyədə komplektləşəndən sonra "Arşın mal alan"ın məşqlərinə başlandı. Tamaşanın rejissorluğunu teatrın bədii rəhbəri Şəmsi Bədəlbəyli edirdi. Səhnə tərtibatı mərhum rəssam Rüstəm Mustafayevin eskizləri əsasında hazırlandı. Rəqslərin quruluşunu Əlibaba Abdullayev verdi, dirijorluğu isə Çingiz Hacıbəyov etdi. Premyera avqustun 19-da Yay teatrında bayram təntənəsi ilə göstərildi. Əsas partiyaları Kamal Kərimov və Lütfiyar İmanov (Əsgər), Roza Əli yeva (Gülçöhrə), Əzizağa Qasımov (Süleyman), Şəfiqə Qasımova (Asya) oxuyurdular. Komizınlə yoğrulmuş Soltan bəyi Əli hüseyn Qafarlı, məzəli Vəlini Lütfəli Abdullayev, koloritli xanım-xatın Cahan xalanı Münəvvər Kələntərli, sadədil və bıı qədər məsxərəli Tellini Məleykə Şahmərdanova ifa edirdilər.

Şəmsi Bədəlbəyli teatrın açılışı üçün dramaturq Süleyman Rüstəmlə bəstəkar Səid Rüstəmovun "Durna" operettasını da hazırlamışdı (rəssam Əsgər Abbasov, dirijor Çingiz Ha cıbəyov). Bu tamaşa da Cabbarlı adına Yay teatrında (bağın da) avqustun 28-də göstərilib.

Teatr təzə açıldığına görə yeni əsərlər sarıdan müəyyən korluq çəkirdi. Sifariş verilmiş dramaturq və bəstəkarlar gənc kollektivə təzə operetta təqdim etməmişdilər. Ona görə də teatr vaxtilə oynadığı əsərlərə müraciət etmək məcburiyyətində qalırdı. "Durna"dan sonra MKT-də "Toy kimindir?" (dramaturq Məhərrəm Əlizadə, bəstəkar Ağası Məşədibəyov) musiqili komediyası Səftər Turabovun rejissorluğunda yenidən tamaşaya qoyuldu. Teatr 1956-cı ilin qış mövsümünü noyabrın 3-də "Məşədi İbad" operettasının yeni quruluşu ilə açdı. Bu dəfə rejissor Şəmsi Bədəlbəyli tamaşa üzərində rəssam Əsgər Abbasovla və dirijor Çingiz Hacıbəyovla birlikdə işləmişdi.

Əlihüseyn Qafarlı əvvəllər neçə-neçə ifaçısı olmuş Məşədi İbadı tamam yeni yozumda oynayırdı. Məşədi İbadın musiqi kupletlərini Əlihüseyn Qafarlı partituradakından yarım ton aşağıda oxusa da, onun səsinin məlahəti, söz-musiqi-sifət ifadələri (həmçinin zahiri hərəkət), rəqslərindəki ritmik ahəngdarlıq obraza təravət verir, onu məzəli və yapışıqlı edirdi.

Teatr 1957-ci ildə isə əvvəllər oynadığı dramaturq Məhərrəm Əlizadə ilə bəstəkar Fikrət Əmirovun "Gözün aydın" (9 may. Quruluşçu rejissor Şəmsi Bədəlbəyli, rejissor Səftər Turabov, rəssam Əsgər Abbasov, dirijor Çingiz Hacıbəyov) və dramaturq Sabit Rəhmanla bəstəkar Süleyman Ələsgərovun "Ulduz" (28 dekabr. Quruluşçu rejissorlar Şəmsi Bədəlbəyli və Səftər Turabov, rəssam Əsgər Abbasov) operettalarını yeni səhnə təfsirində tamaşaçılara göstərib.

1958-ci ildə teatrın repertuarında cəmi altı tamaşa vardı ki, bu da yeknəsəqliyə səbəb olurdu. Milli Dram Teatrının quruluşçu rejissoru Əliheydər Ələkbərov 5 noyabr 1960-cı il-də MKT-yə baş rejissor təyin edildi. Bu təyinat sonralar teatrın yaradıcılığında müəyyən faydalı dönüş yaratdı. Yeni operetta axtarışlarını davam etdirən teatr on il (1958 - 1967) ərzində həm təcrübəli, həm də bu janrda ilk addımlarını atan bəstəkarların təzə əsərlərini repertuarına daxil edə bilib. Bu dövr kollektivin yaradıcılıq nailiyyətləri, ayrı-ayrı aktyorların və solistlərin əlvan ifaları baxımından da dəyərlidir. Teatrın daha diqqətçəkən işləri aşağıdakılar olub.

**1958, 11 iyul**. "Hacı Qara" ("Xəsis"), Mirzə Fətəli Axundzadənin eyniadlı komediyası əsasında libretto müəllifi Şəmsi Bədəlbəyli, bəstəkarlar Vasif Adıgözəlov və Ramiz Mustafayev. Quruluşçu rejissor Şəmsi Bədəlbəyli, rejissor Səftər Turabov, rəssam Həsən Mustafayev, dirijor Çingiz Hacıbəyov. Mahnı mətnlərini şair Əliağa Kürçaylı yazmışdı.

**1960, 28 aprel**. "Qızıl axtaranlar", dramaturq Həsən Seyidbəyli və bəstəkar Tofiq Quliyev. Mahnı mətnlərinin müəllifi Zeynal Cabbarzadə. Quruluşçu rejissor Tofiq Kazımov, rejissor Niyaz Şərifov, rəssam Sergey Yefimenko, dirijor Çingiz Hacıbəyov.

**1961, 24 yanvar**. "Rəisin arvadı", dramaturq Məhərrəm Əlizadə və bəstəkar Səid Rüstəmov. Rejissor Şəmsi Bədəlbəyli, rəssam Əsgər Abbasov və dirijor Çingiz Hacıbəyov.

**1961, 17 oktyabr**. "Bir dəqiqə", dramaturq Məhərrəm Əlizadə və bəstəkar Hacı Xanməmmədov. Rejissorlar Əliheydər Ələkbərov və Niyaz Şərifov, rəssam Altay Səidov.

**1962, 20 yanvar**. "Hacı Kərimin Aya səyahəti", dramaturqlar Qulamrza Cəmşidi və Əbülfəz Hüseyni, bəstəkar Azər Rzayev. Rejissor Rauf Kazımovski, rəssamlar Əsgər Abbasov və Əli Minayi Təbrizi, dirijor Nurəddin Fətullayev.

**1963, 5 yanvar**. "Özümüz bilərik", dramaturq Şıxəli Qurbanov və bəstəkar Süleyman Ələsgərov. Rejissor Əliheydər Ələkbərov, rəssam Əsgər Abbasov, dirijorlar Kamal Abbasov və Kamal Məmmədov.

**1963, 21 aprel**. "Səndən mənə yar olmaz", dramaturq Məhərrəm Əlizadə və bəstəkar Əşrəf Abbasov. Rejissor Niyaz Şərifov, rəssam Əsgər Abbasov, dirijor Kamal Abdullayev. Şeirlərin müəllifi Zeynal Cabbarzadə.

**1964, 4 yanvar**. "Altı qızın biri Pəri", dramaturq Məhərrəm Əlizadə və bəstəkarlar Nəriman Məmmədovla Tofiq Bakıxanov. Rejissor Əliheydər Ələkbərov, rəssam Altay Səidov, dirijorlar Süleyman Ələsgərov və Kamal Abbasov.

**1964, 15 mart**. "O1madı elə, oldu belə", dramaturq Şıxəli Qurbanov və bəstəkar Süleyman Ələsgərov. Rejissor Əliheydər Ələkbərov, rəssam Əsgər Abbasov, dirijorlar Kamal Məmmədov və Elmar Abusəlimov.

**1965, 6 yanvar**. "Ev bizim, sirr bizim", dramaturq Novruz Gəncəli və bəstəkar Şəfiqə Axundova. Rejissor Niyaz Şərifov, rəssam Əsgər Abbasov, dirijorlar Kamal Abbasov və Kamal Məmmədov.

**1965, 29 dekabr**. "Qaynana", libretto müəllifi Məcid Şamxalov və bəstəkar Zakir Bağırov. Rejissor Niyaz Şərifov, rəssam Böyükağa Mirzəzadə, dirijorlar Kamal Abbasov və Kamal Məmmədov.

**1966, 20 may**. "Milyonçunun dilənçi oğlu", dramaturq Şıxəli Qurbanov və bəstəkar Süleyman Ələsgərov. Rejissor Əliheydər Ələkbərov, rəssam Böyükağa Mirzəzadə, dirijor müəllif.

"Milyonçunun dilənçi oğlu" tamaşasının yaradıcı heyətindən dramaturq Şıxəli Qurbanov, bəstəkar Süleyman Ələsgərov, rejissor Əliheydər Ələkbərov və rəssam Böyükağa Mirzəzadə 1967-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət mükafatına layiq görüldülər.

**1967, 29 dekabr**. "Ləpələr", dramaturq Əliağa Kürçaylı və bəstəkar Arif Məlikov. Rejissor Şəmsi Bədəlbəyli, rəssam Asəf Cəfərov. Əsas rollarda Zemfira Quliyeva və Lütfiyyə Səfərova (Ceyran), Mobil Əhmədov və Qasım Zeynalov (Sahib) (Bəşir Səfəroğlu və Hacıbaba Bağırov (Əsgər Nəcəfoviç), Səyavuş Aslan (Ağabala).

1967-ci il mayın 25-də Əliheydər Ələkbərov Musiqili ko mediya Teatrında baş rejissor Kürsüsünü tərk etdi. Bir neçə il sonra Şəmsi Bədəlbəyli də kollektivdən uzaqlaşdı. Deməк olar 1970-ci ildən başlayaraq teatrın repertuarında zəiflik duyul mağa başlayıb, truppada qüdrətli sənətkarların sayı azalıb.

Bununla belə, 1968 - 2004-cü illər ərzində MKT-nin repertuarında səriştəli bəstəkarların təzə musiqili komediyalar və bu janrda ilk addımlarını atan bəstəkarların əsərləri özün yer tapıb. Oynanılan tamaşaların xeyli qisıni həm mətncə həm də musiqi işlənMəsmə görə və rejissor quruluşu, aktyo ifaları baxımından qüsurlu olub. Lakin bədii cəhətdən maraı doğuran, müəyyən sənətkarlıq xüsusiyyətləri ilə diqqəti Çəkən tamaşalar da olub. Bu qəbildən "Haradasan, ay subaylıq? (Salam Qədirzadə və Süleyman Ələsgərov. 1968), "Nənəmin şahlıq quşu" (Əliağa Kürçaylı və Vasif Adıgözəlov. 1971) "Həmişəxanım" (Salam Qədirzadə və Süleyman Ələsgərov 1971), "Hicran" (Sabit Rəhman və Emin Sabitoğlu. 1973) "Şəngülüm, Şüngülüm, Məngülüm" (uşaq tamaşası. Nağı əsasında Ramiz Heydərin librettosu. Bəstəkar Oqtay Zülfüqa rov. 1974), "Təzə gəlin" (Seyfəddin Dağlı və Cahangir Cahan girov. 1975), "Boşanaq, evlənərik" (Əliağa Kürçaylı və Vasi Adıgözəlov. 1976), "Qız görüşə tələsir" (Adil Babayev və bəstəkarlar Tofiq Bakıxanovla

Nəriman Məmmədov. 1978), "Qızıl toy" (Ramiz Heydər və Oqtay Kazımov. 1980), "Danabaş kəndinin əhvalatları" (Cəlil Məmmədquluzadənin eyniadlı əsəri əsasında Cənnət Səlimovanın librettosu. Bəstəkar Oqtay Kazımov. 1982), "Tü1kü Həccə gedir" (İsgəndər Coşqun və Rəşid Şəfəq. Uşaq tamaşası. 1982), "Nəğməli könül" (Xalidə Hasilova və Emin Sabitoğlu. 1983), "92 dəqiqə gülüş" (Rüfət Əhmədzadə və Emin Sabitoğlu. 1987), "Bəbirlinin kələkləri" (Rauf Hacıyev. 1989), "Subaylarınızdan görəsiniz" (İsi Məlikzadə və Süleyman Ələsgərov. 1992), "Lotereya" (Vaqif Səmədoğlu və Aydın Əzimov. 1992), "Bankir adaxlı" (Tamara Vəliyeva və Emin Sabitoğlu. 2000) musiqili komediyalarını qeyd etmək olar.

Gürcü dramaturqu Levon Cubabiriyanın və bəstəkar Şota Miloravanın "Tiflis nəğməsi" (11 may 1961. Mətnin tərcüməçisi şair-dramaturq Adil Babayev. Rejissorlar Şota Mesxi və Rauf Kazımovski, rəssam Əsgər Abbasov, dirijor Şəmsəddin Fətullayev), Vladimir Dolidzenin "Keto və kote" operettasına (20 yanvar 1973. Tərcüməçi Tələt Əyyubov. Quruluşçu rejissor Şəmsi Bədəlbəyli, rejissor Vaqif Ağayev, rəssam Nikolay Kazbeki) operettaları teatrın uğurlu tamaşalarından sayılır.

Azərbaycanda müəyyən uğurlar qazanan MkT-nm 1965-ci ildə Moskva şəhərinə dəvət alması o dövr üçün böyük hadisə və ciddi sənət imtahanı qarşısında əsil sınaq idi. Kollektiv bu məsul səfərə ilin əvvəlindən hazırlaşdı və aprelin 7-dən 12-nə qədər Moskvanın Kreml teatrında üç dəfə "Məşədi İbad" (7, 9 və 12 aprel), iki dəfə "Ulduz" (8 və 11 aprel), iki dəfə "Bir dəqiqə" (10 və 11 aprel, gündüz) operettalarını oynayıb. "Arşın mal alan", "Əlli yaşında cavan", "Evliykən subay", "Beş manatlıq gəlin", "Qızılgül", "Ulduz", "Durna", "Gözün aydın", "Özümüz bilərik", "Toy kimindir?", "Hicran" musiqili komediyalarını teatr vaxtaşırı müxtəlif quruluşlarda oynayıb. Bunların arasında o vaxtı teatrın baş rejissoru işləyən Vaqif İbrahimoğlunun 20 oktyabr 1985-ci ildə quruluş verdiyi "Məşədi İbad" (rəssam Nazim Bəykişiyev, dirijor Cavanşir Cəfərov. Məşədi İbad - Hacıbaba Bağırov) forma yeniliyinə və əsərin müasir finir yozumuna görə uğur qazanıb.

AMDT Tağıyev teatrı adlanan binada 1960-cı ilin avqus-tuna qədər fəaliyyət göstərib. Binası təmirdə olan Opera və Balet Teatrı 1961-ci ildə orada öz tamaşalarını oynayıb. 1962-1963-cü il teatr mövsümündə bina Musiqili Komediya Teatrına verilib. 1989 - 1998-ci illərdə bu bina sökülərək yerində təzəsi tikilib. Həmin illərdə teatr öz tamaşalarını Xətai və 26-lar mədəniyyət saraylarında oynayıb.

"Arşın mal alan", "Ulduz", Rauf Hacıyevin "Qonşular", "Kuba, mənim məhəbbətim", "Ana, mən evlənirəm" ("Anacan, evlənirəm"), "Qafqazlı Qardaşqızı", "Yol ayrıcı", Hacı Xanməmmədovun "İki bəxtiyar" ("Bütün qızlar yaxşıdır"), Tofiq Quliyevin "Sabahm xeyir, Ella", Emin Sabitoğlunun "Günlərin birində Bağdadda", İmre Kalmanın "Sirk şahzadəsi" ("Sirk Kraliçası"), "Maritsa", "Silva", "Bayadera", İo-han Ştrausun "Zadəgan qaraçı", "Yarasa", Tixon Xrennikovun "Yüz şeytan, bir qız", Konstantin Listovun "Sevastopol valsı", Ferents Leqarın "Mavi mazurka", "Şən dul qadın", D.Lerner və A.Lounun "Mənim gözəl ledim", Boris Aleksandrovun "Malinovkada toy", İsaak Dunayevskinin "Ağ yasəmən", Yuri Milyutinin "Trembita", Nikolay Boqoslavskinin "Toy səyahəti", Oskar Sandlerin "Santa ROk", Domeniko Modunonun "Qara əjdaha", Vano Muradelinin "Mavi gözlü qız", Stotqard və Frimlin "Roz Mari", Jan Puaronun "Həftənin axırında şən şam yeməyi", Li Mitçenin "Lamançlı adam", Leonid Vaynşteynin "Səhranın bəyaz günəşi", uşaqlar üçün Yevgeni Şvartsın "Qırmızıpapaq", Roman Sefin "İki küpəgirən qarı". Oqtay Zülfüqarovun "Dəcəl çəpişlər" operettaları son 48 ildə MKT-nin rus bölməsinin repertuarında xüsusi yer tutub.

1956 - 2004-cü illər ərzində Şəmsi Bədəlbəyli teatrda bədii rəhbər (1956-1974. Qısa fasilə ilə), Əliheydər Ələkbərov (1960-1967), Ağakişi Kazımov (1974 - 1975), Vaqif Abbasov (1979 - 1981), Vaqif İbrahimoğlu (1982-1989), Cahangir Novruzov (1989-1990) baş rejissor, Səyavuş Aslan (1994 -1996) bədii rəhbər işləyiblər. 1 oktyabr 1996-cı ildən teatrın bədii rəhbəri Hacıbaba Bağırovdur.

## MUSİQİLİ KOMEDİYA TEATRINDA AKTYOR YARADICILIĞI

### Birinci dərs

Azərbaycanın ilk milli operettası "Ər və arvad" (Üzeyir bəy Hacıbəyov) tamaşaya qoyulduğu gündən, yəni 24 may 1910-cu ildən bu janrlı əsərlərdə dramatik aktyorlar çıxış ediblər. Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Ələkbər Hüseynzadə kimi dramatik aktyorlar musiqili komediyalarda da böyük uğurlar qazanıblar. Operetta aktyorluğunun bünövrəsi həmin illərdə qoyulsa da, bu sənətin ifaçılıq məktəbi məhz Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yaranandan sonra formalaşıb. Formalaşdıqca daha səriştəli sənətkarlar öz yaradıcılıqları ilə musiqili komediya janrının estetik tələblərinə zənginlik gətiriblər. Bir sıra təcrübəli dram aktyorları da özlərinin sonraki yaradıcılıq dövrlərini MKT ilə bağlayıblar

* * *

### İBRAHiM HÜSEYNOV (20.10.1906 - 18.9.1961)

Təxəllüsü "Şünasi" olan İbrahim Hüseynovun yaradıcılığının əsas dövrü Azərbaycan Dövlət Musiqili Komediya Teatrı ilə bağlıdır. Şirin və dadlı, yumorla yoğrulmuş səsi aktyorluq imkanlarını daha da təravətləndirirdi. Bu keyfiyyət onun operetta teatrının xarakterik aktyoru kimi formalaşmasını təminatlandırdı. Bütövlükdə isə İbrahim Şünasinin yaradıcılığının şəhdi-şirəsi milli meydan teatrının qaravəlli oyun estetikası ilə süslənmişdi. Plastik, yumşaq, ancaq çevik səhnə hərəkətlərinin mənalı ifadə vasitələri kimi cazibəli görünməsi ibrahim Şünasinin hələ uşaq vaxtlarında "Zorxana" və "Hoqqa" oyunlarında iştirak etməsi ilə bağlıdır.

İbrahim Ağahüseyn oğlu Hüseynov 20 oktyabr 1906-cı ildə Bakıda doğulub. səkkiz yaşında orta məktəbin birinci sinifinə gedib. Zirək və diribaş olan İbrahim orta məktəbin yuxarı siniflərində oxuyanda Bakıdakı Mərkəzi fəhlə klubunun dram dərnəyinə üzv olub. 1929-cu ildə BTİT-yə aktyor götürülüb. Teatrın ansamblında üçillik fəaliyyəti dövründə əlvan rollar oynayıb. 1933-cü il yanvar ayının 4-də və 5-də teatrın bütün kollektivi, o cümlədən də Şünasi Gəncəyə gəliblər. İki il burada işləyəndən sonra aktyor 1935-ci ilin iyun ayında Bakıya qayıdıb və Bakı Teatr Məktəbinə qəbul olunub. Üç il təhsil müddətində Milli Dram Teatrının və bəzən opera teatrının tamaşalarında epizod rollarda səhnəyə çıxıb.

1938-ci ildə müstəqil fəaliyyətə başlayan Musiqili komediya Teatrının truppasına qəbul edilib. Musiqi yaddaşı güclü olan, rəqqaslığı bacaran, hərəkətlə oyun tərzini xoşlayan, xarakterik, yapışıqlı, lirik tenor səsindən məharətlə istifadə edən İbrahim Şünasi operetta teatrının janr estetikasının prinsiplərinə həssaslıqla yiyələnib. 1949-cu ilin əvvəllərində MKT fəaliyyətini dayandırmalı olanda İbrahim Şünasi (Hüseynov) bir müddət Milli Dram Teatrının truppasında çalışıb. Filarmoniyanın nəzdindəki operetta truppasında işləyib. 1956-cı ildə Musiqili Komediya Teatrı bərpa olunanda yenə doğma kollektivinə qayıdıb.

Xalq yumor xəzinəsindən, karnaval estetikasının gülüş ifadə vasitələrindən bəhrələnən İbrahim Şünasi (Hüseynov) aktyor işlədiyi MKT-nin səhnəsində Çiko ("Keto və kote" Vladimir Dolidze), Mehman ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Mərcan bəy və Səfi, Həsən bəy, Vəli ("Ər və arvad", "Məşədi İbad" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Xacə Məsud ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə və Niyazi), Qiyas ("Beş manatlıq gəlin", Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Etibar və Azay ("Qızılgül", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Məşədi Səfi, Şulu, Sandro ("Evliykən subay", "Əlli yaşında cavan" və "Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov), Hatəmxan ağa və Şahbaz bəy ("Dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə və musiqi tərtibçisi Şəmsəddin Fətullayev), Fantanov, Səlyanski və Poçtalyon Tellon

("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Napoleon ("Bayadera", İmre Kalman), Dursun ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov), Qoşun və Uzun ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Möhsün ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Əmin ("Qızıl axtaranlar", Həsən Seyidbəyli və Tofiq Quliyev), Baləmi ("Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov) rollarından ibarət rəngarəng obrazlar silsiləsi yaradıb.

İbrahim Hüseynov 1943-cü il iyun ayının 17-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

Milli musiqili teatr tariximizin Dövlət mədəniyyət ocağı kimi fəaliyyətinin ilkin dövrlərində ciddi yaradıcılıq uğurları qazanmış İbrahim Şünasi (Hüseynov) 18 sentyabr 1961-ci ildə bir neçə günlük xəstəlikdən sonra vəfat etmişdir.

## ƏLİHÜSEYN QAFARLI (15.3.1911 -5.10.1961)

Musiqili Komediya Teatrının kiassik peşəkar aktyorlarından biri də Əlihüseyin Qafarlı olub. Yüksək aktyorluq texnikasına malik idi. Milli xalq oyun estetikasına əsaslanan zəngin və son dərəcə əlvan, parlaq, mənalı ifadə vasitələri vardı.

Kəskin qroteskii obrazların ifasında məsxərə və məzhəkə teatr poetikasının elementlərindən istifadə edərdi. Qroteskdə də, sarkazında da, açıq satirada da, karnavalvari yumorda da heç vaxt ölçü əndazəsini itirməz, oyunu özünəməxsus emosional cazibəsində, saf gülüş təravətində qalardı.

Oynadığı rolun daxili mənəviyyatını, insani xüsusiyyətlərinin mahiyyətini tipik hərəkət vasitələrində tamaşaçılara çatdırardı.

Sadə, ilk baxışda nəzərə çarpmayan, daha doğrusu maraq doğurmayan ştrixlərdən, detallardan elə yerli-yerində, elə məharətlə istifadə edirdi ki, onsuz həmin rolu təsəvvürə gətirmək mümkün olmurdu. Sözün tam mənasında realist aktyor məktəbinə mənsub sənətkar idi.

Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı 15 mart 1911-ci ildə Bakıda dənizçi ailəsində anadan olub. Yeddiillik təhsil alıb. On altı yaşında Bakı Dənizçilər Evinin nəzdindəki dram dərnəyinə üzv olub. 1929-cu ilin payız teatr mövsümündə Bakı Türk İşçi Teatrının truppasına aktyor götürülüb.

Yeni forma və üslub, məzmun və ifadə vasitələri sorağı ilə eksperimentlər aparan, həm uğur qazanan, həm müvəffəqiyyətsizliyin acısını dadan teatr bütün təzadlara baxmayaraq formalaşmaya doğru inamla addımlayırdı.

Teatrın repertuar simasını müəyyənləşdirən tamaşalarda Əlihüseyn Qafarlı da oynayırdı. Bu kollektiv 1933-cü ildə Gəncə şəhərinə köçürülüb. Əlihüseyn Qafarlı on ilə yaxın Gəncə Dövlət Dram Teatrında çalışıb.

1942-ci ildən ömrünün sonuna qədər (az fasilə ilə) Azərbaycan Dövlət Musiqili Komediya Teatrında və kollektivin ansambl kimi fəaliyyət göstərdiyi truppada aktyor işləyib.

Əlihüseyn Qafarlının bu teatrda əsas aktyor nailiyyətləri Quluş bəy ("Ürəkçalanlar", Məmməd Səid Ordubadi və Fikrət Əmirov), Muradxan bəy ("Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov), Mərcan bəy, Soltan bəy, Məşədi İbad ("Ər və arvad", "Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Nadir ("Qızılgül", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Dursun ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov), Filipo ("Bayadera", İmre Kalman. Tərcümə edəni Sabit Rəhman), Əlimərdan ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Gülümsərov "Ulduz" (Sabit Rəhman və Süleyman Ələsgərov), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadənin eyniadlı əsəri əsasında işləyəni Şəmsi Bədəlbəyli. Bəstəkarlar Vasif Adıgözəlov və Ramiz Mustafayev), Dilavərzadə ("Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov), Mətləb Talıbov ("Bir dəqiqə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), Kərbəlayı Hüseynəli ("Beş manatlıq gəlin", Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Qasiyana ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava. Tərcümə edəni Adil Babayev) rollarında olub. Bu səhnə surətləri içərisində Məşədi İbad rolu xüsusi yer tutur.

Əlihüseyn Qafarlı 24 may 1960-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

Aktyor 5 oktyabr 1961-ci ildə Bakıda vəfat edib.

**MÜNƏVVƏR KƏLƏNTƏRLİ (1912 - 5.2.1963)**

Respublikada 1945-ci ildən populyar kino aktrisası kimi tanınıb, sevilib, rəğbət bəslənib və yalnız bundan sonra teatr aləmində məşhurlaşıb. İlk ekran obrazı "Arşın mal alan" bədii filmində Cahan xala rolu olub. 1945-ci ildə ekranlara buraxılan filmin yaradıcı heyətinin bir qrupuna bir il sonra Stalin mükafatı verildi. Laureatlar arasında Münəvvər xanım da vardı.

Yaradıcılığı ilk növbədə və geniş miqyasda xalq oyun-tamaşalarının poetika şəhdindən, milli gülüş mədəniyyətinin, geniş mənada karnaval estetikasının yumor məziyyətlərindən, məsxərə göstərmələrinin dinamik, canlı, coşğun həyati ruhundan, məzhəkəli qaravəllilərin məzəli təravətindən şirələnib, bəhrələnib, estetik zəmin tapıb.

Münəvvər Səməd qızı Kələntərli 1912-ci ilin yazında Lənkəranda doğulub. Uşaq yaşlarında ailəsi Bakıya köçüb. Münəvvər ilk təhsilini Bakıda alıb və 16 yaşında bədii özfəaliyyət kollektivlərində çıxış edib. Həm milli xalq rəqslərinin incəliklərinə yiyələnib, həm də qədimi el nəğmələrini şirin səslə, ürəkaçan avazla oxuyub. Böyük qardaşı Haşım Kələntərlinin təklifi və Müslüm Maqomayevin dəvəti ilə Münəvvər xanımı 1933-cü ildə Azərbaycan Dövlət opera teatrının xor qrupuna işə götürüblər. Qısa müddətdə özünün zəngin daxili aləmini, aktyorluq şücaətinin hüsn-təravətini açıqlaya bilən aktrisa truppanın əsas heyətinə keçirilib.

Milli komediya və xüsusən musiqili teatr janrı üzrə aktrısaların sayının barmaq hesabı olduğu dövrdə Münəvvər Kələntərlinin səhnəyə gəlişi sənətdə parlaq ziya saçıb. O, opera və operetta tamaşalarında müxtəlif rollar oynayıb.

1938-ci ilin 30 mayında Bakıda Azərbaycan Dövlət Musiqili komediya Teatrı fəaliyyətə başlayıb. Yeni sənət ocağının yaradıcı truppasının əsasını opera teatrının aktyorları təşkil ediblər. Münəvvər xanım da yeni yaranan teatrın heyətinə daxil olub. Müxtəlif kinolara çəkilişlə əlaqədar müəyyən fasilələrlə uzun müddət Musiqili Komediya Teatrının kollektivində çalışıb.

Aktrisa bu teatrda Tamam ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Telli və Cahan xala ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Pərzad, Mələk xanım ("Evliykən subay" və "Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov), Nisə və Şərəf ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov), Gövhər ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Xədicə ("Qızıl axtaranlar", Həsən Seyidbəyli və Tofiq Quliyev), Tavat xala ("Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov), kato ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorova. Tərcümə edəni Adil Babayev), Rəxşəndə ("Bir dəqi-qə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), kəblə Fatma ("Hacı Kərimin Aya səyahəti", Qulamrza Cəmşidi ilə Əbülfəz Hüseyni və Azər Rzayev), Nabat ("Özümüz bilərik", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Mərcan ("Səndən mənə yar olmaz", Məhərrəm Əlizadə və Əşrəf Abbasov), Əsinət ("Ev bizim, sirr bizim", Novruz Gəncəli və Şəfiqə Axundova), Məsmə ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov) rollarını oynayıb.

Münəvvər Kələntərli "Görüş" (Münəvvər), "Qızmar günəş altında" (Gülbahar), "Bəxtiyar" (Gülzar), "O olmasın, bu olsun" (Yengə), (Gülzar) kinolentlərində də çəkilib.

Sənətdə qazandığı uğurlarına görə 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

Münəvvər Səməd qızı Kələntərli 5 fevral 1963-cü ildə dünyasını dəyişib.

**ALİYƏ TEREQULOVA (1915 - 21.3.1968)**

Məşhur Terequlovlar (Tanrıqulovlar) nəslindəndir. Məlahətli və cazibəli səhnə görkəmi, yaraşıqlı qədd-qaməti olub. Mürəkkəb mizanlarda, hərəkət edə-edə ariya və duet oxumağı ustalıqla bacarıb. Qəhrəman sevgililərin partiyalarının ifasını quruluqdan çıxaran, onlara romantizm, lirizm, səmimiyyət gətirən ilkin aktrisalardandır.

Aliyə Ramazan qızı Terequlova 1915-ci ildə Bakıda doğulub. On yaşından musiqi ilə müntəzəm məşğul olub və orta təhsil aldıqdan sonra Azərbaycan Dövlət konservatoriyasında oxuyub. Oranın vokal şöbəsini 1937-ci ildə bitirib və Opera və Balet Teatrına solist götürülüb. Burada Nərgiz və Məryəmin ("Nərgiz", Müslüm Maqomayev), Gülzarın ("Şahsənəm", Reynqold Qlier), Ağca qızın ("Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov) partiyalarını oxuyub.

1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı açılanda Aliyə Terequlova da truppaya dəvət edilib. 1949-cu ildə teatr bağlananda Filarmoniyanın nəzdində yaradılan musiqili-estrada ansamblında, Gənc Tamaşaçılar Teatrında işləyib. MKT 1956-cı ildə yenidən açılanda bir müddət burada işləyib.

Aliyə Terequlova ömrünün son on ilini Moskvada yaşayıb və 21 mart 1968-ci ildə orada vəfat edib.

Aktrisanın Musiqili Komediya Teatrında oynadığı əsas rollar: Asya və Gülçöhrə, Minnət xanım, Gülnaz ("Arşın mal alan", "Ər və arvad" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Beatriçe ("İki ağanın bir nökəri", Karlo Haldoni və Şəmsəddin Fətullayev), Şərəfnisə ("Dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə və Şəmsəddin Fətullayev), keto ("Keto və kote", Vladimir Dolidze), Durna ("Durna", Süleyman Rüs-təm və Səid Rüstəmov), Bayadera ("Bayadera", İmre Kalman), Qızılgül ("Qızılgül", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Mirvari ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Naznaz ("Beş manatlıq gəlin", Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Sevgili ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Qönçə ("Məhəbbət gülü", (Hüseyn Muxtarov və Süleyman Ələsgərov).

Yüksək zövq və istedad sahibi olan Aliyə Terequlova 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

## MUSİQİLİ KOMEDİYA TEATRINDA AKTYOR YARADICILIĞI

### İkinci dərs

### İMAMVERDİ BAĞIROV (23.12.1913 - 6.5.1985)

Daha çox dramatik xarakterli aktyor kimi formalaşmış İmamverdi Salman oğlu Bağırov 23 dekabr 1913-cü ildə Bakıda doğulub. Yeddillik təhsil alıb. Müxtəlif dram dərnəklərində çıxış edən gənc teatr həvəskarı 1929-cu ildə yeni yaradılan İşçi Uşaq Teatrının (bugünkü GTT) truppasına götürülüb.

Müxtəlif vaxtlarda İrəvan Dövlət Azərbaycan Teatrında (1930 - 1932), Milli Dram Teatrında (1934 və 1942 - 1954) aktyorluq edib. Burada Paris ("Romeo və Cülyetta", Vilyam Şekspir), Kərim, Təlxək ("Dağılan tifaq" və "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Toğrul ("Od gəlini", Cəfər Cabbarlı), İlya ("Cehizsiz qız", Aleksandr Ostrovski), Əli bəy ("Vaqif", Səməd Vurğun) kimi maraqlı rollarda səhnəyə çıxıb. İmamverdi Bağırov daxilən rahatsız idi və müxtəlif yeni kollektivlərdə işləməyi xoşlayıb. O, Qazax (1938) və Quba (1939) Kolxoz və Sovxoz Teatrında aktyor və rejissor kimi çalışıb. 1954-1956-cı illərdə Soltan Dadaşovun yaratdığı və dövlət statusu olmayan Musiqili Komediya Teatrında rollar oynayıb. 1956-cı ildə teatr dövlət müəssisəsi kimi

yenidən fəaliyyətə başlayanda onun truppasının aparıcı aktyorlarından biri də İmamverdi Bağırov idi.

1956-cı ildən fasiləsiz olaraq on doqquz il Musiqili komediya Teatrında maraqlı yaradıcılıq yolu keçib. Mürəkkəb dramatik səciyyəli və satirik çalarlı, ictimai-sosial mahiyyət daşıyan personajların istedadlı ifaçılarından sayılıb. Onun teatrda uğur qazandığı rolların ən səciyyəviləri bunlardır: Möhsün ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Həsənqulu bəy və Rza bəy ("Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Xosrov bəy, Orduxan bəy ("Evliykən subay" və "Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov), Dərviş və Naçalnik ("Hacı Qara", Mirzə Fətəli Axundzadənin eyniadlı əsəri əsasında libretto müəllifi Şəmsi Bədəlbəyli. Bəstəkarlar Ramiz Mustafayev və Vasif Adıgözəlov), Bəbirli ("Özümüz bilərik", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Molla Manaf ("Təzə gəlin", Seyfəddin Dağlı və Cahangir Cahangirov), Cəlilov, Əliimran ("Nənəmin şahlıq quşu" və "Boşanaq, evlənərik", Əliağa Kürçaylı və Vasif Adıgözəlov), Camal dayı ("Altı qızın biri Pəri", Məhərrəm Əlizadə və Tofiq Bakıxanovla Nəriman Məmmədov), Aslan ("Ev bizim, sirr bizim", Novruz Gəncəli və Şəfiqə Axundova), "Dağlar qoynunda", Ədil İsgəndərov və Əşrəf Abbasov), Şəmsizadə ("Qaçırılmış qız", Cahangir Məmmədov və Ramiz Mirişli).

İmamverdi Bağırov 1964-cü il iyun ayının 29-da Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub. 6 may 1985-ci ildə Bakıda vəfat edib.

## ŞƏFİQƏ QASIMOVA (6 DEKABR 1924)

Bakıda doğulub. Ailə vəziyyətilə bağlı on beş yaşından MKT-nin xorunda işləməyə məcbur olub. Lirik-dramatik soprana səsi cazibəli gücü və məlahəti ilə sevilib.

1940-cı ildə xor kapellasına götürülüb. 1943 - 1949-cu ildə Opera və Balet Teatrının xorunda çalışıb. Yaradıcılıq sənətkarlığını artırmaq üçün Azərbaycan Dövlət konservatoriyasının vokal şöbəsində oxuyub. Tələbə ikən OBT-yə solist götürülüb. Burada Üzeyir bəy Hacıbəyovun "Koroğlu" (Xanəndə qız), "Arşın mal alan" (Asya), Fikrət Əmirovun "Sevil" (Tafta və Cülüş) əsərlərindo, bir sıra xarici operalarda müxtəlif partiyaları oxuyub. Həm opera solisti, həm də vokal ifaçısı kimi musiqi ictimaiyyətində tez bir zamanda populyarlaşıb.

MKT yeddiillik fasilədən sonra 1956-cı ildə yenidən açılanda Şəfiqə Qasımova kollektivin truppasına ilkin qəbul olunanlar sırasında idi. O, uzun illər burada repertuarda olan əksər musiqili komediyaların əsas partiyalarını ifa edib. Yaradıcılığının son illərində xarakterik rollar da oynayıb. Bəzi rolları bir neçə quruluşda ifa edib. Teatrın və aktrisanın özünün yaradıcılığında əhəmiyyətli yer tutan əsas partiyaları bunlardır: Asya ("Arşın mal alan"), Durna ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov), Ulduz ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Leyli və Gövhər ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Sona xanım ("Hacı Qara"), Lalə, Gülnar, Müğənni qız ("Özümüz bilərik", "O1madı elə, oldu belə" və "Milyonçunun dilənçi oğlu", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Sevda ("Qaynana", Məcid Şamxalov və Zakir Bağırov), Qızılgül ("Qızılgül", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Barbale ("Keto və kote", Vladimir Dolidze), Rusudan ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava), Fatı ("Hicran", Sabit Rəhman və Emin Sabitoğlu), Əsmət ("Ev bizim, sirr bizim", Novruz Gəncəli və Şəfiqə Axundova), Gülyanaq ("Haradasan, ay subaylıq", Salam Qədirzadə və Süleyman Ələsgərov), Pəri ("Altı qızın biri Pəri", Məhərrəm Əlizadə və Nəriman Məmmədovla Tofiq Bakıxanov), Bənövşə ("Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov), Pərvanə ("Qızıl axtaranlar", Həsən Seyidbəyli və Tofiq Quliyev), Mirvari ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Bəsirə ("Gurultulu məhəbbət", Salam Qədirzadə və Süleyman Ələsgərov).

Şəfiqə Qasımova "Azərbaycanfilm"də "Ögey ana" (Zeynəb), "Vulkana doğru" (Ana) filmlərinə çəkilib.

Aktrisa 1960-cı il may ayının 24-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif edilib. 1998-ci il-dən təqaüdə çıxıb.

**MOBİL ƏHMƏDOV (10 SENTYABR 1931)**

Teatrın şöhrətli sənətkarlarındandır. Vokal ifaçılığını dramatik və komik aktyor oyunu ilə yüksək sənətkarlıqla sintez etməyin bünövrəsini qoyanlardan biridir. Şirin, məlahətli, coşğun səsi və zəngin çalarlı aktyorluq ifadə vasitələri, yüksək səhnə mədəniyyəti, həssas obraz duyumu var.

Mobil Salman oğlu Əhmədov 10 sentyabr 1931-ci ildə Gəncədə doğulub. 1955-ci ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə daxil olub. Bir il sonra isə Azərbaycan Dövlət konservatoriyasına qəbul edilib və Bülbülün sinifində oxuyub. 1961-ci ildə təhsilini başa vuraraq bir neçə ay Dövlət Radiosunun xorunda işləməyə başlayıb. Sentyabr ayında isə MkT-yə solist dəvət olunub. Elə həmin vaxtdan da qırx ilə yaxın teatrın əksər tamaşalarında əsas partiyaları ifa edib. Bir neçə xarakterik rol oynayıb. Qazandığı nailiyyətlərin kökündə onun daxili sənət yanğısı, yaradıcılıq ehtirası durur. Həmişə realist oyun tərzi, sərbəst və əlvan çalarlı ifa üslubu ilə diqqətdə durub.

Teatrın yetmişdən çox tamaşasında oynamaqla zəngin yaradıcılıq irsi yaradan Mobil Əhmədov bir neçə rolunu müxtəlif quruluşlarda ifa edib. Solist-aktyorun əsas partiyalarının çox yığcam siyahısını belə ümumiləşdirə bilərik. Klassik operettalarda və klassik milli dramaturgiya əsasında yazılmış musiqili komediyalarda oynadığı rollar: Sərvər və Rüstəm bəy, Əsgər ("Məşədi İbad" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Heydər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadənin eyniadlı əsəri əsasında libretto müəllifi Şəmsi Bədəlbəyli. Bəstəkarlar Ramiz Mustafayev və Vasif Adıgözəlov), Məhəmmədhəsən əmi ("Danabaş kəndinin əhvalatları", Cəlil Məmmədquluzadənin eyniadlı əsəri əsasında libretto müəllifi Cənnət Səlimova, bəsətənar Oqtay Kazımov).

Müasir mövzulu musiqili komediyalarda ifa etdiyi səhnə surətləri: Tuğay ("Bir dəqiqə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), Nadir ("Qızıl axtaranlar", Həsən Seyidbəyli və Tofiq Quliyev), Ayaz ("Qaynana", Məcid Şamxalov və Zakir Bağırov), Alay ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Bəxtiyar ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Arzu, Zəfər, Yetim, Toğrul ("O1madı elə, oldu belə", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu" və "Sevindik qız axtarır", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Cəsarət, Çingiz ("Nənəmin şahlıq quşu" və "Boşanaq, evlənərik", Əliağa Kürçaylı və Vasif Adıgözəlov), Sahib ("Ləpələr", Əliağa Kürçaylı və Arif Məlikov), Etibar ("Qızılgül", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov).

Tərcümə əsərlərində oxuduğu partiyalar: Zurab ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava), kote ("Keto və kote", Vladimir Dolidze), Elbrus ("Sevgilimin anası", Georgi Xuqayev və A.Ovanov).

Mobil Əhmədov müxtəlif təhsil ocaqlarında pedaqoji fəaliyyət göstərir. Sənət dostlarının yüzlərlə şarjını çəkib. Radionun fondunda 600-dən çox lent yazısı, xeyli valı var. Aktyor-müğənni Azərbaycan Respublikasının əməkdar artist (1978) və xalq artist (2000) fəxri adlarına layiq görülüb.

**HACIBABA BAGIROV (12 İYUN 1932)**

Səhnə yaradıcılığına dram aktyoru kimi başlayıb. Lakin yaradıcılığının estetik səciyyələri əsasən musiqili komediya janrı ilə bağlıdır. Hacıbaba Ağarza oğlu Bağırov 12 iyun 1932-ci ildə Bakıda doğulub. Aktyorluğa 1940-cı illərdə MDT-nin yardım heyətində başlayıb, burada üçillik aktyorluq studiyasını bitirib. 1948-ci ildə Lənkəran DDT-də aktyor işləməyə gedib və bir il sonra bu sənət ocağı bağlananda Bakıya qayıdıb. Bakı Dəmir Yolu Texnikumunda oxuyub, bir neçə il

müxtəlif mədəniyyət müəssisələrində çalışıb. 1960-cı ildə Gəncə DDT-də aktyorluq edib. 1962-ci ildən isə MkT-nin truppasındadır.

Arada özü müstəqil Tənqid və Təbliğ Teatrı yaradaraq onun bədii rəhbəri olub. 1996-cı ildən MKT-ya bədii rəhbər və direktorluq edir.

Hacıbaba Bağırov dramatik hərəkətlər toplusuna və plastik rəqs elementlərinə malik aktyordur. O, mürəkkəb rəqs hərəkətlərini arioza və məzəli kupletlərlə paralel şəkildə ifa edir.

Daxilən ehtiraslı və coşğun aktyordur. Səhnədə dinamik ritm üzərində qurulan geniş miqyaslı mizanları xoşlayır.

Qaravəlli tipli səhnə obrazlarında karnaval estetikası prinsiplərindən ustalıqla istifadə edir.

Həmin yaradıcılıq prinsipləri əsasında yaratdığı başlıca rollar bunlardır: Muradxan bəy ("Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov), Soltan bəy, Məşədi İbad ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Uzun ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), İbişov, Dayandur ("Özümüz bilərik" və "O1madı elə, oldu belə", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Fəqan ("Səndən mənə yar olmaz", Məhərrəm Əlizadə və Əşrəf Abbasov), Cəbi Cüməzadə ("Həmişəxanım", Salam Qədirzadə və Süleyman Ələsgərov), Nadir ("Qızılgül", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Mitoş ("Hicran", Sabit Rəhman və Emin Sabitoğlu), Xudayar bəy ("Danabaş kəndinin əhvalatları", Cəlil Məmmədquluzadənin əsəri əsasında Cənnət Səlimovanın librettosu və bəstəkar Oqtay Kazımov), Hüseynqulu ("Sizinlə gülə-gülə", "Bildirçinin bəyliyi", "92 dəqiqə gülüş", Rüfət Əhmədzadə və Emin Sabitoğlu), Sevindik ("Sevindik qız axtarır", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Əsgər Nəcəfoviç ("Ləpələr", Əliağa Kürçaylı və Arif Məlikov), Molla Sübhan ("Boşanaq, evlənərik", Əliağa Kürçaylı və Vasif Adıgözəlov), kiko ("Keto və kote", Vladimir Dolidze), Qiya ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava), Bostan ("Təzə gəlin", Seyfəddin Dağlı və Cahangir Cahangirov), Qəhrəman ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Ağa Süruş ("Hacı Kərimin Aya səyahəti", Qulamrza Cəmşidi ilə Əbülfəz Hüseyni və Azər Rzayev), Xandadaş ("Məmmədəli kurorta gedir", Atif Zeynalh və Tofiq Bakıxanovla Nəriman Məmmədov), Atakişi ("Bankir adaxlı", Tamara Vəliyeva və Emin Sabitoğlu), Şeytan, Nəsir və Misir ("Lənət şeytana", Firudin Aşurov və Vasif Adıgözəlov), Bilal ("Qız görüşə tələsir", Adil Babayev və Tofiq Bakıxanovla Nəriman Məmmədov), Möhsün ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov).

Hacıbaba Bağırov 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 dekabr 1982-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub. Bir sıra bədii filmlərə çəkilib.

**SƏYAVUŞ ASLAN (3 SENTYABR 1935)**

Əvvəllər dram dərnəyində çalışan Səyavuş Aslan 1954-cü ildə dövlət statusu olmayan Musiqili Komediya Teatrının bir neçə tamaşasında kiçik rollar oynayıb.

1984-cü il oktyabr ayının 5-də Akademik Milli Dram Teatrının truppasına aktyor götürülüb. 1994-cü il fevralın 4-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrına bədii rəhbər təyin edilib. 1996-cı ilin oktyabrında bədii rəhbər vəzifəsindən istefa verən aktyor yenidən Akademik Milli Dram Teatrına qayıdıb. (Qeyd: Aktyorun bu sənət ocağındakı fəaliyyəti əvvəlki dərslərdə göstərilib).

Səyavuş Aslanın MKT-nin səhnəsində yaratdığı neçə-neçə obraz sənət ocağının yaradıcılığında xüsusi yer tutur. Buna görə aktyorun bu teatrdakı fəaliyyətini və oynadığı rolların daha uğurlularını təqdim edirəm. Muxtar bəy və Kəblə Heydər, Orduxan bəy ("Evliykən subay" və "Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov), Şubay və Məhəmməd ("U1-duz", Sabit Rəhman və Süleyman Ələsgərov), Hamlet ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava), Ohan yüzbaşı ("Hacı Qara", Mirzə Fətəli Axundzadənin eyniadlı əsəri əsasında libretto müəllifi Şəmsi Bədəlbəyli. Bəstəkarlar Vasif Adıgözəlov ilə Ramiz Mustafayev), İbişov və Murtuzov, Eynəkli, Alanzadə ("Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu" və "O1madı elə, oldu belə", Şıxəli

Qurbanov və Süleyman Ələsgərov), Fəqan ("Səndən mənə yar olmaz", Məhərrəm Əlizadə və Əşrəf Abbasov), Firuzbala ("Altı qızın biri Pəri", Məhərrəm Əlizadə və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Həsən bəy, Hambal və Məşədi İbad, Vəli ("Məşədi İbad" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Səlyanski ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Qulu Rəhimli ("Nənəmin şahlıq quşu", Əliağa krrçaylı və Vasif Adıgözəlov), Kəblə Hüseynəli ("Beş manatlıq gəlin", Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Qoşun ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Çako ("Keto və kote", Vladimir Dolidze), Dadaşbala ("Hicran", Sabit Rəhman və Emin Sabitoğlu), Türbətəli ("Təzə gəlin", Seyfəddin Dağlı və Cahangir Cahangirov), Qazı, karapet ağa, Naçalnik, Kərbəlayı Cəfər ("Danabaş kəndinin əhvalatları", Cəlil Məmmədquluzadənin eyniadlı əsəri əsasında libretto müəllifi Cənnət Səlimova və bəstəkar Oqtay Kazımov).

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər işlədiyi dövrdə Səyavuş Aslan "Beş manatlıq gəlin" (17 may 1994), "Əlli yaşında cavan" (23 may 1995) operettalarını tamaşaya hazırlayıb.

## AFAQ BƏŞİRQIZI (15 AVQUST 1955)

Məşhur komediya aktyoru Bəşir Səfəroğlunun qızıdır. Bakıda doğulub və 31 saylı orta məktəbi bitirib. Çörək zavodunda işləməklə yanaşı, Tibb işçiləri mədəniyyət sarayının dram dərnəyində həvəskar aktyorluq edib. Buradan Lənkəran DDT-yə dəvət alıb və 1975-ci ilə kimi orada aparıcı aktrisalardan olub. 1975-ci ildən 1989-cu ilə kimi Sumqayıt DDT-də işləyib. Hər iki kollektivdə əsasən dramatik, psixoloji xarakterlər, qəhrəman sevgili rollarını oynayıb. Həmçinin maraqlı komediya rollarında səhnəyə çıxaraq böyük tamaşaçı rəğbəti qazanıb.

Bir müddət Dövlət Gənclər Teatrında işləyən aktrisa 1989-cu ildən (qısa fasilələrlə) MKT-nin əsas sənətkarlarındandır. Bu teatrda Xala ("Bəbirlinin kələkləri", Rauf Hacıyev), Gülbadam ("Sevgilimin arvadı", Georgi Xuqayev və Eldar Mansurov), Ofeliya xanım ("Qarğa, məndə qoz var", Cahangir Aslanoğlu və Həsənağa Qurbanov), Qızbacı ("Hicran", Sabit Rəhman və Emin Sabitoğlu), Səməni ("Subaylarınızdan görəsiniz", İsi Məlikzadə və Süleyman Ələsgərov), Sənəm ("Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Nisə ("Bankir adaxlı", Tamara Vəliyeva və Emin Sabitoğlu), Səltənət ("Məhəbbət oyunu", Qeybulla Rəsulov və Cavanşir Quliyev), Məsmə ("Məsmə xala dayımdır", Cahangir Məmmədov və Ramiz Mustafayev) rollarını oynayıb.

Aktrisanın ən məşhur ekran rolu "Bəxt üzüyü" filmində Söylü obrazıdır.

Afaq Bəşirqızı bir neçə ildir özəl "Bəşir" teatrının, 2004-cü ildən "Bəşir Səfəroğlu" Moskva Miniatür Teatrının bədii rəhbəridir.

Sənətdə qazandığı uğurlara görə 17 may 1989-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti və 1993-cü ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Afaq Bəşirqızı tənqid hədəfinə çevirdiyi mövzuların zahiri gülünclüyünü "partlayan", aşıb-daşan yumorla, qroteskli satira ilə çatdırır.

Aktrisa üçün gülüş oyadan vəziyyəti doğuran sosial durumun psixoloji əsaslarını, dərin ictimai mahiyyətini qabarıq, daha dəqiq və mənalı verməyə sənətkarlıqla nail olur.

Həssas aktrisadır. Onun həssaslığı gülüşün mayasında durduğuna görə aktrisa bir anın içərisində tamaşaçı salonunu ələ almağa və seyrçilərin diqqətini öz oyununda cəmləşdirməyə nail olur.

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRINDA REJİSSOR SƏNƏTİ

Milli operettalarımız yarananda hələ bu janrın estetik tələblərini, psixoloji əsaslarını, poetika səciyyələrini bilən aktyorlarımız yox idi. Təbii ki, həmin sənət növünün mahiyyət və xüsusiyyətlərini dərindən bilən rejissorlar da həmçinin. Həmin illərdə söhbət ixtisas təhsili görmüş rejissorlardan gedə bilməzdi. Buna görə də operettaları tamaşalara dram aktyoru kimi şöhrət qazanmış, komediya və faciə əsərlərinə quruluşlar verməkdə müəyyən təcrübə toplamış sənətkarlar hazırlayıblar. "Nicat", "Səfa", "Müsəlman opera artistləri", "Müdiriyyət" truppalarında musiqili komediyalara təkrar-təkrar quruluşları Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Abbasmirzə Şərifzadə, Sidqi Ruhulla, Əbülfət Vəli, Xəlil Hüseynov səhnə təfsiri veriblər.

Musiqili komediya truppası (Azərbaycan opera dəstəsi adı ilə) 1920-1925-ci illərdə MDT-nin nəzdində olanda operettalar teatrın baş rejissorlarından əsasən Abbasmirzə Şərifzadənin və bir qədər də Aleksandr Tuqanovun quruluşlarında oynanılıb. OBT-nin səhnəsində oynanılan operettaları tamaşaya Abbasmirzə Şərifzadə, Yusif Yulduz, Soltan Dadaşov, Əlihüseyn Rzayev, İsmayıl Hidayətzadə hazırlayıblar.

Musiqili komediya Teatrı müstəqil sənət ocağı kimi yeni yaradıcılıq mərhələsinə başlayanda da teatrın sırf bu janrda işləyən rejissorları yox idi. Lakin tədricən teatr özünün poetika səciyyələrini formalaşdırmaqla yanaşı, bu janrın estetik prinsiplərinin incəliklərini hərtərəfli və həssaslıqla mənimsəyən aktyorlar, rəssamlar, dirijorlar, xorbaşılar, baletmeysterlər və həmçinin rejissorlar da yetişdirib. MkT-də quruluş verən rejissorların hamısının yaradıcılığı parlaq olmayıb, axtarışların bütün cəhdləri uğurla nəticələnməyib. Bununla belə, adları çəkilən hər bir sənətkarın yaradıcılığı milli operetta rejissurasının formalaşmasına, teatrın ümumi inkişafına səmərəli təkan verib.

* * *

**Həbib İsmayılov**. Moskva Teatr Sənəti Texnikumunu bitirib. BTİT-də və Gəncə DDT-də rejissor işləyib. MKT-nin ilk bədii rəhbəridir. Teatrda Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operasına (1939), Boris Aleksandrovun "Molinovkada toy", Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" (1940) musiqili komediyalarına quruluşlar verib. Peşəkarlığa çalışıb, janrın əsas xüsusiyyətlərini aktyor oyunlarda təcəssüm etdirməyə səy göstərib.

**Həsən Əliyev**. Əvvəllər müxtəlif rayon teatrlarında, GTT-də işləyib. İxtisasca müəllimdir. MKT-nin ilk rejissorlarındandır. Həbib İsmayılovdan sonra bədii rəhbər işləyib. Teatrda Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (1939 və 1941), "Ər və arvad", Rauf Hacıyevin "Çarleyin xalası" (Brandon Tomasın eyniadlı əsəri əsasında libretto işləyəni Mustafa Mərdanov. 1939), Məhərrəm Əlizadə və Ağası Məşədibəyovun "Toy kimindir?" (1940), Məhərrəm Əlizadə və Soltan Hacıbəyovun "Qızılgül" (1941) əsərlərinin quruluşçu rejissoru olub. Rejissurasında mətnlə musiqinin tam şəkildə səhnədən səsləndirilMəsmə əsas diqqət yetirib.

**Səftər Turabov**. Yaradıcılığı əsasən MDT ilə bağlıdır. Müxtəlif illərdə dəvətlə MKT-də də quruluşlar verib. Əsas işləri "Toy kimindir?" (1940), "Gözün aydın" (Məhərrəm Əlizadə və Fikrət Əmirov), "Ulduz" (Sabit Rəhman və Süleyman Ələsgərov. 1957), "Məmmədəli kurorta gedir" (Atif Zeynallı və Nəriman Məmmədov. 1969) tamaşalarıdır. Quruluşlarında musiqi ilə sözün vəhdətinə çalışıb, komediyanın satirik çalarlarının əlvanlığından istifadə etməyi xoşlayıb.

**Vaqif Ağayev**. Mingəçevir DDT-də baş rejissor işləyib, ADİİ-də pedaqoji fəaliyyət göstərib. Bir müddət MKT-də bir neçə tamaşanın hazırlanmasında ikinci rejissor kimi çalışıb Oqtay Kazımovun "Dəcəl çəpişlər" (1975), Əliağa Kürçaylı və Vasif Adıgözəlovun "Boşanaq, evlənərik" (1976), Adil Babayev və Tofiq Bakıxanovla Nəriman Məmmədovun "Qız görüşə tələsir" (1978), Rauf Hacıyevin "Bəbirlinin kələkləri" (1989) musiqili komediyalarının tamaşaları onun müstəqil

rejissor quruluşlarıdır. Kompozisiya bütövlüyünə səy göstərib, xor və balet rəqslərindən bacarıqla, tamaşanın ümumi ruhuna uyğun tərzdə istifadə edib.

Ağakişi Kazımov. Yaradıcılığı əsasən MDT və GTT ilə baghdır. Az müddət (22.9.1974 - 30.12.1975) Musiqili komediya Teatrının baş rejissoru kimi çalışıb. Bu teatrda 1975-ci ildə Seyfəddin Dağlı və Cahangir Cahangirovun "Təzə gəlin" (26 aprel), İsaak Dunayevskinin "Xoşbəxtliyə gedən yol" (12 aprel) və Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (5 iyun) operettalarına quruluş verib. Monumental realist teatr estetikasının xüsusiyyətlərini musiqili komediya janrının prinsiplərinə uyğunlaşdırmaqda cəsarətli addımlar atıb.

Vaqif İbrahimoğlu (Həsənov). "Yuğ" Dövlət Teatrının yaradıcısı və bədii rəhbəridir. MKT-də əvvəllər dəvətlə tamaşalar hazırlayıb. 1982-1989-cu illərdə bu kollektivdə baş rejissor olub. Teatrda Ruhəngiz Qasımovanın "Məzəli əhvalat" (rejissor Ramiz Həsənoğlu ilə birgə. 1980), Rüstəm İbrahimbəyovla Valentin Yejov və bəstəkar Leonid Vaynşteynin "Səhranın bəyaz günəşi" (1981), Cənnət Səlimova və Oqtay Kazımovun "Danabaş kəndinin əhvalatları" (Cəlil Məmmədquluzadənin eyni adlı əsəri əsasında. 1982), İsgəndər Coşqun və Rəşid Şəfəqin "Tülkü həccə gedir" (1982), Eldar Mansurovun "Canlı musiqi" (1982), Akif Məhərrəmov və Oqtay Kazımovun "Sıravi Seyfullanın xidməti əziyyətləri" (Sultanməcid Qənizadənin "Xor-xor" məsxərəsi əsasında. 1983), Rüfət Əhmədzadə və Emin Sabitoğlunun "Bildirçinin bəyliyi" (1983) və "92 dəqiqə gülüş" (1987), İohan Ştrausun "Yarasa" (1984), "Məşədi İbad" (1985), "Gözün aydın" (1986) əsərlərinə rejissorluq edib. Quruluşları forma orijinallığı və üslub əlvanlığı, satirik kəsəri, janrın yeni estetik xüsusiyyətləri ilə seçilib. Maraqlı və çoxqatlı, ifadəli və gözoxşayan kompozisiyalar qurmaqda səriştəlidir.

**Cənnət Səlimova**. Bakı kamera Teatrının yaradıcısıdır. Yaradıcılığının ən qaynar dövrü Rus Dram Teatrı ilə bağlıdır. MKT-də "Filumena Martirano" (Eduardo de Flippo və Fərəc Qarayev. 1991), "Həftənin axırında şən şam yeməyi" (Jan Puaro. 1994), "Məşədi İbad" (1998), "Şən dul qadın" (Ferents Leqar. 1999) operettalarına quruluş verib. Klassik Avropa operetta janrının poetika göstəricilərinin səhnə təcəssümü ənənələrinə üstünlük verir.

Teatrda Rauf Kazımovskinin "Hacı Kərimin Aya səyahəti" (Qulamrza Cəmşidi ilə Əbülfəz Hüseyni və Azər Rzayev. 1962), Vaqif Abbasovun "Yertutanlar" (Faiq Mustafayev və Adil Bəbirov (1981), Fuad Hacıyevin "Ana, mən evlənirəm" (Rauf Hacıyev. 1977), Rafiq Atakişiyevin "Qızıl toy" (Ramiz Heydər və Oqtay Kazımov. 1980), kollektivdə baş rejissor (1989 - 1992) işləyən Cahangir Novruzovun "Qız anası" (Georgi Xuqayev və A.Ovanov), Ələkbər Kazımovskinin "Özümüz bilərik" (Şıxəli Qurbanov və Süleyman Ələsgərov. 1993) quruluşları forma axtarışlarında müəyyən cəhdləri ilə yadda qalıblar.

Son on ildə teatrda rejissorlardan Yusif Əkbərov, Faiq Zöhrabov, Ədalət Ziyadxanov daha məhsuldar işləyirlər.

* * *

**NİYAZ ŞƏRİFOV (16.3.1914 - 15.5.1982)**

Yaradıcılığı əsasən MKT ilə bağlı olan Niyaz Səttar oğlu Şərifov 16 mart 1914-cü ildə Bakıda doğulub. Bədəl bəy Bədəlbəyovun məktəbində əvvəlcə birinci dərəcəli pillədə dörd il təhsil alıb və beş il isə ikinci dərəcəli təhsil sistemində oxuyub. Bakı Teatr Məktəbini bitirib və tələbəlik illərindən BTİT-də aktyorluq edib. Bu teatr 1933-cü ildə Gəncəyə köçüb və Niyaz Şərifov bir sıra mədəniyyət ocaqlarında çalışıb. 1938-ci il-də ADMKT yaradılanda oraya əvvəlcə texniki rejissor, sonra isə quruluşçu rejissor götürülüb. Müəyyən fasilələrlə ömrünün sonuna qədər bu kollektivdə işləyib. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilib. Niyaz Şərifov MKT-də Məhərrəm Əlizadə və Soltan Hacıbəyovun "Qızılgül" (1945 və 1967), Məhərrəm

Əlizadə və Fikrət Əmirovun "Gözün aydın" (1946), Kərim Kərimov və Zakir Bağırovun "Kəndimizin mahnısı" (1959), Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" (1960), "Əlli yaşında cavan" (1972), Məhərrəm Əlizadə və Əşrəf Abbasovun "Səndən mənə yar olmaz" (1963), Novruz Gəncəli və Şəfiqə Axundovanın "Ev bizim, sirr bizim" (1965 və 1979), Məcid Şamxalov və Zakir Bağırovun "Qaynana" (1965), Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" (1969), Ədil İsgəndərov və Əşrəf Abbasovun "Dağlar qoynunda" (1970), Məhərrəm Əlizadə və Nazim Əliverdibəyovun "Nazxanım naz eləyir" (1974), Məhərrəm Əlizadə və Ramiz Mustafayevin "Qonşumuzda bir oğlan var" (1976), Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (1976), Cahangir Məmmədov və Əşrəf Abbasovun "Həyətim mənim, həyatım mənim" (1977), Salam Qədirzadə və Süleyman Ələsgərovun "Gurultulu məhəbbət" (1980) musiqili komediyalarına quruluş verib.

## ƏLİHEYDƏR ƏKBƏROV (26.6.1915 - 14.3.1974)

Yaradıcılığı əsasən Akademik Milli Dram Teatrı ilə bağlıdır. 1960 - 1967-ci illərdə Musiqili Komediya Teatrında baş rejissor işləyib. Teatrın repertuar qurumunun formalaşmasında, rejissor sənətinin yeni peşəkarlıq keyfiyyətləri əxz etməsində, aktyor truppasının kamilləşməsində Əliheydər Ələkbərovun böyük xidmətləri var. O, bu teatrda bir sıra uzunömürlü tamaşalara maraqlı quruluşlar verib. Hazırladığı tamaşalara monumental ruh verməyə çalışıb. Xor və baletdən komponent-obraz kimi istifadəyə xüsusi meyil göstərib.

Əliheydər Ələkbərovun rejissurası dolğun ifadə vasitələri, dərin realizmi və təbii yumorun obrazlı bədii həlli ilə seçilib. Bu baxımdan onun teatrda hazırladığı "Bir dəqiqə" (dramaturq Məhərrəm Əlizadə və bəstəkar Hacı Xanməmmədov. 17 oktyabr 1961), "Ulduz" (Sabit Rəhman və Süleyman Ələsgərov. 6 dekabr 1964), "Haradasan, ay subaylıq?" (Salam Qədirzadə və Süleyman Ələsgərov. 16 fevral 1968), Şıxəli Qurbanov və Süleyman Ələsgərovun, "Özümüz bilərik" (5 yanvar 1963), "O1madı elə, oldu belə" (15 mart 1964) və "Milyonçunun dilənçi oğlu" (20 may 1966) "Hacı Qara" (Mirzə Fətəli Axundzadənin eyniadlı komediyası əsasında libretto müəllifi Şəmsi Bədəlbəyli. Bəstəkarlar Vasif və Ramiz Mustafayev. 14 oktyabr 1962), "Keçmişin məişət səhnələri" (Mirzə Ələkbər Sabirin şeirləri əsasında librettonun müəllifi Soltan Dadaşov və bəstəkar Vasif Adıgözəlov) musiqili komediyaları repertuarda daha uzunömürlü olublar.

O, Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" operettasına 1966-cı ildə Bolqarıstanın Şumen şəhərindəki Türk teatrında quruluş verib.

Əliheydər Ələkbərov "Milyonçunun dilənçi oğlu" musiqili komediyasına görə 1967-ci ildə Üzeyir bəy Hacıbəyov adına Dövlət mükafatına layiq görülüb. 1967-ci ildə filarmoniyada fəaliyyət göstərən "Gəlməli, görməli, gülməli" miniatür satirik teatrının rejissoru olub. Televiziyada bir neçə əsərə quruluş verib. 1965-ci ildən Azəbaycan Dövlət Teatr Institutunda aktyor və rejissor sənətindən dərs deyib.

## ŞƏMSİ BƏDƏLBƏYLİ
## (23.2.1911 -23.5.1987)

Azərbaycanın tanınmış rejissoru, teatr rəhbəri Şəmsi Bədəlbəy oğlu Bədəlbəyli 23 fevral 1911-ci ildə Şuşada ziyalı ailəsində doğulub. Atası Bədəl bəy Bədəlbəyli, əmisi Əhməd Ağdamski (Bədəlbəyli) milli dram və musiqi teatrımızın dirçəlişində böyük işlər görmüşlər. Bədəl bəy həm müəllimlik edir, həm də aktyor kimi səhnəyə çıxır, operetta, opera və dram əsərlərinin tamaşalarında oynayırdı.

Şəmsi Bədəlbəylinin böyük qardaşı Əfrasiyab Bədəlbəyli yeniyetmə yaşlarından Milli Dram Teatrında işləyib, görkəmli bəstəkardı.

Orta məktəbi qurtarandan sonra Şəmsi Bədəlbəyli atasının yolu ilə gedərək 1923-cü ildən 1927-ci ilin mayına qədər Bakı Pedaqoji Texnikumunda təhsil alıb. Tələbə vaxtı həvəskar aktyor kimi tamaşalarda oynayıb. 1927-ci ildə o, Azərbaycan Dövlət konservatoriyasının xalq çalğı alətləri sinifinə daxil olub. Sonra Üzeyir bəy Hacıbəyovun rəhbərlik etdiyi kompozisiya nəzəriyyəsi sinifində təhsilini davam etdirib.

Tələbə ola-ola Milli Dram Teatrının kiçik orkestrində tar çalıb. Yaş fərqlərinə baxmayaraq burada dramaturq Cəfər Cabbarlı, aktyor-rejissor İsmayıl Hidayətzadə ilə, rejissor-pedaqoq Aleksandr Tuqanovla dostluqları başlayıb. 1932-ci ildə rejissor assistenti kimi bir neçə tamaşanın hazırlıq prosesində iştirak edib.

Şəmsi Bədəlbəylinin sənət qabiliyyətini nəzərə alaraq Xalq Maarif komissarlığı onu 1933-cü ildə Moskvaya təhsil və təcrübə keçməyə göndərib. Gələcək rejissorun sənət müəllimləri SSRİ-də tanınmış sənətkarlar Kote Marcanaşvli və Aleksey Popov olub. Moskvadakı Malı Teatrda tamaşaya hazırlanan Fridrix Şillerin "Don Karlos" tamaşasında rejissor assistenti kimi çalışıb.

Təhsilini başa vurub Bakıya qayıdan Şəmsi Bədəlbəyli Akademik Milli Dram Teatrının rejissor heyətinə işə götürülüb və 1941-ci ilə qədər bu kollektivdə çalışıb.

1930 - 1932-ci ildə "Gənc işçi" qəzetində işləyən, teatr-şünas kimi də fəaliyyət göstərən Şəmsi Bədəlbəyli 1941-ci ilin axırlarında "Vətən yolunda" ("Vətən uğrunda") qəzetinin əməkdaşı kimi İranın Təbriz şəhərinə ezam edilib. Qəzetdə əsasən mədəniyyət mövzusunda məqalələr yazan Şəmsi Bədəlbəylinin Təbrizdə teatr həvəskarları ilə Üzeyir bəyin "Arşın mal alan", Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan", "Evliykən subay" operettalarını tamaşaya hazırlayıb. Təbriz peşəkar teatrının yeni yaradıcılıq mərhələsinə qədəm qoymasında bəhrəli işlər görüb, kollektivin aktyor truppasını yenidən və daha sağlam ruhda təşkil edənlərdən biri olub.

Şəmsi Bədəlbəyli 1942-ci ildə Vətənə qayıdıb və Azərbaycan Dövlət Musiqili Komediya Teatrına (1943 - 1949) bədii rəhbər təyin olunub. Tetrda 1956 - 1961-ci illərdə baş rejisor və 1965 - 1974-cü illərdə də bədii rəhbəri işləyib. (Xatırladım ki, teatr 1949-1956-cı illərdə bağlanmışdı). 1949-cu ildə teatr bağlananda o, Azərbaycan Dövlət Filarmoniyasına direktor təyin edilib. Bu vəzifədə 1974-1976-cı illərdə də çalışıb. 1976 - 1981-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinin (indiki Azərbaycan Teatr Xadimləri İttifaqı) sədri seçilib. 21 noyabr 1986-cı ildə fəxri təqaüdə çıxıb.

Yaradıcılığı Musiqili Komediya Teatrı ilə daha sıx bağlı olan Şəmsi Bədəlbəyli bu kollektivin geniş yaradıcılıq yoluna çıxmasında böyük işlər görüb. Teatrın tərəqqisi bir rejissor və bədii rəhbər kimi ilk növbədə Şəmsi Bədəlbəylinin adı ilə bağlıdır.

Şəmsi Bədəlbəylinin bu teatrda hazırladığı əsas tamaşalar: "Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov (2 sentyabr 1943, 18 iyun 1959), "Ürəkçalanlar", Məmməd Səid Ordubadi və Fikrət Əmirov (18 mart 1944), "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov (10 aprel 1945 və 22 noyabr 1964), "Durna", Süleyman Rüstəm və Səid Rüstəmov (28 aprel 1947, 28 avqust 1956 və 17 mart 1959), "Bayadera", İmre Kalman. Tərcümə edəni Sabit Rəhman (25 sentyabr 1948), "Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov (30 dekabr 1948, 9 may 1957 və 20 noyabr 1960), "Arşın mal alan", Üzeyir bəy Hacıbəyov (1 avqust 1956, 21 mart 1958, 25 fevral 1959 və 16 may 1972), "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov (3 noyabr 1956), "Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov (8 dekabr 1956), "Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov (Birinci tamaşanı rejissor Səftər Turabovla birgə hazırlayıb. 28 dekabr 1957 və 4 dekabr 1976), "Hacı Qara" ("Xəsis"), Mirzə Fətəli Axundzadənin əsəri əsasında Şəmsi Bədəlbəylinin librettosu. Bəstəkarlar Vasif Adıgözəlov və Ramiz Mustafayev (11 iyul 1958), "Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov (24 yanvar 1961), "Bizə bircə xal lazımdır", Qulamrza Cəmşidi ilə Bəşir Səfəroğlu və Telman Hacıyev (rejissor Niyaz Şərifovla birgə hazırlayıb. 19 sentyabr 1967), "Ləpələr", Əliağa Kürçaylı və Arif Məlikov (29 dekabr 1967), "Sevindik qız axtarır", Şıxəli Qurbanov və Süleyman Ələsgərov (7 mart 1970), "Nənəmin şahlıq quşu", Əliağa Kürçaylı və Vasif Adıgözəlov (27 mart

1971), "Həmişəxanım", Salam Qədirzadə və Süleyman Ələsgərov (30 sentyabr 1971), "Keto və Kote", Vladimir Dolidze. Tərcümə edəni Şəmsi Bədəlbəyli (20 yanvar 1973), "Hicran", Sabit Rəhman və Emin Sabitoğlu (rejissor Vaqif Ağayevlə birgə hazırlayıb. 31 mart 1973).

1957-ci ildə Aşqabad şəhərində Mahtumqulu adına Türkmənistan Dövlət Opera və Balet Teatrında Üzeyir bəy Hacıbəyovun "Koroğlu" orerasına, ADOBT-də bir sıra əsərlərə monumental quruluşlar verib.

Şəmsi Bədəlbəylinin tamaşaları əlvan cazibədarlığı, koloritli forma həlli, həssas musiqi duyumu, bütöv aktyor ansamblı ilə səciyyəvi idi.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının formalaşmasında, aktyor truppasının təkmilləşməsində Şəmsi Bədəlbəylinin xidmətləri böyükdür.

İstedadlı gənclərin teatra cəlb olunmasında, təcrübəli aktyorların yeni-yeni yaradıcılıq keyfiyyətlərinin üzə çıxıb formalaşmasında Şəmsi Bədəlbəylinin rejissor-pedaqoq kimi müstəsna rol oynayıb.

Görkəmli rejissor, bacarıqlı inzibatçı Şəmsi Bədəl oğlu Bədəlbəyli musiqili teatr sənətimizin inkişafında, onun tərəqqi yolunda göstərdiyi böyük xidmətlərə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 29 iyul 1964-cü ildə xalq artisti fəxri adları ilə təltif olunub. Bir sıra bədii filmlərə çəkilib.

Bakıda 23 may 1987-ci ildə vəfat edən sənətkar ikinci Fəxri xiyabanda dəfn olunub. Adina Bakıda küçə var.

## LÜTFƏLİ ABDULLAYEV
## (22.3.1914- 9. 12.1973)

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının yaradıcılarından biridir. Milli xalq oyun-tamaşalarının gülüş estetikasını bacarıq və həssalıqla mənimsəyib. Vəziyyət komediyalarında oynamağı xoşlayıb.

Məsxərə hərəkətləri ilə mimika-jest ifadə vasitələrindən obrazın komik xarakterini açmaq üçün istifadə edib.

Lütfəli Əmir oğlu Abdullayev 1914-cü ilin Novruz bay-ramı günü, 22 martda Nuxa şəhərində (indiki Şəki) doğulub. Oradakı yeddüllik məktəbi bitirib. Bir neçə ay Şəki fəhlə gənclər klubunun dram dərnəyində çalışıb. Burada kiçik məsxərələrdə və tərcümə olunmuş, təbdil edilmiş vodevillərdə oynayıb.

1928-ci ilin sentyabrında Bakıya gələn Lütfəli Abdullayev Dövlət konservatoriyasının valtorna sinifinin məşğələlərində iştirak etməyə başlamışdır. Vokal sənətinə marağı olduğuna görə paralel olaraq Berolskinin kursunda ifaçılıqla məşğul olmuş, səsinin oxu ölçü-quruluşunu cilalayıb müəyyən qəlibə salmışdır. Dərslərinin gedişatını müəyyən yönə salıb sistemləşdirdikdən sonra yaşının azlığına baxmayaraq, müsabiqə ilə opera teatrının xor heyətinə qəbul olunub. Tezliklə o, yardımçı aktyor kimi sözsüz və epizod rollarda, qısa vaxtdan sonra "Arşın mal alan" operettasında Vəli rolunda oynayıb.

1938-ci ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yarananda Lütfəli Abdullayev truppaya qəbul edilib. Teatr 1949-cu ilin yazında maliyyə çətinliyi ilə bağlı fəaliyyətini dayandırmalı olanda Lütfəli Abdullayev Milli Dram Teatrına keçib. Burada Tulio ("Rəqs müəllimi", Lope de Veqa), Rəşid ("Kimdir müqəssir?", Georgi Mdivani), Tağı ("Köhnə dudman", Əbdürrəhim bəy Haqverdiyev), Oddamdı ("Od gəlini", Cəfər Cabbarlı), Nadir ("Çiçəklənən arzular", Məmmədhüseyin Təhmasib) rollarında çıxış edib. İki ildən sonra o, Azərbaycan Dövlət Filarmoniyasının nəzdində estrada ansamblı kimi çıxış edən muskomediya truppasında işləməyə başlayıb.

1956-cı ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının Azərbaycan və rus bölmələri Şəmsi Bədəlbəylinin bədii rəhbərliyi ilə yenidən fəaliyyətə başlayıb. Lütfəli Abdullayev teatrın aparıcı sənətkarı kimi Musiqili Komediya Teatrının, demək olar, ən populyar, uğurlu və uzun ömürlü tamaşalarında çıxış edib. Onun yaradıcılığını üç bölümə ayırmaq olar:

kiassik operettalarda oynadığı rollar;

tərcümə əsərlərində ifa etdiyi səhnə surətləri;

çağdaş bəstəkarların musiqili komediyalarında yaratdığı koloritli personajlar.

klassik operettalardakı rollar siyahısına Üzeyir bəy Hacıbəyovun əsərlərində oynadığı Vəli və Soltan bəy ("Arşın mal alan"), Hambal, Cəfər və Məşədi İbad ("Məşədi İbad"), Zülfüqar bəy Hacıbəyovun əsərlərində ifa etdiyi Kəblə Heydər ("Evliykən subay"), Vəli və Sandro ("Aşıq Qərib"), Qulu ("Əlli yaşında cavan") obrazları daxildir.

Aktyorun milli və tərcümə klassik əsərlər əsasında müasir bəstəkarların musiqi bəstələdikləri komediyalardakı Kərim ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə və Niyazi), Qulaməli ("Dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə və musiqi tərtibçisi Şəmsəddin Fətullayev), Trufaldino ("İki ağanın bir nökəri", Karlo Haldoni və musiqi tərtibçisi Şəmsəddin Fətullayev), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə və Vasif Adıgözəlov ilə Ramiz Mustafayev), Baqqal ("Keçmişin məişət səhnələri", Mirzə Ələkbər Sabirin satirik şeirləri əsasında libretto müəllifi Soltan Dadaşov və bəstəkar Vasif Adıgözəlov) rollarını da buraya daxil etmək olar.

Tərcümə edilmiş musiqili komediyada oynadığı komik personajlar: Hamlet ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şoto Milorava), Avo ("Şirin arzular"), Çako ("Keto və Kote", Vladimir Dolidze).

Aktyorun əlvan yaradıcılığında çağdaş sənətkarların yazdıqları musiqili komediyalarda oynadığı rollar çoxluq təşkil edir. Bunlardan əsasları Möhsün ("Beş manatlıq gəlin", Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Qoşun ("Toy kimindir?", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Qəhrəman ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Dursun və Kərim kişi ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov), Məhəmməd ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Güloğlan ("Kəndimizin mahnısı", Kərim Kərimov və Zakir Bağırov), Şakir ("Qızıl axtaranlar", Həsən Seyidbəyli və Tofiq Quliyev), Dilavərzadə ("Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov), Səməndər ("Bir dəqiqə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), Hacı Kərim ("Hacı Kərimin Aya səyahəti", Qulamrıza Cəmşidi ilə Əbülfəz Hüseyni və Azər Rzayev), Murtuzov və Alanzadə, Eynəkii ("Özümüz bilərik", "O1madı elə, oldu belə" və "Milyonçunun dilənçi oğlu", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Darçmov ("Səndən mənə yar olmaz", Məhərrəm Əlizadə və Əşrəf Abbasov), Səbrəli ("Bizə bircə xal lazımdır", Qulamrıza Cəmşidi ilə Bəşir Səfəroğlu və Telman Hacıyev), Qüdrət Səda ("Haradasan, ay subaylıq?", Salam Qədirzadə və Süleyman Ələsgərov), Cabbar ("Axırı yaxşı olar", Rəfiq Zəka Xəndan və Ramiz Mustafayev), Məmmədəli ("Məmmədəli kurorta gedir", Atif Zeynallı və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Polad baba ("Dağlar qoynunda", Ədil İsgəndərov və Əşrəf Abbasov), Ələsgər ("Həmişəxanım", Salam Qədirzadə və Süleyman Ələsgərov), Mitoş ("Hicran", Sabit Rəhman və Emin Mahmudov (Sabitoğlu) obrazlarıdır.

Lütfəli Abdullayev həm də populyar kino aktyoru idi. Kinoda ilk və son dərəcə uğurlu işi Rza Təhmasibin 1945-ci ildə lentə aldığı "Arşın mal alan" filmində Vəli rolu olub. O, bu rola görə 1946-cı ildə Stalin mükafatına (sonralar "SSRİ Dövlət mükafatı" adlandı) layiq görülüb. Lütfəli Abdullayev həmçinin "Əhməd haradadır?" (Zülümov), "Ulduz" (Məhəmməd), "Qəribə əhvalat" (Kefcilov) filmlərinə çəkilib.

Öz yaradıcılığında "Qaravəlli" oyun-tamaşa estetikasının "açıq yumor" üslubundan daha çox bəhrələnən Lütfəli Abdullayev tipik xarakterlər yaratmağa üstünlük verib. Bu istiqamətdə əsasən şarjla qroteskə əsaslanıb. Zil olmayan, lakin şirin ləhcəli avazını oynadığı obrazların xarakterinə uyğunlaşdırmağı məharətlə bacarıb.

Yaradıcılıq uğurlarına və Musiqili Komediya Teatrının inkişafındakı xidmətlərinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 24 may 1960-cı ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Xalqın bütün zümrələrinin sevimli aktyorlarından olan Lütfəli Abdullayev 9 dekabr 1973-cü ildə Bakıda vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır. Bakıda adına küçə var.

## NƏSİBƏ ZEYNALOVA
## (20.4.1916- 10.3.2004)

Azərbaycan teatrsevərləri arasında "qaynana" kimi sevilən, milli Musiqili Komediya teatrının inkişafında müstəsna rol oynayan, qırx ildən çox işlədiyi sənət ocağının repertuar ağırlığını ləyaqətlə çiyinlərində daşıyan Nəsibə xanım 20 aprel 1916-cı ildə Bakıda doğulub. Atası Kərbəlayı Cahangir tanınmış tacir və sevimli aktyor idi. Azərbaycan milli realist aktyor məktəbinin banisi məhz Cahangir Zeynalov olub. İlk və yeganə övladı olanda arzu edib ki, qızı onun sənətini davam etdirsin. Ancaq bu arzusunun gerçəkiiyini görmək ataya nəsib olmayıb.

1918-ci ilin mart ayında erməni daşnakiarı Bakıda kütləvi qırğınlar törədəndə Cahangir Zeynalov ailəsi ilə İrana gedib. Sentyabrda Bakıya qayıdanda gəmidə yatalaq xəstəliyinə tutulan Cahangir Zeynalov qısa müddətdə rəhmətə gedib. Onda balaca Nəsibənin iki yaşı vardı. Buna baxmayaraq o, atasının arzusunu inamla həqiqətə çevirib. Nəsibə Zeynalova Azərbaycan realist aktyor məktəbinin ən layiqli nümayəndələrindən biri kimi formalaşıb və şöhrətlənib.

Yaradıcılığının mayası gülüş və musiqi ilə yoğrulmuş Nəsibə xanım orta məktəbdən rəqqasəlik etmiş, milli oyun havalarının mürəkkəb və lirik incəliklərinə yiyələnmişdi. 1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olub. 1937-ci ildə Bakıda, 1934-cü ildən mövsümi (aprel ayından oktyabr ayına kimi) fəaliyyət göstərən səyyar Kolxoz və Sovxoz Teatrında aktrisa işləməyə başlayıb. Bu teatr Bakıda truppa toplayır, özünə repertuar qurur, aprel ayından başlayaraq kənd təsər-rüfatının qızğın çağında rayonlara gedib tamaşalar oynayırdı. Bir il burada aktrisalıq edən Nəsibə xanım 4 aprel 1938-ci il-də yenicə yaranan Azərbaycan Dövlət Musiqili Komediya Teatrının truppasına birinci dərəcəli aktrisa götürülüb. Həmin il Bakı Teatr Məktəbinə daxil olaraq aktyorluq təhsili alıb.

Aleksandr Tuqanovdan, Məhərrəm Haşımovdan, Ağasadıq Gəraybəylidən dərs alan tələbə Nəsibə Zeynalova texnikumda oxuyarkən Katarina ("Şıltaq qızın yumşalması", Vilyam Şekspir), Elvira ("Don Juan", Jan Batist Molyer), Yelizaveta ("Mariya Stüart", Fridrix Şiller) rollarını oynayıb.

Ömrünü Musiqili Komediya Teatrı ilə bağlayan aktrisa sənət ocağının müəyyən fasilələrlə truppa, Filarmoniyanın nəzdində dəstə-ansambl şəklində fəaliyyət göstərdiyi illərdə də kollektivdən ayrılmayıb. Aktrisa milli klassik operettalarımızın tamaşalarında Gülpəri, Cahan xala, Sənəm ("Ər və arvad", "Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Mələk xanım və Kələk xanım ("Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov) kimi xarakterik səhnə obrazlarında çıxış edib.

Aktrisanın zəngin rollar qalereyasında tərcümə əsərlərində ifa etdiyi kabato və Barbale ("Keto və Kote", Vladimir Dolidze. Tərcümə edəni Şəmsi Bədəlbəyli), Ziraldina ("iki ağanın bir nökəri", Karlo Haldoni və musiqi tərtibçisi Şəmsəddin Fətullayev), Zivər xanım ("Məhəbbət gülü", türamən dramaturqu Muxtar Hüseynov və Süleyman Ələsgərov), Alma ("Şirin arzular". Tərcümə edənləri Ə.Süleymanov və Abdulla Qüdrət), Qesiya ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava. Tərcümə edəni Adil Babayev), Gülbadam ("Qız anası", ("Sevgilimin anası"), Georgi Xuqayev və A.Ovanov) rollarının xüsusi yeri var.

Nəsibə Zeynalovanın yaradıcılığının ən parlaq dövrü isə çağdaş bəstəkarların müasir mövzusu musiqili komediya əsərlərinin tamaşalarındakı bir-birindən fərqlənən komik personajların

ifası ilə bağlıdır. Bu baxımdan aktrisanın Xanpəri ("Dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə və musiqi tərtibçisi Şəmsəddin Fətullayev), Nargilə ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Şərəf və Nisə ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov), Məsmə ("Toy kimindir?", Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Züleyxa ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Tükəz ("Hacı Qara". Mirzə Fətəli Axundzadənin əsəri əsasında Şəmsi Bədəlbəylinin işləməsi və bəstəkarlar Vasif Adıgözəlovla Ramiz Mustafayev), Tərlan ("Ürəkçalanlar", Məmməd Səid Ordubadi və Fikrət Əmirov), Zemfira ("Kəndimizin mahnısı", Kərim Kərimov və Zakir Nərimanov), Rəxşəndə ("Qızıl axtaranlar", Həsən Seyidbəyli və Tofiq Quliyev), Münəvvər ("Bir dəqiqə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), Kəblə Fatma ("Hacı Kərimin Aya səyahəti", Qulamrza Cəmşidi ilə Əbülfəz Hüseyni və Azər Rzayev), Şölə xanım, Xeyransa, Matan ("Özümüz bilərik", "Sevindik qız axtarır" və "O1madı elə, oldu belə", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Mərcan ("Səndən mənə yar olmaz", Məhərrəm Əlizadə və Əşrəf Abbasov), Cəhri xala ("Altı qızın biri Pəri", Məhərrəm Əlizadə və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Əsınət ("Ev bizim, sirr bizim", Novruz Gəncəli və Şəfiqə Axundova), Cənnət xala ("Qaynana", Məcid Şamxalov və Zakir Bağırov), Gülyanaq ("Haradasan, ay subaylıq?", Salam Qədirzadə və Süleyman Ələsgərov), Fatma xala ("Axırı yaxşı olar", Rəfiq Zəka Xəndan və Ramiz Mustafayev), Rəxşəndə ("Bir dəqiqə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), Zeynəb, Cəmilə ("Boşanaq, evlənərik" və "Nənəmin şahlıq quşu", Əliağa Kürçaylı və Vasif Adıgözəlov), Cəlbi ("Beş manatlıq gəlin", Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Səltənət ("Dağlar qoynunda", Ədil İsgəndərov və Əşrəf Abbasov), Qızbacı ("Hicran", Sabit Rəhman və Emin Sabitoğlu), Nazxanım ("Nazxanım naz eləyir" Məhərrəm Əlizadə və Nazim Əliverdibəyov), Güləndam ("Qonşumuzda bir oğlan var", Məhərrəm Əlizadə və Ramiz Mustafayev), Fatma ("Həyatim mənim, həyatım mənim", Cahangir Məmmədov və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Ballı ("Qızıl toy", Ramiz Heydər və Oqtay Kazımov), Qəmər ("Nəğməli Könül", Xalidə Hasilova və Emin Sabitoğlu) rollarının əvəzsiz ifaçısı sayılır.

Xüsusilə, Cənnət xala, Nargilə, Züleyxa rolları zəngin ifadə vasitələri, yumorun milliliyi, təbii reallığı ilə səhnəmizin nadir inciləri sırasında durur.

Azərbaycan televiziyasında onlarla yumoristik səhnəciklərdə, teletamaşalarda, intermediyalarda çıxış etmiş Nəsibə Zeynalova həmçinin "Azərbaycanfilm"in çoxlu ekran əsərlərinə çəkilib. Kino obrazları içərisində Fatmanisə ("Ögey ana"), Telli ("Böyük dayaq"), Züleyxa ("Ulduz"), Cənnət xala ("Qaynana"), Gülsüm ("Molla Fətəlinin sərgüzəşti"), Əsli xala ("Bəyin oğurlanması") rolları daha canlı və daha şöhrətlidir.

Musiqili teatrımızın inkişafında böyük xidmətlərinə görə Nəsibə xanım 24 may 1960-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1967-ci ildə xalq artisti fəxri adına layiq görülüb. "Hicran" musiqili komediyasındakı Qızbacı roluna görə Azərbaycan Dövlət Mükafatı Laureatıdır. 1974-cü ildə Rauf Kazımovski onun yaradıcılığı barədə "Aktrisanın təbəssümü" televiziya filmi çəkib.

Nəsibə Zeynalovanın obrazları həyatiliyi və real bədii təsvirləri ilə həmişə orijinal görünüb. Aktrisa gözlənilməz, ancaq mənalı və ifadəli, dadlı və şirəli ifadə vasitələrilə cilvələnən improvizənin mahir ustası idi.

Rəqs, mahnı (yaxud reçitativ) və hərəkətlərdən eyni epizodda, hətta eyni məqamda yüksək peşəkarlıqla istifadə edib. Xalq yumorunun, "Qaravəlli" oyun tamaşalarının, lətifə söyləmələrinin estetik oyun-göstərmə prinsiplərindən həssaslıqla barınıb.

Tipajlığın bədii dəyərlərinə tam yiyələnməklə tipik xarakter yaratınağa üstünlük verib və bu istiqamətdə obrazın məzmun-forma vəhdətini vacib şərt kimi dəyərləndirib.

Obrazın xarakterini hərəkətdə (yeriş, duruş, oturuş və sairə) koloritli tərzdə verməkdə muskomediya teatrında Nəsibə xanıma tay aktrisa olmayıb.

Nəsibə xanım klassik operettalarda obrazın sözlərinə qarşı çox həssas idi və təhrifə, yaxud əlavəyə qətiyyən yol verməzdi. Ancaq librettosu zəif musiqili komediyalarda ifa etdiyi rolun

sözlərini dəyişər, dialoqların məntiqini gücləndirər, vəziyyətə uyğun deyimlər, cümlələr qurardı. Bu axtarış tamaşadan-tamaşaya davam edər, bəzi əlavələr olar, müəyyən ixtisarlar aparılar, tapmtılar cilalanardı.

Aktrisa məişət yumorunu incə ştrixlərlə ictimai-sosial mahiyyətə yönəldərdi.

Satirik boyaları müəyyən rollarda qrotesk səviyyəsinə qaldırır, boyalardan gen-bol istifadə edir, ancaq heç vaxt janrın estetik prinsip və meyarlarını pozmurdu.

Nəsibə Zeynalova 10 mart 2004-cü ildə Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

## BƏŞİR SƏFƏROĞLU (11.3.1925- 23.3.1969)

Musiqili komediya Teatrında ciddi yumorun sənət keşikçilərindən olan, həm yumorlu, həm satirik, həm qrotesk, həm də buffonada elementli personajların məharətli ifaçısı, xarakterik satira obrazlarına psixologizm aşılamaqda səriştəli hesab edilir.

Bəşir Səfəroğlu (Səfərov) 11 mart 1925-ci ildə Bakıda doğulub. Yeddiillik təhsilini Bakıda alıb və ailə vəziyyətinin ağırlığı ilə əlaqədar məktəbdən uzaqlaşmalı olub.

On dörd yaşlarından şoferlər klubunun dram dərnəyinə gedib. Kiçik intermediyalarda, birpərdəli məsxərələrin tamaşalarında kiçik rollar oynayıb.

1941-ci ilin axırlarında faşistlərlə müharibəyə yollanan Bəşir 1942-ci ildə hərbdən kontuziyalı qayıdıb. Dili tutulub və qulaqları çox ağır eşidib.

Bir müddət fəhlə, yük maşınının sürücüsü işləyib. Rejissor Niyaz Şərifov ona məsləhət görüb ki, müntəzəm olaraq teatrın tamaşalarına gəlsin. O, tamaşalara baxmağa başlayıb. Bir müddət sonra isə onu truppaya aktyor qəbul ediblər. Yaradıcılıq ehtirası ilə çırpınan Səfəroğlu həyəcanlanır, daxili iztirablar keçirirdi. Ömrünün bu gərgin çağlarında o, yuxuda bərk həyəcanlanıb və bununla da dili açılıb. Həmin vaxtdan Bəşir Səfəroğlunun zəngin aktyorluq tarixçəsi başlayıb.

Bəşir Səfəroğlu Üzeyir bəy Hacıbəyovun və Zülfüqar bəy Hacıbəyovun kiassik operettalarında, əsasən isə çağdaş dramaturq və bəstəkarların musiqili komediyalarında müxtəlif xarakterli, satirik, yumorlu, məzhəkəli rollarda çıxış edib.

Aktyor yaradıcılığında xüsusi yer tutan əsas rolları: Möhsün ("Beş manatlıq gəlin", dramaturq Məmməd Səid Ordubadi və bəstəkar Səid Rüstəmov), Qaradavoy və Çiko ("Keto və Kote", Vladimir Dolidze), Usta Məhərrəm, Qoçu Əsgər və Məşədi İbad ("Məşədi İbad", Üzeyir bəy Hacıbəyov), Uzun və Nəcəf ("Durna", Süleyman Rüstəm və Səid Rüstəmov), Qədir və Gülümsərov ("Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov), Səlyanski və Qəhrəman ("Gözün aydın", Məhərrəm Əlizadə və Fikrət Əmirov), Ohan yüzbaşı və Hacı Qara ("Xəsis", Mirzə Fətəli Axundzadənin əsəri əsasında Şəmsi Bədəlbəylinin işləməsi. Bəstəkarlar Vasif Adıgözəlov və Ramiz Mustafayev), kazbek ("Kəndimizin mahnısı", dramaturq Kərim Kərimov, şeirlərin müəllifi Ənvər Əlibəyli və bəstəkar Zakir Bağırov), Şulu, Muxtar bəy ("Əlli yaşında cavan" və "Evliykən subay", Zülfüqar bəy Hacıbəyov), Mir İsmayıl ("Qızıl axtaranlar", Həsən Seyidbəyli və Tofiq Quliyev), Baləmi ("Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov), Qiya ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava), Əli Dinməzov ("Bir dəqiqə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), Hacı Kərim ("Hacı Kərimin Aya səyahəti", dramaturqlar Qulamrza Cəmşidi ilə Əbülfəz Hüseyni və bəstəkar Azər Rzayev), Qoçu ("Keçmişin məişət səhnələri", Soltan Dadaşov və Vasif Adıgö-zəlov), Nadir və Azay ("Qızılgül", Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Murtuzov, Dayandur, Polis rəisi ("Özümüz bilərik", "O1madı elə, oldu belə" və "Milyonçunun dilənçi oğlu", Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Darçmov ("Səndən mənə yar olmaz", Məhərrəm Əlizadə və Əşrəf Abbasov), Firuzbala ("Altı qızın biri Pəri", Məhərrəm Əlizadə və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Səbrəli ("Bizə bircə xal lazımdır", Qulamrza Cəmşidi ilə Bəşir Səfəroğlu və Telman Hacıyev), Qasiyane ("Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava. Tərcümə edəni Adil Babayev), Əsgər Nəcəfoviç ("Ləpələr", Əliağa Kürçaylı və Arif Məlikov).

Bəşir Səfəroğlu "Azərbaycanfilm"in istehsal etdiyi "Əhməd haradadır?" və "Ulduz" filmlərində Sərxoş və Gülümsərov, "Tacikfilm"in çəkdiyi "Xoca Nəsrəddinin 12 qəbri" kinolentində Xacə Nəsrəddin rollarını ifa edib.

Altmışmcı illərin ortalarında Azərbaycan Dövlət Filarmoniyasında "Gəlməli, görməli, gülməli" miniatür teatrı təşkil olunub. Onun üzvləri xalq artisti Əliağa Ağayev, əməkdar artist Müxlis Cənizadə, aktrisa Ofeliya Abbasova (Məmmədzadə) və Bəşir Səfəroğlu idilər. Bu kollektivdə Bəşir Səfəroğlu onlarla satirik obraz yaradıb.

Rejissor Rauf Kazımovski görkəmli gülüş ustası Bəşir Səfəroğlu haqqında eyni adlıbədii sənədli televiziya filmi çəkib.

Sənət uğurlarına görə 29 iyun 1964-cü ildə Bəşir Səfəroğluna Azərbaycan Respublikasının əməkdar artisti, 25 iyun 1968-ci ildə xalq artisti fəxri adları verilib.

Bəşir Səfəroğlunun yumor ifadələri çox zəngin idi. Onun satirası zahirən "sakit", daxilən vulkan püsKürən, fəvvarəli, Çilğın, hədəfi sərrast seçən satira idi.

Obrazın ifasında məzmun və forma vəhdətinə xüsusi fikir verirdi. Görkəmli komediya aktyorunun kiçik övladı Afaq Bəşirqızı atasının yolunu davam etdirir. O, xalq artistidir və Azərbaycan Dövlət Musiqili Komediya Teatrında işləyir.

Şöhrətli sənətkar Bəşir Səfəroğlu Bakıda 44 yaşına yenicə qədəm basanda 23 mart 1969-cu ildə vəfat edib. Məzarı Bakida Fəxri xiyabandadır.

## AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRI

Bakida XIX əsrin sonlarından daimi fəaliyyət göstərən rus truppaları olub. Onlardan ən fəalı və ən uzunömürlüsü Polonskinin rəhbərlik etdiyi teatr dəstəsi idi. Bu kollektiv iyirmi ildən çox Tağıyev teatrında çalışıb. Özünün sabit repertuarı, zəngin rekvizit və geyim sexləri, çoxlu hazır dekor-tərtibatları olan truppa həftədə beş gün tamaşa göstərib. Məhz Polonskinin razılığı və icazəsi ilə Tağıyev teatrının binası cümə günləri azərbaycanlıların müxtəlif teatr dəstələrinə kirayə verilib. 1918-ci ilin fevral ayında bina dəhşətli yanğına məruz qalıb. Bundan sonra truppa dağılmağa başlayıb.

1920-ci ilin yazında Rusiyanın "Yarasa" teatrı Bakıya qastrola gəlib. Aprel ayında Qırmızı ordunun Azərbaycanı ilhaq etməsi ilə bağlı "Yarasa" teatrının qastrolu yarımçıq qalıb, kollektiv dağılıb. Truppanın bəzi üzvləri vətənə qayıtmayaraq Bakıda qalıblar. Onların və yerli aktyorların qüvvələri ilə sovet ideologiyasını təbliğ etmək məqsədilə Bakıda Dövlət Azad Tənqid və Təbliğ Teatrı ("Satiragit" teatrı) yaradılıb. Yaradıcılıq qayəsi sırf ideologiya üzərində qurulan teatr ilk tamaşasını 1920-ci il dekabr ayının 20-də göstərib. Birinci tamaşanın proqramına estrada janrına uyğun olan "Lenin rapsodiyası", "Tutuquşu", "Karusel" kiçik həcmli səhnəcik-kompozisiyalar daxil idi. Teatrın repertuarı tez-tez dəyişilirdi və onun əsasını təbliğat xarakterli və kiçikhəcmli pyeslər təşkil edirdi.

Teatr Bakının fəhlə rayonlarına müntəzəm qastrollara çıxırdı. Tədricən yaradıcılıq xarakteristikası dəyişilən kollektiv 1923-cü ildə Bakı İşçi Teatrı (bəzən Bakı Rus İşçi Teatrı yazılıb) adlanıb. Repertuarda inqilabi xarakterli pyeslər üstünlük təşkil edirdi. Teatr öz repertuarına əsasən SSRİ-nin müxtəlif şəhərlərində fəaliyyət göstərən eyni xarakterli sənət ocaqlarında oynanılan pyesləri daxil edirdi. Bu baxımdan "Lyubov Yarovaya" (Konstantin Trenyov), "Zirehli qatar 14 - 69" (Vsevold İvanov), "Hücum" (Vladimir Bill-Beloserkovski), "Çörək" və "Küləklər şəhəri" (Vladimir Kirşon), "Nikbin faciə" (Vsevold Vişnevski), "Ana" (Maksim Qorki), "Mənim dostum" və "Sürət" (Nikolay Poqodin), "İntervensiya" (Lev Slavin), "Platon kreçet" və "Eskadranın məhvi" (Aleksandr Korneyçuk), "Şöhrət" (Vasili Qusev), "Çantalı adam" (Aleksey Fayko) tamaşaları teatrın yaradıcılığında xüsusi yer tutub.

İnqilabi ideologiyanın təbliği sahəsində xidmətlərinə və yaradıcılıq uğurlarına görə 1930-cu ildə teatra Qırmızı Bayraq ordeni verilib. Teatrın adı afişalarda və tamaşa proqramlarında Bakı Qırmızıbayraqlı İşçi Teatrı kimi yazılıb.

Tədricən yaradıcılıq xarakteristikası dəyişən, mövzu dairəsi, janr axtarışları genişlənən teatr 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı adlanır. 1956-cı ildə kollektivə şair-dramaturq Səməd Vurğunun adı verilib.

Keçdiyi 85 İllik yaradıcılıq yolunda ADRDT-nin əlvan və zəngin repertuarı olub. Onu şərti olaraq üç bölümə ayırmaq olar:

dünya klassiklərinin məşhur əsərlərinin tamaşaları;

rus klassiklərinin pyeslərinin tamaşaları;

çağdaş dünya və rus dramaturqlarının müasir mövzulu dram əsərlərinin tamaşaları;

Azərbaycanın kiassik və müasir sənətkarlarının pyeslərinin tamaşaları.

Azərbaycan müəlliflərinin tamaşaya qoyulmuş və uğur qazanmış səhnə əsərləri: "Xırs quldurbasan" və "Lənkəran xanının vəziri" (Mirzə Fətəli Axundzadə), "Şeyx Sənan" (Hüseyn Cavid), "Aydın", "Sevil" və "1905-ci ildə" (Cəfər Cabbarlı), "Vaqif", "Fərhad və Şirin" və "Xanlar" (Səməd Vurğun), "Şərqin səhəri" (Ənvər Məmmədxanlı), "Kəndçi qızı" (Mirzə İbrahimov), "Sən həmişə mənimləsən" (İlyas Əfəndiyev), "Sən nə üçün yaşayırsan?..", "Dəniz cəsurları sevir" (İmran Qasımov və Həsən Seyidbəyli), "Xəzər üzərində şəfəqlər" və "Ömür elə qısadır ki..." (İmran Qasımov), "Sahillər və talelər" (Nəbi Xəzri), "Gecə yarısı kim gələcək?" (Maqsud və Rüstəm İbrahimbəyov), "Ultimatum", "Park", "Yaşıl qapı arxasında qadın", "İstintaq", "Qum üzərində ev",

"Bir ailə üçün yaylaq evi", "Öz yolu ilə" (Rüstəm İbrahimbəyov), "Şəhərin yay günləri" (Anar), "Ah, Paris... Paris!.." və "Mənim ərim dəlidir" (Elçin), "Qətl günü" (Yusif Səmədoğlu).

Yaradıcılığı formalaşdığı ilk illərdən teatr bədii axtarışlarını, özünün sənət estetikasını müxtəlif klassik dramaturq-ların dünya şöhrətli pyesləri hesabına daha da zənginləşdirib. Bu səhnədə Vilyam Şekspirin "Otello", "Şıltaq qızın yumşalması", "On ikinci gecə", "Romeo və Cülyetta", Karlo Haldoninin "Mehmanxana sahibəsi", "İki ağanın bir nökəri", Lope de Veqanın "Kələkbaz sevgili", "Nə yardan doyur, nə əldən qoyur", Jan Batist Molyerin "Tartüf", "Jorj Danden", Fridrix Şillerin "Məkr və məhəbbət", "Don Karlos", "Mariya Stüart", Viktor Hüqonun "Paris Notrdam kilsəsi", "Mariya Tüdor", Bernard Şounun "Missis Uorrenin peşəsi", "Milyonçu qadın", "Sezar və Kleopatra", "Piqmalion", Henrix İbsenin "Nora", Bertolt Brextin "Kuraj ana" əsərləri tamaşaya hazırlanıb.

RDT rus klassiklərindən Aleksandr Ostrovskinin "Meşə", "Cehizsiz qız", "Quduz pullar", "Günahsız müqəssirlər", "Tu-fan", "Talantlar və pərəstişKarlar", "Beluqinin evlənməsi", "Qurdlar və qoyunlar", "Son qurban", Nikolay Qoqolun "Mü-fəttiş", Mixail Lermontovun "Maskarad", Lev Tolstoyun "Anna Karenina", "Canlı meyit", Anton Çexovun "Vanya dayı", "Qağayı", "Albalı bağı", Maksim Qorkinin "Meşşanlar", "Günəş övladları", "Həyatın dibində", "Yeqor Bulıçev və başqaları", "Zikovlar", "Sonuncular", Aleksandr Suxovo-Kobılinin "Kreçinskinin toyu", Fyodor Dostoyevskinin "Alçaldılmışlar və təhqir olunmuşlar", "Cinayət və cəza" əsərlərini müxtəlif üslublu rejissorların monumental quruluşlarında oynayıb.

Müasirlik axtarışları teatrın yaradıcılıq qayəsinin əsasını təşkil edib. Həmin istiqamətdə Vladimir Mayakovskinin "Hamam", Aleksandr Şteynin "Şəxsi iş", Sergey Mixalkovun "Xərçənglər", Vasili Şkvarkinin "Özgə uşağı", Branislav Nuşiçin "Filosof doktor", Eduardo de Flipponun "İnsan və centlmen", "Filumena Marturano", Con Qordonun "Entoni Qrantın cinayəti", Epux Remarkin "Son dayanacaq", Nazim Hikmətin "Demoklisin qılıncı", Viktor Rozovun "Qeyri-bərabər döyüş", Lev Şeyninin "Qaydasız oyun", İsidor Ştokun "Leninqrad prospekti", Aleksandr Vampilovun "Böyük oğul", "Ötən yay Çulimskdə", "Əyalət lətifələri", Aleksey Arbuzovun "Sərt oyun", Edmon Rostanın "Sirano de Berjarek", Gilerma Fiqeyredunun "Tü1kü və üzüm" ("Ezop"), Aleksis Parnisin "Afrodita adası", V.Blajekin "Təmtəraqlı ziyafət", Mi-xail Bulqakovun "İvan Vasilyeviç", Samuil Alyoşinin "Başqa qadın", Leonid Zorinin "Varşava melodiyası", Mixail Zoşşen-konun "Parusin çanta", Mar Bayciyevin "Duel", Jan Anuyun "Oğruların ziyafəti", "Antiqona", Vadim korostılevin "Ko-mandorun addımları", Mixail Roşşinin "Valentin və Valentina", Vasili Şukşinin "İşgüzar adamlar", Aleksandr Gelmanın "Mükafat", Henri Borovikin "Buenos-Ayresdə müsahibə", Mixail Şatrovun "Mənim Nadejdalarını", Aleksey Kolomiytisin "Vəhşi mələk" pyeslərinin tamaşaları müxtəlif dövrlərdə kollektivin mövzu axtarışlarına əlvanlıq gətirib, üslub yenilikləri ilə səciyyəvi olub.

Azərbaycanlı rejissorlar Ədil İsgəndərov, İsmayıl Hidayətzadə, Tofiq Kazımov, Eldar Əliyev RDT-də tamaşalar hazırlayıblar. Məhərrəm Haşımov, Ənvər Behbudov, Mehdi Məmmədov, Gülcahan Güləhmədova, Cənnət Səlimova ayrı-ayrı illərdə teatrda baş rejissor işləyiblər. Kollektivdə Sergey Mayorov, Aleksandr Qripiç, Konstantin Stepanov-Kolosov, Aleksandr İvanov, Arseni Ridal, David Qutınan, Georqi Georqiyevski, B.Velikanov, Pyotr Yudin, Vladimir Şveytser, Vasili Fyodorov, Yakov Yaroslavski kimi istedadlı rejissorlar çalışıblar.

Teatrda oynanılan tamaşalara məşhur rəssamlar Sergey Yefimenko, Vyaçeslav İvanov, Nikolay Ovçinnikov, Fyodor Qusak, Rüstəm Mustafayev, Nüsrət Fətullayev, Bədurə Əfqanlı, Elçin Məmmədov, Tahir Tahirov, Ağarəhim Əliyev, Yuri Toropov bənzərsiz janrlarda səhnə tərtibatları veriblər. Bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Xəyyam Mirzəzadə teatrla sıx yaradıcılıq əlaqələri saxlayıblar.

Səksəli beş illik fəaliyyəti dövründə teatrda sonralar Moskvanın sənət ocaqlarında yaradıcılıqlarını davam etdirən, SSRt xalq artisti fəxri adına layiq görülmüş Mixail Jarov, Faina Ranevskaya, Boris İlin, Azərbaycan Respublikasının xalq artistləri Antonina Filippova, Viktor

Şarlaxov, Konstantin Myakişev, Nikolay Şulqin, Viktor Baykov, Yuzef Çarski, Pyotr Jarikov, Vladimir Otradinski, E. Tareyeva, Aleksandra Suvirova, Marqarita Annekso, Pyotr Yudin, Kseniya Babiçeva, Vera Şirye, Raxil Ginzburq, Sergey Yakuşev, Nina Sarnatskaya, Konstantin Adamov, Dina Tumarkina, Anatoli Falkoviç, Mixail Aduşev kimi şöhrətli aktyorlar işləyiblər.

Məşhur sənətkarlar Fuad Poladov, Lüdmila Duxovnaya, Murad Yegizarov hazırda kollektivin truppasında çalışırlar.

Teatrın baş rejissoru əvvəllər kollektivin aparıcı aktyorlarından olan, xalq artisti Aleksandr Şarovskidir.

* * *

**Məhərrəm Haşımov**
**(2.2.1912 - 2.5.19691)**

Sənət fəaliyyətində yaradıcılıqla bərabər, inzibati təşkilatçılıq bacarığı da formalaşmışdır. O, 1948-ci ildən 1951-ci ilə qədər Azərbaycan Dövlət Rus Dram Teatrında direktor və quruluşçu rejissor kimi çalışmışdır. 1956-cı ildə isə qazandığı möhtəşəm sənət nailiyyətlərinə görə yenidən Rus Dram Teatrına göndərilərək güclü truppaya malik kollektivin baş rejissorluğu ona tapşırılmışdır. Bu vəzifədə 1960-cı ilə kimi coşğun daxili həvəslə, ciddi yaradıcılıq ehtirası ilə çalışmışdır.

ADOBT-də (1951-1956) və "Azərbaycanfilm" kinostudiyasında direktor işləmişdir (1960 - 1965). Eyni zamanda Incəsənət İşləri İdarəsinin rəisi olmuşdur.

1966-cı ildə Rus Dram Teatrına qayıdaraq kollektivə yenə baş rejissorluq etmişdir.

Uzun illər Azərbaycan Dövlət Teatr İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olmuş, tələbələrə rejissor və aktyor sənətinin sirlərini öyrətınişdir.

Məhərrəm Kazım oğlu Haşımovun Azərbaycan Dövlət Rus Dram Teatrında rejissorluq fəaliyyətinin əsas məğzində müasir fəlsəfi-realist teatr yaratmaq məqsədi dururdu. Əsas işləri "Döngədə ev" (Tur qardaşları. 1949), "Xəzər üzərində şəfəqlər" (İmran Qasımov. 1950), "Balıqçı oğlu" (Vilis Latsis. 1953), "Dəniz cəsurları sevir" (İmran Qasımov və Həsən Seyidbəyli. 1954), "Entoni Qrantın cinayəti" (Cerald Qordonun romanı əsasında. 1956), "Aydın" (Cəfər Cabbarlı. 1957), "Yasəmənlər ÇİÇək açanda" Nmolay Vinnikov. 1957), "Hamam" (Vladimir Mayakovski. 1959), "Maskarad" (Mixail Lermontov. 1959), "İrautsk əhvalatı" (Aleksey Arbuzov. 1960), "Kino çəkilir..." (Edvard Radzinski. 1966), "Teleqramla hekayət" (V. Osipov. 1966), "Milyonçu qadın" (Bernard Şou. 1966), "İntervensiya" (Lev Slavin. 1967), "Ənənəvi toplanış" (Viktor Rozov. 1968) tamaşalarına verdiyi quruluşlardır.

İmran Qasımovun "Xəzər üzərində şəfəqlər" pyesinə Azərbaycan Dövlət Rus Dram Teatrında verdiyi quruluşa görə Məhərrəm Haşımov və tamaşanın bir qrup yaradıcı heyəti rəssam Sergey Yefimenko, aktyorlardan Konstantin Myakişev (Hüseynov), Boris Çinkin (Nəcəfov), Viktor Şarlaxov (Məmmədov), Pyotr Yudin (Poladov) 1951-ci ildə SSRİ Dövlət mükafatına layiq görülüblər. 1969-cu ildə isə "Demoklisin qılmcı" (Nazim Hikmət), "Maskarad", (Mixail Lermontov) və "Kino çəkilir..." (Edvard Radzinski) tamaşalarına verdiyi monumental quruluşlara görə rejissor Mirzə Fətəli Axundzadə adına Respublika mükafatı laureatı adını alıb.

**Cənnət Səlimova**
**(20 yanvar 1940)**

Bakıda doğulub. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Elə həmin il Leninqrad Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsinə daxil olub və görkəmli sənətkar Georgi Tovstonoqovdan beş il dərs alıb. Diplom tamaşası 1967-ci ildə RDT-də hazırladığı "Nağıl möcüzəsi" (Karney Çukovski) səhnə əsəri olub. Müxtəlif illərdə Sumqayıt Dövlət Dram Teatrında, Akademik Milli Dram Teatrında, Musiqili Komediya Teatrında, Gənc Tamaşaçılar Teatrında tamaşalar hazırlayıb. Opera və Balet Teatrında bəstəkar Əfrasiyab Bədəlbəylinin "Söyüdlər ağlamaz", Fikrət Əmirovun "Sevil", Cüzeppe Verdinin "Traviata", Rucero Leonkovallonun "Məzhəkəçilər", Cakomo Puççininin "Bohema" operalarına quruluş verib. 1990-cı ildən özünün yaratdığı Bakı kamera Teatrının bədii rəhbəridir.

Cənnət Əlibəy qızı Səlimova 1968 - 1990-cı illərdə RDT-də quruluşçu rejissor və baş rejissor işləyib. Bu teatrda daha uğurlu quruluşları Anton Çexovun "Vanya dayı" (1968) və "İvanov" (1980), Fyodor Dostoyevskinin "Cinayət və cəza" (1971), "İdiot" (1973), Karlo Haldoninin "Mehmanxana sahibəsi" (1972), Bertolt Brextin "Kuraj ana" (1974), Hüseyn Cavidin "Şeyx Sənan" (1983), Cəfər Cabbarlının "Aydın" (1985), Marqaret Dyüranın "Tamaşaçıların baxması qadağandır" (1990) tamaşaları sayılır.

Sənətdə qazandığı nailiyyətlərə görə Cənnət Səlimova Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (1976) və xalq artisti (24 may 1998) fəxri adlarına layiq görülüb.

## BAKI TÜRK İŞÇİ TEATRI

Bu teatrın adı özünün on iki illik yaradıcılıq dövründə üç dəfə dəyişib. Teatr ayrı-ayrı illərdə aşağıdakı müxtəlif adlarla fəaliyyət göstərib:

**Bakı Azad Türk Tənqid və Təbliğ Teatrı (1921 - 1925, may);**
**Bakıı Türk İşçi və Kəndli Teatrı (1925 - 1927, aprel);**
**Bakı Türk İşçi Teatrı (1927 - 1932, 28 dekabr).**

Teatr Azərbaycanda sovet quruluşunun siyasi və ictimai-sosial ideyalarını təbliğ etmək məqsədilə Xalq komissarları Şurasının qərarı ilə yaradılıb. Əvvəlcə 16 nəfərdən ibarət komissiya müəyyən edilib. Münsiflər heyəti Akademik Milli Dram Teatrının aktyor truppasının sənətkarlarından Mirzağa Əliyevi, Hacıağa Abbasovu, Əhməd Qəmərlini, Mirmahmud Kazımovskini, Rüstəm Kazımovu, Sidqi Ruhullanı (rejissor kimi) və bu kimi şöhrətli aktyorları təzə kollektivə dəvət edib.

Teatr açılış üçün birpərdəli "Çərxi fələk" (Süleyman Sani Axundov), "Sabotajçılar" (Məmməd Səid Ordubadi), "Yazıya pozu yoxdur" (Abdulla Şaiq) pyeslərini tamaşaya hazırlayıb. İlk tamaşa 1921-ci il noyabr ayının 13-də, indiki Azərbaycan Dövlət Kukla Teatrının binasında göstərilib. Tamaşaların arasında konfransye funksiyasını icra edən Mirzağa Əliyev və Hacıağa Abbasov satirik kupletlər və ictimai-sosial mahiyyətli, məişət mövzulu meyxanalar söyləyiblər.

Üç il teatr həmin prinsiplə tamaşalar göstərib. Bu məqsədlə teatr Əliağa Vahid, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı ilə və satirik şeirlər yazan digər müəlliflərlə sıx yaradıcılıq əlaqəsi yaradıb.

Teatr ictimaiyyəti arasında, ayrı-ayrı mətbuat səhifələrində yeni kollektivin adı "Hökumət Türk Tənqid və Təbliğ Teatrosu", "Tənqid və Təbliğ Teatrı", "Satiragit" kimi də deyilib. Hətta aparıcı aktyorlar Mirzağa və Hacıağanın şərəfinə "Hacımirzə" teatrı da adlanıb.

Tənqid və Təbliğ Teatrının çağırış mahnısı olub. Hər gün pərdə "Satiragit ayinədir açmağa xalqın gözünü, görəcəkdir baxsa bu ayinədə hər kəs özünü" misraları ilə başlayan mahnının təranələri altında açılıb. Həmin çağırış-leytınotivin sözlərini Əliağa Vahid yazıb.

Öz tamaşaçılarının əsasən teatra təzə ayaq açan fəhlə və kəndlilərdən (Bakının kəndlərindən teatra böyük axın vardı) ibarət olduğunu nəzərə alan kollektiv ifadə vasitələrində sadəliyə, salondakılarla qarşılıqlı dialoqa can atırdı.

Tamaşalarda istifadə edilən asma pərdələr, salonda və foyedə qurulmuş dayaqlı lövhələr sırf təbliğat funksiyası daşıyırdı. Həmin lövhə və pərdələrin üzərinə müxtəlif çağırışlı Şüarlar, plakatlar bəndlənirdi. Kupletlər son dərəcə aktual, bədii cəhətdən bitkin, mövzu-problematika sarıdan əhatəli olurdu. Müəlliflər çalışırdılar ki, tənqidin ünvanı aydın oldu-ğu kimi, dili də sadə tamaşaçılar üçün tez anlaşılsın, asan qavranılsın. Əliağa Vahidin və Cəfər Cabbarlının gündəlik məişət məsələlərindən, xüsusilə kommunal, ticarət, nəqliyyat xidmətlərindəki qüsur və bərbadlıqlardan bəhs edən meyxanaları, satirik kupletləri təsirli, effektli olurdu. Mövhumatın, nadanlığın, məişət pozğunluğunun ifşasına xüsusi tamaşalar həsr edilirdi.

Aktual mövzu, ideoloji təbliğat baxımından pyes qıtlığı ilə üzləşən teatr Rusiyanın müxtəlif şəhərlərindəki eyni tipli teatrların repertuarlarındakı məsxərələri, sketçləri, məzhəkə-vodevilləri azərbaycancaya təbdil edib oynayırdı. Həmin tamaşalarda dövlətin ideoloji çağırışları, günün aktual siyasi, ictimai, sosial problemləri qabarıq nəzərə çarpdırılırdı.

Fəaliyyətinin ikinci ilində teatrın hazırladığı üç-dörd yeni tamaşanın bir gündə oynanılması dövrə (siki, silsilə) adlanırdı. Dövrələr sıra ardıcılhğı ilə nömrələnirdi. Bəzən bir döv-rənin hansısa tamaşası əvvəllər oynanılan digər dövrənin müəyyən səhnə əsəri ilə əvəz edilirdi.

Tədricən Tənqid və Təbliğ Teatrı forma və üslub xüsusiyyətlərini, estetik qayəsini, mövzu dairəsini, yaradıcılğının ideoloji mahiyyətini, siyasi platformasını dərindən mənimsəyən müəllifləri öz ətrafında sıx birləşdirdi. Hətta teatrın aktyorları Mirzağa Əliyev, Hacıağa Abbasov, Əhməd Anatollu, Əhməd Qəmərli, Mirmahmud Kazımovski də kiçik pyeslər yazırdılar.

1922 - 1925-ci illərdə yüzdən çox səhnə əsəri hazırlayan teatrın oynadığı səhnə əsərləri arasında Abbas Səhhətin "Tağı və Nağı", Səməd Mənsurun "Aktyor", "Dərviş", "Cinayət", Hacıağa Abbasovun "Ağa Məhəmməd Şah Qacar Qarabağda və yaxud Molla Pənah Vaqif", "Sabirin məhkəməsi", "Rur macərası", "İnqilab şərarələri", Mirzağa Əliyevin "Vəzirin gözləri", "Vaqonda", "Qısqanclıq", "Məşədi evlənir", Əhməd Qəmərlinin "Toy", "Arşın mah", "Uşaq duası", Süleyman Sani Axundovun "Şahsənəm və Gülpəri", "İki yol", "Şeytan", "Mərc", Cəlil Məmmədquluzadənin "Kamança", "Konsulun arvadı", Əbdürrəhim bəy Haqverdiyevin "Məşədi Qulam", "Qırmızı qarı", "Vaveyla", Mürşüd (Balaqardaş) Səttaroğlunun "Dəmiryol qurdları", Məmməd Səid Ordubadinin "İşsizlər", "Şamaxı-vağzal", Hacıbaba Nəzərlinin "Cənnət", Mirmahmud Kazımovskinin "Molla Cəbi", Məmmədsadıq Əfəndiyevin "Parisdə Məşədi İbadın toyu", Seyid Hüseynin "Savab", təbdil olunmuş "Qırmızı xoruz", "Dərə xəlvət, tülkü bəy", "Qırıq ayna" dramlarının tamaşaları daha maraqla qarşılanıb.

Oynanılan tamaşalara səhnə quruluşlarını David Qutman, Sidqi Ruhulla, Ələkbər Süheyli, Yevgeni Muromski veriblər. Əzim Əzimzadə səhnə tərtibatı ilə bağlı ilk illər teatrda rəssam işləyib.

* * *

1925-ci ilin ikinci yarısında yeni teatr mövsümünə başlayan kollektivin adı afişalarda belə yazılıb: Türk İşçi və Kəndli Teatrı. Teatr bu adla iki il çalışıb. Təbii ki, dəyişən təkcə teatrın adı yox, həm də ictimai-siyasi platformasının məzmun və mahiyyəti olub. Teatr Bakının kəndlərində fəaliyyətini genişləndirib və respublikanın rayonlarına qastrollara çıxıb. Bununla əlaqədar olaraq teatr yeni repertuar siyasəti qurmağa başlayıb. Sənət ocağının nəzdində "Satira teatrı" təşkil edilib və onun repertuarı Tənqid və Təbliğ Teatrının oynadığı satirik pyeslər və o xarakterli satirik məsxərələr əsa-sında qurulub.

Türk İşçi və kəndli Teatrının ikiillik repertuarında tərcümə və təbdil (bəzən iqtibas) əsərləri üstünlük təşkil edib. Bu baxımdan Luis Sinkierin romanı üzrə işlənmiş "Yüz faiz", Aleksey Tolstoyun "Romanovlar sülaləsinin son günləri" (Pavel Şeqolyovun səhnələşdirməsində), Vasili Şkvarkinin "Casus" ("Dıqayevin işi"), Viktor Marqaretin "Fahişə", Boris Romaşovun "Puç kömbə", Yurinin "Şöhrət silahları", Vladimir Bill-Beloserkovskinin "Tufan", Nikolay Lernerin "Birinci

Nikolay" ("Dekabristlər" adı ilə), Aleksandr Ostrovskinin "Gəlir yeri" pyeslərinin tamaşaları teatrın repertuarında əsas yer tutub.

İdeoloji təbliğata aludəçilik teatrı müəyyən məqamlarda ciddi yaradıcılıq axtarışlarından uzaqlaşdırırdı. Bununla belə, gənc kollektiv Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Sadıqovun "Üç il" əsərləri ilə özünün üslub, forma və janr axtarışlarımn dairəsmi genişləndirməyə çalışırdı.

* * *

Teatr özünün daha parlaq və daha mürəkkəb yaradıcılıq məramnaməsini, estetik ifadə vasitələrini, poetika göstəricilərinin başlıca məziyyətlərini parlaq şəkildə Türk İşçi Teatrı (Bakı Türk İşçi Teatrosu) adlandığı dövrdə göstərib. Həmin illərdə teatrda Aleksandr İvanov, Rza Darabh, İsmayıl Hüseynov, Arseni Ridel, Daniyal Vəkilov, Kələntər, Həbib İsınayılov kimi rejissorlar müxtəlif janrlarda əsasən uğurlu, həm də uğursuz tamaşa hazırlayıblar. Gənc sənətkarlardan rəssam Rüstəm Mustafayev milli səhnəqrafiyamızın inkişafında, bəstəkar Asəf Zeynalh tamaşaya musiqi tərtibatının verilməsi ənənəsinin yaranmasında möhtəşəm sənət nümunələri yaradıblar.

Beş il ərzində İşçi Teatrının repertuarında tərcümə əsərlərindən Boris Lavernyovun "Üsyan", Pavel Romanovun "Zəlzələ", Yucin O'Nilin "Çinarlar altında məhəbbət" ("Qarağaclar altında məhəbbət"), Biçer Stounun "Tom dayının koması", Viktor Hüqonun "Paris Notrdam kilsəsi" ("Müqəddəs Məryəm məbədi"), Vladimir kirşonun "Qızıl trenlər", "Kü1əklər şəhəri", Fyodor Pavlovun "Çin tanrısı" ("Tunc büt"), Jan Batist Molyerin "Cancur Səməd" ("Məcburi kəbin"), "Mıqqı Kərim" ("Vasvası xəstə"), Əbdülhəq Hamidin "Hind qızı", Sergey Palivanovun "İşarə", Anatoli Qlebovun "İnqa" ("İncə" adı ilə), Aleksandr Şirvanzadənin "Morqanın qohumu", Yuri Yankovskinin "Qəzəb", Nikolay Poqodinin "Balta haqqında poema" pyeslərinin tamaşaları mühüm yer tutublar.

Milli dramaturgiya nümunələrindən Cəfər Cabbarlının "Sevil" (ilk tamaşası 11 fevral 1931-ci ildə oynanılıb), Hacıbaba Nəzərlinin və Süleyman Rüstəmin "Yanğın", Süleyman Rüstəmin "Qana qan", Hacıbaba Nəzərlinin "Yollar", Əbdübağı Fövzinin "Gizli əl", Seyid Hüseynin "Kölgə" pyesləri, təzə quruluşlarda "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası, "Anamın kitabı" dramı tamaşaya hazırlanıb.

Teatrın "Paris Notrdam kilsəsi", "Anamın kitabı", "Hind qızı", "Cancur Səməd", "Müsyö Jordan və dərviş Məstəli şah", "Sevil" tamaşaları sənət ocağının tarixində aktyor ifaları baxımından xüsusi yer tutur. "Sevil"i tamaşaya David Qutman və Daniyal Vəkilov hazırlamışdılar. Əsas rolları Milli Dram Teatrından dəvət olunmuş Ülvi Rəcəb (Balaş) və Mərziyə Davudova (Sevil) oynayıblar. Ağasadıq Gəraybəyli və Fatma Qədri onlara dublyor verilib.

"Hind qızı"nda Kazım Ziya (Rayçaran), Fatma Qədri (Süruci), "Cancur Səməd"də İsmayıl Talıblı (Abbasəli), Ağahüseyn Cavadov (Səlim), "Paris Notrdam kilsəsi"ndə Fatma Qədri (Esıneralda), İsmayıl Talıblı (Qvazimoda), "Anamın kitabı"nda Ağasadıq Gəraybəyli (Rüstəm bəy), Natalya Lizma (Zəhra bəyim ana), Kazım Ziya (Səməd Vahid), "Müsyö Jordan"da Əmir Dadaşlı (Müsyö Jordan), Əhməd Səfayi (Qulaməli) yüksək sənət nailiyyətləri qazanıblar.

Fəaliyyət dövründə teatr Tiflisdə və İrəvanda uzunmüddətli qastrol səfərlərində olub. MDT-nm aktyorları Möhsün Sənani, Abbasmirzə Şərifzadə teatrın müxtəlif tamaşalarında iştirak ediblər.

1931-ci il aprel ayının 18-də və 19-da Bakı Türk İşçi teatrının 10 illiyi Opera və Balet Teatrının binasında qeyd edilib. Təntənədə "Qana qan" tamaşası göstərilib. Kollektivin aktyorları Ağahüseyn Cavadova və Rüstəm Kazımova Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı verilib.

1932-ci il dekabr ayının 28-də Bakı Türk İşçi Teatrının Gəncə şəhərinə köçürülməsi barədə mətbuatda hökümətin qərarı çap olunub. Bu qərar Bakı teatr mühitinə ağır zərbə vurdu. 1933-cü il

yanvar ayının 4-də və 5-də kollektiv bütün yaradıcı və texniki heyətlə Gəncəyə köçüb. Burada Cəfər Cabbarlı adına Dövlət Dram teatrı adı ilə bu gün də fəaliyyət göstərir.

İşçi Teatrı Gəncəyə köçürüləndə onun truppasında Kazım Ziya, Fatma Qədri, Məxfurə Yermaıcolova, Əjdər Sultanov, Ağahüseyn Cavadov, İsmayıl Talıblı, Ələnbər Seyfi, Mustafa Sərkarlı, Rüstəm Kazımov, Ələsgər Ələkbərov, Ağasadıq Gəraybəyli, Əhməd Səfayi, Əhməd Salahlı, Əmir Dadaşlı, Sadıq Həsənzadə (Həsənqara), İbrahim Hüseynov (Şünasi), Rəmziyyə Veysəlova, İsmayıl Əfəndiyev kimi şöhrətli və təcrübəli aktyorlar, istedadlı gənclər vardı. Azərbaycan səhnə sənətinin fəxri və qüdrətli rejissorlarından sayılan Ədil İsgəndərovun, Mehdi Məmmədovun, şöhrətli aktrisalar Əzizə Məmmədovanın, Sona Hacryevanın sənət yollarının ilk illəri bu kollektivlə bağlıdır.

Üç adla fəaliyyət göstərmiş teatr milli səhnə sənətimizin inkişafında müəyyən faydalı yaradıcılıq nailiyyətləri qazana bilib.

## GƏNCƏ DÖVLƏT DRAM TEATRI

Gəncə şəhərində teatr sənətinə ilk maraq on doqquzuncu əsrin sonlarında yerli ziyalılar tərəfindən göstərilib. 1899-cu ildə burada "Teatr" adlanan bina həvəskar aktyorların ixtiyarına verilib. Yerli ziyalı, müəllim, dramaturq, milli teatrşünaslıq elmimizdə ilk kitabçanın müəllifi Mirzə Məhəmməd Axundzadə (Axundov. 1876 - 1923) teatr prosesinin canlanınasında səmərəli işlər görüb. Onun "Səd Vəqqas" ("Səd ibn Vəqqas") pyesi Bakı və Tiflis teatr truppalarında da oynanılıb. Teatr həvəskarlarının əsas məqsədləri maarifçilik ideyalarını təbliğ etmək, şəhərdəki məktəblərdə oxuyan kasıb şagirdlərə yardım göstərmək, kitabxanalara mətbuat nümunələri və kitablar almaq üçün vəsait toplamaq idi.

Ziyalıların təşəbbüsü ilə 1906-cı ildə həvəskarlardan ibarət "Gəncə müsəlman dram məclisi" teatr truppası yaradılıb. 1909-cu ildən başlayaraq Bakı aktyorları Hüseyn Ərəblinskinin, Sid-qi Ruhullanın, Hüseynqulu Sarabskinin, Cəlil Bağdadbəyovun yığcam dəstələrlə Gəncəyə qastrol səfərləri teatr prosesini daha da canlandırıb. Belə mədəni əlaqələr sayəsində Gəncədə yaşayan Məşədi Cəmil Əmirov "Seyfəlmülk" operasını yazıb.

1920 - 1932-ci illərdə truppanın fəaliyyətində yeni mərhələ başlayıb. Repertuarda Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Xırs quldurbasan" və "Molla İbrahimxəlil kimyagər", Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", "Pəhlivanani-zəmanə" və "Ağa Kərim xan Ərdəbili", Əbdürrəhim bəy Haqverdiyevin "Millət dostları", "Ağa Məhəmməd şah Qacar", "Pəri cadu" və "Ac həriflər", Nəriman Nərimanovun "Nadir şah", "Bahadır və Sona" və "Dilin bəlası" ("Şamdan bəy"), Hü-seyn Cavidin "Maral", "İblis", "Şeyx Sənan" və "Knyaz", Cə-fər Cabbarlının "Aydın", "Vəfah Səriyyə", "Oqtay Eloğlu", "Sevil" və "Od gəlini", Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", "Ər və arvad", "Məşədi İbad" və "Arşın mal alan", tərcümə pyeslərin-dən Şəmsəddin Saminin "Dəmirçi Gavə", Jan Batist Molyerin "Don Juan" və "Vasvası xəstə", Vano Mçedaşvilinin "Qaçaq Kərəm", İvan Turgenevin "Pulsuzluq" dram, faciə, komediya, opera və operetta əsərləri mühüm yer tutub. Qadınlar, dəmiryolçular, həmkarlar klublarında güclü dram dərnəkləri olub.

1920-ci illərin sonlarında peşəkarlıq baxımından nailiyyətlər qazanan həvəskarlar arasında Ədil İsgəndərov, İbrahim Həmzəyev, Barat Şəkinskaya, Qulam Qoşqarlı, Mikayıl Davudov, Kərim Sultanov, Əsəd Şeyxzamanov, Abbas Məmmədov, İsmayıl Əfəndiyev kimi gələcəyin böyük sənət ustaları vardı. Hətta Ədil İsgəndərovla İbrahim Həmzəyev Bakı Teatr Məktəbində təhsil almışdılar. Onlar 1932-ci ildə Gəncədə Hüseyn Ərəblinski adına Dövlət Dram Teatrı açmaq üçün təşəbbüs göstərmiş və bir neçə tamaşadan ibarət maraqlı repertuar hazırlamışdılar. Lakin 1932-ci il dekabrın

28-də respublika mətbuatında Bakı Türk İşçi Teatrının Gəncəyə köçürülməsi barədə geniş materiallar verilib və bu, həvəskarların təşəbbüslərini başqa formada reallaşdırıb.

BTİT-nin yaradıcı heyəti Gəncəyə 1933-cü ilin yanvarında gəlib. Müxtəlif texniki avadanlıq, dekorasiyalar, rekvizit və butafor ehtiyatı yanvarın 4-də və 5-də gətirilib. Teatr üçün şəhərdə əlverişli bina yox idi, nisbətən yararlı klub isə təzə kollektiv üçün yanvar ayından təmirə dayandırılmışdı. Buna görə də "Sınema" kinoteatrı DDT-yə verilib. Teatrın yaradıcı heyətinə yerli həvəskarlardan da xeyli istedadlı gənc qəbul olunub. Teatrın Bakı repertuarının əsas tamaşaları yeni aktyorlar əlavə olunmaqla bərpa edilib. Teatrın baş rejissoru Abbasmirzə Şərifzadə iki ay yarım ərzində Hüseyn Cavidin "Şeyx Sənan", Cəfər Cabbarlının "Yaşar", Aleksandr Şirvanzadənin "Namus" dramlarını tamaşaya hazırlayıb. Bu əsərlərdən, həmçinin bərpa olunmuş "Hind qızı" (Əbdülhəq Hamid), "Özgə uşağı" (Vasili Şkvarkin), "Cancur Səməd" (Jan Batist Molyer), "Fahişə" (Viktor Marqaret) tamaşalarından ibarət repertuarla teatr 1933-cü ilin mart ayında ilk pərdələrini tamaşaçılara açıb.

Elə bu il teatrın nəzdində aktyor studiyası təşkil edilib. Həmçinin məktəb şagirdlərinin və yeniyetmələrin teatr sənətinə maraqlarını formalaşdırmaq məqsədilə truppanın daxilində Gənc Tamaşaçılar Teatrı Şöbəsi təşkil edilib. Gənc aktyor Əjdər Sultanov oraya bədii rəhbər təyin olunub. Şöbə tezliklə öz repertuarını qurub və burada oynanılan pyeslər əsasən Bakıdakı GTT-nin repertuarından götürülüb.

Təmir olunan bina 1935-ci ilin sonlarında təhvil verilib və bu münasibətlə teatrın təzə məkanında dekabr ayının 25-də təntənəli iclas keçirilib. Səhərisi gün isə teatra yenicə baş rejissor təyin olunmuş Yusif Yulduzun quruluşunda Cəfər Cabbarlının "Od gəlini" qəhrəmanlıq dramının ilk tamaşası göstərilib.

1942-ci ilin payız teatr mövsümünə qədər Həbib İsınayılov, İsmayıl Əfəndiyev, Ağəli Dadaşov, Həsən Ağayev teatrda müxtəlif müddətlərdə baş rejissor işləyiblər. Bu müddətdə teatr tamaşaçılara Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", Cəfər Cabbarlının "Almaz", "Sevil", "1905-ci ildə", Cəlil Məmmədquluzadənin "Ölülər", Mirzə İbrahimovun "Həyat", "Madrid", Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", Sabit Rəhmanın "Toy", "Xoşbəxtlər", Qurban Musayevin "Şərqin qalası", Məmmədhüseyn Təhmasibin "Bahar", Jan Batist Molyerin "Jorj Danden", Mixail Lermontovun "İki qardaş", Fridrix Şillerin "Qaçaqlar", Aleksandr Puşkinin "Daş qonaq", Vilyam Şekspirin "Otello", Lev Şeynin və Tur qardaşlarının "Üzləşdirmə", Georgi Mdivaninin "Vətən namu-su" pyeslərinin müxtəlif janrlarda hazırlanan tamaşalarını və neçə-neçə digər səhnə əsərini təqdim edib.

1942-ci ildə teatrın sıravi rejissoru Mehdi Məmmədov Gəncə DDT-yə baş rejissor təyin olunub. O, iki il əvvəl Moskvada ali rejissor təhsili almışdı. Mehdi Məmmədovun dörd ilə yaxın baş rejissorluq fəaliyyəti teatrın müasirlik axtarışlarını yeni məcraya salıb, onun poetika göstəricilərinin əsas estetik prinisiplərini formalaşdırıb. Yeni yaradıcılıq üslubunu yaradaraq onu inkişaf etdirən teatr 1950-ci illərin sonlarına kimi həmin istiqamətdə müəyyən yaradıcılıq uğurları qazanıb. Bəzi zəif və qüsurlu səhnə əsərləri ilə yanaşı, monumental ro-mantik və qəhrəmanlıq xarakterli psixoloji-dramatik əsərlərə üstünlük verən teatr Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Əbdürrəhim bəy Haq-verdiyevin "Pəri cadu", Cəfər Cabbarlının "Oqtay Eloğlu", "Aydın", "Solğun çiçəklər", Süleyman Sani Axundovun "Eşq və intiqam", Mehdi Hüseynin "Nizami", Sabit Rəhmanın "Nişanlı qız", Zeynal Xəlilin "Qatır Məmməd", İlyas Əfəndiyevin "Bahar suları", "Atayevlər ailəsi", İslam Səfərlinin "Göz həkimi", Hüseyn Muxtarovun "Ailə namusu", İlo Mosaşvilinin "Qərq edilmiş daşlar", Karl Myufkenin "İldırımlı yollarla" (Piter Abrahamsın romanı üzrə), Nikolay Qoqolun "Müfəttiş", "Evlənmə", Vilyam Şekspirin "Otello" (yeni quruluşda), Lope de Veqanın "Nə yardan doyur, nə əldən qoyur", "Kə1əkbaz sevgililər", Jan Batist Molyerin "Jorj Danden", Karlo Haldoninin "İki ağanın bir nökəri", Konstantin Simonovun "Praqanın şabalıd ağacları altında", "Rus məsələsi" tamaşaları ilə yaradıcılıq axtarışlarını gücləndirib.

Gəncə teatrı 1958-ci ilin may ayında Banıya ilk qastrol səfərinə gəlib. Repertuarda "Ölülər" (Cəlil Məmmədquluzadə), "Qanq qızı" (Rabindranat Taqorun "Fəlakət" əsəri əsasında), "Kəllə" (Nazim Hikmət), "Bahar" (Məmmədhüseyn Təhmasib), "Böyük ürək" (İmran Qasımov və Həsən Seyidbəyli), "Xəyanət" (Həsən Bicari və Qulamrza Cəmşidi) tamaşaları olub. Kollektivin ilk imtahanı uğurlu keçib və teatrın qabaqcıl rejissor və aktyorlarına respublikanın müxtəlif fəxri adları verilib.

1960-cı illərdən başlayaraq teatr müasir mövzulu ictimai-sosial problemləri təcəssüm etdirən əsərlərə üstünlük verib. Gəncə teatrında müəyyən səhnə təcrübəsi olan Həsən Ağayev, Hüseyn Sultanov, Nəsir Sadıqzadə, Yusif Bağırov, gənc rejissor Vaqif Şərifov Bakıdakı AMDT-də uğur qazanan lirik-psixoloji üslubda maraqlı tamaşalar hazırlaya biliblər. Yaradıcılıq cəhdləri həmişə səmərəli alınınasa da, teatr prosesində gedən estetik yeniləşmə, fəlsəfi dərinlik, psixoloji mahiyyət istiqamətində uğurlar qazanılıb. Teatr eyni zamanda ənənələrinə sadiq qalaraq romantik-monumental üslubda da tamaşalar hazırlayıb.

Belə çoxşaxəli yaradıcılıq cəhdlərinin nəticəsində afişalarda yeni-yeni milli dramaturqların adları görünməyə başla-yıb. Gəncə teatrı Azərbaycanda ilk dəfə olaraq Evripidin "Medeya", Sofokiun "Antiqona", Riçard Şeridanın "Aldanınış adaxlı", Eqon Rannetin "Azmış oğul", Gilerma Fiqeyredunun "Tü1kü və üzüm", Əziz Nesinin "Bura gəlin", kita Buaçidzenin "Həyətdə qapan it var", Otiya İoselianinin "Araba hələ aşmayıb", Vilyam Şekspirin "111 Riçard", Nazim Hikmətin "İvan İvanoviç var idimi?", Orxan Kamalın "72-ci kamera", Aurel Baranqanın "İctimai rəy", Osvald Zaqradnikin "Zəngli saat", Maksim Qorkinin "Qoca", Mustay Kərimin "Aygül diyarı", Raymond kauqverin "Qatarlar səhər gedir", Yan Saloviçin "Qəribə dilənçi" əsərlərini öz səhnəsində tamaşaya hazırlayıb.

1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması, teatrlarda yeni fəaliyyət prinsiplərinin yarannnası ilə bağlı Gəncə DDT-də yaradıcılıq tərəddüdləri olub. Kollektivin bəzi sənətkarları teatrdan uzaqlaşıblar. Lakin son bir neçə ildə teatr özünün yaradıcılıq qüvvələrini səfərbər edə bilib və həmin istiqamətdə axtarış səyləri davam olunur.

Teatrın nəzdində 1979-cu ildə "Zərrabi" Nizami Poeziya Teatrı açılıb. Kollektiv Zərrabi memarlıq kompleksində yerləşir. Onun repertuarında Nizami Gəncəvinin "Xəmsə"sinin motivləri əsasında "Şairin gəncliyi", "Xeyir və Şər", "Şair və hökmdar", "Hikmət axşamı", "İsgəndər və Nüşabə", "Zəhmət dünyası", "Xarəzın gözəlinin hekayəti", "Gül və zəhər" tamaşaları oynanılıb. Aktyor Telman Əliyev teatrda bədii rəhbər kimi səmərəli yaradıcılıq işləri görə bilib.

* * *

Teatr Bakıdan Gəncəyə köçəndə bir il İşçi Teatrı, az müddət Gəncə İşçi Teatrı kimi fəaliyyət göstərib və Lavrenti Beriyanın adını daşıyıb. Sənət ocağının adı 1935 - 1938-ci illərdə afişa və proqramlarda Gəncə Dövlət Teatrı kimi yazılıb. 1939-cu ildən Gəncə Dövlət Dram Teatrı adlanan kollektivə 1957-ci ildə Cəfər Cabbarlının adı verilib.

Teatr yerli müəlliflərdən Altay Məmmədovun, Fəridə Əlyarbəylinin, Süleyman Süleymanovun, Məmmədəli Nəsirovun, Abdulla Şərifovun, Əhməd İsayevin, Rövşən Ağayevin, Nüşabə Məmmədovanın, Elşad Məmmədovun pyeslərini tamaşaya hazırlayıb.

Gəncə DDT-də uzun illər Bəhram Əfəndiyev, Rza Məmmədov, Süleyman Hacıyev kimi fədakar teatr rəssamları işləyiblər. Gəncədə yaşayan Həsənağa Məmmədov, Asif Məmmədov, Mübariz Əliyev, Oqtay Qoşqarov, Telman Cəfərov rəngkarlıqla yanaşı, bir sıra tamaşalara səhnə tərtibatları da veriblər. Məşhur sənətkarlar Nüsrət Fətullayev, Həsən Mustafayev, Fyodor Qusak, İsmayıl Axundov, Dmitri Tavadze, Yuri Toropov, Elbəy Rzaquliyev, Altay Səidov, Elçin Məmmədov, Sənan Qurbanov dəvətlə teatrda müxtəlif tamaşalara rəssamlıq ediblər. Belə yaradıcılıq əlaqələri teatrın forma axtarışlarına imkan genişliyi verib.

Şəhərin bəstəkarları Qəmbər Hüseynli, Bayram Hüseynli, Müzəffər Həsənov, Xəlil Cəfərov, Şirin Rzayev, müəyyən vaxt burada işləyən Şəmsəddin Fətullayev teatrla sıx yaradıcılıq əlaqələri yarada biliblər. Ayrı-ayrı rejissorlar məşhur bəstəkarlar Səid Rüstəmova, Niyaziyə, Əfrasiyab Bədəlbəyliyə, Qara Qarayevə, Süleyman Ələsgərova, Şəfiqə Axundovaya, Fikrət Əmirova, Cahangir Cahangirova, Azər Rzayevə, Nazim Əliverdibəyova, Vasif Adıgözəlova öz tamaşaları üçün musiqi sifariş veriblər. Bu ənənə uzun illər davam edib.

Gəncə Dövlət Dram Teatrı dəfələrlə Bakıda, Azərbaycanın əksər rayonlarında, Gürcüstanın və Ermənistanın azərbaycanlıların qədim yaşayış rayonlarında qastrol səfərlərində olub.

## GƏNCƏ DÖVLƏT DRAM TEATRINDA AKTYOR YARADICILIĞI

### Birinci dərs

Baki Türk İşçi Teatrı 1933-cü ildə Gəncəyə köçüb. Bir ilin ərzində teatrın istedadlı aktyorlarından Abbasmirzə Şərifzadə, Ağasadıq Gəraybəyli, Ələsgər Ələkbərov, Fatma Qədri Bakıya qayıdıblar. Rüstəm Kazımov, Ələkbər Seyfi, Zakir Şahbazov, Əşrəf Yusifzadə, Mustafa Sərkarov, Məryəm Ələsgərova ömürlərini Gəncə teatrı ilə bağlayıblar. Kazım Ziya, Əjdər Sultanov, Ağahüseyn Cavadov, Əlihüseyn Qafarlı, Məxfurə Yermakova, Əhməd Salahh, Əhməd Səfayi və bu kimi istedadlı aktyorlar bir müddət burada işlədikdən sonra ayrı-ayrı illərdə kollektivi tərk edərək Bakıya qayıdıblar. Burada müxtəlif teatrlarda işləyiblər.

Gəncə teatrının truppası ilbəil yerli teatr həvəskarlarının hesabına möhkəmlənib və onların bir qisıni sonralar kollektivin aparıcı sənətkarları olublar. Birinci il şəhərin müxtəlif dram dərnəklərinin istedadlı üzvləri Mikayıl Davudov, Əsəd Şeyxzamanov, Barat Şəkinskaya, Solmaz Orlinskaya, Qulam Qoşqarlı, Abbas Məmmədov, İsmayıl Əfəndiyev, İbrahim Həmzəyev, Kərim Sultanov aktyor heyətinə götürülüblər. 1934 - 1955-ci illərdə truppaya Bakı, Tiflis, İrəvan, Aşqabad, Şəki, Ağdaş, Zaqatala, Göyçay teatrlarında işləmiş aktyorlar və aktrisalar, Bakı Teatr Məktəbini bitirmiş gənclər qəbul olunublar. Bunların sırasında Məmməd Cəfərovun (Məmməd Cəfər), Sadıq Həsənzadənin (Həsənqara), Məmməd Bürcəliyevin, Ətayə Əliyevanın, Fatma Qafarlının, İsmət Əliyevanın, Manya Əliyevanın, İzabella Tağıyevanın, Nəcibə Məlikovanın, Abbas Məmmədovun, Məcid Abdullayevin, Məmmədrza Şeyxzamanovun, Rza Nadirovun, Ağa Məmmədovun, Reyhan Tağıyevanın, Rəmziyyə Veysəlovanın, Səməd Tağızadənin, Ələddin Abbasovun, Zülfüqar Baratzadənin, Firuzə Bədirbəylinin, Sədayə Mustafayevanın, Məmmədsadıq Nuriyevin, Muxtar Avşarovun, Mənsurə Cəfərovanın, Nadir Rzayevin adlarını xüsusi göstərmək lazımdır.

* * *

## KƏRIM SULTANOV (1919 - 1975)

Gəncə Dövlət Dram Teatrının qüdrətli sənətkarlarından olub. Teatrın həm romantik, həm də realist üslublu tamaşalarında yüksək məharət göstərib. Yaradıcılığı xarakter zənginliyi ilə səciyyəvidir. Kərim Xankişi oğlu Sultanov 1916-cı ildə Gəncədə doğulub. Uşaq yaşlarında ailəsi Şəkiyə köçüb və o, ibtidai təhsilini orada alıb. 1932-cü ildə Səməd Tağızadənin təşkil etdiyi dram dərnəyində həvəskar aktyorluğa başlayıb. Bir il sonra atasının iş yerini dəyişməsi ilə əlaqədar ailəsi Gəncəyə qayıdıb. O, buradakı şəhər qadınlar klubunda Mir İbrahim Həmzəyevin rəhbərlik etdiyi dram dərnəyinə yazılıb. Kənd Təsərrüfatı İnstitutuna qəbul olunub. Tələbə ola-ola 1934-cü il-də

Gəncə DDT-nin direktoru Ələkbər Seyfinin dəvəti ilə kollektivin aktyor truppasına götürülüb. 1942 - 1945-ci illərdə müharibədə olub və qayıdandan sonra yenə teatrda aktyorluğa başlayıb.

Yaradıcılığı qırx ildən çox Gəncə teatrı ilə bağlı olan Kərim Sultanov səhnədə faciə, dram, məsxərə, satira, komediya, psixoloji dram janrlarında müxtəlif sosial mənşəli, müxtəlif forma və məzmunlu rollarda canlı, yüksək bədii dəyərli səhnə obrazları yaradıb.

Yaradıcılığının daha parlaq rolları bunlardır: Mirzə Tağı, Toğrul, Yaşar, Bəhram, Eyvaz ("Nəsrəddin şah", "Od gəlini", "Yaşar", "Solğun çiçəklər" və "1905-ci ildə", Cəfər Cabbarlı), Murad, Mürşüd, Nəsir bəy ("Aşnalar", "Xoşbəxtlər" və "Küləklər", Sabit Rəhman), Notarus ("Cancur Səməd", Jan Batist Molyer), Şvarts ("Qaçaqlar", Fridrix Şiller), Şaliko ("Vaqif", Səməd Vurğun), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Polis rəisi ("Kəllə", Nazim Hikmət), Məlik Məmməd ("Məlik Məmməd", Əyyub Abbasov), Çjou Pin ("Tufan", Tsao Yuy), Platon, Rüstəm ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Cəlilzadə ("Kişilər", Altay Məmmədov), Lüsinda ("Kələkbaz sevgili", Lope de Veqa), Uğur ("Bahar suları", İlyas Əfəndiyev), Heydər bəy və Murov, Teymur ağa ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Lembidt Pedaye ("Azmış oğul", Eqon Rannet), Don Fernando ("Aldanmış adaxlı", Riçard Şeridan), Mateh ("Bura gəlin", Əziz Nesin), Qriqori Kuçumov ("Quduz pullar" Aleksandr Ostrovski), Fərhad ("Sənsiz", Şıxəli Qurbanov), Yaqo ("Otello", Vilyam Şekspir), Yanar ("Sən yanmasan...", Nəbi Xəzri), Fyodor ("Təbilçi qız", Anatoli Salnski), Aqnostos ("TÜ1kü və üzüm", Gilerma Fiqeyredu), Xoze ("Madrid", Mirzə İbrahimov), Niyaz ("Şikayət qəbul edilmir", Toktobolat Əbdülmöminov), Rauf ("Göz həkimi", İslam Səfərli), kareqlazev ("Xərçənglər", Sergey Mixalkov), Yeqor ("Vətən namusu", Georgi Mdivani), Pərviz (Böyük ürək", Həsən Seyidbəyli və İmran Qasımov), Təhmas bəy ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Fəxrəddin ("Vicdan", Bəxtiyar Vahabzadə).

Kərim Sultanov 1961-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub. 1975-ci ildə Gəncə şəhərində vəfat edib.

## ƏLƏKBƏR SEYFİ (19.3.1901 - 15.12.1977)

Azərbaycan teatr mədəniyyəti tarixinə aktyor, təşkilatçı, inzibatçı və tərcüməçi kimi daxil olan Ələkbər Seyfulla oğlu Seyfinin yaradıcılığı öz səmimiyyəti, realist boyalarının emosionalhğı, milli koloriti, ifadə vasitələrinin sadəliyi və cazibədarlığı ilə səciyyəvidir. Ötən əsrin iyirminci və otuzuncu illərində psixoloji teatr ünsürlərindən cəsarətlə bəhrələnən ilkin aktyorlar sırasında Ələkbər Seyfinin də adını çəkmək olar. Aktyor bütün yaradıcılığı boyu bu istiqamətdə axtarışlarını və sınaqlarını davam etdirmişdir.

Ələkbər Seyfi Novruz bayramının axır çərşənbəsində 19 mart 1901-ci ildə Tiflis şəhərində doğulub. Müəyyən güzəştli imtiyazları olan "İttifaq" məktəbində oxuyub. Burada Azərbaycan, rus və alman dilləri tədris edilirdi. Məktəb mütərəqqi tədris proqramı əsasında dərs keçirdi. 1914-cü ilin əvvəllərində Hüseyn Ərəblinski və Əbülfət Vəli Tiflisə növbəti qastrola gəliblər. Bakı aktyorlarının "Dəmirçi Gavə" (Şəmsəddin Sami) tamaşasında Ələkbər Seyfi Bəhram rolunda ilk dəfə səhnəyə çıxıb. 1917-ci ildə "İbrət" dram dərnəyinə üzv olub. Tezilklə o, xeyli rol oynayıb.

1928-ci ildə Bakıya, Türk İşçi Teatrında işləməyə dəvət edilib. Ələkbər Seyfinin səmimiyyəti, xeyirxahlığı, nəzəri hazırlığı, dünya dramaturgiyasma dərindən bələdliyi, kollektivdə nizam-intizam səriştəliliyi, yüksək səhnə etikasma malik olması Bakı İşçi Teatrında da özünün səmərəli nəticələrini verib. Aktyor kimi tamaşalarda oynayan Ələkbər Seyfi yüksək təşkilatçılıq bacarığına görə 1930 - 1931-ci il teatr mövsümündə kollektivə direktor təyin olunub. 1933-cü ildə teatr

Gəncəyə köçüb. Bu sənət ocağında Ələkbər Seyfinin yaradıcılığının yeni mərhələsi başlayıb. Şəxsiyyətə pərəstiş dövrünün fəlakətli, müdhiş repressiya illərində, 1938-ci ilin fevralında Ələkbər Seyfi həbs olunub və 1956-cı ildə bəraət alıb.

Ələkbər Seyfinin müəyyən uzun və qısa fasilələrlə Gəncə Dövlət Dram Teatrında oynadığı əsas rollarını bu ardıcıllıqla sadalamaq olar: Katib ("Fahişə", Vladimir Marqaret), Şeyx Əbülqasım ("Qanlı səhra", Ələkbər Seyfinin təbdili), Lu Quy ("Tufan", Tsao Yuy), Şeyx Kəbir, Piran ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Şeyx Əhməd ("Ölülər", Cəlil Məmmədquluzadə), Mirzə Sadıq xan, Belokurov, Ocaqqulu ("Nəsrəddin şah", "Yaşar" və "Almaz", Cəfər Cabbarlı), kapitan Bernardo ("Kələkbaz sevgili", Lope de Veqa), ksanf ("Tü1kü və üzüm", Gilerma Fiqeyredu), Dəllək Yaqub ("Həmyerlilər", Altay Məmmədov), Mirzə Qoşunəli ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Karlo Plkkio ("Aygül diyarı", Mustay Kərim), Mirzə Əliabbas ("Küləklər", Sabit Rəhman), Qratsiano ("Otello", Vilyam Şekspir), Müfəttiş ("Qatarlar səhər gedir", Raymond kauqvern), Dmitri Petroviç ("İki qardaş", Mixail Lermontov), Naçalnik ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Alı kişi və Naçalnik ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Sarvan kişi ("Kəndçi qızı", Mirzə İbrahimov), Həsən bəy Zərdabi ("Mirzə Fətəli", Şəfayət Mehdiyev), Abdulla ("Vicdan", Bəxtiyar Vahabzadə).

Ələkbər Seyfinin güclü və peşəkar tərcüməçilik səriştəsi vardı. Yaradıcılığının mahiyyəti, üslub səciyyələri, bədii-estetik prinsipləri, poetika göstəricilərinin xüsusiyyətləri ba-xımından realist aktyor məktəbinin nümayəndəsi olan Ələkbər Seyfinin bir neçə ekran obrazı da var. O, "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş "Səhər" (Mürəttib), "Qanun naminə" (Qoca kəndli), "Uşaqlığın son gecəsi" (İsmayıl dayı), "Mən ki, gözəl deyildim" (Hesabdar) rollarına çəkilib.

Milli səhnə mədəniyyətimizin tərəqqisindəki xidmətlərinə görə Ələkbər Seyfi 20 may 1958-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 14 dekabr 1961-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

15 dekabr 1977-ci ildə Gəncədə vəfat edib və şəhərin Bağbanlar məhəlləsindəki Fəxri xiyabanda dəfn olunub.

## MƏMMƏD BÜRCƏLİYEV (25.4.1914 - 25.11.1994)

Yaradıcılığı milli gülüş mədəniyyətimizin, karnaval etikasının, xalq meydan teatrının məsxərə və məzhəkə janrlarının ifadə xüsusiyyətləri, poetika prinsipləri əsasında köklənən sənətkarlardan biri də Məmməd Bürcəliyevdir. O, sırf Azərbaycan realist aktyor məktəbinə daxil olan sənətkarlardandır.

Ömrünün son nəfəsinə qədər teatrdan ayrılmayıb, səhnədə yeni-yeni nailiyyətlər sorağı ilə inamla, coşğunluqla çalışıb. Yumorunun hüsnü-təravəti, satirasının kəskinliyi və şirəliliyi, səhnə danışığındakı duzlu, şirəli koloriti, vücudunun göz oxşayan səhnə cazibəsi ilə yadda qalıb.

Məmməd İsmayıl oğlu Bürcəliyev 1914-cü il aprelin 25-də Nuxa şəhərində (indiki Şəkidə) doğulub. Beşillik ibtidai təhsilini burada alıb və 1930-cu ildə Bakıda "Fabrik-zavod məktəbi"nə daxil olub. Bir ilə yaxın Bakıda oxuyan Məmməd Bürcəliyev 1933-cü ildə Şəki Dram Teatrında aktyorluq fəaliyyətinə başlayıb. 1935-ci ildə Gəncə Dövlət Dram Teatrına gəlib. Truppaya çox tez uyğunlaşan aktyor xarakterik və tiplk rollarda daha böyük sənət uğurları qazanıb.

İmamverdi və Qubernator, Baloğlan, Xaspolad, Altunbay, Səlim, Cavad xan, Qurban ("1905-ci ildə", "Almaz", "Oqtay Eloğlu", "Od gəlini", "Aydın", "Nəsrəddin şah" və "Solğun çiçəklər", Cəfər Cabbarlı), Rotsınan ("Qaçaqlar", Fridrix Şiller), Rodriqo ("Otello", Vilyam Şekspir), Kərbəlayı Qulam ("Hacı Fərəc", Nəcəf bəy Vəzirov), Qəşəm Məmişov ("Məhəbbət", Mirzə İbrahimov), Kürd Musa ("Vaqif", Səməd Vurğun), Leonido ("Nə yardan doyur, nə əldən qoyur", Lope de Veqa), vəkü, Ohan yüzbaşı, Mirzə Həbib ("Mürafiə vəkilləri", "Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Mirzə Salman, Səfər ("Nişanlı qız" və "Əliqulu evlənir", Sabit Rəhman), Hacı Baxşəli ("Ölülər", Cəlil Məmmədquluzadə), Şair ("Kəllə", Nazim Hikmət), Əmrah ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Gərşivəz, Bəy, Serqo ("Səyavuş",

"Maral" və "Şeyx Sənan", Hüseyn Cavid), Səməndər ("Kişilər", Altay Məmmədov), Likxit ("Üç quruşluq opera", Bertolt Brext), Qulu ("Bahar suları", İlyas Əfəndiyev), Cavad kişi ("Qız atası", Əfqan), Şəkərlinski ("Kəndçi qızı", Mirzə İbrahimov), Effer ("Bura gəlin", Əziz Nesin), Yeqor Qulumov ("Quduz pullar", Aleksandr Ostrovski), Qeyza Qaliba ("Qəribə dilənçi", Yan Saloviç), karıno Pikkio ("Aygül diyarı", Mustay Kərim), korifey ("Antiqona", Sofoki), Möhsün ("Ata mülkü", Əkrəm Əylisli), Əjdər Zahidoviç ("Gözıllik ondur", Salam Qədirzadə), Lord Xeytinqs ("111 Riçard", Vilyam Şekspir), Şəhid atası ("Cavad xan", Nüşabə Məmmədova) rolları aktyorun şövqlə yaratdığı səhnə surətləridir.

Məmməd Bürcəliyev "Azərbaycanfilm"də istehsal olunmuş "Mən ki, gözəl deyildim" (Əsgər), "Dəli Kür" (Allahyar), "Gözlə məni" (Bəy), "Qəm pəncərəsi" (Rəşid bəy), "O dünyadan salam" (Hacı Baxşəli), "Köhnə bərə" (kolxozçu), "Firəngiz" (Sürücü) kinolentlərində çəkilib.

1950 - 1952-ci illərdə teatrda direktor işləyib. Bacarığını quruluşçu rejissor kimi də sınaqdan çıxarıb. Cəlil Məmmədquluzadənin "Ölülər", Altay Məmmədovun "Həmyerlilər", "Bəraət", Yusif Əzimzadənin "Anacan", Teymur Məmmədovun "Ürək yanarsa...", Rəsul Həmzətovun "Dağlar qızı", Şəfaət Mehdiyevin "Mirzə Fətəli", Sabit Rəhmanın "Əliqulu evlənir", Qərib Mehdiyevin "Oxşarlar", Abdulla Şaiqin "Tü1kü Həccə gedir" pyeslərini tamaşaya hazırlayıb.

Altmış ilə yaxın Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında çalışan Məmməd İsmayıl oğlu Bürcəliyev 24 iyul 1955-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 20 may 1958-ci ildə isə xalq artisti fəxri adları ilə təltif olunub.

Məmməd Bürcəliyev 25 noyabr 1994-cü ildə vəfat edib. Məzarı Gəncə şəhərində Bağbanlar məhəlləsindəki Fəxri xiyabandadır.

## GƏNCƏ DÖVLƏT DRAM TEATRINDA AKTYOR YARADICILIĞI

### İkinci dərs

Milli teatr tariximizdə şərəfli yer tutan bir sıra aktyorlar yaradıcılıqlarının yalnız müəyyən dövrlərini Gəncə teatrı ilə bağlayıblar. Lakin bu sənət ocağının aktyorluq ənənələrinin formalaşmasında onların böyük xidmətləri olub. Buna görə də Gəncə DDT-nın aktyor məktəbinin sənətkarlıq xüsusiyyətlərindən danışılanda onların yaradıcılıqlarını da dəyərləndirmək lazımdır.

* * *

**Əhməd Salahlı**
**(1897- 1953)**

Tiflisdə doğulub. "Salahlı" səhnə təxəllüsü olan Əhməd Musa oğlu Məmmədov səhnə sənətinə on dörd yaşından maraq göstərib. Müxtəlif dram truppalarında aktyorluq edən sənətkar Tiflis Dövlət Azərbaycan Teatrında (1922 - 1930 və 1941 - 1947), Bakı Türe İşçi Teatrında (1930 - 1932), Gəncə Dövlət Dram Teatrında (1933 -1941), Akademik Milli Dram Teatrında (1947-1953) işləyib. Bu kollektivlərdə aparıcı aktyor kimi rəğbət qazanıb.

Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub (23 fevral 1940).

Mürəkkəb xarakterlər yaratmaqda xüsusi aktyorluq səriştəsi olan Əhməd Salahlı Gəncə teatrında Qaya ("Bahar", Məmmədhüseyn Təhmasib), Turab ("Şərqin qalası", Qurban Musayev), Babək ("Babək", Əbil Yusifov), Akif ("Həyat", Mirzə İbrahimov), Vaqif ("Vaqif", Səməd Vurğun), Dəmirçi Musa ("Toy", Sabit Rəhman), Eyvaz ("1905-ci ildə", Cəfər Cabbarlı), Yusif ("Özgə uşağı", Vasili Şkvarkin), İvan İvanoviç ("Üzləşdirmə", Lev Şeynin və Tur qardaşları), Aliran ("Vətən namusu", Georgi Mdivani), Murov ("Cünahsız müqəssirlər", Aleksandr Ostrovski), Bələdiyyə rəisi ("Müfəttiş", Nikolay Qoqol), Rüstəm ("Namus", Aleksandr Şirvanzadə), Karl Moor ("Qaçaqlar", Fridrix Şiller), Yaqo ("Otello", Vilyam Şekspir), Don Juan ("Daş qonaq", Aleksandr Puşkin) rollarını ifa edib.

Əhməd Salahlının ifadə vasitələri əlvan və çoxqatlı, xarakterik və realist səpkili idi.

**Məxfurə Yermakova**
**(1901 – 1982)**

Əməkdar aktrisa idi. Səhnə fəaliyyətinə on üç yaşından Bakıda başlayıb. AMDT -də, TİT-də işləyib. 1933 - 1946-cı illərdə Gəncə DDT-də aktyorluq edib. Məxfurə xanımın Gəncə teatrında oynadığı əsas xarakterik rolları: Ayna xanım ("Özgə uşağı", Vasili Şkvarkin), Annetta ("Fahişə", Vladimir Marqaret), Xanımnaz, Nabat ("Almaz" və "1905-ci ildə", Cəfər Cabbarlı), Bəxtəvər ("Qohumlar", Hacıağa Quliyev), Zabelina ("Kreml saatı", Nikolay Poqodin), Məhsəti ("Nizami", Mehdi Hüseyn), Maral, Zalxa ("Xoşbəxtlər" və "Toy", Sabit Rəhman), Emilya ("Otello", Vilyam Şekspir), Güldəstə ("Hacı Fərəc", Nəcəf bəy Vəzirov), İsına ("Babək", Əbil Yusifov), Ülkər ("Vəfa", Rəsul Rza), Fatmanisə ("Məhəbbət", Mirzə İbrahimov), Tükəzban ("Vaqif", Səməd Vurğun), Sənəm ("Namus", Aleksandr Şirvanzadə), TükəZ ("Hacı Qara", Mirzə Fətəli Axundzadə).

1946-cı ilin sonlarında Məxfurə xanım Bakıya qayıdıb. Aktrisa bu dəfə yaradıcılığı üçün yeni olan, tamaşalarının üslub və janrları, məzmun və formaları ilə seçilən Gənc Tamaşaçılar Teatrında işləməyi qərarlaşdırıb. Ömrünün sonuna qədər həmin kollektivdə aktrisalıq edib.

**Məmməd Cəfərov**

**(1912 - 1980)**

Əməkdar artist idi. Yaradıcılığının ən parlaq illəri Gəncə teatrı ılə baglıdır. Tipik və psixoloji epizod rollar ustası kimi tanınıb. Əsasən Məmməd Cəfər imzası ilə tanınıb.

Gəncə Dövlət Dram Teatrında oynadığı əsas səhnə surətləri: İvanov ("Özgə uşağı", Vasili Şkvarkin), Zakon Güləli, Gümüşov, Xacə Mübarək ("Kişilər", "Həmyerlilər" və "U1duzlar görüşəndə", Altay Məmmədov), Dönməz, Əbdül, Aftil ("Od gəlini", "Solğun çiçəklər" və "Almaz", Cəfər Cabbarlı), Bəxtiyar ("Şərqin qalası", Qurban Musayev), Mirzə Aşa ("Babək", Əbil Yusifov), Əli bəy və Vidadi ("Vaqif", Səməd Vurğun), Dato ("Vətən namusu", Georgi Mdivani), Mirzə Hüseyn və Kərəmov, Xəlil, Hüseyn ("Toy", "Əliqulu evlənir" və "Aşnalar", Sabit Rəhman), Əliş ("Qatır Məmməd", Zeynal Xəlil), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Lüd-viq ("Praqanın şabalıd ağaclarının altında", Konstantin Simonov), Şair və Sərsəri ("Kəllə", Nazim Hikmət), İqnas ("Qəribə dilənçi", Yan Saloviç), Cabbar ("Xəyanət", Həsən Bicari və Qulamrza Cəmşidi), Əli ("Qaynana", Məcid Şamxalov), Həsənağa ("Göz həkimi", İslam Səfərli), Atobba ("Vicdan", Bəxti-yar Vahabzadə), Kamran ("Məhəbbət nişanəsi", Səttar Axundov), Fenardo ("Kələkbaz sevgili", Lope de Veqa), Belek ("Şikayət qəbul edilmir", Toktobolat Əbdülmöminov), Polkovnik İqnatyev ("Qaya", Ədil İsgəndərov), İsaq Mendosa ("Aldanmış adaxlı", Riçard Şeridan), Fərəcov ("Sən həmişə mənimləsən", İlyas Əfəndiyev), Bornoq ("Bura gəlin", Əziz Nesin), Cənab Piçem ("Üç qəpiklik opera", Bertolt Brext), Qasım ("Nişanlı qız", Sabit Rəhman), Qratsiano ("Otello", Vilyam Şekspir), Karpe ("Uzaq sahillərdə", İmran Qasımov və Həsən Seyidbəyli).

**Səməd Tağızadə**
**(1907-17.11.1978)**

Səhnədə ilk uğurlarını Şəki teatrında qazanıb. Gəncə teatrının fəaliyyətinin ilk illərindən truppaya qəbul edilib və kollektivin aparıcı aktyorlarından olub. Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Yaradıcılığının çiçəkləndiyi dövrdə səsi tutulub və teatrda truppa müdiri və sairə vəzifələrdə işləyib.

Gəncə DDT-də əsas rolları: Sərvətzadə ("Özgə uşağı", Vasili Şkvarkin), Mirzə Saleh, Bəhram, Aydın, Baxşı və Eyvaz, İbad ("Nəsrəddin şah", "Solğun çiçəklər", "Aydın", "1905-ci ildə" və "Almaz", Cəfər Cabbarlı), Keller ("Üzləşdirmə", Lev Şeynin və Tur qardaşları), Kamal ("Qohumlar", Hacıağa Quliyev), Babək ("Babək", Əbil Yusifov), Karl Moor ("Qaçaqlar", Fridrix Şiller), Vaqif ("Vaqif", Səməd Vurğun), Surxay ("Toy", Sabit Rəhman), Seyran ("Namus", Alensandr Şirvanzadə), Rauf ("Həyat", Mirzə İbrahimov), Tərlan ("Bahar", Məmmədhüseyn Təhmasib), Şirvan şahı ("Nizami", Mehdi Hüseyn), Otello ("Otello", Vilyam Şekspir), Yusif ("Məhəbbət", Mirzə İbrahimov), İldırım Atayev ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), Hacı Həsən ağa ("Ölülər", Cəlil Məmmədquluzadə), Lenin ("Nəriman ata", Asif Zeynallı).

**Əlihüseyin Qafarlı**
**(1911 - 1961)**

Aktyor yaradıcılığının ilkin dövrü Gəncə Dövlət Dram Teatrı ilə bağlıdır O, 1929_cu üdə BTİT-də aktyorluq fəaliyyətinə başlayıb və 1933-cü ildə həmin kollektivlə Gəncəyə köçüb. Aktyor burada doqquz il işləyib və teatrın aktyor məktəbinin müstəqil üslub-formada inkişafında müstəsna xidmətləri olub.

Həm Bərbərzadə ("Xoşbəxtlər") kimi komik, Kürd Musa ("Vaqif") kimi epizod, həm də Aydın ("Aydın") və Yaqo ("Otello") kimi faciə rollarında böyük sənət ustalığı göstərə bilib.

Onun Gəncə DDT-də oynadığı əsas rolları bunlardır: Pavlitski və Prixodko ("Üzləşdirmə", Tur qardaşları və Lev Şeynin), Aydın və Dövlət bəy, Qorxmaz, Allahverdi ("Aydın", "Od gəlini" və

"1905-ci ildə", Cəfər Cabbarlı), Sardio ("Vətən oğlu", Georgi Mdivani), Şvandiya ("Düşmənlər", Konstantin Trenyov), Şeyx Sənan ("Şeyx Sənan", Hüseyn Cavid), Qoca Moor ("Qaçaqlar", Fridrix Şiller), Bərbərzadə ("Xoşbəxtlər", Sabit Rəhman), Brabansio və Yaqo ("Otello", Vilyam Şekspir), Teodoro ("Nə yardan doyur, nə əldən qoyur", Lope de Veqa), Salmanov ("Toy", Sabit Rəhman), Qurban kişi ("Həyat", Mirzə İbrahimov), Şapur ("Fərhad və Şirin", Səməd Vurğun), Taras ("İntiqam", Zeynal Xəlil).

Gəncə teatrında böyük uğurlar, geniş tamaşaçı məhəbbəti qazanan Əlihüseyin Qafarlı 1942-ci ilin əvvəllərində kollektivdən ayrılıb. Bakıya gələn aktyor Azərbaycan Dövlət Musiqili komediya Teatrının truppasına daxil olub. Ömrünün axırma qədər bu sənət ocağında çalışıb.

**Barat Şəkinskaya**
**(1914 — 1999)**

1929-cu ildən 1933-cü ilədək Gəncə İşçi klubunun (Fəhlə-kəndli klubuda deyilirdi) dram dərnəyində fəal çıxış edib. 1933-cü ilin yanvarında Bakı Türk İşçi Teatrı Gəncəyə köçürülüb. Burada İşçi klubunun həvəskar aktyorları ilə birləşən kollektiv 1933-cü ilin martından Gəncə Dövlət İşçi Teatrı adıyla fəaliyyətə başlayıb. Barat xanım da kollektivə qəbul olunub.

İki il ərzində o, Cəfər Cabbarlının "Aydın" (Gültəkin), "Oqtay Eloğlu" (Firəngiz), "Sevil" (Gülüş), "Yaşar" (Yaqut), Süleyman Sani Axundovun "Eşq və intiqam" (Pəricahan), Aleksandr Şirvanzadənin "Namus" (Süsən) əsərlərinin tamaşalarında səhnəyə çıxıb.

1935-ci ildə Bakıya gəlib Milli Dram Teatrı kollektivinə daxil olan Barat xanım 1943-1945-ci illərdə də Gəncədə aktyorluq edib. Bakıda müəyyən təcrübə toplayan aktrisa ikinci gəlişində Gəncə səhnəsində Afaq ("Nizami", Mehdi Hüseyn), İntizar ("Vəfa", Rəsul Rza), Gülnar ("Vaqif", Səməd Vurğun), Bahar ("Bahar", Məmmədhüseyn Təhmasib), Hürü ("Məhəbbət", Mirzə İbrahimov) rollarını yaradıb.

Barat xanım Şəkinskayanın zəngin yaradıcılığının əsas dövrü Akademik Milli Dram Teatrı ilə bağlıdır.

## GƏNCƏ DÖVLƏT DRAM TEATRINDA AKTYOR YARADICILIĞI

### İkinci dərs

Gəncə teatrı 1940-cı illərdə fərdi yaradıcılıq üslubunu formalaşdırdı, estetik prinsiplərin fundamental konsepsiyasını təsdiqlədi, özünün poetik göstəricilərini müəyyənləşdirməklə yeni inkişaf mərhələsinə qədəm qoydu. Teatr 1955-ci ildən başlayaraq öz truppasına aktyor qəbulunda yaratdığı məktəbin sənət prinsiplərini əsas götürürdü. Kollektivə müxtəlif rejissorların gəlişi yeni-yeni janr axtarışlarına meydan açırdı. Aktyor heyəti Hacıbaba Bağırov, Əli Rzayev, Zemfira Əliyeva, Ələddin İsmayılov, Xuraman Hacıyeva, Qurban Abbasov, Faiq Qasımov, Əli Allahverdiyev, Şura Nəvai, Alim Məmmədov, Surxay Səfərov, Faiq Qasımov, Kübrabəyim Əliyeva, Telman Əliyev, Şərqiyyə Abbasova, Pərvanə Qurbanova, Əlican Əzizov kimi istedadlı gənclərin hesabına daim yeniləşmə ruhunda çalışıb.

### ƏLƏDDİN ABBASOV (5 MAY 1922)

Yaradıcılığı romantik və realist aktyor məktəblərinin poetika göstəriciləri çərçivəsində formalaşıb. Lirik-psixoloji üslublu tamaşalarda məhəbbət qəhrəmanlarını da bacarıqla oynayıb.

Xarakterik səs tembri, ifadəli sifət cifət cizgiləri, cazibəli səhnə görkəmi var. Aktyorluq təhsili yoxdur, lakin yaradıcılığı yüksək peşəkarlıq zəminində formalaşıb.

Ələddin Aslan oğlu Abbasov 15 may 1922-ci ildə Gəncədə doğulub. On beş yaşında Gəncə DDT-nin nəzdindəki aktyor studiyasma qəbul olunub. İki il təhsil müddətində teatrın yardım heyətində çalışıb, repertuardakı tamaşalarda kütləvi səhnələrə çıxıb. 1939-cu ildən aktyor truppasının üzvüdür və yaradıcıhğı yalnız bu kollektivlə bağlıdır.

Sənət uğurlarına görə Azərbaycan Respublikasının əməkdar artisti (20 may 1958) və xalq artisti (1971) fəxri adları ilə təltif olunub. "Mən ki gözəl deyildim" (İmran), "Özgə ömrü" (Ata), "Qatır Məmməd" (Məşədi Göyüş) və sairə bədii filmlərə çəkilib. Ən məşhur ekran rolu "Dəli Kür" əsərində Cahandar ağa obrazıdır.

Aktyor yüzə yaxın personaja səhnə ömrü verib. Onların daha məşhurlarını iki qismə bölüb təqdim etmək olar. **Faciə və dram rolları**: Aydın, Qurban, Fərhad, Baxşı, İbad ("Aydın", "Solğun çiçəklər", "Nəsrəddin şah", "1905-ci ildə" və "Almaz", Cəfər Cabbarlı), Xanmurad, Ziyad Şahsuvarov, Həsənzadə, Sahib ("Bahar suları", "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən" və "Mənim günahım", İlyas Əfəndiyev), Şükri Cəfəroğlu ("Qərq edilmiş daşlar", İlo Mosaşvili), Frayman, Hakim ("Kəllə" və "Demoklsin qılıncı", Nazim Hikmət), Kassio və Otello ("Otello", Vilyam Şekspir), Seyran (Namus", Aleksandr Şirvanzadə), Lembidt Pedaye ("Azmış oğul", Eqon Rannet), Mekxit ("Üç qəpiklik opera", Bertolt Brext), Ataman ("Anacan", Yusif Əzimzadə), Cəlal ("Komsomol poeması", İsgəndər Coşqun), Tərlan ("Bahar", Məmmədhüseyn Təhmasib), Qatır Məmməd ("Qatır Məmməd", Zeynal Xəlil), Aqabo Boqveradze ("Araba hələ aşmayıb", Otiya İoseliani), Qaçaq Nəbi ("Qaçaq Nəbi), Yazon ("Medeya", Evripid), kriont ("Antiqona", Sofoki), Anton, Səyavuş, Turxan bəy ("Şeyx Sənan", "Səyavuş" və "Maral", Hüseyn Cavid), Fərhad və Şiruyə, Eldar ("Fərhad və Şirin" və "Vaqif", Səməd Vurğun), Zaur, Yusif Sərrac ("Yadmdamı?" və "Ulduzlar gö-rüşəndə", Altay Məmmədov), Pərviz və Rüstəm ("Böyük ürək", İmran Qasımov və Həsən Seyidbəyli).

**Komediya obrazları**: Rövşən, Murad, Kəblə Muxtar, Camal ("Əliqulu evlənir", "Aşnalar", "Küləklər" və "Nişanlı qız", Sabit Rəhman), Həsənağa ("Göz həkimi", İslam Səfərli), Dövran ("Məzəlizadələr", Səttar Axundov), Silvio ("İki ağanın bir nökəri", Karlo Haldoni), Yevgeni Lukaşin ("Həmişə təmizlikdə", Emil Braginski və Eldar Ryazanov), Dəli Domrul ("Dəli Domrul", Altay Məmmədov).

## SƏDAYƏ MUSTAFAYEVA
## (15 İYUL 1926 - 13.8.2004)

Yaradıcılığının yetkin dövrü Gəncə DDT ilə bağlıdır. Səmimi və emosional, dramatik və cazibəli aktrisadır. Teatrın uzunömürlü tamaşalarının əksəriyyətində əsas rolların ifaçısı olub. Komik səciyyəli, psixoloji tutumlu xarakterik personajlara da ustalıqla səhnə həyatı verib.

Sədayə İsmayıl qızı Mustafayeva 15 iyul 1926-cı ildə Şəkidə doğulub və orta məktəbi orada bitirib. Yuxarı siniflərdə oxuyanda dram dərnəyində rollar oynayıb. Peşəkar səhnə yaradıcılığına on səkkiz yaşında o dövrdə Azərbaycanın qabaqcıl sənət ocaqlarından sayılan Şəki DDT-də başlayıb. Dövlət teatrında ilk addımlarından ona məsuliyyətli rollar tapşırılıb. 1940-cı illərin sonlarında Ağdaş və Göyçay teatrlarında aktrisalıq edib. 1950-ci ildən bugünə kimi Gəncə DDT-də zəngin yaradıcılıq irsi yaradıb.

Rollar siyahısında faciə, dram, komediya, hətta məsxərə obrazları var. Ondan çox bədii filmə çəkilib. Səhnə xidmətlərinə görə ona Azərbaycan Respublikasının əməkdar artisti (20 may 1958) və xalq artisti (1981) fəxri adları verilib.

Aktrisanın Gəncə teatrında yaratdığı əsas personajlar: Pəri, Sara və Gülnisə, Gülzar və Sitarə, Yaxşı, Sevər, Gültəkin ("Solğun çiçəklər", "Nəsrəddin şah", "Almaz", "Oqtay Eloğlu" və "Aydın", Cəfər Cabbarlı), Zərifə və Bənövşə, Gövhər ("Nişanlı qız" və "Əliqulu evlənir", Sabit Rəhman),

Mehrican, Sədəf, Nargilə ("Atayevlər ailəsi", "Bahar suları" və "Sən həmişə mənimləsən", İlyas Əfəndiyev), Çin rəqqasəsi, Zəhra ("Səyavuş" və "Şeyx Sənan", Hüseyn Cavid), Gülnar və Xuraman ("Vaqif", Səməd Vurğun), Sona ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Nazlı ("Ölülər", Cəlil Məmmədquluzadə), Səmayə və Gülsüm ("Kişilər" və "Yadındamı?", Altay Məmmədov), Bənövşə ("Kəndçi qızı", Mirzə İbrahimov), Ba-har ("Bahar", Məmmədhüseyn Təhmasib), Humay ("Komsomol polması", İsgəndər Coşqun), Sayad ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Natəvan ("Xan qızı", Fəridə Əlyarbəyli), Sədayə ("Sən yanmasan...", Nəbi Xəzri), Gülər ("Göz həkimi", İslam Səfərli), Həcər ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Ulduz ("Yaxın adam", İsi Məlikzadə), Şəlalə ("Şəlalə", Novruz Gəncəli), Zabitə ("Doğmalar", Rəhman Əlizadə), Naciyə ("Yad qızı", Orxan Kamal), Emiliya, Yelizaveta ("Otello" və "111 Riçard", Vilyam Şekspir), Şairgül ("Şlkayət qəbul edilmir", Toktobolat Əbdülmöminov), Fenisa ("Kələkbaz sevgili", Lope de Veqa), Kəmalə ("Qanq qızı", Rabindranat Taqorun əsəri üzrə), Qoqiça ("Qərq edilmiş daşlar", İlo Mosaşvili), Lütsiya ("Xərçənglər", Sergey Mixalkov), Dalbanezonun qızı ("Kəllə", Nazim Hikmət), Lu Sı Fm ("Tufan", Tsao Yuy), Fomida ("Odu atma, Prometey!", Mustay Kərim), Meli ("Tü1kü və üzüm", Gilerma Fiqeyredu), ksantina ("Sokratla söhbət", Edvard Radzinski), Nadejda Şevelyeva ("Həmişə təmizlikdə", Edvard Braginski və Eldar Ryazanov).

Aktrisa 13 avqust 2004-cü ildə Gəncədə vəfat edib.

* * *

**Revhan Tağıyeva**
**(1910 - 1973)**

Səhnə fəaliyyətinə Tiflis teatrında başlayıb və Gürcüstan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Gəncə teatrında 1947-ci ildən işləyib.

Gəncə teatrinda əsas rolları: Ceyran ("Nişanlı qız", Sabit Rəhman), Cənnət xala ("Qaynana", Məcid Şamxalov), Zabitə, Narıngül ("Bahar suları", "Atayevlər ailəsi", İlyas Əfəndiyev), Şərəbanu, Gülsüm, Kərbəlayı Fatmanisə ("Yaşar", "1905-ci ildə" və "Almaz", Cəfər Cabbarlı), Zəminə ("İldırım", Cabbar Məcnunbəyov), Saray qarısı ("Vaqif", Səməd Vurğun), Qapıçı qadın ("Kəllə", Nazim Hikmət"), Şamama ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Sənəm xala ("Göz həkimi", İslam Səfərli), Nobinqlıoli ("Qanq qızı", Rabindranat Taqor), Mirəstə ("Vicdan", Bəxtiyar Vahabzadə), Reyhan ("Kişilər", Altay Məmmədov), Qızxanım ("Məzəlizadələr", Səttar Axundov), Fatma ("Şlkayət qəbul edilmir", Toktobolat Əbdülmöminov), Pəri xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Dayə ("Aldanınış adaxh", Riçard Şeridan), Erkək Qonça ("Köhnə həyətin adamları", Qurban Musayev), Miyansaz ("Cinli", Aleksandr Şirvanzadə), Nisə xala ("Kəndçi qızı", Mirzə İbrahimov), Bircəxanım ("Ürək yanarsa...", Teymur Məmmədov), Bahar xala ("Ürək sevərsə...", Əlyar Yusifli), Mehriban nənə ("Dağ çiçəyi", Məhərrəm Əlizadə), Qoca fahişə ("Üç qəpikiik opera", Bertolt Brext), Gövhər ("Əliqulu evlənir", Sabit Rəhman), Banat ("Aygül diyarı", Mustay Kərim), Zəhra ("Həmyerlilər", Altay Məmmədov), Doktor Plana ("Qəribə dilənçi", Yan Saloviç).

**Sadıq Həsənzadə**
**(Həsənqara)**

Əməkdar artist olub. Gəncə teatrının qüdrətli xarakterlər ustası kimi şöhrət qazanıb. Otuz ılə yaxın Gəncə teatrında işləyib və yaşlı vaxtlarında Sumqayıt teatrında, "Azərbaycanfilm" studiyasında çalışıb.

Gəncə teatrında ifa etdiyi əsas rollar: Elxan və Yanardağ, Uryadnik, Şərif və Aftil ("Od gəlini", "1905-ci ildə" və "Almaz", Cəfər Cabbarlı), Vəli ("Bahar", Məmmədhüseyn Təhmasib),

Qurbanov, Mirzə Qərənfil ("Aşnalar" və "Xoşbəxtlər", Sabit Rəhman), Əbdək ("Nizami", Mehdi Hüseyn), Nüsrət ("Qatır Məmməd", Zeynal Xəlil), Montano və Yaqo ("Otello", Vilyam Şekspir), Hacı Qara, Xan ("Hacı Qara" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Zeynəboğlu ("Vəfa", Rəsul Rza), Dev ("Məlik Məmməd", Əyyub Abbasov), Rzaqulu ("Hacı Fərəc", Nəcəf bəy Vəzirov), Şapur, Qacar ("Fərhad və Şirin" və "Vaqif", Səməd Vurğun), Xacə Süleyman ("Qərq edilmiş daşlar", İlo Mosaşvili), Ağasəlim ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), Tahir ("Xəyanət", Həsən Bicari və Qulamrza Cəmşidi), Qənbərov ("Günəş", Lütfəli Həsənov), Qulam ("Vicdan", Bəxtiyar Vahabzadə), Cjou Pu Yuan ("Tufan", Tsao Yuy), Əfrasiyab ("Səyavuş", Hüseyn Cavid), Cönendro ("Qanq qızı", Rabindranat Taqor), Tumacov ("Kişilər", Altay Məmmədov), Ömər ("Şhcayət qəbul edilmir", Toktobolat Əbdülmöminov), Farsadan ("Tariyel", Məmmədəli Nəsirov), Sarvan ("Kəndçi qızı", Mirzə İbrahimov), komissar ("Anacan", Yusif Əzimzadə), Gəray bəy ("Komsomol poeması", İsgəndər Coşqun), Milton Sterlinq ("Sarı ƏlCək", Əfqan Əsgərov), Dərviş ("Nəsrəddin", Yusif Əzimzadə), Kazım ("Ürək yanarsa...", Teymur Məmmədov), Nüsrət ("Qatır Məmməd", Zeynal Xəlil), Mark Tuysk ("Azmış oğul", Eqon Rannet), Yanar ("Ürək sevərsə... ", Əlyar Yusifli), Braun ("Üç qəpiklik opera", Bertolt Brext).

**Ağa Məmmədov**

Əməkdar artist olub. Teatrın yaradıcılığı xarakter rolların ifasında formalaşan aktyorlarından idi. Truppaya teatrın fəaliyyətinin ilk illərində daxil olub və bir müddət Tiflis teatrında çalışıb. Təmkinli yumoru, yığcam, lakin mənalı ifadə vasitələri, tipik ştrixləri ilə oynadığı obrazlara şuxluq və canlılıq gətirirdi.

Gəncə teatrıda əsas rolları: Kərəm əmi ("Bahar", Məmmədhüseyn Təhmasib), Mirzə Salman, Əliqulu, Sadıq ("Nişanlı qız", "Əliqulu evlənir" və "Xoşbəxtlər", Sabit Rəhman), Vəzir və Şeyx Alı ("Vaqif", Səməd Vurğun), Qratsiano ("Otello", Vilyam Şekspir), Abdulla Sadıq ("Qərq edilmiş daşlar", İlo Mosaşvili), Jezlov ("Xərçənglər", Sergey Mixalkov), Ağa Hüseyn, Balaxan, Məhəmməd xan ("Solğun çiçəklər", "Aydın" və "Nəsrəddin şah", Cəfər Cabbarlı), Sadıqov ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), İrandust Cabbar ("Xəyanət", Həsən Bicari və Qulamrza Cəmşidi), Mirbağır ağa ("Ölülər", Cəlil Məmmədquluzadə), Muradov ("Böyük ürək", İmran Qasımov və Həsən Seyidbəyli), Pişxidmət ("Səyavuş", Hüseyn Cavid), Hüseyn Ağabacı ("Kişilər", Altay Məmmədov), Oroz ("Şikayət qəbul edilmir", Toktobolat Əbdülmöminov), Ağalarov ("Şərqin səhəri", Ənvər Məmmədxanlı), Roman Timofeyeviç ("Sabahın xeyir!", Viktor Rozov), Hacı Salah ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Riçard Sterlinq ("Sarı ƏlCək", Əfqan Əsgərov), Don Hernimo ("Aldanmış adaxlı", Riçard Şeridan), Şah Ələmgir ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), Qəlyanalı ("Adı sənin, dadı mənim", Seyfəddin Dağlı), Vano Laitadze ("Ürək yanarsa...", Teymur Məmmədov), Hacı bəy ("Qatır Məmməd", Zeynal Xəlil), Muradov ("Böyük ürək", İmran Qasımov və Həsən Seyidbəyli), Cənab Piçem ("Üç qəpiklik opera", Bertolt Brext), kadiryan Yabaqayev ("Aygül diyarı", Mustay Kərim), Baş senator ("Otello", Vilyam Şekspir), Balbazov, Zaman xan ("Həmyerlilər" və "Ulduzlar görüşəndə", Altay Məmmədov).

**Məmmədrza Şeyxzamanov**
**(1915 - 1984)**

Gəncədə doğulub. Gəncə Dövlət Dram Teatrının nəzdindəki aktyor studiyasında oxuyub (1934-1936). Oxuya-oxuya teatrın tamaşalarında yardımçı heyətin tərkibində iştirak edib.

1954-cü illədək Gəncə teatrında aktyorluq etmiş Məmmədrza Şeyxzamanovun bu sənət ocağında ən yaxşı rolları bunlar sayılır: Eldar, Doktor Söhbət ("Vaqif" və "Xanlar", Səməd Vurğun), Nəcəf bəy ("Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Otello ("Otello", Vilyam Şekspir), Yuri ("İki qardaş", Mixail Lermontov), Sərsəm Sem ("İldırımlı yollarla", Karl Myufken), Saatsaz

("Kreml saatı", Nikoİay Poqodin), Nəbi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Mindilli ("Nişanlı qız", Sabit Rəhman), Bərbərzadə ("Xoşbəxtlər", Sabit Rəhman), Aydın, İmamyar ("Aydın" və "Yaşar", Cəfər Cabbarlı).

Məmmədrza Şeyxzamanov 1954-cü ilin ortalarında Gəncədən Bakıya gəlib və Akademik Milli Dram Teatrının aktyor truppasına daxil olub.

**Mənsurə Cəfərova**
**(2.5.1919 - 20.3.1997)**

Əməkdar artist idi. Teatra 1950-ci İllərin əvvəllərində gəlmişdı. Tipik səciyyəli personajları bacarıqla oynayırdı.

Əsas rolları: Lətafət ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), Sima ("İldırım", Cabbar Məcnunbəyov), Elza ("Kəllə", Nazim Hikmət), Hafizə ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Sevda ("Qaynana", Məcid Şamxalov), Doktor Mansurova ("Göz həkimi", İslam Səfərli), Xalidə ("Vicdan", Bəxtiyar Vahabzadə), Böyükxanım, Tamara, Sitarə ("Aydın", "Oqtay Eloğlu" və "Nəsrəddin şah", Cəfər Cabbarlı), Nazlı ("Əliqulu evlənir", Sabit Rəhman), Sonya xanım ("Sabir", Hacıağa Quliyev), Şölə xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Göyərçin ("Kəndçi qızı", Mirzə İbrahimov), Tamara ("Vaqif", Səməd Vurğun), Tuzıkova ("Təbilçi qız", Afanasi Salmski), Qəmzə ("Adı sənin, dadı mənim", Seyfəddin Dağlı), Zümrüd ("Ürək yanarsa...", Teymur Məmmədov), Pepela ("Həyətdə qapan it var", Kita Buaçidze), Annika ("Azmış oğul", Eqon Rannet), Lüsi ("Üç qəpiklik opera", Bertolt Brext), Nazlı ("Əliqulu evlənir", Sabit Rəhman), Şura ("Məhəbbət körpüsü", Novruz Gəncəli), Yuzem ("Aygül diyarı", Mustay Kərim), Zərri ("Həmyerlilər", Altay Məmmədov), Nadejda Antonovna ("Quduz pullar", Aleksandr Ostrovski), Dürdanə xanım ("Sən yanmasan...", Nəbi Xəzri), Qabika ("Qəribə dilənçi", Yan Saloviç).

**Zülfüqar Baratzadə**
**(8.7.1931 – 11. 2.1991)**

Əvvəllər Gəncə Dövlət Filarmoniyasında rəqqas olub. 1949-cu ildə Gəncə DDT-nin truppasına daxil olub. Xarakterlər aktyoru idi və təbii, xalq oyun estetikasına əsaslanan yumoru ilə özünə geniş tamaşaçı rəğbəti qazanmışdı. 27 dekabr 1971-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.

Aktyorun teatrda əsas rolları: Mindilli, Bərbərzadə ("Nişanlı qız" və "Xoşbəxtlər", Sabit Rəhman), Göyüş, Dəli Domrul, Dinar ("Kişilər", "Dəli Domrul" və "Yadındamı?", Altay Məmmədov), Sərsəri ("Kəllə", Nazim Hikmət"), Çoban ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Balıqçı ("Günəş", Lütfəli Həsənov), Atobba ("Vicdan", Bəxtiyar Vahabzadə), Kamran ("Məhəbbət nişanəsi", Səttar Axundov), Ernardo ("Kələkbaz sevgili", Lope de Veqa), Müşavir ("Səyavuş", Hüseyn Cavid), Əmirqulu, Salman, Camal ("Yaşar", "Nəsrəddin şah" və "Almaz", Cəfər Cabbarlı), Aşıq, Dinar, Şişman ("Kişilər", "Dəli Domrul" və "Yadmdamı?..", Altay Məmmədov), Mustafa ("Şərqin səhəri", Ənvər Məmmədxanlı), Möhnət ("Məhsəti Gəncəvi", Kəmalə Ağayeva), Həbəş ("Tü1kü və üzüm", Gilerma Fiqeyredu), Ağa Bəşir ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Nəroğlan ("Qız atası", Əfqan Əsgərov), Vəzir ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), Nəsrəddin ("Nəsrəddin", Yusif Əzimzadə), Çmqıl ("Adı sənin, dadı mənim", Seyfəddin Dağlı), Effer ("Bura gəlin", Əziz Ne-sin), Haqverdi ("Qatır Məmməd", Zeynal Xəlil), küçə xanən-dəsi ("Üç qəpiklik opera", Bertolt Brext), İppolit ("Həmişə təmizlikdə", Edvard Radzinski və Eldar Ryazanov), Baş senator, Riçard ("Otello" və "111 Riçard", Vilyam Şekspir), kişi ("Qatarlar səhər gedir", Raymond kauqver), İvan Petroviç ("Quduz pullar", Aleksandr Ostrovski), Knyaz ("İki qardaş", Mixail Lermontov), Qurd Kərim ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Mahmud ("Boş barılar", Əhməd İsayev), Eyvaz ("Üçatılan", İlyas Əfəndiyev), Məmmədşəfi ("İtkin

gəlin", Əlibala Hacızadə), Kristinoyu ("İctimai rəy", Aurel Baranqa), Prorab ("Yeddi oğlan və bir qız", Rövşən Ağayev), Qacar ("Vaqif", Səməd Vurğun), Frantişek Abel ("Zəngli saat", Osvald Zaqradnik).

**Zemfira Əliyeva**
**25.12.1941 - 27.11.1995)**

Yaradıcılığa on yeddi yaşında (Gəncə DDT-də başlayıb. İlk rolu Cəfər Cabbarlının "Solğun çiçəklər" melodramasında Sara rolu olub və bu obraz gənc qıza populyarlıq gətirib. O, 1958-ci ildə teatrın truppasına qəbul olunub. 1972-ci ilə kimi bu kollektivdə işləmiş aktrisanın sonraki fəaliyyəti Naxçıvan DMDT və Akademik MDT ilə bağlı olub.

Xalq artisti fəxri adına layiq görülmüş Zemfira Əliyeva Gəncə teatrında Məryəm ("Qız atası", Əfqan Əsgərov), Gülnar ("Vaqif", Səməd Vurğun), Zöhrə ("Eşq və intiqam", Süleyman Sani Axundov), Medeya ("Medeya", Evripid), Firəngiz, Sara, Gülzar ("Oqtay Eloğlu", "Solğun çiçəklər" və "Nəsrəddin şah", Cəfər Cabbarlı), Fərruxbəyim ("Kişilər", Altay Məmmədov), İrina ("Şikayət qəbul edilmir", Toktobolat Əbdülmöminov), Dilarə ("Şərqin səhəri", Ənvər Məmmədxanlı), Tərgül ("Məhsəti Gəncəvi", Kəmalə Ağayeva), Süsən ("Namus", Aleksandr Şirvanzadə), Maral ("Sənsiz", Şıxəli Qurbanov), Liza ("Sabahın xeyir", Viktor Rozov), Nisə xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Şəcarət ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), Turac ("Bahar suları", İlyas Əfəndiyev), Nazlı ("Əliqulu evlənir", Sabit Rəhman), Nadejda Şevelyova ("Həmişə təmizlikdə", Edvard Radzinski və Eldar Ryazanov) rollarını oynayıb.

**Əli Allahverdiyev**
**(1 fevral 1948)**

Əməkdar artistdir, Gəncə teatrında 1960-cı illərin əvvəllərindən işləyir. Xarakterlər aktyorudur.

**Əsas rolları**: Rövşən, Xosrov ("Əliqulu evlənir" və "Küləklər", Sabit Rəhman), İsgəndər, Mirzə Cəlil ("Kişilər" və "Ulduzlar görüşəndə, Altay Məmmədov), Montano ("Otello", Vilyam Şekspir), Pavel ("Həmişə təmizlikdə", Edvard Braginski və Eldar Ryazanov), Vasilkov ("Quduz pullar", Aleksandr Ostrovski), Əhməd ("Qız atası", Əfqan Əsgərov), Xankişi ("Qatır Məmməd", Zeynal Xəlil), İldırım ("Nəriman ata", Atif Zeynallı), Arif ("Qoruqlar", Əliağa Kürçaylı), Məxvi ("Xan qızı", Fəridə Əylarbəyli), Ferrero ("Uzaq sahillərdə",İmran Qasımov və Həsən Seyidbəyli), keşlkçi ("Antiqona", Sofoki), Sevva Vasilkov ("Quduz pullar", Aleksandr Ostrovski), Səməd ("Böyük ürək", İmran Qasımov və Həsən Seyidbəyli), Pivonka ("Qəribə dilənçi", Yan Saloviç), Oleq Komkov ("Mükafat", Aleksandr Gelman), İbad, Yaşar ("Almaz" və "Yaşar", Cəfər Cabbarlı), Gəray bəy ("Komsomol poeması", İsgəndər Coşqun), Həmid ("İlk busə", Abduqəhhar İbrahimov), Aleksandr ("İki qardaş", Mixail Lermontov), Əsgər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Temir ("Boş barılar", Əhməd İsayev), kepkalı, komissar ("İvan İvanoviç var idimi?" və "Demokiisin qılıncı", Nazim Hikmət), Ərşad ("Üçatılan", İlyas Əfəndiyev), Allahyar ("Dəli Kür", İsmayıl Şıxlı), Əbdül ("İtkin gəlin", Əlibala Hacızadə), İzınirli, Rza ("72-ci palata" və "Yad qızı", Orxan Kamal), Çingiz bəy ("Maral", Hüseyn Cavid), Rasim ("Yeddi oğlan və bir qız", Rövşən Ağayev), Nüfuz ("Odu atına, Prometey!", Mustay Kərim), Qacar ("Vaqif", Səməd Vurğun).

**Faiq Qasımov**
**25 avqust 1948**

Əməkdar artistdir. Gəncə teatrında 1965-cı ildən işləyir. Realıst aktyor məktəbinin istedadlı nümayəndəsidir, yumorunun təbiiliyi, ifadə vasitələrinin əlvanlığı ilə seçilir. Son illər rejissorluq da edir.

Əsas rolları: Şərif, Pirqulu ("Almaz" və "Aydın", Cəfər Cabbarlı), Göyüş, Xəfiyyəbaşı ("Kişilər" və "Ulduzlar görüşəndə", Altay Məmmədov), Aslan, Mirzə Qərənfil, Casus ("Nişanlı qız", "Xoşbəxtlər" və "Küləklər", Sabit Rəhman), Fmdıqburun ("Diribaş adamlar", Vasili Şukşin), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Heydər ("Qız atası", Əfqan Əsgərov), Çingiz ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Rodriqo və kassio, Cani ("Otello" və "111 Riçard", Vilyam Şekspir), Qara kişi ("Gəl qohum olaq", İsi Məlikzadə), Təlxək ("Tariyel", Məmmədəli Nəsirov), Uolter ("Üç qəpiklik opera", Bertolt Brext), ikinci sərxoş ("Mənim günahım", İlyas Əfəndiyev), Polad ("Qoruqlar", Əliağa Kürçaylı), Rauf ("Mezozoy əhvalatı", Maqsud İbrahimbəyov), Paollo ("Uzaq sahillərdə", İmran Qasımov və Həsən Seyidbəyli), Dito ("Araba hələ aşmayıb", Otiya İoseliani), Şəkərəlı ("Günəşlə oyananlar", Qeybulla Rəsulov), Tolya Jarikov ("Mükafat", Aleksandr Gelman), Şərif ("Almaz", Cəfər Cabbarlı), Mirpaşa ("Komsomol poeması", İsgəndər Coşqun), Seyran ("Səadət sorağında", Teymur Məmmədov), Lətif ("Yaxın adam", İsi Məlikzadə), Xəlil ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Əli Məmməd Dilbəri ("Əli Məmməd Dilbəri", Səttar Zərdablı), İvan İvanoviç ("İvan İvanoviç var idimi?", Nazim Hikmət), Vartan ("Üçatılan", İlyas Əfəndiyev), Toyuq oğrusu ("72-ci palata", Orxan Kamal), İonitse ("İctimai rəy", Aurel Baranqa), Eldar ("Yeddi oğlan və bir qız", Rövşən Ağayev), Əzrayıl ("Dəli Domrul", Altay Məmmədov), Germes ("Odu atma, Prometey!", Mustay Kərim), Kürd Musa ("Vaqif", Səməd Vurğun), Heydərqulu ("Həyat", Mirzə İbrahimov), Pavel Yesenski ("Zəngli saat", Osvald Zaqradnik).

**Alim Məmmədov**
**(25.9.1950)**

Xalq artistidir. Teatra 1960-cı illərin ortalarında gəlib və tezliklə qəhrəman rolların ifaçısı kimi tanınıb. 1990-cı illərin əvvəllərində səhnə sənətindən uzaqlaşıb.

Əsas rolları: Tariyel ("Tariyel", Məmmədəli Nəsirov), Tahirov ("Mezozoy əhvalatı", Maqsud İbrahimbəyov), Şah Abbas ("Ulduzlar görüşəndə", Altay Məmmədov), Mehdi-Mixaylo ("Uzaq sahillərdə", İmran Qasımov və Həsən Seyidbəyli), Hemon ("Antiqona", Sofoki), Pivonka ("Qəribə dilənçi", Yan Saloviç), Fuad, Oqtay ("Almaz" və "Oqtay Eloğlu", Cəfər Cabbarlı), Bəxtiyar ("Komsomol poeması", İsgəndər Coşqun), Əfqan ("Səadət sorağında", Teymur Məmmədov), Bəhmən ("Yaxın adam", İsi Məlikzadə), Qasım ("İlk busə", Abduqəhhar İbrahimov), Yuri ("İki qardaş", Mixail Lermontov), Heydər bəy ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Qaçaq Nəbi ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Ərşad ("Üçatılan", İlyas Əfəndiyev), Elməddin ("İtkin gəlin", Əlibala Hacızadə), Aptekçinin oğlu ("Demokiisin qılıncı", Nazim Hikmət), Nadir bəy ("Maral", Hüseyn Cavid), Tureulets ("İctimai rəy", Aurel Baranqa), Nihat ("Yad qızı", Orxan Kamal), Ələkbər ("Yeddi oğlan və bir qız", Rövşən Ağayev), Prometey ("Odu atına, Prometey!", Mustay Kərim), Eldar və Vaqif ("Vaqif", Səməd Vurğun), Abbas ("Həyat", Mirzə İbrahimov), İvan Mastakov ("Qoca", Maksim Qorki).

**İSMAYIL TALIBLI**
**(21.3.1898- 23.7.1967)**

Yaradıcılığının üslubu və estetik prinsipləri həm romantik, həm də realist aktyor məktəbindən şirələnib. Oynadığı çoxsaylı rollarının bədii xüsusiyyətlərini nəzərdən keçirəndə görürük ki, onun ifasında realist obrazlar daha çoxdur.

Coşğun ehtirasa, daxili temperamentə, çoxçalarlı səsə malik olan aktyorun psixoloji ifadə vasitələri, oyun üslubu-nun fəlsəfi-estetik mahiyyəti realizmın güclü zəmininə əsaslanıb.

İsmayıl Məmmədəli oğlu Talıblı 21 mart 1898-ci ildə Bakıda sadə qulluqçu ailəsində doğulub. Adi ibtidai təhsil alıb. Ancaq taleyi elə gətirib ki, yeniyetmə yaşlarından dramaturq Cəfər Cabbarlı, aktyorlar Hacıağa Abbasov, Sidqi Ruhulla, Əhməd Qəmərli, Məhəmmədhəsən Atamalıbəyov, Mirzağa Əliyev ilə dostluq edib. Həmin yaxınlıq da İsmayılın həyatda sənət seçimi yolunu müəyyənləşdirib.

1919-cu ildə onu yenicə yaranmış Hökumət Teatrosuna (hazırki Akademik Milli Dram Teatrı) qəbul ediblər. 1924-cü ilin sonuna qədər o, Milli Dram Teatrında qırxa yaxın müxtəlif xarakterli, hətta estetik prinsiplərin psixoloji mahiyyəti baxımından bir-birinə zidd olan obrazlara səhnə ömrü verib.

Amplua baxımından yaradıcılığını sərbəst istiqamətləndirməyi məharətlə bacaran, faciə, dramatik, satirik və komik obrazların ifasında böyük uğurlar qazanan İsmayıl Talıblı 1924-cü ilin axırlarında Bakı Türk Azad Tənqid və Təbliğ Teatrı kollektivinə göndərilib. Bu kollektiv altı aydan sonra Bakı Türk İşçi və kəndli Teatrı adlanıb. Təbiəti etibarilə coşğun, yaradıcılıq ehtiraslı və oyunu sirayətedici olan İsmayıl Talıblı qısa müddətdə teatrın aktyor ansamblma uyuşa bilib. Ona bir-birinin ardınca sanballı rollar tapşırılıb.

Aktyor yeni sənət ocağında Luis Sinkierin "Yüz faiz" (Mak Qurmik), Aleksey Tolstoyun romanı əsasında "Roma-novların son günləri" (Dmitri Pavloviç və General Alekseyev), Vasili Şkvarkinin "Casus" (Stradvorski), Vladimir Marqaretin "Fahişə" (Dormua), Cəlil Məmmədquluzadənin "Anamın kita-bı" (Mirzə Məhəmmədəli), Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" (Hatəmxan ağa), Viktor Hüqonun "Notrdam kilsəsi" (Qvazimoda), Jan Batist Molyerdən təbdil olan "Cancur Səməd" (Nüsxəbənd Abbasəli), Cəfər Cabbarlının "Sevil" (Atakişi) pyeslərinin tamaşalarında maraqlı rollarda çıxış edib.

Bakıda yaşayan və dövlət idarələrinin mühüm ideoloji sahələrində yüksək vəzifələr tutan əcnəbi millətlərin nüma-yəndələrinin fitnəkarlığı ilə 1932-ci il dekabrın 28-də Bakı Türk İşçi Teatrının Gəncə şəhərinə köçürülMəsmə qərar veril-di. Halbuki həmin dövrdə Gəncədə yerli gənclərdən, maarif-pərvər ziyalılardan ibarət güclü teatr truppası vardı və onların qüvvəsi ilə şəhərdə Dövlət teatrı yaratmaq mümkün idi. 4 və 5 yanvar 1933-cü ildə İşçi Teatrının bütün kollektivi Gəncəyə köçdü. Bir müddət sonra truppanın ədəbi hissə müdiri Süleyman Rüstəm, rejissoru Abbasmirzə Şərifzadə, qabaqcıl aktyorları Ağasadıq Gəraybəyli, Ələsgər Ələkbərov, Fatma Qədri və başqaları Bakıya qayıtdılar, lakin İsmayıl Talıblı doğma kollektivdən ayrılmadı. O, ömrünün sonunadək Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında aktyorluq edib. Hətta 1942 - 1943-cü illərdə teatrda direktor da olub.

İsmayıl Talıblı Gəncə teatrında yaradıcılığının yetkinlik və müdriklik dövrünün parlaq nümunələrini yaradıb. Onların daha sanballıları və yaradıcılıq baxımından daha zənginləri bunlardır: Hacı Səməd ağa ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Jorj Danden ("Jorj Danden", Jan Batist Molyer), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), Yaqo ("Otello", Vilyam Şekspir), Səttarxan ("Dumanlı Təbriz", Məmməd Səid Ordubadi), Əbdüləli bəy, Aqşin, Hacı Əhməd, Rəhim xan, İmamyar, Balaxan ("Sevil", "Od gəlini", "A1maz", "Nəsrəddin şah", "Yaşar" və "Aydın", Cəfər Cabbarlı), Bələdiyyə rəisi ("Müfəttiş", Nikolay Qoqol), Azər baba, İbrahim xan ("Fərhad və Şirin" və "Vaqif", Səməd Vurğun), Süleyman ("Həyat", Mirzə İbrahimov), Kərəmov, Usta Segah, Səməndərli ("Toy", "Xoşbəxtlər" və "Aşnalar", Sabit Rəhman), Qivami ("Nizami", Mehdi Hüseyn), Naçalnik, Hatəm-xan ağa, Mirzə Həbib ("Hacı Qara", "Müsyö Jordan və Dərviş Məstəli şah" və "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Aslan kişi ("Böyük ürək", İmran Qasımov və Həsən Seyidbəyli), Jan Qrubek ("Praqanın şabalıd ağacları altında", Konstantin Simonov), Hacı Fərəc ("Hacı Fərəc", Nəcəf bəy Vəzirov), Xəlifə ("Babək", Əbil Yusifov), Rüstəm ("Səyavuş", Hüseyn Cavid), Qoca ("Şlkayət qəbul olunmur", Toktobolat Əbdülmöminov), Cəmilzadə ("Kişilər", Altay Məmmədov), Göyüş dayı ("Qatır Məmməd", Zeynal Xəlil), Yoxanes Rayesmık ("Azmış

oğul", Eqon Rannet), Alxan ("Bahar suları", İlyas Əfəndiyev), Qriqori Stepanoviç ("Sabahm xeyir", Viktor Rozov), Riçard Sterlinq ("Sarı ƏlCək", Əfqan), Cahangir bəy ("Nəriman ata", Atif Zeynallı).

"Nəriman ata" pyesini tamaşaya Bakıdan dəvət olunmuş rejissor Tofiq Kazımov hazırlayıb. İlk tamaşa 4 fevral 1967-ci ildə göstərilib. Cahangir bəy rolu İsmayıl Talıblının son tə-zə səhnə obrazı olub. Xəstəliklə əlaqədar may ayından daha səhnəyə çıxmayıb.

Milli səhnə sənəti tariximizə teatr aktyoru kimi daxil olan İsmayıl Talıblının kinoda ən bitkin yaradıcı işi "Onu ba-ğışlamaq olarını?" filmində Mirzə Veysəl roludur.

İsmayıl Talıblı teatrda işləməklə yanaşı, Gəncə alimlər evində dram dərnəyinin və sonralar xalq teatrının bədii rəhbəri kimi fəaliyyət göstərmişdir. Neçə-neçə istedadlı gənc onun qayğıneşliyi ilə həvəskarlıqdan peşəkar səhnəyə ayaq açmışdır.

Məşhur aktyor sənətdəki nailiyyətlərinə görə Azərbaycan Respublikasının əməkdar artisti (4 dekabr 1938) və xalq artisti (23 fevral 1940) fəxri adları ilə təltif olunub.

İsmayıl Talıblı 23 iyul 1967-ci ildə Gəncə şəhərində vəfat edib və oradakı qədim Səvzəkar (Sərdabəli) qəbiristanlığında torpağa tapşırılıb.

## ƏŞRƏF YUSİFZADƏ
## (5.12.1906- 7.3.1963)

Romantik aktyor məktəbinin qabil sənətkarlarından olub. Realist səpkili tamaşalarda da romantik monumentalizmə meyil göstərib.

Coşğun səhnə ehtirası, daxili temperamenti, gur səsi, qaynar psixoloji aləmi, pafoslu danışıq ahəngi kiassik faciə obrazlarının və çağdaş romantik duyğulu xarakterlərin səhnə təcəssümündə daha qabarıq nəzərə çarpıb.

Qəhrəman surətlərdə qazandığı nailiyyətlərlə yanaşı, mürəkəb psixoloji personajları da məharətlə oynaya bilib.

Daxili aktyorluq harınoniyasını plastik hərəkətlərdə ustalıqla təcəssüm etdirməyi bacarıb.

Zəngin mimika ifa vasitələri mənimsəmişdi. Romantizmi və emosionallığı həssaslıqla öz oyununda çuğlaşdırırdı.

Yaradıcılığının ən parlaq mərhələsi Gəncə Dövlət Dram Teatrı ilə bağlı olan Əşrəf Əmrah oğlu Yusifzadə 5 dekabr 1906-cı ildə Şərur rayonunun Sərxanlı kəndində doğulub. On dörd yaşma kimi kənddə yaşayıb. Şərurdakı birinci dərəcəli məktəbdə oxuyub (1921 - 1925). Ədəbiyyata, dramaturgiyaya coşğun həvəs göstərən Əşrəf məktəbdəki dram dərnəyinin fəallarından olub.

Beşillik təhsilini uğurla başa vuraraq müəllimlərinin tövsiyəsi ilə İrəvana gəlib. Burada iyirminci illərdə bütün SSRİ-də dəbdə olan "Rabfaka" (fəhlə fakültəsinə) daxil olub. Təhsilinə davamiyyətli şəkildə yiyələnən Əşrəf Yusifzadə eyni zamanda İrəvanda Azərbaycan teatrının canlı klassiklərindən olan Yunis Nurinin dram dərnəyinə gedib. Burada epizodik rollar oynayıb, kütləvi səhnələrdə iştirak edib.

Fəhlə fakültəsini iki ilə başa vuran Əşrəf Yusifzadə Yunis Nurinin zəmanəti ilə İrəvandam Azərbaycan teatr dəstəsinin aktyor heyətinə qəbul olunub. 1928-ci ildə bu kollektivin əsasında İrəvan Dövlət Azərbaycan Dram Teatrı yaranıb və kollektiv Jan Batist Molyerin "Zorən təbib" komediyası ilə fəaliyyətə başlayıb. Aktyor bu tamaşada nökər rolunu ifa edib. Əşrəf Yusifzadə dram truppasında və Dövlət Teatrında hazırlanmış Cəfər Cabbarlının "Aydın" (Dövlət bəy), Qabriel Sundukyanın "Pepo" (Pepo) əsərlərinin tamaşalarında əsas rollarda oynayıb.

1930-cu ildə Əşrəf Yusifzadə teatr sənətindən ayrılaraq Bakıya ali təhsil almağa gəlib. Burada Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsinə daxil olub. Məşhur aktyor Rza Təhmasiblə, şair-dramaturq Hüseyn Cavidlə dostluğu onu yenidən teatr sənətinə bağlayıb. 1932-ci ilin oktyabrında Bakı Türk İşçi Teatrının truppasına aktyor götürülüb. Kollektivlə birgə 1933-cü ildə Gəncəyə gəlib və ömrünün sonun qədər Gəncə Dövlət Dram Teatrında aktyorluq edib.

1936-cı ildən müstəqil binada fəaliyyət göstərən Gəncə DDT-nin repertuarının əsas ağırlığını cəsarətlə çəkən, deмək olar, bütün qəhrəman və əsas rolları oynayan barınaqla sayılacaq aparıcı aktyorlardan biri də Əşrəf Yusifzadə idi. O, Gəncə tamaşaçılarının rəğbət və məhəbbətini, ehtiram və hörmətini qazanmışdı, kollektivin populyar aktyoru kimi sevilirdi.

Teatrda tamaşalar hazırlamış rejissorlardan Həbib İsmayılovun, Mehdi Məmmədovun, Həsən Ağayevin, Yusif Yulduzun, Hüseyn Sultanovun, Tofiq Kazımovun, Nəsir Sadıqzadənin, Yusif Bağırovun, Vaqif Şərifovun, Əşrəf Quliyevin bədii cəhətdən daha kamil quruluşlarında əsas rolları Əşrəf Yusifzadə ifa etmişdir.

Məşhur aktyorun zəngin və əlvan yaradıcılıq xəzinəsinin aydın və parlaq mənzərəsi belədir: Mirzə Rəhim ("Özgə uşaqları", Vasili Şkvarkin), Balarza, Atakişi, Mirzə Rza, Aqşin, General-qubernator, Dövlət bəy ("Almaz", "Sevil", "Nəsrəddin şah", "Od gəlini", "1905-ci ildə" və "Aydın", Cəfər Cabbarlı), Məktəb naçalniki ("Üzləşdirmə", Tur qardaşları və Lev Şeynin), Frans Moor ("Qaçaqlar", Fridrix Şiller), Vaqif və Qacar, Xosrov ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), Dəmirçi Musa, Mirzə Qərənfil, Gülümov, Qasım ("Toy", "Xoşbəxtlər", "Aşnalar" və "Nişanlı qız", Sabit Rəhman), Yaqo ("Otello", Vilyam Şekspir), Veysəl və Qaya ("Bahar", Məmmədhüseyn Təhmasib), Hacı Fərəc ("Hacı Fərəc", Nəcəf bəy Vəzirov), Nizami ("Nizami", Mehdi Hüseyn), Tofiq ("İntizar", İlyas Əfəndiyev və Mehdi Hüseyn), Əhmədi Biqəm, Məşədi Hüseyn ("Məhəbbət" və "Həyat", Mirzə İbrahimov), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Xosrov Atayev, Nəcəf ("Atayevlər ailəsi" və "Bahar suları", İlyas Əfəndiyev), Con Rayt ("Qərq edilmiş daşlar", İlo Mosaşvili), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), Vilyams ("Kəllə", Nazim Hikmət), Qurban ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Los və Muradov ("Böyük ürək", İmran Qasımov və Həsən Seyidbəyli), Sultan Zöhrabov ("Vicdan", Bəxtiyar Vahabzadə), Şeyx Sənan və Özdəmir, Keykavus ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Ezop ("Tü1kü və üzüm", Gilerma Fiqeyredu), Səməd Vurğun ("Komsomol poeması", İsgəndər Coşqun).

Əşrəf Yusifzadənin parlaq istedadının pərəstişKarları Gəncədən başqa Şəmkirdə, Qazaxda, Tovuzda, Yevlaxda, Şəkidə, Lənkəranda, İrəvanda, Ağdamda, Şuşada, Füzulidə, Laçında... da çox idi. Çünki teatr bu rayonlarda uğurla qastrol tamaşaları göstərib.

Romantik aktyor, cəfakeş teatr xadimi, gənclərin qayğıkeş hamisi Əşrəf Yusifzadə 17 iyun 1943-cü ildə Azərbaycan espublikasının əməkdar artisti və 30 aprel 1955-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Əşrəf Əmrah oğlu Yusifzadə 1963-cü il mart ayının 7-də Gəncə şəhərində vəfat edib və buradakı qədim Səvzəkar (Sərdabəli) qəbiristanlığında dəfn olunub.

## RƏMZİYYƏ VEYSƏLOVA
## (11.2.1914- 23.8.1993)

Öz yaradıcılığında romantizmlə realizmın poetika xüsusiyyətlərindən eyni səviyyədə, böyük ustalıqla barınıb. Romantik rollarda aktyorluq istedadının coşğun ehtirası, daxili temperamenti, realist rollarda səmimiyyəti, təbiiliyi və ifadə vasitələrinin əlvanlığı ilə səciyyəvi, orijinal, bədii-estetik cəhətdən kamil görünürdü.

klassik əsərlərdə möhtəşəm romantik xarakterlər, dünya ədəbiyyatı nümunələrində poetik realist obrazlar yaradan aktrisa Rəmziyyə xanım ötən əsrin altmışıncı illərində Gəncə teatrında lirik-psixoloji üslubun yaradıcılarından və aparıcı sənətkarlarından olub.

Musiqili səsi, mürəkkəb məqamlarda da canlı və plastik hərəkətli səhnə davranışı, güclü texnika vərdişləri, məlahətli görkəmi, iti yaddaşı, emosional cazibə qüdrəti vardı.

İfa etdiyi obrazın psixoloji xarakterinin inkişaf xəttinə uyğun olaraq kövrək pıçıltıdan, həzin lirizmdən partlayan ehtirasa qədər səsinin bütün çalar-variasiyalarından istifadə etməkdə mahir ustad idi.

Rəmziyyə Osman qızı Veysəlova 1914-cü il fevral ayının 11-də Bakıda doğulub. Burada yeni tipli qız məktəbində təhsil alıb. Yeddinci sinifi bitirəndən sonra, 1929-cu ildə Bakı Teatr Məktəbinin aktyorluq fakültəsinə daxil olub. Təhsil ala-ala sənət müəllimlərinin tövsiyəsi ilə Bakı Türk İşçi Teatrının yardım heyətinə qəbul olunub. Burada kütləvi səhnələrə çıxıb və Fyodor Pavlovun "Çin tanrısı" (Viyen), Nikolay Paqodinin "Balta poeması" (Qrz), Vladimir kirşonun "Küləklər şəhəri" (Qadın), Əbdülhəq Hamidin "Hind qızı" (Stelina), Əbdülbağı Fövzinin "Gizli əl" (Əsli), Hacıbaba Nəzərlinin "Yollar" (Gülbahar) əsərlərinin tamaşalarında iştirak edərək epizod rollar oynayıb.

1932-ci il dekabrın 28-də Türk İşçi Teatrı Bakıdakı yaradıcılıq ömürcəsinə xitam verdi. Gəncəyə köçürülən (4 və 5 yanvar 1933) sənət ocağı burada əvvəlcə Gəncə Türk İşçi Teatrı, iki il sonra Gəncə Dövlət Dram Teatrı kimi fəaliyyətini davam etdirdi.

1932-ci ilin sonlarında gənc fırça ustası, sonralar Gəncə Dövlət Dram Teatrında tərtibatçı rəssam və baş rəssam işləyən Bəhram Əfəndiyev Aşqabad teatrında işləməyə dəvət alıb. Onunla yenicə ailə həyatı quran Rəmziyyə xanım da Aşqabada gedib. Aktrisa orada üç ilə yaxın "Rəmziyə" və "Rəmziyyə Əfəndiyeva" kimi çıxış edib, müəyyən təcrübə toplayıb. Gənc olmasma baxmayaraq, Rəmziyyə Veysəlovaya Yaqut ("Yaşar", Cəfər Cabbarlı), Solmaz ("Od gəlini", Cəfər Cabbarlı), Dezdemona ("Otello", Vilyam Şekspir), Mehriban ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Elampa ("Hind qızı", Əbdülhəq Hamid) kimi məsul rollar tapşırılıb. O, az müddətdə teatrın aparıcı aktrisaları cərgəsinə çıxıb.

1934-1935-ci il teatr mövsümündə Bəhram Əfəndiyev və Rəmziyyə xanım Gəncə şəhərinə gəliblər və ikisi də teatrın kollektivinə qəbul olunublar. Gəncə teatrında Rəmziyyə xanının yaradıcıdıq səpkisində aktrisa yox idi. Onun həmyaşıdı Barat xanım Şəkinskaya teatrdan inciyib Bakıya getmişdi. Buna görə də Rəmziyyə xanım tezliklə teatrın aparıcı aktrisasına çevrildi. Ona həm sevgili, həm qəhrəman, həm də dramatik səciyyəli aparıcı rollar tapşırılırdı və aktrisa əsasən rejissorların ümidini doğruldurdu. Eyni zamanda axtarışlar aparır, istedadını cilalayıb formalaşdırmaq yolunda usanınadan çalışırdı.

Aktrisanın altmış iki illik aktyorluq fəaliyyətinin sənət töhfələrinin əsas inciləri bunlardır: Ceyran ("Özgə uşağı", Vasili Şkvarkin), Almaz, Solmaz, Mariya Timofeyevna, Sitarə ("Almaz", "Od gəlini", "1905-ci ildə" və "Nəsrəddin şah", Cəfər Cabbarlı), Gülnar və Xuraman, Məryəm ("Vaqif" və "Fərhad və Şirin", Səməd Vurğun), Kamalə, Sənubər ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Huri ("Məhəbbət", Mirzə İbrahimov), Balisa, Marsela ("Kələkbaz sevgili" və "Nə yardan doyur, nə əldən qoyur", Lope de Veqa), Natella ("Vətən namusu", Georgi Mdivani), Emiliya ("Otello", Vilyam Şekspir), Aqlaya İvanovna ("Xərçənglər", Sergey Mixalkov), Dilşad, Nəzakət, Nurcahan xanım ("Atayevlər ailəsi", "Sən həmişə mənimləsən" və "Mənim günahım", İlyas Əfəndiyev), Şamandux ("Qərq edilmiş daşlar", İlo Mosaşvili), Tükəz ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Paolina, Anna Nikolayevna, karın arvadı ("Kəllə", "İvan İvanoviç var idimi?.." və "Demoklisin qılıncı", Nazim Hikmət), Xumar və Nina, Südabə ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Ayişə ("Şikayət qəbul olunmur", Toktobolat Əbdülmöminov), Rəxşəndə ("Kişilər", Altay Məmmədov), Xanım Piçem ("Üç qəpiklik opera", Bertolt Brext), Məhsəti xanım ("Nizami", Mehdi Hüseyn), Həkim ("Göz həkimi", İslam Səfərli), kleya ("Tülkü və üzüm", Gilerma Fiqeyredu), Anacan, Xeyransa ("Anacan" və "Nəsrəddin", Yusif Əzimzadə), Tamara Timofeyevna ("Sabahın xeyir!", Viktor Rozov), Miss Petris ("Sarı Əlcək", Əfqan), Dayə ("Aldanınış adaxlı", Riçard Şeridan), Mariya İqnatyevna ("Təbilçi qız", Anatoli Salınski), Cəvahir ("Cinli", Aleksandr Şirvanzadə), Zann ("Bura gəlin", Əziz Nesin), Gülər ("Almazın qızları", Səttar Axundov), Olqa Nikolayevna ("Həmişə təmizlikdə", Emil Braginski və Eldar Ryazanov), Kesariya ("Araba hələ aşmayıb", İoseliani), Gülbacı ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Həcər

xanım ("Yad qızı", Orxan Kamal), Dayə ("Medeya", Evripid), Sevinc ("Sənsiz", Şıxəli Qurbanov), Zülxəbirə ("Aygül diyarı", Mustay Kərim), Mehri xanım ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Bufetçi qadın ("Qatarlar səhər gedir", Raymond kauqvern), Nərminənin anası ("Mezozoy əhvalatı", Maqsud İbrahimbəyov), Zaxarovna ("Qoca", Maksim Qorki), Hersoqinya ("111 Riçard", Vilyam Şenspir), Zərnigar ("Dəli Kür", İsmayıl Şıxlı), Nazxanım ("Boş banlar", Əhməd İsayev).

Gəncə Dövlət Dram Teatrının görkəmli aktyorlarından olmuş Rəmziyyə Osman qızı Veysəlova 30 aprel 1955-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti və 20 may 1958-ci ildə xalq artisti fəxri adları ilə təltif edilib.

Aktrisa 23 avqust 1993-cü ildə Gəncə şəhərində vəfat edib və Bağbanlardakı Fəxri xiyabanda dəfn olunub.

## GƏNCƏ DÖVLƏT DRAM TEATRINDA REJİSSOR SƏNƏTİ

Gəncə teatrı 1933-cü ilin martında fəaliyyətə başlayanda ilk növbədə Bakı Türk İşçi Teatrının hazır tamaşaları bərpa olunub repertuara daxil edildi. Eyni zamanda teatrla birlikdə Gəncəyə gəlmiş və burada payız mövsümünün sonuna qədər rejissorluq etmiş Abbasmirzə Şərifzadə Hüseyn Cavidin "Şeyx Sənan", Cəfər Cabbarlının "Yaşar" və Aleksandr Şirvanzadənin "Namus" dramlarına səhnə quruluşu verib. Repertuardakı bir sıra tamaşalara yeni aktyorları da Şərifzadə hazırlayıb.

Gəncə dram kollektivinin yetirməsi olan İsmayıl Əfəndiyev 1934-cü ildən teatrda aparıcı rejissor kimi önə çıxıb. Şərifzadə Bakıya qayıdandan sonra İsmayıl Əfəndiyev kollekti-və baş rejissor təyin ediblər. Teatr onun rejissorluğunda "Fahişə" (Viktor Marqaret), "Üzləşdirmə" (Lev Şeynin və Tur qardaşları), "Namus" (Aleksandr Şirvanzadə), "Sevil", "Od gəlini", "Almaz" (Cəfər Cabbarlı), "Vaqif" (Səməd Vurğun) tamaşalarını oynayıb.

Həbib İsmayılov 1936-cı ildə teatra bədii rəhbər təyin olunub. Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə", Mirzə İbrahimovun "Həyat" pyesləri onun quruluşlarında tamaşaçılara göstərilib.

Ağəli Dadaşov 1938-1939-cu və 1945-1948-ci illərdə Gəncə teatrında baş rejissor işləyib. Burada Georgi Mdivaninin "Vətən namusu" (1938), Sabit Rəhmanın "Toy" (1939) və "Aşnalar" (1946), Hacıağa Quliyevin "Qohumlar" (1939), Əyyub Abbasovun "Məlik Məmməd", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (1946), Səməd Vurğunun "Fərhad və Şirin" (1947), Konstantin Simonovun "Praqanın şabahd ağacları altında" (1947), İmran Qasımovun "Arzu və Sevinc", Kərim Sultanovla Məmməd Bürcəliyevin "Yadigar" (1948) pyeslərini tamaşaya hazırlayıb.

Teatra dəvət edilmiş Yusif Yulduzun 1936-cı ildə hazırladığı "Od gəlini" (Cəfər Cabbarlı) qəhrəmanlıq dramının tamaşası, həmçinin onun quruluşlarında oynanılan Cəfər Cabbarlının "Almaz", "Solğun çiçəklər", Vadim Sobkonun "İkinci cəbhə", (1950), Hüseyn Muxtarovun "Ailə namusu" (1952) əsərləri kollektivin yaradıcılıq nailiyyəti kimi dəyərləndirilib. O, Gəncə teatrına ilk gəlişində az müddət baş rejissor olub.

Əjdər Sultanov Gəncə teatrına BTİT-nin kollektivi ilə gəlib. Dörd ilə yaxın bu kollektivdə işləyib. Əvvəl-əvvəl teatrın hazır repertuarındakı tamaşalarda çıxış edib. Gəncədə hazırlanan səhnə əsərlərində oynayıb. Teatrın nəzdində "Uşaq və Gənclər Teatrı" bölməsi yaradılıb və Əjdər Sultanov burada rejissorluqla məşğul olmağa başlayıb. O, bu bölmədə Biçer Stounun "Tom dayının koması", Zəfər Nemətov və Əhməd Həsənovun "Qaralar ölkəsində", Cəfər Cəfərovla Şamil Məlikyeqanovun "Papiros çəkmə" uşaq əsərlərinə səhnə quruluşları verib.

* * *

**HƏSƏN AĞAYEV (10.5.1910 - 20.6.1986)**

Rejissor Həsən Ağayev 10 may 1910-cu ildə Bakıda doğulub. Bakı Teatr Məktəbini bitirib və 1928-ci ildə Bakı Türk İşçi Teatrında aktyor kimi səhnə fəaliyyətinə başlayıb. Teatr Gəncəyə köçəndə o, İrəvana gedib və burada DADT-nin truppasına daxil olub. Aktyorluqdan daha çox rejissor sənətinə maraq göstərən Həsən Ağayev Moskvada Lunaçarski adına Teatr Sənəti İnstitutunda təhsil alıb. Moskva Bədaye Akademik Teatrının, Vaxtanqov və Meyerxold teatrlarının estetik prinsiplərini, poetika səciyyələrini mənimsəməyə çalışıb.

1936-cı ildə Bakıya gəlib və OBT-də Üzeyir bəy Hacıbəyovun "Ər və arvad" operettasını tamaşaya hazırlayıb. Elə həmin il Naxçıvana gedib və 1939-cu ilə kimi buradakı DDT-də ondan çox əsərə səhnə quruluşu verib.

Bakı və Naxçıvan teatrlarında müəyyən rejissorluq təcrübəsi toplayan Həsən Ağayev 1939-cu ildə Gəncə DDT-yə qu-ruluşçu rejissor qəbul edilib. Uzun illər bu kollektivdə səmərəli yaradıcılıq axtarışları ilə çalışan sənətkar 1939 - 1942 və 1962 - 1965-ci illərdə kollektivə baş rejissorluq edib.

Həsən Ağayevin Gəncə teatrında ilk işi Qurban Musayevin "Şərqin qalası" əsərin tamaşası olub. O, bu teatrda Əbil Yusifovun "Babək", Cəfər Cabbarlının "Aydın", "Yaşar", "Solğun çisəklər", Sabit Rəhmanın "Xoşbəxtlər", "Əliqulu evlənir", Jan Batist Molyerin "Jorj Danden", "Sevil", Vilyam Şekspirin "Otello", Səməd Vurğunun "Fərhad və Şirin", "Vaqif", Mirzə İbrahimovun "Məhəbbət", Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Lənkəran xanının vəziri", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" və "Hacı Fərəc", Mirzə Fətəli Axundzadənin Nikolay Qoqolun "Müfəttiş", Ənvər Məmmədxanlının "Şərqin səhəri", Məmmədhüseyn Təhmasibin "Bahar", "Çi-ÇəkiÌ dağ", Karl Myufkenin "İldırımlı yollarla" (Piter Abrahamsın romanı əsasında), İlyas Əfəndiyevin "Bahar suları", "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", Vasili Şkvar-kinin "Özgə uşağı" və Novruz Gəncəlinin "Şəlalə", Məmmədhüseyn Təhmasibin "Bahar", Məcid Şamxalovun "Qaynana", Robindranat Taqorun "Qanq qızı" ("Kəmalə"), Səttar Axundovun "Məhəbbət nişanəsi" və "Almazın qızları", Bağır Bağırovun "Tamaşa qarının nəvələri" (Əbülhəsənin romanı əsasında), Atif Zeynallının "Sirlər yuvası", Hüseyn Cavidin "Səyavuş", Hacıağa Quliyevin "Sabir", Riçard Şeridanın "Aldanmış adaxlı", Əfqan Əsgərovun "Qız atası" və "Sarı Əlcək", Qurban Musayevin "Köhnə həyatin adamları", Altay Məmmədovun "Kişilər", Kita Buaçidzenin "Həyətdə qapan it var", Hüseyn Qaraoğlunun "Şəfiqə", "Abdulla Şərifovun Xallı dağın qartalı", Məhərrəm Əlizadənin "Dağ çiçəyi", Boris Lavrenyovun "Hücum", Ədil İsgəndərovun "Qaya", Mustay Kərimin "Aygül diyarı", Raymond kauqverin "Qatarlar səhər gedir", Maqsud İbrahimbəyovun "Mezazoy əhvalatı", Lope de Veqanın "Rəqs müəllimi", Konstantin Simonovun "Bizim şəhərli oğlan", Nəbi Xəzrinin "Sən yanmasan...", Süleyman Sani Axundovun "Eşq və intiqam", İsi Məlikzadənin "Yaxın adam", Altay Məmmədovun "Kişilər", Firudin Ağayevin "Səməndər", Zeynal Xəlilin "Şairin yuxusu", Yusif Əzimzadənin "Unutınaym", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Yusif Əzimzadənin "Ürək döyünməsə", Əlibala Hacızadənin "İtkin gəlin" əsərlərinə maraqlı səhnə quruluşları verib.

Teatr sənətindəki xidmətlərinə görə Həsən Ağayev 20 may 1958-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilib. 20 iyun 1986-cı ildə gəncədə vəfat edib.

**MEHDİ MƏMMƏDOV (1918 - 1985)**

Azərbaycanın görkəmli rejissorudur. Yaradıcılığı daha geniş şəkildə AMDT ilə bağlıdır. Eyni zamanda Opera və Balet Teatrında, Rus Dram Teatrında da baş rejissor işləyib və müxtəlif

əsərləri tamaşaya hazırlayıb. Səhnə fəaliyyətinə aktyor kimi BTİ-də başlayan Mehdi Məmmədov İlk rejissor quruluşunu da Gəncə şəhərində fəaliyyətini davam etdirən həmin kollektivdə verib.

Mehdi Məmmədov Moskvada ali rejissor təhsili alıb. Diplom işi olan Məmmədhüseyn Təhmasibin "Bahar" pyesini Gəncə DDT-də tamaşaya hazırlayıb. İmtahan kimi qəbul olunan ilk sərbəst quruluşundan əla qiymət alan rejissor təyinatla bu kollektivə rejissor göndərilib. İ1k tamaşalarından yaradıcılığı yenilik ruhu və monumentalizm səciyyələri ilə ona kollektivdə rəğbət, teatr ictimaiyyətində şöhrət qazandırıb. Buna görə də 1942-ci ildə onu teatra baş rejissor təyin ediblər. 1945-ci ilin payız mövsümündə Bakıya gəlib və Akademik teatra quruluşçu rejissor götürülüb.

Görkəmli rejissor Gəncə teatrında Mirzə İbrahimovun "Madrid" (1941), Zeynal Xəlilin "İntiqam" (1942) və "Qatır Məmməd" (1945), Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (1942), Cəfər Cabbarlının "Od gəlini" (1942) və "Oqtay Eloğlu" (1944), Jan Batist Molyerin "Vasvası xəstə" (1942), Sabit Rəhmanın "Toy" (1944), Səməd Vurğunun "Vaqif" (1942), Lope de Veqanın "Nə yardan doyur, nə əldən qoyur" (1943), İlyas Əfəndiyev və Mehdi Hüseynin "İntizar" (1944), Mehdi Hüseynin "Nizami" (1943), Nadejda Filippovanın "Partizan Kostya" (1944) dram və komediyalarına maraqlı səhnə quruluşları verib.

Mehdi Məmmədov Gəncədə işlədiyi müddətdə teatrın yaradıcılığında monumental romantizınlə realist teatr estetikalarını qovuşuqda realizə edib. Aktyorların fərdi yaradıcılıq üslublarının formalaşmasında ciddi işlər görüb. Teatrın reper nail olub. Tamaşa və bədii tərtibat, tamaşada musiqinin estetik tutumu istiqamətlərində müəyyən ənənələrin bünövrəsmi qoyub.

**HÜSEYN SULTANOV (23.12.1923 - 30.3.1993)**

Rejissor Hüseyn Musa oğlu Sultanov 23 dekabr 1923-cü ildə Bakıda doğulub. Moskva Dövlət İncəsənət İnstitutunun rejissorluq fakültəsini 1952-ci ildə bitirib. Gəncə teatrına göndərilən Hüseyn Sultanov əvvəlcə burada quruluşçu rejissor, sonra baş rejissor işləyib (1952 - 1962). Yaradıcılığı müasirlik axtarışları ilə səciyyəvidir. Realist teatr məktəbinin estetik prinsiplərinə üstünlük verib. Quruluş verdiyi əsərlərin əksəriyyətini lirik-psixoloji üslubda hazırlayıb.

Gəncə DDT-də göstərdiyi xidmətlərə görə 20 may 1958-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub. Yaradıcılığının sonraki dövrü GTT ilə bağlıdır.

Hüseyn Sultanov Gəncə teatrında Aşaq Tuqayevin "Adaxlılar" (diplom işidir. 1952), Səməd Vurğunun "Vaqif", İlo Mosaşvilinin "Qərq edilmiş daşlar", Cəfər Cabbarlının "Solğun çiçəklər", "Nəsrəddin şah" və "Almaz", Sergey Mixalkovun "Xərçənglər", Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Sabit Rəhmanın "Toy", İslam Səfərlinin "Göz həkimi", Cabbar Məcnunbəyovun "İldırım", Səməd Vurğunun "Vaqif", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", Nazim Hikmətin "Kəllə", Hüseyn Cavidin "Şeyx Sənan" və "Səyavuş", Bəxtiyar Vahabzadənin "Vicdan", Həsən Seyidbəyli və İmran Qası-movun "Böyük ürək", Lütfəli Həsənovun "Günəş", Lope de Veqanın "Kələkbaz sevgili", Tsao Yuyun "Tufan", Aleksandr Şirvanzadənin "Namus", Eqon Rannetin "Azmış oğul", Əlyar Yusiflinin "Ürək sevərsə", Gilerma Fiqeyredunun "Tü1kü və üzüm" ("Ezop"), İsgəndər Coşqunun "Komsomol poeması" pyeslərinə orijinal üslublarda səhnə quruluşları verib.

Ömrünün sonlarında teatrda işləməyən Hüseyn Sultanov 30 mart 1993-cü ildə Bakıda vəfat edib.

* * *

**Nəsir Sadıqzadə (18.10.1926 - 28.11.1996).**

1965-1966-cı illərdə Gəncə teatrında baş rejissor işləyib və müxtəlif vaxtlarda qısa fasilələrlə quruluşçu rejissor kimi çalışıb. Dəvətlə də tamaşalar hazırlayıb. Cəfər Cabbarlının "Aydın", Mirzə

İbrahimovun "Kəndçi qızı", Viktor Rozovun "Sabahın xeyir" (1962), Yusif Əzimzadənin "Nəsrəddin", Aleksandr Şirvanzadənin "Cinli", Toktobolat Əbdülmöminovun "Şikayət qəbul edilmir" (1963), Əziz Nesinin "Bura gəlin" (1965), Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Otiya İoselianinin "Araba hələ aşmayıb" dram əsərlərinə (1976) müxtəlif janrlarda səhnə quruluşları verib.

**Yusif Bağırov (20.1.1924 - 19.9.1995).** Gəncə teatrına gəlişinin əvvəllərində (müəyyən fasilə ilə) quruluşçu rejissor kimi çalışıb. 1966 - 1995-ci illərdə isə teatrın baş rejissoru olub. Yunan kiassik dramaturgiyasını teatrın səhnəsinə ilk dəfə o gətirib.

Karl Myufkenin "İldırımlı yollarla" (Piter Abrahamsın romanı əsasında, İlyas Əfəndiyevin "Atayevlər ailəsi", "Mənim günahım" və "Unuda bilmirəm", Məmmədhüseyn Təhmasibin "Çiçəkii dağ", Məmmədəli Nəsirovun "Tariyel" ("Pələng dərisi geymiş pəhləvan"), Sabit Rəhmanın "Nişanlı qız" və "Küləklər", Şıxəli Qurbanovun "Sənsiz", Evripidin "Medeya", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", Qurban Musayevin "Odlu illər", Vilyam Şekspirin "Otello", Aleksandr Ostrovskinin "Quduz pullar", Cəfər Cabbarlının "Oqtay Eloğlu", İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə", Altay Məmmədovun "Ulduzlar görüşəndə", Mixail Lermontovun "İki qardaş", Sofokiun "Antiqona", Mustay Kərimin "Odu atma, Prometey!", Orxan Kamalın "72-ci kamera", Nazım Hikmətin "İvan İvanoviç var idimi?..", Səttar Zərdablının "Əli Məmməd Dilbəri" pyeslərinin tamaşaları Yusif Bağırovun teatrda əsas rejisor işləridir.

**Vaqif Şərifov (12 avqust 1943).** 1967-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq fakültəsini bitirib. Müxtəlif vaxtlarda və müəyyən fasilələrlə Gəncə teatrında rejissor və az müddət baş rejissor işləyib. Ağdam və Sumqayıt teatrlarına da rəhbərlik edib.

Gəncə DDT-də əsas tamaşaları: "Anaların divanı" (İslam İbrahimov), "Məhəbbət körpüsü" (Novruz Gəncəli), "Xan qızı" (Fəridə Əlyarbəyli), "Bir tavan altında" (Tofiq Firudinbəyli), "Böyük ürək" (Həsən Seyidbəyli və İmran Qasımov), "Qəribə dilənçi" (Yan Saloviç), "Mükafat" (Aleksandr Gelman), "İlk busə" (Abdüqəhhar İbrahimov), "Unutınaq istəyirəm" (Nüşabə Məmmədova), "Dəli Domrul" (Altay Məmmədov), "Yeddi oğlan və bir qız" (Rövşən Ağayev), "Yad qızı" (Orxan Kamal), "İctimai rəy" (Aurel Baranqa), "Maral" (Hüseyn Cavid), "Demoklisin qılıncı" (Nazim Hikmət), "Dəli Kür" (İsmayıl Şıxlı), "Qapı" (Elşad Məmmədov), "Yandırılmış adam" (Əlibala Hacızadə).

Hilal Həsənov (10 sentyabr 1943). 1960-cı illərin sonlarından teatrda aktyorluq etməklə yanaşı, quruluşçu rejissor kimi də fəaliyyət göstərib. 1990-cı illərin əvvəllərində Türkiyəyə işləməyə gedib. Gəncə teatrında Vasili Şukşinin "Diribaş adamlar", İsgəndər Coşqunun "Komsomol poeması", Vilyam Şekspirin "111 Riçard", Rəhman Əlizadənin "Doğmalar", Maksim Qorkinin "Qoca", Osvald Zaqradnikin "Zəngli saat", Sabit Rəhmanın "Xoşbəxtlər" əsərləri Hilal Həsənovun quruluşlarında oynanılıb.

* * *

Teatrın qabaqcıl aktyorları Ələkbər Seyfi, Əhməd Salahlı, Əşrəf Yusifzadə, Məmməd Bürcəliyev, Həsən Sadıqzadə (Həsənqara), Telman Əliyev müəyyən dramlara quruluş veriblər. Bakıdan müxtəlif vaxtlarda dəvət olunmuş Rza Təhmasib, Ələsgər Şərifov, Tofiq Kazımov, Gülcahan Güləhmədova, Əşrəf Quliyev, Oruc Qurbanov Gəncə teatrında rejissorluq etmişlər.

Gəncə DDT-nin bədii rəhbəri 1 iyun 1999-cu ildən Rafiq Atakişiyevdir.

## GƏNC TAMAŞAÇILAR TEATRI

Milli teatrımız institusional mədəniyyətin faktı olmamışdan əvvəl onun yaradıcılıq qayəsində uşaqlar, məktəblilər və yeniyetmə gənclər üçün tamaşalar hazırlamaq məqsədi olmayıb. Ümumiyyətlə, səhnə mədəniyyəti və yeniyetmə nəslin tərbiyəsi teatrın maraq dairəsmdə olmayıb,

çünki onu əsasən geniş kütlənin maariflənməsi məsələsi düşündürürdü. Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Aşqabadda, Dərbənddə, Şuşada, Gəncədə... müxtəlif teatr truppaları qadınlar, həmçinin məktəb şagirdləri üçün tamaşalar göstəriblər. Lakin göstərilən əsərlər ya məşhur faciə və komediyalar, yaxud da böyüklər üçün təbdil edilmiş vodevillər olub.

1920-ci ilə qədər Mirzə Ələkbər Sabirin, Abbas Səhhətin uşaqlara həsr etdikləri şeirlər çap olunmuşdu, Süleyman Sani Axundov müxtəlif nağıl-hekayələr yazmışdı. Müxtəlif jurnallar məhz məktəb həyatını işıqlandırırdı. Müəyyən dərsliklər də yazılırdı, məxsusi uşaqlar üçün folklor nümunələri tədris və təbliğ olunurdu. Bütün bunlara baxmayaraq, sırf uşaq və yeniyetmələrin estetik maraq dairəsmi ehtiva edən, onların dünyagörüşlərinin formalaşmasma təkan verən pyeslər hələ yaranınamışdı və bu işə göstərilən maraqlar da hələlik səmərəli nəticə verməmişdi.

Uşaqlar üçün ilk dram əsərini Abdulla Şaiq yazdı. "Gözəl bahar" adlı poetik janrlı bu dramı Akademik Milli Dram Teatrında tamaşaya Abbasmirzə Şərifzadə hazırladı. İlk tamaşa 7 aprel 1922-ci ildə göstərildi. "Gözəl bahar" Dövlət təsisatında olan teatrımızın ilk uşaq tamaşası sayılır. Akademik teatr ilk uğurlu sınaqdan sonra Mustafa Mərdanovla Aslan Tahirovun tərcüməsində Jül Vernin "Kapitan Qrantın uşaqları" (1 mart 1926-cı il), "80 gün dünya səyahəti" (17 fevral 1927-ci il) və Qafarovun çevirməsində Biçer Stounun "Tom dayının koması" (3 noyabr 1927-ci il) dramları əsasında uşaqlar üçün tamaşalar hazırlayıb öz repertuarına daxil etdi. Tamaşaların üçünün də quruluşunu teatrın baş rejissoru Aleksandr Tuqanov vermişdi.

Bu adamlar gələcəkdə uşaqlar üçün xüsusi səhnə sənəti ocağının yaranınasma təkan verdilər. Həmin istiqamətdə yaradıcılıq prosesinin genişlənməsi üçün 1923-cü ildən başlayaraq Bakı dəniz limanında, keçmiş Tağıyev toxuculuq kombinatında, bügünkü Səttərxan adına zavodda və bir sıra digər müəssisələrdə, uşaq evlərində pioner təşkilatları fəaliyyətə başladılar. Onların nəzdində dram dərnəkləri yaradıldı. Yaradıcılıq ehtirası, sənətə məhəbbət və rəğbət bəsləmələri, müxtəlif əsərlərdən hazırladıqları səhnələrin sayı baxımından Dənizçilər klubunun 40 saylı pioner dəstəsinin özfəaliyyət dərnəyi daha fəal görünürdü. Müəyyən fəaliyyət dövründən sonra dərnəyə məktəbli Ağadadaş Qurbanov rejissor təyin olundu. Sonralar xalq artisti kimi şöhrətlənən sənətkarın təşəbbüsü ilə dərnək ilk dəfə tam əsəri tamaşaya hazırlamağı qərara aldı. 15 mart 1927-ci ildə dərnəyin üzvləri pioner-dəstə rəhbəri Lətif Kərimlinin "Fırtına" pyesini tamaşaya hazırladılar.

"Fırtına" tamaşasında sonradan ömürlərini teatr və kino sənətinə bağlayaraq şöhrətli yaradıcılıq yolu keçən Muxtar Dadaşov, Məmmədağa Dadaşov, Kərim Həsənov, Cəvahir İsgəndərova, Yusif Dadaşov və başqaları iştirak etdilər. Tamaşa on gün sonra Bakı İşçi Teatrının binasında fəhlələrə göstərildi. Bu, respublikanın həyatında böyük mədəni hadisə kimi dəyərləndirildi. 1928-ci il oktyabr ayının 5-də Xalq Maarif komissarlığının qərarı ilə Bakı Uşaq (Cocuq da yazılıb) Teatrının rus bölməsi yaradıldı.

1929-cu ilin əvvəllərində teatrın Azərbaycan bölməsini yaratmaq üçün müsabiqə elan edildi. Noyabr ayında müsabiqə yekunlaşdırıldı və truppaya iyirmi üç nəfər teatr həvəskarı qəbul olundu. "Fırtına"nı oynayan aktyorların əksəriyyəti, o cümlədən sonralar şöhrətli rejissor olan Məhərrəm Haşımov truppaya götürüldülər.

Teatr özünün ilk pərdələrini 30 yanvar 1930-cu ildə Mustafa Mərdanovla Rza Təhmasib tərəfindən tərcümə olunmuş "Qırmızı qalstuk əleyhinə" tamaşası ilə açdı. Tamaşanın rejissoru Qriqori kornelli idi. Məşq prosesində pyes təbdil olundu və hadisələr Azərbaycana köçürüldü. Məhərrəm Haşımov (Karl), Məmmədağa Dadaşov (Dadaş), Zinyət Abbaszadə (Faşist qız), Yusif Dadaşov (Musa), Mina Abdullazadə (Türk qızı) əsas rolları oynayıblar.

Milli dramaturgiyamız uşaq pyesləri yazınaqda hələ müəyyən təcrübə toplamamışdı və nəsr əsərlərini, xalq nağılları-nı səhnələşdirməyə də meyil göstərilmirdi. Boşluğu doldurmaq üçün teatrın rəhbərliyi repertuarı tərcümə pyeslərinin əsasında qururdu. Məktəbliləri düzlüyə, mehribanlığa, səmimiliyə, çalışqanlığa, böyüklərə ehtirama, Vətənə məhəbbətə səsləyən və eyni zanıanda siyasi ideya yükü qabarıq olan "Vur köhnəliyi", "Altay Robinzonları", "Uzaq yaylaqda", "Pambıq verək", "Təkbaşına gəzən pişlk", "Əfilər", "Beş illiyi iki il yarıma" pyesləri tamaşaçılara göstərilirdi.

1932-1933-cü il teatr mövsümündən başlayaraq teatrın üzvləri Zəfər Nemətov, Əliməmməd Atayev, Cəfər Cəfə-rov, Şamil Məlikyeqanov, Məmmədağa Dadaşov kiçik həcmli tərbiyəvi-didaktik, siyasi ruhu qabarıq verilən, ideyası çılpaq olan pyeslər yazıb teatra təqdim etdilər.

1936-cı il iyun ayının 18-də Xalq Maarif komissarlığının əmri ilə teatrın adı dəyişdirildi. Müəyyən bitkin repertuar qura bilmiş kollektiv Gənc Tamaşaçılar Teatrı adlandı. Bu, adicə addəyişmə deyildi. Eyni zamanda teatrın növbəti yaradıcılıq qayəsinin estetik prinsiplərini, tamaşaçı auditoriyasının tərkibini müəyyənləşdirdi. Sözsüz ki, təzə adla fəaliyyətə başlayan kollektiv oyun-üslubunda, ifadə vasitələrində, janr axtarışlarında, forma həllində də yeni yaradıcılıq pilləsinə qədəm qoydu. Həmin keçid dövrü və 1940-cı illər Gənc Tamaşaçılar Teatrı üçün aşağıdakı sənət nailiyyətləri və yaradıcılıq uğurları ilə xarakterizə olunur.

GTT öz ətrafında məktəblilərin, yeniyetmələrin zövq və psixologiyasının formalaşmasma xidmət göstərən dramaturqlar dəstəsi toplaya bildi. Bir-birinin ardmca Mirmehdi Seyidzadənin "Nərgiz", "Qızıl quş", "Ayaz", Abdulla Şaiqin "Xasay", "Eloğlu", "Vətən", "Ana", "Fitnə", Əbil Yusifovun "Babək", "Ramiz", "Od içində", Əyyub Abbasovun "Azad", "Cəbhəyə əmr", "Məlik Məmməd", "Bahar nəğməsi", "Sevinc", Səttar Axundovun "Çətin dərə", "Tayqa", "Dönməz" pyesləri tamaşaya qoyuldu.

Teatr janr əlvanlığına və mövzu-problematika genişliyinə nail olmaq məqsədilə milli kiassik dramaturqlarımızdan Cəfər Cabbarlının, Nəcəf bəy Vəzirovun, Mirzə Fətəli Axundzadənin, dünya ədiblərindən Fridrix Şillerin, Jan Batist Molyerin, Nikolay Qoqolun seçmə əsərlərini repertuara daxil etdi.

GTT özünün yaradıcılıq spesifikasına uyğun olan milli rejissorlarımızı yetişdirdi. Teatrda Soltan Dadaşov, Məhərrəm Haşımov, Zəfər Nemətov, Kərim Həsənov, Şüa Şeyxov, Həsən Əliyev kimi səriştəli rejissorlar fəaliyyət göstərirdilər. Onlar teatrın üslub və forma prinsiplərinin estetik səciyyələrini zənginləşdirməklə yanaşı, özlərinin fərdi rejissor üslublarını da formalaşdırırdılar. Bu baxımdan Məhərrəm Haşımovla Zəfər Nemətovun yaradıcılıqlarının estetik dəyərləri, psixoloji ifadə vasitələrinin əlvanlığı və zərifliyi daha diqqətəlayiqdir.

Gənc Tamaşaçılar Teatrı müxtəlif yaradıcılıq mərhələlərindən və sınaqlarından keçərək özünün estetik prinsiplərinə uyğun olan aktyor ansamblı formalaşdıra bilmişdi. Teatrda Süleyman Ələsgərov, Əliağa Ağayev, Məmmədağa Dadaşov, Rüxsarə Ağayeva, Susanna Məcidova, Hüseynağa Sadıqov, Ağadadaş Qurbanov, Yusif Dadaşov, Əliməmməd Atayev kimi aktyorlar yetişmişlər.

Teatrın repertuarında janr əlvanlığı gündən-günə artırdı və bu istiqamətdə cəsarətli səylər uğursuz cəhdlərdən çox idi. Nağıl, dram, məişət komediyası, satirik komediya, qəhrəmanlıq dastanı, məzhəkə, oyun-əyləncə, ictimai-sosial faciə və bu kimi janrlarda tamaşalar oynanılırdı.

Teatr tərtibat-forma axtarışlarında öz estetik prinsip və xüsusiyyəti olan ifadə vasitələrini sınaqdan çıxara-çıxara və Gənc Tamaşaçılar Teatrına xas olan səhnəqrafiya ənənəsi ya-ratınışdı. Bu işdə rəssamlardan Ə. Həsənov, Fyodor Qusak, Həsən Mustafayev, Sadıq Şərifzadə səmərəli nailiyyətlər qaza-na bilmişdilər.

1930-cu ilin sonrarından başlayaraq teatr tamaşaların estetik təsir gücünü artırmaq, ifadə vasitələrini zənginləşdirmək, emosional duyğulara təkan vermək üçün milli bəstəkarlarımızla yaradıcılıq əlaqəsi qurdu. Tofiq Quliyev, Niyazi, Fikrət Əmirov, Cahangir Cahangirov, Şəfiqə Axundova, Sol-tan Hacıbəyov, Əşrəf Abbasov mürəkkəb tamaşalara musiqi bəstələdilər.

1950-ci ildən başlayaraq teatrın yaradıcılığında yeni estetik mərhələnin inkişafına təkan verildi. Teatr öz repertuarını dörd məqsəd-prinsipdə qururdu:

məktəbəqədər uşaqlar üçün tamaşalar;
azyaşlı məktəblilər üçün tamaşalar;
yuxarı sinif şagirdləri üçün tamaşalar;
yeniyetmə gənclər üçün tamaşalar.

İlbəil teatrla yaradıcılıq ünsiyyəti yaradan dramaturqların sayı Yusif Əzimzadənin, Cabbar Məcnunbəyovun, Səttar Axundovun, Rauf İsmayılovun, Əfqan Əsgərovun, İsgəndər Coşqunun, Xanımana Əlibəylinin, Qeybulla Rəsulovun, Məmmədhüseyn Təhmasibin, Əkrəm Əylislinin, Əli Əmirlinin, Elçinin müxtəlif janrlı, müxtəlif mövzulu pyeslərinin tamaşaları ilə artıb genişləndi.

Dövrlə, şəraitlə, ideoloji problemlərlə, mənəvi-əxlaqi dəyişmələrlə bağlı olaraq teatrın estetik ifadə vasitələri də dəyişirdi. Yeni mövzular təbii ki, yeni də janrlar, forma-üslublar tələb edirdi. Bütöv şəkildə teatr həmin sınaq-proseslərdən uğurla keçməyə nail ola bilirdi. Artıq teatrda Altay Səidov, Fuad Xəlilov, Fuad Qafarov, Tahir Tahirov, Elçin Məmmədov kimi rəssamlar psixoloji-romantik, realist-psixoloji, romantik-monumental tamaşa formalarında təcrübə toplaya bilmişdilər.

Rejissorlardan Ulduz Əliyeva (Rəfili) yaradıcılığının monumental səciyyələri, Azər Paşa Nemət cəsarətli janr axtarışları, milli teatr poetikası ilə çağdaş Avropa teatrı prinsiplərini qovuşuq harınoniyada həll edə bilməsi, Ağakişi Kazımov psixoloji realizmə lirik və emosional duyğular aşılaması ilə seçilirdilər. Müharib Tağıyev, Həsən Əbluc, Möhsün Mürsəlov, Vaqif Əsədov, Rafiq Merdinli (Əliyev) teatrda müxtəlif üslublarda tamaşalar hazırlayıblar.

Mərhum sənətkarlardan Yusif Vəliyev, Osman Hacıbəyov, Hüseynağa Sadıqov, Süleyman Ələsgərov, Məmmədağa Dadaşov, Süsən Məcidova uzun illər teatrın repertuar ağırlığını öz çiyinlərində daşımışlar. Hazırda teatrda kollektivin ifaçılıq ənənələrini ləyaqətlə davam etdirən və fərdi oyun estetikası ilə seçilən Firəngiz Şərifova, Solmaz Qurbanova, Sona Babayeva, Xuraman Hacıyeva, Tariyel Qasımov, Ağaxan Salmanov, Rafiq Hüseynov, Mübariz Əlixanoğlu, Rahib Əliyev, Lətifə Əliyeva, Almaz Əhmədova (Mustafayeva), Yasin Qarayev, Ədalət Məmmədov, Nübar Novruzova kimi ayrı-ayrı yaş nəslinə mənsub aktyorlar vardır.

Müxtəlif yaş dövrlərini əhatə edən tamaşaçıların estetik təfəkKürlərinin, zövqlərinin, gözəllik duyumlarının, sənət anlamlarının formalaşmasında Gənc Tamaşaçılar Teatrı mühüm rol oynayıb və bu istiqamətdə səmərəli fəaliyyətini davam etdirməkdədir. Həmin sənət ocağı təkcə zövqləri formalaşdırmır, daha geniş mənada cəmiyyətin sabahmı təmsil edəcək nəslin Vətən məhəbbəti hisslərinin gözəllik, ləyaqət, saflıq, mənəvi pakiıq estetik duyğularının tərbiyə olunmasında fundamental yaradıcılıq məktəbi rolunu oynayır.

GTT-nin nəzdində rus bölməsi fəaliyyət göstərir. Bu bölmənin özünün müstəqil aktyor truppası və müstəqil repertuarı var.

## GƏNC TAMAŞAÇILAR TEATRINDA AKTYOR YARADICILIĞI

### Birinci dərs

Teatr yuxarı sinif şagirdlərinin səyi və fədakarlıqları sayəsində yaranıb. Buna görə də kollektivə dövlət statusu veriləndə onun truppasının əsasını on üç-on beş yaşlı məktəblilər təşkil ediblər. İki il dalbadal müsabiqə yolu ilə teatra elə həmin yaşlarda yeniyetmələr götürülüblər. Bir neçə ildən sonra Bakı Teatr Məktəbi məzunlarından GTT kollektivinə də təyinatla gənc aktyorlar göndəriliblər.

Teatrın aktyor oyun-üslubunun əsas bünövrəsini məhz kollektivi yaradanlar və sənət ocağının təşəkkülünün ilk on üində bu sənət ocağında fədakarlıq göstərən istedadlar qoyublar.1950-1960 cı illərdə aparıcı aktyorları Ağadadaş Qurbanov, Əliağa Ağayev və başqaları ayrı-ayrı kollektivlərdə işləməyə gediblər. Lakin artıq öz məktəbini və oyun estetikasını müəyyənləşdirmiş teatrın ənənəsinin möhkəmliyi yaranmış boşluğu həmişə istedadlar hesabına aradan qaldıra bilib. Bir cəhət də qeyd olunmalıdır ki, GTT-nin aktyorlarının oyun üslubu, ifadə vasitələrinin psixoloji əsasları digər sənət ocaqlarının sənətkarlıq xüsusiyyətlərindən fərqlənib.

* * *

**AĞADADAŞ QURBANOV (8.3.1911 - 25.6.1965)**

Ağadadaş Qurbanov Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının banilərindən biridir. 1927-ci il martın 15-də "Dənizçilər klubu"nda Lətif Kərimlinin "Fırtına" pyesinin tamaşası oynanılıb. Bu tamaşanı, başda Ağadadaş Qurbanov olmaqla, talelərini teatra bağlayan Muxtar Dadaşov, Məmmədağa Dadaşov, Kərim Həsənov və başqaları (4-cü dəstənin pionerləri) hazırlamışdılar. Bununla da Bakıda Fəhlə Uşaqlar Teatrının (Bakı Uşaq Teatrı kimi də yazılıb. Sonralar Gənc Tamaşaçılar Teatrı adlandırılıb) bünövrəsi qoyulub.

Ağadadaş Qurbanov həmin vaxtdan 1952-ci ilədək bu teatrda işləyib. Qısa müddətdə kollektivin əsas ifaçı qüvvələrindən biri olub. Aktyorun GTT-də oynadığı çoxsaylı səhnə surətlərindən baş qəhrəmanlar Aydın ("Aydın", Cəfər Cabbarlı), Molla İbrahimxəlil ("Molla İbrahimxəlil kimyagər", Mirzə Fətəli Axundzadə), Hacı Qəmbər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Karl Moor ("Qaçaqlar", Fridrix Şiller), Xlestakov ("Müfəttiş", Nikolay Qoqol), Babək ("Babək", Əbil Yusifov), Fərhad ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Bəhram, Elman ("Fitnə" və "Vətən", Abdulla Şaiq), Piri baba ("Qaraca qız", Süleyman Saninin eyniadlı hekayəsi əsasında Abdulla Şaiqin işləməsi), Qlenervan ("Kapitan Qrantın uşaqları", Jül Vern), Tom dayı ("Tom dayının koması", Biçer Stou), Məlik Məmməd ("Məlik Məmməd", Əyyub Abbasov), Ayaz ("Ayaz", Mirmehdi Seyidzadə), Qaneş ("Əfilər", Rabindranat Taqorun "Qaneşin yolu" hekayəsi əsasında) səhnə surətləri teatrın və aktyorun yaradıcılığında xüsusi yer tutub. Ağadadaş Qurbanov 1952-ci ildən ömrünün sonunadək (25 iyun 1965) Milli Dram Teatrında işləyib.

**MƏMMƏDAGA DADAŞOV (12.4.1912 - 3.12.1996)**

GTT-nın yaradıcılarındandır. Aktyor kimi xarakterik və tipik obrazların ifasında nailiyyətlərə daha çox müvəffəq olub. Məmmədağa Ağakərim oğlu Dadaşov 12 aprel 1912-ci ildə Bakıda doğulub. Səhnəyə ilk dəfə on dörd yaşında, oxuduğu məktəbdə çıxıb. 40 saylı pioner dəstəsinin dram dərnəyinə üzv olub. GTT məhz həmin dərnəyin bazası əsasında ya-ranıb və truppanın ilk aktyorlarının sırasında Məmmədağa Dadaşov da olub. Ömrünün sonuna qədər səhnədən və bu kollektivdən ayrılmayıb.

Məmmədağa Dadaşov komediya, faciə, dram əsərlərində və nağıl-tamaşalarda müxtəlif səciyyəli rollar oynayıb. Azad ("Azad", Əyyub Abbasov), Valer, Leandr ("Zorən təbib" və "Skapenin kələkləri", Jan Batist Molyer), Vəhşi pişik ("Özbaşına gəzən pişlk", Reyhard kiplinq), El oğlu ("E1 oğlu", Abdulla Şaiq), Çingiz ("Nərgiz", Mirmehdi Seyidzadə), Məhkəmə sədri ("Müfəttiş", Nikolay Qoqol), Ağa Zaman, Məşədi Qurban, Hatəmxan ağa ("Molla İbrahimxəlil kimyagər", "Xırs quldurbasan" və "Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Hacı Saleh ("Tamahkar", Süleyman Sani Axundov), İmran ("Anacan", Yusif Əzimzadə), Nüsrət ("Yaşar", Cəfər Cabbarlı), Simnar xan ("ÇİÇəkiİ dağ", Məmmədhüseyn Təhmasib), Casus ("Qavroş", Viktor Hüqonun "Səfillər" romanı əsasında səhnələşdirənləri Zəfər Nemətov və Əli İsmayılov), Qasım xan ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), Milan Hersoqu, Montekki ("iki veronalı" və "Romeo və Cülyetta", Vilyam Şekspir), Mirbağır ağa ("Yarımçıq şəkil", Adil Babayev), Molla Səfi ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Mirzə Qoşunəli ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Jandarına polkovniki ("Ovod", Etil Voyniç), Tağı müəllim ("Şirinbala bal yığır", Salam Qədirzadə) rollarında özünün aktyorluq bacarıq və qabiliyyətini daha ifadəli şəkildə göstərə bilib.

27 fevral 1957-ci ildə Məmmədağa Dadaşova əməkdar artist fəxri adı verilib. Aktyor Bakıda vəfat edib.

**HÜSEYNAĞA SADIQOV (21.3.1914 - 23.2.1983)**

Bənzərsiz səsi və xarakterik sifət cizgiləri vardı. Bəstəboy idi və bu xüsusiyyət onun tipik Gənc Tamaşaçılar Teatrının aktyoru kimi formalaşmasında başlıca amillərdən olub.

Duzlu komizini vardı və bu ifadə vasitəsindən xarakterik və tipik obrazlar yaratmaqda məharətlə istifadə edirdi.

Uşaqların sevimli səhnə personajları ayı, tülkü, xoruz rolundan tutınuş, el qəhrəmanlarına qədər ən mürəkkəb ob-razların ifasında uğurlar qazana bilib. Ancaq qroteskii satirik və karnaval estetikalı yumoristik obrazların ifasında aktyorluq imkanları daha bədiiliklə pardaxlanıb.

Hüseynağa Ələsgər oğlu Sadıqov 21 mart 1914-cü ildə Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrı yaranandan bir il sonra, 1930-cu ildə müsabiqə ilə kollektivin aktyor truppasına sınaq müddətinə qəbul olunub. 1931-ci il iyunun 1-də teatr truppasına aktyor götürülüb. İlk vaxtlardan ona məsul rollar tapşırılıb.

GTT-də əlli ildən çox aktyorluq etmiş sənətkarın əsas rolları bunlardır: Pitli ("Əfilər", Rabindranat Taqor), Xasay, El oğlu, Məlik ibn Səid ("Xasay", "E1 oğlu" və "Bir saat xəlifəlik", Abdulla Şaiq), Bobçinski, Jevakin ("Müfəttiş" və "Evlənmə", Nikolay Qoqol), Seryoja Streltsov ("Seryoca Streltsov", Valentina Lyubimova), Azad ("Azad", Əyyub Abbasov), Mirzə Qoşunəli ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Həsən ("Yaşar", Cəfər Cabbarlı), Trufadino ("İki ağanın bir nökəri", Karlo Haldoni), Rəcəb ("Şirinbala bal yığır", Salam Qədirzadə), Səlim ("Anacan", Yusif Əzimzadə), Spid ("iki veronalı", Vilyam Şekspir), Qey ("Qar Kraliçası", Yevgeni Şvarts), Hacı Murad ("Tamahkar", Süleyman Sani Axundov), Ceyms Berten ("Ovod", Etil Voyniç), Jiront ("Skapenin kələkləri", Jan Batist Molyer), Məşədi Cabbar, Tarverdi ("Molla İbrahimxəlil kimyagər" və "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə), Cəbi, Əhməd ("Hacı Qəmbər" və "Ağa Kərim xan Ərdəbili", Nəcəf bəy Vəzirov), kapitan ("Qavroş", Viktor Hüqonun "Səfillər" romanı üzrə səhnələş-dirənləri Zəfər Nemətov və Əli İsmayılov), Mirpaşa ("Komsomol poeması", İsgəndər Coşqun), Şah Ələmgir ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), Aptekçi ("Romeo və Cülyetta", Vilyam Şekspir), Şamdan bəy ("Şamdan bəy", Nəriman Nərimanov), Abbas ("Mənim nəğməkar bibim", Əkrəm Əylisli).

"Komsomol poeması" tamaşasında oynadığı Mirpaşa roluna görə 1967-ci ildə Respublika Lenin komsomolu mükafatına layiq görülüb.

Teatr sənətinin inkişafında, xüsusən gənc tamaşaçıların, məktəb şagirdlərinin, yeniyetmələrin estetik zövqlərinin münbit zəminə düşməsində göstərdiyi səhnə xidmətlərinə görə 1 iyul 1956-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti, 9 fevral 1979-cu ildə xalq artisti fəxri adları ilə təltiflənib.

Hüseynağa Sadıqov 23 fevral 1983-cü ildə Bakıda vəfat edib.

**SÜLEYMAN ƏLƏSGƏROV (20.6.1915 - 10.12.1998)**

Gənc Tamaşaçılar Teatrının veteranlarından sayılır. Bu sənət ocağında fasiləsiz olaraq altmış üç il səhnəyə çıxmışdır. Dramlarda, komediyalarda, faciələrdə, nağıllarda, nağıl-dastan süjetli pyeslərdə bir-birindən əlvan rollar yaradıb. Səksən üç yaşında da səhnədə canlı, dinamik və təravətli görünürdü. Səhnə məntiqini həmişə həssaslıqla gözləyib.

Süleyman Ağababa oğlu Ələsgərov 20 iyun 1915- ci ildə Bakıda doğulub. Yeddiillik təhsilini başa vuraraq Maliyyə Texnikumuna daxil olub. Orada üç il oxuyub və iqtisadçı diplomu alandan

sonra Azərbaycan Dövlət Tibb İnstitutuna imtahan verib və üç il də orada oxuyub. O, səhnəyə 1933-cü ildə Dənizçilər Mədəniyyət Evinin dram dərnəyində çıxıb. Səhnə sənətinə bağlandığına görə təhsilini yarımçıq qoyub. 1936-cı ilin sentyabrında Süleyman Ələsgərov GTT-yə müsabiqə yolu ilə aktyor götürülüb.

Onun Gənc Tamaşaçılar Teatrında ifa etdiyi əsas rollar bunlardır: Polad ("Qızıl quş", Mirmehdi Seyidzadə), Fərzəli bəy ("Nəsrəddin", Yusif Əzimzadə), Aqşin ("Babək", Əbil Yusifov), Vəzir, Oruc ("Fitnə" və "Qaraca qız", Abdulla Şaiq), kaçkaryov, Poçt müdiri ("Evlənmə", və "Müfəttiş" Nikolay Qoqol), Arqant ("Skapenin kələkləri", Jan Batist Molyer), Müşavir ("Qarlar Kraliçası", Yevgeni Şvarts), Eldostu ("Çiçəkii dağ", Məmmədhüseyn Təhmasib), Hacı Nuru və Molla Salman ("Molla İbrahimxəlil kimyagər", Mirzə Fətəli Axundzadə), Valentin və Pontolone ("İki ağanın bir nökəri", Karlo Haldoni), Molla Səfi və Hacı Qəmbər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Lorenso ("Romeo və Cülyetta", Vilyam Şekspir), Yaşar ("Yaşar", Cəfər Cabbarlı), Musa ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Valentin ("İki veronalı", Vilyam Şekspir), Çuxray ("Polad necə bərkidi", Nikolay Ostrovski), komissar ("Anacan", Yusif Əzimzadə), Zeynalabdm Şirvani ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), Səməd Vurğun, Baba, Əfrasiyab ("Komsomol poeması", "Açıl bənövşəm, açıl" və "Rüstəm və Söhrab", İsgəndər Coşqun), Montanelli ("Ovod", Etil Voyniç), Namaz ("Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə), Mahmud ("Dağ seli", Əfqan Əsgərov), kaplar ("Qavroş", Viktor Hüqonun "Səfillər" romanı üzrə səhnələşdirənləri Zəfər Nemətov və Əli İsmayılov), Murtuz ("Mənim nəğməkar bibim", Əkrəm Əylisli), Naçalnik ("Danabaş kəndinin məktəbi", Cəlil Məınındquluzadə)

Süleyman Ələsgərov "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan bir neçə kinolentlərində çox kiçik epizodlara çəkilib. Onun ən populyar və iri həcmli ekran obrazı "Bizim Cəbiş müəllim" filmində əsas qəhrəman olan Cəbiş müəllim roludur.

Aktyor Gənc Tamaşaçılar Teatrının inkişafında xidmətlərinə görə 27 fevral 1954-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 dekabr 1982-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb.

1961-ci ildə oynadığı Səməd Vurğun ("Komsomol poeması", İsgəndər Coşqun) roluna görə Respublika Lenin komsomolu mükafatı laureatı olub.

Yaradıcılığının özəyi, mayası əsasən realist aktyor məktəbinin estetik prinsipləri ilə yoğrulmuşdur. Qəhrəman perso-najlarının ifası psixoloji dramatizmi, komik və satirik rolları təbiiliyi, koloritli gülüşü, estetik zərifliyi ilə səciyyəvi idi.

Süleyman Ələsgərov 10 dekabr 1998-ci ildə Bakıda vəfat edib.

* * *

**Əliağa Ağayev**
**(1913 — 1983)**

Yaradıcılığının ikinci dövrü AMDT iləbağlı olan xalq artisti Əliağa Ağayev əvvəllər Gənc Tamaşaçılar Teatrında aktiyorluq edib. 1936-cı ildə bu kollektivin aktyor truppasına daxil olub və 1961-ci ilə qədər burada işləyib. Peşəkar teatrda səhnəyə ilk dəfə Jül Vernin "Kapitan Qrantın uşaqları" dra-ınının tamaşasında Dlk rolu ilə çıxıb. Qısa müddətdə fitri istedadı ilə teatrın yaradıcılıq iqlimini mənimsəyən Əliağa Ağa-yevə tədricən repertuarın əksər tamaşalarında rollar tapşırılıb. Aktyor GTT-də son dərəcə duzlu, koloritli və gülməli rollar yaradıb.

Uzun illər teatrın əsas komik aktyoru olan Əliağa Ağayevin Nökər ("Nərgiz", Mirmehdi Seyidzadə), Keşiş ("Keşiş və onun key nökəri", Aleksandr Puşkin), Sqanarel ("Zorən təbib", Jan Batist Molyer), Molla Həmid ("Molla İbrahimxəlil kimyagər", Mirzə Fətəli Axundzadə), Rəcəb ("Xasay", Abdulla Şaiq), Şpigelberq ("Qaçaqlar", Fridrix Şiller), Balaxan ("Aydın", Cəfər Cabbarlı), Əmirqulu ("Yaşar", Cəfər Cabbarlı), Hacı Qəmbər ("Yağışdan çıxdıq, yağmura düşdük", Nəcəf bəy

Vəzirov), Dombagöz ("Məlik Məmməd", Əyyub Abbasov), Bələdiyyə rəisi ("Müfəttiş", Nikolay Qoqol), Hacı Murad ("Tamahkar", Süleyman Sani Axundov), Tarverdi, Məstəli şah ("Xırs quldurbasan" və "Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Launs ("İki veronalı", Vilyam Şekspir), Rüstəmov ("Anacan", Yusif Əzimzadə) rolları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

## GƏNC TAMAŞAÇILAR TEATRINDA AKTYOR YARADICILIĞI

### İkinci dərs

GTT-nin yaradıcılığının maraqlı xüsusiyyətlərindən biri də budur ki, kollektiv bütün dövrlərdə aktyorların nəsil əvəzetməsinin psixoloji prinsiplərini qoruyub saxlamağı bacarıb. Üstəlik də teatra qəbul olunan gənclər və yaxud başqa kollektivlərdən gəlmiş aktyorlar Gənc Tamaşaçılar Teatrının oyun estetikasma uyğunlaşmağı, bu sənt ocağının poetika xüsusiyyətlərini mənimsəməyi və illər boyu ənənəni novatorcasına davam etdirməyi bacarıblar. İlk növbədə də buna görə teatrın ən yaxşı tamaşalarında qocaman, orta yaş nəsillərinə mənsub və gənc aktyorlar maraqlı ansambl yaratmağı fərasət və cəsarətli axtarışlarla, estetik zövqlə bacarıblar.

* * *

### SÜSƏN MƏCİDOVA (1916 - 24.6.1985)

Duzlu yumoru, canlı dinamikası, güclü səhnə temperamenti, əlvan və realist ifadə vasitələri vardı. Romantik ruhlu, monumental səpkili, epik pafoslu rolları da şövqlə oynayıb.

Çılğın ehtiraslı və qroteskii rollarda məharəti daha parlaq şəkildə səhnə təcəssümü tapırdı. Bəzi afişa və proqramlar-da aktrisanın adı "Susanna" kimi də yazılıb.

Süsən Hacı Aslan qızı Məcidova 1916-cı ildə Bakıda doğulub. Dördillik ibtidai təhsil alıb. Səhnəyə ilk dəfə 1929-cu ildə dram dərnəyində çıxıb. Tezliklə Türk İşçi Teatrının tamaşalarında kütləvi səhnələdə iştirak edib, epizod rollar oynayıb. 1933-cü ildən GTT-nin aktyor truppasına daxil olub və ömrünün sonuna kimi bu səhnədən ayrılmayıb. 17 iyun 1943-cü il-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

Teatrda yüzdən çox rol oynayan aktrisamn daha çox uğur qazandığı əsas səhnə obrazları bunlardır: Yetər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Nərgiz ("Nərgiz", Mirmehdi Seyidzadə), Javklina, Zerbinetta ("Zorən təbib" və "Skapenin kələkləri", Jan Batist Molyer), Arabella Qlenervan ("Kapitan Qrantın uşaqları", Jül Vern), Qaraca qız, İfritə, Badam ("Qaraca qız", "Vətən" və "Xasay", Abdulla Şaiq), Sevgül ("Azad", Əyyub Abbasov), Anacan ("Anacan", Yusif Əzimzadə), Nabat ("Tamahkar", Süleyman Sani Axundov), Şərəbanı ("Yaşar", Cəfər Cabbarlı), Səkinə xala ("Keçən ilin son gecəsi", Anar), Sərvinaz ("Aqil və Sərvinaz", Əyyub Abbasov), Dayə ("Romeo və Cülyetta", Vilyam Şekspir), Yuliya ("Ovod", Etil Voyniç), Məhəbbət ("Dağ seli", Əfqan Əsgərov), Nabat ("Mənim nəğməkar bibim", Əkrəm Əylisli), Şaban nənə ("Danabaş kəndinin məktəbi", Cəlil Məmmədquluzadə), Faina ("Qastello", İsidor Ştok), Ana ("Rübailər aləmində", Məmmədhüseyn Təhmasib), Balaca ataman ("Qarlar Kraliçası", Yevgeni Şvarts), Sənubər ("İmtahan", Həsən Seyidbəyli), Həlimə ("Etibar", Rauf İsmayılov).

Süsən Məcidova 24 iyun 1985-ci ildə Bakıda vəfat edib.

### OSMAN HACIBƏYOV (18.2.1924 - 14.6.1979)

Osman İsmayıl oğlu Hacıbəyov 18 fevral 1924-cü ildə Şuşa şəhərində ziyalı ailəsində anadan olub. Orta məktəbin yeddinci sinifini Bakıda bitirdikdən sonra Azərbaycan Dövlət Teatr Məktəbinə daxil olub. Teatr məktəbində oxuduğu ilk dövrdən başlayaraq Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrmın səhnəsində oynanılan tamaşaların kütləvi səhnələrində çıxış edib. 1942-ci ildə təhsilini bitirəndə onu təyinatla GTT-yə aktyor göndəriblər.

Ömrünün qırx ilə yaxın dövrünü bu teatrla bağlamış Osman Hacıbəyovun ifa etdiyi əsas rollar: El oğlu, Ayaz ("E1 oğlu" və "Ana", Abdulla Şaiq), Əşrəf və Qıdı kirvə ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Skapen ("Skapenin kələkləri", Jan Batist Molyer), Şahbaz bəy ("Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Qəmküsar ("Yarımçıq Şəkü", Adil Babayev), Yaşar ("Yaşar", Cəfər Cabbarlı), Elşən ("Çiçəkii dağ", Məmmədhüseyn Təhmasib), Protey ("İki veronalı", Vilyam Şekspir), İmran, Nəsrəddin ("Anacan" və "Nəsrəddin", Yusif Əzimzadə), Bəxtiyar ("Komsomol poeması", İsgəndər Coşqun), Fərhad ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), İsgəndər xan ("Ağa Kərim xan Ərdəbili", Nəcəf bəy Vəzirov), Florindo Aritun ("İki ağanın bir nökəri", Karlo Haoldoni), Şamdan bəy ("Şamdan bəy", Nəriman Nərimanov), İohannes ("Qarlar Kraliçası", Yevgeni Şvarts), Şirinbala ("Şirinbala bal yığır", Salam Qədirzadə), Tarverdi ("Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə), Tibalt ("Romeo və Cülyetta", Vilyam Şekspir), Süleyman ("Ötən ilin son gecəsi", Anar), Polkovnik Ferrari ("Ovod", Etil Voyniç), Keykavus ("Söhrab və Rüstəm", İsgəndər Coşqun), MüküŞ ("Mənin nəğməkar bibim", Əkrəm Əylisli).

Gənc Tamaşaçılar Teatrının 50 illiyi ilə əlaqədar və milli teatr sənətinin inkişafında xidmətinə görə Osman Hacıbəyova 25 dekabr 1969-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı verilib.

Professional imkanlarının genişliyindən məharətlə barınan aktyor Osman Hacıbəyov müxtəlif xarakterli, hətta psi-xoloji cəhətdən ziddiyyətli rollarda çıxış edib. Komik rollarda ölçü hissini məharətlə qoruya bilib, oyunundakı güclü komizın və improvizasiya bacarığı onun ifasına əlvanlıq gətirib.

Aktyor 1979-cu il iyunun 14-də Bakıda vəfat edib.

## ƏMİNƏ YUSİFQIZI (24 SENTYABR 1936)

Bakıda 24 sentyabr 1936-cı ildə doğulub. Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunu bitirib. 1956-cı ildə gənc qiraətçilərin respublika festivalında birinci yeri tutub. Aydın diksiyasma, səhnə sərbəstliyinə və emosional davranışına görə GTT-nin baş rejissoru Zəfər Nemətov onu kollektivə aktrisa dəvət edib. O, tezliklə ifasının psixoloji dərinliyi ilə seçilib və lirik-dramatik aktrisa kimi formalaşıb.

Əminə Yusifqızı 1964-cü ilə kimi GTT-də işləyib və on bir il də AMDT-nın truppasında çalışıb. 1975-ci ildən bədii qiraət ustasıdır. Azərbaycanın klassik və çağdaş şairlərinin yaradıcı-lıq nümunələrindən ibarət əlvan və zəngin repertuarı var. Dün-ya dühalarının lirik nümunələrini də məharətlə ifa edə bilir.

Aktrisa CTT-də Sabirə və Şəfqət bacısı, Təranə ("Son məktub" və "iki həyat", Rauf İsmayılov), Sima ("Ayrılan yollar", Cabbar Məcnunbəyov), Xatirə ("Ürək yanarsa...", Teymur Məmmədov), Ülkər, Humay ("Durna qatarı" və "Komsomol poeması", İsgəndər Coşqun), Müzəyyən ("Gülən gözlər", Məmmədhüseyn Təhmasib), Yetər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Ploşeyanu ("Ümid nəğməsi", V.Stonesku və O.Sava), Ceyran ("Qonşular", Yusif Əzimzadə), Rəna ("Yanmış planetin sərvətləri", Novruz Gəncəli), Qartal ("Göyərçinlər", Yusif Əzimzadə) rollarını ifa edib.

Əminə Yusifqızı həmçinin teatrın travesti aktrisası olub. O, GTT-nin səhnəsində Yusif Əzimzadənin "Anacan" (Qulu), Viktor Hüqonun "Səfillər" romanı əsasında Zəfər Nemətovla Əli İsmayılovun işlədikləri "Qavroş" (Qavroş), Mixail Şatrovun "İnqilab naminə" (Vasya), tərcümə

edilib səhnələşdirilmiş "Cikor" (Gikor), Vladimir Qubarevin "Pavlik Morozov" (Pavlik Morozov), Qeybulla Rəsulovun "Əlvida, Hindistan!" (Balaca Ramo) əsərlərinin tamaşalarında müxtəlif xarakterli oğlan rollarını şövq və bacarıqla oynayıb.

Sənətdə qazandığı nailiyyətlərə görə Azərbaycan Respublikasının əməkdar artisti (1 dekabr 1982) və xalq artisti (24 may 1998) fəxri adları ilə təltif olunub.

## SOLMAZ QURBANOVA (13 NOYABR 1939)

Bakıda 13 noyabr 1939-cu ildə doğulub. 1953-cü ildə, 19 saylı orta məktəbdə oxuyanda ilk dəfə aktrisalıq edib və radioda Gənc Tamaşaçılar Teatrının "Qaraca qız" tamaşasında Qaraca qız surətini səsləndirib. Bu uğurlu yaradıcılıq addımından sonra onu GTT-nin aktyor truppasına dəvət ediblər. Elə o vaxtdan indiyədək bu sənət ocağının səhnəsində maraqlı yaradıcılıq yolu keçməkdədir.

Solmaz Qurbanovanın teatrda yaratdığı onlarla səhnə obrazının daha uğurluları kimi bunları göstərmək olar: Dilarə ("Keçən ilin son gecəsi", Anar), Flaviya ("Sükut divarı", Paola Messina), Çobanyastığı ("Aycan", Xanımana Əlibəyli), Züleyxa xanım, Yetər ("Ağa Kərim xan Ərdəbili" və "Hacı Qəm-bər", Nəcəf bəy Vəzirov), Səfa ("Ərizə", Əli Əmirli), Ana ("Unutınağa kimsə yox", Kamal Abdulla), Maral, Afəridə ("Durna qatarı" və "Söhrab və Rüstəm", İsgəndər Coşqun), Xəstə uşaq, Səlimə ("Anacan" və "Qonşular", Yusif Əzimzadə), Ceınına ("Ovod", Etil Voyniç), Culiya, Cülyetta ("İki veronalı" və "Romeo və Cülyetta", Vilyam Şekspir), Yaqut və Ziba ("Məlik Məmməd", Əyyub Abbasov), Xanım Şəcarət ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), klariçe ("1ki ağanın bir nökəri", Karlo Haldoni), Xanəndə qız ("Bir saatlıq xəli-fə", Abdulla Şaiq), Nigar, Tutuquşu ("Gülən gözlər" və "Hind nağılı", Məmmədhüseyn Təhmasib), Xalidə və Sabirə, Əsınər ("Son məktub" və "1ki həyat", Rauf İsmayılov), Eteri ("Ya-rımçıq Şəkü", Adil Babayev), Xanım xala ("Ağ dəvə", Elçin), Şərqiyyə ("Sən nə üçün yaşayırsan?", Həsən Seyidbəyli), Yol-çu beçə ("Xoruz", Firudin Ağayev), Ənbər ("Fudzi dağında qonaqlıq", Çingiz Aytınatov və Kaltey Məhəmmədcanov), İo ("Zəncirlənmiş Prometey", Cahangir Məmmədov), Rəfiqə ("Məhəbbət, şeytan və lambada", Marat Haqverdiyev).

Yaradıcılığının bir qolunu travesti rollar tutan aktrisa Oğlan ("Aqil və Sərvinaz", Əyyub Abbasov), Rəcəb, Əliş ("Anacan" və "Nəsrəddin", Yusif Əzimzadə), Qavroş ("Qav-roş", Viktor Hüqonun "Səfillər" romanı əsasında işləyənləri Zəfər Nemətov və Əli Ismayılov), Petya ("İnqilab naminə", Mixail Şatrov) oğlan rollarını oynayıb.

Yaradıcılıq nailiyyətlərinə görə Azərbaycan Respublikasının əməkdar artisti (9 fevral 1979) və xalq artisti (22 may 1991) fəxri adlarına layiq görülüb.

## TARİYEL QASIMOV (4 FEVRAL 1939)

Teatrın aparıcı aktyorlarındandır. Əsasən romantik qəhrəman rollarını ifa edib. Dramatik və lirik-psixoloji üslublu tamaşalarda da realist səpkili obrazlara səhnə ömrü verib.

4 fevral 1939-cu ildə Ağstafa rayonunun köçəsgər kəndində doğulub. Orta məktəbi 1956-cı ildə bitirərək Bədən Tərbiyəsi İnstitutuna daxil olub. Təhsil ala-ala müxtəlif dram dərnəklərində həvəskar aktyorluq edib. 1960-cı ildə idman təhsilini yarımçıq qoyaraq Azərbaycan Dövlət Teatr Institutunun aktyorluq fakültəsində oxuyub. Tələbə ikən AMDT-nin tamaşalarında epizod rollar oynayıb.

Ali təhsil alan Tariyel Qasımov 1964-cü ildə GTT-nin truppasına daxil olub. 1967-ci ildə on səkkiz illik fasilədən sonra fəaliyyəti bərpa edilən Irəvan Dövlət Azərbaycan Teatrına gedib. Bir

müddət sonra Naxçıvan DMDT-də işləyib. Bir il burada fəaliyyət göstərərək Bakıya qayıdıb və "Azərbaycan-film" kinostudiyasında rejissor assistenti vəzifəsində çalışıb.

Tariyel Qasımov 1971-ci ildən yenə Gənc Tamaşaçılar Teatrının truppasındadır. Arada Qazax DDT-də (1997 - 1998) və Dərbənd Dövlət Azərbaycan Teatrında (1999) direktor və bədii rəhbər işləyib. "Azərbaycanfilm"də, Almaniyada və Tacikistanda müxtəlif bədii filmlərə çəkilib.

Tariyel Qasımovun GTT səhnəsində ifa etdiyi məşhur rolları: Cəfər Cabbarlı ("Aydınlığa doğru", Seyfəddin Dağlı), Cəlal və Bəxtiyar, Söhrab, Məşədi Əzizbəyov ("Komsomol poeması", "Söhrab və Rüstəm" və "Komissarlar", İsgəndər Coş-qun), İmran və Oruc ("Tamahkar" və "Qaraca qız", Süleyman Sani Axundov), Məlik Məmməd ("Məlik Məmməd", Əyyub Abbasov), Zaur ("Yadmdamı?", Altay Məmmədov), Kazım ("Məhəbbət novellası", Şamil Xurşid və Əşrəf Hacıyev), Səfər ("Kiçik təpə", Nəbi Xəzri), Qədim, Həsənzadə ("Büllur sarayda" və "Sən həmişə mənimləsən", İlyas Əfəndiyev), Pərviz ("Sən nə üçün yaşayırsan?", Həsən Seyidbəyli və İmran Qası-mov), Artur ("Ovod", Etil Voyniç), Ədalət ("Gəl qohum olaq", İsi Məlikzadə), Rəcəb ("Şirinbala bal yığır", Salam Qədirzadə), Polad ("Təzə şagird", Qılman İlkin), Antonio ("Sükut divarı", Poalo Messina), Əşrəf bəy və Mahmud ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), kuzınınski ("Zəng səsləri", Ramiz Heydər), Senya koqan ("İnqilab naminə", Mixail Şatrov).

Tarıyel Qasımov işlədiyi teatrlarda bir neçə tamaşaya quruluş verib.

Bu baxımdan "Sən həmişə mənimləsən" (İlyas Əfəndiyev) tamaşası daha uyğundur.

Sənət uğurlarına görə Azərbaycan Respublikasının əməkdar artisti (9 fevral 1979) və xalq artisti (22 may 1991) fəxri adları ilə təltif olunub.

## XURAMAN HACIYEVA (7.3.1945 - 15.2.2005)

Musiqili, lətafətli və lirik səsi var. Yaradıcılıq yönümünə görə lirik-psixoloji üslublu aktyor məktəbinə mənsubdur. Dramatik və faciə obrazlarının ifasında da lirizmdən, psixoloji vasitələrdən həssaslıqla, yaradıcı məharətlə istifadə edir.

7 mart 1945-ci ildə Bakıda doğulub. Orta məktəbdən dram dərnəklərində iştirak edib.

Xuraman Hacıyeva 1964-cü ildə Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə daxil olub. İkinci kursda oxuyanda "Arşın mal alan" bədii filmində Asya roluna çəkilib. 1966-cı ildə təhsilini yarımçıq qoyaraq Gəncəyə gedib və buradakı DDT-də aktrisa işləməyə başlayıb. Gəncədəki Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsini bitirib.

Aktrisa Gəncə teatrında maraqlı rollar qalereyası yaradıb. 1972-ci ildə Gənc Tamaşaçılar Teatrının truppasına daxil olub. Bir müddət Naxçıvan DMDT-də aktrisalıq edərək (1998 - 2001) və maraqlı rollar yaradaraq yenidən GTT-yə qayıdıb.

Xuraman Hacıyevanın GTT-də oynadığı Ceyran ("Yolda", Hüseyn Arif), Qızılgül ("Aycan", Xanımana Əlibəyli), Rəna ("Təzə şagird", Qılman İlkin), Eyzəngül ("Şirinbala bal yığır", Salam Qədirzadə), Gülsüm ("Yadındamı?", Altay Məmmədov), Gülzar ("Tamahkar", Süleyman Sani Axundov), Ceınına ("Ovod", Etil Voyniç), Humay, Ceyran ("Komsomol poeması" və "Çaloyna", İsgəndər Coşqun), Firəngiz ("Məhəbbət novellası", Şamil Xurşud və Əşrəf Hacıyev), Yetər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Mərcan, Şirin ("Mənim nəğməkar bibim" və "Yazığam, sevmə məni", Əkrəm Əylisli), Cəvahir xanım, Nəzakət ("Büllur sarayda" və "Sən həmişə mənimləsən", İlyas Əfəndiyev), Səkinə ("Ərizə", Əli Əmirli), Zərnigar ("Sınaq pillələri", Ramiz Heydər), Nərgiz ("Bir sahilin adamları", Xalidə Hasilova), Pəri ("Yastı təpə", Nəbi Xəzri), Sona xanım ("Qonşu qonşu olsa...", Rəşid bəy Əfəndiyev) səhnə obrazları aktrisanın yaradıcılıq nailiyyətləri sayılır.

Xuraman Hacıyeva teatrdakı fəaliyyətinə görə Azərbaycan Respublikasının əməkdar artisti (9 fevral 1979) və xalq artisti (28 oktyabr 2000) fəxri adlarına layiq görülüb. 15 fevral 2005-ci ildə Bakıda qəflətən vəfat edib.

**YUSİF VƏLİYEV**
**(223.1917- 18.3.1980)**

Qeyri-adi səhnə danışığına malik, dramatik-psixoloji rolların misilsiz ifaçısı, zəngin yaradıcılığı ilə Gənc Tamaşaçılar Teatrında aktyor məktəbi yaratmış Yusif Abdulla oğlu Vəliyev 22 mart 1917-ci ildə Dərbənddə doğulub. Baki Teatr Texnikumunda təhsil alıb (1933 - 1936).

Tələbəlik illərində Milli Dram Teatrının tamaşalarında kütləvi səhnələrə, sözsüz rollara çıxıb. Eyni zamanda Yəhudi Dövlət Dram Teatrında işləyib. Dili bilməyə-bilməyə sözləri əzbərləyərək bir neçə rol oynayıb.

Texnikumu bitirəndə yenicə açılan Mirzə Ələkbər Sabir adına Nuxa (indiki Şəki) Dövlət Dram Teatrına işləməyə göndərilib.

Teatr bağlananadək, yəni 1949-cu ilədək burada aktyorluq edən Yusif Vəliyev teatrın ən öncül sənətkarlarından biri olub. Bunu ifa etdiyi rolların siyahısı da açıq-aydın göstərir. Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" (Əşrəf bəy), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Hacı Qara), "Molla İbrahimxəlil kimyagər" (İbrahimxəlil), Sabit Rəhmanın "Toy" (Surxay), "Xoşbəxtlər" (Sadıq) komediyalarının, Cəfər Cabbarlının "A1maz" (Şərif), "1905-ci ildə" (General-qubernator), "Aydın" (Aydın), "Oqtay Eloğlu" (Oqtay), "Od gəlini" (Elxan), "Sevil" (Balaş), "Solğun çiçəklər" (Bəhram) dramlarının, Georgi Mdivaninin "Vətən namusu" tərcüməsinin (Nadir), Səməd Vurğunun "Vaqif" (Vaqif), Mirzə İbrahimovun "Həyat" (Süleyman), Vilyam Şekspirin "Otello" (Yaqo), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" (Fəxrəddin) faciələrinin tamaşalarında xaraktercə fərqli rollar oynayıb.

Teatr dram tamaşaları ilə yanaşı, opera və operettalar da oynayırdı. Yusif Vəliyev Şəki səhnəsində Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" operasında İbn Səlam, "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" operettalarında Vəli, Həsən bəy və Həsənqulu bəy, Mərcan bəy, Ağası Məşədibəyovun "Toy kimindir?" (librettosu Məhərrəm Əlizadənindir) musiqili komediyasında Qoşun rollarında çıxış edib.

1949-cu ilin yazında Bakıya gələn Yusif Vəliyev çox az müddət Rus Dram Teatrında aktyorluq edib. Ancaq əsas yaradıcılığı 1949-cu ilin axırlarından ömrünün sonunadək Gənc Tamaşaçılar Teatrı ilə bağlı olub. Burada bir-birindən fərqlənən, estetik baxımdan cazibəli, sənətkarlıq cəhətdən kamil fəlsəfi-psixoloji, dramatik, romantik, faciə və həm realist, həm satirik, həm də qroteskii komediya rollarını məharətlə ifa edib.

Hacı Nuru və Molla İbrahimxəlil ("Molla İbrahimxəlil kimyagər", Mirzə Fətəli Axundzadə), Qarakişi və Vəzir ("Aqil və Sərvinaz", Əyyub Abbasov), Aslan və Polkovnik Polad ("iki həyat", Rauf İsmayılov), Məlik Məmməd ("Məlik Məmməd", Əyyub Abbasov), General Leyk ("Əlvida, Hindistan!", Qeybulla Rəsulov), Ataman, Xeyrulla Şalıbudaqov ("Anacan" və "Qonşular", Yusif Əzimzadə), Xətib ("Rübailər aləmində", Məmmədhüseyn Təhmasib), Almurad baba ("Şəhərli oğlan", Qeybulla Rəsulov), Oruc ("Sevinc", Əyyub Abbasov), Hümmətyar ("Gülşən", Əli Vəliyevin romanı üzrə səhnələşdirəni Ağəli Dadaşov), Trofim Morozov ("Pavlik Morozov", Valeri Qubarev), İmamyar ("Yaşar", Cəfər Cabbarlı), Mirzə Ələkbər Sabir ("Sirli şəhər", Mehdi Hüseynin "Komissar" romanı əsasında səhnələşdirəni Ağəli Dadaşov), Doktor Vahid ("Son məktub", Rauf İsmayılov), Anuçkin ("Evlənmə", Nikolay Qoqol), Hatəmxan ağa, Frans FOk ("Müsyö Jordan və dərviş Məstəli şah" və "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə), Kral ("Qarlar Kraliçası", Yevgeni Şvarts), Harun ər Rəşid ("Bir saatlıq xəlifə", Abdulla Şaiq), Ovod ("Ovod", Etil Voyniç), Lorenso ("Romeo və Cülyetta", Vilyam Şekspir), Hacı Səməd ağa ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Gəray bəy ("Komsomol poeması", İsgəndər Coşqun), Səməd Vurğun ("Yolda", Hüseyn Arif), Göygöz kosa ("Çiçəkii dağ", Məmmədhüseyn Təhmasib), Nəcəf ("Mənim nəğməkar bibim", Əkrəm Əylisli), Prometey ("Zəncirlənmiş Prometey", Cahangir Məmmədov) rolları aktyorun daha uğurlu yaradıcılıq işləridir.

Televiziya teatrında tamaşaya hazırlanmış Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Hacı Qara), Qılman İlkinin "Baba və nəvə" (Baba) tamaşalarında, "Əfzələddin Xaqani" (Xaqani) bədii kompozisiyasında lent yazıları var. Ondan çox radio tamaşasında iştirak edib.

Yusif Vəliyev Gənc Tamaşaçılar Teatrının rus bölməsində hazırlanan Mixail Şatrovun "İnqilab naminə" pyesinin tamaşasında Lenin rolunu ifa edib. Onun ifası sənətkarlıq baxımından rus həmkarlarının oyunlarından daha canlı və real alınmışdı.

Yusif Vəliyev "Azərbaycanfilm"in kinolarında epizod rollar oynasa da, çox maraqlı, yadda qalan xaranterlər yaradıb. O, "Zirvə" (Bələdçi), "Sən nə üçün yaşayırsan?" (Balıqçı), "Nəsimi" (Teymurləng), "Qatır Məmməd" (Halvaçı), "Tütək səsi" (Qurban), "Arxadan vurulan zərbə" (Qurd Cəbrayıl), "Uşaqlığın son gecəsi" (İş icraçısı), "Bir cənub şəhərində" (Səfərəli) və sairə kinolentlərində çəkilib. "Nə yaxşı ki, Səməd Vurğun var..." sənədli filmində Qacar rolunda "Vaqif"dən bir parça ifa edib.

Uzunillik səhnə yaradıcılığında əldə etdiyi sənət nailiy-yətlərinə, gənclərə örnək olan zəngin irs yaratdığına görə Yusif Abdulla oğlu Vəliyev 24 may 1960-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti və 9 fevral 1979-cu ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Aktyorluq imkanları baxımından Milli Dram Teatrının yaradıcılıq üslubuna daha uyğun idi. Təəssüf ki, dəfələrlə cəhdlər göstərilsə də, aktyorun Akademik teatra gəlişi baş tutnadı.

Yusif Vəliyev adi nağıl janrını əsərdəki personajı da dərin dramatizmlə cilalaya, mürəkkəb üslub elementlərindən məharətlə istifadə etməyə cəhd göstərən və istəyinə cəsarətlə nail olan sənətkar idi.

Mürəkkəb rolların ifasında janr sintezindən həssaslıqla istifadə edir, məqamından, vəziyyətdən asılı olaraq ya psixoloji, ya dramatik və yaxud faciə elementlərinə üstünlük verirdi.

Bəstəboylu aktyor səhnədə əzəmətli, pəhləvan cüssəli görünürdü. Təkbaşına səhnədə monoloq söyləyəndə də səhnə dolu və möhtəşəm təsir bağışlayırdı.

Pauzalardan və səs tembrinin variasiyalarından istifadədə qeyri-adi, gözlənilməz nailiyyətlər qazanırdı.

1980-ci il martın 18-də vəfat edən Yusif Vəliyev Bakıdakı yeni "Qurd qapısı" qəbiristanlığında dəfn olunub.

## FİRƏNGİZ ŞƏRİFOVA
**(6 fevral 1924)**

Atası görkəmli Azərbaycan aktyoru, teatr və kino rejissoru, xalq artisti Abbasmirzə Şərifzadədir. 1937-ci ildə şəxsiyyətə pərəstiş dövründə haqsız yerə tutulub və "xalq düşməni" kimi 16 noyabr 1938-ci ildə güllələnib. 1956-cı ildə ölümündən sonra ona bəraət verilib.

Anası Mərziyə xanım Davudovadır (1901-1961). Bugünkü Akademik Milli Dram Teatrının kollektivinə 1919-cu ildən daxil olub. Sovet Dövlətinin teatr sahəsində ən böyük fəxri titulu olan SSRİ xalq artisti (1948) adına layiq görülüb.

Firəngiz Abbasmirzə qızı Şərifova 6 fevral 1924-cü ildə Bakıda doğulub. səkkiz yaşında Azərbaycan məktəbinin birinci sinifinə gedib və növbəti ildə yenidən rus məktəbinin birinci sinifində oxumağa başlayıb. Paralel olaraq səkkiz il Bakı Xoreoqrafiya Məktəbində oxuyub.

1941-ci ildə ailələrinin yaxın dostu və xeyirxahı Üzeyir bəy Hacıbəyovun məsləhəti ilə Azərbaycan Dövlət konservatoriyasının (indiki Musiqi Akademiyası) vokal fakültəsinə daxil olub. Beş il konservatoriya təhsili alıb və soprana səsinin pe-şəkarlıq yönündə formalaşmasma nail olub.

Dramaturq Cəfər Cabbarlının təkidi və atası Abbasmirzənin razılığı ilə səhnədə səkkiz yaşında "Oqtay Eloğlu"nda Sevər və bir az sonra "Sevil"də Gündüz rollarında çıxış edib.

Qanla və südlə aktyorluq peşəsi, təşnəli sənət ehtirası, alovlu istedad bütün varlığına hopmuş Firəngiz xanım 1947-ci ilin əvvəllərində Cəlil Məmmədquluzadə adına Azərbaycan Dövlət Musiqili

Komediya Teatrının truppasına qəbul olunub. 1949-cu ilin əvvəllərində bu sənət ocağı məcburi özünümaliyyələşdirmə iş üsulüna keçirildiyinə görə müvəqqəti bağlanıb. Firəngiz xanım Xalq Maarif komissarlığı İncəsənət İşləri İdarəsinin (bugünkü Mədəniyyət Nazirliyi) sərəncamına əsasən köçürmə yolu ilə Gənc Tamaşaçılar Teatrının truppasında aktyor işləməyə başlayıb. Tezliklə teatrın repertuar ağırlığını çəkən əsas aktyorlardan biri olub.

Anası Mərziyə xanım xəstə olanda görkəmli aktrisaya anadan doğulmasının altmış illiyi munsibətilə təntənəli yubiley keçirilib. Yubileydən sonra Firəngiz Şərifova 1960-cı il may ayının 5-də Akademik Milli Dram Teatrına işə götürülüb. O, bu sənət ocağında 1965-ci il aprel ayının 1-nə qədər işləyib və qısa müddət ərzində parlaq sənət hadisəsinə çevrilən obrazlar yarada bilib.

Qüdrətli aktrisa yaşının və sənətinin erkən yeteinlik çağında, 1965-ci ildə yenidən Gənc Tamaşaçılar Teatrına qayıdıb və indiyədək oranın aparıcı sənətkarıdır.

Firəngiz xanım Abbasmirzə qızı Şərifzadə milli səhnə mədəniyyətimizin inkişafında göstərdiyi böyük xidmətlərə, qazandığı sənət qələbələrinə görə 24 may 1960-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti və 25 dekabr 1969-cu ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Aktisanın zəngin və əlvan, müxtəlif janrlı və ən fərqli üslublu obrazlar qalereyası vardır. Bu səhnə surətlərinin adisi də var, maraq doğuranı da və ən əsası, aktrisanın həyatında sənət hadisəsinə çevriləni də.

O, Musiqili Komediya Teatrında Gülçöhrə ("Arşın mal alan", Üzeyir bəy Hacıbəyov), Durna ("Durna", dramaturq Süleyman Rüstəm və bəstəkar Səid Rüstəmov), Ulduz ("U1duz", dramaturq Sabit Rəhman və bəstəkar Süleyman Ələsgərov), Keto ("Keto və Kote", Vladimir Dolidze), Bayadera ("Bayadera", İmre Kalman), Akademik Milli Dram Teatrının səhnəsində Perdidata ("Qış nağılı", Vilyam Şekspir), Həcər ("Qaçaq Nəbi", Süleyman Rüstəm), Rəfiqə Rəhimli ("Alov", Mehdi Hüseyn), Ket ("Gözəllik və sevgi adası" ("Afrodita adası", Aleksis Parnis), Erfila ("Dəlilər", Lope de Veqa), Gülgün ("Od gəlini", Cəfər Cabbarlı) kimi maraqlı rollar oynayıb.

1949 - 1961 və 1965-ci ildən bugünədək Gənc Tamaşaçılar Teatrında yaratdığı dramatik, komik, fəci və psixoloji səhnə obrazları Firəngiz Şərifovanın yaradıcılığında xüsusi yer tutur. Həmin səhnə surətlərinin daha xarakterikləri Gülzar ("Tamahkar", Süleyman Sani Axundov), Kraliça ("Qarlar Kraliçası", Hans Xristian Andersen), Zənci qadın Darotti ("Tom dayının koması", Biçer Stou), Aqadaya Tixonovna ("Evlənmə", Nikolay Qoqol), Sərvinaz ("Aqil və Sərvinaz", Əyyub Abbasov), Mətanət ("Çiçəkii dağ", Məmmədhüseyn Təhmasib), Julyar ("iki veronalı", Vilyam Şekspir), Gülbahar ("Anacan", Yusif Əzimzadə), Yasəmən ("Qaraca qız", Abdulla Şaiq), Şərəfnisə ("Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Zerbinetta ("Skapenin kələkləri", Jan Batist Molyer), Yaqut ("Yaşar", Cəfər Cabbarlı), Ceınına ("Ovod", Etil Voyniç), Fitnə, Ana Vətən, ("Fitnə" və "E1 oğlu", Abdulla Şaiq), Məhsəti Gəncəvi ("Rübailər aləmində", Məmmədhüseyn Təhmasib), Yetər ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Beatriça Rasponi ("İki ağanın bir nökəri", Karlo Haldoni), Həmidə ("Keçən ilin son gecəsi", Anar), Qızyetər ("Komsomol poeması", İsgəndər Coşqun. Səməd Vurğunun eyniadlı poeması əsasında), Mədinə, Ağabəyim ("Mənim nəğməkar bibim" və "Yazığam, sevmə məni", Əkrəm Əylisli), Təhminə ("Söhrab və Rüstəm", İsgəndər Coşqun. Firdovsinin "Şahnamə" poeması əsasında), Ayşa Ana ("Fudzi dağında qonaqlıq", Çingiz Aytınatov və kaltey Məhəmmədcanov), Məşədixanım ("Ağ dəvə", Elçin) rollarıdır.

Firəngiz Şərifova gənc yaşlarından başlayaraq "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan "Qaraca qız" (Yasəmən), "Bir ailəlik bağ evi" (Ana), "Bayquş gələndə" (Nənə), "Qərib cinlər ölkəsində (TükəZ), "Qətl günü" (Nənə) kino lentlərində müxtəlif rollara çəkilib. "Qum üzərindəki bağ evi" filmindəki Ana rolu əsas surətdir və psixoloji dərinliyinə, emosional sənətkarlıq xüsusiyyətlərinə görə aktrisanın parlaq ekran obrazıdır.

Firəngiz Şərifovanın yaradıcılığının ifadə çalarları çoxdur və hərəsmin də öz təravəti, öz hlığı əməl bakirəliyi ilə qoruyan qəhrəman obrazlarını xüsusi məharətlə oynayır. Həmin səpkili rolların

hərəsi ayrılıqda fərdi keyfiyyətlərə məxsus olsa da, üslub baxımından fəciromantik məziyyətləri ilə doğmadırlar.

Tükənməz emosiyanı istər ıcomediya, istər dram, istərsə də faciə məhvərində məharətlə, məqsədyönlü fəlsəfi dərinliklə istiqamətləndirə bilir.

Janr təyini baxımından "dram"m estetik prinsipləri əsasında yaratdığı rollarda sənətkar aktrisa psixologizını hadisələrin ümumi axarında, hər epizodun mahiyyətinə uyğun tərzdə təcəssüm etdirir.

Yaradıcılığında gözlənilməz rakurslardan (baxım bucağından) üzə çıxan aydın, şəffaf və ürəyəyatımlı yumor var.

Nağıl-tamaşalarda qəhrəmanların, alleqorik personajların ifasında aktrisa dramatizmə, yumora karnaval-məsxərə teatr estetikasını da əlavə edir.

Lirik-psixoloji janrlı tamaşalarda oynayarkən milli teatr tariximizdə çox nadir hallarda sınaqdan keçirilən fəndə əl atır. O, obrazın səmimiyyət lirizmini açıq qatda, onun faciəvi zavallılığını ikinci, üçüncü... planda daxilən oynayır.

Daxili ehtiraslarla oynamaq, plastikanı idarə etmək, incə mətləbləri belə gözlə tamaşaçıya çatdırmaq baxımından Gənc Tamaşaçılar Teatrında Firəngiz Şərifovaya tay aktrisa yoxdur.

## GƏNC TAMAŞAÇILAR TEATRINDA REJİSSOR SƏNƏTİ (1929-2004)

Teatr dövlət statusu alandan sonra ona bədii rəhbərlik müvəqqəti olaraq rus bölməsinin baş rejissoru Qriqori kornelliyə tapşırılb. İlk tamaşalara quruluşları onun-la yanaşı, teatrın aparıcı aktyorları da veriblər. Teatr özünün yaradıcılıq üslubunu formalaşdırdıqca, aktyor yaradıcılığının başlıca estetik mahiyyətini müəyyənləşdirdikcə rejissura sənətində də təkmilləşmə, janrın poetika xüsusiyyətlərini mənimsəmə güclənib. Gənc aktyorlar Məhərrəm Haşımov, Soltan Dadaşov və Zəfər Nemətov tədricən rejissura sənətinə üstünlük veriblər. Beləliklə, 1930-cu illərin əvvəllərindən başlayaraq GTT-nin milli rejissor məktəbi yaranıb və müəyyən spesiflk səciyyələr kəsb edib, sonralar formalaşaraq inkişaf yoluna qədəm qoyub. İllər keçdikcə məşhur sənətkarların yaradıcılıqları sayəsində bu teatrın öz rejissor məktəbinin poetika xüsusiyyətləri təsdiqlənib.

* * *

## MƏHƏRRƏM HAŞIMOV (2.2.1912 - 2.5.1969)

Yaradıcılığı daha çox realist monumental rejissor məktəbinin estetik prinsiplərinə uyğundur.

Rejissor poetikasında psixoloji dərinlik və fəlsəfi-bədii mahiyyət üstünlük təşkil edir. Azərbaycan teatrına forma yeniliyi, üslub-ifadə orijinallığı gətirən sənətkarlardandır.

Tamaşaları bədii-estetik kamilliyi, yüksək peşəkarlıq xüsusiyyətləri və poetik səhnə mədəriiyyəti, ansambl bütövlüyü, forma ilə məzmunun harınonik vəhdəti ilə daha dəyərli görünürdü.

Müxtəlif teatrlarda hazırladığı tamaşalarda qroteskdən, kəskin satiradan və sərt sarkazından cəsarətlə və dərin məzmunlu bədiiliklə istifadə edib.

İlk ali savadlı milli peşəkar rejissorlarımızdan olan Məhərrəm Kazım oğlu Haşımov yaradıcı sənətkar kimi hazırladığı səhnə əsərlərini "aktyor tamaşası" kimi qurmaqda xüsusi səriştə sahibi idi. Tamaşada güclü aktyor ansambh yaratmaqda onun peşəkarlıq qabiliyyəti Aleksandr Tuqanovun və Ədil İsgəndərovun möhtəşəm rejissorluq qüdrətlərinə tay tutula bilər.

Məhərrəm Haşımov 1912-ci il fevral ayının 2-də Bakıda ziyalı ailəsində doğulub. Dörd il Alekseyev adına Ali ibtidai məktəbdə oxuyub. Sonra yeni yaranan sovet məktəbində təhsilini davam etdirib.

Səhnə fəaliyyətinə məktəb yaşlarından başlayıb və Gənc Tamaşaçılar Teatrının yaradıcılarından biridir. Moskvada Dövlət Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsini bitirib (1936). Diplom işi Bakının Gənc Tamaşaçılar Teatrında hazırladığı Valentina Lyubimovanın "Seryoja Streltsov" dramınm tamaşası olub. Həmin vaxtdan 1944-cü ilə qədər GTT-də az müddət quruluşçu rejissor, sonra isə baş rejissor işləyib. Kollektivin repertuar qurumunda əsaslı dönüş yaradıb, teatra yeni-yeni istedadlı gənclər dəvət edib.

Baş rejissor kimi teatrda təkcə uşaqlar və məktəblilər üçün deyil, gənclərin bədii zövqlərinə, dünyagörüşlərinə, həyat hadisələrini qavrama qabiliyyətlərinə uyğun dramları da cəsarətlə hazırlayıb. Bu baxımdan "Ayaz" (Mirmehdi Seyidzadə), "Xasay" (Abdulla Şaiq), "Hünərli kikel" (Qriqori Qamrekeli və Georgi Naxutsrişvili), "Partizan Məmməd" (Sabit Rəhman və Ədil İsgəndərov), "Eloğlu" və "Vətən" (Abdulla Şaiq), "Qaçaqlar" (Fridrix Şiller), "Cəbhəyə əmr" (Əyyub Abbasov), "Dönməz" (Səttar Axundov), "Aydın" (Cəfər Cabbarlı) pyeslərinə verdiyi səhnə quruluşları forma əlvanlığına və ideya-bədii dəyərinə görə seçilirlər.

Məhərrəm Haşımov AMDT-də bir neçə tamaşa hazırlayıb. Müəyyən fasilələrlə Azərbaycan Dövlət Rus Dram Teatrında baş rejissor işləyib.

Görkəmli rejissor teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə görə 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, 27 fevral 1954-cü ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Məhərrəm Kazım oğlu Haşımov 2 may 1969-cu ildə Bakida vəfat edib. Məzarı Fəxri xiyabandadır.

## ULDUZ RƏFİLİ-ƏLİYEVA (15 DEKABR 1922)

"Rəfili" qızlıq soyadıdır. Bir sıra afişa və proqramlarda imzası belə yazılıb: Ulduz Rəfili-Əliyeva. Ata tərəfi Gəncənin məşhur Rəfililər, ana tərəfi isə şöhrətli Rəfibəylilər nəslindəndir. Ulduz xanım Saleh bəyin qızıdır. 15 dekabr 1922-ci ildə Gəncədə doğulub. Qızcığazın 12 yaşı olanda nəsilləri sovet represiyasına məruz qalıb. O, böyük bacısı Səmayə xanımla l934-cü ildə Bakıya köçüblər.

Orta məktəbi Moskvada bitirən Ulduz xanım 1941-ci il-də orada Dəmiryol Mühəndisliyi İnstitutuna daxil olub. 1945-ci ilin yazında, dördüncü kursda oxuyanda yenicə yaranmış Azərbaycan Dövlət Teatr İnstitutuna daxil olub. Ali məktəbi 1950-ci ildə bitirib və ilk Azərbaycan qadın teatr rejissoru kimi Gənc Tamaşaçılar Teatrının rus bölməsində fəaliyyətə başlayıb. 1972-1975-ci illərdə teatrın baş rejissoru vəzifəsini daşıyıb.

Ulduz Rəfili 1975-ci ilin sentyabrından pedaqoji fəaliyyətə keçib. Uzun illərdir Musiqi Akademiyasının vokal və op-ra hazırlığı kafedrasının professorudur.

Ulduz xanım Rəfili-Əliyeva Gənc Tamaşaçılar Teatrında həm Azərbaycan, həm də rus bölmələrində tamaşalar hazırla-yıb, forma və məzmunca müxtəlif əsərləri fərqli janrlarda quruluşlar verib.

Rejissor Azərbaycan bölməsində Hüseyn Muxtarovun "Ailə namusu" (1955), Viktor Hüqonun "Şəfillər" romanı əsasında Əli İsmayılovun və Zəfər Nemətovun səhnələşdirdikləri "Qavroş" (1963), Salam Qədirzadənin "Şirinbala bal yığır" (1965), Xanımana Əlibəylinin "Dovşanın ad günü" (1966), Karlo Haldoninin "İki ağanın bir nökəri" (1968), Məmmədhüseyn Təhmasibin "Rübailər aləmində" (1968), Süleyman Sani Axundovun "Qaraca qız" (1971), Xanımana Əlibəylinin "Aycan" (1973), rus bölməsində Sezar Solodarın "Ulduzlar aləmi" (1950), Nikolay Qoqolun "Evlənmə" (1952), Pavel Malyarevskinin "Turp" (1953), Sergey Mixalkovun "Əziz oğlan" (1972),

Aleksandr Puşkinin "Kiçik faciələr" (1974) əsərlərinə verdiyi səhnə təfsirləri daha orijinal və maraqlı olub.

Ulduz xanım Rəfili Gənc Tamaşaçılar Teatrının inkişafındakı xidmətlərinə, rejissor sənətində qazandığı nailiyyətlərə görə 29 iyun 1964-cü ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub.

Rejissurasına incə lirizm və emosional cazibədarlıq xasdır. Ən yaxşı tamaşaları lirik-psixoloji üslubda hazırlanıb. Bu baxımdan Əkrəm Əylislinin "Mənim nəğməkar bibim" (1975), Anarın "Keçən ilin son gecəsi" (1968) pyeslərinin tamaşaları yüksək bədii səviyyələri, estetik ifadə vasitələrinin zənginliyi ilə daha parlaq sənət qələbələri sayılır.

Uşaq tamaşaları içərisində isə Xanımana Əlibəylinin "Aycan" nağıl-pyesinə verdiyi quruluş poetik hüsnü və ifadəli səmimiyyəti ilə seçilir.

Ulduz xanım quruluş verdiyi tamaşaların əksəriyyətini realist, bir qisınını isə romantik-realist üslublarda hazırlayıb.

Canlı və dinamik kompozisiya qururdu və bütün formalarda aktyor oyunu öndə olurdu.

Bitkin, tamaşanın ali məqsədini, fikir yükünü tamlıqla Çəkə bilən aktyor ansambh yaratmaqda yüksək səriştəli idi.

## AĞAKİŞİ KAZIMOV (28 İYUN 1935)

Teatrda yaradıcılığa aktyor kimi başlayıb. Sonradan ali ixtisas təhsili keçərək rejissorluq etmiş, baş rejissor kimi Sumqayıt Dövlət Dram Teatrının və Gənc Tamaşaçılar Teatrının müəyyən inkişaf dövrlərində səmərəli xidmətləri olmuşdur.

Ağakişi Şəmməd oğlu Kazımov 28 iyun 1935-ci ildə Ağcabədi rayonunun Ağcabədi kəndində doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsində təhsil alıb. Milli Dram Teatrında aktyor işləyib (1952 - 1954). O, 1960 -1964-cü illərdə Sankt-Peterburq Dövlət Teatr, Musiqi və kinematoqrafiya İnstitutunun əyani rejissorluq fakültəsində oxuyub. Azərbaycana ali ixtisaslı rejissor diplomu ilə qayıdan Ağakişi Kazımov Sumqayıt Dövlət Dram Teatrında, Musiqili Komediya Teatrında, AMDT-də, Opera və Balet Teatrında işləyib.

Ağakişi Kazımov Gənc Tamaşaçılar Teatrında uzun müddət baş rejissor işləyən sənətkarlardandır (30 dekabr 1975 - 14 fevral 1983 və 20 aprel 1990 - 14 mart 2002). Ən çox və ən müxtəlif janrlı tamaşaya da quruluşu məhz bu teatrda verib.

Onun GTT-də əsas quruluşları: "Söhrab və Rüstəm", İsgəndər Coşqun (1973), "Komsomol poeması", İsgəndər Coşqun (Səməd Vurğunun eyniadlı poeması əsasında. 1976), "Zoluşka", Yevgeni Şvarts (rus bölməsində. 1976), "Məhəbbət novellası", Şamil Xurşud və Əşrəf Hacıyev (1977), "Məlik Məmməd", Əyyub Abbasov (1978), "Hacı Qəmbər", Nəcəf bəy Vəzirov (1978), "Qar qız", Teymur Elçin (1983), "Yazığam, sevmə məni", Əkrəm Əylisli (1990), "Kiçik təpə", Nəbi Xəzri (1991), "Sevirdim, çox sevirdim", Hidayət (1994), "Ağ div, qara div", Əli Səmədli (1995), "Şir qızı Luska", Vladimir Qusev (rus bölməsində. 1997), "Təlxəyin nağılı", Firuz Məmmədov (1999), "Büllur sarayda", İlyas Əfəndiyev (2000).

1977-ci ildən bugünkü Mədəniyyət və İncəsənət Universitetində aktyor və rejissor sənətindən dərs deyən Ağakişi Kazımov 18 iyun 2001-ci ildən bu ali məktəbin professorudur.

Qazandığı sənət uğurlarına görə 20 mart 1987-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, 28 oktyabr 2000-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

## AZƏR PAŞA NEMƏT (13 AVQUST 1947)

Azər Paşa Nemət (Nemətov) 13 avqust 1947-ci ildə Bakıda doğulub. Güclü musiqi duyumu olan Azər Paşa Bülbül adına orta musiqi məktəbində təhsil alıb (1953 - 1964). Bir il Azərbaycan Dövlət konservatoriyasında Qara Qarayevin sinifində oxuyub. ADİİ-nin rejissorluq fakültəsini bitirib (1965 -1970). Diplom işi "Qardaşım klarnet çalır" (Anatoli Aleksin. Şeirlər Robert Rojdestvenskinin, musiqisi Oleq Feltsmanındır) Gənc Tamaşaçılar Teatrının rus bölməsində göstərilib.

1972-ci ildə GTT-də əvvəl rejissor assistenti, sonra quruluşçu rejissor işləyib. Arada Sankt-Peterburqun eyni tipli teatrında çalışıb (1974 - 1977). Gənc yaşlarından şöhrət qazanaraq 1977-ci ildə Bakıya qayıdıb, GTT-də rejissor və baş rejissor (1983 - 1990) işləyib. 1990-cı il aprel ayının 20-dən Akademik Milli Dram Teatrının quruluşçu rejissorudur.

Rejissor Bakıdakı GTT-nin rus bölməsində Yevgeni Şvartsın "İki ağcaqayın" (1973), Kim Meşkovun "Pin və Qvin" (1974), Yevgeni Miteonun və Yuri Mixaylovun "Bum-baraş" (1977), Vladimir Tendryakovun "Buraxılışm son gecəsi" (1978), Şandor Şamadi Tootun "Necəsən, cavan oğlan?", Anarın "Keçən ilin son gecəsi" (1979), Aleksey Tolstoyun "Buratinonun səfehlər ölkəsində macəraları" (1980), Aleksandr Ostrovskinin "Öz adamlarımızdır, dil taparıq" (1982), Redyard kiplinqin "Öz kefinə gəzən pişik", Rüstəm İbrahimbəyovun "Təmas" (1983), Beqalinin "Onun on üç yaşı olacaqdı", Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (1984), Valentin Zoşşenkonun "Şapkinin sərsəm günü", Çerviskinin "Tap tapış..." ("Xaçlar və sıfırlar". 1985), Karlo Qotsinin "Yeikənlər üzərində nəğməli kü1ək" (1987) pyeslərini tamaşaya hazırlayıb.

Rejissor Azərbaycan bölməsində Cəlil Məmmədquluza-dənin "Danabaş kəndinin məktəbi" (1983), Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah", Çingiz Aytınatov və Kotley Məhəmmədovanın "Fudzi dağında qonaqlıq" (1984), İsgəndər Coşqunun "Komissarlar", Rəhman Əlizadənin "Sabah çoxdan başlanıb" (1987), Kamal Aslanovun "Yuxulama" (1989) dramlarının tamaşalarına əlvan janrlı quruluşlar verib.

* * *

GTT-nin yarandığı gündən indiyədək Azərbaycan və rus bölmələrində müxtəlif baş rejissorlar və quruluşçu rejissorlar işləmişlər. İlk illərdə Qriqori kornelli gənc kollektivdə kiçik-həcmli pyeslərə səhnə quruluşu verib. Soltan Dadaşov opera teatrı ilə yanaşı, burada da quruluşlar verib. Ələsgər Şərifov, Nəsir Sadıqzadə, Fikrət Sultanov, Cənnət Səlimova, Vaqif Ibrahimoğlu, Mərahim Fərzəlibəyov, Bəhram Osmanov dəvətlə GTT-də tamaşalar hazırlayıblar.

Repertuarda Müharib Tağıyevin, Həsən Əblucun, Möhsün Mürsəlovun, Vaqif Əsədovun, Rafiq Əliyevin hazırladıqları uzunömürlü tamaşalar olub. Rus bölməsinin ən məhsuldar rejissoru Aleksandr Varşavski sayılıb. Həmin truppa ilə Kərim Həsənov, Ulduz Rəfili, Zəfər Nemətov da xeyli tamaşalar hazırlayıblar. Bununla belə, GTT-nin rejissor yaradıcılığından danışanda bəzi rejissorların sənət yolunda yer tutan müəyyən tamaşaları göstərmək olar.

**Aleksandr Tuqanov (1871-1960).** Əsas quruluşları Azərbaycan bölməsində: "Zorən təbib" Jan Batist Molyer. 1938), "Müfəttiş" (Nikoİay Qoqol. 1939). Rus bölməsində: "Meşşanlar" (Maksim Qorki), "Məzəli hadisə" (Karlo Haldoni), "Nadan övlad" (Denis Fonvizin), "Şən yuxular" (Viktor Rozov).

**Kərim Həsənov (1914 - 1978).** GTT-də 1939-cu ildən işləyib. Azərbaycan Respublikasının əməkdar artisti olub (1954).

Rejissorun hazırladığı əsas tamaşalar: "Babək" (Əbil Yusifov. 1939), "Azad" (Əyyub Abbasov. 1940), "Hacı Qəmbər", Nəcəf bəy Vəzirov. 1942), "Dədə Qorqud və Qaraca çoban" (Əbdüləzəl Dəmirçizadə. 1946), "Xırs quldurbasan" (Mirzə Fətəli Axundzadə. 1947), "İki veronalı" (Vilyam Şekspir. 1955), "Ərköyün oğlan" (Yevgeni Rıss. 1955), "O, mənim oğlumdur" (Əfqan Əsgərov. 1956), "Son məktub" (Rauf İsmayılov. 1957), "İmtahan" (Həsən Seyidbəyli. 1959), "Məlik Məmməd" (Əyyub Abbasov. 1960), "Qonşular" (Yusif Əzimzadə. 1961), "Bəxtsiz cavan"

(Əbdürrəhim bəy Haqverdiyev. 1963), "Yanmış planetin sərvətləri" (Novruz Gəncəli. 1963), "Aydınlığa doğru" (Seyfəddin Dağlı. 1965), "Zəng səsləri" (Ramiz Heydər. 1966), "Meşədə futbol", "qol" (İsgəndər Coşqun. 1969), "Sənin yaşıdların" (Qılman İlkin. 1970), "Gün aydın, əlahəzrət!" (Qeybulla Rəsulov. 1970).

**Həsən Əliyev**. Onun rejissorluğunda göstərilən tamaşalar: "Ana" (Abdulla Şaiq. 1944), "Sevinc" (Əyyub Abbasov. 1949), "Dərsdən sonra" (Mirzə Müştaq. 1950), "Tom dayının koması" (Biçer Stou. 1951).

**Ağəli Dadaşov**. Səhnə təfsiri verdiyi əsərlər: "Tayqa" (Səttar Axundov. 1942), "Gənc ustalar" (Zeynal Xəlil. 1953), "Bir gəncin manifesti" (Mir Cəlal. 1954), "Sirli şəhər" (Mehdi Hüseynin romanı üzrə səhnələşdirəni Ağəli Dadaşov. 1954), "Çiçəkli dağ" (Məmmədhüseyn Təhmasib. 1955).

**Hüseyn Sultanov (1923 - 1993).** Rejissorun quruluşunda oynanılan səhnə əsərləri: "Ovod" (Etil Voyniç. 1970), "Sükut divarı" (Paolo Messiana. 1972), "Yolda" (Hüseyn Arif. 1973), "Təzə şagird" (Qılman İlkin. 1974), "Perometey" (Cahangir Məmmədov. 1977), "Sən nə üçün yaşayırsan?" (İmran Qasımov. 1982).

**Alensandr Varqşavski (1912 - 1971).** Teatrda 1945-ci ildən işləyib. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi idi (1963). Əsas quruluşları: "Tom dayının koması" (Biçer Stou), "Qarlar Kraliçası" (Yevgeni Şvarts), "Başsız atlı" (Mayn Rid), "Valya kotik" (Hüseyn Nəcəfov), "Meridian - 361" (Mixail Şatrov), "Polad necə bərkidi" (Nikolay Ostrovski).

## ZƏFƏR NEMƏTOV
## (12.O7.1915- 19.11.1971)

Milli professional rejissura sənətimizin inkişaf edib formalaşmasında böyük xidmətləri olan görkəmli səhnə xadimləri arasında əməkdar incəsənət xadimi Zəfər Nemətovun öz ləyaqətli yeri, öz xidmətləri, öz dəsti-xətti var. Xüsusən Gənc Tamaşaçılar Teatrına böyük bir aktyor nəslinin yetişib formalaşmasında, kollektivin yaradıcılıq simasının təkamülündə, repertuar üçün seçilən dramaların meyarlarını genişləndirib oraya yeniyetmələr və gənclər üçün pyeslər, milli və tərcümə klassik əsərlər daxil edilməsində o, baş rejissor kimi misilsiz işlər görüb.

Zəfər Paşa oğlu Nemətov 12 iyul 1915-ci ildə Bakıda mühəndis ailəsində anadan olub. Uşaqlıqda mütaliəyə, ədəbiyyat və mədəniyyətə maraq göstərib. O, 37 saylı məktəbdə oxuyub. 1928 - 1929-cu illərdə Türk İşçi Uşaq Teatrı (bugünkü Gənc Tamaşaçılar Teatrı) həmin məktəbin üçüncü mərtəbəsində yerləşirdi. Məktəbli Zəfər də öz fəaliyyətinə Lətif Kərimovun "Fırtına" pyesinin tamaşası ilə başlamış teatrın səhnə əsərlərinə maraqla baxanlardan biri idi.

1929-cu ilin dekabrında aktyor Fazil Dadaşov Akademik Milli Dram Teatrının kütləvi səhnələrində və epizod uşaq rollarında çıxışa cəlb etmək üçün 37 saylı məktəbə gəlmişdi. Seçilən məktəblilərdən biri də Zəfər Nemətov oldu və o, həmin vaxtda yeddinci sinifdə oxuyurdu. Zəfər Nemətov dərsdən sonra Fazil Dadaşovla Akademik teatra gəldi. O, bu məşhur sənət ocağında səhnəyə ilk dəfə teatrın rejissoru Əlihüseyn Rzayevin quruluş verdiyi və premyerası 16 dekabr 1929-cu ildə göstərilən "Namus" (Aleksandr Şirvanzadə) tamaşasında çıxıb. Bununla da taleyini ömürlük səhnəyə bağlayıb.

Milli Dram Teatrının bir neçə tamaşasında kütləvi səhnələrdə iştirak edən gənc 1931-ci ildə Gənc Tamaşaçılar Teatrına (bu ad Türk İşçi Uşaq Teatrına 18 iyun 1936-cı ildə verilib) dəvət olunub və aktyor truppasının yardım heyətinə qəbul edilib. Həmin ilin sentyabrında Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Teatr Məktəbinin (Texnikumunun) aktyorluq fakültəsində təhsil almağa başlayıb. Səhnə danışığı müəllimi Abbasmirzə Şərifzadə ilə ata-bala münasibətləri yaranıb.

Təhsillə bağlı müvəqqəti olaraq teatrdan aralanan Zəfər Nemətov 1933-cü ildə atası Paşa bəyi itirdiyinə görə ailənin böyük övladı kimi bütün ağırlıq onun üzərinə düşüb. Onda kiçik qardaşı

Hacıağa musiqi məktəbində oxuyurdu və anası Mirxanım xanım evdar qadın idi. Hər cür ağırlığa və məhrumiyyətlərə sinə gərərək gənc Zəfər həm başqa işdə çalışıb, həm oxuyub, həm də Gənc Tamaşaçılar Teatrında (GTT) səhnəyə çıxmağa macal tapıb. Onun işgüzarlığını, iti ağlını, məntiqi düşüncə tərzini, obrazlı fikirləşmək qabiliyyətini görən teatrın rejissorları Aleksandr Tuqanov və Məhərrəm Haşımov 1930-cu illərin ikinci yarısından başlayaraq gənc aktyoru rejissor assistenti kimi də işə cəlb ediblər. Zəfər Paşa oğlu Jan Batist Molyerin "Zorən təbib", Abdulla Şaiqin "El oğlu", Fridrix Şillerin "Qaçaqlar", Cəfər Cabbarlının "Aydın" əsərlərinin tamaşalarının hazırlanmasında müəyyən rejissorluq təcrübəsi toplayıb.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda könüllü şəkildə faşist işğalçıları ilə döyüşə yollanıb. Bir il sonra ağır yara alaraq ordudan tərxis olunub və yenidən doğma kollektivdə səhnənin sehrli və cazibəli qoynuna atılıb, böyük eh-tiras və məhəbbətlə rejissorluq sənəti yollarında axtarışlara başlayıb. 1943-cü ilin yanvar ayında Zəfər Nemətovun ilk müstəqil quruluşu "Məlik Məmməd" (Əyyub Abbasov) nağıl-tamaşasının premyerası göstərilib. Tamaşanın bədii tərtibatını rəssam Həsən Mustafayev vermişdi və musiqisini bəstəkar Cahangir Cahangirov yazmışdı.

Zəfər Nemətov 1948-ci ildə altı ay Moskvada və 1950-ci ildə Leninqradda (indiki Peterburq) Gənc Tamaşaçılar Teatrında xüsusi rejissor təcrübəsi keçib. Bundan sonra o, quruluş verdiyi tamaşalarda peşəkarlıq səviyyəsinə, janr əlvanlığına xüsusi diqqət yetirib və doğma teatrda cəsarətlə, zəngin fantaziya, qanadlı təxəyyül ilə yeni rejissor üslubunu formalaşdırmağa başlayıb.

Aktyor kimi fəaliyyət göstərdiyi, hətta rejissor assissenti işlədiyi ilk illərdə Zəfər Nemətov bir sıra kiçik, epizod və iri həcmli rollarda səhnəyə çıxmışdır. Onun ifa etdiyi obrazları arasında Petra Andropov ("Seryoja Streltsov", Valentina Lyubimova), Moqileviç ("Çelyuskinçilər", Əliməmməd Atayev və Əli Həsənov), Pioner ("Küçələrdə", Cəfər Cəfərov və Şamil Məlikyeqanov), kiçik zabit və İsmayıl ("Partizan Məmməd", Sabit Rəhman və Ədil İsgəndərov), Mürsəl ("Xasay", Abdulla Şaiq), Vəfa ("Arsenal", Qurban Musayev), Fuad ("Ramiz", Əbil Yusifov), Tapdıq ("Azad", Əyyub Abbasov) rolları bədii dəyərinə, aktyor oyununun peşəkarlıq səviyyələrinə görə daha yaddaqalandır.

Sözsüz ki, Zəfər Nemətovun adı milli teatr tariximizdə ilk növbədə rejissor kimi əbədiləşib, rejissor-pedaqoq kimi şöhrətlənib. Eyni zamanda o, məşhur teatr xadimi olub, ömrünün sonuna kimi Azərbaycan Teatr Cəmiyyəti (bugünkü Te-atr Xadimləri İttifaqı) sədri Mustafa Mərdanovun müavini işləyib. Hazırda ATXİ-nin və Aktyor Evinin yerləşdiyi dörd-mərtəbəli bina məhz Mustafa Mərdanovla Zəfər Nemətovun fədakarlıqları ilə tikilib.

Zəfər Nemətov 1945 - 1948-ci illərdə səriştəli rejissor kimi vaxtaşırı Qaryagin (indiki Füzuli), Şamaxı, Şəmkir, Göyçay dövlət teatrlarına yaradıcılıq yardımı göstərməyə göndərilib. 1954-cü ildə o, Gənc Tamaşaçılar Teatrına baş rejissor təyin olunub və 1970-ci ilə kimi həmin vəzifədə çalışıb. Baş rejissorluq dövründə həm bütövlükdə sənət ocağının fəaliyyət istiqamətini müəyyənləşdirmək, yeni aktyor nəsilini yetişdi-mək, repertuar siyasətini çağdaş estetik tələblərə uyğun qurmaq yolunda böyük işlər görüb, səmərəli islahatlar aparıb, həm də orijinal və maraqlı tamaşalar hazırlayıb. Özü də teatrın hər iki bölməsində quruluşlar verib.

Gənc Tamaşaçılar Teatrının Azərbaycan bölməsində Zəfər Nemətovun hazırladığı tamaşalar.

1947. "Xüsusi tapşırıq", Sergey Mixalkov. Tərcümə edənləri Yusif Əzimzadə və Məmmədsadıq Allahverdiyev. "Odlar içində", Əbil Yusifov.

1948. "Kələklə gələn küləklə gedər", Boris Qamrekeli və Georgi Naxutsrişvili. "Bahar nəğməsi", Əyyub Abbasov.

1949. "Qaraca qız", Abdulla Şaiq, Süleyman Sani Axundovun eyniadlı povesti əsasında. "Yaşıl sandıqca", İvan Vasilenko. Tərcümə edəni Abdulla Şaiq.

1950. "Polad necə bərkidi", Nikolay Ostrovski. "Düşmənlər içində", Novruz Gəncəli.

1951. "Qarlar Kraliçası", Yevgeni Şvarts.

1952. "Tamahkar", Süleyman Sani Axundov və "Qastello", İsidor Ştok. Tərcümə edəni Mehdi Məmmədov. "Turp", Pavel Malyarevski. Tərcümə edəni Mustafa Mərdanov.

1953. "Gülşən", Əli Vəliyevin eyniadlı romanı əsasında səhnələşdirəni Ağəli Dadaşov. "Meşə gölünün sahilində", Sezar Solodar. Tərcümə edəni Ələsgər Şərifov.

1954. "Yaşar", Cəfər Cabbarlı.

1957. "Anacan", Yusif Əzimzadə. Rejissor Kərim Həsənovla birlikdə hazırlayıb. "Gülən gözlər", Məmmədhüseyn Təhmasib. Rejissor Ulduz Rəfili ilə birlikdə hazırlayıb.

1958. "Bir saat xəlifəlik", Abdulla Şaiq.

1959. "Göyərçinlər", Tələt Əyyubov.

1960. "İki həyat", Rauf İsmayılov.

1961. 21 mart. "Komsomol poeması", İsgəndər Coşqun.

1963, 2 mart. "Əlvida, Hindistan!", Qeybulla Rəsulov.

1963, 11 mart. "Tü1kü məhkəməyə gedir", İsgəndər Coşqun.

1964, 1 fevral. "Ürək yanarsa...", Teymur Məmmədov.

1966, 3 noyabr. "Romeo və Cülyetta", Vilyam Şekspir. Tərcümə edəni Tələt Əyyubov.

1967, 25 iyun. "Nəsillər", Qeybulla Rəsulov.

1969, 19 oktyabr. "Oğlum Volodya", Yuri Yakovlev.

1971, 28 dekabr. "Tülkü məhkəməyə gedir", İsgəndər Coşqun.

Sənətkar "Tülkü məhkəməyə gedir" pyesini tamaşaya hazırladı, ancaq əsərin tamaşasının premyerasını görmək ona nəsib olmadı.

Zəfər Nemətovun Gənc Tamaşaçılar Teatrının rus bölməsində quruluş verdiyi daha maraqlı tamaşalar: "Müfəttiş", (Nikolay Qoqol), "Sənin evin", (Valentina Lyubimova), "Qürur məktəbi", (Valentina Lyubimova), "Yaşıl sandıqça", (İvan Vasilenko), "Qarlar Kraliçası", (Yevgeni Şvarts), "Meşə kənarında göl", (Sezar Solodar), "İyirmi ildən sonra", (Mixail Svetlov), "Polad Üzük", (Konstantin Paustovski), "Qırmızı şeytan balaları", (V.Serebyakov), "Zorən təbib", (Jan Batist Molyer), "Kasıblıq eyib deyil", (Aleksandr Ostrovski), "Afrikadan gələn zərf", (Lyubomir Qarabin), "Bütün bunlar sadəcə işlər deyil", (Gennadi Şmelyov), "Dəhşətli bir gün", (Yuri Sotnik), "Onlar və biz", (Nina Dolinina), "Zoluşka", (Qabbe), "Alyonanın çiçəkləri", (M. Kornouxov və L.Brasueviç).

Azərbaycan teatr tarixinin inkişafındakı xidmətlərinə və rejissor yaradıcılığında əldə etdiyi nailiyyətlərə görə Zəfər Paşa oğlu Nemətov 1954-cü il fevral ayının 27-də Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub.

Görkəmli sənətkar 1971-ci il noyabr ayının 19-da Bakı-da vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır.

Zəfər Nemətov rejissorluq fəaliyyəti ilə yanaşı, 1951-ci ildən Asəf Zeynallı adına musiqi məktəbinin o vaxt mövcud olan opera sinifində rejissorluqdan dərs demişdir. Onun buraxılış kursu tələbələri ilə hazırladığı "Arşın mal alan" operettası Opera və Balet Teatrı binasında böyük uğurla oynanmışdır.

Zəfər Nemətovun rəngarəng yaradıcılığının başlıca xüsusiyyətlərini rənglər palitrasma düzsək aşağıdakı səciyyələr daha parlaq və daha aydın görünər.

Zəfər Nemətovun tamaşaları janr etibarilə son dərəcə əlvandır.

Zəfər Nemətovun quruluş verdiyi tamaşalarda əyləncə, tərbiyə, sevinc, bayram ovqatı, düşüncə dərinliyi, nağıl sehrli... peşəkarlıqla səhnə təcəssümü tapır, poetik ahəngdarlıqla vəhdətdə olurdu.

Zəfər Nemətov komediyanı necə təravətlə, qəhrəmanlıq dramını necə poetik vüsətlə, çağdaş əsərləri necə psixoloji dərinliklə tamaşaya hazırlayırdısa, eyni təravətlə və monumental cazibədarlıqla da klassiklərə səhnə təcəssümü verirdi.

Zəfər Nemətov teatra yeni-yeni dramaturqların cəlb olunmasında səylə çalışır, cəsarətlə sınaqlar aparınaqdan çəkınınirdi.

Zəfər Nemətov həm uşaqların maraq dairəsmi dərindən bilir, həm yeniyetmələrin zövq və psixoloji dəyişmələrini həssaslıqla duyur, həm də gənclərin və orta nəsilin nəzəri-estetik görüşlərinin formalaşmasını, zövq və tələblərini psixoloq həssaslığı ilə duyurdu.

Zəfər Nemətov mətin xarakterli olduğu qədər də səmimi və mehriban idi. Bu səmimiyyət onun quruluş verdiyi bütün tamaşaların ruhuna hopmuşdu.

Zəfər Nemətov tamaşalarının obrazlı həllinə xüsusi fikir verirdi. Bu baxımdan onun rəssamlardan Sadıq Şərifzadə, Altay Səidov, Fuad Xəlilov və Nikolay Ovçinnikovla işləri bədii bütövlüyü ilə seçilirdi.

Zəfər Nemətov öz tamaşalarında musiqidən geniş istifadə edir və bəstəkar işini səhnə əsərinin ayrılmaz, "obrazı" kimi həll edirdi. Xüsusilə Cahangir Cahangirovla, Tofiq Quliyevlə, Zakir Bağırovla müştərək işləri daha ritmık, coşqun və dərin mənalı idi...

## AZƏRBAYCAN DÖVLƏT KUKLA TEATRI

Azərbaycanda Kukla Teatrının dövlət səviyyəsində təşəkkülünün təşəbbüskarı və yaradıcısı Mollağa Bəbirli olub. O, 15 sentyabr 1905-ci ildə Bakıda doğulub. On yeddi yaşından AMDT-nin yardımçı heyətində çıxış edib, 1927-1928-ci illərdə Moskvada qrim və Kukla teatrı ixtisası üzrə təhsil alıb. Bakıya qayıdaraq Akademik Milli Dram Teatrının truppasında aktyorluq edib.

1930-cu ilin may ayında teatrın yığcam briqadası Ağdam rayonuna qastrola gedib. Mollağa Bəbirli burada aktyor dostları Musa Hacızadə, Fazil Dadaşov və Abbas Rzayevlə birgə ilk Kukla tamaşasını göstəriblər. Məktəbdə oynanılan tamaşa uğurlu keçib və bu nailiyyət Mollağanı öz arzusu uğrunda daha inamla çalışmağa sövq edib.

Dramaturq Cəfər Cabbarlının yaxından köməyi və Xalq Maarif komissarlığının əmri ilə 16 may 1931-ci ildə Bakıda Türk Kukla Teatrı yaradılıb. Teatr "Sirk" adlanan ilk tamaşasını 1932-ci ilin aprelində oynayıb. Sira-məsxərə elementli həmin oyun-tamaşa çox qısa olsa da, məzəli, əyləncəli və uşaqlar üçün maraqlı idi.

Mollağa Bəbirli "Zərgərpalan küçəsi, 84" ünvanlı evində kiçik bir otağı emalatxana etmişdi və burada özü Kuklalar düzəldirdi. Kuklaları həm müxtəlif ağaclardan yonurdu, həm də gəlincik tipli Əlcək (qolçaq) Kuklaları hazırlayırdı. Əvvəllər Kukla teatrının daimi binası olmadığına görə tamaşalar Bəbirlinin evində, məktəblərdə, yay aylarında pioner düşərgələrində göstərilib. Tamaşalara quruluşçu rejissorluğu əsasən Bəbirli edib.

Kollektivdə Mollağa Bəbirli, Əli Əsgərov, Zinyət Abbasova, Münəvvər Dadaşova, Əliağa Qasımzadə, Püstə Rzayeva, Bəyim Əliyeva, Əli Məmmədov, Həcər Ələsgərova, Ağamehdi Əliyev, Tofiq Hüseynov, Əyyub Rzayev, aktyor-rejissor Süley-man Nəzəroğlu, rəssam Həsən Mustafayev çahşıblar. İlk illər məxsusi Kukla teatrı üçün nağıl-pyeslər olmadığına görə truppa tərcümə və təbdillər əsasında "Ayıq ol", "Əsil vəsait", "Kolxoz bazarı", "Zərbəçi briqada" kimi ideoloji təbliğat əsas götürülən tamaşalar hazırlayıb. Teatr Ali Baş Siyasi Maarif İdarəsmin nəzdində olub.

1933-cü ildə kollektiv Gənc Tamaşaçılar Teatrının nəzdində Kukla şöbəsi kimi fəaliyyətini davam etdirib. Repertu-arda tərcümələr əsasında məhz Bakı teatrı üçün işlənmiş "Pişik və it", "Balaca Muk", "Məşhur İvan", "Ələddinin sehrli lampası" tamaşaları əsas yer tuturdu.

Kukla teatrı illər boyu formalaşdıqca bu janra maraq göstərən yazıçıların əsərləri repertuarda üstünlük təşkil edirdi. Bu sahədə ilk addımı gənc şair Mirmehdi Seyidzadə atıb. Onun "Nərgiz" pyesi uzun illər teatrın repertuarında müxtəlif quruluşlarda göstərilib. 1930-cu illərin ikinci yarısında Mollağa Bəbirli dramaturq Mirzə Fətəli Axundzadənin "Hacı Qara" və Cəlil Məmmədquluzadənin "Ölülər" pyeslərinin Kukla teatrı variantlarını işləyib və özü də tamaşaya hazırlayıb. Məhərrəm Əlizadənin "Qoçaq Nazlı", Əli Əsgərovun "Lina Oden", Nikolay Qoqolun "Evlənmə", M. Abbasovun "Cəsur dovşan", "Qoçaq canavar", Baba Qubinskinin "Almaz", Cəfər Cəfərovun "İsgəndərin buynuzu", Mirmehdi Seyidzadənin "Fitnə", təbdil olunmuş "Tın-tın Mirzə", "Eldar kosa" pyeslərinin tamaşaları da repertuara daxil olub.

1938-ci ildə Dövlət Kukla Teatrı müstəqil sənət ocağı kimi iki il indiki Mahnı Teatrının binasında fəaliyyət göstərib. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi ilə əlaqədar olaraq kollektiv yenə GTT-nin nəzdinə keçib. 1946-cı ildə Kukla Dövlət Teatrı Mollağa Bəbirlinin direktorluğu və bədii rəhbərliyi ilə yenidən müstəqil kollektivə çevrilib. Teatr 190 saylı məktəbin binasında yerləşib. Vaxtilə Dərbənd Dövlət Azərbaycan Teatrında aktyorluq etmiş Nadir Zamanovun kollektivə gəlişi rejissurada və üslub axtarışlarında təkanverici rol oynayıb.

1949-cu ildə teatrların özlərini maliyyələşdirmə iş sisteminə keçməsi ilə əlaqədar olaraq Azərbaycanda ondan çox dövlət teatrı, o cümlədən Kukla teatrı bağlanıb. Nadir Zamanovun fədakarlığı və rəhbərliyi ilə kiçik heyətdə teatr dəstəsi yaranıb və truppa 1 yanvar 1950-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində fəaliyyətə başlayıb. 1962-ci il noyabr ayının 15-də Kukla teatrı dəstəsi yenə GTT-nin kollektivinə daxil olub. Həmin kollektiv 6 may 1963-cü ildə Bakıdakı Orkestr Musiqiçiləri Bürosunun sərəncamına verilib.

Azərbaycan Respublikasının Nazirlər Soveti 1964-cü il aprel ayının 15-də truppanın dövlət statusunun bərpa edilməsi barədə qərar imzalayıb. Bunun əsasında Mədəniyyət Nazirliyi Azərbaycan Dövlət Kukla Teatrının fəaliyyətə başlaması barədə 3 fevral 1965-ci ildə 17 saylı əmr verib. Hazırda teatrın Dənizkənarı bulvardakı binası kollektivin sərəncamına keçib.

Teatr 1965-ci il sentyabrın 25-də Mirvarid Dilbazinin "Göyçək Fatma" nağıl-pyesinin tamaşası ilə pərdələrini açıb. Tamaşaya quruluşu Musiqili Komediya Teatrının rejissoru Niyaz Şərifov verib və ikinci rejissorluğu ADTİ-nin diplomçusu Maqbet Bünyadov edib. "Göyçək Fatma"nın rəssamı Faiq Əhmədov, bəstəkarı Oqtay Zülfüqarov idi. Əsas rolları Şəfiqə Axundova (Qarı nənə), Münəvvər Zamanova (Fatma), Oqtay Dadaşov (Xoruz və Qızıl inək), Sona Həsənova (Xanım), Nadir Zamanov (Xanımın əri) ifa ediblər.

Qırx ildə teatr öz yaradıcılığının təkamül dövrünü keçib, fərdi sənət estetikasını müəyyənləşdirib, poetika səciyyələrini təsdiqləyib. İlk növbədə isə bu yaradıcılıq uğurlarına üslubca zəngin, formaca əlvan, mövzuca müxtəlif tamaşaları əhatə edən repertuar əsasında nail olub. Teatr həm kiçik yaşlı uşaq-lar, həm yuxarı sinif şagirdləri, həm yeniyetmələr, həm də yaşlılar üçün tamaşalar hazırlayıb. Sənət ocağı öz ətrafında Əli Səmədli, Tofiq Mütəllibov, Xanımana Əlibəyli, Anar, Firuz Məmmədov, Fikrət Sadıq, Kəmalə Ağayeva, Rəhman Əlizadə, Kamal Aslan kimi dramaturqları cəmləşdirib. 1966-cı il-də ilk tamaşası göstərilən Əli Səmədlinin "Artıq tamah baş yarar" (quruluşçu rejissor Əfrasiyab Məmmədovdur) 1000 dəfədən çox oynanılıb.

Son qırx ildə, yəni növbəti bərpadan sonra teatrın oynadığı onlarca tamaşalar arasında aşağıda göstərilən səhnə əsər-ləri daha dəyərli və məzmunlu olub. "Keçinin qisası" (Əyyub Abbasov. 1965), "Cırtdan" (Mirmehdi Seyidzadə. 1967), "Tələ quran özü düşər" (Firuz Məmmədov. 1969), "Sehrli nar" (Mirmehdi Seyidzadə. 1970), "Bu ev kimindir?" (Samuel Marşak. 1973), "əkiz qardaşlar" (nağıl-tamaşa. 1974), "Qoçaq Polad" (Tofiq Kazımov. 1974), "Üç nağıl" (Abdulla Şaiq. 1975), "Qaravəlli" (Anar. 1975), "Danışan qayalar" (Tofiq Mütəllibov. 1976), "Məşədi İbad" (Üzeyir bəy Hacıbəyovun əsəri əsasında. 1977), "Hara qaçırsan, dayça?" (Rada Moskova. 1978), "Cunquş" (Xanımana Əlibəyli. 1979), "Hamam hamam içində" (Rəhman Əlizadə. 1980), "Ac qulağım, dinc qulağım" (Firuz Məmmədov. 1981), "Məlik Məmməd" (Eldar Baxışm işləməsi. 1982), "Yumaq top" (Fikrət Sadıq. 1983), "Basat və Təpəgöz" (Eldəniz Quliyev və Azər Əbilov. 1984), "Sehrli güzgü" (Şahmar Hüseynov. 1984), "Gözəllər gözəli" (Xanımana Əlibəyli. 1985), "Ları Xoruz" (Əli Səmədli. 1989), "Müsyö Jordan və dərviş Məstəli şah" (Mirzə Fətəli Axundzadə. 1990), "Bakı həyətinin rekviyemi" (Namiq Ağayev. 1991), "Bilqamıs əfsanəsi" (Rəhman Əlizadə. 1992), "Keçəlin toyu" (Rəhman Əlizadə. 1993), "Canım Qırat, gözüm Dürat" (Firudin Qurbansoy və Bəhram Basqallı. 1993), "Pırpız Sona" (Rəhman Əlizadə. 1994), "Cubbulunun çərpələngi" (Əli Səmədli. 1995), "Ulamaqdan mələməyə" (Həsənağa Hüseynov), "Ay dəli..." (Rəhman Əlizadə. 1997), "Dəcəl çəpişlər" (Rəhman Əlizadə. 1998), "Ələkbər əmi divin qəsrində" (Aygün Ələddinqızı. 2000), "Hərb və sülh" (Abdulla Şaiqin "Ovçu Məstan" poeması əsasında), "Cik-Cik" (Əli Səmədli.

2001), "Ləpələrin nağılı" (Xanımana Əlibəyli. 2002), "Keçəl pəhləvan" (Fərman Rzayev. 2003), "Qız qalası" (Rəhman Əlizadə. 2004).

Son illər teatrda əsərləri daha çox tamaşaya qoyulan dra-maturq Rəhman Əlizadədir. Teatr əsasən dramaturq-rejissorun öz quruluşlarında onun "Sindbadın xoşbəxtlik ada-sına səyahəti", "Mayınaq", "Əzrayıl", "Eramızdan milyon il əvvəl", "Damdabaca", "Ələkbər əmi Gülüş planetində" və sairə əsərlərinin tamaşalarını da oynayıb.

Mövzu rəngarəngliyinə, uşaqların maraq dairələrinin genişlənMəsmə can atan teatr tərcümə əsərlərinə öz repertuarın-da xüsusi yer ayırıb. İngilis yazıçısı, Nobel mükafatı laureatı kiplinqin "Riki-Tiki-Tavi", Danimarka yazıçısı Hans Xristian Andersenin "Bülbül", "O1oye Lukoye və yaxud sehrli çətirlər", fransız yazıçısı Şarl Perronun "Göy saqqal", alman ya-zıçısı Bertolt Brextin "Kuraj ana", rus klassikləri Aleksandr Puşkinin "Qızıl xoruz" Mixail Lermontovun "Aşıq Qərib", macar mütəfəkkirləri Zoltan kodayın "Xari Yanoş", Edi Tarbainin "Qarınqulu zürafə", yuqoslav Vaymil Rabadanın "Zəncirlənmiş Pəri", norveç Eyvind Şayyenin "Od oğlan" əsərləri müxtəlif illərdə Dövlət Kukla Teatrında tamaşaya qoyulub.

Teatrda müxtəlif fasilələrlə 1936-cı ildən rus bölməsi də fəaliyyət göstərir. Dövlət Kukla Teatrında müxtəlif illərdə Mollağa Bəbirli, Nadir Zamanov, Əfrasiyab Məmmədov, Tamilla Məhərrəmova, Eyvaz Vəliyev, Namiq Ağayev baş rejissor işləmişlər. Bu Kürsünü 1993-cü ildən dramaturq-rejissor Rəhman Əlizadə tutur.

İstedadlı fırça ustaları Solmaz Musayeva, Faiq Əhmədov, Solmaz Haqverdiyeva teatrda baş rəssam işləyiblər. Hazırda həmin vəzifədə Lətifə Quluzadə işləyir.

Sənət ocağının 1965-ci ildəki bərpa dövründən sonra Dövlət Kukla Teatrının truppasında Azərbaycan Respublikasının əməkdar artistləri Oqtay Dadaşov, Şəfiqə Axundova, Həsənağa Hüseynov, Lyubov Adamova, aktyorlardan Şahmar Hüseynov, Ruslan Həsənov, Xədicə Səidova kimi təcrübəli sə-nətkarlar çalışmışlar. Truppada hazırda tanınmış aktyorlar Mansur Mansurov, Tamilla Bünyadova, Rəhilə İbadova, Elmi-ra Hüseynova, Əlibala Ələsgərov, Rəhman Rəhmanov, Sona Rəhimova, Ələkbər Hüseynov ilə yanaşı, istedadlı gənclər də işləyiblər və əksəriyyəti indi də kollektivdə çalışır.

Azərbaycan Dövlət Kukla Teatrı Moskvada (1937, 1977 və 1995), Yəmən Ərəb Respublikasında (1973), Özbəkistan Respublikasında (1979), Hindistanda (1980), İrəvanda (1982), Tiflisdə (1984), Arxangelskdə (1988), Türkmənistan Respub-likasında (1989), İran İslam Respublikasında (1990 və 1992), Türkiyənin Ankara (1991) və İstanbul (1998) şəhərlərində qastrollarda olub, beynəlxalq festivallarda, müxtəlif sənət bayramlarında iştirak edib.

Kukla teatrı özünün fəaliyyəti dövründə "mil", "Əlcək" ("qolçaq"), "döşəmə" (hündür), marionet Kuklalarla yanaşı, aktyor-Kukla formalarında da tamaşalar hazırlayıb. Müəyyən tamaşalarda milli xalq oyunlarında işlənmiş Kuklalarla bərabər maskalardan, maska-gəlinciklərdən, maska-bəbəklərdən istifadə edilir. İllər boyu teatrda müəyyən ifaçılıq üslubu formalaşıb. Həmin üslub bütövlükdə milli kilimarası oyunlarının əlvanlığını, Qərb Kukla estetikasının səciyyəvi prinsiplərini özündə təcəssüm etdirməklə orijinal yaradıcılıq yolunu müəyyənləşdirib.

Milli, Şərq və Qərb xalqları Kukla oyun-tamaşalarının və teatrlarının nailiyyətlərindən bəhrələnən kollektiv forma axtarışlarında müəyyən ölçü "sədlərini" cəsarətlə sındırıb. Hə-min cəhdlərin nəticəsində epik, lirik, poetik, nağıl, dastan... Kimi mürəkkəb janrlarda, karnaval, məsxərə, buffonada estetikalarında maraqlı tamaşalar oynanılıb. Bu baxımdan kollektivdə əvvəllər də quruluşlar verən, 1993-cü ildən Dövlət Kukla Teatrına baş rejissorluq edən Rəhman Əlizadə musiqili macəra-məzhəkə ("Sindbadm xoşbəxtlik adasma səyahəti"), dastan tamaşa ("Bilqamıs"), tragifars ("Pırpız Sona"), lirik və müasir nağıl ("Damdabaca"), musiqili him-cim ("Eramızdan milyon il əvvəl"), nağıl-qrotesk ("Qızıl Xoruz"), musiqili şou ("Ələkbər əmi gülüş planetində") janrlarında orijinal tamaşalar hazırlayıb.

Azərbaycan Dövlət Kukla Teatrı illər boyu formalaşdırdığı poetika göstəricilərini zənginləşdirmək, aktyorların yaradıcılıq əlvanlığını canlandırmaq üçün daha məzmunlu repertuar uğrunda inamlı axtarışlar aparır.

## KOLXOZ VƏ SOVXOZ TEATRI

Keçmiş SSRİ-də kollektivləşmə siyasəti başlayanda dövlət özünün ideologiyasını gücləndirmək və eyni zamanda rayon mərkəzlərində, kolxozlarda və sovxozlarda mədəni xidmətin səviyyəsini artırmaq üçün müəyyən tədbirlər planı hazırladı. Bunlardan biri də Dövlət Səyyar Kolxoz və Sovxoz Teatrı yaratmaq barədə Xalq komissarları Sovetinin qərarı oldu. Bu teatr Bakıda 1934-cü ilin əvvəllərində yarandı və onun xüsusi nizamnaməsi təsdiqləndi.

Teatrın iş prinsipi belə idi ki, aprel və may aylarında truppa yığılır, əsasən birpərdəli təbliğati pyeslərdən, kollektivləşməni təbliğ edən dramlardan, sosializm quruluşuna mane olan ünsürləri tənqid edən komediyalardan ibarət repertuar təsdiqlənirdi. Müxtəlif dram dərnəklərindən, Akademik teatrın, Gənc Tamaşaçılar Teatrının yardım heyətindən ibarət tərtib olunan truppa tamaşaları hazırlayır və iyun ayında Azərbaycanın rayonlarına səfərlərə çıxırdı.

Bu teatra ilk rejissor rəhbərliyini Moskvada təhsil almış və Akademik teatrda işləyən Ələsgər Şərifov edib. Teatr sentyabrın axırlarında və noyabrın əvvəllərində xüsusi əmrlə ləğv edilir və növbəti ilin yaz aylarında yenidən təşkil olunurdu. Hər dəfə də direktorun təyin olunması barədə əmr verilir və sonra, o, truppa heyətinin üzvlərini müqavilə ilə işə qəbul edirdi.

Səyyar Kolxoz və Sovxoz Teatrında direktor Ağası Zeynalov idi və rejissorluğu Ələsgər Şərifov, Cəlal Rəcəbov, Səttar Sadıqzadə edirdilər. Kollektivin aparıcı aktyorları Sənan Ağabəyov, İsmayıl Quliyev, Məmməd Tağızadə, Əzizağa Məmmədov idilər. Teatrın repertuarında Ağasəlim Manaflının "Azad və Günəş", "Din", "Leyla", "Sayıqlıq" (Aslan Tahirovla birgə), "Bilərəkdən ZƏVZəkük", Dadaş Məmmədovun "Ecazkar heyvanlar" 1 və ya 2 pərdəli pyesləri əsas yer tuturdu. Əsərlərdə iştirakçılar az olurdular. Hətta "Leyla"nın ikicə personajı və çox sadə süjeti vardı.

Teatr 1936-cı il mövsümündən başlayaraq irihəcmli dramlar da hazırlamağa başladı. 1938-ci ildə kollektivin səy-yar repertuarında Cəfər Cabbarlının "Almaz", "Sevil", "1905-ci ildə" dramlarının, Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "Məşədi İbad" komediyalarının, Mirzə İbrahimo-vun "Həyat", Valentin katayevin "Dövlətli gəlin" pyeslərinin tamaşaları da vardı. Dövlət statusu olan teatr dəstəsi müxtəlif kompozisiyalı konsert proqramları da hazırlayırdı və bu, repertuar planına daxil edilir, tamaşa kimi göstərilirdi. Konsert proqramına müxtəlif tamaşalardan yumorlu səhnələr, satirik intermediyalar, məzəli səhnəciklər əlavə olunurdu. Teatrın tamaşaları əsasən tarlalarda, əkin sahələrində, taxıl xırmanlarında, axşamlar kəndin ortasında qurulmuş müvəqqəti səhnədə, açıq havada göstərilirdi. Rayon mərkəzlərində çıxış-lar klublarda olurdu.

Dövlət Səyyar Kolxoz və Sovxoz Teatrının müstəqil şəkildə rus truppası da fəaliyyət göstərirdi. 1938-ci il avqustun birində Xalq komissarları Sovetinin qərarı ilə rus teatrı ləğv olundu və kollektiv Gəncəyə köçürüldü. Onlar xeyli müddət Gəncə Dövlət Dram Teatrının rus bölməsi kimi çalışdılar. Azərbaycan Xalq komissarları Sovetinin 5 avqust 1939-cu il tarixli, 3649 saylı qərarı ilə Bakıdakı Səyyar kolxoz və Sov-xoz Teatrı Şəmkir rayonuna köçürüldü. Şəhərdəki kilsə təmir olunub və müəyyən inşaat əlavələri edilərək, oktyabr ayında bina kimi teatrın sərəncamına verildi.

Şəmkirə köçəndə teatrın üç rejissoru, iyirmi üç aktyoru və dörd musiqiçisi vardı. Musiqiçilər əsasən konsertlərdə çalışırdılar. Repertuardakı operettalar ancaq komediya kimi oynanılırdı, nadir hallarda bəzi vacib ariyalar və kupletlər musiqi ilə ifa olunurdu. Teatrın baş rejissoru Yusif Yulduz, sıravi rejissoru isə İsmayıl Hüseynov idi.

Dövlət Səyyar Kolxoz və Sovxoz Teatrının Şəmkirə köçürülməsinin kökündə o dururdu ki, ayrı-ayrı bölgələrin özündə bu tipli teatrlar açılsın. 1933-cü ildən Gəncədə İşçi Dövlət Dram Teatrı, 1933-1936-cı ildən (kiçik fasilələrlə) Şəkidə Dövlət Dram Teatrı fəaliyyət göstərirdi. 1937-1938-ci

illərdə Qaryagində (İndiki Füzuli rayonu), Ağdamda, Şamaxıda, Şuşada, Lənkəranda, Qazaxda, Qubada, Ağdaşda təxminən eyni ştatda Dövlət Kolxoz və Sovxoz Teatrı yaradıldı. Teatrların truppaları yerli həvəskarlardan, Bakı Teatr Məktəbinin (Texnikumunun) məzunlarından və Bakı aktyorlarının müəyyən qüvvələrindən təşkil olunurdu.

kollektivlər əlverişsiz binalarda yerləşirdilər, tamaşaçı salonları çox kiçik idi, səhnənin texniki inikanları yox dərəcəsindəydi. Səhnə tərtibatlarının əksəriyyətini teatr səriştəsi olmayan yerli həvəskarlar verirdilər. Bakının teatrlarının şöhrətli sənətkarları vaxtaşırı rayonlara ezam edilir və onlar orada kollektivə yaradıcılıq yardımı göstərir, hətta onların repertuardakı tamaşalarında iştirak edirdilər.

1939-cu ildə Kolxoz və Sovxoz Teatrlarına respublika baxışı keçirildi. Onlarca tamaşa göstərildi və qaliblər müəyyənləşdirilib Bakıya dəvət aldılar. Baxışm yekunu Milli Dram Teatrının binasında oldu. Burada Şamaxı teatrı İsmayıl Hü-seynovun quruluşunda Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad" (27 iyun), Mirzə İbrahimovun "Həyat" (28 iyun), Qaryagin teatrı Cəmil Vəzirovun rejissorluğunda Məhərrəm Əlizadənin "İftira" (29 iyun) və Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" (1 iyul. Rejissor Mürşüd Haşımlı) əsərlərinin tamaşalarını göstərdilər.

Teatr sənətində göstərdikləri xidmətlərə görə əyalət (rayon) teatrlarından Qaplan Muradov və Heydər Şəmsizadə (Ağdam), İsa Musayev (Quba), Cəlil Bağdadbəyov və Əziz Məmmədov (Şuşa), Kamal Nəcəfov və Qəni Vəliyev (Lənkəran), Əliheydər Həsənzadə (Qazax), İbrahim Qaradağlı (Ağdaş), Cəmil Cəfərov (Qaryagin) 1943-cü il, iyunun 17-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görüldülər.

1943-cü ilin payız mövsümünün açılması ərəfəsində hökumətin qərarı ilə bütün rayonlarda Kolxoz və Sovxoz Teatrı ləğv olundu və onların bazasında Dövlət Dram Teatrı yaradıldı. Bir müddət sonra Şuşa teatrı "Dövlət Musiqili Dram Teatrı" adlandı və ona Üzeyir bəy Hacıbəyovun adı verildi. Qaryagin teatrı Hüseynqulu Sarabskinin, Şəmkir teatrı Mirzağa Əliyevin, Qazax teatrı Səməd Vurğunun, Ağdam teatrı Əbdürrəhim bəy Haqverdiyevin, Quba teatrı Abbasqulu ağa Bakıxanovun, Şamaxı teatrı Seyid Əzim Şirvaninin, Ağdaş teatrı Nəcəf bəy Vəzirovun adlarını daşıdı.

Artıq teatrlarda əsasən səriştəli baş rejissorlar çalışırdılar. Xüsusi təhsil almış Yusif Yulduz, Məcid Zeynalov, Ağəli Dadaşov, Əsəd Cəfərov və başqaları teatrlarda ya baş rejissor işləyir, ya da dəvətlə teatrlarda müxtəlif janrlı tamaşalara qu-ruluşlar verirdilər. Bakı Teatr Məktəbi məzunlarının hesabına ilbəil peşəkar aktyorların sayı da artırdı. Hətta 1942-ci ildə Bakıda iki aylıq aktyorluq kursu açılmışdı və məvacib almaqla yerlərdən gələn həvəskarlar burada müəyyən təcrübə keçirdilər.

Respublikada teatr prosesinin canlanınası, əhalinin maariflənməsində göstərdiyi xidmətlər nəzərə almaraq, 1944-cü ildə Bərdə, Salyan, Sabirabad, Zaqatala, Ordubad və 1946-cı ildə Göyçay rayon mərkəzlərində Dövlət Dram Teatrı təşkil olundu. Müxtəlif təcrübəli teatrların yardımı ilə tezliklə gənc kollektivlər özlərinin repertuarlarını qurub formalaşdırdılar.

Adları çəküən teatrların fəaliyyət göstərdikləri dövrlərdə respublikada mədəniyyət nazirliyi yox idi. Teatrlar Xalq Maarif komissarlığı nəzdindəki İncəsənət İşləri İdarəsinə tabe idi. İnzibati tabeçilikdən əlavə, idarə bütün teatrların repertuar təşkilini də mərkəzləşdirmişdi. Əsasən Bakı teatrlarında oynanılan orijinal və tərcümə əsərlərinin nüsxələri çoxaldılır, siyahısı tərtib olunur və ildə iki dəfə rayon teatrlarına göndərilirdi. Bəzən əsərləri Bakıda oynanılmayan və yaradıcılıqlarının ideoloji yönümü aydın olan Rza Şahvələdin "Qız qalası", Həsən Qasımovun "Kür sahilində", Ağasəlim Manaf-lının "Yasəmən", Əzizağa Məmmədovun "İki cəbhə", Səttar Axundovun "Bayram günü", "Çətin dərə", Rza Təhmasibin təbdil etdiyi "Fəlsəfə Kərim", Qurban Musayevin "Hücum" və bu səpkili pyesləri də teatrlarda oynanılırdı.

Teatrlar hazırladıqları tamaşalara ictimai baxış keçirirdilər və Bakıdan göndərilən xüsusi komissiya əsərə baxıb qəbul aktı yazırdı. Bu akt əsasında tamaşanın oynanılmasma icazə verilirdi. İldə iki dəfə Bakıya hesabat yazılırdı. Həmin hesabatlarda hazırlanan təzə əsərlər və bərpa edilən tamaşalar, onlara çəkilən xərclərin mənbəyi, pul məsrəfinin prosesi göstərilirdi.

Bütün bunlara görə, hazırlanmasında müəyyən il fərqləri olsa da, teatrların hamısının repertuarında, demək olar, eyni əsərlər əsas yer tuturdu. Repertuar üç prinsip üzrə qurulurdu: milli klassik və çağdaş dramaturqların əsərləri, tərcümə pyesləri, opera və operettalar. Müəyyən istisnalar edilməklə, bütün teatrların repertuarında aşağıdakı əsərlər oynanılıb.

Milli dramaturqlardan Mirzə Fətəli Axundzadənin "Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah", Nəcəf bəy Vəzi-rovun "Hacı Qəmbər", "Müsibəti-Fəxrəddin", "Ağa Kərim xan Ərdəbili", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", "Bəxtsiz cavan", "Dağılan tifaq", Süleyman Sani Axundovun "Tamahkar", "Eşq və intiqam", Cəfər Cabbarlının "Sevil", "A1maz", "Aydın", "Oqtay Eloğlu", "Od gəlini", "1905-ci ildə", Cəlil Məmmədquluzadənin "Ölülər", Sabit Rəhmanın "Toy", "Xoşbəxtlər", Abdulla Şaiqin "Vətən", Süleyman Rüstəmin "Qaçaq Nəbi", "Çimnaz xanım yuxudadır", Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", Zeynal Xəlilin "Qatır Məmməd", Mirzə İbrahimovun "Həyat", "Məhəbbət", Mehdi Hüseynin "Nizami", "Şöhrət", "İntizar" (İlyas Əfəndiyevlə müştərək), Məmmədhüseyn Təhmasibin "Bahar", "Aslan yatağı", Əyyub Abbasovun "Məük Məmməd", "Barışıq", Əbil Yusifovun "Od içində" əsərləri teatrlarda təkrar-təkrar oynanılıb.

Opera və operettalardan daha çox Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", "Məşədi İbad", "Ər və arvad", Müslüm bəy Maqomayevin "Şah İsmayıl", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", "Evliykən subay", "Əlli yaşında cavan", Səid Rüstəmovun "Durna" (dramaturq Süleyman Rüstəm), "Beş manatlıq gəlin" (dramaturq Məhərrəm Əlizadə) əsərləri repertuarın əsasını təşkil edib.

Tərcümə əsərlərindən müntəzəm göstəriləni Aleksandr Şirvanzadənin "Namus", Georgi Mdivaninin "Vətən namusu", Konstantin Simonovun "Praqanın şabalıd ağacları altında", Jan Batist Molyerin "Cancur Səməd", Vilyam Şekspirin "Otello", Ceyms Qou və Arno D'Nyussonun "Dərin köklər", Vsevolod Rokkun "Mühəndis Sergeyev" dramlarının tamaşaları olub.

Teatrlar opera və operettaları əsasən tar, balaban və ka-manın müşayiətilə göstərirdilər. Vokal imkanları baxımından Şuşa, Ağdam və Qaryagin teatrlarının daha güclü aktyorları vardı. Ağdamda Simuzər Hətəmova (Əmirova), Qaflan Muradov, Qaryagində Ağabala Abdullayev, Şuşada Suğra Bağırova, Ənvər Məmmədov, Salyanda Pənah Pənahov (Aşıq Pənah) ki-mi aktyor-xanəndələr vardı. Yerlərdə Heydər Şəmsizadə, Cəlil Bağdadbəyov, Cəmil Vəzirov, İbrahim İsfahanlı (o, Tiflisdən Zaqatalaya gəlmişdi), Cahangir Məmmədov (Aslanoğlu), İsa Musayev, Ağası Zeynalov, Mikayıl Ağayev, Süleyman Səlim-bəyov, Mürşüd Haşımlı kimi bacarıqlı rejissorlar işləmişlər.

O dövrdə belə bir ənənə vardı ki, bütün teatrlar dəvətlə rejissorlar çağırır və onların quruluş verdikləri tamaşaları oynayırdılar. Milli Dram Teatrının şöhrətli aktrisa və aktyorları Şirin, Vaqif, Nizami, Kərəmov, Oqtay və digər rollarda rayon teatrlarının tamaşalarında çıxış edirdilər.

1948-ci ilin axırlarında SSRİ hökuməti belə bir qərar çıxartdı ki, bütün dövlət teatrları hökumətin dotasiyasından azad olunsun və özünü maliyyələşdirmə sisteminə keçsinlər. Mövcud maddi-texniki təchizatla bağlı olaraq Azərbaycan İncəsənət İşləri İdarəsmin müdiri Ayna Sultanova əmr verdi ki, yeni ildən Ordubad teatrı Naxçıvanla, Ağdaş və Şamaxı teatrları Göyçayla, Şuşa teatrı Ağdamla, Zaqatala teatrı Şəki ilə, Salyan teatrı Sabirabad ilə, Şənikir teatrı Qazaxla birləşdirilsin. Bu, o məqsədlə edildi ki, bəlkə teatrlar birləşib güclü heyətdə özlərini yaşada bildilər. Ancaq bunun səmərəsi olmadı, çünki teatrların tamaşalardan əldə etdikləri qazanc heç aktyorların aylıq maaşlarına çatınırdı. Buna görə də bir-birinin ardınca Şuşa, Şamaxı, Ağdam, Qazax, Zaqatala, Göyçay, Ağ-daş, Lənkəran, Bərdə, Ordubad, Salyan, Sabirabad teatrları 1948-1949-cu illərdə bağlandılar. Qaryagin teatrı öz fəaliyyətini 1951 - 1952-ci il teatr mövsümündə, Quba teatrı isə qısa fasilələrlə 1963-cü ildə saxlamalı oldu.

Uzun fasilədən sonra 1967-ci ildə İrəvan, 1968-ci ildə Ağdam, 1973-cü ildə Lənkəran, 1974-cü ildə Şəki, 1989-cu il-də Füzuli, daha sonra isə Qazax və Şuşa teatrları yenidən dövlət statusunda bərpa olunub fəaliyyətə başladılar.

Kolxoz və Sovxoz Teatrı, onların əsasında yaradılan Dövlət Dram Teatrı adları çəkilən şəhərlərdə və bütövlükdə Azərbaycan mədəniyyətində teatr sənətinin inkişafı, yüz min-lərlə teatrsevərin estetik zövqlərinin formalaşması yönündə səmərəli işlər görmüşlər.

## AKTYOR MƏKTƏBLƏRİ

Azərbaycan milli peşəkar teatrının janr və üslub nai-liyyətləri zəngin, əlvan və estetik baxımdan çoxqatlıdır. Teatr tariximiz aktyor yaradıcılığının müxtəlifliyinə,
fəlsəfi-estetik tutumlarına, bədii-psixoloji səciyyələrinə görə fərqlənir. Ayrı-ayrı fərdi yaradıcılıq üslublarının öz poetika göstəriciləri formalaşıb və bu proses çağdaş dövrdə də davam etməkdədir.

Bununla belə, Azərbaycan teatrının inkişafında üç əsas aktyor məktəbi vardır: realist aktyor məktəbi, romantik aktyor məktəbi və lirik-psixoloji üslublu aktyor məktəbi. Bu məktəblərin hər birinin ayrılıqda öz estetik prinsipləri və öz poetika səciyyələri vardır.

## REALİST AKTYOR MƏKTƏBİ

Milli teatrımızın ilk peşəkar aktyorlarından biri 1886-cı ildə səhnəyə gəlmiş, az müddətdə aktyorluğun sirlərinə yiyələnib kamil sənətkar kimi sevilmiş, nüfuz qazanmış Kərbəlayi Cahangir Zeynalovdur. O, tacir olsa da, fitrətən aktyor idi. Onun zəngin yaradıcılığı, özünün formalaşdırdığı oyun üslubu milli realist aktyor məktəbinin bünövrəsini qoyub. Sənətkar bu məktəbin poetika göstəricilərini inkişaf etdirmiş və məhəbbətlə öz yetirmələrinin timsalında yeni nəslə ötürmüşdür.

Cahangir Zeynalovun yaratdığı üslub köklü, əsaslı olduğuna görə fərdi ölçüləri sındırmış, müstəqil məktəb qüdrəti kəsb etmişdir. Həmin məktəb realist aktyor məktəbi adlanır və uzun yaradıcılıq yolu keçərək bu günə qədər öz mövcudluğunu saxlamaqdadır.

Realist aktyor məktəbinin Cahangir Zeynalovdan sonra ən layiqli davamçısı və ən görkəmli nümayəndəsi Mirzağa Əliyev olmuşdur. 1901-ci ildə Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" tamaşasında səhnəyə çıxan, ömrünün sonuna qədər MDT-də işləyən Mirzağa Əliyev mənsub olduğu məktəbə xalq yumorunun ləzzətini, milli el oyunlarının təbii koloriti-ni, satiranın poetik təcəssümünü gətirib. Mirzağa Əliyevin yaradıcılığını estetik mahiyyətinə və məzmun-forma xüsusiyyətlərinə görə dörd qismə ayırmaq olar:

milli komediyalarımızdakı obrazlar;

dram və faciə əsərlərindəki surətlər;

dünya klassik satira nümunələrindəki xarakterlər;

1921-ci ildə Tənqid və Təbliğ Teatrı yaradılandan sonra operetta tamaşalarında ifa etdiyi tipik personajlar.

Milli Dram Teatrının səhnəsində realist aktyor məktəbinin görkəmli nümayəndələri Ələkbər Hüseynzadə, Hacıağa Abbasov, Əzizə Məmmədova, Əbülhəsən Anaplı, Mustafa Mərdanov, Rza Təhmasib (o, həm də romantik aktyor sayılır), Ağahüseyn Cavadov, Ağasadıq Gəraybəyli, Məmmədəli Vəlixanlı, Möhsün Sənani, İsmayıl Osmanlı, Əliağa Ağayev, Barat Şəkinskaya (onun yaradıcılığı həm də romantik aktyor məktəbinə daxildir) olmuşlar. Tiflis DAT-də Mirzəli Abbasov, Muqu Zamanov, İrəvan DAT-də Yunis Nuri, Naxçıvan Dövlət Dram Teatrının aktyorları Mirhəsən Mirişli, Səməd Mövləvi, Gənc Tamaşaçılar Teatrında Hüseynağa Sadıqov, Süleyman Ələsgərov, Osman Hacıbəyov, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Münəvvər Kələntərli, Əlihüseyn Qafarlı, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Bəşir Səfəroğlu, Gəncə Dövlət Dram Teatrında Məmməd Bürcəliyev, Zülfüqar Baratzadə realist aktyor məktəbinin şöhrətli nümayəndələrindən olmuşlar. Hazırda bu məktəbin Səyavuş Aslan, Hacıbaba Bağırov, Yaşar Nuriyev, Afaq Bəşirqızı kimi layiqli davamçıları var.

Realist aktyor məktəbi birdən-birə çağdaş səviyyəsinə çatmamış, özünün əsrdən uzun müddəti əhatə edən inkişaf yolunda bir neçə mərhələni keçmişdir. Hər mərhələdə də yeni-yeni poetika göstəriciləri, estetik prinsipləri, formalaşdırdığı ifadə vasitələri, əxz etdiyi ümumbəşəri dəyərləri ilə zənginləşmiş və milli teatrımızın əsas qollarından birinə çevrilmişdir. Təşəkkül tapdığı illərdən 1920-ci ilə qədər realist oyun üslubunda müəyyən bəsitlik, ifadə vasitələrinin kasadlığı hiss olunurdu. Çünki aktyorların əksəriyyəti savadsız idi, bütövlükdə isə heç kim ixtisas təhsili almamışdı. Səhnəyə çıxanlar fitri istedadlarına güvənir, rolu fəhmlə oynamağa üstünlük verir, mətndəki sözləri suflyor vasitəsilə təkrarlamaqla kifayətlənirdilər. Teatrlar dövlət təsisatında olduğu ilk iyirmi ildə tamaşaları əsasən peşəkar rejissorlar hazırlayırdılar və onların fərdi yaradıcılıq prinsiplərindən əlavə, ümumi məqsədə xidmət edən sənət tələbləri də ciddi şəkildə aktyor truppası tərəfindən qorunmağa başlanmış-dı. Milli Dram Teatrında Ədil İsgəndərovun, GTT-də Məhərrəm Haşımovun, Zəfər Nemətovun, Gəncə DDT-də Mehdi Məmmədovun, Həsən Ağayevin, Naxçıvan teatrında Mir İbrahim Həmzəyevin, Tiflis və İrəvan teatrlarında İbrahim İsfahanlı ilə Əli Şahsabahhnın rejissor dəst-xəttləri 1930-1950-ci illərdə realist aktyor məktəbinin ifadə cəbbəxanasını zənginləşdirib.

1960-cı illərdən başlayaraq bu məktəbin nəzəri-estetik mahiyyəti dərinləşdi, poetika xüsusiyyətləri şaxəli və zəngin oldu. Tam təkmilləşən məktəb dünya səhnə sənətinin qabaqcıl nailiyyətləri ilə rəqabət apara biləcək qüdrətə yiyələndi.

Psixologizın, cazibəli emosionallıq, gülüş kateqoriyasının estetik mahiyyəti realist məktəbinin nümayəndələri olan aktyorların yaradıcılıqlarının ayrılmaz tərkib hissəsi kimi formalaşdı.

Çağdaş zamanda sənətə gələn ən yeni gənc rejissorlar hər teatrın öz yaradıcılıq konsepsiyasma uyğun tərzdə, öz fərdi üs-lublarını saxlamaq və ənənənin məğzinə xələl gətirməmək şərtilə, realist aktyor məktəbinin estetik simasını təzələyir, parlaqlaşdırır, zənginləşdirir və forma özəlliklərini cilalayırlar.

Realist aktyor məktəbinin kökündə reallıq, təbiilik, həyati sadəlik durur.

Bu məktəb milli xalq oyunlarımızdan qaravəlli, güdul, şəbədə, məsxərə, qodu-qodu... tamaşalarının estetik özəlliklərini mənimsəməklə, digər meydan göstərmələrinin ifadə vasitələrindən, janr zənginliyindən bəhrələnməklə yeni-yeni poetika göstəricilərinə yiyələnə bilər.

## ROMANTİK AKTYOR MƏKTƏBİ

1896-cı ildə Nəcəf bəy Vəzirov "Müsibəti-Fəxrəddin", 1899-cu ildə Nəriman Nərimanov "Nadir şah", 1896-cı ildə Əbdürrəhim bəy Haqverdiyev "Dağılan tifaq", 1900-cü ildə "Bəxtsiz cavan", 1907-ci ildə "Ağa Məhəmməd şah Qacar", 1901-ci ildə "Pəri cadu" faciələrini yazdılar. Milli dramaturgiyamızda olduğu kimi, teatrımızda da janr əlvanlığına meydan açıldı və tədricən bu səpkili əsərlərin tamaşaya qoyulması üstünlük təşkil etməyə başladı. Bununla paralel olaraq, tərcüməyə meyl göstərən ziyalılarımız ilk növbədə Osmanlı ədəbiyyatından, Avropa dramaturgiyasından romantik dram faciələrini Azərbaycan dilinə çevirməyə başladılar.

XX əsrin birinci onilliyinin sonlarında Bakıda, Tiflisdə, İrəvanda və hətta az-az tamaşalar göstərilən Şuşada və Gəncədə də romantik səpkili pyeslər repertuarda möhkəmlənməyə başladı. Həmin tamaşalarda oynayan aktyorlara "traglk" deyilirdi. 1906-cı ildən başlayaraq milli teatrımız mövcud olan bü-tün ərazilərdə Hüseyn Ərəblinski birinci "traglk" sayılırdı. Düzdür, Hüseyn Ərəblinskidən əvvəl səhnəyə çıxmış və ondan qabaq faciə rollarını oynamış Mirzə Muxtar Məmmədov, Əbülfət Vəli, Məhəmməd bəy Əlvəndi, Mirzəxan Quliyev kimi tanınmış aktyorlar var idi. Ancaq məsələ burasındadır ki, bütün xidmətlərinə baxmayaraq, onların heç birisi romantik aktyor məktəbinin banisi səviyyəsinə yüksələ bilməmişlər və bütün Qafqazda, Volqa (İdil və ya İtil) çayı boyunda, Hacıtərxanda Hüseyn Ərəblinski qədər şöhrətlənib sevilməmişlər. Məhz Hüseyn

Ərəblinskinin Tiflisdə, İrəvanda, Hacıtərxanda, Batumda, Aşqabadda, krasnovodskda, Vladiqafqazda, Dərbənddə, Məkərədə (Nijni Novqorodda), Temirxanşurada göstərdiyi qastrol tamaşalarının yüksək bədii-estetik təsiri sayəsində yüzlərlə gənc ömürlərini əbədi olaraq səhnə sənətinə bağlamışlar.

Hüseyn Ərəblinski "Müsəlman dram artistləri şirkəti"ndə, "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin truppalarında, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" dəstəsində rejissorluq və aktyorluq etmişdir. Xarakterik və komik obrazlara da səhnə həyatı vermiş Hüseyn Ərəblinskinin yaradıcılığının cövhəri romantik rolların ifası ilə bağlıdır.

Romantik aktyor məktəbinin görkəmli simalarından biri Sidqi Ruhulladır (28.3.1886 - 5.5.1959). Ruhulla Fətulla oğlu Axundov (Sidqi Ruhulla) Volqa çayı boyunda, İranın, Orta Asiyanın əksər şəhərlərdə teatr sənətinin bünövrəsmi qoyub. İyirminci illərə qədər müxtəlif teatr dəstələrində, həmçinin Özünün təşkil etdiyi truppada aktyorluq və rejissorluq edən Sidqi Ruhulla 1920-ci ildən ömrünün son gününə qədər Milli Dram Teatrında çalışmışdır. Üç yüzdən çox komediya, vodevil, dram, opera, operetta rolları oynayan Sidqi Ruhullanın yaradıcılığının əsas ruhunu romantik faciə rolları təşkil edir.

Abbasmirzə Rəsul oğlu Şərifzadə (9.3.1891-16.11.1938) romantik aktyor məktəbinin ən layiqli davamçılarından sayılır. O, Azərbaycanda fəaliyyət göstərən məşhur truppalarda həm aktyor, həm də rejissor olmuş, bir müddət Milli Dram Teatrının baş rejissoru işləmişdir. Ancaq o, Elxan, Aydın, Oqtay, İblis, Knyaz, Şeyx Sənan, Səyavuş, Otello, Hamlet, Maqbet obrazlarının ifası ilə məhz romantik aktyor kimi teatr tariximizin ən parlaq səhifələrini yazmışdır.

Romantik aktyor məktəbinin MDT-də kazırn Ziya, Rza Əfqanlı, Mərziyə Davudova, Ülvi Rəcəb, Fatma Qədri, Sona Hacıyeva, Əjdər Sultanov, Ağadadaş Qurbanov, Hökümə Qurbanova, Məmmədrza Şeyxzamanov, Leyla Bədirbəyli, Həsənağa Salayev, Gəncədə Əşrəf Yusifzadə, Rəmziyyə Veysəlova, Tiflisdə İbrahim İsfahanlı, Naxçıvanda Zəroş Həmzəyeva, Roza Əlixanova, Mir İbrahim Həmzəyev, GTT-də Yusif Vəliyev, Firəngiz Şərifova kimi sənətkarlar olmuşlar.

Bu məktəbin başlıca estetik göstəriciləri, poetika əlamətləri olan xüsusiyyətləri var ki, illər boyu onlar cilalanır, dövrün ruhuna uyğunlaşır və yeni-yeni məziyyətlərlə zənginləşir.

Romantik aktyor üçün ən səciyyəvi xüsusiyyət pafoslu səs, bəlağətli danışıq tərzi, hisslərin qabarıq və çılpaq verilməsi sayılıb.

Romantik aktyor ehtiraslar toqquşmasını, hisslərin coşqunluğunu zahiri ifadə vasitələri ilə qabarıq, parlaq və sirayətedici şəkildə canlandırır.

Romantik aktyor məhəbbət duyğularının poetikiiyini gurultulu səslə, dramatizmə əsaslanan qaynar lirizmlə, daxili duyğuları hərəkət gərginliyində təcəssüm etdirməklə romantizmə monumentallıq, genişlik gətirir.

Romantik aktyor rolu daxildən qızdırmağa, miqyaslı mizanlara, qabarıq sifət ifadələrini sözün ekvivalentinə çevirməyə, tragizının mahiyyətini səslə və iti, aydın nəzərə çarpan hərəkətlərlə tamaşaçıya çatdırmağa üstünlük verir.

Romantik aktyor monumental səpkili tamaşada oynayırsa, onun ifa etdiyi qəhrəmanın daxili ehtiraslarının siqləti, danışıqlarındakı coşqunluq, hakimanəlik, vüsətli temperament, sözlərin gurultulu deyilişi bir istiqamətdə birləşməli, xarakterin tamlığına, canlılığına xidmət göstərməlidir.

Bu gün Azərbaycan teatrında hazırlanan realist üslublu və ya lirik-psixoloji səpkili tamaşalarda da romantizının poetika xüsusiyyətlərindən, emosional lətafətindən istifadə olunur. Bu məktəbi ləyaqətlə təmsil edən aktyorlar da kifayət qədərdir və ənənəni davam etdirirlər.

## LIRİKPSİXOLOJİ ÜSLUBLU AKTYOR MƏKTƏBİ

1964-cü il, noyabr ayının 14-də ilk tamaşası göstərilən "Sən həmişə mənimləsən" pyesinin səhnə həlli ilə dramaturq İlyas Əfəndiyev və rejissor Tofiq Kazımov milli teatrımızda lirik-psixoloji

üslubun əsasını qoyublar. Tədricən Tofiq Kazımov bu üslubun poetika göstəricilərini, ifadə vasitələrinin estetik mahiyyətini zənginləşdirdi, dərinləşdirdi və onu Milli Dram Teatrının aparıcı üslubu kimi reallaşdırdı. O, hətta Mirzə Cəlil Məmmədquluzadənin "Ölülər" traglkomediyasını və Vilyam Şekspirin "Antoni və Kleopatra" faciəsini də lirik-psixoloji üslubda hazırlayıb. Əlbəttə ki, hər iki bədii materialın monumental dəyərini, klassik romantik vüsətini saxlamaq şərtilə.

Tofiq Kazımovun bünövrəsmi qoyduğu yeni məktəb tezilklə milli səhnə sənətimizin aparıcı rejissorlarının yaradıcılığına da sirayət etdi və Akademik teatrda Əşrəf Quliyev, bir qədər sonra Ağakişi Kazımov, İrəvan teatrında Nəsir Sadıqzadə, Naxçıvan teatrında Vəli Babayev, Gəncə teatrında Vaqif Şərifov, GTT-də Zəfər Nemətov, Ulduz Əliyeva-Rəfili həmin üslubda dəyərli tamaşalar hazırlayıblar. Ötən əsrin yetmişinci illərindən rejissorluq fəaliyyətinə başlayan Azər Paşa Nemət, Vaqif Abbasov, Vaqif İbrahimoğlu, Hüseynağa Atakişiyev, Baba Rzayev, Mərahim Fərzəlibəyov, Oruc Qurbanov, Bəhram Osmanov, Əsgər Əsgərov lirik-psixoloji üslubu əsas götürərək, özləri orijinal janr axtarışlarında uğurlar qazanıblar.

1960-cı illərin axırlarında və daha sonraki dövrlərdə açı-lan İrəvan (yenidən bərpa), Sumqayıt, Mingəçevir, Şəki, Lənkəran, Ağdam, Füzuli, Qazax, Dövlət Gənclər teatrlarında da rejissorların məzmun və forma axtarışlarının əsas məğzi lirik-psixoloji üslubdan şirələnmişdir. Tədricən bu üslub "romantik təbiətli", "universal tipli", "fəlsəfi təmayüllü" və bu kimi ye-ni qollara ayrılaraq daha da monumentallaşmış, estetikləşmiş və möhtəşəm məktəb kimi özünün klassik poetika xüsusiyyət-lərinin elmi əsaslarını yaratmışdır. Elə buradaca qayıdıram o fikrə ki, haqqında söhbət gedən üslubun milli teatrımızda ba-nisi və formalaşdıranı rejissor Tofiq Kazımovdur (14.1.1923 -2.8.1980).

Sonralar İlyas Əfəndiyev məişət mövzulu mənəvi-əxlaqi problemli tarixi pyeslərini, sosial və məhəbbət komediyalarını da məhz lirik-psixoloji üslubda yazıb. Bu pyeslər lirik-psixoloji janrda dramaturgiyamızın nailiyyətləri kimi dəyərləndiriliblər. Onların müxtəlif rejissorlar tərəfindən hazırlan-mış tamaşaları teatrda, aktyor oyımunda lirik-psixoloji üslubun təşəkkülünü və formalaşmasını təminatlandırıb, əldə olunmuş nailiyyətlər, estetik yeniliklər, fəlsəfi-psixoloji də-rinliklər, ifadə zənginliyi gətirib.

İlyas Əfəndiyev ənənəsini dramaturgiyada Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Adil Babayev, İslam Səfərli, Şıxəli Qurbanov, Anar, Əkrəm Əylisli, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Altay Məmmədov, Əli Əmirli, Ramiq Muxtar, Kəmalə Ağayeva, Kamal Abdulla, Elçin, Kamal Aslanov və başqaları müxtəlif fərdi üslublarda davam etdirdilər. Lirik-psixoloji üsluba yeni janrlar, mövzu-problemlər, ictimai-sosial konfliktlər, müxtəlif sosial mənşəli xarakterlər gətirdilər. Nəticədə lirik
psixoloji üslubun poetikası müəyyənləşib. Onun bədii-estetik məziyyətlərindən bir neçəsini ayrıca qeyd etmək olar.

Lirik-psixoloji üslub insanın öz daxili konfliktinin dramatizmınınə geniş meydan verir. Şəxsiyyət və zaman, insan və cəmiyyət, vicdan və məslək azadlığı, məhəbbət və sədaqət, əmək və səadət kimi mühüm məsələlərin həllində, habelə gündəlik həyatımızda, məişətimizdə ortaya çıxan kiçik qüsurların islahmda, adamlar arasındakı münasibətlərdə nisbi anlaşılmazlıqların köklərinin üzə çıxarılmasında, bir sözlə, insanlarınmənəvi-əxlaqi tərbiyəsində dramaturgiyanı fəallaşdırır.

Lirik-psixoloji üslub insanları mənən kamilləşdirmək, əxlaqi görüşlərimizin antipodlarına, hər cür sosial bəlalara və mənfiliklərə, mənəvi naqisliklərə qarşı mübarizədə kəskin ifşa gücünə, yüksək potensial səhnə imkanlarına, incə ştrixlərə meydan verən lirizminə, qlobal məsələlər doğuran psixoloji dərinliyinə, təfəkkürləri saflaşdırmasma görə milli dramaturgiyamızın aparıcı üslublarından biri kimi müəyyənləşib. Lirik-psixoloji üslublu pyeslərin müdrik fəlsəfi və estetik qənaətləri olur.

Lirik-psixoloji pyeslərdə obrazların mübarizələrinin və münaqişələrin psixoloji mahiyyətini bədii dərinliklə açmaqda söz dominant rol oynayır. Psixologizının fəlsəfi mahiyyətini, ictimai mənasını açmaq məqsədilə güclü, dərin sözaltı mənadan (ikinci plandan) istifadə edilir. Sırf dram

sənətinin tələbləri baxımından hadisələri kəskinləşdirib, konflikti qabardıb dramatizm yaradan ekstremal situasiyalar əsas götürülür. Lirizmqolunu gücləndirmək üçün isə konflikt "ailə-məişət" mövzusunun kontekstində həll olunur.

Dramaturqun fəal həyat mövqeyi baxımından lirik-psixoloji üslubda yazdığı pyeslərdəki şəxsi, intim konflikt bilavasitə mövcud olan siyasi-iqtisadi, ictimai, mədəni, mənəvi-əxlaqi və sairə problemlərlə üzvi şəkildə bağlıdır. Həmin pyeslərdə fərd, insan ilkin götürüldüyünə görə ictimai-siyasi fona pəncərə şəxsiyyətin mənəvi aləmindən açılır, böyük bəşəri problemlər bu istiqamətdə həll olunur.

## MİLLİ SƏHNƏQRAFİYANIN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Professional teatrımız təşəkkül tapandan sonra milli dramaturgiya və aktyor sənəti daha fəal şəkildə inkişaf etməyə başlamışdır. Onlarla müqayisədə rejissura, musiqi tərtibatı və səhnəqrafiya poetika daxilində müstəqil sənət kimi çox-çox sonra doğulmuş və biri-birindən fərqli səviyyələrdə, ayrı-ayrı vaxtlarda inkişaf edib formalaşmışdır.

Teatrlarımız hələ dövlət statusu almamışdan əvvəl, özünün fəaliyyətinin İlk 3540 ilində bugünkü səhnə tərtibatı anlamından və onun səhnə bədii-estetik təcəssümündən uzaq olmuşdur. Səhnədəki məkanı əsəri tamaşaya hazırlayan həvəs-kar öz zövqünə, ən əsası isə truppanın, yəni əsərdəki iştirakçıların maddi imkanlarına uyğun olaraq qururdu. Təbiidir ki, burada milli səhnəqrafiyamızın poetik göstəricilərindən danışmağa belə dəyməz. Həmin dövrdə kiçikhəcmli tamaşalar əksər hallarda tərtibatsız səhnədə, müəyyən məişət atributları qoyulan məkanda göstərilirdi. Tamaşaçı zövqü də hələ teatrı qavramaqda o səviyyədə idi ki, onu yalnız deyilən söz və "oyun çıxaramn" hərəkətləri maraqlandırırdı.

XX əsrin əvvəllərindən 1920-ci ilə qədər Tiflisdə, İrəvanda və xüsusən Bakıda teatr prosesi fəallaşmağa, peşəkar aktyorların sayı artınağa başladı. Artıq peşəkar titulunu qazanmış və həvəskar aktyorlar "Müsəlman dram artistləri cəmiyyəti", "Nicat", "Səfa", "Həmiyyət", "İbrət", "İttihad" truppalarında, Hacıbəyov qardaşlarının "Müdiriyyət" teatr dəstəsində tamaşalar hazırlayıb oynayırdılar. Klublarda, müxtəlif cəmiyyət yığnaqlarında oynanılan tamaşalarda bir-iki detal bütün tərtibatı əvəz edirdi. Acmacaqlısı isə o idi ki, həmin detallar ən müxtəlif əsərlərdə təkrar-təkrar istifadə edilirdi.

Bakının Tağıyev və Mayılov teatrlarında, Tiflisin Kazyonnı teatrında, Zubalov adına Xalq evində göstərilən tamaşalarda artıq qurulu dekorlardan bəhrələnirdilər. Həmin dekorlar müxtəlif otaqlardan ibarət idi və hər tamaşaya yalnız ircə otağı kirayələmək mümkün idi. İllərlə işləndiyinə görə sökülüb-dağılan dekorlar, əsasən azərbaycanlı teatr dəstələrinə verilirdi. Məsələn, Bakıda Tağıyev teatrının icarədarları, özünün rus truppası bu binada həftədə beş-altı tamaşa oynayan antiprenyor Polonski uzun illər azərbaycanlı aktyorlara bir otaq-dekorasiya ayrılmasından başqa heç nəyə icazə vermirdi. Ona görə də həm Mirzə Fətəli Axundzadənin "Hacı Qara", həm Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", həm Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", həm də Vilyam Şekspirin "Otello", həm Jan Batist Molyerin "Zorən təbib", həm Nikolay Qoqolun "Müfəttiş" əsərlərinin tamaşalarında hadisələr eyni otaqda vaqe olurdu.

Bununla belə, 1915 - 1919-cu illərdə adları çəkilən şəhərlərdə yaşayan və əcnəbi teatrlarında çalışan rəssamlar müəyyən irihəcmli tamaşalarda dekorlara əl gəzdirməyə çalışırdılar. Geyimlər ifaçılar tərəfindən istənilən kimi seçilirdi və bu, səhnədə xoşagəlməz vəziyyət yaradırdı. Milli etnoqrafiyanı çox gözəl bilən, "Molla Nəsrəddin" jurnalına çəkdiyi Karikaturalarla şöhrətlənmiş Əzim Əzimzadə bu işə cəlb olunanda zövqsüzlük və primitivlik, hadisələrin baş verdiyi məkanın, zamanın məişət dəqiqliyindən uzaqlaşma nisbətən aradan qaldırıldı. 1919-cu ildə müsavat hökuməti

Türk Dövlət Teatrosu yaradanda Əzim Əzimzadə müəyyən tamaşaların tərtibatlarına da əl gəzdirir, çətin olsa da, hazır dekorlar əsasında fərqli məkanlar qurmağa müvəffəq olurdu.

Tiflisdə rəssamlıq təhsilinə yiyələnmiş Bəhruz kəngərli Naxçıvan teatrı hələ dövlət statusu almamışdan əvvəl səhnə həvəskarlarının dəstəsi ilə əməkdaşlıq edib. Gənc yaşlarında vəfat edən rəssam 1915 - 1922-ci illərdə truppada hazırlanan tamaşalara dekor hazırlayır, bəsit də olsa, tərtibat eskizləri işləyir, asma pərdələrə müxtəlif mənzərələr (meşə, çay, dağ, otaq və sairə) çəkirdi.

Ötən əsrin iyirminci illərində Dövlət statusu almış teatrlarda hər tamaşaya ayrıca dekorasiya qurmaq prinsipinə riayət etməyə çalışırdılar. Bu isə tamaşaya tərtibat yaratmaqdan daha çox, hansısa məkanı quraşdırmaq səviyyəsində icra olunurdu. Quraşdırma prosesi primitiv üsulla aparıldığına görə səhnədə təhlükəsizliyə tam təminat verilmirdi. Hətta bəzən aktyorlar uçmaq təhlükəsi olan dekorun altında mizana əməl etməkdən boyun qaçırırdılar, ifaçılar səhnədə xof içərisində hərəkət edirdilər.

Tiflisdə dekor tərtibatını, əsasən tamaşanın göstəriləcə-yi teatrın rəssamları icra edirdilər. Aleksandr Tuqanov 1924-cü ildə Bakıya çağırılaraq Milli Dram Teatrına baş rejissor təyin olunandan sonra hər tamaşaya ayrıca dekorlar qurmaq məsələsi ortaya atıldı. Hələlik həmin sahədə milli kadrlar ol-madığına görə bu işə Nikolay kuleş cəlb edildi. Bakıdakı yəhudi və rus truppalarında rəssamlıq etmiş kuleş teatrda Aleksandr Tuqanovun hazırladığı əksər tamaşalara səhnə tərtibatı verdi. Vilyam Şekspirin "Otello", Fridrix Şillerin "Qaçaqlar", Hüseyn Cavidin "İblis", "Şeyx Sənan", Cəfər Cabbarlının "Aydın", "Oqtay Eloğlu" kimi faciələri də müstəqil tərtibatlarda tamaşaçılara göstərilirdi.

Teatr binalarında əlverişli texnika və səmərəli texnologiya olmadığına görə tərtibatların qurama konstruksiyasını səhnədə yığıb sökmək çətin prosesə çevrilir və uzun vaxt apa-rırdı. Buna görə də bəzən pərdələrarası fasilə yarım saat, qırx dəqiqə vaxt aparırdı. Məsələn, onsuz da hadisələrində uzunçuluq olan Anatoli Qlebovun "Zaqmuq" ("Qullar bayramı") pyesinin tamaşası beş saatdan artıq çəkirdi. Mürəkkəb konstruk-siyalı tərtibatlar eyni tamaşada biri digəri ilə əvəz ediləndə səs-küydən tamaşaçı salonunda oturmaq mümkün deyildi.

Bakı Azad Tənqid və Təbliğ Teatrı 1925-ci ildə adını dəyişdi. Bakı Türk İşçi və kəndli Teatrı adlanan sənət ocağının yaradıcılıq üslubunda da dəyişikiiklər edilməyə, məzmun və forma axtarışlarına başlanıldı. Repertuar qurmaqda milli pyeslərdən qıtlıq çəkən teatr tərcümə əsərlərinə üstünlük versə də, Bakı Rəssamlıq Məktəbinin 15 yaşlı tələbəsi Rüstəm Mustafayevi səhnə tərtibatına cəlb etməklə qüdrətli bir teatr rəssamını kəşf etmiş oldu. Rüstəm Mustafayevin milli duyu-mu, zərif və ifadəli kompozisiya qurmaq bacarığı, ifadə vasitələrinin bədii-estetik həlli tamaşaların forma hüsnünü təravətləndirir, səhnəyə canlılıq, dinamizın, ifadəlilik, fikir geniş-liyi gətirirdi. Buna görə də Akademik və opera teatrları da ona sifarişlər verirdi.

Rüstəm Mustafayevin İşçi teatrında Cəfər Cabbarlının "Sevil", Fyodor Pavlovun "Çin tanrısı", Jan Batist Molyerin "Cancur Səməd", Akademik teatrda Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Cəfər Cabbarlının "1905-ci ildə", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Cəlil Məmmədquluzadənin "Ölülər" əsərlərinin tamaşalarına verdiyi səhnə tərtibatı milli səhnəqrafiyamızın yeni zəmin üzərində inkişafına geniş meydan açdı. Artıq səhnəqrafiya milli teatr poetikasında özünün estetik səciyyələrini realizə edir və həm romantik, həm də realist teatr məktəblərinin üslublarında eyni səviyyədə axtarışlara meydan açırdı. Rüstəm Mustafayevin tərtibatlarında romantik duyum nə qədər parlaq və ecazkar olurdusa, reallıq, dəqiqlik bir o qədər ifadəli, cazibəli və tamaşanın əsas atributu kimi canlı, məzmunlu, dolğun görünürdü.

1930-cu illərdə milli teatrımız, monumentalizmə güclü meyl göstərirdi. Artıq 1940-cı illərdə həmin üslubun poetına göstəriciləri formalaşdı və təbii ki, bu istiqamətdəki fəlsəfi axtarışlar səhnəqrafiyada da geniş vüsət almışdı. Bakıda Akademik teatrda Nüsrət Fətullayev, İsmayıl Axundov, Əsgər Abbasov, Kazım Kazımzadə, opera teatrında Əyyub Fətəliyev, Ənvər Almaszadə, İzzət Seyidova, Musiqili Komediya Teatrında Ədhəm Sultanov, Həsən Mustafayev, Gənc Tamaşaçılar Teatrında Ə.Həsənov, Sadıq Şərifzadə, Aşqabad teatrında Bədurə Əfqanlı, Bəhram

Əfəndiyev (sonra Gəncəyə gəldi), Naxçıvanda Şamil Qazıyev, Əyyub Hüseynov, İrəvanda Rəhim Məm-mədov kimi tərtibat və geyim rəssamları səhnəqrafiya səhnəsində uğurlu yaradıcılıq axtarışları aparırdılar.

Adları çəkilən rəssamlar başqa teatrlarda da tamaşalara quruluşlar verirdilər. Milliyyətcə rus olan Sergey Yefimenko, Fyodor Qusak, Mixail Tixomirov, Vyaçeslav İvanov, Pavel Ryabçlkov, Nikolay Ovçinnikov, Yuri Toropov ölkəmizin müxtəlif teatrlarında tərtibatlar verdilər.

Həmin illərdə səhnə tərtibatında məkanların naturalist təsvirlərinə üstünlük verilirdi. Geyimlərdə əlvanlıq və etnoqrafi dəqiqlik əsas götürülürdü. Dekorların quraşdırılmasında tədricən mürəkkəb konstruksiyaların istifadəsindən imtina edilirdi. Ştangetlərdən müəyyən məkan bildirən arxalıq və yanlıq pərdələri asılırdı. Qalxıb-enən ştangetlər məkan dəyişməsində vaxt azlığına imkan yaradırdı. Rəssamlar daha çox isti rənglərdən istifadə edir, milli koloriti saxlamağa və forma yeniliyinə nail olmağa çalışırdılar.

Bəzi teatrlarda səhnənin fırlanınası tərtibatın yerləşdirilməsində qıvraqlığa, mürəkkəb kompozisiyalar qurmağa imkan yaradırdı. Bakıya qayıtınış Bədurə xanım və Kazım Kazımzadə geyim eskizlərinin verilməsində Əzim Əzimzadə məktəbini ləyaqətlə təmsil edir, bu sənətə zəriflik, incəlik və emosional təravət gətirirdilər.

1950-ci illərdə Azərbaycanın dram teatrlarında psixoloji realizm aparıcı üslub kimi yetkinləşdi və 1960-cı illərdə lirik-psixoloji üslub kimi önə çıxdı. Eyni kökdən rişələnən hər iki üslub dramaturgiyadan doğaraq özünün rejissor, aktyor təmsilçilərini formalaşdırdığı kimi, musiqi və səhnə tərtibatların-da da ciddi dönüşlər yaratdı. Öz mövzu-problematikası olan bu üslubların orijinal ifadə vasitələri, estetik kateqoriyalara yanaşma prinsipləri, forma xüsusiyyətləri də yaranırdı. Yarananlar cəsarətlə sınaqdan çıxarılır, şüur və düşüncələrdə qavranılanı, realizəsi estetik mahiyyət kəsb edəni, poetikanın göstəricilərinə çevriləni cilalanıb ifadə cəbbəxanasma daxil olunurdu.

Bu istiqamətdə ilk uğurlu addımları geyim rəssamı kimi tanınan Bədurə xanım Əfqanlı Akademik teatrın səhnəsində "Ailə namusu" (1951. Hüseyn Muxtarov), "Məzəli hadisə" (1952. Karlo Haldoni) tamaşalarına verdiyi poetik ruhlu tərtibatları ilə atdı. Sadıq Şərifzadə dramaturqlardan Lope de Veqanın "Sevilya ulduzu" (1953), İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (1954), Nazim Hikmətin "Qəribə adam" (1956) pyeslərinin tamaşalarına verdiyi tərtibatlarda psixoloji realizmin səhnəqrafiyada estetik təcəssümünə və fəlsəfi dərinliyinə nail oldu.

Həmin estetik prinsiplərdən Gəncə teatrında rəssam Süleyman Hacıyev, Rza Məmmədov, Bəhram Əfəndiyev, Gənc Tamaşaçılar Teatrında Fuad Xəlilov, Altay Səidov səhnə ocağının xarakterinə uyğun şəkildə istifadə edirdilər. Musiqili Komediya Teatrında isə bu işi əsasən Əsgər Abbasov və Böyükağa Mirzəzadə görürdülər.

Psixologizın insan münasibətlərini ilkin götürməklə lirik-psixoloji üslubun doğuluşuna münbit zəmin yaratdı. 1964-cü ildə İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" dramının tamaşası ilə teatra ayaq açan lirik-psixoloji üslub elə ilk gündən özünün estetik ifadə vasitələrini konseptual şəkildə təqdim etdi. Tofiq Kazımovun quruluşçu rejissor olduğu tamaşaya bədii tərtibatı Elçin Aslanov vermişdi. Azərbaycan teatr tarixində ilk dəfəydi ki, təkərlər üzərində qurulmuş dekorlar-dan (furkalardan) istifadə olunurdu. Hadisələrə uyğun olaraq məkanlar (Həsənzadənin evi, Nargilə və Fərəcin evi) qurulmuş furkalar qaranlıqda səhnəyə gətirilir, projektorlarla işıqlandırılır və sonra qaranlıqda "yox olurdu". Qədim miniatürlərin kompozisiya qurumundakı ifadəliliyə əsaslanan Elçin Aslanov lirik və emosional, hadisələrin dinamik sürət-ritminə imkan yaradan, səhnədə genişlik doğuran tərtibatını tamaşanın atribut-obrazına çevirmişdi.

Həmin üslubda Elçin Aslanov "Ölülər" (Cəlil Məmmədquluzadə), "Sənsiz" (Şıxəli Qurbanov), Tahir Salahov "Hamlet" (Vilyam Şekspir), Sənan Qurbanov "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər" (İlyas Əfəndiyev), Solmaz Haqverdiyeva "Yağışdan sonra" (Bəxtiyar Vahabzadə), "Qızıl" (Yucin O'Nil), Fuad Qafarov "Ümid" (Maqsud İbrahimbəyov) tamaşalarına tərtibatlar verdilər. Başqa teatrlarda da lirik-psixoloji üslubun janr estetikasma uyğun gələn tərtibatlar verilməsi istiqamətində səmərəli yaradıcılıq addımları atılırdı.

Lirik-psixoloji uslubun müəyyən estetik prinsipləri formalaşıb. Onlardan bəzilərini qısaca belə səciyyələndirmək olar:

lirik-psixoloji üslublu tamaşalarda rəssam işi mütləq atribut-obraza çevrilir;

şərtilik emosional lirizmlə və bədii çalarla real həqiqətləri təcəssüm etdirmək gücündə olur;

rəssamlar səhnədən minimum istifadə etməklə az dekorlara üstünlük verir və bununla da aktyor oyununa geniş meydan açırlar;

bir dekor səhnə fırlanınasında başqa görümlə iki müxtəlif məkanı bədii siqlətlə təcəssüm etdirə bilir;

dekorlar və asma pərdələr xüsusi işıq sistemi ilə qurulur və bu, ani halda ən müxtəlif məkandakı hadisələri qabarıq verməyə və onu tamaşaçı diqqətinə çatdırmağa əlverişli şərait yaradır.

Son iyirmi beş ildə milli teatrımız əlvan janr axtarışlarına ciddi cəhd göstərməsi, avanqardizının müxtəlif izınlərinin estetik göstəricilərini sınağa çəkməsi, dünyada mövcud olan müxtəlif teatr poetikalarından barınınağa çalışması ilə diqqəti cəlb edir. İlkin məqamda quruluşçu rejissorların axtarışlarında özünü göstərən bu meyl səhnə tərtibatında da parlaq nəticələrini qazanıb. Bu baxımdan Elçin Məmmədovun, Ağarəhim Əliyevin, Nazim Bəykişiyevin, Tahir Tahirovun, İsmayıl Məmmədovun, Rəşid Şerifin, Rafis İsmayılovun, Lətifə Quluzadənin yaradıcılıq nailiyyətləri fəlsəfi dərinliyi, estetik füsunkarlığı, bədii ifadə vasitələrinin zənginliyi, kompozisiya hüsnü, rənglərin zərifliyi və lətafəti ilə milli səhnəqrafiyamıza yenilik gətirib.

Kukla teatr sənəti sahəsində Solmaz Musayeva və Faiq Əhmədov janr əlvanlığı, kukların koloritli formaları üçün müəyyən səmərəli ənənə yarada biliblər.

Bu gün milli səhnəqrafiyamızda psixologizınə, lirik psixoloji üsluba, avanqardizındən bəhrələnməyə xüsusi meyl göstərilir. Ancaq yeri gəldikcə monumental romantik və monumental realist səpkili səhnə tərtibatları da verilir. Opera və Balet Teatrı modern tərtibat formalarının elementlərindən istifadə etsə də, əsasən klassik üslubun ifadə vasitələrinin estetik prinsiplərinə üstünlük verir.

Çağdaş dövrdə teatrlarımızda yaşlı, orta və gənc nəslə mənsub rəssamlar çalışırlar. Teatrlar yeri gəldikcə sırf rəngkarlıqla və ya qraflka janrında məşğul olan rəssamlara da tərtibat sifarişləri verirlər. Bütövlükdə isə milli səhnəqrafiyamızın yaradıcıları və onu ləyaqətlə davam etdirən sırf teatr rəssamları vardır.

## SƏHNƏQRAFİYADA FORMA AXTARIŞLARI

### Birinci dərs

Milli teatrımızda səhnəqrafiyanın inkişafı MDT-nin təsisatlı mədəniyyət faktına çevrilməsindən (1919) sonra başlayıb. 1919-1930-cu illərdə oynanılan tamaşaların bədii tərtibatlarını əcnəbi rəssamlar versələr də, daha çox səhnə əsərlərində geyim eskizlərini Əzim Əzimzadə işləyib. əksər hallarda onun adı tamaşa proqramlarına yazılmayıb, lakin Əzimzadə milli teatr rəssamlığında geyim estetikasının dəyərli ənənəsini yaradıb. Keçən əsrin otuzuncu illərindən bir sıra boyakar rəssamlar dram və opera teatrlarında da səmərəli fəaliyyət göstəriblər. Eyni zamanda milli mədəniyyətimizdə sırf teatr rəssamlığı ilə məşğul olan sənətkarlar da yetişiblər və onlar bu sənətdə möhtəşəm yaradıcılıq nailiyyətləri qazanıblar.

* * *

### ƏZIM ƏZIMZADƏ (7.5.1880 - 15.6.1943)

Milli incəsənətimizdə satirik qrafika, illüstrasiya, siyasi plakat janrlarının yaradıcısıdır. 7 may 1880-ci ildə Bakıda doğulub. Xüsusi rəssamlıq təhsili görməyib. "Molla Nəsrəddin" jurnalının ən fəal rəssamlarından idi. Əzim Aslan oğlu Əzimzadə 1919-cu ildən başlayaraq teatr-dekorasiya sahəsində də məhsuldar çalışıb. Əsasən müasir və klassik əsərlərin tamaşaya hazırlanmasında geyim eskizlərini çəkib. Tərtibatçı rəssam Rüstəm Mustafayevin işlədiyi əsərlərdə Əzim Əzimzadənin yaradıcılıq nailiyyətləri daha qabarıq nəzərə çarpır. 1921 - 1923-cü illərdə Bakı Azad Tənqid və Təbliğ Teatrının ideoloji-təbliğat xarakterli satirik tamaşalarında müxtəlif məişət tiplərinin qrim və geyim eskizlərini verib

Əzim Əzimzadə AMDT-də "Hacı Qara", "Mürafiə vəkilləri", "Müsyö Jordan və dərviş Məstəli şah" (Mirzə Fətəli Axundzadə), "Dağılan tifaq", "Ağa Məhəmməd şah Qacar" (Əbdürrəhim bəy Haqverdiyev), "Əntərə" (Şükri Qazi), "Özgə uşağı" (Vasili Şkvarkin), "Mirzə Rza kirmani" (Əzim Əzimzadə), "Həyati-bəşər" (Leonid Andreyev), "Bayquş" (Xalid Fəxri), "Aydın", "1905-ci ildə" (Cəfər Cabbarlı), "Ölülər" (Cəlil Məmmədquluzadə), "Maral" (Hüseyn Cavid) dram əsərlərinin, Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu" operalarının, "Arşın mal alan", "Məşədi İbad" operettalarının, Müslüm Maqomayevin "Şah İsmayıl" və "Nərgiz" operalarının, GTT-də "Partizan Məmməd" (Ədil İsgəndərov və Sabit Rəhman) pyesinin tamaşalarında geyim rəssamı olub.

Əzim Əzimzadə 15 iyun 1943-cü ildə bakida vəfat edib. Məzarı Fəxri xiyabanda olan rəssamın adına orta ixtisas sənət məktəbi və küçə var.

**İSMAYIL AXUNDOV (15.41907 -13.9.1969)**

Yaradıcılığına əsasən kitab illüstrasiyası ilə başlayan İsmayıl Hüseyn oğlu Axundov 15 aprel 1907-ci ildə Bakının Maştağa qəsəbəsində doğulub. Bakı Rəssamlıq Məktəbini bitirdikdən (1928) sonra Moskva Poliqrafiya İnstitutunun nəşriyyat şöbəsində təhsil alıb. 1932-ci ildə oranı qurtararaq təyinatla Bakıya göndərilib və "Azərnəşr"də rəssam işləyib.

Rəssamlığın qrafika, karikatura və plakat janrları ilə məşğul olub. Uzun müddət "Kirpi" satirik jurnalında işləyib.

Teatra ilk dəfə 1937-ci iidə rejissor Ədil Isgəndərovdan dəvət alıb və Akademik Milli Dram Teatrında onun quruluş verdiyi Mirzə İbrahimovun "Həyat" pyesinin tamaşasında geyim eskizlərini çəkib. Bu teatrda İ938-ci ildə Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (həmçinin 1940 və 1957-ci il quruluşlarında), Cabbar Məcnunbəyovun "Yanar dərə", Səməd Vurğunun "Vaqif", 1944-cü ildə Cəfər Cabbarlının "1905-ci ildə", 1955-ci il-də Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" komediyasının tamaşalarında geyim rəssamı olub.

1938-ci ildə rejissor Məcid Zeynalovun hazırladığı "Müsyö Jordan və dərviş Mestəli çah" (Mirzə Fətəli Axundzadə) tamaşasında ilk tərtibatçı rəssam kimi addıınını atıb. Bundan sonra AMDT-də 1939-cu ildə Onore de Balzakin "Ögey ana", Mehdi Hüseynin "Şöhrət", Cəlil Məmmədquluzadənin "Ölülər", 1943-cü ildə Aleksandr Ostrovskinin "Tufan", 1945-ci ildə Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz", 1948-ci il-də Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər", Mirzə Fə-təli Axundzadənin "Lənkəran xanının vəziri", 1949-cu ildə Sabit Rəhmanın "Aydınlıq", Cəfər Cabbarlının "Solğun Çiçəklər", Anatoli Boryanovun "O tayda", Tur qardaşlarının "Bir evin sirri", 1952-ci ildə Karlo Haldoninin "Mehmanxana sahibəsi", 1956-cı ildə Hüseyn Cavidin "Şeyx Sənan", 1961-ci ildə Sabit Rəhmanın "Əliqulu evlənir", Mehdi Hüseynin "Alov", 1966-cı ildə Cəfər Cabbarlının "Oqtay Eloğlu" əsərlərinin tamaşalarına həm monumental-romantik, həm də realist səpkilərdə səhnə tərtibatları verib.

Teatr dekorasiya sənətinə müəyyən yeniliklər gətirmiş İsmayıl Axundov Azərbaycan Dövlət Musiqili Komediya Teatrında oynanınış Üzeyir bəy Hacıbəyovun "Məşədi İbad", Səid Rüstəmovun

"Durna" (dramaturq Süleyman Rüstəm), Fikrət Əmirovun "Gözün aydın" (dramaturq Məhərrəm Əlizadə), Nəriman Məmmədov və Tofiq Bakıxanovun "Məmmədəli kurorta gedir" (dramaturq Atif Zeynallı) operettalarına əlvan tərtibatlar işləyib.

İsmayıl Axundov səhnə tərtibatlarında klassik üslubda işləməyə üstünlük verib. Yaradıcılığı rənglərin şuxluğu və aydınlığı, kompozisiyanın sadəliyi, tərtibat işləri dramaturq və rejissor fikri ilə poetik ahəngdarlıq yaratınası baxımından səciyyəvidir. Təsviri sənətin müxtəlif sahələrində qazandığı nailiyyətlərə görə respublikanın əməkdar incəsənət xadimi (1940) və xalq rəssamı (24 may 1960) fəxri adlarına layiq görülüb. 1950-ci ildə Stalin mükafatı ilə təltif olunub.

İsmayıl Axundov 13 sentyabr 1969-cu ildə Bakıda vəfat edib.

## IZZƏT SEYİDOVA (20.10.1910 - 30.11.1973)

İlk qadın teatr rəssamlarından biri də İzzət Əli qızı Seyidova olub. 20 oktyabr 1910-cu ildə Bakıda doğulub. Əzim Əzimzadə adına Bakıda Rəssamlıq Məktəbində (1927-1931) və Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (1931 - 1938) təhsil alıb. Opera və Balet Teatrında 1938-ci ildən işləyib. Teatrda Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Koroğlu", Müslüm bəy Maqomaye-vin "Şah İsmayıl", Qara Qarayevlə Cövdət Hacıyevin "Vətən", Coakkino Rossininin "Sevilya bərbəri", Anton Rubinşteynin "Demon", Boris Zeydmanın "Maskarad", Pyotr Çaykovskinin "Qaratoxmaq qadın", Fikrət Əmirovun "Sevil", tərcümə olunmuş "Anuş" operalarına, Boris Zeydmanın "Qırmızı lalə", Aleksandr Qlazunovun "Raymonda", Qara Qarayevin "İldırımlı yollarla", Tofiq Bakıxanovun "Xəzər balladası" baletlərinə səhnə tərtibatları verib.

İzzət Seyidova rəssamı olduğu tamaşalarda musiqinin dramatik, lirik və fəlsəfi xarakterini tərtibatda poetikiiklə obrazlaşdırmağa səy göstərib.

Milli boyakarlıq ənənələrini və dünya klassik opera rəssamlığının estetik prinsiplərini bacarıqla qovuşdura bilib.

Monumentalizmə meyilli olub və geniş kompozisiyada daha çox ifadəli rənglərin parlaq çalarlarından məharətlə istifadə edə bilib.

Qüdretli fırça ustası teatr rəssamlığı fəaliyyətində qazandığı nailiyyətlərə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.

İzzət Seyidova 30 sentyabr 1973-cü ildə bakida vəfat edib.

## BƏDURƏ ƏFQANLI (25.10.1912 - 6.5.2002)

Azərbaycanın ilk teatr rəssamlarından olan Bədurə xanım Məlikağa qızı tərtibat-dekorasiya və geyim sənətinin inkişafında, formalaşmasında və milli koloritlə zənginləşməsində dəyərli işlər görüb. Qızlıq soyadı Ağamalova olan rəssam 25 oktyabr 1912-ci ildə Bakıda doğulub. Burada rəssamlıq məktəbini bitirib (1931).

Görkəmli aktyor Rza Əfqanlı ilə evləniblər və 1933-cü ildə bir yerdə Aşqabad Dövlət Azərbaycan Teatrında işləməyə gediblər. Burada o, Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operalarının, Hüsejm Cavidin "Şeyx Sənan", Cəfər Cabbarlının "Sevil" və "1905-ci ildə" dramlarının tamaşalarına bədii tərtibat verib.

1940-cı ildən 1960-cı ilin əvvəlinə qədər Akademik Milli Dram Teatrında quruluşçu rəssam kimi çalışıb. İlk işi 1940-cı ildə rəssam Əsgər Abbasovla "Müsibəti-Fəxrəddin" (Nəcəf bəy Vəzirov) tamaşasma verdikləri tərtibat olub. Bundan sonra Süleyman Sani Axundovun "Eşq və intiqam" (1943), Vilyam Şekspirin "Otello" (1949 və 1959-cu il quruluşları), Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", "Köhnə dudman", Boris Lavrenyovun "Amerikanın səsi" (1950), Cəfər Cabbarlının

"Od gəlini", Hüseyn Muxtarovun "Ailə namusu" (1951), Karlo Haldoninin "Məzəli hadisə", Vadim Sobkonun "ikinci cəbhə arxasında (1952)", Nazim Hikmətin "Türkiyədə" (1953), Maksim Qorkinin "Vassa Jeleznova" (1954), Cabbar Məcnunbəyovun "İldırım" (1955), İslam Səfərlinin "Yadigar" (1956), Ənvər Məmmədxanlının "Şirvan gözəli" (1957), Səməd Vurğunun "Fərhad və Şirin", Yuri Osnos və Viktor Vinnikovun "Hind gözəli" (1959) əsərlərinin tamaşaya hazırlanmasında tərtibatçı rəssam kimi çalışıb.

Bədurə xanım MDT-də oynanan Cəfər Cabbarlının "Aydın", Məmmədhüseyn Təhmasibin "Bahar" (1940), "Aslan yatağı", Mirzə İbrahimovun "Məhəbbət" (1942), Zeynal Xəlilin "Qatır Məmməd", Səməd Vurğunun "İnsan" (1945), Leonid Malyuginin "Köhnə dostlar", İlyas Əfəndiyevin "İşıqlı yollar" (1947), "Bahar suları" (1948), Cəfər Cabbarlının "Solğun çiçəklər", Tur qardaşlarının "Bir evin sirri", Lope de Veqanın "Rəqs müəllimi" (1949), Aleksandr Şirvanzadənin "Namus" (1952) tamaşalarında geyim eskizlərini çəkib.

Opera və Balet Teatrında "Sevil" (Fikrət Əmirov), "Leyli və Məcnun" (Üzeyir bəy Hacıbəyov) operalarının, Azərbaycan Dövlət Rus Dram Teatrında "Vaqif" və "Aydın" tamaşalarının geyim eskizləri də Bədurə Əfqanlınındır.

Rəssamlıq sənətində qazandığı nailiyyətlər üçün Bədurə Əfqanlıya əməkdar incəsənət xadimi (21 iyul 1949) və xalq rəssamı (1 iyun 1974) fəxri adları verilib.

Onun işləri emosional zərifliyi, lirizm aşılanmış şuxluğu, poetik təravəti ilə seçilib. İncə tapmtıları ilə milli qadın geyimlərinə cazibəli yeniliklər gətirib.

Sadə, ancaq dərin məzmunlu kompozisiya qurmaqda, səhnə tərtibatındakı bütün detalları tamaşanın obrazı ilə əlaqələndirməkdə xüsusi bacarıq və səriştəsi var.

Bədurə Əfqanlı 6 may 2002-ci ildə Bakıda vəfat edib.

**NÜSRƏT FƏTULLAYEV (25.9.1913 - 1.10.1987)**

Sırf səhnə ilə bağlı olan, teatr-dekorasiya sənətçisi Nüsrət Möhsün oğlu Fətullayev ömrünün son günlərinə kimi yaradıcılıq axtarışlarından qalmayıb. Milli teatr rəssamlığımızın inkişafında və formalaşmasında böyük xidmətlər göstərib.

25 sentyabr 1913-cü ildə Lənkəran rayonunda doğulan Nüsrət Fətullayev Bakı Rəssamlıq Məktəbində təhsil alıb (1930-1934). Rejissor Yusif Yulduzun 1934-cü ildə quruluş verdiyi Aleksandr Korneyçukun "31-43" ("Eskadranın məhvi") dramının tamaşası ilə Äkademik Milli Dram Teatrında ilk işinə başlayıb. 1938-ci ilin ikinci yarısından bu kollektivə baş rəssam təyin olunub və ömrünün sonunadək həmin vəzifəni ləyaqətlə icra edib.

Sənətdəki xidmətlərinə görə respublikanın əməkdar incəsənət xadimi (4 may 1940) və xalq artisti (21 iyul 1949) fəxri adlarına layiq görülüb. "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasma görə 1948-ci ildə Stalin mükafatı, İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" dramının tamaşaemdejcı tərtibatı üçün isə 1972-ci ildə Azərbaycanın Dövlət mükafatı laureatı olub.

Gənc Tamaşaçılar Teatrında Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" komediyasma (1938), Musiqili komediya Teatrında Rauf Hacıyevin "Tələbələrin kələyi" (1940), Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan" (1943), Fikrət Əmirovun "Ürəkçalanlar" (1944), Süleyman Ələsgərovun "Məhəbbət gülü" (1945), Vladimir Dolidzenin "Keto və Kote" (1945), Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (1972) operettalarına səhnə tərtibatı verib.

Milli Dram Teatrında əllidən çox tamaşanın rəssamı olub. Onların arasında estetik səciyyələrinə, forma əlvanlığına və monumentallıq xüsusiyyətlərinə görə səhnəqrafiyada xüsusi yer tutanları bunlardır: "Almaz", Cəfər Cabbarlı (1936), "Skapenin kələkləri", Jan Batist Molyer (1936), "Həyat", Mirzə İbrahimov (1937), "Hacı Qara", Mirzə Fətəli Axundzadə və "Va-qif", Səməd Vurğun (1938), "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev (1940 və 1957), "Aydın" və "Oqtay Eloğlu", Cə-fər Cabbarlı (1940), "Xoşbəxtlər", Sabit Rəhman və "Fərhad və Şirin", Səməd Vurğun (1941), "Dumanlı Təbriz", Meınınəd Səid Ordubadi (1945), "Nüşabə", Abdulla Şaiq (1946), "İşıqlı

yollar", İlyas Əfəndiyev (1947), "Rəqs müəllimi", Lope de Veqa (1949), "Müfəttiş" Nikolay Qoqol (1952), "Qış nağılı", Vilyam Şekspir (1955), "Səyavuş", Hüseyn Cavid (1963), "Xanuma", Avksenti Saqareli (1975), "Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə (1978), "Cehizsiz qız", Aleksandr Ostrovski (1979), "Yad adam", Leonqard Frank (1980), "Təhminə və Zaur", Anar (1985).

Nüsrət Fətullayev əsasən realist səhnə tərtibatına üstünlük verib. Yaradıcılığının bir qolunu da monumental-romantik üslub təşkil edib. Teatrın texniki prinsiplərini dərindən bilməsi, səhnə ölçülərinə dəqiqliklə riayət etməsi onun işlədiyi tərtibatlara tamlıq, əzəmət və obrazlılıq gətirirdi. Tərtibat verdiyi tamaşalarda aktyorların sərbəst səhnə davranış-larını yaradıcı həssaslıqla nəzərə alırdı. Milli etnoqrafiyanı dərindən bilirdi. Nüsrət Fətullayev tərtibat rəssamlığında klassik üslub ənənələrini yaşadırdı. Ancaq o, dövrün qaynar, mürəkkəb, təzadlı, işıqlı ruhunun rəng təzətərliyinə, təravətli ovqatına da cəsarətlə can atırdı. Onun tərtibatında janr-üslub qarışıqlığı olmurdu, ancaq müxtəlif formaların harmonik sintezi, bir poetikada füsunkarlıqla birləşməsi həm tamaşaya möhtəşəm obrazlılıq gətirir, həm də tamaşaçmı heyrətdə saxlayırdı.

Nüsrət Fətullayev 1 oktyabr 1987-ci ildə Bakıda vəfat edib.

## SƏHNƏQRAFİYADA FORMA AXTARIŞLARI

### İkinci dərs

Teatrda rejissor axtarışları, yeni üslub və formaların, müxtəlif janrların çağdaş estetikada təqdimi ilk növbədə aktyor oyununda təcəssüm tapıb. Ancaq bütün bunlar və ilk növbədə forma yeniliklərinə göstərilən sənət cəhdləri bilavasitə səhnə tərtibatı ilə bağlı olub. Milli teatrımızın keçdiyi müxtəlif xarakterli yaradıcılıq mərhələlərində səhnəqrafiyanın öz tərəqqi və fəlsəfi yetkinlik yolu olub. Milli teatrımızın zəngin sənət irsini bütün bədii dəyərləri ilə mənimsəmək üçün onun tarixini və nəzəri əsaslarını məhz səhnəqrafiyanın iayiqli sənət təmsilçilərinin yaradıcılıq yolu ilə bağlılıqda öyrənmək lazımdır. Azərbaycan teatr rəssamlığı həmişə forma axtarışlarının estetik zərifliyi, psixoloji dərinliyi və fəlsəfi tutumu ilə seçilib.

* * *

### SADIQ ŞƏRİFZADƏ (5.12.1912 - 2.1.1986)

Romantik-monumental, sonraki yaradıcılıq dövründə psixoloji-fəlsəfi, realist səhnərafiyamızın formalaşmasında səmərəli işlər görüb. Sadıq Hüseyn oğlu Şərifzadə 5 dekabr 1912-ci ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. 1932-ci ildə Bakı Rəssamlıq Məktəbini bitirib. Kiyev (1936-1939) və Moskva (1939-1940) Rəssamlıq İnstitutunda ali təhsil alıb. Boyakarlığın müxtəlif janrlarında məşhur fırça ustası kimi tanınandan sonra teatr rəssamlığı ilə də ciddi məşğul olub.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb (1959).

Sadıq Şərifzadə AMDT-də "Sevilya ulduzu" (Lope de Veqa. 1953), "Atayevlər ailəsi" (İlyas Əfəndiyev. 1954), "Göz həkimi" (İslam Səfərli. 1955), "Şəxsi iş" (Aleksandr Şteyn. 1956), "Qardaşlar" (Rəsul Rza. 1956), "Cavanşir" (Mehdi Hüseyn. 1957), "Qaçaq Nəbi" (Süleyman Rüstəm. 1958), "Tayfun" (Tsao Yuy. 1959), "Əcəb işə düşdük" (Şıxəli Qurbanov. 1961), "Mariya Tüdor" (Viktor Hüqo. 1962), "Kəndçi qızı" (Mirzə İbrahimov. 1962) tamaşalarının rəssamı olub.

1938-ci ildən başlayaraq müxtəlif teatr mövsümlərində GTT-də "Sabirin məhkəməsi" (Hacıağa Abbasov), "Xırs quldurbasan" (Mirzə Fətəli Axundzadə), "Ağa Kərim xan Ərdəbili"

(Nəcəf bəy Vəzirov), "Odlar içində" (Əbil Yusifov), "Fitnə" və "Qaraca qız" (Abdulla Şaiq), "Polad necə bənddi" (Nikolay Ostrovski), "Düşmənlər içində" (Novruz Gəncəli), "Ağbəniz" (Valentina Lyubimova), "Tom dayının koması" (Biçer Stou), "Tamahkar" (Süleyman Sani Axundov), "Qarlar Kraliçası" (Yevgeni Şvarts), "Sirli şəhər" (Mehdi Hüseynin romanı əsasında səhnələşdirəni Ağəli Dadaşov) tamaşalarının bədii tərtibatını verib.

Sadıq Şərifzadə 2 yanvar 1986-cı ildə Bakıda vəfat edib.

## ƏSGƏR ABBASOV (28.4.1916 - 9.2.1970)

Müxtəlif janrlı tamaşalara tərtibatlar verib. Səhnəqrafiyanın orijinal formalarından, müxtəlif üslublarından istifadə edib. Daha çox monumental-realist formada tamaşa dekorasiyaları hazırlayıb. Əsgər Məmmədisınayıl oğlu Əsgərov 28 aprel 1916-cı ildə Bakıda doğulub. 1933-cü ildən AMDT-də dekorçu rəssam işləyib. İşləyə-işləyə Bakı Rəssamlıq Məktəbini bitirib (1936). Musiqili Komediya Teatrında baş rəssam olub (1945-1949 və 1956-1969-cu illərdə).

Səhnəqrafiyada qazandığı sənət nailiyyətlərinə görə 29 iyun 1964-cü ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb. Tiflis, Aşqabad, Dərbənd şəhərlərində də Azərbaycan dilində oynanılan tamaşalara bədii tərtibat verib.

Əsgər Abbasov AMDT-də Mixail Lermontovun "İki qardaş", Səməd Vurğunun "Fərhad və Şirin", Mir Cəlalm "Mirzə Xəyal" pyeslərinin tamaşalarına bədii tərtibat verib, Sabit Rəhmanın "Xoşbəxtlər" komediyasında geyim eskizlərinin müəllifidir. Bədurə Əfqanlı və Nüsrət Fətullayevlə müştərək işləri var. Daha parlaq yaradıcılıq dövrü Musiqili Komediya Teatrı ilə bağlıdır. Bu sənət ocağında "Arşın mal alan", "Məşədi İbad" (Üzeyir bəy Hacıbəyov), "Durna" (Süleyman Rüstəm və Səid Rüstəmov), "Aşıq Qərib" (Zülfüqar bəy Hacıbəyov), "Silva" və "Bayadera" (İmre Kalman), "Ulduz" (Sabit Rəhman və Süleyman Ələsgərov), "Gözün aydın" (Məhərrəm Əlizadə və Fikrət Əmirov), "Rəisin arvadı" (Məhərrəm Əlizadə və Səid Rüstəmov), "Tiflis nəğməsi" (Levon Cubabiriya və Şota Milorava), "Hacı Qara" (Mirzə Fətəli Axundzadənin eyniadlı əsəri əsasında Şəmsi Bədəlbəylinin librettosu. Bəstəkarlar Vasif Adıgözəlov və Ramiz Mustafayev), "Özümüz bilərik" (Şıxəli Qurbanov və Süleyman Ələsgərov) tamaşalarının bədii tərtibatını işləyib.

Əsgər Abbasov 9 fevral 1970-ci ildə Bakıda vəfat edib.

## ƏYYUB FƏTƏLİYEV (7.11.1925 - 21.4.2000)

Milli Teatr rəssamlığımızda təxəyyülünün genişliyi, rənglərinin koloriti və kompozisiyalarının möhtəşəmliyi, asma dekorlarının poetik hüsnü ilə seçilən rəssamlardan biri də Əyyub Cəfər oğlu Fətəliyevdir. 7 noyabr 1925-ci ildə İrəvanda doğulub. Bakı Rəssamlıq Məktəbini (1944) və Vasili Surikov adına Moskva Rəssamlıq İnstitutunu (1952) bitirib.

Ali rəssamlıq diplomu alandan sonra üç il Moskvada Böyük Teatrda işləyib və 1955-ci ildə Bakıya gələrək Opera və Balet Teatrına quruluşçu rəssam götürülüb. 1957-ci ildən isə bu kollektivin baş rəssamı olub.

Səhnəqrafiya sənətində qazandığı nailiyyətlərinə görə Əyyub Fətəliyevə 29 iyun 1964-cü ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı verilib.

Əyyub Fətəliyevin Azərbaycan Dövlət Opera və Balet Teatrında tamaşalara verdiyi bədii tərtibatları arasında Cahangir Cahangirovun "Azad" və "Xanəndənin taleyi", Zaxari Paliaşvilinin "Daisi", Fikrət Əmirovun "Sevil", Anton Rubinşteynin "Demon", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", Üzeyir bəy Hacıbəyovun "Əsli və Kərəm" və "Koroğlu" (Tahir Salahovla birgə), Cüzeppe Verdinin "Aida", "Traviata", "Otello", Aleksandr Borodinin "Knyaz İqor", Zakir Bağırovun "Aygün", Modest Musorqskinin "Boris Qodunov", Pyotr Çaykovskinin "Qaratoxmaq qadın", Ramiz

Mustafayevin "Vaqif", Süleyman Ələsgərovun "Bahadır və Sona", İvan Dzerjinskinin "İnsanın taleyi", Rucero Leonkovallonun "Məshəkəçilər" operalarını, Soltan Hacıbəyovun "Gülşən" baletinin səhnə təfsirindəki rəssamlıq işləri daha məzmunlu, romantik cazibəli, emosional ifadəli olub.

Əyyub Fətəliyevin ayrı-ayrı tamaşalara verdiyi geyim eskizləri tarixi-etnoqrafik dəqiqliyinə, rəng bolluğunun koloritinə görə seçilir.

21 aprel 2000-ci ildə Bakıda vəfat edib.

## SERGEY YEFKENKO (21.10.1896 - 5.8.1971)

Azərbaycan milli səhnəqrafiyasının inkişafında müəyyən rolu olub. Yaradıcılığı monumental romantik üsluba daha yaxın idi. Klassik ifadə vasitələrinə üstünlük verib. Sergey Mitrofanoviç Yefimenko 20 oktyabr 1896-cı ildə Rusiyanın Çerniqov quberniyasının Borzna şəhərində doğulub. 1924-cü ildə Moskva Ali Bədii-Texniki Emalatxanasını bitirib. Üç il Moskva teatrlarında işləyib. Teatr-dekorasiya sənətində müəyyən təcrübə toplayan rəssam 1927-ci ildə Bakıya gəlib və ömrünün sonuna qədər burada yaşayıb.

1927-1971-ci illərdə ADRDT-də rəssam və baş rəssam işləyib. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (1936) və xalq rəssamı (1960) fəxri adlarına layiq görülüb. "Xəzər üzərində şəfəqlər" tamaşasma verdiyi tərtibata görə SSRİ Dövlət mükafatı laureatıdır.

Sergey Yefimenko RDT-də (Maksim Qorkinin "Ana" (1927), Aleksey Faykonun "Portfelli adam" (1928), Aleksandr Ostrovskinin "Tufan" (1934), Cəfər Cabbarlının "Sevil" (1930), "1905-ci ildə" (1934), Mixail Lermontovun "Maskrad" (1934 və 1959), Vsevold Vişnevskinin "Nikbin faciə" (1934), Nikolay Poqodinin "Tüfəngli adam" (1939), konstantin Trenyovun "Lyubov Yarovaya" (1940), Səməd Vurğunun "Xanlar" (1941), Aleksandr Korneyçukun "Partizanlar Ukrayna çöllərində" (1942), İmran Qasımovun "Xəzər üzərində şəfəqlər" (1950), Aleksandr Qriboyedovun "Ağıldan bəla" (1951), Vladimir Mayakovsninin "Hamam" (1957), Nazim Hikmətin "Domoki qılıncı" (1959), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (1958), Aleksandr Şteynin "Okean" (1960), Georgi Mdivaninin "Terezanın ad gününə" (1961), Edvard Radzinskinin "Film çəkilir..." (1966), Eduardo de Flipponun "İnsan və centlmen" (1968), Bernard Şounun "Missis Uorrenin peşəsi" (1968), əsərlərinə səhnə tərtibatı verib.

AMDT-də Cəfər Cabbarlının "Yaşar" (1932), Vilyam Şekspirin "Otello" (1932), "Hamlet" (1933), "Kral Lir" (1941) əsərlərinə səhnə tərtibətı verib "On ikinci gecə" (1946), Vasili Şkvarkinin "Özgə uşağı" (1934), Cabbar Məcnunbəyovun "Yanar dərə" (1938), Fridrix Şillerin "Məkr və məhəbbət" (1938), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (1939), Aleksandr Fadeyevin "Gənc qvardiya" (1948), Opera və Balet Teatrında "Yevgeni Onegin" (Pyotr Çaykovski), "Şah İsmayıl" (Müslüm Maqomayev) operalarına, Sezar Puninin "Esmeralda" baletmə müxtəlif üslub və formalarda səhnə tərtibatları işləyib.

Sergey Yefimenko 5 avqust 1971-ci ildə Bakıda vəfat edib.

## ELÇİN MƏMMƏDOV (29.5.1946 - 18.2.2001)

Görkəmli rejissor Mehdi Məmmədovla şöhrətli aktrisa Barat xanım Şəkinskayanın ailəsində doğulmuş Elçin fitri istedad sahibi idi. Göz açandan teatr aləmində böyüyən Elçin Məmmədov rəssamlığa lap uşaq yaşlarından başlayıb. Azərbaycan Dövlət İncəsənət İnstitutunun rəssamlıq fakültəsində təhsil alıb (1967- 1973). Müxtəlif vaxtlarda Musiqili komediya Teatrında, Opera və Balet Teatrında baş rəssam olub. 1989-cu il dekabr ayının 1-dən ömrünün sonuna qədər Akademik Milli Dram Teatrında baş rəssam kimi çalışıb.

Elçin Məmmədov Bakıdakı Gənc Tamaşaçılar Teatrında Anatoli Aleksinin "Qardaşım kiarnet çalır" (1970. Tələbə olarkən), Yevgeni Şvartsın "İki qayın ağacı" (1973), Kim Meşkovun "Pin və Qvin" (1974), Yevgeni Miteonun "Bumbaraş" (1977), Anarın "Şəhərin yay günləri" (1979), Aleksey Tolstoyun "Buratinonun səfehlər ölkəsində macəraları", Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" (1983), Karlo Qotsinin "Yelkənlər üzərində nəğməli kü1ək" (1987), Kamal Aslanovun "Yuxulama" dramlarının (1989) tamaşalarının rəssamı olub.

Musiqili Komediya Teatrında Oqtay Kazımov və Cənnət Səlimovanın "Danabaş kəndinin əhvalatları", Rəşid Şəfəq və Abdulla Şaiqin "Tülkü Həccə gedir", Leonid Vaynşteyn və Rüstəm İbrahimbəyovun "Səhranın bəyaz günəşi", İohan Ştrausun "Yarasa", Cahangir Cahangirov və Seyfəddin Dağlının "Təzə gəlin", Fikrət Əmirov və Məhərrəm Əlizadənin "Gözün aydın" operetta və musiqili komediyalarına bədii tərtibat verib.

Azərbaycan Dövlət Rus Dram Teatrında Maksim Qorkinin "Həyatın dibində", Aleksey Vampilovun "Əyalət lətifələri", Hüseyn Cavidin "Şeyx Sənan" pyeslərinin, Naxçıvan DMDT-də Evripidin "Elektra" faciəsinin, Gəncə DDT-də Maqsud İbrahimbəyovun "Mezozoy əhvalatı", Mixail Lermontovun "İki qardaş", Lənkəran DDT-də İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı", Nikolay Qoqolun "Müfəttiş", Marionet Teatrında Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" əsərlərinin tamaşalarının bədii tərtibat rəssamıdır.

Zəngin və bəhrəli yaradıcılıq irsi yaratmış Elçin Məmmədovun səhnəqrafiya fəaliyyətində Akademik Milli Dram Teatrında hazırlanmış tamaşalara verdiyi tərtibatlar xüsusi yer tutur. O, bu sənət ocağında Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan" (1971, tələbə vaxtı), Səməd Vurğunun "İnsan" (1974), Mirzə Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" (1978), Rüstəm İbrahimbəyovun "Biganələr oteli" (1984), Arif Süleymanovun "Tufandan əvvəl" (1987), Vilyam Şekspirin "Kral Lir" (1996), Elçinin "Ah, Paris... Paris!.." (1997), "Mənim sevimli dəlim" (1998) əsərlərinin tamaşalarına quruluşçu rəssamlıq edib.

Məşhur teatr rəssamı "İblis" tamaşasının tərtibatına görə həmkarı Nazim Bəykişiyevlə birlikdə Respublika Dövlət mükafatı laureatı olub (27 aprel 1984). Əməkdar incəsənət xadimi fəxri adını alıb (22 may 1991).

## RÜSTƏM MUSTAFAYEV
## (25.2.1910- 19.7.1940)

Milli teatr dekorasiyası sənətimizin banilərindən biri Rüstəm Məmməd oğlu on beşillik yaradıcılıq dövründə qırxdan çox səhnə əsərinə bədii tərtibat verib.

Rüstəm Mustafayev 25 fevral 1910-cu ildə Bakıda doğulub.

Rəsm çəkməyə erkən yaşlarından başlayıb. Yeddinci sinifi bitirdikdən sonra orta ixtisas rəssamlıq məktəbinə daxil oldub.

1926-cı ildə Bara Rəssamlıq Məktəbini bitirmiş Rüstəm Mustafayev hələ son kursun ilk günlərindən Bakı Türk İşçi və kəndli Teatrında (1927-ci ildən Bakı Türk İşçi Teatrı adlanıb) tərtibatçı rəssam kimi çalışıb. 1932-ci il dekabnn 28-də həmin teatrın Gəncə şəhərinə köçürülməsi barədə hökumət qərar çıxarıb. Rüstəm Mustafayev Akademik teatra baş rəssam dəvət olunub və 1938-ci ilə qədər burada səmərəli fəaliyyət göstərib.

Zərif dəst-xətti, incə kompozisiya qurumu, lirik rəng ahəngdarlığı olan Rüstəm Mustafayev 1939-cu ildə Moskvada tikilən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində monumental Azərbaycan pavilyonunun və işlənMəsmə 1940-cı ildə başlanan Nizami muzeyinin tərtibatçı rəssamlarındandır.

Rəssam Opera və Balet Teatrında da məhsuldar çalıçıb. Burada Üzeyir bəy Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", Müslüm Maqomayevin "Şah İsmayıl" operalarına və Pyotr Çaykovskinin "Sonalar gölü" baletinə tərtibat quruluşu verib.

"Aşıq Qərib" onun tərtibatında Musiqili Komediya Teatrında da oynanıb. Rəssam həmçinin burada "Arşın mal alan" operettasının tərtibat eskizlərini çəkib.

İşçi və kəndli Teatrında Süleyman Rüstəmin "Qana qan", Seyid Hüseynin "Kölgə", Süleyman Rüstəm və Hacıbaba Nəzərlinin "Yanğın", Yuri Yankovskinin "Qəzəb" (rəssam V.Roberqlə birgə), Əbdülhəq Hamidin "Hind qızı", Aleksandr Şirvanzadənin "Morqanın qohumu", Jan Batist Molyerin "Cancur Səməd" və "Mıqqı Kərim" ("Xəsis"), Fyodor Pavloun "Çin tanrısı" ("Tunc büt"), Mirzə Sadıqovun "Üç il", Vladimir Kirşonun "Qızıl trenlər", P.Romanovun "Zəlzələ", Vladimir Bill-Beloserkovskinin "Tufan", Boris Lavrenyovun "Üsyan" ("Düşmənlər"), Viktor Hüqonun "Paris Notrdam kilsəsi" ("Müqəddəs Məryəm ana məbədi"), Əbdübağı Fövzi və Həbib İsmayılovun "Gizli əl", Cəfər Cabbarlının "Sevil" (geyim üzrə) əsərlərinin tamaşalarının rəssamlığını Rüstəm Mus-tafayev edib.

Akademik Milli Dram Teatrında ilk işi 1925-ci ildə Aleksandr Tuqanovun rejissorluğu ilə hazırlanan Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasında tərtibat rəssamlığı olub. Həmin rejissorla Əs Həbib Vəfanın "Bombey" tamaşasında da işləyib (1930).

Əlihüseyn Rzayevin quruluşunda Şəmsəddin Saminin "Dəmirçi Gavə" (1929), İsmayıl Hidayətzadə ilə Cəfər Cabbarlının rejissorluğunda Cəfər Cabbarlının "Dönüş" (1932), Rza Darablının, Rza Təhmasibin, İsmayıl Hidayətzadənin və Ələsgər Şərifovun səhnə təfsirində Hüseyn Cavidin "Şeyx Sənan" (1932), Rza Darablının, İsmayıl Hidayətzadənin və Cəfər Cabbarlının rejissor işləməsində Mirzə Cəlil Məmmədquluzadənin "Ölülər" (1933), Sergey Mayorovla Əhməd Tiriniçin qurulu-şunda Cəfər Cabbarlının "Od gəlini" (1933), İsmayıl Hüseynovun rejissorluğunda Valentin katayevin "Çiçəklər yolu" (1934), Abbasmirzə Şərifzadənin yozum verdiyi Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (1935), İsmayıl Hidayətzadənin quruluşçu rejissor olduğu Cananın "Şahnamə" (Mirzə Fətəli Axundzadənin "Aldanınış kəvakib" povestinin motivləri əsasında. 1936), Məhərrəm Haşımovun hazırladığı Sabit Rəhmanın "Toy" (1939) əsərlərinin tamaşalarına bədii tərtibat verib.

Cəfər Cabbarlının "1905-ci ildə" dramı həm dramaturqun özünün quruluşunda (1932), həm də rejissorlardan Rza Darablının (1935) və İsmayıl Hidayətzadənin (1937) səhnə təfsirlərində məhz Rüstəm Mustafayevin tərtibatı ilə oynanılıb.

Fitri istedad sahibi Rüstəm Mustafayev otuz bir yaşının içində dünyasını dəyişib. Qəbri Bakıda Fəxri xiyabandadır.

Bakıdakı Azərbaycan Dövlət İncəsənət Muzeyi dahi rəssamın adını daşıyır.

Rüstəm Mustafayevin səhnə tərtibatlarında cazibəli kompozisiya aydınlığı vardı.

Klassik teatr tərtibatının monumentallıq ənənəsini çağdaş izınlərlə, ilk növbədə konstruktivimizin səmərəli cəhətləri ilə ustalıqla birləşdirib.

Sırf romantik pyeslərin tamaşalarına verdiyi tərtibatlarda da səhnə realizmi güclü və təsiredici, ifadəli və məzmunlu olub.

Sərt, ancaq isti rənglərdən istifadəyə üstünlük verib.

Dekorların rəng düzümündə, ahəng biçimində, məzmun ifadəsində milli motivlər daha qabarıq nəzərə çarpıb.

Rüstəm Mustafayev tərtibatı tamaşanın obrazı kimi ümumiləşdirməyə çalışan və bu istiqamətdə nailiyyətlər qazanıb ənənə yaradan ilk rəssamlarımızdandır.

Hazırladığı tərtibatlarda dram, komediya, opera, balet, operetta janrlarının özünəməxsus poetika xüsusiyyətlərinin meyarlarını həssaslıqla gözləyir, estetik ifadə vasitələrini doğru-dürüst müəyyənləşdirirdi.

Rüstəm Mustafayev 19 iyul 1940-cı ildə Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

## TEATR TAMAŞASI VƏ MUSİQİ

Peşəkar Azərbaycan teatrının təşəkkülündən sonra təxminən əlli il göstərilən tamaşalarda bədii musiqi tərtibatı anlayışı olmayıb. Bütövlükdə teatr müəyyən peşəkarlıq keyfiyyətlərinə yiyələndikcə, müxtəlif səhnə vərdişləri formalaşdıqca, tamaşa estetikası təkmilləşmə mərhələsinə çatdıqdan sonra əvvəllər Tiflisdə, sonralar Bakıda, İrəvanda, Şuşada həvəskar aktyorların oynadıqları tamaşaların fasilələrində məşhur xanəndələr muğam dəsgahları oxumuşlar. Bəzən aşıqlar və sazəndə dəstələri də pərdəarası müddətlərdə xüsusi proqramlarla çıxışlar etmişlər.

Göründüyü kimi, musiqi tamaşanın estetik anlamına və qavranılmasma atribut kimi daxil olmamışdır.

1920-ci illərdə Bakıda, Tiflisdə, bir qədər sonra İrəvanda Azərbaycan dilində Dövlət teatrları fəaliyyət göstərəndə kollektivlərə səriştəli əcnəbi musiqiçilər cəlb olunmuşlar. Onlar tamaşaya quruluş verən rejissorun fikrinin aparıcı mahiyyətinə uyğun olaraq rus, alman, fransız, polyak bəstəkarlarınm müxtəlif əsərlərindən parçalar seçərək və özləri müəyyən musiqi fraqmentləri quraşdıraraq tamaşaya əlavə etmişlər. Həmin musiqi partituralarını zəif heyətli, çalğı alətləri baxıınından məhdud tərkibli ansambllar, sonralar kiçik orkestrlər ifa etmişlər. Musiqiçilərin tərkibində həm milli, həm də kias-Slk Avropa musiqi alətləri vardı.

Musiqinin dram tamaşalarında səhnə əsərinin başlıca at-ributuna çevrilməsində Milli Dram Teatrının uğurları daha ilkin olmuşdur və bu sənət ocağı böyük ənənə yaratınağa başlamışdır.

Azərbaycanlı bəstəkarlar arasında dram tamaşasma ilk dəfə musiqi bəstələyən sənətkar Əfrasiyab Bədəlbəylidir. Onun ilk işi Cəfər Cabbarlının "Od gəlini" qəhrəmanlıq faciəsinə Aleksandr Tuqanovun verdiyi quruluşda olub. Həmin tamaşa üzərində bir ildən çox yaradıcılıq işi aparılıb və əsərin premyerası 16 fevral 1928-ci ildə olub. Növbəti teatr mövsümündə rejissorun təklifi və dramaturqun mövzu tövsiyəsi ilə Əfrasiyab Bədəlbəyli "Od gəlini" tamaşasının musiqisi üzərində əsaslı şəkildə yenidən işləmiş, əlavələr etmiş, mahnıların ritm ruhunu təzələmişdir.

Milli Dram Teatrında xeyli müddət dirijor vəzifəsində və musiqi hissə müdiri kimi çalışmış Əfrasiyab Bədəlbəyli Həbib Əs Vəfanın "Bombey" (1930), Cəfər Cabbarlının "1905-ci ildə" (1931, 1935 və 1944), "Sevil" (1935 və 1944), "Almaz" (1936), Əsəd Tahirlə Abbasmirzə Şərifzadənin "Axirəzzaman" (1931), Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (1938), Mehdi Hüseynin "Şöhrət" (1939), Səməd Vurğunun "Xanlar" (1939 və 1949) və "Fərhad və Şirin" (1941 və 1959), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (1945) pyeslərinin tamaşalarına musiqi bəstələmişdir.

Azərbaycan teatrında bəstəkar işini mövzu-problematika dairəsmə, janr-üslub axtarışlarına görə və klassik Avropa musiqisi ilə milli musiqimizin sintezinin estetik xüsusiyyətləri baxımından üç dövrə ayırmaq olar.

Birinci dövr: 1928 - 1959-cu illər.

İkinci dövr: 1960 - 1979-cu illər.

Üçüncü dövr: 1980 - 2004-cü illər.

Birinci dövrdə daha çox tamaşaya musiqi yazan bəstəkar Səid Rüstəmov olmuşdur. O, Milli Dram Teatrında 1937-ci və 1954-cü ildə Mirzə İbrahimovun "Həyat", 1938-ci ildə Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Cabbar Məcnunbəyovun "Yanar dərə", Səməd Vurğunun "Vaqif", 1939-cu ildə Sabit Rəhmanın "Toy", Cəfər Cabbarlının "Od gəlini", 1940-cı ildə Məmmədhüseyn Təhmasibin "Bahar", 1942-ci ildə Mehdi Hüseynin "Nizami", 1943-cü ildə Cəfər Cabbarlının "Almaz", Rəsul Rzanın "Vəfa", 1944-cü ildə İlyas Əfəndiyevlə Mehdi Hüseynin "İntizar", 1945-ci ildə Zeynal Xəlilin "Qatır Məmməd", 1946-cı ildə Abdulla Şaiqin "Nüşabə", 1947-ci ildə Ən-vər Məmmədxanlının "Şərqin səhəri", 1948-ci ildə İlyas Əfəndiyevin "Bahar suları", 1951-ci ildə Məmmədhüseyn Təhmasibin "Çiçəklənən arzular", 1952-ci ildə Aleksandr Şirvanzadənin "Namus", 1955-ci ildə Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", 1958-ci ildə Süleyman Rüstəmin "Qaçaq Nəbi" dram, faciə və komediyalarına musiqi bəstələmişdir. Onun musiqisi dramatizmi təcəssüm etdirməsi, lirizmlə melodramanın vəhdəti, coşqun ruhu ilə səciyyəvidir.

Niyazinin dramaturq Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq " (1935) və "Pəri cadu" (1940), Aleksandr Ostrovskinin "Cehizsiz qız" (1945), İlyas Əfəndiyevin "Atayevlər ailəsində" (1954), Qara Qarayevin yazıçı Mir Cəlalm "Mirzə Xəyal" (1943), Boris Çirskovun "Qaliblər" (1947), Vilyam Şekspirin "Otello" (1949 və 1959), "Qış nağılı" (1955), Lope de Veqanın "Rəqs müəllimi" (1949), Soltan Hacıbəyovun nasir-dramaturq Mirzə İbrahimovun "Məhəbbət" (1942), Süleyman Sani Axundovun "Eşq və intiqam" (1943), Səməd Vurğunun "İnsan" (1945) və Sabit Rəhmanın "Aşnalar" (1945) pyeslərinin tamaşalarına bəstələdikləri musiqi faciəvi monumentallığı, psixoloji romantizini, kəskin emosional çalarları ilə daha çox yadda qalırdı.

Dramatik təbəddülatları, təzadlı hadisələrin psixoloji dönüşləri, məna dərinliyinin reallıq tutumu baxımından Müslüm Maqomayevin, Tofiq Quliyevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun, Zakir Bağırovun, Süleyman Ələsgərovun yaradıcılıqları daha çox maraq doğurur.

Tofiq Quliyev Vilyam Şekspirin "On ikinci gecə" (1946), Arno D'Nyussonun və Ceyms Qounun "Dərin köklər" (1948), Karlo Haldoninin "Məzəli hadisə" (1952), İmran Qasımovla Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (1956), Nazim Hikmətin "Qəribə adam" (1956) əsərlərinin tamaşalarına musiqi bəsdələyib.

Fikrət Əmirovun dramaturq İlyas Əfəndiyevin "İşıqlı yollar" (1947), Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (1950), Cəfər Cabbarlının "1905-ci ildə" (1955), Hüseyn Cavidin "Şeyx Sənan" (1956), Mehdi Hüseynin "Cavanşir" (1957) əsərlərinin bəstəkarıdır.

Zakir Bağırovun ispan ədibi Lope de Veqanın "Sevilya ulduzu" (1953), Cahangir Cahangirovun Əbdürrəhim bəy Haqverdiyevin "Köhnə dudman" (1950), Cəfər Cabbarlının "Od gəlini" (1951), Nazim Hikmətin "Türkiyədə" (1953), Yuri Osnos və Viktor Vinnikovun "Hind gözəli" (1959), Süleyman Ələsgərovun dramaturqlardan Cabbar Məcnunbəyovun "İldırım" (1955), İslam Səfərlinin "Yadigar" (1956), Şəfiqə Axun-dovanın Cabbar Məcnunbəyovun "İliç buxtası" (1958), Müslüm Maqomayevin Cəlil Məmmədquluzadənin "Ölülər" (1933), Qəmbər Hüseynlinin Cəfər Cabbarlının "Almaz" (1957), Hasan Rufatovun Hüseyn Cavidin "Knyaz" (1931) dramlarının tamaşalarında yaratdıqları musiqi nümunələri teatr estetikası baxımından daha yaddaqalandır.

Həmin istiqamətdə tanınmış rus bəstəkarı Reynqold Qlierin Aleksandr Afinogenevin "Qorxu" (1932), Boris Asafyevin Lev Slavinin "İntervensiya" (1933), Boris Zeydmanın AMDT-də Aleksandr Ostrovskinin "Tufan" (1943) pyeslərinin səhnə quruluşlarına bəstələdikləri musiqi Azərbaycan teatrının üslub və janr axtarışlarının estetik mahiyyəti ilə harmonik vəhdətdə səslənirdi.

Milli Dram Teatrında 1930-1979-cu illərdə psixoloji realizmın monumental romantizınlə qovuşuğu, lirik-psixoloji üslubun təşəkkülü və formalaşması, fəlsəfi təmayüllü monumental romantizının yeni ifadə vasitələri ilə zənginləşməsi öz təcəssümünü musiqi tərtibatında parlaq şəkildə tapmışdır.

Fəlsəfi monumentallıq Qara Qarayevin Vilyam Şekspirin "Antoni və Kleopatra" (1964), "Hamlet" (1968), Cəlil Məmmədquluzadənin "Ölülər" (1966), Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" (1969), Cahangir Cahangirovun Hüseyn Cavidin "Xəyyam" (1970), Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" (1978), Əfrasiyab Bədəlbəylinin Hüseyn Cavidin "Səyavuş" (1963), Fərəc Qarayevin Cəfər Cabbarlının "Aydın" (1972), Vilyam Şekspirin "Fırtına" (1974) pyeslərinin tamaşalarına bəstələdikləri musiqinin ruhuna hopmuşdur.

Bəstəkarlar adı çəkilən tamaşalarda musiqini tamaşanın obrazı kimi həll etməyə çalışmışlar.

1960-cı illərin əvvəllərində teatr psixologizınə xüsusi meyil göstərirdi və bu istiqamətdə yeni janr axtarışları apardığı kimi, musiqi tərtibatında da üslub yeniliklərinə meydan açılmışdı. AMDT-də Elmira Nəzirovanın Cəfər Cabbarlının "Dönüş" (1960), Süleyman Ələsgərovun Adil Babayevin "Dağlar qızı" (1960), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (1961), Soltan Hacıbəyovun Mehdi Hüseynin "Alov" (1961), Nazim Əliverdibəyovun Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (1962), Emin Sabitoğlunun Sabit Rəhmanın "Yalan" (1965), Tofiq Quliyevin Mirzə İbrahimovun "Yaxşı adam" (1965), Sevda İbrahimovanın Cəfər Cabbarlının "Oqtay Eloğlu" (1966), Azər Rzayevin

Qeybulla Rəsulovun "Söz yarası" (1966) dramlarının tamaşalarına bəstələdikləri musiqi psixoloji dərinliyi, ritm ahənginin dramatizmi, konfliktin ideya yükünü həssaslıqla daşıması ilə xarakterikdir.

1964-cü ildə İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesinin tamaşası (bəstəkar Fikrət Əmirov idi) ilə teatrda lirik psixoloji üslubun təməli qoyuldu.

"Sən həmişə mənimləsən" tamaşası dramaturgiyada olduğu kimi, rejissurada, aktyor yaradıcılığında, bədii tərtibatda və bəstəkar işində də yeni ifadə vasitələrinin təşəkkül tapıb formalaşmasma, cəsarətli axtarışlara zəmin yaratdı. Bəstəkarlar tamaşalara yazdıqları musiqidə lirik emosionallığı ilkin götürür, obrazın daxili təbəddülatlarını zərif, kövrək hisslər aşılayan təranələrlə verməyi üstün tuturdular.

Bu baxımdan Emin Sabitoğlunun dramaturq İlyas Əfəndiyevin "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Qəribə oğlan" (1973), Anarın "Şəhərin yay günləri" (1977), Rauf Hacıyevin ədib Şıxəli Qurbanovun "Sənsiz" (1967), Aqşin Əlizadənin yazıçı İmran Qasımovun "Nağıl başlananda" (1973), Arif Məlikovun şair-dramaturq Nəbi Xəzrinin "Əks-səda" (1975) pyeslərinin tamaşaları üzərindəki işləri poetik hüsnü, milli koloriti, təravəti və emosional cazibəsi ilə mühüm sənətkarlıq məziyyətləri daşıyır.

Həmin istiqamətdə Vasif Adıgözəlovun, Xəyyam Mirzəzadənin, Oqtay Kazımovun, Adil Bəbirovun, Tofiq Quliyevin, Ramiz Mirişlinin də uğurlu işləri var.

Son iyirmi ildə teatrın janr-üslub, məzmun və forma axtarışlarındakı ciddi nailiyyətlər bəstəkarlardan Polad Bülbüloğlunun, Cavanşir Quliyevin, Səyavuş Kəriminin, Aydın Əzimovun, Eldar Mansurovun yaradıcılıqlarında müxtəlif səviyyələrdə özünün ifadəli təcəssümünü tapıb.

Bəstəkarlarla canlı iş prosesi qurmaq baxımından Banı Türk İşçi Teatrı və Gənc Tamaşaçılar Teatrı səmərəli təcrübə toplamışlar. Asəf Zeynallının İşçi Teatrında Ədülhəq Hamidin "Hind qızı", Fyodor Pavlovun "Çin tanrısı" (1929), Vladimir Kirşonun "Küləklər şəhəri" (1932), Süleyman Rüstəmlə Hacıbaba Nəzərlinin "Yanğın" (1931) tamaşalarına bəstələdiyi musiqilər estetik məna tutumuna görə müasir səslənmişdir.

Səid Rüstəmov, Tofiq Quliyev, Qara Qarayev, Cahangir Cahangirov, Azər Rzayev, Oqtay Kazımov bir sıra tamaşalara quruluşlar veriblər.

Gənc Tamaşaçılar Teatrı isə milli bəstəkarlarımızın bütün yaşlı nəsili ilə yüksək yaradıcılıq əlaqələri qurub. Səid Rüstəmov, Tofiq Quliyev, Qara Qarayev, Cahangir Cahangirov, Azər Rzayev, Oqtay Kazımov bu teatrda bir sıra tamaşalara musiqi quruluşları veriblər.

İrəvanda, Tiflisdə, Naxçıvanda, Gəncədə teatrlar həm yerli musiqiçilərlə, həm də tanınmış bəstəkarlarla yaradıcılıq əlaqələri qura bilmişlər.

Emin Sabitoğlu, Aydın Əzimov, Cavanşir Quliyev Şəki Dövlət Dram Teatrında və Bakıdakı Dövlət Gənclər Teatrında müəyyən tamaşalara maraqlı musiqilər bəstələyiblər.

Azərbaycan Dövlət Kukla Teatrında Cahangir Zülfüqarov, Zakir Bağırov, Şəfiqə Axundova, Oqtay Zülfüqarov, Vasif Adıgözəlov, Vaqif Mustafazadə, Rəşid Nəsiboğlu, Cəmil Əmirov müxtəlif tamaşalara musiqi bəstələyiblər.

Bu gün Azərbaycanda dramatik teatrların heç birində müstəqil orkestr fəaliyyət göstərmir. Musiqilər əvvəlcədən kompyüter disklərinə və ya maqnitafon lentlərinə yazılaraq tamaşa vaxtı səsləndirilir.

## TEATRŞÜNASLIĞIN FORMALAŞMA MƏRHƏLƏLƏRİ

Teatrşünaslıq teatr sənətinin fəlsəfi dəyərləri, estetik prinsipləri, poetika xüsusiyyətləri, bir sözlə, onun bütün tədqiqi və nəzəri problemləri ilə məşğul olan elındir.

Teatrşünaslığın üç əsas qolu var. Birincisi, tarixi-tədqiqat qoludur ki, milli səhnə sənətimizin və yaxud ayrıca bir teatrın yaradıcılığının təşəkkülünü, müxtəlif inkişaf mərhələlərini tədqiq edib araşdırır, elmi əsərlər ortaya çıxarır. Müxtəlif görkəmli səhnə xadimləri barədə yazılan monoqrafiyalar, irihəcmli portret-kitablar da buraya daxildir.

Teatrşünaslığın ikinci qolu bütövlükdə səhnə sənətinin elmi nəzəri əsaslarını öyrənir. Burada milli teatrın müxtəlif estetik prinsipləri, poetika özəllikləri, dünya teatrı ilə Azərbaycan səhnəsinin elmi-nəzəri bağlılığı, aktyor məktəblərinin, rejissor üslublarının mahiyyət və səciyyələri, dəyərləri araşdırılır. Milli teatrın konseptual poetika xüsusiyyətlərinin elmi modeli qurulur.

Operativ teatrşünaslıq üçüncü qol kimi səciyyələnir və özünü ilk növbədə teatr tənqidi kimi realizə edir. Buraya teatrın cari problemləri, yeni tamaşalar barədə resenziyaları daxildir. Eyni zamanda ayrı-ayrı sənət ocaqlarının çağdaş yaradıcılıq durumunun ən müxtəlif problemləri operativ şəkildə mətbuata çıxarılır, elmi mübahisələr aparılır, qənaətlər çözələnib məntiqli nəticələrə gəlmək üçün aydın mənzərə yaradır.

Azərbaycan teatrşünaslığı bu üç qolun üçündə də fəaliyyət göstərir. Fundamental teatrşünaslığımız məhz onların küll halında götürülməsində özünün nailiyyət və çatışmazlıqlarını daha aydın büruzə verir.

Maraqlıdır ki, hələ peşəkar teatrımız təşəkkül tapmamışdan əvvəl milli teatrşünaslıq elmimizin müəyyən əsasları qoyulub. Mirzə Fətəli Axundzadə özünün məşhur komediyaları ilə yanaşı, teatr sənətinə, onun xalqın maariflənməsində kəsb etdiyi böyük əhəmiyyətinə, mənəvi-əxlaqi keyfiyyətlərinin inkişafına təsirinə, dünyagörüşlərinin nadanlıq çamırlığından xilas olmasında oynadığı rola aid çox dəyərli nəzəri və estetik fikirlər söyləmişdir. Deməli, elə milli teatrşünaslığımızın ilkin rişələri də kök etibarilə Mirzə Fətəli irsinə bağlanır. Bununla belə, sözsüz ki, Axundzadənin teatra aid yazıları hələ peşəkar teatrşünaslıq deyildi və həiə fundamental əsaslarını yaratmaq üçün ona müəyyən mərhələləri keçmək lazım idi.

Bu baxımdan milli teatrşünaslığımızın inkişaf yolunu şərti olaraq dörd mərhələyə bölmək olar.

**Birinci mərhələ (1873-1905**). Bu dövr elmin ibtidai formalarının yaranması və ona göstərilən ziyalı cəhdləri ilə xarakterikdir. 10 mart 1873-cü ildə Bakıda ilk dəfə "Lənkəran xanının vəziri" tamaşası oynanıldıqdan on beş gün sonra, yəni martın 25-də "Kavkaz" qəzeti bu hadisə barədə məlumat verib. Hətta onu da qeyd edib ki, Dünya bina olandan indiyədək birinci dəfədir Azərbaycan dilində tamaşa oynanılır. Ta-maşadan 150 manat pul hasil olduğu da həmin məlumatda göstərilir. Teatr tariximizdən bilirik ki, ilk tamaşanı oynayan teatr həvəskarları xeyriyyə məqsədilə həmin il aprelin 17-də yenə Mirzə Fətəlinin növbəti əsərini, "Hacı Qara" komediyasını Nəciblər klubu deyilən Bakı cəmiyyət yığnağı binasında göstəriblər. O vaxt Tiflisdə çıxan "Kavkaz" qəzeti mayın 13-də həmin tamaşa barədə də xəbər dərc edib.

Beləliklə, Azərbaycanda teatrşünaslığın birinci mərhələsi başlayıb və 1906-cı ilə qədərki dövr məhz ona aiddir. 1875-ci ildən 1906-cı ilə qədər Tiflisdə, Bakıda, İrəvanda, Baxçasarayda Azərbaycan, rus, tatar dillərində nəşr olunan "Əkinçi", "Bakınskaya izvestiya", "Ziya", "Kəşkül", "Kavkazskoye obozreniye", "Kaspi", "Tərcüman", "Novoye obozreniye", "Tiflisski listok", "Nordar", "Şərqi Rus", "Həyat", "Baku", İranda çıxan "Həblülmətn", Peterburqda dərc edilən "Teatralnaya qazeta" qəzetlərində, "Kavkazski vestnik" məcmuəsində Azərbaycan teatr prosesini təcəssüm etdirən yazılar oxuculara çatdırılıb. Burada daha çox məlumat-informasiya məqsədi güdülüb. Ancaq elə onların özləri də həm o dövrdə xalqı maariflənməyə səsləməsi, teatrın təbliği,

milyonçuları məmləkətimizdə bu sənətin tərəqqisinə köməyə çağırması bu gün həmçinin teatr tariximizin öyrənilməsi baxımından çox qiymətlidir.

Maraqlı olanı bir də budur ki, həmin məlumatların əksəriyyətini çap üçün redaksiyalara məhz azərbaycanlı maarifpərvər ziyalılar yazıb göndərmişlər. Düzdür, bəzən mətbuat səhifələrində teatra aid, onun təşəkkülü, təşkili, yeni binaların tikilməsi barədə də nisbətən irihəcmli yazılar verilirdi. Onlar sırf teatrşünaslıq yazıları olmasalar da, hər halda teatr prosesinin canlılığını, səviyyəsini, mövcud qüsurları, ziyalıların bu işin tərəqqismə yardımlarının səviyyəsini göstərməsi baxımından dəyərlidir.

**İkinci mərhələ (1906-1919).** Bakıda 1906-cı ildə "Nicat", sonra "Həmiyyət", 1912-ci ildə "Səfa" mədəni-maarif cəmiyyətləri nəzdində teatr truppalarının, 1916-cı ildə "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" dəstəsinin, 1917-ci ildə Abbasmirzə Şərifzadənin yaratdığı "Müsəlman artistləri ittifaqı"nın, Tiflisdə "İttihad" və "İbrət" teatr dəstələrinin, İrəvanda "Dram artistləri birliyi"nin yarannası ilə teatr prosesi sıçrayışlı dirçəlişə başladı. Artıq adları çəkilən şəhərlərdə peşəkar aktyorlar dəstəsi yaranmışdı və onlar özləri də hiss etmədən milli teatrımızın yeni inkişaf sütunlarını ucaldırdılar.

Həmin dövrdə rus dilində çapını davam etdirən "Kaspi", "Baku", tatarca "Tərcüman", "Həyat", azərbaycanca yeni nəşrə başlayan "İrşad", "Kavkazskaya reç", "Təkamül", "Proqress", "Təzə həyat" (Vladiqafqazda çap olunub), "Füyuzat", "Əxbar", "Seqodnya", "Tərəqqi", "İttifaq", "Zənbur", "Səda", "Günəş", "Yeni həqiqət", "Kavkazskaya kopeyka", "Məlumat", "Yeni İrşad", "Sədayi həqq", "Haqq yolu", "Təzə xəbər", "İqbal", "Məktəb", "Bakınski teatralnı kuryer", "Bəsirət", "Sədayi Qafqaz", "Məzəli", "Teatr i iskusstvo", "Açıqsöz", "Tuti", "Doğrusöz", "Sovqat", "İttihad", "Hümmət", "Gənclər yurdu", "Azərbaycan", "İstiqlal", "Zəhmət sədası", "Hürriyyət", "Azərbaycan füqərası" qəzet və jurnallarında dərc olunan yazılardan milli səhnə sənətimizin vəziy-yətini və yaradıcılıq durumunu müəyyənləşdirmək olar.

Mirabbas Mirbağırov, Məmmədsadıq Axundov, Səfərəli Vəlibəyov, Hacı İbrahim Qasımov, Qurbanəli Şərifov, Ağadadaş Həsənov, Xəlil İbrahim (İbrahimov), Məmmədəli Səfərov, Haşım bəy Vəzirov, Ceyhun Hacıbəyli, Üzeyir bəy Hacıbəyov, Rəhim bəy Məlikov, Eynalı bəy Sultanov, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Minasazov kimi müxtəlif peşə sahibləri olan ziyalılar tamaşalar barədə resenziyalar yazırdılar. Onların teatrın müxtəlif problemlərinə aid məqalələri də çap olunurdu. Hələlik forma və məzmununda müəyyən primitivlik duyulsa da, resenziya janrı Azərbaycan teatrşünaslığında önə keçmişdi. Müəlliflərin qiymətvermə meyilləri tam elmi-nəzəri fikir yükü daşımasa da "yaxşı", "Kafi", "pis" qiymətləri ilə tamaşa ifaçılarının oyunları barədə kifayət qədər məlumatlar və şərhlər də var.

Teatra aid müxtəlif səpkili məqalələr yazan müəlliflərin işləri Bakıdan əlavə Tiflisin "Məzhər", "Tiflisski listok", "Tiflisskoye sobraniye", "Droeba", "Zritel", "Molla Nəsrəd-din", "Oqni", "Musulmanskaya qazeta", Şuşada çıxan "Şuşinski listok", "Şuşinskaya jizn", Moskvada çap olunub Azər-baycanda da oxunan "RUSSki artist", "Teatr i iskusstvo", "Rampa i jizn" qəzetlərində, jurnallarında çap olunurdu. Azərbaycanlı müəlliflərin teatr sənətinə, aktyor yaradıcılığına, teatr və mədəniyyət, teatr və maarif problemlərinə aid mə-qalələri oxuculara çatdırılırdı. İxtisasca hüquqşünas olan, uzun illər müxtəlif truppalarda aktyorluq etmiş Mehdi bəy Hacınski bir müddət "Rampa i jizn" jurnalının Azərbaycan üzrə xüsusi müxbiri olmuşdur.

Teatrşünaslığın ikinci mərhələsi adlandırdığım dövrdə resenziya janrı təşəkkül tapıb inkişaf etdi. Eyni zamanda ay-rı-ayrı aktyorların yaradıcılıqlarından bəhs edən kiçik portret janrlı yazılar da mətbuatda yer tutınağa başladı. Beləliklə, operativ janr kimi resenziya həmin dövrdə daha populyar olub və tədricən özünün estetik cilalanınası ilə səciyyəvi xarakter daşıyıb.

**Üçüncü mərhələ (1920-1949**). 1919-cu ildə Dövlət teatrı təsis olundu və səhnə sənəti 1920-ci ildə institusional mə-dəniyyətin faktı kimi yeni forma və məzmun kəsb etdi. Tədricən "sovet teatrı" anlayışı dilə keçdi və səhnədə onun təmsilçiləri olduğu kimi, teatrşünaslıqda da həmin mövqe və es-tetikanın nümayəndələri yarandılar.

Teatrşünaslıq elmimiz hələ peşəkarlaşmasa da, səhnə sənətinə, dramaturgiyaya, rejissor və aktyor yaradıcılığına dərindən bələd olan ədəbiyyatşünaslar, dramaturqlar, nasirlər, şairlər, jurnalistlər, dilçi alimlər, hətta inzibati işdə çalışan siyasi xadimlər teatr prosesini izləyir, onu mətbuatda bütün canlıhğı ilə təcəssüm etdirməyə çalışırdılar. Artıq onların yazılarında tamaşanın və ya pyesin peşəkar təhlilinin dərinliyi özünü göstərirdi. Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, xüsusən əsərləri repertuarın əsasını təşkil edən Cəfər Cabbarlı ilə Hüseyn Cavidin dram və faciələri barədə geniş təhlilli məqalələr yazılırdı. Dram janrı, əsasən ədəbiyyatşünaslıq prizmasından araşdırılsa da, yeri gəldikCə təhlilin mahiyyətində teatrşünaslığa meyl duyulurdu.

Ötən əsrin iyirminci və otuzuncu illərində "Maarif və mədəniyyət", "Dan ulduzu", "Hücum" kimi jurnallarda dramaturgiya ilə teatra aid genişhəcmli məqalələr verilirdi. Onların da əksəriyyəti müzakirə təriqi ilə dərc edilirdi və sözsüz ki, siyasi ruh üzdə olan yazılarda müəyyən ideoloji basqılar olurdu. Ancaq nəzəri cəlb edən cəhət odur ki, ədəbiyyatşünaslar Hənəfi Zeynallının, Mustafa Quliyevin, Əli Nazimin, Xəlil İbrahimin, Əziz Şərifin, yazıçılar Cəfər Cabbarlının, Abdulla Şaiqin, Seyid Hüseynin (Kazımoğlu), Hacıbaba Nəzərlinin, teatr xadimləri Mirseyfəddin Kirmanşahlının, Ülvi Rəcəbin, Əsəd Tahirin, Akif kazının, Məmmədsadıq Əfəndiyevin, Əfrasiyab Bədəlbəylinin, Şəmsi Bədəlbəylinin, İsrafil Cahangirovun, jurnalistlər Seyid Cavadzadənin, Süleyman Məlikovun, Murtuza Nağıyevin, İsrafil Nəzərovun, Şəmsəddin Abbasovun resenziyalarında, nəzəri məqalələrində, teatrın cari problemlərinə, aktyor və rejissor yaradıcılığına aid yazılarında fikir dərinliyi, peşəkar sənətçi duyumu, incəsənəti dərketmə zövqü aydın duyulurdu.

Bu mərhələdə də resenziya janrı üstünlük təşkil edirdi. Ancaq böyük salonlarda keçirilən, bəzən günlərlə davam edən ədəbi mühakimələrdə Cəfər Cabbarlının və Hüseyn Cavidin pyeslərinin və onların tamaşalarının müzakirəsi teatrşünasiığa janr əlvanlığı gətirirdi. Rəsul Rza, Mehdi Hüseyn, Məm-məd Arif, Mlkayıl Rəfili, Əli Sultanlı, Məmməd Cəfər, Yusif Əzimzadə, Mirzə İbrahimov, Süleyman Rüstəm, Sabit Rəhman, Səməd Vurğun, Cəfər Cəfərov kimi şair, nasir və filoloqlar, musiqişünas Qubad Qasımov teatrşünaslıqla da məşğul olmağa başlamışdılar. Onların arasında Cəfər Cəfərov teatr estetikasma dərindən bələdliyi, obyektivliyi, nəzəri hazırlığı, resenziya janrı vasitəsilə bütün tamaşanın poetikasını açmağa qadir olması baxımından diqqət mərkəzində dururdu.

Bu mərhələ bir də onunla xarakterikdir ki, teatrşünaslığın tədqiqat qolunun bünövrəsi qoyulub. 1923-cü ildə İsrafil Cahangirovun "Azərbaycan Dövlət Bədaye teatrosu", 1930-cu ildə Ağakərim Şərifovun "Azərbaycan türk teatrı tarixi materialları" kitabları, Məmmədsadıq Axundovun "Dan ulduzu" jurnalında (1928, N° 45) "Bakı Türk İşçi Teatrosu" tədqiqatı çap olunmuşdu. Cəfər Cəfərov bugünkü Milli Dram Teatrının tarixini əhatə edən monoqrafiya üzərində işləyirdi. Bu, onun doktorluq işiydi.

Dördüncü mərhələ (1950 - 2004). Azərbaycanda 1923-cü ildən Bakı Teatr Məktəbi (Texnikumu) fəaliyyət göstərirdi. 1946-cı ildə onun bazası əsasında Azərbaycan Dövlət Teatr İnstitutu (bugünkü Mədəniyyət və İncəsənət Universiteti) yaradıldı və ilk dəfə burada milli teatrşünas kadrları yetişdirilMəsmə başlanıldı. Teatrşünaslıq fakültəsinə altı nəfər qəbul olundu: Turan Cavid, Hüseyn Abbaszadə, Adil Babayev, İshaq İbrahimov, Aişə Qasımova və Gülsüm Əliyeva. Az sonra həmin fakültəni Cabir Səfərov, Rahib Hüseynov, İnqilab Kərimov kimi tanınmış teatrşünaslar da bitirdilər. Tədricən Azərbaycanda teatrşünaslığın formalaşmasının yeni mərhələsi başlandı.

Görkəmli ədəbiyyatşünas alimlər Bəkir Nəbiyev, Əkbər Ağayev, Cəlal Məmmədov, Məsud Əlioğlu, Qulu Xəlilov, Yaşar Qarayev, Təhsin Mütəllimov, Xalid Əlimirzəyev kimi alimlər resenziya janrında çox fəal idilər. Ümumən onların teatrşünaslıq fəaliyyətləri resenziya dairəsmdən kənara çıxmırdı, lakin ədəbiyyatşünaslıq təhlili daha güclü olan bu müəlliflərin silsilə resenziyaları teatrşünaslığımıza qiymətli töhfədir, səmərəli elmi əhəmiyyət kəsb edirlər.

## TEATRŞÜNASLIĞIN ELMİ PEŞƏKARLIQ DÖVRÜ

Otən əsrin əvvəlinci illərindən mətbuatda onların imzaları daha çox görünsə də, artıq Cəfər Cəfərov kimi nüfuzlu teatrşünas yetişmişdi. Onun "Azərbaycan Dram Teatrı" kitabı (Azərnəşr, 1959) fundamental teatrşünaslığımızın sanballı elmi nailiyyəti idi. Sonralar bu elmi irsi alimin "Mirzə Fətəli Axundzadə və teatr", "Hüseyn Cavid və teatrı" kimi dərin elmi-nəzəri tədqiqatları, Tofiq Kazımov, İsmayıl Hidayətzadə haqqında monoqrafiyaları, teatra aid yüzlərlə məqalə və resenziyaları daha da zənginləşdirdi.

Məhz Cəfər Cəfərovun rəhbərliyi ilə illər keçdikcə sırf teatrşünasların elmi fəaliyyətləri genişləndi. Onun sıraları İnqilab Kərimov, Ədilə Əliyeva, Adil Babayev, Adilə İsmayılova, Adilə İsgəndərova, Rahib Hüseynov, Mahmud Allahverdiyev, Tamilla Yusifbəyli, Veta Nadirova, Adilə Səfərova, Rafiq Sadıqov, Elmira Əliyeva, Cəlil Vəzirov (Naxçıvan) Atababa Hacıbabayev, Novruz Təhməzov, Məryəm Əlizadə, İlham Rəhimli, Kəmalə Cəfərzadə, İsrafil İsrafilov, Aydın Talıbov, Nərminə Ağayeva, Xuraman Novruzova, Yaqub Əlioğlu kimi teatrşünasların hesabına zənginləşdi.

Rejissorlar Mehdi Məmmədov, Soltan Dadaşov, Tofiq Kazımov, Ağakişi Kazımov və rəssam Elçin Aslanov teatrşünaslıq zəminində bir sıra maraqlı tədqiqatlar çap etdirmişlər.

Tədqiqatçı Qulam Məmmədlinin ikicildlik "Azərbaycan teatr salnaməsi" (Bakı, Azərnəşr, 1975 və Bam, Yazıçı, 1985), İnqilab Kərimovun "Azərbaycan teatrının təşəkkülü və inkişafı. XIX əsrin sonu, XX əsrin əvvəli" (Bam, Elm, 1991), "Əbdürrəhim bəy Haqverdiyev və teatr" (Bakı, Elm, 1975), Mahmud Allahverdiyevin "Azərbaycan xalq teatrı tarixi" (Bakı, Maarif, 1978), Ədilə Əliyevanın "Hüseyn Ərəblinski" (Bakı, Elm, 1981), Rahib Hüseynovun dramaturq Cəfər Cabbarlının əsərlərinin səhnə təcəssümünə aid silsilə kitabları, Adilə Səfərovanın "Teatr və zaman" (Bakı, Elm, 1971), Adilə İsmayılovanın "Azərbaycan qadınları səhnədə" (Bakı, İşıq, 1977), Tamilla Yusifbəylinin "Şekspir Azərbaycan səhnəsində" (Bakı, AEA-nm nəşri, 1964), Tamilla Təhmasibin "Hüseyn Cavid və teatr" (Bakı, İşıq, 1988), Məryəm Əlizadənin "Teatr: seyr və sehr" (Bakı, Elm, 1998), İsrafil İsrafilovun "Azərbaycan milli rejissor sənətinin poetikası" (Bakı, Elm və "İsmayıl", 2001), İlham Rəhimlinin "Dramaturgiya və teatr" (Bakı, İşıq, 1984), iki kitabdan ibarət "Akademik Milli Dram Teatrı" (Bakı, Qapp-Poliqraf, 2002), "Xalq oyun-tamaşaları" (Bara, Qapp-Poliqraf, 2002) kitabları milli teatrşünaslığımızın fundamental araşdırma istiqamətində dəyərli elmi nailiyyətlərdir.

Bugünkü teatrşünaslıq elmimizin əsas yaradıcılıq səciyyələrini estetik baxımdan aşağıdakı kimi xarakterizə etmək olar.

Teatrşünaslar milli teatrın özünün, onun rejissura sənətinin, xalq oyunlarının poetikasını fundamental şəkildə tədqiq edir, elmi əsərlərin çapına nail olurlar;

ayrı-ayrı teatrların yaradıcılıq yollarını təcəssüm etdirən elmi araşdırmalar aparılır (məsələn, Gəncə, Naxçıvan, Tiflis, Aşqabad, İrəvan... teatrları barədə);

milli teatrımızın Dünya teatr prosesi ilə genetik və nəzəri bağlılığının konseptual prinsipləri araşdırılır;

səhnəmizin qüdrətli xadimləri haqqında monoqrafiyaların işlənməsi tam olmasa da, müəyyən mənada sistemli şəkil alır;

teatrşünaslıq operativ şəkildə teatrın canlı, çağdaş dövrünün sənət mənzərəsmi daima diqqət mərkəzində saxlayır. Resenziya janrının yeni-yeni formalarında müxtəlif teatrların tamaşaları tənqid-təhlil süzgəcindən keçirilir;

ən nəhayətdə, artıq teatrşünaslıq kəzində durur.

* * *

## CƏFƏR CƏFƏROV (7.9.1914 - 19.9.1973)

Azərbaycan teatrşünaslıq elminin formalaşmasında müstəsna xidmətlər göstərən, bu elmin fundamental inkişaf proqramını müəyyənləşdirən alim-nəzəriyyəçi Cəfər Haşım oğlu Cəfərov olub. O, milli teatrşünaslığın konseptual inkişaf istiqa-mətlərinin əsl elmi məcraya düşməsində müstəsna işlər görüb.

Cəfər Cəfərov Bakıda doğulub və ilk təhsilini də burada alıb. 1937-ci ildə Moskvada A.Bubnov adına Pedaqoji İnstitutu bitirib. Bakıya qayıdaraq Akademik Milli Dram Teatrında ədəbi hissə müdiri (1937-1938), Cəıfər Cabbarlı adına "Azərbaycan-film" kinostudiyasında ssenari şöbəsinin müdiri (1938 -1939), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1939), mədəniyyət nazirinin müavini işləyib. Hökumətdə müxtəlif məsul vəzifələr tutub.

Cəfər Cəfərov 1959-cu ildən ömrünün sonunadək Azərbaycan MEA Memarlıq və İncəsənət İnstitutu teatr və kino şöbəsinin müdiri olub. Burada bir sıra teatrşünas alimlərin yetişdirilMəsmə, kino və teatr sənətinə aid tədqiqatlar aparılmasına rəhbərlik edib.

Teatrşünas, ədəbiyyatşünas və estetik Cəfər Cəfərov tənqidi fəaliyyətə 1930-cu ildən başlayıb. Milli səhnəmizin korifeyləri olmuş Hüseyn Ərəblinskinin, İsmayıl Hidayətzadənin, Həqiqət Rzayevanın, Mehdi Məmmədovun, Tofiq Kazımovun, Abbasmirzə Şərifzadənin, Rza Təhmasibin yaradıcılıqları barədə dəyərli elmi məqalələr və samballı monoqrafiyalar yazıb.

Akademik Milli Dram Teatrının tarixini fundamental şəkildə araşdırıb və həmin mövzuda bir neçə kitab çap elətdirib. Azəbaycan və bir sıra rus teatrlarının ən maraqlı tamaşalarına sambalh resenziyalar yazıb.

Alimin "Rejissor sənəti", iki cilddə Azərbaycan və iki cildə rus dillərində "Seçilmiş əsərləri", "Azərbaycan Dram Teatrı" kitabları dəyərli tədqiqat nümunələridir. Onun "Cavid və teatr", "Mirzə Fətəli Axundazdənin dramaturgiyası", "Mirzə Fətəli Axundzadə və teatr", "Vilyam Şekspirin dramaturgiyası" elmi əsərləri milli teatrşünaslıq elmimizin dəyərli yaradıcılıq örnəkləridir.

Cəfər Cəfərov sənətşünaslıq doktoru (1961), Azərbaycan MEA-nın müxbir üzvü (1962) idi.

Alim 1972-ci ildə Azərbaycan Respubliksının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub.

Bakıda vəfat edib. Məzarı Fəxri xiyabandadır.

## İNQİLAB KƏRİMOV (4 APREL 1931)

Azərbaycanın peşəkar teatrşünas nəslinə mənsub olan İnqilab Saleh oğlu Kərimov 1931-ci il aprelin 4-də Göyçay rayonunda doğulub. Orada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Teatr İnstitutunun teatrşünaslıq fakültəsində təhsil alıb (1948 - 1953).

İnqilab Kərimov 1957-ci il noyabrın 25-dən taleyini Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu ilə bağlayıb. Gələcəyin alimi burada kiçik elmi işçi, baş elmi işçi (1966-1985) olub. Hazırda həmin institutda teatr, kino və televiziya şöbəsinin müdiri vəzifəsində işləyir.

Alim-tədqiqatçı İnqilab Kərimov 1968-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində teatr tarixi, teatr tənqidi və dram nəzəriyyəsi fənlərini tədris edir. Həmin universitetin professorudur.

"Sovet Azərbaycanının gənclər teatrı" adlı namizədlik dissertasiyasını 1963-cü ildə müdafiə edib. "Azərbaycan teatrının yaranması, təşəkkülü və inkişafı problemləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri) adlı doktorluq dissertasiyasını 1988-ci ildə Moskvada müdafiə edərək sənətşünaslıq doktoru alimlik dərəcəsi alıb.

İnqilab Kərimov 120-yə yaxın elmi əsərin müəllifidir. Onlardan 20-si monoqrafiya və kitab şəklindədir. Elmi əsərlərindən bir neçəsi rus dilində çap olunub. "Abdulla Şaiq və teatr", "Ağadadaş

Qurbanov", "Azərbaycan və gürcü səhnə ustalarının dostluğu", "Xalq istedadları", "Sovet Azərbaycanının gənclər teatrı", "Azərbaycan Dövlət Dram Teatrı", "Əbdürrəhim bəy Haqverdiyev və teatr", "Cəfər Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrı", "Əbdürrəhim bəy Haqverdiyev və teatr", "Gənclik və gözəllik teatrı", "Sənət yolu, dostluq yolu", "Nəriman Nərimanov və teatr", "Azərbaycan teatrının təşəkkülü və inkişafı", "Türkiyə və Azərbaycan teatr əlaqələri", "Şuşa Ağdam teatrı", "Azərbaycan teatrı 125" kitabları var.

Görkəmli alim, yorulmaz tədqiqatçı, sənətşünaslıq doktoru, professor İnqilab Kərimov Azərbaycan teatrının tarixinə və tənqidinə həsr olunmuş, eyni zamanda teatrın nəzəri məsələləri ilə bağlı çoxlu elmi əsərlərin müəllifidir.

Alim mətbuatda "İnqilab" imzası ilə çıxış edir.

İnqilab Kərimov 2001-ci ildə Azərbaycan MEA-nm müxbir üzvü seçilib.

## İLHAM RƏHIMLI (8 SENTYABR 1949)

Teatrşünas alim İlham Əziz oğlu Rəhimli 1949-cu il sentyabrın 8-də Yevlax rayonunun Maibinəsi kəndində doğulub. Yevlaxdakı 1 saylı orta məktəbin on birinci sinifini bitirib. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirərək (1967-1972) redaksiyanın yazıh məktub-tələbnaməsinə əsasən təyinatla "Kommunist" (indiki "Xalq qəzeti") qəzetmə işə göndərilib. Hərbi xidmətdən sonra (may 1973 - may 1974) yenə redaksiyaya qayıdıb. Müxtəlif illərdə ədəbi işçi, baş müxbir, felyeton və publisistika, mədəniyyət şöbələrinin müdiri işləyib.

"Azərbaycan" qəzetinin baş redaıctoru, prezident aparatının humanitar siyasət şöbəsinin məsul işçisi işləyib. Həmçinin 1993-cü ildən 2003-cü ilə kimi Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri olub.

Teatra aid ilk yazısı dövri mətbuatda 1969-cu ildə çap olunan İlham Rəhimli səhnə sənətinə, kinoya, təsviri incəsənətə, dramaturgiyaya, aktyor və rejissor peşəsinə, mədəniyyətin müxtəlif problemlərinə aid yüzlərlə məqalənin müəllifidir. O, "Sənət vurğunu" "Ağasadıq Gəraybəyli", "Səhnə. Ekran. Müasirlik", "Dramaturgiya və teatr", "Habil kaman", "Hafiz Zeynalov", "Səyavuş Aslan", "Səttar dünyası", "Segah yanğısı", "Sənət yolu, sənətkar ömrü", "Sənətdə keçən ömür" (Mehdi Məmmədov, Həsən Turabov, Yaşar Nuriyev, Vaqif İbrahimoğlu və başqaları haqqında monoqrafiyalar toplusu), "Aktyor ömrünün dolayları", "Aktyora oxşamayan adam", "Füzuli meydanında sənət məbədi", "Akademik Milli Dram Teatrı" (iki cilddə), "Xalq oyun-tamaşaları", "Sumqayıt Dövlət Musiqili Dram Teatrı", "Azərbaycan Dövlət Kukla Teatrı", "Səhnəmizin fədailəri" (birinci kitab), "Azərbaycan milli teatrının poetikası", "Aşqabad Dövlət Azərbaycan Teatrı", "Kəsişən paralellər", "Həzin ömrün nağılı", "Bakı Türk İşçi Teatrı" monoqrafiya və kitablarının, "Azərbaycan teatrının estetik prinsipləri" dərsliyinin müəllifidir.

Azərbaycan Dövlət Televiziyasında müxtəlif illərdə "Ekran, kino, yeniliklər", "Sənət adamları", "Səhnə üçün doğulmuşlar", "Yeni tamaşalar", "Aktyorlar və rollar" və sairə silsilə verilişlərin aparıcısı olub.

İlham Rəhimli 1975-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr tarixi kafedrasında dərs deyir. Sənətşünaslıq doktoru və professorudur.

Nəzəriyyəçi alim, milli teatrımızın tədqiqatçısı kimi Dehli, Praqa, Moskva, Tehran, Dəməşq, Kiyev, İstanbul, Berlin, Brüssel, Paris, Roma... şəhərlərində Beynəlxalq teatr simpoziumlarında elmi məruzələrlə çıxışlar edib. Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" (5 may, 1977) mükafatı laureatıdır.

1989-cu il sentyabrın 1-də Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilib.

## AZƏRBAYCANIN ÇAĞDAŞ TEATR MƏKANI

Hər bir dövrdə tarixin siyasi gərdişi, cəmiyyətin ictimai-sosial dəyişikiikləri teatrın yaradıcılıq prosesinə, iqliminə və eyni zamanda onun qurumuna, təsisatının xarakterinə də təsir göstərir. 1991-ci ildə SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan Azərbaycan Respublikası eyni zamanda bir sıra çətinliklərlə üzləşmək məcburiyyətində qaldı. İlk növbədə SSRİ respublikaları ilə sıx iqtisadi əlaqələrdə olan Azərbaycan birdən-birə bunları itirdiyi üçün mədəniyyətimizdə və təbii ki, o cümlədən də teatrımızda bunun ağrıları duyulurdu. Texniki təchizatın, tamaşalar üçün aksesuarın (avadanlıq, tamaşaların hazırlanması üçün dəmir, taxta, parça materialları, geyim ləvazimatı, qrimlər, pariklər və sairə) ardıcıl təchizatında qırıqlıq yarandı.

Akademik teatrın təmirə dayanınış binasının təchizat təminatı təxminən altı il çəkdi. Kollektiv öz tamaşalarını Bakının müxtəlif teatr binalarını birgünlük kirayələməklə orada göstərmək məcburiyyətində qalmışdı. Müharibə şəraitində yaşayan respublika aylarla Dövlət teatrlarının maaşmı verə bilmirdi. Dövlətin respublikamızda mövcud olan bütün institusional mədəniyyətinin faktı olan teatrları öz himayəsində saxlayıb-saxlamayacağı da sual kimi cavabsız qalmışdı.

Bütün bunlara baxmayaraq, heç bir dövlət teatrı öz statusundan məhrum olmadı. Əksinə, 1993-cü ildən 2000-ci ilə qədər "Yuğ", Pantomima teatr kollektivlərinə Dövlət statusu verildi, Qazaxda və Qusarda yeni Dövlət teatrları açıldı. Bu gün Azərbaycanda Dövlət, Bələdiyyə və özəl teatrları mövcuddur.

Üç bələdiyyə teatrı var. Bakı Bələdiyyə Teatrı (bədii rəhbəri xalq artisti Amalya Pənahovadır), Bakı Bələdiyyəsi Mədəniyyət İdarəsinin kamera Teatrı (bədii rəhbəri xalq artisti Cənnət Səlimovadır) və Cəlilabad Bələdiyyə Teatrı. Bu teatrlar bələdiyyənin maddi təminatındadırlar, Respublika Mədəniyyət Nazirliyindən asılı deyillər və repertuar seçimində sərbəstdirlər. Onlara binanı da bələdiyyələr ayırırlar.

Bakıda "İlham" miniatür teatrı, "Arif" miniatür teatrı, "Bəşir Səfəroğlu" teatrı özəl teatrlar kimi fəaliyyət göstərirlər. Əməkdar artist İlham Namiq Kamalın və xalq artistləri Arif Quliyevin, Afaq Bəşirqızının rəhbərlik etdikləri bu kollektivlər yığcam truppadan ibarətdir. Bütün yaradıcdıq və maliyyə məsələlərini kollektivin bədii rəhbərləri həll edirlər. Onlar özləri öz qazancları ilə təmin olunurlar. Bu kollektivlərin repertuarları kiçik səhnəciklərdən, məzhəkələrdən, şəbədələrdən ibarətdir. "İlham" teatrı öz yaradıcılıq xarakterinə uyğun komediyalar, satiralar, qroteskii məzhəkələr sifariş verir və belə tamaşalar onun repertuarının əsasında durur.

Amalya xanımın kollektivi dram janrında fəaliyyətdədir və həm müasir, həm də klassik əsərləri Akademik teatr üslubunda tamaşaçılara təqdim etməyə səy göstərir. Teatr sabit və sanballı repertuar qurmağa çalışır.

Bakı kamera Teatrı (1991-ci ildə yaranıb) adının estetik prinsipinə uyğun çevik və əlvan, məzmunlu və düşündürücü, əyləndirici və zövq verən repertuar qura bilir. Teatr monotamaşalar da hazırlayır. Cəsarətlə eksperimentlər aparır, hətta "Otello" kimi faciəni kamera quruluşunda oynayır. Teatr vax-tilə yasaq olan, sovet ideologiyası basqısında oynanılmasına icazə verilməyən dünya dramaturqlarının əsərlərini müxtəlif formalarda səhnəyə gətirir.

Dövlət himayəsində olan teatrlar yeddi xarakterdə, yəni yeddi janr-üslubda bərqərar olublar: dram, opera və balet, musiqili komediya, musiqili dram, Kukla, pantomima və folklor-avanqard sintezində yaranmış teatrlar.

Milli peşəkar teatrımızın tarixi eyni zamanda Akademik Milli Dram Teatrının təşəkkül təvəllüdüdür. Teatr Bakıda, Füzuli adına meydanda yerləşir. Özünün dərzi, qrim, butafor, rekvizit, əlbəsə, icraçı rəssamlıq sahələri, dülgərlik və qaynaqçılıq sexləri var. Aktyor truppası 6575 nəfər arası olur. Aktyorlar işə müqavilə ilə götürülürlər. Müqavilə müddəti bir teatr mövsümü ilidir. Müqaviləni teatrın bədii rəhbəri bağlayır. Bağlanılan müqavilə, əsasən maaşladır. Az bir qisim isə

yalnız hər çıxışma görə pul ahr. Aktyorlar dörd kateqoriyaya bölünürlər: aparıcı səhnə ustaları, birinci, ikinci və üçüncü kateqoriyalar.

Teatrda beş rejissor və üç rəssam fəaliyyət göstərirlər.

Teatrın bədii şurası var və onun başında bədii rəhbər (və ya baş rejissor) durur. Teatr repertuar seçməkdə sərbəstdir, bununla yanaşı, hər il müəyyən Dövlət sifarişləri də olur. Həmin sifarişin bütün xərclərini Respublika Mədəniyyət Nazirliyi çəkir. Müəyyən tamaşaları teatr öz daxili imkanları hesa-bına hazırlayır. Teatrın gözəl ənənələrindən biri odur ki, sənət ocağının repertuarında milli və dünya klassiklərinin, çağdaş Azərbaycan və əcnəbi müəlliflərinin pyesləri tamaşaya qoyulur.

Respublikamızda ikinci ən böyük dram kollektivi Gəncə Dövlət Dram Teatrıdır. Bu kollektiv 1933-cü il yanvarın 4-də Bakıdan köçürülən Türk İşçi Teatrının bazasında yaranıb. Özünün fəaliyyəti dövründə, əsasən baş rejissor idarəçiliyində işləyib, hazırda kollektivin yaradıcılıq prosesini bədii rəhbər istiqamətləndirir. Yaradıcılıq-fəaliyyət sistemi Akademik Milli Dram Teatrının əməli prinsipləri əsasında qurulub. Uzun illərdir ki, teatr Cəfər Cabbarlımn adını daşıyır.

Gənc Tamaşaçılar Teatrı Bakıda, Nizami küçəsi, 72 saylı binada yerləşir. Bina məxsusi bu kollektiv üçün tikilib. Təzə binanın açıhşı 1989-cu ildə olub. Teatrda rus bölməsi də var. Kollektivin yaradıcılıq simasını, əsasən Azərbaycan truppası müəyyənləşdirir. Hər bölmənin özünün baş rejissoru və teatrın ümumi baş rəssamı var. Teatr şagirdlər, yeniyetmə gənclər və yaşlı tamaşaçılar üçün üç istiqamətdə tamaşalar hazırlayır.

Azərbaycan Dövlət Gənclər Teatrını 1989-cu ildə rejissor Hüseynağa Atakişiyev yaradıb və bir neçə il sonra ona dövlət statusu verilib. Hazırda da kollektivin bədii rəhbəri o, özüdür. Teatrın öz binası yoxdur. Əvvəldən Bakı, Xaqani küçəsi, 10 saylı ünvanda yerləşən Aktyor evində məskunlaşıb. Bina texniki təchizat və səhnə texnologiyası baxımından çağdaş teatr tələblərinə cavab vermir.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1928-ci ildə qədim Azərbaycan xanlığının mərkəzi olan İrəvan şəhərində yaranıb. 1989-cu ildən qaçqın həyatı keçirir. Hüseynqulu Sarabski adına mədəniyyət evində yerləşir (Bakı, Mirəsədulla Mirqasımov küçəsi, 13). Truppa İrəvandan gələn aktyorlardan və burada kollektivə qəbul olunmuş gənclərdən ibarətdir. Teatrın yaradıcılıq işlərinə baş rejissor cavabdehdir.

Şəkidə Sabit Rəhman adına (bərpa, 1975), Ağdamda Əbdürrəhim bəy Haqverdiyev adına DDT (bərpa, 1968), Lənkəranda Nəcəf bəy Vəzirov adına (bərpa, 1973), Mingəçevirdə Mərziyə xanım Davudova adına DDT (1969), Qazaxda Molla Vəli Vidadi adına DDT (bərpa, 1988), Füzulidə Dövlət Dram Teatrı (bərpa, 1989) vardır. Onların heç biri üçün məxsusi teatr binası tikilməyib, kollektivlər müxtəlif səpkili mədəniyyət saraylarında və mədəniyyət evlərində yerləşiblər. Qaçqınlıq həyatı keçirən Ağdam teatrı müvəqqəti olaraq Bərdə rayonunun mərkəzi mədəniyyət sarayında, Füzuli teatrı isə əvvəlcə Sumqayıt teatrının kirayə götürdüyü binada, son iki ildə isə Horadiz qəsəbəsində məskunlaşıblar. Bu kollektivlərin hamısının müstəqil teatr truppaları və onların yaradıcılığına cavabdeh olan baş rejissorları vardır.

Bakıda Azərbaycan Dövlət Rus Dram Teatrı (Xaqani küçəsi, 7) var. Bu kollektiv 1920-ci ildə Bakı "Satiragit" teatrı kimi yaranıb, beş il sonra Rus İşçi Teatrı kimi, 1937-ci ildən isə bugünkü adı ilə fəaliyyətdədir. Repertuarı baş rejissor qurur. Aktyor heyətinin ən qabaqcıl sənətkarları azərbaycanlılardır.

Teatr 1956-cı ildən Səməd Vurğunun adını daşıyır.

Respublikamızın Şimal bölgəsində yerləşən Qusar rayonunda 1992-ci ildə Azərbaycan Dövlət Ləzgi Dram Teatrı açılıb. Teatr, əsasən, səyyar fəaliyyətdədir.

Azərbaycanda opera və balet janrında bircə kollektiv var. Bakı şəhərində, Nizami küçəsi, 95 saylı ünvanda yerləşən kollektiv Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı adlanır. Onun təşəkkülü 1908-ci il, 12 yanvarda başlayıb. Kollektivin nəzdində opera və balet truppaları var. Opera truppasına baş rejissor, balet dəstəsinə baş

baletmeyster rəhbərlik edirlər. Teatrda baş rəs-sam, rəssamlar, baş dirijor və dirijorlar çalışırlar. Opera truppası Azərbaycan və rus dillərində operalar oynayırlar. Rus dilində oynanılan operalar, əsasən Dünya klassiklərinin incilərindən ibarətdir.

Teatr 1938-ci ildən Mirzə Fətəli Axundzadənin adınadır.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrı 24 may 1910-cu ildə təşəkkül tapıb. Ancaq müstəqil sənət ocağı kimi 1938-ci ildən fəaliyyətdədir. Müstəqil binası var: Bakı, Azərbaycan prospekti, 8. Kollektiv Azərbaycan və rus truppalarından ibarətdir. İki kollektivin bir bədii rəhbəri, bir baş dirijoru, bir orkestri, eyni balet və xor dəstələri vardır.

Repertuar milli klassik operettalardan, çağdaş musiqili komediyalardan və dünya klassiklərinin bu janrlı əsərlərindən ibarətdir.

Teatr yarananda Cəlil Məmmədquluzadənin adını daşıyıb. Bu ad dövlət tərəfindən rəsmi ləğv olunmadan 1967-ci il-də kollektivə Şıxəli Qurbanovun adı verilib.

Respublikada iki kollektiv musiqili dram janrında çalışır. Naxçıvan Dövlət Musiqili Dram Teatrı 1923-cü ildən rəs-mi dövlət müəssisəsi kimi mövcuddur. Əvvəllər dram teatrı kimi fəaliyyət göstərib və uzun illərdir indiki üslubda çalışır. Teatrın öz binası var. Repertuarda əsas yeri faciə, dram və komediyaların tamaşaları tutur. Az miqdarda musiqili komediyalar, nadir hallarda milli muğam operaları oynanılır.

Teatra 1965-ci ildə Cəlil Məmmədquluzadənin adı verilib. kollektivdə həm Azərbaycan Respublikasının, həm də Muxtar Respublikanın müxtəlif fəxri adlarını daşıyan sənətkarlar, sıravi aktyorlar və rejissorlar çalışırlar.

1968-ci ildə yaranan Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrı fəaliyyətə başladığı gündən kimyaçıların Mədəniyyət Sarayında yerləşib. İndiyədək kirayədə olan kollektivin müstəqil binası yoxdur. 1992-ci ildən teatr "musiqili dram" janrında fəaliyyət göstərir. Teatr musiqili komediyaları nadir hallarda oynayır və xüsusi orkestri olmadığına görə musiqi nömrələri keyfiyyətsiz texnika ilə səsləndirilir. Bu, teatrın peşəkarlığına ciddi xələl gətirir. Əslində indiki halda "musiqili" sözünü teatrın adına əlavə etməyə heç bir ehtiyac yox idi.

Şuşa Dövlət Musiqili Dram Teatrının bərpası 1998-ci il-də olub. Qarabağ problemi ilə bağlı müvəqqəti qaçqınlıq həyatı keçirən teatr hazırda Bakıda, Gənc Tamaşaçılar Teatrının binasında məskunlaşıb. Teatr direktor və baş rejissor iş prinsipində çalışır.

Dövlət Kukla Teatrı 1931-ci ildə yaradılıb. Dənizkənarı bulvarda, Neftçilər prospekti, 36 saylı ünvanda yerləşən unikal arxitekturah binada fəaliyyət göstərir. Azərbaycan truppası ilə müqayisədə yığcam kollektivi olan rus bölməsi də var. Yaradıcılıq rəhbərliyini baş rejissor edir.

Teatra 1974-cü ildə uşaq yazıçısı və dramaturqu Abdulla Şaiqin adı verilib.

Gəncə, Naxçıvan şəhərlərində, Salyan və Qax rayon mər-kəzlərində də Dövlət Kukla Teatrı vardır. Naxçıvanda kollektivə bədii rəhbər başçılıq edir. Gəncədə bu işi direktorla baş rəssam görürlər. Qaxda və Salyanda isə repertuar qurumunun ağırlığı direktorun üzərinə düşür.

"Yuğ" Dövlət Teatrı məşhur rejissor Vaqif İbrahimoğlu-nun rəhbərliyi ilə 1989-cu ildə yaradılıb. 1993-cü ildə Teatr Dövlət təsisatına keçib. Qam-şaman dövründən məlum olan yuğ mərasiminin (dünyasını dəyişmiş şöhrətli igidin xatirəsinə keçirilən ağı, ağlama mərasimi) estetik prinsipləri əsasında yaranıb. Öz teatr poetikası, ifa-üslub özəllikləri vardır. Bədii rəhbərin bilavasitə başçılığı ilə repertuar qurulur.

Kollektiv yarandığı gündən Akademik teatrın binasında, üçüncü mərtəbədəki kiçik səhnədə fəaliyyət göstərib. Bir neçə il əvvəl Murtuz Muxtarov küçəsi 83-də yerləşən (Akademik teatrın arxa tərəfində) köhnə hamam binası "Yuğ"a verilib və orada əsaslı təmir işləri görülüb. Kollektiv 2003-cü ilin axırlarından öz tamaşalarını həmin binada oynayır.

Dövlət Pantomima Teatrı 1994-cü ildən "Dəli yığıncağı" teatr studiyası kimi yaradıcılığa başlayıb. 2002-ci ildən dövlət statusu alıb. Kollektivi hazırda onun bədii rəhbəri olan Bəxtiyar Xanızadə yaradıb. Bu kollektiv pantomima janrında fəaliyyət göstərən yeganə teatrdır. Gənc

Tamaşaçılar Teatrında yerləşir və truppanın əsas üzvləri Mədəniyyət və İncəsənət Universitetini bitirmiş istedadlı gənclərdir.

Gəncədə "Zərrabi" adlanan tarixi memarlıq abidəsi olan binada Nizami Poeziya Teatrı yerləşir. Teatr müstəqil kollektivdir və poetik ədəbiyyat nümunələri əsasında tamaşalar hazırlayır. Repertuarının əsasını Nizaminin əsərləri tutur. Müstəqil rəhbərliyi olan kollektivin daimi aktyor truppası yoxdur, İfaçılar Gəncə Dövlət Dram Teatrından dəvət olunurlar.

Naxçıvanda da eyni xarakterli Cavid Poeziya Teatrı var. Həmin kollektiv Muxtar Respublikadakı Dövlət teatrının nəzdindədir. Mövsümün müəyyən vaxtlarında və müəyyən günlərdə (bayramlarda, yubiley təntənələrində) tamaşalar oyna-yırlar. Hər iki kollektiv etnoqrafik və bir qədər də eksperimental xarakter daşıyır.

Bakıda Mədəniyyət və İncəsənət Universitetinin nəzdində "Səda" teatrı vardır. Burada institut tələbələrinin kurs və diplom tamaşaları, universitet pedaqoqlarının elmi iş kimi hazırladıqları səhnə əsərləri göstərilir.

Azərbaycan Teatr Xadimləri İttifaqı müstəqil ictimai təşkilatdır. Onun keçirdiyi müxtəlif xarakterli teatr festivalları, milli teatr bayramı bütövlükdə Azərbaycan səhnə sənətinin canlanmasma, yaradıcılıq axtarışlarının genişlənməsinə xidmət edir.

## KİTABDA İXTİSARLA VERİLMİŞ ADLAR

| | |
|---|---|
| ADDT | - Azərbaycan Dövlət Dram Teatrı |
| DDT | - Dövlət Dram Teatrı |
| ADADT | - Azərbaycan Dövlət Akademik Dram Teatrı |
| AMDT | - Akademik Milli Dram Teatrı |
| MDT | - Milli Dram Teatrı |
| DAT | - Dövlət Azərbaycan Teatrı |
| ADOBT | - Azərbaycan Dövlət Opera və Balet Teatrı |
| OBT | - Opera və Balet Teatrı |
| ADMKT | - Azərbaycan Dövlət Musiqili Komediya Teatrı |
| MKT | - Musiqili Komediya Teatrı |
| DMDT | - Dövlət Musiqili Dram Teatrı |
| GTT | - Gənc Tamaşaçılar Teatrı |
| ADKT | - Azərbaycan Dövlət Kukla Teatrı |
| DKT | - Dövlət Kukla Teatrı |
| TDTDT | - Tiflis Dövlət Türk Dram Teatrı |
| TDAT | - Tifilis Dövlət Azərbycn Teatrı |
| İDADT | - İrəvan Dövlət Azərbycan Dram Tetrı |
| ATD | - Aşqabad Türk Dramı |
| ADAT | - Aşqabad Dövlət Azərbycan Teatrı |
| ADRDT | - Azərbaycan Dövlət Rus Dram Teatrı |
| RDT | - Rus Dram Teatrı |
| BATTTT | - Bakı Azad Türk Tənqid və Təbliğ Teatrı |
| TTT | - Tənqid və Təbliğ Teatrı |
| BTikT | - Bakı Türk İşçi və kəndli Teatrı |
| BTİT | - Bakı Türk İşçi Teatrı |
| TİT | - Türk İşçi Teatrı |
| KST | - Kolxoz və Sovxoz Teatrı |
| ADTİ | - Azərbaycan Dövlət Teatr İnstitutu |
| ADİİ | - Azərbaycan Dövlət İncəsənət İnstitutu |
| ADİU | - Azərbaycan Dövlət İncəsənət Universiteti |
| ADMİ | - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti |
| ADK | - Azərbaycan Dövlət konservatoriyası |
| BTIN | - Bakı Teatr Məktəbi (Texnikumu) |
| BININ | - Bakı Musiqi Məktəbi |
| ADF | - Azərbaycan Dövlət Filarmoniyası |
| SSRİ | - Sovet Sosialist Respublikaları İttifaqı |
| SSR | - Sovet Sosialist Respublikası |
| RSFSR | - Rusiya Sovet Federativ Sosialist Respublikası |
| ZSFSR | - Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası |
| AEA | - Azərbaycan Elmlər Akademiyası |
| MEA | - Milli Elmlər Akademiyası |

ATC - Azərbaycan Teatr Cəmiyyəti

* * *

**QEYD**: "Türk" sözü ilə başlayan dəstələrin və teatrların (məsələn, "Türk Dövlət Dram Teatrı") adlarının hamısında həmin kəlmə "Azərbaycan" kimi oxunmalıdır.

## TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT

### Xalq teatrına aid

**Elçin**. El-oba oyunu, xalq tamaşaları. - Bakı, İşıq, 1984.

**Əbdürrəhim bəy Haqverdiyev**. Azərbaycanda teatr ("Seçilmiş əsərləri"nin I cildində). - Bakı, Azərnəşr, 1970, s. 414 - 429.

**Əli Sultanlı**. Xalq dramı və dini dramlar. ("Azərbaycan dramaturgiyasının inkişafı tarixindən" kitabında). - Bakı, Azərnəşr, 1964, s. 20 - 70.

**İlham Rəhimli**. Xalq oyun-tamaşaları. - Bakı, Qapp-Poliqraf, 2002.

**Mahmud Allahverdiyev**. Azərbaycan xalq teatrı tarixi. - Bakı, Maarif, 1978.

**Mahmud Allahverdiyev**. Qaravəlli tamaşaları. - Bakı, İşıq, 1976.

**Məmməd Arif**. Azərbaycan xalq teatrı. (Ədibin seçilmiş əsərlərinin III cildində). - Bakı, Elm, 1970, s. 49 - 63.

### Teatr tarixinə aid

**Abbas Hacıyev**. Tiflis Azərbaycan Teatrı. - Bakı, İşıq, 1984.

**Ağakərim Şərifov**. Azərbaycan türk teatrı tarixi. - Bakı, "Elm və həyat", 2000.

**Qulam Məmmədli**. Azərbaycan teatrının salnaməsi (1850 - 1920). - Bakı, Azərnəşr, 1975.

**Qulam Məmmədli.** Azərbaycan teatrının salnaməsi (1920 - 1930). - Bakı, Yazıçı, 1983.

**Azər Sarabski**. Azərbaycan musiqi teatrının yaranması və inkişafı (1917-ci ilə qədər). - Bakı, AEA-nm nəşri, 1964 (rus dilində).

**Bağır Bağırov**. 60 il xalqın xidmətində. - Bakı, İşıq, 1981.

**Cabir Səfərov və Adil Babayev.** Şərəfli yol. - Bakı, Azərnəşr, 1974.

**Cəfər Cəfərov**. Azərbaycan Dram Teatrı. - Bakı, Azərnəşr, 1959.

**Cəfər Cəfərov**. Azərbaycan Teatrı. - Bakı, 1974.

Ədilə Əliyeva. Azərbaycan teatrı 100 ildə. - Bakı, Azərnəşr, 1974 (rus dilində).

**Əfrasiyab Bədəlbəyli və Qubad Qasımov**. Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrı. - Moskva, 1959 (rus dilində).

**Əli Xəlilov.** Naxçıvan teatrının tarixi. - Bakı, ATC, 1964.

**İ.Cahangirov**. Azərbaycan Dövvlət Bədaye Teatrosu. -Bakı, 1932.

**İlham Rəhimli**. Akademik Milli Dram Teatrı. - Bakı, Qapp-Poliqraf, 2002.

**İlham Rəhimli**. Aşqabad Dövlət Azərbaycan Teatrı. - Bakı, Qapp-Poliqraf, 2002.

**İlham Rəhimli.** Azərbaycan Dövlət Kukla Teatrı. - Bakı, Nağıl evi, 2002.

**İlham Rəhimli.** Füzuli meydanında sənət məbədi. - Bakı, Sabah, 1997.

**İlham Rəhimli.** Üç əsrin yüz otuz ili. - Bakı, Qapp-Poliqraf, 2002.

**İlham Rəhimli**. Sumqayıt Dövlət Musiqili Dram Teatrı. - Bakı, Qapp-Poüqraf, 2002.

**İnqilab Kərimov**. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. - Bakı, Maarif, 2002.

**İnqilab Kərimov**. Sovet Azərbaycanının Gənclər Teatrı. - Bam, Elm, 1969.

**İnqilab Kərimov**. Şuşa Ağdam teatrı. - Bakı, Elm, 2001.

**Sabir Rzayev**. Ermənistanda Azərbaycan teatrı. - Bakı, ETC, 1963 (rus dilində).
**Seyfulla Əmirov.** Güldürərək düşündürən teatr. - Bakı, İşıq, 1977.
**Soltan Dadaşov**. Mirzə Fətəli Axundzadə adına Lenin ordenli Azərbaycan Opera və Balet Teatrının əlli illiyi. - Bakı, Azərnəşr, 1958.
**Şövkət Məmmədoa**. Azərbaycan musiqili teatrının inkişaf yolları. - Moskva, "Musiqi", 1981 (rus dilində).
**Yaqub Əlioğlu.** Şuşa teatrı. - Bakı, Nasir, 2001.
**Valentin Boquslavski**. Zəngin mənəviyyat uğrunda. - Bakı, Yazıçı, 1981 (rus dilində).

**Teatrın nəzəriyyəsinə,**
**estetikasma və poetikasma aid**

**Adilə Səfərova**. Teatr və zaman. - Bakı, Elm, 1971 (rus dilində).
**İlham Rəhimli.** Azərbaycan milli teatrının poetikası. - Bakı. Qapp-Poliqraf, 2002.
**İsrafil İsrafilov**. Azərbaycan milli rejissor sənətinin poetikası. - Bakı, Elm və "İsmayıl" NPM, 2001.
**İsrafil İsrafilov**. Ədil İsgəndərov teatrı. - Bakı, Mar-Print, 2001.
**İsrafil İsrafilov**. Mehdi Məmmədovun rejissor sənəti. - Bakı, Mars-Print, 2002.
**İsrafil İsrafilov**. Zaman. Rejissor. Poetika. - Bakı, Mars-Print, 1999.
**Leyla Şıxlinskaya**. Azərbaycan baletinin əfsanəsinin xoreoqrafik naxışları. -Bakı, "Azərbaycan", 1966 (rus dilində).
**Rəsmiyyə Mustafayeva**. Tərcümə əsərləri və milli teatr estetikası. - Bakı, Nurlan, 2003.

**Teatrın tarixinə, nəzəriyyəsinə, drarnaturgiyaya**
**aid məqalələr, portretlər, müsahibələr və**
**monoqrafiyalar topluları**

**Adilə İsmayılova**. Azərbaycan qadınları səhnədə. - Bakı, İşıq, 1977.
**Atababa Hacıbabayev**. İki cəbhənin əsgərləri. - Bakı,İşıq, 1988.
**Cəfər Cəfərov**. Seçilmiş əsərləri. 2 cilddə - Bakı, Azərnəşr, 1968.
**Cəfər Cəfərov**. Seçilmiş əsərləri. 2 cilddə - Bakı, Azərnəşr, 1970 (rus dilində).
**Xəlil İbrahim**. Daşdan keçn istiqlal. - Bakı, Yazıçı,1993.
**Mehdi Məmmədov**. Teatr düşüncələri. - Bakı, İşıq,1967.
**Mehdi Məmmədov**. Teatrlar. Aktyorlar. Tamaşalar. - Bakı, Azərnəşr, 1966.
Səhnədən keçən yollar (aftobioqrafik xatirələr), - Bakı, Yazıçı, 1983.
Unudulmaz səhnə xadimləri. (Tərtibçi Atababa Hacıbabayev). - Bakı, Yazıçı, 1981.
**Yaşar Qarayev**. Səhnəmiz və müasirlərimiz. - Bakı,Azərnəşr, 1972.
**Yaqub Əlioğlu**. Özləri səhnədə görünməyənlər. - Bakı, İşıq, 1998.
**Yaqub Əlioğlu**. Rejissorlarla üz-üzə. - Bakı, Araz, 1999. Yaqub Əlioğlu. Sənətdə izi olanlar. - Bakı, Nasir, 2000.

**Dramaturq və teatr mövzusunda**

**Cabir Səfərov**. Teatr və dramaturgiya. - Bakı, Yazıçı,1982.
**Ədilə Əliyeva**. Mirzə Fətəli Axundzadə və teatr. - Bäki.AEA-nm nəşri, 1960.

**Ədilə Əliyeva**. Nəcəf bəy Vəzirov və teatr. - Bakı, Azər-nəşr, 1967 (rus dilində).
**Ədilə Əliyeva**. Rus dramaturgiyası Azərbaycan səhnə-sində. - Bakı, Azərnəşr, 1958 (rus dilində).
**İlham Rəhimli**. Dramaturgiya və teatr. - Bakı, İşıq,1984.
**İnqilab Kərimov**. Abdulla Şaiq və teatr. - Bakı, ATC,1961.
**İnqilab Kərimov**. Əbdürrəhim bəy Haqverdiyev və teatr. - Bakı,Elm, 1975.
**İnqilab Kərimov**. Nəriman Nərimanov və teatr. - Bakı,Elm, 1983.
**İsmayıl Dağıstanlı**. Cəfər Cabbarlv və teatr. - Bakı, ADU-nun nəşriyyatı, 1960.
**Rahib Hüseynov**. Cəfər Cabbarlının tarixi dramlarının səhnə təcəssümü. - Bakı, Maarif, 1971.
**Rahib Hüseynov**. Cəfər Cabbarlı və teatrda müasirlik problemi. - Bakı, Maarif, 1968.
**Məmmədşah Atayev**. Cəlil Məmmədquluzadənin əsərlə-rinin səhnə taleyi. - Bakı, İşıq, 1991.
**Tamila Təhmasib**. Hüseyn Cavid və teatr. - Bakı, İşıq,1988.
**Timuçin Əfəndiyev**. Cavidin ideyalar aləmi. - Bakı, Yazıçı, 1985.
**Timuçin Əfəndiyev**. Cəfər Cabbarlının romantik dramları. - Bakı, ADMİU-nun nəşri, 1999.

**Bəstəkar və teatr mövzusunda**

**Cülyetta Cəbrayılbəyli**. Zülfüqar bəy Hacıbəyov. - Bakı, İşıq, 1985.
**Elmira Abbasova.** Üzeyir Hacıbəovun "Koroğlu" operası. - Bakı, Azərnəşr, 1966 (rus dilində).
**Elmira Abbasova**. Üzeyir Hacıbəyovun operaları və musiqili komediyaları. - Bakı, AEA-nın nəşri, 1966 (rus dilində).
**Rəna Fərhadova**. Qara Qarayevin baletləri. - Bakı, Elm, 1970.
**Sabir Kərimov**. Niyazi. - Bakı, Yazıçı, 1982.
**Vidadi Xəlilov. Süleyman Ələsgərov**. - Bakı, İşıq, 1989.

**Rəssam və teatr mövzusunda**

Əzim Əzimzadənin və Rüstəm Mustafayevin teatr işləri. Kataloq. - Bakı, ATC, 1962 (rus dilində).
**Dilarə Səfərəliyeva**. Bədurə Əfqanlı. - Bakı, İşıq, 1986.
N.**Mikiaşevskaya**. Azərbaycanın xalq rəssamı Sergey Yefimenko. - Bakı, ATC, 1962 (rus dilində).

**Monoqrafiyalar**

Abbasmirzə Şərifzadə (həyatı, yaradıcılığı və faliyyətinə aid sənədlər toplusu). Tərtibçi **Qulam Məmmədli** - Bakı, İşıq, 1985.
**Adil Babayev**. Ağahüseyn Cavadov. - Bakı, İşıq, 1976.
**Adil Babayev**. Leyla Bədirbəyli. - Bakı, Azərnəşr, 1970.
**Adil Babayev**. Lütfəli Abdullayev. - Bakı, ATC, 1966.
**Adilə İsgəndərova**. Mərziyə Davudova. - Bakı, Elm, 1978.
**Adilə İsmayılova**. Əli Qurbanov. - Bakı, ATC, 1962.
**Adilə İsmayılova**. Nehrəmli qız. - Bakı, İşıq, 1985.
**Adilə İsmayılova**. Nəsibə Zeynalova. - Bakı, ATC, 1966.
**Ağaxan Salmanov**. Varis. - Bakı, 2003.

**Altay Məmmədov** və Alp Ağamirov. Ələkbər Seyfi. - Bakı, İşıq, 1976.
**Altay Məmmədov**. Əşrəf Yusifzadə. - Bakı, Azərnəşr, 1974.
**Anar Bürcəliyev**. Əsl el adamı. - Bakı, Günəş, 1998.
**Atababa Hacıbabayev**. Rza Əfqanlı. - Bakı, İşıq, 1978.
**Azad Dadaşov**. Möhsün Sənani. - Bakı, Yazıçı, 1981.
**Cabir Səfərov**. Hacıağa Abbasov. - Bakı, Azərnəşr, 1963.
**Cabir Səfərov**. İbrahim İsfahanlı. - Bakı, İşıq, 1985.
**Cahangir Zeynalov** (həyat və yaradıcılığı haqqında sənədlər). Tərtibçi Qulam Məmmədli. - Bakı, Azərnəşr, 1968.
**Cəfər Cəfərov**. Həqiqət Rzayeva. - Bakı, ATC, 1957.
**Cəfər Cəfərov**. Rejissor sənəti. - Bakı, Azərnəşr, 1969 (rus dilində).
**Cəlal Məmmədov**. Azərbaycan SSR xalq artisti Ələsgər Ələkbərov. - Bakı, ATC, 1960.
**Cəlal Məmmədov**. Ədil İsgəndərov. - Bara, Azərnəşr, 1949.
**Cəlal Məmmədov**. Mərziyə Davudova. - Bakı, Azərnəşr,
1949.
**Cəlal Məmmədov**. Rza Təhmasib. - Bakı, ATC, 1966.
**Danil Danilov**. Şövkət Məmmədova. - Bakı, İşıq, 1976 (rus dilində).
**D.Minkeviç**. Ədil İsgəndərov. - Bakı, ATC, 1964.
**Elmira Əliyeva**. İsmayıl Dağıstanlı. - Bakı, İşıq, 1978.
**Emin Şeyxzadə**. Sidqi Ruhulla. - Bakı, İşıq, 1978 (rus dilində).
**Ədilə Əliyeva**. Ələsgər Şərifov. - Bakı, Azərnəşr, 1974.
**Ədilə Əliyeva**. Hüseyn Ərəblinski. - Bakı, Elm, 1981.(rus dilində).
**Ədilə Əliyeva**. Ülvi Rəcəb. - Bakı, Azərnəşr, 1962.
**Əflatun Nemətzadə**. İsmayıl Dağıstanlı. - Bakı, İşıq, 1984.
**Əliheydər Ələkbərov**. Sonna Hacıyeva. - Bakı, ATC, 1959.
**Əli vəkiİ**. Əli Şahsabahh. - İrəvan, ETC, 1973.
**Flora Xəlilzadə**. Bu mənim tale yolum. - Bakı, 1999.
**Fatma Həsənqızı**. Məhluqə Sadıqova. - Bakı, İşıq, 1981.
**Hüseyn Ərəblinski** (aktyorun həyat və yaradıcılığına da-ir sənədlər məcmuəsi). Tərtibçi Qulam Məmmədli. - Bam, Azərnəşr, 1967.
**H. Cümşüdlü**. Mirmahmud kazıiovski. - Bakı, Azərnəşr, 1972.
**İlham Rəhimli**. Aktyora oxşamyan adam. - Bakı, Gü-nəş, 2000.
**İlham Rəhinüi**. Aktyor ömrünün dolaylan. - Bam, İsınayal, 1998.
**İlham Rəhimli**. Ağasadıq Gəraybəyli. - Bara, İşıq, 1979.
**İlham Rəhimli**. Həzin ömrün nağılı. - Bakı, Çaşıoğlü, 2004.
**İlham Rəhimli**. Kəsişən paralellər. - Bakı, Çaşıoğlu, 2004.
**İlham Rəhimü**. Səhnəmizin fədailəri. - Bakı, Qapp-Poliqraf, 2002.
**İlham Rəhimli**. Sənətdə keçən ömür. — Bakı, Gənclik, 1990.
**İlham Rəhimli**. Sənət vurğunu. - Bakı, Bilik, 1978.
**İlham Rəhimli**. Səyavuş Aslan. - Bakı, İşıq, 1985.
**Qeybulla Rəsulov və Mustafa Mərdanov**. İsmayıl Dağıstanlı. - Bakı, ATC, 1957.
**Qənimət Əlisaoğlu.** Ömrün zirvəsi. - Bakı, Araz, 2000.
**Qubad Qasımov**. Hüseynqulu Sarabski (həyat və yaradı-cıhğı). - Bakı, Elm, 1980.
**Leyla Şıxlinskaya**. Şahzadələr yuxuma girir. - Bakı, "Azərbaycan", 1997 (rus dilində).
**Mahmud Allahverdiyev**. Ələsgər Ələkbərov. - Bakı, Elm, 1972.
**Mahmud Allahverdiyev**. Mirzağa Əliyev. - Bakı, İşıq, 1988.
**Mehdi Məmmədov**. Aleksandr Tuqanov. - Bakı, Azərnəşr, 1971 (rus dilində).
**Mehdi Məmmədov**. Hüseyn Ərəblinski. - Bakı, Azərnəşr, 1973.
**Mehdi Məmmədov**. Onun sənət ulduzu. - Bakı, İşıq, 1983.

**Məmməd Cəfər Cəfərov**. Sidqi Ruhulla. - BəkI, Azənəşr, 1956.
**Məmmədşah Atayev.** Həsənağa Salayev. - Bakı, Azərnəşr, 1974.
**Nailə Rəhimbəyli**. Sənətdə ömür. - Bakı, Adiloğlu, 2002 (rus dilində).
**Nizaməddin Şəmsizadə**. Hıçqıran gülüşlər. - Bakı, Ozan, 2002.
**Rafiq Atakişiyev**. Dialoqlar... Monoloqlar... Portret cizgi-ləri. - Bakı, "Azərbaycan", 1997.
**Rafiq Səməndər**. İlham Namiq Kamal. - Bakı, Azərbaycan, 1998.
**Rafiq Səməndər**. Ömrün 60 pərdəsi. - Bakı, Bayatı, 1995.
**Rəhilə Soltanqızı**. Bir ömürlük xatirə və ya... - Bakı, ATIN, 1997.
**Rəşid Qazıbəyov** və Cəlil Vəzirov. İbrahim Həmzəyev. - Bakı, İşıq, 1982.
**Sabit Rəhman**. Hüseyn Ərəblinski. - Bakı, Azərnəşr, 1949.
**Sevda Əlibəyli**. Tanrısı haqq olan aşiq. - Bakı, Adiloğ-lu, 2004.
**Solmina Dadaşova.** Rejissor Soltan Dadaşovun yaradıcı-lıq yolu. - Bakı, Gənclik, 1995 (rus dilində).
**Soltan Dadaşov**. Xalq artisti Hüseynağa Hacıbababəyov. - Bakı, ATC, 1958.
**Tələt Əyyubov**. Mərziyə Davudova. - Bakı, ATC, 1961.
**Tofiq Abdin**. Bəşir Səfəroğlu. - Bakı, İşıq, 1986.
**Tofiq Kazımov**. Kazım Ziya. - Bakı, Azərnəşr, 1968.
**Tofiq Kazımov**. İsmayıl Osmanlı. - Bakı, ATC, 1974.
**Tofiq Kazımov**. Məmmədəli Vəlixanlı. - Bakı, ATC, 1961.
**Ülvi Vahidoğlu**. Aktyorun tale ləpirləri. - BəkI, Tural-Ə, 2001.
**Zəfər Nemətov və Tofiq Kazımov**. Əliağa Ağayev. - Ba-kI, İşıq, 1978.
**Zarema İsgəndərova və E.kamenetskaya**. - Bakı, İşıq, 1970 (rus dilində).

**Sənətkarların xatirələri**

Abbasmirzə Şərifzadə haqqında xatirələr. - Bakı, ATC, 1963.
**Aleksandr Tuqanov.** Teatr xatirələri. - Bakı,Yazıçı, 1980.
**Barat Şəkinskaya**. Xatirələrim. - Bakı, İşıq, 1986.
**Əli Zeynalov**. İki ömrüm olsaydı... - Bakı, Azərnəşr, 1973.
**Hacıağa Abbasov**. Xatirələrim. - Bakı, Azərnəşr, 1973.
**Hüseynqulu Sarabsıd**. Bir aktyorun xatirələri. - Bakı, 1930.
**Leyla Bədirbəyli**. Ömrümün nağılları. - Bakı, Gənclik, 1998.
**Mirzağa Əliyev**. Xatirələrim. - Bakı, Azərnəşr, 1974.
**Mustafa Mərdanov**. 60 il Azərbaycan səhnəsində. - Bakı, Uşaqgəncnəşr, 1959.
**Mustafa Mərdanov**. Müasirlərim. - Bakı, Azərnəşr, 1973.
**Mustafa Mərdanov**. Xatirələrim. - Bakı, Azərnəşr, 1964.
Səhnə andı (Hüseyn Ərəblinski haqqında xatirələr). - BəkI, Yazıçı, 1982.

**Kitabın içindəkilər**

1. Milli "oyun" mədəniyyəti
2. Xalq oyun-tamaşaları
3. Oyun-tamaşalarda obrazlar və maskalar
4. Meydan oyunçuları
5. Meydan tamaşalarının hazırlanması və göstərilmə məkanı ....
6. "Kilimarası": Bəbək, ipdəoyuq, kosagəlin
7. Şəbih tamaşalarının əsas səciyyələri
8. Şəbih tamaşalarının hazırlanması

9. Mirzə Fətəli Axundzadə
10. Peşəkar teatrın təşəkkülü
11. Nəcəf bəy Vəzirov
12. Peşəkarlığa keçidin yeni mərhələsi (1886 - 1896)
13. Cəlil Məmmədquluzadə
14. Əbdürrəhim bəy Haqverdiyev
15. Nəriman Nərimanov
16. İlk teatr truppaları (1897 - 1905)
17. Dramaturgiyada kütləvilik və bədii axtarışlar (1890 - 1920)
18. "Nicat" teatr truppası
19. "Səfa" teatr truppası
20. "Müdiriyyət" teatr truppası
21. Truppaların yaranmasının əsas amilləri (1916 - 1919)
22. İlk peşəkar aktyorlar. Birinci dərs
23. İlk peşəkar aktyorlar. İkinci dərs
24. Cahangir Zeynalov
25. Hüseyn Ərəblinski
26. Teatr tamaşalarının göstərilmə məkanı (1873 - 1919)
27. Teatrın təsisatlı mədəniyyətin faktına çevrilməsi (1919 - 1920)
28. Milli Dram Teatrının müxtəlif adları
29. Hüseyn Cavid
30. Cəfər Cabbarlı
31. Milli Dram Teatrı (1921 - 1931)
32. Milli Dram Teatrında rejissor sənətinin təkamülü (1920 -1939) ,
33. Aleksandr Tuqanov
34. Milli Dram Teatrı (1931 - 1937)
35. Milli Dram Teatrında aktyor yaradıcılığı (1910 - 1940). Birinci dərs
36. Milli Dram Teatrında aktyor yarapdıcıhğı (1910 - 1940). İkinci dərs
37. Abbasmirzə Şərifzadə
38. Ülvi Rəcəb
39. Milli Dram Teatrı (1938 - 1960)
40. Ədil İsgəndərov
41. Milli Dram Teatrında aktyor yaradıcılığı (1925 -1965). Birinci dərs
42. Milli Dram Teatrında aktyor yaradıcılığı (1925 - 1965). İkinci dəvs
43. Milli Dram Teatrında aktyor yaradıcılığı (1925 - 1965). Üçüncü dərs
44. Mirzağa Əliyev
45. Sidqi Ruhulla
46. Mərziyə Davudova
47. Milli Dram Teatrının rejissor sənətində üslub axtarışları
48. Akademik Milli Dram Teatrı (1960 - 1985)
49. Ələsgər Şərifov
50. Mehdi Məmmədov
51. Tofiq Kazımov
52. Milli Dram Teatrında aktyor yaradıcılıgı (1930 -1970). Birinci dərs
53. Milli Dram Teatrında aktyor yaradıcılığı (1930 - 1970). İkinci dərs
54. Ələsgər Ələkbəroy
55. Milli Dram Teatrında aktyor yaradıcılığı (1935 - 1985). Birinci dərs
56. Milli Dram Teatrında aktyor yaradıcılığı (1935 - 1985).İkinci dərs

57. Hökümə Qurbanova
58. İlyas Əfəndiyev
59. Akademik Milli Dram Teatrında aktyor yaradıcılığı (1960 - 2004). Birinci dərs
60. Akademik Milli Dram Teatrında aktyor yaradıcılığı (1960 - 2004). İkinci dərs
61. Akademik Milli Dram Teatrında aktyor yaradıcılığı (1960-2004)
62. Həsən Turabov
63. Akademik Mill Dram Teatrı (1985 -2004)
64. AMDT-nin rejissor yaradıcılığında forma və üslub axtarışları (1980 -2004)
65. Tiflis Azərbaycan Teatrı
66. Tiflis Azərbaycan Teatrında aktyor və rejissor yaradıcılığı. Birinci dərs
67. Tiflis Azərbaycan Teatrında aktyor və rejissor yaradıcüğı. İkinci dərs
68. Tiflis Azərbaycan Teatrında aktyor və rejissor yaradıcılığı. Üçüncü dərs
69. İbrahim İsfahanlı
70. Naxçıvan Dövlət Musiqili Dram Teatrı
71. Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor yaradıcılığı. Birinci dərs
72. Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor yaradıcılığı. İkinci dərs
73. Naxçıvan Dövlət Musiqili Dram Teatrında rejissor sənəti
74. İbrahim Həmzəyev
75. Zəroş Həmzəyeva
76. İrəvan Dövlət Azərbaycan Dram Teatrı (1880 - 1949) Birinci dərs
77. İrəvan Dövlət Azərbaycan Dram Teatrı (1967 - 2004) İkinci dərs
78. İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyor yaradıcılığı
79. Yunis Nuri
80. Aşqabad Dövlət Azərbaycan Teatrı
81. Aşqabad teatrında aktyor və rejissor yaradıcılığı
82. Təbriz teatrı
83. Milli operamn təşəkkülü və inkişaf mərhələsi (1908 -1925)
84. Üzeyir bəy Hacıbəyov
85. Azərbaycan Dövlət Opera və Balet Teatrı (1925 - 1937)
86. Hüseynqulu Sarabski
87. Fatma Muxtarova
88. Şövkət Məmmədova
89. Azərbaycan Dövlət Opera və Balet Teatrı (1938 - 1970)
90. Muğam və vokal opera ifaçıları (1908 - 1975). Birinci dərs
91. Muğam və vokal opera ifaçıları (1908 - 1975). İkinci dərs
92. Həqiqət Rzayeva
93. Milli balet sənətinin təşəkkülü və əsas yaradıcılıq mərhələləri -
94. Qəmər Almaszadə
95. Leyla Vəkilova
96. Maqsud Məmmədov və Rəfiqə Axundova
97. Muğam opera ifaçıları (1930 - 1980)
98. Azərbaycan Dövlət Opera və Balet Teatn (1971 - 2004)
99. Vokal opera ifaçıları (1950 -2004). Birinci dərs
100. Vokal opera ifaçıları (1950 -2004). İkinci dərs
101. Lütfiyar İmanov
102. Firəngiz Əhmədova
103. Balet ifaçıhğı (1965 -2004)
104. Opera və Balet Teatrında rejissor sənəti (1925 - 2004)
105. Soltan Dadaşov

106. Opera və Balet Teatrında dirijorluq sənəti
107. Milli operetta janrının təşəkkülü
108. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı.(1938 -1949)
109. Azərbaycan Dövlət Musiqili Komediya Teatrı.(1956 -2004)
110. Musiqili Komediya Teatrında aktyor yaradıcılığı. Birinci dərs
111. Musiqili Komediya Teatrında aktyor yaradıcılığı. İkinci dərs
112. Azərbaycan Dövlət Musiqili Komediya Teatrında rejissor sənəti
113. Şəmsi Bədəlbəyli
114. Lütfəli Abdullayev
115. Nəsibə Zeynalova
116. Bəşir Səfəroğlu
117. Azərbaycan Dövlət Rus Dram Teatrı
118. Bam Türk İşçi Teatrı
120. Gəncə Dövlət Dram Teatrında aktyor yaradıcılığı.Birinci dərs
121. Gəncə Dövlət Dram Teatrında aktyor yaradıcılığı. İkinci dərs
122. Gəncə Dövlət Dram Teatrında aktyor yradıcılığı. Üçüncü dərs
123. İsmayıl Talıblı
124. Əşrəf Yusifzadə
125. Rəmziyyə Veysəlova
126. Gəncə Dövlət Dram Teatrında rejissor sənəti
127. Gənc Tamaşaçılar Teatrı
128. Gənc Tamaşaçılar Teatrında aktyor yaradıcılığı.Birinci dərs
129. Gənc Tamaşaçılar Teatrında aktyor yaradıcılığı. İkinci dərs
130. Yusif Vəliyev
131. Firəngiz Şərifova
132. Gənc Tamaşaçılar Teatrında rejissor sənəti
133. Zəfər Nemətov
134. Azərbaycan Dövlət Kukla Teatrı
135. Kolxoz və Sovxoz Teatrı
136. Aktyor məntəbləri
137. Milli səhnəqrafiyamn inkişaf mərhələləri
138. Səhnəqrafiyada forma axtarışları. Birinci dərs
139. Səhnəqrafiyada forma axtarışları. İkinci dərs
140. Rüstəm Mustafayev
141. Teatr tamaşası və musiqi
142. Teatrşünaslığın formalaşma mərhələləri
143. Teatrşünaslığın elmi peşəkarlıq dövrü
144. Azərbaycanın çağdaş teatr məkanı
145. Kitabda ixtisarla verilmiş adlar
146. Tövsiyə olunan ədəbiyyat

**Bu kitabın çapına köməklik göstərdiyi üçün**
**milli ineəsənətimizin qayğikeşi**
**Şahbaz Əli oğlu Süleymanova**
**müəllif öz dərin və səmimi**
**təşəkKürünü bildirir.**

**İlham Rəhimli**
**AZƏRBAYCAN**

# TEATR TARİXİ

## Dərslik